


downloaded from KitabYurdu.az

**CƏMİL HƏSƏNLİ**

# SSRİ-TÜRKİYƏ: SOYUQ MÜHARİBƏNİN SINAQ MEYDANI

"Adiloğlu" nəşriyyatı
Bakı-2005

Az
H59
Elmi redaktor: Prof. Dr. **Süleyman Əliyarlı**,
Əməkdar Elm Xadimi, Türk
Tarix Kurumunun Fəxri üzvü

Rəyçi: tarix elmləri namizədi,
dosent **Məmməd Fətəliyev**

**H 59** C.P.Həsənli. SSRİ-Türkiyə: soyuq müharibənin sınaq meydanı.
*Bakı, "Adiloğlu " nəşriyyatı - 2005, 544 səh, (16 şəkil*)

Tarix elmləri doktoru, prof. C.Həsənlinin oxuculara təqdim edilən "SSRİ-Türkiyə: soyuq müharibənin sınaq meydanı" monoqrafiyası müəllifin Yaxın və Orta Şərqdə soyuq müharibəyə həsr edilmiş ikinci araşdırmasıdır. Monoqrafiyada 1939-1953-cü illərdə Sovet-Türkiyə münasibətlərinin keçdiyi tarixi yol, onun həlledici mərhələləri və dönüş məqamları tədqiq edilmişdir. Yeni açıqlanan arxiv sənədlərinə istinadən müəllif soyuq müharibənin Türkiyə böhranının, İ.Stalinin fitvası ilə Ermənistan və Gürcüstan Sovet respublikalarının bu prosesdə fəal iştirakının, habelə Güney Qafqaz respublikaları arasında başlanmış əsəb savaşının maraqlı tarixi mənzərəsmi yaratmışdır. Rusiya, ABŞ, Türkiyə, Azərbaycan, Gürcüstan və Ermənistandakı məxfi sənədlərdən istifadə edərək müəllif göstərir ki, SSRİ siyasi texnologiyaları dost və sülhsevər Türkiyədən məharətlə düşmən obrazı yaradaraq onu, milyonlarla Sovet vətəndaşının beyninə yeridə bilmişdi.

Kitab beynəlxalq münasibətlər tarixi ilə məşğul olan mütəxəssislər, bu ixtisas üzrə təhsil alan tələbələr və yaxın keçmişin tarixi ilə maraqlanan geniş oxucu dairəsi üçün nəzərdə tutulur.

ISBN 9952-25-013-4

$$H \frac{0514224124}{121-2005} \text{ sifarişlə}$$

© C.Həsənli

# GİRİŞ

İkinci Dünya müharibəsinin başa çatmasından altmış illik bir dövr keçib. Bu gün mübaliğəsiz demək olar ki, soyuq müharibə bəşəriyyətin son altmış illik tarixinin ən mühüm hadisəsidir. Dünyanın müharibədən sonrakı tarixinə diqqət yetirilsə görərik ki, böyük qələbədən bizi ayıran altmış ilin qırx beş ili məhz soyuq müharibə erası kimi tarixə daxil olub.

Dünya sosializm sisteminin böhranı və Sovet İttifaqının dağılmasından sonra soyuq müharibə tarixinə böyük maraq yaranmışdır. Bir vaxtlar eyni ideoloji zəmində, eyni qəlibdən çıxan və daha çox bir-birini təkrar edən kitablar və elmi araşdırmalar, indi soyuq müharibənin canlı tarixini özündə əks etdirən, maraqlı araşdırmalarla əvəz olunmaqdadır. Son illərdə ABŞ-da, Avropa ölkələrində və Rusiyada soyuq müharibə tarixini araşdıran yeni elmi mərkəzlərin yaranması heç şübhəsiz ki, dövriyyəyə yeni daxil edilən, dövrün reallıqlarını özündə yaşadan arxiv sənədlərinin açılması, SSRİ-nin süqutundan sonra köhnə ideoloji stereotiplərin dağılması ilə bağlıdır. 90-cı illərin əvvəllərindən başlayaraq ardıcıl formada keçirilən beynəlxalq konfranslar, aparılan elmi müzakirələr soyuq müharibə tarixinin bir sıra yeni məqamlarını meydana çıxarmış və problemin nəzəri əsaslarının ümumiləşdirilməsi ilə müşayiət olunmuşdur. Tam əsasla demək olar ki, son illərdə soyuq müharibə tarixi ilə bağlı fundamental araşdırmaların meydana çıxması İkinci Dünya müharibəsindən sonra beynəlxalq münasibətlərin, Sovet-Amerika qarşıdurmasının, Qərb-Şərq ziddiyyətlərinin bir sıra qaranlıq məqamlarına aydınlıq gətirmişdir. Son on ildə Rusiya tarix elmində bu istiqamətdə əldə edilən uğurlar xüsusi şəkildə qeyd edilməlidir. Şübhəsiz ki, bu bir tərəfdən rus tarixçilik məktəbinin dərin elmi potensialı ilə bağlıdırsa, digər tərəfdən soyuq müharibə tarixinə yeni baxış formalaşdıra biləcək qədər əhəmiyyətli olan Sovet arxiv sənədlərinin öyrənilməsi və rus tarixçiliyinin bu prosesdə ilk araşdırıcı missiyasını yerinə yetirməsi ilə izah olunmalıdır.

Soyuq müharibə tarixinə aid tədqiqat işlərinin nəzərdən keçirilməsi son illərin elmi araşdırmalarının daha çox "Avropa böhranı" üzərində qurulduğunu təsdiq edir. Əlbəttə, bu soyuq müharibənin sonrakı mərhələsində Avropa böhranının aparıcı istiqamətə çevrilməsi, Qərb-Şərq qarşıdurmasının səngərlərinin Avropadan keçməsi, Sovet-Amerika hərbi arsenalının Avropada qarşı-qarşıya dayanması və xüsusilə soyuq müharibəni stimullaşdıran hərbi blokların Avropada yaranması ilə bağlı idi. Ona görə də soyuq müharibənin başlıca sərhədlərinin Avropadan

keçdiyi, soyuq müharibənin əsas səngərlərinin Avropada qurulduğu tarixin artıq təsdiq olunmuş hadisəsidir.

Ötən əsrin 90-cı illərində "Avropa böhranı"nın önə çəkilməsi soyuq müharibənin ilk illərində Sovet təsir dairəsinə düşmüş və Qərb-Şərq qarşıdurmasını qırx ildən artıq öz taleyində yaşatmış Şərqi Avropada və Balkanlarda sosializmin çökməsinin doğurduğu eyforik dalğanın bilavasitə nəticəsi idi. SSRİ-nin dağılması və birqütblü dünyanın formalaşdığı dövrdə soyuq müharibə problemlərini araşdıran ilk mərkəzlərin ABŞ, Qərbi Avropa və Rusiyada yaranması bu istiqamətdə Avropa mərkəzçiliyinin formalaşmasında mühüm rol oynadı. Bu isə bir növ soyuq müharibənin daha çox başlanğıc mərhəbsinə düşən Yaxın və Orta Şərq hadisələrinin unudulmasına, Uzaq Şərq və Hind-Çin səhifələrinin diqqətdən kənarda qalmasına gətirib çıxarmışdı. Lakin son illərdə bu istiqamətdə ciddi dəyişikliklər baş vermiş, soyuq müharibənin coğrafiyasının genişləndiyini şərtləndirən tədqiqat işləri meydana çıxmışdır. Bütün bunlar soyuq müharibə tarixinə daha geniş miqyasda yanaşmağa, problemin tam mənzərəsmi yaratmağa imkan vermiş, müharibədən sonrakı dünyanın bu mühüm hadisəsinə münasibətdə konseptual baxışlar sisteminin formalaşmasına gətirib çıxarmışdır.

Soyuq müharibə tarixi ilə bağlı son illərdə aparılan müzakirələrin mühüm cəhətlərindən biri bu eranın başlanması və onun dövrləşdirilməsi ilə bağlıdır. Bir sıra müzakirələrdə və elmi araşdırmalarda soyuq müharibənin 40-cı illərin sonunda Berlin hadisələri ilə əlaqədar Şərqi Avropada siyasi proseslərin ideoloji ayrıtılarla başa çatdığı dövrdə meydana gəldiyi göstərilir. Soyuq müharibə erasının başlanmasının belə interpretasiyası daha çox müharibədən sonrakı ilk illərdə Şərqi Avropada və Balkanlarda gedən proseslərin müttəfiqlər arasında razılaşdırılmış addımlar təsiri bağışlaması ilə bağlı idi. Bu ərazidə tərəflər nüfuz dairəsmi bir növ hələ dost olarkən müəyyən etdiklərindən Şərqi Avropa və Balkanlarda hadisələr ilk dövrlərdə qarşıdurma görüntüsü yaratmırdı. Soyuq müharibənin başlanmasının daha çox Avropa mərkəzçiliyi üzərində qurulmuş "yubanmış tarixi" ilk növbədə bununla bağlı idi.

Bununla yanaşı, həm ABŞ-da və həm də Rusiyada bir sıra alimlər soyuq müharibənin daha erkən, 1917-ci ilin rus inqilabı və Vilson dövründən başlandığı fikrini irəli sürürlər. Lakin soyuq müharibəyə tarixi bir era kimi yanaşılması, onun məzmun və mahiyyətinin araşdırılması bu tarixi eranın məhz İkinci Dünya müharibəsindən sonrakı dövrün xüsusi hadisəsi olduğunu təsdiq edir. Soyuq müharibənin başlanması ilə bağlı irəli sürülən bütün fikir və mülahizələrə hörmətlə yanaşmaqla bərabər, onun müttəfiqlər arasında razılaşdırılmamış bir ərazidən və razılaşdırılmamış məsələlərdən başlandığını daha real hesab etmək olar. Fikrimizcə bu proses 1945-ci ilin payızında müttəfiqlər

arasında ilk qarşıdurma meydanına çevrilmiş İran Azərbaycan hadisələri və Türkiyəyə qarşı elan olunmuş Sovet tələblərinin beynəlxalq aləmdə doğurduğu kəskin reaksiya ilə start götürdü. Yeni açıqlanan sənəd və materialların araşdırılması İran Azərbaycanı və Türkiyənin müttəfiqlər arasında qarşıdurmanın, o dövrdə deyildiyi kimi əsəb müharibəsinin, az sonra isə soyuq müharibə kimi dəyərləndirilən hadisələrin ilk sınaq meydanına çevrildiyini təsdiq edir. Məhz bu hadisələrə münasibətdə Avropadan daha öncə müharibə dövrünün əməkdaşlığına son qoyuldu, müttəfiqlər arasındakı əməkdaşlıq müharibədən sonrakı dövrün qarşıdurması ilə əvəzlənməyə başladı.

Avropada müharibə sona çatan kimi, 1945-ci ilin iyun ayının 10-da "İranın şimalında Sovet sənaye müəssisələrinin təşkil edilməsi haqqında" SSRİ Xalq Komissarları Sovetinin, iyunun 21-də "İranın şimalında neftlər bağlı geoloji-kəşfiyyat işləri haqqında" Dövlət Müdafiə Komitəsinin, iyulun 6-da "Cənubi Azərbaycanda və İranın şimalının digər vilayətlərində separatist hərəkatın təşkili üzrə tədbirlər haqqında" ÜİK(b)P MK-nın Siyasi Bürosunun qəbul etdiyi gizli qərarlar Sovet İttifaqının eks-pansionist niyyətlərinin ciddiliyindən, müttəfiqlərlə qarşıdurmaya getməyə qərarlı olduğundan xəbər verirdi. Hər üç gizli qərarı müvafiq orqanların rəhbəri kimi bilavasitə İ.Stalin imzalamışdı.

İran Azərbaycanı ilə eyni vaxtda SSRİ 1945-ci ilin iyun-avqust aylarında Türkiyə ilə bağlı tələblərini formalaşdırdı və elan etdi. İyun ayının 7-də Türkiyənin Moskvadakı səfiri S.Sarperi qəbul edən SSRİ xarici işlər komissarı V.Molotov Sovetlərin Türkiyənin şərq vilayətlərinə ərazi iddiasını, Boğazlarda hərbi baza yaratmaq, Bosfor və Dardanell boğazlarına birgə nəzarət etmək tələblərini irəli sürdü. Avqust ayının 18-də isə SSRİ Xarici İşlər Komissarlığı nəinki Türkiyədən alınacaq ərazinin sahəsini müəyyən etdi, eyni zamanda həmin ərazilərin Ermənistan və Gürcüstan Sovet respublikaları arasında bölüşdürülməsini "rəsmiləşdirdi". Almaniya üzərində tarixi qələbənin eyforik təsiri altında olan Sovet rəhbərliyi yeni alınacaq ərazilərdə kommunist partiyasının yerli komitələrini yaratmaq və həmin komitələrə göstərilən namizədləri təsdiq etməkdən belə çəkinmədi. Sovetlərin hesablamalarına görə bu aksiya həyata keçirildikdən sonra Sovet Ermənistanının ərazisi əvvəlki ilə müqayisədə 80 faiz, Sovet Gürcüstanının ərazisi isə 8 faiz artmalı idi.

Türkiyəyə qarşı irəli sürülən Sovet tələbləri müttəfiqlər tərəfindən təəccübb qarşılandı. Potsdam konfransı ərəfəsində V.Molotovla görüşən Britaniya xarici işlər naziri A.İden qeyd etdi ki, onlar əvvəllər heç vaxt Sovet İttifaqının Türkiyəyə ərazi iddiası olduğunu eşitməyiblər.

Beləliklə, əməkdaşlıqdan qarşıdurmaya keçidin başlanğıcı kimi səciyyələnən İran Azərbaycanı və Türkiyə böhranları nəinki soyuq

müharibənin harada başlanması sualına cavab verir, eyni zamanda onun kim tərəfindən başlanması kimi zəruri bir məsələyə də aydınlıq gətirir.

Yeni açıqlanan arxiv sənədlərinin araşdırılması soyuq müharibənin ilk hadisəsi sayılan Türkiyə böhranının baş memarının məhz İ.Stalin olduğunu təsdiq edir. Sovet İttifaqının Almaniya üzərindəki qələbədə böyük rolu onun bir tərəfdən müharibədən sonrakı dövrdə dünyanın taleyinə təsir göstərmək imkanına malik olan qüdrətli dövlətə çevrilməsini şərtləndirirdisə, digər tərəfdən həmin qüdrətli dövlətin başçısı kimi İ.Stalinin xalqların taleyinin həll edilməsində neqativ təsirinin artmasına rəvac verirdi. Müharibədən sonrakı ilk illərdə SSRİ-nin xarici siyasəti bəzi məqamlarda güclü görsənən, lakin daha çox primitiv xarakter daşıyan Stalin intriqalarının başlıca alətinə çevrilmişdi. 30-cu illərlə müqayisədə müharibədən sonrakı illərdə Sovet repressiyalarının bir qədər səngiməsi Stalinin vaxtilə ölkənin daxilində apardığı oyun qaydalarını indi ölkənin xaricinə keçirməsi, qonşu dövlətlərə qarşı repressiv metodların güclənməsi ilə bağlı idi. Soyuq müharibənin başlanmasında Stalinin daha çox SSRİ xarici siyasətində təzahür edən intriqaları Sovetlərin sərhədlərini genişləndirmək doktrinasının çıxış nöqtəsini təşkil edirdi.

Bu "genişlənmə doktrinası" Şərqi Avropada proseslər başlanmazdan daha əvvəl Türkiyəyə münasibətdə özünü qabarıq şəkildə göstərirdi. Müharibədən qalib çıxmış ölkənin xarici işlər komissarı kimi V.Molotov çox açıq şəkildə digər bir ölkənin səfirini dəvət edib ondan torpaq tələb edir, Türkiyənin ərazisi sayılan Boğazlarda Sovet bazaları yaradılması tələbini irəli sürür və Türkiyə üçün suverenlik məsələsi olan Bosfor və Dardanellə birgə nəzarat iddiasını ortaya qoyurdu. Sonralar V.Molotov bu göstərişlərin İ.Stalin tərəfindən verildiyini və bunların real olmadığını etiraf edirdi. Bu etiraflara baxmayaraq İ.Stalin intriqalarının nəticəsi kimi Türkiyənin simasında yaradılmış "düşmən obrazı" soyuq müharibənin sonuna kimi davam etdi. SSRİ dağıldıqdan sonra yeni açıqlanan arxiv sənədlərinin işığında bir sıra tanınmış rus alimləri Türkiyəyə münasibətdə yaradılmış "düşmən obrazının" dağıdılmasında mühüm rol oynasalar da, İ.Stalin təkəbbürlərinin nəticəsi kimi uzun müddət ölkələrin münasibətlərinə ciddi zərbə vurmuş bu zərərli yanaşma hələ də bəzi araşdırmalarda müşahidə edilməkdədir. Hətta Rusiyada yaranan müasir bədii sənət əsərlərində elə bir nümunə tapa bilmərik ki, orada türklər, yaxud Türkiyə müsbət emosiyalar yaratsın.

Sənəd və materialların araşdırılması müharibədən sonrakı ilk illərdə SSRİ-nin Yaxın Şərq siyasətində Türkiyənin mühüm yer tutduğunu təsdiq edir. Bu baxımdan soyuq müharibənin sınaq meydanına çevrilmiş Türkiyəyə münasibətdə Sovetlərin yeritdiyi ekspansionist siyasət onun Yaxın Şərq və Aralıq dənizində genişlənmək arzularının başlanğıcı, müharibədən sonra Britaniyanın iştirakı ilə Sovet-Amerika qarşıdurmasının ilk mübarizə meydanı idi.

Xronoloji baxımdan bu monoqrafiya Sovet-Türkiyə münasibətlərinin 30-cu illərin sonundan başlayaraq 1953-cü ilə qədərki dövrünü əhatə edir. Osmanlı imperatorluğu ilə çar Rusiyasının, SSRİ ilə Türkiyənin bütövlükdə 500 ildən artıq olan münasibətləri fonunda öyrənilən xronoloji çərçivə ilk baxışda qısa görünə bilər. Lakin iki ölkənin münasibətlərində müharibə və xüsusilə ondan sonrakı dövrdə baş verən hadisələr öz siyasi məzmununa, beynəlxalq münasibətlərdə yerinə, soyuq müharibə erasının başlanmasında roluna, özündən sonrakı dövrlərə göstərdiyi təsirə görə Sovet-Türkiyə münasibətlərində əhəmiyyətli yer tutur.

Birinci Dünya müharibəsindən sonra Sovet Rusiyası ilə Türkiyə arasında münasibətlərin bünövrəsmi Lenin və Atatürk qoymuşdular. Həmin dövrdə məğlub blokun içindən çıxan yeni Türkiyə ilə qalib Antantanın məğlub üzvü olan Rusiya arasında dostluq münasibətlərinin qurulması zamanın tələbi idi. Əlbəttə, bu münasibətlərin qurulmasında yaranmış beynəlxalq vəziyyətlə yanaşı, tərəflərin öz milli, ideoloji və sinfi maraqları da mühüm rol oynayırdı. Bütün Qərb ölkələrinə, qalib Atlantaya qarşı inqilabi mübarizəyə başlamış Türkiyə üçün Sovet Rusiyası ilə münasibətlər həyati əhəmiyyətə malik idi. Sovet Rusiyası isə Qərbdə sosialist inqilabının qələbəsinə ümidini itirdikdən sonra Şərqə üz çevirmişdi və Sovetlərin düşmənlərinə qarşı anti-imperialist müharibə aparan Türkiyəyə bolşevik eksperimentləri üçün əlverişli ölkə kimi baxırdı. Birinci Dünya müharibəsindən sonra hər iki ölkəni təhdid edən qalib ölkələrə qarşı mübarizədə maraqların eyniliyinə baxmayaraq Sovet Rusiyasının Mustafa Kamal paşanın simasında Türkiyə üçün bolşevik lideri hazırlamaq planları baş tutmadı. Antantaya qarşı mübarizədə sinfi maraqlara deyil, xalqın milli iradəsinə dayanan Atatürk Rusiya ilə yaxınlıq etsə də, bolşevik ideyalanın ölkəyə buraxmadı. Görünür, elə bunun nəticəsi idi ki, Sovet Rusiyasının xarici işlər komissarı G.Çiçerin İstanbulu azad edib kamalçılara deyil, daha sol türklərə verilməsini tövsiyə edirdi. Sovet Rusiyası ilə münasibətlərə ciddi əhəmiyyət verən Atatürk xarici siyasət məsələlərində Qərb orientasiyasına daha böyük maraq göstərirdi. Boğazlar məsələsinin müzakirə edildiyi Lozanna konfransında Türkiyənin Qərblə əməkdaşlıq siyasəti rəsmi kurs olaraq təsdiqləndi. Sovet Rusiyasının ciddi cəhdlərinə baxmayaraq Türkiyə Boğazlar məsələsində 1923-cü ildə Qərb ölkələrinə bir sıra güzəştlərə getməli oldu. Lakin Qərblə başlanan bu əməkdaşlıq 1936-cı ildə Montrye konfransında öz nəticələrini verdi. Türkiyə Lozannada itirdiklərini Montryedə geri qaytardı və Boğazlar üzərində tam nəzarətini, suveren hüquqlarını bərpa edə bildi. Bu, Atatürkün Qərbə yönəlik siyasətinin ən mühüm nəticəsi idi.

Birinci Dünya müharibəsindəki məğlubiyyətdən dərs alan Türkiyə İkinci Dünya müharibəsində son dərəcə ağıllı və ehtiyatlı bir siyasəti zərgər dəqiqliyi ilə həyata keçirə bildi. Ölkəni idarə edən siyasətçilər, türk diplomatiyası hər tərəfdən hərbi əməliyyatlarla əhatə olunmuş Türkiyəni müharibədən itkisiz çıxara bildilər. Bu, Türkiyənin xarici

siyasətinin mühüm uğuru idi. Böyük dövlətlər arasındakı ziddiyyətlərdən yararlanan Türkiyə İkinci Dünya müharibəsində neytral bir siyasətə üstünlük verdi. Lakin müttəfiqlərin, o cümlədən Sovet İttifaqı rəhbərliyinin də müharibənin ağır dövründə etiraf etdiyi kimi Türkiyənin neytrallığı müttəfiqlərin maraqlarına uyğun neytrallıq idi. Türkiyənin İkinci Dünya müharibəsi dövründə yeritdiyi siyasəti dəyərləndirən ABŞ alimi U.Bouen haqlı olaraq onu "tərəfli, fəqət savaşmayan ölkə" adlandırır.

Həyatının son illərində Atatürk öz varislərinə "şimaldan gələcək təhlükəyə qarşı diqqətli olunuz" deyə vəsiyyət etmişdi. Bu vəsiyyətin həyatiliyi çox keçmədi ki, öz təsdiqini tapdı. Türkiyəyə qarşı Sovet iddiaları dünya müharibəsinin ilk aylarında meydana çıxdı. 1939-1940-cı illərdə Türkiyəyə münasibətdə faşist Almaniyası ilə həyata keçirmək istədiklərini SSRİ sonralar müttəfiqlərlə birlikdə həyata keçirmək niyyətində idi. Lakin ABŞ və xüsusilə Ankara ilə müttəfiqlik münasibətlərində olan Böyük Britaniya buna getmədilər. Nəticədə Türkiyə Qərb-Şərq qarşıdurmasının ilk mübarizə meydanına çevrildi. Hələ 1944-cü ilin noyabrından SSRİ-də Boğazlara birgə nəzarətin bir sıra variantlarını özündə əks etdirən müxtəlif təkliflər hazırlanmağa başlandı. 1945-ci ilin martında iyirmi il qüvvədə olan dostluq və neytrallıq haqqında Sovet-Türk müqaviləsi ləğv edildi. Onun ardınca SSRİ-nin Türkiyənin ərazi bütövlüyü və suveren hüquqlarına qarşı yönəlmiş tələbləri irəli sürüldü. Bütün bunlar az sonra soyuq müharibənin Stalin dövrünü səciyyələndirən əsəb savaşının başlanmasına gətirib çıxardı. Oxuculara təqdim edilən bu monoqrafiyanın əsas süjeti də məhz həmin savaşın tüğyan etdiyi 1945-1953-cü illərin dramatik hadisələri üzərində qurulmuşdur.

Müharibə başa çatan kimi Sovet tələbləri ilə üzləşən Türkiyə soyuq müharibənin həyacanını, əsəb gərginliyini və xarici təhlükənin bütün qorxusunu yaşayan ilk ölkə oldu. Məhz bu qorxunun təsiri altında o, Böyük Britaniya təhlükəsizlik sisteminə, ABŞ-la sıx tərəfdaşlığa daha çox meyl etməyə başladı. Türkiyənin Trümen doktrinasının subyektinə çevrilməsi, Marşall planı üzrə yardımların alınmasına cəhd göstərməsi, müxtəlif regional bloklara can atması və nəticə etibarı ilə NATO-ya daxil olması Sovet təhdidinin bilavasitə yekunu idi. Bu problemi araşdıran zaman diplomatik yazışmalarda, gizli arayışlarda, dövlət başçıları və siyasi xadimlərin danışıqlarında "əsəb müharibəsi", güc nümayişi, hədə-qorxu ilə diz çökdürmək, təbliğat kompaniyası ilə psixoz vəziyyət yaratmaq, iqtisadi çətinliklər vasitəsi ilə ölkəni daxildən çökdürmək va s. ifadələrə tez-tez rast gəlmək olur. Bunlar məhz soyuq müharibənin arsenalına daxil olan mübarizə formaları idi.

Bütün bunlarla yanaşı, Türkiyə siyasi dairələrinin Sovet təhlükəsini mövcud olduğundan daha artıq dərəcədə şişirtməsi, bu təhlükənin yaratdığı "əlverişli şəraitdə" Qərbə siyasi və hərbi inteqrasiya prosesini

başa çatdırması, ABŞ rəsmilərinin Sovet təhdidi ilə üzləşmiş ölkələrin düşdüyü vəziyyətdən yararlanaraq Yaxın Şərqdə və Aralıq dənizi rayonunda möhkəmlənmək cəhdləri arxiv sənədlərindən hiss edilməkdədir.

Yeni açıqlanan arxiv materiallarının araşdırılması Ermənistan və Gürcüstan Sovet respublikalarının Türkiyəyə qarşı ərazi tələblərinin irəli sürülməsində və "əsaslandırılmasında" aktiv iştirakını təsdiq edir. Lakin bu iştirak həmin respublikaların özlərinin təşəbbüsü ilə deyil, bilavasitə Moskvanın və bəzi hallarda isə İ.Stalinin şəxsi göstərişlərinin nəticəsi kimi meydana çıxırdı. Bir qayda olaraq belə göstərişlər həmin dövrdə tərtib olunmuş sənədlərdə öz əksini tapmışdır.

Türkiyə ilə eyni vaxtda Ermənistan və Gürcüstan Sovet respublikalarının qonşu Azərbaycan SSR-ə qarşı ərazi iddiaları irəli sürməsi əsəb müharibəsinin Güney Qafqaz regionuna yayılması ilə müşayiət olunan ağrılı bir səhifəsi idi. Bilavasitə mərkəzdən qızışdırılan millətçilik, Stalin intriqalarının cazibə mərkəzinə çevrilən Güney Qafqazda min illər boyu yaşamış türk əhalisinin öz doğma yurdundan deportasiya edilməsi ilə nəticələndi. İkinci Dünya müharibəsinin sonunda Sovet-Türkiyə münasibətlərində yaranmış gərginlik Qafqazın və Krımın türk əhalisinin taleyində faciəli rol oynadı. 1944-cü ilin mayında Krım türklərinin sürgün edilməsi, elə həmin ilin iyulunda Gürcüstanın cənub rayonlarından türk əhalisinin deportasiyası haqqında Dövlət Müdafiə Komitəsinin verdiyi qərar müharibə zərurəti və hərbi əməliyyatlarla bağlı hadisələr deyildi. Bütün bunlar artıq əlamətləri hiss edilən Türkiyəyə qarşı təzyiq siyasətinə hazırlıq tədbirləri idi. Az sonra bu tədbirlər 100 min azərbaycanlının Ermənistandan deportasiya edilməsi, Qara dəniz sahillərinin, Güney Qafqazın bütövlükdə türklərdən təmizlənməsi haqqında İ.Stalinin imzaladığı qərarlarla tamamlandı. Türkiyəyə qarşı ərazi tələblərini "əsaslandırmaq" üçün İ.Stalin tərəfindən 1945-ci ilin yayında ortaya atılan xarici ermənilərin Sovet Ermənistanına repatriasiyası nəzərdə tutulan funksiyanı yerinə yetirə bilmədikdə, ölkə daxilində Güney Qafqazda əsəb savaşının növbəti dalğasını doğurdu.

Ən nəhayət, soyuq müharibənin Türkiyə böhranının araşdırması belə bir həqiqəti ortaya qoyur ki, hər hansı dövlətin ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığının, suverenliyinin və müstəqilliyinin ən böyük təminatı xalqın iradəsi, onun xarici təhlükəyə qarşı mübarizə əzmidir. Əgər ölkənin özünümüdafiə ruhu yoxdursa, bu halda beynəlxalq strukturların və xarici dövlətlərin köməyi elə bir ciddi effekt verə bilməz.

Bu monoqrafiyanın hazırlanmasında Rusiyada, Türkiyədə, ABŞ-da və digər ölkələrdə çıxan elmi ədəbiyyatın geniş dairəsindən istifadə edilmişdir. Ayrı-ayrı hadisələrin və proseslərin izahında bir sıra müəlliflərin əsərlərinə monoqrafiyanın fəsillərində münasibət bildirildiyindən ayrıca tarixşünaslıq icmalının verilməsinə ehtiyac duyulmur. Lakin qısaca

olaraq qeyd etmək olar ki, son illərdə soyuq müharibənin Yaxın Şərq epizodları və Türkiyə böhranı ilə bağlı Rusiyada nəşr edilmiş elmi araşdırmalarda ciddi yeniliklər müşahidə edilməkdədir.

Eyni zamanda monoqrafiya hazırlanarkən araşdırılan dövrdə Türkiyə Respublikasına başçılıq etmiş Mustafa Kamal Atatürkün, İ.İnönünün, C.Bayarın, müxtəlif vaxtlarda Baş nazir, Məclis başkanı və xarici işlər naziri vəzifələrində işləmiş R.Saydamın, Ş.Saracoğlunun, A.Rendanın, K.Karabekirin, R.Pekerin, H.Sakanın, Ş.Günaltayın, A.Menderesin, N.Sadakın, F.Köprülünün və digərlərinin çıxışlarına, müraciətlərinə və yazışmalarına, Türkiyə Böyük Millət Məclisinin tutanaklarına, tanınmış türk diplomatlarının xatirələrinə, Türkiyədə nəşr olunmuş elmi araşdırmalara və türk mətbuatının materiallarına diqqət yetirilmişdir.

Monoqrafiyanın mənbəşünaslıq bazasını son illərdə açıqlanan yeni arxiv sənədləri təşkil edir. Problemin ayrı-ayrı tərəflərini əhatə etmək üçün öyrənilən xronoloji çərçivə daxilində dövlət başçılarının, diplomatik idarələrin, hərbi və xüsusi xidmət orqanlarının yazışmalarından, çıxışlarından, məktublarından, arayış və raportlarından geniş istifadə edilmişdir. Monoqrafiya hazırlanarkən Ankaradakı Sovet səfirliyinin SSRİ Xarici İşlər Nazirliyinə göndərdiyi bir sıra mühüm gizli məlumatlardan və xüsusilə müntəzəm şəkildə hazırlanan aylıq mətbuat icmalından, SSRİ Xarici İşlər Nazirliyində Türkiyə ilə bağlı hazırlanan gizli arayışlardan, Sovet səfirliyinə Moskvadan verilən tapşırıq və tövsiyələrin mətnlərindən, ÜİK(b)P MK-nın Siyasi Bürosunda Türkiyə ilə bağlı müzakirə edilən sənədlərdən istifadə edilməsi Sovet-Türkiyə münasibətlərinin bir sıra məqamlarının, soyuq müharibənin ayrı-ayrı epizodlarının dəqiqləşdirilməsinə imkan vermişdir.

Bununla yanaşı elmi araşdırmada ABŞ-ın Yaxın Şərq siyasətini əhatə edən xarici siyasət sənədlərinə, diplomatik yazışmalara, Dövlət Departamentinin materiallarına, prezident H.Trümenin, öyrənilən dövrdə Dövlət katibi vəzifəsində çalışmış C.Birnsin, C.Marşallın və D.Açesonun məktub, məqalə, müsahibə və çıxışlarına, Ankaradakı Amerika səfirliyinin raportlarına müraciət edilmişdir.

Monoqrafiyanın hazırlanmasında Rusiya Dövlət Sosial Siyasi Tarix Arxivinin, Rusiya Federasiyası Xarici Siyasət Arxivinin, ABŞ Milli Təhlükəsizlik Arxivinin, Gürcüstan Prezidentinin Arxivinin, Azərbaycan Respublikası Dövlət Arxivinin, Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Mərkəzi Dövlət Arxivinin, Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Arxivinin və Ermənistan Respublikası Mərkəzi Dövlət İctimai-Siyasi Təşkilatların Sənədləri Arxivinin materiallarından istifadə edilmişdir. Mövzu ilə bağlı zəruri olan Ermənistan Respublikasının arxiv sənədləri ilə tanış olmağa, Rusiya Federasiyasının bir sıra arxivlərindən toplanmış materiallardan istifadə

etməyə şərait yaratdığına görə müəllif Corc Vaşinqton Universiteti yanında ABŞ Milli Təhlükəsizlik Arxivinin rəhbərliyinə, habelə materialların toplanınasında ona yardım göstərmiş bütün arxiv idarələrinin rəhbərliyinə və əməkdaşlarına öz dərin təşəkkürünü bildirir.

Müəllif bu araşdırmanın öyrənilən problemlə bağlı bütün məsələlərə tam aydınlıq gətirəcəyi fikrindən uzaqdır. Eyni zamanda problemin ayrı-ayrı tərəfləri ilə bağlı bütün sənəd və materialların dövriyyəyə gətirildiyi iddiasında deyildir. Onun fikrincə, bu günə qədər qapalı saxlanılan Türkiyə Respublikasının xarici siyasət sənədləri, Rusiya Federasiyasının müvafiq arxivlərinin bir sıra fondları açıldıqca Sovet-Türkiyə münasibətlərinin bəzi məqamlarına, soyuq müharibənin Yaxın Şərq hadisələrinə, Türkiyə böhranının qaranlıq tərəflərinə yenidən qayıtmaq lazım gələcəkdir. Bütün bunları nəzərə alaraq, müəllif soyuq müharibənin İran Azərbaycanı və Türkiyədən başlaması barədə fikir və mülahizələrini müzakirə üçün açıq hesab edir və bu istiqamətdə dəqiqləşdirmələr, nəzəri ümumiləşdirmələr aparılmasına, geniş müzakirələr keçirilməsinə ciddi ehtiyac olduğunu bildirir.

# I FƏSİL

## İkinci Dünya müharibəsi ərəfəsində Sovet-Türkiyə münasibətləri

İki dünya müharibəsi arasındakı dövrdə Sovet-Türkiyə münasibətlərinin maraqlı tarixi vardır. XX əsrin 20-ci illərində oxşar tarixi talelər yaşayan hər iki dövlət tədricən beynəlxalq münasibətlər sistemində öz yerlərini tutmuş, ikitərəfli əlaqələrdən geniş beynəlxalq əməkdaşlıq sisteminə doğru, təcrid olunmadan beynəlxalq təsdiqlənməyə doğru böyük tarixi yol keçmişdir. 30-cu illərin ortalarına qədər Sovet-Türk münasibətlərini bütövlükdə dostluq, hətta bəzi məqamlarda qardaşlıq münasibətləri kimi səciyyələndirmək olar. Belə ki, 15 noyabr 1944-cü ildə SSRİ Xalq xarici işlər komissarının müavini, müharibədən sonrakı quruculuq və sülh müqavilələrinin hazırlanması üzrə komissiyanın sədri M.Litvinov Sovet-Britaniya əməkdaşlığının mümkün bazası və perspektivləri haqqında hazırladığı geniş arayışda Yaxın Şərqdə Britaniya-Rusiya münasibətlərinin tarixinə geniş yer vermiş və qeyd etmişdi ki, 20-ci illərdə kamalçı hərəkatı müdafiə etdiyinə, ona hərtərəfli yardım göstərdiyinə görə Britaniya hökuməti dəfələrlə Sovetlərdən öz narazılığını ifadə etmişdi (1).

Sovet Rusiyası ilə Türkiyə arasında imzalanmış 1921-ci il 16 mart Moskva müqaviləsi, yenə həmin ildə Türkiyə ilə Azərbaycan, Ermənistan, Gürcüstan Sovet respublikaları arasında imzalanmış 13 oktyabr Qars müqaviləsi, Türkiyə ilə Ukrayna SSR arasında imzalanmış 21 yanvar 1922-ci il tarixli dostluq və qardaşlıq haqqında müqavilələr Sovetlərlə Türkiyə arasında münasibətlərin möhkəm bünövrəsmi qoymuşdu. Bu müqavilələrin məntiqi davamı kimi tərəflər arasında 1925-ci ilin 17 dekabrında neytrallıq, hücum etməmək və düşmən qruplaşmalarda iştirak etməmək barəsində Paris müqaviləsi imzalandı. Bu müqavilənin 2-ci bəndinə görə, tərəflər öz üzərlərinə öhdəlik götürürdülər ki, müqavilədə olan digər tərəfə qarşı heç bir dövlətlə və ya hər hansı üçüncü dövlətlər siyasi xarakterli sazişdə iştirak etməyəcəklər (2). Əgər tərəflərdən hər hansı biri 6 ay qabaqdan öz münasibətini bildirməzdisə, üç il müddətinə imzalanmış müqavilənin müddəti avtomatik olaraq daha bir il uzanırdı. 1929-cu ilin 17 dekabrında müqavilənin müddəti daha iki il, 1931-ci ilin 30 oktyabrında isə daha beş il müddətinə uzadıldı. Tərəflər arasında münasibətlərin geniş bir dairəsmi hüquqi cəhətdən tənzimləyən Paris müqaviləsinin vaxtı sonrakı əlavələrlə birlikdə 1935-ci ilin 7 noyabrında on il müddətinə uzadıldı. 1939-cu ilin 5 iyununda Ankarada SSRİ səfirliyi ilə Türkiyə Xarici İşlər Nazirliyi arasındakı notalar mübadiləsində göstərilirdi ki, 7 noyabr 1935-ci il protokolu 17 dekabr 1925-ci il tarixli

Paris müqaviləsi və ona əlavə olaraq imzalanmış 17 dekabr 1929-cu il Protokolu və 7 mart 1931-ci il tarixli Dəniz Protokolu ilə birlikdə daha on il müddətinə (7 noyabr 1945-ci ilə qədər) qüvvədədir.

Yuxarıda göstərilən siyasi müqavilə və sazişlərdən başqa arxiv sənədlərinin araşdırılmasından aydın olur ki, 1935-ci ilin oktyabrında Xalq Xarici İşlər Komissarlığı ilə Moskvadakı türk səfiri arasında "Centlmen sazişi" bağlamaq haqqında şifahi razılıq əldə olunmuşdu. Bu Saziş digər müqavilədə olan tərəfə qarşı yönəlmiş terroristlərin fəaliyyəti haqqında müntəzəm informasiya mübadiləsini özündə əks etdirməli idi (3).

Siyasi xarakterli müqavilə və sazişlərdən başqa tərəflər arasında iqtisadi, ticarət, maliyyə-kredit, sərhəd, nəqliyyat, sahil sularından istifadə, poçt-teleqraf, hərbi gəmilərin qarşılıqlı səfərləri və s. məsələləri əhatə edən bir sıra müqavilə, saziş və protokollar imzalanmışdı (4).

Türkiyə ilə Sovet İttifaqı arasında münasibətlərin geniş dairəsmi tənzim edən bu müqavilə və sazişlərlə yanaşı, Sovet tərəfi Türkiyədə gedən siyasi prosesləri diqqətlə izləyir və kamalçı hərəkat əleyhinə xüsusi xidmət orqanlarının məlumatlarını da həvəslə toplayırdı. Xırda istisnalarla bu fikri eyni ilə Türkiyəyə də şamil etmək olar. Qərbdə sosialist inqilabının qələbə çalacağına ümidini itirən rus bolşevikləri 20-ci illərdə daha çox Şərq ölkələrində bolşevizmin yayılacağına, İranda və Türkiyədə antiimperialist hərəkatın sosialist inqilabı ilə nəticələnəcəyinə ümid bəsləyirdilər. Mustafa Kamal paşanın simasında Türkiyədə "bolşevik lideri" yaratmaq əlbəttə ki, Sovetlərin planına daxil idi. Lakin Mustafa Kamal paşanı müdafiə etmək adı altında "onu həmişə öz təsirində saxlamaq" Sovetlərə nəsib olmadı (5). Hələ 20-ci illərin əvvəllərində kamalçılar belə qənaətə gəldilər ki, Sovet Rusiyası ilə ittifaq zəruri olsa da, təhlükəlidir. Onlar belə hesab edirdilər ki, kommunist quruluşuna rəğbət bəsləyən bütün müəssisələri, klubları və kitabxanaları tezliklə bağlamaq, Antanta ilə danışıqların, hətta Sovet Rusiyası ilə münasibətləri kəsmək lazım gələrsə belə, uğurla başa çatmasına nail olmaq lazımdır (6). Xüsusilə Kamal paşanın kommunizmi mikrobları bütün dünyanı bürüyən keçici xəstəlik adlandırması rusların türk millətçiləri ilə əməkdaşlığın perspektivinə inamlarını azaltmışdı. Sovet Rusiyasının xarici işlər komissarı G.Çiçerin Rusiya Koramunist (bolşevik) partiyası Qafqaz Diyar Komitəsinə - Eliavaya yazırdı: Biz gənc türklər ilə nə müdafiə, nə də hücum haqda ittifaq bağlamırıq, aydındır ki, bu, İngiltərə ilə saziş məsələsində bizim əl-qolumuzu bağlayar. Biz türk imperializmini şirnikləndirmək fikrində deyilik (7). Çox sonralar, 1953-cü ilin yanvarında SSRİ Xarici İşlər Nazirliyində arayış hazırlanan zaman dostluq və qardaşlıq haqqında Türkiyə ilə Sovet Rusiyası arasında 16 mart 1921-ci il müqaviləsinin imzalandığı dövrün siyasi şəraiti haqqında keçmiş arxiv sənədlərinə istinadən İ.Lakomski yazırdı ki, Türkiyənin gənc Kommunist Partiyasının yüksələn

təsirindən ehtiyat edən kamalçılar 1920-ci ilin sonu, 1921-ci ilin əvvəlində kommunistlərə qarşı mübarizəni gücləndirdilər. 1921-ci ilin yanvarında M.Sübhi 15 həmkarı ilə birlikdə Bakıdan qayıdarkən Trabzon yaxınlığında öldürüldü (8). Bu hadisədən sonra Kommunist Partiyası və ona yaxın təşkilatlar qanundan kənar elan edildilər. Atatürk başqalarından daha tez kommunist ideyasının Türkiyə üçün məhvedici olduğunu başa düşdü və tezliklə kommunistpərəst qüvvələrin fəaliyyətini qadağan etdi. Ölkənin avropalaşdırılması onun siyasətinin üstün istiqamətinə çevrilməyə başladı.

Lakin qeyd edilən ayrı-ayrı epizodlara baxmayaraq, tərəflər bir-birinə münasibətdə təmkinli davranmaq, bir-birinin maraqlarını gözləmək siyasətini 30-cu illərin ortalarına qədər qoruyub saxlaya bildilər. 30-cu illərdə beynəlxalq vəziyyətin gərginləşməsi, müharibə təhlükəsinin artması Türkiyəni daha ehtiyatlı xarici siyasət yeritməyə məcbur edirdi. Türkiyənin Brian-Kelloq paktına qoşulması, bu paktla bağlı Moskva protokolunu imzalaması, təcavüzkarın müəyyən edilməsi barədə London konvensiyasına qoşulması, Balkan Antantası paktını və Saadabad müqaviləsini bağlaması, Boğazlar məsələsi barədə Montrö sazişinin aparıcı dövlətinə çevrilməsi onun Qərblə münasibətlərini xeyli dərəcədə yaxşılaşdırdı. Bütövlükdə bu siyasət Türkiyəni Britaniya maraqları cazibəsinə cəlb etdi. Sovet İttifaqı ilə dostluğa böyük əhəmiyyət verən Türkiyə Respublikasının birinci prezidenti Mustafa Kamal Atatürk eyni ilə Rusiyanın güclənməsinə də çox ehtiyatla yanaşırdı. Hələ 1932-ci ildə Almaniyada faşizmin hakimiyyətə can atdığı dövrdə Atatürk dünyada gedən prosesləri təhlil edərək demişdi ki, Avropanı işğal etmək iqtidarında olan güclü alman ordusu yaradıldıqdan sonra 1940-1946-cı illərdə alovlanacaq müharibədə nə İngiltərə, nə Fransa, nə də Almaniya deyil, məhz bolşevizm qalib olacaqdır. Bolşeviklər təkcə Avropanı deyil, Asiyanı da təhdid edən başlıca qüvvə olacaqdır (9).

Montrö konfransı və bu konfransın yekunu kimi imzalanmış saziş Sovet-Türkiyə münasibətlərində xüsusi bir mərhələdir. XVIII yüzildən başlayaraq Rusiyanın Qara dənizə çıxmaq, Bosfor və Dardanell boğazlarına sahib olmaq arzuları onun xarici siyasətinin üstün istiqaməti kimi diqqəti cəlb edir. Birinci Dünya müharibəsində Osmanlı imperatorluğunun məğlub olması Boğazlar məsələsində Rusiyanın arzularının gerçəkləşməsi üçün əlverişli şərait yaratmışdısa da, Rusiya qalib Antantanın məğlub üzvü olduğundan bu şəraitdən istifadə edə bilməmişdi.

Birinci Dünya müharibəsindən sonra Boğazlar məsələsi hüququ cəhətdən Lozanna konfransında tənzim edildi. Lozanna konfransında ruslar belə hesab edirdilər ki, Boğazlar Türkiyə istisna olmaqla bütün ölkələrin hərbi gəmilərinin üzünə bağlı olmalıdır. Onların təqdim etdiyi layihəyə görə yalnız müstəsna hallarda Türkiyə hökuməti xüsusi dekretlə,

ayrılıqda götürülmüş halda yüngül hərbi gəmilərin boğazlardan hər iki tərəfə keçməsinə icazə verə bilərdi, bu şərtlə ki, həmin səfərlər hərbi məqsədlər daşımasın. Müharibə zamanı isə boğazlar Türkiyə istisna olmaqla bütün ölkələrin gəmilərinin üzünə bağlı olmalı idi. Ən nəhayət, Türkiyə boğazları möhkəmləndirmək və oranı hərbirləşdirmək hüququ əldə etməli idi ki, Konvensiyanın qaydalarının yerinə yetirilməsinə nəzarət edə bilsin və bu barədə Konvensiya iştirakçıları qarşısında öhdəlik götürmüş olsun. Bu prinsiplərin Lozannada müdafiə olunması Sovetlərin Türkiyənin maraqlarını qorumaqdan daha çox öz təhlükəsizliyini təmin etmək zərurətindən irəli gəlirdi. Əgər bu təkliflərlə Rusiya Qara dənizdən digər dənizlərə keçmək imkanlarını itirirdisə, digər tərəfdən Sovetlərə düşmən olan ölkələrin hərbi donanmalarının Qara dənizə keçmək cəhdlərinin də qarşısını almış olurdu (10). Hətta Sovet Rusiyası Ankaraya təzyiq göstərmək yolu ilə Lozannada müttəfiq kimi çıxış etməyə onu razı salmaq fikrində idi. Rusiyanın xarici işlər koraissarı G.Çiçerin Lozannadan Moskvaya L.Karaxana yazırdı: "Ankaraya göstərmək lazımdır ki, əgər türk hökuməti bizim əleyhimizə olsa, biz özümüz müdafiənin digər vasitəsini tapacağıq" (11). Lakin bütün bu təzyiqlərin elə bir nəticəsi olmadı. Türklər Lozannada ingilislərə güzəştə getdilər və ingilis layihəsi əsas kimi qəbul olundu. Bu layihənin mahiyyəti isə iki prinsipdən ibarət idi: "Boğazlar azadlığı" və "Boğazlar zonasının demilitarizasiyası".

Boğazlar məsələsində Türkiyənin Lozannada Sovet təkliflərini müdafiə etməməsi bir tərəfdən onunla bağlı idi ki, Türkiyə həmin dövrdə boğazlar üzərində təkbaşına nəzarət etmək iqtidarına malik deyildi. Digər tərəfdən Sevr müqaviləsindən imtina etmiş Türkiyə öz müstəqilliyinin beynəlxalq tanınmasına cəhd edirdi və buna uyğun olaraq milli mücadilə nəticəsində bərpa olunmuş milli hüdudlar Lozannada təsdiq olundu. Lozanna müqaviləsi xarici dövlətlərin Türkiyənin daxili işlərinə müdaxilərinə son qoydu. Ona görə də Lozanna müqaviləsi boğazlar məsələsində müəyyən güzəştlərə baxmayaraq, türk diplomatiyasının qələbəsi kimi qiymətləndirilə bilər. Heç şübhəsiz ki, Sovetlərlə eyni mövqedən çıxış edib beynəlxalq cəhətdən təcrid olunmuş vəziyyətdə qalmaq Türkiyə üçün ağır nəticələr verə bilərdi.

Lakin Türkiyənin beynəlxalq vəziyyəti möhkəmləndikdən, ölkə daxilində Atatürk islahatları öz uğurlu nəticələrini verdikdən sonra Türkiyə yenidən boğazlar məsələsinə qayıtdı. 1933-cü ildən başlayaraq Türkiyə hökuməti dəfələrlə Lozanna sazişinin boğazların silahsızlaşdırılması ilə bağlı hissəsinə baxılmasının zəruriliyi barəsində öz fikrini bildirmişdi. Lakin İngiltərə hər dəfə bunun əleyhinə olmuşdu. Lakin 30-cu illərin ortalarında cərəyan edən hadisələr İngiltərənin öz etirazını geri götürməsi ilə nəticələndi. 1936-cı ilin 11 aprelində Türkiyə hökuməti Lozanna

Konvensiyasını imzalamış dövlətlərə nota ilə müraciət edərək Konvensiyanın qərarlarına yenidən baxmaq təklifi ilə çıxış etdi. Notada deyilirdi ki, Türkiyə sülh və müharibə dövründə ticarət gəmilərinin Boğazlardan azad keçidini saxlamağa hazırdır və eyni zamanda tələb edirdi ki, Boğazlarda möhkəmlənmək hüququ ona qaytarılmalı, Türkiyə ərazilərinin toxunulmazlığını təmin etmək üçün Boğazların təhlükəsizliyi tənzim edilməlidir (12). Türkiyənin belə mövqeyi Avropada siyasi və hərbi şəraitin dəyişməsi ilə izah olunurdu. Türkiyə tərəfi bu fikirdə idi ki, Lozanna Konvensiyasını imzalayan zaman hərbi gəmilərin boğazlardan keçməsinə ona görə razı olmuşdu ki, həmin dövrdə Avropada tərksilah prosesi gedirdi və bütün ölkələrin silahlı qüvvələri daha az təhlükəli idi. Lakin son illər Aralıq dənizində vəziyyət köklü şəkildə dəyişilmiş, narahatlıq artmış, proseslər təhlükəli xarakter almışdır.

Beynəlxalq vəziyyətin gərginləşdiyi bir şəraitdə doğrudan da Lozanna müqaviləsi Türkiyənin təhlükəsizliyinə cavab vermirdi. Türkiyənin Boğazlarda hərbi qüvvə saxlaya bilməməsi, xarici dövlətlərin dəniz qüvvələrinin qeyri-məhdud sayda Boğazlardan keçməsi Türkiyəni hər an təhlükə qarşısında qoyurdu. Ölkə gözlənilməz vəziyyətlə üzləşə bilərdi.

Boğazlar məsələsinə baxılmasında maraqlı olan Sovet tərəfi Türkiyənin asından narazı idi. Bu narazılıq ilk növbədə onunla bağlı idi ki, Türkiyə bütün digər ölkələrə öz təkliflərini SSRİ ilə razılaşmadan göndərmişdi. Sovet tərəfi belə hesab edirdi ki, notanın göndərilməsi faktı və onun mətni Sovetlərlə müzakirə edilməli idi. Lakin Sovet tərəfi öz narazılıqlarını açıq şəkildə büruzə vermədi. SSRİ Xarici İşlər Komissarlığı 1936-cı ilin aprel ayının 16-da Moskvadakı Türkiyə səfiri Z.Apaydına təqdim etdiyi cavab notasında göstərirdi ki, Türkiyənin öz ərazilərinin təhlükəsizliyini təmin etməyə yönəlmiş cəhdləri qanunauyğundur. Sovet hökuməti cavab notasında Türkiyənin təhlükəsizliyinin təmin edilməsi maraqlarına və bu ərazidə sülhün və sabitliyin təmin edilməsinə uyğun olaraq Boğazlar məsələsi ilə bağlı danışıqlarda iştirak etməyə hazır olduğunu bildirdi (13).

Sovetlərin belə mövqeyi səfir Z.Apaydın tərəfindən məmnunluqla qarşılandı və cavab notası tezliklə Ankaraya çatdırıldı. Qeyd etmək lazımdır ki, Z.Apaydın Sovet İttifaqına loyal münasibət bəsləyən təcrübəli diplomat idi. O, bir müddət Londonda səfir işləmiş, 1925-ci ilin mayında isə birinci dəfə SSRİ-yə səfir təyin edilmişdi. Onun Moskvadakı birinci missiyası 1927-ci ilin noyabrına qədər davam etmişdi. Elə həmin il Apaydın üçüncü məclisə Diyarbəkirdən millət vəkili seçilmiş, əvvəl Məclisdə xarici işlər komissiyasına başçılıq etmiş, 1935-ci ilə kimi isə İ.İnönü kabinetində müdafiə naziri vəzifəsini tutmuşdu. 1935-ci ilin iyununda isə yenidən Moskvaya səfir təyin edilmişdi. Z.Apaydının Moskvada ikinci missiyası 1939-cu ilin avqustuna qədər davam etmişdi. Türkiyə ilə SSRİ arasında

17 dekabr 1925-ci il müqaviləsinin, 15 mart 1927-ci il ticarət müqaviləsinin imzalanmasında, Sovet və Türkiyə xarici işlər nazirlərinin 1927-ci ildə Odessada keçirilən görüşlərində bilavasitə iştirak etmişdi. 1935-ci ildə V.Molotovla görüşdə Z.Apaydın Türkiyə üçün üç milyon rubl kredit almağa nail olmuşdu (14).

Türkiyənin 11 aprel notası ilə bağlı qeyd etmək lazımdır ki, may ayının 2-nə qədər İtaliya istisna olmaqla maraqlı dövlətlərin hamısı Lozanna Konvensiyasına yenidən baxılması üçün konfrans çağırılmasına razı olduqlarını bildirmişdilər (15). Xarici işlər naziri R.Aras və nazirliyin baş katibi N.Menemençioğlu gələcək konfransın iştirakçısı olan dövlətlərin paytaxtlarına səfərlər etmiş və onun çağırılması ilə bağlı mühüm məsələləri maraqlı dövlətlərlə razılaşdırmışdılar. Konfransın Millətlər Cəmiyyəti Şurasının 1936-cı il iyun sessiyasından sonra Montrö şəhərində keçirilməsi barədə may ayının sonunda R.Arasla M.Litvinov arasında razılıq əldə edilmişdi. Eyni zamanda Türkiyədəki Sovet müvəqqəti işlər vəkili L.Karaxan göstəriş almışdı ki, Türkiyə hökuməti ilə danışıqlara başlayıb onların qarşıdakı konfransda yeridəcəkləri xətti aydınlaşdırsın.

Montrö konfransına hazırlığın gedişində ilkin olaraq Sovet hökuməti öz nümayəndələrinə tövsiyə etmişdi ki, Boğazlarda hərəkətlə bağlı Qara dəniz ölkəsi olan və olmayan dövlətlərin hərbi gəmilərinə münasibətdə fərqli yanaşma xətti əsas götürülməlidir. Sovet mövqelərini özündə əks etdirən sənəddə göstərilirdi: Qara dəniz ölkəsi olmayan dövlətlərin bütün növdən olan hərbi gəmiləri üçün dinc dövrdə Qara dəniz boğazlarından keçməsi qadağan edilir, müstəsna hal kimi vuruşmayan dövlətin bir kreyser və dörd esminesdən artıq olmayan tərkibdə suüstü gəmilərinin dostluq səfərlərinə icazə verilir. Sənəddə daha sonra qeyd edilirdi ki, müharibə zamanı Türkiyə istisna olmaqla bütün dövlətlərin hərbi gəmilərinin boğazlardan keçməsi qadağan edilir, digər dövlətlərin (o cümlədən Qara dəniz dövlətlərinin) hərbi gəmilərinin boğazlardan keçməsinə Millətlər Cəmiyyətinin sanksiyası ilə o halda icazə verilir ki, bu özünü-müdafiə və ya təcavüzə məruz qalmış dövlətə kömək göstərmək xarakteri daşısın (16).

Bu təlimata uyğun olaraq Sovet müvəqqəti işlər vəkili L.Karaxan ilkin olaraq Ankarada Türkiyə Xarici işlər naziri R.Arasla fikir mübadiləsinə başladı. Danışıqlar gedişində R.Aras iyun ayının 4-də Türkiyə hökumətinin Boğazlar rejimi ilə bağlı mövqelərini əks etdirən təklifləri Karaxana bildirdi. Orada deyilirdi:

1) Hərbi gəmilərin boğazlardan keçməsi qadağan edilir;

2) Yalnız Qara dəniz dövlətlərindən birinə qabaqcadan razılaşdırılmış,lakin aşağıdakı məhdudiyyətlərlə səfərlərə icazə verilir:

a) eskadranın - hərbi dəniz gəmiləri birləşməsinin tərkibi bir xətt gəmisi, iki mina gəmisi və bir sualtı qayıqdan artıq olmamalıdır;

b) gəmilərin su tutumu 28 min tonu keçməməlidir

v) onların gəlişində maraqlı olan dövlət Türkiyə hökumətini bir ay qabaq məlumatlandırmalıdır;

q) Qara dənizə səfər müddəti bir aydan artıq olmamalıdır;

d) boğazlardan keçiş dayanacaqsız olmalıdır;

e) eyni zamanda Qara dənizdə ikidən artıq sualtı qayıq ola bilməz;

ə) əgər Türk donanması Mərmərə dənizindəki bazalarında deyilsə, eyni zamanda boğazlardan ümumi su tutumu 7 min tonnadan artıq olan eskadra keçə bilməz;

j) Türkiyə hökumətinin razılığı ilə səfər edən eskadranın tərkibində dəyişiklik edib bilər, eyni zamanda 28 min ton su tutumu olan gəmi də boğazlardan buraxıla bilər, bu şərtlə ki, Qara dənizə səfər edən heyətin tərkibi yalnız bir gəmidən ibarət olacaqdır.

3) Qara dəniz dövlətlərinə gəlincə, onların gəmiləri də qeyri-qara dəniz dövlətlərinin donanması üçün müəyyən edilmiş normalara uyğun olmalıdır, yalnız bir fərqlə ki, Qara dəniz dövlətlərinə məxsus gəmilər Qara dənizdən çıxan və Qara dənizə qayıdan zaman su tutumundakı məhdudlaşdırmanın minimum həddinə riayət etməlidir.

4) Aviasiya konvensiyadan çıxarılır; türk suları və türk əraziləri üzərindən uçuşlar Türkiyə qanunlarına tabe edilir (17).

Bu məsələ ilə bağlı Türkiyə hökuməti ilə danışıqların sonrakı gedişi Sovet nümayəndəsi B.S.Stomonyakovun M.Litvinova məktubunda daha aydın formada açıqlanır. Sovet tərəfi müəyyən düzəlişlər və şərtlər daxilində Türkiyənin irəli sürdüyü təkliflərlə razılaşdığını bildirirdi. B.S.Stomonyakov yazırdı: "Biz Türkiyə hökumətinin təkliflərini müzakirə edib Karaxana aşağıdakı cavabı verdik: Biz göstərdik ki, əgər türklər bu layihəyə bizim düzəlişlərimizlə razılaşsalar, Türkiyə hökumətinin layihəsini əsas kimi qəbul etməyə hazırıq. Biz konfransda bizim ümumi mövqelərimizi birlikdə müdafiə edəcəyik. Ona görə biz Karaxana təklif etdik ki, bu məsələ barəsində türklərlə möhkəm razılaşsın ki, onlar da, biz də Sovet və Türkiyə nümayəndələrinin başçıları öz aralarında qabaqcadan razılığa gəlmədən bu mövqelərdə dəyişiklik etməyəcəklər" (18). Türkiyə layihəsinə sovet tərəfi aşağıdakı düzəlişləri təklif edirdi. Sovet düzəlişlərinə görə o ölkələrin gəmiləri Qara dənizə səfər edə bilərdi ki, həmin ölkə heç bir ölkə ilə müharibə vəziyyətində olmasın. Bu düzəliş ancaq qeyri-qara dəniz ölkəsinə şamil edilirdi və dəqiqləşdirilirdi ki, səfər eskadranı qəbul edən Qara dəniz ölkəsi ilə razılaşdırılmalıdır və onun tərkibi bir kreyser, dörd mina daşıyan gəmidən artıq olmamalıdır.

Sovet tərəfi belə hesab edirdi ki, sualtı qayıqlar Qara dənizə buraxılmamalıdır. Onlar Karaxana bildirmişdilər ki, bu məsələ ilə bağlı R.Arasın mülahizələri əsaslandırılmış deyildir. Hətta taktiki mülahizələrə görə, onlar qabaqcadan belə bir güzəştə getməyi məqsədəuyğun saymırdılar. Sovet tərəfi qeyd edirdi ki, əgər Montrö konfransında hər hansı bir

nümayəndə heyəti sualtı qayıqların buraxılmasını tələb etsə bizim türklərlə vaxtımız olacaq ki, bu təklifə necə reaksiya verməyi müzakirə edək, halbuki, konfransda bir sıra digər təkliflər də irəli sürüləcəkdir Sovet tərəfi məlumat üçün Karaxana bildirmişdi ki, ümumiyyətlə, sualtı qayıqların Qara dənizə buraxılmasının əleyhinədirlər.

Sovet düzəlişlərinə görə Qara dənizə buraxılan eskadranın ümumi su tutumu 25 min tondan artıq olmamalı idi. Bu düzəliş həm də onunla bağlı idi ki, Qara dənizdə Sovetlərin bu tonnajdan yuxarı su tutumu olan gəmisi yox idi. Səfərin başlanmasından bir ay qabaq Türkiyə hökumətinin məlumatlandırılması məsələsi ilə bağlı Sovet tərəfi təklif edirdi ki, "bu reqlamentin bütün digər şərtlərinə riayət edilməklə" ifadəsi bu bənddə əks olunmalıdır. Bu ifadə altında Sovetlər səfərin qəbul edən tərəflə - yəni Qara dəniz ölkələri ilə razılaşdırılmasını nəzərdə tuturdu. Eyni zamanda Sovet tərəfi belə hesab edirdi ki, səfər edən eskadranın Qara dənizdə iki həftəyə qədər qalması arzuolunandır.

Qara dəniz dövlətlərinə gəldikdə isə Sovet hökuməti adından Karaxana tapşırıq verilmişdi ki, Qara dəniz dövlətlərinin sualtı gəmiləri və aviasiyası istisna olmaqla hərbi gəmilərinin boğazlardan hər iki istiqamətə azad hərəkət etmək hüququnun saxlanmasına təkid etsin. Karaxana təklif edilmişdi ki, türklər qarşısında bu məsələni qoysun ki, biz Türkiyənin boğazlarda tam suverenliyinin bərpa edilməsi haqda tezisi bütün vasitələrlə müdafiə edəcəyik, eyni zamanda bizim maraqlarımızın dost Türkiyə tərəfindən nəzərə alınacağına ümid bəsləməkdə də özümüzü haqlı sayırıq. Müharibə dövründə isə Türkiyə bitərəf qalacağı təqdirdə Sovet hökuməti Türkiyə və Millətlər Cəmiyyətinin qərarı ilə təcavüz qurbanı olanlara kömək hadisəsi istisna olmaqla, Boğazların bütün ölkələrin hərbi gəmiləri üçün bağlanmasına tərəfdar idi (19). Sənəddə deyildiyi kimi, Sovet tərəfi təkliflərinin qəbul edibcəyinə ümid edirdi və belə hesab edirdi ki, Türkiyə hökumətinin onların təkliflərinə etirazı "Moskvanı heyrətləndirə bilər".

Sovet düzəlişləri müzakirə edilən zaman xarici işlər naziri R.Aras kiçik istisnalarla bu düzəlişlərlə əsasən razılaşdı. Ankaradakı müvəqqəti işlər vəkili L.Karaxan SSRİ Xalq Xarici İşlər Komissarlığına göndərdiyi məlumatda Türkiyə tərəfinin Sovet düzəlişləri ilə razılaşdığını göstərirdi. O yazırdı: "Aras layihədə hər hansı dəyişikliklərin bizimlə razılaşdırılmasına tərəfdardır. Qara dənizə daxil olan gəmilərin ümumi su tutumunun 25 min tondan artıq olmaması ilə Türkiyə tərəfi razılaşır və onlar qəbul edirlər ki, maksimal su tutumuna malik bir gəminin boğazlardan keçməsi istisna edilməlidir. Qeyd etmək lazımdır ki, sonuncu məsələ ilə bağlı hələ Sovet düzəlişlərini almazdan əvvəl Karaxan Arasla razılığa gəlmişdi. R.Aras Sovet müvəqqəti işlər vəkilinin belə bir dəlili ilə razılaşmışdı ki, qeyd edilən maksimum su tutumuna malik bir böyük gəmi Qara dənizə

daxil olduqdan sonra, sahilyanı dövlətlərdən, məsələn Bolqariyadan yardımçı gəmilər ala bilər.

Sualtı qayıqların layihədən çıxarılması ilə R.Aras razılaşdı, lakin bildirdi ki, əgər yeni sazişin taleyi bundan asılı olsa, o, konfransda bu məsələ ilə bağlı güzəştə getmək məcburiyyətində qalacaq. Qara dənizə səfər edən gəmilərin səfər müddətinin iki həftəyə qədər endirilməsi də Türkiyə tərəfini qane edirdi. L.Karaxanın məlumatında göstərilirdi ki, Qara dənizə səfər ancaq Qara dəniz ölkələrindən birinə ola bilər və bu səfərin həmin ölkə ilə razılaşdırılması layihədə dəqiqləşdiriləcəkdir. Türkiyə tərəfi Moskvanı daha çox narahat edən Qara dəniz ölkələri gəmilərinin Boğazlardan keçməsinə məhdudiyyət qoymaq fikrində deyildi. Lakin R.Arasın fikrincə elə formula fikirləşmək lazım idi ki, bu formula digər dövlətlərə Boğazlardan keçmək üçün müəyyən olunmuş limitin artırılmasını tələb etməyə əlavə dəlil verməsin. R.Aras bildirmişdi ki, o, bu məsələni İsmət paşa ilə müzakirə etməlidir. Məsələn, R.Aras belə bir formula təklif edirdi ki, əgər Qara dəniz ölkələrinə məxsus gəmilər boğazları tək-tək keçərlərsə, gəmilər üçün su tutumu məhdudlaşdırılması Boğazları keçən Qara dəniz donanması gəmilərinə şamil edilməsin. Taktiki mülahizələrə görə, R.Aras təklif etmişdi ki, bu formulanı indi layihəyə əlavə etmək lazım deyildir. O, belə hesab edirdi. ki, əldə edilmiş razılığa əsasən bu təklif konfransın gedişinə daha uyğun vaxtda irəli sürülməlidir.

L.Karaxan Moskvaya göndərdiyi məlumatda yazırdı ki, R.Aras müharibə dövründə Boğazların bağlı olması barədə bizim fikrimizə tərəfdar olduğunu elan edib, lakin bu məsələ barədə o, İsmətlə əlavə danışmalıdır. Aras təklif edir ki, bu məsələni sazişin özünə deyil, danışıqlar protokoluna və ya xüsusi protokola daxil etmək lazımdır. Ən nəhayət, Türkiyənin xarici işlər naziri təklif edirdi ki, Millətlər Cəmiyyəti ilə pakta uyğun olaraq Boğazlara münasibətdə Türkiyənin neytrallığa riayət edəcəyi barədə bənd sazişə daxil edilməlidir (20).

R.Arasın sovet düzəlişlərini dəyərləndirən zaman irəli sürdüyü bir sıra mülahizələr SSRİ Xalq Xarici İşlər Komissarlığında bir daha təhlil edildi. Türkiyə tərəfinin Qara dəniz dövlətlərinə məxsus gəmilərin Boğazlardan azad şəkildə keçməsi barədə Sovet təklifini layihəyə daxil etməyin əleyhinə olması Rusiya tərəfinin narazılığına səbəb olmuşdu. Onlar belə hesab edirdilər ki, R.Arasın bu məsələni danışıqların "taktikası" ilə əlaqələndirməsi inandırıcı deyildir. Sənəddə göstərilirdi: məsələnin belə qoyuluşu bizi vadar edir ki, türklərin artıq bu işdə ingilislərlə razılığa gəlməsindən şübhələnək. B.S.Stomonyakov iyun ayının 11-də M.Litvinova yazırdı: Hər ehtimala qarşı biz hesab edirik ki, Qara dəniz dövlətləri barədə bənd konfransda irəli sürülməməlidir, məhz türk layihəsinin əsas mətninə daxil olmalıdır. Əgər Türkiyə hökuməti indi bu bəndi öz layihəsinə daxil

etmək istəmirsə, belə təsəvvür yaranır ki, türklər ən azı bu məsələdə maraqlı deyillər və konfransda bunu müdafiə etməyəcəklər (21). Ona görə Karaxana tapşırıq verildi ki, R.Arasın qarşısında bu məsələni qəti şəkildə qoysun və lazım gələrsə, İsmət paşa ilə görüşsün. Həm də SSRİ Xarici İşlər Komissarlığı İsmət paşa ilə görüşü ona görə zəruri bilirdilər ki, onlar Türkiyə layihəsində R.Arasla razılaşdırılan dəyişiklikləri Baş nazirin dilindən eşitmək istəyirdilər (22).

Boğazlar məsələsinə dair Montrö konfransı 1936-cı ilin iyun ayının 22-də işə başladı. Konfransda Türkiyə, SSRİ, Bolqarıstan, Rumuniya, Fransa, İngiltərə, Yaponiya, Yunanıstan, Yuqoslaviya və Avstraliyanın nümayəndələri iştirak edirdilər. Elə ilk iclasda Türkiyə hökumətinin Boğazlar rejimi haqda hazırladığı yeni saziş layihəsi müzakirəyə təqdim edildi, 5 hissə və 13 maddədən ibarət olan Türkiyə layihəsi 23 iyun iclasında müzakirə üçün əsas kimi qəbul edildi. Layihənin birinci hissəsi ticarət gəmiçiliyinə, ikinci hissəsi hərbi gəmilərin və yardımçı gəmilərdən ibarət köməkçi hərbi donanmanın Boğazlardan keçmə şərtlərinə, üçüncü hissə Boğazlar üzərindən aviasiya uçuşlarının qadağan edilməsinə, dördüncü hissə Boğazlar üzərində Türkiyənin suveren hüquqlarının təsdiqinə, beşinci hissə isə Sazişin müddəti və onun təsdiq edilməsi qaydasına aid idi. Avropada və dünyada hərbi gərginliyin artdığı, Aralıq dənizində və Balkanlarda İtaliya təcavüzünün genişləndiyi bir dövrdə Boğazların remilitarizasiyası (yenidən hərbiləşdirilməsi - C.H.) Türkiyə üçün həyati əhəmiyyətli məsələ idi. Ərazisinin bir hissəsi olan Bosfor və Dardanelldə Türkiyənin suveren hüquqlarının bərpa edilməsinə, Boğazların xarici təcavüzdən etibarlı müdafiə sisteminin qurulmasına nail olmaq Montrö konfransında Türkiyə diplomatiyasının başlıca strateji hədəfi idi. Bu hədəfə isə konfransda iştirak edən böyük dövlətlərin, ilk növbədə isə Sovet İttifaqı ilə İngiltərənin maraqlarını uzlaşdırmaq yolu ilə çatmaq olardı.

Gözlənildiyi kimi, Montrö konfransında əsas mübarizə Sovet və İngiltərə nümayəndələri arasında başlandı. Konfransdakı müzakirələrdə və texniki komissiyadakı mübahisələrdə ingilis və sovet mövqeləri bir çox məsələlərdə toqquşmağa başladı. İngilis nümayəndələri bəyan etdilər ki, onlar Qara dənizi "açıq və beynəlxalq dəniz" hesab edirlər. M.Litvinov isə öz çıxışında bunun düzgün olmadığını, qəbuledilməzliyini və Qara dənizin xüsusi coğrafi vəziyyətə malik olduğunu, habelə mütləq mənada azad sayılan dənizlər haqqında təsəvvürlərin Qara dənizə şamil edilməsinin mümkünsüzlüyünü qeyd etdi. Fransa nümayəndə heyətinin başçısı Pol Bonkur bu məsələdə belə bir güzəştli variant tapdı ki, Qara dəniz hüquqi baxımdan açıq dənizdir, lakin coğrafi baxımdan xüsusi mövqedədir. Türkiyə nümayəndəsi R.Aras öz çıxışında Qara dənizin "xüsusi mövqe"də olmasını qəbul etdi. Mübahisələrin gedişində yalnız Yaponiya nümayəndələri sahilyanı və qeyri-sahilyanı dövlətlərin Qara dənizdə və

Boğazlarda bərabər hüquqlara malik olmasını tələb edərək İngiltərəni müdafiə etdilər. İngiltərə, bir qayda olaraq, Boğazlar üzərində beynəlxalq nəzarəti saxlamağa çalışırdı. Lord Stenhon öz çıxışında sübut etməyə çalışırdı ki, "beynəlxalq yol" olaraq Boğazlardan istifadə qaydalarına nəzarət hüququ "beynəlxalq orqana" məxsus olmalıdır (23). Lakin türklər bu ideyanın əleyhinə çıxdılar və konfransın digər iştirakçıları da bu məsələdə onları müdafiə etdilər.

Montrö konfransında əvvəlki hazırlıqlara uyğun olaraq Sovet nümayəndə heyətinin başçısı M.Litvinov öz çıxışında bildirdi ki, Qara dəniz dövlətlərinin təhlükəsizliyinə ən yaxşı təminat Boğazlarda və Qara dənizdə ticarət gəmilərinin qeyri-məhdud hərəkətində, qeyri-sahil dövlətlərinin hərbi gəmilərinin üzünə boğazların tam bağlanmasındadır. Ona görə də Qara dənizə yollanan gəmilərin sayı və su tutumu nə qədər məhdudlaşdırılsa, Avropa və Asiyanın bu sahəsində təhlükəsizlik bir o qədər çox təmin edibcəkdir.(24) Əlbəttə, bu bir tərəfdən Türkiyənin təhlükəsizliyi üçün yaxşı idisə, digər tərəfdən Sovet nümayəndələri Qara dənizdən sahilyanı ölkələrin, o cümlədən SSRİ-nin hərbi donanmasının çıxışına məhdudiyyət qoyulmasına tərəfdar deyildilər. Buna cavab olaraq ingilislər qeyd edirdilər ki, onlar qeyri-qara dəniz ölkələrinin hərbi gəmilərinə qoyulan məhdudiyyətlərə bu şərtlə razıdırlar ki, həmin məhdudiyyətlər Qara dənizdən çıxan hərbi gəmilərə də tətbiq edilsin. Konfransın gedişində SSRİ nümayəndələri Fransa nümayəndələri ilə yaxmlaşmağa cəhd edirdilər. Lakin fransızlar da Boğazların tam bağlanmasına tərəfdar deyildi. Onlar belə hesab edirdilər ki, SSRİ və digər Balkan ölkələri ilə imzalanmış müqavilələrə uyğun olaraq müharibə olacağı təqdirdə bu ölkələrə Boğazlar vasitəsi ilə yardım göstərilə bilər.

Konfransın birinci mərhələsinin sonunda Boğazlar haqqında yeni sazişin bağlanmasında maraqlı olan Türkiyə nümayəndələri Sovet və ingilis mövqelərini yaxınlaşdırmağa, bu ölkələr arasında kompromis əldə olunmasına çalışırdılar. Türkiyənin belə mövqeyi Sovetlər tərəfindən ingilislərlə gizli əlaqələrin nəticəsi kimi qiymətləndirilirdi. Halbuki belə fikirlər həqiqətə uyğun deyildi. Türklər sadəcə olaraq yeni sazişin imzalanmasında digər dövlətlərlə müqayisədə daha çox maraqlı idilər. Montrödən SSRİ Xarici İşlər Komissarlığına göndərilən məlumatda göstərilirdi ki, qabaqcadan əldə olunmuş razılaşmaya uyğun olaraq Türkiyə nümayəndələri müzakirə üçün əsas kimi qəbul edilmiş öz layihələrini onun ingilislər tərəfindən yenidən işlənmiş variantına güzəştə getdilər. Onların fikrincə, ingilislər tərəfindən yenidən işlənmiş layihə Qara dəniz dövlətlərinin təhlükəsizlik maraqlarına ziyan vurmaqla qeyri-sahil ölkələrinin hüquqlarını genişləndirmək ruhundadır (25).

Eyni zamanda Cenevrədən SSRİ Xarici İşlər komissarının müavini B.S.Stomonyakova və N.N.Krestinskiyə yazdığı məktubda M.Litvinov

etiraf edirdi ki, konfransa hazırlıqla bağlı Sovet tərəfi çox ciddi səhvlərə yol verib. O qeyd edirdi ki, Qara dəniz dövlətlərinin hüquqları ilə bağlı xüsusi maddənin layihəyə salınmasına təkid etmək lazım deyildi. Nə qədər ki, söhbət Lozanna sazişinə yenidən baxmaqdan gedirdi, Sovet İttifaqı o məqamların dəyişməsinə cəhd etməli idi ki, həmin məqamlar onun maraqları ilə ziddiyyət təşkil edirdi. Xarici İşlər komissarı saziş layihəsinin axıra qədər Sovet hökuməti ilə Türkiyə arasında razılaşdırılmadığından, özünün Türkiyə təkliflərinə qarşı çıxış etmək məcburiyyətində qaldığından da yazırdı (26). Lakin son nəticədə həm Sovet nümayəndələri, həm də ingilis nümayəndələri öz hökumətlərindən təlimat aldılar ki, mövqelərini yaxınlaşdırsınlar və qarşılıqlı güzəştlərə getsinlər.

Bir aylıq gərgin müzakirələrdən sonra 1936-cı ilin iyul ayının 20-də Boğazlar rejimi haqqında Montrö sazişi imzalandı. Türkiyə, SSRİ, Bolqarıstan, Rumıniya, Böyük Britaniya, Fransa, Yaponiya, Yunanıstan və Yuqoslaviya nümayəndələri tərəfindən imzalanan Montrö sazişi 5 hissədən, 29 maddədən, texniki xarakterli 4 əlavədən və 1 protokoldan ibarət idi. Bütün iştirakçı dövlətlər tərəfindən təsdiq edildi ki, Boğazlar rejimi "Türkiyənin, Qara dənizin və sahilyanı dövlətlərin təhlükəsizliyi" çərçivəsində qurulmalıdır.

Sazişin birinci hissəsində söhbət həm sülh, həm də müharibə dövründə, əgər Türkiyə vuruşan ölkə deyildisə, tam azad üzmək hüququnu saxlamış ticarət gəmiçiliyindən gedirdi. Əgər Türkiyə müharibədə iştirak edərdisə, onunla müharibə vəziyyətində olmayan ölkələrin ticarət gəmiləri gündüz vaxtı, düşmənə kömək etməmək şərti ilə Boğazlardan keçə bilərdilər. İkinci hissədə hərbi gəmilərin sülh dövründə Boğazlardan keçməsi tənzimlənirdi. Qeyri-qara dəniz ölkələrinin hərbi gəmiləri Qara dənizdə 21 gündən artıq qala bilməzdilər. Hərbi gəmilərin Boğazlardan keçməsi üçün qeyri-qara dəniz ölkələri 15 gün, Qara dəniz ölkələri isə 8 gün qabaqdan Türkiyə hökumətinə məlumat verməli idilər. Müharibə vaxtı əgər Türkiyə neytral qalırdısa, neytral ölkələrin hərbi gəmiləri sülh dövrü üçün müəyyən edilmiş qaydalara uyğun Boğazlardan keçə bilərdilər. Vuruşan ölkələrin hərbi gəmilərinin Boğazlardan keçməsi qadağan edilirdi. Yalnız Millətlər Cəmiyyətinin qərarı ilə, qüvvədə olan qarşılıqlı müqaviləyə əsasən təcavüzə məruz qalmış ölkəyə kömək göstəriləcəyi halda istisnalara yol verilirdi. Boğazlarda hər cür hərbi əməliyyatlar qadağan edilirdi. Türkiyə müharibədə iştirak etdiyi halda, hərbi gəmilərin Boğazlardan keçməsi bütövlükdə Türkiyə hökumətinin rəyindən asılı olurdu. Əgər Türkiyə hesab etsəydi ki, o, müharibə təhlükəsi qarşısındadır, onda yenə eyni hüquqlara sahib olurdu. Bu halda Millətlər Cəmiyyəti üçdə iki səslə qərar qəbul etsəydi ki, Türkiyənin qəbul etdiyi qərar özünü doğrultmur, yaxud sazişi imzalayan dövlətlərin fikri belə olardısa, Türkiyə hökuməti öz qərarını ləğv etməli idi.

Sazişin dördüncü hissəsinə görə Boğazlar üzrə Beynəlxalq Komissiyanın funksiyası Türkiyə hökumətinə verilirdi. Sazişlə birgə imzalanmış protokola görə, Türkiyə dərhal Boğazlar zonasını remilitarizasiya etmək hüququnu aldı.

Montrö sazişi 20 il müddətinə imzalanmışdı. Bu müddətin başa çatmasına 2 il qalmış onu imzalamış olan dövlətlərdən hər hansı biri Sazişin ləğvini tələb edə bilərdi (27). Beləliklə, Boğazlar üzrə Lozanna konfransında yaradılmış Beynəlxalq Komissiya Montrödə ləğv edildi və sazişi şərh etmək funksiyası Türkiyəyə verildi. 1938-ci ildə İtaliya Montrö sazişinə qoşuldu, 1951-ci ildə isə Yaponiya onu tərk etdi (28).

Montrö sazişi bu və ya digər dərəcədə Sovetlərin maraqlarını təmin etməsə də, lakin ondan sonra baş verən hadisələr, xüsusilə İkinci Dünya müharibəsi göstərdi ki, Qara dəniz hövzəsinin və sahilyanı dövlət kimi SSRİ-nin təhlükəsizliyinin təmin edilməsində bu Saziş etibarlı beynəlxalq hüquqi sənəddir. Digər tərəfdən, Qara dənizə daxil olan hərbi gəmilərin su tutumunun məhdudlaşdırılması da eyni dərəcədə Sovetlərin maraqlarına uyğun idi. Bütövlükdə götürdükdə İngiltərə ilə qarşıdurmada Sovet İttifaqı bir növ qalib çıxdı. Britaniyanın Boğazlar üzərində Beynəlxalq Komissiyanın nəzarətini saxlamaq ideyası gerçəkləşmədi. SSRİ-nin maraqlarının tam təmin olunmaması isə daha çox Qara dəniz boğazlarının xüsusiyyətləri ilə bağlı idi. Ən əvvəl, nəzərə almaq lazım idi ki, Boğazlar ərazi etibarı ilə Türkiyənin ayrılmaz hissəsidir, yəni A.F.Millerin qeyd etdiyi kimi, Boğazların hər iki sahili eyni dövlətə, Türkiyəyə məxsus idi. İkincisi, Boğazlar yetərincə dar bir sahə idi və onu "bağlamaq" asan idi. Üçüncüsü isə, haqqında söhbət gedən Boğazlar açıq dəniz (Aralıq dənizi) ilə qapalı (Qara dəniz) dənizi birləşdirirdi (29). Məhz bu səbəblərdən Sovet İttifaqı 30-cu illərin ortalarında Boğazlar məsələsi ilə bağlı arzuladığı üstün hüquqları ala bilmədi. Buna görə də İkinci Dünya müharibəsindən sonra Sovetlər Boğazlar məsələsində öz iddialarını yenidən ortaya qoydular.

Montrö sazişi ilə Türkiyə XIX əsrin əvvəllərində Boğazlar üzərində itirilmiş suverenliyini bərpa etdi. Bu sazişlə Türkiyə Qara dənizdə və Aralıq dənizində cərəyan edən hadisələrə ciddi təsir imkanı əldə etdi. Boğazlar üzərində üstün mövqelərini bərpa etdikdən sonra digər dövlətlər Türkiyə ilə hesablaşmaq məcburiyyətində qaldılar və onlar Ankara ilə dostluq münasibətlərinin yaradılmasına xüsusi maraq göstərməyə başladılar. Türkiyə diplomatiyası Montrö konfransında aparıcı dövlətlər arasında yaranmış fikir ayrılığından məharətlə istifadə edə bildi. Bir sözlə, Montrö konfransı Türkiyənin Boğazlar üzərindəki nəzarətini asanlaşdırdı (30).

Montrö sazişi 1936-cı il iyul ayının 31-də Türkiyə Böyük Millət Məclisində təsdiq edibrkən Baş nazir İ.İnönü onun əhəmiyyətini və xarici işlər naziri R.Arasın fəaliyyətini yüksək qiymətləndirərək dedi: "Yeni

boğazlar müqaviləsi Türkiyənin təhlükəsizliyi və hakimiyyətini millətlər arasında təsbit edən gözəl bir vəsiqədir. Doktor Aras bu vəsiqə ilə yalnız Türkiyənin əmniyyəti üçün gözəl bir xidmət icra etməklə qalmadı, beynəlmiləl sülh davasının yorulmaz bir yolçusu olduğunu bir kərə daha isbat etdi". Daha sonra İsmət paşa qeyd etdi ki, "Boğazlar konfransından məmnuniyyətlə çıxmağımızın bir mühüm səbəbi, əlaqədar dövlətlərin hamısının məmnun çıxmış olmalarıdır. İştirak edənlər kamilən imza etdilər. Bu mənada 1923-cü il müqaviləsini qəbul etməmiş olan dostumuz Sovetlər də bizimlə bərabər imza etdilər" (31).

Montrö sazişindən sonra Sovet İttifaqı ilə qarşılıqlı yardım haqqında pakt bağlamağa dair ikitərəfli danışıqlar başlansa da, 1936-cı ilin oktyabrında Türkiyə bundan imtina etdi. Oktyabr ayının 28-də Moskvadakı türk səfiri Apaydın xalq xarici işlar komissarı M.Litvinova bildirdi ki, Türkiyə hökuməti Montrö konvensiyasının SSRİ-nin və Türkiyənin maraqlarını yetərincə təmin etdiyindən bu konvensiyadan kənar, yaxud onun bir hissəsinə əsaslanan yeni sazişin məqsədəuyğun olmadıgı qənaətindədir. Sovet rəsmiləri Türkiyənin mövqeyinin dəyişməsini İngiltərənin ona təsir imkanlarının artması ilə izah edirdilər. Ankaradakı sovet səfiri L.Karaxan 1936-cı ilin noyabr ayının əvvəllərində Sovetlərin mövqeyini türk hökumətinə çatdırdıqda Baş nazir İ.İnönü və xarici işlər naziri Rüştü Aras bu məsələ ilə bağlı İngiltərə ilə məsləhətləşdiklərini gizlətmədilər (32). Əgər Sovetlərlə belə bir müqavilə bağlansaydı, Türkiyə bir növ boğazların qorunması ilə bağlı SSRİ qarşısında əlavə öhdəliklər götürmüş olurdu. Şübhəsiz ki, belə bir öhdəlik gündən-günə mürəkkəbləşən dünyada Türkiyə üçün əlavə problemlər yarada bilərdi. Öz növbəsində bu hadisə Sovet-Türkiyə münasibətlərinə müəyyən sərinlik gətirirdi. 1937-ci ilin ilk günlərində baş vermiş kiçik bir hadisə münasibətlərdə yaranmış bu sərinləşməni qabarıq şəkildə özündə əks etdirirdi. Yanvar ayının 7-də Sovetlərin Türkiyədə ticarət müvəkkili A.Rozenqolts tərəfindən "tamamilə məxfi" qrif ilə İ.Stalinə və V.Molotova göndərilən məktubda qeyd edilirdi ki, "Osoaviaxim" nümayəndələrinin gəlişi şərəfinə 29 oktyabr 1936-cı ildə Sovet səfirliyində düzənlənmiş qəbulda Kamal Atatürklə Karaxan arasında diqqəti çəkən söhbətin mətnini Sizə göndərirəm. Söhbətin mətni ilə tanış olduqdan sonra Stalin məktubun üzərinə maraqlı dərkənar qoymuşdu: "Voroşilova, Kaqanoviçə, Orcanikidzeyə, Litvinova. Bizim "dostumuz" Atatürkün "nitqinin" mətni ilə tanış olmaq maraqlı olardı. Dərkənarda hər iki söz İ.Stalin tərəfindən dırnağa alınmışdı. A.Rozenqoltsun göndərdiyi gizli məlumatda söhbət nədən gedirdi? Üstündən 2 aydan da artıq bir vaxt keçəndən sonra bu söhbətin məzmunu nəyə görə İ.Stalinə göndərilmişdi?

29 oktyabr 1936-cı ildə Türkiyədə Cümhuriyyət bayramı olduğu üçün Atatürk, onu müşayiət edən şəxslərlə birlikdə Sovet səfirliyində olan

qəbula xeyli gec gəlmişdi. Gizli məlumatda qeyd olunurdu ki, Kamal paşa Karaxanla görüşdükdən sonra onunla birlikdə bufetə keçdilər və onlar arasında söhbət başlandı. Kamal paşa SSRİ-yə olan dostluğundan və rəğbətindən söz açdı və həmin dəqiqə bəyan etdi ki, Türkiyə müstəqilliyinin ildönümü münasibəti ilə ona təbrik göndərilməməsindən çox incikdir. Karaxan ona cavab verdi ki, bu, doğru deyil. Həmin təbriki teleqraf vasitəsi ilə yoldaş Kalinin göndərib. Kamal paşa acıqlı halda bildirdi ki, bu mənə məlumdur, mən onu almışam və cavab da vermişəm, lakin mən vasitəçinin araçılığı ilə iş görməyi arzulamıram. Mən nəinki Türkiyə Respublikasının prezidentiyəm, eyni zamanda türk xalqının rəhbəriyəm. O, Karaxandan soruşdu: "Sizdə rəhbər kimdir". Karaxan cavab verdi ki, bizim rəhbərimiz yoldaş Stalindir. Kamal paşa soruşdu: onda nə üçün o mənə təbrik teleqramı göndərməyib, ondan başqa hamı göndərib. Bununla o göstərmək istəyir ki, məni tanımaq istəmir. Karaxan cavab verdi ki, bu həqiqətə uyğun deyil, bizdə qəbul olunmayıb ki, yoldaş Stalin təbrik teleqramı göndərsin. O, əlavə etdi ki, oktyabrın 28-də müstəqillik günü münasibəti ilə Kamal paşanı təbrik etdikdə, Stalinin şəxsi salamlarını da ona çatdırıb. Kamal paşa qeyd etdi ki, o, Sovet İttifaqı ilə dostluğa böyük əhəmiyyət verir və nə qədər ki, o, yaşayır, bu dostluq mövcud olacaqdır, lakin o, dostluğa yalnız bərabər hüquqluların dostluğu kimi riayət edə bilər. Atatürk hesab edirdi ki, Stalin ona təbrik teleqramı göndərməli idi, vasitəçi yolu ilə danışıqlar işə yalnız ziyan gətirir. Karaxan ona cavab verdi ki, müəyyən mənada bu fikir doğrudur. Onun özü Xarici işlər naziri Rüştü Arasla söhbət edən zaman bəzən bir-birini başa düşmür, Aras Litvinovla söhbətləşəndə bundan daha az bir-birlərini anlayırlar. O, əmindir ki, əgər Kamal paşa şəxsən yoldaş Stalinlə görüşsə, onlar bir neçə dəqiqənin içində istisnasız olaraq bütün məsələlərdə razılığa gələ bilərlər. Sonra söhbət zamanı Kamal paşa ilə Stalinin görüşünün təşkil edilməsi barədə fikir mübadiləsi edildi və bu görüşün vacibliyi göstərildi. Atatürk söhbət zamanı yenidən bildirdi ki, o, yalnız bərabər hüquqlu münasibətlərin tərəfdarıdır, ayrı formada qarşılıqlı əlaqələrə razı deyildir. "'Mən bilirəm, Sizin çox güclü, mexanikləşdirilmiş ordunuz var, lakin mən ondan qorxmuram, o, dünyada heç kimdən qorxmuram, o cümlədən sizdən də. Mənim arxamda 18 milyonluq xalq dayanır, yetərlidir ki, mən əmr edim, mən hara aparsam, onlar mənim arxamca gələcəkdir. Mən istəsəm münasibətlərə böyük ziyan vura bilərəm, mən bunu əlbəttə ki, heç vaxt etmərəm, ona görə ki, mənim sözüm də dostluğum kimi müqəddəs və sarsılmazdır" (33).

A.Rozenqoltsun məlumatına İ.Stalinin yuxarıda qeyd edilən ironik dərkənarı heç şübhəsiz ki, məlumatda qaldırılan məsələlərlə bağlı idi. 1937-ci ilin əvvəllərindən SSRİ-də genişlənən qırmızı terrorun əsas ittihamlarından biri kimi pantürkizm çox keçmədi ki, Sovet ideoloji

sistemində siyasi müstəviyə çıxarıldı. 1937-ci ilin fevral ayının sonlarında işə başlayan ÜİK(b)P MK-nın məşhur fevral-mart plenumunda artıq Türkiyənin ünvanına açıq ittihamlar səslənməyə başladı. Fevral ayının 28-də plenumda çıxış edən Azərbaycan K(b)P MK-nın birinci katibi M.C.Bağırov Sovetlər Birliyinin türk xalqları yaşayan bölgələrində pantürkizmin güclənməsindən "narahatlığını" bildirirdi. O, deyirdi: "Burjua millətçi ünsürlərin əksinqilabi təbliğatında belə bir müddəa qırmızı xətlə keçir ki, SSRİ-də yaşayan Şərq, türk-tatar xalqları Türkiyədən nümunə götürüb onun səviyyəsinə qalxmalıdırlar. Kamalçı Türkiyə yeganə müstəqil, azad türk dövləti olduğundan SSRİ-dən ayrılmaq və Türkiyənin rəhbərliyi ilə qüdrətli türk-tatar dövləti yaratmaq lazımdır". M.C.Bağırov əlavə edirdi ki, əslində pantürkist və pankamalist əhvali-ruhiyyənin yaradılması ilə bağlı bütün işlər SSRİ əleyhinə müharibəyə hazırlaşmaq vəzifəsinə tabe edilib. Belə bir əhvali-ruhiyyənin M.C.Bağırov türk emissarları vasitəsi ilə Azərbaycanda, Krımda, Tatarıstanda, Özbəkistanda, Dağıstanda və Türkmənistanda yaradılmasına cəhd göstərildiyini bildirirdi (34). Heç şübhəsiz ki, Sovet rəhbərliyinin, ilk növbədə İ.Stalinin razılığı olmadan M.C.Bağırov uzun müddət SSRİ-nin dostu kimi tanınan Türkiyə haqqında belə bir ittihamı yüksək partiya toplantısında müzakirəyə çıxara bilməzdi.

Əslində, Atatürklə sovet səfiri arasında olan söhbətin təhlili göstərir ki, Atatürkün narahatlığı 30-cu illərin ortalarında Avropada vəziyyətin gərginləşməsi ilə bağlı idi. Türkiyənin SSRİ ilə pakt bağlamaqdan yayınması dəyişən Avropada və eləcə də dünyada daha çox balanslaşdırılmış siyasət yeritməyin zəruriliyindən irəli gəlirdi. 1937-ci ilin aprel ayının 25-də Ankaradakı sovet səfiri Karaxan Xarici İşlər Komissarlığına Türkiyənin Baş naziri İ.İnönü ilə söhbəti barədə göndərdiyi məlumatda Türkiyənin narahatçılığını belə izah edirdi: "Əvvəllər türklər bizim müttəfiqimiz olmaq istəyirdilər və buna nail oldular, indi onlar bundan qorxurlar, bizim iştirakçı ola biləcəyimiz hər hansı müharibəyə avtomatik olaraq cəlb olunmağı arzulamırlar" (35). 1937-ci ilin əvvəilərində baş nazir İsmət paşa Sovet səfiri ilə söhbətində açıq şəkildə bildirmişdi ki, Fransa və Almaniya arasında müharibə olacağı təqdirdə Türkiyə neytral qalacaqdır, lakin Almaniya ilə SSRİ arasında müharibə başlanarsa, Türkiyə köhnə və dəyişməz dostluğa sadiq qalacaqdır (36). Yəni bu o demək idi ki, Almaniya təcavüzünə məruz qalacağı təqdirdə Sovetlər Birliyi Türkiyə tərəfindən müdafiə olunacaqdır.

1936-cı ildə Atatürkün Böyük Millət Məclisinin açılışındakı çıxışında, 1937-ci ilin iyununda Baş nazir İ.İnönünün Məclisdəki bəyanatında Sovet İttifaqı ilə dostluğa və əməkdaşlığa böyük önəm verilirdi. İ.İnönü deyirdi: "Son zamanlar Sovetlərlə aramızda bilavasitə soyuqluq olduğunu düşünənlər və fərz edənlər üçün bu qədər açıq bir surətdə söyləməm

bəlkə heyrətə səbəb olacaqdır.Bu səfər müsyo Litvinovla yaxında danışıqlarımda və istər yeni Sovet böyük elçisinin Ankaraya gəlişində görüşlərimiz iki ölkə arasındakı dostluq rabitələrinin olduğunu nəzərimizdə bir daha nümayiş etdirmişdir" (37).

1937-ci ilin iyul ayında Türkiyənin xarici işlər naziri R.Arasın və daxili işlər naziri Şükrü Kayanın Moskvaya səfərləri oldu. Səfər zamanı SSRİ Xalq Komissarları Sovetinin sədri V.Molotov və xarici işlər komissarı M.Litvinovla görüşlər keçirildi. Tevfiq Rüştü Aras Atatürkün yaxın adamlarından biri sayılırdı. 1925-ci ildən-1938-ci ilə qədər Türkiyənin Xarici İşlər Nazirliyinə rəhbərlik etmişdi. Ankaradakı Sovet səfirliyinin R.Aras haqqında hazırladığı gizli məlumatda göstərilirdi ki, "O, müasir Türkiyənin yetərincə tanınmış siyasi simalarından biridir. R.Aras Türkiyə Xarici İşlər Nazirliyinə başçılıq etdiyi zaman çox böyük bacarıqla SSRİ ilə yaxınlaşma siyasəti ilə Qərb, əsas etibarı ilə İngiltərə orientasiyası arasında əlaqə yarada bilib. Son illərdə (1936-1938) Aras açıq ingilis meylli siyasət yeridir". Səfirliyin məlumatında daha sonra göstərilirdi ki, SSRİ-yə münasibətində o, bu illərdə ikiüzlü siyasət yeritmişdir. Bir tərəfdən, SSRİ-yə öz xoş hisslərini izhar edir, digər tərəfdən bütün beynəlxalq diplomatik aksiyalarda SSRİ-nin əleyhinə olub (Montrödə, kollektiv təhlükəsizlik məsələlərində, Nionda və s.). Aras "faşizmlə kommunizm arasındakı mübarizədə Türkiyənin neytrallığı" siyasətini yeridir. Atatürkün yaxın ətrafında olan R.Aras Türkiyənin rəhbərliyindəki üçlüyün üzvü kimi (Celal Bayar, Şükrü Kaya, Rüştü Aras) İsmət İnönüyə qarşı kəskin mübarizə aparanların sırasındadır (38).

Xalq Xarici İşlər Komissarlığının Orta Şərq şöbəsinin R.Aras haqqında hazırladığı digər bir geniş arayışda onun gənc türklər inqilabında fəal iştirak etdiyi, İttihad və Tərəqqi partiyasının tanınmış üzvlərindən biri olduğu, Mustafa Kamal ilə ilk dəfə 1909-cu ildə Salonikdə İttihadçıların konqresində tanış olduğu göstərilirdi. Daha sonra qeyd edilirdi ki, R.Aras Mustafa Kamal paşanın nümayəndəsi kimi Moskvaya gəlib və Kominternin konqresində iştirak edib. O, 1922-ci ilin sentyabrında hərbi qələbələrlə bağlı öz dostları Nadi və Mahmud Essadla birlikdə Kamal paşaya təntənəli təbrik göndərənlərdən, daxili islahatların keçirilməsinə tərəfdarlardan, sultanlığın ləğv edilməsi haqda Riza Nurinin hazırladığı qətnaməni imzalayanlardan və Lozanna müqaviləsini Böyük Millət Məclisində müdafiə edənlərdən biri olub. 1925-ci ilin martında İsmət İnönü hökumətində xarici işlər naziri vəzifəsinə təyin edilib. Elə həmin ilin 17 dekabrında Çiçerinlə birlikdə Aras Türkiyə ilə SSRİ arasında münasibətləri tənzim edən Paris paktını imzalayıb. Sənəddə göstərilirdi ki, ağ rus mühacirlərinin 1928-ci ilin fevralına qədər Türkiyədə qalmasına R.Aras icazə verib. R.Arasın səfəri ərəfəsində hazırlanmış bu arayışda xüsusilə qeyd edilirdi ki, son aylar o, Avropa ilə dinc yanaşı yaşamağa,

Şərq ölkələrində aktiv fəaliyyətdən imtina etməyə və SSRİ ilə münasibətlərin məlum "normallaşdırılmasına", xarici kapitalın fəaliyyətini həvəsləndirməyə tərəfdardır (39).

Türkiyənin daxili işlər naziri Şükrü Kaya haqqında SSRİ Xalq Xarici İşlər Komissarlığının Orta Şərq şöbəsinin hazırladığı məlumatda onun Parisdə siyasi-iqtisadi elmlər üzrə təhsil aldığı, hüquq fakültəsini bitirdiyi, İttihadın üzvü olduğu, 1918-ci ilin barışığından sonra ingilislər tərəfindən həbs edilib Maltaya sürgün edildiyi və yalnız 1922-ci ildə Ankaraya döndüyü qeyd edilirdi. 1923-cü ildə Ş.Kaya Məclisə seçilmiş, 1924-cü ildə əkinçilik naziri, 1924-25-ci illərdə qısa müddət xarici işlər naziri işləmişdir. 1925-27-ci illərdə xarici siyasət üzrə Məclis komissiyasına rəhbərlik etmişdi. 1927-1938-ci illərdə Türkiyə daxili işlər naziri işləmişdi. Sənəddə göstərilirdi ki, 1937-ci ildə o, R.Arasla birlikdə SSRİ-yə səfər etmişdi (40).

Moskva səfəri zamanı V.Molotov və M.Litvinovla aparılan danışıqlarda R.Aras və Ş.Kaya iki ölkə arasında dostluq münasibətlərinin saxlanmasının zəruriliyini qeyd etdilər. Danışıqlar zamanı tərəflər razılığa gəldilər ki, dostluq münasibətlərinin qorunub saxlanması, sülh işinə və Millətlər Cəmiyyətinin prinsiplərinə sədaqət hər iki ölkənin xarici siyasətinin aparıcı istiqaməti, mühüm tərkib hissəsi olmalıdır (41).

Lakin nə Atatürkün bəyanatı, nə İsmət paşanın çıxışı, nə də Türkiyənin iki mühüm nazirinin Moskvaya səfəri Sovet-Türkiyə münasibətlərindəki sərinləşməni aradan qaldıra bilmədi. Montrö sazişindən sonra sovet xüsusi xidmət orqanlarının Türkiyə əleyhinə "ifşaedici" material toplamaq cəhdlərinə əməli xarakter verildi. Türkiyədəki mühacir təşkilatlarının fəaliyyəti ciddi şəkildə izlənməyə başlandı. Öz növbəsində Türkiyə də Sovet İttifaqının xarici siyasətində müşahidə edilən ekspansionist meylləri diqqətlə müşahidə edirdi. Tədricən Türkiyə siyasi dairələrində dünyanın iki bəladan - faşizmdən və kommunizmdən əziyyət çəkməsi kimi fikirlər müzakirə mövzusuna çevrilməkdə idi. 30-cu illərin ortalarında İspaniya hadisələri başlanan zaman Türkiyə mətbuatının çox nüfuzlu nümayəndələrindən olan, siyasi dairələrə yaxınlığı ilə seçilən, fransız dilində çıxan yarımrəsmi həftəlik "Ankara" qəzetinin rəhbəri Falih Rıfkı Atay 1937-ci ildə türk jurnalistləri ilə söhbətində demişdi ki, "İspaniya qarmaqarışıqlığı üçün ilk növbədə Komintern məsuliyyət daşıyır". Atay özü Sovetləri az-çox tanıyan və SSRİ-yə loyal münasibəti ilə seçilən adamlardan idi. 1930-cu ildə xarici işlər naziri R.Arası, 1932-ci ildə isə İ.İnönünü SSRİ-yə səfər zamanı müşayiət etmişdi. 1930-cu ildə nəşr edilən "Yeni Rusiya" və 1932-ci ildə nəşr edilən "Moskva-Roma" kitablarının müəllifi idi. 1934-cü ilin avqustunda SSRİ yazıçılarının qurultayında iştirak etdiyi zaman kimsə bir nəfər "Kominternin agenti" F.Atayı məxfi əməkdaşlığa cəlb etməyə çalışmışdı. Lakin Atay baş

vermiş hadisə haqda təcili Türkiyənin Moskvadakı səfirinə məlumat vermiş, qurultayın başa çatmasını gözləmədən dərhal Türkiyəyə dönmüşdü (42).

Daxili İşlər Komissarlığının 1937-ci ilin mayında Stalin, Molotov və Voroşilova göndərdiyi məxfi məlumatda göstərilirdi ki, guya Polşa kəşfiyyatı Sovet-Türkiyə sərhədlərində silah yerləşdirmək üçün Türkiyə hakimiyyət orqanları ilə gizli danışıqlar aparır. Elə həmin məlumatda göstərilirdi ki, Türkiyə rəsmi qaydada bunun əleyhinə olsa da, polyaklar ümid edirlər ki, Ankara planın gerçəkləşməsinə göz yumacaqdır (43). Başqa bir xəfiyyə məlumatında göstərilirdi ki, Azərbaycan siyasi mühacirətinin başçısı M.Ə.Rəsulzadə ilə görüşü zamanı İrandakı Türkiyə səfiri bildirmişdi: "Türkiyə hərbi dairələrinə gəldikdə Baş qərargah Rusiya əleyhinə iş aparan bütün cərəyanları, bütün qrupları müdafiə edir". Həmçinin Baş qərargahın rəisi Fevzi paşa bu barədə dəfələrlə danışaraq demişdir: Bu gün bizim Rusiya ilə münasibətlərimiz nə qədər yaxşı olsa da, biz türklər məsələyə sabahın nöqteyi-nəzərindən, onun siyasi quruluşunun dəyişdirilməsi nöqteyi-nəzərindən yanaşmalıyıq" (44).

Görünür, bu məlumatlar Sovet rəhbərliyi üçün ona görə maraq doğururdu ki, Ankaradakı Sovet səfirliyi də öz növbəsində marşal Fevzi Çakmak barəsində son dərəcə mənfi materiallar gizli şəkildə Moskvaya ötürürdü. Səfirliyin birinci katibi S.Mixaylovun göndərdiyi məlumatda deyilirdi ki, marşal Fevzi Çakmak kommunizmin qəti əleyhdarıdır. 1925-ci ildə Fəhlə İttifaqı ondan cəmiyyətlərinə fəxri sədr olmağı xahiş etdikdə Çakmak fəxri sədrliyi öz üzərinə götürmək təklifini rədd etmiş və fəhlə ittifaqının nümayəndələrinə demişdi: "Kommunizmin sayəsində böyük və zəngin Rusiya xarabalığa çevrilmişdir. Qoy bu sizə yaxşı dərs olsun". Daha sonra məlumatda qeyd olunurdu ki, Baş qərargah rəisi kimi marşal Fevzi Çakmak Türkiyənin şərq vilayətlərində bizim üçün böyük çətinliklər yaradıb. Onun göstərişi ilə Qarsda Sovet konsulluğu və ticarət nümayəndəliyinin filialı üçün müstəsna dərəcədə çətin bir şərait yaradılıb. Montrö konfransı zamanı R.Aras Sovet nümayəndələrinin bu və ya digər təklifindən imtina edəndə bunu bilavasitə marşal Çakmakın göstərişlərinə istinadən edirdi (45).

Sovet diplomatik orqanları hətta Hatayın Türkiyəyə birləşdirilməsini də marşal Çakmakın fəaliyyəti ilə əlaqələndirirdilər. Onun haqqında hazırlanan məlumatda göstərilirdi ki, hələ 1922-ci ildə Fevzi Çakmak Baş nazir olduğu zaman Türkiyə-Suriya sərhədlərinə səfər etmiş və məhz bu səfərdən sonra Hatayın bir sıra şəhərbrinin əhalisi Türkiyə ilə sərhədlərin təhsis edilməyəcəyi təqdirdə fransızlara qarşı partizan müharibəsinə başlayacaqları ilə hədələmişdilər. Hatay böhranı zamanı Atatürkün 1936-cı ildə Suriya sərhədlərinə nümayişkarcasına səfərinin də sənəddə marşal Çakmakla keçirilən müşavirədən sonra baş tutduğu vurğulanırdı (46).

Hatay probleminin həll olunması Türkiyənin Montrö konfransında qazandığı diplomatik uğurun bilavasitə nəticəsi idi. 1937-ci ilin yanvarından etibarən Hatay məsələsinin həll olunması nəinki Türkiyə xarici siyasətinin, eləcə də Mustafa Kamal paşanın həyatının başlıca məramına çevrilmişdi. Vəfatından düz bir il öncə 1937-ci ilin noyabr ayının 10-da "Cümhuriyyət" qəzetinə verdiyi müsahibədə Atatürk Hatayı şəxsi məsələsi kimi gördüyünü, işin silahlı mübarizə ilə həll olunmasının az ehtimal olunduğunu, fəqət savaş ehtimalını da göz önünə aldığını bildirmişdi. M.Kamal paşa əgər lazım gələrsə prezidentlikdən və Məclis üzvlüyündən istefa verib, bir fərd olaraq ona qoşulacaq bir neçə arkadaşı ilə birlikdə Hataya gedəcəyini və oradakı mücahidlərlə birlikdə məsələni yerində həll edəcəyini açıq və səmimi bir dillə ifadə etmişdi (47).

1938-ci ilin yayında Hatayın qurtuluşu yolunda ciddi addımlar atıldı. İyulun 3-də Fransa və Türkiyə Baş qərargahları arasında imzalanmış sazişə uyğun olaraq iki gün sonra - iyulun 5-də 2500 nəfərdən ibarət olan Türk ordusu Hataya girdi. 24 avqust 1938-ci ildə keçirilən seçgilərdə türklər 40 millət vəkili yerindən 31-ni götürdü və 2 sentyabrda "Hatay Cümhuriyyətinin" müstəqilliyi elan edildi. 29 iyun 1939-cu ildə Hatay Millət Məclisi Türkiyəyə birləşmək haqda qərar qəbul etdi və 23 iyul 1939-cu ildə son fransız əsgərinin Hatayı tərk etməsi ilə bu proses başa çatdı (48).

1937-ci ilin 8 iyulunda Tehranda Türkiyə, İran, Əfqanıstan və İraq arasında on maddədən ibarət Saadabad paktının imzalanması Türkiyənin Yaxın və Orta Şərqdə mövqelərini xeyli gücləndirdi. Saadabad paktına görə, tərəflər Millətlər Cəmiyyətinə və Brian-Kelloq paktına bağlı olduqlarını, bir-birlərinin daxili işlərinə qarışmadıqlarını, ortaq sərhədlərə hörmətlə yanaşdıqlarını, bir-birlərinə qarşı hər hansı təcavüzə yol verməyəcəklərini təsdiq etdilər.(49) Bir sıra Sovet tarixçiləri Türkiyənin öncül rol oynadığı Saadabad paktını Yaxın Şərq Antantası adlandırsalar da, bu paktla Türkiyə bir növ Qərbdə başladığı təhlükəsizlik sistemini Şərqdə tamamladı. Əslində, bir çoxlarının iddiasının əksinə olaraq bu pakt Yaxın və Orta Şərqdə Britaniya təsirinin güclənməsinə deyil, Türkiyənin bölgədə barışçı siyasətin təşkilatçısına çevrildiyini nümayiş etdirdi (50).

1937-ci ilin oktyabrında Baş nazir İsmət İnönünün istefaya göndərilməsi və ictimai fikirdə Qərbpərəst siyasətə tərəfdar kimi qəbul edilən Celal Bayarın Baş nazir təyin edilməsi Sovetlər tərəfindən münasibətlərin soyuqlaşması kimi qəbul olunurdu. Halbuki az sonra Türkiyənin rəhbərliyinə qayıdan İ. İnönü Sovetlərin ehtimalının əleyhinə olaraq Qərblə yaxınlaşma siyasətinin əsas müəlliflərindən birinə çevrildi. SSRİ Xalq Xarici İşlər Komissarlığının Yaxın Şərq şöbəsinin müdiri N.Novikovun İ.İnönü haqqında hazırladığı arayışda göstərilirdi ki, o,

kamalçıların radikal hissəsinin nümayəndəsidir, etatizmin və daxili ehtiyatlara arxalanmağın tərəfdarıdır. Xarici siyasətdə İnönü Türkiyənin müstəqilliyinin müdafiəçisidir, Qərbə ehtiyatla yanaşmağın. SSRİ ilə dostluq münasibətlərinin inkişaf etdirilməsinin tərəfdarıdır. N.Novikovun arayışında göstərilirdi ki, Türkiyənin xarici siyasətdə orientasiyası ilə bağlı Atatürklə İsmət paşa arasında mübahisə yaranmışdı. Guya, bu mübahisənin gedişində o, SSRİ-yə meyllənməyin tərəfdarı olaraq qalmışdı (51).

1937-ci ilin yayında keçirilən Nion beynəlxalq konfransından sonra xarici işlər naziri R.Arasla Baş nazir İ.İnönü arasında başlanan ixtilaflar həmin ilin oktyabr ayının 25-də Baş nazirin istefası ilə sonuclandı. Şübhəsiz ki, bu işdə Atatürkün yaxın əhatəsində və ətrafında İsmət paşa əleyhinə aparılan intriqalar az rol oynamamışdı.

Yeni təyin edilmiş Baş nazir Mahmud Celal Bayar Sovet xüsusi və diplomatik orqanları tərəfindən iri burjuaziyanın nümayəndəsi və Qərbin adamı kimi qiymətləndirilirdi. Həm də C.Bayar hərbçi deyil, mülki vətəndaş kimi Baş nazir vəzifəsinə təyin edilmişdi. Sovet diplomatik orqanlarının hazırladığı arayışda onun həyat yolu çox geniş əhatə olunmuşdu. Hələ 20-ci illərin əvvəllərindən başlayaraq məsul vəzifələrdə çalışan C.Bayar 1920-22-ci illərdə iqtisadiyyat naziri, 1922-23-cü illərdə xarici işlər nazirinin müavini işləmiş 1923-cü ildə hökumət tərəfindən Mosul nefti barədə qeyri-rəsmi danışıqlar aparmaq üçün Avropaya göndərilmişdi. Lozanna konfransında o, iqtisadi məsələlər üzrə məsləhətçi olmuşdu. Dövlət işləri ilə yanaşı, şəxsi biznes sahəsində də C.Bayar istedadlı, işgüzar adam kimi xarakterizə edilirdi. O, 1924-cü ildə təsis edilən İş bankının əsas payçılarından, bir il sonra isə yeni yaradılan fransız-türk birgə "Anadolu" sığorta cəmiyyətinin idarə heyətinin üzvlərindən biri idi. C.Bayar 1932-ci ildə iqtisad naziri təyin edilmişdi və Baş nazir olana qədər bu vəzifədə çalışmışdı. SSRİ Xarici İşlər Komissarlığının Orta Şərq şöbəsinin hazırladığı materiallarda C.Bayar mürtəce daxili siyasət yeridən, diktatura meylli, iri burjua dairələrinin maraqlarını təmsil edən siyasi xadim kimi təqdim edilirdi. Xarici siyasətdə isə o, Türkiyənin SSRİ-dən uzaqlaşmasının, beynəlxalq aləmdə SSRİ ilə birgə əməkdaşlıqdan imtinanın, imperialist, o cümlədən faşist rejimli dövlətlərlə yaxınlaşmanın, "bitərəflik" siyasəti yeridilməsinin əsas tərəfdarı kimi qiymətləndirilirdi (52).

Xalq Xarici İşlər Komissarlığının 1938-ci ilin oktyabrında C.Bayarla bağlı SSRİ Ali Sovetinin xarici işlər üzrə komissiyasına təqdim etdiyi məlumat vərəqəsində göstərilirdi: Bir tərəfdən Anadolu ticarət burjuaziyasının komprador elementlərlə birləşməsi prosesinin başa çatması, digər tərəfdən Türkiyədə fəhlə sinfinin inkişafı və bununla bağlı fəhlə hərəkatının güclənməsi Türkiyə hökumətinin və Türkiyə "Xalq respublikaçı

partiyanın" rəhbərliyinə Celal Bayar başda olmaqla iri burjuaziyanın gəlməsi ilə nəticələndi. 1937-i ildə İsmət İnönünün Baş nazir vəzifəsindən getməsi bu dəyişikliklərin nəticəsidir (53).

Ankarada olan Sovet səfiri A.Terentiev Xarici İşlər Nazirliyinə göndərdiyi 11 sentyabr 1938-ci il tarixli gizli məruzəsində C.Bayarı Türkiyə irticasının və imperialist dövlətlərin arzu və istəklərinə uyğun gəldiyini qeyd edərək yazırdı: "Bayar əsas qayəsi nə qədər mümkünsə o qədər tez varlanmaqdan ibarət olan yüz faiz möhkəm formalaşmış möhtəkir və mənfəətpərəstdir. İngilispərəstlərin təsirində olan, almanların qılığına girən Bayar Sovet rejimi təsirinə qarşı qəti mübarizə aparanlardandır. Hakimiyyətə gəlməklə o, Sovet İttifaqı haqqında həqiqəti bilməyə cəhd edən ictimai fikri boğmaq üçün nə lazım idisə, onu da özü ilə gətirdi. Şükrü Kaya ilə birlikdə o, dəfələrlə "xarici təbliğat" adı altında işarə edib ki, guya Türkiyə Respublikası üçün əsas təhlükə SSRİ tərəfdən gəlir" (54).

Sovet səfirliyinin sonrakı məlumatları da təxminən bu ruhda idi. Onlar səhv olaraq Sovet-Türkiyə münasibətlərinin sərinləşməsini C.Bayarın hakimiyyətə gəlməsində görürdülər. Səfir A.Terentiev xarici işlər komissarı M.Litvinova 31 oktyabr 1938-ci il tarixli gizli məktubunda yazırdı: "İsmətlə Bayar arasında qatı düşmənçilik vardır. Ordu, Türk parlamentinin üzvlərinin böyük əksəriyyəti, türk ictimaiyyətinin radikal əhvali-ruhiyyəli hissəsi İsmətin tərəfindədir. Atatürk dövründə Türkiyənin "həddindən artıq demokratik dövlət" olduğunu hesab edən mürtəce burjuaziya Bayarın tərəfində dayanıb. Bayara görə ölkənin yeni siyasi xətti faşist Almaniyası ilə daha sıx əlaqədə olmalıdır (55).

Əslində Bayarın gəlişindən sonra faşist Almaniyası ilə Türkiyənin əlaqələrinin yaxşılaşması haqqında Sovet diplomatik idarələrinin açıq və gizli məlumatları, habelə Sovetlər Birliyində bu məsələ ilə bağlı yaranmış narahatçılıqlar həqiqətə uyğun deyildi. 1937-ci ildə Almaniyanın Montrö sazişinə düzəliş etmək təklifi Türkiyə tərəfindən rədd edildi. Türkiyə Xarici İşlər Nazirliyi Ankaradakı Sovet müvəqqəti işlər vəkili Nikitnikova məlumat verdi ki, Almaniya hökuməti Boğazlar barəsində Türkiyə-Almaniya müqaviləsi bağlamağa təkid etsə də, Türkiyə buna rədd cavabı verdi (56).

Türkiyə bir tərəfdən həmin dövrdə aparıcı dövlətlərin çoxu kimi Almaniya və İtaliyanı qıcıqlandıran addımlardan uzaq olmağa çalışırdısa, digər tərəfdən SSRİ ilə əvvəlki dostluq münasibətlərini nümayiş etdirməyə və bununla da Türkiyənin Montrödəki mövqeyinə və qarşılıqlı yardım haqda paktla bağlı danışıqlara Sovet rəhbərliyinin arzuolunmaz münasibətini neytrallaşdırmağa səy edirdi. Xarici işlər naziri R.Aras 1938-ci ilin iyulunda Terentievlə söhbətində bildirmişdi: "Türkiyə heç vaxt, heç bir şəraitdə Sovet İttifaqına qarşı mübarizə cəbhəsinə qoşulmaz, çünki SSRİ həmin ölkədir ki, Türkiyənin ən ağır vaxtlarında silah, siyasi

və mənəvi yardım göstərməklə bizi müdafiə etmişdir. Ancaq Siz və İngiltərə bizə təmənnasız maddi sə siyasi yardım göstərən ölkələrdənsiniz" (57).

Göründüyü kimi, bütün bunlar hamısı C.Bayarın Baş nazir olduğu dövrə təsadüf edir və Sovet İttifaqına münasibətdə C.Bayarın siyasəti 30-cu illərin ortalarından başlayaraq həyata keçirilən balanslaşdırma siyasətinin bilavasitə davamı idi. Konsulluqların qarşılıqlı şəkildə məhdudlaşdırılması haqqında SSRİ ilə Türkiyə arasında 1938-ci ilin fevralında imzalanan sazişə gəldikdə isə qeyd etmək lazımdır ki, bu tək Türkiyədən deyil, həm də Sovetlər Birliyindən asılı olan proses idi. Bu sazişə görə Türkiyə Odessada, Bakıda, Yerevanda və Leninakanda, SSRİ isə İzmir və Qarsda öz konsulluqlarını bağladılar. Qarşılıqlı razılıq əsasında İstanbulda Sovet, Batumda isə Türkiyə konsullugları saxlanıldı (58).

Nəzərə almaq lazımdır ki, Ərzurumda, Trabzonda, Samsunda, Sankamışda, Rizedə, Artvində və Beyazitdə olan Sovet konsulluq və Baş konsulluq idarələri daha öncə bağlanmışdı.

1938-ci ilin 10 noyabrında Atatürkün vəfatı Sovet-Türkiyə münasibətlərində başlanmış soyuqlaşmanı daha də dərinləşdirdi. Türkiyə xarici siyasətində balanslaşdırma siyasəti 1936-cı il Montrö konfransından başladığına baxmayaraq, Atatürkün vəfatından sonra bir növ Sovetlər Türkiyə xarici siyasətini təftiş etmək üçün əlavə dəlillər əldə etdi. Bununla belə, Türkiyə ilə münasibətlər üzrə SSRİ Xarici İşlər Komissarlığının baş məsləhətçilərindən olan A.F.Miller Atatürkün vəfatı ilə baglı yazırdı: "Öz ölkəsini və öz xalqını sevən, onun bütün dərdlərini duyan, geniş siyasi düşüncəyə və böyük iradəyə malik olan Kamal Atatürk vəfat etdi. O, Türkiyə üçün SSRİ ilə dostluğun həlledici əhəmiyyətini anlayırdı və böhranlı anlarda Türkiyə xarici siyasətinin sükanını ağır dönüşlərdən saxlamağa qadir olan xadim idi" (59).

Atatürkün vəfatından sonra İsmət İnönü 11 noyabr 1938-ci ildə Türkiyə Böyük Millət Məclisində ölkənin ikinci prezidenti seçildi. Türkiyə siyasi ənənələrinə uyğun olaraq Baş nazir C.Bayar istefa ərizəsini prezidentə təqdim etsə də, İsmət paşa "birgə çalışacağıq" deyə yeni hökumət kabinetinin qurulmasını C.Bayara tapşırdı. Lakin xarici işlər naziri R.Aras və daxili işlər naziri Ş.Kaya yeni hökumət kabinetində yer almadılar. 1938-ci ilin noyabrından başlayaraq Türkiyənin xarici siyasət idarəsinə Şükrü Saracoğlu rəhbərlik etməyə başladı. 1939-cu ilin yanvarında Baş nazir C.Bayar da istefaya getməli oldu. Ankaradakı sovet səfirliyi SSRİ Xarici İşlər Komissarlığına göndərdiyi gizli məlumatda C.Bayarın Baş nazir vəzifəsindən götürülməsini onunla İsmət İnönü arasında düşmənçilik münasibəti ilə əlaqələndirirdi. Səfirliyin məlumatında deyilirdi: Baş nazir vəzifəsindən getməyin formal səbəbi aviasiya fırıldağı, "İmpeks" və "Dənizbank" işi ilə bağlıdır. Türk ictimaiyyəti Bayarın Baş nazir, ona qədər isə iqtisadiyyat naziri vəzifəsində olduğu

dövrdə müəssisələrdə sui-istifadə hallarının artdığını qeyd edərək onu milyonları ələ keçirmiş natəmiz, çirkin möhtəkir kimi qəbul edir.

İstefanın səbəbi onunla bağlıdır ki, İsmət ona qarşı mübarizə aparan və onu gözü götürməyən Bayara dözə bilmədi. Əslində, Bayar İsmət əleyhinə Şükrü Kaya, Aras və digərlərinin daxil olduğu qrupun ideoloqudur (60).

Bayarın istefasından sonra 1939-cu ilin yanvar ayında doktor Refik Saydam Baş nazir təyin edildi. O, 1942-ci ilin iyulunda vəfatma qədər Türkiyə Nazirlər Kabinetinə başçılıq etdi (61).

İ.İnönünün və Ş.Saracoğlunun gəlişi ilə Türkiyə xarici siyasətində yeni bir mərhələ başladı. Lakin bu, şəxslər üzərində qurulan dəyişmə deyildi. Bu dəyişən zamana uyğun olaraq əsası Atatürk tərəfindən qoyulmuş geniş təhlükəsizlik sisteminin təmin edilməsinə yönəlmiş xarici siyasət doktrinası idi. Bu mərhələni şərtləndirən ən mühüm amil Almaniya-İtaliya ittifaqının daha da möhkəmlənməsi və onların Cənub-Şərqi Avropaya, xüsusilə Balkanlara açıq iddialar irəli sürməsi ilə bağlı idi. İtaliyanın 1939-cu ilin aprelində Albaniyanı işğal etməsi Türkiyəni ciddi şəkildə düşünməyə vadar etdi. İngiltərə və Fransanın aprelin ortalarında Yunanıstana və Rumıniyaya təminat verməsi və bu təminatın Türkiyəyə də aid ola biləcəyini elan etmələri Türkiyə uğrunda mübarizənin başlandığından xəbər verirdi. Almaniyanın çox mühüm dövlət adamı olan Frans fon Papenin Ankaraya səfir təyin edilməsi bu mübarizənin tərkib hissəsi idi. Səfir kimi fəaliyyətə başlayan fon Papen türk-ingilis yaxınlaşmasını önləmək üçün Ş.Saracoğluna Almaniyanın Türkiyəyə hər cür təminatlar verməyə hazır olduğunu, əvəzində isə Türkiyədən bitərəfliyindən başqa bir şey istəmədiyini, yalnız iqtisadi əlaqələri davam etdirməkdə maraqlı olduğunu açıqladı. Lakin Türkiyə Almaniya ilə əməkdaşlığa getmədi. Bunun əksinə olaraq Türkiyə ilə İngiltərə arasında aprel ayının 15-də başlayan danışıqlar 1939-cu ilin 12 mayında qarşılıqlı yardım haqqında ingilis-türk sazişinin bağlanması ilə nəticələndi. Hatay problemi tənzimləndiyindən 1939-cu ilin 23 iyununda Fransa ilə Türkiyə arasında da belə bir saziş imzalandı.

Qeyd etmək lazımdır ki, 1939-cu ilin aprel ayının ortalarından başlayaraq Sovet İttifaqı ilə İngiltərə və Fransa arasında hərbi ittifaq bağlamaq haqqında da danışıqlar gedirdi. Bu danışıqlarda Türkiyə xüsusi yer tuturdu. 1939-cu ilin may ayında SSRİ Xarici İşlər Komissarlığında İngiltərə və Fransaya münasibətdə sərt kursun tərəfdarı olan V.Molotovun əməkdaşlığa meylli olan M.Litvinovu əvəz etməsi sovet-alman əməkdaşlığı üçün əlverişli şərait yaratdı. Belə ki, həmin danışıqlar davam etdiyi zaman Sovet hökuməti bir tərəfdən, İngiltərə və Fransanın maraqlarına qarşı yönəlmiş Almaniya ilə sazişin imkanlarını öyrənir, digər tərəfdən isə SSRİ xarici işlər komissarının müavini V.P.Potyomkini

qarşılıqlı yardım haqqında Sovet-Türk müqaviləsini müzakirə etmək üçün Ankaraya göndərmişdi.

Xarici işlər komissarı M.Litvinov 1939-cu ilin aprel ayının 21-də Türkiyədə SSRİ-nin müvəqqəti işlər vəkili İ.O.Nikitnikova vasitəsi ilə Ş.Saracoğluna çatdırmışdı ki, təcili əlaqələr yaratmaq məqsədilə SSRİ Xarici İşlər Komissarlığı Ş.Saracoğlunun əvvəlki xahişinə uyğun olaraq Potyomkini Ankaraya göndərir. Eyni zamanda az əvvəl Sovet İttifaqı ilə əlaqələrə intensiv xarakter vermək üçün Ş.Saracoğlu Batuma gəlib Sovet nümayəndələri ilə görüşməyə hazır olduğunu bildirmişdi. Lakin Sovet tərəfi Ş.Saracoğlunun Moskva səfərinə qədər Batum görüşünü təxirə salmağı və zəruri olan məsələləri V.Potyomkinlə Ankarada müzakirə etməyi məqsədəuyğun saymışdı (62).

V.Potyomkin hələ Bolqarıstan xarici işlər naziri ilə danışıqlarda "dost Türkiyə hökuməti ilə" Şərqi Avropa və Balkanlara alman təhlükəsinin artması ilə bağlı həyəcanlı vəziyyəti müzakirə etmək barədə ona tapşırıq verildiyini bildirmişdi və aprel ayının sonlarında Sofiyadan İstanbula yola düşmüşdü (63).

Aprel ayının 29-da Potyomkin Ş.Saracoğlu, aprelin 30-da isə İ.İnönü ilə görüşdü. V.Potyomkinin Moskvaya göndərdiyi təcili teleqramdan aydın olur ki, İ.İnönü Avropada təcavüzkara qarşı Türkiyə, Balkan Antantası, SSRİ və İngiltərənin eyni mənafeyə malik olduqlarını vurğulayıb. Danışıqlar zamanı Türkiyənin prezidenti təcavüzkarın qarşısında ciddi sədd ola biləcək Balkan ölkələri birliyinin yaradılmasına böyük əhəmiyyət verdiyini, SSRİ və İngiltərənin bu işdə mühüm rol oynaya biləcəyini xüsusi qeyd etmişdi. İ.İnönü bildirmişdi ki, Türkiyə gözlənilən İtaliya təcavüzünə qarşı İngiltərə ilə qarşılıqlı yardım haqqında saziş bağlamağa hazırdır. Eyni zamanda o, əlavə etmişdi ki, Boğazlara İtaliya, yaxud Almaniya tərəfindən təcavüz olarsa, Türkiyə öz silahlı qüvvələri vasitəsi ilə Boğazları müdafiə edəcəkdir. Bu istiqamətdə İ.İnönü İngiltərə və Sovet İttifaqının iqtisadi, maliyyə, texniki vasitələr və hərbi sursatla köməyinə böyük ehtiyac olduğunu açıqladı. Hətta İ.İnönü bildirdi ki, əgər İtaliya və alman təcavüzü Balkanlarda Türkiyənin milli maraqları və təhlükəsizliyini təhdid etsə, Türkiyə təcavüzkara müqavimət göstərəcəkdir (64).

May ayının 1-də Ş.Saracoğlu V.Potyomkinlə danışıqlarda onu aprelin 15-də və 25-də Britaniya səfirinə göndərdiyi məktubların məzmunu ilə tanış etdi. Bu məktublarda təcavüzkara qarşı mübarizədə Türkiyə-İngiltərə, İngiltərə-SSRİ və SSRİ-Türkiyə qarşılıqlı yardım haqqında sazişlərinin mühüm rol oynaya biləcəyi göstərilirdi. Sənəddən aydın olurdu ki, təhlükəsizlik sistemini etibarlı etmək üçün Türkiyə hökuməti İngiltərə və Türkiyənin SSRİ ilə danışıqlarının nəticələrini gözləməyi zəruri sayırdı. Bununla belə V.Potyomkin Moskvaya verdiyi məlumatda İngiltərə və Türkiyə arasında danışıqların gizli qaldığını yazırdı (65).

SSRİ-nin Türkiyədə səlahiyyətli nümayəndəsi A.V.Terentiyevin Xarici İşlər komissarı V.Molotova 10 may 1939-cu il tarixli teleqramından aydın olur ki, Sovet İttifaqı artıq xaricdəki nümayəndələrinə Almaniya diplomatları ilə yaxınlaşmaq barədə göstəriş vermişdir. A.Terentiyev V.Molotova yazırdı: Sizin 9 may 1939-cu il tarixli direktivinizi dəqiqliklə rəhbər tutaraq Papenlə görüşdüm. Səmimi və nəzakətli keçən söhbət 40-50 dəqiqə davam etdi. Məndə belə bir təəssürat yarandı ki, Papen ola bilsin Berlindən gələn direktivə uyğun olaraq Sovet İttifaqı nümayəndəsinə loyal münasibət nümayiş etdirmək qərarına gəlib, halbuki biz son illər indiki alman səfirinin sələfləri tərəfindən belə bir münasibəti qəti şəkildə görməmişdik. Söhbət zamanı Papen iki dəfə bildirdi ki, indi SSRİ ilə Almaniya arasında səmimi münasibətlərin olmamasına baxmayaraq, müxtəlif ideologiyalar və rejimlər bu dövlətlərin yaxınlaşmasına maneçilik törətməməlidir. Papen dedi: "İdeologiyam bir tərəfə qoymaq və Bismark dövrünün dostluğuna qayıtmaq lazımdır. Onun fikrincə, SSRİ və Almaniyanı heç bir ziddiyyət bir-birindən ayırmırdı" (66).

1939-cu ilin may ayının 12-də A.Terentiyev SSRİ Xarici İşlər Komissarlığına göndərdiyi teleqramda göstərirdi ki, Baş nazir R.Saydam bu gün ingilis-türk sazişinin mətnini parlamentdə oxudu və bu barədə geniş bəyanatla çıxış etdi. O bildirdi ki, indiyə qədər Türkiyə hökuməti sülh siyasətinə öz sədaqətini neytrallıq prinsiplərini əsas tutmaqla ifadə edib. Lakin təhlükəli hadisələr Balkanlara yayıldığı vaxtdan, Aralıq dənizinin təhlükəsizliyi Türkiyənin milli həyatında özünü hiss etdirməyə başladığı andan Türkiyə hökuməti belə bir nəticəyə gəldi ki, bundan sonra onun bitərəf qalması mümkün deyildir. Bütün bunlara aydınlıq gətirdikdən sonra R.Saydam bildirdi ki, Türkiyə İngiltərə ilə yanaşı dayanmağa qərar verdi. Hökumət İngiltərə ilə imzalanmış Bəyannaməni sülh və təhlükəsizliyin qorunması, müharibənin başlanması təhlükəsinin uzaqlaşdırılması kimi xarakterizə edirdi. R.Saydam qeyd etdi ki, bu Bəyannamədən və Böyük Britaniya ilə Sazişin bağlanması başa çatdıqdan sonra Fransa ilə də eyni məzmunlu danışıqlar başlanacaq. Baş nazir bildirdi ki, bizim böyük qonşumuz və dostumuz Sovetlər ilə daha artıq səmimi və yaxın əlaqələrimiz davam etdriləcək. Baxışlarımızın və maraqlarımızın eyniliyi bizim qarşımızda açılan əməkdaşlıq yolunun nə qədər aydın olduğunu göstərir.

Böyük Millət Məclisinin iclasından dərhal sonra R.Saydam SSRİ-nin səlahiyyətli nümayəndəsi A.Terentiyevlə görüşdü və V.Potyomkinin bu yaxınlarda olan səfərindən Türkiyə hökumət başçılarının məmnun qaldığını ən səmimi sözlərlə ifadə etdi. R.Saydam belə hesab edirdi ki, yaxın vaxtlarda Türkiyə ilə SSRİ arasında danışıqlara başlayıb, iki ölkə arasında faktiki mövcud olan ittifaqı hüquqi cəhətdən tamamlamaq

lazımdır. Almaniya səfiri Papenlə bağlı məsələyə toxunaraq R.Saydam dedi ki, onun missiyasının başlıca məqsədi Türkiyənin İngiltərə və SSRİ ilə yaxınlaşmasına mane olmaqdır və Türkiyə hökuməti bu barədə məlumatlıdır. Baş nazir bildirdi ki, Papen Birinci Dünya müharibəsi dövründə qurduğu köhnə əlaqələrə arxalanaraq bu niyyətini həyata keçirmək istəyir, lakin Papenin bu niyyəti uğur qazanmayacaqdır (67).

Bütün bunlara baxmayaraq, aprel-may aylarında Ankarada başlanan Türkiyə-Sovet danışıqları 1939-cu ilin payızında Moskvada davam etdirilsə də elə bir nəticə vermədi. Belə ki, 1939-cu ilin avqust ayının 23-də artıq hücum etməmək haqqında Sovet-Almaniya müqaviləsi imzalanmışdı və bununla da Sovet İttifaqı özünün xarici siyasətdə əsas kursunu müəyyən etmişdi. Hücum etməmək haqqında Sovet-Alman müqaviləsinin bağlanması Avropada güclənən təcavüzkar əleyhinə geniş cəbhə yaradılmasına bəslənilən ümidləri boşa çıxartmaqla yanaşı, Türkiyə tərəfindən də həyəcanla qarşılandı. Türk tarixçilərindən Ahmet Şükrü Esmer və Oral Sanderin dediyi kimi, "Türkiyə ilə Sovet İttifaqının yolları ayrıldı" (68). Beləliklə də, SSRİ ilə Almaniya arasında məlum 23 avqust müqaviləsinin və ona əlavə olan gizli protokolların imzalanması ilə dünya böyük müharibənin bir addımlığında dayanmalı oldu.

## II FƏSİL
## Dünya müharibəsinin birinci mərhələsində Sovet-Türkiyə münasibətlərinin əsas istiqamətləri

Sovet İttifaqı ilə Almaniya arasında hücum etməmək haqqında 23 avqust 1939-cu il müqaviləsinin bağlanması İkinci Dünya müharibəsinə hazırlığın sonuncu hadisəsi oldu. "Yeni sabah" qəzeti 28 avqust tarixli sayında Sovet-Alman müqaviləsi ilə bağlı qeyd edirdi ki, baş verən hadisə nəticəsində sülh cəbhəsi Sovet İttifaqının köməyinə ümidini itirdi. Əgər Rusiya sülh cəbhəsinə qoşulsaydı, ola bilsin ki, müharibə olmazdı. Lakin indi müharibə təhlükəsi güclü şəkildə artmaqdadır. "Yeni sabah"ın ehtimalı düz çıxdı. Bu müqavilənin məntiqi davamı olaraq sentyabrın 1-də Almaniya Polşaya müharibə elan etdi. İki gün sonra sentyabrın 3-də İngiltərə və Fransanın Polşa ilə olan müqavilə öhdəliklərinə uyğun olaraq Almaniyaya müharibə elan etmələri dünyada yeni hərbi, siyasi, diplomatik vəziyyətin yaranması ilə nəticələndi. İkinci Dünya müharibəsi başlandı.

Bu dövrdə Türkiyənin xarici siyasətinin çıxış nöqtəsini ölkəni müharibədən, hərbi əməliyyatlardan kənar saxlamaq, təcavüzün dəf edilməsi üçün etibarlı müdafiə sistemi qurmaq və bu sistemi beynəlxalq müqavilələr bağlamaq yolu ilə möhkəmləndirmək təşkil edirdi. Polşadakı hadisələri Türkiyə diqqətlə izləyirdi. Polşa təslim olduqdan sonra səfir Cemal Hüsnü Taray başda olmaqla Varşavadakı Türkiyə diplomatik korpusu Polşa hökuməti ilə birlikdə ölkəni tərk etmiş və Buxarestə gəlmişdi. Bir müddət Rumıniyada qaldıqdan sonra Türkiyə diplomatik heyəti Polşa hökuməti ilə birlikdə Fransaya getmiş, Fransa təslim olduqdan sonra Ankaraya dönməli olmuşdu. C.H.Taray Türkiyənin tanınmış diplomatlarından idi. 1930-1936-cı illərdə İsveçrədə səfir işlədiyi zaman o, eyni zamanda Türkiyəni Millətlər Cəmiyyətində təmsil etmişdi (1).

Polşanın təslim olması ilə bağlı tanınmış türk jurnalisti Hüseyn Cahid Yalçın "Yeni sabah" qəzetin 23 sentyabr 1939-cu il tarixli sayında yazırdı ki, Polşa dövləti rusların müdaxiləsi nəticəsində çökdü. H.C.Yalçın Türkiyənin ən tanınmış jurnalistlərindən biri olduğundan Sovet səfiri S.Vinoqradov Xarici İşlər Komissarlığının mətbuat şöbəsinin müdiri Palqunova və Yaxın Şərq şöbəsinin müdiri Novikova göndərdiyi hesabatda qeyd edirdi ki, Yalçının fikri ilə Türkiyə Respublikasının prezidenti özü belə hesablaşır (2). Müharibə başlandıqdan sonra "Ulus" qəzetindəki yazılarında Ahmet Şükrü Esmer belə bir ideyanı təbliğ edirdi ki, SSRİ-nin siyasəti düzgün deyildir, müharibə məhz Sovetlərin günahı ucbatından başlanmışdır. Uzun müddət, 1939-cu ilin payızına qədər SSRİ-nin xeyrinə

yazılar verən "Tan" qəzeti də Sovet-Alman müqaviləsindən sonra antisovet düşərgəyə keçdi və Sovet İttifaqının Almaniya ilə imzaladığı paktla müharibənin başlanmasında başlıca rol oynadığını təbliğ etməyə başladı. "Tan"ın yazıları o qədər sərt mövqedən yazılırdı ki, “Правда” qəzeti "Ankarada bazardır, bazarda isə "Tan" qəzeti" məqaləsi ilə ona cavab verməli olmuşdu. 'Tan"ın redaktoru Zekeriyye Sertel əvvəl SSRİ-yə rəğbət bəsləyən qəzetçilərdən sayılsa da, müharibə başlayandan sonra ilk redaktorlardan idi ki, Sovetlərin xarici siyasətini imperialist siyasət adlandırmışdı. Türkiyədə çıxan nüfuzlu "Vakıt" qəzetinin də mövqeyi belə idi. Asım Us "Vakıf' dakı yazılarında qəti şəkildə təsdiq edirdi ki, SSRİ hazırda Avropada baş verən müharibənin əsas günahkarıdır. O belə hesab edirdi ki, SSRİ Boğazları tutmaq istəyir və əlavə edirdi ki, Türkiyə buna heç vaxt yol verməz. Sovet səfirliyinin məlumatında göstərilirdi ki, bütövlükdə İstanbul və Ankarada 42 gündəlik qəzet və 169 jurnal nəşr olunur. Müharibə başlandıqdan sonra onların əksəriyyəti SSRİ-ni bu müharibədə əsas günahkarlardan biri kimi damğalayırdı (3).

İkinci Dünya müharibəsi başlandıqdan sonra SSRİ-nin 1939-cu ilin sentyabrında Polşaya hərbi müdaxiləsi, Qərbi Ukrayna və Qərbi Belorusiyanı işğal etməsi, Rumıniyaya qarşı ərazi iddiaları irəli sürməsi, Balkanlarda hərbi və siyasi cəhətdən fəallaşması Türkiyənin diqqətindən kənarda qala bilməzdi. Ölkə prezidenti İ.İnönü dünya müharibəsinin başlanmasından az sonra Türkiyə Böyük Millət Məclisindəki çıxışında deyirdi: "Avropa böhranı sülhü qorumağa yönəlmiş mübarizənin zaman-zaman ümidverici səhifələrindən sonra büsbütün alovlanmış və nəhayət, hərb faciəsinin partlaması meydana gəlmişdir. Sizin səmimi hissiyyətinizə də tərcüman olduğuma əmin olaraq bu vəziyyətdən dərin iztirab və hüzn duyduğumuzu deməyə bilmərəm. Cümhuriyyət hökuməti bütün bu dövrlərdə sülhə xidmət etmək və öz təhlükəsizliyini təmin etmək üçün mübarizəsini əsas vəzifə kimi həyata keçirmişdir" (4).

Müharibə astanasında imzalanmış Sovet-Alman müqaviləsi Türkiyə siyasi dairələrində böyük həyəcana səbəb olsa da, Türkiyə hökuməti Sovetlərə münasibətdə əvvəlki əlaqələri saxlamaqda və daha da dərinləşdirməkdə maraqlı idi. 1939-cu ilin may-iyun aylarında Türkiyənin İngiltərə və Fransa ilə ikitərəfli bəyannamələr imzalaması, müharibənin ilk günlərində Böyük Britaniyanın Türkiyənin ərazi bütövlüyünə təminat verməsi yalnız siyasi dairələrdə deyil, ictimai fikirdə də müsbət qarşılanmışdı. Lakin Türkiyə prezidenti İ.İnönü belə bir təminatı SSRİ-dən də almaq istəyirdi (5). Bunu Türkiyənin Sovet İttifaqı ilə qarşılıqlı yardım haqqındaı ikitərəfli pakt bağlamaq cəhdləri də təsdiq edir. Sovet-Türkiyə münasibətlərinin çox tanınmış araşdırıcısı B.M.Potsxveriya Sovetlərin dağılmasından sonra bu dövrün hadisələrini təhlil edib haqlı olaraq belə qənaətə gəlir ki, Türkiyə hökuməti bir tərəfdən İngiltərə və

Fransa ilə, digər tərəfdən Almaniya və İtaliya ilə əvvəlki siyasətini yeritsə də, əslində daha çox İngiltərə, Fransa və Sovet İttifaqına istiqamətlənmişdi. Türkiyə İngiltərə-Fransa-Sovet koalisiyasının yaranmasını, təcavüz əleyhinə müdafiə məqsədi ilə SSRİ ilə müqavilə bağlamağı zəruri hesab edirdi. Halbuki sovet dövründə nəşr olunmuş əsərlərində V.M.Potsxveriya 1939-cu ilin payızında Sovet-Türkiyə danışıqlarının heç bir nəticə verməməsinin və bütövlükdə qarşılıqlı yardım haqqında müqavilənin bağlanmamasının günahını Türkiyə tərəfində görürdü (6). Bu fikir SSRİ-Türkiyə münasibətləri ilə bağlı bütün Sovet dövrü tarixşünaslığı üçün səciyyəvi idi. Məsələn, Türkiyə xarici siyasətinin öyrənilməsi üzrə tədqiqatlar aparan keçmiş sovet alimi R.S.Korxmazyan qeyd edirdi ki, Sovet-Türkiyə danışıqlarını İngiltərə-Fransa-Sovet danışıqlarından asılı edən Türkiyə hökuməti bu danışıqların başa çatmasını gözləmədən İngiltərə və Fransa ilə razılığa gəlməyə tələsdi (7). Sovetlər Birliyi dağıldıqdan sonra SSRİ xarici siyasəti ilə bağlı açıqlanan yeni arxiv sənədləri Türkiyəyə münasibətdə irəli sürülən iddiaların əsassız olduğunu təsdiq etdi. Hətta 23 avqust Sovet-Alman müqaviləsinin imzalanmasına baxmayaraq Türkiyə siyasi dairələri Sovet İttifaqı ilə qarşılıqlı yardım haqqında müqavilə bağlaya biləcəyinə ümidini itirməmişdi. Hələ avqust ayının 10-da SSRİ-nin səlahiyyətli nümayəndəsi A.Terentiyevlə görüşdə Ş.Saracoğlu bildirdi ki, avqust ayının 8-də Nazirlər Kabineti Türkiyə ilə SSRİ arasında ikitərəfli qarşılıqlı yardım paktının imzalanması haqqında müsbət qərar qəbul edib və danışıqların aparılmasını ona tapşırıb. O, dedi ki, zərurət olacağı halda hökumət onun Moskvaya səfərini bəyənir. Ş.Saracoğlu xahiş etdi ki, V.Molotov paktın ilkin layihəsini tanış olmaq üçün ona göndərsin və əlavə etdi ki, hökumət bu ilkin layihəni səbirsizliklə gözləyəcək. A.Terentiyevin suallarına cavab olaraq Ş.Saracoğlu bildirdi ki, Türkiyə hökuməti ikitərəfli paktın imzalanmasına müsbət yanaşır, Türkiyə hökuməti paktın ilkin layihəsini Sovet hökumətindən gözləyir və paktın layihəsini öyrəndikdən sonra mənim Moskvaya səfərimi faydalı hesab edir. Ş.Saracoğlu danışıqlarda əsas kimi V.Potyomkinlə Ankarada aparılan müzakirələrin götürülməsini təklif edirdi. Qarşıdakı danışıqlarda Qara dənizdə, Boğazlarda və Aralıq dənizində əməkdaşlıq haqqında müzakirələrin gedə biləcəyini vurğulayan Ş,Saracoğlu dedi ki, əlbəttə, Türkiyə hökuməti məhdud məsuliyyətlə pakt imzalaya bilər, Türkiyə SSRİ-nin şimal və uzaq şərq sərhədləri ilə bağlı öz üzərinə öhdəlik götürə bilməz (8). Bu məqsədlə danışıqlar aparmaq üçün Türkiyə xarici işlər naziri Şükrü Saracoğlu sentyabrın 24-də SSRİ-yə yola düşdü və iki gün sonra Moskvaya çatdı.

Türkiyədə fəaliyyət gostərən Sovet diplomatik idarələrinin Xarici İşlər Komissarlığına göndərdiyi gizli məlumatlarda Ş.Saracoğlunun Cenevrə Universitetinin siyasi-iqtisad fakültəsini bitirdiyi, milli azadlıq

hərəkatında fəal iştirak etdiyi, müxtəlif vaxtlarda ədliyyə, maarif və maliyyə nazirliklərinə başçılıq etdiyi göstərilirdi. Xarici işlər naziri təyin olunana qədər o, beş il Türkiyə Ədliyyə Nazirliyinə rəhbərlik etmişdi (9).

Ş.Saracoğlu haqqında Ankaradakı Sovet səfirliyinin hazırladığı məlumatlarda həmçinin onun 1923-cü ildə türk nümayəndə heyətinin tərkibində Lozanna konfransında iştirak etdiyi, 1926-cı ildə əhali mübadiləsi üzrə türk-yunan komissiyasının üzvü olduğu göstərilirdi. Sovet səfirliyinin birinci katibi A.Jeqalova onun haqqında yazırdı ki, Ş.Saracoğlu maarif naziri olduğu zaman Mahmud Esafla birlikdə Quranın türk dilinə tərcümə olunması haqqında qanun qəbul olunmasına nail olmuşdur. Sənəddə qeyd olunurdu ki, 1932-ci ildə o, Osmanlı borcları ilə bağlı Parisdə aparılan danışıqlarda Türkiyəni təmsil etmiş və bu məsələdə böyük uğur qazandığına görə İ.İnönü hökuməti Kamal Atatürkün təşəkkürünü almışdı. Ş.Saracoğlunun Xarici işlər naziri təyin edilməsi Sovetlər üçün arzuolunmaz fakt kimi dəyərləndirilirdi. Məlumatda qeyd olunurdu ki, Türkiyə xarici siyasətinin rəhbəri kimi Saracoğlu İsmət İnönünün xəttinə uyğun olaraq Almaniyanın zərərinə İngiltərə və Fransa ilə əlaqələrin möhkəmləndirilməsini sədaqətlə həyata keçirir. A.Jeqalova yazırdı: "Türkiyə rəhbərlərinin çoxu kimi Ş.Saracoğlu da nəinki Sovet İttifaqına qərəzli və şübhəli münasibət bəsləyir, eyni zamanda bizə qarşı şəxsi nifrət və küdurətini də saxlayır" (10).

Ş.Saracoğlunun sentyabr ayının 26-da Moskvada olmasına baxmayaraq Sovet-Türkiyə danışıqları hələ başlanmamışdı. Bir gün əvvəl Polşanın bölüşdürülməsi üzrə razılığa uyğun olaraq Sovet Ordusu Qərbi Ukrayna və Qərbi Belorusiyanın işğalını yenicə başa çatdırmışdı. Yüksək səviyyədə SSRİ- Türkiyə danışıqları başlayanda 23 avqust Sovet-Alman müqaviləsinə əlavə olaraq imzalanmış gizli protokollar tam gücü ilə işləyirdi və eyni zamanda aparılan Sovet-Alman danışıqlarında tərəflər Polşanın bölüşdürülməsini "hüquqi" cəhətdən başa çatdırırdılar. Görünür, Ş.Saracoğlu ilə danışıqların yubanmasının bir səbəbi də bu idi.

Danışıqların yubanmasının digər səbəbi Sovet tərəfinin ingilis-fransız-türk ittifaq müqaviləsinin layihəsinin öyrənilməsi ilə bağlı idi. Çünki Ş.Saracoğlu hazırlıq mərhələsində olan qarşılıqlı yardım haqqında ingilis-fransız-türk ittifaq müqaviləsinin layihəsini də müzakirə etmək üçün özü ilə Moskvaya gətirmişdi. Bu bir daha ona dəlalət edirdi ki, Türkiyə hökuməti Sovet İttifaqından gizlin iş görmək istəmirdi. Türkiyə nəinki Qərblə olan ittifaq müqaviləsini Moskva ilə razılaşdırmaq, eyni zamanda SSRİ-ni bu prosesə qoşmağa can atırdı. Türkiyə Xarici işlər nazirinin Moskvada apardığı danışıqlarının yeni açıqlanan sənədləri bu məqamı bir daha təsdiq edir.

Oktyabr ayının 1-də axşam saat 18-də İ.Stalin Ş.Saracoğlunu qəbul etdi. Sovetlər tərəfindən danışıqlarda Xarici İşlər Komissarı V.Molotov, onun

müavinləri V.P.Potyomkin və V.Q.Dekanozov, Ankaradakı Sovet səfiri Terentiev, Türkiyə tərəfindən isə Moskvadakı səfir Ali Haydar Aktay iştirak edirdi (11). Ali Haydar Aktay peşəkar diplomat idi. Ölkəsinin Bolqarıstandakı səfirliyində, Türkiyə Xarici İşlər Nazirliyi aparatında iş təcrübəsi var idi. 1933-39-cu illərdə Yuqoslaviyada Türkiyə diplomatik korpusuna rəhbərlik etmişdi. 1939-cu ildə isə A.H.Aktay Moskvaya səfir təyin edilmişdi və bu vəzifədə Zekayi Apaydını əvəz etmişdi (12).

Oktyabrın 1-də görüş başlayan kimi ilk olaraq V.Molotov danışıqların yubanma səbəbləri haqqında izahat verdi. Ş.Saracoğlu isə öz növbəsində bunu başa düşdüyünü və eyni zamanda Stalinin iştirakı ilə danışıqların davam etdirilməsinin onun üçün şərəf olduğunu bildirdi.

V.Molotov öz izahatında qeyd etdi ki, biz qarşılıqlı yardım haqqında ingilis-fransız-türk paktının layihəsi ilə tanış olduq. Biz eyni zamanda bu müqavilənin maddələrini çox diqqətlə öyrənməyə çalışdıq. Belə bir qənaətə gəldik ki, bizim üçün bütövlükdə sənədin təyinatı, Türkiyənin İngiltərə və Fransa ilə bağladığı qarşılıqlı yardım haqqında paktın bilavasitə kimə qarşı yönələcəyi axıra qədər aydın deyil. Biz bilmək istəyirik Türkiyə ingilis və eyni ilə fransızlarla danışıqlar aparmaq zərurəti ilə nə dərəcədə bağlıdır və Türkiyə bu danışıqlarda nə qədər dərinə gedib, biz eyni zamanda bilmək istərdik Türkiyə hökuməti bu paktın bağlanmasını nə dərəcədə özü üçün vacib sayır və yaxşı olmazdımı ki, bu pakt bağlanmasın. Sonra Molotov izah etdi ki, "İndiki dövrün şəraiti və şərtləri bu pakt haqqında danışıqların başlandığı 1939-cu ilin yazındakı şəraitdən fərqlənir. Bütün bunlar aşağıdakı səbəbdən bizi maraqlandırır: elə bir an gəlib çata bilərmi ki, Türkiyə SSRİ-yə münasibətdə qərəzkar mövqeyə yuvarlansın, xüsusən ona görə ki, bizim ehtiyatlı olmağımız üçün müəyyən simptomlar mövcuddur" (13). Rus alimi B.Potsxveriya haqlı olaraq göstərir ki, məsələnin belə qoyuluşunda əslində Sovetlərin mövqeyi ilə Almaniyanın mövqeyi üst-üstə düşürdü (14).

Ş.Saracoğlu V.Molotovun qaldırdığı məsələlərə cavab olaraq bildirdi ki, bizim tərəfimizdən təqdim edilmiş paktın layihəsində hər şey yetərincə aydındır. Sənədin mətnində birbaşa göstərilir ki, bu pakt konkret olaraq heç kəsə qarşı deyildir, lakin eyni zamanda bütövlükdə hər hansı təcavüzkara qarşıdır. Sənədə əlavə olunmuş şərtə görə, bu pakt SSRİ-yə qarşı istifadə edib bilməz. Ş.Saracoğlu qeyd etdi ki, üç ölkə artıq paktı imzalama mərhələsinə çatmışdır. Əlbəttə, bu hazırlıq mərhələsində dünyada çox şey dəyişib, lakin Türkiyənin təhlükəsizliyinə gəldikdə, bu məsələdə heç bir dəyişiklik baş verməmişdir. Hər ehtimala qarşı Aralıq dənizi və Balkanlarda müharibə başlanarsa, İngiltərə, Fransa və Türkiyənin öhdəlikləri nəzərə alınmışdır. İngiltərə və Fransa ilə paktların imzalanıb-imzalanmaması haqda, mən heç bir qəti söz deyə bilmərəm. Lakin bu paktlar imzalansa, biz onlardan çətin ki, imtina edə bilək" (15).

Əlbəttə, İngiltərə və Fransa ilə qarşılıqlı yardım haqqında pakt ideyası beynəlxalq vəziyyətin gərgin bir məqamında meydana gəlmişdi. Rumıniyaya Alman ultimatumu elan edildikdə, Albaniya məsələsi meydana çıxdıqda və Korfu üçün təhlükə yarandıqda ingilislər türklərdən "nə etmək fikrində olduqlarını" soruşdular. Türkiyə Sovet hökumətinə ingilislərin təklifi haqqında məlumat verdi və Moskvadakı səfirə tapşırdı ki, SSRİ-nin bu istiqamətdə nə düşündüyünü öyrənsin. Bu hadisədən üç-dörd gün sonra İngiltərə rəsmi qaydada Türkiyəyə öz təkliflərini çatdırdıqda Ankara cavab verdi ki, onların mövqeyi Sovet İttifaqının paktda iştirakından, onun fəaliyyət dairəsmin məhdudlaşdırılmasından, İngiltərə tərəfindən Türkiyəyə iqtisadi kömək göstərilməsindən asılı olacaq. Bu zaman xarici işlər komissarının müavini Potyomkinin Ankaraya səfəri oldu və əlverişli şəraitdə mümkün olan müxtəlif detallar haqqında danışıqlar aparıldı. Həmin danışıqların gedişində Sovet İttifaqının ingilis və fransızlarla müqavilə bağlayacağı halda, Türkiyənin də İngiltərə və Fransa ilə pakt bağlaya biləcəyinə işarə edildi. Türkiyə ilə Sovet İttifaqı arasında qarşılıqlı yardım haqqında paktın müxtəlif detalları Ankaradakı səfir Terentievlə Türkiyə Xarici işlər Nazirliyi arasında aparılmış danışıqlarda müzakirə edildi və bütün bunlardan sonra Türkiyə üç maddəni özündə əks etdirən qarşılıqlı yardım haqqında paktın layihəsini Sovetlərə təklif etdi. Bu təklifə uyğun olaraq Sovet hökuməti Ş.Saracoğlunu Moskvaya dəvət etdi ki, qarşılıqlı pakta aid bütün məsələləri müzakirə edib razılığa gəlsinlər. İ.Stalin və V.Molotovla danışıqlarda Ş.Saracoğlu qeyd etdi ki, mənə görə Sovet-Türkiyə paktı yalnız bizi deyil, bizim dostlarımızı da, yəni SSRİ-ni də maraqlandırır. Hətta hücum etməmək barədə Sovet-Alman paktının 4-cü maddəsini nəzərə almaqla belə mən düşünürəm ki, SSRİ ilə Türkiyə arasında müqavilə bağlanması üçün heç bir maneə yoxdur. Müqavilə həm də ona görə sülh aləti olacaqdır ki, bizim ingilislərlə sazişimizdə Sovetlərlə bağlı şərt vardır. Anoloji olaraq belə bir şərt görünür qarşılıqlı yardım haqqında Sovet-Türkiyə paktında da olacaqdır. Daha sonra Ş.Saracoğlu əlavə etdi ki, mən istəmirəm bizim ölkələrimiz arasında paktın xeyrinə olan tezisi Sizin qarşınızda daha da gücləndirim, madam ki, Sovet rəhbərliyi beynəlxalq vəziyyəti məndən daha yaxşı bilir (16).

Ş.Saracoğlunun geniş izahatı Sovetlər tərəfindən aydın cavab tələb edirdi və belə bir "cavabı" V.Molotov verdi. O dedi: "Bu Sovet-Türk paktı kimin əleyhinə istiqamətlənəcək? Biz Almaniyanın əleyhinə pakt bağlaya bilmərik, İtaliyanın əleyhinə - o da Almaniyanın müttəfiqidir, Bolqariyanın əleyhinə - o ki, Türkiyəni hədələmir" (17).

SSRİ ilə Türkiyə arasında danışıqlara toxunan tanınmış rus tarixçiləri A.Danilov və A.Pıjikov doğru olaraq yazırlar: həmin vaxt aydın oldu ki, SSRİ başlanmış müharibədə Türkiyəyə heç bir təminat verməyi arzu-

lamırdı. V.Molotovun qarşılıqlı yardım haqqındaı paktı imzalamaqdan imtina etməsi bunun açıq təzahürü idi (18).

V.Molotov tərəfindən məsələnin qoyuluşu Ş.Saracoğlunu təmin etmədi və ona görə də o, əlavə sualla müraciət etdi: əgər Almaniya, yaxud İtaliya Türkiyənin qapılarına gəlib çatsa, Sovet İttifaqı Türkiyəyə münasibətdə hansı mövqedə dayanacaq? Biz fikirləşirik ki, SSRİ bu məsələyə etinasız deyildir. V.Molotov bunu təsdiq etsə də, Türkiyəyə qarşı real təhlükənin olmadığını bildirdi. Ş.Saracoğlu isə Türkiyənin Almaniya və İtaliyanın səmimiliyinə şübhə etdiyini ortaya qoydu. Hətta Ş.Saracoğlu nəzəri cəhətdən belə bir ehtimal irəli sürdü ki, bu gün olmasa da, sabah İngiltərə və Fransanın Türkiyəyə hücum etməsi mümkündür. Bizim pakt heç kimə qarşı yönəlməyəcək, eyni zamanda ümumi xarakter daşıyacaq və onda Sovet İttifaqı və Türkiyə gözlənilməz hadisələrə qarşı təminatlı olacaqlar (19).

Ş.Saracoğlunun fikrinin əksinə olaraq V.Molotov belə hesab edirdi ki, Türkiyə-İngiltərə - Fransa paktı Türkiyənin üzərinə çox böyük öhdəliklər qoyur. Pakta görə, Türkiyə Rumıniyaya və Yunanıstana münasibətdə məsuliyyət daşımalıdır. Bütün bu məsələləri ancaq Türkiyə həll etməlidir, əgər Türkiyə İngiltərə-Türkiyə paktından geri çəkilməyi özü üçün mümkün hesab etmirsə, onda biz Saracoğlunun Ankarada bizim səfirə izah etdiyi qaydada razılığa gələ bilərik. Burada söhbət ingilis-fransız-türk paktına elə bir "Sovet düzəlişi"ndən gedirdi ki, həmin düzəlişə görə İngiltərə və Fransa SSRİ-yə qarşı çıxardılarsa, Türkiyənin həmin pakta uyğun olaraq üzərinə götürdüyü öhdəliklər qüvvədən düşmüş hesab olunurdu.

V.Molotovla Ş.Saracoğlunun mübahisəsinin bu məqamında İ.Stalin müzakirələrə qoşuldu. O, qeyd etdi ki, türklər məndən soruşmadılar, əgər onlar məndən soruşsaydılar, mən onlara məsləhət görərdim ki, İngilis-Türk və Fransa-Türk paktını bağlamağa razılaşmasınlar. Əlbəttə, böyük donanması olan dövlətlər kimi İngiltərə və Fransa Türkiyəyə lazımdırlar. Türkiyə Aralıq dənizi dövləti hesab olunur. İngiltərə və Fransanın Aralıq dənizi və Egey dənizində türklərə verə biləcəyi şeyləri, ilk növbədə adaları, indi SSRİ ona verə bilməz. Ona görə mən türklərin bir tərəfdən Ingiltərə və Fransa, digər tərəfdən İtaliya arasındakı ziddiyyətlərdən istifadə edib bunun müqabilində Aralıq dənizində türklərə nə lazımsa onu əldə etmələrini, Dodekanezdə öz maraqlarının müdafiəsinə yönəlmiş niyyətlərini tamamilə başa düşürəm. Bu, doğrudur. Ancaq bu metodlarla adaları almaq olar. Bu bəndə qədər Türkiyə uduşlu vəziyyətdədir. Sonra isə ağırlaşma gedir. Balkanlara gəldikdə, burada Yunanıstan və Rumıniyanı da Türkiyənin yedəyinə bağlayıblar. Burada Türkiyə əksinə olaraq ingilis və fransızlara daha çox verməlidir. Mən fikirləşirəm ki, bizimlə Türkiyə arasında olan anlaşılmazlıq Türkiyənin Balkanlara görə, xususilə Bolqarıstana görə öz üzərinə götürdüyü ağır öhdəliklərlə

bağlıdır. İngilislərin verdiyi maddi yardım və kreditlər Türkiyənin ordu çıxarması müqabilində çox azdır. Türkiyənin düşdüyü, ehtiyatlandığı vəziyyət indi bütün qitəni bürüməkdədir. Bolqarıstan baş qaldırarsa, macarlar rumınlara basqın edərsə, İtaliya Yunanıstana hücum edərsə, türklər müharibəyə sürüklənməlidir. Yaxud Bessarabiyaya görə, SSRİ-nin Rumıniya ilə münasibətləri ağırlaşarsa - biz rumınlara hücum etməyi düşünmürük, ancaq Bessarabiyanı da bağışlamayacağıq - yenə münaqişə. Mənə belə gəlir ki, Rumıniya da Polşa kimi çox torpaq qamarlayıb. Kim ki, qarşılıqlı yardımla Rumıniya ilə möhkəm bağlanırsa, o qılıncı daim hazır saxlamalıdır. Bu, Türkiyə üçün əlverişli deyildir.

İ.Stalin qeyd etdi ki, bu bizi narahat edən məsələlərin yalnız bir hissəsidir. Daha digər qrup məsələlər vardır ki, onlar bizi çətin vəziyyətə salır. Hadisələrin öz məntiqi var, biz bir şey danışırıq, hadisələr isə digər yolla gedir. Biz Almaniya ilə Polşanı bölüşdürdük, İngiltərə və Fransa bizə müharibə elan etmədi, lakin bu ola bilərdi. Biz almanlarla qarşılıqlı yardım haqqında pakt bağlamamışıq, lakin İngiltərə və Fransa bizə müharibə elan etsəydi, biz onlarla vuruşmalı olacaqdıq. Onda bu müqavilə necə görünəcəkdi. Bax, hadisələrin məntiqi burada hiss olunur, yeniliyi bununla bağlıdır.

İ.Stalin əlavə etdi: "Cənab Saracoğlu cavab verə bilər ki, bu halda bizim müvafiq düzəlişimiz var, ya Türkiyənin öhdəlikləri öz fəaliyyətini dayandırır, ya da Türkiyə neytral qalır. Onda biz də düzəliş əlavə etməliyik ki, əgər Türkiyə münaqişəyə cəlb olunsa, bizim pakt öz qüvvəsini itirir. Biz Almaniyaya qarşı çıxmayacağıq. Onda paktdan nə qalır? Heç nə. Türklərlə biz pakt bağlamaq istəyirikmi? İstəyirik. Biz Türkiyənin dostuyuqmu? Bəli. Lakin mənim haqqında danışdığım elə bir şərait vardır ki, paktı kağız parçasına çevirir. Türkiyə ilə pakt bağlanması üçün yaranmış bu əlverişsiz şəraitə görə, işlərin belə vəziyyət almasına görə kim günahkardır? Heç kim. Şərait, hadisələrin inkişafı. Polşa hadisəsi öz rolunu oynadı. İngilislər və fransızlar, xüsusilə ingilislər bizimlə saziş istəmirdilər, hesab edirdilər bizsiz də keçinə bilərlər". 1939-cu ilin 1 oktyabrında Ş.Saracoğlu ilə bu görüşdə İ.Stalin ilk dəfə olaraq etiraf etdi ki, "Əgər bu məsələlərdə günahkar şəxs varsa, biz də həmçinin günahkarıq, bütün bunları qabaqcadan görə bilmədik" (20).

İ.Stalin geniş izahatını bitirdikdən sonra Ş.Saracoğlu İsmət İnönünün bir tapşırığını da ona çatdırdı. Ş.Saracoğlu dedi: İ.İnönü ona tapşırıb ki, əgər bu səfər zamanı Stalinlə görüşmək mənə qismət olsa Sizə çatdırım ki, Sovet İttifaqına səfəri və Sizinlə görüş zamanı ona göstərilən böyük diqqəti unudulmaz hisslər və xoş təəssüratlar kimi hələ də öz xatirində saxlayır (Burada söhbət 1932-ci ildə İsmət paşanın hökumət başçısı kimi SSRİ-yə səfərindən gedirdi - C.H.). İ.Stalin öz növbəsində belə xoş xatirələrə görə İsmət paşaya təşəkkürünün bildirilməsini xahiş etdi.

Danışıqların gedişini yumşaldan belə qısa mükalimədən sonra S. Saracoğlu yenidən SSRİ ilə pakt bağlanması məsələsinə qayıtdı. O İngiltərə və Fransa SSRİ əleyhinə müharibə aparacağı təqdirdə Türkiyənin hansı mövqe tutacağını izah etdi və əlavə etdi ki, Sovet Ordusu Polşaya daxil olan zaman mən ingilis və fransız səfirlərini yanıma dəvət edib onların hökumətlərinə məsləhət gördüm ki, Sovet İttifaqını Almaniya ilə hərbi ittifaq bağlamağa təhrik etməsinlər, eyni zamanda İngiltərə və Fransa ilə qarşılıqlı münasibətlərdə Türkiyə üçün elə şərait yaratmasınlar ki, mən Moskvada çətin vəziyyətdə qalım. Lakin əgər müharibə başlasa Türkiyə bitərəf qalacaqdır. Mən əminəm, Stalin də belə düşünür ki, İngiltərə və Fransa SSRİ ilə saziş bağlamaq istəmirdilər. Lakin indi ağır dərsdən sonra mən əminəm ki, ingilislər və fransızlar Sovet İttifaqı ilə razılığa gəlməyə meyllidirlər. Sovet-Türkiyə paktı bütün anlaşılmazlıqları tənzimləyə bilər. Bu pakt təkcə Türkiyə üçün deyil, ümumilikdə sülh işi üçün böyük əhəmiyyətə malik olan daha geniş razılaşmaların başlanğıcı ola bilər. Söhbət İngiltərə və Fransa ilə dostcasına sazişdən gedir (21).

İ.Stalin dəqiqləşdirmək məqsədi ilə soruşdu: bizim tərəddüdlərimizə baxmayaraq Saracoğlu hesab edir ki, bizimlə pakt bağlana bilər? Bəli, bu mənim inamımdır - deyə Ş.Saracoğlu cavab verdi. İ.Stalin isə öz növbəsində Türkiyə-İngiltərə və Türkiyə-Fransa paktlarında nəyinsə dəyişməyin çətin olduğunu soruşduqda Ş.Saracoğlu dedi: SSRİ ilə Rumıniya arasında münaqişə yaranarsa, Türkiyə kənarda qalacaq. Mən bu haqda pakta düzəliş edilməsinə razıyam. Əgər Sovet hökuməti desə ki, Türkiyənin hər hansı hərəkəti bizim dostlarımız tərəfindən dost olmayan hərəkət kimi qiymətləndirilir, onda Türkiyə həmin hərəkətdən çəkinər. O ki qaldı, düzəlişə və ya şərtə, əgər SSRİ tərəfindən adekvat olaraq belə bir şey təklif olunsa, mən onu qəbul edəcəyəm. Bu düzəliş demək olar ki, ümumi düzəliş məzmununda olacaq. Düzəliş irəli sürməkdə ingilislər özləri təşəbbüs göstərdilər ki, əgər Rumıniya ilə bağlı münaqişə baş verərsə, Türkiyə ona kömək etməkdən imtina edə bilər. Ş.Saracoğlunun şərhindən sonra İ.Stalin məsləhət gördü ki, ingilis və fransızlarla iş görəndə yadda saxlamaq lazımdır ki, bu adamlar o zaman öz öhdəliklərini yerinə yetirirlər ki, həmin vaxt bu onlar üçün sərfəli olsun. Nə vaxt ki, onlara sərfəli deyil, onlar öz öhdəliklərini yerinə yetirmirlər. Məsələn, Çexoslovakiya, Polşa və digər yerlərdə olduğu kimi (22).

Göründüyü kimi, Türkiyə tərəfindən bütün güzəştlərə baxmayaraq, Sovet tərəfi türklərlə qarşılıqlı yardım haqqında müqavilə bağlamaqdan bütün vasitələrlə yayınır, hücum etməməklə bağlı öz üzərinə hər hansı öhdəlik götürməkdən söhbət belə açmaq istəmirdi.

Şərqi Avropaya, xüsusilə Polşa, Baltikyanı ölkələrə və Finlandiyaya münasibətdə Almaniya ilə razılığa gələn Sovet rəhbərliyi Balkan ölkələrinə münasibətdə də belə bir razılaşmanın başlanğıcını qoyduğundan

Türkiyəni Balkanlardan çəkilməyə sövq edirdi (23). İ.Stalin məsləhət görürdü ki, İngiltərə və Fransa ilə bağlanan paktda Balkanlarla bağlı Türkiyə öz üzərinə ciddi öhdəliklər götürməsin. O, bunu Türkiyənin azad fəaliyyət imkanını özündə saxlaması ilə izah etsə də, əslində bu tövsiyələrin arxasında, xüsusilə Rumıniya və Bolqarıstana münasibətdə Sovet maraqları açıq-aydın görünürdü. Hadisələrin sonrakı gedişi göstərdi ki, Bolqarıstan və Rumıniya ilə bağlı SSRİ faşist Almaniyası ilə razılığa gəlmək ərəfəsindədir. Məhz buna görə Sovetlər çalışırdı ki, imzalanma ərəfəsində olan ingilis-fransız-türk sazişinin Balkanlara aid olan üçüncü bəndi ya çıxarılsın, ya da məsləhətləşmə xarakteri daşısın. Bununla Sovet tərəfi Rumıniya və Bolqarıstanda hərbi əməliyyatlar başlanacağı təqdirdə Türkiyəni bu əməliyyatlardan kənarda saxlamaqla ingilis və fransızların Balkanlarda fəaliyyətini məhdudlaşdırmış olurdu. İ.Stalin deyirdi: "Əgər Bolqarıstan Türkiyə əleyhinə çıxarsa, onda onu vurmaq lazımdır. Lakin digər hallarda Bolqarıstanı nə üçün vurmaq lazımdır?"(24). Bunun əksinə olaraq, Ş.Saracoğlu belə hesab edirdi ki, əgər İtaliya Türkiyəyə hücum etsə, yaxud Bolqarıstan Balkan ölkələrindən birinə hücum etsə, Türkiyə vuruşmalı olacaq. Onun fikrincə, Yunanıstanın işğal olunması Türkiyənin işğal olunmasına bərabər idi. Ş.Saracoğlu dedi: "Yunanıstan Türkiyəyə hücum etmək üçün bir körpüdür. Yunanıstan bizim həyati məsələmizdir" (25).

İ.Stalin bütün vasitələrə Türkiyəni Balkan ölkələrindən kənarda saxlamaq üçün belə bir fikir söylədi ki, qarşılıqlı yardım haqqında pakt Balkanlarsız Türkiyəni, yəni bilavasitə Boğazlardan və Qara dənizdən hücum olacağı təqdirdə meydana çıxacaq məsələləri əhatə etsin. Balkanlarda hər hansı hadisə baş verərsə, məsləhətləşmələr aparılsın. Ş.Saracoğlu bu fikrin arxasında dayanan niyyətləri yaxşı anladığından bildirdi ki, Balkanlardan söhbət gedəndə Avropa Türkiyəsinin Balkanlara aid olması nəzərə alınmalıdır (26). Türkiyə ehtiyat edirdi ki, vəziyyət gərginləşəcəyi halda Rumıniyaya Sovet təzyiqi güclənsin və Bolqarıstan kiminləsə birləşsin. Az sonra Türkiyənin bu narahatçılığı özünü doğrultdu. Sovet rəhbərliyinin Türkiyəni balkanlardan uzaqlaşdırmaq cəhdi ilk növbədə onunla bağlı idi ki, 23 avqust Sovet-Alman müqaviləsinə əlavə olaraq elə həmin gün bağlanmış dörd bəndlik gizli protokolun 3-cü bəndi məhz Bessarabiyaya aid idi. Molotov və Ribbentropun imzaladıqları gizli protokolda Bessarabiyaya Sovet iddiası təmin edilmiş, Almaniya tərəfinin buna qarşı olmadığı təsbit olunmuşdu (27).

Nəhayət, uzun sürən mübahisələrdən sonra razılaşdırılması nəzərdə tutulan Sovet-Türkiyə paktı ilə bağlı bir sıra detallar müəyyənləşdirildi. V.Molotov Sovet təklifini belə ümumiləşdirdi ki, İngiltərə və Fransa SSRİ-yə qarşı hücum edəcəyi təqdirdə Türkiyənin onlar qarşısında götürdüyü öhdəliklər həmin dəqiqə öz qüvvəsini itirir. Türkiyə

Almaniyaya qarşı çıxacağı halda, Sovetlər Türkiyəni müdafiə etməyəcəkdir. Lakin Almaniya Türkiyəyə hücum etsə, SSRİ buna mane olmağa çalışacaqdır. Düzəlişi və danışıqları ümumiləşdirərək İ.Stalin dedi: "Mən düzəlişi belə başa düşdüm ki, əgər münaqişə başlayarsa, Türkiyə neytral qalacaqdır, lakin pakta görə Türkiyə ingilis və fransızlardan ayrılmır və digər yerlərdə onlara kömək edir". Ş.Saracoğlu Sovet rəhbərliyinin düzəlişlərinə razı olduğunu bildirdi. O, ingilis-fransız-türk paktının 3-cü maddəsi, yəni Türkiyənin Yunanıstan və Rumıniyaya kömək göstərilməsi ilə bağlı öhdəliyin paktın mətnindən çıxarılıb məsləhət hissəsinə keçirilməsi, İngiltərə və Fransanın SSRİ-yə hücum edəcəyi təqdirdə Türkiyənin onlar qarşısında olan öhdəliyinin qüvvədən düşməsi barədə Sovet şərtlərini öz hökumətinə məruzə edib Ankaradan müvafiq təlimat alacağını qeyd etdi (28). Beş saat on beş dəqiqə çəkən söhbət gecə 23:15-də başa çatdı.

Ş.Saracoğlu oktyabr ayının 16-na qədər Moskvada qalsa da, danışıqların sonrakı mərhələsi elə bir nəticə vermədi. Sovet İttifaqı İngiltərə və Fransa ilə ciddi fikir ayrılığına malik olduğu üçün türklərin onların sifarişini yerinə yetirdiyindən ehtiyatlanır və hər şeyə şübhə ilə yanaşırdı. Digər tərəfdən isə, Almaniya ilə əməkdaşlıq bu dövrdə Sovet xarici siyasətinin aparıcı istiqaməti olduğundan, onlar Türkiyəyə hər hansı təminat verməkdənsə Balkanların nüfuz dairəsinə bölüşdürülməsinə, bir sıra Balkan ölkələrinə yönəlik ərazi tələblərinin ödənilməsinə daha çox diqqət yetirirdilər. Son anda Sovetlər təklif etdilər ki, müharibə olacağı təqdirdə Türkiyənin İngiltərə və Fransaya köməyi minimuma enib məsləhətləşmə xarakteri daşımalı, qarşılıqlı yardım haqqında hazırlanan Sovet-Türk paktında nəzərdə tutulmalıdır ki, Almaniya Türkiyəyə hücum edərsə, Sovet İttifaqı Türkiyəyə hər hansı bir yardım göstərməməli, Boğazlar SSRİ və Türkiyə tərəfindən birgə qorunmalıdır.(29) Əlbəttə, bütün bunlar Türkiyənin maraqlarına uyğun deyildi. Türklər yaxşı başa düşürdülər ki, bu şərtlərin qəbul edilməsi Almaniyaya qarşı müharibədə Türkiyənin müttəfiqi olan Britaniyanın hərbi imkanlarını zəiflədə bilər. Bundan başqa, Boğazların birgə müdafiəsi haqqında Sovet təklifi təkcə Montrö konfransında Türkiyənin uğurlarını şübhə altına almırdı, eyni zamanda onun suverenliyini təhlükə altına qoyurdu. Qara dəniz və Avropa Türkiyəsinin birgə müdafiəsi, Boğazlar rejiminin dəyişməsi ilə bağlı Sovet cəhdləri Türkiyəni müharibəyə sürükləməkdən başqa bir şey deyildi.

Danışıqların sənədləri göstərir ki, Sovet rəhbərliyi qarşılıqlı yardım haqqında Türkiyə tərəfindən təqdim olunmuş pakt layihəsinə son dərəcə ehtiyatla yanaşır, öz üzərinə hər hansı öhdəlik götürməkdən yayınır, 23 avqust və ona bağlı olan gizli protokollar silsiləsinə görə Almaniyanın mənafeyini nəzərə almağa çalışırdı.

Türkiyə Xarici işlər nazirinin Moskvada olmasından istifadə edərək Almaniya hökuməti Sovetlərə təsir göstərirdi ki, Türkiyəni İngiltərə və Fransa ilə sazişə gəlməkdən çəkindirsin. 8 oktyabr 1939-cu ildə Almaniya hökuməti Moskvadan xahiş edirdi ki, "Türkiyəni İngiltərə və Fransa ilə Saziş bağlamaqdan imtina etməyə və qəti bitərəf mövqe tutmağa vadar etmək lazımdır. Eyni zamanda Almaniya tərəfi Moskva danışıqlarının gedişində Sovet İttifaqı ilə Türkiyə arasında hər hansı bir müqavilə imzalanmasını da narahatçılıqla izləyirdi. Əgər belə olardısa, Almaniya tərəfi təkid edirdi ki, Moskva ilə Ankara arasında mümkün ola biləcək müqavilənin mətninə belə bir düzəliş daxil edilsin ki, SSRİ Almaniya əleyhinə Türkiyəyə kömək göstərməyə borclu olmayacaqdır" (30). Ribbentronun tapşırığı ilə Almaniya nümayəndələrinin belə bir düzəliş təklif etməsi Almaniyanın Türkiyəyə münasibətdə gələcək niyyətlərinin Moskvaya bəlli olan təzahür forması idi.

Hələ Ş.Saracoğlu Moskvada ikən SSRİ-dəki Alman səfiri F.Şulenberqi qəbul edən V.Molotov Türkiyə ilə danışıqların bütün mahiyyətini çox açıq şəkildə ortaya qoydu. O dedi: Mən inanmıram ki, biz türklər ilə hər hansı sazişə gələk... Əgər biz Türkiyə ilə danışıqlar aparırıqsa, biz onu Türkiyənin mövqeyini aydınlaşdırmaq üçün aparırıq. Bu mənada danışıqlar bizə xeyir gətirir. V.Molotov bununla bir növ avqust ayının 24-də Almaniya nümayəndə heyəti ilə vidalaşan zaman Stalinin dediyi "Sovet İttifaqı heç vaxt öz tərəfdaşını satmaz" fikrini bir daha təsdiqləmək istəyirdi (31). Türkiyəni bitərəf qalmağa vadar etmək barədə Almaniya tərəfindən irəli sürülən fikir sonralar Sovet rəhbərlərinə əsas verdi ki, Türkiyənin böyük müharibədə uzun müddət bitərəf qalmasını Almaniya maraqlarına xidmət kimi qiymətləndirsinlər. Əslində isə, vuruşan dövlətlər arasında Türkiyəni öz təsir dairəsinə cəlb etmək uğrunda mübarizənin kəskinləşdiyi şəraitdə neytral mövqe tutmaq Türkiyənin maraqlarına daha çox uyğun udu.

Ş.Saracoğlunun SSRİ-yə uzunmüddətli səfəri bir nəticə vermədi və o, oktyabr ayının 16-da Moskvanı tərk etdi. H.C.Yalçın az sonra, noyabr ayının 5-də "Yeni Sabah"da haqlı olaraq yazırdı ki, əgər bizim Sovetlərdən olan dostlarımız öz fikirləri barədə əvvəlcədən bizi xəbərdar etsəydilər, türklər özlərini nəticəsiz qalmış alçaldıcı Moskva danışıqlarından xilas etmiş olardılar. Danışıqların nəticəsizliyindən təəssüf edən Türkiyə Respublikasının prezidenti İ.İnönü 1939-cu ilin noyabr ayında Böyük Millət Məclisinin növbəti sessiyasının açılışındakı çıxışında deyirdi: Məlumunuz olduğu kimi, Xarici işlər nazirimiz Sovet hökumətinin müsafiri olaraq Moskvada üç həftəyə qədər görüş və müzakirələrdə bulundu. Bu müzakirələrdən, əski dostumuz Sovet İttifaqı ilə aramızda bugünkü məsud münasibətlərdən daha irəli bir vəziyyət ifa edəcək bir anlaşma meydana gələ biləcəyinə ümid etmişdik. Nəticəyə varmaq üçün

iqtidarımızda bulunan bütün qayreti sərf etmiş və bir müvəffəqiyyətin əldə edildiyi anlayışına varmışdıq. Buna rəğmən bizim mənfəətimizə olduğu qədər qarşı tərəfin mənfəətinə də müvafiq olduğunu zənn etdiyimiz nəticənin əldə edilməsi bu dəfə mümkün olmamışdır. Bununla bərabər, bilirsiniz ki, iki qonşu məmləkət arasındakı dostluq qüvvətli əsaslara söykənmişdir. Bu dövrün müvəqqəti şəraitindən doğan şərtlər və imkansızlıqlar bu dostluğu ihlal etməməlidir (32).

1939-cu ilin sentyabr ayının sonlarında Ribbentropun Moskvaya ikinci səfəri zamanı bir çox məsələlərlə yanaşı, Boğazlar probleminə də toxunuldu. Bu mürəkkəb dövrü təhlil edən tanınmış Rusiya tarixçisi akademik A.N.Saxarov qeyd edirdi ki, bir tərəfdən İngiltərə və Fransanın SSRİ əleyhinə sürüklədiyi Türkiyə ilə danışıqlar gedir, digər tərəfdən Türkiyənin arxasında SSRİ və Almaniya boğazlar məsələsini müzakirə edirdilər (33). Belə bir şəraitdə Türkiyə Xarici işlər nazirinin Moskva danışıqlarını diqqətlə izləyən İngiltərə və Fransa rəsmiləri 1939-cu ilin yazından başlanan müzakirələri başa çatdırmaq üçün aktiv fəaliyyətə keçdilər. Oktyabr ayının 19-da Ankarada qarşılıqlı yardım haqqında ingilis-fransız-türk müqaviləsi bağlanmaqla bu proses başa çatdı. Bu müqavilənin birinci bəndinə görə, əgər Türkiyə hər hansı Avropa ölkəsi tərəfindən təcavüzə məruz qalıb, həmin ölkəyə qarşı hərbi əməliyyatlara cəlb olunardısa, İngiltərə və Fransa ona bütün mümkün olan kömək və yardımları göstərməli idi. Müqavilənin ikinci maddəsi analoji situasiyada Türkiyənin göstərəcəyi yardım barəsində idi. Bu maddəyə görə, hər hansı Avropa ölkəsinin təcavüzü Aralıq dənizi rayonunda İngiltərə və Fransanın cəlb olunduğu müharibənin başlanmasına gətirib çıxararsa, Türkiyə onlara bütün mümkün kömək və yardımları göstərməyə borclu idi. İkinci maddədə əlavə olaraq göstərilirdi ki, Türkiyə də müvafiq rayonda qeyd edilən vəziyyətə düşərdisə, İngiltərə və Fransa ona həmin yardımı göstərməli idilər. Üçüncü maddə Ş.Saracoğlunun Moskva danışıqlarında ciddi müzakirə mövzusu olan Yunanıstan və Rumıniyaya göstəriləcək kömək barədə idi. Bu maddəyə görə Türkiyə Yunanıstan və Rumıniyaya o halda yardım göstərməli idi ki, həmin öikələr qarşısında 13 aprel 1939-cu il Sazişi ilə götürdüyü təminatlara görə İngiltərə və Fransa müharibəyə cəlb olunmuş olsunlar. Dördüncü maddə isə Aralıq dənizi rayonundan kənardakı ərazilərdə müttəfiqlərin məsləhətləşmələrini tənzimləyirdi. Bu maddəyə görə tərəflərin verdiyi müvafiq təminatlarla bağlı məsələ meydana çıxardısa, yəni yuxarıda qeyd edilən halların xaricində Fransa və İngiltərə bir Avropa dövləti ilə, bu dövlətin təcavüzü nəticəsində müharibəyə girirdisə, onda onlar təcili qarşılıqlı müzakirələr Keçirməli idilər. Lakin bu halda Türkiyə İngiltərə və Fransa ilə münasibətlərdə xeyirxah bitərəflik mövqeyində dayanmalı idi. Beşinci maddəyə görə, bu müqaviləyə uyğun olaraq tərəflər müharibəyə girdikləri

təqdirdə silah işlədilməsi, ya da barış üçün birlikdə qərar verməli idilər. Qarşılıqlı yardım haqqında ingilis-fransız-türk müqaviləsi on beş il müddətinə imzalanırdı. Bu müddətin başa çatmasına altı ay qalmış tərəflərdən hər hansı birinin öz ləğvini arzu edən açıqlaması olmasaydı, avtomatik olaraq müqavilə daha beş ilə uzadılırdı.

19 oktyabr 1939-cu il tarixli ingilis-fransız-türk müqaviləsinə əlavə olaraq imzalanmış protokola görə Türkiyənin bu müqavilə ilə üzərinə götürdüyü öhdəliklər heç bir zaman onu Sovet İttifaqı ilə silahlı münaqişəyə məcbur edə bilməzdi. Bu protokol bilavasitə Türkiyənin tələbi ilə imzalanmışdı. Bununla bir tərəfdən Türkiyə Sovetlərlə münasibətləri yaxşılaşdırmaq arzusunu nümayiş etdirirdisə, digər tərəfdən Türkiyəni SSRİ ilə hər hansı silahlı münaqişəyə cəlb edə biləcək halların qarşısını almış olurdu (34).

Müqavilə ilə birgə imzalanmış hərbi konvensiyada İngiltərə və Fransanın Türkiyə ərazisindəki yollardan, limanlardan, aerodromlardan və digər obyektlərdən istifadə etmələri, habelə Mərmərə dənizində və Türkiyə ərazisində bazalar inşa edilməsi nəzərdə tutulurdu. Lakin müharibənin sonuna qədər Türkiyə heç kimə onun ərazisindən, Boğazlardan və məhəlli sularından hərbi məqsədlə istifadə etməyə icazə vermədi.

Ən nəhayət, qarşılıqlı yardım haqqında 19 oktyabrda imzalanmış üçtərəfli müqavilə vəziyyətin tələb etdiyi təqdirdə ikitərəfli müqaviləyə çevrilə bilərdi. Yəni bir tərəfdə Türkiyə olmaqla bu müqavilə ingilis-türk və ya fransız-türk müqaviləsi kimi öhdəliklərin ikitərəfli qaydada davam etdirilməsini nəzərdə tuturdu. Əslində, 1940-cı ildə Fransa təslim olduqdan sonra 19 oktyabr müqaviləsi öz fəaliyyətini ingilis-türk müqaviləsi kimi davam etdirdi. 19 oktyabr 1939-cu il müqaviləsini imzalamaqla Türkiyə bir növ rəsmən müharibəyə daxil olmuş İngiltərə və Fransanın vuruşmayan müttəfiqi oldu. Qərb ölkələri ilə müqavilə Türkiyənin münaqişədən kənarda qalmasında mühüm rol oynadı.

Prezident İ.İnönü 1 noyabr 1939-cu ildə Böyük Millət Məclisindəki çıxışında 19 oktyabr müqaviləsini yüksək qiymətləndirərək deyirdi: 19 oktyabrda imza edilən müqavilədə heç bir dövlətin əleyhinə olmayaraq heç olmazsa təsirimizin yetişdiyi yerlərdə beynəlmiləl sülh və təhlükəsizliyə xidmət etmək yolu ilə öz təhlükəsizliyimizi təmin etmək qayəsinə nail olunmuşdur. Biz bu müqavilə ilə hərb faciəsi içində iztirab çəkən Avropada bir təhlükəsiz məntəqə olmaq etibarilə bu faciənin genişlənməsinə və inkişafına mane olmaq qayəsini güdürük. Bu gün olduğu kimi, sabah da məmləkətimizi hərb məntəqəsi xaricində saxlamağı əmniyyətimizi və təhəddüdlərimizi unutmamaq şərti ilə millətimiz qarşısında ən mühüm vəzifə hesab edirik (35).

19 oktyabr müqaviləsi Almaniya tərəfindən ciddi etirazla qarşılandı. Hətta Ankaradakı Alman səfiri fon Papen ölkə rəsmilərini Türkiyəni tərk

edəcəyi ilə hədələdi. Faşist mətbuatı isə Türkiyə əleyhinə quduz təbliğat kompaniyasına başladı. Berlində çıxan qəzetlər Türkiyənin artıq neytral ölkə olmadığından və bu müqaviləyə görə onun bərk peşman olacağından yazırdılar.

Moskva danışıqlarından az sonra Sovet İttifaqının özünü neytral ölkə elan etmiş Finlandiyaya təcavüzü Türkiyənin narahatçılığım daha da artırdı və 19 oktyabr müqaviləsinin doğruluğunu təsdiq etdi. Finlandiyaya Sovet təcavüzü Türkiyə siyasi dairələrində narahatçılıq yaratmaqla yanaşı, türk mətbuatında güclü etiraz dalğasına səbəb oldu. Az əvvəl Sovetlərlə dostluğu təbliğ edən mətbuat orqanları fin müharibəsi zamanı SSRİ-ni açıq şəkildə təcavüzkar və işğalçı adlandırmağa başladı. H.C.Yalçın "Yeni Sabah" qəzetindəki məqaləsində yazırdı: "Moskva hamıdan yaxşı bilir ki, türklər kiminsə vassalı deyillər. Onlar görürlər ki, türk irqinə mənsub olan bir ovuc finlər öz müstəqilliklərini şərəflə qoruyurlar". İki gün sonra başqa bir məqaləsində o, qeyd edirdi ki, bugünkü Sovet İttifaqı imperialist çar Rusiyasının varisinə çevrilmişdir. Əgər SSRİ təcavüz siyasətini davam etdirsə, dünyanın müxtəlif guşələrində olan öz tərəfdarlarının etimadını birdəfəlik itirəcəkdir. Sovet xüsusi xidmət orqanları bu səpkidə yazıları onunla izah etməyə çalışırdılar ki, şayiələrə əsasən guya Yalçın ingilislər tərəfindən satın alınıb və onlardan 4 min funt sterlinq pul alıb. Sovet-fin müharibəsi zamanı Sovetlərin təcavüzkar niyyətlərinin artdığını sərt formada ifşa edən mətbuat orqanlarından biri də "Son Poçta" qəzeti idi. Cəmaləddin Saracoğlunun da bu mövzu ilə bağlı "Yeni Sabah"dakı yazılan kifayət qədər sərt mövqedən yazılmışdı (36). Ankaradakı sovet diplomatik orqanları sovet-fin müharibəsinə türk mətbuatının belə sərt münasibətini ilk növbədə Türkiyə hökumətinin mövqeyi ilə əlaqələndirməyə çalışırdılar və belə hesab edirdilər ki, mətbuat siyasi dairələrin fikrini əks etdirir. Sovet səfirliyinin məlumatında göstərilirdi ki, sovet-fin müharibəsi zamanı Türkiyə rəhbərləri sırf antisovet mövqe tutdular.

Lakin bunun əksinə olaraq qeyd etmək lazımdır ki, Türkiyə siyasi dairələri Sovetlərlə münasibətlərə son dərəcə ehtiyatla yanaşırdılar. Sovet-fin müharibəsi başlandıqdan sonra SSRİ-nin Millətlər Cəmiyyətindən Çixarılması müzakirə edildikdə 1936-cı ildən Türkiyəni Cəmiyyətdə təmsil edən "Akşam" qəzetinin naşiri Necmettin Sadak bu müzakirələrdə iştirak etmiş, fəqət SSRİ-nin Millətlər Cəmiyyətinin üzvlüyündən çıxarılmasına səs verməmişdi. Bu barədə N.Sadak özü Cenevrədən qayıtdıqdan sonra dekabrın 25-də "Tan" qəzetində çıxış etmişdi (37).

Sovet-fin müharibəsi ilə bağlı iki məsələyə diqqət yetirmək lazımdır. Birincisi, Sovet İttifaqını vaxtilə 1933-cü ildə M.Litvinovun təşəbbüsü ilə qəbul olunmuş "Təcavüzkarın müəyyən edilməsi haqda" əsasnaməyə istinad edərək Millətlər Cəmiyyətindən çıxardılar. İkincisi, rus tarixçiləri özlərinin də indi etiraf etdikləri kimi, bu müharibə Sovet dövləti rəhbərli-

yinin avantürist siyasətinin təzahürü idi və bu müharibədə SSRİ-nin mövqeyinə heç bir mülahizələrlə haqq qazandırmaq olmaz (38).

Sovet İttifaqı 19 oktyabr müqaviləsinə münasibətdə açıq şəkildə təmkinli mövqe tutsa da, uzun müddət gizli saxlanılan diplomatik sənədlərin araşdırılması fin müharibəsindəki antisovet mövqeyə və digər məsələlərə görə SSRİ-nin Türkiyədən ciddi narazılıqlarının olduğunu təsdiq edir. SSRİ Xalq Xarici İşlər Komissarlığının Yaxın Şərq şöbəsinin müdiri N.Novikovun hazırladığı sənəddə göstərilir ki, 1939-cu ilin oktyabrında SSRİ ilə danışıqları kəsən Türkiyə nümayişkarcasına ingilis-fransız bloku ilə pakt imzalamaqla İsmət özünün ingilispərəst meylli xadim olduğunu bütünlüklə büruzə verdi.

Sovet diplomatik orqanları belə hesab edirdilər ki, prezident olduqdan sonra İ.İnönü çox asanlıqla Türkiyənin SSRİ-yə deyil, İngiltərəyə meyllənməsinin zəruriliyini ona sübut edən qatı ingilispərəst qüvvələrinin təsiri altına düşmüşdür. Sovet tərəfi hətta belə güman edirdi ki, İ.İnönünün prezident seçilməsində ingilislərin iştirakı olmuşdur. Və guya onun ətrafındakı ingilislər tərəfindən satın alınmış adamlar İsmət paşanı inandırırdılar ki, Türkiyənin yeganə xilası İngiltərə ilə ittifaqdadır (39).

1939-cu ilin payızında Avropada və eləcə də dünyada baş verən hadisələr SSRİ XKS-nin sədri, xarici işlər komissarı V.Molotovun oktyabr ayının 31-də SSRİ Ali Sovetinin iclasında etdiyi "Sovet İttifaqının xarici siyasəti haqqında " geniş məruzəsində təhlil edilirdi. Məruzə bütövlükdə 1939-cu ilin avqust-sentyabr aylarında gerçəkləşdirilmiş sovet-alman əməkdaşlığına haqq qazandırılmasına yönəldilmişdi. Dünyada müharibənin başlanması üçün məsuliyyəti V.Molotov məharətlə ingilis-fransızların üzərinə qoyurdu və Polşanın Almaniya ilə SSRİ arasında bölüşdürülməsini ədalətli və qanunauyğun bir hadisə kimi dəyərləndirirdi. V.Molotov deyirdi: "Almaniya ilə münasibətimiz kökündən yaxşılaşmışdır. Burada iş dostluq münasibətlərinin möhkəmlənməsi, praktiki əməkdaşlığın genişlənməsi və Almaniyanın sülhə olan cəhdlərində ona siyasi kömək edilməsi yolu ilə inkişaf etmişdir". Noyabr ayının 1-də və 2-də "Pravda", "İzvestiya", habelə respublika mətbuat orqanlarında dərc edilən bu məruzədə V.Molotov 1939-cu ilin sentyabr-oktyabr aylarında Türkiyə xarici işlər naziri ilə Moskvada aparılan danışıqlara geniş yer vermiş, danışıqların gedişini təhrif edərək Sovet-Türkiyə ittifaq müqaviləsinin bağlanmaması üçün bütün məsuliyyəti Türkiyə tərəfinin üzərinə qoymuşdu. V.Molotov Moskva danışıqlarında Qara dəniz boğazları haqqında pakt bağlamaq ideyasına toxunur və bu paktın Türkiyə tərəfindən rədd edilməsini qeyd edərək deyirdi: "Sovet-Türkiyə danışıqları pakt bağlanması ilə nəticələnmədi, lakin bizi maraqlandıran bir sıra məsələləri aydınlaşdırmağa, yaxud heç olmazsa az-çox müəyyənləşdir-

məyə kömək etdi. İstər Moskva danışıqları, istərsə Türkiyə hökumətinin son xarici siyasət aktları nəticəsində Türkiyənin siyasətində bir çox cəhdlər indi bizim üçün daha çox aydın oldu. Məlum olduğu kimi, Türkiyə hökuməti öz müqəddəratını hazırda müharibədə iştirakı edən müəyyən Avropa dövlətləri qruplaşması ilə bağlamağa üstünlük vermişdi. O, iki aydan bəri Almaniyaya qarşı müharibə edən İngiltərə və Fransa ilə qarşılıqlı yardım paktı bağlamışdır. Bununla Türkiyə ehtiyatlı bitərəflik siyasətini tamamilə bir yana atmış və genişlənən Avropa müharibəsi dairəsinə girmişdir. Daha artıq bitərəf ölkələri müharibə dairəsinə çəkmək istəyən həm İngiltərə, həm Fransada bundan çox razı qalmışlar. Türkiyənin buna heyfsilənib-heyfsilənməyəcəyi haqqında falçılıq etməyəcəyik. Biz qonşumuzun xarici siyasətində yeni momentləri yalnız qeyd etməliyik və hadisələrin gedişini diqqətlə izləməliyik. Əgər Türkiyə indi müəyyən dərəcədə öz əl-qolunu bağlamışsa və müharibə edən tərəflərdən birini özü üçün qorxulu olduğu halda müdafiə etməyə meyl göstərmirsə, görünür Türkiyə hökuməti bununla öz üzərinə götürdüyü məsuliyyəti düşünür" (40).

Bu məruzədən bir həftə sonra V.Molotov 1939-cu ilin noyabr ayının 6-da Oktyabr İnqilabının ildönümünə həsr edilmiş məruzəsində yenidən Türkiyə ilə bağlı məsələyə qayıdaraq bildirdi ki, bitərəfləri müharibə içərisinə çəkmək işinin çox aktiv görüldüyünə və artıq müəyyən nəticələr verdiyinə göz yummaq olmaz. Bununla müharibənin bürüdüyü meydanın daha da genişləndirilməsi hazırlanır. Məsələn, İngiltərənin və Fransanın Türkiyə ilə qarşılıqlı yardım paktı bağlamasının nə kimi ciddi məsələlər doğurduğu məlumdur (41).

Ankaradakı Sovet səfirliyi isə 1939-cu ilin payızında baş verənləri ümumilikdə beynəlxalq vəziyyətin dəyişməsinə uyğun Türkiyənin çevik, balanslaşdırılmış siyasət yeritməsi ilə izah edirdi. Vuruşan ölkələr arasında balansın saxlanılması siyasətinin əsas ilhamçısı İ.İnönü hesab edilirdisə, onun həyata keçirilməsində əsas xidmətin Ş.Saracoğluna məxsus olduğu göstərilirdi. Sənəddə deyilirdi: "Belə bir faktı göstərmək kifayətdir ki, Saracoğlu Türkiyə xarici siyasətinin əsası kimi İngiltərə ilə ittifaqı və Ankaradakı ingilis səfiri ilə yetərincə dost münasibətləri saxlamağı bacarmaqla yanaşı, İngiltərənin düşməni olan Almaniya və onun Ankarada nümayəndəsi fon Papenlə də dostluq münasibətləri qurmağa nail olmuşdur". İngilis diplomatlarına istinadən Sovet səfirliyi öz məlumatlarında Ş.Saracoğlunun 1939-cu ildə Moskva danışıqlarında Türkiyə üçün arzu olunan nəticələrə nail ola bilməməsini onun antisovet əhvali ruhiyyəsinin yüksəlməsinin təsiri ilə əlaqələndirirdilər. Məlumatda deyilirdi: Ş.Saracoğlu zahirən Sovet İttifaqının Türkiyədəki nümayəndələrinə münasibətdə dəyişməz dostluğunu və mehribancasına rəftarını saxlasa da, məhz o, son illərdə Türkiyə hökumətinin bütün antisovet hərəkətlərinin əsas təşkilatçısı və icraçısıdır (42).

Sovet məlumatlarında prezident İ.İnönünü ətrafında Türkiyə hökumətində və parlamentində guya Kazım Karabəkir, Fevzi Çakmak, Hüseyn Cahid Yalçın, Hüseyn Rauf Orbay, Ali Fuad Cebesoy, Ali Fethi Okyar və digərləri kimi "mürtəce xadimlərin" yüksək vəzifələr tutduğu vurğulanır və Türkiyənin İngiltərəyə yönəlik siyasətinin qələbə çalması da məhz bununla izah edilirdi.

İttifaq müqaviləsinin imzalanması ilə bağlı ordu generalı Kazım Orbay 1939-cu ildə Türkiyə Baş qərargahının nümayəndəsi kimi Londona getmişdi ki, hərbi konvensiyadan irəli gələn məsələləri İngiltərə və Fransa Baş qərargahlarının nümayəndələri ilə müzakirə etsin. Sovet diplomatik idarələri K.Orbayı Türkiyə ordusunun ən yaxşı komandirlərindən biri kimi qiymətləndirirdilər. Eyni zamanda qeyd edirdilər ki, K.Orbay Türk ordusunun Baş qərargahının ən təcrübəli zabitlərindən biri kimi vaxtı ilə Əfqanıstana ezam olunmuş və Əfqanıstan ordusunun Baş qərargah rəisi kimi Əfqanıstanda üsyanın yatırılmasına rəhbərlik etmişdi (43).

K.Orbaydan fərqli olaraq Türkiyənin köhnə hərbçilərindən və siyasi xadimlərindən olan Ali Fuad Cebesoy Sovet gizli məlumatlarına görə, bu müqavilənin əleyhinə idi. Sovet səfiri Terentievlə söhbətdə o, demişdi ki, əgər Türkiyədə kabinet dəyişikliyi baş versə, Türkiyə xarici siyasət kursuna yenidən baxılmağın mümkünlüyü istisna edilmir. Sovet diplomatik orqanları bir tərəfdən Cebesoyu Almaniyaya, digər tərəfdən isə Sovetlərə yaxın siyasi fiqur hesab edirdilər. O, Türkiyənin Sovet Rusiyasında ilk səfiri olmuş, 16 mart 1921-ci il müqaviləsini imzalamış, V.İ.Leninlə dəfələrlə görüşmüşdü. Eyni zamanda Sovet səfirliyinin məlumatında göstərilirdi ki, bir zamanlar Atatürk tərəfindən aktiv siyasi fəaliyyətdən uzaqlaşdırılan A.F.Cebesoy 1939-cu ildə İ.İnönü tərəfindən yenidən rəhbər işə cəlb edilmişdi. Sovet tərəfi belə hesab edirdi ki, köhnə almanpərəst olduğu üçün Türkiyə hökuməti onu 1939-cu ildə Hitlerin anadan olmasının 50 illiyi münasibəti ilə Almaniyaya göndərilən türk nümayəndə heyətinin başçısı təyin etmişdir. Daha sonra məlumatda qeyd edilirdi ki, A.F.Cebesoy Alman səfiri fon Papenlə köhnə tanışlardır, onun rəğbətini və etimadını qazanmışdır. Onların vaxtilə fon Papenin general Falkenqeymin qərargahında işlədiyi vaxt Fələstin cəbhəsindən tanış olduqları göstərilirdi (44).

Türkiyənin Balkan ölkələrini Almaniya və İtaliya təcavüzünə qarşı səfərbər etmək cəhdləri də eyni dərəcədə Sovetləri təmin etmirdi. Polşanın acı taleyi, onun ərazilərinin Almaniya və Sovetlər arasında bölüşdürülməsi Balkanlar üçün elə də yaxşı nümunə deyildi. Bunu nəzərə alaraq Türkiyənin Xarici işlər naziri Ş.Saracoğlu 1940-cı ilin fevral ayının 2-də Belqradda keçirilən Balkan Antantası üzvü olan ölkələrin nümayəndələrinin toplantısında ortaq təhlükəyə qarşı ortaq qərarlar verilməsinin zəruriliyini irəli sürdü. Lakin həmin dövrdə Balkan ölkələrinin bir hissəsi

Almaniyadan çəkindiyindən, digər bir hissəsi onunla əməkdaşlığa meylli olduğundan Türkiyənin Balkanlarda Almaniyaya qarşı müdafiə sistemi qurmaq cəhdləri müsbət nəticə vermədi (45).

Digər tərəfdən, Sovet İttifaqının da Balkanlara yönəlik siyasətini faşist bloku ilə rəsmiləşdirməsi Türkiyə üçün əlavə problemlər yaradırdı. Sovet İttifaqının Finlandiyaya təcavüzü ilə bağlı soyuqlaşmış SSRİ-İtaliya münasibətləri 1940-cı ilin yayında yenidən yaxınlaşma mərhələsinə qədəm qoymuşdu. 1939-cu ilin oktyabrında Romaya səfir təyin edilmiş N.V.Qorelkin kral Viktor-Emmanuelə etimadnaməsini təqdim etməyə hazırlaşdığı vaxt fin müharibəsi ilə bağlı İtaliyada elə güclü antisovet dalğa başlanmışdı ki, V.Molotov səfiri təcili olaraq geri çağırmaq məcburiyyətində qalmışdı (46). Yalnız Almaniyanın müdaxiləsi ilə 1940-cı ilin iyun ayının əvvəllərində Sovet səfirinin Romada, İtaliya səfirinin Moskvada fəaliyyətləri bərpa edilmişdi. Əlbəttə, bu daha çox iyun ayının 10-da İtaliyanın Fransaya qarşı müharibəyə daxil olması ilə bağlı idi. Elə həmin gün Mussolini Venetsiya meydanındakı çıxışında bəyan etmişdi ki, İtaliya onunla quru və su sərhədləri olan ölkələrlə münaqişə yaratmaq niyyətində deyildir. Qoy İsveçrə, Yuqoslaviya, Yunanıstan, Türkiyə, Misir mənim bu sözlərimi nəzərə alsınlar (47).

1940-cı ilin iyunun 11-də Moskvaya qayıdan İtaliya səfiri Rosso bir gün sonra V.Molotov tərəfindən çox yüksək səviyyədə qəbul olunmuşdu. İyun ayının 16-da Mussolini səfirə hətta siyasi danışıqlar aparmağa belə icazə vermişdi. 1940-cı ilin iyununda SSRİ ilə İtaliya arasında Balkan-Dunay hövzəsində iki ölkənin maraqlarının tənzimlənməsi haqqında siyasi saziş barədə danışıqlar aparılan zaman Sovet rəhbərliyi qarşılıqlı yardım haqqında ingilis-fransız-türk müqaviləsindən ciddi narazılığını bildirmişdi. Rosso ilə danışıqlarda Molotov İtaliyanı İngiltərə və Fransaya qarşı müharibəyə daxil olmağa həvəsləndirir, həmin ölkələrlə müqavilə bağlamış Türkiyəyə inam və etimadın azaldığını dilə gətirirdi. V.Molotov qeyd edirdi ki, Boğazlarda təkbaşına ağalıq etməklə Türkiyə Qara dənizdə öz şərtlərini Sovet İttifaqına diqtə etməyə cəhd göstərir, SSRİ-nin cənub və cənub-şərqi Batum rayonunda onun üçün təhlükə təşkil edir. Buna cavab olaraq Türkiyəni Aralıq dənizində sıxmaq məqsədilə Sovet rəhbərliyi İtaliya və Almaniyaya hər cür dəstək verməyə hazır olduğunu bildirirdi. V.Molotov deyirdi: "Türkiyənin digər rayonlarına gəldikdə, SSRİ İtaliyanın, deməli, eyni zamanda Almaniyanın maraqlarını nəzərə almağa və bu məsələ ilə bağlı onlarla razılığa gəlməyə hazırdır. Aralıq dənizinə gəldikdə isə SSRİ İtaliyanın bu dənizdə üstün vəziyyətdə olmağını tamamilə ədalətli hesab edir. Ona görə Sovet İttifaqı ümid edir ki, İtaliya da əsas Qara dəniz ölkəsi kimi SSRİ-nin maraqlarını nəzərə alacaqdır" (48). Bu danışıqların gedişində V.Molotov İtaliya tərəfindən irəli sürülmüş Balkan-Dunay və Qara dəniz regionunda SSRİ,

Almaniya və İtaliya arasında üçtərəfli saziş bağlamaq təklifinə razı olsa da, hadisələrin sonrakı inkişafı bu sazişin reallaşması üçün əlverişli olmadı. İyul ayının 5-də Romadan səfir Rossoya teleqram gəldi ki, V.Molotov tərəfindən qaldırılan məsələlərin geniş müzakirəsindən yayınmaq lazımdır.

Məlum olduğu kimi, hələ Ş.Saracoğlunun Moskva səfəri zamanı İ.Stalin İtaliyanın maraqlarını öyrənmək məqsədilə onun Türkiyədən nə istədiyini soruşmuşdu. Ş.Saracoğlu isə bildirmişdi ki, İtaliya öz istəklərini dəqiq ifadə etmir, lakin həmişə Roma imperiyası haqqında danışıqlar aparır. İtaliya Türkiyə əleyhinə əlverişli strateji məntəqə kimi ona yaxın olan adalarda möhkəmlənmək istəyir. Lakin İ.Stalin İtaliyaya olan şübhələri azaltmaq məqsədilə həmin danışıqlarda qeyd etmişdi ki, İtaliyaya Misir lazımdır. Ş.Saracoğlu isə, - ola bilsin, lakin indi Misir daha möhkəm əllərdədir - deyə cavab vermişdi (49).

İtaliyanın 1940-cı ilin iyun ayının 10-da Fransaya hücum etməsi ilə qarşılıqlı yardım haqqında 19 oktyabr müqaviləsi və bu müqavilə üzrə götürülmüş öhdəliklər məsələsi gündəliyə gəlmiş oldu. Hərbi əməliyyatlar Aralıq dənizi rayonuna yayıldıqdan sonra Türkiyə Xarici İşlər Nazirliyinin baş katibi N.Menemençioğlu və Ş.Saracoğlu ilə görüşən Ankaradakı ingilis və fransız səfirləri ittifaq müqaviləsinə uyğun olaraq Türkiyənin müharibəyə qatılmasını istədilər. Lakin danışıqların gedişində Fransa təslim olub müharibədən çıxdı. Müharibədən çıxan bir dövlətin digər dövləti müharibəyə girməyə dəvət etməsi və Türkiyənin bu addımının doğura biləcəyi nəticələr ölkənin siyasi dairələrindən vəziyyəti diqqətlə öyrənməyi tələb edirdi. Hərçənd, Türkiyə xarici siyasətinin həyata keçirilməsində mühüm rol oynayan bu iki şəxsdən biri - Numan Menemençioğlu Sovet xüsusi xidmət və diplomatik idarələrinin gizli sənədlərində almanpərəst, digəri - Ş.Saracoğlu isə ingilispərəst siyasətçi kimi xarakterizə olunurdu, həmin dövrdə bu siyasi xadimlər Türkiyənin müharibəyə girməməsi üçün lazım olan dəlilləri tapa bildilər. N.Menemençioğlu haqqında SSRİ Xarici İşlər Komissarlığının Yaxın Şərq şöbəsinin hazırladığı arayışda deyilirdi ki, siyasi görüşlərinə görə N.Menemençioğlu qatı millətçi, almanpərəst, Almaniya ilə iqtisadi əməkdaşlığın əsas tərəfdarı olduğu kimi, formal olaraq İngiltərə ilə ittifaq müqaviləsinin yerinə yetirilməsinə tərəfdardır. Eyni zamanda N.Menemençioğlu lazım gəldikdə, bu müqavilənin yerinə yetirilməməsi üçün müxtəlif bəhanələr də gətirə bilir (50).

1940-cı ilin yayında yaranmış böhranlı vəziyyətdən çıxmaq və Türkiyəni müharibədən kənarda saxlamaq üçün Türkiyə Xarici İşlər Nazirliyi müqavilə üzrə tərəfdaşlarına bildirdi ki, birincisi, müqavilə üzrə Türkiyəyə vəd edilən silah və sursat indiyə qədər ona verilməmişdir; ikincisi, Türkiyə müharibəyə girdiyi təqdirdə hərbi əməliyyatlar Orta Şərqə də

yayılcaqdır; üçüncüsü isə, ittifaq müqaviləsinə əlavə olaraq imzalanmış ikinci protokola görə Türkiyənin müharibəyə girməsi ölkəni Sovetlərlə münaqişəyə cəlb edə bilər. Bu dəlilləri əsas gətirərək Türkiyə müharibədən kənarda qalmağa qərar verdi.

Belə qərar qəbul edilməsinə yüksək rütbəli və vəzifəli hərbçilərin də ciddi təsiri olmuşdu. Sovet gizli məlumatlarında Baş qərargah rəisi marşal F.Çakmakın müharibəyə girməyin əleyhinə olduğu qeyd edilir. Sovet məlumatlarına əsasən, orduda böyük şəxsi nüfuzuna arxalanaraq marşal Çakmak Türkiyə xarici siyasətinə həlledici təsir göstərmək imkanlarına malik idi. Sovet tərəfi marşal Çakmakın müharibəyə girməyin əleyhinə çıxış etməsini guya onun türk ordusunun zəif olmasını başa düşməsi ilə izah etsə də, əslində Türkiyə yüksək rütbəli hərbçilərinin müharibə əleyhinə yönəlmiş mövqeyi həmin dövrün siyasi şəraitinin düzgün qiymətləndirilməsi ilə bağlı idi (51).

Məsələ burasında idi ki, Fransa təslim olduqdan sonra Türkiyənin neytral qalması İngiltərə üçün də əlverişli idi. Bir tərəfdən, İngiltərə Türkiyəni zəruri hərbi ləvazimatla təchiz edə bilmirdi, digər tərəfdən Türkiyənin bitərəfliyi Almaniyanın Balkanlar vasitəsi ilə Fars körfəzinə doğru yolunu bağlayırdı. Öz növbəsində Sovet İttifaqı da həmin dövrdə Türkiyənin müharibəyə daxil olmasında maraqlı deyildi. Almaniya ilə müttəfiqlikdən əlavə, bir tərəfdən müharibənin Yaxın Şərqə yayılması SSRİ-nin təhlükəsizliyi üçün narahatlıq yaradar, digər tərəfdən isə Türkiyənin müharibəyə daxil olması Sovet İttifaqının Bessarabiya və Şimali Bukovina ilə bağlı planlarına maneçilik törədə bilərdi.

Almaniya ilə imzalanmış gizli protokollara uyğun olaraq Sovet İttifaqı 26 iyun 1940-cı ildə Bessarabiyanın SSRİ-yə qaytarılmasını və Şimali Bukovinanın isə verilməsini Rumıniyadan tələb etdi. Bir gün sonra Rumıniya hökuməti bu məsələləri dostcasına müzakirə etməyə hazır olduğunu bildirdi. Bununla yanaşı, Rumıniya hökuməti Sovet tələbinə münasibətlərini öyrənmək məqsədilə Almaniya, İtaliya, Yuqoslaviya, Yunanıstan və Türkiyəyə müraciət etdi. Bu ölkələrdən bəziləri Rumıniya hökumətinə tövsiyə etdi ki, Sovet İttifaqının Rumıniyaya qarşı ərazi iddiaları məsələsini dinc yolla tənzim etsin. Belə mövqe tutanlardan biri də Türkiyə idi. Türkiyənin Buxarestdəki səfiri Abdullah Sübhi Tanriover 1931-ci ildən Rumıniyada diplomatik korpusa rəhbərlik etdiyindən Rumıniya siyasi dairələrində yetərincə tanınan bir diplomat idi. Sovet gizli sənədlərində onun Baş nazir və xarici işlər naziri Mixail Antonesku də xüsusi yaxınlığı qeyd edilir. Diplomatik kanallarla alınan məlumatlarda göstərilirdi ki, A.S.Tanriover M.Antonesku ilə söhbətdə SSRİ də müharibənin Rumıniyanın maraqlarına uyğun olmadığını bildirmişdi. A.S.Tanriover tövsiyə etmişdi ki, güclü və qüdrətli Rusiya hər zaman Rumıniyanın qonşusu olacaqdır, müharibədən qaçmaq üçün hansısa yolu

axtarıb tapmaq lazımdır. O, Rumıniyanın Bessarabiyadan imtina etməsini də mümkün yollardan biri sayırdı (52). İyun ayının 27-də SSRİ ikinci dəfə Rumıniyadan mövqeyini açıq şəkildə bildirməyi tələb etdikdə, Buxarest ertəsi gün 51 min kv.km ərazisi və 4 milyona yaxın əhalisi olan Bessarabiya və Şimali Bukovinanı Sovet İttifaqına verməklə razılaşmalı oldu. Nəzərə almaq lazımdır ki, Bessarabiyadan fərqli olaraq Şimali Bukovina əvvəllər heç vaxt Rusiya imperiyasının tərkibində olmamışdı.

Rumıniyaya münasibətlə bağlı hələ 1934-cü ilin fevralında Balkan paktı imzalanan zaman Sovet İttifaqı Türkiyə hökuməti ilə yazışmalar aparırdı. Bu yazışmalarda məqsəd pakt imzalanarkən Türkiyəni Bessarabiya məsələsində Rumıniyanı müdafiə etməklə bağlı üzərinə hər hansı öhdəlik götürməkdən çəkindirmək idi. Həmin dövr Balkan paktına əlavə olaraq imzalanmış protokolda Türkiyə rus-rumın savaşı olacağı təqdirdə Rumıniyaya kömək etməyəcəyini Sovetlərin tövsiyəsi ilə rəsmiləşdirməli olmuşdu.(53)

Buxarestdəki türk səfiri A.S.Tanriover Balkan Antantasının ən ciddi tərəfdarlarından biri idi. O təəssüf edirdi ki, bir sıra dövlətlərin siyasəti ucbatından Balkan Antantası dağılır və Almaniyanın Balkanlara doğru hərəkətinin qarşısının alınmasında öz rolunu oynaya bilmir. A.S.Tanriover Rumıniya, Macarıstan və Yuqoslaviyanın Almaniyanın Balkanlara doğru hərəkətinə mane ola biləcək Balkan Antantasını zəiflətmək siyasətindən hiddətlə danışır və deyirdi ki, əgər bütün Balkan ölkələri özlərində cəsarət və qətiyyət tapsalar, Türkiyənin köməyi ilə almanların qabağını almaq, Balkanları alman işğalından xilas etmək olar. Buxarestdəki Sovet səfiri Lavrentievlə söhbətində o, Rumıniya kralının və Antoneskonun siyasətini pisləyərək bildirmişdi ki, Balkanları işğal etməklə almanlar ancaq bir məqsəd güdürlər: SSRİ-yə və Türkiyəyə hücum etmək üçün əməliyyat meydanı hazırlasınlar (54).

Lakin 1940-cı ilin yayında Rumıniyaya qarşı iddialarına Almaniya və İtaliya tərəfindən müqaviməti aradan qaldırmaq üçün Sovet İttifaqı iyun ayında İtaliya səfiri Rosso ilə danışıqlarda bildirmişdi ki, SSRİ-nin tələbləri yerinə yetirildiyi təqdirdə Rumıniyanın digər rayonlarında Almaniya və İtaliyanın maraqlarını onlarla razılaşdırmağa hazırdır. Almaniya isə öz növbəsində tərəfdaşları ilə razılaşdırmadan oktyabr ayının 10-da Rumıniyaya ümumi sayı iki diviziyaya bərabər olan qoşun yeridib Dunay deltasının neft mədənlərində yerləşdirdi. Bu addımın zəruriliyi onunla əsaslandırılırdı ki, Rumıniyanın Balkanlardakı hakim mövqeyi və onun üzərində Almaniyanın nəzarəti digər Balkan ölkələri, İtaliya və xüsusilə SSRİ ilə qarşılıqlı münasibətlərində həlledici rol oynaya bilərdi. Mussolini narazılıq edirdi ki, Hitler həmişə onu baş vermiş fakt qarşısında qoyur. Lakin bu dəfə mən ondan həmin qaydada əvəzini çıxacağam, o qəzetlərdən öyrənəcək ki, mən Yunanıstanı işğal etmişəm (55).

1940-cı ilin 28 oktyabrında İtaliyanın Yunanıstana hücumu ittifaq müqaviləsinə əsasən Türkiyənin öhdəlikləri məsələsini yenidən gündəliyə gətirdi. Bu artıq hərbi əməliyyatların Balkanlara yayılması demək idi. Balkan Antantası paktına əsasən iştirakçı dövlətlər Balkan ölkələrinin daxili sərhədlərinin toxunulmazlığına təminat verirdilər. İtaliya və ya digər bir kənar dövlətin Balkan ölkələrindən hər hansı birinə, o cümlədən Yunanıstana hücumu paktını əhatə dairəsinə daxil deyildi. Bununla belə, İtaliyanın Yunanıstana hücumu Bolqarıstanı da bu işə həvəsləndirdiyindən Türkiyə Bolqarıstana xəbərdarlıq etdi ki, əgər o Yunanıstana qarşı müharibəyə girərsə, onda Türkiyə Yunanıstanı müdafiə etmək məqsədilə müharibəyə qatılacaqdır. Eyni məlumat Ankaradakı Alman səfiri fon Papenə də verildi. Türkiyənin belə mövqeyi Yunanıstana imkan verdi ki, Bolqarıstanla sərhəddə olan hərbi qüvvələrdən İtaliyaya qarşı istifadə etsin. Yunanıstana Türkiyənin yardım göstərməsi məsələsinə hələ bir il əvvəl Ş.Saracoğlunun Moskva danışıqlarında da toxunulmuşdu. İ.Stalin həmin danışıqlarda cəhd göstəmişdi ki, Türkiyə Yunanıstana yardım göstərilməsi ilə bağlı üzərinə hər hansı öhdəlik götürməsin. Türkiyənin mövqeyini öyrənmək üçün o, belə bir fikir irəli sürmüşdü ki, əgər yunanlar adaları türklərə versələr, onda onlara kömək etmək olar. Ş.Saracoğlu - biz adaları istəmirik - dedikdə, İ.Stalin – adaları tələb etmək lazımdır. Onlar dənizə çıxış yolunda yerləşirlər. Sizin vəziyyətiniz ağırdır - deyə cavab vermişdi və əlavə etmişdi ki, bizim də vəziyyətimiz eyni ilə belə idi. İngiltərə təminat verir, amma Polşadan ötrü biz vuruşuruq (56).

Dünya müharibəsinin genişlənməsi, bu müharibəyə, vuruşan tərəflərə münasibətdə Türkiyənin siyasətinin mühüm tərəfləri prezident İ.İnönünün 1 noyabr 1940-cı ildə Böyük Millət Məclisindəki çıxışında əhatə olunmuşdu. O, qeyd etmişdi ki, Türkiyənin hüdudları xaricində bir qarış torpaqda gözü yox, kimsənin haqqını tapdalamağa niyyəti yoxdur. Bizim hərb xaricində olan vəziyyətimiz, bizə qarşı eyni yaxşı niyyəti göstərən və tətbiq edən bütün dövlətlərlə ən normal münasibətlərə maneçilik törətmir. Bizim hərb xaricində olan vəziyyətimizdə bizim torpaqlarımızdan, dəniz və havalarımızdan müharibə edənlər tərəfindən bir-birinə qarşı ıstifadə etməsi istisnasız olaraq qadağandır və biz müharibəyə girmədikcə qəti və ciddi olaraq belə olacaqdır. Yunanıstanın təcavüzə məruz qalması ılə bağlı məsələlərə toxunaraq İ.İnönü dedi ki, son zamanlar hərbi hərəkətlər bəzi yeni cəhətləri ilə diqqəti cəlb etməkdədir. Bizim əmniyyət sahəmiz üçün mühüm əhəmiyyətə malik olan Yunanıstan təəssüflər olsun ö, bu gün hərbə sürüklənmişdir. Bundan doğan vəziyyəti müttəfiqimiz İngiltərə hökuməti ilə müştərək tədqiq və mütaliə etməkdəyik. Dünyanı bürümüş böyük müharibənin çətinliklərinə və bu çətinliklər içində Türkiyə-İngiltərə münasibətlərinin gələcək perspektivlərinə toxunan İ.İnönü göstərdi ki, önümüzdəki illərdə bəşəriyyət üçün uzun iztirab

dövrləri olması mümkündür, hətta qaçılmazdır. Bu dövr əsnasında həyati mənafelərimizə münasibətdə həssas olarkən dostluqlarımıza və ittifaqlarımıza vəfalı qalacağıq. İngiltərənin çətin şərtlər içində, qəhrəmanca bir mövcudiyyət hərbi içində olduğu bir zamanda onunla olan ittifaq bağlarımızın sağlam və sarsılmaz olduğunu söyləmək mənim üçün bir borcdur (57).

Hadisələrin gərginləşdiyi dövrdə prezident İ.İnönünün Türkiyəni "müharibədən kənarda saxlamaq" siyasətini təsdiq etməsi müharibə aparan tərəflərin hamısını, o cümlədən Türkiyənin müttəfiqi İngiltərəni də təmin edirdi.

1940-cı ilin payızında hərbi əməliyyatların coğrafiyasının genişlənməsi, müharibənin gedişində gözlənilməz hadisələrin meydana çıxması, Balkanlarda baş verən proseslərin sürətli inkişafı diplomatik səylərin aktivliyi ilə müşayiət olunurdu. Bu şəraitdə Almaniya və Sovet İttifaqı daha çox təzyiq göstərmək yolu ilə Türkiyəni İngiltərədən ayırıb Alman blokuna cəlb etmək məqsədilə bir sıra addımlar atmışdılar. Fransa təslim olduqdan sonra qənimət kimi ələ keçirilmiş Fransa Baş qərargahının sənədlərinin Almaniya tərəfindən dərc edilməsi və bu sənədlərin içində Bakı neft rayonunda hərbi əməliyyat aparılması barədə ingilis-fransız-türk Baş qərargahlarının danışıqlarına aid sənədlərin də olması Türkiyəni şantaj etmək zərurətindən irəli gəlirdi. Lakin Türkiyə hökumətini, xüsusilə xarici işlər naziri Ş.Saracoğlunu, Baş qərargah rəisi marşal F.Çakmakı, vaxtilə həmin danışıqları aparmış ordu generalı Kazım Orbayı nüfuzdan salmaq məqsədilə dövriyyəyə buraxılan "ifşaedici" sənədlərin tamamilə əks effekti oldu. Sovetlərlə Türkiyəni qarşı-qarşıya qoymağa hesablanmış belə çirkin metodlar Türkiyənin rəhbər dairələrinin və ictimaiyyətinin Almaniya haqqında fikirlərinə mənfi təsir göstərdi və həmin təsir türk-alman münasibətlərinin pisləşməsinə də sirayət etdi. Bu təxribat Türkiyənin İngiltərə ilə müttəfiqlik münasibətlərinə tərəfdar olanların mövqelərini xeyli gücləndirdi (58).

1940-cı ilin noyabrında V.Molotov başda olmaqla Sovet hökuməti nümayəndə heyətinin Berlinə səfəri oldu. V.Molotovun səfəri ərəfəsində belə məlumatlar yayılmışdı ki, Almaniya Xarici İşlər Nazirliyi Türkiyənin, bütövlükdə isə Yaxın Şərqin Almaniya və Rusiya arasında bölüşdürülməsi məsələsinin yetişdiyini hesab edir. Səfər zamanı nüfuz dairələrini müəyyənləşdirmək barədə V.Molotovla Hitler və Ribbentrop arasında son dərəcə məxfi danışıqlar aparıldı. Danışıqların məxfiliyi barədə həmin danışıqlarda tərcüməçi kimi iştirak etmiş V.Berejkov belə yazır: "Danışıqların gedişi barədə Moskvaya göndəriləcək teleqramın mətnini makinaçıya sözlə diktə etməyə V.Molotov icazə vermədi. O göstəriş verdi ki, hər şey səssiz hazırlanmalıdır. Təsəvvür etmirsən ki, nə qədər qulağını şəkləyənlər var. Onlar eşitmək istəyirlər ki, biz Hitler ilə

təkbətək nə danışdıq. V.Molotov divara, tavana göz gəzdirdi, içində təzə qızllgüllər olan böyük çin vazasına xüsusi diqqət yetirdi. O ehtiyat edirdi ki, ingilis və amerikan casusları və ya Hitlerlə Molotovun danışıqları barədə məlumat almaqda maraqlı olan almanlar burada hər yerdə səs yazmaq üçün mikrofon quraşdıra bilərlər" (59).

1940-cı ilin noyabrında Berlində aparılan danışıqlarda aydın oldu ki, Sovet İttifaqı öz təsirini yeni ərazilərə yaymaq fikrindədir. Bu danışıqların aparılması ilə bağlı İ.Stalinin V.Molotova verdiyi göstərişlərdə mövcud dünya düzənindəki dəyişikliklərin mümkün istiqamətləri əks olunmuşdu. Şərqi Avropada baş vermiş dəyişikliklərdən sonra 1940-cı ilin payızında artıq söhbət SSRİ-nin Balkanlarda (Rumıniya və Bolqarıstanda), Türkiyədə (Qara dəniz boğazlarında) və İranda xüsusi maraqlarından gedirdi (60).

İ.Stalin təklif etmişdi ki, Berlin danışıqları zamanı SSRİ-nin Avropada, eyni zamanda Yaxın və Orta Asiyada (Şərqdə-C.H.) maraq dairəsmin genişləndirilməsi haqqında məsələni Hitlerin qarşısında qoymaq lazımdır və bu məsələlər müvafiq Sazişdə öz əksini tapmalıdır. İ.Stalinin irəli sürdüyü Sovet iddialarına görə danışıqların başlıca məsələsi kimi Bolqarıstana Sovet qoşunları yeridilməli, Dunay və onun dənizə töküldüyü ərazilərin bir hissəsində Sovetlər hərbi baza yaratmaq hüququna malik olmalı idi. Türkiyəyə gəldikdə Stalin bildirmişdi ki, Türkiyə haqqında məsələ və onun taleyi bizim iştirakımız olmadan həll edib bilməz, belə ki, bizim Türkiyədə çox ciddi maraqlarımız vardır. İ.Stalin öz direktivlərində V.Molotova tapşırıq vermişdi ki, əgər bizim Türkiyə ilə münasibətlərimiz haqqında soruşsalar bizim türklərə verdiyimiz cavab qaydasında demək lazımdır: SSRİ ilə qarşılıqlı yardım haqqında paktın olmaması onlara SSRİ-dən yardım tələb etmək hüququ vermir. Bu tövsiyə ona işarə idi ki, Balkanlarda vəziyyət gərginləşdiyi şəraitdə Türkiyənin Moskvadakı səfiri A.Aktay öz ölkəsinin adından SSRİ Xarici İşlər Komissarlığına Türkiyənin narahatlığını ifadə edən sorğu göndərmişdi. Noyabr ayının 4-də verilən cavabda SSRİ Xarici İşlər Komissarlığı Balkanlarda şəraitin gərginləşməsi ilə bağlı SSRİ-nin Türkiyəyə kömək göstərə bilməsi haqqında Ankaranın sorğusunu "anlamadığını" bildirmişdi. Moskva yada salmışdı ki, SSRİ ilə Türkiyə arasında qarşılıqlı yardım haqqında pakt mövcud deyildir və bu barədə heç bir söhbət olmamışdır. Lakin görünür, Sovet rəhbərliyi 1939-cu ilin sentyabr-oktyabr aylarında Moskva danışıqlarında Türkiyə xarici işlər naziri Ş.Saracoğlunun təkliflərini və hələ ondan qabaq sentyabr ayının 8-də Türkiyənin təklif etdiyi müqavilə layihəsini çox tez yaddan çıxarmışdı. Tanınmış rus tarixçisi L.A.Bezımenski Sovetlərin Türkiyə sorğusuna 4 noyabr cavabını dəyərləndirərək yazır ki, bu cavab mənəviyyatsızlıqdan xali deyildi. SSRİ ilə həmsərhəd dövlətlər kimi Rumıniya və Maca-

rıstanın taleyi də Stalini maraqlandırırdı. İ.Stalinin təkliflərində Boğazlar ayrıca xatırlanmamışdı. Eyni zamanda Yunanıstan və Yuqoslaviyaya münasibətdə Almaniya və İtaliyanın nə fikirləşdiyini aydınlaşdırmaq da Sovet rəhbərlərinin maraq dairəsinə daxil idi (61).

Noyabr ayının 12-13-də Berlində aparılan danışıqlarda söhbət ilk növbədə Sovet İttifaqının 1940-ci ilin sentyabr ayının 27-də Almaniya, İtaliya və Yaponiya tərəfindən imzalanmış Üçlər İttifaqına daxil olmasından və dünyanın dörd dövlət arasında nüfuz dairəsinə bölüşdürülməsindən gedirdi. Sovetlər ilk növbədə Boğazlara nəzarəti ələ keçirmək istəyirdi. Bunun üçün onlar Sovet qoşunlarının Boğazlara çıxmasına imkan yaradan Bolqarıstanla müqavilə bağlamağa böyük əhəmiyyət verirdilər. V.Molotov Hitlerlə danışıqlar zamanı bəzi məsələlərə, o cümlədən "Böyük Asiya məkanı" barədə məsələyə aydınlıq gətirməyi zəruri hesab edirdi. Onun fikrincə, digər məsələlərlə yanaşı, Türkiyə məsələsində də aydınlıq yox idi. V.Molotova görə, Montrö sazişinə dəyişiklik edilməli, Sovet hərbi gəmilərinin Qara dənizdən azad çıxışına və dönüşünə təminat verilməlidir. Molotov təklif edirdi ki, Rusiya Türkiyə ilə danışıqlar stolu arxasında oturmalı və daim özünə qarşı təhlükə bölgəsi olan Boğazlarda hərbi baza saxlamaq hüququnu əldə etməlidir. Bununla yanaşı, o Bolqarıstanın Egey dənizinə çıxışına təminat verilməsini də zəruri hesab edirdi.(62) Berlində olarkən V.Molotov Türkiyəni İngiltərə ilə əməkdaşlıqdan ayırıb onu Üçlər İttifaqına cəlb etmək üçün ona təzyiq göstərmək və bu məqsədlə onunla ayrıca bir protokol imzalamağa hazır olduğunu bildirmişdi.

Dünya müharibəsi başlandıqdan sonra Türkiyə hakimiyyət orqanlarının Boğazlar üzərində nəzarəti gücləndirməsi Sovetləri təmin etmirdi. 1940-cı ilin 14 iyulunda Sovet bayrağı altında üzən "Moskva" katerinin Bosforun yuxarısında saxlanması SSRİ tərəfindən ayrı-seçkilik kimi qiymətləndirildi. Ankaradakı Sovet səfiri S.Vinoqradov Türkiyənin Montrö sazişinin 4-cü maddəsini pozduğunu xatırlatdıqda ona bildirilmişdi ki, Sazişin müdafiəçisi rolunda çıxış etmək Sovetlərin işi deyildir (63).

Öz növbəsində Almaniya da Sovet İttifaqını Avropaya, o cümlədən Balkanlara buraxmaq fikrində deyildi. Qara dənizdə Sovetlərin xüsusi imtiyazını qəbul etsə də, Berlin SSRİ-nin okeana yolunu daha çox Fars körfəzindən salmağa maraqlı idi. Molotov Berlindən qayıtdıqdan sonra Sovet rəhbərliyi dünyanın nüfuz dairəsinə bölünməsi haqqında Alman layihəsinə bir sıra düzəlişlər etdi. Bu sənədə görə, Bakı və Batumdan cənuba doğru Şərqi Türkiyə, Şimali İran və İraq da daxil olmaqla Fars körfəzinə doğru uzanan ərazilər sovet nüfuz dairəsinə daxil olmalı idi. Boğazlarda isə uzunmüddətli icarə əsasında Sovet quru qoşunlarının və dəniz qüvvələrinin hərbi bazası yaradılmalı idi. Bu məqsədlə Türkiyə dördlər ittifaqına qoşulmağa dəvət edilməli, yalnız bundan sonra

Almaniya, İtaliya və SSRİ-dən öz ərazi bütövlüyünə təminat almalı idi.Əgər Türkiyə bu təklifləri rədd etsəydi, onda hər üç dövlət öz mənafelərinin təmin edilməsi üçün zəruri olan diplomatik və hərbi addımları atmalı idi. Sovet tərəfi təklif edirdi ki. Bolqarıstan SSRİ-nin təhlükəsizlik zonasına daxil edilməli, bu məqsədlə iki ölkə arasında qarşılıqlı yardım haqqındaı  pakt imzalanmalıdır. Noyabr ayının 25-də Molotov Alman səfiri fon Şulenburqla söhbətində Bolqarıstanla SSRİ arasında pakt bağlanmasını Və Boğazlarda sovet silahlı qüvvələrinə baza verilməsini Sovetlərin Üçlər ittifaqına qoşulmasının mühüm şərti kimi əsaslandırdı. V.Molotov Alman səfirinə ultimatum formasında elan etdiyi bəyanatda dəqiqləşdirirdi ki, Batum və Bakıdan cənuba ümumi istiqaməti Fars körfəzinə doğru olan sahələr SSRİ-nin ərazi genişlənməsinin mərkəzi kimi tanınmalıdır. Bu o demək idi ki, Britaniya imperiyası mülklərinin statusunda hər hansı dəyişikliklərdə SSRİ həlledici söz sahibi olmalı idi. V.Molotov bəyanatda tələb edirdi ki, yaxın aylar ərzində Boğazlar istiqamətindən coğrafi baxımdan SSRİ-nin təhlükəsizliyini təmin etmək üçün SSRİ-nin Qara dəniz sərhədlərinin təhlükəsizlik zonasına daxil olan Bolqarıstan ilə Sovet İttifaqı arasında qarşılıqlı yardım haqqında pakt imzalanmalıdır. Eyni zamanda o, tələb edirdi ki, uzunmüddətli icarə şərtləri ilə SSRİ-yə Bosfor və Dardanelldə quru qoşunları və hərbi dəniz qüvvələri üçün baza yaradılması nəzərdə tutulmalıdır. Hələ V.Molotov Berlində ikən İ.Stalin ona göndərdiyi gizli teleqramda izah edirdi ki, Sovet qoşunlarının Bolqarıstana yeridilməsi ideyasını Qara dənizə girişi qorumaq üçün fikirləşmişdir. Bu məsələ indi ona görə təxirəsalınmaz xarakter almayıb ki, Türkiyə İngiltərə ilə bağlıdır, ona görə aktual xarakter alıb ki, İngiltərə donanması adalan və Yunanıstan limanlarını tutub və Türkiyə ilə sazişdən istifadə edərək o hər zaman SSRİ sahillərini hədələyə bilər.

Göründüyü kimi, Türkiyə ətrafında 1940-cı ildə Alman bloku, İngiltərə və SSRİ-nin iştirak etdiyi çox mürəkkəb diplomatik oyun gedirdi. Berlinə yollanan V.Molotov Türkiyəyə qarşı Sovetlərin maraqlarının Almaniya tərəfindən təmin edilməsi istiqamətində çox ciddi tələblər irəli sürdü. Bunlar ilk növbədə Boğazlara aid idi, lakin bununla məhdudlaşmırdı. Berlin danışıqlarının gedişində Stalinin əlavə göstərişlərindən aydın olur ki, Molotova Türkiyənin bölüşdürülməsi haqqında  məsələni müzakirə etmək səlahiyyəti verilmişdir. Güman etmək elə də çətin deyildi ki, 1940-cı ildə SSRİ Türkiyənin Bolqarıstanla Sovet İttifaqı arasında bölüşdürülməsini nəzərdə tuturdu. İ.Stalin belə hesab edirdi ki. boğazlar haqqında məsələnin dinc yolla həlli Türkiyəyə təzyiq vasitəsi kimi Sovet qoşunları Bolqarıstana buraxılmadan mümkün deyildir. 1940-cı ilin noyabr ayının 25-də İ.Stalinin Kommunist İnternasionalı İcraiyyə Komitəsinin baş katibi G.Dimitrova dediyi sözlər bunun açıq təzahür

forması idi. İ.Stalin deyirdi: "Biz türkləri Asiyaya qovacağıq. Bu necə Türkiyədir? Orada iki milyon gürcü, milyon yarım erməni, bir milyon kürd və s. var. Türklər yalnız 6-7 milyondurlar". Eyni zamanda İ.Stalin G.Dimitrova bildirdi ki, bu gün biz qarşılıqlı pakt bağlamaq haqqında təklifləri bolqarlara verəcəyik. Biz bolqarların Midiya-Enos xəttinə, Qərbi Trakiyaya, Dedeağac, Drama və Kavala olan ərazi iddialarını müdafiə edəcəyik. Türkiyəyə münasibətdə biz baza tələb edirik ki, Boğazlardan bizə qarşı istifadə etməsinlər. Əgər SSRİ ilə Bolqarıstan arasında pakt imzalanacaqsa, Türkiyə Bolqarıstana qarşı vuruşmağa cəsarət etməyəcəkdir və Balkanlarda vəziyyət tamam ayrı cür görsənəcəkdir. İ.Stalin Kominternin baş katibinə tövsiyə edirdi ki, bu təklifləri bolqarların geniş dairələri bilməlidir. Digər tərəfdən V.Molotov Berlindən qayıtdıqdan sonra Sofiyadakı Sovet müvəqqəti işlər vəkili A.Lavrişevə vurduğu teleqramda bildirdi ki, əgər kimsə Bolqarıstanın təhlükəsizliyinə təminat verə bilərsə, bu yalnız Rusiya ola bilər. V.Molotov qeyd edirdi ki, yeni Sovet təkliflərinə Bolqarıstanda indiki rejimin saxlanmasına təminat verilməsi və Bolqarıstanın Şərqi Frakiyada Türkiyəyə ərazi iddialarının təmin edilməsi daxil edibcəkdir (64).

Alman səfiri fon Şulenburqla müzakirə edilən məsələlərə V.MoIotov 1940-cı ilin dekabr ayının 30-da İtaliya səfiri Rosso ilə söhbətində yenidən qayıtdı. Rumıniyanın ərazi bütövlüyünə İtaliya və Almaniya tərəfindən verilən təminatlar Sovet rəhbərliyinin etirazına səbəb olmuşdu. Görüş zamanı V.Molotov bunun mənasını səfirdən soruşurdu. Boğazlarla bağlı V.Molotov sərt mövqe nümayiş etdirərək bilmək istəyirdi ki, İtaliya Qara dəniz istiqamətindən Boğazlarda təhlükəsizliyin təmin edilməsi ilə bağlı SSRİ-nin maraqlarını qəbul edirmi? Daha sonra o, əlavə etdi ki, İtaliya Balkanlarda və Asiyada Sovet maraqlarını tanımağa hazırdırmı? İtaliya xarici işlər naziri Çiano Molotovun qaldırdığı bu məsələlərə aydınlıq gətirmək üçün almaniyalı həmkarı Ribbentropla məsləhətləşdikdə Ribbentrop cavab vermişdi ki, Berlin və Roma Balkanları bilavasitə öz təsir dairəsində hesab edirlər. Ribbentrop İtaliya səfiri D.Alfieri ilə söhbətində qeyd etmişdi ki, ona belə gəlir ki, Molotov ikili oyun oynayır və onun üzünə qapı bağlandıqdan sonra pəncərədən daxil olmaq istəyir. Ona görə Ribbentrop məsləhət görmüşdü ki, ruslarla münasibətdə çevik mövqedə dayanmaq lazımdır. O təklif edirdi ki, Qara dənizi biz Rusiyanın və digər sahilyanı dövlətlərin daxili dənizi kimi tanıya bilərik, eyni zamanda Montrödə imzalanmış sazişə baxılmasını vəd edə bilərik. Lakin Türkiyənin mümkün reaksiyasını nəzərə alaraq Şərqi Aralıq dənizində onlara güzəştə gedə bilmərik (65).

Göründüyü kimi, dekabr ayının ortalarında SSRİ-yə hücum planını təsdiq etdikdən sonra Almaniya bu danışıqlar aparmaqda maraqlı deyildi. Noyabr ayında aparılan sovet-alman danışıqları elə bir nəticə verməsə də.

bu danışıqlardan sızan və bəzən Almaniya tərəfindən sızdırılan məlumatlar SSRİ-yə münasibətdə Türkiyəni daha ehtiyatlı davranmağa vadar edirdi.

1941-ci ilin yanvarında Almaniyanın Balkanlarda, xüsusilə Rumıniya və Bolqarıstanda möhkəmlənmək cəhdləri İngiltərəni Türkiyənin və Balkanların gələcəyi ilə bağlı bir sıra addımlar atmağa məcbur etdi. Yanvar ayının 31-də Baş nazir Çörçill prezident İ.İnönüyə göndərdiyi məktubda Almaniyanın Bolqarıstanda yerləşməsinin Türkiyə üçün doğura biləcəyi nəticələrə işarə edərək Türkiyənin müharibəyə girməsini istəmişdi.

Balkanlarda Almaniya təhlükəsi artdıqdan sonra ABŞ da öz növbəsində bu regionda baş verən hadisələrlə maraqlanmağa başlamışdı. Prezident Ruzvelt Balkan dövlətlərinin müqavimətini gücləndirmək ümidilə polkovnik Uilyam Donovam Balkanlara göndərmiş, eyni zamanda 1941-ci ilin fevral ayının 1-də prezidentin nümayəndəsi Türkiyəyə də gəlmişdi. Danışıqların gedişində ABŞ Almaniya təhlükəsi ilə üzə-üzə dayanan ölkə kimi Türkiyəyə yardım göstərəcəyini vəd etmişdi. Lakin Türkiyə hökuməti ABŞ və İngiltərənin iddialarını müdafiə etdiyini qeyd etməklə yanaşı, öz üzərinə heç bir öhdəlik götürməyəcəyini bildirmişdi. Balkanlara və xüsusilə Bolqarıstana belə böyük əhəmiyyət verilməsi onunla bağlı idi ki, Bolqarıstan Türkiyəyə və Yaxın Şərqə doğru quru yollarının həlledici məntəqəsində idi (66).

Türkiyə Almaniya təhlükəsini önləmək və Sovet təzyiqlərini zəiflətmək üçün Bolqarıstanla münasibətlərə xüsusi əhəmiyyət verirdi. Bolqarıstandakı türk səfiri Şevki Berker Almaniyanın bu ölkəyə soxulmasına qarşı ciddi iş aparır və hətta Sofiyadakı Sovet missiyası ilə şəxsi əlaqələr saxlayırdı. Bolqarıstandakı Sovet səfirliyi öz gizli məlumatında qeyd edirdi ki, Ş.Berkeri heç bir halda Almaniya tərəfdarlarının cərgəsinə aid etmək olmaz. Alman qoşunlarının Balkanlarda yeni qayda yaratmaq cəhdlərinə Berker xalqların milli və dövlət müstəqilliyindən məhrum olunması kimi baxırdı. Məlumatlarda göstərilirdi ki, Ş.Berker Sofiyadakı İngiltərə və ABŞ səfirləri ilə çox yaxın münasibətlərə malikdir. Lakin belə münasibəti "ox" ölkələrinin səfirlikləri ilə olan əlaqələrə aid etmək olmazdı (67). Məhz türk səfirinin Almaniya əleyhinə mövqeyi və Bolqarıstanda gərgin fəaliyyəti 17 fevral 1941-ci ildə Ankarada türk-bolqar birgə bəyannaməsinin imzalanması ilə nəticələndi. Birgə bəyannaməyə görə, Bolqarıstan ərazisindən Türkiyəyə hücum məqsədilə istifadə oluna bilməzdi. Bundan az sonra mart ayının 4-də Alman səfiri fon Papen Hitlerin şəxsi məktubunu İ.İnönüyə təqdim etdi. Bu məktubda Almaniyanın Türkiyəyə hücum etmək niyyətində olmadığı bildirilirdi (68). Almaniyanın Türkiyəni sakitləşdirmək cəhdi onunla bağlı idi ki, mart ayının 1-də Bolqarıstan Üçlər ittifaqına qoşulmuş, Yunanıstana hücumun

hazırlığı çərçivəsində ora alman qoşunları yeridilmişdi. 1940-1941-ci illərdə aparılan sovet-alman danışıqlarında Sovet diplomatları tərəfindən Bolqarıstanı hər zaman SSRİ-nin dövlət təhlükəsizliyi sahəsinə aid edildiyindən 1941-ci ilin martında Almaniyanın Bolqarıstana qoşun yeritməsi Sovetlər tərəfindən kəskin tənqid olundu və bu aksiya "SSRİ-nin təhlükəsizlik maraqlarının pozulması" kimi qiymətləndirildi (69).

Balkanlarda vəziyyət gərgin xarakter aldığından Britaniya xarici işlər naziri A.İden də fevral ayının sonlarından Ankarada Türkiyə siyasi dairələri, o cümlədən Ş.Saracoğlu ilə danışıqlar aparırdı. A.İdenin Afinaya səfərindən sonra Türkiyə xarici işlər naziri ilə Ankarada başlanmış danışıqlar Kiprdə davam etdirildi. Aparılan müzakirələrdən sonra Balkanlarda artan təhlükəyə qarşı bir cəbhə yaratmaqdan ötrü Yuqoslaviyaya müraciət edilsə də, Belqrad nəinki bu müraciətə cavab vermədi, əksinə mart ayının 25-də Vyanada imzaladığı müqavilə ilə üçlər ittifaqına qoşulduğunu elan etdi. Bu müqaviləyə əlavə olaraq imzalanmış gizli protokola görə Balkanlarda yeni sərhədlər müəyyənləşdirilən zaman Egey dənizinə çıxmaq məsələsinə münasibətdə Yuqoslaviyanın maraqları nəzərə alınacaqdı və ola bilsin ki, Saloniki şəhərində və limanında onun suveren hüquqları tanınacaqdı (70). Lakin bu əməkdaşlığa qarşı Yuqoslaviyada başlanan ümumxalq etiraz dalğasının gedişində mart ayının 27-də Belqradda hərbi çevriliş baş verdi və hakimiyyətə gələn general D.Simoviç hökumətin imzaladığı Vyana müqaviləsini ləğv etdi. Elə həmin gün Berlində hava şəraitinin imkan verəcəyi ən yaxın günlərdə Yuqoslaviya və Yunanıstana hücum etmək haqqında qərar qəbul edildi. Aprel ayının 6-da Almaniyanın Yuqoslaviyaya qarşı hərbi əməliyyatları başlandı, lakin bu elə də uzun sürmədi. Aprelin 17-də Yuqoslaviya, aprelin 21-də Yunanıstan təslim oldular. Onların əraziləri Almaniya, İtaliya və Bolqarıstan arasında işğal zonalarına bölündü.

Yuqoslaviyada dövlət çevrilişi baş verdikdən sonra Böyük Millət Məclisinin partiya qruplarının iclasında bir sıra millət vəkilləri Türkiyənin təcili olaraq İngiltərə tərəfindən müharibəyə daxil olmasını tələb etdilər. A.İdenlə Ş.Saracoğlu arasında aparılmış Ankara və Kipr danışıqlarında da İngiltərə 1941-ci ilin yazında Türkiyəni müharibəyə cəlb etmək üçün ona bir sıra təzyiqlər göstərmişdi. Lakin türk ordusunun baş qərargah rəisi marşal Fevzi Çakmak qəti şəkildə bunun əleyhinə oldu və bildirdi ki, indiki anda Türkiyənin müharibəyə daxil olması türk xalqına münasibətdə cinayətə bərabər olardı (71).

Balkanlarda vəziyyətin gərginləşməsi, Bolqarıstana Alman ordusunun yerləşdirilməsi Türkiyəni ehtiyatlandırırdı ki, Bolqarıstanı da Polşanın taleyi gözləyir və o da almanlarla ruslar arasında bölüşdürülə bilər. Mətbuat səhifələrində belə şayiələr yayılırdı ki, Balkanlardan sonra Boğazların da Almaniyanın nəzarətinə keçməsi Sovetləri də analoji addım atmağa vadar edə bilər. Belə şayiələrin yayıldığı vaxtda Sovet

İttifaqı Ankaraya bildirdi ki, Türkiyəyə qarşı hər hansı hücum olacağı təqdirdə SSRİ bitərəf qalacaqdır. Türkiyə hökuməti bu açıqlamanın yazılı səkidə rəsmiləşdirilməsini istədikdə 25 mart 1941-ci ildə Moskvada və Ankarada türk-sovet birgə bəyannaməsi dərc edildi. Bəyannamədə göstərildi ki, əgər Türkiyə hər hansı hücuma məruz qalarsa, o, SSRİ-nin iki ölkə arasında mövcud olan müqavilədən çıxış edərək bitərəf qalacağına inanıb bel bağlaya bilər. Türkiyə tərəfi bəyannaməyə görə öz üzərinə götürürdü ki, əgər Sovet İttifaqı qeyd edilən vəziyyətə düşərsə, o Türkiyənin bitərəf qalacağına tam şəkildə inanıb arxayın ola bilər (72). Bu bəyannamə İkinci Dünya müharibəsi dövründə Türkiyənin hərbi əməliyyatlardan kənarda qalmasında çox mühüm rol oynadı.

Qarşılıqlı neytrallıq haqqında 25 mart bəyannaməsinin elan edilməsinə baxmayaraq Sovet xüsusi xidmət orqanları Türkiyə haqqında müxtəlif istiqamətlərdə gizli materiallar toplamaqda davam edirdilər. Sovet ordusunun Zaqafqaziya hərbi dairəsmin kəşfiyyat şöbəsi 1941-ci ilin aprelində Türkiyənin xarici siyasəti və daxili vəziyyəti haqqında topladığı gizli məlumatları xidməti istifadə üçün kitabça halında nəşr etmişdi. Orada göstərilirdi ki, Türkiyə mətbuatında Sovet İttifaqına münasibətdə formal olaraq dostluq meylləri hiss edilir. Lakin Şərq vilayətlərinin əhalisi arasında SSRİ əleyhinə şifahi təbliğat aparılır. Kəndlərdə muxtarlar (kənd başçıları) əhalini öz vətənlərinin müdafiəsi üçün işləri gücləndirməyə çağırırlar və qeyd edirlər ki, Sovet İttifaqı tərəfindən Türkiyəyə hücum ehtimalı mümkündür. Sonra isə sənəddə Ərzurum, Sarıqamış, Artvin və Şərqi Anadolunun digər yerlərində türk ordusunun şəxsi heyəti, canlı ehtiyatı, silah və sursatı, ehtiyatda olan zabitlərin orduya çağırılması və s. haqqında məlumat verilirdi (73).

Sovet xüsusi xidmət orqanlarının Cənubi Qafqaz respublikalarından olan mühacir təşkilatlarını izləməsi, qonşu ölkələrdə - İran və Türkiyədə alman kəşfiyyatının maraqlarını öyrənməsi, qeyd edilən ölkələrdə agentura şəbəkəsinin genişlənməsi region uğrunda mübarizənin və qarşıdurmanın dərinləşməsi ilə bağlı idi. Azərbaycan SSR Daxili işlər komissarı S.Yemelyanovun İrana ezam olunmuş və Berlin siyasi dairələrinə yaxın olan alman kəşfiyyat orqanlarının rezidentlərindən 1940-cı ilin noyabrında əldə etdiyi bir məlumat xüsusi maraq kəsb edirdi. Əhali arasında Rusiyanın Türkiyəyə hücum etməsi barədə şaiə yayıldığından aman rezidentləri bunu təkzib edir və bildirirdi ki, Rusiya ilə Türkiyə arasında müharibə indi baş verə bilməz (74). Həmin məlumata görə, Almaniya SSRİ-nin Türkiyə və İrana doğru genişlənməsinə yol verə bilməzdi.

1941-ci ilin aprelində Yaxın Şərqdə baş vermiş bir hadisə yenidən Türkiyəni müxtəlif dövlətlərin təzyiqi ilə üzləşdirdi. Aprel ayının 5-də İraqda Almaniya tərəfdarı Rəşid əl Qaylani ingilislərə qarşı qiyam qaldırıb hakimiyyəti ələ aldı. Almaniya ona Türkiyə ərazilərindən yardım

göndərmək istədikdə Türkiyə hökuməti buna icazə vermədi. Almaniyanın təhriki ilə FransadakıVişi hökuməti Suriyada əvvəlki mövqelərini bərpa etmək üçün Türkiyə ərazilərindən istifadə etmək istədikdə Türkiyə ona da yox dedi. Ən nəhayət, Türkiyə hökuməti Britaniyanın silah daşımaları üçün onun ərazilərindən tranzit kimi istifadə etməsinə da imkan vermədi. Türkiyənin alman təzyiqlərinə baxmayaraq müharibədən kənarda qalması, öz ərazilərindən vuruşan ölkələrin hər hansı birinin faydalanmasına icazə verməməsi "ox" ölkələrinin Şərqə yolunu kəsməklə yanaşı, onun bitərəfliyinə olan inamı daha da artırdı (75).

Türkiyənin belə mövqeyi may ayının sonunda Britaniyanın İraqda öz mövqelərini bərpa etməsində mühüm rol oynadı. Almaniyanın Yaxın Şərq planları baş tutmadığından Ribbentrop Türkiyə ilə aparılan danışıqların hücum etməmək haqqında pakt çərçivəsinə qaytarılması barədə təlimat verdi. İyun ayının 17-də Ankaradakı Alman səfiri Berlinə göndərdiyi gizli məlumatda dostluq və hücum etməmək haqda türk-alman müqaviləsinin imzalanmaq üçün hazır olduğunu bildirdi. Bir gün sonra, iyun ayının 18-də Türkiyə adından xarici işlər naziri Ş.Saracoğlu, Almaniya adından fon Papen dostluq və hücum etməmək haqqında müqaviləni imzaladılar. Müqaviləni imzalayan tərəflər bir-birlərinin ərazi bütövlüyünə hörmət edəcəklərinə və milli sərhədlərinin toxunulmazlığına birbaşa və ya dolayı yollarla biri digərinə qarşı hər hansı fəaliyyətdən çəkinəcəklərinə təminat verirdilər. 18 iyun müqaviləsi Türkiyənin digər ölkələr qarşısında, ilk növbədə onun müttəfiqi sayılan İngiltərə qarşısında götürdüyü öhdəlikləri qüvvədən salmırdı. Bu bənd məhz Türkiyənin təkidi ilə dostluq və hücum etməmək haqqında türk-alman müqaviləsinə salınmışdı. Türkiyə dövlət xadimləri, xüsusilə xarici işlər naziri Ş.Saracoğlu öz açıqlamalarında əsaslandırmağa çalışırdılar ki, Türkiyənin Almaniya ilə dostluğu onun İngiltərə ilə müttəfiqliyi ilə ziddiyyət təşkil etmir. Müqavilənin imzalanması ilə bağlı prezident İ.İnönü qeyd edirdi ki, "Almaniya ilə münasibətlərimiz Balkan hadisələri dövründə ən çətin imtahandan keçmişdir. O zaman bizim keçirdiyimiz narahatçılığı görən Almaniya dövlət başçısı Hitler mənə yazdığı xüsusi bir məktubda ölkəmizə qarşı dostluğunu göstərmişdi və hökumətin tövsiyəsi ilə ona verdiyim cavab, bundan sonra bir daha baş vermiş məktublaşmamız 18 iyun 1941-ci il tarixli Türk-Alman müqaviləsini meydana gətirən qarşılıqlı etimad havasını yaratmışdı" (76).

Dostluq və neytrallıq haqqında Alman-Türk müqaviləsi ABŞ-ın da narazılığı ilə qarşılandı. Bu müqavilədən sonra Amerika lend-liz qanununa əsasən Türkiyəyə verilməyə başlayan silah və hərbi sursatı dayandırmağa qərar verdi. Sonrakı müzakirələrin gedişində Britaniyanın təzyiqi ilə ABŞ bu qərarı dəyişdirib Türkiyəyə göstərilən yardımları davam etdirsə də, onun həcmi xeyli azaldıldı (77).

İngiltərə və ABŞ kimi, Sovet İttifaqı da Türkiyənin bu riskli addımını narahatlıqla qarşıladı. Məlum olduğu kimi, 1939-cu ilin avqustunda Sovetlər özləri də Almaniya ilə belə bir müqavilə imzalamışdı və müharibənin başlanmasında, dünyanın təsir dairəsinə bölünməsində bu müqavilə az rol oynamamışdı. Bununla belə Türk-Alman müqaviləsi Sovetlərə hücum ərəfəsində Almaniyanın son hazırlıq tədbirlərindən biri kimi qiymətləndirilirdi. Sovetlərin gizli diplomatik sənədlərində göstərilirdi ki,18 iyun 1941-ci ildə Almaniya ilə dostluq müqaviləsini imzalamaqla Ş.Saracoğlu Sovet İttifaqına hücum üçün onun əl-qolunu açdı (78). Lakin nəzərə almaq lazımdır ki, 18 iyun Alman-Türk müqaviləsindən dörd gün əvvəl, iyun ayının 14-də "'Pravda" qəzetində dərc edilən SİTA-nın bəyanatında qeyd edilirdi ki, SSRİ və Almaniya hücum etməmək haqqında paktın şərtlərinə dönmədən əməl edirlər və son vaxtlar onların arasında müharibənin yetişdiyi barədə yayılan söz-söhbətin heç bir əsası yoxdur. Bəyanatda SSRİ-nin Almaniyaya strateji xammal, ərzaq və s. göndərilməsi ilə bağlı öhdəlikləri çox dəqiq yerinə yetirildiyi vurğulanırdı. Sovetlərin rəsmi teleqraf agentliyinin yaydığı belə bir sakitləşdirici bəyanat türkləri almanlarla neytrallıq haqqında müqavilə bağlamağa daha da ürəkləndirmişdi. Lakin SİTA-nın bəyanatından bir həftə sonra 22 iyun 1941-ci ildə Almaniyanın Sovet İttifaqına hücumu ilə dünya müharibəsi yeni mərhələyə qədəm qoydu. Bu mərhələ həm də vuruşan və vuruşmayan ölkələrin mövqelərinin aydınlaşması ilə səciyyəvi idi.

## III FƏSIL
## SSRİ-Türkiyə: arzu olunan bitərəflikdən gözlənilməyən tələblərə doğru

Alman - Sovet müharibəsi başlamaqla İkinci Dünya müharibəsinin coğrafiyası xeyli genişləndi. İri miqyaslı hərbi əməliyyatlar Türkiyənin sərhədlərinə gəlib çatdı. Almaniyanın SSRİ-yə hücumu bir tərəfdən müharibə təhlükəsinin Türkiyədən bir qədər uzaqlaşmasına gətirib çıxarmışdısa və türk diplomatiyasının yükünü bir qədər yüngülləşdirmişdisə, digər tərəfdən Sovet İttifaqı kimi iddialı bir dövlətin müharibəyə qatılması Boğazlar məsələsinin əhəmiyyətini yenidən artırmış, ölkəni hərbdən kənarda saxlamaq siyasətinin zəruriliyini yeni çalarlarla ortaya qoymuşdu. Türkiyəni öz tərəfinə çəkmək uğrunda mübarizə hər iki vuruşan tərəfin strateji planlarına daxil edilmişdi. Bu mübarizə elə ciddi xarakter almışdı ki, sanki müharibənin necə gedəcəyi və necə bitəcəyi Türkiyənin kimin tərəfində olmasından asılı idi. Türkiyə isə sovet-alman hərbinin elə ilk həftəsində, iyunun 26-da xüsusi nota ilə çıxış edib öz bitərəfliyini elan etdi və bu bitərəflik hər iki vuruşan tərəfə aid idi.

Almaniya SSRİ-yə hücum etdikdən sonra 1940-cı ildə sovetlərlə aparılan danışıqlarda V.Molotovun Türkiyə barədə irəli sürdüyü planları açıqladı və bundan Türkiyəni öz tərəfinə çəkmək, Sovet İttifaqı ilə Türkiyə arasında münasibətləri gərginləşdirmək məqsədilə istifadə etməyə başladı. Bu təbliğatın təsirini azaltmaq və Türkiyə ictimaiyyətini sakitləşdirmək məqsədilə Sovet hökuməti xüsusi bəyanatla çıxtş edib Almaniya ilə danışıqlarda sovetlərin belə fikirdə olmadığını bildirdi. Türkiyədə Sovetlərə qarşı yönəlmiş təbliğat kampaniyası elə ciddi xarakter aldı ki, iyun ayının 27-də SİTA xüsusi təkziblə çıxış edib Sovet İttifaqının Bosfor və Dardanell boğazlarına iddiaları, Bolqarıstanı işğal etmək niyyətləri barədə Hitlerin elan etdiyi bəyannamənin təxribat xarakteri daşıdığını əsaslandırmağa çalışdı.

1939-cu ilin avqust müqaviləsindən sonra Almaniyanın SSRİ-yə hücumu ilə başlanmış yeni siyasi şəraitdə Türkiyənin Sovetlərə rəğbəti olmasa da, Almaniyanın qələbəsini də arzulamırdı. Uzun müddət, xüsusilə müharibənin sonundan başlayaraq Türkiyəyə qarşı güclənən ideoloji, siyasi basqılar fonunda Sovet müəllifləri Türkiyəni Almaniya ilə əməkdaşlıqda ittiham etsələr də, yeni açıqlanan arxiv sənədləri bu ittihamların sovetlərin strateji maraqlarından irəli gəldiyini təsdiq edir. Hələ ötən əsrin 70-ci illərində Moskvada çıxan bəzi elmi ədəbiyyatda Türkiyənin Almaniyanı "cərrahiyyə stolunda" görmək arzuları etiraf edilirdi (1)-Digər tərəfdən, Türkiyənin müttəfiqi olan Böyük Britaniya rəsmiləri

müharibə başlayan gün, iyun ayının 22-də Sovet İttifaqını müdafiə edəcəkləri barədə bəyanatla çıxış etmişdilər. Bu bəyanat sovet-alman müharibəsinə Türkiyənin münasibətini müəyyənləşdirmək baxımından həlledici əhəmiyyətə malik idi.

İkinci Dünya müharibəsinin başlanmasından bir neçə gün əvvəl Moskvaya Türkiyənin səfiri təyin edilmiş Ali Haydar Aktay SSRİ Xarici işlər komissarlığının məlumatına görə, slavyanlara rəğbəti olan, Sovet-Türkiyə münasibətlərinin inkişafında maraqlı olan bir diplomat idi (2). Müharibənin ilk aylarında o, iki ölkənin münasibətlərinin müqavilə öhdəliklərinə uyğun olaraq qurulması istiqamətində gərgin fəaliyyət göstərirdi. Türkiyə hökumətinin demək olar ki, bütün nüfuzlu dairələri SSRİ-yə təmkinli münasibət göstərilməsinin tərəfdarı idilər. Bəzən belə münasibət açıq ifadə olunan rəğbət səviyyəsinə yüksəlirdi. Türkiyə cəmiyyətində İngiltərə tərəfdarı kimi tanınan və vaxtilə Baş nazir vəzifəsində çalışarkən SSRİ-yə elə də yaxşı münasibət bəsləməyən Rauf Orbay alman hücumundan sonra Sovet İttifaqına rəğbət bəsləyən siyasətçilərdən birinə çevrilmişdi. Əlbəttə, onun yanaşmasında baş verən bu dəyişiklik dünyada beş verən hadisələrin inkişaf meyllərini düzgün qiymətləndirməsi ilə bağlı idi. Almaniyanın SSRİ-yə hücumundan az sonra, iyul ayının 18-də R.Orbay Ankaradakı Sovet səfiri S.Vinoqradovla görüşərkən demişdi: "Nə qədər ki, İsmət İnönü, Ali Fuad Cebesoy və mən sağam, Türkiyə hər zaman SSRİ ilə dostluğu saxlayacaqdır" (3). R.Orbay 1942-ci ilin fevralında Londona səfir təyin edildikdən sonra orada işlədiyi iki il müddətində müttəfiqlərarası münasibətlərin daha da möhkəmlənməsində müsbət rol oynamışdı.

Müharibə başlandıqdan sonra Türkiyə ordusunun yüksək rütbəli zabitləri və komanda heyəti də Sovetlərə loyal münasibət bəslənməsinə tərəfdar idilər. Türkiyə ordusunun Baş qərargah rəisi marşal F.Çakmak Ankaradakı Sovet hərbi attaşesi ilə görüşdə Sovet İttifaqının Almaniya üzərində qələbə çalacağına inandığını bildimıişdi. Sovet xüsusi xidmət orqanları marşalın belə münasibətini onun SSRİ-nin gücünü müstəsna dərəcədə real qiymətləndirməsi ilə izah etsələr də, əslində bu, daha çox dünyada cərəyan edən hadisələrin daha düzgün qiymətləndirilməsi ilə bağlı idi (4). Uzun müddət Türkiyə ordusunun müxtəlif diviziyalarına rəhbərlik etmiş, 16-cı korpusun komandanı olmuş general Ali Rza Artunkal sovet-alman müharibəsi ilə bağlı İstanbul da daxil olmaqla 1940-cı ilin oktyabrından rəhbərlik etdiyi, mühasirə vəziyyətində elan olunmuş 5 vilayətin müdafiəsinə hazırlıqla əlaqədar bir sıra zəruri tədbirləri həyata keçirmişdi. İlk növbədə o, mühasirə vəziyyətinin komandanı kimi həmin ərazidə Almaniya kəşfiyyat təşkilatlarını aşkarlamış və alman casuslarını, o cümlədən "ox" ölkələrinin hərbi attaşelərinin katiblərini həbs etmişdi. Digər tərəfdən, general Artunkal müharibənin

gedişi barəsində qeyri-obyektiv mühakimə yürütməyi İstanbul mətbuatına qadağan etmişdi. O, xüsusilə Türkiyə mətbuatının Sovet İttifaqı əleyhinə arzuolunmaz hücumlarını öz əmri ilə qadağan etmişdi. Hərbi əməliyyatların Türkiyə sərhədlərinə yaxınlaşması ilə bağlı Artunkal komandanı olduğu ərazidə pasport sistemini ciddiləşdirmiş, şübhəli peşə sahiblərini beşinci kolon ola biləcəyi ehtimal edilən on min adamı ərazidən çıxarmışdı. Bu tədbirlərlə yanaşı, İstanbulun müdafiəsini möhkəmləndirmək üçün general Artunkal Bosforun Avropa sahillərində dəmir lövbərlər tikdirmişdi ki, vəziyyət tələb etdikdə Frakiyadan ordunu tez və kütləvi şəkildə daşımaq mümkün olsun. Almaniya təhlükəsinə qarşı yönəlmiş belə səmərəli fəaliyyəti yüksək qiymətləndirilən general Artunkal 1941-ci ilin noyabrında Türkiyənin müdafiə naziri təyin edilmişdi. Bu təyinatla bağlı onu təbrik etməyə gəlmiş Sovet hərbi attaşesi vəzifəsini icra edən Buxtin ilə söhbətində Artunkal başlanmış müharibədə Sovet İttifaqının qələbəsinə qəti şəkildə inandığını ifadə edərək demişdi: ərazini tutmaq hələ qələbə çalmaq demək deyil, Qızıl Ordunun gücü saxlanılmışdır (5).

Hətta Türkiyənin köhnə hərbçilərindən sayılan və Sovet xüsusi xidmət orqanlarının məlumatında almanpərəst siyasətçi kimi xarakterizə edilən Ali Fuad Cebesoyun almanların hücumundan sonra Sovetlərə loyal və dost münasibət bəslədiyi Ankaradakı SSRİ səfirliyinin məlumatlarında göstərilirdi (6). Türkiyə Xarici İşlər Nazirliyi aparatının və müxtəlif ölkələrdə fəaliyyət göstərən diplomatik korpusların da Almaniya hücumuna məruz qaldıqdan sonra SSRİ-yə münasibəti təmkinli xarakter almışdı. Sovet rəhbərliyinin fikirlərinə uyğun olaraq Ankaradakı səfirlik xarici işlər naziri Ş.Saracoğlu haqqında əsasən mənfi məlumatlar verməyə meylli olsa da, bəzi hallarda obyektiv gerçəkliyi də etiraf etməli olurdu. Almaniyanın SSRİ-yə hücumundan az sonra Berlin Ankaraya təzyiq edirdi ki, Türkiyə onların və italyanların gəmilərini bolqar adı altında Boğazlardan buraxsınlar. Lakin Türkiyə Xarici İşlər Nazirliyi buna qəti şəkildə etiraz etmişdi. İyil ayının 11-də Sovet səfiri S.Vinoqradovla görüşdə Türkiyə Xarici İşlər Nazirliyinin rəhbərliyi haqlı olaraq qeyd etdi ki, Bolqarıstanı bitərəf ölkə saymaq olmaz (7).

Xarici işlər naziri Ş.Saracoğlunun müharibə başlandıqdan sonra Sovetlərə loyal münasibəti və hətta müxtəlif tədbirlərlə bağlı tez-tez SSRİ səfirliyində keçirilən qəbullarda iştirakı göstərilməklə yanaşı, gizli məlumatlarda, xüsusilə xarici diplomatlarla söhbətlərdə onun Sovet İttifaqının bu müharibədən güclü çıxacağından ehtiyatlandığı bildirilirdi. Sovet səfirliyi belə hesab edirdi ki, Ş.Saracoğlunun SSRİ-yə zahirən mehriban münasibəti onun Sovet İttifaqının dünya siyasətindəki rolunu inkar edə bilməməsi ilə bağlıdır. Amma səfirlik onu da etiraf edirdi ki, Ş.Saracoğlu indiki müharibədə İngiltərəyə və onun müttəfiqlərinə, yəni Sovet İttifaqına da rəğbətlə yanaşır. Həmçinin əlavə olunurdu əgər beynəlxalq

siyasi şərait İngiltərənin ziyanına dəyişərsə o, öz siyasətini şəraitin təblərinə uyğun dəyişdirə bilər (8).Əlbəttə, belə ehtimal obyektiv reallıqdan daha çox Sovet səfirliyinin subyektiv niyyətlərindən irəli gəlirdi.

SSRİ Dövlət Təhlükəsizliyi Komissarlığı xətti ilə toplanan gizli məlumatlarda nüfuzlu türk diplomatlarının Alman hücumundan sonra Sovet İttifaqına müsbət münasibəti göstərilirdi. Məsələn, SSRİ Xalq Dövlət Təhlükəsizliyi Komissarlığı birinci idarəsmin beşinci şöbəsinin rəis müavini, podpolkovnik Qamrekelinin Macarıstandakı Türkiyə səfiri R.Yunaydın haqqında hazırladığı arayışda qeyd edilirdi ki, o antialman əhvali-ruhiyyəli diplomatlardan olub, Sovet İttifaqı ilə münasibətlərin yaxşılaşdırılmasının zəruriliyi haqqında dəfələrlə fikir söyləmişdir. Eyni zamanda Yunaydının ədəbi fəaliyyətlə də məşğul olduğu, "Keçmiş günlər", "İstiqlal yolunda", "Damla-damla"adlı əsərlərin müəllifi olduğu, L.Tolstoy, M.Qorki kimi rus yazıçılarının əsərlərini fransız dilindən türk dilinə çevirdiyi də bildirilirdi.(8)

R.Yunaydın haqqında hazırlanmış digər bir məlumatda onun Budapeştdəki Sovet səfirliyi ilə sıx əlaqə saxladığı xəbər verilirdi. Almaniya SSRİ-yə hücum etdikdən sonra Sovet diplomatik missiyası Budapeşti tərk etdiyi gün Yunaydın Sovet missiyasına baş çəkmiş, alman və macar dairələrində mənfi təəssürat yaratmasından ehtiyat etməyərək saat yarım Sovet səfiri ilə söhbət etmişdi. Bu məlumatda Yunaydın Sovet-Türkiyə münasibətlərinin tərəfdarı kimi xarakterizə olunurdu (9).

Sovet İttifaqına münasibətlə bağlı Romadakı türk səfiri Hüseyn Baydurun fikirləri də maraqlıdır. H.Baydur 1934-cü ildən başlayaraq İtaliyada Türkiyəni təmsil edirdi. Xalq Xarici İşlər Komissarlığının Yaxın Şərq şöbəsində onun haqqında hazırlanan arayışda H.Baydurun 1929-1934-cü illərdə Sovet-Türkiyə münasibətlərinin genişləndiyi və möhkəmləndiyi dövrdə SSRİ-də səfir işlədiyi, onun dövründə Baş nazir İnönünün və xarici işlər naziri R.Arasın Sovet İttifaqına səfərə gəldiyi göstərilirdi. Arayışda qeyd edilirdi ki, Baydur SSRİ-də və İtaliyada səfir işlədiyi dövrdə özünü Sovet-Türk münasibətlərinin yaxşılaşdırılmasının və Sovet İttifaqının qızğın tərəfdarı kimi göstərib. Sovetlərin gizli məlumatlarında H.Baydurun Almaniya-İtaliya əlaqələrinə, İtaliyanın Almaniyaya yönəlik xarici siyasətinə mənfi münasibəti, habelə Balkanlardakı hərbi əməliyyatlar zamanı İtaliya ordusuna rişxəndlə yanaşdığı qeyd olunurdu. N.Qorelkin Romaya səfir təyin edildikdən sonra H.Baydur ardıcıl olaraq Sovet səfirliyinə gəlir və bəzi məsələlər barədə fikir mübadiləsi edirdi. Bu görüşlərin nəticəsi kimi N.Qorelkin Moskvaya verdiyi məlumatlarda H.Baydurun Britaniya meylli olduğunu yazırdı. Sovetlərin gizli yolla əldə etdiyi məlumatlara görə, Baydur müharibə başlandıqdan sonra Ankaraya göndərdiyi geniş məruzədə İtaliyanın

siyasətini mənfi mövqedən qiymətləndirmişdi. Sovet məlumatlarında göstərilirdi ki, H.Baydur Türkiyə Xarici İşlər Nazirliyində böyük nüfuza malikdir və ən təcrübəli səfirlərdən biri sayılır.

Türkiyənin Bolqarıstandakı səfiri Ş.Berker də Sofiyadakı Sovet böyük elçiliyi ilə yaxından əlaqə saxlayırdı. Sovet-alman müharibəsi başlandıqdan sonra SSRİ səfiri A.Lavrişevlə söhbətində o bildirmişdi: "Nəhayət ki Almaniyanın boynu qırılacaq". Ş.Berker qeyd edirdi ki, Almaniya Türkiyəyə ancaq ona görə hücum etmir ki, onun qüvvələri Rusiyada məşğuldur. Ankaradakı sovet səfirliyinin müşaviri M.Kostılev Ş.Berker haqqında hazırladığı arayışda onu öz hökumətinin istənilən siyasətini həyata keçirən intizamlı bir məmur kimi xarakterizə edirdi (10).

Türkiyənin vuruşan tərəflərə münasibətdə bitərəf qalacağını rəsmi şəkildə elan etməsinə baxmayaraq İ.Stalin onun bitərəfliyinə tərəddüdlə yanaşırdı. İyul ayının 4-də Moskvaya çağırılmış Zaqafqaziya respublikalarının başçıları - Azərbaycan K(b)P MK-nın katibi M.C.Bağı-rovla, Gürcüstan K(b)P MK-nın katibi K.Çarkviani və Ermənistan K(b)P MK-nın katibi Q.Arutinovla söhbətdə o, bildirdi ki, "cəbhə Sizdən uzaqdır, lakin hər halda siz təhlükəli zonada yerləşirsiniz. Biz Türkiyənin bitərəf qalacağına arxayın ola bilmərik" (11). Dövlət Müdafiə Komitəsinin üzvləri V.Molotov, K.Voroşilov, L.Beriya və Q.Malenkov Zaqafqaziya respublikalarının başçıları ilə keçirilən görüşdə iştirak edirdi.

Müharibə başlandıqdan sonra Sovet xüsusi xidmət orqanları Türkiyədə fəaliyyət göstərən mühacir təşkilatların fəaliyyətini diqqət mərkəzində saxlayırdı. Türkiyənin rəsmi dairələri ilə bu təşkilatlar arasında hər hansı gizli əlaqələr sovet xüsusi xidmət orqanları tərəfindən diqqətlə izlənilirdi. Lakin yeni açıqlanan arxiv sənədləri hətta kəşfiyyat və xüsusi xidmət orqanları xətti ilə alınan məlumatlar müharibə başlandıqdan sonra Türkiyənin Sovetlərə təmkinli münasibətini təsdiq edir. 1941-ci ilin iyul ayının sonlarında SSRİ Dövlət Təhlükəsizliyi Komissarlığının Türkiyədəki rezidenti mərkəzə yazırdı: "Türkiyə hökuməti cəhd göstərir ki, "Qafqaz" məsələlərində maraqlı olduğunu indiki anda göstərməsin. Təhlükəsizlik İdarəsmin siyasi şöbələrinə və polisə təlimat verilib ki, mühacirlərin leqal formada fəaliyyətinə, SSRİ ilə münasibətlərdə düşmənçilik kimi qiymətləndirilə bilən hər hansı hərəkətlərinə imkan verilməsin. Bu xətt onunla izah edilir ki, türklər SSRİ ilə münasibətləri kəskinləşdirmək istəmirlər və hələ vaxtın çatmadığını düşünürlər. Eyni zamanda onlar mühacirətə "ideya" himayəçiliyini də əllərindən buraxmaq istəmirlər. Ona görə də Mehdiyev, Şamil, Validov və digərlərinin Sovet İttifaqına qarşı fəal mübarizəsini Türkiyə hökuməti rədd edir" (12)-Bunun əksinə olaraq Sovet siyasi dairələrinin təlimatına uyğun olaraq 40-cı illərdən başlayaraq SSRİ-də nəşr olunan elmi ədəbiyyatda Türkiyə təhlükəsi daim şişirdilir və belə bir fərziyə irəli sürülürdü ki, guya

Almaniyanın Sovetlərə hücumundan Türkiyə öz sərhədlərini genişləndirmək, "bütün türkləri birləşdirmək" məqsədilə istifadə etmək istəyir (13). Dünya müharibəsi qurtardıqdan sonra Sovet tarixşünaslığında meylin güclənməsi heç şübhəsiz ki, SSRİ-nin Türkiyəyə olan idialarını ideoloji cəhətdən əsaslandırmaq zərurəti ilə bağlı idi. Təəssüf doğuran hal ondan ibarətdir ki, Sovet ideoloji sistemi dağıldıqdan sonra müasir Rusiya tarixşünaslığında da köhnə stereotiplər yaşamaqdadır. Gənc rus tarixçilərindən sayılan A.Y.Bezuqolnıy "Nə müharibə, nə sülh" məqaləsində yazır ki, "Almaniya diplomatiyası bütün gücü ilə antisovet bloku genişləndirməyə və möhkəmləndirməyə cəhd göstərirdi. 1941-1942-ci illərdə "növbədə" bizim ölkənin (Rusiyanın-C.H.) köhnə düşmənləri olan Türkiyə və Yaponiya dayanmışdı".2000-ci ildə A.B.Şirokorad tərəfindən yazılmış, A.E.Tarasın ümumi redaktorluğu ilə Minsk və Moskvada nəşr olunmuş "Rus-türk müharibələri 1676-1918-ci illər" adlı iri həcmli kitab da bu baxımdan səciyyəvidir. Kitabın zəngin faktlar əsasında yazıldığı, müəllifin fikir və mülahizələrinin sənədlərə söykəndiyi və guya A.B.Şirokoradın köhnəlmiş tarixi əfsanələri və ştampları dağıtdığı qeyd edilsə də, kitab daha çox həcminin böyüklüyü cəhətdən diqqəti cəlb edir. 752 səhifəlik bu kitabın əvvəlki dövrlərinə toxunmadan onun Montrö konvensiyasından sonrakı dövrə, xüsusilə II dünya müharibəsi və müharibədən sonrakı hadisələrə aid fəsilləri yetərincə zəifdir və müəllifin mühakimələri sənəd və materiallara deyil, daha çox onun şəxsi mülahizələrinə əsaslanır. Məsələn, İkinci Dünya müharibəsi hadisələrinə toxunan A.B.Şirokorad yazır: "Hər şeydən əvvəl türklər özlərini yetərincə həyasızcasına aparırdılar. 18 iyun 1941-ci ildə Türkiyə hökuməti Almaniya ilə "Dostluq haqqında" müqavilə imzalamışdı". Hadisələrə və proseslərə münasibətdə müəllifin digər yanaşmaları da təxminən bu səviyyədədir. Müəllif təəssüf edir ki, İ.Stalin və V.Molotov Türkiyə 1945-ci ilin 23 fevralında Almaniyaya qarşı müharibəyə girənə qədər hücum edib Boğazları almadılar və pravoslav bayrağını İstanbulda Ayasofiya məscidi üzərinə sanca bilmədilər.(14)

Bununla yanaşı qeyd etmək lazımdır ki, 1941-ci ilin yayında və payızında Sovet-Türkiyə münasibətlərində, xüsusilə mətbuat səhifələrində bir-birindən şübhələnməyə əsas verən bəzi məqamlar da var idi. Müharibəyə daxil olduqdan sonra Sovet diplomatik idarələri türk mətbuatını daha diqqətlə izləməyə başlamışdı. F.R.Atayın 9 noyabr 1941-ci ildə “Ulus” qəzetində çıxan yazısı da Sovet səfirliyinin diqqətindən yayınmamışdı. Orada belə bir fikir vurğulanırdı ki, əgər Almaniya SSRİ-yə hücum etməsəydi, bir ildən sonra rus təhlükəsi elə həddə çatacaqdı ki, onu aradan qaldırmaq mümkün olmayacaqdı. Atayın "Ulus" qəzetində çıxan yazılarına D.Zaslavski 25 dekabr 1941-ci ildə "Pravda" qəzetində “Bərk qorxmuş türk jurnalisti” məqaləsi ilə cavab vermişdi (15).

1941-ci ildə Türkiyə hökumətinin təqdimatı ilə ölkə parlamenti tərəfindən 60 yaşından yuxarı olan sıravilərin, 65 yaşından yuxarı ehtiyatda olan zabitlərin orduya çağırılması haqqında hökumətə icazə verilməsi, habelə Frakiya dairəsinə aparılmış 40 minlik ordunun yerini doldurmaq üçün Şərq vilayətlərində səfərbərlik elan edilməsi Sovetləri narahat edən məqamlar idi (16).

1941-ci ilin avqustunda Sovet və Britaniya qoşunlarının İrana daxil olması Türkiyə üçün əlavə narahatlıq doğurdu. Müttəfiq qoşunların İrana daxil olmasından iki həftə əvvəl, avqust ayının 10-da İngiltərə və Sovet İttifaqı Boğazlar rejiminə və Türkiyənin ərazi bütövlüyünə hörmətlə yanaşdıqları barədə birgə təminatlarını bəyan etdilər. Eyni zamanda bəyanatda Türkiyəyə hücum olacağı təqdirdə ona yardım göstəriləcəyi bildirildi. Almaniya təbliğatının təsirini azaltmaq üçün 10 avqust bəyanatında Sovet tərəfi Montrö sazişinə sadiq qaldığını, Boğazlara münasibətdə hər hansı təcavüzkar niyyətinin və iddiasının olmadığını bir daha təsdiq etdi. Sovet tərəfi bildirdi ki, Türkiyə hökumətinin müharibəyə cəlb olunamamaq arzusunu başa düşdüyündən hər hansı Avropa ölkəsi tərəfindən ona hücum olarsa, Türkiyə hökumətinə hər cür yardım göstərməyə hazırdır (17).

Türkiyəyə münasibətdə Böyük Britaniya və SSRİ-nin birgə bəyanatı diplomatik vasitələrlə bu ölkənin bitərəfliyini daha təminatlı etmək və Türkiyədə Almaniya təsirini zəiflətmək məqsədi daşıyırdı (18).

SSRİ Xarici İşlər Komissarlığının 10 avqust bəyanatında Boğazlara və Türkiyənin ərazi bütövlüyünə münasibətdə yüksək təminatların elan olunmasına baxmayaraq avqust ayının 25-də sovet qoşunlarının İranın şimalına daxil olması, İranın Türkiyə ilə sərhədlərinin Sovetlərin nəzarətinə düşməsi, SSRİ xüsusi xidmət orqanlarının "kürd məsələsi ilə oynaması" və kürd separatizmi məsələsindən istifadə etmək barədə xüsusi təkliflər hazırlaması Türkiyənin hərbi, siyasi və diplomatik orqanlarının diqqətindən yayınmamışdı. Türkiyə bu məsələyə ciddi maraq göstərdyindən 1941-ci ilin avqustunda Ankarada olan alman səfiri fon Papen xarici işlər naziri Ribbentropa göndərdiyi gizli məlumatda yazırdı: yaxşı məlumatlanmış etibarlı şəxs bildirir ki, almanların Rusiyada uğurları fonunda Türkiyə hökumət dairələri Azərbaycan türklərinin taleyi ilə daha artıq dərəcədə məşğul olmağa başlamışlar (19).Sovet qoşunları Güney Azərbaycanda möhkəmləndikdən sonra Türkiyə mətbuatında 1941-ci ilin payızından başlayaraq İran türkləri ilə bağlı bir sıra yazılar verilməyə başlamışdı. "Yeni Sabah" qəzetinin redaktoru Hüseyn Cahid Yalçın öz yazılarında İranda türk dilinin qadağan edilməsini, türklərin dil və mədəniyyətinin sıxışdırılmasını tənqid etməsi İran mətbuatının ciddi etirazlarına səbəb olmuşdu. Bu yazışmalarla tanış olduqdan sonra Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının birinci katibi M.C.Bağırov Türkiyə

mətbuatının Güney Azərbaycan məsələsinə müdaxiləsinə sərt reaksiya vermisdi.İran Azərbaycanında Sovetlərin möhkəmlənməsini və yerli əhalinin siyasi proseslərə sürətlə cəlb etməsini diqqətlə izləyən İranın xarici işlər naziri M.Ə.Soheyli Ankaradakı İran səfirinə yazırdı: "Əgər işlər bundan sonra da belə davam etsə, onda biz Azərbaycanı itirəcəyik"(20).Cənubi Azərbaycanda baş verənlərin fonunda Türkiyəyə qarşı ərazi iddialarını özündə əks etdirən "Dəftəri müfəssəli vilayəti Gürcüstan" kitabının Tiflisdə S.Cikiya tərəfindən nəşr edilməsi türklərdə müəyyən narahatlıqlar doğurmuşdu (21).

Sovet ordusu 1941-ci ildə İrana daxil olduqdan sonra öz növbəsində Sovet xüsusi xidmət orqanları Türkiyənin Güney Azərbaycan məsələsinə münasibətini daim diqqətdə saxlayırdılar. Regionda cərəyan edən hadisələr barədə Tehrandakı Sovet səfirliyinin hazırladığı hesabatda qeyd edilirdi ki, türklərin İran Azərbaycanında fəaliyyətləri diqqəti cəlb edir. Azərbaycanda öz təsirlərini artırmaq məqsədilə onlar belə bir təbliğat aparırlar ki, ancaq Türkiyə Azərbaycan əhalisini kürdlərin soyğunçu hücumlarından xilas edə bilər. Sovet səfirliyi belə güman edirdi ki, bununla onlar müharibədən sonra Azərbaycanı Türkiyəyə birləşdirmək üçün zəmin hazırlayırlar (22). Eyni zamanda həmin dövrdə Təbrizdə fəaliyyət göstərən türk diplomatları haqqında kəşfiyyat məlumatlarının toplanması da sovet xüsusi xidmət orqanlarının başlıca vəzifələrindən idi (23).

İkinci Dünya müharibəsi başlandıqdan az sonra, xüsusilə 1942-ci ildən başlayaraq kürd məsələsi Türkiyəyə qarşı istifadə edilən başlıca amillərdən birinə çevrildi. 1942-ci ilin martında Zaqafqaziya hərbi dairəsmin komandanı, ordu generalı İ.V.Tülenev Stalin üçün hazırladığı məruzədə qeyd edirdi ki, Türkiyə ilə müharibə olacağı təqdirdə kürdlərin insan ehtiyatlarından istifadə etmək məqsədilə onlarla dostluq münasibətlərini saxlamaq lazımdır (24).

1941-ci ilin sentyabr ayının sonlarında üç dövlətin nümayəndələrininMoskva konfransında Britaniya nümayəndəsi Biverbruk Stalin və Harrimana təklif etdi ki, türklər üçün bir şey eləmək lazımdır ki, onlar bizə rəğbətlə yanaşsınlar. İ.Stalin qeyd etdi ki, türklərin Almaniya tərəfinə keçməməsi üçün bu, yaxşı olardı. Lakin əlavə etdi ki, bununla belə onlar özlərini İngiltərənin müttəfiqi kimi aparmırlar. Onlara kömək etmək üçün təminat olmalıdır ki, bu yardımlar itmirlər. Türkiyə ilə İngiltərə arasında ittifaq mövcud deyildir, bitərəflik vardır. Lord Biverbruk cavab verdi ki, biz onlardan şikayət edə bilmərik. Biz özümüz bir sıra öhdəlikləri yerinə yetirməmişik. İ.Stalin qeyd etdi ki, Türkiyə Bolqarıstandan və onun Almaniya ilə ittifaqından qorxur (25).

194l-ci ilin yayında və payızında Almaniyanın hər cür təzyiqinə və şantajına baxmayaraq Türkiyəni faşist blokuna cəlb etmək mümkün olmadı. Xüsusilə Sovet İttifaqı müharibəyə daxil olduqdan sonra ölkəni

müharibədən və hərbi əməliyyatlardan kənar saxlamaq, sülh və barış vəziyyətində yaşamağı təmin etmək Türkiyə xarici siyasətinin başlıca istiqamətinə çevrildi. 1941-ci ilin noyabr ayında Türkiyə Böyük Millət Məclisinin iclaslarında müharibənin doğurduğu vəziyyət, Türkiyənin yeritdiyi siyasət, vuruşan ölkələrə münasibət və digər məsələlər geniş müzakirə edildi. Böyük Millət Məclisindəki açılış nitqində prezident İ.İnönü yaranmış vəziyyəti belə qiymətləndirirdi: "Balkan hadisələri ilə başlayan hərəkətlər, İraq və Suriyadakı gəlişmələrlə Qərb və cənub qonşularımızı müharibə və işğal vəziyyəti halına qoydu və birdən-birə bir div addımı ataraq Alman-Sovet silahlı münaqişəsini meydana çıxardı.Böyləcə şimal qonşumuz da hərbin yanğınları içinə girdikdən sonra, digər qonşumuz İran işğal faciəsini gördü. Məmləkətimizi bu qədər yaxından əlaqələndirən əsgəri hərəkətlər bizim sayıqlığımızı son dərəcə artırmış və təhəddüdlərimizə və dostluqlarımıza sədaqət çərçivəsi içində şərəfimizi və əmniyyətimizi qoruyan sülh arzusu siyasətimizin əsasını təşkil etmişdir" (26).

1941-ci ilin dekabrında baş verən iki hadisə - Almaniya qoşunlarının Moskva altındakı məğlubiyyəti və Birləşmiş Ştatların müttəfiqlər tərəfindən müharibəyə daxil olması Türkiyə siyasi dairələrində müttəfiqlərin qələbəsi haqqında tərəddüdləri ortadan qaldırdı. Vəziyyətin belə xarakter alması Türkiyənin tərəfsizliyinin əhəmiyyətini daha da artırır və onun Almaniya tərəfindən müharibəyə qatılmaq ehtimalını heçə endirirdi.

1941-ci ilin dekabr ayının ortalarında Britaniya xarici işlər naziri A.İdenin Moskvaya səfəri zamanı bir çox məsələlərlə yanaşı, Türkiyəyə münasibət məsələsi də müzakirə mövzusuna çevrildi. Dekabr ayının 16-da başlayan Britaniya-Sovet danışıqlarında İ.Stalin qarşılıqlı hərbi yardım və müharibədən sonrakı problemlərin həlli haqqında iki müqavilə layihəsini A.İdenə təklif etdi. Sonra isə o, ikinci müqaviləyə müharibədən sonra Avropa sərhədlərinin yenidən qurulmasının ümumi sxemini nəzərdə tutan gizli protokolun əlavə edilməsinin Sovetlər tərəfindən arzu olunduğunu ifadə etdi. Dekabr ayının 16-da İ.Stalinin Kremldə A.İdenlə danışıqlarda müharibədən sonrakı dövrün ərazi dəyişiklikləri barədə irəli sürdüyü təkliflərin əsas mahiyyəti 1939-1940-cı illərdə Almaniya ilə razılıq əsasında SSRİ-nin tərkibinə qatılmış ərazilərin yeni müttəfiqə qəbul etdirilməsindən ibarət idi. Dekabrın 16-dakı danışıqlarda İ.Stalin Sovet İttifaqının 1941-ci ilin iyul ayına qədərki sərhədlərinin bərpasını zəruri hesab etməklə yanaşı, müharibədən sonrakı sərhədlər barəsində öz görüşlərini açıqladı. O belə hesab edirdi ki, Tilzit Sovet Litvasına qatılmalıdır, fin Petsamosu Sovet İttifaqına "qaytarılmalıdır", Rumıniya və Finlandiya ilə ittifaq müqaviləsi bağlanmalı, bu müqavilələrə əsasən 1939-1940-cı illərdə Pribaltikada olduğu kimi onların ərazisində Sovet hərbi bazaları şəbəkəsi yaradılmalıdır. Digər ölkələrə gəldikdə Stalin ilk

növbədə Almaniyanın parçalanması, onun yerində Bavariya dövləti, Reyn vilayəti və s. yeni qurumların yaradılmasını təklif etdi. Almaniyadan təzminat alınması məsələsi də Moskva danışıqlarında müzakirə edildi. Britaniyanı dünyanın yenidən bölüşdürülməsinə maraqlandırmaq üçün Stalin təklif etdi ki, Belçika, Hollandiya, Norveç və Danimarka ərazilərində bir sıra ölkələrin (SSRİ nəzərdə tutulurdu) Baltik dənizinə çıxış və girişinə təminat verilməsi şərti ilə Britaniya bazaları şəbəkəsi yaradıla bilər. Bunlardan əlavə, Sovet tərəfi beynəlxalq hərbi gücə malik olan Avropanın "demokratik dövlətlərinin hərbi ittifaqının" yaradılması, Avropada dövlət federasiyasının qurulması ideyasını irəli sürdü. Belə qurumların içərisində Balkan federasiyası, Polşa-Çexoslovakiya federasiyası və digərlərinin adı çəkildi.

Müttəfiqlərin qələbəsindən sonra ərazi dəyişiklikləri haqqında öz düşüncələrini bölüşən zaman Stalin Türkiyəni də yaddan çıxarmadı. İ.Stalin dedi ki, bitərəfliyə riayət etməsinə görə Türkiyəni mükafatlandırmaq lazımdır.O,bunu Almaniyaya meylli mövqeyinə görə cəzalandırılmalı olan Bolqarıstan hesabına etmək istəyirdi. Stalin dedi: Türkiyə bitərəfliyə riayət edilməsinin əvəzi kimi Dodekanesi, Burqasın cənubuna doğru Bolqarıstanın türk əhalisi yaşayan rayonlarını və ola bilsin ki, Suriyada hansısa əraziləri ala bilər. Türkiyəyə onun vacib limanlarından çıxışı bağlayan Egey dənizindəki bir neçə adanı da vermək olar. Bu məsələ ilə bağlı A.İden qeyd etdi ki, Dodekanesə yunanlar artıq çoxdan iddia edirlər, belə ki, adanın əhalisi də yunanlardır. Lakin o, bu məsələnin tənzim və müzakirə edilməsinin zəruriliyini qəbul etdi. İ.Stalin əlavə etdi ki, Bolqarıstandan Burqas rayonunun alınması müharibə zamanı onun əməllərinin cəzalandırılması kimi olardı. İ.Stalin qeyd etdi ki, bolqarlara Qara dənizdə bir liman - Varna da yetərlidir. Bir sıra məsələlərə toxunduqdan sonra A.İden yenidən Türkiyə haqqında məsələyə qayıtdı və soruşdu: elə bir şey etmək olmazmı ki, Türkiyəni müttəfiqlərlə sıx bağlasın? İ.Stalin cavab verdi ki, bu nəticəni almaq üçün ən yaxşı vasitə Dodekanesi Türkiyəyə vəd etməkdir. A.İden türklərin almanlara münasibətində son zamanlar hər hansı dəyişikliyin müşahidə edilməsi barədə İ.Stalinin fikrini soruşduqda o, cavab verdi ki, türklər almanları sevməsələr də, onlardan çox qorxurlar. A.İden türklərin alman qoşunlarını öz ərazilərindən buraxa bilməsi ehtimalı haqqında İ.Stalinin fikri ilə maraqlandıqda Stalin buna şübhə ilə yanaşdığını bildirdi. Bir neçə dəqiqədən sonra Stalin yenidən bu məsələyə qayıtdı və A.İdenə bildirdi ki, onun dedikləri ciddidir və yaxşı düşünülmüşdür (27).

Rus alimləri A.A.Danilov və A.V.Pıjikov haqlı olaraq qeyd edirlər ki, Stalin Böyük Vətən Müharibəsi başlanana qədər Almaniya ilə sınaqdan keçirdiyi əməkdaşlıq variantını eynilə Böyük Britaniyaya təklif edirdi. Təkliflər eyni olduğu kimi, fəaliyyət taktikası da eyni idi: bu razılaşmaları Stalin gizli

protokollarda təsbit etmək istəyirdi. Lakin A.İden nəinki bu protokolları imzalamaqdan, bu layihəni təfərrüatı ilə müzakirə etməkdən belə qəti şəkildə imtina etdi. O, Stalinə öz fikrini "belə geniş təfsilatı ilə açıq ifadə etdiyinə" görə təşəkkürünü bildirməklə yanaşı qeyd etdi ki, Avropanın müharibədən sonra yenidən qurulması məsələləri Amerika tərəfinin iştirakı olmadan müzakirə edib bilməz. Bununla da A.İden bir növ SSRİ-nin müharibəyə qədərki (1939-1940-cı illərdəki dəyişikliklər nəzərdə tutulur-C.H.) sərhədlərini tanımaqdan imtina etdi. Bütün bunlar Stalini bərk əsəbiləşdirsə və məyus etsə də, o, haqlı olaraq belə qənaətə gəldi: ola bilsin ki, bu məsələləri müzakirə etməyin zamanı yetişməyib (28).

İ.Stalin İkinci Dünya müharibəsi başlandıqdan sonra Sovet İttifaqının əldə etdiyi əraziləri müqavilə vasitəsi ilə Britaniyaya qəbul etdirmək istəyirdi və nümunə kimi qarşılıqlı yardım haqqında ingilis-türk müqaviləsini gətirirdi.O, İdendən soruşurdu: "Doğrudanmı SSRİ Türkiyədən pisdir?" İ.Stalinin bütün ciddi cəhdlərinə baxmayaraq Britaniya tərəfi onun təklif etdiklərinə getmədi (29).

Stalinin Türkiyəni mükafatlandırmaq ideyasını müzakirəyə çıxarması daha çox bu məlumatın türk siyasi dairələrinə eşitdirilməsi, Türkiyənin bitərəfliyini daha etibarlı etmək zərurətindən irəli gəlirdi. Türkiyədə millətçi qüvvələrin bəzi çağırışları Sovet kəşfiyyat orqanları tərəfindən operativ şəkildə Moskvaya çatdırılır və həmin məlumatlar bəzən şişirdilmiş formada təqdim edilirdi. Məsələn, SSRİ-dəki türk hərbi attaşesinin fəaliyyətini izləyən əks kəşfiyyat orqanlarının məlumatına görə, guya hərbi attaşe şəxsi söhbətlərində əminliklə bildirib ki, əgər almanlar Qafqazı işğal edərlərsə, o bu regionda qabaqlayıcı tədbir kimi mühüm strateji mövqelərin türk ordusu tərəfindən tutulması barədə düşünməyi öz Baş qərargahlarına tövsiyə edəcək. Sovet kəşfiyyatının məlumatına görə, Türk səfiri Aktayın Molotova dedikləri ilə, Ş.Saracoğlunun Ankaradakı Alman səfiri fon Papenə dedikləri arasında fərqlər müşahidə edilirdi. Ankaradakı Sovet səfirliyinin məlumatına görə Ş.Saracoğlu SSRİ diplomatları ilə söhbətlərində Sovetlərlə dost olduğunu və bu dostluğa böyük əhəmiyyət verdiyini dilə gətirsə də, digər diplomatlarla söhbətlərində SSRİ haqqında dostluqdan uzaq olan tonda danışmış, Sovetlərdən ehtiyatlandığını gizlətməmişdi.Xüsusilə, 1942-ci ilin fevral ayının 26-da Alman səfiri fon Papenə qəsd edilməsində Sovet casuslarının əli olması barədə Xarici İşlər Nazirliyinin mövqeyi Sovetləri Ş.Saracoğluya münasibətdə daha da acıqlandırmışdı (30).

İ.Stalinin Türkiyəni Bolqarıstan limanı, Yunanıstan adaları və Suriya əraziləri hesabına mükafatlandırmaq ideyası Ankarada çox ehtiyatla qarşılandı. Türkiyə siyasi dairələri ehtiyat edirdilər ki, bu istiqamətdə olan hər hansı dəyişikliklərə əvəz olaraq Moskva əlavə tələblər, o cümlədən Boğazlarla bağlı iddialar irəli sürə bilər.

Sovetlər müharibəyə daxıl olduqdan sonra Türkiyənin əhəmiyyəti müttəfiqlər üçün müstəsna dərəcədə artmışdı. U.Çörçill ABŞ Prezidenti F.D.Ruzvelt və İ.Stalinlə yazışmalarında Türkiyənin müharibəyə daxil olması üçün ona hər cür yardım göstərilməsini zəruri hesab edirdi. O Stalinə yazırdı: "Əgər Türkiyə müharibəyə daxil olsaydı... bu bizə daha sürətli və effektli kömək olardı" (31).

1942-ci ilin mayında V.Molotovla söhbətdə U.Çörçill Almaniyanın Bakı vasitəsi ilə Qafqaza zərbə endirmək ehtimalının gücləndiyini bildirdi. Məhz Türkiyənin Qafqaz sərhədləri boyunca ordu cəmləşdirməsi alman təhlükəsinin artması ilə bağlı idi. May ayının 22-də Çörçill İdenlə söhbətdə Türkiyənin mövqeyindən razı qaldığını və onun Almaniyanın tərəfinə keçməyəcəyini bildirdi. O, dedi: "İlin sonuna qədər ingilislər və amerikanlar Türkiyəyə böyük həcmdə müasir silahlar verməyi düşünürlər, bu Türkiyəni müttəfiqlərlə daha çox bağlamalıdır" (32).

1941-ci ilin dekabrında Moskva altında qələbədən sonra SSRİ-nin vəziyyətinin yaxşılaşması müttəfiqlərarası münasibətlərə da müsbət təsir göstərdi. 1942-ci ilin yazından başlayaraq Zaqafqaziya hərbi dairəsində təbliğat orqanları əsgər və zabitlər arasında Türkiyə təhlükəsi altında açıq kompanya aparmağa başladılar. Bu dövrdə Gürcüstan, Ermənistan və Azərbaycanda Sovet ordusunun sayı 25 diviziyaya çatdırıldı. Zaqafqaziyada yerləşdirilən ordunun qarşısında qoyulan əsas vəzifə türk və ya türk-alman hücumunu dəf etməyə hazırlıq idi. 1942-ci ilin fevral ayında Zaqafqaziya hərbi dairəsmi möhkəmləndirmək məqsədilə general-leytenant D.T.Kozlovun yerinə ordu generalı İ.V.Tülenev dairəyə komandan təyin edildi. İ.Tülenev 1939-1940-cı illərdə Zaqafqaziya dairəsinə rəhbərlik etdiyindən regionda iş təcrübəsinə malik bir hərbçi idi. Zaqafqaziya hərbi dairəsinə komandan təyin edildikdən sonra üç Cənubi Qafqaz respublikasındakı silahlı qüvvələrlə yanaşı, İran Azərbaycanındakı Sovet ordu hissələri də ona tabe olunmuşdu (33).1942-ci ilin mart ayının 12-də İ.Tülenev Tbilisidə M.C.Bağırov, K.Çarkviani və Q.Arutinovla müzakirələr keçirdikdən sonra mart ayının 13-də Zaqafqaziya hərbi dairəsində təlim xarakterli hərbi oyunlar keçirilməsi barədə direktiv imzaladı. Türkiyə bu oyunlarda şərti olaraq düşmən qüvvə kimi götürülür və oyun qaydalarına görə Şimali-Şərqi Türkiyəyə hücumla başlayan hərbi əməliyyatlar Oltu, Sanqamış, Trabzon və Ərzurumun ələ keçirilməsi ilə nəticələnirdi. "Zaqafqaziya cəbhəsi əməliyyatlarının planlaşdırılması üzrə mülahizələr" adlı sənəddə isə Qara dəniz sahili istiqamətində 210 km, Ərzurum istiqamətində 300 km-ə qədər bir ərazidə Trabzon, Bayburt, Ərzurum xətti üzrə türk ordusunun darmadağın edilməsi Zaqafqaziya hərbi dairəsmin əsas strateji vəzifələrinə daxil edilmişdi. Hərbi əməliyyatların hazırlıq mərhələsində türk ordusunun sərhəd boyunca kəşfiyyat və mühafizə sisteminin sıradan çıxarılması, hücum üçün hazırlıq vəziyyətinin elan olunması nəzərdə tutulurdu.

Hücumun birinci mərhələsində Türkiyənin Qars hərbi qruplaşması məhv edilməli, Pazar, Artvin, Merdenek, Qars və Kaqızman hüdudları ələ keçirilməli, ikinci mərhələdə Oltu-Sarıqamış qruplaşması darmadağın edilməli Eqdem, Oltu, Qars-Kurt hüdudları ələ keçirilməli və İspir, Tortum, Çiftlik yol qovşaqları üzərində Sovet Ordusunun nəzarəti təmin edilməli, nəhayət üçüncü mərhələ isə Ərzurumun ələ keçirilməsi ilə başa çatmalı idi. Birinci mərhələ 10 gün, ikinci mərhələ əməliyyatın başlanmasından sonra 16 gün üçüncü mərhələ isə hərbi əməliyyatın başlanmasından sonra 31 gün ərzində başa çatdırılmalı idi (34).

Aprel ayının 25-də Zaqafqaziya hərbi dairəsindəki vəziyyəti müzakirə etmək üçün Dövlət Müdafiə Komitəsinin sədri İ.Stalin İ.Tülenevi qəbul etdi. Axşam saat 19:50-dən 22:05-ə qədər aparılan müzakirələrdə Dövlət Müdafiə Komitəsinin üzvləri L.Beriya, Q.Malenkov, A.Mikoyan, Baş qərargah rəisi marşal B.Şapoşnikov, onun müavini P.Bodin və digərləri iştirak edirdi. Müzakirələrin nəticəsi kimi Zaqafqaziya hərbi dairəsmi silah və hərbi texnika ilə möhkəmləndirmək məqsədilə Baş qərargahın 26 aprel direktivi imzalandı. Direktivə əasən bir atıcı və bir atlı diviziyası, bir tank korpusu, altı aviapolk, altı artilleriya polku, altı zirehli qatar, yüz yük avtomobili Zaqafqaziya hərbi dairəsinə göndərildi. Zaqafqaziyaya göndərilmiş hərbi qüvvələr Türkiyə sərhədləri boyunca yerləşdirildi və may ayının 1-də Zaqafqaziya hərbi dairəsi bazasında Zaqafqaziya cəbhəsi yaradıldı. May ayının 5-də isə 45 və 46-cı ordunun komandaları direktiv aldılar ki, Türkiyə ərazisinə soxulmaq üçün hazır olsunlar. Bütün bunlar artıq təlim xarakteri daşıyan hərbi oyun olmayıb, Türkiyəyə hücum üçün hazırlıq xarakteri daşıyan real hərbi hazırlıq tədbirləri idi (35).

1942-ci ilin may ayının 26-da Londonda ingilis-sovet ittifaq müqaviləsinin imzalanması Sovetlərin Türkiyəyə qarşı hərbi hazırlıq tədbirlərinin səngiməsində müəyyən rol oynadı. Müqavilənin imzalanması ərəfəsində tərəflər Türkiyə ilə bağlı birgə bəyanatla çıxış etdilər. Bəyanatda 1941-ci ilin avqust ayının 10-da Türkiyəyə verilmiş təminatlar bir daha təntənəli şəkildə təsdiq edildi. Bəyanatda Britaniya və Sovet hökuməti Türkiyənin ərazi bütövlüyünə vicdanla əməl etməyə hazır olduqlarını, Türkiyə hökumətinin müharibəyə cəlb olunmaqdan qaçmaq cəhdlərini tam başa düşdüklərini, Türkiyə hər hansı digər dövlətin hücumuna məruz qalarsa, ona hər cür kömək və yardım göstərməyə hazır olduqlarını bildirdilər. Sovet hökuməti tərəfindən bu bəyanatın məzmunu may ayının 26-da Kuybışevdəki türk səfirinə və Ankaradakı sovet səfiri S.Vinoqradova çatdırıldı (36).

Böyük Britaniyadan sonra ABŞ-a gedən V.Molotovun prezident F.Ruzveltlə danışıqlarında da Türkiyə ilə bağlı məsələlərə toxunuldu.F.Ruzvelt dedi ki, son zamanlar SSRİ ilə Türkiyə arasındakı münasibətləri əvvəlki dövrdən fərqli olaraq dost münasibətlər adlandırmaq olmaz.

Lakin "Amerika hökuməti çox arzu edir ki, Türkiyə ilə SSRİ arasındakı münasibətlər, əvvəllər olduğu kimi, yenə dostluq münasibətləri olsun".Hətta F.Ruzvelt bu işdə SSRİ-yə kömək etmək arzusunu da təklif etdi.V Molotov Sovet İttifaqının Türkiyə ilə yaxşı münasibətlərdə olmaq arzusunu təsdiq etdi, lakin bu məsələnin üzərində geniş dayanmadı (37).

1942-ci ilin mayından etibarən sovet-alman cəbhəsində vəziyyətin ağırlaşması, Krımda və Xarkov istiqamətində böyük itkilər də öz növbəsində Zaqafqaziya cəbhəsində Türkiyəyə qarşı hərbi hazırlıq tədbirlərini bir qədər səngitdi.Lakin Sovetlərin qeyd edilən cəbhədə hərbi hazırlıq tədbirləri Türkiyəni məcbur etdi ki, SSRİ ilə sərhəd bölgələrinə diqqəti artırsın. Almaniya qoşunlarının Qafqaza doğru irəliləməsi də eyni dərəcədə Türkiyəni öz sərhədlərinin müdaifəsini artırmağa vadar edirdi. 1942-ci ilin iyul ayının 29-da Zaqafqaziya cəbhəsi kəşfiyyat orqanlarının məlumatına görə, SSRİ ilə sərhədlərdə Türkiyə silahlı qüvvələrinin 4 ordu korpusu, 16 piyada, 2 atlı diviziyasının olduğu, iyul ayı ərzində ölkənin içərilərindən 2 diviziya və 1 motopolkun sərhəd bölgələrinə gətirildiyi bildirilirdi. Lakin Türkiyənin Zaqafqaziya ilə sərhədlərdə hərbi hazırlıq tədbirlərinin zəif getdiyini Sovet kəşfiyyat orqanları özləri də etiraf edirdilər. Belə ki, kəşfiyyat materiallarında Qara dəniz sahillərinin almanların əlinə keçdikdən sonra Sovet-Türkiyə sərhədlərində bir sıra hadisələrin qeydə alındığı göstərilirdi (38).

Bununla belə qeyd etmək lazımdır ki, sərhəd ərazisində münaqişə kimi təqdim olunan hadisələr Sovet-Türkiyə sərhədlərindən daha çox müttəfiq qoşunları İrana daxil olduqdan sonra SSRİ-nin nəzarətinə keçmiş İran-Türkiyə sərhədlərində baş vermişdi. 1942-ci ilin iyul ayının 1-də İran-Türkiyə sərhədlərində baş vermiş münaqişə nəticəsində Sovet əsgəri Litovkonun ölümü iyulun 20-də Xalq Xarici İşlər Komissarlığının Türkiyə səfirliyinə etiraz notası təqdim edilməsinə gətirib çıxarmışdı. Avqustun 1-də Moskvadakı Türkiyə səfirliyi cavab notasında bildirmişdi ki, iyul ayında İran-Türkiyə sərhədindəki münaqişə Sovet əsgərlərinin Türkiyə sərhədlərinə keçməsi nəticəsində baş vermişdir. Sovet İttifaqı yenidən bu məsələyə Türkiyəyə qarşı təzyiqləri gücləndirdiyi dövrdə, 1944-cü ilin martında qayıtdı və bildirdi ki, bu məsələ barəsində SSRİ Xarici İşlər Komissarlığı əvvəlki mövqeyindədir (39).

1942-ci ilin 23 iyulunda baş verən sərhəd münaqişəsi də bu qəbildən idi. Həmin gün üç Sovet əsgəri Soraşan rayonu ərazisində Türkiyə sərhədlərini pozaraq ölkə ərazisinə daxil olmuşdular. Sərhəd pozucuları əmrə tabe olmadığından atışma başlanmış, serjant A.Romanov atışmada yaralanmış, V.Qureyev və Smorj adlı əsgərlər isə İran ərazisinə qaça bilmişdilər. Sovet məlumatlarına görə yaralanmış Vasili Qureyevin meyidi həmin gün İran ərazisindəki Raviya kəndi yaxınlığında tapılmışdı.Bu hadisə də öz növbəsində Xarici İşlər Komissarlığı ilə Türkiyə səfirliyi arasında etiraz notalarının mübadiləsi ilə müşayiət olunmuşdu.

Sərhəd münaqişəsi zəminində başqa bir hadisə isə 1942-ci ilin iyul ayının 20-də İran-Türkiyə sərhədində yerləşən Harikil məntəqəsində baş vermişdi. Həmin gün 4 Sovet hərbi qulluqçusu itmiş iki Sovet əsgərini axtarmaq bəhanəsi ilə 3 km. Türkiyənin içərilərinə girib casusluq fəaliyyəti ilə məşğul olarkən mühasirəyə düşmüş və atışma nəticəsində öldürülmüşdülər. Bununla bağlı iyulun 24-də Türkiyə səfirliyi SSRİ Xarici İşlər Komissarlığına etiraz notası təqdim etmişdi. Xarici İşlər Komissarlığı isə cavab notasında guya Komlev, Akimov, Maşin və Şupikov familiyalı hərbi xidmətçilərin türk sərhədçiləri tərəfindən İran ərazisində öldürüldüyü və onların cənazələrinin qəsdən Türkiyə ərazisinə aparıldığını bildirirdi. 1942-ci ilin noyabrın 9-da Türkiyə səfirliyi bir daha dəqiqləşdirmələrdən sonra bu məsələnin təfsilatını Xarici İşlər Komissarlığına çatdırdıqda Sovet tərəfi Türkiyə səfirliyinin notasına cavab vermədi. Başqa bir hadisə isə İran-Türkiyə sərhədindəki Şərəfabad yaşayış məntəqəsində baş vermişdi. 16 avqust 1942-ci ildə qeyd edilən sərhəd məntəqəsində Türkiyə ərazilərinə icazəsiz daxil olduğundan Sovet əsgəri Vasili Yakuşev öldürülmüşdü. Bununla bağlı 29 avqustda Xarici İşlər Komissarlığı Türkiyə səfirliyinə etiraz notası təqdim etmiş, Türkiyə tərəfi isə hadisənin Sovet əsgərlərinin Türkiyə sərhədlərini pozması nəticəsində baş verdiyini göstərmiş, lakin ölüm faktının olmadığını qeyd etmişdi. Şərəfabad hadisəsini araşdırmaq üçün Xarici İşlər Komissarının müavini S.Lozovski ilə 1942-ci ilin iyununda Moskvaya səfir təyin edilmiş Mehmet Açıkalın arasında xüsusi görüş keçirilmişdi. Məsələ araşdırılmaq üçün Sovet-Türkiyə komissiyasının birgə iclasına həvalə edilmişdi (40).

Qeyd edilən hadisələrdən əlavə 1941-ci ilin noyabr ayının 14-də Qara dənizdə Sinop limanı yaxınlığında Türkiyəyə pənah gətirən "Qırmızı Vodoley" gəmisinin şəxsi heyəti ilə bağlı mübahisə də 1942-ci ilin yayında kəskinləşmişdi.11 noyabrda Sevastopol limanından çıxıb Tuapseyə yük aparan "Qırmızı Vodoley" Sinop yaxınlığına yan alıb kapitan Zadorojnı başda olmaqla 18 nəfərlik heyətlə Türkiyə hakimiyyət orqanlarına təslim olmuş və tərksilah olaraq Türkiyədə nəzarət altında saxlanmaqlarını xahiş etmişdilər. 1941-ci ilin dekabr ayının 5-də Sovet səfiri S.Vinoqradov Türkiyə Xarici İşlər Nazirliyinin Baş katibi N.Menemençioğlu ilə görüşmüş və Türkiyə tərəfi gəminin şəxsi heyətinin Sovetlərə qayıtmaq istəmədiyini bildirmişdi. 1942-ci ilin əvvəllərində Ş.Saracoğlu ilə S.Vinoqradov arasındakı danışıqların nəticəsi kimi gəmi Sovetlərə qaytarılmış, lakin şəxsi heyət yazılı şəkildə müraciət etmişdi ki, müharibə qurtarana qədər onlar Türkiyədə saxlansınlar. Danışıqların gedişində üç nəfər SSRİ-yə qayıtmaq arzusunda olduğundan onlar Yozqaddakı düşərgədən azad olundular, Sovet tələblərinin beynəlxalq hüquqa uyğun olmadığını əsas tutaraq qalan 15 nəfəri isə Türkiyə hakimiyyət orqanları SSRİ-yə qaytarmaqdan imtina etdilər (41).

23 sentyabr 1941-ci ildə İzmayılovsk limanından Ağməscidə üzən “Akkerman” kateri ilə bağlı da belə bir hadisə baş vermişdi. 13 nəfər heyəti və 25 nəfər sərnişini olan "Akkerman" kateri 26 sentyabrda İtanbul limanına yan almış, gəmi heyətinin 6 nəfəri SSRİ-yə qayıtmış, 7 nəfəri isə qayıtmaqdan imtina etmişdilər. Kater tərksilah edildikdən sonra İstanbulda saxlanılırdı. Ş.Saracoğlu ilə səfir S.Vinoqradov arasında aparılan danışıqlar nəticəsində "Akkerman" kateri, onun sərnişinləri və arzu edən gəmi heyəti üzvləri Sovet İttifaqına qaytarılmışdı (42).

Ankaradakı Sovet səfirliyinin əməkdaşı Q.Nikolayevin SSRİ vətəndaşlığından imtina edib Türkiyədən sığınacaq istəməsi tərəflər arasında mübahisəli məsələlərdən birinə çevrilmişdi. 1942-ci ilin iyun ayının 19-da İstanbulda Türkiyə polisinə yazılı müraciət edən Q.Nikolayev ona sığınacaq verilməsini və Türkiyə vətəndaşlığına qəbul edilməsini xahiş etmişdi. Sovet səfirliyi öz əməkdaşını geri qaytarmaq üçün belə bir iddia irəli sürmüşdü ki, guya Nikolayev yoxa çıxanda səfirliyin avtomobil parkı üçün maşın və ehtiyat hissələri almaqdan ötrü onun üzərində dövlətə məxsus 10 min türk lirəsi olub. Lakin yoxlamalar zamanı bu fakt təsdiq olunmadı və Nikolayevin qaytarılması üçün səfir S.Vinoqradovun Ş.Saracoğlu və N.Menemençioğlu ilə görüşləri bir nəticə vermədi. Türkiyə Xarici İşlər Nazirliyi bildirdi ki, siyasi, maliyyə və hərbi cinayət törətmiş diplomatlar ekstradiasiya edib bilməzlər, əgər belə bir şey varsa biz işi Türkiyə prokurorluğuna verə bilərik, lakin bunun üçün Sovet tərəfi Nikolayevi diplomatlar siyahısından çıxarmalıdır. Digər tərəfdən N.Menemençioğlu bildirdi ki, cinayətkar o halda qaytarıla bilər ki, o, cinayəti bir ölkədə törətsin və digər ölkəyə qaçsın. Lakin məlum olduğu kimi, Nikolayevlə bağlı hadisədə belə bir hal yoxdur və ona görə də onun SSRİ-yə qaytarılması məsələsi qoyula bilməz (43).

Göründüyü kimi, sərhəd münaqişələri zəminində baş verən kiçik hadisələr heç də az deyildi. SSRİ Xarici İşlər Komissarlığı ilə sovet ordusunun Baş qərargahı arasındakı yazışmalardan aydın olur ki, bu münaqişələrin böyük əksəriyyəti Sovet tərəfinin günahı ucbatından baş versə də, SSRİ-nin hərbi və diplomatik orqanları həmin münaqişələrdən Türkiyəyə qarşı təzyiq kimi istifadə etməyə çalışır və Ankaranın simasında düşmən obrazı yaratmağa cəhd göstərirdilər.

1942-ci ilin iyulunda Refik Saydamın vəfatından az sonra Sovetlər üçün arzuolunmaz siyasətçi kimi tanınan xarici işlər naziri Ş.Saracoğlunun Baş nazır təyin edilməsi SSRİ siyasi dairələrində elə də yaxşı təəssürat yaratmadı. Bir çox məsələlərdə Sovet İttifaqı ilə Türkiyənin münasibətlərinin uzlaşmamasını Sovetlər, bir qayda olaraq, Ş.Saracoğlu ilə əlaqələndirməyə cəhd edirdilər. Ankaradakı Sovet səfirliyinin məlumatında göstərilirdi ki, Ş.Saracoğlu Türkiyənin hakimiyyət dairələrində böyük nüfuza malik olan siyasətçilərdəndir.Lakin əlavə edilirdi ki, onun nüfuzu İsmət İnönünün gostərişlərini səylə yerinə yetirməklə bağlıdır (44).

Ş.Saracoğlunun kabinetində xarici işlər naziri vəzifəsini təcrübəli diplomat, beynəlxalq hüququn gözəl bilicisi Numan Menemençioğlu tutdu. N.Menemençioğlu tanınmış türk şairi Namiq Kamalın nəvəsi idi. O, 1936-cı ildə Boğazlar məsələsinə dair Montrö konfransının çağırılması üçün əsas kimi götürülən notanın müəllifi idi. Eyni zamanda Menemençioğlu Montrödə fəallıq göstərən türk diplomatlarından idi. Diplomatik kanallarla alınan məlumatlarda göstərilirdi ki, o, Montrö konfransında SSRİ-yə qarşı sərt mövqedə dayanmışdı. Ankaradakı Sovet səfirliyi onun haqqında hazırladığı arayışda göstərirdi ki, Menemençioğlu Baş katib vəzifəsində işlədiyi vaxt faktiki olaraq Xarici İşlər Nazirliyinin bütün işini aparır, siyasi və iqtisadi danışıqlarda başlıca rol oynayırdı. Sovet səfirliyinin məlumatına əsasən, o, öz siyasi baxışlarına görə qatı millətçi, almanpərəst, Almaniya ilə iqtisadi əməkdaşlığın ardıcıl tərəfdarı idi. Sovet diplomatik orqanları belə hesab edirdilər ki, Menemençioğlu ingilis-türk ittifaq müqaviləsinə tərəfdar olsa da, bu müqavilənin yerinə yetirilməməsi üçün müxtəlif bəhanələr axtarıb tapırdı. Sovet xüsusi xidmət orqanlarının məlumatına görə guya Menemençioğlu məhdud dairədə deyib ki, əgər Alman-türk paktı sovet-alman müharibəsində SSRİ-nin məğlum olmasında heç olmasa hansı dərəcədəsə yararlı olarsa, onda o, müsbət rol oynamış olardı (45).

Əlbəttə, bütün bu məlumatlar Sovet rəhbərliyini, ilk növbədə isə İ.Stalini qıcıqlandırırdı. 1942-ci ilin avqust ayının ortalarında Britaniya Baş naziri U.Çörçillə Kremldə apardığı danışıqlarda İ.Stalin Türkiyəyə qarşı acıqlı mövqeyini belə ifadə etmişdi: "Şayiələr gəzir ki, türklər bizə hücum edəcəklər. Əgər bu belədirsə, onlarla mən haqq-hesab çəkə bilərəm". U.Çörçill onu sakitləşdirərək demişdi ki, belə bir təhlükə yoxdur. Türklər kənarda qalmaq niyyətindədirlər, təbiidir ki, onlar İngiltərə ilə dalaşmaq istəmirlər (46). Avqust ayının 12-dən 15-nə qədər İ.Stalinlə U.Çörçill arasında əsasən axşamlar keçirilən görüşlərdə Sovetlər tərəfindən Molotov, Voroşilov, Britaniya tərəfindən Kadoqan, Bruk, Moskvadakı səfir Kerr, səfirliyin katibi Denlot, Çörçillin yavəri Tomson, katibi Rouen, prezident Ruzveltin nümayəndəsi Harriman və digərləri iştirak edirdi. Britaniya-Sovet danışıqlarında müharibə meydanında və dünyada gedən proseslər, habelə müttəfiqlərarası münasibətlərin bir sıra tərəfləri müzakirə edildi. Danışıqlar zamanı U.Çörçill İ.Stalindən soruşdu: "O, almanların Qafqaz dağlarından keçməsinin, Xəzər dənizinə çıxmasının və Bakı neft mədənlərini tutmasının qarşısını ala bilərmi?" Çörçill belə hesab edirdi ki, almanlar bu regiondan istifadə edərək sonralar Türkiyə və ya İran vasitəsi ilə cənuba doğru irəliləyə bilərdilər. Britaniya Baş naziri öz xatirələrində yazır: O, (Stalin-C.H.) xəritəni stolun üstünə sərib sakit bir əminliklə dedi: "Biz onları dayandırarıq. Onlar dağlardan keçə bilməzlər" (47).

Türkiyənin Şərq vilayətlərinə əlavə ordu hissələri gətirməsi keçmiş Sovet tarixşünaslığında bir qayda olaraq Türkiyənin SSRİ-yə hücuma hazır

laşması kimi qiymətləndirilirdi. Təəssüf ki, müasir rus tarixşünaslığında da bu səhv yanaşma hələ bütövlükdə aradan qaldırılmamışdır.V.N.Kontevskinin 2003-cü ildə Rusiya Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda, çap olunmuş kitabında qeyd edilir ki, 1942-ci ilin ortalarında, xüsusilə cəbhədə SSRİ üçün ağır vəziyyət yarandığı dövrdə Türkiyə bizim sərhədlərimizdə 25-dən artıq diviziya cəmləmişdi və Sovet komandanlığını məcbur edirdi ki, Zaqafqaziyanın müdafiəsi üçün xeyli qüvvəni burada saxlasın (48). Türkiyənin Sovetlərlə sərhədlərə əlavə hərbi qüvvələr göndərməsi Sovet İttifaqının Zaqafqaziyada hərbi hazırlıq tədbirləri ilə bilavasitə bağlı idi. Sənəd və materialların araşdırılması göstərir ki, əgər Türkiyənin SSRİ-yə doğrudan da hücum etmək fikri var idisə, bunun üçün ən əlverişli vaxt 1942-ci ilin payızı idi. 1942-ci ilin avqust-sentyabr aylarında Şimali Qafqaz və Cənub cəbhələri Almaniyanın Stalinqrada və Qafqaza doğru irəliləyişinin qarşısını ala bilmədikdə, Zaqafqaziya cəbhəsinə əmr verildi ki, Qroznı-Bakı istiqamətində 400 km-lik cəbhə xəttinin müdafiəsini təşkil etsinlər. Bu dövrdən etibarən Zaqafqaziya cəbhəsinin bütün ehtiyatları Şimala doğru yönəldildi. Şimal istiqamətindən Zaqafqaziyaya daxil olan bütün yollar nəzarətə götürüldü. Bütün ordu hissələrinin və ehtiyat qüvvələrinin şimala göndərilməsi Türkiyə ilə sərhədlərin mühafizəsini xeyli zəiflətdi. Zaqafqaziyanın cənub sərhədlərini qoruyan sərhəd qoşunlarının sayı bu dövrdə 20 mindən artıq deyildi və bunun da böyük əksəriyyəti yeni formalaşdırılmış, yaxşı təlim görməmiş atıcı diviziyalardan ibarət idi. Almaniyanın bütün təkidlərinə baxmayaraq, Türkiyə üçün yaranmış belə bir əlverişli şəraitdə bir sıra rus tarixçilərinin dili ilə desək "gözlənilən fəlakət baş vermədi", ən nəhayətdə "Türkiyə müharibəyə girməyə cəsarət etmədi". Alman faşist qoşunlarının Stalinqradda məğlubiyyətindən sonra ümumiyyətlə, Türkiyənin müharibəyə daxil olması məsələsi Berlin tərəfindən bir daha qaldırılmadı (49). Əksinə, bundan sonra Türkiyənin müttəfiqlər tərəfindən müharibəyə daxil olması müzakirə mövzusuna çevrilməyə başladı ki, bu da bir qayda olaraq Sovetlərin artan təzyiqi fonunda baş verirdi.

1942-ci ilin sentyabrında Sovetlər tərəfindən demək olar ki, Türkiyənin bütün siyasi mənzərəsi öyrənilmiş, siyasi mühitdə fəaliyyət göstərən bütün tanınmış adamlar haqqında geniş arayış hazırlanmışdı. SSRİ Xarici İşlər Komissarlığının Orta Şərq şöbəsinin materialları əsasında hazırlanmış 34 səhifəlik "Türkiyənin siyasi və ictimai xadimləri haqqında qısa biblioqrafik arayışda" 117 tanınmış siyasi və ictimai xadim haqqında məlumat verilirdi. Burada hər bir şəxs, onun keçdiyi həyat yolu, tutduğu vəzifələr, siyasi orientasiyası, SSRİ-yə münasibəti və s. məsələlər əks olunmuşdu. Əlifba sırası ilə hazırlanmış arayışda Fuad Aqralı, Fazil Aykaç, Mühiddin Akyüz, Ali Haydar Aktay, Zeki Alsan, Hulusi Alataş, Zekayi Apaydın, Rahmi Apak, Rüşdü Aras, Ali Riza

Artunkal, Saffet Arıkan, Rıfkı Atay, Mehmed Açıkalın, Celal Bayar Hüseyn Baydur, Halid Bayrak, Ali Fuad Cebesoy, İsmət İnönü, Şükrü Kaya, Kazım Karabəkir, Numan Menemçençioğlu, Hasan Menemençioğlu, Yunis Nadi, Fəthi Okyar, Rauf Orbay, Kazım Orbay, Recep Peker Abdulhaluk Renda, Ruşen Eşref, Necmettin Sadak, Refik Saydam, Hasan Saka, Şükrü Saracoğlu, Selim Sarper, Mustafa Sertel, Tevfiuk Sılay, Hüsnü Taray, Fikri Tuzer, Tarik Us, Tahsin Uzer, Ahmed Ferid, Fevzi Çakmak, Ali Çətinkaya, İbrahim Tali Öngörən, Ahmed Emin Yalman, Hüseyn Cahid Yalçın və digərləri haqda çox mühüm məlumatlar vardı (50). Sovet xüsusi xidmət orqanları hətta Türkiyə siyasi xadimləri, hökumət dairələri içərisində intriqalara da böyük maraq göstərirdilər. Ş.Saracoğlu Baş nazir təyin edildikdən sonra Sovet məlumatlarına görə onunla və N.Menemençioğlu ilə Baş qərargahın rəhbərliyi marşal F.Çakmak və Kazım Orbay arasında, xüsusilə Türkiyənin öz müttəfiqləri qarşısında götürdüyü öhdəliklərin yerinə yetirilməsinə dair fikir ayrılığı olduğu göstərilirdi. Həmin məlumatda qeyd edilirdi ki, hökumətin yüksək vəzifəli şəxsləri Baş qərargahın yüksək rütbəli zabitlərinin prezident İ.İnönüyə yaxın olmasından ehtiyatlanırdılar (51).

Hakimiyyət orqanları və siyasi dairələrlə yanaşı, Sovet xüsusi xidmət orqanları nəinki Türkiyənin aparıcı mətbuat orqanlarını, eləcə də əyalətlərdə çıxan qəzetləri də diqqətlə izləyidilər. 1942-ci ilin sonlarında SSRİ Xarici İşlər Komissarlığında S.P.Kozırevin adına hazırlanmış arayışda "Tan", "Hakikat", "Anadolu" qəzetləri haqqında məlumat verilirdi. Məsələn, "Tan" haqqında məlumatda göstərilirdi ki, bu qəzet Zekeriyye Sertelin redaktorluğu ilə 30-35 min tirajla çıxır, əsas siyasi məqalələri Almaniyanın əleyhinə yazılır, digər türk qəzetləri ilə müqayisədə daha obyektivdir. Z.Sertel özünün siyasi icmallarında İngiltərə meyllidir, bununla belə son il yarımda qəzetdə Sovetlər əleyhinə yazı verilməyib. Xarici İşlər Komissarlığında hazırlanmış başqa bir arayışda Türkiyədə çıxan əsas qəzetlər, onların redaktorları və əməkdaşları, tirajı və istiqaməti haqqında məlumat verilir. Arayışda haqqında məlumat verilən əsas qəzetlər "Ulus", "Cümhuriyyət", "Repablik", "Tan", "Yeni Sabah", "Vakıt", "Haber", "Son Posta", "Son Teleqraf', "Vatan", "Akşam", "İstiklal", "İkdam" və başqalarıdır (52). Sovet orqanları Türkiyədə çıxan mətbuat orqanlarını o qədər diqqətlə öyrənirdilər ki, təkcə Ankarada 30 min tirajla çıxan və Xalq Cümhuriyyətçi partiyanın orqanı olan "UIus" qəzetı haqqında hazırlanan arayış beş səhifədən ibarətdir. Qəzetin baş redaktoru Rıfkı Atay, beynəlxalq icmal şöbəsinin redaktoru Şükrü Esmar, məsul katibi isə Mümtaz Faik Fenik idi. "Ulus"da Ali Küçük, Kemal Ünal, Sırrı Tarcan, Sadrettin Enver, Nurettin Artam, Qalib Atac, Xakkı Uluq, Nurullah Atay, Rahmi Apak, Ali Riza Erem və digər tanınmış publisistlər və yazıçılar çalışırdılar. Arayışda göstərilirdi ki, "Ulus" Türkiyə xarici

siyasətinin ümumi istiqamətlərini əks etdirdiyindən sovet-alman müharibəsi başlandıqdan sonra onu izləmək çox maraqlı olmuşdur. Sovet informasiya bürosunun məlumatlarını, dövlət xadimlərinin çıxış və bayanatlarını çox qısa şəkildə çap etdiyindən bəzən isə ümumiyyətlə çap etmədiyindən Ankaradakı Sovet səfirliyi "Ulus"un rəhbərliyindən narazı idi. Alman faşistlərinin işğal olunmuş Sovet ərazilərində törətdiyi vəhşiliklərlə bağlı V.Molotovun notasının nə üçün nəşr edilmədiyinin səbəbini soruşduqda Faik Fenik cavab vermişdi ki. "bu notanın siyasi əhəmiyyəti yoxdur və Türkiyə qulağı kəsilmiş, gözü çıxardılmış, edam olunmuş kəndlilərlə maraqlanmağa borclu deyildir". Əlbəttə, "Ulus"un belə mövqeyi təqdirə layiq olmasa da, öz növbəsində Sovet səfirliyi də "Ulus"dan bütün Sovet rəsmi məlumatlarını dərc etməsi tələbi Türkiyənin bitərəflik siyasəti ilə bir araya sığmırdı. Digər tərəfdən, Sovet rəsmiləri fin müharibəsi dövründə və sovet-alman əməkdaşlığı zamanında "Ulus"un anti-sovet mövqeyini yaddan çıxarmırdılar. 1942-ci ilin fevralında Alman səfiri fon Papenə qəsdlə bağlı açılan məhkəmə prosesindən və bu prosesə cəlb edilmiş Sovet səfirliyinin İvanov və Kornilov familiyalı iki əməkdaşının fəaliyyətindən geniş reportajlar verdyinə görə səfirlik "Ulus"a qarşı çox acıqlı idi. Xüsusilə Kornilovun onların mühakimə olunduğu məhkəmə prosesinin ədalətliliyi və haqlılığı barəsində söylədiklərinin qəzetdə böyük başlıqla çap olunması Sovet səfirliyini elə də yaxşı vəziyyətdə qoymamışdı. Görünür, bütün bunların nəticəsi idi ki, səfirlik "Ulus"un baş redaktoru Atayı siyasi görüşlərinə görə mürtəce və Sovet İttifaqının qatı düşməni kimi xarakterizə edirdi. Sovet səfirliyinin Moskvaya verdiyi məlumatda göstərilirdi ki, guya Atay bir neçə dəfə, o cümlədən A.İdenin Türkiyəyə səfəri zamanı ingilislərdən pul alıb. "Ulus"un redaktoru Türkiyə Böyük Millət Məclisinin xarici siyasət komissiyasının üzvü Şükrü Esmer və məsul katibi Faik Fenik haqqında da səfirliyin məlumatları Sovetlərin nöqteyi-nəzərindən müsbət deyildi. Ş.Esmer haqda yazırdılar ki, o, özünün antisovet görüşləri ilə məşhurdur və eyni zamanda müharibədə anqlosaksların qələbəsinə dərindən inanır. Kamalçı inqilab zamanında isə o, Türkiyəni Amerika mandatı altına verməyin tərəfdarı kimi çıxış edib.

1942-ci ilin sonlarında Türkiyənin əyalət qəzetləri haqqında hazırlanmış arayış da bəzi cəhətlərinə görə diqqəti cəlb edir. SSRİ Xarici İşlər Nazirliyi SİTA-nın məlumatına istinadən bildirirdi ki, Türkiyədə həmin dövrdə 113 qəzet, 227 jurnal nəşr olunur. Onlardan 42 qəzet və 169 jurnal Ankara və İstanbulda çıxır və bir qayda olaraq, paytaxt mətbuatı adlanır,digər 71 qəzet və 58 jurnal isə Türkiyənin qalan şəhərlərində nəşr olunurdu. Əyalət qəzetlərini öz məzmununa görə Sovet şərhçiləri üç qrupa bölürdülər. Birinci qrupa aid olanlar ancaq Anadolu agentliyinin beynəlxalq vəziyyətlə bağlı rəsmi məlumatlarını yayır; ikinci qrupa daxil

olanlar daha çox daxili həyat və məhəlli məsələlər haqqında qısa materiallar verirdilər; üçüncü qrup qəzetlər isə Məclisin qanunlarını hökumətin və yerli hakimiyyət orqanlarının qərarlarını, ticarət elanlarını dərc edirdilər. Əyalət mətbuatı haqqında hazırlanmış arayışdan məlum olur ki, Sovet İttifaqının müxtəlif hərbi, siyasi, diplomatik və xüsusi xidmət orqanları əyalət mətbuatını təhlil etməklə Türkiyənin daxili sosial-siyasi vəziyyətini öyrənməyə cəhd göstərirlər. Sovet orqanlarının araşdırmalarından aydın olur ki, əyalətlərdə də öz siyasi sifəti olan qəzetlər nəşr olunurdu. Buna misal olaraq İzmirdə çıxan "Anadolu" və "Yeni Asır"qəzetlərini göstərmək olar. Sovetlər üçün müharibənin ən ağır vaxtlarında, Alman təbliğatının bu gün-sabah SSRİ-nin çökəcəyi barədə məlumatları bütün dünyaya yaydığı zaman "Yeni Asır" soyuqqanlıqla yazırdı ki, Sovet İttifaqının alman hücumuna qarşı durmağa həmişə imkanı olub və bundan sonra da olacaqdır. "Anadolu" və "Yeni Asır" demək olar ki, hər gün öz səhifələrində Sovet İttifaqından və müharibədən bir neçə şəkil nəşr edirdi. Sovet məlumatlarını isə həmin qəzetin daha oxunaqlı yerlərində verməyə çalışırdılar. Hətta arayışda qeyd edilirdi ki,bütövlükdə türk mətbuatı son vaxtlar Almaniya üzərinə daha cəsarətlə hücuma keçməyə, Hitleri lağa qoymağa, almanların vəziyyətinə ironik münasibət bəsləməyə başlamışlar. Eyni zamanda əlavə edilirdi ki, artıq alman məlumatları üçün ayrıca başlıq verilmir, Almaniya informasiya orqanlarının yaydığı şəkillər türk mətbuatında demək olar ki, nəşr edilmirdi. Sovet-Alman əməkdaşlığı dövründə antisovet mövqedən çıxış edən və Adanada nəşr edilən "Türk Sözü" qəzeti də 1942-ci ilin payızından artıq Sovetlərə rəğbət bəsləməyə başlamışdı. Bu münasibət qəzetin Sovet məlumatlarını və foto materiallarını daha cəlbedici başlıqlarla və daha münasib yerdə verməsində hiss edilirdi. Sovet tərəfi bunu Qırmızı Ordunun son böyük qələbələri ilə izah etməyə çalışırdı. Əyalətdə çıxan "Türk Eli" qəzeti də antialman mövqeyinə görə Sovetlərin diqqətini cəlb etmişdi. Qəzetin materiallarından Sovet İttifaqına, İngiltərə və ABŞ-a rəğbət açıq-aydın hiss edilirdi. "Türk Eli" Sovetlərə açıq rəğbətini ifadə edərək yazırdı ki, almanlar başlanğıcda bir sıra uğurlar qazansalar da,onlar qələbədən çox uzaqdırlar. Sovet İttifaqı Almaniya hücumunu dəf etmək gücündə və qüdrətindədir (53). Eyni zamanda Türkiyənin paytaxt və əyalət qəzetlərinin təhlili belə bir fikir söyləməyə əsas verir ki, Almaniyanın müharibədə məğlubiyyətini arzulayan türk ictimaiyyəti Sovetlərin güclənməsinə də birmənalı yanaşmır və bu güclənmənin Türkiyəyə qarşı yönələcəyindən ehtiyatlanırdı. Belə ehtiyatlanma üçün isə yetərincə əsaslar var idi. Zaqafqaziya cəbhəsində ordu qruplaşmalarının gücləndirilməsi, fon Papenə qəsdlə bağlı məhkəmə prosesinin SSRİ üçün doğurduğu uğursuz nəticələr, Sovet mətbuatında Türkiyə əleyhinə yazıların çoxalması, gizli yazışmalarda müharibəyə qatılmaq üçün Türkiyəyə

təzyiqlər göstərilməsinin intensiv xarakter alması və s. bunun açıq təzahürləri idi.

Qeyd etmək lazımdır ki, xarici ölkələrin mətbuat səhifələrində də Türkiyə ilə bağlı yazılar gedirdi. Tanınmış Amerika jurnalisti Henri Tevlor "Rides Daycest" jurnalının noyabr nömrəsində "Türkiyə heç vaxt ox ölkələrinə birləşməyəcək" adlı maraqlı bir yazı ilə çıxış etmişdi. Türkiyənin Baş naziri Ş.Saracoğlunun "Biz milli azadlıq uğrunda vuruşmağa hazırıq və hazır olacağıq" sözləri məqalədə epiqraf kimi verilmişdi. Henri Teylor Türkiyə səfərindən sonra yazdığı məqalədə qeyd edirdi ki, Türkiyənin "ox" ölkələrinə birləşməsi mümkünsüzdür. Türkiyə onun ən böyük arzusu kimi ya müharibədən kənarda olacaq, ya da Almaniya ilə vuruşacaqdır. Bunun səbəbini Teylor türklərin, xüsusilə mövcud hökumətin almanları yaxşı tanıması ilə izah edirdi. O yazırdı: "Prezident İsmət İnönü, Baş nazir Ş.Saracoğlu, Türkiyə Baş qərargahının rəisi marşal Fevzi Çakmak böyük Kamal Atatürkün ardıcılları olduğundan, Almaniyanın Türkiyəyə məsuliyyətsiz münasibətini yaxşı xatırlayırlar. Ankaradakı Alman səfiri fon Papenin fəaliyyətinə toxunan H.Teylor qeyd edirdi ki, hücum etməmək haqda Sovet-Alman müqaviləsi dövründə o, Hitlerin göstərişi ilə Rusiyanın arxasında fəaliyyət göstərərək faşist təminatı altında Rusiyanı Dardanelldən uzaqlaşdırmağa yönəlmiş Alman-Türk ittifaq müqaviləsinə nail olmalı idi. Lakin o buna nail ola bilmədi. Hitler Stalinə hücum etməklə İngiltərəni Rusiyanın müttəfiqi etdiyi zaman Britaniya artıq Türkiyənin müttəfiqi idi.

Türk ordusunun hazırlıq vəziyyətinə toxunan H.Teylor qeyd edirdi ki, türklər güclü millətdirlər. Onlar dünyada ən yaxşı təbii döyüşçülərdir. Onlarda çox gözəl hərbi ruh vardır. İndi Türkiyənin nizami ordusunun sayı əsasən Batumun qarşısında yerləşən 750.000 nizami döyüşçüdən ibarətdir. Almanlar cənubi Qafqaza doğru irəliləməyə başlayanda türklər öz ordusunu Bolqarıstan sərhədlərindən götürüb burada 700 millik bir məsafədə yerləşdirdilər. Bu ordu yaxşı təlim görüb və yaxşı təchiz edilib. Bundan əlavə, 150 000 minlik təlim görmüş partizan hissələri vardır. H.Teylorla söhbətində Baş nazir Ş.Saracoğlu bildirmişdi ki, nəyin bahasına olursa-olsun milli müstəqilliyə nail olmaq Türkiyə xarici sıyasətinin əsas prinsipi olaraq qalır. Bu siyasətdə heç bir dəyişiklik olmayacaq (54). H.Teylorun məqaləsi Sovetlər üçün xüsusi maraq kəsb etdiyindən həmin məqalə SSRİ Xarici İşlər Komissarlığında rus dilinə tərcümə edilmişdi.

1942-ci ildə aparılan gizli yazışmalarda müttəfiq ölkələrin dövlət başçıları belə qənaətə gəlmişdilər ki, 1943-cü ilin yazında Türkiyənin müharibəyə girməsi üçün mümkün olan hər şeyi etmək lazımdır. 1943-cü ilin yanvar ayının 19-da ingilis və amerikanların Kasablanka konfransında qərara alınmışdı ki, cənub cinahından Almaniyaya zərbə endirmək

və Rusiyaya yeni yol açmaq üçün Balkan cəbhəsi açılmalıdır. Britaniyal Baş naziri U.Çörçill yazırdı ki, Türkiyə belə planların həyata keçirilməsi üçün açar idi. Artıq uzun aylar idi ki, bizim məqsədimiz Türkiyəni müttəfiqlər tərəfindən müharibəyə cəlb etmək idi. İndi bu israrlı məsələni həll etməyə yenidən ümid yaranmışdı. Bu məsələdə Stalin Ruzveltlə və mənimlə tam razı idi. Mən Türkiyə ərazisində şəxsən prezident İnönü ilə görüşüb bu məsələni qəti şəkildə həll etmək istəyirdim (55). Məhz bu məqsədlə U.Çörçill A.Kadoqanın və generallardan Bruk, Aleksandr və Vilsonun müşayiəti ilə Adanaya gəldi.

Prezident İ.İnönü, Baş nazir Ş.Saracoğlu, hökumət üzvləri və Baş qərargah rəisi F.Çakmakla U.Çörçill və onu müşayiət edən şəxslər arasında 30 yanvar-1 fevral 1943-cü il tarixdə aparılan danışıqlar çox gərgin keçdi. Müzakirələr əsasən iki məsələ - müharibədən sonrakı quruculuq və Türkiyə ilə Rusiya arasında münasibətlərin gələcəyi barədə aparılırdı. Danışıqların gedişində Çörçill bildirdi ki, Stalin və Molotovla görüşlərdən belə qənaətə gəlib ki, onlar hər ikisi Britaniya və ABŞ-la dostluq şəraitində yaşamağı istəyirlər. Rusiya qarşıdakı on ildə bütün gücünü öz bərpa işlərinə yönəldəcək. Biz gərək Rusiya ilə dostluq münaisbətləri saxlayaq, əgər İngiltərə və Birləşmiş Ştatlar bir yerdə hərəkət etsələr və yetəri qədər hərbi-hava qüvvələrini saxlasalar, onlar stabilliyin dayanıqlılığını təmin edə bilərlər. U.Çörçill belə hesab edirdi ki, Türkiyə müharibədən sonrakı dünyanın quruculuğunda iştirak etmək üçün savaşa qatılmalıdır. O, hələ Kasablankada A.İdenə bildirmişdi ki, Türkiyəyə görə çox narahatdır. Türkiyə qızıl kimi bir imkanı əldən buraxa bilər (56).

Eyni zamanda Kasablanka görüşü zamanı prezident Ruzveltin nümayəndəsi H.Hopkins bildirmişdi ki, əgər Çörçill Türkiyənin inadkar mövqeyini dəyişə bilməsə, onda Rusiyanın Boğazlar məsələsinə dair mövqeyinə nəzarət edə bilməyəcək. Məsələ bundadır ki, Kasablanka konfransının ikinci günü Ş.Saracoğlu "Tayms" qəzetinin müxbirinə bildirmişdi ki, Türkiyə özü üçün müharibədən kənarda qalmaq imkanlarını təmin etməyə cəhd göstərəcəkdir (57).

Adana danışıqlarında Çörçill təklif etdi ki, Türkiyə Ankara paktına riayət edirsə, dərhal savaşa girməli və Boğazları açmalıdır. Eyni zamanda Çörçill əlavə etdi ki, Türkiyədən nə isə tələb etməyə gəlməyib, gəlib ki, silah və hərbi sursatla bağlı Türkiyənin ehtiyaclarını öyrənsin. Prezident İ.İnönü bu təklifə cavab olaraq dedi: "Türkiyə Ankara paktına sədaqətdən ayrılmamışdır. Böylə bir niyyəti də yoxdur. Ancaq bir ordu bol təchizat və modern silahlara malik olmadan hərbə girərsə, məğlub olar. Türk ordusu təchizat və modern silahdan məhrumdur. İngiltərə türk ordusunun təchizat və silahını təmin edərsə, biz də savaşa girərik" (58). Söhbətə qoşulan Baş nazir Ş.Saracoğlu əlavə etdi ki, müharibədəki qələbələr Rusiyanı

imperialist dövlətə çevirə bilər. Belə bir ifadəni danışıqların gedişində ilk dəfə U. Çörçill işlətmişdi. Saracoğlunun fikrincə,məhz bu səbəbdən Türkiyə ehtiyatlı davranmalı idi. Çörçillin dünyada sülhü və təhlükəsizliyi edəcək Millətlər Cəmiyyətindən daha güclü bir beynəlxalq təşkilatın yaradılacağı və artıq onun kommunizmdən qorxmadığı fikrinə cavab olaraq Ş.Saracoğlu dedi ki,o, hadisələrə daha real baxır. Bütün Avropa slavyanlarla və kommunistlərlə dolmuşdur. Əgər Almaniya darmadağın edilsə bütün məğlub ölkələr slavyanlaşacaq və bolşevikləşəcəkdir. U.Çörçill türk siyasi dairələrini sakitləşdirmək üçün bildirdi ki, əgər Rusiya heç bir səbəb olmadan Türkiyəyə hücum edərsə, bütün beynəlxalq təşkilatlar Türkiyənin müdafiəsinə qalxacaqdır. İndiki müharibədən sonra nəinki Türkiyəyə, eləcə də bütün Avropaya münasibətdə təminatlar daha qətiyyətli olmalıdır. O əlavə etdi ki, əgər Rusiya Almaniyanı yamsılasa, mən onun dostu olmayacağam. Əgər o, belə addım atsa, biz ona qarşı birləşərik və mən tərəddüd etmədən bunu Stalinə deyərəm (59). Lakin Britaniya Baş nazirinin bütün cidd-cəhdlərinə baxmayaraq Türkiyənin savaşa girməsini razılaşdırmaq mümkün olmadı. Bunun başlıca səbəbi türk siyasi dairələrinin Sovetlərə inanmaması, Almaniyanın məğlubiyyəti ilə SSRİ-nin Avropaya hakim olacağı, türk ordusunun zəruri silah və sursatla təmin olunmaması və s. ilə bağlı idi (60). Adana görüşü Türkiyənin müharibədən kənarda qalmaq siyasətini dəyişdirə bilmədi. Qeyd etmək lazımdır ki, Türkiyə Almaniya ilə yanaşı müttəfiqlərə, o cümlədən İngiltərəyə də axıra qədər inanmırdı. Lakin bununla belə Adana görüşü səmərəsiz olmadı. 1943-cü ilin 31 yanvarında gecədən xeyli keçmiş İngiltərə ilə Türkiyə arasında yüksək rütbəli hərbçilərin müzakirələrindən sonra qərara alındı ki, Türkiyə ordusunun təchizatını yaxşılaşdırmaq üçün siyasi danışıqlardan asılı olmayaraq müttəfiqlər tərəfindən silah və hərbi sursat göndərilsin. İkinci razılaşmaya görə, əgər Türkiyə müharibəyə girərdisə, İngiltərə İstanbul və İzmir də daxil olmaqla bəzi bölgələrin hava hücumundan müdafiəsində iştirak etməli idi. Türkiyə savaşa qatılacağı təqdirdə İngiltərə ayrıca olaraq bəzi hərbi birliklərin göndərməsini də öz üzərinə götürtürdü (61).

Adana görüşü barədə fevral ayının 1-də Stalinə məktub göndərən U.Çörçill yazırdı: "Mən müharibəyə daxil olmaq barədə hər hansı dəqiq öhdəlik və ya vəd istəmədim, lakin mənə belə gəlir ki, onlar bunu bu ilin sonuna qədər edəcəklər. Ola bilsin ki, ona qədər bitərəfliyin geniş yozumu ilə, müharibəyə girincəyə qədər ABŞ-ın etdiyi kimi bizə icazə versinlər ki, onların aerodramlarından Ploeşti neft mənbələrinə uçuşlar keçirən ingilis-amerikan bombardmançı təyyarələrinin yanacaq götürməsi məqsədilə istifadə edək". Lakin hadisələrin gedişi göstərdi ki, türklər bununla razılaşmadılar. İ.İnönü ilə fikir mübadiləsindən sonra U.Çörçill Türkiyənin bitərəflik siyasəti ilə razılaşmalı oldu. O, fevral ayının 2-də bəyan etdi ki, Türkiyənin bitərəfliyi onun özünün və müttəfiqlərin

mənafeyinə cavab verir və İngiltərə Türkiyənin bitərəfliyinin səbəblərini başa düşür. Çörçill Stalinə yazırdı ki, Türkiyə İngiltərə və Rusiyaya yaxındır və mümkündür ki, 1943-cü ilin sonunda, ola bilsin ki, daha tez müharibəyə daxil olsun. Eyni zamanda Çörçill bildirirdi ki, türklər SSRİ tərəfindən hər hansı dostluq hərəkətinə eyni qaydada cavab verəcəklər. Lakin bu təklifə Stalinin cavabı çox sərt oldu. O yazırdı: Mən hesab edirəm ki, Türkiyəyə münasibətdə bizim tərəfimizdən istər sovet-alman müharibəsinin başlanmasına bir neçə ay qalmış, istərsə də bu müharibə başlanandan sonra dostluq xarakteri Britaniya hökumətinə məlum olan bir sıra bəyanatların verilməsini xatırlatmaq yerinə düşərdi.Türklər görünür almanların qəzəblənməsindən ehtiyat edərək bu addımlara reaksiya verməyiblər. Bir tərəfdən, Türkiyə SSRİ ilə dostluq və bitərəflik haqqında müqavilə ilə və Böyük Britaniya ilə təcavüzə müqavimət göstərmək üçün qarşılıqlı yardım haqqında müqavilə ilə bağlıdır . Digər tərəfdən o, Almaniya ilə dostluq haqqında müqavilə ilə bağlıdır. Mənə məlum deyil ki, Türkiyə SSRİ və Britaniya qarşısındakı öhdəliklərini Almaniya qarşısındakı öhdəlikləri ilə birlikdə yerinə yetirməyi necə düşünür. Bununla belə, əgər türklər SSRİ ilə öz münasibətlərini daha dostcasına və sıx etmək istəyirlərsə, qoy bunu elan etsinlər. Sovet İttifaqı bu halda türklərin qarşısına çıxmağa hazırdır (62).

Bu yazışmaların nəticəsi kimi Türkiyə siyasi dairələri Sovetlərlə münasibətləri yaxşılaşdırmaq istiqamətində bir sıra addımlar atdılar. Bundan əlavə, 1943-cü ilin yazından başlayaraq, Türkiyə hökuməti Balkanlarda diplomatik fəallığını bir qədər artırdı. 1943-cü ilin 9 martında Ankarada yeni hökumət təşkil edildikdən sonra bu fəallıq daha artıq hiss edilirdi.

Sovetlər mart ayının 9-da Ş.Saracoğlunun təşkil etdiyi yeni hökumət kabineti, xüsusən Kabinetə daxil edilmiş yeni nazirlərlə ciddi şəkildə maraqlanırdı. Ankaradakı Sovet səfirliyinin birinci katibi A.Jeqalovanın Moskvaya göndərdiyi gizli arayışda göstərilirdi ki, hökumətdə dəyişiklik ancaq ikinci dərəcəli dörd nazirliyi əhatə etmişdir. Yeni təyin olunmuş ədliyyə, iqtisadiyyat, ticarət, gömrük nazirləri Xalq Cümhuriyyətçi Partiyada iş təcrübəsi qazanmış gənclərdən ibarətdir. Türk ictimaiyyətinin fikrincə yeni təyin edilmiş gömrük naziri Suat Hayri Ürqüplü, ticarət naziri Celal Sait Siren, iqtisadiyyat naziri Ali Fuat Simnen, ədliyyə naziri Ali Riza Türel son illərdə partiya aparatında işlədikləri zaman geniş populyarlıq qazandırlarından hətta, onları "partiyanın sevimliləri" adlandırırdılar. Sovet səfirliyinin əməkdaşı əlavə edirdi ki, onların siyasi görüşləri hələlik bizə aydın deyil, lakin qeyd etmək olar ki, yeni nazirlər İsmət İnönü v Ş.Saracoglunun iradəsinin kor-koranə icraçıları olacaqlar. Prezident və baş nazirin fikrincə, gənc partiya kadrları içərisindən rəhbər iş üçün seçilmiş yeni nazirlər bacarıqlı adamlar idi. Səfirliyin birinci katibi A.Jeqalova

Moskvaya bildirirdi ki, ingilislər və amerikalılar kabinetin tərkibində baş verən dəyişikliklərdən razı qalıblar.O, ictimai işlər naziri Ali Fuat Cebesoyun yollar naziri vəzifəsinə keçirilməsinə xüsusi əhəmiyyət verirdi. Bu dəyişikliyi Jeqalova Cebesoyun ictimai işlər naziri vəzifəsində özünü yaxşı göstərməsi, ingilis-amerikan hərbi yüklərinin daşınmasına hazırlıqla bağlı Türkiyə nəqliyyatının işinin yaxşılaşdırılmasının hökumətin əsas vəzifələrindən birinə çevrilməsi ilə izah edirdi. Eyni zamanda o, əlavə edirdi ki, bu, yaxın zamanlarda əsgəri-hərbi daşımaların mümkünlüyü ilə də bağlı ola bilər (63). Hökumət kabinetində baş verən dəyişikliklərlə bağlı Sovet səfiri S.Vinoqradov 22 aprel 1943-cü ildə SSRİ Xarici İşlər Komissarlığının Orta Şərq Şöbəsinin müdiri S.Kavtaradzeyə göndərdiyi gizli məlumatda hökumətə daxil edilmiş dörd yeni nazirin hər birini ayrılıqda xarakterizə edirdi. O, yazırdı: İndi ancaq onu demək olar ki, Türk mətbuatı və ictimai xadimləri bütün bu dörd naziri praktiki işdə və partiya işində özünü yaxşı göstərmiş Türkiyədə, Atatürkün tərbiyə etdiyi yeni gəncliyin nümayəndələri kimi qiymətləndirirlər. S.Vinoqradovun məlumatına görə, gömrük naziri S.H.Ürqüplü yüksək bir ailədən çıxmış, ilk təhsilini İstanbulda almış, əvvəlcə Nişantaşda ingilis məktəbini, sonra isə Qalatasarayda litseyi bitirmiş və İstanbul Universitetinin hüquq fakültəsindən məzun olmuşdur. Ürqüplü bir müddət İstanbulda müxtəlif məhkəmələrdə çalışmış, 1939-cü ildə isə altıncı çağırış Böyük Millət Məclisinə millət vəkili seçilmişdi. Ticarət naziri Celal Sait Siren Adanada doğulmuş, mülki məmur hazırlayan məktəbi bitirmiş, Parisdə maliyyə məsələləri ilə bağlı ixtisasartırma kursu keçmiş, Ədliyyə Nazirliyində müxtəlif rəhbər vəzifələrdə işləmişdi. İzmitdə və Boluda Xalq Cümhuriyyətçi partiyasının müfəttişi kimi çalışmış, altıncı çağırış Böyük Millət Məclisinə deputat seçilmişdi. İqtisadiyyat naziri Ali Fuat Sirmenə gəldikdə isə, S.Vinoqradovun məlumatına görə, o, İstanbulda doğulmuş, Ali poçt-rabitə məktəbini, İstanbul və Roma Universitetlərinin hüquq fakültələrini bitirmişdi. Fuat Sirmen Roma Universitetində hüquq doktoru rütbəsini almışdı. Maliyyə nazırliyində müxtəlif vəzifələrdə çalışdıqdan və Ankara prokurorluğuna dörd il rəhbərlik etdikdən sonra beşinci və altıncı çağırışlarda Məclisdə millət vəkili olmuşdu.

Ədliyyə naziri Ali Riza Türel Salonikdə doğulmuş, Fuat Sirmenlə birlikdə İstanbulda Ali poçt-rabitə məktəbini və İstanbul Universitetinin hüquq fakültəsini bitirmişdi. Eyni zamanda Türel dörd il Parisdə hüquq təhsilini davam etdirmiş, 1928-ci ildə Türkiyəyə döndükdən sonra hüquq mühafizə orqanlarında müxtəlif vəzifələrdə çalışmış, 1935-ci ildə beşinci çağırış, 1939-cu ildə altıncı çağırış Böyük Millət Məclisinə deputat seçilmişdi.Türel Xalq Respublikaçı Partiyanın Baş katibliyinin üzvü idi (64).

43-cü ilin martında Kabinetdə dəyişikliklərdən sonra türk hökuməti Sovetlərlə münasibətləri yaxşılaşdırmaq istiqamətində bir sıra addımlar

atdı. Moskvadakı türk səfiri Mehmet Açıkalın Çörçillin Türkiyə rəhbərləri ilə SSRİ və Türkiyə arasında münasibətlərin yaxşılaşdırılmasının zəruriliyini özündə ehtiva edən məktub mübadiləsi haqda Molotova məlumat verdi (65). Lakin bundan sonrakı dövrdə müttəfiqlər arasında bir sıra müzakirələr keçirilməsinə baxmayaraq, Sovetlərin Türkiyəyə münasibəti sərt addımlarla müşayiət olunmağa başladı. 1943-cü ilin yayında hakim Xalq Respublikaçı Partiyanın VI qurultayı haqqında toplanan materiallar və qurultayın nəticələrinin Sovet orqanları tərəfindən dəyərləndirilməsi bunu açıq ifadə edirdi.

Türkiyə hökumətinin kadr bazasını təşkil etdiyindən Xalq Cümhuriyyətçi Partiyanın fəaliyyəti bütövlükdə Sovet səfirliyinin və xüsusi xidmət orqanlarının diqqət mərkəzində idi. Partiyanın 1943-cü ilin iyun ayının 8-dən 15-nə qədər keçirilən VI qurultayı haqqında Ankaradakı Sovet səfirliyi 18 səhifəlik arayış hazırlayıb SSRİ Xarici İşlər Komissarlığına göndərmişdi. Sovet səfirliyinin hazırladığı arayışda qeyd olunurdu ki, Xalq Respublikaçı Partiyanın son qurultaylarında partiyanın rəhbər orqanlarının işinə tənqidi münasibət bəslənilmir, qurultaylarda ancaq rəsmi şəxslər çıxış edir, nizamnamə və proqram komissiyalarını çıxmaq şərti ilə partiyanın heç bir rəhbər orqanı qurultaya hesabat vermir, qurultay partiyanın bütün orqanları üçün məcburi olan qərarlar qəbul etmirdi. Bununla bərabər arayışda göstərilirdi ki, yüksək rəhbərlik partiya qurultayının tribunasından hökumətin daxili və xarici siyasətini, habelə millətin qarşıdakı vəzifələrini müəyyən etmək üçün bacarıqla istifadə edir. Ən nəhayət, arayışın giriş hissəsində qeyd edilirdi ki, partiya qurultaylarından demaqogiya məqsədləri üçün geniş istifadə edilir, bir qayda olaraq demokratiya milli birlik haqqında, iqtisadiyyatın inkişafı, millətin maddi vəziyyətinin yaxşılaşdırılması sahəsində partiya və hökumətin uğurları haqqında hay-küy qaldırılır (66).

Sovet səfirliyinin məlumatına görə, Xalq Respublikaçı Partiyanın VI qurultayında 800 nümayəndə iştirak edirdi. Bundan 278 nəfəri vilayətlərdən gəlmiş, qalanı isə nizamnaməyə görə qurultayda həlledici səs hüququna malik partiya rəhbərləri və Millət Məclisinin deputatlarından ibarət idi. Prezident İ.İnönünün qurultaydakı çıxışı arayışda geniş təhlil edilirdi. İ.İnönü müharibədən kənarda qalmaq istiqamətində hökumətin fəaliyyətini yüksək qiymətləndirirdi.

XRP-nin VI qurultayında beynəlxalq münasibətlərlə bağlı partiya proqramına edilən dəyişikliklər və əlavələr Sovetlərin narahatlığına səbəb olmuşdu. Orada göstərilirdi ki, beynəlxalq münasibətlərdə partiya digər xalqların maraqlarına ziyan vurmayan, bütün bəşəriyyətin rifahına istiqamətlənmiş türk millətçiliyindən mühüm amil kimi istifadə etməlidir. Sovet səfirliyinin arayışında göstərilirdi ki, partiya proqramında Türk milləti və millətçiliyinin belə şərhi bizim şübhələrimizi təsdiqləyir ki,

Türkiyə gələcək sülh konfransında beynəlxalq ədalətin və beynəlxalq hüququn "tərəfdarı", kiçik ölkələrin "müdafiəçisi" rolunda çıxış emtəyə Avropa işlərində böyük dövlət mövqeyi tutmağa hazırlaşır (67). Sovet səfirliyinin narahatçılığı onunla bağlı idi ki, bu ideya hələ qurultaydan qabaq bir neçə dəfə türk mətbuatında deyilmiş və xarici işlər naziri N.Menemençioğlunun Beynəlxalq Hüquq İnstitutunun açılışındakı çıxışında irəli sürülmüşdü.

Proqrama yeni əlavə edilən "Müharibə zamanı rəhbərlik" və "Müharibədən sonrakı dövrün niyyətləri" fəsilləri də Sovetlərin diqqətini cəkmişdi. Orada göstərilirdi ki, Türkiyə bitərəflik siyasətini axıra qədər davam etdirmək niyyətindədir və ölkə üçün "Yurdda sülh, cahanda sülh" siyasətinin prinsipləri dəyişilməz olaraq qalır. Eyni zamanda əlavə edilirdi ki, Türkiyə onun şərəf və milli maraqlarına toxunulmayana qədər sülhü qoruyacaqdır. Bununla yanaşı ona da diqqət yetirilirdi ki, partiya onun arzusundan asılı olmayaraq millətin muharibəyə girmək imkanını da nəzərdən qaçırmayacaqdır. Ona görə də milli müdafiənin möhkəmləndirilməsi müharibə olacağı təqdirdə millətin bütün maddi və mənəvi gücünün hazır vəziyyətdə saxlanması zəruri hesab edilirdi (68).

Qurultayda səslənmiş belə fikirləri Sovetlər, sülh konfransında öz maraqlarını uğurla müdafiə etmək üçün Türkiyənin real gücə arxalanmaq niyyətləri ilə izah edirdilər. Onların fikrincə, Ankaranın inadla bitərəflik siyasəti yürütməklə yanaşı, geniş hərbi proqram həyata keçirməsi və müdafiə işlərinə böyük vəsait qoyması bununla bağlı idi. Ankaradakı Sovet səfirliyinin attaşesi B.Savinov yazırdı: "Onlar (türklər - C.H.) arxalarında çox böyük, zəhmli silahlı qüvvələrə güvənməklə sülh konfransına gəlmək istəyirlər" (69).

XRP proqramına müharibədən sonrakı dövrlə bağlı yeni istiqamətlərin əlavə edilməsi Sovet orqanlarını daha da şübhələndirmiş və hələ uzaq üfüqdə görünən sülh konfransında Türkiyənin güclənəcəyindən ehtiyatlanmaq fikrini doğurmuşdu.

XRP -nin VI qurultayında bitərəflik siyasətinin davam etdirilməsinin zəruriliyi qeyd edilsə də, iyun ayının 15-də qurultayın sonuncu günü Baş nazir Ş.Saracoğlunun müharibədən kənarda qalmaq siyasətinin davam etdiriləcəyi bir daha vurğulansa da, müttəfiqlər tərəfindən Türkiyəyə qarşı təzyiqlər artmaqda idi. Ankaradakı Britaniya böyük elçisi 1943-cü ilin yayında açıq şəkildə bəyan etmişdi ki, Türkiyə yaxın zamanda müharibəyə girməklə müharibədən sonra tənha qalmaq arasında seçim etməlidir (70).

Türkiyənin müharibəyə qatılması istiqamətində eyni təhdidlər Sovetlər tərəfindən də hiss edilməkdə idi. 1943-cü ilin iyul ayının 16-da SSRİ-nin Ankaradakı səfiri S.Vinoqradov xarici işlər komissarı V.Molotova yazdığı məktubda Türkiyəyə qarşı təzyiqləri artırmağı təklif edirdi. O

yazırdı: "Beynəlxalq vəziyyətin dəyişməsi ilə bağlı bitərəf Türkiyə arzuolunmaz amilə çevrilmişdir. Belə ki, Türkiyə müttəfiqlərin hərbi əməliyyatları Balkanlara keçirməsi yolunda maneəyə çevrilmişdir". S.Vinoqradov təklif edirdi ki, türk ərazisindən müharibə meydanı kimi istifadə etmək üçün müttəfiqlər eyni zamanda Türkiyəyə birgə təzyiq etməlidirlər Əgər Türkiyə imtina etsə, bu imtina bizim üçün "faydasız" olmayacaqdır Belə ki, bu imtina, zamanı gələndə Türkiyəyə elan edəcəyimiz iddiaların sayını artıra bilər (71).

Sovet İttifaqı 1943-cü ilin yayında müttəfiqlərin Balkanlarda ikinci cəbhə açmaq ideyasının əleyhinə olsa da, Türkiyənin müharibəyə girməsində ciddi şəkildə maraqlı idi. Sovetlər belə hesab edirdi ki, Türkiyənin müharibəyə girməsi müttəfiqlərin Balkanlara daxil olmaq ideyasına son verə bilər. 1943-cü ilin yayında Sovet mətbuatında Türkiyənin neytral mövqeyinin sərt formada tənqid edilməsi ilk növbədə bununla bağlı idi. İyun ayının 28-də Moskvadakı türk səfiri Mehmet Cavat Açıkalını qəbul edən V.Molotov sərt şəkildə bildirdi ki, 18 iyun 1941-ci il Türk-Alman müqaviləsi göründüyü kimi, həm Türkiyə üçün, həm də Almaniya üçün faydalıdır. Səfirə isə məlumdur ki, Almaniya SSRİ-nin ən qəddar düşmənidir. V.Molotov Türkiyəni qınayaraq xatırladırdı ki, 18 iyun Türk-Alman müqaviləsi imzalanan zaman bütün Avropa siyasi xadimləri bilirdi ki, SSRİ-yə qarşı hücum hazırlanır və türklərin çoxu da bunu başa düşürdü. Eyni zamanda səfir Açıkalın da öz növbəsində V.Molotovun kinayəli atmacalarını cavabsız qoymadı. O dedi ki, türklər Almaniya ilə müqaviləni ingilislərin icazəsi ilə bağlayıblar. Həmin vaxt beynəlxalq vəziyyət Türkiyə üçün çox mürəkkəb idi, belə ki, Fransa yıxılmış, ingilislər Yaxın Şərqdə və Balkanlarda məğlubiyyətə uğramış, SSRİ ilə Almaniya arasında isə fikir ayrılığının hər hansı görüntüləri mövcud deyildi. Səfir soruşdu: "Əgər Boğazlar, sonra isə Türkiyə və İran Almaniyanın əlinə keçsəydi, onda indi cəbhə xətti haradan keçmiş olardı?" V.Molotov hədələyici atmacalarını Açıkalınla avqust ayının 4-dəki görüşlərində də davam etdirdi. O qeyd etdi ki, beynəlxalq şəraitin dəyişməsinə, o cümlədən İtaliya faşizminin iflasa uğramasına baxmayaraq Türkiyə özünün əvvəlki mövqeyində dayanmaqdadır. "Nə etmək olar, yaşayarıq, görərik, bu, heç olmasa Türkiyənin özünün xeyrinə olacaqmı?" (72).

1943-cü ilin avqustunda müttəfiqlər Siciliyaya desant çıxartdıqdan sonra Kvebekdə keçirilən konfransda Türkiyə məsələsi yenidən gündəliyə gəldi. Prezident Ruzveltlə Baş nazir Çörçill arasında keçirilən görüşdə qərara alındı ki, Türkiyəni israrla davam etdirdiyi müharibədən kənar qalmaq siyasətini dəyişməyə təzyiq göstərmək lazım deyil. Nəzərə almaq lazımdır ki, müttəfiqlər də öz növbəsində Türkiyəyə vəd edilən silah sursatı ona çatdırmaq imkanında deyildir (73). Lakin Kvebek danışıqlarında qərara alındı ki, Balkanlarda açılması nəzərdə tutulan ikinci cəbhə

ilə bagli Türkiyənin aerodromlarından istifadə etmək niyyəti türk hökumətinə çatdırdsın. 1943-cü ilin yayından etibarən bu istiqamətdə Türkiyəyə təzyiqlərin artdığı bir dövrdə Sovet İttifaqı müttəfiqlərin bu qənaətini bölüşmür və daha çox Türkiyənin savaşa qatılması məsələsində israr edirdi. Sovetlərin fikrincə, Türkiyənin savaşdan kənarda qalması müttəfiqlərin deyil, daha çox Almaniyanın xeyrinə idi (74). Məhz bunu əsas tutaraq V.Molotov Türkiyənin müharibəyə girməsi məsələsini 1943-cü ilin oktyabrında SSRİ, ABŞ və İngiltərə xarici işlər nazirlərinin Moskva konfransının gündəliyinə təklif etdi. V.Molotov izah etməyə çalışırdı, ki, Sovet ordusunun Avropada irəliləməsini asanlaşdırmaq üçün Türkiyəni müharibəyə girməyə məcbur etmək lazımdır. Molotova görə, Türkiyənin müharibəyə girməsi bir tövsiyə formasında deyil, bir "əmr" formasında olmalıdır. Onun fikrincə, Türkiyənin müharibəyə girəcəyi təqdirdə Almaniya 15 diviziyasını Sovet cəbhəsindən çəkmək zorunda qalacaqdır (75). ABŞ və İngiltərə xarici işlər nazirləri Molotovun bu təklifinin əleyhinə çıxsalar da, son anda güzəştli qərar qəbul edildi. Qərara görə ilk növbədə Türkiyənin aerodromlarından istifadəyə razılıq alınmalı, ilin sonuna doğru Türkiyənin müharibəyə girməsi istiqamətində addımlar atılmalı idi. Moskva konfransının yekun sənədi kimi xüsusi gizli protokolda nəzərdə tutulurdu ki, üç dövlətin adından "Türkiyənin təcili olaraq müharibəyə daxil olması" Türk hökumətinə təklif edilsin. V.Molotovla A.İden arasında Türkiyə haqqında imzalanmış protokolda belə bir fikir ifadə olunurdu ki, Türkiyə 1943-cü ilin sonuna qədər müharibəyə qatılmalıdır. Eyni zamanda Türkiyədən xahiş edilməli idi ki, öz aviabazalarından istifadəyə şərait yaratmaq yolu ilə Birləşmiş Millətlərə bütün mümkün köməkliyi göstərsin. Moskva konfransından bir neçə gün sonra Moskvadakı ABŞ səfiri A.Harriman Molotova məktub yazaraq Birləşmiş Ştatların Türkiyə barəsində Britaniya-SSRİ protokoluna qoşulduğunu bildirdi (76).

Müttəfiqlərin bu qərarını Türkiyəyə çatdırmaq üçün A.İden noyabr ayının ilk günlərində xarici işlər naziri N.Menemençioğlunu Qahirəyə dəvət etdi. A.İden onu həmçinin xəbərdar etdi ki, müttəfiqlərin xahişindən imtina edibcəyi təqdirdə İngiltərə Türkiyəyə yardım göstərilməsini dayandıracaq. N.Menemençioğlu ilk növbədə bildirdi ki, Türkiyənin müharibəyə girməsi üçün müttəfiqlər tərəfindən ona yetərincə yardım göstərilməlidir. İkincisi isə o, belə hesab edirdi ki, Türkiyənin öz aviabazalarından müttəfiqlərə istifadə üçün icazə verilməsi ilə savaşa atılması arasında elə bir fərq yoxdur. Bu halda da Türkiyə Alman aviasiyasının zərbələrinə hədəf ola bilərdi. Moskva konfransının Türkiyənin müharibəyə girməsi barədə qərarı olmasına baxmayaraq, Qahirə danışıqlarında A.İden Türkiyə aviabazalarından müttəfiqlərin istifadəsinə icazə verilməsinə daha çox üstünlük verirdi (77). Bütövlükdə, 1942-ci ilin noyabrından başlayaraq hadisələrin təhlili göstərir ki, müharibəyə

girməklə bağlı Türkiyəyə Almaniya tərəfindən göstərilən təzyiqlər son bir ildə SSRİ, ABŞ və İngiltərə təzyiqləri ilə əvəz olunmuşdu.

Türkiyənin müharibəyə qatılması məsələsi üç müttəfiq ölkənin dövlət başçılarının Tehran konfransında ilk müzakirəyə çıxarılan məsələlərdən biri oldu. Konfransın 1943-cü ilin noyabr ayının 28-də başlanan birinci plenar iclasında U.Çörçill Türkiyə məsələsinə toxunaraq dedi: "Növbəti mühüm məsələ müharibəyə girməklə bağlı Türkiyəni inandırmaqdan ibarətdir. Bu imkan verərdi ki, Dardanell və Bosfordan yollar açılsın və biz təchizatları Qara dəniz vasitəsi ilə (SSRİ-yə - C.H.) göndərək. Bundan əlavə, biz Türkiyənin aerodromlarından düşmənə qarşı mübarizə üçün istifadə edə bilək" (78). Eyni zamanda Çörçill əlavə etdi ki, Türkiyə müharibəyə girdiyi təqdirdə ona silah verilməsi, hərbi hava qüvvələri və 2-3 diviziya göndərilməsi yolu ilə kömək etmək olar. Türkiyə müharibəyə girməkdən imtina etdiyi halda ona göstərilən ingilis köməyindən məhrum olur və müharibədən sonrakı sülh konfransına buraxılmırdı. Çörçill bu siyasətin Boğazlara münasibətdə ciddi nəticələr verəcəyi ilə türkləri xəbərdar edirdi. O deyirdi: "Biz onlara bildiririk ki,... Türkləri müdafiə etməyəcəyik,... onlar gərək öz işlərini Sovet İttifaqı ilə tənzim etsinlər" (79). İ.Stalin isə öz növbəsində bildirdi: "Mən şübhə edirəm ki, Türkiyə müharibəyə girsin. Bizim ona hansı təzyiqi göstərməyimizdən asılı olmayaraq Türkiyə müharibəyə girməyəcək" (80). Tehran konfransındakı müzakirələrdə ABŞ və Sovet nümayəndələri Türkiyəyə yardım göstərilməsi barədə Çörçillin fikrini müdafiə etmədilər. Onlar belə hesab edirdilər ki, Türkiyəyə yardım göstərilməsi müttəfiqlərin ikinci cəbhənin açılması ilə bağlı "Overlord" əməliyyatını yubandıra bilər. İkinci cəbhənin açılması məsələsi gündəliyə gələndə İ.Stalin öncə "Overlord" fikrində qaldı. F.Ruzvelt isə haqlı olaraq deyirdi ki, əlbəttə, mən Türkiyəni müharibəyə qoşulmağa məcbur etməyin tərəfdarıyam, lakin əgər mən Türkiyənin prezidenti olsaydım, silah və sursatın əsas hissəsini almadan müharibəyə qatılmazdım (81).

Tehran konfransındakı müzakirələrdə Türkiyə məsələsinə toxunan İ.Stalin onu həm hərbi, həm də siyasi məsələ hesab edirdi. O, qeyd edirdi ki, Türkiyə Böyük Britaniyanın müttəfiqidir, SSRİ və ABŞ-la dostluq münasibətlərindədir. Lazımdır ki, artıq Türkiyə bizimlə Almaniya arasında oynamasın (82).

Tehran konfransı zamanı Türkiyənin müharibəyə girəcəyi təqdirdə Sovet İttifaqının ona münasibətini öyrənməklə bağlı Çörçill bir sıra məsələləri dəqiqləşdirmək istədi. O dedi ki, əgər Türkiyə Almaniyaya müharibə elan etsə, Bolqarıstan ona hücum edəcək, bu halda Sovet hökuməti Bolqarıstanı özünün düşməni hesab edəcəkmi? İ,Stalin bu suala təsdiqləyici cavab verdi. Ona görə də konfransın qərarında qeyd olundu ki, Türkiyənin 1943-cü ilin sonuna kimi müharibəyə daxil olması müstəsna

dərəcədə əhəmiyyətlidir. Marşal Stalinin bəyanatını nəzərə alaraq müttəfiqlər belə qənaətə gəldilər ki, əgər Türkiyə Almaniya ilə müharibə aparарsa və əgər bunun nəticəsində Bolqarıstan Türkiyəyə müharibə elan edərsə və ya ona hücum edərsə, Sovet İttifaqı dərhal Bolqarıstanla müharibə vəziyyətində olmalıdır (83).

Türkiyə ilə bağlı məsələlər Tehran konfransında noyabr ayının 30-da nahar zamanı Molotov, İden və Hopkins arasında da geniş müzakirə edildi. İden dedi: "Türkiyəyə müharibəyə girməsi üçün birgə çağırışla təklif etmək lazımdır. Bu tələbdən imtina edəcəyi təqdirdə onu hansı aqibətin gözlədiyini Türkiyəyə izah etmək lazımdır". İden bunun müttəfiq kimi daha çox İngiltərəyə aid olan məsələ olduğunu şərh edib dedi ki, əgər marşal Stalin və Ruzvelt razılaşsaydılar İ.İnonünü Qahirəyə Çörçill və Ruzveltin görüşünə dəvət etmək olardı. O əlavə etdi ki, İnönü Konstitusiyaya istinad edib Qahirəyə gəlməyə bilər, bu halda İden müttəfiqlərin tələblərinin Türkiyəyə göndərilən nümayəndə vasitəsi ilə ona çatdırılmasını uyğun bilirdi. Molotov İdenin Nüman Menemençioğlu ilə söhbətindən sonra bu işə optimist yanaşmadığını qeyd etdi. Hopkins konfransın gedişində Rusiyanın Türkiyənin müharibəyə cəlb edilməsinə elə də böyük maraq göstərmədiyini, Stalinin bir neçə dəfə Türkiyənin müharibəyə cəlb edilməsinin qeyri-mümkünlüyünü təkrar etdiyini və bir dəfə də olsun bunun zəruriliyini dilə gətirmədiyini vurğuladı. O, qeyd etdi ki, Türkiyəni müharibəyə cəlb etmək üçün müttəfiqlər öz üzərinə bir sıra öhdəliklər götürməlidirlər. Hopkinsin fikrincə, Türkiyəni müharibəyə cəlb etmək üçün hətta "Overlord" əməliyyatını yubatmaq da olardı. V.Molotov bildirdi ki, əgər Türkiyənin müharibəyə qatılması "Overlord" əməliyyatının yubanması demək olacaqsa, onda marşal Stalin Türkiyənin müharibəyə cəlb edilməsinin əleyhinədir (84).

Tehran konfransı zamanı Boğazlar məsələsi də diqqətdən kənarda qalmadı. Britaniya Baş naziri Rusiyanın isti dənizlərə çıxmasının zəruriliyini qeyd edərək bildirdi ki, əvvəllər ingilislər buna etiraz edirdilər, indi isə heç bir etirazları yoxdur. Əlverişli məqamdan istifadə edərək İ.Stalin Boğazlar rejimi haqda məsələyə yenidən baxılmasının gərəkliliyini qeyd etdi. O dedi ki, Rusiya kimi böyük ölkə Qara dənizdə təcrid olunmuş vəziyyətdədir. Əgər indi ingilislər Rusiyanı boğmaq istəmirlərsə, zəruridir ki, onlar Boğazlar rejimini yüngülləşdirsinlər. Tərəflər belə fikrə gəldilər ki, isti dənizlərdə limanlar və Boğazlar məsələsini müzakirə etməyə hələ vaxt vardır. U.Çörçill Boğazlar rejiminə yenidən baxılmasının mümkünlüyünü həm də Yaponiyanın Montrö konvensiyasının iştirakçısı olması ilə əlaqələndirirdi. Prezident Ruzvelt isə Boğazların bütün ölkələrin hərbi ticarət gəmilərinin üzünə açıq olması prinsipinə tərəfdar idi (85). Əslində isə tərəflər bu müzakirələri Boğazlar məsələsində bir-birlərinin mövqelərini öyrənmək məqsədi ilə aparırdılar.

Tehran konfransının iştirakçıları məqsədəuyğun saydılar ki, Ruzvelt və Çörçillin Türkiyə prezidenti İ.İnönü ilə görüşü təşkil edilsin. Belə bir görüş 1943-cü ilin dekabr ayının 4-6-da Qahirədə keçirildi. Sovet İttifaqını Qahirə görüşündə Ankaradakı səfir S.Vinoqradov təmsil edirdi Qahirə danışıqlarında U.ÇörçilI müttəfiqlərin Tehran konfransının qərarlarına uyğun olaraq Türkiyənin müharibəyə qatılmasında israr edərək bildirdi ki, 15 fevral 1944-cü ildə ingilis-amerikan aviasiyası Türkiyəyə girəcəkdir. Əks təqdrdə Çörçill müttəfiqlərin Türkiyə ilə əlaqələrini kəsəcəyi ilə hədələmişdi. Qahirə danışıqları zamanı İ.İnönü prinsip etibarilə Türkiyənin müharibəyə qatılmasına razı olsa da, müttəfiq dövlətlərin başçıları ilə bir sıra məsələlərin aydınlaşdırılmasına cəhd göstərdi. İ.İnönü müttəfiqlərə izah etməyə çalışırdı ki, "müttəfiq" Qızıl Ordu Boğazlara girərsə bir daha oradan çıxmayacaqdır. Türkiyə dövlət başçıları indi Almaniyadan deyil, daha çox Rusiyanın imperialist olacağından ehtiyatlanırdılar. Türklərin bu narahatçılığına cavab olaraq Çörçill bildirdi ki, yeni yaradılması nəzərdə tutulan beynəlxalq təşkilat (BMT nəzərdə tutulur -C.H.) rusları Türkiyədən uzaqlaşdırmaq üçün zəruri ölçülər götürəcəkdir (86).

Qahirə danışıqları zamanı İ.İnönü xatırlatdı ki, Türk ordusu silah və hərbi sursatın çatışmamazlığından müharibəyə hazır deyildir. Bunun üçün Türkiyəyə geniş miqyasda yardım göstərilməlidir. İ.İnönü baş qərargah rəhbərlərinin görüşdən sonra Türkiyənin müharibəyə girməsi məsələsinə qayıdılmasının mümkünlüyünü bildirdi. Müttəfiq dövlətlərin başçıları onun bu təklifı ilə razılaşdılar. ABŞ, İngiltərə və Türkiyə dövlət başçılarının Qahirə konfransı haqqında elan olunmuş rəsmi məlumatda Türkiyə ilə Britaniyanın ittifaqına, türk xalqı ilə Amerika və Sovet xalqı arasında sıx dostluğa böyük əhəmiyyət verilirdi.

1943-cü ilin dekabrında Qahirədən qayıtdıqdan sonra müttəfiqlər ilə hərbi əməkdaşlığı genişləndirmək və Britaniya ilə yaxınlaşmanı nümayiş etdirmək üçün İ.İnönü bir sıra addımlar atdı. 1939-cu ildə Londonda ingilis-fransız-türk Baş qərargahlarının danışıqlarında Türkiyəni təmsil etmiş ordu generalı Kazım Orbay 1943-cü ilin dekabrında Türk ordusu Baş qərargah rəisinin müavini, bir neçə gündən sonra isə istefaya çıxmış marşal Fevzi Çakmakın yerinə Baş qərargah rəisi təyin edildi. Bu təyinat Sovetləri ciddi şəkildə maraqlandırırdı. Onlar Orbayın təyinatını daha çox Türkiyənin İngiltərə qarşısında öhdəliklərinin yerinə yetirilməsində yaranmış böhranlı vəziyyətlə izah edirdilər. Bəzi məlumatlara görə, bu məsələdə marşal Çakmakla Baş nazir Ş.Saracoğlu və xarici işlər nazin N.Menemençioğlu arasında ziddiyyətlər yaranmışdı. Diplomatik kanallarla alınmış məlumatlarda marşal Çakmakın və onun müavini Asım Gündüzün istefası daha çox ikincinin hərbi dünyagörüşünə görə mühafizəkarlıqda, şablon və köhnəpərəstliyə aludəçilikdə, orduya rəh-

bərlikdə yeni metodların qəbul edilməsinə qadir olmamasında və Türk ordusunun modernləşdirilməsinə yönəlmiş cəhdlərin qarşısının alınmasında günahlandırılması ilə əlaqələndirilirdi. Ankaradakı Sovet səfirliyinin birinci katibi S.MixaiIov yazırdı ki, Qahirə konfransından sonra ingilislər qarşısında çətin vəziyyətə düşmüş Türk hökuməti ingilisləri razı salmaq üçün Çakmakı kənarlaşdırıb Orbayı Baş qərargah rəisi təyin etdi. Bu addım Türk hökumətinin ingilislərə münasibətdə elə də böyük olmayan güzəşti idi (87).

Eyni zamanda Sovet səfirliyi K.Orbayın Türk ordusunun rəhbərliyinə gəlməsini ordunu özünə tabe edən Ş.Saracoğlu hökumətinin mövqelərinin möhkəmlənməsi, bununla da Türkiyənin siyasi səhnəsində antisovet elementlərin güclənməsi kimi izah edirdi. Səfirliyin məlumatında deyilirdi: "Atatürkün köhnə silahdaşı kimi marşal Çakmak özünün bütün mühafizəkarlığına baxmayaraq belə bir həqiqəti anlayırdı ki, Türkiyənin maraqları Sovet İttifaqı ilə dost olmağı tələb edir. O, antisovet hərəkətlərdə və deyimlərdə son dərəcə ehtiyatlı idi". K.Orbaya gəldikdə isə, səfirliyin məlumatına görə o, Türk siyasətinin İngiltərəyə meyllənməsinin tərəfdarı idi. Türkiyədəki ingilis diplomatları K.Orbayı qatı ingilispərəst hərbçi kimi xarakterizə edir, Britaniya mətbuatı onun təyinatını məmnunluqla qarşılayırdı. Ankaradakı Sovet səfirliyi Moskvaya göndərdiyi məlumatda göstərirdi ki, Britaniya mətbuatının fikrincə, ingilis-fransız-türk Baş qərargahlarının 1939-cu il London görüşü zamanı ingilis və fransız aviasiyası imkan əldə etdi ki, Türkiyə əraziləri vasitəsi ilə Sovet neft rayonları üzərindən kəşfiyyat üçüşləri etsin. Britaniya mətbuatı K.Orbayın digər xidmətini onda görürdü ki, onun hazırladığı "Orbay planı" əsasında Türk ordusunun ingilis silahı ilə təchizatının əsası qoyulmuşdu.

Qeyd edilən məsələlər haqqında ətraflı məlumat verildikdən sonra Ankaradakı Sovet səfirliyinin məlumatında göstərilirdi ki, bizim əlimizdə K.Orbayın birbaşa antisovet fikirləri barədə dəlillər yoxdur. Əksinə bizim dıplomatik və hərbi nümayəndələrlə söhbətlərində o, Sovet İttifaqına olan dostluq hisslərini büruzə verməyə çalışır.

Sovet diplomatik və xüsusi xidmət orqanları belə hesab edirdilər ki,İ.İnönü marşal Çakmakı istefaya göndərməyə məcbur olub. Bunu əsaslandırmaq üçün prezident İnönünün Fevzi Çakmaka istefaya çıxdığı gün göndərdiyi son dərəcə səmimi məktuba istinad edilirdi. Bu məktubda nəinki marşalın bütün fəaliyyətinə yüksək qiymət verilir,həm də prezident ümidvar olduğunu bildirirdi ki, Çakmak Türkiyənin qarşısında duran yeni vəzifələrin yerinə yetirilməsində gələcəkdə də böyük məmnuniyyətlə iştirak edəcəkdir. Sovet orqanlarının məlumatlarında qeyd olunurdu ki, prezidentin bu fikrinin nə qədər əsaslandırılmış olduğunu söyləmək çətindir, lakin tamamilə aydındır ki, öz silahdaşı ilə vidalaşmaq İsmət uçun təəsüfləndirici idi (88).

K.Orbayın Baş qərargah rəisi təyin edilməsi ilə yanaşı, ordu generalı Salih Omurtakın Baş qərargah rəisinin müavini təyin edilməsini Sovet orqanları ingilislərlə bağlayırdılar. Onlar belə hesab edirdilər ki, general Omurtak müttəfiqlərə meylli olduğu üçün ingilislər onun Türk ordusunun Baş qərargahı rəisinin müavin təyin edilməsinə bilavasitə səy göstərmişlər. Hələ 1937-ci ildə Frakiyada türk ordusunun təlimlərinə rəhbərlik etmiş Omurtakın fəaliyyətini bu təlimləri izləmiş Atatürk yüksək qiymətləndirmişdi. Belə bir söhbət var idi ki, Mustafa Kamal paşa özü qədim türk sərkərdəsinin şərəfinə ona "Omurtay" soyadını vermişdi. O isə bu soyadı "Omurtak" kimi istifadə edirdi. 1940-cı ildən general Omurtak Ali Hərbi Şuranın üzvü idi. 1942-ci ildə o, 4-cü ordunun komandanı təyin edilmiş, 1943-cü ilin yayında isə ingilislər tərəfindən Misirə və Tunisə dəvət edilən türk hərbi missiyasına başçılıq etmişdi. Türk mətbuat dairələrində general Omurtak bolqarların qatı düşməni hesab edilirdi. Şimali Afrikada türk hərbi missiyasına rəhbərlik etdiyi dövrdə Britaniyalılar onu çox yüksək qiymətləndirirdilər. General Omurtak hesab edirdi ki, əgər ona icazə verilsəydi, o bir neçə gün ərzində bolqar ordusunu darmadağın edərdi (89).

Türk ordusu rəhbərliyində dəyişikliklərdən az sonra Qahirə razılaşmalarına uyğun olaraq Türkiyəyə Britaniyanın hərbi heyətinin səfəri başlandı. 1944-cü ilin yanvar ayının ortalarında başlanan danışıqlar fevral ayının sonuna qədər davam etdi. Bu danışıqları izləyən Ankaradakı Sovet səfirliyi Moskvaya göndərdiyi məlumatda göstərirdi ki, ingilis-türk hərbi danışıqlarında general Orbay özünü N.Menemençioğlunun təlimatlarının itaətkar icraçısı kimi aparır (90). Lakin qeyd etmək lazımdır ki, Ankarada aparılan ingilis-türk hərbi danışıqları bir nəticə vermədi. Fevral ayının sonunda ingilis hərbi heyəti danışıqları dayandırdı. Onlar belə hesab edirdilər ki, türklərə istədikləri qədər silah və sursat veribsi olarsa, bu yükün daşınması müharibənin sonunadək çəkəcəkdir və bu halda Türkiyə yenə müharibədən kənarda qalacaqdır (91). Danışıqlar kəsiləndən dərhal sonra mart ayının 2-də Britaniya, aprel ayının 1-də isə ABŞ Türkiyəyə yardımlarını dayandırdılar. Sovet İttifaqı isə belə hesab edirdi ki, Türkiyə müharibəyə girməyə yubanmışdır, artıq bu məqsədlə onun üstünə düşməyə dəyməz. Əlbəttə, nəzərə almaq lazımdır ki, SSRİ Türkiyənin Balkanlarda fəallığını arzulamırdı. Britaniyanın Balkan hadisələrində iştirakı isə xeyli dərəcədə Türkiyədən asılı idi.

## IVFƏSİL
## Dünya müharibəsinin sonunda müttəfiqlərin Türkiyəyə təzyiqi və Sovet təhlükəsinin artması

Böyük Üçlüyün Tehran görüşü göstərdi ki, Sovet İttifaqı dünyanın müharibədən sonrakı taleyinə münasibətdə öz müttəfiqlərindən daha hazırlıqlıdır. Hələ 1942-ci ilin yanvar ayının 26-da ÜİK(b)P MK-nın Siyasi Bürosu xarici işlər komissarı V.Molotov başda olmaqla "Avropa, Asiya ölkələri və dünyanın digər yerlərində müharibədən sonrakı dövlət quruculuğunun layihəsi üzrə Komissiya haqqında" qərar qəbul etmişdi (1). Komissiya daxilində üç işçi qrupu yaradılmışdı. V.Q.Dekanozov və Y.Z.Surisin rəhbərlik etdiyi qrup Yaxın və Orta Şərq məsələləri ilə məşğul idi. 1943-cü ilin payızında işçi qrupları müharibədən sonrakı dünyanın qurulması barədə Sovet təkliflərini özündə əks etdirən sənədi hazırlayıb başa çatdırmışdılar. Ümumi şəkildə bu təklif Tehran konfransında açıqlanmışdı.

Eyni zamanda 1943-cü ilin avqust ayının 3-də SSRİ xarici işlər komissarının müavini M.Litvinov müharibədən sonra sülh konfranslarının hazırlanması haqqında komissiyanın tərkibi və strukturu haqqında fikir və mülahizələrini V.Molotova göndərdi. Komissiyanın 7 nəfərdən ibarət olması nəzərdə tutulurdu. Ayrı-ayrı problemlər üzrə xüsusi tapşırıqları yerinə yetirmək üçün komissiyaya məsləhətçilər daxil edilməsi təklif edilirdi. Türkiyə üzrə belə məsləhətçi tarix elmləri doktoru A.F.Miller nəzərdə tutulmuşdu (2). Sentyabr ayının 9-da isə M.Litvinov İ.Stalin və V.Molotova göndərdiyi məlumatda Komissiyanın məşğul olacağı məsələlərin siyahısını və öyrəniləcək məsələlərin əhatə dairəsmi müəyyənləşdirmişdi. Burada XIX bölmədə Dodekanez adaları istisna olmaqla İtaliyanın əvvəlki sərhədlərinin saxlanması, bu ada ilə bağlı Yunanıstanla Türkiyənin yenidən iddialarının olacağı göstərilirdi. Şərqi Avropa və Balkanlarda istisnasız olaraq yeni hökumətlərin yaradılması nəzərdə tutulur, Türkiyə ilə bağlı məsələlər neytral ölkələr bölməsinə aid edilirdi.Eyni zamanda komissiyanın öyrənəcəyi və təkliflər hazırlayacağı məsələlərın siyahısına Bosfor və Dardanell boğazları da daxil edilmişdi (3).

1944-cü ilin yanvarında isə xarici işlər komissarının müavini İ.M.Mayski müharibədən sonrakı dünyada sərhədlərlə bağlı məsələləri və SSRİ-nin maraqlarını özündə əks etdirən "Gələcək sülhün arzu olunan əsasları haqqında" qeydləri V.Molotova təqdim etdi. Bu sənədə görə Türkiyəyə yaxın olan Rumıniya ərazisində SSRİ-yə hərbi baza və İran ərazisi vasitəsi ilə Fars körfəzinə doğru "azad və münasib" ticarət yolundan istifadəyə təminat verilməsi nəzərdə tutulurdu. Sənəddə bütün

Balkan ölkələri ilə qarşılıqlı yardım haqqında, Yunanıstanla İran nümunəsində İngiltərə, SSRİ və Yunanıstan arasında qarşılıqlı yardım haqqında üçtərəfli paktın bağlanması, Türkiyəyə gəldiksə isə onun güclənməsinə mane olmaq təklif olunurdu. Sovet-bolqar və sovet-rumın paktları vasitəsi ilə Türkiyənin Balkan işlərindən uzaqlaşdırılması məqsədəuyğun sayılırdı. Bu boşluğu isə təbii ki, SSRİ doldurmalı idi. Bir sıra iqtisadi, mədəni və siyasi tədbirlərin köməyi ilə Sovetlərin İrana nüfuz etməsinin gücləndirilməsi təklif edilirdi. Yaxın Şərqdə Sovet təsirinin möhkəmləndirilməsi SSRİ-nin siyasətinin əsas istiqamətlərindən biri kimi şərh edilirdi (4).

1944-cü ilin yazında Türkiyəyə qarşı sərtləşmiş siyasət SSRİ Xarici İşlər Komissarlığında Sovet-Türkiyə münasibətlərinin daha çox mübahisəli məqamlarını əks etdirən bir sıra sənədlərin hazırlanmasında özünü büruzə verirdi. Bunlardan birincisi, Xarici İşlər Komissarlığının əməkdaşı A.Fedosov tərəfindən 1944-cü ilin yanvar ayının 25-də hazırlanmış "1 yanvar 1944-cü ilə qədər SSRİ ilə Türkiyə arasında qüvvədə və fəaliyyətdə olan siyasi müqavilə və sazişlər haqqında arayış"dan ibarət idi. RSFSR ilə Türkiyə arasında 16 mart 1921-ci il Moskva müqaviləsinin arayışda geniş təhlil edilməsi təsadüfi deyildi. Çünki az sonra Moskva müqaviləsinin maddələri, xüsusilə onun Türkiyənin Şimal-Şərq sərhədlərini müəyyənləşdirən birinci əlavəsi Sovetlər tərəfindən ciddi şəkildə təftiş edibcəkdi. Cənubi Qafqaz respublikaları ilə Türkiyə arasında imzalanmış 13 oktyabr 1921-ci il Qars müqaviləsinə də arayışda diqqət yetirilirdi. Hər iki müqaviləyə münasibətdə qüvvədə olma tarixi və fəaliyyət müddətinin göstərilməməsi xüsusi şəkildə qeyd edilirdi. Moskva və Qars müqavilələri ilə müqayisədə 21 yanvar 1922-ci ildə Türkiyə ilə Ukrayna arasında imzalanmış Ankara müqaviləsinin və xüsusilə müqavilənin beşinci maddəsinin (Qara dənizə tökülən çaylarla bağlı olan maddə-C.H.) daha da irəli getdiyi göstərilirdi.

Arayışda xüsusi diqqət yetirilən müqavilələrdən biri də Türkiyə üə SSRİ arasında 17 dekabr 1925-ci ildə Parisdə imzalanmış müqavilə idi. Sənəddə müqavilənin ikinci maddəsinin və ona əlavə olaraq imzalanmış protokolların yenidən müzakirəyə çıxarılması dünya müharibəsinin gedişində baş verən dəyişikliklər və bu dəyişikliklərə Sovetlərin yanaşma metodları əks olunmuşdu. Qeyd edilən müqavilələrdən başqa SSRİ Xarici İşlər Komissarlığının arxivində olan sənədlər əsasında tərəflər arasında imzalanmış 17 dekabr 1929-cu il, 7 mart 1931-ci il, 30 oktyabr 1931-ci il, 7 noyabr 1935-ci il protokolları, habelə Moskvadakı Türkiyə səfiri ilə Xarici İşlər Komissarlığı arasında "Centlmen sazişi" haqqında aparılmış danışıqlara yenidən müraciət edilmişdi (5).

SSRİ Xarici İşlər Komissarlığı tərəfindən aprel ayının 3-də gizli şəkildə hazırlanmş digər bir sənəd 1 aprel 1944-cü ilə qədər Türkiyə ilə

SSRİ arasında qüvvədə olan iqtisadi-ticarət, sərhəd, nəqliyyat və digər müqavilə və sazişlər haqında arayışdan ibarət idi. Əslində bu müqavilə və sazişlərin öyrənilməsinə 1944-cü ildə yeni qayıdış Sovet-Türkiyə münasibətlərinin təftiş edilməsi arzusundan irəli gəlirdi. Arayışın iqtisadi-ticarət bölməsində 1934-cü il kredit protokolu, 1937-ci il ticarət və gəmiçilik haqqında müqavilə, sərhəd sazişləri bölməsində SSRİ Türkiyə birgə sərhəd komissiyasının dövlət sərhədləri və sərhəd nişanlarının qurulması haqqında 1926-cı il protokolu, sərhəd çaylarının suyundan istifadə haqda 1927-ci il Konvensiyası, SSRİ ilə Türkiyə arasında sərhəd münaqişələrinin tənzimlənməsi haqqında 1937-ci il Konvensiyası, nəqqliyyat və rabitə bölməsində 1922-ci il poçt-teleqraf və dəmiryol Konvensiyaları, bir ölkənin hərbi gəmilərinin digər ölkənin limanlarına səfəri barədə SSRİ Müvəqqəti işlər vəkili ilə Türkiyə Xarici İşlər Nazirliyi arasında 1930-cu il notalar mübadiləsi, hüquqi sazişlər bölməsində Türkiyədə Sovet vətəndaşlarının əmlakının sekvestrinin yolverilməzliyi haqqında 1928-ci il sazişi, vərəsəliyin leqallaşdırılması haqqında 1936-cı il Türkiyə səfirliyi ilə SSRİ Xarici İşlər Komissarlığı arasında notalar mübadiləsi əks olunurdu (6).

Qeyd edilən istiqamətdə aprel ayının 22-də hazırlanan "15 aprel 1944-cü il üçün SSRİ ilə Türkiyə arasında həll edilməmiş məsələlər üzrə arayış" adlı ikinci sənəd daha maraqlı idi. SSRİ Xarici İşlər Komissarlığının Yaxın Şərq şöbəsinin müdiri vəzifəsini icra edən A.Fedosovun hazırladığı 21 səhifəlik geniş arayışda diqqəti çəkən ən mühüm məsələ hər həll edilməmiş məsələnin təsvirindən sonra Yaxın Şərq şöbəsinin həmin məsələ ilə bağlı təklifləri idi. Hər bir təklifdə baş verən hadisədən Türkiyəyə qarşı təzyiq vasitəsi kimi istifadə olunması irəli sürülürdü (7). Bütövlükdə bu təkliflər az sonra Sovetlərin Türkiyəyə qarşı irəli sürəcəyi iddialarının rəsmi başlanğıcı kimi səslənirdi.

Krım yarımadası Alman qoşunlarından azad edildikdən sonra, 1944-cü ilin mayında heç bir zərurət olmadan Krım türklərinin öz tarixi torpaqlarından sürgün edilməsi Türkiyə ilə münasibətlərin pisləşmə fonunda baş verir və Sovetlərin Qara dəniz boyunca sərhədlərini türk əhalisindən təmizlənməsi xarakteri daşıyırdı. Krım türklərinin departasiya edilməsi haqqında əməliyyatın keçirilməsinə razılılıq 1944-cü ilin aprel ayının 2-də verildi. Bu məsələ ilə bağlı 10 may 1944-cü ildə Xalq Daxili İşlər Komissarı L.Beriya Dövlət Müdafiə Komitəsinin sədri İ.Stalinin adına üç səhifəlik məruzə göndərmişdi. Orada deyilirdi: "Daxili İşlər və Dövlət təhlükəsizliyi Komissarlıqları düşmən agenturasını, vətən xainlərini, alman-faşist işğalçıları ilə əlbir olanları və digər antisovet ünsürləri aydınlaşdırmaq və aradan götürmək üçün Krımda əməliyyat tədbirləri həyata keçirib. May ayının 7-nə olan vəziyyətə görə 5381 nəfər belə şəxs həbs edilib. Əhalidə qeyri-qanuni saxlanan 5995 tüfəng, 337 pulemyot,

250 avtomat, 31 minomyot, böyük həcmdə qranat və patrondan ibarət silahlar yığılıb.

Qızıl Ordu sıralarından 1944-cü ilə qədər 20 mindər artıq tatar vətənini sataraq və almanların xidmətinə keçərək fərarilik etmişdir. Daha sonra L.Beriya yazırdı ki, alman faşist işğalçıları Almaniyadan VM Türkiyədən gəlmiş ağqvardiyaçı-müsəlman mühacirlərin köməyi ilə filialları demək olar ki, Krımın tatarlar yaşayan bütün rayonlarında mövcud olan "Tatar Milli Komitəsi" adlanan təşkilatın kəşfiyyat şəbəkəsini yaradıblar. "Tatar Milli Komitəsi" alman polisi ilə birlikdə 50 min Sovet vətəndaşının Almaniyaya zorla aparılmasında, Alman ordusu üçün əhali içərisində vəsait toplanınasında, yerli qeyri-tatar əhalisinə qarşı, onların hər cür sıxışdırılması istiqamətində geniş miqyaslı xəyanətkarlıq işlərində fəal iştirak etmişdir. Krım tatarlarının Sovet xalqına qarşı satqınçılıq hərəkətlərini əsas götürərək və bundan sonra Krım tatarlarının Sovet İttifaqının sərhəd rayonlarında yaşamalarının arzuolunmazlığından çıxış edərək SSRİ Xalq Daxili İşlər Komissarlığı Dövlət Müdafiə Komitəsinin bütün tatarların Krım ərazisindən sürgün edilməsi haqqında qərarını baxılmaq üçün Sizə göndərir".

L.Beriya yazırdı ki, Krım tatarlarının xüsusi sürgün olunanlar kimi həm kənd təsərrüfatında - kolxozlarda və sovxozlarda və həm də sənayedə və tikintidə istifadə etmək üçün Özbəkistan SSR-in rayonlarında yerləşdirilməsini məqsədəuyğun sayırıq. Tatarların Özbəkistan SSR-də yerləşdirilməsi məsələsi Özbəkistan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin katibi yoldaş Yusupovla razılaşdırılıb. İlkin məlumatlara görə, hal-hazırda Krımda 140-160 min tatar əhalisi yaşayır. Sürgün əməliyyatı 20-21 mayda başlayacaq və 1 iyunda başa çatdırılacaq. Bununla bağlı Dövlət Müdafiə Komitəsinin qərar layihəsini təqdim edirik. Xahiş edirəm fikrinizi bildirəsmiz (8). L.Beriyanın müraciətindən bir gün sonra may ayının 11-də Krım türklərinin sürgün edilməsi haqda İ.Stalinin imzası ilə Dövlət Müdafiə Komitəsinin qərarı qəbul edildi. Krım türklərinin sürgün edilməsi əməliyyatı müəyyən edilmiş vaxtdan əvvəl başa çatdırıldı. Artıq may ayının 20-də Daxili İşlər Komissarının müavini İ.Serov və Dövlət Təhlükəsizliyi Komissarının birinci müavini B.Kobulov Krım türklərinin sürgün edilməsi üzrə tədbirlərin başa çatdırıldığı haqqında L.Beriyaya məruzə etdilər. İyul ayının 4-də L.Beriya Krım əməliyyatının başa çatması haqqında İ.Stalinə hesabat göndərdi. Orada göstərilirdi ki, Krımdan bütövlükdə 225009 adam sürgün edilmişdir, bunun 183155 nəfəri tatar, 12422 nəfəri bolqar, 15040 nəfəri yunan, qalanları isə digər xalqların nümayəndələridir. Dövlət Müdafiə Komitəsinin 21 may 1944-cü il qərarına uyğun olaraq tatarların 151604 nəfərinin Özbəkistan SSR-in vilayətlərinə, 31551 nəfərinin isə Rusiya Federasiyasının vilayətlərinə sürgün olunduğu bildirilirdi. Ümumiyyətlə, XIX əsrin sonlarından 1944-cü ildə deportasiya

olunana qədər Krım türklərinin əhali artımı ilə bağlı maraqlı mənzərənin şahidi olmaq olar. 1922-ci ildə Simferopolda nəşr edilmiş "Krımın Statistik-iktisadi Atlası"nda 1897-ci il əhali sayımına görə Krımda 186212 nəfər,1921-ci il sayımına görə isə 186715 nəfər türkün yaşadığı bildirilir. 1944-cü ilin deportasiya materiallarında isə onların sayı 183155 nəfər göstərilir.Bu da bütövlükdə 50 il ərzində Krım türklərinin sayının azalması deməkdir(9). Türklərin Krımdan sürgün edilməsi başa çatdırıldıqdan sonra ÜİK(b)PMK-nın Siyasi Bürosu 30 iyun 1945-ci ildə Krım Muxtar Sovet Sosialist Respublikasının Rusiya Federasiyası tərkibində Krım vilayətinə çevrilməsi haqda qərar qəbul etdi. Ən maraqlısı odur ki, Siyasi Büronun iclasında Krımla bağlı qərarın mətbuatda dərc edilməməsi lazım bilinirdi (10).

Krım türklərindən az sonra 1944-cü ilin noyabrında Gürcüstan Sovet Respublikasının Türkiyə ilə sərhəd rayonlarında yaşayan mesxeti türkləri də eyni deportasiyaya məruz qaldılar. Dövlət Müdafiə Komitəsinin 30 iyul 1944-cü il qərarına uyğun olaraq həmin ilin sentyabr ayının 20-də Gürcüstan SSR-in Türkiyə ilə sərhəd rayonları olan Adigey, Axalsix, Axalkələk, Aspindz, Boqdanovski və Acariya Muxtar Respublikasından 15568 ailədən ibarət 69869 nəfər adam Orta Asiya respublikalarına sürgün edildi ki, bunlardan 13434 ailə (59780 nəfər) türklər, 1830 ailə (8627 nəfər) kürd, 304 ailə (1462 nəfər) isə xemşillər idi (11). SSRİ-də sürgün olunan xalqlar barədə məlumatlar dəqiqləşdirildikdən sonra bu rəqəmlər daha da artdı. 1946-cı ildə SSRİ Dövlət Təhlükəsizliyi Komissarlığının 3-cü idarəsmin hazırladığı məlumatda müharibə dövründə 400478 nəfər çeçen və inquşların, 60139 nəfər qaraçaylıların, 32817 nəfər balkarların, 81673 nəfər kalmıkların, 193959 nəfər Krım tatarı, bolqar və yunanların, 774178 nəfər almanların, 84402 nəfər türk, kürd, xemşillərin (Gürcüstan SSR-dən), bütövlükdə isə 2 milyon adamın öz doğma yurdlarından deportasiya olunduğu göstərilirdi(12).

1944-cü ilin əvvəllərindən başlayaraq Sovet ordusunun cəbhələrdə qələbəsi SSRİ -nin Türkiyəyə təzyiqlərinin artması ilə müşayiət olunurdu. Sovet xüsusi xidmət orqanları, kəşfiyyat idarələrinin Türkiyə haqqında topladığı materiallar indi artıq ona qarşı müxtəlif təzyiq imkanlarını əldə etmək xarakteri daşıyırdı.

1944-cü ilin yayında qərargahı Tbilisidə yerləşən Sovet ordusu Zaqafqaziya Cəbhəsi kəşfiyyat idarəsi türk ordusunun bütün ölkə ərazisində yerləşməsi barədə böyük xəritələr hazırlanmışdı. Bu tipli xəritələr adətən nıüharibə başlanması ehtimal olunan ölkələr haqqında hazırlanırdı. Türkiyə silahlı qüvvələrinin İstanbul, İzmir, Ankara, Ərzurum, Sinop, Hatay, Şərqi Anadolu, Boğazlar və Qərbi Anadolu birləşmələrinin dislokasiyasını özündə əks etdirən 8 xüsusi hissədən ibarət olan bu xəritələr may ayının 15-də Zakfrontun qərargah rəisi general-leytenant İvanov tərəfindən təsdiq edilmiş və kəşfiyyat şöbəsinin rəisi polkovnik Qorşkov

tərəfindən 6 iyun 1944-cü ildə xüsusi hərbi poçt ilə Azərbaycan Kommunist Partiyasının birinci katibi M.C.Bağırova göndərilmişdi (13). Eyni zamanda 1944-cü ildə Sovet ordusunun Baş qərargahı Türkiyə sərhədləri boyunca İran, İraq və Ermənistan ərazilərində kürd tayfa birliklərinin yerləşməsini özündə əks etdirən xüsusi xəritə hazırlanmışdı. Bu xəritənin sol küncündə 42 kürd tayfasının adı, onların başçıları və sayı göstərilirdi. Kürd tayfaları haqqında məlumatların və xəritənin Sovet ordusu Baş qərargahı tərəfindən hazırlanması və Türkiyənin Şərq vilayətlərinin kürd tayfalarının əhatəsində verilməsi Sovetlərin Türkiyəyə qarşı gizli niyyətlərindən xəbər verirdi (14).

1944-cü ilin yazında müttəfiq qoşunları Almaniyaya doğru irəlilədikcə Türkiyəyə qarşı təzyiqlər daha əməli xarakter alırdı. Aprel ayının 14-də Britaniya və Amerika tərəfindən Türkiyəyə təqdim olunmuş birgə notada Almaniyaya xrom satışının dayandırılması tələb olunurdu, əks təqdirdə Ankaranın müttəfiqlər tərəfindən embarqoya məruz qalacağı bildirilirdi. Bu tələb qarşısında geri çəkilən Türkiyə 21 apreldən etibarən Almaniyaya xrom satışını dayandırdı. Xrom probleminin ardınca ticarət gəmisi adı altında Almaniyanın iki gəmisinin Boğazlardan keçməsi böyük hay-küyə səbəb oldu. Britaniya parlamentində çıxış edən xarici işlər naziri A.İden Alman hərb gəmilərinin Boğazlardan keçməsini kəskin şəkildə pislədi və baş vermiş hadisəyə görə Türkiyə hökumətini sərt formada qınadı. İngilis mətbuatı bu məsələ ilə bağlı Türkiyəyə qarşı geniş kampaniyaya başladı. Nəticədə iyun ayının 15-də vəziyyəti müzakirə edən Türkiyə hökuməti bu məsələ ilə bağlı günahkar sayılan xarici işlər naziri N.Menemençioğlunu istefaya göndərdi. Əslində Boğazlara daxil olan alman gəmilərindəki silah və hərbi sursat türk xüsusi xidmət orqanları tərəfindən aşkarlanmışdı. Almaniya öz gəmilərinin Rumıniyaya keçmək istədiyini bildirdikdə, Türkiyə Xarici İşlər Nazirliyi hərbi dəniz attaşesinin təminatını istəmişdi. Alman gəmiləri Boğazlara daxil olduqda müttəfiqlər etiraz notası təqdim etmiş, Menemençioğlu isə Boğazlardan keçmək istəyən gəmilərin hərbi gəmi olmadığı haqda Alman səfiri fon Papenin təminatına inanaraq onların Boğazlardan keçməsinə icazə vermişdi. Lakin Türkiyə orqanlarının yoxlamaları gəmilərdə hərbi yüklərin olduğunu təsdiqləmişdi. Hadisələrin belə gedişi müttəfiqlərin bu məsələdə haqlı olduğunu göstərdi və xarici işlər naziri istefaya getməli oldu. Xarici işlər naziri vəzifəsi müvəqqəti olaraq Baş nazir Ş.Saracoğluna tapşırıldı. İyun ayının 17-də Sovet səfiri S.Vinoqradovun Ş.Saracoğluya təqdim etdiyi xatırlatmada göstərilirdi ki, alman hərb gəmilərinin ticarət gəmiləri adı altında Boğazlardan keçməsinə aid bir sıra hallar baş vemişdir. Səfir bu hallardan Sovet İttifaqının narahatçılığını ifadə edirdi (15).

İyun ayının 23-də Türkiyə ilə bağlı öz görüşlərini ABŞ-a bildirən İngiltərə Türkiyənin xarici siyasətində baş verən dəyişikliklərin yetərli

olmadığını vurğulamışdı. Çörçill qeyd edirdi ki, Türkiyənin Almaniya ilə diplomatik və iqtisadi münasibətləri dayandırmasının zamanı yetişmişdir. Bu məsələni Britaniya baş naziri eyni qaydada Stalinə də bildirmişdi (16). Bunun ardınca Moskvadakı Britaniya səfiri V.Molotova bildirirdi ki, son bir neçə gün ərzində vəziyyət köklü şəkilə dəyişmiş, Alman gəmilərinin Boğazlardan keçmə məsələsi müttəfiqləri təmin edən rəsmi qaydada və açıq şəkildə tənzimlənmişdir. Xarici işlər naziri istefaya çıxmış, Nazirlər Şurasının sədri Türkiyənin səmimi əməkdaşlığa cəhd edəcəyinə təminat vermişdir (17).

Türkiyə ilə müttəfiqlər arasında iyun böhranının dərinləşdiyi günlərdə keçmiş xarici işlər naziri və Türkiyənin Londondakı keçmiş səfiri R.Arasın "Vatan" qəzetində "Bizim böyük qonşumuz və dostumuz" adlı geniş məqaləsi dərc edilmişdi. Məqalənin adından da bilinirdi ki, söhbət Sovet İttifaqından gedir. R.Aras Sovet-Türk dostluğunun zamanın sınağından çıxıb daha da möhkəmlənməsinə toxunur, iki ölkə arasında bəzi məqamlarda anlaşılmazlıqların olduğunu qeyd edir, lakin bütün mübahisələrin hər iki ölkənin bir-birini daha yaxşı başa düşməsinə mane ola bilmədiyini dilə gətirirdi. R.Aras yazırdı ki, indi hər ölkənin təhlükəsizliyi ümumi təhlükəsizliklə daha sıx bağlıdır . Onun fikrincə, "uzunmüddətli sülh millətlərdən uzunmüddətli öhdəliklər tələb edir". Məqalənin sonunda R.Aras belə bir nəticə çıxarırdı ki, bizim Sovet İttifaqı ilə münasibətlərimizin - əgər mümkünsə ittifaqa qədər mütərəqqi inkişafı hər iki ölkənin maraqlarına uyğun olardı və beynəlxalq əməkdaşlıq üçün yeni möhkəm baza yaradılardı (18). Nəzərə almaq lazımdır ki, Tehran konfransından sonra 1943-cü ilin dekabr ayının 26-da "Nyu York Tayms" qəzetinə verdiyi müsahibədə də R.Aras Sovetlərin mövqeyini müdafiə edirdi. Onun sözlərinə görə, müharibəyə qədər Sovet İttifaqı fasiləsiz olaraq kollektiv təhlükəsizliyin təmin edilməsinə çalışırdı. R.Aras deyirdi: "Sovet İttifaqı indi özünə hesabat verir ki, ona düşmən olan qonşular Almaniyanın Sovet İttifaqını məhv edəcəyinə ümid edirdilər. Hazırda rus hökuməti və Qızıl Ordu İngiltərəni xilas edən böyük qəhrəmanlar kimi işğalçılara qarşı barışmaz mübarizəsini davam etdirir və beləliklə də Avropanı hitlerçilərdən xilas edir" (19). Müharibənin sonuna doğru qonşu ölkələrdə"dost hökumətlər" qurmaq siyasəti tədricən SSRİ xarici siyasətinin əsas istiqamətlərindən birini çevrilməkdə idi. Bu, Sovet Ordusunun sərhədlərinə yetişdiyi Şərqi Avropa və Balkan ölkələrinə, ərazisində Qızıl Ordu hissələrinin yerləşdiyi İrana münasibətdə və bütün istiqamətlərdən müttəfiqlərin, xüsusən Sovetlərin təzyiqi ilə üzləşən Türkiyəyə münasibətdə daha aydın hiss edilirdi.

1944-cü ilin iyun ayının 13-də Britaniya səfiri vasitəsi ilə müttəfiqlər Türkiyədən Almaniya ilə münasibətləri kəsməyi tələb etdilər. Onların fikrincə, bu addım Sovet aviasiyasının Türkiyə əraziləri üzərindən uç-

masına, müttəfiqlərin Türkiyənin hava və dəniz bazalarından istifadə etməsinə imkan verərdi. Bu dövrdə Sovet İttifaqının Türkiyəyə münasibəti sərt olaraq qalırdı.

İ.Stalin iyul ayının əvvəllərindəAlmaniya ilə əlaqələrin kəsilməsinin yetərli olmadığını, Türkiyənin məhz Almaniyaya müharibə elan etməsinin zəruriliyini Çörçillə bildirdikdə, o cavab vermişdi ki, qorxuram Türkiyə özü-özünü müdafiə etmək və öz şəhərbrini müdafiə etmək üçün hava qüvvələri istəsin, hər cür cəbhə ləvazimatı istəsin və biz bundan imtina edə bilməyəcəyik.

İ.Stalin iyul ayının 17-də U. Çörçillə cavabında yazırdı: "Əlbəttə ki, Siz onu xatırlayırsınız ki, bizim üç ölkənin hökuməti Türkiyədən hələ 1943-cü ilin noyabr-dekabr aylarında müharibəyə girməyi necə israrla tələb edirdi. Bundan heç nə çıxmadı. Türkiyə hökumətinin təşəbbüsü ilə bu ilin may-iyun aylarında biz yenidən Türkiyə hökuməti ilə danışıqlara girdik. Bundan da heç nə alınmadı. Türkiyə tərəfindən bu və ya digər yarımçıq addımlara gəldikdə, indi mən bunun müttəfiqlər üçün faydalı olduğunu görmürəm. Türkiyə hökumətinin Almaniyaya münasibətdə inandırıcı və aydın olmayan mövqedə dayandığını nəzərə alaraq yaxşı olardı ki, Türkiyəni öz iradəsini ifadə etməkdə sakit buraxaq və ona yeni təzyiqlər etməyək. Bu əlbəttə o deməkdir ki, Almaniya ilə müharibədən yayınan Türkiyənin iddiaları, eyni zamanda müharibədən sonrakı illərdə onun xüsusi hüququ da mənasını itirir" (20). Məsələnin İ.Stalin tərəfindən belə qoyuluşu Sovet-Türkiyə münasibətlərinin qarşıdakı gərginliyindən xəbər verirdi. İ.Stalinin belə sərt mövqeyi onunla bağlı idi ki, 1944-cü ilin may-iyun aylarında Türkiyənin Sovetlərlə yaxınlaşmaq cəhdləri nəticəsiz qalmışdı. Bu yaxınlaşma üçün Türkiyənin müharibəyə girməsi SSRİ tərəfindən şərt olaraq irəli sürülürdü. 1944-cü ilin yayında hərbi əməliyyatlar meydanında Almaniyanın vəziyyəti ağırlaşdığından və müttəfiqlər tərəfindən təzyiqlər artdığından Türkiyə öz xarici siyasətini yenidən nəzərdən keçirməli oldu. Türkiyə Böyük Millət Məclisi 1944-cü ilin avqust ayının 1-də fövqəladə iclas keçirərək Almaniya ilə diplomatik münasibətlərin kəsilməsi məsələsini müzakirəyə çıxardı. Baş nazir Ş.Saracoğlu bu məsələ ilə bağlı hökumətin mövqeyini açıqladı və Türkiyənin müharibə boyu tərəfsiz deyil, məhz hər zaman İngiltərənin yanında olduğunu vurğuladı. Böyük Millət Məclisi avqust ayının 2-də Almaniya ilə, avqustun 6-da Yaponiya ilə siyasi, iqtisadi və diplomatik əlaqələrin kəsilməsi haqqında qərar verdi. Beləliklə, 1930-cu illərdən genişlənən türk-alman münasibətləri sona yetdi. 1939-1944-cü illər arasında Türkiyənin yeritdiyi incə diplomatiya, balanslaşdırılmış siyasət onun bir tərəfdən İngiltərə ilə ittifaqda, digər tərəfdən Almaniya ilə hücum etməmək haqqında müqavilə çərçivəsində müharibədən kənarda qalmasına imkan yaratdı (21).

Türkiyə Böyük Millət Məclisinin Almaniya ilə münasibətləri kəsmək haqqında qərarı Ş.Saracoğlu və tanınmış qəzetçi Falih Rıfkı Atayın birgə fəaliyyəti nəticəsində avqust ayının 3-dən başlayaraq türk mətbuatının aparıcı mövzusuna çevrildi. İstanbulda çıxan və Almaniyaya rəgbətlə yanaşan "Türkiş Post" və "Beyoğlu" qəzetləri hökumətin qərarı ilə bağlandılar.

Böyük Millət Məclisinin avqust ayının 2-də verdiyi tarixi qərarı dəyərləndirərək prezident İ.İnönü qeyd edirdi ki, xarici siyasətimiz bu il içərisində yeni bir mərhələyə daxil olmuşdur. İngiltərə ilə ittifaqın çərçivəsi içində olaraq Almaniya ilə iqtisadi və diplomatik münasibətlərin kəsilməsinə qərar vermişik. Bu tarixi qərar öz əhəmiyyətinə görə gözlənilən nəticələri vermişdir. Şübhəsiz ki, bu qərar milli iradənin çox önəmli və isbatlı bir əsəri olmuşdur (22).

1944-cü ilin 5 sentyabrında SSRİ-nin Bolqarıstana müharibə elan etməsi Sovet Ordusunun Balkanlarda güclənmək və Türkiyə sərhədlərinə yaxınlaşmaq təhlükəsini artırdı. Həmin ilin payızından başlayaraq kommunist təşkilatlarının Balkanlarda fəallaşması və hakimiyyəti ələ keçirmək istiqamətində fəaliyyətləri bölgənin gələcəyi baxımından Türkiyəni narahat etməyə başlamışdı.

Sovet Ordusunun Balkanlara yaxınlaşması müttəfiqlərin də müəyyən narahatçılığına səbəb olmuşdu. Britaniya Baş naziri müvafiq idarələrə göstəriş vermişdi ki, İtaliya və Balkanlarda ruslarla ixtilaf doğura biləcək məsələləri araşdırsınlar. U.Çörçillə təqdim edilən raportda göstərilirdi ki ruslar Balkanların və İtaliyanın kommunistləşdirilməsi xəttini götürüblər. Əgər bu xətt onların məqsədidirsə və uzun nəzərdə tutulubsa, hadisələrin sonrakı gedişi elə də asan olmayacaq (23).

1944-cü ilin ortalarından başlayaraq müttəfiqlərin hər biri ayrılıqda müharibədən sonrakı dövr üçün Yaxın və Orta Şərqdə öz milli maraqlarını əks etdirən konsepsiyalar hazırlamağa başlamışdılar. Müharibə sona yaxınlaşdıqca üç böyük dövlətin İran və Türkiyəyə münasibətdə uzun müddə yeritdikləri vahid siyasətdə fərqliliklər yaranmağa başlayırdı. Region uğrunda yanacaq və energetika mənbələrinə sahib olmaq uğrunda başlanan gizli geosiyasi mübarizə müttəfiq dövlətlərin bir sıra rəsmi orqanlar tərəfindən hazırlanan layihələrdə öz əksini tapırdı. Müharibənin boyük ağırlığını çiyinlərində çəkmiş müttəfiqlər həmin layihələrdə əks olunmuş milli maraqların cazibə dairəsində tədricən rəqiblərə çevrilməyə başlayırdılar. 1944-cü ilin yayından başlayaraq Yaxın və Orta Şərqdə təsir dairəsi, həmçinin neft uğrunda mübarizə müttəfiqlər arasında hələ möhkəm görünən əməkdaşlığın çat verməsindən xəbər verirdi. Sovet Ordusunu döyüş meydanlarında qələbəsi, ölkə ərazisinin alman faşist işğalçılarında təmizlənməsi, SSRİ-nin gücünün və qüdrətinin, habelə beynəlxalq nüfuzunun artması onun xarici siyasətini müəyyən edən mühüm amilə çev-

rilmişdi. Artan gücün təhlükəsi fonunda bir tərəfdən İngiltərə və ABŞ Sovet İttifaqını Yaxın və Orta Şərqin enerji mənbələrinə, strateji baxımdan əhəmiyyətli sayılan Aralıq dənizi rayonuna yaxın buraxmaq istəmir, digə tərəfdən İranın şimalında Sovet hərbi hissələrinin olması,Qızıl Ordunun Bolqarıstana girməsi qeyd edilən regionlarda Sovet İttifaqının güclənməsi üçün əlverişli şərait yaradırdı. 1944-cü ilin yanvarında Xarici işlər komissarının müavini İ.Mayskinin V.Molotovun adına hazırladığı "Gələcək sülhün arzuolunan əsasları haqqında" qeydlərinə uyğun olaraq SSRİ Xalq Komissarları Soveti 1944-cü ilin mart ayının 6-da "Cənubi Azərbaycan əhalisinə iqtisadi və mədəni yardımın gücləndirilməsi haqqında"qərar qəbul etdi (24). Bu qərara uyğun olaraq İran Azərbaycanındakı Sovet diplomatik idarələri, hərbi komendantlıqları, ticarət və nəqliyyat nümayəndəlikləri Sovet Azərbaycanı vətəndaşları hesabına gücləndirildi. İran və Türkiyəyə təsir imkanlarını genişləndirmək üçün Sovet rəhbərliyinin razılığına uyğun olaraq 1944-cü ilin mart ayının 20-də Azərbaycan K(b)PMK-sının Bürosu Qafqaz müsəlmanları Ruhani İdarəsmin yaradılması haqda qərar qəbul etdi (25). Bundan bir qədər əvvəl,1943-cü ilin 20 oktyabrında ÜİK(b)P MK Siyasi Bürosunun Eçmiədzin məsələsi üzrə bütün ermənilərin katolikosu ilə SSRİ hökuməti arasında əlaqəni həyata keçirmək üçün Ermənistan SSR Xalq Komissarları Soveti yanında erməni-qriqoryan kilsəsi üzrə Şuranın yaradılmasına icazə verilməsi xaricdə, ilk növbədə isə Yaxın və Orta Şərqdə yaşayan ermənilər içərisində fəal iş aparmaq niyyətləri ilə bağlı idi (26). 1944-cü ilin martında müttəfiq respublikalarda, o cümlədən Zaqafqaziya respublikalarında Xarici İşlər Komissarlıqlarının yaranması qonşu ölkələrə münasibətdə yeridilən sovet siyasətinin tərkib hissəsi idi. Eyni zamanda 1944-cü ilin 19 mayında Xalq Komissarları Sovetinin Ümumittifaq Mədəni Əlaqə Cəmiyyətinin filialı kimi Təbərizdə Mədəniyyət evi açılması və iyunun 24-də V.Molotovun Təbərizdə Azərbaycan dilində orta məktəb açılması haqqında qərarı imzalaması Sovet İttifaqının Yaxın və Orta Şərqdə möhkəmlənmək niyyətinə xidmət edirdi (27).

Sovet İttifaqı Yaxın Şərq siyasətinin ilkin mərhələsində Amerika və Britaniyanın bu regionda hansı addımları atacağında son dərəcə maraqlı idi.Uzun illər ərzində Orta Şərqdə Rusiya və İngiltərə ənənəvi rəqabətinə 1944-cü ilin 18 yanvar Memorandumu ilə Birləşmiş Ştatlar "üçüncü xarici qüvvə kimi əlavə olundu. Yaxın Şərqdə, ilk növbədə isə İranda güclənən Sovet siyasətinə qarşı ingilis-amerikan əməkdaşlığının yaradılması istiqamətində ABŞ Dövlət Departamenti bir sıra addımlar atdı. ABŞ Dövlət katibinin müavini E.Stetiniusun 1944-cü ilin aprel-may aylarında Londona səfəri zamanı Britaniya Xarici İşlər Nazirliyinin müavini M.Peterson ilə Türkiyə istisna olmaqla Yaxın və Orta Şərqin bütün ölkələri haqqında müzakirə apardılar. London görüşündə razılıq əldə edildi ki, İranda neft konsesiyaları

haqqında danışıqlar aparan Amerika firmaları ingilis firmaları ilə "bərabər imkanlara" malik olacaqlar. Tərəflər razılığa gəldilər ki, ingilis və Amerika şirkətləri İranın şimal rayonlarında, SSRİ ilə həmsərhəd ərazilərdə konsesiya açmağa maraq göstərməyəcəklər. Bunun əksinə olaraq Sovet rəhbərliyi belə təhlükənin mümkünlüyünü istisna etmirdi və ondan ehtiyatlanırdı (28). Məhz bu məqsədlə İ.Stalin hələ 1944-cü ilin martında müvafiq orqanlara tapşırıq vermişdi ki, İranın şimalında kəşfiyyat işləri aparılması və neft konsesiyası alınması ilə bağlı danışıqlar aparmaq üçün zəruri materiallar hazırlasınlar. Bu tapşırığın nəticəsi kimi 16 avqust 1944-cü ildə İ.Stalin və V.Molotova təqdim edilmək üçün L.Beriya tərəfindən hazırlanmış arayışda göstərilirdi ki, ingilis və amerikanlar Sovet İttifaqının Şimali İranda neft konsesiyası almaq imkanını pozmaq məqsədilə gizli iş aparırlar. Bu sənəddə ABŞ-ın Yaxın Şərqdə yeni neftli əraziləri mənimsəmək və hələ istifadə olunmayan ərazilərə nüfuz etmək siyasəti geniş şəkildə əsaslandırılmışdı. L.Beriya prezident F.Ruzveltin neft üzrə yeni idarəçilik aparatı yaratmasını Amerikanın Yaxın Şərqin enerji ehtiyatları ilə zəngin olan rayonlara nüfuz etməsi ilə əlaqələndirirdi. Onun fikrincə, ABŞ-ın Yaxın Şərqə ekspansiyası gələcəkdə Britaniya tərəfindən müqavimətlə qarşılana bilərdi. L.Beriya tövsiyə edirdi ki, SSRİ bu ziddiyyətlərdən istifadə edib beynəlxalq neft işləri sahəsində öz maraqlarını təmin etmək məqsədilə amerikanlarla ingilislər arasında neft barədə aparılan danışıqlara daxil ola bilər (29).

Nəzərə almaq lazımdır ki, Sovet rəhbərliyi bu istiqamətdə işləri gücləndirmək üçün müvafiq orqanlara göstəriş vermişdi. Əslində, tələsik olaraq 1944-cü ilin sentyabr ayının 10-da xarici işlər komissarının müavini S.Kavtaradze başda olmaqla İrana Sovet dövlət komissiyasının göndərilməsi bir tərəfdən müttəfiqlərdən ehtiyatlanmaq, digər tərəfdən ingilis-amerikanları qabaqlamaq zərurətindən irəli gəlirdi (30).

1944-cü il avqustun 4-də V.Molotova təqdim edilən ABŞ Dövlət Departamentində hazırlanmış və İliçev vasitəsi ilə əldə edilmiş gizli bir sənəd Sovet rəhbərliyinin ciddi marağına səbəb olmuşdu. Dünyanın müxtəlif regionlarında ABŞ-ın maraqlarını əks etdirən bu sənəd beş bölmədən ibarət idi. Sənədin beşinci bölməsi "Sovet İttifaqının regional siyasətindən və SSRİ-nin təhlükəsizlik zonası yaratmağa cəhd göstərməsindən bəhs edirdi. Sənəddə qeyd edilirdi ki, öz hərbi təhlükəsizliyini möhkəmləndirmək və dənizə çıxışını genişləndirmək məqsədilə Sovet İttifaqı Mərkəzi-Şərqi Avropa Ölkələrində (Finlandiya, Latviya, Estoniya, Litva, Polşa, Çexoslovakiya, Macarıstan, Rumıniya, Yuqoslaviya, Bolqarıstan, Almaniya və Yunanıstan), Türkiyədə, İranda və Əfqanıstanda bilavasitə maraqlıdır. Yaxın Şərqdəki vəziyyət təhlil edibrək Dövlət Departamenti bu qənaətə gəlirdi ki, digər böyük dövlətlərin də müväfiq qaydada maraq göstərdiyi Türkiyə və İran Sovet təhlükəsizlik zonası üçün xüsusi əhəmiyyət kəsb edir(31).

Görünür, 1944-cü ilin əvvəllərində Xarici işlər komissarının müavini İ.Mayskinin qeydlərində Türkiyənin güclənməsinin qarşısını almaq tövsiyəsi ilə 1944-cü ilin payızında Dövlət Departamentinin Yaxın Şərq və Afrika işləri üzrə idarəsmin hazırladığı memorandumun gizli hissəsində qeyd edilən "Şərqi Aralıq dənizi problemi müharibədən sonrakı şuralarda müzakirə edilməyə başlayanda güclü Türkiyə yəqin ki, bizim üçün və Böyük Britaniya üçün faydalı dost olacaqdır" fikri tərəflərin müharibənin son mərhələsində özünü büruzə verən fərqli strateji maraqlarından irəli gəlirdi (32).

1944-cü ilin payızından başlayaraq müttəfiqlərin tədricən Türkiyəyə təzyiqdən çəkinməsi Sovet-Türk münasibətlərində gərginliyin artması ilə müşayiət olunurdu. İndi Sovet tərəfi guya almanpərəst əhvali-ruhiyyəsinə görə türklərə daha çox atmacalar atır və onların Almaniya ilə əlaqələrini şişirtməyə çalışırdı. 1944-cü il sentyabr ayının 30-da Moskvadakı türk səfiri H.Bayduru qəbul edərkən V.Molotov bunu artıq açıq şəkildə ifadə edirdi. Bu görüş zamanı H.Baydur bildirdi ki, gələcəkdə Sovet İttifaqı ilə Türkiyə arasında münasibətləri daha isti, daha sıx görmək istəyir. Türkiyəyə gəldikdə səfir əlavə etdi ki, ola bilsin müəyyən anlaşılmazlıqlar olub. Lakin o, Molotovdan xahiş etdi ki, bu anlaşılmazlıqları ümumiləşdirməsin və yadda saxlasın ki, Türkiyə Sovet İttifaqının dostu olub, dostudur və dostu olacaq. İki ölkə arasındakı anlaşılmaz məqamları Baydur Sovet İttifaqı ilə Türkiyə arasında isti münasibətlərin çatışmaması ilə izah etdi. V.Molotov cavabında dedi: "elə şeylər var ki, ona göz yummaq olmaz. Qəbul etmək lazımdır ki, Türkiyəyə münasibətdə Sovet İttifaqının mövqeyi müdafiə xarakterində olub... Müharibə zamanı biz baxırdıq ki, bitərəf dövlət Almaniyaya və Sovet İttifaqına necə münasibət bəsləyir. Sovet-Türk münasibətlərində elə məqamlar vardır ki, onlar çox xoşagəlməz izlər qoyub" (33). H.Baydur razılaşdı ki, qəzetlər, mətbuat, ayrı-ayrı şəxslər nə isə ediblər. Onun fikrincə, hökumətlər arasında, Türkiyə ilə Sovet İttifaqı arasında yetərincə əlaqələr olsaydı, bu anlaşılmazlıqlar da meydana çıxmazdı.

Nəzərə almaq lazımdır ki Sovetlərə münasibətləri normallaşdırmaq üçün Türkiyə tərəfi praktik olaraq bir sıra addımlar atmışdı. Türkiyə Böyük Millət Məclisinin 1944-cü ilin avqustunda qəbul etdiyi xüsusi bir qanunla Almaniya səfiri fon Papenə qəsdlə bağlı həbs edilmiş Sovet səfirliyinin əməkdaşları İvanov və Kornilov azadlığa buraxılmışdılar.Qeyd etmək lazımdır ki, Ankaradakı Sovet səfirliyində mətbuat attaşesı adı altında işləyən SSRİ Daxili İşlər Komissarlığının xüsusi xidmət idarəsmin əməkdaşları olan İvanov və Kornilovun günahı məhkəmədə tamamilə sübuta yetirilmişdi. Həmin əməliyyatın iştirakçısı olan Sovet kəşfiyyatçısı Rəşid Qurbanbəyov çox sonralar bu hadisəni xatırlayaraq yazırdı: "Alman-türk münasibətlərini pozmaq üçün Kremldə Ankaradakı alman səfiri fon Papenin aradan götürülməsi haqqında qərar qəbul

olunmuşdu. Əməliyyata SSRİ-nin Ankaradakı səfirliyinin mətbuat attaşesində jurnalist kimi işləyən Daxili İşlər Komissarlığının xüsusi xidmət zabitləri İvanov və Kornilov başçılıq edirdilər. Bu aksiyanı bir türk həyata keçirməli idi. Mənim və digər çekistlərin vəzifəsi həmin yoldaşların təhlükəsizliyini təmin etmək idi. Qatil rolunu yerinə yetirən namizədi tapmaq üçün bu zabitlər eyş-işrət yerlərinə, qumarxanalara getməyə başladılar. Aşxanaların birində onlar borca düşmüş qumarbaz Əbdülrəhman adlı birisini tapdılar ki, o, yaxşı haqq müqabilində ov tüfəngindən fon Papenə atəş açmağa razılıq verdi. Lakin gizli mənzildə keçirilən sonuncu görüşdə Əbdülrəhman pəncərədən qaçdı. Çekistlər ona atəş açdılar və öldüyünü zənn etdilər. Türkiyə xüsusi xidmət orqanları onları həbs edəndən sonra məhkəmə başlayanda Əbdülrəhman Türkiyə əks kəşfiyyat kapitanı formasında zalda peyda oldu və Sovet zabitlərini ölkədə qarışıqlıq yaratmaq cəhdində günahlandırdı. Çekistləri həbs etdilər, lakin həbsxanadan da onları Türkiyə hakimiyyət dairələri ilə yaxın əlaqələri olan bizim kəşfiyyatçı tərəfdaşımız Məmməd Tağıyev buraxdırdı" (34). Bundan əlavə, Türkiyə Sovetlərlə münasibətləri normallaşdırmaq üçün almanlarla əməkdaşlıq etmiş xarici ölkə vətəndaşlarına ölkəyə gəlməyi qadağan etmişdi. Sovet qoşunları Bolqarıstana daxil olduqdan sonra Türkiyəyə sığınmış Bolqarıstanın daxili işlər naziri Qarovski 19 sentyabrda öz ölkəsinə geri göndərilmişdi. Alman işğalı dövründə faşistlərlə əməkdaşlıq etmiş və sonradan Türkiyəyə qaçmış, milliyyət etibarı ilə türk olan köhnə Sovet vətəndaşları eyni ilə SSRİ-yə verilmiş, Rumıniyaya sığınmış 20-30 min Krım tatarlarının Türkiyəyə gəlmək xahişləri isə Sovetlərə bəhanə verilməmək üçün rədd edilmişdi.

Həmin görüşdə Molotovla türk səfiri arasında Türkiyə və Sovet mətbuatına dair söylənilən qarşılıqlı ittihamlar və fikirlər ayrıca mübahisə predmeti oldu. H.Baydur Moskvada olduğu son bir il ərzində Sovet mətbuatında Türkiyəyə dəfələrlə hücum edilməsindən narahatlığını bildirdi. O hesab edirdi ki, Türkiyəyə münasibətdə Sovet mətbuatının belə mövqeyi yanlışdır. H.Baydurun bu fikri ilə bağlı V.Molotov bildirdi ki, Sovet mətbuatında yazılanlar Türk mətbuatında SSRİ-yə edilən hücumların ancaq onda biri qədər ola bilər. Türkiyədə hər gün Sovet İttifaqı əleyhinə yazılar çap olunur. O əlavə etdi ki, Sovet İttifaqının çətin günlərində Türk mətbuatı onun məhv edilməsi barədə məqalələr verirdi. SSRİ-nin mövcud olduğu 27 il ərzində Baydur bir yazı tapa bilməz ki, orada Türkiyənin məhv edilməsinə çağırışlar olsun. Baydur qeyd etdi ki, Türk mətbuatında sovet İttifaqı ilə bağlı yazıların 90 faizi müsbətdir, qalan 10 faiz elə də muhüm deyil, ona heç kim əhəmiyyət vermir: "Türkiyədə elə qəzet var onu bir adam buraxır. Bunlar qəzet deyil, "kələm yarpağıdır". Belə qəzetləri "İzvestiya" ilə müqayisə etmək olmaz". Baydur təklif etdi ki, o,Sovet İttifaqından bir neçə jurnalisti özü ilə Türkiyəyə apara bilər. Qoy

onlar özləri Türkiyədəki reallığı görsün, real və doğru məlumatlar yazsınlar. Molotov bildirdi ki, Sovet jurnalistləri indi hamısı cəbhələrdədir və müharibədən yazırlar (35).

V.Molotovla bu görüşdən az sonra, 1944-cü ilin oktyabrında Türkiyə Xarici İşlər Nazirliyi sistemində böyük nüfuzu olan və Türkiyənin təcrübəli səfirlərindən sayılan H.Baydur SSRİ-dəki bir illik fəaliyyətini tamamlayaraq Moskvanı tərk etdi (36). Onun yerinə Türkiyənin yeni səfiri təyin edilən Selim Sarper oktyabr ayının 16-da Ankaradan Tbilisi vasitəsi ilə Moskvaya gəldi. S.Sarper noyabr ayının 3-də etimadnaməsinin surətini V.Molotova təqdim edərkən bildirdi ki, müharibənin bütün çətinliklərinə baxmayaraq Sovet Ordusunun və müttəfiqlərin yaxın vaxtlarda qələbə çalacağına, dağıntıları aradan qaldırılacaqlarına ümidlidir. Bunun cavabında V.Molotov qeyd etdi ki, Türkiyə müharibədən kənarda qaldı, lakin o da müharibənin doğurduğu çətinlikləri hiss edir. S.Sarper bunu təsdiqləyib əlavə etdi ki, əgər təhlükə Türkiyə sərhədlərindən uzaqlaşdısa, bu ancaq Qızıl Ordunun Türkiyəyə yaxın olan rayonlarda uğurları sayəsində mümkün olmuşdur. Bu görüş zamanı V.Molotov ikinci cəbhənin açılmasını çox yüksək qiymətləndirdi (37).

Sovet orqanlarının məlumatına görə, S.Sarper əvvəllər də SSRİ-də diplomatik işdə çalışmışdı. Təxminən beş ilə yaxın o, Odessadakı Türkiyə konsulluğuna rəhbərlik etmiş və Moskvadakı Türk səfirliyində işləmişdi. Sonra S.Sarper bir müddət Türkiyənin Buxarestdəki səfirliyinin müşaviri olmuş, SSRİ-yə səfir təyin olunduğu ərəfədə Türk mətbuatının baş katibi olmuşdu. Sovet məlumatlarında S.Sarperin 16 iyul 1942-ci ildə türk jurnalistləri ilə birlikdə Berlinə səfər etməsinə xüsusi diqqət yetirilirdi (38).

1944-cü ilin payızında Boğazlar rejiminə dair Montrö sazişinin dəyişdirilməsi Türkiyəyə münasibətdə Sovet İttifaqının siyasətinin çıxış nöqtəsini təşkil edirdi. Bu məsələ 1944-cü ilin oktyabrında SSRİ-yə səfər edən Böyük Britaniyanın Baş naziri Çörçill ilə İ.Stalin arasında geniş müzakirə edildi. Nəzərə almaq lazımdır ki, Sovet İttifaqı bu məsələyə hələ Tehran konfransı ərəfəsində hazırlaşırdı. 1943-cü ilin noyabr ayının 26-da Moskvada, xüsusilə Xarici İşlər Komissarlığında olan arxiv sənədləri əsasında Komissarlığın Adamov, Qarmaş və Koblyakov familiyalı əməkdaşları "Montrö konfransında Boğazlar haqqında məsələ" adlı 12 səhifəlik arayış hazırlamışdılar. Arayışda Lozanna konfransında Sovet Rusiyasının Boğazlara münasibətdə müdafiə etdiyi prinsiplər, Montrödə konfransa hazırlıq və həmin mərhələdə Boğazlar məsələsində Sovet İttifaqının mövqeyi, Sovet təkliflərinin Türkiyə Xarici İşlər Nazirliyi ilə razılaşdırılmasına dair çoxsaylı yazışmalar, Montrö konfransının başlanması və gedişi, Britaniya nümayəndələri ilə qarşıdurmalar, Boğazlar rejimi haqda sazişin məzmunu və nəhayət, sazişin tətbiq edildiyi dövrdə onun pozulmasına dair faktlar təhlil edilirdi (39). Montrö sazişi imzalandıqdan

təxminən səkkiz il sonra SSRİ Xarici İşlər Komissarlığının belə geniş şəkildə ona qayıtması, konfransın keçirildiyi şəraiti dərindən təhlil etməsi, Sovet İttifaqının narazı qaldığı məqamları dəqiqliklə aydınlaşdırması Boğazlar məsələsi barədə Montrö sazişini təftiş etmək istiqamətində Sovetlərin gizli niyyətlərindən xəbər verirdi.1944-cü ilin oktyabr ayının 9-da Moskvada U.Çörçillin İ.Stalinlə danışıqları başlanan zaman Sovet tərəfi Boğazlar haqında məsələnin müzakirəyə çıxarılmasına ciddi səkildə hazırlaşmışdı. Həmin danışıqlarda Britaniya tərəfindən A.İden,Moskvadakı səfir A.Kerr, Çörçillin tərcüməçisi C.Birs, Sovet tərəfindənV.Molotov və Pavlov iştirak edirdi.

Moskva danışıqlarında ilk olaraq cəbhələrdəki vəziyyət, Polşaya münasibət və Balkanlarda nüfuz dairəsi müzakirə edildi. Britaniya Baş naziri Çörçillin təqdim etdiyi "qaralama sənəd"ə görə Rumıniya 90 faiz Rusiya, 10 faiz digərlərinin, Yunanıstan 90 faiz İngiltərə (ABŞ-la əməkdaşlıqda), 10 faiz digərləri, Yuqoslaviya və Macarıstan 50 faiz 50 faizə, Bolqarıstan 75 faiz Rusiya, 25 faiz digərlərinin təsirinə aid edilirdi. "Faiz Sazişi"ndə İ.Stalinin diqqətini cəlb edən əsas məsələ Yunanıstan məsələsi idi (40). Bu sənəd əslində Yunanıstanı çıxmaq şərti ilə SSRİ-nin Balkanlarda üstün təsirini təmin edirdi. Bununla belə İ.Stalin qeyd etdi ki, Bolqarıstanda İngiltərə üçün nəzərdə tutulan 25 faiz cədvəldəki digər rəqəmlərlə həmahəng deyildir. O belə bir düzəliş etməyi zəruri sayırdı ki, Bolqarıstanda 90 faiz Sovet İttifaqı, 10 faiz İngiltərə üçün nəzərdə tutulmalıdır.

Balklanlar məsələsi müzakirə edilən zaman V.Molotov Türkiyə məsələsinin bura aid olub-olmaması ilə maraqlandı. Çörçill Türkiyə məsələsinə toxunmasa da, ingilislərin fikrində olanları açıqladığını bildirdi və məsələni axıra qədər həll etmək üçün bir daha görüşməyin zəruriliyini qeyd etdi. Bundan sonra İ.Stalinlə U.Çörçill arasında Qara dəniz Boğazları və Türkiyə haqqında maraqlı mükalimə başlandı. İ.Stalin dedi: "Əgər söhbət Türkiyədən gedirsə, Montrö sazişinə görə Türkiyə Boğazlarda bütün hüquqlara malik olduğu halda, Sovet İttifaqının çox az hüququ vardır. Montrö sazişinə görə yapon imperatorunun nə qədər hüququ varsa, Sovet İttifaqının da bir o qədər hüququ vardır". İ.Stalin belə hesab edirdi ki, nıüasir şəraitə köklü şəkildə uyğun gəlmədiyindən Montrö sazişinə baxmaq haqqında məsələni hökmən müzakirə etmək lazımdır. U.Çörçill cavabında qeyd etdi ki, Türkiyə indi müharibəyə daxil olmaq hüququnu itirib. Əvvəllər o müharibəyə ona görə girmədi ki, müasir silahı olmadığından Almaniyadan qorxurdu. Bundan başqa türklər nəinki müasir silahla davranmağı bacarmırlar, həm də çoxsaylı hazırlığı olan orduya malik deyillər. Lakin İ.Stalin qeyd etdi ki, türklər indi Frakiyada 26 diviziya cəmləşdiriblər, məlum deyil onlar bu diviziyaları kimə qarşı cəmləşdiriblər. Bunu Çörçill türklərin bolqarlardan ehtiyatlanması ilə əlaqələndirdi və əlavə etdi ki, almanlar fransızlardan ələ keçirdikləri silahı

bolqarlara veriblər. İndiki müharibədə türklər bolqarlardan çəkinməyi öyrəndilər (41).

Türkiyəyə və Boğazlara münasibətdə U.Çörçillin Tehran konfransındakı gözləmə mövqeyi ilə 9 oktyabr danışıqlarında Türkiyənin müharibəyə girmək hüququnu itirməsi barədə fikrini müqayisə edən İ.V.Koçkin belə bir nəticəyə gəlir ki, bu, Boğqalar məsələsində Türkiyənin Britaniya yardımına hüququnu itirməsi, İngiltərənin ona "soyuq münasibətinin" təzahürü demək idi (42).

Rusiyanın isti dənizlərə və dünya okeanlarına çıxışına münasibətdə Britaniyanın siyasətinin dəyişdiyini izah edən U.Çörçill bildirdi ki, Britaniyanın siyasəti Rusiyanı isti dənizlərə və böyük dünya okeanlarına buraxmamaqdan ibarət deyildir.Əksinə Britaniyalılar bu məsələni Britaniya-Rusiya dostluğunun bir elementi hesab edirlər. İndi Dizraili və Kerzonun siyasəti mövcud deyildir. Bu açıqlamadan sonra o, İ.Stalinin Montrö sazişində hansı dəyişiklikləri etmək barədə fikrini soruşdu. Lakin İ.Stalin yalnız ümumi müddəaların üzərində dayandı və məsələnin xırdalıqlarını açıqlamadı. O, bildirdi ki, Montrö sazişində hansı dəyişiklikiərin lazım olduğunu, Sazişdə nəyi əvəzləmənin gərəkliliyini deyə bilməz, lakin o hiss edir ki, saziş müasir şəraitə uyğun deyildir və Rusiyanın əleyhinə yönəlmişdir. İ.Stalin ilk növbədə Montrö sazişinə baxılmasını gündəliyə gətirməyə çalışırdı, və bu məqsədlə Sazişin prinsip etibarı ilə dəyişilməsinə Çörçillin münasibətini öyrənmək istəyirdi. İ.Stalin deyirdi: Ola bilməz ki, Sovet İttifaqı kimi böyük bir dövlət belə bir qorxunun altında yaşasın ki, Türkiyə kimi kiçik bir dövlət boğazları bağlaya bilər və bizim idxalatımızı, ixracatımızı və ya müdafiəmizi sual altında qoya bilər. İ.Stalin əlavə etdi ki, o, Türkiyənin suverenliyinə toxunmaq istəmir, lakin belə bir vəziyyətə dözmək olmaz ki, Türkiyə Sovet ticarət və gəmiçiliyinin boğazından yapışmış olsun. U.Çörçill prinsip etibarı ilə Stalinin fikirlərini bölüşdüyünü bildirdi, lakin o, hesab edirdi ki, bu məsələni kağız üzərində bir qədər sonra qeydə almaq lazımdır. Belə ki, Çörçillin fikrincə, əks təqdirdə Türkiyə qorxa bilər və fikirləşər ki, ondan İstanbulu güzəştə getməyi tələb edirlər. U.Çörçill Sovetlərin belə bir arzusuna tərəfdar idi ki, Rusiya həm hərbi, həm ticarət gəmiləri üçün Aralıq dənizinə çıxmaq imkanı əldə etməlidir. O ümidvar olduğunu bildirirdi ki, Sovet İttifaqı ilə bu məsələdə dostcasına işləyə biləcəklər.Boğazlar məsələsinə münasibətdə Çörçill Britaniya nöqteyi-nəzərini belə şərh etdi: "Biz istəyirik ki, bu məsələyə ehtiyatlı addımlarla yaxınlaşaq ki, Türkiyəni qorxutmayaq. Əgər Sovet İttifaqı ilə İngiltərə ümumi masa arxasında oturub barışıq haqqında saziş tərtib etsəydilər və əgər ruslar soruşsaydılar ki, ingilislər Sovet hərbi və ticarət gəmilərinin Aralıq dənizinə çıxış imkanı verilməsinə razıdırlarmı, onda o, deyərdi ki, Böyük Britaniya bunun əleyhinə deyildir". İ.Stalin qeyd etdi ki, o bu məsələdə

Çörçilli tələsdirmək istəmir, lakin onu xəbərdar etmək istəyir ki, Sovet ittifaqının qarşısında belə bir məsələ dayanır və o, istəyərdi ki, Çörçill məslənin belə qoyuluşunun qanuniliyini qəbul etsin. İ.Stalinin bu təklifinə Çörçill cavab verdi ki, o, bununla nəinki prinsip etibarı ilə razıdır, hesab edir ki,Sovet İttifaqı sazişin dəyişdirilməsinin vacibliyi ilə bağlı baxışlarını elan etmək haqqında təşəbbüsü öz üzərinə götürüb bu məsələ barəsində nə düşündüyünü Birləşmiş Ştatlara bildirməlidir.Öz tərəfindən Britaniya hökuməti Sovet İttifaqının iddiasını prinsip etibarilə ədalətli və mənəvi cəhətdən əsaslandırılmış hesab edir (43). Beləliklə,Moskva danışıqlarında U.Çörçill Sovet İttifaqının Montrö sazişinə yenidən baxılması və Boğazlar rejiminin dəyişdirilməsi haqqında iddialarına tərəfdar oldu. Lakin danışıqların mətni ilə tanışlıq və istifadə olunan ifadələrin müqayisəsi belə bir fikir söyləməyə əsas verir ki, Çörçill Montrö sazişinin ayrı-ayrı maddələrində dəyişiklik etməyə, Stalin isə onu dəyişməyə, Sazişi bütövlükdə yenisi ilə əvəz etməyə üstünlük verirdi.

Sovet və Britaniya rəhbərlərinin görüşündən dərhal sonra SSRİ Xarici İşlər Komissarlığında M.Litvinovun başçılığı ilə fəaliyyət göstərən "Sülh müqavilələrinin hazırlığı və müharibədən sonrakı quruculuğu üzrə komissiya" Sovet İttifaqı ilə İngiltərə arasında əməkdaşlığın mümkün əsasları və perspektivləri haqqında böyük bir sənəd hazırladı. 1944-cü ilin noyabr ayının 15-də Stalinə, Molotova, Dekanozova, Lazovskiyə və digərlərinə göndərilən bu sənəddə Sovet-İngiltərə və Rusiya-Britaniya münasibətlərinin keçmişinə geniş ekskurs edilirdi. Xüsusilə Yaxın və Orta Şərqdə bu iki dövlətin rəqabəti və əməkdaşlığı diqqətlə nəzərdən keçirilir, münasibətlərin həlledici məqamları geniş təhlil edilirdi (44). Sənəddə göstərilirdi ki, Osmanlı imperatoluğunun Britaniyanın maraqlarına uyğun formada parçalanması Şərq məsələsi deyilən problemi əhəmiyyətli dərəcədə azaltmış və onu bir növ köhnəltmişdir. Orada qeyd edilirdi ki, İngiltərə əlbəttə ki, Sovet İttifaqının kamalçı Türkiyə ilə dostluğuna əyri baxır və onu narazılıqla qarşılayırdı (45).

Boğazlar məsələsi ilə bağlı sənəddə qeyd olunurdu ki, bu məsələ əvvəlki kəskinliyini itirsə də, ümumilikdə mövcuddur. İndiki vəziyyət Britaniyanı təmin etsə də, Sovetləri təmin etmir. Boğazlar haqqında məsələyə baxılması qaçılmazdır, çətin ki, İngiltərə bunun əleyhinə olsun. Biz konvensiyaya dəyişiklikləri özümüzün arzuladığımız istiqamətdə etməliyik, əgər mümkün olsa Boğazlar üzərində nəzarəti Qara dəniz sahillərındəki ölkələrin əlinə keçirməliyik. İngiltərənin bu məsələdə bizimlə razılaşmayacağını düşünməyə heç bir əsas yoxdur (46). Beləliklə, M.Litvinov komissiyasının hazırladığı sənəddə Montrö sazişinə SSRİ-nin maraqları nöqteyi-nəzərindən yenidən baxılmasının zəruriliyi tarixi cəhətdən əsaslandırılır, eyni zamanda Avropada və Balkanlarda "təhlükəsizlik sahəsi"nin müəyyənləşdirilməsi və Türkiyənin Sovet "təsir dairəsi"nə

daxil edilməsi barədə İngiltərə ilə "centlmen sazişinin" bağlanması təklif olunurdu. Orada deyilirdi: "Müharibədən sonrakı dövrdə ingilis-sovet münasibətlərində böyük ziddiyyətlər yalnız Avropada qüvvələr nisbəti mülahizəsindən irəli gələcəkdir. Bu ziddiyyətlər Almaniya məğlub olduqdan, Fransa və İtaliya isə zəiflədikdən sonra SSRİ-nin gücünün artması nəticəsində daha da kəskinləşə bilər. Lakin ziddiyyətlərin kəskinliyinə baxmayaraq hadisələr İngiltərəni bizimlə Sazişə vadar edəcəkdir Belə Saziş yalnız Avropada təhlükəsizlik sahəsinin yaxın qonşu prinsipi üzrə qarşılıqlı razılaşma əsasında həyata keçirilə bilər. Sovet İttifaqı Finlandiyanı, İsveçi, Polşanı, Macarıstanı, Rumıniyanı, Balkan yarımadasının slavyan ölkələrini Türkiyə ilə bərabər özünün maksimum maraq sahəsinə aid edə bilər. Elə oradaca qeyd edilirdi ki, belə bölgü üzrə Sazişə Norveç, Yuqoslaviya və Türkiyəyə münasibətdə İngiltərə tərəfindən etiraz gözlənilə bilər. Coğrafi baxımdan həmin ölkələr SSRİ-yə yaxın olmasına baxmayaraq Britaniya onları, xüsusilə Norveç və Türkiyəni öz təhlükəsizlik sahəsinə daxil etmək istəyir" (47). Sənədin sonunda qeyd edilirdi ki, Boğazlar haqqında Montrö sazişinə baxılması barədə qarşılıqlı razılığı özündə əks etdirən təkliflər əlavə olaraq əsaslandırılacaqdır. Eyni zamanda müharibədən sonrakı dövrdə SSRİ ilə Britaniya arasında İran, Əfqanıstan və hətta mümkündür ki, Sinsiyan (Çin) üzrə razılığa gəlinməsi Xarici İşlər Komissarlığının təkliflərində özünə yer almışdı (48). Bu sənədlə tanış olarkən onun üzərindəki qeydlərindən aydın olur ki, xarici işlər komissarı V.Molotov M.Litvinov komissiyasının hazırladığı geniş arayışın "təsir dairəsi" haqqında söhbət gedən bölmələrinə daha çox maraq göstərmişdir (49).

M.Litvinov komissiyasının hazırladığı ikinci sənəd bilavasitə "Boğazlar haqqında məsələyə dair" adlanırdı və İngiltərə ilə əməkdaşlığın əsasları haqqında qeydlərə əlavə olaraq hazırlanmışdı. Əslində birinci geniş sənədin yekunlarında verilmiş üçüncü bənddə qeyd olunurdu ki, Boğazlar məsələsinə dair təkliflər əlavə sənəddə təqdim olunacaqdır. Elə həmin gün, 1944-cü ilin 15 noyabrında M.Litvinov tərəfindən imzalanmış və Stalin, Molotov, Dekanozov, Lazovski, Manuilski, Mayski və Surisə təqdim olunmuş dörd səhifəlik qeydlərdə Boğazlar məsələsinə münasibətdə Sovetlərin arzu və təklifəri əks olunmuşdu. Boğazlar məsələsi haqqında əvvəllər hazırlanmış tarixi arayışlar bu məruzənin hazırlanmasında əsas kimi götürülmüşdü. Bütövlükdə sənəd Boğazlardan gəmilərin buraxılması rejiminə münasibətdə Türkiyəni müstəsna nəzarət hüququndan məhrum etməyə yönəlmişdi. Orada gösətrilirdi ki, Boğazlar haqqında sazişin müddəti 1956-cı ildə başa çatır. Bu müddət başa çatmadan Konvensiyaya dəyişikliyi nəzərdə tutan hallar bizə imkan vermir ki, Türkiyə ilə razılaşmadan bizim arzuladığımız dəyişikliyə nail olaq.

Lakin M.Litvinov qeyd edirdi ki, bir sıra formal cəhətlərdən yayınaraq indiki müharibə nəticəsində şəraitin ciddi şəkildə dəyişməsi əsasında Montrö sazişi haqqında məsələni qoymaq mümkündür. Bunu M.Litvinov Yaponiyanın konvensiya iştirakçıları sırasından çıxarılması və Montrö sazişinin bir maddəsində istinad edilən Millətlər Cəmiyyətinin öz fəaliyyətini dayandırmas ilə əlaqələndirirdi. M.Litvinovun fikrincə, əlbəttə, Türkiyənin yenidən baxılmasına müqavimət göstərəcəyi halda Sazişə yalnız onun iştirakçılarının əksəriyyəti, ən əsası isə İngiltərə ilə qabaqcadan razılaşma və əməkdaslıq şəraitində yenidən baxmaq mümkün ola bilər (50).

Sonra M.Litvinov Montrö sazişinin Türkiyəyə üstünlük verən maddələrinin təhlilinə keçirdi və bunların arasından ən mühümü kimi Boğazlara nəzarət funksiyasının Türkiyəyə verilməsini dəyərləndirirdi. Eyni zamanda o, xatırlatmağı zəruri sayırdı ki, məhz nəzarət hüququnun Türkiyəyə verilməsində Sovet İttifaqı həm Lozannada, həm Lozannadan sonrakı dövrdə, həm də Montrö konfransının özündə Türkiyə ilə birlikdə təkid etmişdir. M.Litvinov Sovet rəhbərliyinə təqdim etdiyi məruzədə etiraf edirdi ki, praktiki baxımdan nəzarət, xüsusilə Boğazlar möhkəmləndirildikdə və silahlandırıldıqda onların sahillərində yerləşən və ona sahib olan dövlətə məxsus olur. Bu fikrini əsaslandırmaq üçün o, rus hökumətinin 1915-ci ilin mart ayının 4-də müttəfiqlərin Memorandumunda yazdığı bir ideyaya istinad edirdi. Orada deyilirdi: "Son hadisələrin gedişatı belə bir fikir doğurur ki, Konstantinopol və Boğazlar məsələsi Rusiyanın əsrlər boyu cəhdlərinə uyğun qurulmalı və sonadək həll edilməlidir. Konstantinopol şəhəri, Bosforun Qərb sahilləri, Mərmərə dənizi və Dardanell, eyni zamanda Enos-Midiya xətti boyunca Cənubi Frakiya gələcəkdə Rusiya imperiyasının tərkibinə daxil edilməyəcəyi təqdirdə məsələnin hər hansı həlli qəti və yetərli olmayacaqdır. Bununla yanaşı strateji zəruriliyi nəzərə alınmaqla Bosfor ilə Sakariya çayı hüdudlarında Asiya sahillərinin bir hissəsi və İzmid gölü sahillərinə aid müəyyən olunmuş məntəqələr, Mərmərə dənizinin adaları, İmbros və Teledos adaları imperiyanın tərkibinə qatılmalıdır" (51).

Həmin vaxt İngiltərə və Fransa məsələnin sonadək həllini sülh müqaviləsi bağlanan zamana keçirməklə bu təklifə prinsipial razılıqlarını bildirmişdilər. Həmin zamanlarda Türkiyə müttəfiqlərə qarşı vuruşurdu və məğlub ölkə kimi belə bir qərarı ona qəbul etdirmək olardı. M.Litvinov yazırdı ki, indi ona uyğun analoji vəziyyət mövcud deyildir. "Güc tətbiq etmədən yalnız diplomatik yollarla Türkiyəni sahilləri silahsızlaşdırıb taktiki olaraq Boğazlara nəzarətdən məhrum etmək mümkün deyildir. Əlbəttə, formal nəzarətin bizə verilməsi məsələsini qoymaq olar, lakin bu halda belə bunu güc tətbiq etmədən və ya güc tətbiq etməklə hədələmədən həyata keçirmək, hətta bizim təkliflərimiz İngiltərə tərəfindən müdafiə olunacağı təqdirdə belə çətin ki, mümkün olsun".

M.Litvinov təklif edirdi ki, mümkün variant SSRİ və Türkiyənin Boğazlara birgə nəzarətidir. Lakin bu yalnız iki ölkə arasında sıx dost münasibətlərinin mövcudluğu və Türkiyənin belə birgə nəzarətə könüldən razılığı olduğu halda yaxşı nəticələr verə bilər. Heç şübhəsiz, Türkiyə birgə nəzarətə məcbur edildiyi halda, dost olmayan münasibətlər şəraitin bu variant çətin ki, bizi təmin etsin. Bu halda Türkiyə gəmilərin buraxılması haqqında bizim istənilən təklifimizə etiraz edə və nəzarəti qeyri- səmərəli vəziyyətə sala bilər. Lakin bu halda belə SSRİ ilə Türkiyər birgə nəzarəti Türkiyənin indiki tək nəzarətindən daha əlverişlidir (52).

M.Litvinov komissiyası Sovet rəhbərliyinə tövsiyə edirdi ki, Lozan və Montrö arasında mövcud olan beynəlxalq nəzarətə qayıdılmasından imtina edilməlidir. Lakin bizim təsirimizin Rumıniya və Bolqarıstanı yetərincə möhkəm olduğu şəraitdə Qara dəniz dövlətlərinin birgə nəzarəti ideyası tamamilə qəbul ediləndir. Bu halda biz nəzarət komissiyasında səslərin dörddə üçünü əldə edirik, Gürcüstan və Ukraynanın komissiyaya daxil edibcəyi təqdirdə isə biz səslərin altıda beş hissəsinə malik oluruq.

SSRİ Xarici İşlər Komissarlığının ekspertləri müxtəlif variantları müzakirə etdikdən sonra belə qənaətə gəlirdilər ki, gəmilərin Boğazlarda buraxılmasına aid reqlament Boğazlara nəzarətdən az əhəmyyətli deyildir. Ona görə M.Litvinov yazırdı: Nəzarət Türkiyəninmi əlində qalacaq birgə Sovet-Türk nəzarətimi qurulacaq, yaxud Qara dəniz nəzarət komissiyasımı yaradılacaq, bütün bunlardan asılı olmayaraq biz Montrödə müəyyən edilmiş reqlamentin özünün dəyişməsinə nail olmalıyıq (53).

Montrö sazişinə yenidən baxılması ilə bağlı Xarici İşlər Komissarlığı SSRİ Hərbi-Dəniz Donanması Komissarlığı ilə məsləhətləşmələr aparmışdı. Hərbi-Dəniz Donanması Komissarlığı belə hesab edirdi ki, ticarət gəmilərinin Boğazlardan keçməsini tənzim edən Sazişin birinci bölməsi SSRİ-nin maraqlarını tamamilə təmin etdiyindən onun dəyişdirilməsinə ehtiyac yoxdur. M.Litvinov isə təklif edirdi ki, Türkiyə özünü bilavasitə hərbi təhlükə hədəsi altında hiss etdiyi halda, onun Boğazlardan ticarət gəmilərinin keçməsi üçün xüsusi qayda tətbiq etməsini nəzərdə tutar altıncı maddənin ləğv olunmasını tələb etmək lazımdır (54).

Montrö sazişinə görə Boğazlardan hərbi gəmilərin keçməsinə gəldikdə isə, Hərbi-Dəniz Donanması Komissarlığı təkid edirdi ki, Qara dəniz dövlətlərinin hər hansı hərbi gəmisinin həm sülh dövründə, həm də müharibə dövründə Boğazlar vasitəsi ilə hər iki tərəfə hərəkətinə tam hüquq verilməlidir. M.Litvinov bu təklifi müdafiə edirdi və bildirirdi ki, bu hüququ məhdudlaşdıran və sıxışdıran maddələrin ləğvinə nail olmaq lazımdır.

Daha sonra SSRİ Hərbi-Dəniz Donanması Komissarlığı 10 min ton ümumi su tutumu olan gəmilərin rəsmi səfərləri istisna olmaqla, qeyri-qara dəniz dövlətlərinin hərbi gəmilərinin Qara dənizə daxil olması

barədə hüquqlarının məhdudlaşdırılmasını  və digər ciddi əhəmiyyətə malik olmayan dəyişiklikləri təklif edirdi. Bunun davamı kimi M.Litvinov bir daha özünü bilavasitə hərbi təhlükə hədəsi altında hiss etdikdə xarici hərbi  gəmilərə münasibətdə Türkiyəyə xüsusi hüquqlar verən Montrö sazişinin 21-ci maddəsinin ləğvini arzu olunan addım hesab edirdi.Eyni zamanda Türkiyə ilə qarşılıqlı pakt bağlamış dövlətlərlə digər dövlətlər arasında fərqi özündə əks etdirən 19-cu maddənin dəyişdirilməsi Türkiyənin vuruşduğu ölkələrin gəmilərinə münasibətdə məhdudiyyətləri nəzərdə tutan 20-ci maddənin dəqiqləşdirilməsi arzu edilirdi. Sovet rəhbərlərinə təqdim olunan məruzənin sonunda M.Litvinov belə nəticəyə gəlirdi ki, yuxarıda göstərilən bütün dəyişikliklərin həyata keçirilməsi üçün İngiltərə ilə qabaqcadan razılaşmaq və ya Türkiyə ilə müvafiq müqavilə bağlamaq zəruridir (55).

Boğazlar məsələsinə dair Montrö sazişini dəyişdirmək və Türkiyəni Bosfor və Dardanell üzərində müstəsna hüquqdan məhrum etmək istiqamətində SSRİ Xarici İşlər Komissarlığında gərgin iş gedirdi. 1944-cü ilin noyabr ayının 17-də yenidən M.Litvinovun rəhbərliyi ilə "Boğazlar haqqında məsələyə dair" adlı iki səhifəlik qeydlər İ.Stalin, V.Molotov, V.Dekanozov, S.Lazovski və digərlərinə göndərildi (56).

1944-cü ilin martında ayrı-ayrı müttəfiq respublikalarda Xarici İşlər Komissarlıqlarının yaranması müharibədən sonrakı dünya quruculuğunda Sovet İttifaqının imkanlarını, qonşu dövlətlərə, o cümlədən Türkiyəyə təsirini və təzyiqini artırmağa, beynəlxalq təşkilatlarda möhkəmlənməyə hesablanmış ciddi siyasi addım idi. Məlum olduğu kimi, 1922-ci ildə SSRİ yarananda ona daxil olan ayrı-ayrı respublikalar öz hüquqlarının bir hissəsini, xüsusilə xarici siyasət və Müdafiə məsələləri ilə bağlı hüquqlarını ittifaq dövlətinə vermişdilər. 1944-cü ilin yazında bu hüquqların yenidən miittəfiq respublikalara qaytarılması SSRİ-nin demokratikləşməsi, onun subyektlərinin hüquqlarının genişləndirilməsi, milli siyasətdə baş verən dəyişikliklərin nəticəsi olmayıb, dünya müharibəsinin sonunda beynəlxalq aləmdə baş verən dəyişikliklər və bu dəyişikliklərdən SSRİ-nin hərbi, siyasi və strateji maraqları üçün daha effektli istifadə etmək zərurətindən irəli gəlirdi. Sovet mətbuatında bu addımı müttəfiq respublikaların suverenliyinin möhkəmləndirilməsi, guya xarici dövlətlərlə birbaşa əlaqələrin qurulmasının müttəfiq respublikaların milli maraqları, təsərrüfat və mədəni ehtiyaclarından irəli gəlməsi kimi şərh edilməsi sırf deklarativ xarakter daşıyırdı (57). Əslində isə bu addımdan daha geniş məqsədlər üçün - yeni yaranan Birləşmiş Millətlər Təşkilatında mümkün olduğu qədər daha çox səslə təmsil olunmaq, M.Litvinovun 15 noyabr məruzəsində işarə edilən Ukrayna və Gürcüstanın Boğazlara nəzarət üzrə yaradılması nəzərdə tutulan Qara dəniz dövlətləri komissiyasında iştirakını təmin etmək, Ermənistan və Gürcüstandan Türkiyəyə qarşı, Azərbaycandan İrana qarşı,

Ukrayna və Belorusiyadan Polşaya qarşı, Baltikyanı respublikalarından Almaniyaya qarşı, hətta Özbəkistandan Çinin Şərqi Türküstan əyalətinə qarşı SSRİ tərəfindən irəli sürüləcək ərazi iddialarında istifadə etmək planlaşdırılırdı. Məhz bu məqsədlə sərhədyanı dövlətlərdə baş verən bütün hadisələr, gedən bütün siyasi proseslər Sovet İttifaqının maraq dairəsin daxil edilmişdi. Lakin hələ ki, bu geniş planlardan yalnız Boğazlar rejimini dəyişmək uğrunda mübarizə müttəfiqlərarası münasibətlərdə açıq xarakter almış, Türkiyənin Boğazlara nəzarət hüququnu onun əlindən almaq və ya ən azı bu hüquqa şərik olmaq barədə çeşidli gizli variantlar hazırlanırdı 1945-ci ilin Krım konfransı ərəfəsində və konfransın gedişində bu iş daha intensiv xarakter almışdı.

1945-ci ilin ilk günlərində Xarici İşlər Komissarının müavini V.Dekanozov Komissarlığın Türkiyə tarixi üzrə eksperti A.Millerə tapşırıq vermişdi ki, Qara dəniz boğazlarında mövcud rejimi dəyişmək istiqamətində öz fikir və mülahizələrini hazırlasın. Bu tapşırığa uyğun olaraq A.Miller yanvar ayının 15-də qeyd edilən məsələ ilə bağlı öz təkliflərini V.Dekanozova təqdim etdi. Beş səhifədən ibarət olan bu sənəddə Boğazlar rejimi ilə yanaşı, eyni zamanda Sovet-Türkiyə münasibətlərinin bir sıra maraqlı məqamlarına toxunulmuşdu. M.Litvinovun "Boğazlar haqqında məsələyə dair" məruzəsinin əksinə olaraq A.Miller belə hesab edirdi ki, Montrö sazişinə görə Boğazlar rejiminin əlverişli olmaması 1936-cı ilin 20 iyulunda imzalanmış Sazişdən deyil, daha çox onun Türkiyə tərəfindən həyata keçirilməsindən irəli gəlir. Onun fikrincə, Sazişin öz-özlüyündə mühüm sayılan maddələri qənaətbəxşdir. Belə ki, Montrö sazişi təkcə Türkiyənin təhlükəsizliyi ilə bağlı deyil, bütün Qara dəniz dövlətlərinin, eyni zamanda SSRİ-nin təhlükəsizlik maraqları ilə bağlı mühüm prinsipial məsələləri özündə əks etdirir. Dinc dövrdə Qara dəniz dövləti olmayan ölkələrin hərbi gəmilərinin Qara dənizə buraxılması növünə, su tutumuna və Qara dənizdə olma müddətinə görə o dərəcədə məhdudlaşdırılır ki, çətin ki, o bizim üçün təhlükə yaratsın. Eyni zamanda dinc şəraitdə Sovet hərbi gəmiləri Boğazlardan keçməkdə demək olar ki, qeyri-məhdud hüquqlara malikdirlər. A.Miller əlavə edirdi ki, müharibə dövründə Türkiyənin neytrallığı şəraitində bütün vuruşan ölkələrin hərbi gəmilərinin Boğazlardan keçməsi qadağan edilir ki, Qara dənizin təhlükəsizliyi baxımından bu daha çox əlverişlidir. Bütün bu məsələləri sadaladıqdan sonra o qeyd edirdi: "Əgər Sazişin mətnindən çıxış etsək, Montrödə qurulan rejim 1841-ci ilin London sazişindən başlayaraq bütün əvvəlki beynəlxalq reqlamentlərlə müqayisədə bizə daha artıq üstünlüklər verir" (58).

Lakin A.Miller qeyd edirdi ki, Montrö sazişinin həyatda yerinə yetirilməsinin gedişində belə bir çatışmazlıq müəyyən edilmişdir ki, Türkiyə hökuməti onun maddələrinin yeganə və nəzarətsiz şərhçisidir. 1936-ci ildə şübhəsiz ki, Sazişin həyata keçirilməsini xüsusilə hərbi şərait

ağırlaşanda onu kollektiv təhlükəsizlik sistemi və Millətlər Cəmiyyətinin mümkün qərarları ilə, o cümlədən təcavüz qurbanı olanlara kömək göstərmək də daxil olmaqla əlaqələndirməyi güman edirdilər. A.Millerin fikrincə, Millətlər Cəmiyyətinin iflası Sazişin bir sıra maddələrinin ilkin mənasını dəyişdirmiş və Türkiyə hökumətinin fəaliyyət azadlığını daha genişləndirmişdir. Belə ki, Türkiyə Sazişin bir sıra maddələrini özbaşına şərh etmək və hətta bizim maraqlarımıza ziyan vurmaqla onu pozmaq imkanı əldə etmişdir. A.Miller təklif edirdi ki, ilk növbədə Montrö sazişinin bu çatışmazlığını aradan qaldırmaq lazımdır. O, yazırdı: "Heç bir ölkə, o cümlədən Türkiyə özü də inkar edə bilməz ki, bütün Qara dəniz dövlətlərinin təhlükəsizliyinə aid Montrö sazişinin maddələrinin həyata keçirilməsi yalnız bir Türkiyənin yanaşmasından asılı olsun". Ona görə A.Miller hesab edirdi ki, Millətlər Cəmiyyətinin iflası nəticəsində Sazişdə yaranan problemlər, eyni zamanda həmin dövrdəki müharibənin doğurduğu təzahürlər SSRİ-yə və az-çox maraqlı olan ölkələrə əsas verir ki, müvafiq təminatlar tələb etsinlər. Bununla bir növ Krım konfransı ərəfəsində Sovet eksperti Montrö sazişində Türkiyənin qərarının dəyərləndirilməsi haqqında Millətlər Cəmiyyətinin hüququnun Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasına verilməsini mümkün hesab edirdi (59).

A.Millerin hazırladığı gizli təkliflərlə tanışlıq belə bir fikir söyləməyə əsas verir ki, Boğazlar məsələsinə dair Montrö sazişinə münasibətdə o, 1945-ci ilin 15 yanvarında hazırladığı sənəddə daha obyektiv idi, nəinki 1945-ci ildən sonra Sovet İttifaqının Türkiyəyə təzyiqlərini ideoloji cəhətdən "əsaslandırdığı" çoxsaylı əsərlərində (60).

Montrö sazişində Boğazlara nəzarətlə bağlı A.Millerin təklifi M.Litvinovun sənədində irəli sürülən təkliflərə bir qədər yaxın idi. A.Miller də belə hesab edirdi ki, Boğazların birgə müdafiəsi haqqında ikitərəfli Sovet-Türkiyə sazişi daha məqsədəuyğun təminat forması olardı. Onun fikrincə, bu Saziş İngiltərə və ABŞ-ın razılığı ilə bağlanıb, daha sonra sazişin açıq hissəsi rəsmi qaydada Yaponiya, hətta mümkündür ki, Rumıniya, Bolqarıstan və İtaliya istisna olmaqla Montrö konfransı ıştirakçılarının nəzərinə çatdırıla bilər. A.Miller təsdiq edirdi ki, ikitərəfli saziş Sovet İttifaqı üçün faydalıdır, nəinki çoxtərəfli saziş. O, fikrini bununla əsaslandırırdı ki, ikitərəfli sazişin bağlanması üçün Montrö sazişinin bütün iştirakçılarını danışıqlara cəlb etmək tələb olunmur, bu zaman Boğazlar üzərində dövlətlərin kollektiv nəzarəti haqqında məsələnin qoyuluşundan qaçmaq mümkün olacaq və Türkiyə hökuməti bılavasitə bizə münasibətdə öhdəliklərlə daha sıx bağlı olacaqdır (61).

İkitərəfli Sovet-Türk sazişinin xeyrinə A.Miller bir sıra dəlilləri önə çəkirdi. Onun fikrincə, Sovet-Türk sazişinin Qara dənizlə məhdudlaşan məhəlli xarakteri, Montrö sazişinin nə əvəzlənməsi, nə dəyişdirilməsi

deyil söhbət elə interpretasiyasından gedir ki, Sazişin Türkiyəyə verdiyi böyük hüquqların bir hissəsinin SSRİ hökumətinə güzəştə gedilməsi nəzərdə tutulsun. A.Milierə görə SSRİ üçün zəruri idi ki, Millətlər Cəmiyyəti ilə bağlı şərait aradan qalxdıqdan sonra Sazişin 19-cu maddəsi üzrə yalnız İngiltərənin tək yararlandığı hüquqları əldə etsin. Bunun üçün o, ingilis-Sovet İttifaq müqaviləsi və qarşılıqlı yardım haqqında ingilis türk müqaviləsi nəzərə alınmaqla, bu iki müqaviləyə uyğun olaraq Sovet-Türk sazişinin layihələşdirilməsini və bağlanmasını məqsədə uyğun hesab edirdi.

A.Miller belə bir sazişin Türkiyə üçün də sərfəli olduğunu sübut etməyə çalışırdı. O qeyd edirdi ki, öz təhlükəsizliyi baxımından Türkiyə üçün zəruridir ki, Ankara 1921-ci ilin Moskva müqaviləsində qəbul olunmuş prinsiplərə qayıtsın. Əgər nəzərdə tutulan Saziş imzalanarsa, Sovet hökumətinin razılığı ilə 1945-ci ildə sona çatan dostluq və bitərəflik haqqında müqavilənin fəaliyyət müddətini yeni saziş kimi daha eyni müddətə uzatmaq olar.

Bütün bunlarla yanaşı, A.Miller şərti olaraq "Qara dənizin təhlükəsizliyi haqqında " adlandırdığı Sovet-Türkiyə sazişinin başlıca müddəalarını da irəli sürmüşdü. O təklif edirdi ki, tərəflər ilk növbədə sülhün təmin edilməsində qarşılıqlı maraqlırını ifadə etməli, dostluq və bitərəflik haqqında mövcud olan 17 dekabr 1925-ci il müqaviləsinə əlavə olaraq bir sıra protokol və sazişlərlə Qara dənizdə təhlükəsizliyin möhkəmləndirilməsi tədbirləri haqqında razılığa gəlməlidirlər. A.Miller izah edirdi ki, Qara dəniz zonası deyəndə 20 iyul 1936-cı ildə Montrödə imzalanmış Boğazlar haqqında Sazişin giriş hissəsində müəyyənləşdirildiyi kimi, Boğazlar zonası başa düşülməlidir.

SSRİ xarici işlər komissarının müavini V.Dekanozova təqdim edilmiş təkliflərdə nəzərdə tutulurdu ki, əgər Qara dəniz zonası hər hansı üçüncü dövlət tərəfindən təcavüz hədəsi ilə üzləşərdisə, müqavilədə olan tərəflər onlardan birinin ilk tələbinə uyğun olaraq təcavüzü uzaqlaşdırmaq üçün yollar axtarmaq məqsədilə təcili olaraq məsləhətləşmələrə başlamalıdırlar. Lakin nəzərdə tutulan məsləhətləşmələrdən asılı olmayaraq, əgər Sovet hökuməti Sovet İttifaqının Qara dəniz boyunca yerləşən ərazilərinə münasibətdə təcavüz təhdidinin olması haqqında Türkiyə hökumətinə məlumat verirsə, Türkiyə hökuməti nəzərə alsa ki, həmin təhlükə eynı zamanda Türkiyənin təhlükəsizliyini də təhdid edir, onda tərəflər Boğazlar haqqında Montrö sazişinin 21-ci maddəsinə uyğun olaraq dərhal fəaliyyətə keçməlidirlər. Bu şəraitdə qəbul edilmiş qərarlara baxmayaraq əgər SSRİ təcavüzə məruz qalarsa, Türkiyə isə vuruşmayan tərəf kimi qalarsa, Türkiyə hökuməti təcavüz qurbanına münasibətdə sazişin 19-cu maddəsinin nəzərdə tutduğu hüquqları SSRİ-yə tətbiq edə bilər. Sovet-Türk sazişinin Montrö sazişinin iştirakçısı olan dövlətlərin diqqətinə

çatdırılması,sazişin müddətinin ingilis-sovet İttifaqı müqaviləsinin müdətinə uyğunlaşdırılması ilkin layihədə nəzərdə tutulurdu.

SSRİ Xarici İşlər Komissarlığında hazırlanan layihədə Sovet-Türk sazişininə açıq maddələrdən əlavə üç gizli qərarın da daxil edilməsi təklif edilirdi. Bunlardan birincisi, Qara dənizə münasibətdə mümkün təcavüzü dəf etməyə qabaqcadan hazırlıq məqsədilə Türkiyə və Sovet hərbi dəniz qərargahlarının Boğazlar zonasını birgə qorumaq tədbirləri haqqında xüsusi Saziş imzalanmasına aid idi. Əlavə kimi nəzərdə tutulan gizli qərarın ikincisində Boğazların qorunmasında qabaqlayıcı tədbir kimi Türkiyə hökumətinin dəvəti əsasında Sovet dəniz qüvvələrinin təhlükə zonasına göndərilməsi nəzərdə tutulurdu. Üçüncü gizli əlavədə isə söhbət Türkiyənin Boğazlarda Montrö sazişinə görə qurduğu rejimi Sovetlərlə razılaşdırmasından gedirdi. Göründüyü kimi, Sovet ekspertinin təklif etdiyi saziş layihəsi və ona əlavə olaraq nəzərdə tutulan gizli sənədlər SSRİ-nin nəinki Boğazların qorunmasında iştirakını təmin edir, daha dəqiq desək,Bosfor və Dardanellin ələ keçirilməsinin başlanğıcını qoyurdu.

Bu layihənin müəllifi kim A.Miller özü də başa düşürdü ki, onun təklif etdiyi ağır şərtlər türklər tərəfindən müqavimətlə qarşılanacaqdır. Çünki bu layihə ən yaxşı halda birtərəfli xarakter daşıyırdı və Sovetlərin üzərinə elə bir öhdəlik qoymurdu. Lakin o, güman edirdi ki, əvvəl-axır türklər Qara dəniz və Boğazlar zonasını əhatə edən regional qarşılıqlı yardım paktı ilə razılaşacaqlar. Bu halda A.Miller təklif edirdi ki, Sovet İttifaqı bir sıra risqlərə gedib Boğazları hər hansı təhdiddən müdafiə etmək istiqamətində öz üzərinə öhdəliklər götürməlidir, heç olmasa ona görə ki, "Türkiyəyə münasibətdə olan təhdidlər bizim üçün həqiqi təhlükə sayılmayacaqdır".

Sovetlərin Boğazlarda maraqlarını təmin edəcək Türkiyə ilə Sazişdən əlavə A.Miller belə hesab edirdi ki, 1946-cı ildə Montrö sazişinə baxılmağın növbəti müddəti tamam olduğundan Sovet İttifaqı bu imkandan istifadə edib Sazişə bir sıra düzəlişlər etməlidir. Onun fikrincə, Millətlər Cəmiyyətinə olan bütün istinadların Sazişdən çıxarılması, Yaponiyanın iştirakçı dövlətlər sırasından azad edilməsi, yeni müstəqil Aralıq dənizi dövlətləri kimi Misir və Livanın Montrö sazişinə qoşulmasının mümkünlüyü, 21-ci maddə ilə bağlı əgər Qara dəniz dövlətlərindən hər hansı biri özünü müharibə təhlükəsində hesab edərsə, Boğazların qeyri-qara dəniz dövlətlərinin hərbi gəmiləri üçün müvəqqəti olaraq bağlanması ilə bağlı Türkiyənin öhdəliklərinin tamamlanması, Qara dəniz dövlətlərinin gəmilərinin Boğazlardan keçməsi üçün xəbərdarlıqların müddətinin 8 gündən 3 günə endirilməsi, hazırkı müharibədə baş vermiş hadisələrdən çıxış edərək Boğazları keçən hərbi və yardımçı gəmilərin xarakterinin dəqiqləşdirilməsi və s. məsələlər müzakirəyə çıxarılmalı idi.

Qara dəniz Boğazları ilə bağlı mövcud qaydalarda arzu olunan dəyişikliklər haqqında A.Miller öz mülahizələrini V.Dekanozova ünvanlasa

da,sənəd ciddi maraq doğurduğu üçün onun surətləri Molotov Vışinskiyə və Kavtaradzeyə də göndərilmişdi (62).

Boğazlar məsələsi ilə bağlı M.Litvinov və A.Millerin hazırladığı sənədlərdən başqa altında adı göstərilməyən anonim müəllifin hazırladığı üçüncü bir sənəddə 1945-ci ilin əvvəllərində SSRİ xarici işlər komissarının müavini S.Kavtaradzenin katibliyinə daxil olmuşdu. Bu sənəddə əvvəl təhlil edilən sənədlərin bir sıra müddəaları eyni ilə təkrar edilsə də SSRİ-nin Bosfor və Dardanell boğazlarının iş rejiminin təhlükəsizliyinə nəzarət prosesində iştirakı haqqında müxtəlif yolları nəzərdə tutan bir sıra yeni maraqlı məqamlar var idi. Sənədin müəllifi S.Kavtaradzeyə yazırdı ki, Boğazlara münasibətdə Türkiyəyə qarşı güc tətbiq edilməsi, eyni zamanda Boğazların beynəlmiləlləşdirilməsi məqsədəuyğun deyildir. O yazırdı: "Bu ona gətirib çıxarar ki, bir Türkiyənin yerinə Boğazlar üzərində sahiblərin sayı çoxalar. Məsələnin belə həlli bizi təmin etmir. Sənəd müəllifi Boğazlara birgə nəzarət haqqında Türkiyə ilə ikitərəfli saziş bağlanmasını təklif edirdi. Onun fikrincə, vaxtilə 1939-cü ilin Moskva danışıqları zamanı Sovet rəhbərləri belə bir sazişi Türkiyəyə təklif etmişdi, lakin o zaman həmin təklif Ş.Saracoğlu tərəfindən rədd edilmişdi (63).

Krım konfransı ərəfəsində Xarici İşlər Komissarlığının Boğazlar haqqında təkliflərinin hazırlanmasında hər üç sənəddən istifadə edilmişdi. Krım konfransında Boğazlar haqqında məsələnin qoyulacağına ciddi şəkildə hazırlaşan və Türkiyə ilə bağlı bir sıra məsələlərin müzakirəyə çıxarılacağını planlaşdıran Sovet rəhbərliyi Ankaradakı səfir S.Vinoqradovu Moskvaya çağırmışdı. Üç böyük dövlət başçısının Yalta konfransı başlandıqdan iki gün sonra 1945-ci il fevral ayının 6-da Bosfor və Dardanell haqqında SSRİ Xarici İşlər Komissarlığının hazırladığı geniş təkliflər S.Kavtaradze və S.Vinoqradovun imzası ilə V.Molotova təqdim edildi. Xarici İşlər Komissarlığının qeydlərində rus-türk münasibətlərinin tarixinə və İkinci Dünya müharibəsinin təcrübəsinə istinadən Montrö sazişinin ləğv edilməsinin zəruriliyi əsaslandırılırdı. Sənədin maraqlı cəhətlərindən biri ondan ibarət idi ki, Xarici İşlər Komissarlığı ümumiyyətlə Boğazlar rejimi üzərində Qərb ölkələrinin iştirakı ilə hər hansı formada beynəlxalq nəzarətin qurulmasından imtina etməyi təklif edirdi. S.Kavtaradze və S.Vinoqradov etiraf edirdilər ki, Boğazlarla bağlı məsələnin həlli ikitərəfli Sovet-Türk sazişindən keçir. Qeyd edilən Sovet-Türk sazişinə qarşı müttəfiqlərin müqavimətini qırmaq üçün onlar təklif edirdilər ki, həmin sazişə münasibətdə İngiltərə və ABŞ-la üçtərəfli sazişlər imzalanmalıdır. Bu üçtərəfli sazişə görə Türkiyə hökumətinə ABŞ və Britaniya tövsiyə etməli idilər ki, Boğazlarda Sovet İttifaqına hərbı baza və hava qüvvələri bazası verilməsinə razılaşsın. SSRİ-nin maraqlı dövlət kimi Bosfor və Dardanell zonasında aviasiya və hərbi-dəniz bazaları saxlaması nəzərdə tutulan yeni Sazişin həyata keçirilməsinə effektli nəzarətın zəruriliyi ilə əsaslandırılırdı. İkitərəfli Sovet-Türk sazişi baş tutmayacağı

təqdirdə ehtiyat variant kimi Qara dəniz dövlətlərinin razılığa gəlməsi, eyni zamanda Rumıniya və Bolqarıstana baza verilməsi nəzərdə tutulurdu (64).

Türkiyəyə qarşı acıqlı olsalar da, İngiltərə və ABŞ Boğazlar məsələsində son dərəcə ehtiyatlı hərəkət etməyin tərəfdarı idilər. Krım konfransı astanasında Britaniya Baş naziri U.Çörçillin bəyanatından belə məlum olurdu ki, İngiltərə Yaponiyanın saziş iştirakçıları sırasından çıxarılması, Millətlər Cəmiyyəti idarələrinin Birləşmiş Millətlər Təşkilatı idarələri ilə əvəz edilməsi kimi üçüncü dərəcəli dəyişikliklərə hazırdır. ABŞ-ın bu məsələyə münasibəti isə hələ oktyabr ayından başlayaraq hazırlanan Dövlət Departamentinin, Müdafiə və Dəniz Donanması Nazirliyinin Memorandumunda əks olunmuşdu.Krım konfransı ərəfəsində Memorandum prezident F.Ruzveltə təqdim olunmuşdu. Orada göstərilirdi ki, Boğazlar rejimində hər hansı ciddi dəyişikliklər Türkiyənin suverenliyini pozacaq, Balkanlardakı və Yaxın Şərqdəki siyasi və strateji qüvvələr nisbətinə pis təsir göstərəcəkdir. Bu məsələlər geniş təhlil edildikdən sonra Memorandumda belə nəticiyə gəlinirdi ki, əslində Türkiyə Boğazların yaxşı mühafizəçisidir. Müharibə dövründə SSRİ-yə göndərilən yardımların Boğazlar vasitəsi ilə daşınmamasını amerikanlar Egey dənizində, Rumıniyada, Bolqarıstanda və Yunanıstanda Alman bloku ölkələrinin hökmranlığı ilə izah edirdilər. Sənəddə göstərilirdi ki, ABŞ hökuməti Sovet İttifaqının təklifinə əsasən Montrö sazişində bəzi cüzi dəyişikliklərə etiraz etməyə bilər, lakin bütün dəyişikliklər sazişin özünün çərçivəsində edilməlidir (65). Göründüyü kimi, Krım konfransı ərəfəsində Boğazlarla bağlı SSRİ Xarici İşlər Komissarlığında hazırlanan sənədlər, təkliflər və yazılı qeydlər ABŞ və Britaniyanın mövqelərindən köklü şəkildə fərqlənirdi.

Krım konfransı ərəfəsində Türkiyə Boğazları Sovetlərə hərbi yüklər daşıyan müttəfiq gəmiləri üçün açmışdı. Bu addımın Montrö sazişinin maddələrinə zidd olması həmin dövrün siyasi şəraiti baxımından elə bir əhəmiyyət daşımırdı. Bununla belə, Türkiyə siyasi dairələri müttəfiqləri olan İngiltərənin soyuq münasibətindən narahatlıq keçirir və U.Çörçillin müharibəyə girməsəniz, müharibədən sonra yalqız qalacaqsınız" təhdidini tez-tez xatırlayırdılar. Lakin Krım konfransında U.Çörçill daha tədbirli hərəkət etdi.

Fevral ayının 8-də Yaltadakı müzakirələrdə İ.Stalin Türkiyənin İkinci Dünya müharibəsində yeritdiyi siyasətdən narazlıq edərək bildirdi ki, Türkiyə iki tərəf arasında var-gəl edir və qalib tərəf üzərində möhtəkirlik etməyə çalışır. Elə ilk müzakirələrdə Çörçill Stalinin bu fikrini dəstəkləmədi. O bildirdi ki, Türkiyənin Birləşmiş Millətlərə üzv olmasını qızğın şəkildə müdafiə etməyəcəkdir. Lakin bununla belə Çörçill qeyd etdi ki, müharibə boyunca Türkiyənin müttəfiqlərə münasibəti dostluq münasibəti olmuşdur (66). . Ankaradakı Sovet səfirliyinin birinci katibi V.Qrubyakov SSRİ xarici İşlər komissarının müavini S.Kavtaradzeyə yazırdı: "Türklər ehtiyat edir-

lər ki, Krım konfransında gizli sazişlər imzalansın. Onlar konfransın qərarlarının tənqidinin müttəfiqlərin nazarılığına səbəb ola biləcəyindən və Türkiyənin təcrid olunmuş vəziyyətə düşəcəyindən ehtiyatlanırlar" (67).

Krım konfransı başa çatdıqdan sonra da fevral ayı ərzində SSRİ Xarici İşlər Komissarlığı Boğazlar məsələsi ilə bağlı 1944-cü ilin noyabr ayından başlayan gərgin axtarışlarını davam etdirirdi. Komissarlığın Yaxın Şərq şöbəsində 1945-ci ilin 20 fevralında hazırlanan "Boğazlar rejimi haqqında məsələyə dair" analitik materialda üç müttəfiq dövlətin təminatı altında ikitərəfli Sovet-Türk sazişi çərçivəsində Boğazlar məsələsinin həlli SSRİ üçün əlverişli sayılırdı. Bundan bir qədər az əhəmiyyətli variant kimi bütün Qara dəniz dövlətlərinin sazişini üç müttəfiq dövlət arasında sazişlə əlaqələndirməklə Boğazlar rejiminin reqlamentləşdirilməsi məqsədə uyğun hesab edilirdi. Artıq fevral ayının 24-də Türkiyədəki səfir S.Vinoqradovla Xarici İşlər Komissarlığının ekspert-məsləhətçisi V.Durdenevski arasında söhbətdən aydın olur ki, Türkiyə özünü hərbi təhlükə altında elan etdikdə onun bu barədə qəbul etdiyi qərarlara Birləşmiş Millətlərin Təhlükəsizlik Şurası tərəfindən nəzarət funksiyasının saxlanması Sovetlər tərəfindən arzuolunmaz sayılır (68). Şübhəsiz ki, bu, Krım konfransının gedişində Boğazlar məsələsi ilə bağlı müttəfiqlərin mövqelərinin Sovet rəhbərliyini təmin etməməsi ilə bağlı idi. Eyni zamanda fevral ayının 24-də axşam İ.Stalinin Moskvaya çağırılmış Ankaradakı Sovet səfiri S.Vinoqradovu qəbul etməsi və onunla bir saata yaxın söhbət etməsi Sovetlərin Türkiyəyə, ilk növbədə isə Boğazlara yönəlik planlarının ciddi xarakter almasından xəbər verirdi. Səfir S.Vinoqradovla yanaşı SSRİ xarici siyasətinin müəyyənləşdirilməsində bilavasitə iştirak edən Molotov, Beriya, Malenkov, Vışinski, Kavtaradze, habelə Rumıniyada Sovet nəzarət komandanlığının sədri general-leytenant Vinoqradov və Xarici İşlər Komissarlığının şöbə müdiri Pavlov söhbətdə iştirak edirdi (69).

Krım konfransı haqqında ilk məlumatlar Türkiyə mətbuatında 1945-ci ilin yanvar ayının sonu, fevral ayının əvvəllərində getməyə başlamışdı. Bu məlumatları Türkiyə mətbuatı Bern və Qahirə mənbələrinə istinadən versələr də, Sovet diplomatik idarələri Moskvaya yazdıqları gizli məlumatlarda həmin yazıların Alman mənbələrinə istinadən hazırlandığını iddia edirdilər. Krım konfransında müzakirə edibcək məsələlər barədə türk mətbuatı müxtəlif ehtimallar irəli sürürdülər. Hakimiyyətə yaxın olan qəzetlərin Balkanlarda və Şərqi Avropada hadisələrin gedişindən ciddi narahatçılığı hiss edilirdi. Tanınmış jurnalist N.Sadak 12 yanvar tarixli "Akşam" qəzetində yazırdı: "Məgər bu gün Rumıniya, Bolqarıstan, qismən Yuqoslaviya, Polşa və Macarıstan hərbi şəraitlə bağlı olaraq Sovet işğalı altında yerləşmir, sabah isə növbə Avstriya və Çexoslovakiyaya çatacaqdır. Təbiidir ki, əgər müttəfiqlər Ziqfrid xəttini Qərbə

doğru yarıb keçməsələr, Almaniya ilə də eyni şey baş verəcəkdir". Türkiyə hökuməti mətbuatda bu tipli yazıların getməsində maraqlı deyildi. Ona görə mətbuat və təbliğat idarəsi hökumətə yaxın olan türk mətbuatına tövsiyə etmişdi ki, müttəfiqləri müdafiə edən yazılara üstünlük versinlər. Krım konfransı dövründə Sovet İttifaqına münasibətdə türk mətbuatında açıq bir ehtiyatlılıq hiss edilirdi. Fevral ayının ilk günlərindən başlayaraq, xüsusilə mətbuatda tez-tez Türkiyənin müttəfiqlərə yardımını xatırlanır, o cümlədən qeyd edilirdi ki, Almaniyanı Qafqaza və İrana, İtaliya donanmasını Qara dənizə buraxmamaqla Türkiyə Sovetlərə böyük xidmət göstərmişdir. Ehmet Şükrü Esmer ingilis-türk ittifaqını Türkiyə xarici siyasətinin məhək daşı hesab etməklə yazırdı: "Türkiyə öz xarici siyasətinə belə istiqamət verməklə yanaşı, bir dəqiqə də köhnə dostluq telləri ilə bağlı olduğu Sovet İttifaqı haqqında unutmamışdır. Sovet İttifaqı və Türkiyənin hər iki ölkədə inqilabın ən böhranlı günlərində başlayan sülhsevər və möhkəm dostluq siyasətinə heç nə mane ola bilməz" (70).

Nəhayət, Krım konfransının sona çatmasına bir gün qalmış İ.Stalin Boğazlar məsələsi haqqında Sovetlərin baxışlarını açıqladı. Bu açıqlama SSRİ Xarici İşlər Komissarlığının konfrans ərəfəsindəki hazıqlıqlarına uyğun deyildi. Görünür, İ.Stalin Qərb müttəfiqlərinin bu məsələ ilə bağlı fikirlərinə bələd idi və eyni zamanda Avropada müharibənin başa çatdığı mərhələdə hələ müzakirə üçün tam hazır olmayan Boğazlar məsələsini daha münasib bir vaxtda müzakirə etməyə üstünlük verdi. O. Boğazlarla bağlı məsələyə yalnız müttəfiqiərin qəbul edə biləcəyi və 1944-cü ilin oktyabr ayında Britaniya Baş naziri U.Çörçillə müzakirə etdiyi formada toxundu. O, Millətlər Cəmiyyətinin artıq mövcud olmadığı və Yaponiyanın sazişi imzalayan dövlətlər sırasından çıxarılmasının zəruriliyi ilə bağlı Montrö sazişinə dəyişiklik etmək məsələsinə toxunub dedi: "Bu saziş köhnəlib və öz ömrünü yaşayıb. Türkiyəyə hüquq verilib ki, nə vaxt istəsə Boğazları bağlasın. Türkiyənin suverenliyinə ziyan vurmadan Montrö sazişində dəyişiklik etmək zəruridir. Burada söhbət hər hansı vaxtda Sovet hərbi gəmilərinin Boğazlardan azad şəkildə keçməsinin zəruriliyindən gedirdi. U.Çörçill bu məsələdə İ.Stalini müdafiə etdi və bildirdi ki, hələ 1944-cü ilin oktyabrında Moskvaya səfər etdiyi zaman verdiyi sözə sadiqdir və İngiltərə Montrö sazişinə baxılmasına müsbət yanaşır. Lakin, Çörçill ingilis-türk ittifaq müqaviləsinə görə, Türkiyənin maraqlarına toxunan məsələ haqqında ona məlumat verilməsinə aid öhdəliyi olduğunu və eyni zamanda Boğazlar məsələsinə baxmağın Aralıq dənizində ABŞ-dan fərqli olaraq Birləşmiş Krallığın mənafeyinə daha çox toxunduğunu xatırladıb Türkiyənin suverenliyi məsələsində bir daha Stalinin fikrini öyrənmək istədi. İ.Stalin təsdiq etdi ki, əgər Birləşmiş Krallıq və ABŞ Sovet təkliflərinin qəbul olunmasına razılıq

verərlərsə, Türkiyənin suverenliyi ziyan çəkməyəcəkdir. ABŞ prezidenti F.Ruzvelt müttəfiqlərin məsələni belə qoyması ilə razılaşdı (71). Krım, konfransında qərara alındı ki, Montrö sazişinə baxılması ilə bağlı Sovet təklifləri üç ölkənin xarici işlər nazirlərinin London görüşündə müzakirə edilsin və bu müzakirələr barədə Türkiyə məlumatlandırılsın (72). Eyni zamanda Krım konfransında razılığa gəlindi ki, işə başlaması aprel ayının 25-i üçün nəzərdə tutulan Birləşmiş Millətlərin konfransına 1945-ci ilin mart ayının 1-nə qədər ümumi düşmənə müharibə elan etmiş ölkələr dəvət edilsin.

Krım konfransının Türkiyə və Boğazlarla bağlı qərarları açıqlanmasa da, onun yekunları türk mətbuatında və siyasi dairələrində geniş müzakirə edildi. Lakin bütövlükdə konfransın rəsmi qaydada açıqlanan qərarları Türkiyənin bütün nüfuzlu qəzetlərində çap olundu. Türk mətbuatı dairələrində belə söz-söhbət gedirdi ki, konfransda müzakirə edilən məsələlərin çoxu ilə bağlı Sovet nöqteyi-nəzəri qələbə çalmışdır. N.Sadakın 14 fevralda "Akşam", F.R.Atayın və A.Ş.Esmerin elə həmin gün "Ulus" qəzetində Krım konfransının qərarları ilə bağlı geniş yazıları getmişdi. Atay konfransın mühüm nailiyyətlərindən birinin müttəfiqlərin Atlantika Xartiyasına söykənərək azad olunmuş ölkələrdə birgə siyasət yeritməsində görürdü. Onun fikrincə bu, azad olunmuş ölkələrə birbaşa, yaxud dolayısı ilə hər hansı rejimin sırınmasına imkan verməyəcəkdi. A.Ş.Esmer isə yazırdı: "Konfransda qəbul olunmuş birgə məlumatın ən mühüm mənası ondan ibarətdir ki, Yalta konfransında həm qələbə məsələsinə və həm də dünyanın düzəni məsələsinə münasibətdə hər üç dövlətin birliyinə nail olundu".

Türk jurnalistləri Krım konfransında Türkiyə ilə bağlı məsələ müzakirə edilib-edilməməsindən xəbərsiz idilər. Lakin birgə məlumatda Balkan məsələləri haqqında ümumi fikir mübadiləsi haqqında qısa bir ifadənin getməsi Türkiəyədə müxtəlif dairələrin narahatçılığına səbəb olmuşdu. Fevral ayının 14-də C.Yalçın "Tanin" qəzetində yazırdı: Biz başa düşürük ki, konfransda bizə aid məsələlər müzakirə edilib. Lakin birgə məlumat Balkan məsələlərinin müzakirə olunduğu haqqında yalnız ümumi informasiya ilə kifayətlənir. Yalçın öz yazılarında Balkanlarda slavyan xalqlarının ittifaqının yaranmasının təcavüzkar əhvali-ruhiyyədən qidalanacağından ehtiyatlanır, türk-yunan blokunun bu təhlükəyə qarşı həmişə hazır olmağını zəruri hesab edirdi. O yazırdı: "Böyük dövlətlərin təsirindən kənar, Balkan xalqları arasında sülh və əməkdaşlıq əsasında müstəqil Balkan federasiyasının yaradılması üçün hər hansı yolun qaldığını biz görmürük" (73).

Krım konfransından sonra türk mətbuatının materialları və siyası dairələrinin fikirləri haqqında Moskvaya geniş məlumat hazırlayan Ankaradakı Sovet səfirliyi bildirirdi ki, türklər Sovet-Amerika və Sovet-

İngiltərə münasibətlərinin inkişafını qısqanclıqla izləyirlər. Mətbuatda Amerikanın Sovet İttifaqına iri həcmdə və uzunmüddətli kredit verməsi haqqında məlumatların getməsi və SSRİ-nin Yaponiyaya müharibə elan edəcəyi ilə bağlı məsələlər Türkiyədə qızğın müzakirələrə gətirib çıxarmışdı. Sovet səfirliyinin məlumatında deyilirdi: Türklər ehtiyat edirlər ki, Sovet İttifaqının Türkiyəyə hər hansı tələbi olduğu təqdirdə, onlar ancaq ingilislərə arxalana bilərlər. ABŞ isə ən yaxşı halda türkləri müdafiə üçün deyil, yalnız Sovet və ingilis nöqteyi-nəzərlərini yaxınlaşdırmaq üçün vasitəçi kimi çıxış edə bilər (74).

Krım konfransından döndükdən sonra Britaniya parlamentinin icma palatasında U.Çörçillin Türkiyənin siyasəti barəsində ruhlandırıcı çıxışı ölkənin siyasi dairələrini bir növ bədbinlikdən çıxardı. Bu zaman xarici mətbuatda gedən çoxlu yazılarda qeyd edilirdi ki, Türkiyə müharibəyə girməkdə yubanmışdır, artıq o, Birləşmiş Millətlərə heç bir köməklik göstərə bilməz. Türkiyə mətbuatı və siyasi dairələri həmin fikirlərə cavab kimi Çörçillin icma palatasındakı çıxışına istinad edirdilər.

Krım konfransından sonra 1945-ci ilin fevral ayının 20-də Britaniyanın Ankaradakı səfiri M.Peterson Türkiyənin yeni xarici işlər naziri Hasan Saka ilə görüşüb bildirdi ki, Yalta konfransının qərarına uyğun olaraq Türkiyə mart ayının 1-nə qədər Almaniya və Yaponiyaya müharibə elan etməsə Birləşmiş Millətlərin San-Fransisko konfransına qatıla bilməyəcəkdir. H.Saka təcrübəli diplomat olduğundan bunun nə demək olduğunu yaxşı anlayırdı. O, hələ 20-ci illərin əvvəllərində Lozannadakı Türkiyə nümayəndə heyətinin üzvü olmuş, 30-cu illərdə Türk nümayəndə heyətinin üzvü kimi Afinada və İstanbulda Balkan konfransında iştirak etmiş, Cenevrədə keçirilən Panavropa konfransına qatılmış və uzun müddət Türkiyə Böyük Millət Məclisinin Xarici işlər komissiyasına başçılıq etmişdi (75).

M.Peterson-H.Saka görüşündən dərhal sonra fevral ayının 23-də Türkiyə Böyük Millət Məclisinin saat 18-də açılan fövqəladə iclasında Birləşmiş Millətlərin 1 yanvar Bəyannaməsinə qoşulmaq, Almaniya və Yaponiyaya müharibə elan etmək barədə müzakirələr başladı. Sovetlərin hədələri qarşısında yalqız qalmaq qorxusu və müharibənin sonunda dünyada şəraitin dəyişməsi düzgün qərarlar qəbul edilməsi üçün çıxış nöqtəsi oldu. Xarici işlər naziri H.Saka Britaniya səfiri ilə görüş barədə Məclisə geniş məlumat verərək dedi: "Bizim müttəfiqimiz olan İngiltərənin səfiri ser Moris Peterson fevral ayının 20-də Xarici İşlər Nazirliyinə gəldi, mənimlə söhbət etdi və öz hökumətinin adından mənə memorandum təqdim etdi. Səfir bəyan etdi ki, əgər Türkiyə mart ayının 1-nə qədər müharibə elan etmək haqqında qərar qəbul etsə, onda o müttəfiq dövlətlərin ABŞ-da qəbul edilmiş Bəyannaməsinə qoşulmaq haqda öz arzusunu ifadə edə bilər. İngiltərə dövləti tərəfindən Cümhuriyyət

hökumətinə tövsiyə edilən son təklif indi məmləkət və millətimizə müttəfiqlərin davasına yeni bir yardımda bulunmaq və fürsəti verməkdədir. Bizim hökumətimiz əsaslı şəkildə bu təklifi araşdırıb və belə fikrə gəlib ki, bu təklifi qəbul etmək bizim ittifaqımıza, həyata keçirdiyimiz davamlı siyasətə tam uyğundur". Xarici işlər naziri H.Sakanın məlumatından sonra çıxtş edən Məclis üzvləri Ali Rana Tarxan, Şemsettin Günaltay, Mümtaz Ökmen, Rasih Kaplan, Faik Öztrak. Mehmet Emin Ereşelgil və digərləri onun təklifini müdafiə etdilər. M.Ökmen öz çıxışında dedi: "Baxmayaraq ki, bizim böyük qonşumuz Stalinnqradda düşmənə təkbaşına müqavimət göstərdi, bu qəhrəmanlıqda qaya kimi Boğazları, özünün cənub və Qafqaz sərhədlərini müdafiə etmiş bizim xalqımızın da şöhrət payı vardır". Müzakirələrin sonunda söz alan Baş nazir Ş.Saracoğlu dünyada dəyişən şərtlərə sürətlə uyğunlaşmağın zəruriliyinə toxunaraq bildirdi: Bəşəriyyət tarixinin son illərində bir sıra insanlar törədi. Bunlar bayraqlarının üstünü irq və həyat sahəsi kimi görüntülərlə bəzədilər. Bununla da qalmadılar, bütün haqq və ədalət qaydalarını çeynəyərək kiçik və məsum millətləri birər-birər boyunduruq altına almağa başladılar. Bu mənzərə qarşısında insanlığı, mədəniyyəti, hürriyyət və demokratiyanı qurtarmağa çalışan böyük dövlətlər bir-birinin ardınca silaha sarıldılar. Bu gün bir addım daha ataraq insanlığı, mədəniyyəti, hürriyyəti, istiqlalı, demokratiyanı qurtarmaq və müharibə günahkarlarını şiddətlə cəzalandırmaq istəyənlərin arasına qatılmaq istəyirik. Biz çoxdan bəri müharibə iştirakçıları arasında faktiki olaraq tutduğumuz yeri tutmağı arzulayırıq. Bunu təmin etmək məqsədilə Almaniya və Yaponiyaya müharibə elan etməyi arzulayırıq və hesab edirik ki, bu, bütün dünyanın və bəşəriyyətin maraqlarına uyğun olduğu dərəcədə bizim milli maraqlarımıza da uyğundur (76). Baş nazir Ş.Saracoğlunun bu çıxışından sonra Türkiyə Böyük Millət Məclisi 401 səslə Almaniya və Yaponiyaya müharibə elan etmək, Birləşmiş Millətlərin Bəyannaməsinə qoşulmaq barədə qərar qəbul etdi. Türkiyənin müharibəyə daxil olması barədə qərar qəbul edilən günün səhəri fevral ayının 24-də ABŞ-la Türkiyə arasında Lendliz qanunu çərçivəsində saziş imzalandı. Az sonra isə Türkiyə mart ayının 5-də San-Fransisko konfransına rəsmi dəvət edildi və Birləşmiş Millətlərin təşkilatçıları, ilk qurucu üzvləri arasında yer aldı.

Türkiyənin müharibəyə girməsi barəsində Böyük Millət Məclisinin qərarı istər ölkə və istərsə də ingilis-amerikan mətbuatında çoxsaylı yazılarla müşayiət olundu. Bütövlükdə mətbuat bu hadisəni Türkiyənin Balkanların və Egey dənizi hövzəsinin gələcəyi ilə bağlı müzakirələrdə iştirak hüququ alması kimi qiymətləndirirdi. Sovet səfirliyinin SSRİ Xarici İşlər Komissarlığına göndərdiyi məlumatda göstərilir ki, Türkiyənin müharibəyə girməsi ilə bağlı türk mətbuatı Türkiyənin müttəfiqlər qarşısında "xidmətlərini" yenidən müzakirəyə çıxarmaq üçün əlverişli

bəhanə əldə etdi. Bu halda mətbuat müttəfiqlərin Almaniya və Yaponiyaya müharibə elan etmək və Birləşmiş Millətlərin Bəyannaməsinə qoşulmaq barədə Türkiyəyə müraciət etməsini demokratik ölkələrin ümumi mübarizəsində Türkiyənin xidmətlərinin müttəfiqlər tərəfindən tanınması kimi qəbul edir. Sovet səfirliyinin məlumatında göstərilirdi ki, jurnalistlərin çoxu inadkarlıqla bu addımı Türkiyənin müttəfiqlərə yardımının tanınması və ötən müddət ərzində yeridilən siyasətin doğruluğu kimi sübut etməyə çalışırlar. Onlar yazırlar ki, Türkiyə əvvəllər də Birləşmiş Millətlər ailəsində digər xalqlarla bərabər yer tutmaq hüququna malik idi. Sovet səfirliyi türk mətbuatında gedən belə bir ideyaya da diqqət yetirirdi ki, guya Krım konfransında bitərəf dövlətlərin hamısı Birləşmiş Millətlərin Bəyannaməsinə qoşulmağa dəvət almayıb. Mətbuatda bitərəf dövlətlərin yalnız bir hissəsinin, o cümlədən Türkiyənin belə bir dəvəti alması və Birləşmiş Millətlər ailəsində öz yerini tutması onun müttəfiqlərə yardımının təsdiqi kimi dəyərləndirilirdi. Bir çox jurnalistlər bütün bunları ingilis-türk ittifaq müqaviləsi ilə əlaqələndirirdilər. N.Nadi 24 fevral 1945-ci il tarixli "Cümhuriyyət" qəzetində yazırdı: "İngilis imperiyası ilə ittifaq müqaviləsi həm ruhuna, həm də məzmununa görə bizi azadlıqsevər millətlər ailəsində şərəfli yer tutmağa hazırladı".

Almaniya və Yaponiyaya müharibə elan edilməsinin Qızıl Ordunun yaranma gününə təsadüf etməsinə türk mətbuatı mühüm əhəmiyyət verib, bunu türklərin Sovet İttifaqına səmimi münasibətinin təzahürü kimi dəyərləndirirdi. "Yeni Sabah" qəzeti yazırdı: Bizim müharibəyə girmək haqqında qərarımızın Qızıl Ordunun yaranma gününün bayram edilməsi ilə bir vaxta düşməsi xoş təsadüfdür. Bizim müharibəyə girməyimiz şübhəsiz ki, böyük demokratik ölkələrə imkan verəcək ki, rus dostlarımıza daha geniş yardım göstərsinlər. Hal-hazırkı vaxtda Boğazlar bütövlükdə Sovetlərin güclənməsinə xidmət edəcək. Bəsrə və ya Vladivostokun əvəzinə daha yaxın əlaqə imkanı əldə edildi. Bizim müharibəyə girməyimizin birinci əlverişli nəticələri bundan ibarətdir. Bir sıra qəzetlər Türkiyənin müharibəyə girməsini onun gücündən, qüdrətindən, təsirindən, tarixi və coğrafi vəziyyətindən dinc dövrdə istifadə imkanlarının böyük potensialı ilə izah edirdilər. Sovet səfirliyi Moskvaya məlumat verirdi ki, belə yazılar Türkiyə hakimiyyət dairələrinin təhriki ilə yazılır.

Əlbəttə, dünya müharibəsinin sonunda Türkiyənin müharibəyə qatılması ayrı-ayrı ölkələrdə birmənalı qarşılanmırdı. Fransa mətbuatında, Sovet kütləvi informasiya vasitələrində Türkiyənin bu gecikmiş addımına açıq-aydın bir ironik münasibət hiss edilirdi. Lakin belə yazılar da öz növbəsində cavabsız qalmırdı. Tanınmış jurnalist C.Yalçın 14 mart tarixli "Tanın" qəzetində qeyd edirdi ki, Türkiyə 1940-cı ildə Almaniyaya qarşı müharibəyə girə bilməzdi, o ehtiyat edirdi ki, bu addım "almanlarla yanaşı dayanan" ruslarla münaqişəyə gətirib çıxara bilər.

Tehran konfransından sonra isə bu ona görə mümkün deyildi ki, türk ordusunu hərbi əməliyyatlara qatılacağı yeganə ərazi Bolqarıstan ərazisi idi C.Yalçının fikrincə, Bolqarıstan da Rusiyanın dostu idi. "Məgər Rusiya bizə təminat verirdimi ki, türk ordusunun bu slavyan ölkəsinə girməsinə etiraz etməyəcək. Əgər belə bir təminat olmadan Bolqarıstana girsəydik biz necə əmin ola bilərdik ki, Rusiyanın maraqlarına toxunmuruq". Ankaradakı Sovet səfirliyi belə hesab edirdi ki, C.Yalçının bu yazısı Moskva radiosunun Türkiyənin müharibəyə qatılması barədə açıqladığı fikirlərə türklərin reaksiyasıdır (77).

Müharibə sona yaxınlaşdıqca Sovet İttifaqı özünün Yaxın Şərq siyasətinə, ilk növbədə isə İrana və Türkiyəyə yönəlik addımlarına əməli xarakter verməyə başladı. Almaniya əleyhinə uğurlu hərbi əməliyyatlar,Sovet qoşunlarının Avropadakı qələbələri Moskvanın diplomatiyasında zor və təzyiq metodlarının güclənməsi ilə müşayiət olunurdu. 1945-ci ilin fevral ayının 26-da SSRİ-dəki İran səfiri Məcid Ahini qəbul edən V.Molotov Sovet tələblərini açıq şəkildə ortaya qoyur, diplomatik dildən daha çox təzyiq və şantaj metodlarına üstünlük verirdi. Sovet İttifaqının İranda neft maraqlarına toxunan M.Ahi qeyd etmişdi ki, müharibə dövründə xaricilərə neft konsessiyasının verilməməsi haqqında İran Məclisinin qərarından sonra Sovet İttifaqına neft konsessiyası vermək qeyri-mümkün olmuşdur. O əlavə edirdi ki, bu şəraitdə Sovet İttifaqı İrandan digər yolla neft ala bilər. V.Molotov isə qəti şəkildə deyirdi: "Sovet hökumətinin yalnız bir təklifi vardır, o da Şimali İranda konsessiya haqqında olan təklifdir. Sovet hökuməti Şimali İranda konsessiya haqqında təklifini neft məsələsi üzrə yeganə təklif hesab edir və İran hökumətinin Qarışıq Neft Cəmiyyəti haqqında təklifi heç bir halda Sovet maraqlarını və hüquqlarını təmin etmir" (78).

SSRİ-nin İranla yanaşı Türkiyəyə münasibətini sərtləşdirməsi xeyli dərəcədə Türkiyənin müharibəyə girməsi və Birləşmiş Millətlərin Bəyannaməsinə qoşulması ilə bağlı idi. Sovetlər ehtiyat edirdi ki, Türkiyənin müharibəyə girməsi Britaniyanın Boğazlara və bütövlükdə Türkiyəyə münasibətini dəyişdirə bilər. Hələ mart ayının 2-də Türkiyədəki Yuqoslaviya səfiri İ.Şumenkoviç Ankaradakı Amerika səfiri Steynhardta bildirmişdi ki, etibarlı mənbələrdən onda olan məlumata görə Yalta konfransından sonra V.Molotov Moskvadakı Türkiyə səfirinə bildirib ki, Sovet hökuməti Montrö sazişinə yenidən baxmağı Türkiyə hökuməti ilə müzakirə etmək istəyir. Türk səfiri isə ona cavab verib ki, Montrö sazişı "beynəlxalq məsələdir" (79).

1944-cü ilin payızından başlayaraq Boğazlarla bağlı Sovet ekspertləri tərəfindən hazırlanan bütün gizli sənədlərdə məsələnin həllinə ikitərəfli müqavilələr çərçivəsində üstünlük verilməsinə baxmayaraq, heç kəsin gözləmədiyi halda Sovet İttifaqı 1945-ci ilin mart ayının 19-da dostluq və

neytrallıq haqqında 17 dekabr 1925-ci il Sovet-Türk müqaviləsinin qüvvədən düşdüyünü bildirdi. Həmin gün Moskvadakı Türkiyə səfiri S.Sarperi qəbul edən V.Molotov bildirdi ki, Sovet hökuməti SSRİ ilə Türkiyə arasında dostluq münasibətlərinin inkişafında 1925-ci il müqaviləsini yüksək qiymətləndirir, lakin bununla belə İkinci Dünya müharibəsinin gedişində dərin dəyişikliklər baş verdiyindən bu müqavilə yeni şəraitə uyğun gəlmir və ciddi şəkildə təkmilləşdirmə tələb edir (80). Molotov qeyd edirdi ki, 1925-ci il müqaviləsi imzalananda Sovet İttifaqı İngiltərə ilə indikinə bənzər heç bir sazişə malik deyildi,ABŞ-la isə diplomatik münasibətləri belə yox idi.

Sovetlər 7 noyabr 1945-ci ildə vaxtı tamam olacaq türk-sovet müqaviləsinin qüvvədən düşməsinə 1945-ci il 19 mart tarixində qərar verdi. Bu da qətiyyən dünyada baş vermiş dəyişikliklərin nəticəsi kimi deyil, məhz təzyiq vasitəsi kimi qiymətləndirilməlidir. Rus alimi N.Koçkin haqlı olaraq belə hesab edir ki, 1944-cü ilin sonu -1945-ci ilin əvvəllərində SSRİ Xarici İşlər Komissarlığında hazırlanmış sənədlərdə həmin dövrdə yaranmış qüvvələr nisbəti şəraitində müqavilənin ləğv olunması haqda qərar qəbul edilməsinin arzuolunmazlığı dəlillərlə əsaslandırılsa da, Sovet rəhbərliyi daha ehtiyatlı təkliflərə məhəl qoymadı. Xarici İşlər Komissarlığının ekspertlərinin fikrincə, Türkiyə ehtiyat edirdi ki, müharibə qurtardıqdan sonra Sovet İttifaqı SSRİ ilə Türkiyə arasında mövcud olan və onun üçün sərfəli olmayan fikirləri özündə əks etdirən bir sıra müqavilələrin ləğv olunması haqqında məsələ qaldırar və Türkiyə üçün mövcud müqavilələrlə müqayisədə daha az sərfəli olan yeni müqavilənin qəbul edilməsinə təkid edə bilər (81). Sovet ekspertlərinin bu ehtimalları düz çıxdı. Türkiyə 20 il ərzində türk xarici siyasətinin təməli sayılan və dostluğun rəmzinə çevrilmiş bu müqaviləyə çox böyük önəm verməkdə idi. Buna görə də V.Molotovun 19 mart bəyanatına aprelin 4-də verdiyi cavabda Türkiyə hökuməti xalq komissarı Molotovun 1945-ci ilin mart ayının 19-da Moskvadakı türk səfiri S.Sarperə təqdim etdiyi nota ilə tanış olduğunu bildirir, yeni müqavilə bağlamaq üçün Sovet hökumətinin nə kimi təklifləri olduğunu soruşur və iki tərəfin də maraqlarına, eyni zamanda dəyişilmiş şəraitə uyğun yeni bir müqavilənin bağlana biləcəyini mümkün sayırdı. Sovet hökumətinin müqaviləni dəyişməklə bağlı təkliflərinə uyğun olaraq Türkiyə hökuməti ona təqdim edilmiş bütün təklifləri diqqətlə öyrənməyə və irəli sürülən təkliflərə bitərəf yanaşmağa hazır olduğunu açıqlayırdı (82).

Türkiyə hökuməti Sovetlərin bu addımını bir qədər təmkinlə qarşıladı. İlk əvvəl onlar SSRİ-nin Sovet-Türk müqaviləsini dayandırmadığı kiçik dəyişikliklərlə əlaqələndirməyə çalışır, Montrö sazişində bəzi dəyişikliklər edilməsini qaçılmaz hesab edirdilər. 1945-ci ilin mart ayının 2l-də Ankaradakı ABŞ səfiri Steynhardt Dövlət katibi C.Birnisə yazırdı kı, bu yaxınlarda görüşdüyüm Türkiyə Xarici İşlər Nazirliyinin məsul

nümayəndəsi dedi ki, onlar rusları Yaponiyanın Boğazlarda iştirakını arzu etmədiklərinə görə günahlandırmaq istəmirlər. Bununla belə ABŞ səfiri belə hesab edirdi ki, ruslar Boğazlar rejiminə özləri üçün əlverişli vaxtda baxmaq istəyirlər və bu yanaşma heç şübhəsiz ki, Türkiyə hökuməti üçün elə də asan qəbul edilən olmayacaqdır. Steynhardt haqlı olaraq Sovetlərin 19 martda Sovet-Türk müqaviləsini ləğv etməsini xarici işlər nazirlərinin qarşıdakı görüşünə hazırlıq çərçivəsində qiymətləndirir və bunu Boğazlar məsələsinə yenidən baxılmaq üçün Türkiyəyə təzyiq göstərilməsi kimi dəyərləndirirdi. Səfirin fikrincə, bu gərgin siyasi təzyiqi nəzərdə tutan "rus taktikası" idi (83).

Sovet-Türk müqaviləsinin ləğv olunması barədə Sovetlərin qərarını və Molotovla S.Sarper arasında olan danışıqların məzmununu Türkiyənin xarici işlər naziri H.Saka mart ayının 21-də Ankaradakı Britaniya səfiri M.Petersona çatdırdı. H.Saka Petersona bildirdi: "Molotov Sarperə deyib ki, Türkiyə səfirinin Ankaraya dönəcəyini nəzərə alıb biz müqavilə haqqında mövqeyimizi tez açıqladıq. Xarici işlər naziri bildirdi ki, S.Sarperin Moskvadan gələcəyi aprel ayının 2-də gözlənilir və onlar gərək səfir qayıdandan sonra Sovet hökumətinə verəcəkləri bəyanatları hazırlasınlar". Peterson qeyd etdi ki, Türkiyə hökuməti istənilən cavabı hazırlayan zaman Britaniya hökuməti ilə məsləhətləşə bilər. Eyni zamanda H.Saka bildirdi ki, Sovet hökuməti Montrö sazişini dəyişdirmək məqsədilə türklərlə ikitərəfli danışıqlar aparmaq istəyirdi. Lakin əgər Moskva düşünürsə ki, Rumıniya və Bolqarıstana yanaşdığı kimi, Türkiyəyə də yanaşa bilər, bu mümkün deyildir. H.Saka Yunan səfiri R.Rafaeldən aldığı bir məlumatı da Britaniya səfirinə çatdırdı. O H.Sakaya xəbər verirdi ki, Moskvalı həmkarı S.Vinoqradov Türkiyəyə qarşı möhkəm dayanmaq haqqında komanda alıb. M.Peterson bütün bunların cavabında Sovetlərin Türkiyə ilə ikitərəfli danışıqlar aparmaq istədiyi barədə Britaniya hökumətinin əlində hər hansı bir dəlilin olmadığını söylədi (84).

Xarici işlər naziri H.Saka mart ayının 31-də ABŞ səfirini qəbul etdi və ona bildirdi ki, Sovet İttifaqı Boğazlar məsələsini Qara dəniz sahilində olan ölkələrin müzakirəsinə çıxarmaq istəyir. Lakin danışıqların gedişindən aydın oldu ki, ABŞ rəhbərliyi ilk baxışda bu məsələyə elə də böyük önəm vermir. Bununla belə Şərqi Avropada baş verən dəyişikliklər və Sovet tərəfdarlarının bir-birinin ardınca hakimiyyətə gəlmələri ABŞ administrasiyasında bəzi dairələri düşünməyə vadar etmişdi. Birləşmiş Ştatların donanma naziri Ceyms Forrestal Sovetlərin Polşadakı hərəkərlərindən narahatçılığını ifadə edərək yazırdı ki, Polşa nümunəsi rusların təktərəflı davranışlarına aid nümunələrdən sadəcə biri idi, indi Bolqarıstan, Rumıniya, Türkiyə və Yunanıstanda da belə davranmağa başlamışlar (85).

ABŞ eyni zamanda Balkan ölkələrində və Moskvada olan diplomatik nümayəndəliklərindən də Sovet-Türkiyə münasibətləri haqqında məlu-

matlar almağa başlamışdı. Bu məqsədlə Birləşmiş Ştatların Sofiyadakı nümayəndəsi Barnes aprel ayının 10-da Bolqarıstanın xarici işlər naziri Petko Stainovla görüşmüş və SSRİ tərəfindən Türkiyə əleyhinə yeridilməkdə olan sərt siyasətin bəzi tərəfləri haqqında fikir mübadiləsi etmişdi. P.Stoinov ABŞ nümayəndəsinə bildirmişdi ki, o, rusların niyyətinin nə olduğunu anlaya bilmir və rus siyasətini həyata keçirən casusların gizli olduğu hamıya məlumdur. Bolqarıstanın xarici işlər naziri Birləşmiş Ştatların nümayəndəsini bolqar-türk münasibətlərində heç bir dəyişiklik gözlənilmədiyinə əmin edərək Bolqarıstanın Ankaraya yeni diplomatik nümayəndəsi təyin olunmuş Nikola Antonova bu məzmunda göstəriş verdiyini bildirmişdi. N.Antonov Türkiyə hökumətini əmin etməli idi ki, Bolqarıstan Türkiyə ilə yaxşı qonşuluq münasibətlərini dəyişmək fikrində deyil və Bolqarıstanda rus hərbi qüvvələrinin mövcudluğu onun Türkiyə ilə olan yaxşı münasibətlərini qorumaq istəyinə heç bir təsir göstərməyəcəkdir. Eyni zamanda P.Stoinov Barnesə bildirmişdi ki, Bolqarıstan ölkənin cənub-şərqində yerləşdirilmiş hərbi qüvvələrin sayını artırmayıb və son zamanlar həmin ərazidə rus qoşunlarının da sayının artırılmadığını bilir. Barnes ABŞ Dövlət katibinə yazırdı: "Nazirin söylədiklərindən aydın görünür ki, Bolqarıstan Türkiyənin hesabına risq etmək istəmir" (86).

ABŞ və İngiltərə siyasi dairələri Türkiyənin aprel ayının 4-də SSRİ-yə təqdim etdiyi notaya Sovetlərin verəcəyi cavabı ciddi şəkildə izləyirdilər. Bu məqsədlə ABŞ-ın Ankaradakı müvəqqəti işlər vəkili Paker aprelin 7-də Türkiyə xarici işlər nazirinin müavini ilə görüşmüş və xarici işlər nazirinin yetkilisi ona bildirmişdi ki, Türkiyənin Sovet səfirinə təqdim etdiyi notaya SSRİ tərəfindən hələ heç bir reaksiya verilməyib və əlavə etmişdi ki, V.Molotov San-Fransiskodan qayıdana kimi Sovet İttifaqının hər hansı təklif irəli sürəcəyi gözlənilmir. Sovet-Türkiyə münasibətlərində baş verən dəyişiklikləri diqqət mərkəzində saxlayan ABŞ-ın müvəqqəti işlər vəkili S.Sarper Moskvadan qayıdan kimi onunla görüşdü. Sovetlər tərəfindən rəsmi açıqlanmasa da, V.Molotovun 19 mart bəyanatından sonra bir sıra mətbuat orqanları SSRİ-nin Türkiyənin şərq vilayətlərinə ərazi iddialarının ola biləcəyini ehtimal etməyə başlamışdılar. Pakerlə söhbətdə bu məsələyə toxunan S.Sarper SSRİ-nin Türkiyənin Qars və ya Ərdahandakı ərazilərinə qarşı hər hansı iddia irəli sürmək niyyətinin olduğuna inanmadığını, lakin rusların Montrö konvensiyası ilə bağlı təzyiq göstərmək ehtimalının böyük olduğunu bildirdi. Eyni zamanda S.Sarper onu da qeyd etdi ki, Türkiyənin Moskvadakı səfirliyinin SSRİ mətbuatında Türkiyə əleyhinə gedən tənqidi yazılarla bağlı apardığı araşdırmalar bu tənqidlərin "həm kəmiyyət, həm də keyfiyyət baxımından" Türkiyədən daha çox ABŞ və Böyük Britaniyaya qarşı yönəldiyini göstərdi. Əslində bununla S.Sarper SSRİ-də gedən

siyasi proseslərin mahiyyətini və onun xarici siyasətinin hədəflərini daha düzgün anladığını, Qərb-Şərq qarşıdurmasını başlanğıc məqamında daha doğru dəyərləndirdiyini ifadə edə bilmişdi. S.Sarper Sovetlərin San Fransisko konfransında iştirak üçün "beşinci dərəcəli nümayəndələr" göndərməsini bu konfransı böyük üçlüyün təmsil olunduğu Yalta konfransından daha aşağı beynəlxalq müstəviyə keçirməsi ilə əlaqələndirirdi. Ən nəhayət, Sovet tələbləri ilə bağlı S.Sarper Birləşmiş Ştatların müvəqqəti işlər vəkilinə bildirdi ki, Türkiyə rusların və almanların hələ 1939-cu ildəki tələblərinə qarşı sərt mövqedə dayanıb və indi heç kim onu hec nəyə vadar edə bilməz. Bununla bağlı Paker Dövlət katibi C.Birnesə yazırdı: "Görünür o, (S.Sarper-C.H.) SSRİ tərəfindən heç bir təcavüz cəhdinin olmayacağını hiss edir" (87).

V.Molotovun mart ayının 19-da S.Sarperə təqdim etdiyi bəyanat Türkiyə siyasi dairələri və türk mətbuatı üçün bir qədər gözlənilməz idi. Bir qayda olaraq bu tipli dövlətlərarası sənədlərlə bağlı əvvəl məsləhətləşmələr keçirilir və sonra qərar qəbul edilir. Lakin ilk görüşdəcə Sovet İttifaqının iyirmi illik bir dövrdə iki ölkənin münasibətlərini tənzimləyən müqavilədən belə nümayişkarcasına imtina etməsi tərəflərin münasibətlərinin gərgin mərhələyə daxil olmasından, Sovetlərin Türkiyəyə yönəlik iddialarının ciddiliyindən xəbər verirdi. Bu hadisə ilə bağlı türk mətbuatına kəskin yazılar verməmək tövsiyə olunanda ilk zamanlar xarici mətbuatın materialları və Anadolu agentliyinin məlumatları ardıcıl olaraq mətbuatda özünə yer alırdı. Türk qəzetlərində xarici mətbuatın belə bir rəyi başlıqlara çıxarılırdı ki, Sovet İttifaqı bu aktla Türkiyə ilə münasibətlərə yenidən baxmaq və Boğazlar haqqında Konvensiyada dəyişikliklər etmək istəyir. Londonda Polşa mühacir hökumətinin buraxdığı "Cennik Polski" qəzetində bu məsələ ilə bağlı yayınlanmış bir məqalə tərcümə edibrək türk qəzetlərinin əksəriyyətində yenidən çap olunmuşdu. Bu məqalədə qırmızı xəttlə belə bir fikir keçirdi ki, Boğazlar məsələsində Sovet İttifaqı çar Rusiyasının siyasətinə qayıtmışdır. Türkiyənin aparıcı jurnalistlərindən Atay, Esmer, Yalman və Yalçın aprel ayının 5-də türk nümayəndə heyəti ilə birlikdə San-Fransiskoya getdiklərindən qeyd edilən məsələyə münasibətdə ölkə mətbuatında bir boşluq hiss edilirdı. Ankarada və İstanbulda çıxan "Ulus", "Cümhuriyyət", "Yeni Sabah , "Tasvir", "Vakıt", "Tan" və digər qəzetlərdə Sovet-Türkiyə münasibətləri haqqında bir qayda olaraq Sovetlərin milli müstəqillik uğrunda mübarizə dövründə Türkiyəyə göstərdiyi yardımlar xatırlanır, Türkiyənin Sovetlərlə dostluq münasibətlərində sədaqətli olduğu yada salınır və 25 illik bir dövr ərzində onun SSRİ qarşısnda olan müqavilə öhdəliklərini dəqiqliklə yerinə yetirdiyi vurgulanırdı. Türkiyənin tanınmış qəzetçilərindən sayılan Asım Us yazırdı ki, Türkiyə bir tərəfdən ingilis-fransız-türk, digər tərəfdən türk-rus sazişləri yolu ilə Qara və Aralıq dənizlərində kollektiv

təhlükəsizlik sistemi yaratmağı arzulayırdı. Əgər Türkiyənin arzuladığı təhlükəsizlik sistemi yaradılsaydı, onda Hitlerin ordusunun Balkanlara enməyə və SSRİ-yə hücum etməyə cəsarəti çatmazdı. Moskva hökuməti təhlükəsizliyini Berlinlə sazişdə axtardı. Eyni zamanda Asım Us təsdiq edirdi ki, Türkiyə müharibə dövründə doğru siyasət yeritdi və bu siyasətin doğruluğu 1942-ci ildə türklərə təqdim olunmuş ingilis-sovet notasında təsdiq edildi. Həmin notada göstərilirdi ki, Türkiyənin bitərəflik siyasəti müttəfiqlərin böyük razılığına səbəb olmuşdur (88).

V.Molotovun notasında toxunulan "dəyişən vəziyyət"ə gəldikdə başqa bir türk qəzetçisi Faik Fenik "Ulus" qəzetindəki məqaləsində qeyd edirdi ki, beynəlxalq aləmdə yalnız Sovet İttifaqının vəziyyəti dəyişməmişdir, eyni zamanda Türkiyənin də vəziyyəti dəyişmişdir. F.Fenik xatırladırdı ki, 1925-ci il Sovet-Türk müqaviləsi imzalananda Türkiyə Mosul məsələsinə görə İngiltərə ilə ziddiyyətdə idi, 1939-cu ildən isə o İngiltərənin müttəfiqidir.

Sovet-Türk müqaviləsinin ləğv edilməsi ilə bağlı Türkiyə siyasi dairələrinin və mətbuatının baxışlarını ümumiləşdirən Ankaradakı Sovet səfirliyi SSRİ xarici işlər komissarının müavini S.Kavtaradzeyə yazırdı: "Türklər mətbuata təlimat veriblər ki, öz ictimaiyyətini və dünya ictimai rəyini onların həmişə Sovet İttifaqı ilə dostluğa can atdığına, indiki anda bu dostluğu möhkəmləndirməyə hazır olduğuna inandırsın. Onlar məsələni belə qoyublar ki, bir halda ki, Sovet İttifaqı bu məsələni qaldırıb, onda müəyyən təkliflər də ondan gəlməlidir və Sovet təkliflərinin dostluğu möhkəmləndirməyə uyğunluğunu mühakimə etmək hüququ türklərin əlində qalmalıdır". Sovet səfirliyinin birinci katibi Moskvaya çatdırırdı ki, türk təbliğatı ictimai fikirdə Sovet-Türkiyə münasibətlərinin gələcəyi üçün məsuliyyəti Sovet İttifaqının üzərinə qoymağa cəhd göstərir (89).

Aprel ayının 30-da Türkiyə nümayəndə heyətinin başçısı, xarici işlər naziri H.Sakanın San-Fransisko konfransında çıxışı, xüsusilə onun kiçik xalqların hüquqlarına aid fikirləri böyük marağa səbəb oldu. H.Saka dünyada sülhün və təhlükəsizliyin qorunması üçün BMT Təhlükəsizlik Şurasına geniş səlahiyyətlər verilməsinə tərəfdar olduğunu bildirdi. Eyni zamanda Türkiyə nümayəndə heyəti Təhlükəsizlik Şurasına çoxlu sayda müvəqqəti üzvlər daxil edilməsinə və bütün məsələlərin bu şurada səs çoxluğu ilə həll edilməsinə, habelə BMT Baş Məclisinin səlahiyyətlərinin genişləndirilməsinə böyük əhəmiyyət verirdi. H.Saka belə hesab edirdi ki, indiki halda bu təşkilat sülhü və təhlükəsizliyi qorumaq üçün elə də böyük səlahiyyətlərə və yetərincə gücə malik deyildir. Ona görə Türkiyə təmsilçiləri nəzarət hüququ da daxil olmaqla BMT Baş Məclisinin səlahiyyətlərinin genişləndirilməsini arzu edirdilər (90).

Ən nəhayət, 1945-ci ilin may ayının ilk günlərində Almaniyanın təslim olması ilə Avropada müharibənin başa çatması Türkiyədə də təntənəli

şəkildə qeyd edildi. 1945-ci ilin may ayının 8-də Türkiyə xarici işlər naziri vəzifəsini icra edən N.Sümer qələbə münasibəti ilə V.Molotov may ayının 9-da Ş.Saracoğlu İ.Stalinə təbrik teleqramları göndərdilər. Ş.Saracoğlu yazırdı: "Dünya ağalığına can atan qüvvələrin tamamilə əzildiyi bu tarixi anda mənim şəxsən böyük hörmət bəslədiyim böyük rəhbərin simasında tarixin heyranlıqla xatırlayacağı qəhrəman Sovet ordusunun böyük qələbəsini təbrik edirəm". Az sonra Yaponiya üzərində qələbə münasibəti ilə də İ.İnönü M.Kalinini təbrik etdi və təbrikin surəti çoxaldılıb İ.Stalin, V.Molotov, A.Mikoyan, L.Beriya, Q.Malenkov A Vşinski, V.Dekanozov və S.Kavtaradze arasında paylandı (91). Almaniya üzərində qələbə Türkiyədə böyük həyəcan yaratmışdı. Ölkənin bütün böyük şəhərlərində rəsmi dövlət idarələri qələbə münasibəti ilə bayram tədbirləri keçirilir, evlərin üzərində bayraqlar ucaldılırdı. Qəzetlər müttəfiqlər qarşısında Türkiyənin xidmətləri və Almaniyanın məğlubiyyətində müttəfiqlərin rolu barədə təmtəraqlı yazılar verirdilər. Ölkə qələbə sevincini yaşayırdı. Lakin bu sevinc elə də uzun sürməyəcəkdi. Qarşıda Türkiyəni soyuq müharibənin ağır sınaqları gözləyirdi.

## V FƏSİL
## Türkiyəyə qarşı Sovet iddiaları və əsəb savaşının başlanması

Avropada müharibə sona çatdı. Altı il ərzində qitəni gərginlikdə saxlayan faşizm Birləşmiş Millətlərin birgə səyi ilə məğlub oldu. Müharibə dövründə müttəfiqlərin əməkdaşlığı faşizmin məğlubiyyətini şərtləndirən başlıca amil idi. Böyük üçlüyün Tehran və Yalta görüşlərinin qərarları müharibədən sonrakı dünyanın konturlarını özündə əks etdirirdi. Qələbə sevincini yaşayan dünya hələ ki, bu qərarların cazibəsində idi.

Lakin Avropada hərbi əməliyyatların başa çatması ilə Almaniyanın məğlubiyyəti dövründə müttəfiqlərin əzəmətli görünən əməkdaşlığı çat verməyə başladı. Sovet qoşunlarının Şərqi Avropa və Balkanlarda, habelə İranın şimalında möhkəmlənmək, Almaniya və Avstriyadan tutmuş Kuril adalarına qədər sərhədlərini qonşu ölkələrin hesabına genişləndirmək arzuları tədricən gerçəkliyə çevrilirdi. Sovet İttifaqının öz sərhədlərini genişləndirmək siyasəti müharibədən sonra yeni formalaşmağa başlayan Stalin-Molotov doktrinasının çıxış nöqtəsini təşkil edirdi. Bu fonda Kreml Tehran və Krım konfransının qərarlarını öz maraqlarına uyğun yozmağa başlayır və kommunist ideyasının dünya sisteminə çevrilməsi üçün əlverişli məqamın yetişdiyini zənn edirdi. Almaniya təslim aktını imzaladıqdan dörd gün sonra, may ayının 12-də Britaniya Baş naziri U.Çörçill ABŞ prezidenti Trümenə yazırdı: "Avropanın vəziyyəti məni həqiqətən narahat etməyə başlayır. Sovetlərin Yalta qərarlarını yanlış yozmalarından, Polşaya qarşı davranışlarından, Vyana məsələsində güc nümayiş etdirməklərindən, Yunanıstan istisna olmaqla bütün Balkanlardakı üstün nüfuzlarından, öz qüvvələri ilə işğal və ya nəzarət etdikləri ölkələri birləşdirməklərindən, xüsusilə hazırlıqlı bir ordunu uzun müddət sılah altında saxlamaq imkanlarından narahatlıq duymaqdayam. ABŞ-ın Moskvadakı səfiri A.Harriman da eynilə buna bənzər bir raportla Vaşinqtona müraciət edib Amerika hökumətinin diqqətini Sovetlərin hərəkətlərinə yönəltməyə çalışırdı" (1). H.Trümenə məktubundan bir gün sonra may ayının 13-də U.Çörçill radio ilə geniş çıxışında müharibədən sonrakı dünyanın inkişaf meylləri və uğrunda mübarizə aparılan demokratik prinsiplərin bərqərar olmasının zəruriliyi haqqında öz fikirlərini açıqladı.

Müharibədən sonrakı dünyanın taleyi üçün ciddi narahatçılıq keçirən müttəfiqlər hələ ki, Sovet İttifaqı ilə əməkdaşlığa ümidli idilər. Böyük qurbanlar bahasına əldə edilmiş sülhü və sabitliyi qorumaq üçün bu əməkdaşlığın davam edəcəyinə inanmaq istəyirdilər. Lakin bütün bunlar siyasətin görünən tərəflərinə hesablanmış illüziya xarakteri daşıyırdı. Mü-

haribə başa çatdıqdan bir neçə həftə sonra Sovet xarici siyasətinin yeni açıqlanan gizli tərəfləri əməkdaşlıq mərhələsinin arxada qaldığını və müharibə dövrünün əməkdaşlığının əvvəlcə qapalı, az sonra isə açıq rəqabətlə əvəzləndiyini təsdiq edirdilər. Tanınmış rus alimi V.O.Peçatno 1945-1946-cı illərdə Sovet-Amerika münasibətlərinin inkişaf meyllərini tədqiq edərək haqlı olaraq bu münasibətləri "İttifaqdan düşmənçiliyə doğru" adlandırır və 1945-ci ilin may-iyun aylarını ABŞ istimai-siyasi dairələrində Sovet siyasətinə münasibətə dair ən gərgin müzakirələr dövrü kimi səciyyələndirir (2).

Avropada müharibə başa çatdıqdan sonra Yaxın və Orta Şərq müttəfiqlərarası münasibətlərin ən kövrək regionuna çevrildi. Yeni açıqlanan Sovet arxiv sənədləri məhz İran və Türkiyəyə münasibətdə SSRİ ilə Britaniya və ABŞ arasında ziddiyyətlərin yarandığını, onların tədricən soyuq müharibənin ilk qarşıdurmasını şərtləndirdiyini, geosiyasi maraqların toqquşduğunu və bu zəmində artıq ideoloji qarşıdurmanın bəzi tərəflərinin meydana çıxdığını göstərir. 1945-ci ilin iyun ayının 7-dən iyul ayının 6-na qədər Sovet rəhbərliyinin İran və Türkiyə ilə bağlı qəbul etdiyi qərarlar və irəli sürdüyü tələblər sonradan soyuq müharibə kimi dəyərləndirilən dövrün başlanğıcı kimi qiymətləndirilə bilər. Bu seriyadan olan tədbirlər arasında ilk olaraq iyunun 7-də SSRİ xarici işlər komissarı V.Molotov Moskvadakı türk səfiri S.Sarperi qəbul edib Boğazlara birgə nəzarət, Bosfor və Dardanell rayonunda Sovetlərə hərbi baza verilməsi, Qars və Ərdahanın SSRİ-yə qaytarılması haqqında Sovet tələblərini elan etməsini göstərmək zəruridir. Bundan 3 gün sonra iyun ayının 10-da İ.Stalin "İranın şimalında Sovet sənaye müəssisələrinin təşkil edilməsi haqda" SSRİ Xalq Komissarları Sovetinin gizli qərarını imzaladı (3). İyun ayının 18-də V.Molotov yenidən S.Sarperlə görüşdü və Sovet tələblərini ultimativ qaydada irəli sürdü. Bu görüşdən az sonra iyun ayının 21-də İ.Stalin "İranın şimalında neftlə bağlı geoloji-kəşfiyyat işləri haqqında" SSRİ Dövlət Müdafiə Komitəsinin qəti şəkildə gizli saxlanılan qərarını imzaladı. Dövlət Müdafiə Komitəsinin 21 iyun tarixli gizli qərarı Yaxın Şərqin enerji ehtiyatları uğrunda gərgin mübarizənin başlanmasından xəbər verirdi (4). Ən nəhayət, iyul ayının 6-da ÜİK(b)P MK-nın Siyasi Bürosu "Cənubi Azərbaycanda və İranın şimalının digər vilayətlərində separatçı hərəkatın təşkili üzrə tədbirlər haqqında" qərar qəbul etdi (5). Siyasi Büronun 6 iyul qərarına görə, İranın şimalında yerləşən Azərbaycan vilayətində dəstəklənən separatist hərəkat muxtariyyat alınması və daha sonrakı mərhələdə bu vilayətin Sovet Azərbaycanı ilə birləşdirilməsi ilə nəticələnməli idi. Sovetlərin burada möhkəmlənməsi onun Yaxın və Orta Şərqə nüfuz etməsi, regionun enerji ehtiyatlarına yaxınlaşması, xüsusilə SSRİ-nin ərazi tələblərinə daxil edilən Türkiyənin şərq vilayətlərinin ələ keçirilməsi üçün strateji məntəqə rolunu oynamalı idi

Avropada müharibə başa çatdıqdan sonra Türkiyənin beynəlxalq vəziyyəti elə də qənaətbəxş deyildi. Müharibənin sonunda demək olar ki,Türkiyə beynəlxalq aləmdə tənha qalmışdı. İkinci Dünya müharibəsinin əvvəllərində həm Türkiyə, həm də müttəfiqlər üçün əlverişli olan bitərəflik siyasəti müharibənin sonunda onu təcrid olunmuş vəziyyətə salmışdı. Mart ayının 19-da 1925-ci ildə imzalanmış Sovet-Türk müqaviləsi ləğv edildikdən sonra Türkiyə bir növ qeyri-müəyyən halda idi. Hökumət yetkililəri axıra qədər bilmirdilər ki, gündən-günə güclənən Sovet təzyiqləri fonunda ABŞ və Böyük Britaniya Türkiyəni müdafiə edəcək, yoxsa Şimal təhlükəsi qarşısında o tənha qalacaqdır. Bütövlükdə konturları cızılan yeni dünya düzəninə Türkiyə belə qeyri-müəyyənlik vəziyyətində daxil olurdu.

Belə bir beynəlxalq durumda olmasına baxmayaraq Türkiyənin siyasi dairələri müharibədən sonrakı dünyanın inkişaf meyllərini düzgün müəyyənləşdirdi və ona doğru getməyə başladı. 1945-ci il may ayının 19-da ölkədə ənənəvi olaraq keçirilən gənclik və idman bayramında çıxış edən prezident İ.İnönü türk gənclərinə müraciət edərək dedi: "Müharibənin doğurduğu çətinliklər ucbatından həyata keçirdiyimiz bir sıra tədbirlərdən imtina etmək fikrindəyik. Ölkəmizin siyasi və ideoloji həyatında demokratik prinsiplərin geniş tətbiqi üçün şərait yaranmaqdadır. Öz mövcudluğunun ilk günündən başlayaraq Böyük Millət Məclisi bizim ən demokratik müəssisəmiz olaraq idarəçilik sükanını öz əlində saxlayır və ölkəni demokratiya yolu ilə aparır" (6). Prezident İ.İnönü bu çıxışında ölkədə yeni, ikinci bir partiyanın yaranacağına aydınlıq gətirmiş, çoxpartiyalılığa keçməyin zəruriliyi haqqında açıqlama verirdi. O, Türkiyədə bir sıra islahatların keçiriləcəyi, fövqəladə qanunların ləğv edibcəyi, ölkənin siyasi həyatının müharibədən sonrakı dövrdə daha da demokratikləşməsi barədə cəmiyyətdə dolanan söhbətlərə də müəyyən aydınlıq gətirdi. Prezident İnönünün 19 may tarixli çıxışında qoyulan məsələlər San-Fransisko konfransında müzakirə edilən ümumdünya problemləri və Birləşmiş Millətlərin hər bir xalqın "demokratik bir rejimə sahib olmaq" haqqındakı prinsipi ilə tam səsləşirdi. İ.İnönünün tövsiyəsi ilə Röyter Agentliyinə müsahibə verən Türkiyənin xarici işlər naziri və ölkənin San-Fransisko konfransındakı nümayəndə heyətinin başçısı H.Saka qeyd etmişdi ki, Cümhuriyyət hökuməti siyasi bir institut olmaq etibarilə müasir demokratiyanın yolu ilə əzmlə inkişaf etməkdədir. Konstitusiyamız nəinki ən irəli getmiş konstitusiyalarla müqayisə edib bilər, hətta bəzilərini çox geridə qoya bilər. Eyni zamanda H.Saka Röyter Agentliyi vasitəsilə vurğulamışdı ki, müharibədən sonra demokratiyanın bütün təzahürləri Türkiyədə inkişaf edəcəkdir. San-Fransisko konfransına gedən Türkiyə numayəndə heyətinin digər bir üzvü Ahmet Şükrü Esmer isə Amerika ictimaiyyətinə müraciətində bildirmişdi ki, türklər Amerika millətinə böyük rəğbət göstərir və bu millətin xoş niyyətlərinə böyük etimad

bəsləyirlər (7). Şübhəsiz ki, istər prezident İ.İnönünün, istər xarici işlər naziri H.Sakanın və istərsə də digər siyasətçilərin demokratik prinsiplərə meyllənməsi və demokratik dəyərlərə tapınmağın zəruriliyi haqqında ölkədə geniş təbliğat kampaniyasının başlanması bir tərəfdən Türkiyənin daxilində demokratik yeniləşməyə olan böyük maraqla bağlı idisə, digər tərəfdən Amerika və İngiltərə siyasi dairələrinin "totalitarizmə dayanan rejimlərə qarşı" sərt müqavimət göstərmək niyyətləri ilə bağlı idi.

Milli şef İ.İnönünün 19 may çıxışı və ölkənin siyasi həyatında ikinci partiyanın yaranmasının mümkünlüyü haqqında fikri may ayının sonuncu ongünlüyü və iyun ayı ərzində türk mətbuatının əsas müzakirə mövzusuna çevrildi. Bütövlükdə bir sıra sol təmayüllü qəzetlər bu dəyişikliklərin mənbəyini Krım konfransının qərarlarında və Atlantika bəyannaməsində axtarırdılar. Onların fikrincə, faşizm üzərində qələbə çalan deokratik ölkələr heç bir yerdə totalitar rejimlərin mövcudluğu ilə barışmayacaqdılar. Sol təmayüllü mətbuat Türkiyədə başlayan yeniləşmənin mənbəyinin xaricdə olduğunu yazırdı. Bunun əksinə olaraq Türkiyənin aparıcı mətbuatı ölkədə mövcud olan demokratiyanın yerli xarakterinə üstünlük verərək onun kamalçılığa dayandığını əsaslandırırdı. "Son Teleqraf qəzeti may ayının 26-da yazırdı: "Kamalçı demokratiya mütərəqqi xarakterə malik olub möhkəm əsaslara dayanır və bəşəriyyətə xoşbəxtlik gətirir". Yeni partiyanın yaranması ilə bağlı fikirləri müzakirə edən mətbuat bir tərəfdən, bunu zəruri sayır, digər tərəfdən hələ müharibə qurtarmadığından bu zərurəti müxtəlif cür şərh edirdilər. Bir sıra qəzetlər yazırdı ki, 1930-cu ildə Fethi Okyarın liberal mütərəqqi partiyası uğursuz bir təcrübə oldu. Onlar ehtiyat edirdilər ki, ikinci partiya Türkiyəni şəriət qaydalarına qaytarar və vətəndaş müharibəsinə gətirib çıxarar. Digər tərəfdən, müharibə aparan ölkələrin üçüncü dünya müharibəsi haqqında söz-söhbət salması bəzi qəzetlərin fikrincə, Türkiyəni öz milli birliyini qorumaq barədə düşündürməli idi. Avropanın azad olmuş ölkələrində baş verən hadisələr də bir sıra mətbuat orqanlarında partiya anarxiyası kimi qiymətləndirilirdi. N.Sadak, N.Nadi kimi tanınmış jurnalistlər belə hesab edirdilər ki, Türkiyə xarici təzyiq altında öz qanunlarını dəyişdirməməlidir. Ankaradakı Sovet səfirliyi SSRİ xarici işlər komissarının müavini S.Kavtaradzeyə yazırdı: "Türk mətbuatı heç kəsdən soruşmadan azadlığa nail olur, hökumət bu vəziyyətlə barışmağa məcburdur. Qəzetlərin onun antidemokratik mahiyyətini ifşa edəcəyindən ehtiyatlanan hökumət onlara qarşı repressiv tədbirlər görməkdən çəkinir" (8). Şübhəsiz ki, Sovet səfirliyinin mülahizələri subyektiv idi və müharibə dövrünün müəyyən məhdudiyyətlərini nəzərə almasaq, SSRİ-dən fərqli olaraq, Türkiyədə mətbuat azad idi.

Hələ İkinci Dünya müharibəsi başa çatmamış Sovet İttifaqı İran və Türkiyəyə qarşı yönəlmiş tədbirlərin həyata keçirilməsi üçün hazırlıq

işlərinə başladı.1945-ci il aprel ayının 6-da SSRİ Dövlət Müdafiə komitəsi Zaqafqaziya avtomobil yollarının vəziyyətini yaxşılaşdırmaq haqqında qərar qəbul etdi. Vətən müharibəsinin gedişində dağılmış bir ölkədə belə bir qərarın SSRİ Xalq Komissarları Soveti tərəfidən deyil,məhz Dövlət Müdafiə Komitəsi tərəfindən qəbul edilməsi şübhəsiz ki,Zaqafqaziyanın sosial-iqtisadi inkişafına qayğıdan irəli gəlmirdi.1944-cü ilin mart ayında Zaqafqaziya respublikalarında xarici işlər komissarlıqları təsis edildikdən sonra Ermənistan və Gürcüstan Sovet respublikalarrı xarici işlər komissarlıqları qarşısında qoyulan başlıca vəzifə SSRİ-nin əsasən Türkiyəyə, qismən İrana münasibətdə siyasəti ilə bağlı məsələlərin işlənib hazırlanmasında və həyata keçirilməsində bilavasitə iştirak etmək idi. Eynilə Azərbaycan SSR xarici işlər komissarlığının qarşısında qoyulan əsas vəzifə Sovet İttifaqının İranla münasibətində həmin funksiyanı yerinə yetirmək idi.

1945-ci il aprel ayının 6-da Sovet Ermənistanının rəhbərliyi ÜİK(b)P MK-ya və İ.Stalinə iki məktubla müraciət etdi. Ermənistan SSR Xalq Komissarları Sovetinin sədri A.Sarkisyanın və Ermənistan Kommunist Partiyasının katibi Q.Arutinovun aprel ayının 6-da İ.Stalinə ünvanladıqları məktubda göstərilirdi ki, Birinci Dünya müharibəsi illərində türk və alman imperialistlərinin təşkil etdiyi qırğınlardan canlarını qurtarmaq üçün bir milyondan çox erməni Türkiyə Ermənistanından ərəb və Balkan ölkələrinə, Qərbi Avropa, ABŞ və digər ölkələrə mühacirət etmək məcburiyyətində qalmışdılar. Bunun nəticəsi olaraq qeyd edilən ölkələrdə çoxsaylı erməni koloniyaları yaranmışdır. Belə böyük koloniyalara misal olaraq məktub müəllifləri Suriya və Livanda 200 min, İranda 100-120 min, Balkanlarda 80 min (Rumıniyada 30 min, Bolqarıstanda 35 min, Yunanıstanda 20 min), Misirdə 40 min, Fransada 80 min, ABŞ-da 150 mindən artıq erməninin olduğunu bildirirdilər. Onlar qeyd edirdilər ki, əldə olan məlumatlara görə, bu ölkələrdə olan ermənilər siyasi və vətəndaş hüquqlarından istifadə edə bilmirlər. Məktubda deyilirdi: "Xarici ermənilərin öz əsl vətənləri olan SSRİ-yə və Sovet Ermənistanına rəğbətləri artdığından bu ölkələrin hakim dairələri onlara arzuolunmaz ünsürlər kimi baxır və bütün vasitələrlə onların hüquq və azadlıqlarını kobudcasına pozurlar". Məktubda qeyd edilirdi ki, bütün bu maneələrə baxmayaraq xarici ermənilər SSRİ-yə və Sovet Ermənistanına münasibətdə ardıcıl dostluq xətti yeridərək vətənpərvər təşkilatların geniş Şəbəkəsini yaratmışlar və bu təşkilatlar Qırmızı Orduya yardım fonduna vəsait toplanınasında aktiv iştirak edir, Sovet hökumətinin düşmənləri olan daşnaklara və digərlərinə qarşı fəal mübarizə aparır, bir sıra xarici dövlətlərin bu ölkələrdə ermənilərdən özünə dayaq yaratmaq cəhdlərini pozurlar. Sovet Ermənistanının rəhbərləri bütün qeyd edilənlərdən başqa, onların adları çəkilən ölkələrdə maddi və mülkiyyət maraqlarının

olduğunu da gizlətmirdilər. Buna misal olaraq Sovet Ermənistanın xeyrinə böyük məbləğlərin vəsiyyət olunduğunu, bir sıra qiymətli muzey əşyalarının, bir neçə min qədim erməni əlyazmalarının, çoxsaylı binalar və s. nəzərdə tutulduğunu bildirirdilər.

1945-ci il aprel ayının 6-da Sovet Ermənistanının rəhbərliyi İ.Stalinə müraciətində Ermənistan SSR ilə İran, Suriya və Livan arasında diplomatik münasibətlərin yaradılması və diplomatik nümayəndəliklərin mübadiləsi haqqında məsələ qaldırılmasını xahiş edirdi. Eyni zamanda İ.Stalinə məktubda ABŞ, Fransa və Misirdəki SSRİ səfirliklərində erməni koloniyaları məsələləri üzrə müşavir vəzifələrinin təsis edilməsi xahiş olunurdu (9). A.Sarkisyan və Q.Arutinovun İ.Stalinə aprel ayının 6-da yazdıqları ikinci məktubda xarici ermənilər tərəfindən onların Sovet Ermənistanına maraqlarının artdığı dövrdə Sovet Ermənistanı ilə əlaqələrinin olmaması barədə respublika hökumət orqanlarına şikayətlərin daxil olduğu bildirilirdi. Ermənistan rəhbərlərinin fikrincə, xarici ermənilərlə canlı əlaqələrin olmaması Sovet Ermənistanı haqqında onların inandırıcı cavablar ala bilməməsinə, bu isə daşnaklar tərəfindən Sovet Ermənistanına qarşı təxribatçı şayiələrin yayılmasına gətirib çıxarır. Buradan isə artıq belə bir nəticə alınırdı: "Yuxarıda deyilənlərlə bağlı xarici ermənilərin vətənpərvər - Sovet meylli əhvali-ruhiyyədə olanları ilə əlaqələrin gücləndirilməsinin zəruriliyi haqqında məsələ bizim qarşımızda durur". Bu məqsədlə İran, Suriya, Livan, Rumıniya və Bolqarıstana Ermənistan SSR Xalq Komissarları Sovetinin nümayəndələrinin göndərilməsi təklif olunurdu. Həmin nümayəndələr qeyd edilən ölkələrdə erməniləri vəziyyətini, xüsusilə onların Sovet vətəndaşlığına can atmaları, Ermənistana gəlmələri və s. məsələləri öyrənməli, xarici ermənilərin Sovet Ermənistanının mədəniyyət, elm, incəsənət, xalq təsərrüfatı və zəhmətkeşlərin rifahı sahəsində əldə etdiyi uğurlarla tanış etməli idi. Əgər bu müraciətə müsbət cavab verilsəydi, Ermənistan SSR rəhbərliyi iki nəfərin İran, Suriya və Livana, iki nəfərin də Rumıniya və Bolqarıstana göndərilməsini məqsədəuyğun hesab edirdi. Bu nümayəndələrin xaricə ezam edilməsinin zəruriliyi onunla əsaslandırılırdı ki, guya bir sıra xarici ölkələrdə daşnaklar və digər antisovet ünsürlər Sovet İttifaqı və Ermənistan SSR əleyhinə təxribatçı bəyanatlarla çıxış etməyə başlamışlar (10).

Sovet Ermənistanı rəhbərliyinin Moskvaya, ÜİK(b)P-yə müraciətindən bir gün sonra aprel ayının 7-də Nyu-York Erməni Milli Komitəsi İ.Stalinə teleqram göndərdi. Orada ümid edilirdi ki, marşal Stalin Sovet Rusiyasının "Türkiyə Ermənistanı haqqında" 29 dekabr 1917-ci il tarixli dekretini unutmamışdır. Nəzərə almaq lazımdır ki, ABŞ-da fəaliyyət göstərən erməni dini və milli təşkilatları müharibənin sonunda Türkiyəyə qarşı öz fəaliyyətlərini aktivləşdirmişdilər. 1945-ci ilin mart ayında Filadelfiyada yerləşən Erməni Milli Kilsə Şurası prezident F.Ruzveltə

göndərdikləri teleqramda dünya müharibəsində Amerikanın qələbəsini arzuladıqlarını və onun sağlamlığı, habelə bütün Amerika əsgərləri üçün dua etdiklərini bildirirdilər. Teleqramda Vudro Vilsonun davamçısı kimi F.Ruzveltin kiçik xalqların hüquqlarını qoruyacağı və erməni məsələsinə münasibətdə Vilsonun başladığı işi davam etdirəcəyinə ümid vurğulanırdı. Eyni zamanda teleqramda prezident Ruzveltin Sovet Ermənistanının sərhədlərinin genişləndirilməsi və Vilson qərarına uyğun olaraq dünyanın hər tərəfinə səpələnmiş ermənilərin öz vətənlərinə dönməsinin mümkünlüyü məsələsində ədalətli mövqe tutacağına inam göstərilirdi (11).

Müharibənin sonuna yaxın Amerikada nəşr edilən erməni mətbuatı Türkiyə əleyhinə geniş təbliğat kampaniyasına başlamış və Sovet Ermənistanı ərazilərinin genişləndirilməsi uğrunda mübarizəni özlərinin başlıca vəzifələri elan etmişdilər. Onlar bu işin Birləşmiş Ştatlar və Böyük Britaniya müttəfiqləri ilə razılıq əsasında ancaq Sovet İttifaqı tərəfindən həyata keçirilə biləcəyini qeyd edirdilər. ABŞ-da çıxan "Ayrenik" qəzeti yazırdı: "Hazırda erməni məsələsinin xeyrinə bizim Amerikada gördüyümüz bütün işlər ancaq bir məqsədə yönəlmişdir: Sovet hökuməti gözəl günlərin birində bizim ərazi tələblərimizi həyata keçirmək istəyəcək, Ermənistanın ərazilərinin genişləndirilməsinin siyasi əsaslandırılması lazım olacaq. Biz də onu indidən hazırlayırıq" (12).

Erməni məsələsi Türkiyəyə qarşı ərazi iddialarını əsaslandırmaq və təzyiqləri gücləndirmək üçün, ən başlıcası isə bu məsələdə müttəfiqlər tərəfindən yardım alınması üçün Sovetlərə əlavə imkanlar verirdi. 1945-ci ilin yazında Sovet təsir dairəsində olan ərazilərdə SSRİ diplomatik və xüsusi xidmət orqanları tərəfindən erməni icmaları haqqında, daşnakların fəaliyyətləri haqqında məlumatlar toplamaq işi gücləndirildi. Dövlət təhlükəsizlik orqanları Daşnak Partiyasının Beyrutda yerləşən əsas xarici kəşfiyyat mərkəzi, Fransa, Kipr, Transiordaniya, Suriya, İran, Yunanıstan, Misir, İraq və digər ölkələrdə yerləşən büroları haqqında operativ məlumatlar toplanışını sürətləndirdi (13). SSRİ xarici işlər Komissarlığı xətti ilə Təbriz baş konsulluğunun katibi K.B.Aruşanov tərəfindən hazırlanmış və 1945-ci il aprel ayının 9-da Moskvaya göndərilmiş geniş arayışda İran Azərbaycanında 17 min erməni əhalisinin yaşadığı və bunun 12 mininin Təbriz konsulluq dairəsinə düşdüyü bildirilirdi. Arayışda qeyd edilirdi ki, erməni əhalisinin əsas hissəsi SSRİ-yə və Sovet Ermənistanına yaxşı münasibətdədir və Sovetlərə böyük maraq göstərirlər. Onlar hər il Ermənistanda Sovet hakimiyyətinin qurulmasını və digər Sovet bayram günlərini qeyd edirlər. Lakin bununla bərabər Aruşanov daşnakların Sovetlər əleyhinə təbliğat apardıqlarına da toxunur, bütün ermənilərin katolikosunun qarşıdakı seçkisi ilə bağlı yazırdı: "Onlar təbligat aparırlar ki, Sovet hökuməti öz adamını katolikos seçəcək, xarici nümayəndələrin çağırılması görüntü üçündür. Xaricdən olan nümayəndələr orada heç nə edə bilməzlər" (14).

1945-ci il aprel ayının 19-da İ.Stalin bütün ermənilərin katolikosunun müavini, arxiyepiskop Georq Çeorekçiyanı qəbul etdi. Bu bir tərəfdən bütün ermənilərin katolikosunun seçkiləri ilə bağlı idisə, digər tərəfdən, ermənilərin Türkiyə əleyhinə yönəlmiş təbliğatına və tələblərinə əməli xarakter vermək niyyətindən irəli gəlirdi. Erməni katolikosunun müavini Eçmiədzinin bərpa olunması, dini akademiyanın açılması, keçmiş dini akademiyanın kitabxanasının Eçmiədzinə qaytarılması, Eçmiədzinə mətbəə saxlamağa icazə verilməsi, bir sıra binaların ona qaytarılması, katolikosun zəmanəti ilə bir sıra dindarların Sovet Ermənistanına gəlməsinə icazə verilməsi, xaricdən yepiskop və eparxiya rəhbərlərinin dəvət edilməsinə icazə verilməsi və s. məsələlər barədə hələ 1945-ci il aprel ayının 3-də İ.Stalinə müraciət etmişdi (15). Moskvada İ.Stalinin erməni kilsəsi rəhbərlərindən birini qəbul etməsindən az sonra ABŞ-dakı Erməni Milli Şurası Birləşmiş Millətlərin San-Fransisko konfransına və konfransın iştirakçısı olan ayrı-ayrı nümayəndələrə "Erməni xalqının işi" adlı memorandumu təqdim etdi. Orada göstərilirdi ki, erməni məsələsinin ədalətli həlli erməni diasporlarına imkan verər ki, öz doğma yurdlarına qayıtsınlar.

Memorandumda Amerikadakı Erməni Milli Şurası erməni xalqının nümayəndəsi kimi təqdim edilir və bu təşkilat da sənəddə yazıldığı kimi, "kiçik faşist partiyası sayılan daşnaklar istisna olmaqla" bütün erməni dini və milli cəmiyyətlərinin birləşdirildiyi göstərilirdi. Sənədin ikinci bölməsi "Erməni xalqının işinin tarixi perspektivləri" adlanırdı. Burada məsələ çox qədimlərə gedib çıxır,Mesopotamiya dövründən bəri hadisələr sadalanır və belə məlum olurdu ki,guya ermənilər Asiyadan gələn böyük istilaçıların qarşısında alınmaz qalaya çevriliblər.Ona görə də qeyd edilirdi ki, erməni xalqının bu müraciəti xüsusi diqqətəlayiq olmalıdır.Memorandumun üçüncü bölməsi türklərin tarix səhnəsinə çıxışı və onların guya Yaxın Şərqə, Balkanlara və Mərkəzi Avropaya fəlakətlər gətirməsi barədə idi. Bundan sonrakı bölmədə ermənilərin qəzələli təqilələrin obyektinə çevrilməsi, XIX əsrin sonunda bu təqilələrin geniş xarakter alması və guya bir milyon ermənin bu prosesdə özü qurban verməsi qeyd edilirdi. Birinci Dünya müharibəsi dövründə ermənilərin müttəfiqlərlə birlikdə vuruşduğunu bildirən memorandum müəllifləri Sevr müqaviləsinin şərtlərinin dünya tərəfindən qəbul edilməsini tələb edirdilər. Sevr müqaviləsi ilə onlara verilməsi nəzərdə tutulan torpaqların türklərdə qalmasına görə milyon yarım ermənin mühacirətdə yaşadığına toxunan Erməni Milli Şurası yazırdi"Hətta bizim xalqımızın iftixarı və şərəfi sayılan,onun arzu və ümidlərinin simvolunu daha qabarıq ifadə edən Ararat dağı (Ağrı dağı nəzərdə tutulur - C.H.) türklərin hakimiyyəti altında qalmaqdadır". Daha sonra qeyd edilirdi ki, "müstəqil və azad" Sovet Ermənistanından

ayrılmış Türkiyənin erməni vilayətlərinin yenidən Ermənistanla birləşməsi və xaricdəki ermənilərin də "öz xoşbəxt qardaşları"na qovuşması erməni xalqının həyatının yenidən qurulmasına, onun canlanmasına və Sovetlərdə xoşbəxtlik tapmasına gətirib çıxara bilər. Orada deyilirdi: "Zaman gəlib çatib ki, Türkiyənin ağalığı altında olan Ermənistan Sovet ittifaqının sərhədləri daxilində müstəqil və azad şəkildə mövcud olan Ermənistana birləşsin və xaricdə yaşayan ermənilərə də öz vətənlərinə qayıtmaq icazəsi verilsin". Nə vaxtsa türklərin ağalığı altında olmuş xristian xalqlarından yalnız ermənilərin hələ öz azadlıqlarını və vətənlərini türklərdən xilas edə bilmədiyi memorandumda göstərilirdi. Erməni Milli Şurasının nümayəndələri San-Fransisko konfransının repatriasiya və sərhədlər məsələsini həll etməyə səlahiyyətli olmadığını qeyd etsələr də, konfransın ruhunun erməni xalqının ümid və arzularına yardımçı olacağını bildirirdilər. Sənədin sonunda V.Qladstonun belə bir fikri vurgulanırdı ki, "Ermənistanı xilas etmək - sivilizasiyanı xilas etmək deməkdir". Buna uyğun olaraq memorandumda yazılırdı: "Böyük Sovet İttifaqı 25 illik qısa müddətdə sübut etdi ki, Ermənistanı xilas etmək -deməli, həqiqətən sivilizasiyanı xilas etmək deməkdir". Sənədin məzmunu və orada istifadə edilən ifadələr onun Sovet nümayəndələri tərəfindən hazırlandığını təsdiq edirdi. Memorandum SSRİ Xarici İşlər Komissarlığının Yaxın Şərq şöbəsinin əməkdaşı İ.Sasulin tərəfindən rus dilinə tərcümə edilib Ermənistan SSR Xarici İşlər Komissarlığına göndərilmişdi (16).

Erməni Milli Şurası ilə yanaşı daşnakları birləşdirən Erməni Milli Komitəsi də 1945-ci ilin aprel ayında "Erməni məsələsi ilə bağlı Memorandum" çap edib yaymışdı. Burada "erməni məsələsi"nin tarixi bir qədər sonrakı dövrdən XIX əsrdə Ermənistanın Rusiya ilə Türkiyə arasında "bölüşdürülməsindən" başlayırdı. Memorandumda göstərilirdi ki, Osmanlı imperiyasında bütün xristian xalqlar azad olduqdan sonra ermənilərə qarşı "repressiv tədbirlər" daha da artdı və guya buna görə ermənilər azad ola bilmədilər. Sənəddə Berlin konqresinin 1878-ci ildə Türkiyənin erməni vilayətində altı dövlətin iştirakı ilə islahat aparması maddəsi xatırlanırdı və bu "erməni məsələsinin" başlanğıcı kimi səciyyələndirilirdi. Lakin böyük dövlətlərin təzyiqlərinə baxmayaraq nəzərdə tutulan islahatların getmədiyi, XIX əsrin sonlarında 300 min, 1909-cu ildə isə 30 min ermənin "qətlə yetirildiyi" memorandumda qeyd edilirdi. Sənəddə Birinci Dünya müharibəsi dövründə erməni məsələsinə geniş yer verilirdi. Orada 1915-ci il hadisələrinə toxunulur və göstərilirdi ki, XX əsrdə türklər birinci millətdir ki, siyasi problemin tənzim olunma vasitəsi kimi bütöv bir xalqın sürgün və məhv edilməsi kimi şeytani ideyanı ortaya çıxardılar. Bütün bu hadisələrlə bağlı memorandumda belə bir nəticəyə gəlinirdi ki, türk hökuməti ermənilərin məhv edilməsi işində

uğur qazanmadılar və bir milyona yaxın erməni qaçaraq qonaqpərvər dost ölkələrdə mühacir kimi yaşamağa nail oldular. Daha sonra sənəddə maraqlı bir məqama toxunulurdu. Belə ki, Birinci Dünya müharibəsinin Yaxın Şərq cəbhəsi bütövlükdə ermənilərlə əlaqələndirilir, həmin cəbhədə alman-türk blokunun məğlubiyyəti türklərin ən yaxşı qüvvələrini Qafqaz və Azərbaycan cəbhəsinə "Bakını türklərdən müdafiə edən rus ermənilərinə qarşı" atmaları ilə izah edilirdi. Sənəddə ermənilərin böyük müttəfiqlərin "kiçik müttəfiqi" olması vurğulanır, Lloyd Corcun, Jorj Klemansonun, Vudro Vilsonun erməni işi üçün çalışdıqları, "Lenin və Stalinin 30 dekabr 1917-ci il dekreti ilə Ermənistanın müstəqilliyi və özünüidarə hüququnu tanıdıqları" və sonra bunun Sovet Rusiyasının birinci Konstitusiyasında təsbit olunduğu yada salınırdı. Memorandumda Sevr müqaviləsi ilə bağlı məsələlərə, Ermənistanın sərhədlərinin müəyyənləşdirilməsi üçün prezident Vilsonun səylərinə toxunulur və bu səylərin Amerika Senatı tərəfindən müdafiə olunmadığı qeyd edilirdi. Sənədin bir bölməsi "Kamalçı Türkiyə və Ermənistanın sovetləşdirilməsi"adlanırdı.Orada yazılırdı:"Sevr müqaviləsi imzalanan zaman Yaxın Şərqə münasibətdə müttəfiqlər arasında fikir ayrılıqları meydana çixdı. İtaliya kamalçıların mövqelərini müdafiə etdi. Bu hadisələrin təzyiqi altında Rusiya Türkiyə ilə dostluq müqaviləsi imzalayıb bütün Türkiyə Ermənistanından, Qars və Ərdahan rayonlarından imtina etdi. Fransa Türkiyəni sakitləşdirmək üçün Birinci Dünya müharibəsi illərində işğal etdiyi Kilikiyanı tərk etdi. Həmin zamanlar Müttəfiqlərin Ali Şurası və Millətlər Cəmiyyəti ermənilər üçün əlverişli qətnamələr qəbul etsələr də, Sevr müqaviləsinin həyata keçməsi, Ermənistana digər yardımlar göstərilməsi üçün əməli addımlar atmadılar və guya işlərin belə gedişindən ruhlanan kamalçı Türkiyə 1920-ci ilin sentyabr ayında Ermənistana hücum etdi".

Sənəddə göstərilirdi ki, xaricdən heç bir kömək almayan erməni ordusu çoxsaylı türk ordusunun qarşısında ümidsiz vəziyyətə düşdü, Ermənistan hökuməti məğlubiyyətlə barışaraq 1920-ci ilin dekabr ayının 2-də Aleksandropol (Gümrü - C.H.) müqaviləsini imzaladı və elə həmin gün Ermənistan Respublikası Sovetlərin tərkibinə qəbul edildi. Memorandumun qalan hissəsi Sovet Ermənistanına aid idi. Orada yazılırdı ki, Sovet Ermənistanı 11580 kv.mil ərazisi olan kiçik dövlətdir. Ermənistanın torpaqlarının böyük hissəsi hələ də türklərin əlindədir.Memorandumun sonunda yeni formalaşan Millətlər Təşkilatının erməni məsələsinə ədalətli münasibət bəsləyəcəyinə və ermənilərin öz vətənlərinə qayıtması üçün şərait yaradılacağına ümid ifadə olunurdu. Bu memorandum da eynilə Moskvada İ.Sasulin tərəfindən rus dilinə tərcümə edilib Yerevana göndərilmişdi (17). Erməni Milli Şurasının memorandumundan fərqli olaraq bu sənəddə Sovet izləri hiss edilmirdi. Bununla belə, Ermənistan

SSR Xarici İşlər Komissarlığının hazırladığı arayışda göstərilirdi ki, İkinci dünya müharibəsi nin başlanmasına qədər daşnak, Sağ Ramkavar və Qnçak mürtəce siyasi partiyaları Sovet quruluşu əleyhinə mübarizələrində Ermənistanın SSRİ-dən ayrılmasını tələb edirdilərsə, müharibə zamanı bu təşkilatların bir hissəsi öz təbliğatını dəyişmiş, açıq antisovet mübarizəyə son qoymuş, Sovet İttifaqına və Sovet Ermənistanına münasibətdə loyal mövqe tutmağa başlamışdılar. Arayışda qeyd edilirdi ki, erməni torpaqlarına münasibətdə onlar da Türkiyədən alınacaq torpaqların Sovet Ermənistanına birləşdirilməsi tələblərinə qoşulmuşlar (18).

Türkiyə siyasi dairələri və mətbuatı ermənilərlə bağlı San-Fransiskoda qaldırılmış təbliğat kampaniyasını diqqətlə izləyirdilər."Cümhuriyyət" qəzetinin San-Fransiskoya ezam edilmiş müxbiri Doğan Nadi aprel ayının sonlarında ABŞ-da Erməni Milli Komitəsinin qəribə bir memorandum çap etdiyini bildirirdi. Orada göstərilirdi ki, bütün Türkiyə erməniləri onların Rusiyaya köçürülməsini istəyirlər. Bu məlumatla bağlı "Cümhuriyyət" qəzeti təcili İstanbuldakı erməni patriarxı Arslanyanla müsahibə apardı. Patriarx qeyri-müəyyən formada bildirdi ki, o, ermənilərin dini nümayəndəsidir və yalnız dini məsələlərlə məşğuldur və o səlahiyyətli deyildir ki, İstanbuldakı erməni icmasının adından bu məsələyə münasibət bildirsin. Bununla yanaşı, İstanbuldakı Sovet Baş Konsulluğu SSRİ Xarici İşlər Komissarlığına göndərdiyi məlumatda yazırdı ki, ermənilərin konsulluğa müraciətləri artmışdır və onlar yalvarırlar ki, Sovet İttifaqına göndərilsinlər. Eyni zamanda konsulluq məlumat verirdi ki, Türkiyə hakimiyyət orqanları patriarx Arslanyan başda olmaqla Yerevanda ümumerməni dini qurultayında iştirak etməyə hazırlaşan Türkiyə erməniləri nümayəndə heyətinə viza verilməsində süründürməçiliyə yol vermiş, Türkiyə hökuməti və daşnak qruplaşmaları bu səfəri pozmaq üçün bütün vasitələrdən istifadə etmişlər. Lakin bütün bunlara baxmayaraq qurultaya gedən nümayəndələrə müvafiq icazələr verilmişdir. Sovet Baş Konsulluğu Moskvaya göndərdiyi məlumatda qeyd edirdi ki, Türkiyə ermənilərinin vəziyyəti çox ağırdır və onlar həqiqətən Sovet İttifaqına getmək üçün əlverişli məqam gözləyirlər (19).

Dostluq və bitərəflik haqqında 1925-ci il Sovet-Türk müqaviləsinin ləğvi haqqında V.Molotovun bəyanatı elan olunduqdan iki həftə sonra Ankaraya gələn SSRİ-dəki Türkiyə səfiri S.Sarper qeyri-rəsmi qaydada Sovet səfiri S.Vinoqradovla bir sıra görüşlər keçirdi. Bu görüşlərdə əsas məqsəd 19 martda ləğv olunmuş Sovet-Türk müqaviləsinin yerinə yeni müqavilənin konturlarını müəyyən etmək və iki ölkənin münasibətlərinin sonrakı inkişafı haqqında müzakirələr aparmaq idi. Bu müzakirələrin gedişində belə bir fikir vurğulanırdı ki, haqqında söhbət gedən müqavilə ən azı ləğv edilən müqavilə xarakterində olmalı idi. Digər tərəfdən, iki ölkə arasında ittifaq müqaviləsinin də bağlanması mümkün hesab edilirdi.

S.Vinoqradovla Ankaradakı görüşündə S.Sarper bildirmişdi ki, onun ölkəsi ittifaq bağlamağa qədər irəli gedə bilər və bu məqsədlə də Türkiyə Sovetlərə dostluq və ittifaq haqqında Saziş bağlamağı təklif etmişdi.Bütün bunlar haqqında S.Vinoqradov Moskvaya məlumat vermişdi. May ayının 8-də o, SSRİ Xarici İşlər Komissarlığına vurduğu teleqramda bildirirdi ki, Moskvadakı türk səfiri Ş.Sarper Sovet İttifaqı ilə dostluq müqaviləsi bağlamaq təklifi barədə Ankaradan göstəriş almışdır. S.Vinoqradov qeyd edirdi ki, bu, İngiltərənin narazılığına səbəb olacaq riskli addım olsa da, türklər bunu atmağa qərarlıdırlar (20).

Eyni zamanda Ankaraya səfər ərəfəsində Yuqoslaviya səfirliyində verilən ziyafətdə V.Molotovla görüşən S.Sarper söz vermişdi ki, Ankaraya döndükdən sonra Türkiyə-Sovet münasibətlərini yaxşılaşdırmaq üçün müsbət ruhda çalışacaqdır (21). Doğrudan da, 1945-ci il aprel ayının əvvəllərindən may ayının sonuna qədər Ankarada olduğu dövrdə S.Sarper Sovet-Türk münasibətlərini yaxşılaşdırmaq, hətta bu münasibətləri ittifaq müqaviləsi səviyyəsinə qaldırmaq istiqamətində aktiv fəaliyyət göstərmişdi.

Lakin SSRİ Xarici İşlər Komissarlığının ekspertlərinin hələ mart ayının 11 -də, yəni Sovet-Türk müqaviləsi ləğv edilməzdən bir həftə əvvəl hazırladıqları "Dostluq və bitərəflik haqqında Sovet-Türk müqaviləsi ilə bağlı məsələyə dair" adlı sənəddə mövcud müqavilənin ləğv edilməsinin Sovetlər üçün daha vacib olan Boğazlar haqqında məsələnin həllini çətinləşdirəcəyi və yeni saziş haqqında Sovet-Türk danışıqları üçün arzuolunmaz şərait yaradacağı göstərilsə də, Sovet rəhbərliyi bilərəkdən sərt xəttə üstünlük vermişdi (22). Sovet rəhbərliyinin belə mövqeyinin arxasında duran niyyətlər Türkiyə siyasi dairələrinə təxminən aydın idi. Türkiyə xarici işlər naziri H.Saka Ankaradakı ABŞ səfiri L.Steynqardtla söhbətində bu niyyətlərə işarə edərək demişdi: "Bütün məsələ Boğazlarla bağlıdır, 1925-ci il müqaviləsinin ləğv edilməsi isə yalnız bu məsələnin özünəməxsus formada qoyulmasından ibarətdir" (23). H.Sakanın həmin fikrinə toxunan rus alimi N.İ.Yeqorova haqlı olaraq belə qənaətə gəlir ki, o, həqiqətdən uzaq deyildi (24). Bunu SSRİ xarici işlər komissarının müavini S.Kavtaradzenin aprel ayının sonlarında A.Vışinskiyə göndərdiyi bir məktub da təsdiq edir.S.Kavtaradze Türkiyə hökumətinə məsləhət görürdü ki, əgər onlar Boğazlar haqqında məsələnin həllində SSRİ-yə tərəf meyl etsələr, onda Türkiyə üçün daha əlverişli olan Sovet-Türk müqaviləsinə ümid edə bilərlər (25).

Ankarada təxminən iki aylıq məsləhətləşmələrdən sonra may ayının 24-də səfir S.Sarper Moskvaya yola düşdü və çatan kimi V.Molotovla görüşmək arzusunu SSRİ xarici işlər komissarlığına bildirdi. Lakin V.Molotovla danışıqlardan bir gün əvvəl o, Xarici İşlər Komissarının müavini, komissarlıqda SSRİ-nin Yaxın Şərq, o cümlədən İran və Türkiyə ilə siyasətini əlaqələndirən S.Kavtaradze ilə görüşdü. Bu görüşdə

Sovet-Türkiyə danışıqlarına əməli xarakter vermək və iki ölkənin münasibətlərini hüquqi müstəviyə keçirmək məqsədi ilə S.Sarper bildirdi ki, o, mücərrəd söhbətlərdənsə predmetli danışıqlara və praktiki işlə məşğul olmağa üstünlük verir. Bu görüşdə S.Sarper 1925-ci il müqaviləsinin ruhunun qorunub saxlanması və münasibətlərin ittifaq müqaviləsi səviyyəsinə yüksəldilməsinin mümkünlüyü barədə öz fikirlərini açıqladı (26). Bir gün sonra, iyun ayının 7-də axşam saat 6-da bu məsələlərlə bağlı V.Molotovla S.Sarper arasında iki saatdan artıq davam edən və son dərəcədə gərgin keçən danışıqlar başlandı. S.Sarper bildirdi ki, bu otaqda, bu masa arxasında 1925-ci il müqaviləsinin ləğv edilməsindən sonra o, Türkiyəyə gedib və ləğv olunmuş müqavilənin yenisi ilə əvəz olunacağına yeni ümidlə qayıdıb. O, qeyd etdi ki, bu barədə Ankarada S.Vinoqradovla da qeyri-rəsmi söhbət olub. V.Molotov bu söhbətlərdən xəbərdar olduğunu bildirdi və təklif etdi ki, S.Sarper bu barədə öz fikirlərini daha dəqiq ifadə etsin. S.Sarper dedi ki, onun təklif etdiyi müqavilədə söhbət SSRİ-nin və Türkiyənin Avropa və Aralıq dənizi ölkələrinin təcavüzünə qarşı birgə ittifaqından gedir. S.Sarper belə hesab edirdi ki, bu ideya müqavilənin əsasını təşkil etməlidir. Onun fikrincə, Boğazlarla bağlı Montrö konvensiyasını dəyişmək Türkiyə üçün çətin olacaq, çünki sazişin iştirakçısı olan dövlətlər onu dəyişdirməyin əleyhinə olacaqdır. Lakin yeni təklif olunan layihəyə görə, SSRİ Avropa ölkələrinin hər hansı biri ilə müharibə olacağı təqdirdə həmin ölkənin quru və dəniz qüvvələrini öz ərazisindən buraxmamağı Türkiyə öz üzərinə götürürdü. S.Sarper əlavə etdi ki, Boğazlar Türkiyə ərazisinin bir hissəsi olduğundan bu təminat ora da şamil edilir. Türk səfirinin fikrincə, Boğazlar məsələsinə elə yanaşılmalı idi ki, bu digər ölkələrin etirazına səbəb olmasın. V.Molotov etiraz formasında qeyd etdi ki, Türkiyə ilə Sovet İttifaqı razılaşacaqsa, kim bunun əleyhinə olacaq? S.Sarper cavabında bildirdi ki, Montrö konvensiyasını imzalayanlar etiraz edə bilərlər, hərçənd əlbəttə ki, heç kim Türkiyəyə Sovet İttifaqı ilə müqavilə bağlamağı qadağan edə bilməz. Lakin ittifaq müqaviləsində Boğazlardan başqa digər məsələlər də öz əksini tapmalıdır. V.Molotov bir qədər sərt formada dedi ki, bu qədər dəyişikliklərdən sonra iki dövlət arasında müqavilə bağlamaq böyük işdir, lakin bu zaman hər iki ölkənin bir-birinə olan qarşılıqlı iddiaları həll olunmalıdır. V.Molotov maraqlanırdı ki, ittifaq müqaviləsi istəyən Türkiyə tərəfi iki ölkə arasında mövcud olan iddiaları nəzərə alırmı və o, bu iddiaları tənzim etməyi arzulayırmı. Ona görə belə bir məsələ meydana çıxır ki, Boğazlar haqqında məsələdə Sovet İttifaqının təklifləri necə qarşılanacaq. O, sözünü davam etdirərək bildirdi: "Nəzərə almaq lazımdır ki, belə çətin müharibə dən sonra Sovet İttifaqı öz təhlükəsizliyinin fərqindədir. Lakin indi tək bu məsələ haqqında xatırlatmaq lazım deyil. Bizim 1921-ci il müqaviləmiz vardır ki, indiki şəraitdən

tamamilə fərqli bir şəraitdə imzalanıb. Səfir bilir ki, bu müqavilə ilə bağlı ərazi məsələlərindən biz narazıyıq". V.Molotov soruşdu: "Sovet İttifaqı ilə münasibətləri yaxşılaşdırmaq üçün çox vacib olan bu iddialara baxmağa Türkiyə hazırdırmı?"(27). Səfir söhbətin Türkiyənin Şərq sərhədlərinin dəyişdirilməsindən getdiyini dəqiqləşdirmək istədikdə V.Molotov təsdiqləyici cavab verdi. S.Sarper dedi ki, Türkiyə bu məsələyə baxmayıb və nə Türkiyə, nə səfir gözləmirdilər ki, Sovet İttifaqı müqavilə bağlanması üçün bu şərtləri irəli sürəcək. Sovet İttifaqının əraziyə və bir neçə min əhaliyə ehtiyacı yoxdur. Bundan əlavə, S.Sarper qeyd etdi ki, onun bildiyi qədər 1921-ci il müqaviləsi Sovet İttifaqına zorla qəbul etdirilməyib. S.Sarperin məsələni belə qoymasından sonra V.Molotov bir qədər geri çəkildi və bildirdi: "O, belə hesab etmir ki, bütün məsələləri eyni zamanda həll etmək lazımdır. Lakin söhbət ittifaq müqaviləsindən gedirsə, bu halda Sovet-Türkiyə münasibətlərinin perspektivlərinə geniş planda yanaşılmalıdır, bütün qarşılıqlı iddiaları geniş əsasda tənzimləmək lazımdır". Öz fikrini əsaslandırmaq üçün V.Molotov Polşa ilə bağlı məsələni xatırlatdı və dedi ki, 1921-ci ildə Polşanın Sovet İttifaqına olan ədalətsiz münasibətini indiki Polşa hökuməti aradan qaldırdı. Polşa nümunəsinin misal kimi gətirildiyini bildirən V.Molotov əlavə etdi: "Əgər Sovet-Türkiyə müqaviləsində Sovet İttifaqının, o cümlədən Ermənistanın və Gürcüstanın ziyanına həll edilmiş məsələnin ərazi tərəfi öz həllini taparsa, bu Sovet İttifaqı ilə Türkiyə arasında uzun illər ərzində dostluq münasibətlərinin möhkəmləndirilməsində böyük əhəmiyyətli hadisə ola bilər". S.Sarper bununla razılaşmadı və dedi ki, bir səfir kimi öz hökuməti qarşısında məsələnin belə qoyuluşuna bəraət qazandıra bilməz və əlavə etdi ki, əgər biz 1921-ci il müqaviləsini müzakirə etsək, Türkiyəyə qarşı ədalətsizliyə yol verilmiş çox şeyi tapmaq olar. S.Sarper açıq və birmənalı şəkildə bəyan etdi: "Biz 1921-ci il müqaviləsini ədalətsiz saymırıq". Sonra o, Molotovdan xahiş etdi ki, Türkiyənin qarşısında ərazi məsələsini qoymasın, belə ki, "Biz ictimai fikrə bunu izah edə bilmərik və ictimai fikirdə Sovet İttifaqına etimad itər. Bu məsələ nə Sovet İttifaqı, nə Ermənistan, nə də Gürcüstan üçün əhəmiyyətli məsələ deyildir". Ərazi məsələsi danışıqların uğurlu keçməsinə mane olacağından o, digər əhəmiyyətli məsələləri müzakirə etməyi təklif edirdi. S.Sarper V.Molotova anlatmağa çalışırdı ki, "Türkiyənin Sovetlərə əl üzatdığını, Sovetlərin bu əli tutduğunu və bu əllə yanaşı daha bir neçə kilometr ərazi aldığını" Türkiyə ictimai fikrinə necə izah etmək olar. Molotov türk ictimai fikrinin necə olacağını təsəvvür edirmi? Səfir qeyd etdi ki, Polşa ilə 1921-ci il müqaviləsində bəlkə də ədalətsizlik olub. Türkiyə ilə 1921-ci il müqaviləsini isə V.Lenin və Sovet hökuməti ədalətsiz saymayıblar. Əslində onlar bu müqavilə ilə qurulmuş sərhədləri ədalətsizliyin düzəldilməsi hesab edirdilər. S.Sarperin V.İ.Leninə istinad

etməsi V.Molotovu əsəbiləşdirdi. O, acıqlı formada dedi: "Səfir Leninə istinad edir, Polşa ilə də, Türkiyə ilə də müqavilələri Lenin imzalamışdı". S.Sarper özü də etiraf etdi ki, Polşa sərhədləri ədalətsiz idi. Səfir bizim Leninə hörmətimizi bilir. Bizim münasibətimiz onunkundan fərqli deyildir, lakin hər bir obyektiv adam bilir ki, 1921-ci ildə Sovet-Türkiyə sərhədləri Sovet İttifaqının ziyanına qurulub. Əgər səfir deyirsə, ki indi bu məsələni qoymaq lazım deyil, onda ittifaq müqaviləsi haqda danışığa da ehtiyac yoxdur, gəlin bağlı məsələ haqqında danışaq (28).

Bir sıra tarixçilər danışıqların məhz bu məqamına toxunaraq belə fikrə gəlirlər ki, V.Molotovun S.Sarperlə iyun ayı ərzində apardığı danışıqların bütün gedişinin Ankara üçün qəbuledilməz olan ərazi iddialarının Sovetlər tərəfindən irəli sürülməsi başlıca olaraq Türkiyə ilə ittifaq müqaviləsi haqqında danışıqları kəsib onu ayrıca Boğazlar haqqında Türk-Sovet ikitərəfli Sazişi əsasında Montrö konvensiyasına baxmaq istiqamətinə döndərmək məqsədi güdürdü. Bu çərçivədə Sovetlər Boğazlar rejimi haqqında məsələni həll etmək fikrində idi (29).

7 iyun danışıqlarında Sovetlərin ərazi tələblərinə S.Sarper, Türkiyə ilə ittifaq müqaviləsinə isə Sovet tərəfi qəti şəkildə etiraz etdiyindən V.Molotov söhbətin gedişini Boğazlar məsələsinə yönəltdi. O qeyd etdi ki, Sovet İttifaqı Qara dəniz və xüsusilə Boğazlar istiqamətindən öz təhlükəsizliyini Türkiyənin iradəsindən və o qədər də yetərli olmayan real imkanlarından asılı edə bilməz. Türkiyə səfiri S.Sarper çox açıq şəkildə V.Molotova bildirdi ki, onun ölkəsi Boğazlar haqqında sazişə baxa bilər, bu şərtlə ki, Sovet İttifaqı dinc dövrdə Türkiyə ərazisində və Boğazlarda ona baza verilməsində təkid etməsin. V.Molotov öz mövqeyini onunla əsaslandırmaq istədi ki, baş vermiş son böyük müharibə zamanı Sovetlər çoxlu sayda insan itkisinə məruz qalıb, ona görə Sovet hökuməti Boğazlar tərəfindən ona təhlükə gəlmədiyinə əmin olmalıdır. V.Molotovun bu fikri müqabilində S.Sarper bildirdi ki, əvvəla müharibə zamanı türklər Sovet İttifaqına münasibətdə öz borclarını yerinə yetiriblər. İkincisi, müharibə başlayanda Sovet İttifaqı ilə Türkiyə arasında ittifaq müqaviləsi yox idi. Üçüncüsü, nəzərə almaq lazımdır ki, əgər Türkiyə Boğazları bağlamaq istəsə, o, bunu edə bilər. S.Sarperin dəlillərinə münasibətdə V.Molotov replika verdi ki, indi aviasiya əsridir. S.Sarper isə cavabında dedi ki, aviasiya əsri olsa da, müharibə yə iki saat ərzində hazırlaşmırlar, məlum olduğu kimi, ictimai fikri hazırlamaq lazımdır. Bundan sonra S.Sarper qələmlə kağız üzərində Qara dənizi və Mərmərə dənizini çəkərək izah etməyə çalışdı ki, əgər ittifaq müqaviləsi olsa, hər hansı bir Avropa dövləti Sovet İttifaqına müharibə elan etsə, Türkiyə həmin ölkənin dəniz və quru qüvvələrinin onun ərazisindən keçməsinə icazə verməyəcək. Əgər Türkiyə Sovet İttifaqı ilə birlikdə müharibə də iştirak etsə, aydın məsələdir ki, Türkiyə bu müharibəni udmağa çalışacaq. Söhbət hər

hansı dövlətin Boğazları zorla basıb keçməsindən gedirsə, şübhəsiz ki Sovet İttifaqının müttəfiqi kimi Türkiyə müharibə yə girməlidir. Lakin S.Sarper bildirdi ki, bütün bunlar iki şərt daxilində mümkündür. Birincisi Sovet İttifaqı ərazi məsələsini, ikincisi isə dinc dövrdə Boğazlarda baza yaratmaq məsələsini irəli sürməməlidir (30). V.Molotov məsələnin belə qoyuluşu ilə razılaşmadı. Onun fikrincə, Sovet İttifaqı ona qarşı olan təhlükədən vaxtında xəbər tutmalıdır. O qeyd etdi ki, indi hər bir müharibə dinc dövrdə hazırlanır. V.Molotovla danışıqlarda türk səfiri Boğazların etibarlı müdafiəsi üçün digər bir variant irəli sürdü. S.Sarper dedi: "Yaxşı olar ki, Sovet İttifaqı Türkiyəyə silah satsın. Türkiyə Sovetlərin satdığı silahı həvəslə alar, eyni zamanda Boğazları da müdafiə edər".

Danışıqların gedişində V.Molotov S.Sarperin tez-tez "dinc dövr" ifadəsini işlətməsindən istifadə edərək müzakirəni maraqlı bir səmtə yönəltmək istədi və müharibə dövründə Boğazlarda birgə Sovet-Türk bazası yaradılmasının mümkünlüyü məsələsini qoydu. Öz növbəsində S.Sarper bununla da razılaşmadı. O, qeyd etdi ki, belə bir vəd verməyə səlahiyyətli deyildir və əlavə etdi ki, o, hərbi mütəxəssis deyildir, əgər ittifaq müqaviləsi imzalansa, bu məsələ Baş qərargahlarda müzakirə edib bilər və yaxud müharibə zamanı hər iki ölkənin hökumətləri məsləhətləşə bilərlər. SSRİ xarici işlər komissarı V.Molotov belə hesab edirdi ki,təhlükəsizliyin təmin olunmasına əmin olmaq üçün imza yetərli deyildir,əmin olmaq lazımdır ki, bu təhlükəsizlik təmin olunacaq. O, dedi: mən peyğəmbərlik etmək istəmirəm, lakin əlbəttə, güman etmək olar ki, 20 və ya 30 ildən sonra Almaniya yenidən güclənə bilər və yenidən özünə müttəfiq axtara bilər. V.Molotov Sovet maraqları nöqteyi-nəzərindən bilmək istəyirdi ki, türklər Qara dənizdə Sovet İttifaqı və Türkiyənin maraqlarını qorumağa nə dərəcədə hazırdır. Türkiyənin Boğazları qoruya bilməsi nə qədər realdır. Türkiyənin tək buna gücü çatacaqmı. Bütün bu ritorik sualları o, belə yekunlaşdırdı ki, Boğazları birgə qorumaq lazımdır. S.Sarper isə çox aydın formada ifadə etdi ki, nə sülh, nə müharibə vaxtı hər hansı baza barədə o, vəd verə bilməz. Eyni zamanda o, əmin olduğunu bildirdi ki, Türkiyə öz gücü ilə Boğazları qoruya bilər. S.Sarper qeyd etdi ki, əgər ittifaq müqaviləsi olarsa, SSRİ xarici işlər komissarının indi toxunduğu məsələlər də daxil olmaqla ondan irəli gələn məsələlər müzakirə edibcəkdir. İttifaq müqaviləsi ideyasından yayınmaq üçün V.Molotov dedi ki, biz indi müqavilə mətni hazırlaya bilmərik, biz indi onun prinsiplərini, Boğazlar məsələsi, Montrö konvensiyasına baxılması və s. müəyyən etməliyik. Türkiyənin Moskvadakı səfiri S.Sarper öz ölkəsinin maraqlarını axıra qədər müdafiə edərək bildirdi: "Montrö konvensiyasına Sovet İttifaqı və Türkiyə baxmaq istəyir, digər dövlətlər isə istəmir, onda necə olacaq? Lakin bu bir başqa məsələdir ki, Türkiyə və Sovet İttifaqı müttəfiqlər kimi Montrö konvensiyası ilə bağlı konfransda

eyni mövqedən çıxış edə bilərlər". Nəhayət, iyun ayının 7-də iki saat beş dəqiqə davam edən danışıqları V.Molotov belə yekunlaşdırdı: "Montrö konvensiyasına baxılmağın prinsipləri haqqında razılaşmaya Sovet İttifaqı ilə Türkiyə arasında müqavilənin prinsipləri və Boğazlar haqqında məsələnin tənzimlənməsinin prinsipləri haqda razılıqlarla eyni zamanda baxmaq lazımdır"(31).

İyun ayının 7-də V.Molotovla S.Sarper arasında danışıqlar başa çatdıqdan dərhal sonra, həmin gecə SSRİ Xarici İşlər Komissarlığı Ankaradakı Sovet səfiri S.Vinoqradova danışıqların məzmunu haqqında iki səhifəlik teleqram göndərdi. İ.Stalinin ölümündən sonra Türkiyə ilə münasibətlərə yenidən baxıldıqda həmin teleqramın 1953-cü ilin aprel ayının 27-də Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinə aparılması barədə Rusiya Federasiyası Xarici Siyasət Arxivindəki sənəddə xüsusi qeyd vardır (32).

İyun ayının 11-də S.Sarper də V.Molotovla danışıqları barədə Baş nazir Ş.Saracoğluya teleqram göndərdi. Görünür, Baş nazir bu məsələni təcili olaraq prezident İ.İnönü ilə müzakirə etdiyindən elə həmin gün İ.İnönü ABŞ səfiri ilə görüşündə bildirdi ki, biz müstəqilliyimizə və suverenliyimizə xələl gətirməyən hər şeyi ruslarla müzakirə etməyə hazırıq. Bir gün sonra, iyun ayının 12-də səhər Ş.Saracoğlu Amerika səfiri Edvin Vilsonla görüşüb Moskvadakı Türkiyə səfirliyindən teleqram aldığını və bu teleqram barədə təəssüratının elə də yaxşı olmadığını ona bildirdi. ABŞ səfiri dövlət katibinə yazırdı: "Həmin gün mən xarici işlər nazirinin müavinini gördüm. O, da Moskvadan gələn teleqram haqqında məlumat verdi. O dedi ki, məsələni çox ciddi şəkildə təhlil etmək tələb olunur və bu təhlil SSRİ-nin fikirlərinin müzakirə üçün əsas kimi qəbul edilməsinin mümkün olub-olmamasını müəyyənləşdirdikdən bir neçə gün əvvəl başlayacaqdır" (33).

Türkiyə siyasi dairələri S.Sarperin teleqramından sonra yaranmış vəziyyəti Böyük Britaniyanın Ankaradakı səfiri M.Petersonla da müzakirə etmişdilər. M.Peterson V.Molotovun S.Sarperlə görüşü, rusların Boğazlarda hərbi baza yaratmaq, 1921-ci il türk-sovet müqaviləsinin təkrar gözdən keçirilməsi və Montrö konvensiyasının dəyişdirilməsi ilə bağlı tələbləri haqqında Londona məlumat göndərmişdi. Peterson bildirmişdi ki, Molotov 1921-ci il müqaviləsinin təzyiq altında imzalandığını əsas kimi gətirərək onun dəyişdirilməsinin labüdlüyünü sübut etməyə çalışıb. Türkiyə səfiri cavabında Molotova 1921-ci il müqaviləsinin sərbəst Şəkildə müzakirə edildiyini və onun qüvvədə olduğu müddətdə heç vaxt Şübhə altına alınmadığını söyləyib. O, həmçinin deyib ki, Boğazlardakı bazaların verilməsindən söhbət gedə bilməz və Montrö konvensiyasının təkrar gözdən keçirilməsi bir çox iştirakçı dövlətlərin maraq dairəsindədir və yalnız Türkiyə və Rusiya tərəfindən müzakirə edilməməlidir. Peterson

yazırdı ki, Türkiyə hökuməti Moskvadakı türk səfirinin vəziyyəti idarə etmə tərzini dəstəkləyilə, lakin Molotovun addımı Türkiyə hökumət dairələrində hiss edibcək əsəbilik yaradıb (34).

Sovetlərin təzyiqi fonunda Türkiyə Britaniyanı qıcıqlandırmaq və ABŞ-ı aktivləşdirmək məqsədilə məxfi olaraq belə bir fikir yaymışdı ki guya Molotov Türkiyənin Moskvadakı səfirinə digər üç tələbi əhəmiyyətsiz edə biləcək dördüncü tələbin ola biləcəyini bildirib. Türklər belə hesab edirdilər ki, bu dördüncü tələb ingilis-türk müttəfiqliyinin kəsilməsi və yaxud Türkiyədəki siyasi rejimin Rumıniya və Bolqarıstan hökumətlərinin etdiyi kimi "yeni istiqamət" müəyyənləşdirməsinə səbəb ola biləcək şəkildə dəyişməsinə gətirilə çıxara bilər. Gizli şəkildə belə söz-söhbətin yayıldığı dövrdə Ankaradakı Britaniya səfiri M.Petersonun Londona göndərdiyi bir məlumat şübhələri daha da artırmışdı. M.Peterson yazırdı ki, bu yaxınlarda o, Türkiyə xarici işlər nazirinin müavinini və keçmiş Xarici işlər naziri, Londonda səfir işləmiş R.Arası nahar yemək üçün səfirliyə dəvət edib. Nahardan sonra xarici işlər nazirinin müavini onu bir kənara çəkib və xahiş edib ki, bir də Arasla eyni yerə dəvət olunmasın, belə ki, o, Arası "tanınmış sovet agenti" kimi qələmə verib (35).

Görünür, R.Arasın müharibə dövründə Sovetlərin xeyrinə verdiyi bir sıra bəyanatlar Sovetlərlə yanaşı Türkiyə hökumətinin də diqqətindən yayınmamışdı. Hələ 1943-cü ilin dekabr ayının sonunda R.Aras "Nyu York tayms" qəzetinə bildirmişdi ki, Sovet İttifaqı özünün böyük qurbanlar verdiyini hesab etməkdə tamamilə əsaslıdır, belə ki, son iki ildə o demək olar ki, müharibəni təkbaşına aparıb. Heç kim Sovet İttifaqının daha bir qırğının qarşısını almağa yönəlmiş niyyətlərini, eyni zamanda onun qonşu ölkələrdə özünə dost olan hökumətlərin mövcudluğunu təmin etmək metodlarını tənqid etməkdə haqlı deyildir (36). Bundan əlavə, 1944-cü ilin iyununda "Vatan" qəzetində R.Arasın Sovet İttifaqı ilə Türkiyə arasında dostluğun zəruriliyini yüksək qiymətləndirən məqaləsi dərc olunmuşdu. Orada Aras yazırdı ki, bugünkü Rusiya köhnə dünyada doğulmuş yeni Amerikadır (37). Qeyd etmək lazımdır ki, 1945-ci ilin yazında Türkiyənin köhnə siyasətçilərindən olan R.Aras xeyli fəallaşmışdı. Mart ayının 30-da sol təmayüllü "Tan" qəzetində onun "Dümbarton-Oksda hazırlanan layihənin əsasları" adlı məqaləsi dərc olunmuşdu. Bu məqalədə söhbət Birləşmiş Millətlər Təşkilatının quruluşundan getsə də, Aras bəzi məqamlarda Sovet İttifaqı ilə bağlı öz fikirlərini açıqlamışdı. O qeyd edirdi ki, köhnə Millətlər Cəmiyyətində çıxış edəndə biz elə bir düzəliş irəli sürdük ki, Millətlər Cəmiyyətinin Baş Məclisində böyük qonşumuz Sovet İttifaqı əleyhinə hər hansı qərar qəbul etmək mümkün olmasın. Bizim bu hərəkətimiz düzgün və yerində oldu. İndi də əgər bu mümkünsə, ona bənzər bir düzəliş etmək lazımdır ki, Türkiyəni

bizim qara gün, çətin vaxtlar üçün dostumuz olan Sovet İttifaqı, ittifaq müqaviləsində olduğumuz İngiltərə və Amerika əleyhinə hər hansı qərar qəbul edilməsinə cəlb edilmək imkanlarını aradan qaldırsın. R.Aras yazırdı ki, kollektiv təhlükəsizlik məsələsi ilk dəfə Sovet Rusiyası tərəfindən irəli sürüldü. Təcavüzkarın müəyyən edilməsi də eyni zamanda Millətlər Cəmiyyətində Sovet Rusiyasını təmsil edən cənab Litvinovun işi idi (38). R.Arasın 1945-ci ilin yazında yaranmış Fransa-Suriya münaqişəsi barədə də iyun ayında "Tan" qəzetində yazısı dərc edilmişdi. Bu yazıda Aras Suriya və Livana səfərlərinə, bu ölkələrin dövlət xadimləri ilə görüşlərinə toxunaraq yazırdı ki, Türkiyənin coğrafi və siyasi vəziyyətini nəzərə alaraq onun Suriya məsələsinin həll edildiyi konfransa dəvət edilməsi zəruridir (39). Bütün bu yazılar barədə Ankaradakı Sovet Səfirliyi Moskvaya geniş məlumatlar göndərmişdi.

1945-ci ilin iyun ayının 17-də Türkiyə Böyük Millət Məclisində boş olan 6 deputat yerinə erkən seçkilər keçirilmişdi. Seçkilərə bir həftə qalmış Baş nazir Ş.Saracoğlu Xalq Respublikaçı Partiyasının vitse-prezidenti kimi çıxış edib bildirmişdi ki, erkən seçkilərdə partiya öz namizədlərini irəli sürməyəcək. Bu seçkilərin azad və ədalətli keçəcəyini nümayiş etdirmək üçün irəli sürülmüş ideya idi. Bu dalğada erkən seçkilərdə iştirak edənlərdən biri də yenidən fəal siyasətə qayıtmaq istəyən R.Aras idi. R.Aras seçicilərə yazılı müraciətində bildirmişdi ki, o, Atatürk tərəfindən müəyyən olunmuş siyasətə sadiq qalacaq, Xalq Respublikaçı Partiyanın yarandığı dövrdə müəyyən edilmiş sosial, siyasi və iqtisadi prinsipləri rəhbər tutacaq və eyni zamanda Konstitusiyanın həyata keçirilməsinə yardım edəcəkdir. Ankaradakı Sovet səfirliyi Moskvaya yazırdı: "Bu bəyanatla Aras göstərdi ki, həm hökumət, həm partiya Atatürkün siyasətindən və partiyanın ilkin prinsiplərindən uzaqlaşıb və öz fəaliyyətində Konstitusiyanı pozurlar (40). Seçki kampaniyasının gedişində hökumətə Yaxın olan "Tasvir", "Vakıt" və "Yeni Sabah" qəzetləri ona qarşı kəskin yazılar verdi. İyun ayının 15-də "Yeni Sabah" qəzeti baş məqaləsində yazırdı: R.Aras fasiləsiz olaraq 15 il xarici işlər naziri olub. O, birpartiyalı rejimin əsas qurucularından biri kimi öz vəzifəsini böyük həvəslə icra edib. Bir nəfər də olsun şahid yoxdur ki, onun xalq məsələlərinin həlli üçün nə isə etdiyini görsün. Lakin o, hər şeyi edib ki, öz vəzifəsini saxlasın. Onun Millətlər Cəmiyyətinə bütün səfərləri, illərlə Afinada yaşaması, Paris və London kimi Avropa paytaxtlarının gözəl hotellərindəki həyatı bütövlükdə xalq vəsaitinin hesabına idi. Şübhəsiz ki, R.Aras əleyhinə belə təbliğatın başlaması hökumət kabinetlərində onun "sovet agenti" olması haqda yayılmış söz-söhbətlərlə bilavasitə bağlı idi.

Qeyd etmək lazımdır ki, Avropada müharibə başa çatdıqdan sonra Sovet İttifaqı nəinki Şərqi Avropada, Balkanlarda, bir sıra həmsərhəd

ölkələrdə özünə yaxın olan hökumətlər qurmaq fikrində idi, hətta bu istiqamətdə aktiv əməli fəaliyyətə başlamışdı. Məsələn, 1945-ci ilin aprelində İranda yaranmış hökumət böhranı ilə bağlı SSRİ xarici işlər komissarının müavini S.Kavtaradze İ.Stalinə yazırdı: "17 apreldə Bayat kabinetinin istefasından sonra Baş nazirliyə Bader, Pakrevan, Əli Mansur Samii, Mərzban, Mostaşaridövlə, Soheyli və Qəvam namizəddirlər. Bizim üçün az-çox uyğun olanlar bizə neft verməyin tərəfdarı sayılan Qəvam və Mostaşaridövlədir. Lakin ingilislər qəti şəkildə Qəvama qarşı olduğundan onun namizədliyinin şansı yoxdur. S.Kavtaradze təklif edirdi ki, Mostaşaridövlənin namizədliyi müdafiə olunmalıdır və nail olmaq lazımdır ki, Qəvam və Soheyli də onu müdafiə etsinlər. Eyni zamanda Mostaşaridövlə kabinetində Qəvam və Soheylinin iştirakını müdafiə etmək lazımdır" (41). Yaxud bundan az sonra İranda yeni hökumət böhranı yarandıqda V.Molotov Tehrandakı Sovet səfirinə göstəriş verərək yazırdı: "Yeni kabinetin yaranması ilə bağlı bizim üçün uyğun namizəd Qəvamın namizədliyidir. Sən onun özü ilə müdafiənin forması barədə söhbət et və razılığa gəl. Qəvamın şansı zəif olacağı təqdirdə Hakimi ilə danışıqlar aparıb ona demək olar ki, biz onun kabinetini müdafiə etməyə hazırıq. Bu şərtlə ki, Kabinetdə Sovet-İran münasibətlərini əsaslı şəkildə yaxşılaşdırmağa qadir olan adamlar təmsil olunmalıdır" (42).

Müharibə başa çatdıqdan sonra qonşu ölkələrə münasibətdə Sovet rəhbərliyinin bu tipli göstərişləri və direktivləri adi hal almışdı. Əlbəttə, inkar etmək olmaz ki, Sovet İttifaqının Türkiyəyə münasibətdə belə bir fikri yox idi. Lakin İrandan, Şərqi Avropa və Balkanlardan fərqli olaraq Türkiyədə sovet qoşunları olmadığından orada Sovetlərə dost olan hökumət yaratmaq elə də asan məsələ deyildi. Digər tərəfdən, Türkiyə hökumətinin və siyasi dairələrinin yekdilliyi də bu işdə az rol oynamamışdı. R.Arasın "Sovet agenti" olması haqqında Türkiyə siyasi dairələrində yayılan söz-söhbətin elə bir əsası yox idi. Sovet gizli arxivləri açılandan sonra onun Sovetlərlə əməkdaşlığını təsdiq edən hər hansı gizli sənəd üzə çıxmadı. Çox ehtimal ki, R.Arasın "Sovet agenti" olması haqqında yayılan şayiələr Türkiyədə müharibə dən sonra bir qədər dərinləşən daxili siyasi ziddiyyətlərin və hakimiyyət içində olan intriqaların bilavasitə nəticəsi idi.

İyun ayının 18-də SSRİ Xarici İşlər Komissarlığında V.Molotovla Türkiyə səfiri S.Sarperin ikinci görüşü keçirildi. Bu dəfə danışıqların başlandığı andan səfir Sarper təşəbbüsü ələ almağa çalışdı. S.Sarper Molotovdan soruşdu ki, o, danışıqlarda 1921-ci il müqaviləsi ilə bağlı ərazi iddialarını və Boğazlarda baza yaratmaq məsələsini kənara qoymaq barədə səfirin fikri ilə razıdırmı? V.Molotov bildirdi ki, qarşılıqlı iddialara aid məsələlər, o cümlədən Sovet İttifaqının iddiaları kənara qoyulandan sonra ittifaq müqaviləsi bağlamaq haqqında məsələ mənasını itirir.

Lakin şübhəsiz ki, əgər Türkiyə hökuməti bütün iddiaları tənzim etmək istəsə bu əsasda Sovet hökuməti ittifaq müqaviləsi bağlamağa getməyə hazır ola bilər. Sarper bilmək istədi ki, Molotov qeyd edilən 2 maddəni də bura aid edirmi? V.Molotov bu suala təsdiqləyici cavab verdi.

Danışıqların gedişində Türkiyə səfiri yenidən V.Molotovdan xahiş etdi ki, həmin iki maddə müzakirələrdən çıxarılsın. S.Sarper dedi: "Əgər o məsələlər qalacaqsa, danışıqların uğurlu olacağına şans yoxdur". Səfir öz hökumətindən təlimat aldığını və təlimatın da həmin ruhda olduğunu V.Molotovun nəzərinə çatdıraraq qeyd etdi ki, Türkiyə Sovet İttifaqı ilə saziş istəyir, lakin Türkiyə hökumətinin fikrincə, bu iki maddə danışıqların mövzusu və ya danışıqlar üçün baza ola bilməz. Səfiri diqqətlə dinləyən V.Molotov çox aydın və birmənalı formada bildirdi ki, "Bu iki maddə olmasa, ittifaq müqaviləsi olmayacaq" (43).

Belə bir vəziyyətdə Türkiyə səfiri danışıqların istiqamətini və dairəsmi müəyyənləşdirmək üçün soruşdu ki, əgər ittifaq müqaviləsi olmazsa, Molotov nə təklif edir, nəyin olmasını nəzərdə tutur? V.Molotov aydınlaşdırmağa çalışdı ki, əgər Türkiyə hökuməti hesab edirsə ki, ərazi dəyişiklikləri məsələsi müzakirə edib bilməz, onda Sovet tərəfi ittifaq müqaviləsinin müzakirəsinə keçə bilməz. Bu halda söhbət Sovet İttifaqının həmin rayonda təhlükəsizliyinin təmin edilməsini nəzərə alan Boğazlar haqda Sazişin imzalanmasından gedə bilər. O əlavə etdi ki, ərazi dəyişiklikləri məsələsi elə məsələlərdəndir ki, tərəflər arasında həmin məsələnin tənzim edilməsi Türkiyə ilə Sovet İttifaqı arasında uzun illər üçün yaxşı münasibətlərin perspektivini açır. Molotov dedi ki, ötən dəfə səfirə Sovet İttifaqı ilə fikir ayrılığı olan Polşanı misal gətirib. Bu fikir ayrılığı tənzim edildi. V.Molotov ümid edirdi ki, səfir bu dəlili öz ölkəsinə çatdırıb və Türkiyə hökuməti də hansısa formada buna reaksiya verib. O dedi: "Ərazi dəyişikliyi məsələsində mən Polşanı yaxşı nümunə kimi çəkdim, o mənada ki, 1921-ci ildə Sovet İttifaqına qarşı yol verilmiş ədalətsizlik aradan qaldırıldı". Bunun müqabilində S.Sarper bildirdi ki, V.Molotov sonuncu danışıqlardan sonra, Türkiyə hökumətinə məlumat göndərənə qədər 1921-ci il müqaviləsinin mətni ilə bir daha tanış olub. Bu müqavilə hər iki tərəfin hökumətlərinin və xalqlarının azad iradəsini özündə əks etdirir, burada mən ədalətsizlik görmürəm. Eyni zamanda S.Sarper V.Molotovun tez-tez toxunduğu və "yaxşı nümunə" kimi dəyərləndirdiyi Polşa məsələsinə də aydınlıq gətirdi. O bildirdi ki, Polşa Rusiyaya qarşı mübarizə aparıb, Polşa ilə müqavilə isə müharibə dən sonra bağlanıb. Türkiyə ilə belə olmayıb. Səfir dedi ki, o, münasibətlərin yaxşılaşdırılmasına ümidli idi, lakin ötən dəfəki söhbətdən sonra o, ümidinin bir hissəsini itirməyə başlayıb. Onun fikrincə, 1919, 1920 və 1921-ci illərdə Türkiyə və Sovet Rusiyası bir-birləri ilə vuruşmayıblar, Türkiyə həmin iddiaların daşıyıcılarına, həmin təhlükəyə qarşı vuruşub, hansı ki, həmin təhlükə o

zaman Sovet İttifaqını da təhdid edirdi. V.Molotov qeyd etdi ki, Sovet İttifaqı o zaman zəif idi. S.Sarper isə - "Məgər Türkiyə güclü idi?" - deyə cavab verdi və izah etdi ki, "Türkiyə o zaman arxasını söykədiyi Sovetlərin köməyi ilə dünya imperializminə qarşı vuruşurdu, Türkiyə onda zəif idi, lakin Sovet İttifaqı onda o qüvvələrə qarşı müharibə aparmaqda türklərə ona görə kömək edirdi ki, həmin qüvvələr eyni zamanda Sovet Rusiyasını da təhdid edirdi, Sovet İttifaqı və Türkiyə onda bir idilər, eyni sırada dayanmışdılar" (44).

SSRİ Xarici İşlər Komissarlığında keçirilən 18 iyun danışıqlarında V.Molotov yenidən söhbəti ərazi iddialarının üzərinə gətirdi. O, tarixi faktlara məhəl qoymadan qeyd etdi ki, türk ordusu həmin vaxt Sovet ərazilərinə soxuldu və çoxlu xoşagəlməz hərəkətlər etdi, Buna baxmayaraq, Sovet İttifaqı müstəqillik uğrunda mübarizədə ona kömək etdi. Türkiyənin Sovet İttifaqının həmin dövrdəki vəziyyətindən istifadə etdiyini, Ermənistanın və Gürcüstanın ərazilərinin bir hissəsini tutduğunu inkar etmək olmaz. Əgər biz bunun haqqında unutsaq da, ermənilər və gürcülər bunu unutmayacaqlar. Biz də yəqin ki, bunu unutmayacağıq. Əgər Türkiyə hökuməti münasibətləri Sovet İttifaqının istədiyi kimi tənzim etmək istəyirsə, ərazi məsələsi ədalətli şəkildə öz həllini tapmalıdır və Sovet İttifaqına qarşı yol verilmiş ədalətsizlik aradan qaldırılmalıdır. S.Sarper ona ərazi məsələlərini müzakirə etmək səlahiyyətinin verilmədiyini dedi. Səfir kimi deyil, sadəcə Selim Sarper kimi o, demək istəyir ki, hər hansı ədalətsizliyin tarixi araşdırılmasının hüdudu, nə də xeyri yoxdur. Sarper Molotovla danışıqlardan çox bədbin olduğunu və bunu gözləmədiyini dilə gətirərək əlavə etdi ki, o, Ankarada S.Vinoqradovla danışan zaman fikirləşirdi ki, Türkiyə və Sovet İttifaqı uzun illər üçün razılığa gələcəklər (45). Molotov tarixin dərinliyinə baş vurmaq istəmədiyini desə də, onun haqqında danışdığı və ədalətsiz hesab etdiyi 1921-ci il müqaviləsinin hazırda da fəaliyyət göstərdiyini qeyd edərək soruşdu: "Belə müqaviləni biz qüvvədə saxlaya bilərikmi?" S.Sarper əvvəlki sözünün davamı kimi göstərdi ki, biz Sovetlərin fikri ayrı, türklərin fikri başqadır deyib söhbətə asanlıqla son qoya bilərdik. Ancaq mən Sovet-Türkiyə münasibətlərinin yaxşılaşdırılmasının tərəfdarı olduğum üçün vəziyyətdən çıxış yolu axtarıram. Lakin 1921-ci il müqaviləsi ilə bağlı məsələ tənzimlənməyə aid olan məsələ deyil, belə ki, bu müqavilə keçici deyil, bu müqavilə iki ölkə arasında münasibətlərin əsaslarını özündə əks etdirir. Göründüyü kimi, bu məsələdə ədalətin müəyyənləşdirilməsində böyük fərqlər var. Nəzərə almaq lazımdır ki, Sovet tərəfi 1953-cü ilə qədər Rusiya Federasiya ilə Türkiyə arasında 16 mart 1921-ci ildə imzalanmış dostluq və qardaşlıq haqqında müqaviləyə dəfələrlə qayıtmışdı. Sovet rəhbərliyi üçün hazırlanmış müxtəlif gizli arayışlarda 1921-ci il müqaviləsinin ədalətsiz xarakteri barədə elə ciddi bir

şey deyilmirdi. 1953-cü ilin yanvar ayında 1921-ci il müqaviləsinin imzalandığı siyasi şərait haqqında 16 səhifəlik geniş arayış hazırlanmışdı.

Arayışda 1921-ci il müqaviləsi ərəfəsindəki vəziyyət geniş təhlil edilir və göstərilirdi ki, bir tərəfdən kamalçılara həm Qərbdən və həm Şərqdən eyni zamanda zərbə endirmək üçün, digər tərəfdən isə Sovet Rusiyası ilə Türkiyənin birbaşa sərhədlərinin qurulmasına imkan verməmək üçün ingilislər yunanlarla yanaşı, eyni zamanda daşnaklardan da istifadə etməyə cəhd göstərir, Rusiyaya qarşı əksinqilabi qüvvə kimi daşnak Ermənistanını əllərində saxlayırdılar. Daha sonra SSRİ Xarici İşlər Nazirliyinin əməkdaşı İ.Lakomski qeyd edilən arayışda yazırdı ki, Türkiyə Böyük Millət Məclisinin 2 iyun 1920-ci il müraciətinə cavab olaraq xalqların öz müqəddəratını təyin etməsi əsasında Sovet Rusiyası Türkiyə ilə Ermənistan arasında ədalətli sərhədlər qurulmasında vasitəçilik etməyə hazır olduğunu bəyan etmişdi (46). Şübhəsiz ki, 1921-ci il müqaviləsi və həmin dövrdə Sovet Rusiyası ilə əməkdaşlığa aid çoxsaylı faktlar Türkiyə tərəfinə də bəlli idi və ona görə də tarixi araşdırmaq fikrində olmayan S.Sarper Molotovdan bir daha xahiş etdi ki, danışıqlarda toxunulan iki maddəni çıxarsın. V.Molotov isə əvvəlki qaydada təkrar etdi ki, əgər Türkiyə tərəfi bütün iddiaları tənzim etməyə hazır deyilsə, onda biz ittifaq müqaviləsi haqqında söhbət gedə bilməz. Bu halda o, yalnız Boğazlara dair müqavilə bağlamaq haqqında danışmağa hazırdır. Bu sözlərdən sonra Molotov elə həmin dəqiqə məsələyə keçilə aydınlaşdırmaq istədi ki, bu məsələdə ancaq Türkiyənin deyil, eyni zamanda Sovet İttifaqının maraqları necə təmin olunacaq. Öz növbəsində S.Sarper də aydınlaşdırmaq istədi ki, Molotov Boğazlar haqqında ayrıca saziş bağlanmasınımı nəzərdə tutur? V.Molotov bildirdi ki, Boğazlara dair mövcud konvensiyanın dəyişdirilməsi tədbirləri haqqında razılığa gəlmək olar. Səfir Türkiyənin mövqeyini ifadə edərək bildirdi ki, Konvensiya səkkiz dövlət tərəfindən imzalandığından o, bu məsələnin ikitərəfli həllini çətin görür. Molotov bu səkkiz dövlətin içində Yaponiyanın da olduğunu önə çəkdi. S.Sarper isə Türkiyənin Yaponiyaya qarşı vuruşduğunu və yaxın vaxtlarda Yaponiyanın mövcud olmayacağını vurğuladı və qeyd etdi ki, Montrö konvensiyası Çərçivəsində deyil, ittifaq müqaviləsi çərçivəsində Sovetlərin maraqları daha yaxşı təmin oluna bilər. O, izah etdi ki, Konvensiyada heç nə dəyişə bilməz, müqavilədə isə aydın formada deyilə bilər ki, Türkiyə heç bir təcavüzkar dövlətin onun ərazisindən keçməsinə icazə vermir. Beləliklə, bu halda Boğazlar haqqında məsələyə də baxılmış olur (47).

Bütün vasitələrlə Boğazlarda hərbi baza yaratmağa cəhd göstərən Sovetlərin strateji maraqlarını təmin etmək üçün 18 iyun danışıqlarında V.Molotov incə diplomatik üsullara əl atır,S.Sarperin fikirlərini Sovetlərin maraqlarına uyğun interpritasiyada şərh etməyə çalışırdı.O qeyd edirdi ki, Türkiyə hökumətinin dinc dövrdə Boğazlarda Sovet İttifaqına

baza verilməsi haqqında məsələyə baxılmasına razı olmaması barədə səfirin sözlərini, həmçinin Sarperin müharibə dövründə Boğazlarda Sovet bazasının yaradılmasının mümkünlüyünə dair bəyanat vermədiyini nəzərə alaraq o belə bir nəticəyə gəlir ki, müharibə dövründə Boğazlarda Sovet hərbi bazasının yaradılması istisna təşkil etmir. Molotov tərəfindən məsələnin belə qoyuluşuna türk səfirinin cavabı aydın və birmənalı oldu. O dedi: "Mən ötən söhbətdə də bildirdim ki, Boğazlarda baza mümkün deyil. Əgər söhbət hərbi dövrdən gedirsə, Sovetlərlə ittifaq müqaviləsi olarsa, bu müqavilə çərçivəsində Boğazların müdafiəsi məsələsi meydana çıxarsa, həmin məsələ hərbi qərargahlar tərəfindən tənzimlənə bilər. Montrö konvensiyasına baxılana qədər hər iki tərəf ittifaq müqaviləsi haqqında məsələni müzakirə edə bilərlər. Lakin mənə aydın deyil, xalq komissarrı Boğazlar haqqında ayrıca sazişi necə təsəvvür edir". V.Molotov izah etdi ki, "Məsələnin beynəlxalq tərəfləri də, Türkiyə və Sovet İttifaqından asılı tərəfləri də vardır. Siz dediniz ki, dinc dövrdə baza məsələsi qoyula bilməz. Bundan da mən belə nəticə çıxardım ki, hərbi dövrdə Boğazlarda Sovet bazalarının yaradılması istisna edilmir. Məsələnin texniki tərəfini hərbçilər müzakirə edə bilərlər, prinsipləri isə biz müəyyənləşdirə bilərik". S.Sarper qeyd etdi ki, "Mən ümumi formada dedim, ərazi iddiası və dinc dövrdə baza məsələsi ola bilməz. Bunu elə yozmaq lazım deyil ki, mən müharibə dövründə bunun olmasını mümkün sayıram. Mən bu məsələni müzakirə etməyə səlahiyyətli deyiləm. Lakin əgər ittifaq müqaviləsi olsa, "Qara dənizin təhlükəsizliyi haqqında məsələ"yə baxmaq olar bu şərtlə ki, Sovet İttifaqı və Türkiyə "birgə vuruşan tərəflər" kimi çıxış etsinlər". S.Sarper Molotovun nəzərinə çatdırdı ki, onun bazalar haqqında sözünə belə geniş şərh vermək lazım deyildir. Molotov səfirin bu izahatını belə ümumiləşdirdi ki, deməli, Sarper onun yanına boş əllə gəlib. Türklər istəyirlər müqavilə bağlasınlar, lakin onların belə müqavilə bağlamağa heç bir əsasları yoxdur (48). Səfir S.Sarper daha geniş izahat verərək bildirdi ki, əgər müharibə vaxtı Sovet İttifaqını Qara dənizdən hər hansı ölkə hədələsə, Türkiyə müqaviləyə əsasən Boğazları həmin ölkənin dəniz qüvvələrinin üzünə bağlayacaq. Həmin ölkə görəcək ki, Boğazlar bağlıdır öz qüvvələrini geri çəkəcək. Təcavüz niyyətində olan ölkə güc yolu ilə Boğazlardan keçmək istəsə Türkiyə müharibəyə daxil olacaq və cəbhənin Sovet İttifaqı olan tərəfində olacaq. Məgər bu danışıqlar üçün baza deyil? Türkiyə hazırdır ki, Sovet İttifaqı tərəfindən müharibə yə daxil olub Qara dənizin təhlükəsizliyini təmin etsin. Lakin Molotov qeyd etdi ki, Türkiyənin real imkanları məhduddur və Qara dənizdə Sovet İttifaqının, eləcə də Türkiyənin özünün təhlükəsizliyini təmin etmək üçün yetərli deyildir. S.Sarper onu belə cavablandırdı: "Millət öz müttəfiqinə onun naminə müharibə yə atılmaqdan daha qiymətli heç nə verə bilməz". V.Molotov isə türk

səfirinin bu ritorik cavabını onunla izah etməyə çalışdı ki, türklər son müharibə də iştirak etməyiblər, odur ki, onun ağırlığını bilmirlər. Təhlükənin ölçüsünü təsəvvür etmirlər ki, əgər gələcəkdə müharibə olarsa, onları hansı təhlükə gözləyir. O dedi: "Türkiyədə fikirləşiləndən fərqli olaraq ittifaq müqaviləsinin bazası daha sanballı olmalıdır" (49). İyun ayının 18-də təxminən bir saat yarım davam edən danışıqların son dəqiqələri hiss edibcək qədər gərgin keçdi. Bunun üçün danışıqların stenoqramına baxmaq yetərlidir:

"**Səfir**: Molotov hazırdırmı ki, danışıqları müttəfiqlər kimi aparaq.

**Molotov**: Bu şərtlə ki, müqavilənin bazasını ərazi məsələsi və Boğazlar haqqında məsələ də daxil olmaqla bütün iddianın tənzimlənməsi təşkil etsin.

**Səfir**: Ərazi məsələsi Türkiyə üçün böyük rol oynayır.

**Molotov**: Onun qaldırdığı məsələlər Sovet hökuməti üçün böyük əhəmiyyətə malikdir.

**Səfir**: Türkiyə kiçik ölkədir. O Şərqdə, Qərbdə, Cənubda çox şey itirib, buna görə də onun daha nəyisə itirməsi mümkün deyildir.

**Molotov**: Sovet İttifaqı böyük dövlətdir, lakin Ermənistan və Gürcüstan kiçik respublikalardır və onlar istəyirlər ki, hüquqi cəhətdən vaxtilə onlara məxsus olanlar indi onlara qaytarılsın. Məsələn, Qars və Ərdahan vilayətləri.

**Səfir**: Sovet İttifaqı elə bir şeyin qaytarılmasını tələb edir ki, onlar çarizm tərəfindən edilmiş ədalətsizliyi düzəltmək üçün Türkiyəyə verilmişdi.

**Molotov**: Sovet tərəfi bununla razılaşa bilməz ki, nə vaxtsa yol verilmiş ədalətsizlik davam etsin.

**Səfir**: Təəssüf edir ki, razılığa gələ bilmədilər, əlavə edir ki, hər iki dövlət toxunulan məsələlər barədə fikirləşməlidir.

**Molotov**: O, öz hökumətinin nöqteyi-nəzərini bütövlükdə ifadə etdi" (50).

İyun ayının 7-də və 18-də V.Molotovla S.Sarper arasında aparılmış danışıqların sənədlərinin araşdırılması müharibədən sonra Sovet siyasətinin, habelə soyuq müharibənin başlanmasının bəzi məqamlarını dəqiqləşdirməyə imkan verir. 1945-ci ilin iyun və iyul ayları ərzində İran Azərbaycanına münasibətdə qəbul olunmuş gizli qərarlarla yanaşı, Molotov-Sarper danışıqlarının forma və metodları, irəli sürülən iddiaların xarakteri və ifadə tərzi artıq soyuq müharibənin əlamətlərini özündə əks etdirirdi. Məhz İrana və Türkiyəyə münasibətdə soyuyan müttəfiqlərarası münasibətlər öz ardınca soyuq müharibəni gətirdi. Tanınmış rus alimi V.O.Peçatnov haqlı olaraq qeyd edir ki, yalnız İ.Stalinin şəxsi təşəbbüsü ilə İrana və Türkiyəyə kobud təzyiqlərin davam etdirilməsi müttəfiqləri birgə cavab hərəkətlərinə sövq etdi (51).

1945-ci ilin iyun ayında keçirilən Sovet-Türk danışıqlarına toxunan bir sıra rus alimləri, o cümlədən tanınmış tədqiqatçı N.İ.Yeqorova belə hesab edir ki, SSRİ-nin Türkiyəyə ərazi iddiaları real tələblərdən daha çox şantaj və siyasi təzyiq xarakteri daşıyırdı. Lakin Molotovun Sarperlə danışıqları zamanı SSRİ-yə hərbi baza verilməsi məsələsini Sovet liderləri həqiqətən yeni Boğazlar rejiminin ayrılmaz hissəsi kimi qiymətləndirirdilər. Aviasiyanın inkişafı ilə bağlı Boğazların əhəmiyyətinin azaldığı dövrdə bu tələblərin Sovet İttifaqının təhlükəsizlik maraqları ilə əsaslandırması Qara dəniz ölkələri içərisindən ən nəhənginin bu yolla Yaxın Şərqdə, Aralıq dənizində və Balkanlarda möhkəmlənməkdən ibarət olan başlıca maraqlarını ört-basdır edə bilmədi (52). N.İ.Yeqorova belə hesab edir ki, Türkiyəyə qarşı real olmayan ərazi iddialarının irəli sürülməsi Boğazlar üzərində Sovet-Türkiyə birgə nəzarətini qurmaq və həmin rayonda SSRİ-nin hərbi bazalarının yaradılmasına nail olmaq məqsədilə təzyiq xarakteri daşıyırdı. Əlbəttə, bu amili bütövlükdə inkar etmək olmaz. Lakin hadisələrin sonrakı gedişinin öyrənilməsi və Zaqafqaziya respublikalarının arxiv materiallarını araşdırılması təsdiq edir ki, Sovetlərin Türkiyəyə qarşı həm ərazi tələbləri var idi, həm də Boğazlarda möhkəmlənmək istəyirdi. Şübhəsiz ki, əlverişli şərait olardısa, Sovet liderləri hər iki tələbi gerçəkləşdirməyə qərarlı idilər. Lakin seçim qarşısında qalsaydılar, sözsüz ki, Rusiyanın ənənəvi maraqlarına daxil olan Boğazlara üstünlük veribcəkdi.

1945-ci ilin iyun ayında İran Azərbaycanı ilə bağlı mühüm qərarların qəbul edilməsi və son nəticə etibarı ilə onun Sovet Azərbaycanı ilə birləşdirilməsi haqqında Sovet planlarının Türkiyəyə qarşı ərazi iddiaları ilə eyni vaxta təsadüf etməsi SSRİ-nin Yaxın Şərqdə strateji maraqlarını müəyyən edən amilə çevrilmişdi. Coğrafi baxımdan Qars və Ərdahanın İran Azərbaycanı, Zaqafqaziya respublikaları ilə həmsərhəd olması Sovet ərazi iddialarını gerçəkləşdirmək üçün əlverişli şərait yaradırdı.

Digər tərəfdən, qeyd olunmalıdır ki, Sovet arxivləri açıldıqdan sonra əldə edilən, vaxtilə məxfi və qəti şəkildə məxfi qrifi ilə xidməti istifadə üçün hazırlanmış sənədlərin heç birində Türkiyəyə qarşı ərazi iddialarının Boğazlara münasibətdə Sovet tələblərini gerçəkləşdirmək üçün təzyiq vasitəsi kimi irəli sürüldüyü qeyd edilmir. Halbuki, bir qayda olaraq, həmin dövrdə yuxarı instansiyalar üçün hazırlanan arayışlarda, məlumatlarda, məruzələrdə və digər sənədlərdə nəyin real tələb kimi irəli sürüldüyü, nəyin isə təzyiq kimi istifadə olunduğu aydın və konkret göstərilirdi.

Bundan əlavə, Molotovun Sarperlə görüşündən dərhal sonra ABŞ-ın Quru Qoşunları Qərargahı Operativ İdarəsmin hazırladığı "Sovetlərin ekspansianist niyyətlərinə münasibətdə ABŞ-ın mövqeyi" adlı məqalədə göstərilirdi ki, daha çox təhlükəyə məruz qalan rayon Türkiyə hesab edib bilər, SSRİ-nin Qars yaylasına və Boğazlara çıxması perspektivdə Sovet

nəzarətinin Egey dənizinə və Aralıq dənizinin şərqinə yayılmasını təmin edən "Kiçik Asiyanın ikiqat mühasirəsmin" başlanğıcı ola bilər (53).

Moskva danışıqlarının sənədlərinin araşdırılması müharibədən sonra Türkiyənin xarici siyasətinin Qərbə, ilk növbədə isə ABŞ və İngiltərəyə istiqamətlənməsinin səbəblərini açıq şəkildə ortaya qoyur. Ankara tərəfindən təklif olunan ittifaq müqaviləsi bütövlükdə Türkiyəni Sovetlərlə qarşılıqlı əməkdaşlıq cazibəsində saxlayar və Qərblə məsafəni gözləməyə məcbur edə bilərdi. Türkiyənin Boğazları qorumaq və öz təhlükəsizliyini, eyni zamanda Qara dənizin təhlükəsizliyini təmin etmək üçün Sovet İttifaqından silah almaq arzusu gələcəkdə tərəfləri müttəfiqlərə çevirə bilərdi. Az sonra Amerika ilə qurulan əməkdaşlığın Sovetlərlə qurulması tamamilə mümkün idi. Lakin Sovet İttifaqı tərəfindən təzyiqlərin gücləndirilməsi, qəbulu qeyri-mümkün olan tələblərin irəli sürülməsi və bu tələblərin Türkiyə tərəfindən rədd edilməsi 1945-ci ilin yayından başlayaraq Sovet kütləvi informasiya vasitələrində Türkiyəyə qarşı ağır siyasi kampaniyanın başlanması ilə nəticələndi. SSRİ-nin təzyiqləri qarşısında bir növ tək qalan Türkiyə beləliklə İkinci Dünya müharibəsindən sonra qüdrətli bir dövlət kimi tarix səhnəsinə çıxan Amerika Birləşmiş Ştatlarının dəstəyini qazanmağa məcbur edildi.

Türkiyə mətbuatı Moskva danışıqları haqqında ilk məlumatı "Tayms" qəzetinin İstanbul müxbiri Mavrudinin teleqramından aldı. Orada göstərilirdi ki, Sovet İttifaqı Boğazlar rejiminin dəyişdirilməsi, Qars və Ərdahan ərazilərinin Sovetlərə qaytarılması haqda tələblər irəli sürmüşdür. Bu xəbər türk mətbuatında geniş əks-səda doğurdu. Yeni dünya müharibəsi haqqında şayiələr bütün cəmiyyəti bürüməyə başladı. Bir sıra jurnalistlər, o cümlədən Yalçın qeyd edirdi ki, üçüncü dünya müharibəsi Türkiyə məsələsinə görə başlaya bilər, onun fikrincə anqlosakslar Türkiyənin slavyanlar tərəfindən çeynənməsinə yol verməzdilər. Ankaradakı Sovet səfirliyi belə hesab edirdi ki, iyun ayının 22-də Yalçının "Türkiyə Orta Şərqin bel sütununa və beynəlxalq sülhün son dayağına çevrilir" yazısı ilə Türkiyədə antisovet kompaniyanın başlanmasına start verildi. SSRİ-nin Türkiyədəki səfirliyinin birinci katibi S.Kavtaradzeyə yazırdı ki, türk mətbuatında başlanan antisovet dalğa gizli şəkildə hökumət tərəfindən idarə edilir. O, tanınmış jurnalistlər Yalçın və Sadakın Ankaraya dəvət edilməsi, hətta birincinin prezident İ.İnönü tərəfindən qəbul edilməsi və onlara müvafıq təlimatlar verilməsi barədə Moskvaya geniş məlumat verirdi (54).

Göründüyü kimi, iyun ayının sonundan başlayaraq türk mətbuatında Sovetlərə qarşı təbliğat kampaniyası genişlənməyə başladı. Qəzetlər Sovet İttifaqının xarici siyasəti haqqında sensasion yazıları maraqlı başlıqlarla çap edirdilər. Yalnız iyun ayının son günlərində Türkiyənin Paytaxt qəzetlərində "Sovet Rusiyası Koreyanın ilhaq edilməsini və

Monqolustanın daxili və xarici siyasəti üzərində öz təsirini qurmağı tələb edir", "Ruslar Şimali İranı birləşdirirlər, İran Azərbaycanında Sovetlər milli azadlıq komitəsi yaradırlar", "Suriyada kommunist nümayişi keçirilir, Sovetlərin Yaxın Şərq ölkələri ilə əlaqələri güclənir", "Qars və Ərdahanın əvəzi olaraq Rusiya Hələbi təklif edir", "Rusiya Şərqi Frakiyada sərhədlərin dəyişdirilməsini tələb edir", "Rusiya Mosul neftini tələb edir", "Rusiya bizim və yunanların ərazisinin bir hissəsinin Bolqarıstana verilməsini tələb edir" və ən nəhayət, "Sovet Rusiyası türk-bolqar sərhədlərinə ordu toplayır. Burada 24 rus diviziyası cəmləşdirilib" başlığı altında cəmiyyəti silkələyən yazılar dərc edilmişdi. Yalçın yazırdı: Mən bu ölkədə 37 il türk-sovet dostluğuna xidmət etmişəm, lakin mən Türkiyənin hüququ, şərəfi və müstəqilliyi hesabına əldə olunan rus dostluğunu lənətləyirəm. Bir sıra jurnalistlər Sovet İttifaqının siyasəti ilə çar Rusiyasının siyasəti arasında paralellər aparır və Sovet İttifaqının imperializmdə günahlandırır, türk-sovet ziddiyyətlərinin həll olunmasında türk ordusuna arxayın olduqlarını açıqca yazırdılar. Zakarpat Ukraynasının SSRİ-yə verilməsi ilə bağlı Çexoslovakiya ilə müqaviləni türk mətbuatı "işğalın yeni forması" kimi xarakterizə edirdi. İran Azərbaycanı məsələsinə toxunan "Tanin" iyun ayının 30-da yazırdı: "Qırmızı faşistlər üçün nə söz, nə imza, nə vəd heç nə demək deyil, əgər onlar öz qarşılarında müqavimət göstərən gücü hiss etməsələr, onda onlar İranı da, Hindistanı da, Çini də, Günəşi də, Ayı da tutacaqlar". Türk mətbuatında gedən bəzi yazılarda qeyd edilirdi ki, San-Fransisko konfransı ilə bolşeviklərə təsir etmək olmaz, bunun üçün İngiltərə Yunanıstanda kommunistləri təqib etməli, Triyestlə bağlı marşal Titonu hədələməli, SSRİ-yə göndərilən Amerika yardımları dayandırılmalıdır.

Ankaradakı Sovet səfirliyinin araşdırmalarına görə, Sovetlərin tələbləri ilə bağlı türk mətbuatında çap olunan xarici rəylərin əksəriyyəti ingilis mətbuatından alınırdı. Bu rəylərin içində Amerika mətbuatından nümunələrin olmaması Sovet səfirliyinin diqqətini cəlb etmişdi. Türkiyə qazetləri yaxın keçmişin xoşa gəlməyən səhifələrini xatırladaraq yazırdılar ki, müharibənin əvvəlində Hitlerlə birləşən SSRİ bütün vasitələrlə ona kömək edirdi ki, Hitler İngiltərə və Fransa üzərində qələbə çalsın. Tanınmış jurnalist Asım Us Sovet İttifaqı ilə münasibətləri tənzimləmək barədə təkliflərlə çıxış edirdi. O yazırdı: "Türkiyə hər zaman İngiltərə haqqında düşündüyü kimi, SSRİ haqqında da elə düşünməlidir. Ona görə də Qara dənizdə və Aralıq dənizində təhlükəsizliyi eyni zamanda möhkəmləndirmək üçün ya Türkiyə, İngiltərə və Rusiya üçtərəfli müqavilə imzalamalıdırlar, ya da Türkiyə ilə Rusiya İngiltərə ilə münasibətdə ingilis-türk müqaviləsində Rusiyaya münasibətdə olduğu kimi, düzəliştə ittifaq müqaviləsi bağlamalıdırlar". Boğazlar məsələsinə gəldikdə, Asım Us Boğazlar rejiminə baxılması ilə razılaşır, lakin qeyd edirdi ki, burada

əsas ziddiyyət Rusiya ilə İngiltərə arasındadır, Türkiyənin rolu isə bu məsələdə hər iki nöqteyi-nəzəri barışdırmaqdan ibarət olmalıdır. Bundan əlavə, o hesab edirdi ki, Boğazlar rejimi haqqında məsələnin həllində Amerika da iştirak etməlidir. Sovetlərin Türkiyəyə tələbləri ilə bağlı türk mətbuatında gedən yazılar barədə Ankaradakı Sovet səfirliyi SSRİ Xarici İşlər Komissarlığına geniş məlumat göndərmişdi (55).

Moskva danışıqları haqqında xəbər yayıldıqdan sonra Böyük Britaniya və ABŞ-ın siyasi dairələri bir qayda olaraq bu məsələyə neqativ yanaşaraq onu Sovet ekspedisiyasının başlanğıcı kimi qiymətləndirirdilər. Lakin Sovetlərin, İ.Stalinin köhnə dostları sayılan ayrı-ayrı şəxslər var idi ki, SSRİ-nin Türkiyəyə qarşı ərazi tələblərinə bəraət qazandırmağa çalışırdılar. Bunlardan biri 1945-ci ilin iyununda katolikos seçkiləri vaxtı SSRİ-yə gəlib və hətta köhnə dostu kimi Stalin tərəfindən qəbul edilən Kenterber kilsəsinin başçısı H.Conson idi. Bütün ermənilərin katolikosu seçkiləri ilə bağlı toplantıda qaldırılan erməni ərazilərinin qaytarılması məsələsini şərh edən Conson iyun ayının 24-də Yerevanda keçirdiyi mətbuat konfransında qeyd etmişdi ki, mən Türkiyə tərəfindən zorla alınmış vilayətlərin nə qədər mümkünsə tez bir zamanda Ermənistana qaytarılması ilə ürəkdən və tamamilə razıyam. Əhalisi indiyə qədər qeyri-mütənasib olaraq azlıq təşkil edən, qanuni sakinləri bütün dünyaya səpələnmiş, zorla ələ keçirdiyi vilayətlərin iqtisadi inkişafını Türkiyə qəsdən yubadır (56). Eyni zamanda o, Amerika ermənilərinin San-Fransisko konfransına tələblərini ədalətli hesab etdiyini bildirdi. Sovet rəhbərliyi keşiş Consonun çıxışından öz tələblərinin "haqlılığını" sübut etmək üçün faydalanmaq istəyirdi. Hətta Potsdam konfransı ərəfəsində A.İdenlə görüşdə V.Molotov qeyd edirdi ki, lap bu Yaxınlarda ərazi iddiaları məsələsində doktor Hyulet Conson da erməniləri müdafiə etmişdir. A.İden bildirdi ki, Conson bütünlüklə Sovet adamıdır və onun gətirdiyi dəlillər Sovet hökumətinin dəlilləri ilə tamamilə üst-üstə düşür. İngiltərədə onu hətta "qırmızı keşiş" adlandırırlar (57).

Keşiş Consonun fikirləri Türkiyədə kəskin reaksiya doğurdu. Sovet səfirliyinin məlumatına görə, Ankarada və İstanbulda çıxan mətbuat orqanları onu "qırmızı keşiş", avantürist və şarlatan adlandırırdı. "Tasvir" qəzeti vurğulayırdı ki, Amerika erməniləri hansısa dövlətin yardımı ilə hərəkət edirlər. Ermənilərin fəallaşmasını Türkiyə tərəfi Sovet tələbləri ilə izah edirdi. Keşiş Consonun İ.Stalin tərəfindən qəbul edilməsi türklərin narahatçılığına və əsəbiliyinə səbəb olmuşdu. Bir sıra qəzetlər yazırdılar ki, Rusiya dindən öz planlarını reallaşdırmaq məqsədilə istifadə edir (58).

Sovet tələblərinə münasibətdə türk mətbuatında gedən kəskin yazılarla bağlı Sovet səfirliyi SSRİ Xarici İşlər Komissarlığına yazırdı ki, türklər mətbuatda hay-küy qaldırılması, ingilis və amerika ictimai rəyində

antisovet dalğanın gücləndirilməsi ölkə ictimaiyyətinin fikrini mühüm daxili məsələlərdən yayındırmaq məqsədi daşıyır (59).

1945-ci il iyun ayının 22-də öz ölkəsindən aldığı təlimata uyğun olaraq Moskvadakı Türkiyə səfiri S.Sarper rəsmi qaydada bütün Sovet təkliflərini rədd etdi. Bundan sonra bir qayda olaraq Türkiyə öz mövqelərinin əvvəlcə İngiltərə, sonra isə ABŞ tərəfindən müdafiə olunması istiqamətində aktiv siyasət yeritməyə başladı (60).

Moskva danışıqları haqqında Türkiyə hökuməti təcili olaraq öz müttəfiqləri Böyük Britaniyaya məlumat verdi. Britaniya rəsmiləri iyun görüşü zamanı Molotov tərəfindən edilmiş təkliflərdən xeyli dərəcədə təəccübləndiyini bildirirdilər. Britaniyanın Moskvadakı səfiri Arçibald Kerr Sovet-Türk danışıqlarında Molotovun irəli sürdüyü tələblərlə bağlı iyul ayının 7-də ona İngiltərənin mövqeyini özündə əks etdirən nota təqdim etdi. Orada deyilirdi: "Mənim ölkəm Sovet hökumətinin bu danışıqların gedişində bir sıra ərazi iddialarını irəli sürməsindən, eyni zamanda Boğazlarda baza yaratmaq haqqında məsələni müzakirə etməsindən artıq dərəcədə təəccüblənmişdir". Britaniya səfiri A.Kerr Molotova təqdim etdiyi notada Yalta konfransının qərarlarına görə, Sovet və Türkiyə tərəfinin öz aralarında bu məsələlər müzakirə etməyə hüquqi cəhətdən səlahiyyətli olmadıqlarını xatırladırdı. Kerr qeyd edirdi ki, müzakirə edilən məsələlərə bilavasitə bu hökumətlərin müstəsna dərəcədə özlərinə aid məsələləri kimi baxıla bilməz, belə ki, birinci məsələyə ümumdünya təşkilatları çərçivəsində baxıla bilər, ikinci məsələ isə çoxtərəfli Montrö konvensiyasına toxunur. A.Kerr xatırladırdı ki, Yaltada əldə olunmuş razılığa əsasən Sovet hökuməti Montrö konvensiyasına dair məsələlərlə Türkiyə hökumətinə müraciət etməzdən əvvəl İngiltərə və Amerika hökumətləri ilə məsləhətləşməli idi. Bundan əlavə, A.Kerr xatırlatdı ki, İ.Stalin Türkiyənin ərazi bütövlüyünə və müstəqilliyinə toxuna biləcək hərəkətlərə yol verməməklə bağlı öz razılığını bildirib (61). Britaniya səfirinin belə xatırlatması o qədər də həqiqətə uyğun deyildi. Məlum olduğu kimi, Krım konfransında İ.Stalin özü təklif etmişdi ki, Boğazlar və Montrö konfransı haqqında məsələ baxılmaq üçün üç ölkənin xarici işlər nazirlərinin müşavirəsinə verilsin. Britaniya baş naziri U.Çörçill və ABŞ prezidenti F.Ruzvelt İ.Stalinin bu təklifi ilə razılaşmışdılar. Məhz həmin müzakirələr zamanı U.Çörçill ittifaq müqaviləsinə uyğun olaraq Britaniyanın Türkiyə qarşısında öhdəliklərinin olduğunu xatırlatmış və Türkiyənin mənafeyinə toxunacaq hər hansı məsələ barədə qabaqcadan onun məlumatlandırılmasını zəruri saymışdı.

Sovet tələblərini aldıqdan sonra Türkiyə hökuməti İngiltərəni inandırmaq istəyirdi ki, Yaxın Şərqdə öz mövqelərini qorumaqdan ötrü Türkiyənin müdafiə edilməsi Britaniya üçün çox vacibdir. Belə ki, Qahirədəki Britaniya diplomatı E.Kriqq xarici işlər naziri A.İdenə məlumat verirdi

“Onunla söhbətdə Türkiyə hökumətinin nümayəndəsi xəbərdarlıq etdi ki, Türkiyəni "Rusiyanın əlinə" vermək "rus təsirinin Qırmızı dəniz və Fars körfəzi rayonuna” yayılması ilə nəticələnə bilər. Lakin Kriqq məsuliyyəti öz üzərinə götürərək Türkiyə hökumətinin nümayəndəsini əmin etmişdi ki, biz Türkiyənin müstəqilliyinə və ingilis-türk İttifaqına böyük əhəmiyyət veririk və biz Boğazlar haqqında məsələnin yalnız Rusiyaya və Türkiyəyə aid olan ikitərəfli məsələ kimi şərh olunmasına icazə verə bilmərik" (62).

Qeyd etmək lazımdır ki, Sovetlərin İrandakı hərəkətləri də Britaniyanı ehtiyatlı davranmağa vadar edirdi. Avropada müharibə başa çatdıqdan sonra SSRİ-nin İran Azərbaycanında möhkəmlənmək cəhdləri Britaniya siyasi dairələrinin diqqətindən yayınmamışdı. Hələ 1945-ci ilin may ayının 19-da İranın xarici işlər naziri Ə.Sepahbodi müttəfiq dövlətlərin Tehrandakı səfirlərinə, o cümlədən Sovet səfiri M.Maksimova məktubla müraciət etmişdi ki, xarici qoşunlar və Sovet İttifaqının silahlı qüvvələri İran ərazisini tərk etsin. Ə.Sepahbodi SSRİ, İngiltərə və ABŞ hökumətlərinin səfirlərindən xahiş edirdi ki, İran hökumətinin bu müraciətini öz hökumətlərinə çatdırsınlar və hökumətlərinin qərarı barədə ona məlumat versinlər (63). Bu müraciətə uyğun olaraq Moskvadan Britaniya səfiri A.Kerr may ayının 19-da V.Molotova yazırdı ki, baxmayaraq İran tərəfi 1942-ci ilin ingilis-Sovet-İran müqaviləsini düzgün şərh etmir və Yaponiya ilə müharibənin davam etməsini nəzərə almır, lakin bizə belə gəlir ki, müttəfiq qoşunları İrandan mərhələlərlə çıxartmağa başlamaq olar (64). V.Molotov iyun ayında Britaniya notasına verdiyi cavabda Sovet hökumətinin müəyyən edilmiş müddət başa çatana qədər müttəfiq qoşunlarının İrandan mərhələlərlə çıxarılması barədə Britaniya hökumətinin nöqteyi-nəzərini bölüşdüyünü bildirirdi, lakin o təklif edirdi ki, bu məqsədlə hərbi idarələrin danışıqları aparılmalıdır (65).

Britaniya səfirinə belə cavab verilməsinə baxmayaraq SSRİ xarici işlər komissarının müavini S.Kavtaradze tərəfindən Sovet rəhbərliyi üçün hazırlanmış gizli tövsiyələrdə söhbət tamam başqa məsələlərdən gedirdi. S.Kavtaradze yazırdı ki, Sovet qoşunlarının İrandan çıxarılması irticanın güclənməsinə, demokratik təşkilatların darmadağın edilməsinə və bizim mövqelərimizin İranda zəifləməsinə gətirib çıxara bilər. Eyni zamanda o qeyd edirdi ki, qoşunların çıxarılması bizi İranın şimalında qazma işlərinin başlanması və muxtariyyət hərəkatının genişləndirilməsi haqda qəbul etdiyimiz qərarları həyata keçirmək imkanından məhrum edər. Buna görə də biz nə qədər mümkünsə, qoşunlarımızın İrandan çıxmasını yubatmaqda maraqlı olmalıyıq. S.Kavtaradze əsaslandırırdı ki, bu məsələyə münasibətdə bizim mənfi mövqeyimiz və Yaponiya ilə müharibə qurtarana qədər müttəfiq qoşunlarının İranda qalması ingilislərin İrandakı nüfuzuna güclü zərbə olar və İran hakim dairələrini bizimlə daha çox

hesablaşmağa məcbur edər. S.Kavtaradze xatırladırdı ki, bu məsələdə iranlıların ingilislərə ümidləri boşa çıxıb. Belə ki, İranın keçmiş nazirlərindən olan Həjir Tehrandakı Sovet səfiri M.Maksimova deyib ki, əgər bu məsələ müsbət həll olunmasa, İran hakim dairələri başa düşəcək ki, bütün məsələlərlə bağlı ingilislərin xidmətindən imtina edib Sovet tərəfi ilə danışmaq lazımdır (66).

Türkiyəyə qarşı Sovet təzyiqlərinin güclənməsi tədricən ABŞ-ın da bu məsələ ilə bağlı bir sıra addımlar atmasına gətirib çıxarmışdı. İlk öncə, Sovet İttifaqının Balkan ölkələrindəki hərəkətlərindən narahat olan Britaniya hökuməti iyun ayının 18-də ABŞ hökumətinə müraciət edərək Krım konfransının qərarlarına zidd olan bu Sovet hərəkətlərinə qarşı Potsdam konfransı ərəfəsində ingilis-amerikan birgə siyasətinin işlənib hazırlanmasının zəruriliyini bildirmişdi.

Sovet tələbləri irəli sürüldükdən sonra Türkiyə hökuməti ABŞ-ın mövqeyinin öyrənilməsinə xüsusi əhəmiyyət verirdi. Öz növbəsində Birləşmiş Ştatların Ankaradakı səfiri Edvin Vilson Dövlət Departamentinə göndərdiyi raportda Sovet tələblərinin müharibədən sonrakı beynəlxalq münasibətlərin prinsiplərinə tamamən zidd olduğunu və Vaşinqtonun bu məsələ ilə yaxından maraqlanmasının vacibliyini yazırdı.

Bununla yanaşı, iyul ayının 7-də ABŞ-dakı türk səfiri Hüseyn Raqip Bayduru qəbul edən Dövlət katibinin köməkçisi Con Qryu Molotovla Sarper arasındakı görüşün hələlik dostluq xarakteri daşıdığını və bunun Türkiyəyə qarşı təzyiq göstərilməsinə yönəlmədiyini dilə gətirdi. C.Qryu belə hesab edirdi ki, Türkiyənin durumu qarşıdakı Potsdam konfransında böyük üçlük tərəfindən müzakirə edibcəkdir və buna görə də prezident Trümen bu məsələ ilə bağlı Dövlət katibindən məlumat istəyilədir (67).

Prezidentin göstərişinə uyğun olaraq ABŞ-ın müxtəlif idarələri Potsdam konfransı ərəfəsində Boğazlar məsələsi və Sovet təhdidlərinə məruz qalmış Türkiyəyə münasibət haqqında Birləşmiş Ştatların mövqeyini özündə əks etdirən bir neçə memorandum hazırladılar. 1945-ci ilin iyun ayının sonu-iyul ayının əvvəllərində hazırlanan bu sənədlərdə qeyd olunurdu ki, müharibə zamanı Boğazlar vasitəsi ilə Sovet İttifaqının təchiz edib bilməməsi Montrö konvensiyasının çatışmamazlığı ilə deyil, Türkiyə ərazilərinə yaxın ölkələrdə faşist dövlətlərinin ağalığı ilə bağlı olubdur. Ona görə sənəddə qeyd olunurdu ki, Montrö konvensiyasında dəyişikliklər cüzi olmalıdır. Türkiyənin "azad iradəsi"ni özündə əks etdirməyən hər hansı dəyişiklik onun suverenliyinin pozulmasına gətirib çıxaracaq və ola bilsin ki, ölkənin strateji və siyasi mövqelərinə arzuolunmaz təsir göstərəcəkdir. Sənədin müəllifləri ABŞ hərbi və dənizçilik idarələrinin Boğazlardan hərbi gəmilərin keçməsi və tranziti, onların Qara dənizdə olması ilə bağlı Sovet təkliflərinin öyrənilməsinin zəruriliyini bildirirdilər. Lakin onlar müharibə zamanı hərbi gəmilərin Boğazlardan

keçməsi kimi konkret məsələlərlə bağlı qərarların qəbul edilməsində üstünlüyün BMT-yə verilməsini təklif edirdilər. Onların fikrincə, BMT Türkiyənin qərarı ilə razılaşmaya bilərdi və bu halda Türkiyə BMT-nin qəbul etdiyi qərara tabe olmalı idi. ABŞ qərargah rəisləri Komitəsinin potsdam konfransı açılan gün iyul ayının 17-də təqdim etdikləri memorandumda qeyd olunurdu ki, Rusiya baza yaratmaq hüququ da daxil olmaqla Dardanell haqqında məsələdə Türkiyəyə təzyiq göstərir, Şimali Türkiyədə məlum türk rayonlarını tələb edir, fars körfəzinə çıxmaq haqqında məsələ qaldırır. Ona görə memorandumda təklif olunurdu ki, uzunmüddətli və ümumi təhlükəsizlik nöqteyi-nəzərindən Dardanell haqqında müzakirələri məhdudlaşdırmaq və təxirə salmaq lazımdır (68).

Potsdam konfransının açılmasından bir gün əvvəl 1945-ci ilin iyul ayının 16-da konfransa hazırlığın vəziyyətini müzakirə etmək üçün SSRİ xarici işlər komissarı V.Molotovla Britaniya xarici işlər naziri A.İdenin görüşü keçirildi. Danışıqlar zamanı A.İden həm Britaniyanın, həm də Birləşmiş Ştatların iyul ayının 17-də Potsdam konfransının işə başlamasına hazır olduğunu və Krım konfransı zamanı qəbul edilmiş iş rejiminin saxlanmasına tərəfdar olduğunu bildirdi. Söhbətin gedişində Polşa ilə bağlı məsələyə toxunuldu, İ.Titonun hərəkətlərindən narazılıq ifadə olundu və San-Fransisko konfransının işindən razılıqla danışıldı. Söhbətin gedişində A.İden qeyd etdi ki, Londonda türklər onun yanına gəlmişdilər. V.Molotov bu haqda bildiyini dedi və ümidvar olduğunu bildirdi ki, türklər Moskva danışıqları haqda A.İdeni düzgün məlumatlandırıblar. Sonra isə o, əlavə etdi ki, 1921-ci ildə Sovet dövlətinin zəifliyindən istifadə edərək türklər Sovet Ermənistanının bir hissəsini zorla ələ keçiriblər. Ermənilər Sovet İttifaqında özlərini incik hiss edirlər. Bu səbəbin diktəsilə Sovet hökuməti qanuni şəkildə Sovet İttifaqına məxsus olan ərazilərin qaytarılması haqda məsələ qaldırıb. Boğazlar haqqında məsələyə gəldikdə isə, Sovet hökuməti artıq çoxdan deyir ki, Montrö konvensiyası onu təmin etmir. A.İden bəyan etdi ki, ingilislər əvvəllər heç vaxt Sovet İttifaqının Türkiyəyə ərazi tələbləri haqqında eşitməyiblər. Britaniya hökuməti yalnız Boğazlar rejiminə münasibətdə Sovet təklifləri haqqında bilirdi. V.Molotov dedi: "Sovet İttifaqının Türkiyəyə ərazi iddiaları haqqında məsələ ona görə meydana çıxdı ki, türklər Sovet hökumətinə onlarla ittifaq haqqında müqavilə bağlanmasını təklif etdilər və Sovet hökumətindən soruşdular ki, hansı şərtlərlə o bunu etməyə hazırdır?" Təbiidir ki, Sovet hökuməti bu məsələdə öz şərtlərini ifadə edərək türk hökumətini cavablandırdı. A.İden isə türklərin Sovet İttifaqının ərazi tələblərini təmin etməklə razılaşmadıqlarını bildirdi. SSRİ Xarici işlər komissarı izah etməyə çalışdı ki, haqqında söhbət gedən ərazilər türklərə məxsus deyildir. Onlar onu Sovet İttifaqından zorla qoparmaqla ədalətsiz hərəkət etdilər. 1921-ci ildə Sovet ərazilərinin bir his-

səsini işğal etməklə polyaklar da eyni ədalətsiz hərəkəti etmişdilər. Lakin polyaklar öz mövqelərinə yenidən baxmağı qərara aldılar və indi bu əraziləri Sovet İttifaqına qaytarmaqla razılaşdılar. V.Molotov qeyd etdi ki, o, bu misalı türklərə də gətirib. Söhbət Polşadan getdiyi üçün A.İden qeyd etdi ki, Türkiyədə Kerzon xətti yoxdur. V.Molotov isə bildirdi ki, buna baxmayaraq ingilis hökuməti əvvəllər dəfələrlə türk hökmranlığı altında olan erməni əhalisinin müdafiəsinə qalxıb. A.İden Türkiyə ərazisində çoxmu erməni yaşayır - deyə dəqiqləşdirmək istədikdə V.Molotov cavab verdi ki, onlar orada cəmi 400-500 mindirlər. Sonra o məlumat verdi ki, bütövlükdə Sovet Ermənistanında bir milyon, Sovet Ermənistanının ərazilərindən kənarda, xaricdə isə bir milyondan artıq erməni yaşayır. Nə vaxt ki, ermənilərin əraziləri genişlənəcək, xaricdə yaşayan ermənilərin çoxu vətənə qayıtmağa cəhd edəcəkdir. Ən nəhayət, V.Molotov sonda dedi: nəzərə almaq lazımdır ki, Sovet İttifaqında çox böyük erməni xadimləri vardır, məsələn, xarici ticarət komissarı Mikoyan. Ümumiyyətlə, ermənilər, xüsusilə təsərrüfat məsələlərində çox istedadlı və çalışqan adamlardır. Qoy türklər erməniləri Sovet İttifaqına versinlər, Sovet İttifaqı onlardan qorxmur (69).

Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, V.Molotovla A.İden arasında 1945-ci ilin iyul ayının 16-da aparılan söhbətin bəzi məqamları, xüsusilə onun son hissələri 1984-cü ildə Moskvada nəşr olunmuş "Üç müttəfiq dövlət - SSRİ, ABŞ və Böyük Britaniya rəhbərlərinin Berlin (Potsdam) konfransı" adlı sənədlər toplusunda yanlış formada verilmiş, bir sıra fikirlər çıxarılmış və bəzi ifadələr isə dəyişdirilmişdir (70).

Potsdam konfransı iyul ayının 17-də işə başladı. Konfransın açılışından üç gün sonra, iyul ayının 20-də V.Molotov Britaniya hökumətinin Türkiyə məsələsi ilə bağlı Sovetlərə Moskvada təqdim olunmuş 7 iyul notasını Potsdamda cavablandırdı. Görünür, iyul ayının 16-da A.İdenlə danışıqlardan Molotov belə nəticə çıxarmışdı ki, Türkiyəyə qarşı ərazi tələbləri və onun suverenliyinə toxunan hər hansı məsələnin konfransda müzakirəsi elə də asan keçməyəcəkdir. Ona görə SSRİ xarici işlər komissarı cavab notasında izah etməyə çalışırdı ki, Türkiyə hökuməti ilə danışıqlara girməklə Sovet hökuməti müttəfiqlərin razılaşmalarını pozmamışdır. Molotov aydınlaşdırırdı ki, Türkiyə hökuməti Boğazlar məsələsinin həll edilməsini nəzərdə tutan ittifaq müqaviləsinin bağlanması haqqında təkliflə Sovet hökumətinə müraciət etmişdir. Türkiyə hökumətinə cavab verildi ki, belə bir müqavilənin bağlanması o şərtlə mümkündür ki, Boğazlar haqqında məsələnin həllindən əlavə eyni zamanda Sovet İttifaqından zorla alınmış və Türkiyəyə birləşdirilmiş ərazilər haqqında da məsələ həll edilsin. Sovet hökumətinin bütün əsasları var idi hesab etsin ki, Türkiyə hökuməti bu məsələ barədə Britaniya hökumətinə vaxtında məlumat verəcəkdir. V.Molotovun notasında qeyd olunurdu ki, Sovet

hökuməti bu məsələnin Berlin konfransında ətraflı aydınlaşdırılacağını nəzərdə tutur(71).

Potsdam konfransında Türkiyə və Boğazlar məsələsinə qeyri-rəsmi qaydada iyul ayının 18-də günorta yeməyi zamanı U.Çörçill və İ.Stalin arasındakı şəxsi söhbətlərdə toxunuldu. Lakin iyul ayının 22-də ABŞ prezidenti H.Trümenin sədrlik etdiyi altıncı iclasda Türkiyə məsələsi rəsmi qaydada müzakirəyə çıxarıldı.

İlk öncə Britaniya Baş naziri U.Çörçill söz alaraq dedi ki, bu məsələ Montrö konvensiyasında dəyişiklik etməyin zəruriliyinin qəbul edilməsindən irəli gəlmişdir. Sovet hökuməti ilə danışıqlar zamanı Britaniya hökuməti bəyan etmişdi ki, o, Montrö konvensiyasına baxılmasına tərəfdardır. Bu baxılma, əlbəttə, Yaponiya istisna olmaqla konvensiya iştirakçıları arasında razılığın həyata keçirilməsi yolu ilə olmalıdır. U.Çörçill qeyd etdi: Mən dəfələrlə belə bir sazişin hazırlanmasına tərəfdar olduğumu ifadə etmişəm ki, həmin sazişə uyğun olaraq Sovet hərbi-dəniz və ticarət donanması Qara dənizdən Aralıq dənizinə və əksinə azad şəkildə üzməlidir. Ona görə biz bu məsələnin müzakirəsmi yekdil dostluq əsasında açırıq. Eyni zamanda Britaniya Baş naziri generalissimus İ.Stalinin diqqətini Türkiyəni qorxutmamağın əhəmiyyətinə cəlb edərək dedi: "Şübhəsiz, Türkiyə Sovet və bolqar qoşunlarının Bolqarıstanda cəmləşdirilməsindən, eyni zamanda Sovet mətbuatında və radiosunda ona qarşı hücumların davam etdirilməsindən, əlbəttə ki, SSRİ-dəki türk səfiri ilə cənab Molotov arasında danışıqların belə vəziyyət almasından son dərəcə həyəcanlanmışdır". U.Çörçill qeyd etdi ki, bu danışıqlar zamanı Türkiyənin şərq sərhədlərinin dəyişdirilməsi, eyni zamanda Boğazlarda Sovet bazaları haqqında söhbət getmişdir. O dedi: Mən başa düşürəm bu Sovet hökumətinin Türkiyəyə iddiası deyildir, lakin görünür, Türkiyə SSRİ ilə ittifaq haqqında məsələ qoyub, SSRİ-də belə ittifaq bağlamaq üçün şərtlər irəli sürüb. Mənə tamamilə aydındır ki, əgər Türkiyə Sovet hökumətindən hücum və müdafiə ittifaqı haqqında müqavilə bağlamağı xahiş etsə, onda Sovet İttifaqı Rusiya ilə Türkiyə arasında münasibətlərin necə yaxşılaşdırılmasını bəyan etmək barədə gözəl bir imkanı nümayiş etdirər. Lakin irəli sürülən şərtlər Türkiyəni həyəcanlandırıb. Mən bilmirəm, bu danışıqlardan sonra nə baş verib. Ona görə bilmək istərdim ki, Sovet hökumətinin bu məsələ ilə bağlı mövqeyi nədən ibarətdir (72).

U.Çörçillin bilmək istədiyi məsələlərə aydınlıq gətirmək üçün İ.Stalin sədrdən xahiş etdi ki, sözü V.Molotova versin. V.Molotov izah etməyə başladı ki, məsələ necə meydana çıxıb. O dedi: "Türkiyə hökuməti təşəbbüs göstərib Sovet hökumətinə ittifaq müqaviləsi bağlamağı təklif etdi. Türkiyə hökuməti əvvəlcə bu məsələni bizim Ankaradakı səfirimizin qarşısına qoydu, sonra isə mayın sonlarında Moskvadakı türk səfiri vasitəsi ilə bizə

çatdırdı. İyunun əvvəllərində Moskvadakı türk səfiri Sarperlə mənim iki dəfə söhbətim oldu. Türkiyə hökumətinin ittifaq müqaviləsi bağlamaq haqqında təklifinə cavab verildi ki, Sovet hökuməti müəyyən şərtlərlə belə müqavilənin bağlanmasına etiraz etmir. Mənim tərəfimdən göstərildi ki ittifaq müqaviləsi bağlayarkən biz gərək qarşılıqlı iddiaları tənzim edək. Bizim tərəfimizdən tənzim edilməli iki məsələ vardı. İttifaq müqaviləsinin bağlanması o deməkdir ki, biz gərək sərhədlərimizi birgə qoruyaq: yəni SSRİ yalnız öz sərhədlərini deyil, Türkiyə sərhədlərini də, Türkiyə isə yalnız özününkünü deyil, Sovet sərhədlərini də qorusun. Lakin bir sıra yerlərdə SSRİ ilə Türkiyə arasında sərhədləri biz ədalətsiz hesab edirik". Həqiqətən 1921-ci ildə Sovet Ermənistanından və Sovet Gürcüstanından Türkiyə zorla ərazi qopardı, bu məlum Qars, Artvin və Ərdahan əraziləridir. Türklərin zorla ələ keçirdikləri ərazilərin xəritəsi budur. Sonra V.Molotov Sovetlər tərəfindən tələb edilən ərazilərin xəritəsini Potsdam konfransının rəhbərliyinə təqdim etdi və əlavə olaraq bildirdi: "Ona görə mənim tərəfimdən bəyan edildi ki, ittifaq müqaviləsinin bağlanmasından ötrü Gürcüstan və Ermənistandan zorla alınmış ərazilər barədə məsələni tənzimləmək, bu əraziləri onlara geri qaytarmaq lazımdır" (73).

Birinci məsələnin izahından sonra V.Molotov qeyd etdi ki, bizim tənzim etməli olduğumuz ikinci mühüm məsələ Qara dəniz boğazları haqqında məsələdir. Biz müttəfiqlərimizə dəfələrlə bəyan etmişik ki, Montrödə bağlanmış Konvensiyanı doğru saya bilmərik. Bu Konvensiyaya görə, Qara dəniz boğazlarında yapon imperatorunun hüquqları nə qədərdirsə, Sovet İttifaqının hüquqları da bir o qədərdir. Bizə belə gəlir ki, bu, mövcud vəziyyətə uyğun deyildir. Müttəfiqlərimiz olan ABŞ prezidenti və Böyük Britaniyanın baş nazirinin də bu vəziyyəti düzəltməyi zəruri saydıqları bizə məlumdur.

İkinci məsələnin təqdimatından sonra V.Molotov dedi: "Türkiyə hökumətinə bildirilib ki, əgər o, bu əsas mübahisəli məsələləri tənzim etməyə hazırdırsa, onda onların tənzimlənməsindən sonra biz ittifaq müqaviləsi bağlamağa hazırıq. Eyni zamanda biz Türkiyənin bizim qarşımızda qoya biləcəyi problemləri həll etməyə hazırıq". V.Molotov danışıqlar zamanı türklərə bunun da bildirildiyini dedi ki, əgər Türkiyə hökuməti hər iki məsələnin tənzim olunmasını qəbuledilməz sayırsa, biz yalnız Boğazlara aid saziş bağlamağa hazırıq. Türkiyə hökumətinə şifahi formada bildirdiyimiz təklifləri mən sizə yazılı qaydada təqdim edirəm (74). Sonra V.Molotov Potsdam konfransında Qara dəniz boğazları haqqında SSRİ nümayəndəliyinin təkliflərini ABŞ prezidenti F.Ruzveltə və Britaniya Baş naziri U.Çörçillə təqdim etdi. Sovet təkliflərində üç məsələ nəzərdə tutulurdu. Birincisi, qeyd edilirdi ki, Montrödə imzalanmış Boğazlar rejimi haqqında beynəlxalq konvensiya müasir şəraitə cavab vermədiyindən ləğv edilməlidir. İkincisi, Qara dənizdən yeganə çıxış və

giriş yolu olan Boğazlar rejiminin qurulması Qara dəniz boğazlarının təhlükəsizliyində maraqlı olan və ticarət gəmiçiliyinin azadlığının təmin edilməsinə qabiliyyəti çatan Türkiyə və Sovet İttifaqının səlahiyyətlərində olmalıdır. Üçüncüsü, Boğazlar üzərində qurulan yeni rejim Qara dəniz və Boğazların təhlükəsizliyinin təmin edilməsi, digər dövlətlərin Boğazlardan Qara dəniz dövlətlərinə qarşı düşmənçilik niyyətilə istifadə etməsinin qarşısını almaq məqsədilə Türkiyə hərbi bazaları ilə yanaşı, Boğazlarda Sovet hərbi bazalarının yaradılmasını da nəzərdə tutmalıdır (75). Sovet təklifləri ilə tanış olduqdan sonra U.Çörçill qeyd etdi ki, bu, çöx mühüm sənəddir, o bizim əvvəl danışdığımızdan çox uzaqlara gedir. V.Molotov sovet təklifini əsaslandırmaq üçün əlavə etdi ki, o zaman Türkiyə ilə ittifaq müqaviləsi haqqında söhbət yox idi. Lakin U.Çörçill bildirdi ki, təqdim olunmuş kağızdan tamamilə ayrı məsələlər meydana çıxır. Söhbət Boğazlarda rus hərbi bazalarının yaradılmasından, Rusiyadan və Türkiyədən başqa heç bir ölkənin Boğazlara və onlardan istifadəyə hüququnun olmamasından gedir. Mən əminəm ki, Türkiyə heç vaxt bununla razılaşmaz. V.Molotov əsaslandırmaq istədi ki, Rusiya ilə Türkiyə arasında belə müqavilələr əvvəllər də mövcud olub. U.Çörçill dəqiqləşdirmək istədi ki, həmin müqavilələrlə Rusiya Boğazlarda möhkəmləndirilmiş bazalar əldə etmişdilər? V.Molotov izah etdi ki, həmin müqavilələrə görə Boğazlardan keçmək haqqında məsələni Rusiya və Türkiyə həll edirdilər. Bu 1805-ci il müqaviləsidir və 1833-cü ilin Unkerİskelesiyski müqaviləsidir. U.Çörçill bu müqavilələrlə tanış olmaq istəyini bildirdi və sonra əvvəllər haqqında söhbət gedən məsələlərlə təqdim olunan təkliflər arasında fərqə toxunmaq istədi. Söhbətə qoşulan İ.Stalin isə bilmək istəyirdi ki, söhbət hansı təkliflərdən gedir. U.Çörçill xatırlatdı ki, Sovet hökuməti ilə danışıqlarında Türkiyə hökumətinə təsir etməyə hazır olduğunu ifadə etmişdi ki, türklər Montrö konvensiyasına baxılması ilə razılaşsınlar: Mənim bu təklifim qüvvəsində qalır. Lakin mən yeni təkliflərə münasibətdə özümü tamamilə azad hiss edirəm. İ.Stalin-Siz azadsınız-dedi. Britaniya Baş naziri isə fikrini belə tamamladı ki, mən öz sözümdən imtina etmək istəmirəm. Sizinlə saziş əldə etmək mənim üçün çox xoşdur. ABŞ prezidenti H.Trümen isə məsələ ilə tanış olmadığından fikrini deyə bilməyəcəyini, fikri deməzdən əvvəl isə Sovet təkliflərini öyrənəcəyini söylədi (76). Bununla da Türkiyə və Boğazlar haqqında Potsdam konfransında birinci müzakirə sona çatdı. Bu müzakirənin gedişində Sovet İttifaqı iyun danışıqları zamanı Türkiyəyə qarşı irəli sürdüyü iddiaları Böyük üçlüyün qarşısında elan etməklə məsələni beynəlxalq müzakirəyə çıxarmış oldu. 22 iyul iclasında V.Molotov Türkiyə ilə bağlı iki məsələnin - ərazi tələbləri və Boğazlar rejiminə baxılmasının Sovetləri maraqlandırdığını ifadə etsə də, Boğazlar məsələsi özü iki hissədən ibarət idi: birincisi, Montrö konvensiyasının dəyişdirilməsi,

ikincisi isə Boğazlarda Sovetlərə hərbi baza verilməsi. Ərazi tələbləri ilə bağlı qeyd etmək lazımdır ki, S.Sarperlə Moskva danışıqlarından sonra Sovet rəhbərliyi Türkiyəyə qarşı yönəlmiş torpaq iddialarını ciddi şəkildə əsaslandırmağa çalışmış, hətta tələb olunan ərazilərin xəritələrini belə hazırlamışdı. Digər tərəfdən, V.Molotovla S.Sarper arasında keçirilən iyun danışıqlarında söhbət Qars və Ərdahandan gedirdisə, Potsdam konfransında Artvinin də adı bura əlavə edildi. Nəzərə almaq lazımdır ki, Potsdam konfransında məhz ərazi tələbləri ilə bağlı müttəfiqlərə təzyiq göstərilməsi məqsədilə xaricdə yaşayan erməni diaspor təşkilatları konfransa çoxsaylı müraciətlər göndərmişdilər. Yeni açıqlanan arxiv sənədləri təsdiq edir ki, bu müraciətdən müxtəlif sovet idarələri xəbərsiz deyildilər. Xüsusilə Britaniya xarici işlər naziri A.İdenlə 16 iyul danışıqlarında V.Molotov xaricdə yaşayan ermənilərin Sovet Ermənistanına köçmək istəklərini artıq dilə gətirmişdi. Məlum olduğu kimi, 1945-ci ilin aprel ayından başlayaraq SSRİ rəhbərliyi Sovet Ermənistanının dovlət idarələrində, yaradıcılıq birliklərində və dini təşkilatlarında çalışan ayrı-ayrı şəxslərin Ermənistan SSR-in uğurlarını təbliğ etmək və erməni diasporu içərisində iş aparmaq üçün xaricə ezam olunmasına razılıq vermişdi. Tanınmış erməni tarixçisi E.Melkonyan haqlı olaraq qeyd edir ki, hələ müharibə qurtarana qədər Stalin 16 mart 1921-ci il müqaviləsi əsasında Sovet Rusiyasının Türkiyəyə verdiyi ərazilərin qaytarılması məsələsini qoymuşdu. Həmin dövrdə artıq SSRİ-nin Şərqi Avropada və Balkanlarda öz təsir dairəsmi genişləndirməsindən təşvişə düşən ABŞ və İngiltərə arasında ziddiyyətlərin mümkünlüyünü hiss edən İ.Stalin qərara gəldi ki, digər məsələlərlə yanaşı, "erməni kartı" ilə də oynasın (77). Məhz bu məqsədlə 1945-ci ilin aprel ayından başlayaraq Ermənistan SSR rəhbərliyinin İ.Stalinə müraciətləri ardıcıl xarakter almışdı. May ayının 15-də Q.Arutinov tərəfindən İ.Stalinə ünvanlanan məktubda xarici ermənilərin Sovet Ermənistanına qayıtmasını təşkil etməyə icazə verilməsi xahiş edilirdi (78).

Ermənistan kompartiyasının katibi Q.Arutinov və Xalq Komissarları Soveti sədrinin müavini S.Karapetyan iyul ayının 4-də V.Molotova müraciət etdilər. Məktubda bildirilirdi ki, bu ilin may ayının 15-də Ermənistan rəhbərliyi İ.Stalinə müraciətində müharibənin qurtarması ilə bağlı erməni qaçqınlarının bir hissəsinin, ilk növbədə Rumıniya və Bolqarıstandan 30-40 min adamın Sovet Ermənistanına köçmək arzusunu ifadə etmişdi. Onlar yazırdılar: həmin məktubda biz ehtimal olaraq göstərmişdik ki, Eçmiədzinin yığıncağına gələn xarici erməni koloniyalarının nümayəndələri vəsait toplanınası və xarici ermənilərin Sovet Ermənistanına köçməsi məsələsini Ermənistan hökuməti qarşısında qaldıra bilərlər. Bu ehtimal təsdiqləndi. Xaricdən gələn nümayəndələrin xahişi ilə Ermənistan Xalq Komissarları Sovetində keçirilən qəbulda

Türkiyə ermənilər istisna olmaqla qalan nümayəndələr xarici ermənilərin Sovet Ermənistanına köçmək məsələsini qaldırdılar. Sovet hökumətinin razılığı olmadığı üçün Ermənistan Xalq Komissarları Soveti onlara bildirdi ki, hələlik bu məsələ öyrənilir və öyrənildikdən sonra ona baxılacaqdır. Eyni zamanda məktubda göstərilirdi ki, Ermanistan hökumətinə və kompartiyasına son günlər Yunanıstanda yaşayan ermənilər tərəfindən orada irticanın tüğyan etməsi barədə müraciətlər daxil olmuşdur. Onlar yazırdılar ki, Sovet İttifaqının müdafiə etdiyi Bolqarıstana rəğbət bəslədiklərinə görə Yunanıstanda yaşayan ermənilər irticaçı Yunanıstan dairələri tərəfindən vətən xaini adlandırılır və onlar təqiblərə, həbslərə və işgəncələrə məruz qalırlar.

Məktubda Yunanıstanda yaşayan 20 min ermənin 15 mininin vətəndaşlığının olmadığı və onların kütləvi şəkildə Bolqarıstana keçməyə cəhd göstərdikləri bildirilirdi. Ermənistan SSR rəhbərliyi yunan ermənilərinin ümumi repatriasiya məsələsindən ayırılə 15-20 min ermənin Yunanıstandan Sovet Ermənistanına köçməsinə müstəqil məsələ kimi baxılmasını təklif edirdi. Onların fikrincə, yaranmış vəziyyətlə əlaqədar yunan erməniləri təcili olaraq Sovet vətəndaşlığına qəbul edilib Qara dəniz vasitəsi ilə repatriasiya olunmalı idilər (79). İ.Stalinə göndərilən başqa bir məktubda Q.Arutinov yazırdı ki, xarici ermənilərin Sovet Ermənistanına köçməsini təşviq etmək üçün Ermənistan SSR-in təsərrüfat və mədəni həyatdakı uğurları, erməni xalqının Sovet İttifaqının Böyük Vətən müharibəsində iştirakı barədə xarici ermənilərin 20-dən artıq mətbuat orqanlarına sistematik məlumatlar göndərmək lazımdır. Bu istiqamətdə yeni yaradılmış xarici ölkələrlə erməni mədəni əlaqə cəmiyyətinin mühüm rol oynadığı, lakin məlumatların xarici ermənilərə vaxtında çatmadığı qeyd edilirdi. O yazırdı ki, özünün məhdud kilsə xarakterinə və dindarlar üçün nəzərdə tutulmasına baxmayaraq 1944-cü ildən başlayaraq xarici ermənilər üçün nəşr edilən "Eçmiədzin" jurnalı Sovet Ermənistanının uğurlarının təbliğ edilməsində mühüm rol oynayır və onun bir sıra materialları xaricdə yenidən çap edilir. Bununla yanaşı, Q.Arutinov xarici ölkələrlə erməni mədəni əlaqə cəmiyyətinə ildə 12 nömrəsi nəzərdə tutulan "Sovet Ermənistanı" aylıq jurnalının nəşrinə icazə verilməsini xahiş edirdi və belə bir nəşr orqanının Sovet Ermənistanına repatriasiya prosesini gücləndirəcəyinə ümidvar olduğunu bildirirdi (80).

1945-ci ilin iyul ayının 7-də İ.Stalin və V.Molotova növbəti məktubunda Sovet Emrənistanının başçısı Q.Arutinov məlumat verirdi ki, Ermənistanda və diaspor təşkilatlarında erməni ərazilərinin qaytarılması məsələsi geniş şəkildə qaldırılır və ümid var ki, Ukrayna, Belorusiya və digər xalqları birləşdirən Sovet hökuməti erməni xalqının da arzularını gerçəkləşdirəcək və üç böyük ölkənin rəhbərlərinin qarşıdakı görüşündə Birinci Dünya müharibəsindən sonra Türkiyəyə keçmiş ərazilərin Sovet

Ermənistanının əraziləri ilə birləşdirilməsi haqda məsələ qaldıracaqdır Məktubda vurğulanırdı ki, 1914-cü il sərhədlərinin bərpa olunmasını keçmiş Qars vilayəti və Sürməli qəzasının Ermənistana verilməsini tələb etmək lazımdır. Q.Arutinov eyni zamanda xatırladırdı ki, xaricdə yaşayan ermənilərin Sovet Ermənistanına köçürülməsi bununla əlaqələndirilməlidir (81). Q.Arutinovun məktubunda qaldırılan bu məsələlərdən V.Molotov həm A.İdenlə 16 iyul görüşü zamanı, həm də Potsdam konfranslarındakı müzakirələrdə istifadə etdi.

İyul ayının 23-də Potsdam konfransının yeddinci iclasında Türkiyə və Boğazlar məsələsinin müzakirəsi daha kəskin xarakter aldı. Təkcə Keniqsberq rayonu haqqında məsələni çıxmaq şərti ilə bütövlükdə iclas Yaxın və Orta Şərq ölkələrinə - Türkiyə, Suriya və Livan, habelə İran haqqında məsələlərə həsr edilmişdi. Bu məsələlər içərisindən ilk müraciət edilləni Türkiyə məsələsi oldu. Birinci söz alan U.Çörçill yenidən təkrar etdi ki, o, Boğazlarda rus hərbi bazalarının yaradılması haqqında təklifi müdafiə edə bilməz və eyni zamanda düşünmür ki, Türkiyə də bu təkliflə razılaşsın. Sovetlər tərəfindən bu dəfə müzakirəyə qoşulan İ.Stalin U.Çörçillin ötən iclasdakı çıxışına istinadən rusların türkləri qorxutması ilə bağlı Bolqarıstanda rus və bolqar qoşunlarının cəmləşdirilməsi məsələsinə aydınlıq gətirmək istədi. O, dedi: Mən hesab edirəm cənab Çörçilli sakitləşdirmək üçün bununla bağlı arayış vermək lazımdır. Mən bilmirəm türklər onu necə məlumatlandırıblar, lakin mən deməliyəm ki, Bolqarıstanda bizim iki diviziyamız var. Cənab Çörçill türklər tərafindən qorxudulub. İ.Stalin sözünə davam edərək bildirdi ki, türklərin Konstantinopol rayonunda 20, mümkündür ki, 23 və ya 24 diviziyaları vardır. Sizi əmin edirəm ki, bolqar ordusu türkləri qorxutmur. Ola bilsin ki, sərhədlərin dəyişdirilməsi haqqında təkliflər türkləri qorxudur. Lakin söhbət Birinci Dünya müharibəsi nə qədər mövcud olan sərhədlərin bərpa olunmasından gedir. Mən müharibə yə qədər Ermənistanın tərkibində olan Qars rayonunu və müharibə yə qədər Gürcüstanın tərkibinə daxil olan Ərdahan rayonunu nəzərdə tuturam. Əgər türklər SSRİ ilə Türkiyə arasında ittifaq müqaviləsi haqqında məsələni qoymasaydılar, köhnə sərhədlərin bərpası məsələsi də ortaya çıxmazdı. İttifaq isə o deməkdir ki, biz Türkiyənin sərhədlərini qorumağı öhdəmizə götürürük, Türkiyə də bizim sərhədləri qorumağı öhdəsinə götürür. Lakin biz hesab edirik ki, Qars və Ərdahan rayonlarında sərhədlər düzgün deyildir və biz Türkiyəyə bildirdik ki, əgər o bizimlə ittifaq bağlamaq istəyirsə, bu sərhədləri dəyişdirmək lazımdır, əgər o sərhədləri dəyişdirmək istəmirsə, onda ittifaq haqqında məsələ qüvvədən düşür. Ərazi iddiaları haqqında məsələni "əsaslandırdıqdan" sonra İ.Stalin Boğazlar haqqında məsələnin şərhinə keçdi. O dedi: "Rusiya kimi böyük bir dövlətin mövqeyi üçün Boğazlar haqqında məsələ mühüm əhəmiyyət kəsb

edir. Montrö konvensiyası bütövlükdə Rusiyaya qarşı yönəlib, bu Rusiyaya düşmənçilik xarakterində olan müqavilədir. Türkiyəyə hüquq verilib ki, nəinki müharibə getdiyi vaxt, eyni zamanda nə vaxt Türkiyəyə belə gəlsə ki, müharibə təhlükəsi mövcuddur - yeri gəlmişkən, bu təhlükənin meydana çıxmasını Türkiyə özü həll edir - həmin şəraitdə də Boğazları bizim gəmilərin üzünə bağlaya bilər. Qeyri-mümkün vəziyyətdir. Türkiyəyə hər zaman belə gələ bilər ki, hansısa təhdid mövcuddur və o hər zaman Boğazları bağlaya bilər. Bizim, rusların Boğazlara münasibətdə hüquqları yapon imperatorunun hüquqları qədərdir. Bu, gülməlidir, lakin faktdır. Belə çıxır ki, İngiltərənin müdafiə etdiyi kiçik bir dövlət böyük bir dövlətin boğazından yapışır və ona keçid vermir. Təsəvvür etmirsiniz ki, əgər Qibraltara münasibətdə belə müqavilə mövcud olsaydı, İngiltərədə necə hay-küy qalxardı və ya əgər Panama kanalına münasibətdə belə müqavilə mövcud olsaydı, Amerikada necə hay-küy qalxardı. Beləliklə, məsələ ondan ibarətdir ki, bizim gəmilərə Qara dənizdən azad şəkildə keçmək və ora qayıtmaq imkanı verilməlidir. Lakin göründüyü kimi, Türkiyə zəifdir və hər hansı ağırlaşmış şəraitdə o özü gəmilərin azad keçmək imkanını qoruya bilmir, onda bizim bu azad keçidimizi təmin edən hansısa təminatımız olmalıdır".

İ.Stalin öz geniş çıxışında Boğazlarda hərbi bazalar məsələsinə də toxundu və dedi: "Siz hesab edirsiniz ki, Boğazlarda hərbi-dəniz bazası qəbuledilməzdir. Yaxşı, onda bizə hər hansı digər baza verin ki, rus donanması orada təmir və təchiz edib bilsin, orada o öz müttəfiqləri ilə birlikdə Rusiyanın hüquqlarını qoruya bilsin. Bax, işin təfsilatı belədir. Lakin məsələni indi mövcud olan vəziyyətdə saxlamaq gülməlidir"(82).

İ.Stalinin bu geniş açıqlamasından sonra prezident H.Trümen söz aldı və müzakirə edilən məsələ ilə bağlı Birləşmiş Ştatların mövqeyini açıqladı. H.Trümen dedi: "Biz belə hesab edirik Montrö konvensiyası yenidən baxılmalıdır. Biz fikirləşirik ki, Qara dəniz boğazları bütün dünya üçün açıq olan azad su yoluna çevrilməli, bütün gəmilərin Boğazlardan azad keçmək hüququna bizim hamımız tərəfindən təminat verilməlidir". O ki, qaldı ərazi məsələlərinə, prezident H.Trümen qeyd etdi ki, o ancaq Sovet İttifaqına və Türkiyəyə aid məsələdir və onlar arasında həll edilməlidir. Lakin Qara dəniz boğazları haqqında məsələ bizim hamımıza və bir çox digər ölkələrə aid məsələdir. Dəniz yollarının azadlığı ilə bağlı prezident H.Trümenin geniş çıxışından və ümumilikdə Türkiyə məsələsinin belə uzun müzakirəsindən darıxan İ.Stalin qeyd etdi ki, prezidentin təkliflərini diqqətlə oxumaq lazımdır, eşitməklə hamısını anlamaq olmur. Ola bilsin hələlik digər məsələlərin müzakirəsinə keçək (83).

Potsdam konfransının gedişində ABŞ və İngiltərə beynəlxalq daxili su yollarında naviqasiya haqqında iyul ayının 23-də, 25-də və 27-də təkliflərlə çıxış etdilər ki, bunlarda da qısaca olaraq Montrö konvensiyasına

toxunulurdu. İyul ayının 28-də SSRİ, iyul ayının 31-də isə ABŞ və İngiltərə Qara dəniz boğazları haqqında yazılı təkliflərlə çıxış etdilər. Bu təkliflər xırda istisnalarla bir-birinə yaxın idi. ABŞ və İngiltərənin təkliflərindən aydın olur ki, onlar prezident H.Trümen tərəfindən qaldırılan və U.Çörçill tərəfindən müdafiə olunan Boğazların beynəlmiləlləşdirilməsi ideyasından Potsdamda geri çəkildilər.

Boğazlar məsələsi haqqında böyük üçlüyün iki müzakirəsindən sonra iyul ayının 26-da Britaniya Türkiyə ilə ittifaq müqaviləsinə uyğun olaraq danışıqların gedişi barədə Ankaranı məlumatlandırmışdı. Britaniya səfiri M.Peterson Baş nazir Ş.Saracoğlu ilə görüşdə Sovetlərlə ehtiyatlı hərəkət etməyi tövsiyə etmiş və H.Trümenin Boğazları idarə etmək üçün beynəlxalq administrasiya yaratmaq təklifini ona bildirmişdi. Lakin Boğazların Lozanna ilə Montrö arasındakı dövrdə olduğu kimi nə beynəlxalq administrasiya tərəfindən idarə edilməsi təklifi, nə də Türkiyənin iştirakı olmadan bu məsələnin beynəlxalq görüşdə müzakirə edilməsi Ş.Saracoğlunun xoşuna gəlməmişdi. O, Petersondan rusların istədiyi bütün şeylərin onlara vəd edilib-edilməməsi ilə maraqlanmışdı (84).

İyul ayının 28-də M.Peterson ikinci dəfə Türkiyə rəsmiləri ilə görüşüb Boğazlar məsələsi barədə müzakirələr aparmışdı. Bu danışıqlarda ümumi şəkildə razılıq əldə olunmuşdu ki, türklər Boğazların beynəlmiləlləşdirilməsində ABŞ-la əməkdaşlığın əhəmiyyətini tam dəstəkləyirlər, onlar Boğazların beynəlmiləlləşdirilməsini yalnız Türkiyənin suverenliyinə və təhlükəsizliyinə toxunulmaması şərti ilə qəbul edə bilərlər və məsələnin bu cür həlli yolu SSRİ ilə əlaqələrin yaxşılaşdırılması çərçivəsində olmalıdır (85).

Potsdam konfransında Sovetlərin Türkiyəyə qarşı irəli sürdüyü tələblər müttəfiqlər tərəfindən müdafiə edilmədiyindən yalnız Qara dəniz boğazları haqqında avqust ayının 1-də imzalanmış yekun protokolunda qısa bir qərar qəbul edildi. Orada deyilirdi: Üç hökumət təsdiq etdi ki, Montrödə bağlanmış Boğazlar haqqında konvensiyaya indiki zamanın şəraitinə cavab vermədiyindən yenidən baxılmalıdır. Tərəflər razılığa gəlirlər ki, həmin məsələ ilə bağlı növbəti addım üç hökumətdən hər biri ilə Türkiyə hökuməti arasında bilavasitə danışıqlardan ibarət olacaqdır (86). Bu qərarın mətnini ABŞ dövlət katibi C.Birns avqust ayının 2-də Ankaradakı Amerika səfiri E.Vilsona çatdırdı. Potsdam konfransının bu qərarını dəyərləndirən tanınmış türk tarixçiləri Mehmet Gönlübol və Haluk Ülman qeyd edirlər ki, bu qərarın rusca mətni ilə ingiliscə mətni arasında bir az fərqliliklər vardır. İngiliscə mətndə hər üç dövlətin Boğazlar məsələsi ilə bağlı görüşlərini Türkiyəyə ayrı-ayrılıqda bildirmələri yazıldığı halda, rusca mətndə üç dövlətdən hər biri ilə Türkiyə hökuməti arasında bilavasitə danışıqların aparılması yazılır. Burada gözə çarpan azacıq məna fərqi bir qədər sonra Birləşmiş Ştatlarla Sovet Rusiyası arasında anlaşılmazlıq yaranmasına gətirib çıxarmışdı (87).

Avqust ayının 2-də isə Potsdam konfransının keçirilməsi, orada müzakirə edilən məsələlər və qəbul edilən qərarlar haqqında İ.Stalin, H.Trümen və K.Ettli tərəfindən imzalanmış rəsmi məlumat elan edildi. Orada nə Türkiyə, nə Boğazlar və ümumiyyətlə, Sovet-Türk münasibətləri haqqında heç nə deyilmirdi.

Beləliklə, Sovet rəhbərliyinin Potsdamda yetərincə hazırlıqlı görünmələrinə baxmayaraq Türkiyəyə və Boğazlara münasibətdə nəzərdə tutulan planları müttəfiqlərə qəbul etdirmək mümkün olmadı. Türkiyənin Şərq vilayətləri haqqında və Boğazlarda hərbi baza yaratmaq barədə Sovet tələbləri müqavimətlə qarşılandığı üçün Potsdam konfransının heç bir yekun sənədində əks olunmadı. Boğazlar məsələsi haqqında Montrö konvensiyasına yenidən baxılması ilə bağlı müzakirələrin gedişində formalaşdırılan qərarın konfransın yekun protokoluna daxil edilməsi isə aydın və dəqiq məzmuna malik olmayıb, daha çox deklarativ xarakter daşıyırdı, Müttəfiqlər arasında Tehran və Krım konfranslarında müşahidə olunan həmrəylik Potsdam konfransında artıq o qədər də nəzərə çarpmırdı. Sovet İttifaqının əvvəlki iki konfransda diqqəti çəkən üstün nüfuzu Potsdamda bir qədər arxa plana keçməkdə idi. Sovet rəhbərliyi özü də bunu hiss etmişdi və əslində Türkiyə məsələsində, Boğazlar məsələsində İ.Stalinin israrlı mövqeyi müharibədən sonrakı dünyada onun nüfuzuna dəlalət edən məsələ kimi qəbul edilirdi. Rus tarixçiləri V.M.Zubok və K.V.Pleşakov Harvard Universitetində nəşr olunmuş dərin məzmunlu əsərlərində haqlı olaraq yazırdılar ki, Qərb müttəfiqləri (həmçinin Stalinin davamçıları) bu halda Stalinin etdiyi hərəkətlərin məntiqini heç cürə anlaya bilmirdilər. Sonralar çoxları bunu Kreml başçısının sonsuz istəklərinin ilk müharibədən sonrakı ilk təzahürü kimi şərh etdi. Lakin digər bir şərh daha çox həqiqətə uyğun udu. Stalin Boğazlara təkcə Sovet təhlükəsizliyi ilə bağlı məsələ kimi deyil, həm də nüfuz (prestij) məsələsi kimi baxırdı. Onda öz tələblərinin əsaslı olması barədə heç bir şübhə yox idi (88).

Beləliklə, Potsdam konfransı zamanı Türkiyə ilə baglı məsələlərdə özünü büruzə verən üç məqam diqqəti cəlb edir. Bunlardan birincisi, prezident H.Trümen tərəfindən irəli sürülən və Baş nazir Çörçill tərəfindən müdafiə edilən Boğazların beynəlmiləlləşdirilməsi ideyası idi ki, bu ideya SSRİ ilə yanaşı Türkiyənin də maraqlarına cavab vermirdi. İkincisi isə, Sovetlərin Türkiyəyə qarşı ərazi tələblərinin ABŞ prezidenti tərəfindən laqeyd qarşılanması və bu tələbləri Sovet İttifaqı ilə Türkiyə arasındakı məsələ kimi dəyərləndirilməsi əslində, Moskvaya fəaliyyət azadlığı vermək demək idi. Nəhayət, Böyük üçlüyün sonuncu görüşündə diqqəti çəkən üçüncü məqam ondan ibarət idi ki, Sovetlərin Türkiyəyə ərazi tələblərinin və Boğazlarda hərbi baza yaratmaq istəklərinin müttəfiqlər tərəfindən rədd edilməsi rəsmi qaydada yekun sənədində öz

əksini tapmamışdı. Bir sıra tarixçilər, o cümlədən tanınmış türkoloq B.M.Potsxveriya belə hesab edir ki, Potsdam konfransında SSRİ-nin Türkiyəyə qarşı ərazi tələbləri aradan qaldırıldı, baxmayaraq ki, sonralar ermənilər və gürcülər belə iddialarla ictimaiyyət səviyyəsində çıxış etdilər (89).

Burada nəzərə almaq lazımdır ki, 30-40-cı illərdə Sovet İttifaqında ictimaiyyət anlayışı tamamilə formal xarakter daşıyırdı və ictimaiyyətin adından edilən hərəkətlərin arxasında bütövlükdə dövlət dayanırdı. Digər tərəfdən, Gürcüstan və Ermənistan respublikalarının arxivlərində, habelə Rusiya Federasiyası Xarici Siyasət arxivində, Rusiya Dövlət Sosial Siyasi Tarix arxivində açıqlanan yeni sənədlər Türkiyəyə qarşı ərazi tələblərinin Potsdam konfransından sonra məhz mərkəzi hakimiyyətin özünün göstərişləri, onun verdiyi təlimatlar əsasında Ermənistan və Gürcüstanın hakimiyyət orqanları tərəfindən aparıldığı təsdiq olunur. Potsdamda, xüsusilə İngiltərə tərəfindən ciddi müqavimətə rast gəldiyindən Sovet İttifaqı rəhbərliyi ərazi tələblərinin ağırlıq mərkəzini Cənubi Qafqaz respublikalarının üzərinə keçirməyə üstünlük verdi, Boğazlar məsələsi isə axıra qədər Mərkəzi hökumətin, yəni Kremlin səlahiyyətlərində qaldı. Bir sözlə, Türkiyəyə qarşı ərazi tələblərinin forması dəyişsə də, mahiyyəti sona qədər dəyişməz olaraq qaldı.

Potsdam konfransı ərəfəsində türk mətbuatı Sovetlər tərəfindən güclənən təhdidlərə qarşı geniş kampaniyaya başlamışdı.Sovet mətbuatında və xüsusilə Moskva radiosunda antitürk təbliğatın güclənməsi Ankara və İstanbul qəzetlərini daha radikal yazılar verməyə vadar edirdi.Onlar Sovetləri “imperialist niyyətlərinə”, “əlverişli vəziyyətdən istifadə cəhdlərinə” və “çar Rusiyasının siyasətinin davam etdirilməsinə” görə kəskin tənqid edirdilər. Hətta bir sıra tanınmış jurnalistlər öz mahiyyətinə görə Sovet rejiminin faşist rejimindən fərqlənmədiyini əsaslandıraraq onu “qırmızı faşizm” kimi xarakterizə edirdilər. Bəzən türk mətbuatı müttəfiqləri Sovet tələblərinin mahiyyətini anlamamaqda ittiham edir. Sovet İttifaqının nə istədiyini başa düşmədiklərindən təəcüblənirdi.”Mançester Qardian” kimi tanınmış ingilis qəzetinin Potsdam konfransı ərəfəsində “rus tələblərinin” müəyyən dərəcədə əsaslandırılmış olduğu haqqında yazı dərc etməsi Türkiyədə hiss edibcək narahatçılıq doğurmuşdu. Bunula bağlı tanınmış jurnalist C.Yalçın “Tanin” qəzetində yazırdı: “Ən ciddi ingilis qəzetlərindən birinin Boğazlar məsələsinin və bizə münasibətdə rus tələblərinin mahiyyətini hələ də başa düşməməsi bizi təəcübləndirir. Avropalılar və amerikanlar fikirləşirlər ki, ruslar Boğazları açmaq istəyirlər.Onlar istəyirlər Boğazlar ya bağlansın və ya rus maraqlarından asılı olaraq açılsın. Onlar Boğazlar üzərində avropalılar və amerikanlar – yəni öz düşmənləri tərəfindən nəzarətin qurulmasını

istəmirlər.Onlar istəyirlər ki, Boğazlardan öz təcavüzkar niyyətləri üçün baza kimi istifadə etsinlər"(90). Sovetlərin irəli sürdüyü ərazi tələblərinə toxunan bir sıra qəzetlər qeyd edirdilər ki,türk torpaqlarının hər hansı bir hissənin kiməsə verilməsi elə bir məsələdir ki, heç bir türk onun haqqında hətta söhbət açmağa belə razılaşa bilməz.Türk qəzetləri SSRİ ilə dostluq münasibətlərinin davam etdirilməsini zəruri saydılar, lakin bir şərtlə ki, Sovet İttifaqı öz ərazi tələblərindən imtina etsin.

Boğazlar məsələsinə gəldikdə isə türk mətbuatı belə hesab edirdi ki, Bosfor və Dardanell məsələsi ikitərfli rus-türk danışıqları ilə deyil,ən azı Montrö konvensiyasını imzalamış dövlətlərin iştirakı ilə keçirilən beynəlxalq konfransla müəyyən edilməlidir.

Potsdam konfransı haqqında gedən yazılarda türk mətbuatı çox ehtiyatla vurğulayırdı ki, üç böyük dövlətin liderlərinin görüşündə Boğazların və Türkiyənin Şərq vilayətlərinin taleyi həll edib bilər.Bir sıra qəzetlər Qərb mütəfiqlərini möhkəm dayanmağa və SSRİ-ni təcavüzkar niyyətlərdən daşındırmağa çağırırdı. Onlar İngiltərə Amerikanı Sovet təhlükəsi ilə qorxudur və qeyd edirdilər ki, əgər indi "bolşevik selinə" qarşı qəti qərarlar qəbul edilməsə,dünyanı saysız-hesabsız bədbəxtçiliklər bürüyəcəkdir.Potsdam konfransının ilk günlərində türklər sübut etməyə çalışırdılar ki, əgər SSRİ-yə qarşı yönələn ikitəfli ingilis-amerikan ittifaqı bağlamaqla Sovet İttifaqının təcrid olunmasına nail olmaqdır (91).

Potsdam konfransının müzakirələri haqqında türk mətbuatının məlumatları elə də geniş deyildi, qəzetlərdə dərc olunan yazıların əksəriyyətində Sovetlərin Türkiyəyə qarşı irəli sürdüyü tələblərin konfransda müzakirə edibcəyi ehtimal edilirdi. Sovet- Türk münasibətlərinin Berlində üç böyük dövlət başçılarının müzakirə obyekti olacağını nəzərə alraq türk mətbuatı bu münasibətlərin təhlilinə,Boğazlar haqqında məsələyə erməni məsələsinə geniş yer verirdilər.Tanınmış türk qəzetçisi N.Sadak "Akşam" qəzetində yazırdı ki, Sovet-Türk münasibətlərinin pisləşməsinin başlıca səbəbi Türkiyəni öz təsir zonasına salmağa çalışan SSRİ ilə İngiltərə arsında rəqabətdir. Ankardakı Sovet səfirliyi N.Sadak, A.Us, N.Nadi və digərləri tərəfindən yazılan belə yazıları təhlil edərək bu nəticəyə gəlirdi ki, türk mətbuatı ingilisləri qızışdırmağa çalışır, onları inandırmağa cəhd göstərir ki, Sovet İttifaqı İngiltərə əleyhinə Türkiyəyə münasibətdə daha əlverişli mövqeləri ələ keçirmək istəyir (92). Bir sıra jurnalistlər yaranmış vəziyyətdən çıxış yolunu ingilis-rus-türk müqaviləsinin və ya ingilis-türk ittifaq müqaviləsindəki düzəlişə uyğun bir düzəlişlə Sovet-Türk ittifaqının bağlanmasında görürdülər. Sovet səfirliyi gizli yollarla məlumat almışdı ki, tanınmış jurnalistlərin belə bir təşəbbüsləri Türkiyə hökuməti tərəfindən təqrid olunur. Lakin onlar gözləmirdilər ki,SSRİ belə itifaqa gedə bilər.

Bunun səbəbini türk junalistləri Sovet İttifaqının sülhü saxlamağa deyil Türkiyə və bütün dünya üzərində öz ağalığını qurmağa cəhd etməsi ilə izah edirdilər. Boğazlar məsələsinə toxunan C.Yalçın "Tanin" qəzetindəki məqaləsində yazırdı: "Boğazlar Rusiya üçün əsas məqsəd deyil, ancaq vasitədir. Onlar bu məsələni ona görə irəli sürməyiblər ki, Boğazlarla məhdudlaşsınlar, ona görə irəli sürüblər ki, onun hüdudlarından uzağa çıxsınlar". Türk qəzetlərində gedən yazılarda Montrö konvensiyasında bir sıra dəyişikliklərə bu şərtlə razılıq ifadə olunurdu ki, Boğazların təhlükəsizliyi Türkiyənin milli müstəqilliyinə və suverenliyinə toxunulmadan gücləndirilsin. Türklər güman edirdilər ki, Boğazlar məsələsində amerikanlar da onları müdafiə edəcəkdir. Onlar bu gümanlarını onunla əsaslandırırdılar ki, Boğazların SSRİ-nin əlinə keçməsi hər bir halda İngiltərə və ABŞ-ın maraqlarına uyğun deyildir.

Potsdam konfransının yekunları haqda rəsmi məlumat elan olunduqdan sonra türk mətbuatında geniş müzakirələr başlandı. C.Yalçın, N.Nadi və digər jurnalistlər belə hesab edirdilər ki, rəsmi məlumatda Boğazlar haqqında xatırlatmanın olmaması onun təsdiqidir ki, Sovet Ittifaqı öz tələblərini irəli sürməyə qərarlı olmayıb (93).

"Erməni Milli Komitəsinin" Qars, Ərdahan və Artvinin Sovet İttifaqına qaytarılması barədə Potsdam konfransına teleqramı Türkiyədə kəskin reaksiya doğurdu. Qəzetlər yazırdı ki, Türkiyəni "hansısa erməninin" çıxışı deyil, Sovet hökumətinin nəzarətində olan Moskva radiosunun dedikləri ilgiləndirir. Ərazi tələbləri ilə bağlı "Erməni Milli Komitəsinin" teleqramına türk mətbuatı Qars, Ərdahan və Artvinin ermənilərə heç bir aidiyyəti olmayan qədim türk torpaqları olduqlarını təsdiq edən çoxlu sənədlər dərc etməklə cavab verdilər. Qəzetlər yazırdılar ki, bu ərazilər 1877-78-ci il müharibəsinin nəticəsində Rusiya tərəfindən təzminat kimi götürüldü və 1921-ci il müqaviləsinə görə Lenin və Stalin tərəfindən Türkiyəyə qaytarıldı. Bu faktı şərh edərək "Vatan" qəzeti göstərirdi ki, Rusiyaya inanmaq olmaz. Bu gün onlar saziş imzalayırlar, sabah əlverişli vəziyyətdən istifadə edib gücə arxalanaraq öz imzalarından imtina edirlər. Bununla belə, Sovetlərin Türkiyəyə qarşı tələblərini pisləyən və kəskin tənqid edən yazıların sonluğu bir qayda olaraq Sovet-Türk dostluğunun və əməkdaşlığının bərpa edilməsinin zəruriliyi ilə bitirdi. Qəzetlər yazırdı: Bütün qeyd olunanlara baxmayaraq, türklər ruslarla görüşməli, onları narahat edən məsələləri müzakirə etməlidir. Lakin bu şəraitdə ruslar Türkiyədən ərazi güzəştləri və ya Boğazlar üzərində nəzarət hüququ tələblərini deyil, yalnız bir sıra təminatların verilməsini istəyə bilərlər.

Potsdam konfransının gedişində tanınmış jurnalist Yalmanın konfransa açıq məktubu və millət vəkili, professor Yavuz Abadanın "Cümhuriyyət" qəzetində dərc edilən yazıları cəmiyyətdə maraqla qarşılanmışdı. Yalman öz məktubunda faşizm üzərində qələbə çalan dövlətləri

haqq və ədalət yolu ilə getməyə, öz güclərindən kiçik ölkələrə qarşı sui-istifadə etməməyə çağırırdı. O, yazırdı: Deyirlər ki, sizin konfransınızın gündəliyində Türkiyəyə aid də məsələ vardır. Əgər bu doğrudursa, Siz bizim müstəqilliyimizin, mövcudluğumuzun və ölkəmizin ərazi bütövlüyünün tələblərinə uyğun olmayan hər hansı qərar qəbul etsəniz, başa düşün ki, biz heç vaxt Sizin qərarınıza tabe olmayacağıq, bütün vasitələrlə ona qarşı mübarizə aparacaq və bu mübarizə naminə istənilən fədakarlığa gedəcəyik. Millət vəkili Y.Abadan isə türkləri hər cür gözlənilməz hadisəyə hazır olmağa çağırır, Avropanın hələ sakit həyata qayıtmadığını, Berlin konfransının hələ zəruri olan sabitliyi yaratmadığını, müttəfiqlər arasındakı ziddiyyətləri həll etmədiyini bildirirdi (94).

Avqust ayının 2-də Potsdam konfransının yekunları ilə bağlı rəsmi məlumatın elan edilməsi və orada Türkiyə haqqında, Boğazlar haqqında hər hansı mühüm qeydin olmaması türk ictimaiyyətini və mətbuatını bir qədər sakitləşdirdi. C.Yalçın yazırdı: "Biz şübhə etmirdik ki, müttəfiqimiz İngiltərə və dostumuz Amerika konfransda Türkiyənin xoşuna gəlməyən qərarlar qəbul edilməsinə yol verər, biz əmin idik ki, onlar türk maraqlarının müdafiə edilməsini Türkiyənin özündən də artıq təmin etməyi arzulayırlar" (95).

Türk mətbuatının icmalını hazırlayan Ankaradakı Sovet səfirliyinin məsul əməkdaşları iyul ayının ikinci yarısı və avqust ayının əvvəllərində SSRİ Xarici İşlər Komissarlığına yazırdılar ki, Türkiyə siyasi dairələrinin Potsdam konfransının gedişi zamanı keçirdiyi narahatçılıq türk mətbuatında yetərincə qabarıq şəkildə əks olunmuşdur (96).

Potsdam konfransı başa çatdıqdan az sonra, avqust ayının 18-də SSRİ Xarici İşlər Komissarlığında Boğazlar məsələsinin ətraflı yer aldığı 18 səhifəlik "Sovet-Türk münasibətlərinə dair" geniş arayış hazırlandı. Arayışın giriş hissəsində dünya ictimaiyyətinin son dövrlərdə Sovet-Türkiyə münasibətlərinə böyük diqqət göstərdiyi, xarici mətbuatda bu haqda çoxlu yazıların getdiyi, Sovet ictimaiyyətinin qeyd edilən məsələyə müəyyən marağının yarandığı göstərilirdi. Sonra arayışda Sovetlərin 1945-ci ilin mart ayının 19-da birtərəfli qaydada 1925-ci il müqaviləsini ləğv etməsi və ondan sonrakı vəziyyət təhlil edilirdi. Türkiyə tərəfinin, xüsusilə Londonda mətbuata açıqlama verən xarici işlər naziri H.Sakanın Boğazlar məsələsi və türk-sovet müqaviləsinə baxılmağın bir-birinə aidiyyəti olmayan müxtəlif məsələlər adlandırması arayışda kəskin tənqid olunurdu. Orada qeyd edilirdi ki, Sovet İttifaqı ilə Türkiyə arasında münasibətlərin tənzim edilməsindən söhbət gedəndə başlıca olaraq iki məsələ nəzərdə tutulur. Bunlar Boğazlar haqqında və Birinci Dünya müharibəsindən sonra Türkiyənin Sovet İttifaqından zorla qəsb etdiyi ərazilər haqqında olan məsələlərdir. Arayışın birinci hissəsi Boğazlar haqqında iddiaların "əsaslandırılmasına" həsr edilmişdi. Burada Tür-

kiyənin əlində olan Boğazların Qara dənizdən Aralıq dənizinə yeganə yol olduğu, Qara dəniz və Azov dənizinin SSRİ üçün əhəmiyyəti göstərilir və Sovet İttifaqının bütün ixrac yüklərinin yarıya qədərinin həmin dənizlərdəki limanlardan göndərildiyi bildirilirdi. Sənəddə yazılırdı: "Deyilənlərdən aydın olur ki, Qara dəniz Boğazlarının Sovet İttifaqı üçün əhəmiyyəti Süveyş kanalının Britaniya, Panama kanalının ABŞ üçün əhəmiyyətindən daha böyükdür. Boğazlar kimi, eyni ilə Süveyş və Panama kanalları da özgə ərazilərində yerləşir. Böyük Britaniya və ABŞ Süveyş və Panama kanallarına münasibətdə öz qanuni maraqlarını xüsusi çətinlik çəkmədən təmin edə biliblərsə, bizim ölkəmiz yaranmış tarixi şərait ucbatından indiyə qədər Qara dəniz Boğazları problemini qənaətbəxş həll edə bilməmişdir". Arayışda Boğazlar məsələsinin tarixinə və Montrö konvensiyasının təhlilinə geniş yer verilmişdi. Türkiyənin Boğazların yeganə sahibi kimi çıxış etməsi və Montrö konvensiyasına şərh vermək hüququ SSRİ Xarici İşlər Komissarlığının sənədində etirazla qarşılanırdı və deyilirdi: "Təbiidir ki, Sovet İttifaqı böyük dövlət kimi Qara dəniz Boğazlarının təhlükəsizliyində daha çox maraqlı olduğundan Türkiyə ilə birlikdə gəmilərin Qara dəniz Boğazlarından keçərkən qaydalara riayət edilməsinə nəzarət hüququ əldə etməlidir. SSRİ Xarici İşlər Komissarlığının fikrincə, Türkiyə öz gücü ilə hər hansı qeyri-Qara dəniz dövlətinin hərbi donanmasının Boğazlardan zorla keçmək cəhdlərinin qarşısını almaq imkanına malik olmadığından Boğazların Sovet İttifaqı və Türkiyənin birgə gücü ilə müdafiə olunması zəruri idi". Arayışda göstərilirdi ki, məsələnin belə həllini Türkiyə və Sovet İttifaqının dövlət maraqları, eyni zamanda Avropada uzunmüddətli sülhün və beynəlxalq təhlükəsizliyin mənafeyi diktə edir. Daha sonra əlavə edilirdi ki, Boğazlar probleminin şantaj, ziddiyyətlərin törədilməsinin mənbəyi, böyük dövlətlər arasında ziddiyyətlər və çəkişməyə xidmət etməsi kimi vəziyyətə dözülməsi xalqlar arasında sülhün maraqlarına uyğun deyildir. Arayışda təklif edilirdi ki, beynəlxalq siyasətdə süni şəkildə saxlanan bu alışqan materialın aradan qaldırılması yeni müharibə qızışdırıcılarının cinayətkar planlarına daha bir zərbə endirmək, xalqlar arasında sülh işinə ciddi xidmət göstərmək deməkdir (97).

ABŞ prezidenti H.Trümen Vaşinqtona döndükdən sonra avqust ayının 8-də radiodakı çıxışında Potsdam konfransının yekunları ilə bağlı Amerika xalqına geniş məlumat verdi. Bu çıxışda o, Avropada su yollarından "şüursuzcasına" istifadə olunmasına toxunaraq məxsusi şəkildə Kil kanalı, Reyn, Dunay və Qara dəniz boğazlarının adını çəkdi. Prezident H.Trümen hələ iyul ayının 23-də Potsdam konfransının yeddinci iclasında böyük üçlüyün danışıqlarında belə bir fikir irəli sürmüşdü ki, son 200 ildə bütün müharibələr Aralıq dənizi ilə Baltik dənizi, Fransanın Şərq sərhədləri ilə Rusiyanın Qərb sərhədləri arasındakı ərazilərdə başlayır. Bu

fikri prezident 8 avqustdakı radio çıxışında da vurğuladı. Amerikalılara müraciətində H.Trümen "dəniz keçidlərinin" bitərəfliyi prinsipinə tərəfdar olduğunu bildirdi (98).

Bu çıxışdan az sonra Dövlət Departamenti Yaxın və Orta Şərq məsələləri üzrə idarənin sədr müavini C.Allenlə görüşən Vaşinqtondakı türk səfiri Hüseyn Baydur bildirdi ki, Türkiyə ictimaiyyəti prezident Trümenin çıxışından çox narahatdır. H.Baydur xatırlatdı ki, bu ABŞ-ın Türkiyənin öz müttəfiqindən biri olduğunu unutduğuna, 1940 və 1941-ci ildə o zaman Türkiyə sərhədlərinə kimi gəlib çıxmış, Qafqaz və Süveyşə keçməyə can atan Hitler qoşunlarının qarşısını almaqda Türkiyənin müttəfiqlərə yardımını qiymətləndirmədiyinə bir işarədir. H.Baydur qeyd etdi ki, o vaxt Türkiyənin öz qoşunlarını tamamilə səfərbər etməsi və öz ərazisini istənilən təcavüzə qarşı qorumaqda qətiyyət nümayiş etdirməsi Orta Şərqi və güman ki, müttəfiqlər üçün Şərq cəbhəsini xilas etmiş oldu. H.Baydir ümid edirdi ki, ABŞ Sovet hökumətinin Boğazlarla bağlı, Qars və Ərdahanla bağlı tələblərini eyni problemin bir hissəsi kimi gözdən keçirəcəkdir. Səfir son aylarda Birləşmiş Ştatların Türkiyə ilə bağlı məsələlərdə marağının azaldığını və hətta ABŞ-ın Türkiyəyə dəstəyinin zəifləməsinin hiss edildiyini, Berlin konfransında ABŞ-ın Britaniya ilə birgə SSRİ-nin Türkiyəyə qarşı iddialarına etiraz etməməsini bunun bir nümunəsi olduğunu söylədi. Səfir bildirdi ki, amerikanların rus-türk danışıqlarının "dostyana" keçməsi faktına toxunması Türkiyəni məyus edib, çünki iki türk əyaləti əleyhinə iddiaların "dostyana" qiymətləndirilməsi qeyri-mümkündür. O, ABŞ hökumətinin SSRİ-nin Qars və Ərdahana olan iddialarını Sovet hökuməti ilə Türkiyə arasında olan bir məsələ kimi qiymətləndirməsinə toxunaraq, Qərb dövlətlərinin dünya müharibəsi öncəsində Hitlerin ərazi iddialarına göz yumması nəticəsində yaşananlar haqqında ətraflı danışdı və böyük dövlətlərin hər hansı təcavüzün ilk müşahidə edildiyi zaman onun qarşısını almaq üçün öhdəliyi olduğunu birmənalı vurğuladı. O, Moskvadakı uzun təcrübəsinə əsasən əmin olduğunu bildirdi ki, ruslar ABŞ hökumətinin Türkiyənin ərazi məsələsində etinasızlıq nümayiş etdirməsinin hər hansı təzahürünü öz istəklərinin həyata keçirilməsi üçün yaşıl işıq kimi qiymətləndirəçəklər. Qara dəniz boğazlarına ABŞ-ın münasibətini dəyərləndirən H.Baydur qeyd etdi ki, əgər Boğazlar tam nəzarətsiz olarsa, Rusiyanın və Qara dəniz donanmasının bütövlükdə Mərmərə dənizinə keçirməsinə, öz silahlarını Ankaraya tuşlamasına və Türkiyəyə qarşı tələblər irəli sürməsinə daha heç nə mane ola bilməz. Bu şəraitdə ABŞ-ın Dardanellə bağlı təklifi Türkiyənin maraqları baxımından çox ziyanlı olardı. C.Allen dedi ki, ərazi tələbləri və Boğazlar məsələsini ayrı-ayrılıqda həll edib biləcəyini düşünür. H.Baydur onun bu sözlərini Qars və Ərdahanın türk-sovet problemi olması və bu məsələdə ABŞ-ın maraqlı olmaması kimi şərh etdi. C.Allen onu əmin etməyə çalışdı ki, ABŞ özünün BMT-dəki üzvlüyünə çox ciddi yanaşır və bu təşkilatdakı üzvlüyün vasitəsi ilə onlar istənilən yerdə

sülhə qarşı təhlükənin əleyhinədirlər və onlar Qars və Ərdahan məsələsində belə bir təhlükənin meydana çıxmayacağına ümid edirlər. Eyni zamanda C.Allen ABŞ-ın hazırkı çətin şəraitdə Türkiyə hökumətini tam dəstəkləməməsi barədə fikirlərin yanlış olduğunu, Türkiyəyə münasibətdə ABŞ hökumətinin siyasətində heç bir dəyişiklik olmadığını bildirdi (99).

Türkiyə siyasi dairələri Qərb ölkələrinin Ankaraya münasibətinin görünən tərəflərini təhlil edərək ehtiyatlanırdılar ki, üç böyük dövlət öz aralarında Sovet iddialarını təmin etmiş olsunlar. Sovetlərin ərazi tələblərini Boğazlara görə təzyiq vasitəsi kimi irəli sürdüyünü özündə əks etdirən bəzi fikirlərlə yanaşı başqa ehtimallar da var idi. Türklər ehtiyat edirdilər ki, Boğazlar məsələsində Sovet ittifaqını Qərb təkliflərinə razılaşdırmağın əvəzi kimi ABŞ və İngiltərə Qars və Ərdahanın Sovet Ermənistanına birləşdirilməsi ilə razılaşsınlar. Ona görə də ABŞ-ın irəli sürdüyü Boğazların beynəlmiləlləşdirilməsi ideyası Ankaranın ürəyindən olmasa da, ona maraq göstərdiyini büruzə verməyə çalışırdı. Məhz bu məqsədlə avqust ayının 20-də Türkiyə Xarici İşlər Nazirliyi Britaniya və Amerika səfirlərinə nota təqdim edərək, Boğazlar rayonunun qorunmasına və onlardan keçidin sərbəstləşməsinə Amerika tərəfindən təminat verilməsi, öz suverenliyini saxlamaq və Sovet tələblərinin doğurduğu gərginliyi azaltmaq şərtilə Türkiyənin Boğazların beynəlxalq idarəçiliyə verilməsinə razı ola biləcəyini açıqladı. Hələ avqust ayının 11-də Baş nazir Ş.Saracoğlu Ankaradakı ABŞ səfirinə bildirmişdi ki, Türkiyə hökuməti Boğazların beynəlmiləlləşdirilməsi prinsipini qəbul etməkdən imtina etmir, o şərtlə ki, Türkiyənin suverenliyinə toxunulmasın və nəticədə Rusiyanın Türkiyəyə münasibətində dəyişiklik olsun (100). Lakin Potsdam konfransında elan edilməsinə baxmayaraq Boğazların beynəlmiləlləşməsi məsələsində ABŞ-ın mövqeyi qəti deyildi. Türkiyə Xarici İşlər Nazirliyinin 20 avqust notası ilə tanış olduqdan sonra Dövlət katibi C.Birns prezident Trümenə yazırdı: Montrö konvensiyasına dəyişikliklər məsələsini gözdən keçirdikdən sonra mənə belə gəlir ki, biz bu məktuba əlavə edilən memorandumda irəli sürülən təkliflərlə kifayətlənməliyik. Mənim fikrimcə, biz belə bir vaxtda türklərin Boğazlara nəzarətinin məhdudlaşdırılması və ya Boğazların neytrallaşdırılması təklifi ilə çıxış etməməliyik. Belə düşünürəm ki, BMT Türkiyənin öz nəzarətindən sui-istifadə etdiyini və ya öz öhdəliklərini yerinə yetirə bilmədiyini hesab edən hər bir dövlət üçün apellyasiya məhkəməsi olmalıdır. Neytrallaşdırmaya gəldikdə isə, biz Türkiyəyə gələcəkdə onlara hücum olduğu halda, ABŞ-ın yardım edəcəyi təminatını vermədiyimiz müddətdə Türkiyədən öz hərbi istehkamlarını geri çəkməyi və ya neytrallaşdırma ilə razılaşmasını tələb etmək bizim üçün çətindir. Mən düşünürəm ki, biz sözümüzə əməl etməyə hazır olmayınca təminat verməməliyik və məncə, biz bunu ilk olaraq konqres liderlərinə təqdim etdikdən sonra etməliyik. BMT-nin ani

tədbir görəcəyinə bel bağlamaq Türkiyə üçün əlverişli deyil, bu zaman Türkiyə Təhlükəsizlik Şurasının bütün daimi üzvlərinin belə bir tədbirə veto qoymaq haqqına sahib olmasına əsaslanır. Bundan başqa, Boğazların neytrallaşması təklifi Panama və Süveyşlə bağlı bənzər təklifləri də gündəmə gətirər (101).

Dövlət katibi C.Birnsin prezident H.Trümenə göndərdiyi məktuba əlavə etdiyi "1936-cı ilin Montrö konvensiyasına dəyişikliklərlə bağlı ABŞ hökumətinin təklifləri"ndə əsasən dörd məsələ nəzərdə tutulurdu. Birincisi, C.Birns belə hesab edirdi ki, Boğazlar bütün ölkələrin ticarət gəmiləri üçün daim açıq olmalıdır. İkincisi, Boğazlar Qara dəniz dövlətlərinə məxsus hərbi gəmilər üçün daim açıq olmalıdır. Dövlət katibi izah edirdi ki, Boğazlar sülh dövründə Qara dəniz dövlətlərinə aid hərbi gəmilər üçün artıq tam açılsa da, müharibə zamanı vuruşan tərəflərin gəmiləri üçün Türkiyə bitərəf qalacaqsa bağlanacaqdır. Habelə, Türkiyə nə zaman özünü təhlükə qarşısında hesab edərsə, Boğazları bütün hərbi gəmilərin üzünə bağlaya bilər. Türkiyə bu təhlükəsizlik tədbirlərinə müharibə aparan dövlətlər arasında hərbi əməliyyatların Türkiyənin ərazi sularına keçməməsi məqsədilə can atır. Bununla belə, Qara dəniz dövlətləri haqlı olaraq onlara öz hərbi gəmilərini istənilən vaxt Boğazlardan keçirmək hüququnun verilməsində təkid edə bilər və biz Türkiyədən bu güzəştin edilməsini xahiş etməliyik. Üçüncüsü, Qara dəniz dövlətlərinin hamısının icazəsi olduğu hallar istisna olmaqla, qeyri-Qara dəniz dövlətlərinə məxsus hərbi gəmilərin Boğazlardan keçməsinə icazə verilməməlidir. Nəhayət, dördüncü, Montrö konvensiyasını günümüzün şərtlərinə uyğunlaşdırmaq məqsədilə bəzi kiçik, məsələn, BMT-nin Millətlər Cəmiyyətini əvəz etməsi və Yaponiyanın üzvlükdən çıxarılması kimi dəyişikliklərin edilməsi nəzərdə tutulmalıdır (102).

C.Birns prezidenti məlumatlandırırdı ki, onların hazırladığı bu təkliflər teleqramla Türkiyəyə göndəriləcək, Britaniya və Rusiya ilə də bu istiqamətdə məsləhətləşmələr davam etdiriləcəkdir. ABŞ-ın Boğazlar məsələsi ilə bağlı öz görüşlərini ümumiləşdirməsi sentyabr ayının 22-nə nəzərdə tutulan Xarici İşlər Nazirləri Şurasının London sessiyasının yaxınlaşması ilə bağlı idi. Öz növbəsində Türkiyə də London sessiyasında onun iştirakı olmadan Boğazlar məsələsinin müzakirə edibcəyindən ciddi narahatçılıq keçirirdi. Bütün diplomatik kanallarla Ankara bilmək istəyirdi ki, Londonda məsələyə hansı yöndən yanaşılacaq və hansı qərarlar qəbul edibcəkdir.

1945-ci ilin sentyabr ayının əvvəllərində Sovet ittifaqında hələ ki, Türkiyəyə qarşı xüsusi bir aktivlik müşahidə edilmirdi. Hətta Moskvadakı ABŞ səfiri A.Harriman Dövlət katibi C.Bimsə yazırdı ki, Sovet mətbuatında Türkiyə əleyhinə gedən kampaniya müəyyən qədər zəifləsə də, son zamanlar səfirlik işçiləri Sovet mənbələrindən bəzi Sovet

vətəndaşlarının SSRİ-nin hələ də Türkiyə ilə hesablaşmalı olduğunu düşündüyünə işarə vuran şərhlər eşidiblər. Bizim sırf şəxsi mövqedən verildiyini hesab etdiyimiz bu şərhlərdə SSRİ-nin bu payız Türkiyəylə müharibə edəcəyi kimi bəyanatlardan tutmuş "biz Türkiyə ilə danışıqlara getməli olacağıq" şəklindəki bəyanatlara qədər mülahizələr əksini tapıb. Yunanıstan və İranla bağlı belə şərhlər verilməyib. A.Harriman belə hesab edirdi ki, bu şərhlər yerli ictimai rəy üçün son partiya təlimatını əks etdirir(103).

Sovet mətbuatında Türkiyəyə qarşı kampaniyanın zəifləməsi İrandan müttəfiq qoşunlarının çıxarılması ilə bağlı Britaniya tərəfindən SSRİ-yə təzyiqlərin artması fonunda baş verirdi. İndi əsas məsələ Sovet qoşunlarını İranda nə qədər mümkünsə, daha uzun müddətə saxlamaq idi. Eyni zamanda Sovet qoşunlarının İranda saxlanması Türkiyəyə qarşı Moskvanın planlarının bilavasitə tərkib hissəsi idi. Xarici İşlər Nazirləri Şurasının London sessiyası ərəfəsində və sessiyanın gedişində Britaniya xarici işlər naziri E.Bevin ilə yazışmalarda V.Molotov bütün vasitələrlə İrandan qoşunların çıxarılmasının dəqiq vaxtını göstərməkdən yayınırdı. Avqust ayının 17-də xarici işlər komissarının müavini S.Kavtaradze İrandan müttəfiq qoşunlarının çıxarılması məsələsi haqqında V.Molotova yazırdı: "Yaponiyanın təslim olması ilə bağlı ingilislər Londonda xarici işlər nazirlərinin qarşıdakı iclasında müttəfiq qoşunların İrandan çıxarılması məsələsini qoya bilərlər. 1942-ci il İngilis-Sovet-İran müqaviləsinin 5-ci maddəsinə görə, müttəfiq qoşunları Almaniya və onun əlaltılarına qarşı hərbi əməliyyatlar barışıq və ya bilavasitə sülh müqaviləsi bağlanması yolu ilə başa çatdıqdan 6 ay sonra İrandan çıxardılmalıdır. Ona görə bizim formal əsasımız var təkid edək ki, Almaniya və Yaponiya ilə sülh müqaviləsi bağlanana qədər bizim ordumuz İranda qalsın. Heç olmasa, biz Yaponiyanın təslim olmasından daha altı ay sonrayadək qoşunlarımızın İranda qalmasında təkid etməliyik (104).

Britaniya xarici işlər naziri E.Bevin sentyabr ayının 19-da V.Molotova təklif edirdi ki, Yaponiyanın məğlub olması ilə müttəfiq qoşunların İrandan çıxarılmasının vaxtı dəqiq məlum olmuşdur, bu 2 mart 1946-cı il tarixidir. Ona görə bu məsələ Xarici İşlər Nazirləri Şurasında qalxarsa, mən qərarlıyam təklif edim ki, bizim hər iki hökumət razılığa gəlib ki, 1945-ci ilin dekabr ayının ortalarından başlayaraq silahlı qüvvələr 2 mart 1946-cı ilə qədər Britaniya ordusu Andimişk də daxil olmaqla ondan cənuba doğru İranın neft rayonlarında, Sovet ordusu isə Azərbaycanda qalmaq şərtilə bütün İrandan çıxarıla bilər. V.Molotov bir gün sonra E.Bevinə yazdığı cavabda qeyd edirdi ki, əgər zərurət olarsa, Sovet və Britaniya qoşunlarının İrandan çıxarılmasının son müddəti başa çatanda bu məsələ bizim aramızda müzakirə edib bilər. Sovet hökuməti bu məsələnin Nazirlər Şurasında müzakirə edilməsinə elə bir zərurət görmür (105).

Potsdam konfransından sonra Xarici İşlər Nazirləri Şurasının sentyabr ayında keçiriləcək birinci sessiyasına hazırlığın gedişində Britaniya siyasi dairələri ehtiyat edirdilər ki, SSRİ Aralıq dənizində öz təsirini genişləndirmək imkanından istifadə edə bilər. Bununla bağlı qərargah rəisləri Komitəsi təkid edirdi ki, keçmiş İtaliya müstəmləkəsi olan Kirenaikdə Sovet bazası yaratmağa yönəlmiş bütün cəhdlərin qabağı alınmalıdır. Britaniya Xarici İşlər Nazirliyində isə müzakirə olunurdu ki, Sovetlər tərəfindən Montrö konvensiyasına baxılması haqqında irəli sürülmüş tələbləri müdafiə etməyə dəyərmi? Müzakirələrin gedişində müxtəlif dairələr belə hesab edirdilər ki, Montrö konvensiyasına dəyişiklik etmək Rusiyaya Türkiyə və Yunanıstan üzərində nəzarət etməyə nail olmaq cəhdlərinə icazə verməkdən daha məqbuldur, Britaniya xarici işlər nazirinin şəxsi katibi P.Diksonun memorandumunda Aralıq dənizinə giriş əldə etmək və onun su sahəsində baza yaratmaq Xarici İşlər Nazirləri Şurasının sessiyasında "rusların əsas məqsədi" kimi müəyyən oluna bilər. O, təklif edirdi ki, hətta müşavirənin pozulması riski hesabına olsa da, Boğazlara və Tripolitaniyaya aid rus tələblərinin əleyhinə çıxmaq lazımdır(106).

Moskvadakı Britaniya səfirliyi sentyabr ayının sonuncu ongünlüyündən başlayaraq Sovet İttifaqında Türkiyə əleyhinə təbliğatın gücləndiyi, Qızıl Ordunun və ictimai rəyin Türkiyə ilə meydana gələcək bir münaqişəyə hazırlandığı barədə Londona məlumat verirdi. Eyni zamanda Bolqarıstan və Rumıniyadakı Britaniya hərbi nəzarətçiləri Sofiya və Plovdiv arasında tanklar yüklənmiş iki qatarın müəyyən edildiyi və bunların cənuba doğru hərəkət etdiyini bildirirdilər. Rumıniyadakı ingilis nəzarətçisi isə öz növbəsində çoxlu miqdarda tank və ağır topla silahlanmış Sovet birliklərinin Bolqarıstana keçdiyi barədə məlumat verirdi (107).

Ankaradakı Amerika səfiri E.Vilsonun bu məsələyə münasibəti daha maraqlı idi və tamamilə yeni bir nəzər nümayiş etdirirdi. Dövlət katibi C.Birnsə göndərdiyi məlumatda o, yazırdı: "Mənə daha çox belə gəlir ki, Boğazlar məsələsi SSRİ tərəfindən ortaya atılmış bir problem kimi mahiyyət deyil, əsl Sovet məqsədini gizlətmək üçün bir zahiri problemdir. Türkiyə ilə bağlı bu məqsəd onun daxili rejimini dəyişməyə yönəldilib. Qərbdə və cənubda Qara dənizdən Baltik dənizinə kimi SSRİ-nin sərhədlərində yerləşən ölkələr zəncirində Türkiyə "dost" rejim tərəfindən idarə olunmayan yeganə ölkədir. Türkiyədə Sovet hökmranlığı altında "dost" rejiminin qurulması Boğazlara nəzarətin faktiki olaraq SSRİ-yə keçməsi demək olardı". Lakin daha vacibi odur ki, bu, Türkiyə-Britaniya ittifaqının bitməsi, Türkiyə və nəticə etibarilə Orta Şərqdə Qərbin liberal təsirinin sonu deməkdir. Səfir Vilson Sovet-Türk dostluq müqaviləsinin ləğvi ilə başlayan və Molotovun iyun ayında irəli sürdüyü tələblərlə, habelə Türkiyəyə qarşı Sovet radiosu və mətbuatında davam

etdirilən təzyiqlərin Türkiyəni "yumşaltmaq" niyyəti güddüyünə toxunaraq qeyd edirdi ki, böyük dövlətlər arasında Rusiya üçün Boğazlarda Türkiyənin təhlükəsizliyi bahasına güzəştli mövqeyi təmin edəcək hər hansı sazişin imzalanması Türkiyədəki vəziyyəti elə dəyişə bilər ki, bu hazırkı rejimin yıxılması və SSRİ-yə sərf edən şəraitin yaranması ilə nəticələnə bilər (108). Sovet İttifaqındakı işlər vəkili C.Kennan da Dövlət katibinə vurduğu teleqramda Ankaradakı səfir Vilsonun bu fikri ilə razılaşırdı. O yazırdı: "Ankaradan Dövlət Departamentinə göndərilmiş teleqramda ifadə edilmiş fikirlərlə tamamilə razıyam. Mən elə bir Sovet ideologiyası və ya diplomatiya təcrübəsi tanımıram ki, Sovetlərin Türkiyə ilə bağlı tələblərinin yalnız Boğazlarda güzəşt verilməsi ilə təmin olunacağına bizim ümid eləməyimizə əsas versin. Biz bilməliyik ki, bu qəbildən olan istənilən güzəştlər Moskva tərəfindən Türkiyədə Qərb təsirini zəiflətmək və Sovet İttifaqına "dost" rejimin qurulması məqsədilə istifadə olunacaq" (109). C.Kennan Dövlət katibinə göndərdiyi digər bir teleqramda isə qeyd edirdi ki, mətbuatda Türkiyə ilə bağlı sakitlik davam etsə də, biz Sovet və başqa mənbələrdən daxili partiya təbliğatçılarının rus xalqına SSRİ-nin Türkiyə ilə müharibə yə gedə biləcəyi haqda fikirlər söyləməsi barədə məlumatlar alıblar. "Moskvanın üç zavodunda işçilərə təbliğatçılar tərəfindən SSRİ-nin Türkiyə ilə müharibə apara biləcəyi haqqında mülahizələr deyilib. Biz bu məlumatlara müəyyən qədər ehtiyatla yanaşmağa çalışsaq da, həmin məlumatlar elə geniş yayılmış mənbələrdən gəlir ki, onları sadəcə olaraq bir şayiə kimi kənara qoymaq olmaz. Bu yerli təbliğat ictimaiyyətin fikrini daxili vəziyyətdən yayındırmaq, davamlı hərbi istehsalı əsaslandırmaq və sənaye istehsalını sürətləndirmək məqsədi güdə bilər. Yenə də, ola bilsin ki, bu məruzələri türkləri zəiflətmək üçün aparılan əsəb müharibəsinin bir hissəsi kimi xarici müşahidəçilərə sırıyırlar. Real dəlillər nə olursa olsun, hər halda bu məruzələrə ehtiyatla yanaşmaq gərəkdir" (110).

Belə gərgin bir dövrdə Xarici İşlər Nazirləri Şurasının London sessiyasının açılmasına iki gün qalmış Türkiyə rəsmiləri xəbər tutdular ki, Boğazlar məsələsi sessiyanın gündəliyindən çıxarılıb. Sovet İttifaqı ilə Britaniya, həmçinin ABŞ-la Türkiyə arasında ikitərəfli danışıqlar keçiriləné qədər Birləşmiş Ştatlar Boğazlar məsələsinin müzakirə edilməsinin əleyhinə idi. Dövlət Departamenti Britaniyanın Vaşinqtondakı səfirinə məlumat vermişdi ki, onlar Birləşmiş Ştatların Türkiyədəki səfirinə ABŞ-ın Montrö konvensiyası problemini Xarici İşlər Nazirləri Şurasında qaldırmaq niyyəti olmadığı, eləcə də onların hər bir əlaqədar dövlətin öz təkliflərini birbaşa Türkiyə hökumətinə bildirməsini nəzərdə tutan proseduraya üstünlük verdikləri barədə Türkiyə hökumətini məlumatlandırmaq göstərişi veriblər. Dövlət Departamenti əlavə etmişdi ki, bu Türkiyə hökumətinə müvəqqəti cavab kimi nəzərdə tutulub. Eyni zamanda ABŞ-ın Londondakı səfiri

Vinant G.Birnisə bildirirdi ki, Amerika və Britaniya hökumətləri Türkiyə hökumətinə konkret cavablar göndərməzdən öncə bu iki hökumət eyni tərzdə düşündüklərinə əmin olmaq üçün məsləhətləşmələr keçirməlidirlər. Xarici İşlər Nazirləri Şurasının sessiyası Londonda keçirildiyindən səfir Vinant bu məqsədlə Dövlət katibi C.Birnsin Britaniya rəsmiləri ilə görüşünün keçirilməsini təşkil etməyə hazır olduğunu bildirirdi (111).

Türk mətbuatı Xarici İşlər Nazirləri Şurasının birinci sessiyasını diqqət mərkəzində saxlayırdı. London sessiyasının lap başlanğıcında bir sıra qəzetlər onun işinin gizli saxlanılmasından şikayətlənirdilər. Xüsusilə xarici işlər nazirlərinin görüşündə Boğazlar məsələsinin müzakirə edilmə ehtimalı ölkə mətbuatında hiss edibcək əsəbilik yaratmışdı. Sessiyanın gedişində SSRİ-nin köhnə İtaliya müstəmləkələrinin taleyi ilə maraqlanması barədə V.Molotovun bəyanatı London sessiyası ərəfəsində Britaniyalıların narahatçılığının əsaslı olduğunu təsdiqlədi. Türk mətbuat orqanları Molotovun bəyanatını SSRİ-nin Aralıq dənizinə və Orta Şərqə can atmasının açıq təzahürü kimi dəyərləndirirdi. Sovetlərin bu niyyəti Böyük Britaniyaya qarşı yönəldiyindən türk jurnalistləri bunu İngiltərə ilə SSRİ arasında ziddiyyətlərin başlıca səbəbi kimi izah edirdilər: "Akşam" qəzeti 23 sentyabr sayında yazırdı: "İngiltərə üçün Aralıq dənizində İtaliya təhlükəsi əvəzinə yeni təhlükə - Sovet Rusiyası meydana çıxmışdır. İngiltərə onun naminə müharibəyə girdi ki, Aralıq dənizini saxlasın. Müharibə qurtarıb, düşmən məğlub olub, lakin Aralıq dənizinə və Afrikaya, hətta Qırmızı dənizə daha qüdrətli dövlətin iddiaları vardır".

Türk mətbuatı Aralıq dənizində və Qırmızı dənizdə İtaliya müstəmləkələrinin taleyini, Dodekanez adalarının taleyini haqlı olaraq Boğazlär məsələsi ilə əlaqələndirirdi. Bir sıra qəzetlər yazırdı ki, Londonda Molotovun Tripolitaniya, Dodekanez və Eritlyaya qarşı yeni tələblər irəli sürməsi Boğazlarda hərbi baza istəyən Sovetlərin tələblərinin müttəfiqlər tərəfindən rədd edilməsinə cavab olaraq onlara təzyiq vasitəsi kimi irəli sürülüb.

Tanınmış jurnalist N.Sadak 24 sentyabr tarixli "Akşam" qəzetində çıxan yazısında Almaniyanın keçmiş əlaltıları olan Balkan ölkələrində Sovet işğalçı ordusunun yerləşdirilməsini Türkiyə üçün ən böyük təhlükə hesab edirdi. O, Moskvadan "ixrac edilmiş" Bolqarıstan, Rumıniya və Yuqoslaviya hökumətlərini kəskin şəkildə tənqid edir və yazırdı: "Nə qədər ki, bu ölkələrdə demokratiya bərpa edilməyib, Türkiyə özünü sakit hiss edə bilməz". N.Sadak belə hesab edirdi ki, əgər Balkan məsələsi həll edibcəksə, onda ümumi sülh yarıya qədər qurulmuş olacaq. Sadak London sessiyasının uğursuzluğunu SSRİ-nin Balkanlardakı ağalığından imtina etməməsi, Aralıq dənizinə və Afrikaya münasibətdə tələblərini artırması ilə izah edirdi (112).

Türk mətbuatı bu məsələdə sovetlərin erməni kartından bir daha istifadə etdiklərini də vurgulayırdı. Belə ki, Amerikada və digər ölkələrdə

yaşayan müxtəlif erməni təşkilatları San-Fransisko, Potsdam konfranslarına müraciət etdikləri kimi Qars, Ərdahan və Artvinin Türkiyədən alınıb Sovet Ermənistanına verilməsi haqqında Xarici İşlər Nazirləri Şurasının London sessiyasına da müraciət etmişdilər. Onların müraciəti Sovet ittifaqı Teleqraf Agentliyi vasitəsi ilə bütün dünyaya yayılmışdı. Türk mətbuatı haqlı olaraq belə müraciətləri və ermənilərin tələblərini erməni məsələsində ənənəvi rus siyasətinə istinad edərək Sovet imperialist siyasətinin təzahürü kimi qiymətləndirirdi. "Cümhuriyyət" qəzeti 22 sentyabr sayında yazırdı: "SİTA-nın dünənki məlumatının Moskvada Amerikadan əvvəl nəşr edilməsi faktı bütün aydınlığı ilə deyir ki, bu tələbləri ermənilərin adından kim tərtib edib (113).

Türkiyəyə qarşı Sovet tələblərinin öyrənilməsi və SSRİ-nin Aralıq dənizinə və Yaxın Şərqə artan tələblərinin dərindən araşdırılması tədricən Boğazlara münasibətdə ABŞ-ın mövqelərini dəyişirdi. 1945-ci ilin payızında Amerika Konqresi üzvlərinin Türkiyəyə səfəri bu marağın aydın təzahürü idi. ABŞ konqresmenləri Ankarada verdikləri bəyanatda bildirdilər ki, Amerika hər hansı bir ölkənin öz ərazisində digər ölkəyə baza verməsinin əleyhinədir və bunu Türkiyəyə münasibətdə də istisna etmək niyyətində deyildir(114).

ABŞ prezidenti H.Trümenin Potsdam konfransında irəli sürdüyü Boğazların beynəlmiləlləşdirilməsi ideyası 1945-ci ilin oktyabrında Amerika mətbuatında da özünə yer almışdı. Lakin mətbuat bu məsələni Potsdam konfransında guya Boğazlar üzərində beynəlxalq nəzarətin qurulması barədə qərar qəbul edildiyi kimi təqdim edirdi. Amerika mətbuatının bu yazılarından şübhələnən Sovet hökuməti SİTA-nın adından xüsusi bəyanat yayıb belə fikirləri təkzib etdi. Oktyabr ayının 15-də "Pravda" qəzetində dərc edilən SİTA-nın məlumatında deyilirdi: "Bir neçə gün əvvəl ABŞ mətbuatında Berlin konfransında üç dövlətin liderlərinin Dardanell boğazının beynəlmiləlləşdirilməsi məqsədilə Montrö konvensiyasında yenidən gözdən keçirilməsi ilə əlaqədar Türkiyə hökuməti ilə ayrı-ayrılıqda danışıqlar aparmağa razılıq olduğu barədə məqalə gedib. SİTA-nın etibarlı mənbələrdən aldığı məlumata görə, bu məqalə həqiqəti əks etdirmir. Əslində, Berlin konfransında belə bir razılıq əldə edilib ki, Boğazlar haqqında Montrö konvensiyası təkrar gözdən keçirilməlidir, çünki o hazırkı zamanın şərtlərinə uyğun deyil və bu problem hər üç hökumətlə Türkiyə hökuməti arasındakı birbaşa danışıqların mövzusu olmalıdır". Türk mətbuatı SİTA-nın bu məlumatını Boğazlar haqqında məsələni tənzim etmək məqsədilə danışıqlara başlamaq üçün Sovet hökumətinin Türkiyə hökumətinə özünəməxsus demarşı kimi qiymətləndirirdi. Türkiyənin Londondakı səfiri Açıkalın Ankaradakı Amerika səfiri Vilsonla söhbətində bildirmişdi ki, SİTA-nın rəsmi bəyanatı nəinki Sovet İttifaqının Boğazların beynəlmiləlləşdirilməsinin əleyhinə olduğunu, həm də SSRİ-nin Montrö konvensiyasının təkrar gözdən keçirilməsini Türkiyə ilə ayrılıqda və

Türkiyənin ABŞ və Britaniya ilə apara biləcəyi müzakirələrdən asılı olmayaraq müzakirə etmək niyyətində olduğunu göstərir (115).

Sovetlərin fəallaşması fonunda nəhayət ki, ABŞ Türkiyənin 20 avqust notasına cavabı açıqlamaq qərarına gəlmişdi. Oktyabr ayının 19-da Dövlət katibi C.Birns Türkiyəyə göndəriləcək notanın artıq hazır olduğunu prezident Trümenə bildirərək, eyni zamanda bunu əlavə edirdi: Mən sizin bu ərazidə rusların təzyiqini dayandırmaq üçün Montrö konvensiyasının təkrar nəzərdən keçirilməsi barədə fikrinizə şərik olsam da, beynəlmiləlləşdirmə ilə bağlı təklifinizin rusların əsl niyyətinin nə olduğunu bilmədən yenidən irəli sürülməsinin nə dərəcədə məntiqli olmasına şübhə edirəm (116). Britaniya Xarici İşlər Nazirliyi də Vaşinqtondakı səfir vasitəsi ilə oktyabr ayının 23-də Dövlət katibi C.Birnsə çatdırmışdı ki, Boğazlar məsələsinin müzakirəsinə başlamaqdan ötrü türklərə göndəriləcək cavabı sürətləndirmək lazımdır. Bunu nəzərə alaraq oktyabr ayının 24-də Dövlət Departamentinin Yaxın Şərq və Afrika idarəsmin müdiri Ley Henderson Türkiyəyə göndəriləcək notanın surətini tanış olub şərh vermək üçün Britaniya hökumətinə göndərdi.

Britaniya Xarici İşlər Nazirliyi Amerika notasının mətni ilə tanış olduqda İngiltərənin Qara dənizə hərbi gəmilər göndərmək istədikləri zaman Bolqarıstan və Rumıniya kimi keçmiş düşmən ölkələrdən icazə almalı olacağı ideyasını bəyənmədilər, eyni zamanda bu sənədə bir sıra redaktə xarakterli qeydlər etdilər. Britaniyalılar belə hesab edirdilər ki, Amerika təklifləri rusları qane etməyəcəkdir və onlar bu fikirdə idilər ki, ruslar Sovet İttifaqına Dardanell boğazında hərbi baza təmin etməyən hər hansı təklifi rədd edəcəklər. Bütün bunlara baxmayaraq, bəzi qeydlər nəzərə alınmaqla oktyabr ayının 30-da Dövlət katibi C.Birns Boğazlarla bağlı Amerika notasını Türkiyə hökumətinə təqdim etmək üçün Ankaradakı səfir E.Vilsona göndərdi. Orada deyilirdi: "ABŞ hökuməti Türkiyə hökumətinin Boğazlar məsələsi ilə bağlı 20 avqust 1945-ci il tarixli notasını və həmin notaya əlavə olaraq verilən xatırlatma məktubunu diqqətlə gözdən keçirib..." ABŞ hökumətinin fikrincə, Montrö konvensiyasına 1946-cı ildə yenidən baxılmalıdır. ABŞ təklif edir ki, Boğazlardakı rejimi dəyişmiş şəraitə uyğunlaşdırmaq üçün Konvensiyaya təkrar baxılması məqsədilə beynəlxalq konfrans keçirilməlidir. ABŞ dəvət edildiyi təqdirdə belə bir konfransda məmnuniyyətlə iştirak edərdi. ABŞ hökumətinin mövqeyinə görə, Montrö konvensiyasının dəyişilmiş şəraitə cavab verməsi üçün yeniləşdirilməsi nəzərdə tutulan aşağıdakı prinsiplərə əsaslanmalıdır: 1. Boğazlar bütün ölkələrin ticarət gəmiləri üçün hər zaman açıq olmalıdır; 2. Boğazlar Qara dəniz dövlətlərinə aid hərbi gəmilərin keçidi üçün hər zaman açıq olmalıdır; 3. Qeyri-Qara dəniz dövlətlərinin hərbi gəmilərinin, Qara dəniz dövlətlərinin xüsusi icazəsi olduğu və yaxud BMT-nin səlahiyyəti altında olduğu hallar istisna olmaqla

Boğazlardan keçidinə icazə verilməməlidir; 4. Montrö konvensiyasının müasirləşdirilməsi üçün BMT-nin Millətlər Cəmiyyətinin yerində yaradıldığı və Yaponiyanın üzvlükdən çıxarılması kimi müəyyən dəyişikliklər həyata keçirilməlidir (117). Nota noyabr ayının 2-də Türkiyə xarici işlər naziri H.Sakaya təqdim edildi, onun barəsində Britaniya və Sovet hökumətlərinə də məlumat verildi. Göründüyü kimi, ABŞ notasında Sovet İttifaqına hərbi baza verilməsi məsələsi nəzərdə tutulmamışdı və Birləşmiş Ştatlar Boğazlarda beynəlxalq nəzarətin tətbiq edilməsi barədə öz əvvəlki fikrindən imtina etmişdi.

Noyabr ayının 3-də Moskvadakı Amerika səfiri A.Harriman Boğazlarla bağlı Birləşmiş Ştatların yuxarıda göstərilən məzmundakı notasını V.Molotova təqdim etdi (118), İ.Stalin ABŞ notasında qaldırılan məsələlərlə tanış olduqdan sonra SSRİ Xarici İşlər Komissarlığı Amerika hökumətinə Boğazlar məsələsində Sovetlərin mövqelərinin dəyişmədiyini təsdiq edən cavab notasının layihəsini hazırladı, lakin həmin sənəd Vaşinqtona göndərilmədi (119). Amma Ankaradakı Sovet səfiri S.Vinoqradov dolayı yolla, Yunanıstanın Türkiyədəki səfiri R.Rafaelin vasitəsi ilə öz ölkəsinin mövqeyini Türkiyə hökumətinə çatdırdı. Yünan səfiri ilə S.Vinoqradov arasında olan söhbət barədə ABŞ səfiri Dövlət katibinə yazırdı: "Türkiyə Xarici İşlər İdarəsmin Baş katibi F.S.Erkin dünənki görüşdə mənə bildirdi ki, yenicə Yunanıstanın səfiri ilə görüşüb və səfir ona deyib ki, noyabrın 13-də, Sovet səfiri konsul Mixaylovla birgə onun yanına gəlib". Sovet səfiri söhbəti ABŞ-ın Montrö konvensiyasına təkrar baxılması ilə bağlı verdiyi plana yönəldib. O, ifadə edib ki, plan mövcud situasiyanı çox az dəyişir və xüsusilə də, müharibə zamanında SSRİ-nin təhlükəsizliyini təmin etməkdə yetərli deyildir. Yunan səfiri, onun "təminat" deməklə nəyi nəzərdə tutduğunu soraşduqda Vinoqradov cavab verib ki, müharibə zamanında SSRİ-nin təhlükəsizliyi yalnız Boğazlara nəzarətlə təmin oluna bilər və bu, SSRİ-yə Boğazlardakı bazalardan istifadə etməyə imkan verəcək birgə Sovet-Türk nəzarəti ola bilər. R.Rafael buradakı 10 illik təcrübəsinə istinadən türklərin belə bir təklifi heç bir zaman qəbul etməyəcəyinə əminliyini ifadə edib. Sovet səfiri isə buna elə də əmin olmadığı cavabını verib ki, Türkiyə "müəyyən şərtlər" daxilində bununla razılaşa bilər. Rafael bu şərtlərin nə olduğunu soruşub. Lakin Vinoqradov ikimənalı danışıb. Yunan səfiri qeyd edib ki, ABŞ-ın planı Montrö konvensiyası çərçivəsində hazırlanıb. Sovet səfiri cavab verib ki, Potsdamda Üç Böyüklərin razılaşma "əhval-ruhiyyəsi" hələ Konvensiyanın çərçivəsinin saxlanılmasının vacib olduğu və Montrö konvensiyasına əsaslanmadan Boğazlar üçün tamamilə yeni sistemin yaradıla biləcəyi demək deyil. Rafael Sovet hökumətinin öz planını Türkiyə hökumətinə təqdim etmək niyyətində olub-olmadığını soruşub. Vinoqradov cavab verib ki, SSRİ-nin mövqeyi keçən iyun ayında Moskvada Türkiyənin səfirinə və Potsdamda amerikanlara və Britaniyalılara acıqlanıb. Daha sonra

səfir yazırdı: "Yuxarıda söylənilənlərlə bağlı şərh verərkən F.Erkin mənə dedi ki, Vinoqradov "müəyyən şərtlər" deməklə heç şübhəsiz SSRİ ilə ittifaq sazişinin bərpasını nəzərdə tutub. Lakin Türkiyə heç vaxt buna getməz. Bununla belə, əgər Vinoqradovun R.Rafaellə söhbətinin əsas məqsədi türkləri SSRİ hökuməti ilə birgə təşəbbüs göstərməyə həvəsləndirmək olubsa, bu uğur qazanmayacaq. Türkiyə bir qədər öncə SSRİ ilə birgə əlavə təşəbbüs göstərməyin gərəkli olub-olmamasını gözdən keçirib və bunu etməyin səhv hərəkət olacağı qərarına gəlib". E.Vilson sözünə davam edərək bildirirdi: Dünən yunanıstanlı səfir Vinoqradovun səfəri barədə danışmaq üçün özü mənim yanıma gəldi. Onun söylədikləri F.Erkinin mənə danışmış olduqlarını təsdiqlədi. "O, bunlan əlavə etdi: O, Vinoqradovla 6 ay bundan öncəyə kimi tez-tez görüşər və söhbətləşərdilər, lakin sonra Vinoqradov onunla görüşlərini kəsdi. Noyabrın 13-dəki səfər son 6 ay ərzində birinci idi. Aşkar görünürdü ki, Vinoqradov Sovet hökumətinin göstərişi ilə onu görməyə gəlib və məqsəd yalanlar uydurub onların təkrarən Türkiyə hökumətinə çatdırılmasını təmin etmək olub. SSRİ bilir ki, Rafaelin Türkiyə hökumətilə sıx əlaqələri var və onların etiləarını qazanıbdır". Əslində, keçmişdə Vinoqradov bir neçə dəfə SSRİ-nin fikirlərini Türkiyə hökumətinə vasitəli şəkildə çatdırmaq üçün Rafaeldən eynilə istifadə etmişdi. ABŞ-ın Ankaradakı səfiri E.Vilson yuxarıda söylənilənlərdən belə nəticə çıxarırdı:

1. Vinoqradovun noyabrın 2-də ona bildirdiyi və həmin vaxt onun şəxsi mövqeyi kimi təqdim olunan baxışları indi Sovet hökuməti tərəfindən təsdiqlənib.
2. Sovet hökuməti ABŞ-ın planını qəbulolunmaz hesab edir.
3. Sovetlərin öz yeni planını hazırlamaq niyyəti yoxdur, lakin keçən iyunda Moskvada və daha sonra Potsdamda müəyyənləşdirdiyi mövqeyində dayanmaq niyyətindədir.
4. Sovet hökuməti yuxarıda göstərilən 2 və 3-cü bəndləri vasitəli şəkildə Türkiyə hökumətinə çatdırmaq istəyir.
5. SSRİ Boğazlar probleminin Türkiyə ilə qarşılıqlı anlaşma əsasında həllini gözdən keçirir. ABŞ və Britaniya isə məsələnin həllini beynəlxalq əsasda Montrö konvensiyası çərçivəsində görür. Bunun da nəticəsi odur ki, prinsip məsələsində bir tərəfdə SSRİ, digər tərəfdə də ABŞ və Böyük Britaniya olmaqla daha bir fikir ayrılığı meydana çıxıb (120).

Amerika notasına cavab verməzdən əvvəl Türkiyə Xarici İşlər Nazirliyi Britaniyanın notada qaldırılan məsələlərə münasibətini aydınlaşdırmaq məqsədilə Ankaradakı səfir M.Petersonla əlaqə yaratdı. Britaniya Xarici İşlər Nazirliyi belə hesab edirdi ki, məsələni "dondurmaq" lazımdır və Sovetlərlə ziddiyyətlərin artması hesabına mübahisəli məsələlərin siyahısını genişləndirməyə ehtiyac yoxdur. Noyabr ayının 21-də M.Peterson Xarici işlər naziri H.Sakaya bildirdi ki, onun hökuməti Montrö konvensiyasına yenidən baxılmasının zəruriliyi haqqında Birləşmiş Ştatların

nöqteyi-nəzərini bölüşür, lakin bu məsələni təcili hesab etmir (121). Eyni mövqeyi Britaniyanın Moskvadakı səfiri A.Kerr V.Molotova 23 noyabr tarixli məktubunda da təsdiq etdi. Britaniya Xarici İşlər Nazirliyinin yazışmalarından aydın olurdu ki, onlar daha çox 1936-cı il Montrö konvensiyasının dəyişilmədən saxlanmasını arzu edirlər.

Boğazlara dair Amerika təkliflərinə münasibəti Türkiyə ilk olaraq Xarici İşlər Nazirliyinin Baş katibi F.S.Erkin vasitəsi ilə səfir Vilsona çatdırdı. Bu barədə E.Vilson noyabr ayının 12-də Dövlət katibinə yazırdı: "Bu səhər Xarici İşlər İdarəsmin Baş katibi Erkinlə olan söhbət zamanı o, bizim Montrö konvensiyasının təkrar gözdən keçirilməsi ilə bağlı verdiyimiz təklifə toxundu. O, dedi ki, baş nazir və xarici işlər naziri ona Türkiyə hökumətinin bu təklifi almağa çox şad olduğunu və ABŞ hökumətinin Türkiyənin suverenliyini və müstəqilliyini təmin edəcək planın hazırlanmasında aşkar marağını yüksək qiymətləndirdiyini rəsmi olaraq bildirmək səlahiyyətini mənə verib. ABŞ-ın nəzərdə tutulan beynəlxalq konfransda daha ətraflı razılaşdırılmalı olan təklifləri prinsip etibarı ilə Türkiyə üçün əlverişlidir. Türkiyə hökuməti ABŞ-ın konfransda iştirakını vacib hesab edir. Türkiyə hökuməti bizim notamıza geniş cavab verməzdən öncə, Britaniya və Sovet hökumətlərinin fikrini öyrənməyi üstün tutur. Lakin eyni zamanda yuxarıda söylənənləri Türkiyə hökumətinin müvəqqəti cavabı hesab etmək olar".

E.Vilson qeyd edirdi: "Erkin söhbətin davamında söylədiklərinin bizim təkliflərimizin bəzi detalları ilə bağlı onun öz şəxsi fikirləri olduğunu dedi. Birinci bəndə gəldikdə Türkiyə hökuməti sərbəst gediş-gəliş prinsipini tam dəstəkləyir. Bununla belə, savaş dövründə müharibə vəziyyətində olan bir ölkə kimi Türkiyədən onunla müharibə aparan dövlətlərə silah-sursat və avadanlıq aparan və bitərəf dövlətlərə məxsus ticarət gəmilərinin keçməsinə icazə verməsini gözləmək çətin olardı. Bizim ikinci təklifimizlə bağlı isə Erkin söylədi ki, Qara dəniz dövlətlərinə məxsus hərbi gəmilərin istənilən vaxt Boğazlardan keçmək üçün tam sərbəst olması Sovet İttifaqının, məsələn, öz dəniz qüvvələrini İstanbula gözlənilməz hücum üçün Bosfor boğazından keçirməsi ehtimalını yaradır. Çox güman, elə bir formul tapıla bilərdi ki, istənilən vaxt Boğazlardan keçən digər Qara dəniz dövlətlərinin hərbi gəmilərinin tonnajı Türkiyənin Mərmərə dənizində olan donanmasından az olsun. Həmçinin bizim təklifimizin ikinci bəndi ilə bağlı belə bir ehtimal mövcud ola bilər ki, Qara dəniz dövlətləri Aralıq dənizində hər hansı porta hücum etmək üçün öz qoşunlarını Boğazlardan keçirsin və sonra da, qeyri-Qara dəniz dövlətlərinin onları izləyə bilməyəcəyi Boğazlarda sığınacaq tapsın. Lakin bu Türkiyəni deyil, daha çox qeyri-Qara dəniz dövlətlərini narahat edən bir məsələdir.

Təklifimizin üçüncü bəndinə gəldikdə isə, qeyri-Qara dəniz dövlətlərinə aid hərbi gəmilərin Boğazlardan keçidi üçün Qara dəniz döv-

lətlərinin xüsusi icazəsi alınması ilə bağlı prosedur çətinliklərin olacağını proqnozlaşdırmaq olar. Məsələn, 38 səs lehinə, 1 səs əleyhinə; Qərar nə olacaq? Bu yenə də Türkiyəni deyil, əsasən qeyri-Qara dəniz dövlətlərini daha çox narahat edən məsələdir. Və əgər onlar bunda maraqlı olsalar, yəqin ki, bu məsələni nəzərdə tutulan konfransda müzakirəyə çıxaracaqlar. F.Erkin təkrarladı ki, yuxarıda qeyd olunanlar onun şəxsi mövqeyidir" (122).,

Boğazlar məsələsinə dair Britaniyanın müdafiə etdiyi ABŞ təkliflərini diqqətlə araşdırdıqdan sonra Baş nazir Ş.Saracoğlu dekabr ayının 5-də mətbuat konfransı keçirdi. ABŞ notası təqdim edildikdən və xüsusilə onun bəzi məqamlarına Dövlət katibi C.Birns tərəfindən noyabrın 6-da keçirilən mətbuat konfransında aydınlıq gətirildikdən sonra Ş.Saracoğlu Ankarada keçirdiyi mətbuat konfransında Boğazlar məsələsində Türkiyənin mövqeyini əks etdirən bəyanatla çıxış etdi. O, dedi ki, bu məsələ beynəlxalq xarakterli problemdir. Amerika və ingilis nöqteyi-nəzərlərini ifadə etdikdən sonra Saracoğlu qeyd etdi ki, Montrö konvensiyasına yenidən baxılması konvensiyanın özündə nəzərdə tutulub, fəqət məsələ bunda deyil, məsələ ondadır ki, gərək üç maraqlı dövlət öz nöqteyi-nəzərlərini Türkiyə hökumətinə bildirsinlər, bundan sonra Türkiyə hökuməti öz nöqteyi-nəzərini bütövlükdə ortaya qoymaq üçün imkan əldə edə bilər. Bununla Ş.Saracoğlu Türkiyə hakimiyyət dairələrinin narahatlığını ifadə etdi ki, İngiltərə və ABŞ-dan fərqli olaraq Sovet hökuməti indiyə qədər Boğazlar rejiminin gələcəyi haqqında məsələyə dair rəsmi qaydada Türkiyəyə nota təqdim etməmişdir. Mətbuat konfransı zamanı Baş nazir bir çox məsələlərə aydınlıq gətirdi. O, bildirdi ki, Boğazlara dair Amerika notası danışıqlar üçün əsas kimi qəbul edib bilər və Birləşmiş Ştatların Montrö konvensiyasına yenidən baxılmasına dair düzənlənəcək beynəlxalq konfransda iştirakı nəinki faydalıdır, bilavasitə zəruridir (123). Boğazlar məsələsinə dair Amerika təklifləri Türkiyə hökumətinin ürəyindən olmasa da, Sovet təhdidlərinin doğura biləcəyi arzuolunmaz nəticələr fonunda Baş nazir Ş.Saracoğlu bu təkliflərə müsbət münasibətini ifadə etdi. Ankaradakı Sovet səfirliyi SSRİ Xarici İşlər Komissarlığına yazırdı ki, Amerika təklifləri, xüsusilə həmin təkliflərdə, əgər müharibə təhlükəsi ilə üzləşərsə, Türkiyənin Boğazları bütün dövlətlərin hərbi gəmilərinin üzünə bağlamaq hüququnun ləğv edilməsinin nəzərdə tutulması Ankarada xüsusi bir sevinc yaratmayıb (124).

1945-ci ilin payızına doğru müttəfiqlər arasında münasibətlər tədricən soyuyurdu. Müharibədən sonra ABŞ və İngiltərənin iqtisadi siyasəti ilə bağlı İ.Mayskinin V.Molotova noyabr ayının 1-də göndərdiyi "Müharibədən sonra İngiltərənin iqtisadi siyasəti" və "noyabr ayının 14-də göndərdiyi "Müharibədən sonra ABŞ-ın iqtisadi siyasəti" adlı arayışlarda ABŞ və İngiltərənin müharibədən sonrakı iqtisadi siyasəti ilə bağlı gətirilən məlumatlar və proqnozlar Sovetlər üçün elə də ürəkaçan deyildi. Bununla

belə İ.Mayski Şərqi Avropada, o cümlədən Finlandiya, Polşa, Çexoslovakiya, Yuqoslaviya, Rumıniya, Bolqarıstan, Yunanıstan, Türkiyə və Macarıstanda ABŞ-ın iqtisadi maraqlarının elə də böyük olmadığını yazırdı (125).

1945-ci ilin dekabr ayının 16-dan 26-na qədər ABŞ Dövlət katibi C.Birnsin təşəbbüsü ilə Xarici İşlər Nazirlərinin Moskva müşavirəsi Boğazlar məsələsində elə bir dəyişikliyə gətirib çıxarmasa da, tərəflər arasında ziddiyyətlərin dərinləşməsinin, İran və Türkiyəyə münasibətdə qarşıdurmanın güclənməsinin açıq nümayişi idi. Belə bir şəraitdə SSRİ Boğazlar məsələsinə dair yeni təkliflər verməyə tələsmir, öz əvvəlki iddialarını saxlamaqda qərarlı kimi görünür və Türkiyəni hər iki cinahdan sıxmağa üstünlük verirdi. Həmin dövrdə hələ "soyuq müharibə " termini geniş yayılmadığından türk mətbuatı haqlı olaraq Boğazlar və bütövlükdə Türkiyə ilə bağlı baş verənləri "əsəb savaşı" və ya "psixoloji müharibə " kimi xarakterizə edirdi. Artıq Türkiyə ilə bağlı diplomatik yazışmalarda da həmin ifadələrin artdığı diqqəti çəkirdi.

## VI FƏSİL
## Güney Qafqaz respublikaları və Türkiyə: soyuq müharibənin cazibəsində

Artıq əvvəlki fəsillərdən məlum olduğu kimi, SSRİ-nin Boğazlara olan iddiaları Potsdam konfransında müttəfiqlər tərəfindən müdafiə olunmadı. Türkiyənin şərq vilayətlərinə olan ərazi tələbləri isə prezident H.Trümen tərəfindən Sovet İttifaqı ilə Türkiyəyə aid və onların özləri tərəfindən həll edilməli məsələ kimi qiymətləndirildi. Sənəd və materialların təhlili göstərir ki, 1945-ci ilin payızından Sovet-Türk ziddiyyətlərinin növbəti mərhələsi başlandı və bu mərhələnin ağırlıq mərkəzi Cənubi Qafqaz respublikalarının - ilk növbədə isə Ermənistan və Gürcüstan Sovet respublikalarının üzərinə keçirildi. Boğazlar məsələsində Sovetlər tərəfindən 1945-ci ilin payızında elə bir aktivlik müşahidə edilmirdi. Lakin Ermənistan və Gürcüstan respublikaları adından elan olunmuş ərazi tələbləri gözlənilən nəticələri vermədiyindən 1946-cı ilin avqustunda Boğazlar məsələsi yenidən SSRİ-nin siyasətində ön plana keçmişdi. Potsdam konfransının sənədlərində əks olunmasa da Sovet rəhbərliyi konfransın gedişindən belə nəticə çıxarmışdı ki, Türkiyəyə münasibətdə müttəfiqlərlə kompromisə gəlməyin yolu SSRİ-nin Boğazlarda hərbi baza yaratmaq ideyasından imtina edəcəyi təqdirdə müttəfiqlərin Qars və Ərdahanın qaytarılması haqda tələblərə göz yummağa hazır olmalarından keçir (1). Əlbəttə, razılaşmaq olar ki, hadisələrin birinci mərhələsində ərazi tələbləri Boğazlar məsələsində Türkiyəyə təzyiq etmək üçün irəli sürülmüşdü. Lakin hadisələrin sonrakı gedişi göstərdi ki, Türkiyəyə təzyiq kimi irəli sürülmüş ərazi tələbləri 1945-ci ilin payızından başlayaraq artıq Sovet İttifaqının bu ölkəyə münasibətini müəyyənləşdirən başlıca siyasətə çevrilmişdi.

İkinci Dünya müharibəsindəki tarixi qələbə Sovet tələblərinin "doğruluğunu" əsaslandırmaq üçün əsas amil kimi götürülürdü. Bütün qonşu ölkələrlə yanaşı, İ.Stalinin Türkiyəyə qarşı irəli sürdüyü tələblərin əsaslı olması barədə heç bir şübhəsi yox idi. Rus alimləri V.Zubok və K.Pleşakov haqlı olaraq qeyd edirlər: Stalin çox güman ki, Qızıl Ordunun qələbələrindən təsirlənən türklərin onun tələbinə təslim olacağını və sonra Vaşinqton və Londonun bunu bir fakt kimi qəbul edəcəyini gözləyirdi. Bu vaxt Molotovla Stalin arasında kiçik mübahisə mövcud idi. Ömrünün sonuna Yaxın Molotov belə bir qənaətə gəlmişdi ki, 1945-ci ildə Stalin öz imkanlarını həddindən çox şişirdilə və özündən çox arxayın olub. Bununla yanaşı qeyd edilən müəlliflərin belə bir fikri ilə razılaşmaq olmaz ki, Stalin ərazi iddialarını danışıqlar üçün bir bəhanə kimi ortaya atmışdı və

o, bu iddialardan 1946-cı ildə əl çəkdi (2). Nəzərə almaq lazımdır ki Türkiyənin şərq vilayətlərinə qarşı ərazi iddiaları Sovetlərin Şimali İrana yəni İran Azərbaycanına olan tələblərinin məntiqi davamı idi və buna bir tam halında baxmaq lazımdır. Bir-birinə bitişik hər iki ərazini Sovetlərə birləşdirmək ideyası 1945-ci ilin iyun-iyul aylarından başlayaraq rəsmi xarakter almış və praktiki addımlarla müşayiət olunmağa başlamışdı Digər tərəfdən, İ.Stalinin Kominternin İcraiyyə Komitəsinin baş katibi K.Dimitrovla 1940-cı ilin noyabr ayının 25-də olan söhbəti elə də uzaq keçmişin hadisəsi deyildi. Həmin söhbətdə İ.Stalin türkləri Avropadan qovacaqlarından danışmış, Türkiyədə iki milyon gürcü, milyon yarım erməni və bir milyon kürd yaşadığını vurğulamışdı. 1945-ci ilin payızında Ermənistan və Gürcüstan respublikaları rəhbərliyinin Türkiyənin Şərq vilayətləri haqqında Moskvaya göndərdiyi tarixi-etnoqrafik arayışlar İ.Stalinin hələ 1940-cı ildə söylədiyi bu fikri əsaslandırmağa çox bənzəyirdi. Ən nəhayət, İ.Stalinin Türkiyəyə qarşı ərazi tələblərindən 1946-cı ildə əl çəkdiyini söyləmək də əsaslı deyildir. Hadisələri qabaqlayaraq qeyd etmək olar ki, 1947-ci ildən başlayaraq Sovet siyasətində bu məsələ ilə bağlı aktivlik müşahidə edilməsə də, SSRİ rəsmi qaydada ərazi tələblərindən həm öz adından, həm Ermənistan və Gürcüstan Sovet respublikalarının adından yalnız 1953-cü ilin may ayında imtina etdi (3). Həmin vaxta qədər Sovet rəhbərliyi Türkiyə ilə sərhəd dəyişikliyi və ərazi tələblərini həll olunmamış məsələ kimi saxlayırdı. 1948-ci ilin mart ayının 29-da ÜİK(b)P MK-nın Siyasi Bürosunun iclasında Ankaradakı yeni Sovet səfiri A.Lavrişevə iki səhifədən və 9 bənddən ibarət göstərişlərin mətni təsdiq edildi. Siyasi Büronun təsdiqindən sonra SSRİ Xarici İşlər Nazirliyi tərəfindən Türkiyədəki səfirə göndərilən göstərişlərdə qeyd olunurdu ki, Türkiyədəki SSRİ səfirliyi Türkiyə ilə münasibətlərin yaxşılaşdırılmasına yönəlmiş cəhdlərə təşəbbüs göstərməməlidir. Sovet səfirinin və Sovet səfirliyi əməkdaşlarının Türkiyə hakimiyyət nümayəndələri ilə münasibətləri rəsmi münasibətlər çərçivəsindən kənara çıxmamalıdır. Əgər türklər Sovet-Türk sərhədləri haqda məsələyə toxunsalar, cavabı onunla məhdudlaşdırmaq lazımdır ki, bu məsələ tənzim olunmamış qalmaqda davam edir (4).

Nə üçün Sovet rəhbərliyi Türkiyəyə qarşı ərazi iddialarını Ermənistan və Gürcüstan vasitəsi ilə gerçəkləşdirmək istəyirdi? Bu, ilk növbədə eksponsionist olmaq, imperialist adlandırılmaq təhlükəsini özündən uzaqlaşdırmaq, xaricdə yaşayan erməni mühacir təşkilatlarının rəğbətini qazanmaq, onları öz maraq dairəsinə daxil etmək və eyni zamanda erməni mühacir təşkilatlarından öz məqsədləri üçün istifadə etmək niyyətindən irəli gəlirdi. Belə ki, beynəlxalq aləmdə vaxtilə erməniləri müdafiə edən ayrı-ayrı dövlətlər və tanınmış şəxslərin simasında ərazi tələblərinin beynəlxalq təminatını təşkil etmək də bilavasitə Sovet planlarına daxil idi.

1945-ci ilin yayında SSRİ Xarici İşlər Komissarlığı Gürcüstan va Ermənistan Sovet respublikalarının rəhbərlərinə və müvafiq qaydada hər iki respublikanın Xarici İşlər Komissarlığına gizli şəkildə tapşırıq verdi ki, Türkiyənin şərq vilayətlərinin ərazisi, əhalinin milli tərkibi, tarixi və mədəni abidələri barədə zəruri olan məlumatları toplasınlar.

Sovetlərin Türkiyə ilə Ermənistan və Gürcüstan ərazisindən keçən sərhədlərində SSRİ xüsusi xidmət orqanlarının törətdiyi təxribatların sayı gündən-günə çoxalmağa, miqyası isə artmağa başlamışdı. Qeyd edilən ərazilərdə Türkiyə sərhəd məntəqələri tez-tez atəşə tutulurdu. Ermənistanla Türkiyəni birləşdirən Araz çayı üzərindəki körpünün partladılması və avqust ayının 13-də Sovet təyyarələrindən türk əsgərlərinə atəş açılması Sovet xüsusi xidmət orqanları ilə bağlı hadisələr idi. Eyni zamanda SSRİ rəhbərliyinin arzularına uyğun olaraq Sovet Təhlükəsizlik Komissarlığı xaricdə yaşayan ermənilər, onların siyasi təşkilatları, maraq dairələri, Türkiyəyə münasibətləri haqqında ciddi şəkildə maraqlanmağa və zəruri məlumatlar toplamağa başlamışdı.

1945-ci ilin avqustunda Sovet xüsusi xidmət orqanlarının ələ keçirdiyi daşnak partiyasının hazırladığı və yerli təşkilatlarına göndərdiyi "Bizim təbliğatçılar üçün soraq kitabçası" broşurası ermənilərin maraqlarını öyrənmək üçün əhəmiyyətli sənəd hesab edilirdi. Kitabça dərhal rus dilinə tərcümə edildi və SSRİ Dövlət Təhlükəsizlik Komissarlığına göndərildi. Bütöv və müstəqil Ermənistan ideyasının təbliğ edilməsi bu sənədin əsas mahiyyətini təşkil edirdi. Orada göstərilirdi ki, Daşnaksutyun partiyasının başlıca hədəfi Türkiyədir, onun yazılı və şifahi təbliğatı ona qarşı yönəlməlidir. Bu mübarizə erməni ərazilərinin Türkiyədən alınması və müstəqil Ermənistan dövlətinin yaradılması ilə nəticələnməlidir. Buna nail olmaq üçün Daşnak rəhbərliyi təklif edirdi ki, Türkiyəni daxildən dağıtmaq, orada vətəndaş qarşıdurmasını kəskinləşdirmək, iqtisadi həyatı pozmaq, ümumdünya antitürk hərəkatını gücləndirməklə xarici çətinliklər yaratmaq, bir sözlə mümkün olan bütün vasitələrlə Türkiyəyə ziyan vurmaq lazımdır. Kitabçada göstərilirdi ki, antitürk mübarizəsində kürd amili müstəsna yer tutur. Türkiyəyə qarşı mübarizədə kürdlərə təbii müttəfiqləri kimi baxan daşnaklar təklif edirdi ki, bütün vasitələrlə kürd hərəkatını gücləndirmək, heç bir halda antikürd ifadələrə yol verməmək, bununla belə erməni-kürd əməkdaşlığı barədə mətbuatda hər hansı faktlar işıqlandırmamaq lazımdır.

Nəzərə almaq lazımdır ki, Yaxın Şərqdə kürd amili ilə bağlı Sovetlər digər mənbələrdən də məlumatlar almışdılar. 1945-ci ilin avqustunda SSRİ xarici işlər komissarının müavini S.Kavtaradze ilə görüşən İranın Moskvadakı səfiri Məcid Ahi bildirmişdi ki, İran Kürdüstanında Qarışıqlıq yaradılır, əhali qorxudulur, soyğunçuluq və talanların olacağı gözlənilir. Səfir qeyd edirdi ki, İran hökuməti qayda yaratmaq üçün

Mehabad rayonuna ordu hissələri göndərmək istəyir, lakin Sovet qoşunlarının komandanı deyəsən buna razılıq vermir. S.Kavtaradze cavab verdi ki, Mehabada ordu göndərilməsi yeni məsələ deyil. Səfir üç-dörd ay bundan əvvəl də eyni ilə onu həyəcanlandıran bu məsələni qoyub, lakin gözlənilən qarışıqlıq hələ ki, baş verməyib. M.Ahi şikayətlənirdi ki, bütün bunlar ingilislərin işləridir, məhz onlar qara qüvvələri silahlandırır və öz məqsədləri üçün istifadə etmək istəyirlər. S.Kavtaradze soruşdu ki, ingilislərin məqsədi nədir? Səfir bildirdi ki, ingilislər İran, Türkiyə, İraq və özləri üçün Yaxın və Orta Şərq rayonunda daha əlverişli olan digər ərəb ölkələri arasında paz kimi "Kürdüstan" dövləti deyilən bir şey yaratmaq məqsədilə kürdləri üsyana qaldırmaq istəyirlər (5). İran səfiri M.Ahinin məlumatları doğru idi. Lakin həmin vaxt kürd tayfaları içərisində qarışıqlıq yaratmaq, İrana, İraqın Mosuldakı neft rayonlarına və Türkiyəyə qarşı istifadə edilmək üçün "Kürd dövləti" yaratmaq planları Sovetlərə məxsus idi və Mehabadda müşahidə edilən qarışıqlıq da Sovet xüsusi xidmət orqanları tərəfindən yaradılırdı.

Sözü gedən kitabçada həmçinin göstərilirdi ki, Türkiyə ilə yanaşı Gürcüstan və Azərbaycan tərəfindən "ələ keçirilmiş" Axalkələk, Lori, Dağlıq Qarabağ və Şərur-Naxçıvan əraziləri də Ermənistana birləşdirilməlidir. Bunun üçün tövsiyə edilirdi ki, həmin ərazilərin əhalisi içərisində təbliğat işlərini genişləndirmək lazımdır ki, məhz əhali özü bu rayonların Ermənistana birləşdirilməsi məsələsini qaldırsın. Sonra isə sənəddə daxili milli həyatın bəzi məsələləri, Sovet hökumətinə münasibət, xaricə mühacirət etmiş ermənilərin yerləşdirilməsi və s. məsələlər təhlil edilirdi (6).

1945-ci ilin yayından başlayaraq Sovet rəhbərliyinə məktublarında Ermənistan K(b) P MK-nın birinci katibi Q.Arutinov xaricdə yaşayan daşnakları antisovet fəaliyyətlərinə görə pisləsə də, əslində Türkiyəyə və qonşu respublikalara ərazi tələbləri ilə bağlı onun Moskvaya göndərdiyi arayışlarla daşnakların proqramı arasında elə bir prinsipial fərq yox idi.

Əvvəl qeyd olunduğu kimi, Ermənistan Respublikasının rəhbərliyi hələ 1945-ci ilin iyul ayının 6-da Türkiyəyə qarşı ərazi tələbləri ilə bağlı İ.Stalinə və V.Molotova müraciət etmiş, bir sıra "tarixi əsaslandırmaları" Moskvaya göndərmişdilər. Ermənilərin müraciətləri iki istiqamətdə davam edirdi. Bunların birincisi, xaricdə yaşayan ermənilərin vətənə qayıtması və bundan irəli gələn ikinci məsələ, ərazilərin genişləndirilməsi idi. İkinci istiqamət ilk əvvəl Türkiyəyə qarşı, az sonra isə Sovet Azərbaycanına qarşı yönəlmiş tələblərdə əks olunmuşdu. İ.Stalin və L.Beriyanın Sovet dövləti rəhbərliyindəki mövqeyini nəzərə alaraq Ermənistan rəhbərləri və Eçmiədzin başçıları Gürcüstana qarşı olan iddialarını həmin dövrdə qaldırmadılar. Bu proseslər başlandıqda Gürcüstan rəhbərliyi əvvəlcə elə də fəallıq göstərmirdi. Lakin az sonra vəziyyət köklü şəkilds dəyişdi.

SSRİ Xarici İşlər Komissarlığının sorğusuna əsasən avqust ayında əvvəlcə Ermənistan, sonra isə Gürcüstan SSR Xarici İşlər Komissarlıqları ayrı-ayrılıqda Türkiyəyə qarşı öz ərazi tələblərini hazırlayıb geniş məruzə formasında V.Molotova göndərdilər. Hər iki respublikadan alman məruzələr, tarixi-etnoqrafik arayışlar əsasında avqust ayının 18-də SSRİ Xarici İşlər Komissarlığı "Sovet-Türk münasibətlərinə dair" adlı ətraflı arayış hazırladı. Bu arayışın ikinci hissəsi bilavasitə "Zaqafqaziya Sovet respublikalarından Türkiyənin zorla qəsb etdiyi ərazilər haqqında" idi. Arayışda Birinci Dünya müharibəsindən sonra Türkiyə tərəfindən "zorla ələ keçirilmiş erməni və gürcü torpaqları" haqqında məsələ Sovet-Türk münasibətlərində öz həllini gözləyən ciddi məsələ kimi şərh olunurdu. Sonra arayışda 1918-ci ildə Zaqafqaziyada cərəyan edən hadisələr təsvir edilir, türklərin Bakını "tutmasına" toxunulur və Lərest sülhü ləğv edildikdən sonra onların ələ keçirdiyi əraziləri geri qaytarmamasından söhbət açılırdı. 1921-ci ilin 16 martında Sovet Rusiyası ilə Türkiyə arasında imzalanmış müqaviləyə toxunularaq sənəddə qeyd edilirdi ki, Sovet Rusiyasının çətin iqtisadi və beynəlxalq vəziyyətindən istifadə edən Türkiyə 1921-ci il müqaviləsi ilə ərazi məsələsinin öz xeyrinə həll olunmasına nail oldu, Batum dairəsmin cənub hissəsini, Qars vilayətini və İrəvan quberniyasının Sürməli qəzasını Rusiyadan zorla qopardı. Sənəddə birinci iki ərazinin 1878-ci ildə Rusiyaya keçənə qədər Türkiyəyə, Sürməli qəzasının isə qəribə də olsa İrana məxsus olduğu göstərilirdi. Arayışda daha əvvəlki dövrlərə istinadən bu torpaqların qədim erməni və gürcü əraziləri olduğu, lakin tarixin sonrakı mərhələsində onların Türkiyənin əsarətinə düşdüyü qeyd edilirdi. Bütün bunlara istinadən arayışda göstərilirdi ki, söhbət Rusiyanın tutduğu torpaqlardan deyil, vaxtilə Türkiyə ağalığı altında olmuş və sonra Sovet Rusiyasının zəif olduğu dövrdə yenidən türklər tərəfindən ələ keçirilmiş erməni və gürcü torpaqlarından gedir. SSRİ Xarici İşlər Komissarlığı belə hesab edirdi ki, müharibə dən sonra Avropa tənzim olunmamış ərazilər barədə çoxlu söz-söhbət eşidilə, çox güman ki, bunların heç biri erməni və gürcü torpaqları qədər aydın və mübahisəsiz deyildir. Arayışda qeyd olunurdu ki, türklərin bu torpaqları işğal etməsi Gürcüstan, xüsusilə Ermənistan SSR-in bilavasitə ərazi maraqlarını ciddi şəkildə pozmuş, onların strateji təhlükəsizliyini əsaslı şəkildə zəiflətmişdir. SSRİ Xarici İşlər Komissarlığında hazırlanmış sənəddə türklər tərəfindən "işğal olunmuş" ərazilərin ümumi sahəsinin 26.000 kv.km. olduğu bildirilir, bunun 20.500 kv.km. Ermənistan Respublikasının, 5500 kv.km.-in isə Gürcüstan Respublikasının ərazisi olduğu göstərilirdi. Komissarlığın hesablamalarına görə həmin torpaqlar Ermənistan SSR-in ərazisinin 80 faizi, Gürcüstan SSR-in ərazisinin isə 8 faizi qədər idi. Arayışda yazılırdı: "Müasir dövlətlər içərisində Ermənistan yeganə ölkədir ki, onun hüdudlarında həmin xalqın yalnız azlığı

yaşayır. Onun torpaqlarında yaşayan cəmisi 1 milyon erməni, erməni xalqının kiçik hissəsini təşkil edir. Bir milyondan çox, o cümlədən Türkiyədən qaçmış yarım milyona qədər erməni Sovet İttifaqının hüdudlarından kənarda yaşayır. Belə uyğunsuzluq ilk növbədə erməni xalqının qədim mədəniyyətinin beşiyi olan köhnə torpaqlarının xeyli hissəsinin yadların əlində olması ilə bağlıdır". Hələ 1945-ci ilin avqust ayında hazırlanmış sənəddə göstərilirdi ki, Sovet İttifaqının Almaniya üzərində böyük qələləəsindən sonra bütün dünyaya, o cümlədən Amerikaya, Yaxın və Orta Şərq ölkələrinə yayılmış ermənilər arasında vətənə, Sovet Ermənistanının hüdudlarına dönmak arzusu əhəmiyyətli dərəcədə artmaqdadır. Lakin indiki Sovet Ermənistanı xarici erməniləri yerləşdirmək üçün müstəsna dərəcədə məhdud imkanlara malikdir. Onun daşlıq və susuz ərazisinin böyük hissəsi becərmə üçün yararsızdır. İstifadəyə yararlı olan sahələr Erməniştanın ərazisinin yalnız altıda bir hissəsini təşkil edir. Arayışda qeyd edilirdi ki, Türkiyədə Ermənistandan alınmış torpaqlardan səmərəli istifadə olunmur, böyük sahələr əkilmir, otlaqlar və biçənəklər boş-boşuna qalır. Əhalinin sıxlığının Sovet Ermənistanında hər kv.km.-ə 43 nəfər düşdüyü halda, "Türkiyə tərəfindən qəsb edilmiş erməni torpaqlarında" 3-4 nəfər olduğu göstərilirdi. Daha sonra arayışda XIX əsrin sonunda Türkiyədə 2,5-3 milyon ermənінin yaşadığı, 1894-1896-cı illərdə Sultan Əlıdül Həmid, 1915-1916-cı illərdə isə gənc türklər tərəfindən bir milyon ermənінin qırıldığı, bir milyon ermənінin isə müxtəlif ölkələrə qaçdığı, belə qırğınların 1918-ci ildə də türklər tərəfindən təşkil olunduğu göstərilirdi. Bütün bunlardan sonra arayışda belə nəticəyə gəlinirdi ki, bu ərazilərin onların qanuni sahibi olan erməni və gürcülərə qaytarılmasından başqa heç bir ağıllı dəlil gətirmək mümkün deyildir. Orada yazılırdı: "bunu ədalət tələb edir, bunu bütün Sovet İttifaqı xalqları ilə birlikdə Avropa mədəniyyətini faşist vəhşilərindən xilas etmək işinə öz töhfəsini vermiş Zaqafqaziya xalqlarının qanuni hüquqları tələb edir. Güman etmək olar ki, kimlər üçün xalqların hüququ boş sözlər deyildir, onlar bütün vasitələrlə Sovet İttifaqının bu ədalətli tələbini müdafiə etməlidirlər". SSRİ Xarici İşlər Komissarlığı Birləşmiş Millətlərin Hitler Almaniyası üzərində qalibiyyətli müharibəsindən sonra yaranmış yeni şəraitdə Sovet-Türkiyə münasibətlərinin sonrakı inkişafının ancaq bu məsələlərin tənzim edilməsindən asılı olduğunu bildirirdi və əlavə edirdi ki, məsələnin belə həlli həm Sovet İttifaqının, həm də Türkiyənin maraqlarına cavab verir. Arayışın sonunda deyilirdi: bu problemin uğurlu həlli hələ bulanıq suda balıq tutmaq adətindən əl çəkə bilməyən, həll olunmamış məsələlərlə qonşu xalqlar arasında münasibətləri gərginləşdirən beynəlxalq dairələri məyus edəcəkdir. Ən nəhayət, arayış bu sualla başa çatırdı: "Məgər Türkiyənin xarici siyasətinin daha müstəqil kurs yeritmək mərhələsinə daxil olmasının vaxtı çatmayıbmı? (7).

Bu sənəd əsasında SSRİ xarici işlər komissarının müavini S.Kavtaradze Türkiyədən geri qaytarılacaq ərazilərin iki respublika arasında bölüşdürülməsi haqqında V.Molotovun adına geniş arayış hazırladı. S.Kavtaradzenin imzaladığı arayışdan da məlum olur ki, Türkiyənin Sovet İttifaqına qaytarması nəzərdə tutulan ərazilərin sahəsi 26 min kvadrat kilometrdir. S.Kavtaradze təklif edirdi ki, bunun 20.500 kv.km Ermənistan SSR, 5.500 kv.km isə Gürcüstan SSR-in tərkiləinə qatılmalıdır. Maraqlıdır ki, Gürcüstan SSR Xarici İşlər Komissarlığının Moskvaya göndərdiyi məruzədə iddia etdikləri keçmiş Batum dairəsmin cənub hissəsi, Artvin, Ərdahan və Oltı dairələrindən son ikisinin S.Kavtaradzenin arayışında Ermənistana verilməsi nəzərdə tutulmuşdu.

Hələ alınmamış torpaqların bu bölgüsü və ümumən məsələnin belə qoyuluşu Gürcüstan rəhbərliyini ciddi şəkildə narahat etməyə başladı. Gürcüstan K(b) P MK-nın birinci katibi K.Çarkviani yaranmış vəziyyəti Gürcüstan rəhbərliyində müzakirə etdi və elmi idarələrə tapşırıq verildi ki, keçmiş Batum dairəsmin cənub hissəsinin, Artvin, Ərdahan və Oltı dairələrinin bütövlükdə gürcülərə məxsus olması haqqında geniş tarixi-etnoqrafik, coğrafi arayışlar hazırlasınlar. K.Çarkviani ilə danışdıqdan sonra Gürcüstan SSR Xarici İşlər Komissarı Q.Kiknadze ilk olaraq L.Beriyaya məktubla müraciət etdi və 1945-ci ilin sentyabr ayının əvvəllərində Moskvaya yollandı.

L.Beriyaya müraciətində Q.Kiknadze yazırdı: "13 oktyabr 1921-ci ildə Zaqafqaziya Sovet respublikaları ilə Türkiyə arasında dostluq haqqında müqavilə imzalandı. Bu müqavilə və buna uyğun olaraq bir tərəfdən RSFSR və Ukrayna SSR, digər tərəfdən Türkiyə olmaqla imzalanan digər müqavilələr məlum olduğu kimi gənc Sovet respublikası üçün ağır illərdə imzalanmışdı. Q.Kiknadzenin məktubunda toxunulan "gənc sovet respublikasının zəifliyi" fikri V.Molotovun S.Sarperlə danışıqlarında, V.Molotov və İ.Stalinin Potsdam konfransındakı çıxışlarında geniş hallandırılmışdı və görünür, bu ideya da oradan gəlirdi. Sonra Q.Kiknadze qeyd edirdi: 13 oktyabr 1921-ci il müqaviləsinə görə, müharibədən yayınmaq üçün Sovet respublikaları məcbur oldular ki, Türkiyənin əsassız iddiaları əsasında artıq həmin dövrdə Türkiyə tərəfindən işğal olunmuş ərazilərinin bir hissəsini ona güzəştə getsinlər. Beləliklə, keçmiş Batum dairəsmin cənub hissəsi, keçmiş Artvin, Ərdahan və Oltı dairələri bütövlükdə Gürcüstandan zorla qopardıldı (8). Qəribədir ki, indi həm Moskvada, həm Tbilisidə, həm də Yerevanda hər kəs 1918-1920-ci illərin hadisələrini çox asanlıqla unutmuşlar. 1918-ci ildə Gürcüstan və Ermənistan birlikdə, 1920-ci ildə isə Ermənistan ayrılıqda Türkiyəyə müharibə elan etmişdi. Lakin müharibədən iki ay sonra daşnak Ermənistanı tam məğlubiyyətə uğramış, 19 sentyabrda Kazım Karabəkirin ordusu Sarıkamışı, 30 oktyabrda Qarsı, 7 noyabrda isə Gümrünü azad edib

Batuma yetişmişdi. Dekabr ayının 2-də tərəflər arasında Gümrü müqaviləsi imzalanmışdı. Həmin dövrdə baş verən hadisələrlə bağlı İ.Stalin yazırdı: "Daşnak Ermənistanı şübhəsiz ki, onu Türkiyənin üstünə qışqırdan, sonra isə onu türklərin caynağında qoyub aradan çıxan Antantanın təxribatının qurbanı kimi məğlub oldu" (9). Məlum olduğu kimi, Türkiyə ilə Ermənistan və digər Cənubi Qafqaz respublikaları arasında ədalətli sərhədləri bərqərar edən 13 oktyabr müqaviləsinin hazırlanmasında Sovet Rusiyası vasitəçilik missiyasını öz üzərinə götürmüşdü.

Q.Kiknadze L.Beriyaya məktubunda müharibə dövründə Türkiyənin tutduğu mövqeyə də toxunurdu. O yazırdı: "Faşist Almaniyasına qarşı Sovet İttifaqının Vətən müharibəsi dövründə Türkiyə 13.X.1921-ci il müqaviləsinin aydın ifadə olunmuş əsas prinsiplərini və qərarlarını pozmuşdur". Bundan əlavə, Q.Kiknadze Türkiyəni öz ərazisində "pantürkist" cəmiyyətlərin antisovet fəaliyyətinə şərait yaratmaqda və onu Krımı, Qafqazı və SSRİ-nin digər ərazilərini zorla ələ keçirməklə guya "Böyük Türkiyə" yaratmaq vəzifəsini qarşısında qoymaqda günahlandırırdı. Bütün bunları nəzərə alaraq Q.Kiknadze belə hesab edirdi ki, guya Türkiyə birtərəfli qaydada Sovet İttifaqı ilə olan müqaviləni dayandırdığından Sovet tərəfi bu müqaviləni ləğv edib tarixi torpaqlarını Zaqafqaziya respublikalarına qaytara bilər. Q.Kiknadze Beriyaya göndərdiyi məktubda S.Kavtaradzenin arayışında keçmiş Ərdahan və Oltı dairələrinin Ermənistanın tərkibinə verilməsinə etirazını bildirirdi. Həmin məktubda Q.Kiknadze L.Beriyaya yazırdı ki, Türkiyədən alınması nəzərdə tutulan torpaqların 12.760 kv.km. Gürcüstana, 13.190 kv.km isə Ermənistana verilməlidir. O, bu məsələni Gürcüstan kommunist partiyasının katibi K.N.Çarkviani ilə razılaşdırdığını bildirirdi (10). Göründüyü kimi, Sovetlər Birliyinin iki cənub respublikası Türkiyədən ərazi tələblərinə o qədər real və həll edilmiş məsələ kimi baxırdılar ki, hətta həmin torpaqların bölüşdürülməsi uğrunda öz aralarında gərgin mübarizəyə başlamışdılar.

1945-ci ilin 4 sentyabrında Q.Kiknadze tərəfindən V.Molotov, L.Beriya, A.Vışinski, V.Dekanozov və Xarici İşlər Komissarlığının Yaxın Şərq şöbəsinin müdiri İ.Samılovskiyə təqdim edilən "Türkiyə tərkibinə daxil edilmiş gürcü əraziləri haqqında məsələyə dair" arayış 7 bənddən ibarət idi. Bu sənədin birinci bəndində 1921-ci ildə Türkiyə ilə Rusiya Federasiyası arasında imzalanmış 16 mart müqaviləsinin və Cənubi Qafqaz respublikaları ilə imzalanmış 13 oktyabr müqaviləsinin guya məcburiyyət ucbatından bağlandığı, Sovet Zaqafqaziyasında Batum dairəsmin cənub hissəsinin, Artvin, Ərdahan, Oltı, Qars, Kaqızman dairələrinin və İrəvan quberniyasının Sürməli qəzasının Türkiyə tərəfindən işğal edildiyi bildirilirdi.

Arayışın ikinci bəndində Vətən müharibəsi (1941-1945) dövründə guya Türkiyənin bu müqavilələri pozduğu, öz ərazisində Krımı, Qafqazı

SSRİ-dən qopartmaq hesabına "Böyük Türkiyə" yaratmaq üçün mübarizə aparan "pantürkist" cəmiyyətlərin fəaliyyətinə icazə verdiyi göstərilir və bununla dostluq müqaviləsini birtərəfli qaydada dayandırdığı qeyd edilirdi.

Q.Kiknadze üçüncü bənddə yazırdı ki, sərhədlərin 1878-1918-ci illər hüdudlarında bərpası gedişində Gürcüstan SSR ümumi sahəsi 12.760 kv.km olan keçmiş Batum dairəsmin cənub hissəsinə, keçmiş Artvin, Ərdahan və Oltı dairələrinə iddialıdır. Əlbəttə, Gürcüstanın ərazi tələbləri bununla bitmir, sonrakı iki maddədə Cənub-Qərbi Mesxetiyanın (Parxal, Tortom, İspir vilayətləri) və Lazıstanın da (Rize və Trabzon vilayətləri) Gürcüstana birləşdirilməsi "əsaslandırılırdı". Q.Kiknadze yazırdı: Gürcüboğaz və Bayburt vilayətlərində türklər gürcü əhalisini tamamilə türkləşdiriləlváltoz. Eyni sözü Lazıstan haqqında da demək olar. O, təklif edirdi ki, əgər Lazıstanı qaytarmaq mümkün olmasa, ora muxtariyyət verilməlidir. Onun fikrincə, Cənub-Qərbi Mesxetiyanın və Lazıstanın Gürcüstana qaytarılması Gürcüstanın cənub sərhədlərinin, ilk növbədə isə Qara dənizdə Batum limanının təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayırdı. Yeddinci maddədə yuxarıda göstərilən iddiaları inandırıcı etmək məqsədilə arayışa tarixi oçerk, xəritə və s. əlavə -" tarixi arayış 14 səhifədən ibarət idi. Gürcüstan prezidentinin arxivində qəti məxfi qrifi altında saxlanılan bu arayışın təhlili göstərir ki, həmin sənəd Gürcüstan rəhbərliyinin tapşırığı ilə akademik S.Canaşiya tərəfindən hazırlanıb. Arayışın tarixi hissəsinin mətni az sonra mətbuatda dərc edilən "Gürcü akademiklərinin məktubu" ilə demək olar ki, eynidir. Həmin məktubun müəlliflərindən birincisi məhz S.Canaşiya idi (12). Arayışın sonuna əlavə edilmiş 2 səhifəlik əlavədə isə Türkiyə ilə Gürcüstan SSR arasında sərhədlərin hansı ərazilərdən və yaşayış məntəqələrindən keçəcəyi təsvir edilirdi.

Tarixi arayışda Batum vilayətinin ərazisinin 6.975 kv.km olduğu və 1921-ci il müqaviləsinə görə, bunun 2799 kv.km Gürcüstanda qaldığı 4176 kv-km-nin Türkiyəyə keçdiyi və 1897-ci il əhali sayımına görə burada 63.200 nəfər, o cümlədən 53,900 gürcü, 8.000 erməni, 1.000 rus, 300 nəfər digər xalqların nümayəndələrinin yaşadığı qeyd edilirdi (13). Çox qəribədir ki, bu arayışdan və istinad edilən əhali sayımından belə çıxırdı ki, Batumda ümumiyyətlə, türk əhalisi olmayıb. Düzdür, arayışda qeyd edilirdi ki, Batumdakı gürcü əhalisinin 2000 nəfəri lazlar, qalanı isə gürcü açarlarıdır. Halbuki qeyd edilən dövrdə açarların türk-müsəlmanlar olduğu heç kəsdə şübhə yaratmırdı.

Ərdahan və Oltı haqqında tarixi arayışda daha maraqlı məlumatlar verilir və bu dairələrin ərazisinin 8.588 kv.km, əhalisinin isə 96.120 nəfər olduğu göstərilir. Lakin burada 1897-ci il əhali sayımının materiallarını

saxtalaşdıraraq arayış müəllifləri 47.766 nəfər türk əhalisinin gürcü mənşəli müsəlmanlar, qədim gürcülər kimi verməkdən çəkinməmişdilər. Daha sonra isə bu dairələrdə 12.402 nəfər türkmən və qarapapaqların, 16.070 nəfər kürdün, 10.543 nəfər yunanın, 5.043 nəfər erməninin, 3.495 rusun, 801 nəfər digər millətlərin nümayəndələrinin yaşadığı göstərilirdi. Ərdahan və Oltının guya mübahisəsiz olaraq Gürcüstana məxsus olduğunu təsdiq edən mənbə kimi tarixi arayışda "Dəftəri müffəsəl əyaləti Gürcüstan"dan söhbət açılırdı. Bu vilayətlərdə türklərin olmadığını sübut etmək üçün türk əhalisi qəsdən qədim gürcü, türkmən, qarapapaq və kürd adı altında verilirdi. S.Çikiya tərəfindən hazırlanan Gürcüstan dəftərinin yeni nəşrində köhnə yer adlarının xeyli hissəsi dəyişdirilmiş, bir qayda olaraq gürcüləşdirilmişdi.

Arayışda qeyd olunurdu ki, Ərdahan və Oltı dairələri Yuxarı Gürcüstan hesab edilən Mesxeti vilayətinin bir hissəsi olub. Lakin Mesxeti türklərinin 1944-cü ilin noyabrında öz dədə-baba yurdlarından sürgün edilməsi məsələsinin üstündən demək olar ki, sükutla keçilirdi.

Mesxeti vilayətinin Gürcüstan üçün əhəmiyyəti "əsaslandırıldıqdan" sonra onun hüdudları müəyyənləşdirilirdi və göstərilirdi ki, bu vilayət Kür çayı hövzəsinin bütün yuxarı hissəsini, Çorox çayının bütün hövzəsini "Gürcü-boğaz" aşırımına qədər əhatə edir. Sonra isə əlavə edilirdi ki, guya XVI əsrdə türklər Mesxeti vilayətini işğal etsələr də, yalnız XVII əsrdə orada öz ağalıqlarını qura biliblər. Guya yalnız həmin dövrdən vilayətin əhalisini zor gücünə islamlaşdırmağa və türkləşdirməyə başlayıblar və guya islamı qəbul etməyən yerli əhali Gürcüstanın mərkəzi rayonlarına qaçmalı olmuşdur. Arayışda sübut etməyə cəhd göstərilirdi ki, guya gürcü əhalisi arasında islamın yayılması tədricən türk dilinin yayılmasına gətirib çıxarmışdır. Həmçinin arayışda göstərilirdi ki, guya Ərdahan və Oltı əhalisinin əksəriyyəti dil baxımından türkləşdirilsə də, onlar indiyə qədər öz gürcü mənşələrini unutmayıblar və özlərini qədim gürcülər adlandırırlar. Bütün bu əsaslandırmalarda əsas mənbə kimi XVI əsrdə tərtib edilmiş "Dəftəri müffəsəl Əyaləti Gürcüstan"a istinad edilirdi (14). Hətta 1945-ci ilin sentyabr ayının əvvəllərində Q.Kiknadze Moskvaya gedərkən bu mənbəni və 1878-1918-ci illərdə Ərdahan və Oltı dairələrinin təsvirini özündə əks etdirən "Ərdahan və Oltı dairələrində arxeoloji səyahət" adlı kitabı özü ilə götürmüş və hər iki mənbəni qeyd edilən arayışlarla birlikdə L.Beriyaya vermişdi (15). S.Beriya son vaxtlar nəşr olunmuş xatirələrində atası L.Beriyanın bu işlərdə fəal iştirakını təsdiq edir. O yazır: "Atam tez-tez mənə türklər tərəfindən işğal olunmuş gürcü əraziləri haqqında danışırdı və məndə belə bir təəssürat yaranmışdı ki, türklərin işğal etdiyi rayonlarda yaşayan minqrellərin taleyi onun üçün əhəmiyyətsiz deyildir" (16). L.Beriyanın bu işdə aktiv iştirakını sonralar N.Xruşov da bir neçə dəfə xatırlatmışdı (17).

"Türkiyə tərəfindən qəsb edilmiş gürcü vilayətləri haqqında" arayışda qeyd edilən bölgələrdə əhalinin milli-etnik tərkibi haqqında verilən məlumatlar həqiqətə uyğun deyildi. Üstündən 25 ildən bir qədər artıq vaxt keçdikdən sonra həmin rəqəmlərə əl gəzdirildiyi açıq-aydın hiss edilirdi. 1877-1878-ci il rus-türk müharibəsindən sonrakı 40 il müddətində Rusiyanın tərkibinə daxil edilmiş Qars, Batum və Ərdahanda əhalinin milli-etnik tərkibini dəyişməyə ciddi cəhdlər olsa da, türk əhalisi bölgədə əhalinin mütləq çoxluğunu təşkil edirdi. Məhz bunu nəzərə alaraq Türkiyə Lərest müqaviləsinə əsasən bölgədə plebsit keçirilməsinə razı olmuşdu. Çünki istər XIX əsrin sonu və istərsə də XX əsrin əvvəllərindəki əhali sayımlarının nəticələri Qars, Batum və Ərdahanda türk əhalisinin çoxluq təşkil etdiyini göstərir. Bu dövrdə Cənub-Qərbi Qafqazda yaşayan 730 min əhalinin 56,3 faizi türk, 26 faizi erməni, 3 faizi gürcü, 15 faizi isə rus, qaraçı, yunan və digər xalqların nümayəndəsi idi. Ayrı-ayrı vilayətlərə gəldikdə isə Batumun əhalisinin 70 faizi türk, 12,5 faizi erməni, 7 faizi gürcü, Qarsın əhalisinin 49,5 faizi türk, 29 faizi erməni, 0,3 faizi gürcü, 19,3 faizi rus, Axalsixin əhalisinin 75,1 faizi türk, 14,1 faizi erməni, 10,5 faizi gürcü idi (18). Bütün bu məlumatlar 1919-cu ildə keçirilən Versal Sülh Konfransına təqdim edilmişdi və həmin məlumatlar əlaqadar tərəflərdə elə bir ciddi etiraz doğurmamışdı.

Qeyd etmək lazımdır ki, V.Molotov və İ.Stalin tərəfindən rəsmən adları çəkilən vilayətlərdən başqa Gürcüstan rəhbərliyinin Moskvaya təqdim etdikləri arayışlarda Qərbi Mesxetiya və Lazıstan haqqında da çox geniş məlumatlar var idi. Əgər arayışın birinci hissəsi 1918-1921-ci illərə aid olan Batumun cənub hissəsi, Ərdahan və Oltı vilayətlərini əhatə edirdisə, ikinci hissəsi XVI əsrdə guya türklər tərəfindən ələ keçirilmiş Qərbi Mesxetiya və Lazıstanın Gürcüstana məxsusluğunu "sübuta" yetirirdi. Arayışda Qərbi Mesxetiya 5 rayona bölünürdü. Bunlar Parxal, Tortom, İspir, Bayburt və Gürcü-Boğaz rayonlarından ibarət idi. Gürcü-Boğaz və Bayburtun daha çox türkləşdirildiyini və artıq bu rayonlarda gürcü əhalisinin qalmadığını arayış müəllifləri özləri də etiraf edirdilər. Ona görə də arayışda belə hesab edilirdi ki, bu iki rayona ərazi iddiaları irəli sürməkdən imtina etmək Gürcüstan SSR-in ərazi bütövlüyünü pozmur. Lakin ərazisi 9,500 kv.km olan Parxal, Tortom və İspir rayonlarını tələb etmək, Gürcüstanın cənub sərhədlərini bu rayonlardan müəyyənləşdirmək arayışda zəruri bir məsələ kimi irəli sürülürdü.

Arayışın sonuncu bölməsi Lazıstan və ya orada deyildiyi kimi, Çanetiya ilə bağlı idi. Lazıstanın ərazisi Batumun sərhədlərindən götürülür və Qara dəniz sahilləri boyunca Terme şəhərinə qədər gedib çıxırdı. Bu təxminən 20 min kv.km-lik bir ərazi idi. Bura Rize, Trabzon, Fici və Pener burunlarına qədər uzanıb gedən geniş ərazilər daxil idi. Trabzon L.Beriyanın mənsub olduğu minqrellərin şəhəri kimi xarakterizə olu-

nurdu. Orta əsrlər dövründə Bizansla olan müharibələr, XI-XIII əsrlərdə bu ərazilərdə cərəyan edən hadisələr arayışda geniş təsvir edilirdi.

Nəhayət, geniş tarixi arayışda belə nəticəyə gəlinirdi ki, Gürcüstan SSR-in keçmiş Batum dairəsmin cənub hissəsi və keçmiş Artvin, Ərdahan və Oltı dairələri ilə yanaşı, Parxal, Tortom, İspir, Rize və Trabzon vilayətlərinə olan hüquqlarını da itirilmiş hesab etmək olmaz (19).

Sentyabr ayının əvvəllərində Sovet rəhbərliyinə təqdim edilmiş belə gizli arayışlardan Türkiyə siyasi dairələrinin məlumatı olmasa da, iyun ayında aparılmış Molotov-Sarper danışıqları, Potsdam konfransında İ.Stalin və V.Molotovun Türkiyəyə qarşı irəli sürdüyü iddialardan Sovetlərin niyyəti artıq bəlli idi. Ərazi iddialarının kimin adından - Ermənistan və Gürcüstanın, yaxud Sovet İttifaqının adından irəli sürülməsinin Türkiyə üçün elə də fərqi yox idi. Bütün bu məsələləri müşahidə edən Türkiyə hökuməti sentyabr ayının ilk günlərində ona qarşı yönəlmiş iddialara öz münasibətini açıqladı. Baş nazir Ş.Saracoğlu sentyabr ayının 5-də keçirilən jurnalistlərin aylıq müşavirəsində bildirdi ki, əvvəlki hökumətlər kimi, bizim indiki hökumətimiz də bütün ölkələrlə, xüsusilə qonşu ölkələrlə sıx dostluq münasibətləri yaratmağa cəhd edir. Bu istiqamətdə arzu olunan nəticələrə gəlmək üçün belə cəhdlərin qarşılıqlı və hər hansı alverdən uzaq olması gərəkdir. Biz heç kəsdən heç nə istəmirik, lakin heç kəsə də heç nə verə bilmərik (20).

Moskvadan qayıtdıqdan sonra Gürcüstan SSR xarici işlər komissarı Q.Kiknadze respublika partiya təşkilatının rəhbəri K.Çarkvianiyə məruzəsində yuxarıda qeyd edilən hər iki arayışın V.Molotov və L.Beriyaya təqdim edildiyini, əlavə olaraq həmin arayışların SSRİ xarici işlər komissarının müavinləri A.Vışinski və V.Dekanozova, habelə komissarlığın Yaxın Şərq şöbəsinin müdiri İ.Samılovskiyə göndərildiyini bildirirdi. Eyni zamanda Q.Kiknadze qeyd edirdi ki, İ.Stalin adına Tbilisi Dövlət Universitetində Şərqşünaslıq fakültəsinin açılması haqqında S.Kaftanova, İrandakı gürcü əhalisi məsələsi ilə bağlı V.Molotova müraciət edilmişdir (21).

İranda yaşayan gürcü əhalisi ilə bağlı Gürcüstan SSR xarici işlər komissarının V.Molotova müraciəti İran Azərbaycanında başlanan hadisələrdən sonra gündəliyə gəlmişdi. İmkan daxilində həm Ermənistan, həm də Gürcüstan Cənubi Azərbaycandakı proseslərdən öz maraqlarına uyğun yararlanmağa çalışırdılar. Q.Kiknadze V.Molotova yazırdı ki, İran ərazisində olan gürcü əhalisi XVI-XVII əsrlərdə iranlıların yürüşləri zamanı Gürcüstandan sürülüb aparılmışdır. O, təkcə Şah Abbasın 1614-1616-cı illərdəki yürüşləri zamanı Gürcüstandan 100 min gürcü aparıldığını yazırdı. Q.Kiknadzenin təbirincə, Gürcüstandan aparılan əhalinin müəyyən bir hissəsi İsfahan Yaxınlığındakı Fareydan rayonunda məskunlaşdığından onlara Fareydan gürcüləri deyilirdi. Fareydan gürcülərinin demək olar ki, bütövlükdə savadsızlığını, sosial hüquqlardan məhrum

olduğunu və İranın yerli hakimiyyət dairələrinin ağır təzyiqlərinə məruz qaldığını əsas tutaraq Gürcüstan Xarici İşlər Komissarlığı təklif edirdi ki, Gürcüstan SSR bu əhaliyə hər cür yardım göstərməyə, ilk növbədə isə Fareydan gürcüləri yaşayan ərazidə vəziyyəti öyrənmək üçün ora həkim, pedaqoq, tarixçi və dilçilərdən ibarət ekspedisiya göndərməyə hazır olduğunu bildirirdi. Eyni zamanda Q.Kiknadzenin fikrincə, İrandakı gürcü əhalisi haqqında daimi məlumat almaq üçün SSRİ-nin İsfahandakı konsulluğunda ya vitse-konsul, ya da konsulluğun birinci katibi yeri Gürcüstan Xarici İşlər Komissarlığına verilməsi məqsədəuyğun olardı (22). Gürcüstan Xarici İşlər Komissarlığının qaldırdığı ikinci məsələ reallaşdı, Fareydan gürcüləri içərisində xüsusi iş aparmaq üçün SSRİ-nin İsfahandakı konsulluğunun katibi vəzifəsi Gürcüstan XİK-nin əməkdaşına verildi. 1946-cı ilin oktyabrında Gürcüstan Xarici İşlər Nazirliyi Fareydan gürcüləri üçün radio verilişlərinə icazə verilməsi məqsədilə SSRİ Xarici İşlər Nazirliyinə müraciət etdi. Xarici işlər nazirinin müavini V.Dekanozov noyabr ayının əvvəllərində Q.Kiknadzeyə məktubunda bu məsələyə öz razılığını bildirdi və hazırlıq işlərinə başlamağı tövsiyə etdi. Eyni zamanda burada söhbət həm də Türkiyəyə qarşı radio verilişlərinin yayımlanmasından gedirdi (23). Tbilisi ilə Moskva arasında yazışmalardan hiss olunur ki, Sovetlər Fareydan gürcülərindən siyasi məqsədlər üçün istifadə etməyi nəzərdə tuturdu. Doğrudan da, Sovetlərin İran Azərbaycanında planları iflasa uğradıqda və neft konsessiyası məsələsi İran məclisi tərəfindən rədd edildikdə, Gürcüstan rəhbərliyi Moskvadan gürcü fareydanları ilə yerlərdə birbaşa əlaqələr yaratmağın zəruriliyi barədə siqnal aldı (24).

Lakin nəzərə almaq lazımdır ki, gürcü fareydanların məsələsi Moskva üçün İran hakimiyyət dairələrinə təzyiq etməkdə lazım olduğu qədər Tbilisi üçün elə də prioritet məsələ deyildi. Soyuq müharibənin başlanğıcında Gürcüstanın əsas diqqəti Türkiyədən Sovet İttifaqının tələbləri səviyyəsində elan olunmuş ərazilərdən daha çox pay almağa yönəlmişdi. Gürcüstan Prezidentinin arxivindəki sənədlərin araşdırması təsdiq edir ki, bu işin əsas təşəbbüsçüləri və təşkilatçılarından biri Sovet rəhbərliyində yüksək vəzifə tutan L.Beriya idi. L.Beriya belə hesab edirdi ki, gürcülərin maraqlarını qorumaq nöqteyi-nəzərindən Qara dəniz boğazlarına (Bosfor və Dardanellə) iddialardan imtina etməyin əvəzi olaraq türklərdən bir sıra ərazi güzəştləri almaq məqsədi ilə daha incə və ardıcıl siyasət yeritmək lazım idi (25). Əslində Potsdam konfransından sonra 1946-cı ilin avqustuna qədər Boğazlarla bağlı tələblərin səngiməsi və ərazi tələblərinin ön plana keçməsi Sovet rəhbərliyi daxilində belə fikirlərin formalaşması ilə bağlı idi. S.Beriya atası haqqında yazdığı xatirələrdə L.Beriyanın xarici siyasətlə bağlı təşəbbüslərinə toxunaraq qeyd edir ki, Kavtaradze də daxil olmaqla atasının SSRİ Xarici İşlər Nazirliyindəki adamları bu siyasəti

imkan daxilində müdafiə edirdilər (26). L.Beriyaya Yaxın olan bir sıra yüksək rütbəli hərbçilər də "Gürcü məsələsi"ni həll etmək istiqamətində bir sıra cəhdlər göstərmişdilər. Bu baxımdan 1945-1947-ci illərdə Zaqafqaziya hərbi dairəsmin komandanı olmuş marşal F.Tolbuxinin vaxtilə Gürcüstan Kompartiyasının birinci katibi olmuş A.Mqeladze ilə söhbəti xüsusi maraq kəsb edir. 2001-ci ildə Tbilisidə nəşr olunmuş memuarlarında A.Mqeladze bu söhbəti belə xatırlayır: "Marşal F.Tolbuxin deyirdi ki, mənim komandanlığımla bizim ordumuz Bolqarıstana daxil olan zaman mən yoldaş Stalinə zəng edib dedim ki, Türkiyə ərazilərində olan gürcü torpaqlarını azad edə bilərəm. O, həmin dəqiqə yox, siyasi mülahizələrlə bunu etmək olmaz dedi. Məni həmişə bu məsələ narahat edirdi və mən düşünürdüm ki, ola bilsin yoldaş Stalini dilə tutub onun razılığını alım. Həvəs böyük idi, Siz bilirsiniz biz hərbçilərin belə bir xüsusiyyəti var. Mən yenidən yoldaş Stalinə zəng etdim və o, dedi ki, bu barədə düşünməyi unut. Bu, siyasi avantüra olar. Əgər yoldaş Stalin icazə versəydi, mən bu torpaqları iyirmi dörd saata azad edərdim, lakin Stalin bizdən uzaq görür və bizdən çox yaxşi bilir" (27). Doğrudan da, marşal F.Tolbuxin L.Beriyanın təqdimatı ilə Ukrayna cəbhəsinə komandan təyin edilmişdi və A.Mqeladzenin xatırladığı Türkiyədəki "gürcü torpaqlarının azad edilməsi" məsələsi ilə bağlı Tolbuxinin Stalinə zənglərində L.Beriyanın əli olduğu istisna edilmir. Bu fikir müəyyən dərəcədə A.Şirokoradın kitabında da özünə yer almışdır. O, yazır: 1944-cü ilin sentyabrında 4 mindən artıq top, 400-ə yaxın tank və 1200 təyyarə ilə 300 minlik Sovet Ordusu Bolqarıstana daxil oldu. 28 sentyabrdan 28 oktyabra qədər Belqrada hücum əməliyyatı göstərdi ki, bu ordu hər dəqiqə döyüşə can atırdı. Axı, bütün bu qüvvəni cənuba döndərmək olardı. Türklər heç nə ilə Sovet T-34 tanklarına qarşı vuruşa bilməzdilər (28).

Gürcü torpaqları məsələsi ilə yanaşı 1945-ci ilin payızında xaricdə yaşayan ermənilərin "vətənə dönməsi" (repatriasiya) məsələsi Ermənistan rəhbərliyi tərəfindən yenidən gündəliyə gətirildi. Ermənistan K(b)P MK-nın birinci katibi Q.Arutinov İ.Stalinə 27 oktyabr 1945-ci il tarixli məktubunda yazırdı ki, son vaxtlar xaricdə yaşayan ermənilər arasında vətənpərvərlik hərəkatının güclənməsi xaricdəki erməni koloniyalarında yaşayan ermənilər arasında Sovet İttifaqının təsirini genişləndirməyə imkan verir. Bu məsələnin həll edilməsi xeyli dərəcədə hazırda Sovet İttifaqına düşmən olan təşkilatların təsiri altına düşmüş xaricdəki ictimai və dini birliklərin imkanlarından istifadə etməyimizdən asılı olacaqdır. Q.Arutinov yazırdı: "Belə dini birliklərdən biri Venetsiyada müqəddəs Lazariya adasında məskunlaşmış erməni-katolik "mxitarixstlərin" kilsə icma cəmiyyətidir. Bu cəmiyyət bilavasitə Vatikanın tabeçiliyindədir. 200 ildən artıqdır ki, "mxitarixst" kilsə cəmiyyəti erməni katoliklər arasında dini-ideoloji fəaliyyətlə məşğuldur". Vatikan Sovet İttifaqına qarşı

barışmaz mövqe tutduğundan Q.Arutinov İ.Stalinə təklif edirdi ki,"mxitarixstləri" Roma papasının nəzarətindən çıxarıb Sovetlərin dostuna çevirmək lazımdır. O, yazırdı: bu məsələ müsbət həll olunarsa, bizim məlumatımıza görə xaricdə 150-200 mindən artıq olan erməni katoliklərdən Vatikanın Sovet İttifaqına qarşı istifadəsinə son qoymağa nail olmaq olar. Bunun həllini Ermənistan rəhbərliyi erməni qriqoryan kilsəsi ilə erməni katolik kilsəsinin yaxınlaşdırılmasında, nəticə etibarı ilə erməni katoliklərin Eçmiədzində bütün ermənilərin katolikosuna tabe edilməsində görürdü. Q.Arutinov SSRİ-nin İtaliyadakı səfirliyinin konsulluq şöbəsinin müdiri Mxitaryanın müqəddəs Lazarya adasındakı "mxitarixstlərin" baş abbatı Serapion Uluocyanla söhbəti barədə İ.Stalinə yazırdı: S.Uluocyan deyilə ki, nə vaxtsa erməni kilsəsi bir olub. Bizim kilsə cəmiyyətinin əsasını qoyan Mxitar katolikliyi qəbul edib və Eçmiədzin mərkəzindən uzaqlaşaraq papaya tabe olub, baxmayaraq ki, kilsə ayinlərinin icrasında elə də böyük fərq yoxdur. Əgər bizi Sovet Ermənistanına qəbul edərlərsə və bizim işimizin çiçəklənməsi üçün şərait yaradarlarşa, biz əlbəttə ki, Eçmiədzində bütün ermənilərin katolikosuna tabe olarıq. Məktubun sonunda Q.Arutinov mxitaristlər arasında əhvali-ruhiyyəni öyrənmək və onların Sovet Ermənistanına dönüşünü təşviq etmək üçün Ermənistan elmi idarələrinin iki nümayəndəsinin Venetsiyaya
ezam edilməsinə icazə verilməsini xahiş edirdi (29). 1945-ci ilin noyabr ayının ilk günlərində Q.Arutinov repatriasiyanın təşkil edilməsi məsələsi üzrə son qərarın qəbul edilməsinin zəruriliyi barədə ikinci dəfə İ.Stalin və G.Malenkova müraciət etdi. Xarici ermənilərin repatriasiyasına icazə verilməsi barədə SSRİ Xalq Komissarları Sovetinin Yerevanda hazırlanan qərarının layihəsi də məktuba əlavə edildi (30).

1945-ci ilin noyabrında bu müraciətləri əsas götürərək ÜİK(b)P MK-nın Siyasi Bürosu iki dəfə Ermənistan K(b)P MK-nın müraciətləri haqqında gizli qərar qəbul etdi. Birinci qərar İtaliyada olan mxitaristlər haqqında idi. Orada deyilirdi ki, bütün ermənilərin katolikosuna və Ermənistan hökumətinə vətənə - Sovet Ermənistanına qayıtmaq üçün müraciət etmiş mxitaristlərin və digər erməni cəmiyyətlərinin əhvali-ruhiyyəsini öyrənmək üçün Ermənistanın elmi təşkilatlarının iki nümayəndəsinin Venetsiyaya ezam edilməsinə Ermənistan K(b) MK-na icazə verilsin. Siyasi Büronun iclasının protokolundan çıxarış V.Molotov, L.Beriya, G.Malenkov, A.Mikoyan, V.Merkulov və Ermənistan K(b)P MK-na göndərilmişdi (31).

1945-ci ilin noyabr ayının 21-də isə Siyasi Büro Ermənistan K(b)P MK-nın müraciətlərini müzakirə edərək daha geniş qərar qəbul etdi. Siyasi Büronun qərarında göstərilirdi ki, xarici ölkələrdə yaşayan ermənilərin vətənə, Sovet Ermənistanına qayıtmasına icazə verilməsi ilə bağlı Ermənistan K(b)P MK-nın təkliflərinə razılıq verilsin və SSRİ Xalq

Komissarları Sovetinin bu məsələ ilə bağlı qərar layihəsi təsdiq edilsin (32). Siyasi Büroda təsdiq edildikdən sonra SSRİ Xalq Komissarları Sovetinin xarici ermənilərin Sovet Ermənistanına repatriasiyası haqqında qərarı elə həmin gün qəbul edildi. Qəbul edilmiş qərara uyğun olaraq bir sıra əməli addımlar atıldı. ÜİK(b)P MK-sı Siyasi Bürosunun bu gizli qərarından altı gün sonra bütün ermənilərin katolikosu altıncı Gevorq SSRİ, ABŞ və Böyük Britaniyanın dövlət başçılarına Türkiyə tərəfindən zorla alınmış ərazilərin Sovet Ermənistanına birləşdirilməsi tələbi ilə müraciət etdi. Siyasi Büronun 21 noyabr qərarına uyğun olaraq SSRİ Xalq Komissarları Soveti "Ermənilərin xaricdən Ermənistan SSR-ə köçürülməsi üzrə əməli tədbirlər haqqında" ayrıca qərar layihəsi hazırladı. SSRİ Xarici İşlər Komissarlığı ilə birgə hazırlanmış altı bənddən ibarət olan bu qərar 1946-cı ilin fevral ayının 22-də ÜİK(b)P MK-nın Siyasi Bürosunun iclasında təsdiq edildi. Qərara görə Bolqarıstan, Yunanıstan, İran, Livan, Rumıniya və Suriyada yaşayan ermənilərin Sovet Ermənistanına köçürülməsi ilə bağlı işlərə kömək göstərmək Xarici İşlər Komissarlığına tapşırılırdı. SSRİ Xarici İşlər Komissarlığı köçürülənlərə yardım üzrə Erməni Komitəsi ilə birlikdə Sovet İttifaqına köçmək istəyən ermənilərin siyahısını hazırlamalı və eyni zamanda Sovet Ermənistanına köçməyi təbliğ etməli idilər. Əməli tədbirlər haqqında qərara uyğun olaraq Ermənistan SSR Xalq Komissarları Sovetinə icazə verilirdi ki, yuxarıda qeyd edilən ölkələrin hər birinə iki nümayəndə göndərsin. SSRİ-nin xarici ölkələrdə olan səfirliklərində ermənilərin köçürülməsi ilə bağlı işləri təşkil etməkdən ötrü Xarici İşlər Komissarlığında Yaxın Şərq şöbəsinin müdiri İ.Samılovski başda olmaqla Q.Ovanesyan (Ermənistan SSR Xalq Komissarları Soveti) və Q.Ovakimyandan (SSRİ Xalq Dövlət Təhlükəsizliyi Komissarlığı) ibarət komissiya yaradılırdı. Qərara görə ABŞ, Fransa, Misir, Türkiyə və İraqda olan müvafiq nümayəndələrə tapşırılırdı ki, Sovet Ermənistanına köçmək və sovet vətəndaşlığını qəbul etmək istəyən ermənilərin siyahılarını tərtib etmək üçün hazırlıq işlərinə başlasınlar. Daha sonra qərarda tövsiyə olunurdu ki, köçmək istəyən əhali içərisində üstünlük iş qabiliyyəti olan ermənilərə və onların ailələrinə verilsin. Eyni zamanda Xalq Komissarları Sovetinin qərarında köçürülənlərə yardım fonduna vəsait toplanması ilə bağlı mütərəqqi erməni cəmiyyətlərinin təşəbbüsünün müdafiə olunması məqsədəuyğun sayılırdı. Qərarı SSRİ Xalq Komissarları Sovetinin sədri İ.Stalin və işlər müdiri Y.Çadayev imzalamışdılar (33).

Qərarı qəbul etməkdə İ.Stalinin başlıca məqsədi Türkiyəyə qarşı ərazi tələbləri ilə bağlı qətiyyətli mövqeyini Qərb müttəfiqlərinə və bütün dünyaya nümayiş etdirmək idi. Çünki repatriasiya oyunu Sovetlər tərəfindən elə ona görə ortalığa atılmışdı ki, köçürülən ermənilərin Türkiyədən alınacağı ərazilərdə də yerləşdirilməsi beynəlxalq rəydə forma-

laşdırılsın. Sovet orqanlarının təbliğatında məsələ belə qoyulurdu ki, Ermənistan SSR-in ərazisi ora köçmək istəyən erməniləri yerləşdirmək üçün yetərli deyildir. İstər Ermənistan və istərsə də Gürcüstan hakimiyyət orqanları Moskvaya göndərdikləri bütün müraciətlərdə 1921-ci ilin Moskva və Qars müqavilələrinin ləğv edilməsini tələb edirdilər. Bu tipli arayışlarda Moskva və Qars müqaviləsinin şərtləri tamamilə təhrif edilir və müqavilələrin hansı şəraitdə imzalandığı, kimin-kimə hansı ərazini güzəşt etdiyi tamamilə unudulurdu. Məsələyə aydınlıq gətirmək üçün xatırladaq ki, 1921-ci ilin mart ayının 16-da Sovet Rusiyası ilə Türkiyə arasında imzalanmış müqavilə 16 maddədən və iki əlavədən ibarət idi. Müqavilənin birinci maddəsinə görə tərəflər onlara zorla qəbul etdirilən hər hansı ikitərəfli və beynəlxalq müqavilələri rədd edirdilər. Moskva müqaviləsinin ikinci maddəsinə görə, Türkiyə Batum şəhərinə və eyni adlı limana qanuni idarəçilik, geniş muxtariyyət, bütün vətəndaşların mədəni və dini hüquqlarının qorunması şərtilə suverenlik verilməsinə razı olurdu. Müqavilənin üçüncü bəndinə görə isə, tərəflər müqaviləyə əlavədə nəzərdə tutulmuş sərhədlər daxilində Azərbaycanın protektoratlığında Naxçıvanın muxtar ərazi olmasını təsdiqləyirdilər. Azərbaycan Naxçıvanı üçüncü dövlətə güzəştə gedə bilməzdi. Beşinci maddəyə görə, tərəflər Qara dənizin beynəlxalq statusunu işləyilə hazırlamaqdan ötrü razılığa gəlirdilər. Bu məsələ ilə bağlı hazırlanacaq qərar Türkiyənin suverenliyinə, təhlükəsizliyinə və o cümlədən, İstanbulun təhlükəsizliyinə xələl gətirməməli idi. Müqavilənin digər maddələrində Antantaya qarşı mübarizədən, tərəflərin öz ərazilərində hakimiyyətə gəlmək istəyən qüvvələrin fəaliyyətinə yol verməməkdən, kommunikasiya xətlərinin açılmasından, əhalinin mədəni, milli hüquqlarının qorunmasından və s. bəhs edilirdi (34).

1921-ci ilin oktyabr ayının 13-də imzalanmış Qars müqaviləsi isə 20 maddədən və 3 əlavədən ibarət idi. Qars müqaviləsinin əvvəlki üç maddəsi qeyri-bərabər müqavilələrin ləğv edilməsi, işğal rejiminin və Sevr müqaviləsinin rədd edilməsi və s. məsələlərə aid idi. Dördüncü maddədə sərhəd məsələləri tənzimlənirdi. Beşinci maddədə isə üç Cənubi Qafqaz respublikası və Türkiyə Naxçıvanın Azərbaycanın tərkibində saxlanmasını təsbit edirdilər. Qars müqaviləsinin altıncı maddəsinə görə Türkiyə Batumu Gürcüstana güzəştə gedirdi. Gürcüstan ona güzəştə gedilmiş Batumda muxtariyyət yaratmalı idi. Müqavilənin on ikinci maddəsinə görə Birinci Dünya müharibəsinin sonunadək (1879-cu ildən başlayaraq - C.H.) Rusiyanın, hazırda isə Türkiyənin tərkibində olan ərazilərdə yaşayan hər hansı sakin istəyindən asılı olaraq türk vətəndaşlığından çıxa, Türkiyəni azad şəkildə tərk edə, əmlakını və ya onun dəyərini özü ilə apara bilərdi. Ən nəhayət, müqavilənin Batumun Gürcüstana güzəştə gedilməsini ehtiva edən 6-cı maddəsi və daha dörd

maddəsi ratifikasiya edilmədən qüvvəyə minirdi. Ratifikasiya edilmiş nüsxələr isə İrəvanda mübadilə edilməli idi (35).

İstər Sovet rəhbərliyi, istərsə də Gürcüstan və Ermənistan rəhbərliyi, habelə onların nəzarətində olan mətbuat daha tez-tez belə məsələ qaldırırdılar ki, guya Moskva və Qars müqavilələri Sovet dövlətinin zəifliyindən istifadə edilərək Türkiyə tərəfindən ona zorla qəbul etdirilib. Onların təbirincə, Türkiyə 1920-ci ilin sonu, 1921-ci ilin əvvəllərində Zaqafqaziyaya soxularaq Gürcüstan ərazilərindən Batum vilayətinin cənub hissəsini, Artvin, Ərdahan və Oltı dairələrini, Ermənistan ərazilərindən isə Qars və Sürməli vilayətlərini işğal etmiş, bütün işğal edilmiş ərazilər indiyə qədər SSRİ-yə qaytarılmamış, həmin ərazilər 16 mart 1921-ci il və 13 oktyabr 1921-ci il müqavilələri ilə Türkiyəyə keçmişdir. Sovet respublikaları üçün yetərincə ağır zamanlarda müharibədən qaçmaq məqsədilə bağlanan müqavilələrlə yuxarıda göstərilən ərazilər Türkiyəyə güzəştə gedilmişdir (36). Məlum olduğu kimi, 1921-ci ilin sentyabr-oktyabr aylarında Qarsda keçirilən konfransda Türkiyə hər bir Cənubi Qafqaz respublikası ilə onların müstəqilliyini möhkəmləndirmək məqsədilə ayrılıqda müqavilə bağlamaq istəyirdi. Türkiyə nümayəndə heyətinin başçısı Kazım Karabəkir paşa izah edirdi ki, Moskva hökuməti Cənubi Qafqaz respublikalarını müstəqil dövlət kimi tanıdığını bildirir. Ona görə də biz onların hər biri ilə müstəqil dövlət olaraq ayrıca müqavilə bağlamaq istəyirik. Bu barədə Kamal paşa bizə göstəriş vermişdir. Lakin Rusiya nümayəndəsi Y.Qanetski məsələnin belə qoyuluşuna etiraz edib hər üç respublika ilə birgə müqävilə bağlamağı təklif edirdi. O, deyirdi ki, Moskva müqaviləsi imzalandıqdan sonra Cənubi Qafqazda vəziyyət dəyişmişdir və indi üç qardaş xalq birləşməyə doğru gedir və hər üç xalq Türkiyə ilə müqavilə bağlamağı sevinclə qarşılayır. Y.Qanetskinin tələirincə, hər üç respublika Türkiyə ilə vahid bir müqavilə imzalamağı onunla sıx ittifaq kimi qəbul edir (37). Bu mübahisənin gedişində Azərbaycan, Gürcüstan və Ermənistan nümayəndələri Rusiya nümayəndəsini müdafiə etdiyindən Kazım Karabəkir öz mövqeyindən geri çəkilməli oldu. Konfransın gedişindən və müqavilənin mətnindən tamamilə aydındır ki, burada heç bir zorakılığa yol verilmədi və bəzi məqamlarda Türkiyə tərəfi geri çəkilsə də, tərəflər böyük razılıq hissi ilə Qars müqaviləsini imzaladılar.

ABŞ və Böyük Britaniyanən siyasi idarələri, diplomatik idarələri Türkiyənin şərq vilayətlərinə aid irəli sürülmüş Sovet iddiaları ətrafında cərəyan edən hadisələri diqqətlə izləyirdilər. Qərb mətbuatı Türkiyəyə qarşı ermənilərin ərazi tələblərinin Sovet İttifaqı rəhbərliyinin təhriki ilə baş verdiyini hələ 1945-ci ilin yayından ara-sıra vurğulayırdı. 1945-ci ilin iyul ayının 24-də "Tayms" qəzetində dərc olunan yazıda göstərilirdi ki, Boğazlar rejimi haqqında məsələ öz ardınca Sovet İttifaqının Qars və

Ərdahan rayonlarının ona qaytarılması tələbini doğuracaqdır. "Nyu-York Tayms" isə 1945-ci ilin avqust ayının 8-də yazırdı ki, son aylar Rusiya bütün Yaxın Şərqdə ermənilərin millətçi təbliğatının güclənməsini şirnikləndirir. Röyter agentliyi 1945-ci ilin dekabr ayının 9-da Türkiyədə vəziyyətlə bağlı yaydığı məlumatda bildirirdi ki, Türkiyədə vəziyyətin əsas amillərindən biri onun şimal-şərq ərazilərinin Sovet Ermənistanına birləşdirilməsinə yönələn erməni təbliğatıdır. Türklər bu təbliğata Boğazlarda Sovet İttifaqına baza verilməsi, Qars və Ərdahanın güzəştə gedilməsi, Türkiyənin daxili rejiminin dəyişdirilməsi üçün təzyiq aləti kimi baxırlar. Röyter agentliyinin bu məlumatını dəyərləndirən Ermənistan SSR Xarici İşlər Komissarlığı məlumatı hazırlayan müxbirin bu məsələdə türklərin nöqteyi-nəzərini bölüşdüyünü yazırdı (38).

1945-ci ilin sentyabr ayının 21-də Türkiyə xarici işlər naziri H.Saka ilə görüşən Ankaradakı ABŞ səfiri E.Vilson Moskvadakı türk səfiri S.Sarperin Sovet rəsmiləri ilə son vaxtlar danışıqlar aparıb-aparmadığı ilə maraqlandı. H.Saka bildirdi ki, Sovet-Türkiyə münasibətləri ilə bağlı məsələlər 18 iyun ikinci Molotov-Sarper görüşündən sonra Moskvada gündəmə gətirilməyib (39). ABŞ Dövlət katibi C.Birns Türkiyədəki səfir E.Vilsona oktyabr ayının 19-da göndərdiyi teleqramda xatırladırdı ki, Sovetlər tərəfindən 1945-ci ilin 19 martında ləğv edilmiş 17 dekabr 1925-ci il Türk-Sovet sazişi və onun protokolları 7 noyabr 1945-ci ildə qüvvəsini itirəcək. Bunun Türk-Sovet əlaqələrinə mümkün təsirinin müəyyən edilməsi faydalı olardı. Eyni teleqramı C.Birns Londondakı və Moskvadakı Amerika səfirlərinə də göndərmişdi (40). Bu teleqrama uyğun olaraq ABŞ-ın Birləşmiş Krallıqdakı işlər vəkili Qalmen Britaniya Xarici İşlər Nazirliyinin rəsmiləri ilə müzakirələr aparmışdı. Aparılan müzakirələrin nəticələri barədə Qalmen oktyabr ayının 22-də C.Birnsə yazırdı: "Britaniya Xarici İşlər Nazirliyi Türk-Sovet əlaqələrində hər hansı kəskin dəyişikliklər olacağını düşünmür, ona görə ki, rusların türklər əleyhinə aşkar aktla nəticələnəcək hər hansı insident yaradacağına inanmır. Lakin buna baxmayaraq türklər sakit qalarsa, əsəb müharibəsi yenidən başlaya bilər, bu halda türklər fırtınaya tab gətirməyə və qorxu ilə mübarizə aparmağa qadir olmalıdırlar" (41).

Amerikadakı səfir E.Vilsonun da Dövlət katibi C.Birnsə oktyabr ayının 23-də göndərdiyi teleqramda Türk-Sovet müqaviləsinin ləğvi ilə bağlı iki ölkənin münasibətlərində elə bir ciddi dəyişikliyin olmayacağı ehtimal olunurdu. O yazırdı: "Məsələyə Türkiyə nöqteyi-nəzərindən baxanda görərik ki, məhz Türkiyə keçən iyun ayında Moskvadakı danışıqların keçirilməsi üçün təşəbbüs göstərmişdi, bunda SSRİ-nin Türkiyədəki səfiri ilə Sarper arasında keçən qeyri-rəsmi söhbətlərin böyük rolu olmuşdu. Molotovun Türkiyəyə vurduğu zərbə onları bu kursu gələcəkdə də davam etdirməkdən çəkindirir. Həmçinin türklər hesab edirlər ki,

Potsdam konfransından sonra təşəbbüs ABŞ, Birləşmiş Krallıq və əsasən də SSRİ-nin tərəfinə keçir və indi onlar bizim Montrö konvensiyasının dəyişdirilməsi ilə bağlı təkliflərimizi gözləməkdədirlər. SİTA-nın son rəsmi bəyanatından Sovetlərin Boğazların beynəlmiləlləşdirilməsində maraqlı olmadığı bir daha aydınlaşır. Ola bilər ki, SSRİ beynəlmiləlləşmə ilə bağlı müzakirəyə girişməyib, məsələni zamanın ixtiyarına buraxmağı və Türkiyədəki daxili problemlər nəticəsində burada SSRİ-yə "dost" rejimin yaranacağı günü gözləməyi üstün tutur. Dövlət Departamentinə də bildirildiyi kimi, SSRİ tərəfindən qaldırılmış Boğazlar problemi SSRİ-nin Türkiyəni nəzarət altına almaq kimi real məqsədini gizlətmək üçün bir bəhanədir. Əlbəttə, ola bilsin ki, SSRİ Türkiyə əleyhinə güclü silahlı münaqişədən istifadə etmək qərarını artıq qəbul edib. Lakin bu qərarın həyata keçirilməsi opportunizmə əsaslanardı və 1925-ci il sazişinin qüvvədən düşməsi ilə əlaqələndirilərdi" (42).

ABŞ-ın SSRİ-dəki səfiri A.Harriman qeyd edilən məsələ ilə bağlı oktyabr ayının 24-də C.Birnsə bildirirdi ki, indi SSRİ-nin genişlənmə siyasəti yürüdən güclü bir dövlət ölduğu və Türkiyənin özünü SSRİ tərəfindən hədələndiyini hesab etdiyi bir dövrdə 1925-ci il 17 dekabr müqaviləsi artıq öz qüvvəsini itirilə. 7 noyabrdan sonra SSRİ-nin Türkiyəyə dair siyasəti Moskvanın genişlənmək ehtiyacı ilə bağlı bu ölkəyə qarşı planlarından asılı olmaqda davam edəcək və bu zaman Türkiyə tərəfindən göstərilə biləcək mümkün müqavimət, Britaniya və ABŞ-ın ona nə dərəcədə dəstək verəcəyi nəzərə alınacaq. Sazişin vaxtının qurtarmasının ani təsiri SSRİ-nin apardığı əsəb müharibəsi nin intensivləşdirilməsi olacaq.

İran Azərbaycanında başlanan prosesləri müşahidə edən Tehrandakı türk səfiri hələ iyun ayında Ankaraya göndərdiyi teleqramlarda orada Türkiyəyə təsir edəcək hadisələrin gözlənildiyindən narahatlığını ifadə etmişdi. Səfirin göndərdiyi birinci teleqramda məlumat verilirdi ki, Sovet hakimiyyət orqanları Şimali İranda üsyan qaldırılmasına çalışırlar və əgər bu baş versə, Sovetlər İran hökumətinin asayişi bərpa etməsinə mane olacaq. Bir neçə gün sonra gələn ikinci teleqramda artıq məlumat verilirdi ki, əgər üsyan həqiqətən də baş versə, bu SSRİ-nin Türkiyənin şərq əyalətlərinin Ermənistana birləşdirmək üçün hazırlıq tədbiri kimi qiymətləndirilməlidir. Türkiyə Xarici İşlər Nazirliyinin rəsmiləri belə hesab edirdilər ki, 1945-ci ilin payızında teleqramlarda göstərilən hadisələrin ilk addımları müşahidə edilməkdədir. Onlar bunu əsəb savaşının növbəti mərhələsi və ya ondan da ciddi bir şey kimi qiymətləndirirdilər (43).

Bütün qeyd edilənlərlə yanaşı, Sovetlərin Türkiyəni İran Azərbaycanından və Bolqarıstandan sıxmaq niyyətləri ilə bağlı Türkiyə, habelə ABŞ və Britaniya xüsusi xidmət orqanlarının əlinə müəyyən məlumatlar düşmüşdü. Xüsusilə İran Azərbaycanında Sovet ordu hissələrini gücləndirməklə yanaşı,

SSRİ-yə tərəfdar olan adamlar içərisindən əhalinin inanılmış hissəsinin silahlandırılması istiqamətində bir sıra addımlar atılmışdı. 1945-ci ilin sentyabr ayının 28-də İran Azərbaycanındakı Sovet rezidenti əhaliyə paylanmaq üçün 20 min tüfəng, 2 milyon patron və s. silah və sursatın göndərilməsi barədə tələbnamə tərtilə etmişdi. Bu silahın müəyyən hissəsi Türkiyə ilə sərhəd rayonların əhalisinə paylanmalı idi. SSRİ rəhbərliyi izi azdırmaq üçün göstəriş vermişdi ki, İran Azərbaycanına göndərilən silah və sursat Sovet istehsalı deyil, İran, Almaniya və xüsusilə Çexoslovakiya istehsalı olan "Brno" tüfənglərindən ibarət olmalıdır (44).

Vəziyyətə nəzarət etmək üçün ÜİK(b)P MK və SSRİ Xalq Komissarları Soveti 1945-ci ilin oktyabr ayının 8-də İran Azərbaycanında hərbi cəhətdən möhkəmlənmək barədə gizli qərar qəbul etmişdi. Bu qərara görə Bakı hərbi dairəsmin hərbi şurasına və Azərbaycan K(b)P MK-na tapşırılırdı ki, İran Azərbaycanında muxtariyyət hərəkatına qarşı müqavimət göstərənləri aradan götürmək üçün əməliyyat işçiləri ayırsınlar. Oktyabr ayının ortalarında İran Azərbaycanına göndərilmək üçün nəzərdə tutulmuş silahların birinci hissəsi SSRİ Daxili İşlər Komissarlığı tərəfindən artıq təyinat yerinə göndərilmişdi. Oktyabr ayının 21-də Bakı hərbi dairəsmin komandanı, ordu generalı İ.Maslennikov və Azərbaycan K(b)P MK-nın birinci katibi M.C.Bağırov SSRİ Daxili İşlər Komissarı L.Beriyaya yazırdılar: İran Azərbaycanı məsələsinə dair ÜİK(b)P MK-nın 8 oktyabr 1945-ci il tarixli qərarının həyata keçirilməsi ilə bağlı aşağıdakı işlər görülmüşdür: İran Azərbaycanında muxtariyyət hərəkatının genişlənməsinə mane olan şəxsləri və təşkilatları aradan götürmək işini təşkil edə bilən 21 təcrübəli əməliyyat işçisi ayrılmışdır. Bu yoldaşlar yerli əhali içərisindən silahlı partizan dəstələri təşkil etməlidirlər. Əməliyyat işçilərinə kömək məqsədilə uzun müddət Daxili İşlər və Təhlükəsizlik Komissarlığı ilə bağlı olan və konkret döyüş tapşırıqlarının yerinə yetirilməsində sınanmış 75 nəfər döyüşçü toplanmışdır. Təyinat yerinə yola düşməzdən əvvəl seçilmiş işçilər Bakı şəhərində siyasi, hərbi və xüsusi hazırlıq keçəcəklər (45).

1945-ci ilin payızından başlayaraq Türkiyə siyasi dairələri və xüsusilə türk mətbuatı İran Azərbaycanında cərəyan edən hadisələri diqqətlə izləyirdilər. 1945-ci ilin sentyabr ayının 16-da "Tanin" qəzetində C.Yalçının "Azərbaycan məsələsi" adlı geniş yazısı dərc olunmuşdu. Yazıda Azərbaycanda milli hərəkatın başlanması, lakin bu hərəkatın Moskva tərəfindən idarə olunmasından bəhs edilirdi. O, yazırdı: Əgər "müstəqil Azərbaycan uğrunda bu hərəkat xarici qoşunlar İrandan çıxandan sonra başlasaydı, biz onu İranın daxili işi, yerli hərəkat kimi qiymətləndirər və bu məsələyə bu nöqteyi-nəzərdən baxardıq. Lakin nə qədər ki, İranda rus təzyiqi və intriqaları vardır Azərbaycan məsələsinə bu məsələlərdən ayrılıqda baxmaq səhv olardı. C.Yalçın Azərbaycandakı hadisələri rusların İrandan çıxmaq istəməmələri ilə izah edərək deyirdi: Ruslar Azərbaycana

azadlıq və müstəqillik vəd edirlər. Onlar təkcə vədlərlə kifayətlənmir və Azərbaycanlılara silah və pul verirlər. Onlar istəyirlər ki, Azərbaycanlılar öz azadlıqları və müstəqillikləri uğrunda iranlılar əleyhinə mübarizəyə başlasınlar. Nə qədər ki, Azərbaycanda sakitlik olacaq, beynəlxalq vəziyyət baxımından Azərbaycanı İrandan ayırmaq və özünə qatmaq çox çətin və hətta qeyri-mümkün olacaqdır. Lakin o vaxt ki, Azərbaycanda milli hərəkat başlandı, müstəqillik və azadlıq bayrağı yüksəldi, müstəqillik və millətçiliyin düşməni olan bolşeviklər üçün demokratiya və azadlığı müdafiə adı altında Azərbaycan məsələsini müdafiə etmək çox asan olacaq. Bundan sonra bir addım yetərlidir ki, İran Azərbaycanlıları rus Azərbaycanlıları ilə birləşsinlər. İndi yalnız Azərbaycanın bir hissəsi bolşevik zülmü altındadır, sabah bütün birləşmiş Azərbaycan ölümə məhkum olacaq. C.Yalçının fikrincə, əgər Azərbaycanlılar azadlıq və müstəqillik istəyirlərsə, onlar bunu rus qoşunları onların ölkəsini azad edən kimi öz hökumətlərindən tələb etməlidirlər. Onlar hökumətlə danışıb razılığa gələ bilərlər. Əks istiqamətdə Azərbaycanlılar tərəfindən atılan hər hansı addım onlara kömək etməyəcək, fəqət onlara ancaq bədbəxtlik gətirəcək.

Türkiyə hərbi kəşfiyyatı oktyabr ayının ikinci yarısında belə bir əməliyyat məlumatları əldə etmişdi ki, Rusiyadan və Çexoslovakiyadan Rumıniya vasitəsi ilə yeni Sovet diviziyaları Bolqarıstana gətirilir. İran Azərbaycanı üçün olduğu kimi Bolqarıstan üçün də əməliyyat işçilərinin hazırlanması bir qayda olaraq Dövlət təhlükəsizliyi orqanları vasitəsi ilə həyata keçirilirdi. ÜİK(b)P MK-nın Siyasi Bürosu Dövlət təhlükəsizlik orqanlarına tapşırıq vermişdi ki, Bolqarıstanın Dövlət təhlükəsizliyi orqanları üçün SSRİ təhlükəsizlik orqanlarının altı aylıq kurslarında 20 əməliyyat işçisi hazırlasın. Qərarın icrası V.Molotova və V.Abakumova tapşırılmışdı (46).

Türkiyə ətrafında baş verən hadisələrlə bağlı Ankaradakı Amerika səfiri oktyabr ayının 27-də Dövlət Departamentinə geniş hesabat göndərmişdi. O, yazırdı: Mən dünən Türk Baş Qərargahının bir gün öncə Britaniya Hərbi, Hərbi-Dəniz və Hərbi-Hava qüvvələri attaşelərini toplantıya çağırdığını eşitdikdən sonra öz Hərbi attaşemizə bu barədə məlumat toplamağı tapşırdım. Onun söhbət etdiyi Britaniya Hərbi Attaşesi Sovet qoşunlarının Balkan yarımadasında cəmləşdirilməsi ilə əlaqədar türklərin narahatlığından danışarkən təmkinli idi. Sonra ləriqada generalı C.Harriman Türkiyə hərbi kəşfiyyatından bu məlumatı əldə edib. Türk hərbi kəşfiyyatı son 3 gün ərzində 7 və ya 8 Sovet diviziyasının Rusiyadan Rumıniyaya keçdiyini və cənuba doğru hərəkət etməkdə olduğunu təsdiqləyilə. Diviziyaların bu hərəkəti 2 həftə öncə başlayıb. Bu yaxınlarda təxminən 5-7 rus diviziyası Çexiyadan Rumıniyaya gəlib. Bu da Rumıniyada 15-ə yaxın yeni rus diviziyasının olması ehtimalı

deməkdir. Türk hərbi kəşfiyyatı Bolqarıstanda rusların 7 piyada diviziyasının, 1 tank əleyhinə korpusunun və 1 motorlaşdırılmış briqadasının olduğunu təsdiqləyib. Həmçinin, son 72 saat ərzində əlavə 3 rus diviziyasının Dunay çayını keçib Bolqarıstana daxil olduğu təsdiqlənib. Nəticədə, Rumıniya və Bolqarıstanda rus piyada qoşunlarının sayı 40-a və tank əleyhinə diviziyaların sayı bu yaxınlarda Bolqarıstana 2 əlavə diviziyanın gətirilməsi ilə bağlı qeyri-rəsmi məlumatla birgə 8-ə çatıb. Həmçinin, Qafqazda və İran Azərbaycanında əlavə sovet qoşunlarının olması barədə təsdiqlənməmiş məlumatlar mövcuddur. Türk hərbi kəşfiyyatının başçısı deyib ki, bu situasiya Britaniya Xidmət attaşelərinə rusların hücum edəcəyi təqdirdə Türkiyənin müqavimət göstərəcəyi barədə bəyanat və onların Britaniya tərəfindən hansı köməyə bel bağlaya biləcəyi barədə tələbnamə ilə izah edilib. Həmçinin təklif edilib ki, əgər Britaniyalıların köməklik göstərmək niyyəti varsa, dərhal müzakirələrə başlamaq gərəkdir. O, ifadə etdi ki, Britaniyalı attaşelər bu informasiyanın gözdən keçirilmək üçün çox natamam olduğunu və istənilən halda Britaniyanın dəstəyi məsələsinə Londonda qərar veriləcəyini söylədilər. Türkiyə hərbi kəşfiyyatı bu cavabın qənaətbəxş olmadığını hesab edib. Əlavə edilib ki, Türkiyə ordusunda iqtisadi çətinliklərə görə 5 gün öncə 1922-ci il çağırışçılarının hərbi qulluqdan azad edilməsinə başlanıb: bu iş hazırda dayandırılıb və Baş Qərargah hökumətdən ümumi səfərbərlik elan edilməsini tələb etməyi nəzərdə tutur. Ondan hücumun nə zaman baş verə biləcəyini soruşduqda o, bunun təxminən noyabrın 8-i, 1925-ci il sazişinin qüvvədən düşməsindən sonra baş verəcəyini dedi. Bu ruslara hazırlıqlarını tamamlamaq üçün 2 həftə vaxt qazandıracaq.

E.Vilson yazırdı: Dünən mən Xarici işlər naziri ilə söhbət etdim. O dedi ki, Türkiyə hökuməti sovet qoşunlarının Bolqarıstan və Rumıniyada cəmləşməsi ilə bağlı çox narahatdır. O, son zamanlar Bolqarıstanda sovet diviziyasının gücləndirildiyini əlavə etdi. Britaniyanın səfiri ilə məsləhətləşdiyini və Türkiyə Baş qərargahının bu situasiya ilə bağlı məsləhət və göstəriş almaq üçün Britaniya Hərbi Xidmət attaşeləri ilə görüşlər keçirdiyini söylədi. Nazir dedi ki, bu qoşun hərəkətləri sadəcə olaraq Türkiyə əleyhinə aparılan əsəb savaşının sürətlənməsi ola bilər və yaxud da SSRİ öz qoşunlarını Balkan yarımadasına qarşıdan gələn seçkilərdə təzyiq nümayiş etdirmək məqsədilə də döndərə bilər. Bununla belə, Türkiyə əleyhinə ani hərbi tədbir ehtimalı realdır və Türkiyə hökuməti hazırlıqsız yaxalana bilməz. O, bəzi məntəqələrdəki qarnizonları gücləndirmək üçün tədbirlər gördüklərini və hökumətin daha çox ordu hazırlamaq və hətta ümumi səfərbərlik elan etməyi planlaşdığını söylədi. Buna baxmayaraq onlar situasiyanı pisləşdirəcək və ya SSRİ-də provokasiya təsəvvürü yarada biləcək hər hansı hərəkətdən çəkinməyə çalışırlar. O dedi: "Biz 7 noyabrdan sonrakı 2 həftə ərzində cavabı bilməliyik".

Daha sonra Birləşmiş Ştatların səfiri qeyd edirdi: Keçən gecə mən Britaniyalı səfirlə görüşdüm. O, mənə Xarici işlər naziri və Baş Qərargah rəisi ilə olan danışıqları barəsində söhbət açdı. O, hesab edirdi ki, Türk Baş Qərargahında əsasən iki həftə ərzində Ərzurumda olmuş və sabah Ankaraya qayıdacaq Qərargah rəisi general R.Orbayın yoxluğu səbəbindən narahatdırlar. Peterson hesab edir ki, bu situasiya əsəb savaşının növbəti mərhələsi ola bilər və həmçinin Sovetlər öz qoşunlarının Balkan yarımadasında arzu olunmadığını görüb bu qoşunları daim bir ölkədən digərinə hərəkət etdirməyin vacibliyini düşünə bilərlər. Bununla belə, o, dedi ki, Sovetin hücum ehtimalı istisna oluna bilməz.

Səfir Vilson aldığı informasiyaları belə ümumiləşdirirdi: Əgər Sovetlər intensiv əsəb savaşına girişsələr, onlar 1925-ci il sazişinin qüvvədən düşməsi ilə başladılan qoşun toplamaları ilə əlaqədar hal-hazırda etdiklərini təkrarlayacaqlar. Əslində onlar geniş yayılmış hay-küyçü söz-söhbətlərlə burada narahatlıq mühitini yaratmaqda müəyyən müvəffəqiyyətə nail olublar. Lakin bu vəziyyətdə nəzərə alınmaması mümkün olmayan digər elementlərdə var. Həmçinin, Sovetlər davamlı olaraq mətbuat və radio vasitəsilə Türkiyənin şərqi vilayətlərinin Ermənistan Sovet Respublikasına birləşdirilməsi üçün zəmin hazırlayırlar. Nəzərə alınmalı olan digər faktorlar da mövcuddur ki, mən onlara qiymət vermək iqtidarında deyiləm. Bu amillərə, Stalinin məzuniyyət adı altında Moskvadan getməsi və marşal Jukovun ABŞ səfərinə mane olan son dəqiqədəki "xəstəliyi", həmçinin son vaxtlar beynəlxalq aləm haqqında heç bir məlumatı olmayan və Sovet hərbi gücünün yüksəldiyi bir dövrdə fövqəladə tədbirlərə əl atmaq istəyən sovet hərbi liderlərinin hakimiyyəti ələ almaqları barədə yayılan məlumatları aid etmək olar. Digər bir fakt da mövcuddur ki, Sovetlər keçən iyun ayında irəli sürdüyü tələblərlə və Balkan yarımadasına hərbi qüvvələr cəmləşdirməklə özünü çətin vəziyyətə salıb. Vilson sözünü belə yekunlaşdırırdı ki, məntiq Sovetlərin Türkiyə əleyhinə hərbi əməliyyat cəhdinin əleyhinə işləyir. Lakin burada nəzərə alınmaması qeyri-mümkün olan məntiqsiz faktlar mövcuddur (47).

Oktyabrın sonlarında Sovetlərin Türkiyənin hər iki cinahında hərbi hazırlıq tədbirləri müharibə təhlükəsi ilə bağlı söz-söhbətin çoxalmasına gətirib çıxarmışdı. Bundan ciddi narahatlıq keçirən Moskvadakı Amerika səfiri A.Harriman oktyabr ayının 29-da Xarici İşlər komissarı V.Molotovla görüşdə Sovet ittifaqı ilə Türkiyə arasında müharibə olacağı barəsində yayılan məlumatla bağlı V.Molotovun fikrini bilmək istədikdə, SSRI xarici işlər komissarı dedi ki, heç kim belə bir məlumata inana bilməz, SSRİ ilə Türkiyə arasında müharibə olacağı ağlagəlməzdir və o, bu cür şayiələrin yayılmasına təəccüblənir (48).

Düzdür, V.Molotov müharibə təhlükəsinin olmamasını təsdiqləsə də, Sovetlərin hərbi hazırlıq tədbirləri 1945-ci ilin payızından etibarən intensiv

xarakter almışdı. Bir tərəfdən, Balkanlarda, digər tərəfdən İran Azərbaycanında, üçüncü bir tərəfdən Cənubi Qafqaz respublikalarında Sovet hərbi qüvvələrinin artırılması Türkiyəni daim gərgin vəziyyətdə saxlayıb ölkədə siyasi böhranı yetişdirmək, əsəb müharibəsinin gedişində Ankaranı diz çökdürmək, Sovet tələblərini qəbul etdirmək kimi səciyyələnirdi. Müharibədən sonra Zaqafqaziya hərbi dairəsmin gücləndirilməsi Türkiyənin şərqində qısa müddətli məhəlli müharibənin olmasını istisna etmirdi. 1945-ci ilin payızında Cənubi Qafqaz respublikalarının fəallaşması, Zaqafqaziya hərbi dairəsmin yüksək rütbəli hərbçilərin hesabına möhkəmləndirilməsi müharibənin başlanması təhlükəsini reallaşdırmışdı. Türkiyə hərbi və siyasi dairələri tam gərginlik içərisində idilər. Oktyabr ayının 31-də Ankaradakı Amerika səfirliyinin hərbi attaşesi general C.Harrimanla görüşən Baş qərargah rəisi Orbay Türkiyənin narahatçılığını açıq ifadə etmişdi. Bu görüş barədə ABŞ səfiri Vilson Dövlət katibinə yazırdı: Dünən Türkiyə Baş qərargahının rəisi general Orbay mənim Hərbi Attaşemlə görüşüb və onunla vəziyyəti təhlil edib. Rus qoşun cəmləşmələri barədə verilmiş informasiya Türkiyə hərbi kəşfiyyatının başçısı tərəfindən son üç gün ərzində üç əlavə diviziyanın Çexoslovakiyadan Rumıniyaya keçməsi barədə verilmiş məlumatla üst-üstə düşür. General Orbay, onun Bolqarıstan və Rumıniya ilə bağlı məlumatının çox etibarlı olduğunu, İran haqqındakı məlumatın bir qədər səhv, Qafqaz haqqındakı məlumatın isə yarımçıq olduğunu (onun hesablamalarına əsasən burada 10-15 arasında rus diviziyası var) hesab edir. O, situasiyanı belə dəyərləndirir: Sovet qoşunlarının Balkan yarımadasında mövcudluğunu bu ölkələr üzərində nəzarəti gücləndirmək, seçkilər zamanı təzyiq göstərmək, Yunanıstanı hədələmək və ya Türkiyə əleyhinə əməliyyat niyyəti ilə izah etmək olar. İranda sovet qoşunlarının olmasını isə kürdlərlə bağlı problemlər və ya Türkiyə əleyhinə istifadə ilə bağlı əsaslandırmaq olar. O, Qafqazda sovet qoşunlarının mövcudluğuna Türkiyə əleyhinə mümkün istifadədən başqa heç bir səbəb tapa bilmir. E.Vilson yazırdı: General Orbay səfərbərlik elan etmək zərurətinin böyük məsuliyyəti ilə üzləşib. 1922-ci il doğumlu çağırışçıların hərbi səfərbərliyinin dayandırılması ordu xərclərini azaltmaq üçün kənd təsərüfatında işləyənlərin sayını artırmaq məqsədilə və həmçinin Türkiyənin BMT üzvü olaraq həmin təşkilata təhlükəsizlik üçün müraciət hüququnun olduğunu anladığına görə edilib. Bununla belə, əgər səfərbərliyin effektiv olmasını istəyirlərsə, bunu hərbi əməliyyatlar öncəsi başlamaq lazımdır, belə ki, nəqliyyat vasitələri ilkin bombalama nəticəsində dağıdıla bilər. Harriman, Orbayda indiki vaxtda səfərbərliyin məsləhət olmadığı təəssüratı formalaşdırdı və o bunu Sovet tərəfindən hər hansı xəbərdarlıq xarakterli addımlar atıldığı təqdirdə etmək lazım olduğunu söylədi. General Orbay Amerika Hərbi attaşesi ilə fikir mübadiləsi zamanı bildirdi ki, təcavüzün olacağı halda Sovetlər Frakiyadan

Boğazlar istiqamətində son cəhd edəcəklər. Eyni zamanda o, qeyd etdi ki, Sovetlər həmçinin Şərq vilayətlərini işğal etmək istəyəcəklər (49).

Noyabr ayının ilk günlərində əldə edilən yeni məlumatlar Türkiyə siyasi dairələrini bir qədər sakitləşdirdi. Xarici işlər naziri H.Saka ABŞ səfiri Vilsona bildirdi ki, Sovet qoşunlarının Türkiyə sərhədlərinə yaxınlaşması ilə bağlı bir neçə gün öncə mövcud olan narahatlıqlar azalıb.

Türkiyə ətrafında cərəyan edən proseslərə, ölkənin daxili və xarici siyasətilə bağlı köklü məsələlərə və xüsusilə son vaxtlar Türkiyəyə qarşı yönəlmiş böhtan kampaniyasına prezident İ.İnönü 1945-ci ilin noyabr ayının 1-də Böyük Millət Məclisinin yeddinci çağırış üçüncü sessiyasının açılışındakı çıxışında aydınlıq gətirdi. O, bir qədər əvvələ gedərək qeyd etdi ki, 1939-cu ilin baharında dünya üzərində üfüqlər tutqunlaşan vaxt Türkiyə idealın doğru istiqamətini görərək yeganə millət idi ki, açıq şəkildə Britaniya və Fransa ilə yanaşı yer tutdu. 1940-cı ildə Fransa fəlakətə düçar olanda və Böyük Britaniya uğrunda döyüşlər başlayanda biz yenə də tənha millət idik ki, İngiltərənin qəhrəmanlığını tərifləyir və onun tərəfində olduğumuzu bəyan edirdik. 1941-ci ilin əvvəllərində biz səfərbər olaraq bütün alman və italyan qüvvələrinə qarşı Rodosdan Trakiyaya qədər gözləyirdik. Məlum olduğu kimi, bu zaman İraqda "ox" ölkələri hökumət təşkil etmiş, Suriyada isə Vişi hökuməti açıq şəkildə ingilislər əleyhinə mövqe tutmuşdular. Əgər ədalətin bütün gücü ilə xatırlayırsınızsa, türk milləti bütün tərəflərdən "ox" qüvvələri ilə əhatə olunmuşdu. İ.İnönü Sovetlərlə bağlı məsələyə də toxunaraq dedi: "Sovetlərlə almanlar arasında müharibə başlanan kimi vuruşan tərəflərə bildirdik ki, biz bu müharibə də neytral qalacağıq. Həmin zaman bizim mövqeyimiz necə qiymətləndirilirdi? Bu suala cavab vermək üçün vuruşan ölkələrin özlərinin verdiyi qiyməti təkrar etmək mənim üçün yetərlidir. Sovet hökuməti öz səfiri vasitəsi ilə 19 yanvar 1942-ci ildə bizim Xarici İşlər Nazirliyinə rəsmi qaydada bildirdi ki, "türkiyənin mövqeyi həqiqətən müttəfiqlər üçün faydalıdır".

Prezident İ.İnönü Birləşmiş Ştatlarla əlaqələrə toxunaraq dedi ki, 4 dekabr 1941-ci ildə Amerika prezidenti Türkiyənin müdafiəsinin Amerikanın müdafiəsi üçün həyati əhəmiyyət kəsb etdiyini bəyan etdi və ABŞ prezidenti şəxsən bildirdi ki, hətta müvafiq saziş imzalanmasa da, lend-liz üzrə bizə materiallar göndərəcək. Amerika ilə lend-liz haqqında sazişin imzalanması yalnız 1945-ci ilin fevral ayının 23-də həyata keçirildi. Britaniya hökumətinə gəldikdə isə, prezident İ.İnönü qeyd etdi ki, onlar dəfələrlə bizim mövqeyimizi yüksək qiymətləndiriblər. Britaniya Baş nazirinin 1943-cü ilin əvvəllərində Adanada elan etdiyi bəyanatı biz həmişə yaxşı xatırlayırıq (50).

Sonra prezident İ.İnönü Böyük Millət Məclisindəki çıxışında 1943-cü ilin sonlarından başlayaraq Türkiyəyə qarşı yönəlmiş ədalətsiz tənqidlərə

cavab verdi. O dedi: "Bizi ona görə tənqid edirlər ki, biz almanlarla Sovetlər arasında müharibə başlanana qədər almanlarla dostluq haqqında müqavilə imzalamışıq. İstanbul qapılarına qədər gəlib çatmış almanlar əvvəllər Sovet Rusiyası ilə hücum etməmək haqqında pakt bağlamışdı. Hansı hüquqla və hansı dövrdə bizdən almanların bizə hücum etməyəcəkləri barədə yazılı zəmanətindən imtina etməyi gözləyirdilər. Həmin dövrdə ki, bizim ölkəmiz "ox" qüvvələrinə qarşı tamamilə tənha qalmışdı, o zaman ki, Amerika müharibə də iştirak etmirdi, o zaman ki, Boyük Britaniya özünün bütün gücünü Britaniya adalarını alman istilasına qarşı hazırlıq üçün səfərləər etmişdi və nəhayət o zaman ki, Sovetlər almanlarla hücum etməmək haqqında müqavilə ilə bağlı idilər. Xüsusən ona görə ki, bu müqavilədə məxsusi şəkildə bəyan edilirdi ki, Türkiyə özünün ittifaq öhdəliklərinə sədaqətli qalmaqda davam edəcəkdir, bütün əvvəlki və sonrakı danışıqlarda almanların Türkiyə ərazisindən tranzit kimi Suriya və İraqa yardımlarına biz qəti şəkildə etiraz etdik və biz almanlara bütün bu şərtləri qəbul etdirdik".

İ.İnönü qeyd etdi ki, Sovet hökuməti, Böyük Britaniya və Amerikanın türk durumunu təqdir etdikləri tarixlər, Almaniya ilə imzaladığımız müqavilədən sonradır. Bu o demək idi ki, almanlarla dostluq haqqında müqavilə həmin dövrdə müttəfiq millətlər üçün də zəruri sayılırdı və qara günlər arxada qalan kimi bizim əleyhimizə olan tənqidlər süni formada meydana çıxarılmışdı. Kimlərsə deyir ki, qüvvələrimizi öz şərq sərhədlərimizə toplamaqla almanların Volqaya qədər irəliləməsində biz Sovetlərə mane olmuşuq. Hamıya aydın olmasa da, rəsmi müttəfiq hökumətlərinə bəllidir ki, almanlar Volqaya qədər irəliləyən zaman bizim müdafiə cəbhəmiz Rodosdan Hopaya qədər genişlənmişdi. Almanların bizim Qara dəniz cələhəmiz əleyhinə gözlənilməz əməliyyat ehtimalı bizi məcbur etmişdi ki, öz qüvvələrimizi bütün Qara dəniz sahilləri boyunca paylaşdıraq. Həttabu ehtimal burada Ankaranın, bizim paytaxtımızın müdafiəsi üçün qüvvə toplamamıza səbəb olmuşdu. Yaxın vaxtlarda tapılan alman planlarında bu ehtiyat tədbirlərinin yersiz olmadığı açıqca göstərilmişdir. 1942-ci ilin yayında biz rəsmi qaydada Sovet hökumətinə bildirmişdik ki, almanların Qafqaz cəbhəsinə arxadan zərbə endirmək məqsədi ilə desant çıxarmaq ehtimalı böyük olduğu üçün biz Trabzon və Hopaya ordu cəmləşdiririk. Bizim ölkənin hərbi qüvvələrinin yer dəyişməsinin səbəbi məhz bununla bağlıdır. Biz Sovetlərdən razılıq ifadə edilən cavab aldıq. Daha inandırıcı formada izah etmək mümkün deyil ki, müharibə zamanı bizim ordunun dislokasiyası müstəsna olaraq "ox" ölkələrinə qarşı istiqamətlənmişdi (51).

Bu mühüm məsələnin izahından sonra İ.İnönü Türkiyənin Almaniya və Yaponiyaya qarşı müharibə yə daxil olması, daha doğrusu gec daxil olması ilə bağlı söylənilən tənqidi fikirlərə öz münasibətini bildirdi: Bi-

zim müharibə elan etməyimizin heç bir nəticə vermədiyini və bunun müttəfiqlərin qələbəsinin artıq aydın olduğu bir vaxtda edildiyini söyləyirlər. Müharibə elan etməyimizin təsiri haqqında elə bir iddiamız yoxdur. Bizim iddiamız müharibə elan etməzdən öncə illərlə davam edən dəhşətli dövrdə yeritdiyimiz hərəkət xəttinin müttəfiqlərin qələbəsinə yardım etməsindən ibarətdir. Bizim almanlara və yaponlara müharibə elan etməyimiz müttəfiqlərin istəyi ilə olmuşdur. Onlar üçün hər hansı əhəmiyyəti var idi ki, bizdən bunu istədilər. Heç kəs bizə deyə bilməz ki, biz müttəfiqlərin qələbəsi bəlli olandan sonra müharibə elan etmişik. Biz qara günlərdə bir yerdə idik, qələbə günlərində isə qənimətdən bir hissə almaq niyyətimiz yoxdur ki, biz bu fürsətdən istifadə etmək barəsində düşünək.

Daha sonra İ.İnönü Türkiyənin 1944-cü ilin avqustunda Almaniya ilə əlaqələri kəsdikdən dərhal sonra müharibəyə girməməsi ilə bağlı məsələlərə aydınlıq gətirərək dedi: "Münasibətləri kəsdiyimiz anda İngiltərə ilə aramızda yazılı bir qərara dayanan durum belə idi: bu qərar müharibədə real iştiraka doğru birinci addımdır. Türkiyənin müharibəyə girməsinin təfərrüatını Britaniya hökuməti sonradan bizimlə müzakirə edəcəyini bildirmişdi. O zamandan bəri müttəfiqlərimiz bizdən əllərindəki hazırkı qərarın tətbiqini istəmədilər".

Prezident İ.İnönü tez-tez Sovet mətbuatında və xüsusilə Molotov-Sarper danışıqlarında toxunulan müharibə dövründə Boğazlardan SSRİ-yə hərbi yüklərin daşınması məsələsinə də aydınlıq gətirdi. O, qeyd etdi ki, Boğazlardan Rusiyaya göndərilən yardım gəmilərinin Türkiyə tərəfindən buraxılmaması haqqında atmacalara gəlincə bu, tamamilə boş bir iddiadır. Bütün İkinci Dünya müharibəsi boyunca Türkiyənin bu məsələdə heç bir təqsiri yoxdur. Əgər müttəfiqlər Boğazlar yolu ilə bir-birlərinə yardım etmədilərsə, bu bizim hər hansı bir hərəkətimizlə deyil, "ox" ölkələrinin Aralıq dənizi yollarını dənizdən və havadan 1945-ci ilə qədər qapalı saxlaya bilməsi ilə bağlıdır. Bu məsələ ilə bağlı İ.İnönü sözünü belə yekunlaşdırdı: "Montrö konvensiyasının İkinci Dünya müharibəsində hər hansı bir şəkildə zərərli olduğunu söyləmək mümkün deyildir. Boğazların möhkəm əllərdə olduğu və bütün millətlərin mənafeyinə uyğun sərbəst keçidlərin heç bir maneə qarşısında durmadığı sübut olunmuşdur" (52).

Türkiyə Böyük Millət Məclisindəki bu geniş çıxışında prezident İ.İnönü ölkəsinə qarşı irəli sürülən ərazi iddiaları və digər tələblərlə bağlı məsələlərə də toxundu. O, bildirdi ki, alman siyasəti İkinci Dünya müharibəsini birincinin davamı hesab edir. Birinci Dünya müharibəsində Mərkəz dövlətləri içərisindən bir tək Türkiyə istisna olmaqla, qalanları İkinci Dünya müharibəsində də bir sırada olmuşlar. Türkiyə isə Birinci Dünya müharibəsinin ağırlığını digər ölkələrdən daha dörd il artıq öz çiyinlərində çəkmiş, yalnız 1923-cü ildə sülh bağlaya bilmiş, böyük bir

imperatorluğu itirmiş, həyatını və milli sərhədlərini xilas etmək üçün saysız-hesabsız fəlakətlər yaşamışdır. Lakin məmləkətimiz on altı il sonra meydana gələn İkinci Dünya müharibəsində bütün təhlükələri göz önünə alaraq açıqdan-açığa İngiltərənin yanında və Birləşmiş Millətlərin tərəfində dayanmışdır. Belə mövqe tutduğuna görə Türkiyə köhnədən itirdiklərindən və yeni şəraitin yaratdığı imkanlardan heç nə tələb etməmiş mümkün olduğu qədər faydalı olmağa çalışmışdır. Hər hansı bəhanə ila torpağı və ya hüquqları ilə bağlı Türkiyədən nəsə istəmək ən adi ədalət prinsiplərinə uyğun deyildir. İ.İnönü fikrini belə ümumiləşdirdi: Açıq söyləyirik ki, türk torpaqlarından və haqlarından heç kimsəyə veriləcək bir borcumuz yoxdur. Ən nəhayət, 1925-ci ilin dostluq müqaviləsinin ləğvindən sonra Sovetlərlə aramızdakı dostluq müqaviləsinin ləğvi əvəzinə, yeni əsaslarda və ciddi olaraq təkmilləşdirilmiş bir müqavilə bağlamaq üçün bütün imkanlarımızı sərf etdik. Bu cəhdlərimizin bugünkü nəticəsini bilirsiniz. Həqiqətlərin daha yaxşı anlaşılacağından, yaxşı qonşuluq hisslərinin qələbə çalaraq iki məmləkət arasında yaxşı münasibətlər qurulması ehtimalından ümidimizi kəsmiş deyilik. İmkanları daim açıq ürəklə qarşılayacağıq (53).

Prezident İ.İnönünün Böyük Millət Məclisinin sessiyasının açılışında çıxış edib bir sıra məsələlərə aydınlıq gətirməsindən dərhal sonra, noyabr ayının 2-də Ankaradakı Amerika, Sovet və Britaniya səfirləri görüşüb bəzi məsələlər ətrafında fikir mübadiləsi etdilər. Müzakirə zamanı Sovet səfiri S.Vinoqradov öz hökumətinin göstərişi ilə 1942-ci ilin yanvar ayının 19-da Türkiyənin mövqeyi ilə bağlı minnətdarlıq bildirdiyini etiraf etdi. Lakin o, təkid edirdi ki, Türkiyə Qahirə konfransından sonra müharibə yə girməməklə Qərb müttəfiqlərinin yaxşı münasiləətinə iddia etmək hüququnu itirilə. Birləşmiş Ştatların səfiri E.Vilson S.Vinoqradovun bu fikrinə etiraz edib bildirdi ki, nə onun ölkəsi, nə də Sovet İttifaqı bilavasitə onlara hücum olmayana qədər müharibəyə qoşulmayıblar. E.Vilson əlavə etdi ki, Türkiyənin müharibənin həlledici dövrlərində Almaniyanın tələblərinə rədd cavabı verməsi müttəfiqlər üçün faydalı olub. Sonra E.Vilson Sovet hökumətinin Türkiyə hökumətinə ayrı bir təklif vermək niyyətində olub-olmadığını soruşduqda S.Vinoqradov bildirdi ki, onun hökumətinin mövqeyi İ.Stalin tərəfindən Potsdamda açıqlanıb. Səfir Vilson bunun SSRİ-nin Türkiyə ərazisindəki bazalarla bağlı tələbinin qüvvədə qalması demək olub-olmadığını soruşduqda S.Vinoqradov dedi ki, müharibə zamanı SSRİ-nin təhlükəsizliyi heç bir başqa yolla təmin edilə bilməz. Bu müzakirələr barədə E.Vilson Dövlət katibi C.Bimsə yazırdı: "Vinoqradov Türkiyə ilə bağlı o qədər sərt və ədavətli danışır ki, onun münasibətinin öz hökumətinin mövqeyini əks etdirdiyini nəzərə alsaq, Boğazlar probleminin SSRİ ilə əlverişli şəkildə həll olunması ehtimalının az olduğu ortaya çıxır. Onun münasibəti daha çox SSRİ

tərəfindən ortaya atılan Boğazlar probleminin Sovetin Türkiyəni nəzarət altına almaq kimi real məqsədini gizlətmək üçün pərdə olduğu fikrini təsdiqləyir" (54).

Prezident İ.İnönünün yuxarıda ətraflı bəhs edilən çıxışı Türkiyə ictimaiyyətində və mətbuatında böyük maraqla qarşılandı. Qəzetlər Türkiyənin İkinci Dünya müharibəsi vaxtı yeritdiyi siyasətin doğruluğu haqqında prezidentin fikirlərini geniş şərh edirdilər. Bu məsələyə münasibətdə qərəzli mövqe tutan Ankaradakı Sovet səfirliyi SSRİ Xarici İşlər Komissarlığına yazırdı ki, bir sıra türk jurnalistləri müharibə zamanı Türkiyənin müttəfiqlərə tərəfdar olan siyasət yeritdiyini sübut etmək üçün tarixi faktları saxtalaşdırmağa hər cür cəhdlər göstərirlər. Bununla bağlı onlar xüsusi şəkildə qeyd edirlər ki, bir vaxtlar bu məsələyə münasibətdə bəzi tərəddüdləri olan İngiltərə və Amerika indi Türkiyənin mövqeyini yetərincə yüksək qiymətləndirirlər. Bir sıra mətbuat orqanlarının fikrincə, anqlo-sakslar müttəfiqlər qarşısında Türkiyə siyasətinin xidmətlərini qiymətləndirsə də, "Rusiya bunu başa düşmür" (55).

Sovet səfirliyinin məlumatına görə, İ.İnönünün çıxışının xarici siyasət haqqında olan hissəsi onların təbirincə təkcə mürtəce junalistlər tərəfindən deyil, mütərəqqi jurnalistlər tərəfindən də müdafiə olunurdu. Onlar yetərincə aktiv şəkildə "müharibə dövründə Türkiyənin siyasətinin doğruluğunu" təsdiq edirlər. M.Sertel, A.Yalman kimi tanınmış jurnalistlər İ.İnönünün dediyi "heç kim Türkiyəni yeritdiyi siyasətə görə günahlandırmaq hüququna malik deyil" fikrini tam dəstəkləyir, prezidentin türk siyasətini tənqid edənlərə qarşı gətirdiyi dəlillərlə razı olduqlarını bildirirdilər. İ.İnönünün çıxışı o qədər böyük əks-səda doğurmuşdu ki, Ankaradakı Sovet səfirliyinin V.Dekanozova göndərdiyi məlumata görə, daim hökuməti tənqid edən Sabiha Sertel və Cami Baykurt kimi jurnalistlər prezidentin çıxışının xarici siyasət bölməsi haqqında bir söz belə şərh etməmişdilər. Səfirliyin məlumatında deyilirdi: "Bütün jurnalistlər çıxışın o hissəsini xüsusi şəkildə qeyd edirlər ki, orada prezident İngiltərə və Amerika ilə, İraq başda olmaqla ərəb ölkələri ilə dostluq haqqında danışır. Bu da əlbəttə, türk xarici siyasətinin "uğurlarını" tərifləmək üçün əlavə bəhanə verir" (56). Noyabr ayının 11-də çıxan "Tanin" qəzetində C.Yalçın yazırdı: "Son əsrlərin tarixində biz elə bir dövr tanımırıq ki, Türkiyə belə möhkəm mövqedə yer tutsun və bugünkü kimi rəğbət qazansın. O, İngiltərənin müttəfiqidir, ABŞ-ın sarsılmaz dostudur və bütün dünya ilə dostluq münasibətləri qurmağı arzulayır". Noyabr ayının 19-da isə "Tan" qəzetində keçmiş xarici işlər naziri R.Arasın geniş məqaləsi dərc edildi. Türkiyə cəmiyyətində sərhədlərin dəyişdirilməsi barəsində Sovet tələblərinə aid söhbətlər dolaşdığından Aras bildirdi ki, bizim iki ölkənin müqaviləsi əsasında yaradılmış - sərhədlərimiz heç bir səbəb ucbatından dəyişdirilə bilməz və bu istiqamətdə heç bir danışıqlar

gedə bilməz. Aras belə hesab edirdi ki, əsas prinsipləri qalmaq şərtilə Montrö konvensiyasında bəzi dəyişikliklər edib bilər. Onun fikrincə, Konvensiyada ABŞ-ın Yaponiyanı əvəz etməsi faydalı olardı və o, Amerikanın bu məsələ ilə bağlı Türkiyəyə nota təqdim etməsi faktını Boğazlar məsələsində dəyişikliklərə doğru atılan addım kimi şərh edirdi. Ankaradakı Sovet səfirliyi prezident İ.İnönünün noyabr ayının 1-də Böyük Millət Məclisindəki çıxışının tam mətnini təcili olaraq rus dilinə tərcümə edib SSRİ Xarici İşlər Komissarlığına göndərdi. Moskvada İ.İnönünün çıxışı çox diqqətlə öyrənildi və Xarici İşlər Komissarlığının əməkdaşı V.Kornev çıxışda irəli sürülən bir sıra fikir və mülahizələrlə bağlı Sovet rəhbərliyi üçün altı səhifəlik tənqidi rəy hazırladı. Prezident İ.İnönünün çıxışının mətni və ona Xarici İşlər Komissarlığında hazırlanmış rəy komissarlığın Yaxın Şərq şöbəsinin müdiri İ.Samılovski tərəfindən Azərbaycan, Ermənistan və Gürcüstan SSR-in Xarici İşlər Komissarlıqlarına da göndərildi.

SSRİ Xarici İşlər Komissarlığında V.Kornev tərəfindən hazırlanan rəydə İ.İnönünün çıxışı son dərəcə tənqidi baxımdan şərh edilirdi. Rəydə qeyd olunurdu ki, İ.İnönünün Böyük Millət Məclisinin açılışındakı ənənəvi illik çıxışı bir qayda olaraq demaqogiya mahiyyətində olması ilə fərqlənir. V.Kornev izah edirdi ki, adətən prezidentin belə çıxışları iki hissədən: daxili və xarici siyasətdən ibarət olur. Bu məsələlərdən hansının əvvəl təqdim olunması parlament qarşısında hökumətin nəyə daha çox üstünlük verməsi ilə müəyyən olunur. Bu dəfə üstünlük türk hökumətinin xarici siyasət fəaliyyətinə verildi. V.Kornevin fikrincə, ikinci Dünya müharibəsi dövründə Türkiyənin mövqeyinə toxunan İ.İnönü sübut etməyə çalışırdı ki, Türkiyə müharibənin ilk günündən bu vaxta qədər müttəfiq millətlərin sırasında olub. Lakin onun mövqeyi müttəfiq millətlərin ayrı-ayrı üzvləri tərəfindən müxtəlif cür qiymətləndirilib. Əgər ingilislər və amerikanlar bütün müharibə dövründə türklərin hərəkətlərini müttəfiqlər üçün əlverişli hesab ediblərsə, Sovet İttifaqı müharibənin birinci mərhələsində (1941-1942-ci illər) İ.İnönünün fikrincə, almanların Qafqaza yolunu bağladığına görə "Türkiyənin mövqeyini yüksək qiymətləndirirdi". V.Kornev davam edərək yazır ki, müharibənin ikinci mərhələsində (1943-1945-ci illər) Türkiyənin sonrakı hərəkətlərinə gəldikdə İ.İnönü bəyan edir ki, ingilis-amerikanlar Türkiyəni tərifləməkdə davam etdiyi halda, Sovet İttifaqı "onu ədalətsiz tənqidə məruz qoydu". Bütün bu məsələlərə toxunaraq Xarici İşlər Komissarlığının rəsmisi belə hesab edir ki, İ.İnönü birinci, Almaniyanın SSRİ-yə hücumu ərəfəsində Türkiyənin almanlarla müqavilə bağlamasına, ikinci isə, Almaniya ilə formal olaraq diplomatik münasibətləri kəsdikdən sonra türklərin faktiki olaraq almanlar əleyhinə müharibə də iştirakdan yayınmağına bəraət axtarır, almanlarla dostluq müqaviləsini təmizə çıxarmağa cəhd edir.

Xarici İşlər Komissarlığının rəyində 1942-ci ilin yayında Türkiyənin Hopa və Trabzon rayonuna ordu toplamaqla bağlı İ.İnönünün dəlilləri kəskin tənqid olunurdu. İ.İnönü qeyd edirdi ki, bu ordu almanların Qafqaza yolunu bağlamaq üçün bu rayona cəmləşdirilmişdi. V.Kornev izah edirdi ki, əslində türk ordusunun orada cəmləşdirilməsi antisovet xarakter daşıyırdı. Sovetlərin fikrincə, qeyd edilən rayonlara ordu toplanması ona görə həyata keçirilmişdi ki, almanlar əleyhinə müdafiə üçün Sovet komandanlığı Qafqaz sərhədlərində yerləşən Türkiyənin sərhəd xəttlərinin və Qara dəniz limanlarının bir hissəsindən istifadə etməyi tələb edə bilərdi. V.Kornev yazırdı ki, əgər almanlar bu dövrdə Qafqaza soxula bilmədilərsə, bu onunla bağlı deyil ki, türklər onlara mane oldu, şübhəsiz ki, onunla bağlıdır ki, 1942-ci ilin sonunda alman ordu qruplaşması Stalinqrad rayonunda darmadağın edildilər (57).

SSRİ Xarici İşlər Komissarlığı belə hesab edirdi ki, İ.İnönünün çıxışının Türkiyənin Almaniya ilə diplomatik münasibətləri kəsib "ox" ölkələrinə müharibə elan etməsinə aid olan hissəsi daha demaqogiya xarakteri daşıyır. V.Kornev yazırdı ki, İ.İnönü türk hökumətinin bu addımının müttəfiqlər üçün "faydalı" olduğunu sübut etməyə çalışır. Rəydə İ.İnönünün çıxışının o yerinə xüsusi diqqət yetirilirdi ki, orada prezident Türkiyənin Almaniya və Yaponiya ilə diplomatik münasibətləri kəsib onlara müharibə elan etməsini türk hökumətinin bilavasitə arzusu kimi deyil, müttəfiqlərin tələbinin yerinə yetirilməsi kimi açıqlayırdı. V.Komev yazırdı ki, bütün İkinci Dünya müharibəsi boyunca söhbət Türkiyənin özünü aparmasından, əvvəlcə onun Bolqarıstan əleyhinə Yunanıstan qarşısındakı öhdəliklərinin, sonra isə Almaniya əleyhinə Böyük Britaniya və Fransa qarşısında götürdüyü öhdəlikdən gedəndə türk hökuməti həmişə öz ordusunun maddi və təchizat cəhətdən hazır olmamasına istinad edərək almanpərəst siyasətinə bəraət qazandırmağa çalışıb. Daha sonra rəydə qeyd olunurdu ki, Tehran konfransından sonra Türkiyənin müharibə yə daxil olmasına münasibətdə Sovet İttifaqının təklifi ilə bağlı İ.İnönü susub və deputatlara Sovetlərin mövqeyi barədə məlumat verməyib. V.Kornev izah edirdi ki, Sovet hökumətinin faktiki olaraq türklərə müharibə yə girməyi təklif etməsi o demək idi ki, onlar Almaniya ilə diplomatik münasibətləri kəsməlidirlər. Eyni zamanda ingilis-amerikanların Türkiyənin Almaniya ilə diplomatik münasibətlərini kəsməsinə təkid etməsi və bunu "ox" ölkələrinə qarşı müharibə yə daxil olmağın birinci addımı hesab etmələri Sovet tərəfini təəssüfləndirirdi. V.Komev yazırdı: "İngilis-amerikanların belə mövqeyi şübhəsiz ki, türklərin əlinə çox böyük dəlil verdi. Bu addım faktiki olaraq türk hökumətinə Almaniya ilə münasibətlərin kəsilməsi kimi formal aksiyadan və almanlara qarşı müharibə də real iştirakdan yayınmaq imkanı verdi. İngilis-amerikanların bu mövqeyi Türk hökumətinə ümid verdi və ümid

verir ki, guya qələbəyə öz payını vermiş Birləşmiş Millətlərin bərabər-hüquqlu üzvü kimi müharibə dən sonrakı dövrdə Türkiyə bəraət alsın".

Ən nəhayət, İ.İnönünün çıxışının Türkiyənin ayrı-ayrı dövlətlərlə münasibətlərinə aid olan hissəsini şərh edərkən V.Kornev qeyd edirdi ki, İ.İnönü Sovet İttifaqını dostluq haqqında müqaviləni ləğv etməklə guya Türk hökumətinin SSRİ-yə münasibətdə səmimi hisslərini başa düşməməkdə günahlandırmağa çalışır və sübut etmək istəyir ki, Türk hökuməti SSRİ ilə münasibətlərini yaxşılaşdırmaq üçün çox böyük səylər göstərir, Sovet İttifaqı isə Türkiyəni başa düşmək istəmir (58). V.Kornevin hazırladığı rəyin qalan iki səhifəsi İ.İnönünün çıxışında toxunulan daxili siyasətlə bağlı məsələlər barəsində Sovetlərin qərəzli mövqeyini əks etdirirdi. Sovetlər belə hesab edirdilər ki, prezident İ.İnönünün 1 noyabr çıxışı Türkiyə mətbuatında antisovet kampaniyanın güclənməsində mühüm rol oynayıb.

Doğrudan da noyabr ayı ərzində prezident İ.İnönünün Böyük Millət Məclisinin sessiyasının açılışındakı çıxışının dəyərləndirilməsi fonunda Sovetlərin Türkiyəyə münasibətdə iddialı siyasəti, V.Molotovun 6 noyabr nitqi, ermənilərin Şərq vilayətlərinə tələbləri, Sovet İttifaqının Balkanlarda və İran Azərbaycanında yeritdiyi siyasət türk mətbuatında kəskin tənqid edildi. Böyük Oktyabr Sosialist inqilabının ildönümü ərəfəsində türk mətbuatı belə hesab edirdi ki, marşal Stalin çıxış edib aktual beynəlxalq məsələlərə Sovet nöqteyi-nəzərini açıqlayacaqdır. Lakin gözlənilən çıxışı noyabr ayının 6-da V.Molotov etdi. Türk jurnalistlərinin bir hissəsi bunu ingilis-amerikan mətbuatında yayılmış t.Stalinin xəstəliyi haqda xəbərlə əlaqələndirirdilərsə, digər hissəsi bunu Sovet İttifaqının rəhbərliyində böyük dəyişikliklərin təzahürü kimi qiymətləndirirdi. Bütün qəzetlər haqlı olaraq bu fikirdə idilər ki, əgər Stalin çıxış etsə idi, o, eyni ilə V.Molotovun dediklərini deyəcəkdi və bu çıxış şübhəsiz ki, Stalinlə razılaşdırılıb. Türk mətbuatı V.Molotovun çıxışını qeyri-səmimilikdə günahlandırıb onu "Boş, heç bir məna daşımayan sözlərin yığını" adlandırırdı. V.Molotov öz nitqində son vaxtlar beynəlxalq vəziyyətin gərginləşməsini Qərb blokunun yaradılmasına cəhdlərlə əlaqələndirirdi. Bir sıra türk qəzetləri Qərbin bu cəhdlərini Sovet İttifaqının yaratdığı slavyan ölkələrinin şərq blokuna cavab kimi qiymətləndirirdilər. Digər cəhətdən V.Molotov SSRİ-nin guya Almaniyanın keçmiş müttəfiq ölkələrində demokratiyaya mane olmaq fikrində olmadığını bəyan edəndə bir sıra türk qəzetləri onun bu açıqlamasını mənasız bir söz olaraq tənqid edir və yazırdılar ki, bilavasitə ruslar Rumıniya və Bolqarıstanın türklərlə ticarətə başlamalarına mane olur. Türk jurnalistləri V.Molotovun çıxışını bir gün sonra Britaniya xarici işlər naziri E.Bevinin 7 noyabrdakı çıxışı ilə müqayisə edərək belə nəticəyə gəlirdilər ki, Britaniya nazirinin çıxışı "canlı, səmimi və aktualdır" (59).

Balkan ölkələri ilə bağlı türk mətbuatı Bolqarıstanda seçkiləri diqqət mərkəzində saxlayır, ABŞ-ın notası ilə Bolqarıstan hökumətinin seçkini dayandırmasını Balkanlarda öz ağalığını qurmağa çalışan SSRİ-nin siyasətinə müqavimət kimi, Qərbin Sovetlərə güzəştli siyasətdən əl çəkməsi kimi qiymətləndirirdi. Əslində Balkanlarda yaranmış vəziyyəti türk qəzetləri ingilis və amerikanların səhv siyasəti ilə əlaqələndirirdilər. SSRİ Xarici İşlər Komissarlığına Sovet səfirliyinin göndərdiyi məlumatda qeyd edilirdi ki, ingilis-saksonların Balkanlarda qətiyyətsiz siyasətini mühakimə edən türk qəzetləri Titonun, Qrozanın, Georgievin demokratik hökumətinə çirkab atırlar. Türk mətbuatında işlər belə təsvir edilir ki, SSRİ öz iradəsini bu hökumətlərə diktə edir və guya bu hökumətlərin heç bir müstəqilliyi yoxdur (60).

1945-ci ilin payızında Sovet nəzarəti altına düşmüş Bolqarıstan Türkiyə ilə də münasibətlərini qoruyub saxlamaq istəyirdi. Bu məqsədlə 1945-ci ilin noyabr ayında Bolqarıstan Nazirlər Kabinetinin üzvü Antonov Ankaraya gəlmişdi. Düzdür o, Ankaraya Bolqarıstan hökumətinin göstərişi olmadan guya öz təşəbbüsü ilə gəldiyini və bunun SSRİ ilə Türkiyə arasında münasibətlərin vəziyyəti ilə bağlı onun keçirdiyi narahatçılıqdan irəli gəldiyini və hər iki ölkənin dostu olduğundan vəziyyəti yaxşılaşdıra biləcəyinə olan ümidindən qidalandıgını desə də, Antonovun Baş nazir Ş.Saracoğlu ilə görüşdən qabaq "yanlış anlaşma ola biləcəyinə görə" Sovet səfiri S.Vinoqradova baş çəkməsi bəzi məqamlara aydınlıq gətirirdi. Bolqarıstanlı nazir türk-sovet əlaqələrini inkişaf etdirmək üçün bir sıra addımlar atmaq lazım gəldiyini və nə üçün Türkiyə hökumətinin bu istiqamətdə təşəbbüs göstərmədiyinin səbəbini soruşduqda Baş nazir Ş.Saracoğlu daha əvvələ qayıdaraq dedi ki, vaxtilə Türkiyə ilə SSRİ arasında imzalanması təklif olunan ittifaq müqaviləsinin əsas müddəası barədə Potyomkinlə razılığa gəldikdən sonra 1939-cu ildə danışıqları tamamlamaq üçün Moskvaya getmək təşəbbüsü olub. Nəticədə nə baş verdiyini hər kəs bilir. Sonralar Türkiyə iki və ya üç dəfə SSRİ ilə əlaqələrin yaxşılaşdırılması üçün cəhd göstərib, lakin bunlar heç bir nəticə verməyib. Baş nazir dedi ki, bu istiqamətdə sonuncu cəhd keçən yay Sarperin Vinoqradovla Ankaradakı danışıqlarından sonra Sovet səfirinin Sarperi Moskvada Molotovla müzakirələri başlamaq təşəbbüsü göstərməyə həvəsləndirməsi zamanı edilib. Lakin Sarper türk ərazilərinə iddialarla üzləşdiyindən, Baş nazir bu şərtlər altında daha bir təşəbbüs göstərməyin faydasız olduğunu hesab edir. Danışıqların gedişində Antonov Türkiyənin İraq, Suriya və digər Yaxın Şərq ölkələri ilə münasibətlərinin yaxşılaşmasına toxunaraq demişdi: "Açığı, əgər Türkiyə bu ölkələrlə münasibətlərində belə davam etsə, qorxuram SSRİ bunu bəyənməsin" (61).

Balkanlarla yanaşı 1945-ci ilin noyabr ayında Sovetlər İran Azərbaycanında da artıq bir sıra əməli addımlar həyata keçirmişdilər. İran

hakimiyyət orqanları tərəfindən Azərbaycana qarşı yaradılan iqtisadi blokadanı neytrallaşdırmaq üçün SSRİ Xalq Komissarları Soveti noyabr ayının 4-də "İran Azərbaycanı ilə ticarətin genişləndirilməsi haqqında" qərar qəbul etmişdi. ÜİK(b)P MK-nın 8 oktyabrdakı tövsiyələri demək olar ki, bütövlükdə V.Molotovun imzaladığı 4 noyabr tarixli qərara düşmüşdü (62).

İran Azərbaycanında başlanmış işlərə əməli xarakter vermək üçün Moskvanın göstərişi ilə noyabr ayının ortalarında ümumi sayı 3000 nəfər olan 30 silahlı dəstə yaradıldı. Həmin dəstələri silahlandırmaq üçün İran silahları tipində 5000 "brno" tüfəngi, 500 tapança, 300 avtomat və pulemyot noyabr ayının ortalarında ot yüklənmiş maşınların içində gizli şəkildə İran Azərbaycanına aparıldı. Azərbaycan Demokrat Firqəsi üzvlərindən əlavə olaraq səfərbər edilmiş dəstələri silahlandırmaq üçün noyabr ayı ərzində ümumilikdə İran Azərbaycanına İran ordusuna məxsus silah növlərindən 11.500 tüfəng, 1000 tapança, 400 avtomat və pulemyot, 2000 əl qranatı, iki milyon yarım patron göndərildi (63).

Noyabr ayının 17-də Tehrandakı Sovet hərbi attaşesi ilə görüşən İranın hərbi naziri Azərbaycanda "şübhəli silahlı adamların" peyda olduğunu, Şimali İranda Sovet ordusunun gücləndirildiyini qeyd etdikdə Sovet tərəfi bunu inkar etdi. Noyabr ayının 18-də Tehrandakı müvəqqəti işlər vəkili Ə.Yaqubovla görüşən İranın Baş naziri Müdafiə Nazirliyində müzakirə edilən məsələlərə toxunduqda Ə.Yaqubov bildirdi ki, Azərbaycandakı qarışıqlıq Sovet səfirliyinə məlum deyil və ora əlavə olaraq İran ordu hissələrini göndərmək məsələsi Sovet ordu komandanlığı ilə müzakirə edilməlidir. Sovet qoşunlarının Şimali İranda gücləndirilməsinə gəlincə, Ə.Yaqubov qeyd etdi ki, bu, həqiqətə uyğun deyildir və hazırda SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarına əsasən ordudan tərxis əməliyyatı başlanmışdır (64).

Ə.Yaqubovun İran hakimiyyət orqanlarına münasibətdə sərt davranışı Moskvadan aldığı göstərişlərlə bağlı idi. Tehran mətbuatında antisovet dalğanın başlanması hətta noyabr ayının 14-də Siyasi Büro səviyyəsində müzakirə edilmişdi. I.Stalin haqqında həcv yazan "Sədai İran" qəzeti haqqında Siyasi Büronun qərarında göstərilirdi ki, Moskvadakı İran səfiri M.Ahinin şifahi formada nəzərinə çatdırılsın ki, son zamanlar İranda Sovet İttifaqı əleyhinə bir sıra qəzetlərin həyata keçirdiyi düşmən təbliğatı güclənməkdədir. Öz xarakterinə görə, bu qəzetlərin çıxışları bir vaxtlar Hitler Almaniyasında Sovet İttifaqı əleyhinə aparılan faşist təbliğatından heç nə ilə fərqlənmir. Bunun bariz nümunəsi noyabr ayının 5-də Sovet hökumətinin başçısı haqqında çirkin həcv yazan "Sədai İran" qəzetidir. Sovet dairələrində bu vəziyyət narahatlıq və təəccüb doğurmaya bilməz ki, ayrı-ayrı Tehran qəzetləri SSRİ və onun rəhbərləri əleyhinə sistematik çıxışlara yol verirlər. Sovet hökuməti gözləyir ki, SSRİ əley-

hinə düşməncəsinə çıxışlarına görə İran hökuməti "Sədai İran" qəzetinə qarşı zəruri ölçülər götürəcəkdir. Siyasi Büronun qərarının ikinci bəndində qeyd edilirdi ki, SSRİ-nin İrandakı müvəqqəti işlər vəkili yoldaş Ə.Yaqubov İran Xarici İşlər Nazirliyinin qarşısında analoji təqdimatla çıxış etməli və. "Sədai İran" qəzetinin bağlanmasını İran hakimiyyət orqanlarından tələb etməlidir (65).

V.Molotovun tapşırığı üzrə SSRİ Xarici İşlər komissarının müavini noyabr ayının 17-də İranın Moskvadakı səfiri M.Ahini komissarlığa dəvət edərək Siyasi Büronun təsdiq etdiyi bəyanatı şifahi və yazılı şəkildə ona çatdırdı. SSRİ Xarici İşlər Komissarlığında görüş zamanı M.Ahi dedi ki, M.Bayat Baş nazir seçilən zaman mən ona xəbərdarlıq etdim ki, əgər o, Baş nazir olmaq istəyirsə, İranda hər bir rəhbər xadimin qarşısında duran Sovet İttifaqı ilə həqiqi dostluq yaradılması kimi mühüm məsələdən yan keçə bilməz (66).

İrandan fərqli olaraq Sovet idarələri Türkiyə ilə belə rəftar edə bilmirdi. İranın şah sarayından, Nazirlər Kabinetindən, parlamentdən tutmuş ordu hissələrinə qədər hər yerdə Sovet xüsusi xidmət orqanlarının adamları geniş fəaliyyət göstərdiyindən İran hakimiyyət orqanlarının qəbul etdiyi ən gizli qərarlardan belə Sovet rəhbərliyi məlumatlı idi. Lakin bu Türkiyədə mümkün deyildi. Türkiyə Sovet təzyiqlərinə münasibətdə öz yekdilliyini qoruyub saxlaya bildi.

Əslində İran Azərbaycanında Sovetlərin yeritdiyi siyasət və Cənubi Qafqazda güclənmək tədbirləri Türkiyəni son dərəcə ehtiyatlı olmağa məcbur edirdi. İran Azərbaycanındakı hadisələrə münasibətdə Türkiyə siyasi dairələri ona görə sərt mövqe tutdu ki, bu bir tərəfdən Sovetlərin ekspansiyası ilə bağlı idi, ikinci tərəfdən bu ekspansiya Türkiyə üçün strateji baxımdan təhlükə törədirdi. Ona görə türk mətbuatı bu hadisələrdə Sovetləri İran Azərbaycanını İrandan ayırmaqda, onun Sovet İttifaqına birləşdirilməsini təbliğ edən Azərbaycan Demokrat Firqəsinin yaradılmasında, Şimali İranda neft mənbələrini ələ keçirmək, Orta Şərq və Hindistan yollarında ağalıq etmək üçün Fars körfəzinə çıxmaq cəhdlərində ittiham edirdi. Türk mətbuatı belə hesab edirdi ki, bütün bunları həyata keçirmək üçün SSRİ üsyanı yatırmaqda İran hökumətinə mane olur, faktiki olaraq özü üsyançıları rühlandırır və onları "yük maşınlarında silah" verməklə müdafiə edir. Bir sıra qəzetlər yazırdı ki, Sovetlər İrandan çıxacaq, lakin çıxmaq ərəfəsində "İranın qəlbini" də özü ilə götürəcək. SSRİ-nin Ankaradakı səfirliyinin katibi İ.Sasulin Xarici İşlər komissarının müavini V.Dekanozova göndərdiyi hesabatda yazırdı ki, türk jurnalistləri İran Azərbaycanında başlanmış hərəkatın milli xarakterini inkar edir və "bütün bu işlərdə bolşevik əli olduğunu" təsdiq edirlər (67). 1945-ci ilin noyabr ayının 27-də "Tanin" qəzetində C.Yalçının "İran məsələsi və Türkiyə" adlı geniş məqaləsi dərc edildi. O

yazırdı ki, İran məsələsi Türkiyə və Boğazlar məsələsi ilə bağlı olub, eyni problemin bir hissəsidir. Azərbaycan məsələsi hansı forma alacaqsa və ondan hansı nəticələr çıxacaqsa, bu az və ya çox dərəcədə türk cəbhəsindəki vəziyyətin göstəricisi olacaqdır. C.Yalçın qeyd edirdi ki, Rusiya siyasi baxımdan birinci olaraq üç vilayət haqqında və Boğazlar haqqında məsələni qoymaqla Türkiyə üzərinə hücuma keçdi. Lakin o öz niyyətlərini gerçəkləşdirə bilmədi. Onun uğursuzluğunun birinci səbəbi türk xalqının bir olması, təhlükəyə və əsəb müharibəsinə qarşı müqavimət göstərməsi olub. Əgər Türkiyə birinci tələb üzrə öz hökumətini zəiflətsəydi, onu "faşizm"də günahlandırıb yeni "dost" hökumət yaratmaq adı altında həmin hökuməti dəyişsəydi, şübhəsiz ki, bizim Şərq vilayətlərində Azərbaycanda olduğuna bənzər azadlıq və müstəqillik uğrunda mübarizə başlayardı. Rus Azərbaycanı İran üsyançılarına göndərdiyi yardımdan bizim üsyançılara da göndərirdilər. C.Yalçının fikrincə bütün ehtimallara qarşı Türkiyənin sayıqlığı ona gətirib çıxardı ki, rus imperializmi öz metodlarını dəyişsin. Əks təqdirdə qarşısı alınan hücumlar türk ərazilərində Azərbaycandakından da uğurlu ola bilərdi. İndiki zamanda ingilis-saksonların İranda nail olduqları uğurlu müqavimət Türkiyə üçün də eyni əhəmiyyətə malikdir. Əgər ruslar müharibə istəsəydilər, onlar bu arzularını təcili olaraq Türkiyə əleyhinə həyata keçirərdilər. Lakin onlar öz istəklərinə İranda diplomatiya və ticarətin köməyi ilə nail oldular. Və onlar orada o vaxta qədər bununla məşğul olacaqlar ki, onların təkidləri hələ müharibə kimi görünməyəcək (68). Əlbəttə, İran Azərbaycanının Türkiyənin Şərq vilayətləri ilə müqayisə edilməsi barədə C.Yalçının fikirləri reallığı əks etdirmirdi. Belə mülahizələr daha çox Sovet təzyiqinin yaratdığı psixoloji vəziyyətdən irəli gəlirdi. Bunlar bütövlükdə siyasi, milli və etnik xüsusiyyətlərinə görə fərqli məsələlər idi. Lakin bununla belə türk mətbuatı tran Azərbaycanında hadisələrin gedişini doğru müəyyənləşdirə bilmişdi.

İran Azərbaycanında Sovet siyasətini geniş təhlil edən türk mətbuatı belə nəticəyə gəlirdi ki, yaxın gələcəkdə hadisələrin gedişi Sovet ittifaqının İranda hansı məqsəd güddüyünü göstərəcək. Türk mətbuatının ehtimalları düz çıxdı. İran Azərbaycanındakı hadisələrin sonunu gözləmək çox çəkmədi. Dekabr ayının 2-də Azərbaycan K(b)P MK-nın birinci katibi M.C.Bağırov İran Azərbaycanı Milli Məclisinin açılması ilə bağlı Azərbaycan Demokrat Partiyasının və onun bazasında yaranmış milli heyətin Təbrizdən alınmış təkliflərini Stalin, Molotov, Beriya və Malenkova göndərdi. Üç gün sonra Moskvadan Bakıya belə bir teleqram gəldi: "Bakıya, Bağırov yoldaşa Sizin 2 dekabr, 339 saylı telefonoqramınıza cavab olaraq bildirirəm: Milli Heyətin və Demokrat Partiyası Mərkəzi Komitəsinin təklifləri ilə razılaşmaq olar. Molotov, 5.XII.45, saat 02.55" (69). Bu razılıqdan bir həftə sonra dekabr ayının 12-də (İran

təqvimi ilə Azər ayının 21-də) İran Azərbaycanı Milli Məclisi işə başladı və S.C.Pişəvəri başda olmaqla Milli hökumət təsis edildi. Bununla da Sovetlərin Şimali İranda, Türkiyənin şərq sərhədlərində planlaşdırdığı muxtariyyat hərəkatına rəsmi status verildi və Türkiyəyə qarşı Sovet tələbləri qorxulu mərhələyə daxil oldu.

Nəzərə almaq lazımdır ki, İran Azərbaycanındakı hadisələrə münasibətdə Türkiyə siyasi dairələri ilə Türkiyədəki Azərbaycan mühacirəti arasında fikir ayrılığı var idi. Dekabr ayının 5-də İstanbulda Azərbaycan mühacirlərindən Mirzə Hacızadə, Ələkbər Şamxorski və Şəfi bəy Rüstəmbəyovun iştirakı ilə Azərbaycan Milli Birliyinin iclası keçirildi. İclasda İran Azərbaycanındakı hadisələr də müzakirə edildi. İclasda qeydi edildi ki, Müsavat Partiyasının proqramında başlıca vəzifələrdən biri Qafqaz və İran Azərbaycanını birləşdirməklə vahid bir milli Azərbaycan Respublikası yaratmaqdır. İran Azərbaycanında baş verən hadisələr, Azərbaycanlıların, o cümlədən İran Azərbaycanlılarının milli özünüdərk hissinin oyadılması Müsavat Partiyasının proqram məqsədlərinin birinci mərhələsinə uyğun proseslərdir. İclasda qeyd edilirdi ki, hətta İran dövləti hüdudlarında olsa belə Azərbaycan hökumətinin milli muxtar ərazilərinin qurulmasını bizim partiya yoldaşlarımız, hər bir Azərbaycanlı və hər bir türk alqışlamalıdır, İran Azərbaycanında başlanmış milli işin başa çatması müdafiə edilməlidir. İclasda deyildi ki, türk siyasi dairələrinin və mətbuatının Azərbaycan hadisələrinə düşmən münasibəti SSRİ-nin İran Azərbaycanında dövlət aparatının yaradılmasında fəal rol oynaması ilə bağlıdır. Türk hökumət dairələri İranda Sovet təsirinin güclənməsindən qorxur və Sovet hakimiyyətinin fəal müdafiə etdiyi inqilabi Azərbaycanla birgə sərhədlərə malik olmaqdan ehtiyat edir. Çox təəssüfləndirici haldır ki, Türkiyənin dövlət maraqları onun, dünyada 5 milyonluq muxtar türk hökumətinin yaradılmasına tərəfdar olmasına imkan vermir. İclasda qeyd olundu ki, Türkiyə polisi indi SSRİ-yə rəğbət bəsləyən şəxsləri çox diqqətlə izləyir. Biz Türkiyədə yaşayan Azərbaycanlılar İrandakı hadisələrə rəğbətimizi bildirəndə çox ehtiyatlı olmalıyıq (70). İran Azərbaycanındakı hadisələrə Türkiyənin mənfi münasibəti əgər Ankaranın siyasi maraqlarını əks etdirirdisə, Azərbaycan mühacirlərinin həmin hadisələrə rəğbəti onların milli maraqlarının təzahürü idi.

1945-ci ilin dekabr ayının ilk günlərində Türkiyə narahat bir həftə yaşayırdı. Bütün ölkə gərginlik içərisində idi. Sovet təzyiqlərinin artması fonunda sol mətbuat kommunist ideyalarını təbliğ etməyə başlamışdı. İran Azərbaycanında həyata keçirilən Sovet ssenarisinin Türkiyəyə ayaq açmaq təhlükəsi günbəgün artırdı. Bolqarıstanda gücləndirilən Sövet hərbi qüvvələri Türkiyə siyasi dairələrinin əsəblərini son həddə qədər tarıma çəkmişdi. Cənubi Qafqaz respublikalarının Türkiyəyə qarşı mübarizəyə qoşulması təhlükənin sərhədlərə dirənməsindən xəbər verirdi. Xaricdə

yaşayan ermənilərin Sovet Ermənistanına köçürülməsi haqqında SSRİ Xalq Komissarları Sovetinin 21 noyabr 1945-ci il tarixli qərarı dekabrın 2-də Sovet mətbuatında dərc edildi. Sovet kütləvi informasiya vasitələri, ilk növbədə Moskva radiosu Türkiyəyə qarşı açıq bir təbliğat savaşına başlamışdı.

Uzun müddət Türkiyədə sol ideyaları təbliğ edən "Tan" və "Lya Türki" qəzetlərinə 1945-ci ilin sonlarında kommunist ideyalarının yayılmasını gündəliyə gətirən "Yeni Dünya" qəzeti və "Görüşlər" jurnalı da əlavə edilmişdi. Yeni nəşrə başlayan mətbu orqanların arxasında Sovetlərin dayandığı elə onların ilk nömrələrindən aydın olmuşdu. Dekabr ayının ilk günlərində nəşrə başlayan hər iki mətbuat orqanında Sovetlərin Boğazlara və türk ərazilərinə iddiaları, ölkənin müstəqilliyi üçün yaranmış təhlükə fonunda kommunist təbliğatının ölkəyə ayaq açması Sovet İttifaqının Türkiyəyə gözlənilən təcavüzünün ideoloji təminatı kimi qəbul edilirdi. Türkiyə şok içərisində idi. Tanınmış sol dünyagörüşlü jurnalist Sabiha Sertelin "Görüşlər" jurnalında "Zəncirlərdə azadlıq" yazısı və "Yeni Dünya" qəzetinin birinci nömrəsmin öz məzmununa görə bütövlükdə qırmızı rəngə boyanması türk cəmiyyətini yerindən oynatmış, ilk növbədə universitet gənclərinin qanını coşdurmuşdu. S.Sertelin yazısında belə ifadələr getmişdi ki, azad insanlar cəmiyyətinin əsas prinsipi əgər tələb olunursa, geniş xalq kütlələrinin mənafeyi naminə öz şəxsi azadlığını qurban verməkdən ibarətdir. Daha sonra o, izah edirdi ki, bizim ölkədə azadlıqlar hər kəsin sərvətidir. O, yalnız kütlənin maraqlarına görə məhdudlaşdırıla bilər. Biz azadlıqlar üçün digər zəncirlərlə razılaşmırıq. S.Sertel qeyd edirdi ki, demokratik dövlətdə fəhlə və kəndlilərə təşkilatlar yaratmaq, tətil və nümayişlərlə öz hüquqlarını müdafiə etməyə icazə verilməlidir (71).Bu və ya digər dərəcədə kommunist ədəbiyyatına bələd olan dairələr bu sətirlərin arxasında nələrin dayandığını asanlıqla anlayırdılar. Hər kəs anlayırdı ki, "xalq kütləəri" ifadəsi kommunistlərin dilində adi vətəndaşları aldatmaq üçün ancaq "fəhlələr" və qismən də "kəndlilər" demək idi. Türkiyə siyasi dairələrində anlayırdılar ki, burada söhbət Rusiyada kommunistlər və xüsusilə kommunist liderlər üçün mövcud olan, əhalinin 160 milyonunu qul halına salıb hüquqsuz vəziyyətdə qoyan "azadlıqlardan" və "xalq kütlələrindən" gedir.

S.Sertelin qeyd edilən məqalədə soruşduğu: "Hansı demokratiyada mətbuat haqqında qanun söz, fikir və vicdan azadlığını ləğv edir" sualına tanınmış jurnalist C.Yalçın cavab verirdi ki, "Sizin valeh olduğunuz və tərifədiyiniz rus demokratiyasında". Daha sonra S.Sertel soruşurdu: Hansı demokratiyada Mülki Məcəllə vətəndaşlara cəmiyyət və siyasi partiya yaratmağı qadağan edir? Bununla bağlı C.Yalçın cavab verirdi ki, Sizin bizim ölkəmizdə qurmaq istədiyiniz əsl rus demokratiyasında. Ən nəhayət, S.Sertelin soruşduğu "hansı demokratiyada polis vətəndaşı həbs edə

bilir, sakinləri toxunulmazlıq hüququndan məhrum edir və polis siyasi ideyalara görə vətəndaşları yoxlamaq hüququ alır" sualını C.Yalçın sərrastcasına cavablandırırdı ki, Sizin sevimli rus demokratiyasında (72).

Zekeriyye Sertel və onun həyat yoldaşı Sabiha Sertel hələ 20-30-cu illərdən özlərinin sol görüşləri ilə tanınırdılar. Z.Sertel İstanbul və Sarləon universitetlərini bitirmiş, Kolumbiya Universitetinin jurnalistika məktələində təhsil almış, 1924-cü ildə ABŞ-dan qayıtdıqdan sonra Daxili İşlər Nazirliyinin mətbuat şöbəsinin müdiri işləmişdi. 1928-1932-ci illərdə "Resimli ay" jurnalını buraxmış, 1930-cu ildə "Son posta" qəzetini, 1935-ci ildə isə "Tan" qəzetini təsis etmişdi. Müharibədən sonra "Tan" Türkiyədə sol dünyagörüşün əsas təbliğatçısına çevrilmişdi. Sabiha Sertel də öz növbəsində Kolumbiya Universitetini bitirmiş, "Resimli ay" jurnalında, "Tan" qəzetində çalışmışdı. O, Türkiyədə məşhur yazıçı və jurnalist kimi tanınırdı. V.İ.Leninin bir sıra əsərlərini türk dilinə tərcümə etmişdi (73).

Məlum olduğu kimi, Sovet mətbuatı nəinki Türkiyəni faşizmlə əməkdaşlıqda ittiham edir, ölkədə Sovetləri təmin etməyən hər hansı hadisə faşizmin təzahürü kimi qiymətləndirilirdi. Belə bir vəziyyətdə yeni nəşrə başlayan "Yeni Dünya" qəzeti elə ilk nömrəsində bildirirdi ki, o, demokratik qəzetdir və qabaqcıl demokratiyanı müdafiə edib əsasən ölkədə hələ saxlanılan faşist ideologiyasına qarşı mübarizə aparacaqdır. Zekeriyye Sertel isə dekabrın ilk günlərində çıxan öz yazısında türk ictimaiyyətini Albaniyadakı seçkilərdən nümunə götürməyə çağırırdı. O, qeyd edirdi ki, biz böyük mədəni ölkələrdən nümunə götürməkdən imtina edirik, onda gəlin kiçik Albaniyadan nümunə götürək. Məgər demokratiyaya keçmək yolunda türk xalqı öz siyasi hazırlığına görə alban xalqının da siyasi hazırlığı səviyyəsinə qalxmayıb (74). Türk ictimaiyyətini hiddətləndirən o idi ki, Albaniyada nəinki 1945-ci ildə keçirilən seçkilərin, bütövlükdə siyasi proseslərin Sovetlərin nəzarətində olması hər kəsə bəlli idi. Sovet rəhbərləri Albaniyada Ənvər Xoca rejimindən Balkan ölkələrinə qarşı məharətlə istifadə edirdilər. Xüsusilə Yunanıstanda kommunist hərəkatını müdafiə etmək üçün Moskva Albaniyaya böyük əhəmiyyət verirdi. Yunanıstan partizanları kömək üçün Albaniyaya müraciət etdikdə Ə.Xoca Moskvanın təlimatını soruşmuş, İ.Stalin isə cavab teleqramında Ə.Xocaya tövsiyə etmişdi ki, bu məsələni İ.Tito ilə birlikdə həll etsinlər. Yaxud bir qədər sonra baş vermiş digər bir hadisə Albaniyanın nə dərəcədə sovet nəzarətinə düşdüyünü təsdiq edir. ÜİK(b)P MK-nın Siyasi Bürosu öz iclaslarının birində Albaniya Xalq Gənclər ittifaqı üçün SSRİ-də dövlət nişanı ilə hazırlanmış 156 min bilet blankının Albaniyaya çatdırılması haqqında Sovet Kommunist Gənclər İttifaqının rəhbərliyinə, SSRİ Yollar Nazirliyinə, Dəniz Donanması Nazirliyinə və habelə Dövlət Təhlükəsizliyi orqanlarına müvafiq tapşırıqlar

vermişdi (75). Albaniya ilə bağlı Sovetlərin bütün bu işləri gizli şəkildə aparılsa da, qərarları gizli şəkildə qəbul edilsə də, bu prosesin müəyyən təzahürləri artıq göz qabağında idi və Sertellər də belə bir ölkədən nümunə götürməyi Türkiyəyə tövsiyə edirdilər.

Dekabr ayının birinci iki günündə ölkədə kommunist təbliğatının gücləndiyini müşahidə edən millətçi dairələr cəmiyyəti müqavimət göstərməyə çağırdılar. Dekabr ayının 3-də "Tanin" qəzetində C.Yalçın böyük türk şairi N.Kamalın "Qalxın vətəndaşlar" sözləri ilə xalqa müraciət etdi. Qəzet azğınlaşan kommunist təbliğatının qarşısını almaq üçün vətən cəbhəsinin mövcudluğuna böyük zərurət duyulduğunu yazırdı. "Tanin"in baş məqaləsində C.Yalçın qeyd edirdi: "Düşmən təcavüzü bu dəfə kommunist təbliğatı formasında ölkəmizə nüfuz etmişdir". "Yeni Dünya" qəzetinin və "Görüşlər" jurnalının nəşr edilməsi bu məsələdə şübhə yeri qoymamışdır. Vəziyyət aydındır: beşinci kolonna hərəkətdədir və hücuma keçməyə başlayıb. Hitler də eyni bu üsullarla tamah saldığı ölkələrin darmadağın edilməsini qabaqcadan təmin edirdi" (76). C.Yalçının "Tanin" qəzetindəki çağırışı bu sözlərlə bitirdi: "İndi söz əlində qələm tutan jurnalistlərin, azad vətəndaşlarındır". Bir gün sonra Türkiyədə geniş yayılan "Tasvir" qəzeti də əhaliyə çağırışla müraciət etdi. Orada deyilirdi: "Böyük türk xalqı! Türk gəncliyi! Diqqət! Bizim ölkəmizin içərisində qırmızı faşizmin beşinci dəstəsi fəaliyyətə keçib. Onlar gündəlik qəzetlərin və jurnalların səhifələrində çıxış edirlər. Qırmızı faşistlər kənardan aldıqları direktivləri açıq şəkildə həyata keçirirlər. Onlar böyük türk millətinin, türk mənəviyyatının və məişətinin, türk ordusunun düşmənləridir. Türk xalqı! Mübarizə zamanı yetişib. Biz Vətən xainləri ilə mübarizəni nə qədər ki, onlar məhv edilməyiblər o vaxta qədər aparacayıq" (77). Tanınmış jurnalist Asım Us 4 dekabrda çıxan "Vakıt" qəzetində "Görüşlər" jurnalında çap olunmuş bir sıra materialları ölkədə milli rejimi dağıtmaq üçün türk gənclərinin təmiz beynində və ağlında yerləşdirilmiş atom bombası adlandırırdı. Türk mətbuatının bu çağırışları cəmiyyətə, xüsusilə tələbə-gənclərə böyük təsir göstərdi. 1945-ci il dekabr ayının 4-də İstanbulu həyəcanlar bürüdü. İstanbul Universitetinin tələbələrinin etiraz aksiyasına əhalinin digər təbəqələri də qoşuldu. Kortəbii olaraq meydana çıxan vətənpərvər gənclər "Tan", "Yeni Dünya", "Lya Türki" qəzetlərinin, "Görüşlər"jurnalının redaksiyalarını və mətbəələrini, habelə sovet ədəbiyyatı satılan "Berrak" kitab dükanını dağıtdılar. Nümayişdə antisovet çağırışlar səsləndirildi. SİTA-nın İstanbuldakı müxbiri 4 dekabrda baş verənləri daha çox ideoloji müstəvidə geniş şəkildə Moskvaya çatdırdı. İstanbulu bürümüş həyəcanlar dekabr ayının 5-dən başlayaraq mətbuatın əsas mövzusuna çevrildi. "Ulus" qəzeti dekabr ayının 5-də "İstanbulda nümayişlər" başlığı altında böyük yazı ilə çıxış etdi. Qəzetin baş redaktoru F:R.Atay İstanbulda baş vermiş hadisələrin üç

mühüm prinsipial cəhətini qeyd edirdi. Onun fikrincə, birincisi, bu hadisələr heç bir hazırlıq olmadan bir sıra mətbu orqanlarının təxribatçı fəaliyyəti nəticəsində kortəbii başlanmışdı. Atay belə hesab edirdi ki, dövləti sarsıtmaq istəyən, qanunlara hörmət etməyən, Türk cəmiyyətini daxildən zəifədən cəhdlərə ölkə vətəndaşları dözmədilər. İkincisi, Məclis və cümhuriyyət hökuməti heç bir halda qanuna zidd hərəkətlərə icazə verə bilməz. O, yazırdı: heç bir vətəndaş şübhə edə bilməz ki, hər hansı təhlükənin qarşısını almaq üçün bizim ölkənin qanunlarının gücü yetərincədir. Nümayişlərə ancaq o halda müsbət hal kimi baxmaq olar ki, o qanunun çərçivəsindən kənara çıxmasın və milli hissləri ifadə etsin. Üçüncü isə, Atayın fikrincə, milli hisslərə hücumların nəticəsində meydana çıxan İstanbul nümayişləri hər hansı bir dövlətin əleyhinə yönəlməyib və SİTA-nın müxbiri onun haqqında səs-küy qaldırmaqla böyük səhvə yol verir. Atay yazırdı ki, dövlətlərarası münasibətlərdə doğru və ya yalan məlumatlar mühüm əhəmiyyətə malikdir. Rəsmi informasiya orqanı kimi SİTA çox diqqətli olmalı, dövlətlərarası münasibətlərin pisləşməsinə yol verməməlidir. SİTA-nın müxbirinin fəaliyyəti Moskva radiosunun daha bir səhv verilişini meydana çıxara bilər.

Dekabr ayının 5-də axşam baş vermiş hadisələrlə bağlı Böyük Millət Məclisinin partiya qrupunun iclası keçirildi. İclasda daxili işlər naziri Hilmi Uran İstanbuldakı nümayiş haqqında məlumatla çıxış etdi. O, bildirdi ki, nümayişçilər qırmızı ədəbiyyat satılan və bir sıra şəxslərin toplanış yerinə çevrilmiş dükanı dağıtmışlar. Deputatlar tələb etdilər ki, çətinliklərdən istifadə edərək Xalq Cümhuriyyətçi partiyaya və Məclisə qarşı çıxış edən adamları qanun təqib etməlidir. Türkiyənin mətbuat və təbliğat idarəsmin rəhbərliyi təcili olaraq xarici jurnalistlər üçün bəyanat yaydı ki, nümayişlərdə SSRİ-nin əleyhinə şüarlar səsləndirilməsi barədə SİTA-nın məlumatları doğru deyildir (78).

Dekabr ayının 5-də Baş nazir Ş.Saracoğlu keçirdiyi mətbuat konfransında ölkə daxilində yaranmış siyasi vəziyyətə toxunaraq dedi ki, Ədliyyə Nazirliyində bu və ya digər qəzetlərin törətdiyi cinayətlər haqqında 50-yə Yaxın sənəd və materiallar yatır. Hökumət bu proseslərin başlanmasına hələ ki, icazə verməyib. Lakin görünür, bu işlərin bir neçəsinə baxmaq üçün icazə vermək mümkündür (79).

Sovet kütləvi informasiya vasitələri İstanbul nümayişlərini Türkiyədə faşizmin baş qaldırması kimi təqdim edirdi. Nümayişdən bir neçə gün sonra, dekabr ayının 8-də verilmiş Sovet notasında göstərilirdi ki, İstanbuldakı nümayişlər Sovet İttifaqı əleyhinə yönəlib və antisovet xarakter daşıyır. Notada deyilirdi ki, Sovet hökumətinin aldığı məlumatlara görə 4 dekabr İstanbul nümayişlərində SSRİ-nin əleyhinə düşmənçilik məzmununda olan çağırışlar səsləndirilib və Sovet kitabları satılan iki dükan dağıdılıb. Bütün bunlar nümayişin anti sovet xarakterdə olduğunu təsdiq

edir. Dekabr ayının 11-də Türkiyə Xarici İşlər Nazirliyi cavab notasında İstanbul nümayişlərinin daxili xarakter daşıdığını bildirirdi. Nota bütövlükdə SİTA-nın məlumatlarını özündə əks etdirirdi. Sovet notası dərc edildikdən sonra siyasi dairələrin fikirlərini əks etdirən mətbuat orqanları, İstanbuldakı nümayişləri Türkiyədə kommunizm əleyhinə nümayişlər kimi xarakterizə edərək onu ölkənin daxili işi hesab etdi (80). C.Yalçın "Tanin" qəzetində çap olunmuş "Dəyişməz kommunist taktikası" adlı məqaləsində yazırdı: "Moskvanın əmrləri tələb edir ki, Türkiyə faşizmdə günahlandırılsın. Ona görə bizə də yazırlar ki, bizim hökumətimiz faşist hökumətidir".

İstanbul nümayişləri haqqında yayılan söz-söhbətlər onsuz da gərgin olan Sovet-Türk münasibətlərini daha da gərginləşdirdi. Bir sıra türk qəzetləri belə hesab edirdilər ki, İstanbulda baş vermiş etiraz nümayişləri İran Azərbaycanında, Balkanlarda cərəyan edən hadisələrin Türkiyə üçün doğurduğu təhlükə ilə bağlı olub. Onlar ehtiyat edirdilər ki, ruslar İrandan çıxmasalar, İran Azərbaycanını özlərinə birləşdirməkdən imtina etməsələr Qars və Ərdahan haqqında öz fikirlərindən də əl çəkməyəcəklər. Əlbəttə, bu narahatlıqlar əsassız deyildi. Uzun müddət Sovetlərin rəhbər kommunist orqanlarında çalışmış K.Brutens "30 il Köhnə Meydanda" adlı xatirələrində qeyd edir ki, Sovet İttifaqına qarşı müharibə də faşist Almaniyası ilə əməkdaşlıq etməsə də, ona açıq meyllənən münasibətinə görə Stalinin Türkiyəni "cəzalandırmaq" planları var idi. Gələcəkdə Türkiyədən "azad olunacaq" erməni ərazilərində iki vilayət komitəsinin yaradılması nəzərdə tutulmuşdu, hətta vilayət komitələrinin katibləri də təsdiq edilmişdi. Məsələn, Ermənistan KP MK-nın katibi Koçinyan Qars vilayət komitəsinin katibi təsdiq edilmişdi (81).

Dekabr ayının 2-də xaricdə yaşayan ermənilərin repatriasiyası ilə bağlı SSRİ Xalq Komissarları Sovetinin qərarının mətbuatda dərc edilməsi Türkiyənin narahatçılığını daha da artırdı. Xalq Komissarları Sovetinin qərarı mətbuatda çıxdıqdan sonra alınan ilkin məlumatlara görə, dünyanın ondan artıq ölkəsindən 1946-1949-cu illərdə 360 min ermənінin Sovet Ermənistanına köçürüləcəyi planlaşdırılmışdı. Qərarda ermənilərin Sovet Ermənistanına qayıtmasından bəhs edilsə də, xaricdən gələn ermənilərin Türkiyədən alınacaq ərazilərdə yerləşdirilməsi planlaşdırılırdı. Hələ müharibə qurtarmamış Stalin təklif edirdi ki, dünyaya səpələnmiş ermənilərdən bir neçə on mininin Ermənistana köçürülməsini təmin etmək lazımdır. O, izah edirdi ki, Almaniya ilə müharibə tezliklə sona çatacaq və SSRİ Türkiyə ərazisinin bir hissəsini almaq niyyətindədir. Stalin eyni zamanda izah edirdi ki, Türkiyədən alınacaq bu ərazilərdə ermənilər yaşamalıdırlar (82).

SSRİ XKS-nin qərarı mətbuatda dərc olunduqdan sonra ayrı-ayrı ölkələrdə fəaliyyət göstərən Sovet konsulluq idarələri erməniləri Sovet Ermə-

nistanına köçmək üçün həvəsləndirmə işlərinə başladılar. Türkiyə siyasi dairələri yaxşı başa düşürdü ki, süni şəkildə erməni problemini qaldıran SSRİ bu problemdən Türkiyənin ərazilərinin bir hissəsini ələ keçirmək məqsədilə istifadə etmək istəyir. Türk mətbuatında Sovetlərin bu qərarının SSRİ-nin Qars və Ərdahanı tələb etməsi ilə sıx bağlı olduğu göstərilirdi. ABŞ-ın Ankaradakı səfiri E.Vilson bu məsələ ilə bağlı Dövlət katibinə yazırdı: "Son elana istinadən SSRİ xaricdə yaşayan və Ermənistana köçmək istəyən ermənilərdən öz niyyətlərini həyata keçirmək üçün istifadə edəcək. Türk mətbuatında İstanbuldakı Sovet Baş konsulluğunda Ermənistana köçmək istəyən Türkiyədəki erməni mənşəli şəxslərin qeydiyyatına başlandığı və indiyə kimi 200-ə Yaxın erməninin Baş konsulluğa müraciət etməsi barədə məqalələr nəşr olunur. Xarici İşlər İdarəsmin Baş katibi mənə bildirdi ki, onda olan məlumata əsasən müraciət edənlərin sayı 200-dən çoxdur və Sovet baş konsulluğu əslində Sovet Ermənistanına göndərmək üçün ermənilər "cəlb edir". Çox güman ki, Sovetlərin planı Ermənistan SSR-ə böyük insan kütləsi gətirməkdir ki, bu kütlə sonra kifayət qədər yaşayış yeri tapmayacaq və Türkiyənin şərq vilayətlərinin birləşdirilməsini tələb edəcəkdir". E.Vilson tövsiyə edirdi ki, Dövlət Departamenti ABŞ-ın Fransa, Suriya, Livan, Misir və sair ermənilər çox yaşayan ölkələrdəki diplomatik heyətlərinə vəziyyəti izləmək və Sovet Baş konsulluğunda qeydiyyatdan keçən və SSRİ-yə yola düşən ermənilərin sayı barəsində məruzə etmək göstərişini verə bilər. Bu tövsiyəyə uyğun olaraq bir gün sonra Dövlət katibinin adından ABŞ-ın Avropa və Yaxın Şərqdəki bir sıra diplomatik idarələrinə tapşırıq verildi ki, Türkiyə, İran və bir sıra ölkələrdəki Sovet konsulluqlarında Sovet Ermənistanına getmək istəyən erməni mənşəli şəxslərin qeydiyyatı haqqında məlumat toplasınlar. Amerika səfirliklərinə göndərilən teleqramda deyilirdi ki, Ermənistan artan əhalini təmin etmək iqtidarında olmadığından süni yaradılmış məskunlaşma problemi Türkiyənin şərq vilayətlərinə olan tələbləri gücləndirə bilər. Teleqramda ABŞ diplomatik idarələrindən xahiş olunurdu ki, yerləşdikləri ölkələrdə Sovet hakimiyyət orqanlarında qeydiyyatdan keçən və SSRİ-yə yola düşən ermənilərin sayı və tərkibi barədə məruzə etsinlər (83).

Maraqlıdır ki, SSRİ XKS-nin ermənilərin Sovet Ermənistanına qayıtmasına icazə verilməsi barədə qərarı mətbuatda dərc edildikdən sonra müxtəlif ölkələrdən Sovet rəhbərliyinə gələn razılıq teleqramlarının sayı real olaraq Ermənistana gəlmək istəyənlərin sayından çox idi. Həmin teleqramlarda və çoxsaylı müraciətlərdə Sovet hökumətinin bu siyasətinin müdafiə olunduğu bildirilirdi. Bununla belə erməni diaspora təşkilatları Sovet Ermənistanına qayıtmaq məsələsinə ehtiyatla yanaşırdılar. Dekabr ayının ortalarında “Son Teleqraf” qəzetində dərc olunmuş "Türkiyə erməniləri və rus təklifləri" yazısında göstərilirdi ki, Sovet hökumətinin təkliflərinə Türki-

yənin 60-70 min erməni əhalisindən yalnız tək-tük adamlar hay vermişdir. Həmin adamlar da o dəqiqə varlanacaqlarına ümid bəsləyən işsiz və əmlakını itirmiş adamlardır. "Tanin" qəzeti isə "Erməni məsələsi" məqaləsində yazırdı ki, Qars və Ərdahana münasibətdə Sovet İttifaqı Türkiyənin qəti etirazını aldıqdan sonra erməni məsələsini "ermənilərin özlərinin himayəsi altında" qaldırmaq istəyir. "Vakıt" qəzetində çıxan yazılarda izah edilirdi ki, Sovet hökumətinin erməniləri SSRİ-yə dəvət etməsi onun bəşəri hisslərindən deyil, siyasi təhrikçiliyindən irəli gəlir. "Vakıt" yazırdı: "Acı həqiqət ondan ibarətdir ki, hələ də belə təhrikçiliyin silahına çevrilmək istəyən erməni mövcuddur" (84).

Sovet orqanlarının həqiqətə uyğun olmayan məlumatlarına baxmayaraq SSRİ-nin erməniləri Sovet Ermənistanına qaytarmaq ideyası erməni əhalisinin yoxsul yaşadığı İranda belə birmənalı qəbul olunmurdu. Milliyyətcə erməni olan A.Qasparyan deyirdi ki, ermənilərin vətənə yola salınması ilə bağlı təşkilati işlərin başlanması erməni məsələsinin həlli deyildir. İrəvan quberniyasında 30-40 min adam yerləşə bilər, çətin ki, bu erməni mühacirəti üçün yetərli olsun. Siyasi şərait elədir ki, Qars və Ərdahanın birləşdirilməsini biz hətta arzu edə bilmərik. Amerikalılar bir neçə dəfə artıq bəyan ediblər ki, onlar Türkiyənin ərazi bütövlüyünü müdafiə edirlər (85).

Sovet xüsusi xidmət orqanları ermənilər içərisində Sovetlərə köçmək əleyhinə təbliğat aparan adamları ciddi şəkildə izləyirdilər. Bu orqanların topladığı agentura məlumatlarının birində deyilirdi: Bizim Sovtransın (Sovet Nəqliyyat İdarəsi - C.H.) sürücüsü ilə birlikdə Marağaya gedən stajyor (təcrübə keçən cavan əməkdaş - C.H.) yolda İran ermənisi Azad Beqleryana deyir ki, o, artıq bir dəqiqə də İranda qalmaq istəmir və gözləyir ki, nə vaxt tezliklə Ermənistana gedəcək. Stajyor deyir ki; onun bütün yaxınları və qohumları artıq gediblər. Azad ona cavab verir ki, sən xoşbəxt adamsan ki, getməmisən. Yazırlar ki, orada heç nə tapmaq mümkün deyil, əhali faktiki olaraq acdır. Stajyor etiraz edib bildirir ki, bunlar hamısı yalandır, o,qardaşından məktub alıb və qardaşı yazır ki, hər şey çox yaxşıdır. Azad öz sözünü sübuta yetirmək üçün deyir: Sizin qonşunuz Vardan Arutinyanın qızı Manuş burada Jorjik Karapetyana ərə getdikdən sonra Ermənistana yollandılar. Getməzdən əvvəl biz onunla razılaşdıq ki,o, Ermənistandakı vəziyyət haqqında bizə şifrəli formada yazsın. Bir az əvvəl ondan məktub aldıq, o anlatmağa çalışır ki, yerinizdən tərpənməyin. Məsələn o, yazır ki, Cülyettanı ərə verin, sonra gəlin. Cülyetta mənim qızımdır və hələ iki yaşı da yoxdur. Deməli, o tövsiyə edir ki, biz daha 20 il gözləyək, yəni ümumiyyətlə Ermənistana getməkdən imtina edək(86).

Türkiyəyə qarşı Sovet təzyiqlərinin gücləndiyi, Sovet tələblərinin ciddiləşdiyi bir dövrdə xarici işlər nazirlərinin Moskva müşavirəsi haqqında mə-

lumatlar xarici mətbuatda yayılmağa başladı. Türkiyənin siyasi dairələri və mətbuatı qarşıdakı Moskva görüşündə Boğazlar məsələsinin və Şərq vilayətlərinə qarşı Sovet tələblərinin müzakirə edibcəyindən narahatlıq keçirirdilər. Bu haqda məlumatlar alınan kimi Türkiyə Xarici İşlər Nazirliyinin Baş katibi F.C.Erkin ABŞ səfiri E.Vilsonla görüşdü. Söhbət zamanı Türkiyə rəsmisi səfirin diqqətini Boğazlar məsələsinin Moskva müşavirəsində müzakirə olunacağı barədə Vaşinqtondakı türk mətbuatında getmiş bir sıra məlumatlara cəlb etdi. Türkiyə tərəfi bu barədə E.Vilsonun hər hansı məlumatı olub-olmadığını soruşduqda ABŞ səfiri mənfi cavab verdi və bu görüşdən dərhal sonra Dövlət katibinə yazdı ki, departamentdə türklərə məlumat vermək üçün bir şey varsa, mən bu məlumatı mümkün qədər tez əldə etmək istərdim. Moskva müşavirəsi ərəfəsində Britaniya tərəfinin də Türkiyə ətrafında yaranmış vəziyyətdən narahatlıq keçirdiyi hiss edilirdi. Bununla bağlı Londondakı ABŞ səfiri Halifaks C.Birnsə yazırdı: "Cənab Bevinin Türkiyə məsələsini Moskva müzakirələrinin gündəliyinə salmaq niyyəti olmasa da, ruslara nəsə deyilməsinin zəruriliyi və türkləri həvəsləndirmək üçün Sizin və onun edə biləcəyiniz nəyin isə olmasına qərar vermək məqsədilə Sizinlə məsələni müzakirə etməyi arzuladığını Sizə bildirməyimi xahiş edib. Yuxarıda qeyd edilənləri mənə çatdırarkən cənab Bevin Sovetlərin Türkiyə əleyhinə apardığı əsəb savaşında hiss olunacaq intensivləşmə müşahidə etdiyini, lakin bu intensivləşmənin Sovet tərəfində hər hansı gücləndirilmiş hərbi hazırlıqlarla müşayiət olunmadığını söylədi. Britaniya hökuməti türklərin SSRİ-nin tələblərinə qarşı müqavimətində heç bir zəifləmə əlaməti görməyib (87).

Moskva müşavirəsmin keçirilməsi barədə məlumatlar açıqlandıqdan sonra türk mətbuatı onun haqqında müxtəlif rəylər dərc edirdi. Xalq Respublikaçı partiyasının orqanı olan "Ulus" qəzeti dekabr ayının 10-da yazırdı ki, Moskva müşavirəsinə elə də böyük ümid bəsləmək olmaz. Bunu "Ulus" müharibədən sonrakı sülhün prinsiplərinə münasibətdə ABŞ və İngiltərə ilə SSRİ arasında dərin fikir ayrılıqları müşahidə olunması ilə izah edirdi. Müşavirə ərəfəsində türk mətbuatı xatırladırdı ki, Türkiyə məhz Britaniyanın müttəfiqi olduğu üçün Sovetlər tərəfindən təzyiqlərə məruz qalır. Mətbuat dostluq haqqında Sovet-Türk müqaviləsinin SSRİ tərəfindən ləğv edilməsini bununla əlaqələndirirdi. "Ulus" yazırdı ki, müqavilənin ləğvindən sonra hərbi hücum müşahidə olunmasa da, Türkiyənin əsəblərini tarıma çəkmək, onu zəiflətmək və daxildən dağıtmaq üçün hər şey edilib (88).

1945-ci ilin dekabr ayının 12-də Röyter agentliyinə müsahibə verən Türkiyənin Londondakı səfiri C.Açıkalın bildirdi ki, Qars və Ərdahan vilayətləri 1921-ci ildə Türkiyəyə Lenin tərəfindən qaytarılıb, həmin vaxt Türkiyə Batumu Sovetlərə güzəştə getdi. Bu mübadilə iki ölkə arasında etimadın və dostluğun səmimi nümayişi idi (89).

Xarici işlər nazirlərinin Moskva müşavirəsi 1945-ci il dekabr ayının 16-da işə başlamalı idi. Dekabrın 14-də Dövlət katibi C.Birns, bir gün sonra isə Britaniya xarici işlər naziri E.Bevin Moskvaya gəldilər. Birləşmiş Ştatların nümayəndə heyəti SSRİ-yə gələn gün Tbilisidə çıxan "Kommunist" qəzeti L.Beriyanın tapşırığı ilə gürcü akademikləri S.Canaşiya və N.Berdzenişvilinin "Bizim Türkiyəyə qanun tələblərimiz haqqında" məktubunu dərc etdi. Xarici işlər nazirlərinin müşavirəsi açılan gün isə "İzvestiya" qəzetində "İran Azərbaycanı milli hökumətinin təşkili" haqqında geniş məlumat dərc olundu. Həmin axşam Moskva radiosu İran Azərbaycanında milli hakimiyyətin qurulması haqqında Sovet mətbuatında getmiş məlumatları bütün dünyaya yaydı. Müşavirə işə başladıqdan dörd gün sonra gürcü akademiklərinin dekabrın 14-də "Kommunist" qəzetində dərc olunmuş məktublarının tam mətni "Pravda", "İzvestiya" və "Krasnaya Zvezda" qəzetlərində təkrar nəşr edildi. Əvvəl Gürcüstan radiosunda gürcü və rus dilində səsləndirilən məktub mərkəzi mətbuatda nəşr edildiyi günün axşamı Tbilisi radiosunda rusca efirə verilmiş tələblər tam şəkildə Moskva radiosunda translyasiya edildi. Beləliklə, tək C.Birns və E.Bevin deyil, bütün dünya Sovet ittifaqının İrandakı niyyətləri və Türkiyəyə qarşı tələbləri barədə xəbər tutdu. Hər iki hadisənin doğurduğu həyəcan diplomatik rabitə sistemlərini tam gücü ilə işləməyə vadar etmişdi. Dekabr ayının 20-də Moskva mətbuatında dərc edilən gürcü akademiklərinin məktubu 1945-ci ilin sentyabr ayının əvvəllərində Sovet rəhbərliyinə göndərilmiş və S.Canaşiya tərəfindən hazırlandığı ehtimal edilən "Türkiyə tərəfindən zorla alınmış gürcü torpaqları haqqında" adlı gizli sənədin oxşar variantı idi. Q.Kiknadze tərəfindən V.Molotov və L.Beriyaya təqdim edilmiş gizli sənəddən fərqli olaraq gürcü akademiklərinin məktubunda iddia edilən ərazilərin qədim tarixinin gürcüləşdirilməsinə daha çox yer verilirdi. Gürcü akademiklərinin məktubunun əvvəlində qeyd olunurdu ki, faşizmin darmadağın edilməsi işinə əhəmiyyətli töhfə verən gürcü xalqı eyni zamanda öz qanuni tələblərini irəli sürmək hüququna malikdir. Biz Türkiyə tərəfindən zorla ələ keçirilmiş qədim torpaqlarımızla bağlı dünya ictimai rəyinə müraciət edirik.

Gürcü akademikləri məsələni çox qədimdən başlayır və hələ eramızdan əvvəl ikinci minillikdə gürcülərin əcdadları kimi təqdim etdikləri hetlərin və subarların dövründən iddia edilən ərazilərin gürcülərə məxsus olduğunu sübut etməyə çalışır, sonra isə Urartunun bu yerlərdə het və subar mədəniyyətini davam etdirdiyini və nəhayət, köçəri istilaçıların gürcü mədəniyyətini dağıtdığını yazırdılar. Onlar qədim imperiyanın sərhədlərini Türkiyənin Sivas vilayətinə qədər genişləndirərək yazırdılar: "Bizim eradan əvvəl ikinci əsrin əvvəllərində qədim het dövlətinin əsas hissəsini təşkil edən indiki Sivas vilayətinin şərq hissəsi İberiyaya məxsus idi". Giresun və Trabzonun keçmişindən geniş söhbət açan S.Canaşiya və

N.Berdzenişvili belə bir nəticəyə gəlirdilər ki, "Trabzon şəhəri meqrellərin (yəni minqrellərin-C.H.) ölkəsidir (90). S.Beriya atası L.Beriya haqqında yazdığı xatirələrində qeyd edirdi ki, atam Türkiyə ilə çox maraqlanırdı və belə hesab edirdi ki, Türkiyə Gürcüstanın gələcək taleyində əsaslı rol oynamalıdır. Pantürkizmin qatı əleyhdarı kimi o, Türkiyə tərəfindən ilhaq edilmiş gürcü və erməni torpaqlarının qaytarılmasını və nə vaxtsa bu regiondan qovulub dağlarda məskunlaşmış lazları yenidən ora köçürmək istəyirdi. Lakin S.Beriya təsdiq edir ki, Türkiyəyə qarşı irəli sürülən tələblər və ona qarşı aparılan təbliğat kampaniyası bilavasitə İ.Stalindən gəlirdi. O yazır: "Stalin Türkiyənin qəti əleyhdarı idi, lakin bu daha çox Rusiyanın imperiya siyasətinin varislik ənənəsindən irəli gəlirdi. Stalin bizim Türkiyəyə qarşı ərazi tələblərimizlə bağlı mətbuatda təşkil olunan kampaniyaya başçılıq edirdi. Bunun üçün tarixçilər fəaliyyətə keçdilər ki, bu tələbləri əsaslandırsınlar (91).

Göründüyü kimi, gürcü akademiklərinə tapşırıq Moskvadan verildiyindən onlar öz tarixi əsaslandırmalarında "Türkiyəyə qarşı hər cür həqarəti" söyləməkdən çəkinmirdilər. Gürcü akademiklərinin məktubu tarixi arayışdan daha çox Türkiyəyə ünvanlanmış ultimatuma bənzəyirdi. XV əsrdən etibarən Osmanlı imperatorluğunun gürcü torpaqlarını tutmağa başladıqlarını təsvir edən akademiklər belə fikrə gəlirdilər ki, Gürcüstan çox istilaçılar görüb, lakin "haqlı olaraq" Türkiyə onlardan ən mənfurudur. Osmanlı "işğallarını" əsaslandırmaq üçün bir neçə ay əvvəl Sovet rəhbərliyinə təqdim olunmuş gizli arayışlarda olduğu kimi, Tbilisidə bir sıra yer adları dəyişdirilərək yenidən nəşr edilmiş "Dəftəri müfəssəl əyaləti Gürcüstan" adlı əski Osmanlı sənədinə istinad edilirdi.

Trabzon vilayəti ilə bağlı məktubda sentyabr ayında V.Molotov və L.Beriyaya təqdim olunmuş gizli sənədlərin qısaldılmış məzmunu əks olunmuşdu. Gürcü akademikləri yazırdılar ki, bu vilayət XIX əsrdə Qızıl İrmak çayına qədər bütün əraziləri özündə birləşdirir və Rize şəhərinə qədər uzanan Lazıstan, Trabzon, Mərkəzi Samsun olmaqla Canik və Gümüşxanədən ibarət dörd sancaxlığa bölünürdü. Məktubun sonunda qeyd edilirdi ki, gürcü xalqı üçün 1920-ci ildə və 1921-ci ilin əvvəllərində yaranmış ağır zamanda türklər Gürcüstana soxuldular və onun Ərdahan, Oltı və Artvin dairələrini, Batum dairəsmin cənub hissəsindəki əraziləri işğal edərək əvvəl ələ keçirdikləri qədim gürcü torpaqlarına əlavə etdilər.

Yenicə başa çatmış müharibə dövrünün hadisələrini açıq-aydın saxtalaşdıraraq gürcü akademikləri yazırdılar ki, Sovet xalqının faşist işğalçıları ilə apardığı Böyük Vətən müharibəsi dövründə Türkiyə faktiki olaraq alman işğalçılarının tərəfində oldu və yenidən bizim torpaqlarımıza göz dikdi. Onlar yazırdı: "Bəs biz? Zərurət varmı dünyaya xatırladaq ki, gürcü xalqı Birləşmiş Millətlərin müqəddəs işinə hansı töhfəni verib? Gürcü xalqı heç

vaxt imtina etmədiyi və imtina edə bilməyəcəyi öz torpaqlarını geri almalıdır. Biz Ərdahan, Artvin, Oltı, Tortum, İspir, Bayburt, Gümüşxanə, Trabzon və Giresun daxil olmaqla Şərqi Lazıstanı, Gürcüstandan zorla qopardılmış ərazilərin yalnız bir hissəsini nəzərdə tuturuq (92).

S.Beriya qeyd edilən kitabında göstərir ki, professorlar Canaşiya və Berdzinişvilidən türk-gürcü münasibətlərinin tarixi haqqında qəzetdə məqalə dərc etdirməyi onun atası L.Beriya xahiş etmişdi. Bu göstərişlərin Moskvadan verildiyini təsdiq edən digər sənəd Gürcüstan SSR Elmlər Akademiyasının baş elmi işçisi D.Zavriyevin Gürcüstan Xalq Komissarları Sovetinin sədri V.M.Bakradzeyə 29 dekabr 1945-ci il tarixli məktubudur. O yazır: "1945-ci ilin may ayında SSRİ xarici işlər komissarının müavini S.İ.Kavtaradze "Türkiyənin milli rayonları kamalçıların hakimiyyəti altında" adlı elmi əsər yazmaq təklifı ilə mənə müraciət etdi. Mənim tərtib etdiyim iş planı SSRİ Elmlər Akademiyasının Tarix İnstitutunun Elmi Şurasının üzvü, Türkiyə üzrə mütəxəssis olan prof. A.Miller tərəfindən bəyənildi". D.Zavriyev məlumat verirdi ki, bilavasitə arxiv mənbələri, türk statistikası və xarici mətbuat materialları əsasında yazılmış 650 səhifədən ibarət olan elmi iş 1878-ci ildən 1945-ci ilə qədərki dövrü əhatə edir. O, artıq başa çatmış elmi işin akademik Tarle, prof.Miller və prof.Kovalevski tərəfindən bəyənildiyini bildirirdi. D.Zavriyev yazırdı ki, gürcü akademiklərinin çıxışı ilə bağlı Türkiyədə gürcülərin və gürcü dilini saxlayanların sayı, Türkiyənin gürcü rayonlarında kamalçıların siyasəti, iqtisadi vəziyyət və s. Haqqında onun əsərinin bəzi məlumatları aktuallıq kəsb edir. D.Zavriyev bu məktubla yanaşı əlyazmasının qısa icmalını da V.Bakradzeyə göndərmişdi (93). İcmal 11 səhifədən ibarət idi. Orada göstərilirdi ki, kamalçı hökumət bütün vasitələrlə müasir milli problemlərin üstünü malalamağa çalışdığından 1934-cü ildə lazların azadlıq hərəkatından qorxaraq onları Türkiyənin daxili rayonlarına köçürdü (94).

Xarici işlər nazirlərinin müşavirəsmin getdiyi günlərdə gürcü akademiklərinin məktubunun Moskva mətbuatında verilməsi və mərkəzi radioda səsləndirilməsi ilə yanaşı erməni diaspor təşkilatları da üç böyük dövlətlərin Xarici İşlər nazirlərinin Moskva müşavirəsinə Türkiyədən Qars, Ərdahan və Artvinin alınıb Sovet Ermənistanına verilməsi barədə öz müraciətlərini göndərdilər. Dünyanın müxtəlif yerlərində yaşayan erməni təşkilatlarının Potsdam konfransına, Xarici İşlər nazirlərinin sentyabr ayında London, dekabr ayında Moskva müşavirələrinə, az sonra, 1946-cı ilin yanvarında BMT-nin Londonda keçirilən Baş Məclisinin birinci sessiyasına göndərdikləri müraciətlər demək olar ki, eyni mətnlər idi. Marşal İ.Stalinə ünvanlanan müraciətlərdə isə Türkiyədən torpaqların alınması ilə yanaşı, xaricidəki ermənilərin vətənə qayıtması və onların ərazisi genişləndirilmiş Sovet Ermənistanında yerləşdirilməsi məsələsi eyni məzmunda əhatə olunurdu.

ABŞ, Britaniya və SSRİ xarici işlər nazirlərinin müşavirəsi dekabr ayının 16-da işə başladı. Elə həmin gün Dövlət katibi C.Birns Tehrandakı Amerika səfiri U.Mörreydan belə bir teleqram aldı: "Azərbaycan demokratları" Təbriz və Ərdəbil də daxil olmaqla bütün şəhərlər, kəndlər və yollar üzərində nəzarəti ələ keçiriləlır. Onlar seçkilər keçirmiş, "Parlament" yaratmış və "Nazirlər Kabineti" təyin etmişlər. İran hökumətinin gücü nə üsyanı yatırmağa, nə üsyançılarla danışıqlar aparmağa, nə də SSRİ ilə diplomatik yaxınlaşmaya nail olmağa çatmadı. Əgər tezliklə hərəkat nəzarət altına alınmazsa, belə iğtişaşlar ölkənin başqa hissələrində də baş verəcəkdir. Əgər məsələ həll olunmazsa, tezliklə İranın şimal əyalətlərinin SSRİ-nin tərkibinə daxil olmasını gözləyə bilərik. Çox keçmədi ki, bu məlumatların doğruluğu təsdiqləndi. Məlumat alınan günün axşamı C.Birns və E.Bevin Moskva radiosundan eşitdilər ki, artıq demokratlar İran Azərbaycanının qırxa yaxın şəhərini ələ keçiriblər. Dövlət katibinin müavini D.Açeson C.Birnsi məlumatlandırmaq üçün həmin böhranlı günlərdə Sovet İttifaqındakı Amerika səfiri A.Harrimana yazırdı ki, Azərbaycan hərəkatı Türkiyə və başqa Yaxın Şərq ölkələrini əhatə edə biləcək hadisələr zəncirinin birinci halqasıdır (95).

C.Birns və E.Bevin cəhd göstərsələr də, V.Molotov İran məsələsinin Moskva müşavirəsmin gündəliyinə daxil edilməsinə imkan vermədi. Razılıq əldə edildi ki, bu məsələ qeyri-rəsmi səviyyədə müzakirə edilsin. Dekabr ayının 18-də Britaniya xarici işlər naziri E.Bevin V.Molotova təklif etdi ki, İran Azərbaycanı məsələsi ilə bağlı fikir mübadiləsi etsinlər. Britaniyanı neytrallaşdırmaq üçün Molotov milli-azadlıq hərəkatını yatırmaq üçün ingilislərin ordu göndərdiyi İndoneziya məsələsinin Moskva görüşündə müzakirə edilməsini təklif etmişdi. Ona görə Britaniya Xarici İşlər naziri Azərbaycan məsələsinin qeyri-rəsmi müzakirəsi ilə razılaşmalı olmuşdu. Dekabr ayının 19-da SSRİ XKS-nin sədri İ.Stalin C.Birns və E.Bevini qəbul etdi. Danışıqlar zamanı bir çox məsələlərlə yanaşı, İran Azərbaycanı və Türkiyə məsələlərinə də toxunuldu. İranla bağlı İ.Stalin bildirdi ki, İran hökuməti SSRİ-yə münasibətdə düşmən mövqedə dayanır. Bu düşmənçilik özünü İranın Bakıdakı neft mədənlərinə təxribat təşkil edə bilməsi təhlükəsini doğurur və bununla bağlı SSRİ öz qoşunlarını İranda saxlamaqda davam edir. İ.Stalin dedi: "Bakı neft mədənlərinin təhlükəsizliyi təmin olunduğu vaxt SSRİ öz ordularını İrandan çıxaracaq və İranın daxili işlərinə heç bir maraq göstərməyəcək" (96). Türkiyəyə gəldikdə isə Boğazlar məsələsi yenidən gündəliyə gəldi və Sovet rəhbərliyi Potsdam konfransında Türkiyəyə qarşı irəli sürdüyü iddiaları yenidən təkrarladı.

Moskva konfransı zamanı ABŞ rəhbərliyi Sovet Ittifaqı ilə əməkdaşlıq etməyin mümkünlüyünə hələ ümidini itirməmişdi. Ona görə Britaniya xarici işlər naziri E.Bevindən fərqli olaraq Birləşmiş Ştatların Dövlət katibi C.Birns Sovet hərəkətlərinə, İ.Stalin və V.Molotovun təkliflərinə

daha loyal münasibət bəsləyirdi. Tanınmış Amerika tarixçisi Bryus Kuniholm haqlı olaraq yazır ki, Moskvada amerikalılar Sovetlərlə nəyin bahasına olursa-olsun bir araya gəlməyə can ataraq, hətta anlaşılmazlıq yaratmamaq üçün İranda artan Sovet nüfuzu kimi həssas məsələlərin müzakirəsindən belə yayınaraq türkləri və ingilisləri bir daha məyus etdilər (97).

Dekabr ayının 18-də C.Birnslə V.Molotov arasında sülh konfransının çağırılması və Birləşmiş Millətlərin üzvü olan dövlətlərin buna münasibəti ilə bağlı məsələlər müzakirə edilən zaman V.Molotov bildirdi ki, konfransa Türkiyə, Argentina, Honduras kimi dövlətləri dəvət etmək olmaz. C.Birns belə hesab edirdi ki, Birləşmiş Millətlərin üzvü olan bütün Avropa dövlətlərini sülh konfransına dəvət etmək lazımdır. V.Molotov bildirdi ki, Türkiyə də Avropa dövlətidir, ən azı o özünü belə hesab edir. Türkiyə də Birləşmiş Millətlərdən biridir, təbii ki, o da iştirakını tələb edə bilər. C.Birns dedi ki, o, Türkiyənin Birləşmiş Millətlərdən biri olduğunu xatırlamır. V.Molotov cavab verdi ki, Türkiyə Birləşmiş Millətlərdən biridir, o San-Fransisko konfransında təmsil olunub və indi Birləşmiş Millətlər Təşkilatının hazırlıq işlərində iştirak edir. V.Molotovun bu izahatından sonra C.Birns dedi ki, ABŞ Türkiyənin dəvət edilməsini nəzərdə tutmur (98).

Dekabr ayının 23-də İ.Stalin C.Birnsi ayrılıqda qəbul edən zaman ABŞ-ın İran və Türkiyə məsələlərinə loyal münasibəti özünün daha qabarıq formada təsdiqini tapdı. C.Birns İ.Stalinlə görüşdə Azərbaycan münaqişəsinin BMT Baş Məclisinin yanvar sessiyasında qaldırıla biləcəyindən narahat olduğunu və bunun baş verməməsi üçün müxtəlif tədbirlərin görüləcəyinə ümid bəslədiyini söylədi. Eyni zamanda dövlət katibi böyük müharibə dövründə İranın SSRİ-yə yardım göstərdiyini vurğulayaraq, indi onun Sovetlər Birliyinə düşmən münasibət göstərməsi ilə razılaşmadığını ifadə etdi. Müzakirənin gedişində İ.Stalin bildirdi ki, SSRİ İranın BMT-yə müraciət etməsindən qorxmur. O dedi: "Kiçik ölkələr tez-tez böyük ölkələri bir-birinin üzərinə qalxmağa təhrik edirlər. Məsələn, kiçik ölkələr, İngiltərə və ABŞ tərəfindən sıxışdırıldığı barədə Sovet İttifaqına şikayət edə bilərlər və eyni zamanda Sovet İttifaqı tərəfindən sıxışdırıldığı barədə İngiltərə və ABŞ-a şikayət edə bilərlər. Ona görə kiçik ölkələrin məlumatlarına tənqidi yanaşmaq lazımdır" (99).

Dekabr ayının 24-də İ.Stalin ayrıca olaraq E.Bevini qəbul etdi. Amerikalı həmkarından fərqli olaraq, Britaniya xarici işlər naziri Sovet rəhbərliyi ilə görüşdə bir qədər sərt mövqe tutdu və Potsdamda olduğu kimi Moskvada da Sovet tələblərinin qarşısını almağa çalışdı.

E.Bevin Sovet İttifaqının Türkiyənin sərhədləri boyunca öz ordusunu gücləndirməsindən, Türkiyəyə qarşı düşməncəsinə aparılan radio yayımlarından və mətbuat kampaniyasından və habelə Moskvanın gürcülərin

Türkiyə torpaqlarına yönəlik iddialarına dəstək verməklə, SSRİ-nin Türkiyəyə qarşı həyata keçirdiyi əsəb müharibəsindən Britaniya hökumətinin narahat olduğunu bildirdi. E.Bevin öz ölkəsinin Türkiyə ilə ittifaq müqaviləsi olduğunu xatırladaraq İ.Stalini türkləri qorxutmamağa çağırdı. İ.Stalin isə E.Bevinin irəli sürdüyü məsələlərlə bağlı türklərin narahatlığının əsassız olduğunu qeyd etdi. Moskva müşavirəsində Boğazlar məsələsi qeyri-rəsmi qaydada müzakirə edilsə də, tərəflər arasında hər hansı bir razılıq əldə edilmədi (100). Dekabr ayının 26-da Xarici İşlər nazirlərinin Moskva müşavirəsi başa çatdı. Müşavirə Qərb müttəfiqlərinin Sovetlərlə əməkdaşlığa olan ümidlərini boşa çıxardı. Sovetlərin İran Azərbaycanında həyata keçirdiyi siyasət və Türkiyəyə qarşı irəli sürdüyü tələblər müttəfiqlərin əməkdaşlıq dövrünün artıq arxada qaldığından xəbər verirdi. Tanınmış rus alimi və soyuq müharibə erası ilə bağlı çox maraqlı əsərlərin müəllifi olan N.İ.Yeqorova haqlı olaraq yazır ki, Sovet liderlərinin planları Qərb anlamında qlobal parametrlər kəsb etməyə başladı. SSRİ-nin Türkiyəyə elan etdiyi tələblər bunda sonuncu damla rolu oynadı. Səciyyəvidir ki, bilavasitə Moskva müşavirəsmin işinin getdiyi zamanda iki gürcü akademiklərinin Tbilisinin "Kommunist" qəzetinin redaktoruna ünvanlanan və 14 dekabr 1945-ci ildə bu qəzetdə dərc edilən Türkiyəyə qarşı ərazi iddialarını əks etdirən məktubları bir çox Sovet qəzetlərində yenidən dərc edildi. N.İ.Yeqorovanın fikrincə, İran və Türkiyəyə münasibətdə SSRİ-nin seçdiyi şantaj və təzyiq taktikası səhv və ehtiyatsız siyasət idi. Bu həmin ölkələrdə əks reaksiya doğurdu və Qərb müttəfiqləri ilə münasibətləri kəskinləşdirdi (101).

Gürcü akademiklərinin məktubunun "Pravda" və "İzvestiya", habelə SSRİ Müdafiə Komissarlığının orqanı olan "Krasnaya Zvezda" qəzetlərində dekabr ayının 20-də yenidən dərc olunması ilk olaraq Türkiyədə kəskin reaksiya doğurdu. Dekabr ayının 20-də Xarici İşlər Nazirliyinin büdcəsi Türkiyə Böyük Millət Məclisində müzakirə edilən zaman söz alan İstanbul millət vəkili, Birinci Dünya müharibəsinin sonunda Türkiyənin Şərq cəbhəsindəki ordusuna komandanlıq etmiş, 1921-ci ilin sentyabr-oktyabr aylarında Türkiyə ilə Cənubi Qafqaz respublikaları arasında keçirilən Qars konfransında Türkiyə nümayəndə heyətinə başçılıq etmiş general Kazım Karabəkir dedi: "Arkadaşlar, xarici işlər büdcəmizi müzakirə edərkən eyni zamanda Moskvada üç böyük dövlətin xarici işlər nazirləri də əsas məsələ kimi bizdən bəhs etməkdədirlər. Bunun üçün bir millət vəkili olaraq bəzi faydalı gördüyüm xüsusları hüzurunuza ərz edəcəyəm. İstanbulda xalqla təmaslarda bəzi kimsələr bizə dedilər ki, "biz haqqımızdakı qərarları və yaxud müzakirələri xarici agentliklərdən dinləyirik, nə üçün hökumətimiz bunu açıqlamır?" Mən deyilənlərə qarşı bu cavabı verdim: "Hökumət qəti və bir dəfə olaraq fikrini söyləmişdir. Bəzi işlər vardır ki, hökumətin o işləri çox söyləməsi fayda yerinə zərər verir"... Lakin indi

kövrək bir vəziyyətdə bir millət vəkili sifəti ilə susmağımızı doğru bilmədiyim üçün qarşınızda və təbii dünya qarşısında bəzi faydalı məlumatları vermək istəyirəm. Qəzetəçi arkadaşlarımın mənə müraciətində sordukları çox yerində suallardı. Çünki bir qayda olaraq, agentliklərdən alınan məlumat belə idi: bu iddiaların birincisi ondan ibarətdir ki, biz, Qars və ona qonşu olan yerləri zorla işğal etdik və hətta Moskva müqaviləsini də rusların zəif zamanında bağladıq. İkincisi isə guya oralar əsasən Ermənistan idi. Getdik, kəsdik, biçdik, təmizlədik və erməniləri yurdlarından məhrum etdik, bu doğrudurmu? Şərq cəbhəmizdə gərək əsgəri hərəkət yapmış bir komandan, gərəksə siyasi müqavilələri imzalamış bir arkadaşınız sifətiylə bu sualları qarşınızda cavablandırmaq istəyirəm. Bunu da qeyd edim ki, Moskva müqaviləsinə dahi Atatürk məni nümayəndəliyin başçısı olaraq təyin etmiş və mənə rəsmi olan və öz imzasını daşıyan vəsiqəni göndərmişdi. Fəqət o zaman Şərq ordusunu başsız qoymaq və Şərq xalqı içindən ayrılmaq çox zərərli olacağı üçün vəziyyəti ona məruzə etmişdim. Mən müqavilə haqqında fikirlərimi daha öncədən bildirmişdim. Atatürk də bəyənmişdi. Beləliklə mən, nümayəndə heyətinin başçısı olaraq getmədim. Lakin ondan sonra imzalanan və onu tamamilə təsbit edən Qars müqaviləsində və ondan əvvəlki Gümrü müqaviləsində nümayəndə heyətinin başçısı mən idim".

Kazım Karabəkir paşa öz çıxışında həmin dövrün siyasi şəraitinə və imzalanmış müqavilələrin həm Rusiyanın, həm də Türkiyənin xeyrinə olduğunu tarixi faktlarla izah edərək deyirdi: "Biz ruslarla dostluq müqaviləsi imzalayan zaman hər iki tərəf istər nümayəndə heyətlərinin başçıları kimi, istər komandanların görüşlərində və istərsə də o zamankı qələm sahiblərimizin və siyasət adamlarımızın dillərində və qələmlərində bu əsasları təsbit etmişdik: "Türk-rus düşmənçilikləri Carlıq və Osmanlı dövlətlərinə aiddir. Biz bu düşmənçiliyi əbədi olaraq dəfn edirik. Moskva və Qars müqavilələri də dəfn etdiyimiz düşmənçiliyin məzar daşları olmalıdır. O ölünü bir daha qaldırmamaq lazımdır". Sonra Kazım paşa sözünə davam edərək Sovetlər Birliyinin irəli sürdüyü iddiaları cavablandırmağa başladı. O dedi: "Qars deyilən yer kimlərindir. Bu əsrlərcə türk xalqı ilə məskun olan və ancaq qısa bir zaman üçün Çarlıq idarəsinə təzminat əvəzi olaraq verilən bir türk ölkəsidir. Biz Sarıqamışa Soğanlı və Allahüəkbər dağlarını aşaraq girdik. Ağdəvələr, Benli Ahmetlər, Üçlər Təpəsi, Qoça Xəlillər, Kiçik, Böyük Yahnilər, Alacadağlar, Çalkavurlardan keçdik. Nəhayət, Arpa çayından, Çıldır gölündən su içdik. Hüdudumuzu da son türk məntəqəsidir deyə Arpa çayı ilə cızdıq. Əgər xəritəni açsanız, bu yerlərin adları belə tamamilə türkdür... Oradakı ermənicə adlar tək-tük oradan-buradan gəlmiş bir surətdə ola bilən bir neçə kənddən ibarətdir... Biz oraları ruslardan almadıq, iki dəfə oralara hərəkət etdik. Birinci Dünya müharibəsində ruslar yurdlarına çəkilmiş və orada

nə rus əhalisi, nə da rus ordusu yox idi. İkincisi, istiqlal hərbimizdə. Hər ikisində də oraları erməni istilaçılarından aldıq və oradakı türklərin həmin yansı qətliam edilmiş, evləri, kəndləri dağıdılmış bir halda gördük, sürətlə irəli gedərək onları qurtardıq. Qars və Gümrüdəki Amerikan heyətləri bu hərəkətlərimizi gördülər, yazılan ilə bizi təqdir etdilər. Qarsdakı Amerikan heyəti öz sənədlərində türk ordusunun çox müntəzəm bir ordu olduğunu və mədəniyyət səviyyəsinin avropalılardan əsla geri qalmadıqlarını, dinc əhaliyə və uşaqlara qarşı qətiyyən zülüm və qətllər yapmadığını bildirmişdir. Bunlar öz hökumətlərinə verdikləri ilk raportdur. Gümrüdəki amerikalılar da vəziyyəti gördülər, ermənilərin halını gördülər və onlar (ermənilər - C.H.) da Amerikaya bunları yazdılar: "Türk millətinə yardım ediniz, türklər böyük bir millətdir, onun yetişdirdikləri ordu bu gün əlimizdən tutaraq uşaqlarımızı və bizi ən mədəni millətlər kimi himayə edir və bizə yardım edir". Kazım paşanın fikrincə, Moskva müqaviləsi baş vermiş hadisələrin səmimi qəbulu idi.

1921-ci il müqavilələrinin guya rusların zəif vaxtında imzalandığına toxunan Şərq cəbhəsi komandanı qeyd edirdi ki, Qars vilayətini və ətraf vilayətləri tərk edib bizə buraxan əsas müqavilə Qars müqaviləsidir. Qafqaz Federasiyası millətlərinin də nümayəndələri və xarici işlər nazirlərinin iştirakı ilə ruslarla Qars müqaviləsini imzaladığımız zaman əsla biz qüvvətli deyildik. Həmin vaxt Şərq ordumuz Qərbə dönmüş, hərbi sursatı, ağır topları da eyni zamanda ora göndərmişdik. Bunu ruslar da çox əla bilirdilər. Bundan başqa bizim yerimizdə başqa bir millət və kin bəsləyən bir ordu olsaydı, erməni mövcudiyyəti belə qalmazdı. Bunun üçün ermənilər Qars müqaviləsinə imzalarını qoyduqları zaman bunun şükran borcu olduğunu ifadə etmişdilər (102). Kazım paşa öz çıxışında Qars konfransındakı Rusiya nümayəndəsi Y.Qanetskinin və Ermənistanın xarici işlər naziri A.Mravyanın çıxışlarını misal gətirirdi. Y.Qanetski Qars konfransının açılışındakı çıxışında Türkiyənin düşdüyü ağır durumdan çıxacağına ümid bəslədiyini bildirərək deyirdi: "Burada çox böyük bir hadisə baş verir. Qüdrətli türk və erməni xalqları sözdə deyil, işdə aralarındakı düşmənçilikdən əbədi olaraq imtina edəcəklərini bütün dünyaya göstərəcəklər. Onlar bir-birlərinə tərəf sıyrılmış qılıncla deyil, səmimi qardaşlıq duyğuları ilə gəlirlər". Eyni zamanda Qars konfransının açılış mərasimində üç Cənubi Qafqaz respublikası adından çıxış edən A.Mravyan Türkiyənin düşdüyü ağır vəziyyətdə "qardaş türk xalqının imperializmə və zorakılığa qarşı mübarizədə qalib gəlməsini cənub Qafqaz xalqlarının arzuladığının konfransın sənədlərində qeyd edilməsini" zəruri sayırdı(103).

Kazım Karabəkir paşa qeyd edirdi ki, 1921-ci il müqavilələri imzalanan zaman Lenin dövlət başçısı, Çiçerin isə xarici işlər komissarı idi. Onlar da eyni mənada müraciətlərlə dünyaya haykırırdılar ki, türklər istiqlal hərbi

edirlər. Biz ədalətli sülhlərlə türklərin haqlarını verdik. Türklər öncə haqlarına, haqları üçün də güclərinə güvənirlər. Ey Avropa millətləri, türklərin haqlarını veriniz. Biz Şərqdə onların tamamilə haqları olan hüdudlarını müəyyənləşdirdik. Siz də Qərbdə bizim qədər mədəni olunuz. Bunları söyləyən Lenin, Çiçerin və Qars müqaviləsini imzalayan Qanetskidir. Şərqi Anadoluya dərindən bələd olan bir hərbçi kimi Kazım paşa deyirdi: "Qars yaylasına hakim olmaq Anadolunu istila etmək üçün pusquya yatmaq deməkdir. Qars yaylasına hakim olmaq Dəclə və Fərat boyunca Aralıq dənizi və Bəsrə körfəzinə enən yolların zirvəsinə hakim olmaq deməkdir. Qars yaylası onlara enəcək böyük bir seli tutan yeganə səddir. Boğazlar millətimizin həqiqətən boğazıdır. Oraya əl uzatmağa imkan vermərik. Fəqət bunu da bilməlidirlər ki, Qars yaylası da millətimizin bel sütunudur. Onu qırdırsaq yenə məhv olarıq. Rus qonşularımızı idarə edən yüksək kimsələr bilirlər ki, biz istiqlal hərbinə hansı şərtlər altında girdik. Bütün dünyaya hakim olan qalib dövlətlərə qarşı istiqlal davasına atıldıq. Ölüm bir kərə olur dedik, sona qədər vuruşuruq. Tək bir nəfər qalsaq, son bir dağın başına çəkilər də, özümüzə oranı məzar qazarıq dedik. K.Karabəkir paşa qeyd etdi ki, əgər ruslar bizdən yer istəməkdə israr edirlərsə, heç şübhə yoxdur ki, döyüşəcəyik, fəqət gələcək bizim üçün qaranlıq olduğu qədər onlar üçün də qaranlıq olur. Dünya dağılıncaya qədər və tək bir türk qalıncaya qədər varımızı-yoxumuzu ortaya qoyaraq çalışacağıq. Pullarımızı dişimizdən dırnağımıza qədər silahlanmaya sərf edəcəyik. Bu təqdirdə iki tərəf də həyatdan, bəşəriyyətdən, mədəniyyətdən nəsibini ala bilməyəcək" (104).

General Kazım Karabəkirin bu açıqlamasından sonra söz Xarici İşlər Nazirliyinin büdcə müzakirələri ilə bağlı Böyük Millət Məclisinin iclasına gəlmiş xarici işlər naziri Hasan Sakaya verildi. H.Saka əvvəlcə 1945-ci ilin mart ayından başlayaraq cərəyan edən hadisələrə qısa ekskurs etdi və 1945-ci ilin noyabr ayının 7-də Sovetlərin birtərəfli qaydada ləğv etdikləri dostluq və bitərəflik haqqında müqavilənin vaxtının bitdiyi haqda Məclisə məlumat verdi. O, dedi: Türkiyə Cümhuriyyətinin sülh ideallarına nə qədər bağlı olduğunu dünyada bilməyən məmləkət qalmamışdır. Yurdda sülh, cahanda sülh düsturu ilə qısaca ifadə edilən prinsipimiz hər vasitə ilə, hər zaman bütün dünyanın önünə çıxmışdır. Bu etibarla biz eyni prinsipə sadiq qalaraq istər bütün qonşu dövlətlərlə, istər bütün dünya ölkələri ilə daim bu prinsipin ilham verdiyi əsaslar çərçivəsində münasibətlərimizi çox açıq və çox səmimi olaraq davam etdirmək istəyirik. Biz bütün dünya millətlərinin haqlarına riayət etdiyimiz kimi, bütün dünya millətləri tərəfindən də bizim haqlarımıza eyni görüşlər çərçivəsində riayət edilməsini istəmək haqqımızdır və bunu hər zaman istəyəcəyik. H.Saka Türkiyənin sülhə sadiqliyini əsaslandırdıqdan sonra bildirdi: "Çox ümidliyik ki, nəhayət, yaxın bir zamanda gözlədiyimiz dünya sülhü meydana gəlsin, xüsusilə San-Fransisko konfransı ilə

qurulmuş olan və Yaxınlarda fəaliyyətə başlayacaq Birləşmiş Millətlər Təşkilatının da bu sülh işinə çox yardım edəcəyinə güclü şəkildə ümid edirik. Arzu edirik ki, bu sülh qurumu daha tez meydana gəlsin və qonşu, eləcə də bütün dünya millətləri ilə şüarımız olan əsas prinsip dairəsində münasibətlərimizi yenidən təsis edək və onların çağırışlarına uyğun bir siyasət həyata keçirə bilək". Xarici işlər naziri H.Saka öz qısa çıxışında ümumiyyətlə, Sovetlər tərəfindən irəli sürülən tələblərə toxunmadı və Sovet İttifaqı ilə ləğv edilmiş müqavilənin yerində yeni bir müqavilənin bağlanacağına hələ ümidini itirmədiyini dilə gətirdi. O dedi: "Biz əskidən olduğu kimi bu müqavilələrin cızdığı səmimi dostluq havasının iki məmləkət arasında yenidən meydana çıxmasını candan diləməkdəyik və bu xüsusda ümidimizi kəsmiş deyilik (105).

Müzakirənin sonunda məclis türk ordusuna müraciət qəbul etdi. Müraciətdə türk ordusunun ölkənin təhlükəsizliyini, müstəqilliyini və bütövlüyünü şərəflə qoruyacağına ümidvar olunduğu bildirilirdi.

Xarici işlər naziri H.Saka Böyük Millət Məclisindəki qısa çıxışında elə bir şey deməsə də və özünü yetərincə təmkinli aparsa da, Ankaradakı ABŞ səfirinin dekabr ayının 22-də Dövlət katibinə göndərdiyi teleqram türk hökumətinin, ilk növbədə isə prezident İ.İnönünün ciddi narahatçılığından xəbər verirdi. E.Vilson yazırdı: "Tiflis qəzetlərinin birində Türkiyənin Qara dəniz sahilinin Gürcüstan SSR-ə aid olması iddiası ilə çap edilən məqalə haqqında Sovet radiosu və mətbuatı tərəfindən yayılan bəyanat burada qarışıqlığa səbəb olub. Xarici İşlər İdarəsmin Baş katibi F.C.Erkin dünən gecə mənə bildirdi ki, bununla əlaqədar çox hiddətli olan prezident İ.İnönü ilə görüşüb. F.Erkin söylədi ki, Xarici İşlər İdarəsi Türkiyənin Vaşinqtondakı səfirinə Sovetlərin apardığı əsəb savaşının bu yeni mərhələsi barədə ABŞ hökumətinin mövqeyini öyrənməyi tapşırıb. Bu əsəb savaşı ilə SSRİ BMT-nin prinsiplərinə zidd olacaq bir şəkildə Türkiyənin üzvlükdən çıxarılmasına çalışır. F.Erkin məndən ABŞ hökumətinin bu hadisə ilə bağlı mövqeyini öyrənməkdə Türkiyə hökumətinin daha çox maraqlı olduğunu Dövlət Departamentinə çatdırmağını xahiş edib.

Mən bunu məmnuniyyətlə edəcəyimi söylədim. Mən əlavə etdim ki, bu Sovetlərin əsəb savaşının yeni mərhələsinə işarə verməsi kimi görünür və Türkiyə hökumətinin sakit qalacağına və Sovetlərə kampaniyanı davam etdirmək üçün bəhanə verə biləcək hər hansı addımlar atmayacağına ümid etdiyimi ifadə etdim. F.Erkin söylədi ki, bu barədə narahat olmağa heç bir səbəb yoxdur, belə ki, Türkiyə hökuməti vəziyyətin ciddiliyini anlayır və istənilən münaqişənin qarşısını almaq üçün tədbirlər görəcək. Daha sonra mənim xarici işlər naziri ilə eyni mövzuda söhbətim oldu. H.Sakanın bu olayla bağlı çox ciddi narahat olduğu gözə çarpırdı (106). Sovetlərin iki Cənubi Qafqaz respublikasının Türkiyəyə qarşı ərazi iddialarının açıq xarakter alması, Ankara və İstanbulda Sovet diplomatik

idarələrinin ermənilər arasında SSRİ-yə köçmək üçün müxtəlif vasitələrlə təbliğat işlərini genişləndirməsi, erməni iddialarına yeni gürcü iddialarının da əlavə edilməsi, ən nəhayət, Britaniyadan fərqli olaraq Birləşmiş Ştatların Moskva ilə danışıqlarda bir qədər loyal mövqe tutması Türkiyə siyasi dairələrinin narahatlığını artırmışdı. Ölkə əhalisi məlumatsızlıqdan, ölkə rəsmiləri isə alınan məlumatların son dərəcə ağırlığından narahatlıq keçirirdilər. Ölkəni bürümüş gərginlik fonunda Türkiyədəki Amerika diplomatlarının narahatlığı İstanbulda Sovet konsulluğu qarşısında SSRİ-yə köçmək istəyən ermənilərin son zamanlar yaratdıqları növbələrlə bağlı idi. Konsulluğa adamlar tək-tək buraxıldığından amerikanlar ehtiyat edirdilər ki, ermənilərə qarşı küçə münaqişələri və təxribatlar törədilməsi üçün Sovet orqanları tərəfindən bu iş qəsdən belə təşkil olunur. Dekabr ayının 21-də xarici işlər naziri H.Saka ilə görüşən Amerika səfiri E.Vilson ermənilərin iştirakı ilə har hansı münaqişədən qaçmaq üçün hökumətin adekvat tədbirlər görməsinin vacibliyini vurğuladı. H.Saka qeyd etdi ki, türk hökuməti bu istiqamətdə zəruri olan tədbirləri görməkdədir və elə bir problemin yaranacağı gözlənilmir. O, əlavə etdi ki, hökumət Ermənistana getmək istəyənlərin bunu tam sərbəst şəkildə edə biləcəkləri haqqında mətbuata rəsmi bəyanat verməyə hazırlaşır. H.Saka bildirdi ki, onda olan məlumata görə, indiyə qədər 1500-ə Yaxın şəxs Sovet Baş konsulluğuna SSRİ-yə getmək üçün müraciət edib ki, bunların da çoxunu Türkiyədə heç bir gəliri olmayan və istənilən macəraya hazır olan "veyil adamlar" təşkil edir (107).

Türkiyə ətrafında yaranmış vəziyyətə müəyyən aydınlıq gətirmək üçün ABŞ səfiri E.Vilson dekabr ayının 28-də Sovet səfiri S.Vinoqradovla görüşdü. İki saat davam edən söhbətin gedişində S.Vİnoqradov gürcü akademiklərinin məqaləsinin tam mətnini almadığını, lakin gürcü xalqının onlara aid hesab etdikləri əraziləri Türkiyədən geri almağa çox qərarlı olduqlarını bildiyini söylədi. SSRİ ilə Türkiyə arasında yaranmış gərginliyin səbəblərinin müzakirəsindən sonra E.Vilson əlaqələrin yaxşılaşdırılması istiqamətində nə edib biləcəyini soruşdu. S.Vinoqradov dedi ki, V.Molotov bunun formulunu keçən iyun ayında S.Sarperə verib. Sovet səfiri əlavə etdi ki, SSRİ-nin təhlükəsizliyi bazaların verilməsini tələb edir və eyni zamanda Sovet İttifaqı Ermənistan Respublikasının maraqlarını təmin etməlidir. ABŞ səfiri Sovetlərin ərazi iddialarını BMT Nizamnaməsinin bütün dövlətlərin suverenliyi haqqındakı müddəası ilə necə uyğunlaşdıra biləcəyini soruşduqda S.Vinoqradov dedi ki, xalqların bərabər hüquqlu olması şərti Gürcüstana da aiddir. E.Vilson sərhədlərin 1921-ci ilin Moskva və Qars müqaviləsi ilə tənzimləndiyini vurğuladıqda Sovet səfiri cavab verdi ki, həmin müqavilələr "SSRİ-nin zəif olduğu vaxt" "müzakirə edilib və situasiya dəyişən şəraitin işığında onların yenidən gözdən keçirilməsini tələb edir. Ermənistana köçmək istəyən Türkiyədəki

erməni mənşəli şəxslərə gəldikdə isə S.Vinoqradov "bir neçə min" erməninin indiyə kimi Sovet Baş konsulluğuna müraciət etdiyini, lakin hələ onları aparmaq üçün nəqliyyat ayrılmadığını və bu məsələ ilə bağlı konsul Mixailovun məruzə etmək üçün gələn ay Moskvaya gedəcəyini bildirdi (108).

Eyni zamanda öz ölkəsinin təlimatına uyğun olaraq dekabr ayının 29-da Vaşinqtondakı Türkiyə səfiri H.R.Baydur Dövlət katibinin müavini D.Açesonla görüşdü. Görüşdə əsas məqsəd Moskva müşavirəsində Türkiyə ilə bağlı hər hansı müzakirənin olub-olmadığını öyrənmək idi. Lakin məlum oldu ki, Dövlət katibi Moskvadan yeni qayıtdığından D.Açeson da bu məsələ barədə mətbuat materiallarından başqa elə bir şey bilmir. Səfir H.Baydur SSRİ-nin Trabzon-Ərdahan regionundakı türk ərazilərinə olan son iddialarına Dövlət katibinin müavininin rəyini bilmək istədikdə D.Açeson cavab verdi ki, bu məsələ ilə bağlı Sovet mətbuatında dərc olunmuş SSRİ-nin iddialarını Dövlət Departamenti diqqətlə öyrənir. O, əlavə etdi ki, ABŞ BMT-ni hər hansı formada müharibənin qarşısını almaqda effektiv vasitəyə çevirmək üçün əlindən gələn cəhdi edir və kiçik xalqlar BMT-nin effektiv tədbir görməsinə mane ola biləcək və birtərəfli addımlara gətirib çıxaracaq məğlubiyyətçilik hissinin yaranmasına yol verməklə bu vəzifəni çətinləşdirəcəklər. Dövlət katibinin müavini dedi ki, türklərə hazırkı vəziyyətdə təmkinli olmaq və indiki vaxtda, xüsusilə də BMT-nin toplantısına iki həftə qaldığı bir zamanda hər hansı münaqişə və ya nümayişin qarşısını almaq üçün tədbirlər görülməsi haqqında məsləhət verə biləcəyini düşünür. D.Açeson söhbət zamanı belə bir fikir ifadə etdi ki, müzakirə edilən ümumi məsələlər Türkiyənin hüdudlarını aşaraq dünyanın sülh və təhlükəsizlik sferasına daxil olur ki, bunda da Türkiyə hökumətinin böyük marağı var. Səfir H.Baydur D.Açesonun fikri ilə razılaşsa da əlavə etdi ki, türk xalqının sülhü pozan bir tərəfin sərt hücumlarının hədəfinə çevrildiyi bir vaxtda təmkinli qalması çox mürəkkəb məsələdir. O, dedi ki, Türkiyə əmin-amanlığı pozmayıb, hücumlarını Türkiyəyə yönəldən məhz Sovet İttifaqıdır. Buna görə də türk mətbuatı və Türkiyə parlamentində Türkiyənin mövqeyinin müdafiə olunması Sovetlər tərəfindən "təcavüz" kimi qiymətləndirilə bilməz. D.Açeson türk səfirinin bu dəlilləri ilə razılaşdı (109).

Danışıqlar zamanı türk səfiri H.Baydur Moskva müşavirəsindən sonra Sovet hərəkətlərinə münasibətdə ABŞ rəsmilərinin səbrinin tükəndiyinin ilk əlamətlərini müşahidə etdi. Dekabr ayının son günlərində Dövlət katibi C.Birns Moskva müşavirəsi ilə bağlı Türkiyədəki səfir E.Vilsona bildirirdi ki, Türkiyə problemi ilə bağlı bizimlə ruslar arasında heç bir danışıq olmayıb. Bununla belə, E.Bevin V.Molotovdan rusların bu problemlə bağlı nə etmək niyyətində olduğunu soruşdu. O, cavabdan razı qalmadı və gözlənildiyı kimi, bu söhbət situasiyanı dəyişmədi. C.Birns deyirdi ki, siz türklərə bizim Moskvada Türkiyə ilə bağlı problemləri müzakirə etmədiyimiz barədə məlu-

mat verə bilərsiniz. Lakin Dövlət katibi tövsiyə edirdi ki, Amerika səfirinin Bevinlə Molotov arasında gedən danışığa istinad etməməsi məqsədə uyğundur. Onun fikrincə, Britaniyalı səfir türklərə bu məsələ ilə bağlı məlumat çatdıracaqdı, belə ki, Türkiyənin həmin məlumatlara malik olmasında Britaniya hökuməti maraqlı idi (110).

ABŞ-ın tərəddüdlü mövqeyi ilə müqayisədə türk hökuməti İngiltərə xarici işlər nazirinin Moskvada Sovetlərə göstərdiyi sərt münasibətdən məmnun qalmışdı. Britaniyanın belə mövqeyi türk siyasi dairələrinin leyborist hökumətinə olan tərəddüdlü münasibətinə son qoydu. Bütün bunlara əlavə olaraq Britaniya rəsmiləri onların xarici siyasətində hər hansı dəyişikliyin olmayacağı barədə türklərə təminat da verdilər. Nəticədə türklər Sovetlərin tələbləri qarşısında ingilis dəstəyindən məhrum olmadılar (111).

Dekabr ayının 20-də gürcü akademiklərinin məktubunun Moskva mətbuatında dərc edilməsi Türkiyə kütləvi informasiya vasitələrində, Britaniya, ABŞ və digər ölkələrin mətbuatında geniş müzakirələrə səbəb oldu. Gürcüstan xarici işlər naziri Q.Kiknadze respublika partiya təşkilatının rəhbəri K.Çarkvianiyə yazırdı ki, bu məktub türk mürtəce dairələrinin düşərgəsində bomba partlayışına bərabər oldu (112). Əlbəttə, məsələ yalnız iki gürcü akademikinin "Kommunist" qəzetinin redaktoruna məktubu ilə bitmədi. Məktubda irəli sürülən müddəaları müdafiə etmək üçün gürcü cəmiyyətinin elmi və dini dairələrinin respublika mətbuatında yazıları təşkil edildi. Acar müsəlmanlarının kadisi Beridzenin, bütün Gürcüstanın patriarxı Sinsadzenin, akademik A.Çikobovanın, prof. Zavriyevin, dosent S.Cikiyanın məqalələrində akademik S.Canaşiya və N.Berdzenaşvilinin Türkiyəyə qarşı irəli sürdükləri ərazi iddialarının "doğruluğu" müdafiə edilir və gürcü xalqının tələblərinin "qanunauyğunluğu" yeni faktlarla "zənginləşdirilirdi". Gürcü akademiklərinin məktubunun xarici ölkələrdə doğurduğu rəyləri ümumiləşdirən respublika Xarici İşlər Nazirliyi qeyd edirdi ki, qabaqcıl gürcü ictimaiyyətinin qaldırdığı məsələ xarici mətbuat və radiolarda yeni antisovet təbliğat dalğasını doğurmuşdur. Sənəddə qeyd olunurdu ki, türk irticaçıları daha güclü təbliğat kampaniyası qaldırmışlar. İngiltərə, Amerika, Fransa, Hindistan, Kanada və digər ölkələrin qəzet yazarları və radio şərhçiləri onlardan geri qalmırlar. Q.Kiknadze yazırdı ki, onlar Sovet "ekspansionizmini" ifşa etmək üçün bütün güclərini əsirgəməyiblər (113).

Dekabr ayının 22-də Ankara radiosu Türkiyəyə qarşı irəli sürülən ərazi tələblərinə xüsusi veriliş həsr etdi. Moskva radiosunun hədələrinə cavab olaraq Ankara radiosu bildirirdi ki, Türkiyə özgə torpaqlarına iddia etmir və heç kəsə də ərazi borcu yoxdur. Ona görə biz belə bir fikri yaxın buraxmırıq ki, türkiyə ərazilərinə aid məsələ Moskva konfransında müzakirə edilə bilər və türk xalqının əsəbləri ilə oynaya bilərlər. "Əgər bu əsəb müharibəsidirsə, bil-

mək lazımdır ki, türklər Anadolu vadisində müstəqillik uğrunda mübarizə nəticəsində öz əsəblərini möhkəmləndiriblər və onu polad kimi dözümlü ediblər"(114).

Dekabr ayının,21-22-də ilk olaraq "Tanin" qəzetində H.C.Yalçının bir-birinin ardınca iki yazısı çıxdı. Birinci yazıda söhbət "Erməni məsələsi"ndən açılırdı. Yalçın yazırdı: "Ruslar şərq hüdudlarımızda bəzi torpaqlarımızın onlara verilməsini istədilər. Təbii ki, bizdən qəti bir rədd cavabı aldılar. Bundan sonra radiolarında bir erməni məsələsi ortaya atıldı və artıq hər tərəfdə bir ermənilik hərəkatı görünməyə başladı. Ruhani rəislər irəli itələndi, müxtəlif erməni cəmiyyətləri fəaliyyətə keçirildi ki, bizim vilayətlərimiz Rusiya tərəfindən deyil də, erməni torpaqları olmaq etibarilə İrəvan bolşevik erməni cümhuriyyəti tərəfindən istənilirmiş kimi bir durum meydana gətirildi. Bəlkə türk vilayətlərinin doğrudan-doğruya moskvalılar hesabına istəmək bolşeviklərə asan gedəcək bir təbliğat kimi görünmədi, yəni özləri də belə bir məsələnin haqsızlığını və çürüklüyünü anladılar və ona zahirən bir ədalət və məşrutiyyət bəzəyi vermək üçün "erməni" adını istifadə etməkdən fayda tapdılar" (115). Bir gün sonra isə H.C.Yalçın "Tanin" qəzetində "İndi də gürcülər" yazısı ilə çıxış etdi. O, qeyd edirdi ki, yazıq gürcü alimləri, əgər onları alim adlandırmaq mümkünsə, Moskva bolşeviklərinin əmri ilə bu cəfəngiyyatı yazıblar. Yalçın Sovet İttifaqını işğal, təcavüz, hiyləgərlik və cinayət əsasında qurulmuş imperializmin ən bariz nümunəsi hesab edirdi. O, yazırdı: "Qoy ruslar bütün Sibiri, bütün türk ölkələrini, bütün Uralı, bütün Xəzəryanı Qafqazı azad etsinlər və qoy onlar Moskva knyazlığının sərhədlərinə getsinlər, bundan sonra isə Van gölünə qədər uzanan qədim gürcü sərhədini bizdən tələb etsinlər" (116).

Dekabrın 22-də çıxmış "Tasvir" qəzetində Peyami Safa da gürcü akademikləri tərəfindən irəli sürülən iddiaların Moskvadan gəldiyini bildirir və qeyd edirdi ki, dünya bilir ki, Sovetlərin rəsmi görüşünə uyğun olmayan bir iddianın "Pravda" və "Krasnaya Zvezda" kimi orqanlarda yayımlanmasına imkan yoxdur. Elə həmin gün "Ulus" qəzetində Türkiyə Böyük Millət Məclisinin üzvü Falih Rıfkı Atayın "Rusiya ilə münasibətlərimiz" adlı yazısı çıxdı. Cümhuriyyət dövründən bəri Sovet-Türk münasibətlərinin ən mühüm məqamlarına toxunan Atay qeyd edirdi ki, biz bütün cümhuriyyət dövründə heç bir dostluq satın almadıq və almırıq. İnqilab Rusiyasına qarşı duyduğumuz inam və sevginin qaynağı da Lenin və silahdaşlarının təmsil etməkdə olduqları təmiz və bazarlıqsız dostluq ruhu idi. Dekabrın 23-də "Ulus" böyük başlıqla "Qars və Ərdahandan sonra Gürcüstanın adından Trabzon, Giresun və Bayburtu tələb etməyə başlayıblar" yazısını verdi. Həmin yazıda Atay qeyd edirdi ki, əvvəl ruslar Boğazlar haqqında Montrödə imzalanmış Konvensiyaya baxılmağı təklif etdilər, sonra onlar əsl türk şəhərləri olan Qars, Ərdahan və Artvinin verilməsini bizdən tələb etdilər, lakin sən demə, bu da az imiş.

İndi ruslar 270 kilometrlik bir ərazini gürcülərə verməyi tələb edirlər. Bizə tamamilə aydın deyil, nə üçün bu tələblər bir-birinin ardınca indi Sovet Rusiyasının yaradılmasından 25 il sonra meydana çıxdı. Həmin gün "Tanin" qəzeti isə "Sən demə Qars, Ərdahan və Artvin bəs deyildir. Artıq Trabzon, Gümüşxanə və Bayburtu tələb edirlər" adlı məqaləsini yayınladı. "Ulus" Atayın yazısı ilə bərabər birinci səhifəsində Trabzon, Artvin və Qarsdan ümumi foto görüntülər verdi. Şəkillərin altında "Bizim gözəl Trabzonun görüntüsü, bütün tarixi ərzində türklərin olmuş və həmişə də belə qalacaq", "Türk Artvinindən bir görüntü", "Türk Qarsının ümumi görünüşü" yazıları verilmişdi (117). "Lya Repablik" qəzeti 23 dekabr sayında gürcü tələbləri ilə bağlı verdiyi geniş yazıda bütün cərəyan edən hadisələri SSRİ-nin Türkiyəyə qarşı apardığı əsəb müharibəsinin yeni manevri hesab edirdi. Qəzet yazırdı: "Çox qəribədir, o şeyləri ki, Rusiya 1945-ci ildə danışır, həmin şeyləri Berlin və Roma 1938-1939-cu illərdə eyni ilə həmin dildə danışırdı". Tanınmış jurnalist N.Sadak "Akşam" qəzetindəki "Biz rus dostluğunu ərazilər hesabına satın almırıq" adlı yazısında məsələyə bir qədər ayrı yöndən yanaşıb qeyd edirdi ki, Qara dəniz sahilləri boyunca türk əraziləri haqqında gürcülər tələb irəli sürür, Moskva isə özünü elə göstərir ki, guya bu haqda heç nə bilmir, bu primitiv və gülməlidir. Gürcülərin tələblərinin Türkiyədə yaratdığı həyəcan dalğasına keçmiş xarici işlər naziri R.Aras da qoşuldu. Onun "Vatan" qəzetində yaymlanan "Mənim Sovet mətbuatına açıq müraciətim" adlı yazısında R.Aras Sovet İttifaqının ağla batmayan və türkləri bərk əsəbiləşdirən tələblərində ciddi tənqid edirdi. Haqqında söhbət gedən ərazi tələbləri, o cümlədən gürcü alimlərinin irəli sürdüyü ərazi tələbləri ilə bağlı R.Aras qeyd edirdi ki, ümumiyyətlə indi Türkiyədən bir qarış torpaq belə almaq mümkün deyil (118).

Türkiyəyə qarşı yönəlmiş sovet tələblərinə "Yeni Sabah", "Cümhuriyyət", "Tasvir" və digər mətbuat orqanlarında da cavab verildi. "Tasvir" qəzetinin redaktoru Cahid Baban Sovet tələblərinə cavab olaraq yazdığı silsilə məqalələrində bəyan edirdi ki, biz də eyni zamanda Batum, Bakı və Tiflisi tələb edə bilərik. Əgər bu məsələ qalxsa, akademiklər üçün çətin olacaq. Onda gərək onlar sübut etsinlər ki, İrəvan, Tiflis və Bakı, bütövlükdə Qafqaz Türkiyəyə deyil, Rusiyaya aiddir. Dekabr ayının 28-də "Cümhuriyyət" qəzeti "19 milyonun 10 sözlük şüarı" adlı baş məqalə dərc etmişdi. Orada deyilirdi ki, "bütün Türkiyə öz torpağının hər qarışını qorumaq naminə vuruşmağa hazırdır" (119). Dekabr ayının 28-də Asım Us "Vakıt" qəzetində "Erməni və gürcü məsələlərinin arxasında gizlənən hədəf adlı geniş məqalə ilə çıxış etdi. Bu yazıda Sovetlərin erməni və gürcüləri Türkiyə üzərinə salışdırmasının arxasında müxtəlif məqsədlər güddüyü, Türkiyənin daxilində dedi-qodu yaymaq istədiyi və bundan istifadə edib öz gerçək niyyətlərini həyata keçirmək istədiyi təsvir edi-

lirdi. A.Us yazırdı: "Moskva hökumətinin bir tərəfdən daxili siyasət baxımından Türkiyəyə qarşı bir erməni və bir gürcü məsələsi açmaqda təbliğat faydası gördüyü kimi, bu məsələləri gizli bir təcavüz prosesini örtmək üçün vasitə kimi istifadə etməsi mümkündür və türklər üçün mühüm olan cəhət də budur. Onun üçün məmləkətimizdə bir xəyali erməni məsələsi və ya bir xəyali gürcü məsələsinin dedi-qodusu ilə məşğul olacaq yerdə rusların türk millətinə qarşı başladıqları təhrik siyasətinin əsl hədəfini araşdırmamız və daima hadisələrin inkişafına intizarən milli birliyimizi çox sıx tutmamız lazımdır" (120).

Ankara və İstanbul mətbuatı ilə yanaşı, əyalət qəzetlərində də Sovet tələblərinə qarşı kəskin kampaniya başlamışdı. Dekabr ayının 27-də Trabzonda çıxan "Halki" qəzeti qeyd edirdi ki, "türk vətəni bütöv və bölünməzdir. Ərdahan, Qars, İzmir, Ədirnəpol və ümumiyyətlə, bütün milli sərhədlərdə nəbz eyni vaxtda vurur. Biz Atatürkün oğullarıyıq və öz ölkəmizin bir qarşını da qurban vermək hüququna malik deyilik. Lakin biz bu torpağın hər qarışı üçün həyatımızı qurban verməyə borcluyuq. Biz türklər öz xalqımızın yaşaması naminə ölməyi bacarırıq". Dekabr ayının sonlarında türk mətbuatında gedən yazılan təhlil edən "Frans Press" agentliyinin əməkdaşı Andre Klo belə nəticəyə gəlirdi ki, türk mətbuatının yazılarını öz məzmununa görə üç qrupa ayırmaq olar. Birinci qrup yazılarda belə hesab edilirdi ki, Sovet İttifaqı həqiqətən Türkiyənin səkkiz vilayətini ilhaq etmək istəyir, ikinci qrup yazılarda deyilirdi: Rusiya çox tələb edir ki, nə isə bir şey alsın, üçüncü qrup yazılarda iddia olunurdu ki, Sovet ittifaqı bu tələbləri irəli sürməklə anqlosakslar tərəfindən özünün digər tələblərinin, ilk növbədə Balkan və atom bombası məsələsindəki tələblərinin təmin olunmasına çalışır (121).

Sovetlərin Türkiyəyə ərazi tələblərinin açıq xarakter alması və xüsusilə gürcü akademiklərinin məktubunun Moskva mətbuatında dərc edilməsi aparıcı Qərb ölkələrinin siyasi dairələrində və mətbuatında da çoxsaylı rəylər doğurdu. Dekabr ayının 23-dən başlayaraq Britaniya kütləvi informasiya vasitələri Sovetlərin Türkiyədən ərazi tələblərini qəribə və əsassız hesab edib, gürcü alimlərinin ingilis mətbuatında deyildiyi kimi, "romantik tələblərini" kəskin şəkildə pislədilər. Britaniya radiosu və qəzetlərinin şərhçiləri gürcü alimlərinin yazısı ilə bağlı soruşurdular: "Bu tələblər doğrudan da irəli sürülübmü, yoxsa bazarlıq etmək üçün taktiki hiylədir?" Gürcüstan Xarici İşlər Komissarlığının məlumatında göstərilir ki, elə bir gün olmayıb ki, Britaniya radiosu və qəzetləri gürcü akademiklərinin məktubuna yer ayırmasınlar. "Tayms" qəzeti 1945-ci ilin dekabr ayının 22-də çıxan sayında qeyd edirdi ki, xarici işlər nazirlərinın kövrək və çətin müşavirəsmin qızğın çağında bütün Moskva qəzetlərinın və Sovet radiosunun yeni gürcü iddiaları haqqında geniş məlumatı, bunun çatdırılma manerası bütün müttəfiq ölkələri təəccübləndirdi. Dünən hamı

bunun motivlərini axtarırdı. Onlar romantik ənənələrə və qədim tarixin epizodlarına söykənirlər. Hakimiyyətdə olan leyborist partiyasının rəsmi orqanı olan "Deyli Herald" qəzeti "nə vaxtsa gürcülərə məxsus olmuş və türklər tərəfindən tutulmuş" ərazilərə qəribə iddialar irəli sürüldüyündən təəccübləndiyini ifadə etmişdi. "Yörkşir Post" qəzetinin fikrincə, Sovetlərin bu təzyiqi əsəb müharibəsindən də artıq bir şey idi və qəzet belə hesab edirdi ki, türklər rus tələblərinə qarşı güclü müqavimət göstərəcəkdir. Dekabr ayının 22-də London radiosu beynəlxalq vəziyyətin icmalını təqdim edəndə icmalın əsəs başlığını "İştah yemək vaxtı gəlir" adı ilə efirə vermişdi. Bu başlıq altında Rusiyanın bir-birinin ardınca elan olunan ərazi tələbləri nəzərdə tutulurdu. Orada deyilirdi: "Bu yaxınlarda Sovet Rusiyası Şimali Afrikada Liviya və Eriteriya kimi müstəmləkələrin idarəçiliyinin ona verilməsini tələb etdi. Lakin bu tələbdən heç nə çıxmadı. Afrika müstəmləkələrinə tələbində uğursuzluğa düçar olduqdan bir müddət sonra Rusiya Boğazlar haqqında məsələyə baxılmasına dair yeni tələblər irəli sürdü. Bir qədər keçdikdən sonra isə Sovet Rusiyası Türkiyənin Ərdahan, Qars və Artvinin ona qaytarılması haqqında digər bir tələblə çıxış etdi. Bu məsələdə İngiltərə öz mənfi münasibətini ifadə etdi. İndi Moskvada üç böyük ölkənin xarici işlər nazirlərinin müşavirəsi getdiyi vaxt külək Sovet ittifaqından yeni tələblər gətirdi. Bu dəfə onlar tələblərini "tarixi" dəlillərlə möhkəmləndirir və yenidən Rusiyanın köhnə tələblərindən hələ özünə gəlməmiş başıbəlalı Türkiyəyə elan edirlər. Qəriləədir ki, sayını itirdiyimiz bu yeni tələbləri bu dəfə Rusiya deyil, onun dominionu, tarixin dərin qatlarını qazilə Gürcüstanın Türkiyəyə tələblərini "elmi" cəhətdən əsaslandıran hansısa iki tarixçinin tapıldığı Gürcüstan elan edir (122). Bütün bu məlumatları təhlil edən Londonda çıxan "İvninq Nyus" qəzeti isə belə bir nəticəyə gəlirdi ki, Türkiyəyə qarşı irəli sürülən tələblər İrandan sonra növbənin Türkiyəyə gələcəyi barədə son həftələrin narahatlıqlarını təsdiqlədi. SSRİ-nin Türkiyədən torpaq tələblərini tez-tez öz səhifələrinə çıxaran və kəskin şəkildə tənqid edən "Tayms" Ankaranın Moskva qarşısında dirənişini yüksək qiymətləndirirdi. "Tayms" qəzeti yazırdı: "Ortada həqiqət olaraq mövcud olan bir şey vardır: bu da türklərin nəyin bahasına olursa-olsun bir zaman qüdrətli olan imperatorluqlarından bu gün əllərində qalan torpaqları olduğu kimi mühafizəyə qərar vermiş olmalarıdır (123).

Sovet tələbləri Birləşmiş Ştatların da kütləvi informasiya vasitələrində müəyyən rəylər doğurmuşdu. "Nyu-York Tayms" qəzeti öz səhifələrində verdiyi "Rusiya Türkiyədən Qara dəniz rayonunu tələb edir" yazısının ortasında həmin ərazilərin xəritəsini vermiş və onun altında "Ruslar yenə öz sərhədlərindən kənara baxırlar, bu dəfə Türkiyə istiqamətinə" sözlərini yazmışdı. Dekabr ayının 22-də ABŞ Konqresinin nümayəndələr palatasının xarici işlər üzrə komissiyasının üzvü Mundt Amerika radiosu ilə çıxış edib dedi

ki, əgər Rusiya öz tələblərinə rəsmi xarakter versə, biz özümüzə sual verməliyik ki, bundan sonra BMT-nin mənası varmı? Ruslar Baltik və Balkan ölkələri ilə başladılar, son zamanlar öz proqramlarını İranda həyata keçirirlər (124). Sovet tələbləri ilə bağlı "Vaşinqton Post" qəzetinin geniş təhlil xarakterli yazısında qeyd olunurdu ki, sovet təzyiqi nəticəsində Türkiyənin vəziyyəti şübhəsiz çətinləşmişdir. Lakin türklər əsəbləri sağlam olan insanlardır və ruslar kimi yetərincə şərqlə bağlı olduqlarından hər hansı bir qaraqorxunu asanca fərq edə bilirlər. Daha sonra qəzet qeyd edirdi ki, mübarizələri yolunda iki gürcü aliminin irəli sürdükləri dəlillər tətbiq ediləcək olursa, bunun xeyirli tərəfi olmaz. Onda Polşa bugünkü hüdudlarından Kiyev və Dneprə qədər olan bölgələri tələb etməkdə haqlıdır. Amur vadisi vaxtilə Çinin hakimiyyəti altında olduğundan, Rusiyanın buranı əlində saxlamağa haqqı qalmaz. Birləşmiş Millətlərin Nizamnaməsinə görə tarixi mənbələrlə əsaslandırılan belə tələblər təcavüzün yardımçılarıdırlar (125).

Fransada çıxan "Front Nasional" və kommunist mətbuatı gürcü akademiklərinin məktubuna müsbət yanaşsalar da, ölkə mətbuatının əsas hissəsi, xüsusilə katolik və sosialist mətbuatı Türkiyəyə qarşı irəli sürülmüş ərazi tələblərini kəskin şəkildə tənqid etdi və baş verən hadisələri "Sovet imperializminin təzahürü" kimi dəyərləndirdi. Parisdə çıxan "Popyuler" qəzeti 24 dekabr sayındakı "Trabzon? Yox Dardanell" adlı baş məqaləsində bildirirdi ki, Sovetlərin tələbləri Türkiyənin adı çəkilən vilayətlərinə deyil, Dardanelldə və İstanbulda hərbi baza əldə edilməsinədir. Bununla bağlı qəzet Prusiyalı Fridrixdən maraqlı bir misal gətirirdi. Fridrix deyirdi: "Mən vilayətləri tələb edirəm, lakin sonra hüquqşünas tapıram ki, mənim istilama bəraət qazandırsın". SSRİ də eyni zamanda tələb edir, lakin o göründüyü kimi, tələblərinə bəraət qazandırmaq üçün özünə əziyyət vermir. Onun hüquqları göründüyü kimi Osmanlı fütuhatı əsrinə qədər gedib çıxır. Əgər rus tələbləri XV əsrə gedi çıxırsa, belə şəraitdə biz yəqin Yunanıstanın mübahisəyə qoşulmasının şahidi olacağıq, ona görə ki, onun tələbləri XII əsrə gedib çıxır. Trabzon Aleksey Komninin yunan imperiyasının paytaxtı olub (126).

Qeyd edilən böyük dövlətlərin mətbuat orqanları ilə yanaşı SİTA-nın xaricdəki nümayəndələri Kanadanın, Misirin, Hindistanın, Danimarkanın, Braziliyanın, İsveçrənin, Finlandiyanın, İtaliyanın mətbuat orqanlarında Türkiyəyə qarşı Sovet tələblərini pisləyən yazıların getməsi barədə Moskvaya məlumatlar göndərmişdilər.

Türkiyəyə qarşı gürcü alimlərinin irəli sürdüyü tələblərə xaricdən alınan rəyləri ümumiləşdirən Gürcüstan SSR Xarici İşlər Nazirliyi hazırladığı gizli arayışda qeyd edirdi ki, gürcü akademiklərinin çıxışına münasibətdə deyilənlərin əksəriyyətinin ümumi tonu əlverişli deyildir. Xarici rəylərdə hesab edirlər ki, bu, Moskvanın təhriki ilə edilib və onlar bu məktubda "Sovet imperializminin" maskalanmış təzahürünü, beynəlxalq

vəziyyətin ən mühüm problemlərindən diqqəti yayındırmağa cəhd göstərən "Sovet diplomatlarının müəmmalı manevrlərini" görməyi arzulayırlar. Gürcüstan SSR Xarici İşlər Nazirliyi hazırladığı gizli arayışda Britaniya xarici işlər naziri E.Bevinin belə bir fikrinə xüsusi diqqət yetirirdi ki, sərhədlərin dəyişdirilməsi haqqında tələb əsaslandırılmış deyildir(127).

İrana və Türkiyəyə münasibətdə irəli sürülən Sovet tələblərini və həyata keçirilən Sovet addımlarını dərindən dəyərləndirən ABŞ rəsmi dairələri 1945-ci ilin son günlərində Britaniyanın zəifləməsi fonunda Yaxın və Orta Şərqdə Sovet ekspansiyasının real əlamətlərini hiss etməyə başladılar. Dövlət Departamentinin hazırladığı geniş memorandumda göstərilirdi ki, türk-sovet münasibətlərindəki problemlər BMT-nin ilk ciddi sınağı ola bilər. Amerikanlar belə hesab edirdilər ki, əgər Sovet İttifaqı hər hansı bəhanə ilə Türkiyəyə qarşı aqressiv hərəkət edərsə, bu təcavüzkarlıq kimi tanınacaq və əgər BMT problemin həlli üçün heç bir addım atmazdısa nüfuzdan düşərdi, nəticədə dünyanı xaos bürüyərdi. Beləliklə, 1946-cı ilin astanasında Sovetlərin İranda və Türkiyədə "əsəb savaşından" bir qədər irəli getmiş niyyətlərinə münasibətdə Qərb müttəfiqləri seçim qarşısında dayanmışdılar. Belə bir şəraitdə Dövlət Departamentinin ekspertləri "nə qədər ki, Sovet İttifaqı İran və Türkiyədə daha da dərinə getməyib" qəti hərəkət etməyin vaxtının yetişdiyini ABŞ rəsmilərinə xəbərdarlıq etdilər.

# VII FƏSİL
## Sovet təzyiqlərinin güclənməsi və Türkiyənin ABŞ-a meyllənməsi

1946-cı ilin ilk günündən başlayaraq Türkiyəni həyəcanlar bürüdü. Yanvar ayının 1-də Antak, Trabzon, Giresun, Hatay, Zonquldak, Oltı və digər şəhərlərdə mitinq və nümayişlər keçirildi. Sonrakı günlərdə kütləvi nümayişlər dalğası Ankara və Əskişəhrə keçdi. Mitinq və nümayişlərdə qəbul edilən qətnamə və müraciətlərdə türk xalqı Sovet təhdidi qarşısında birliyə çağırılır, Sovet təhlükəsini dəf etmək üçün öz hökuməti və ordusu ətrafında sıx birləşməyə dəvət edilirdi. Türkiyə üçün yaranan bu çətin şəraitdə xariçdə yaşayan türklər ölkə rəsmilərinə və mətbuatına yazdıqları məktublarda qeyd edirdilər ki, vətənin bu ağır günlərində ondan kənarda yaşayan bütün türklər ölkənin müstəqilliyini saxlamaq və Türkiyəni bolşevik təcavüzü təhlükəsindən müdafiə etmək üçün həyatlarını belə qurban verməyə hazırdırlar. Ankara Universitetinin tələbələri prezident İ.İnönüyə göndərdikləri teleqramda ölkəni yaxınlaşan fəlakətdən müdafiə etmək üçün hər şeylərini qurban verməyə hazır olduqlarını bildirirdilər (1). Türkiyədə keçirilən mitinq və nümayişlərdə, ölkə rəsmilərinə göndərilən müraciətlərdə əsası Atatürk tərəfindən qoyulan respublika quruluşunun qorunmasını, onu dəyişdirməyə cəhd edən "Moskvanın agentlərinin" cəzalandırılmasını, SSRİ-nin təzyiqlərinin bütün vasitələrlə dəf edilməsini tələb edirdilər. Mətbuat əhalini və siyasi dairələri məlumatlandırırdı ki, Atatürk siyasətini davam etdirən indiki rejimə qarşı açıq və gizli yollarla mübarizə aparanlar "Atatürkün tərəfdarı" maskasını geyib Atatürkün qurduğu binanı Moskvanın köməkliyi ilə uçurmağa cəhd edən bolşevik agentləridir (2). Yanvar ayının 3-də "Ankara radiosu" ingilis dili də daxil olmaqla bir sıra xarici dillərdə müasir Gürcüstanın tarixi icmalı haqqında yayımladığı geniş verilişdə Türkiyəyə qarşı irəli sürülən ərazi tələblərini "gürcü alimlərinin quraşdırdığı sehrli nağıla" bənzədir və qeyd edirdi ki, Türkiyə sərhədləri daxilindəki ərazilərin ən kiçik hissəsi belə heç zaman Gürcüstana məxsus olmayib.

Ölkəni bürüyən həyəcan dalğasının genişləndiyi bir dövrdə Baş nazir Ş.Saracoğlu yanvar ayının 6-da mətbuat konfransı keçirərək Türkiyənin xarici siyasəti, Sovetlərin təzyiqləri, erməni və gürcülərin tələbləri ilə bağlı yaranmış narahatçılıqlara aydınlıq gətirdi. O, bildirdi: Bir neçə ay əvvəl məlum qəzet və radiolar belə bir şayiələr yaymışdılar ki, Qars və Ərdahan vilayətləri bütün dünyaya yayılmış ermənilərin vətəni kimi onlara verilməlidir. Bütün dünya bilir ki, bu ərazilərdə bir nəfər də olsun erməni yoxdur. Baş nazir qeyd etdi ki, biz ölkənin digər yerlərində, böyük əksəriyyəti İstanbulda yerləşən erməni vətəndaşlarımızın xarıcı

təhrikçilərin oyunlarına uymayacağına, ölkənin bütün vətəndaşlarının bir-birinə və respublika qanunlarına öz sədaqətlərini qoruyub saxlayacaqlarına inanırıq. Sonra Ş.Saracoğlu Qars və Ərdahan vilayətlərinin sonuncu rus-türk müharibəsindən sonra müvəqqəti olaraq Rusiyaya verilməsi ilə bağlı tarixi hadisələrə aydınlıq gətirdi. O, bildirdi ki, sonuncu rus-türk müharibəsində Osmanlı imperatorluğu məğlub olduqdan sonra Ayastefano sülhü bağlandı və bu sülhə görə çar Rusiyası Qars və Ərdahanın əhalisinin böyük əksəriyyəti türk və müsəlmanlar olduğundan açıq şəkildə həmin vilayətləri tələb edə bilmədi. Lakin Rusiya elə böyük bir məbləğdə təzminat tələb etdi ki, Osmanlı imperatorluğu onu verə bilməzdi. O zaman tələb olunan təzminatın məbləği 1.410 milyon manat idi. Ona görə Ayastefano müqaviləsində deyilirdi: "Rus imperatoru Osmanlı imperiyasının maliyyə çətinliklərini nəzərə alaraq və padşahın arzusuna əsaslanaraq onunla razılaşır ki, yuxarıda göstərilən təzminatın böyük hissəsi aşağıda sadalanan ərazilərin verilməsi ilə əvəzlənsin". Ş.Saracoğlu qeyd edirdi ki, bu ərazilərin böyük bir hissəsini təşkil edən Qars və Ərdahan vilayətləri həmin maddəyə uyğun olaraq Rusiyaya hərbi təzminat kimi verilib. Ayastefano müqaviləsindən sonra imzalanmış Berlin sazişində də eyni şey deyilirdi.

Birinci Dünya müharibəsində Türkiyə və Rusiyanın ağır fəlakətə düçar olduğuna və bu ərazilərin taleyini rəy sorğusu ilə (plebsitlə) müəyyən etməyə razılaşdıqlarına toxunaraq Ş.Saracoğlu dedi ki, bu rəy sorğusunda iştirak edən 87048 nəfərin 85124 nəfəri Türkiyənin lehinə, 1924 nəfəri Türkiyənin əleyhinə səs verməklə və 1483 nəfəri bitərəf qalmaqla Qars və Ərdahan vilayətləri Türkiyəyə qaytarıldı. Bundan sonra barışıq imzalandı və bir sıra hadisələr baş verdi. Ş.Saracoğlu qeyd edirdi ki, Sovetlərlə Qars müqaviləsi imzalanmaqla bizim şərq sərhədlərimiz qəti olaraq indiki formanı aldı və bununla da etnoqrafik ədalət hər iki ölkənin razılığı ilə bərqərar edildi (3).

Türkiyənin Baş naziri belə hesab edirdi ki, bir sıra qəzetlərin rusların zəif olduğu bir vaxtda Türkiyənin Qars və Ərdahanın Rusiyadan almasını təsdiqləməsi doğru deyildir. Birincisi, onun fikrincə, burada söhbət qeyd edilən əraziləri almaqdan və ya tutmaqdan gedə bilməzdi. Burada söhbət xalqın öz arzusu ilə köhnə vətənlərinə və köhnə dövlətlərinə qayıtmasından gedir. Bundan əlavə o zamankı Rusiya zəif hesab edilirdi, halbuki həmin zaman Türkiyə elə bir vəziyyətdə idi ki, onun hətta mövcud olmadığını hesab etmək olardı. Bu həqiqəti nəzərə alaraq demək olar ki, bu bəyanatlar tamamilə ədalətsizdir.

Daha sonra Baş nazir Ş.Saracoğlu mətbuat nümayəndələrinə bildirirdi ki, iki həftə əvvəl iki gürcü professoru Qara dəniz sahilləri boyunca türk torpaqlarının yarısının Gürcüstana birləşdirilməsini tələb ediblər. Onların bu torpaqların nə vaxtsa Gürcüstana məxsus olması barədə tələbləri Sovet

qəzetləri və radiosu vasitəsi ilə bütün dünyaya geniş yayılıb. Ş.Saracoğlu qeyd edirdi ki, bu vilayətlərdə həqiqətən gürcü dilində danışan vətəndaşlar vardır, lakin onlar türk dinini icra edir, türk vicdanını daşıyır va türk dilini bilirlər. Bu adamlar çardan və çar ordusundan qaçıb öz vətənlərində sığınacaq tapan türklərdir (4).

Türkiyənin şərq vilayətlərində gürcü əhalisinin say tərkibinə aydınlıq gətirmək üçün Ş.Saracoğlu 1935-ci ilin statistik sənədlərinə istinad edirdi O, deyirdi: 1935-ci ilin statistik məlumatlarına görə Türkiyədə gürcü əhalisinin ümumi sayı 57325 nəfərə çatıb. İki gürcü professorunun gürcülərinki hesab etdikləri və Gürcüstana qaytarılmasını tələb etdikləri bu rayonlarda isə gürcü əhalisinin sayı 15596 nəfərdir, halbuki həmin rayonlarda yerli türk əhalisinin sayı 1746329 nəfərdir. Sonra Ş.Saracoğlu Türkiyədən tələb edilən vilayətlərdə ayrı-ayrılıqda gürcü əhalisinin sayını verirdi. Onun gətirdiyi statistik məlumatlara görə Qars vilayətinə daxil olan Ərdahan rayonunda 37 nəfər, Ərzurum vilayətinə daxil olan Oltı, Tortum və İspir rayonlarında 116 nəfər, Gümüşxanə vilayətinə daxil olan Bayburt və Gümüşxanədə O, Çorox vilayətində 15325 nəfər, Trabzonda 3 nəfər, Giresunda 115 nəfər və bütövlükdə bu ərazilərdə 15596 nəfər gürcü yaşayırdı. Baş nazirin verdiyi məlumata görə, qalan 41729 nəfər gürcünün 23863 nəfəri Türkiyənin Egey və Mərmərə dənizləri sahillərində yerləşən Kocaeli, Bursa və Balıkəsir vilayətlərində yaşayır, 17866 nəfər gürcü isə hər birində iki-üç nəfər olmaqla Türkiyənin çox müxtəlif ərazilərinə səpələniblər.

Ş.Saracoğlunun fikrincə, Gürcüstana birləşdirilməsi arzu olunan rayonlarda gürcülərin sayı nəinki mənasızcasına azlıq təşkil edir, eyni zamanda Mərmərə və Aralıq dənizi sahillərində yerləşən gürcülərin sayı ilə də müqayisədə xeyli aşağıdır. O, deyirdi: Mən ümidvar olmaq istəyirəm ki, 11 il əvvəl qeydə alınmış rəsmi statistikaya söykənən məlumatlar hətta bu iki gürcü professorunu da inandıracaq ki, bu bədbəxt köçkünlər çar ordusundan qaçan, öz ölkəsində sığınacaq tapan və Türkiyənin müxtəlif guşələrinə səpələnmiş türk köçkünləridir (5).

Mətbuat konfransının sonunda Baş nazir Ş.Saracoğlu gürcü professorlarının tələbləri elan edildikdən sonra Türkiyəni müdafiə edən və bu tələblərə öz kəskin etirazını bildirən dünya mətbuatı və radiolarına, ilk növbədə isə İngiltərə, ABŞ, Fransa, Yunanıstan, İsveçrə, İsveç ərəb ölkələri, Hindistan, və digər ölkələrin qəzet və radiolarına türk xalqının adından öz minnətdarlığını bildirdi. O, dedi: bütün bunlara baxmayaraq, mən istəyirəm ki, bu professorların məqaləsi yalnız məqalə kimi və professorların özlərinin yaradıcılığı olaraq qalsın (6).

1946-cı ilin yanvar ayının əvvəllərində "Lya Repablik" qəzetinin bir neçə nömrəsində gedən yazısında S.Pandol 1941-ci ildən başlayaraq Boğazlar məsələsi ilə bağlı imzalanmış bütün konvensiya və müqa-

vilələrin geniş təhlilini vermişdi. Beynəlxalq dəniz yolları ilə bağlı hüquqi aktlara dərindən bələd olan müəllif 1841-ci ilin iyul ayının 30-da Londonda İngiltərə, Rusiya, Fransa, Avstriya, Prussiya və Osmanlı imperiyası arasında imzalanmış Boğazlara aid Konvensiyanın demək olar ki, bütün maddələrini ətraflı şərh etmiş və onun yerinə yetirilməsi ilə bağlı ən maraqlı məqamları qabarıq şəkildə işıqlandırmışdı. S.Pandol Boğazlar rejiminin XIX əsrin 40-cı illərindən başlayaraq geniş tarixini verməklə belə qənaətə gəlirdi ki, SSRİ-nin və Türkiyənin öz aralarında imzalanmış hər hansı sazişə əsasən Montrö rejimini təftiş etməsi qeyri-qanuni xarakter daşıyır. Müəllifin fikrincə, Rusiya da, Türkiyə də bir sıra dövlətlərlə birlikdə sazişi imzalayan ölkələrdən olduqlarından onlar birtərəfli qaydada Montrö konvensiyasının şərtlərini dəyişə bilməzlər. Sonra məqalədə Boğazlarla bağlı 1945-ci ilin noyabr ayında Türkiyəyə təqdim edilmiş ABŞ və Britaniya notaları bəndlər üzrə təhlil edilirdi. S.Pandolun fikrincə, ABŞ notasının üçüncü bəndi Rusiyaya çox böyük əlavə imtiyazlar verirdi. Belə ki, Birləşmiş Millətlərin xüsusi icazəsi və ya Qara dəniz dövlətlərindən hər hansı birinin xüsusi razılığı olmadan qeyri-Qara dəniz dövlətlərinin hərbi gəmilərinin Dardanelldən buraxılmaması müəllifin fikrincə, məhz Rusiyanın maraqlarının nəzərə alınması ilə bağlı idi. S.Pandol ABŞ notasını təhlil edərək belə fikrə gəlirdi ki, Birləşmiş Ştatların təkliflərinə görə SSRİ eskadrası Boğazlardan keçib Aralıq dənizinə daxil olmaq hüququ əldə edirdisə, ingilis hərbi gəmiləri Qara dənizə keçmək üçün Mərmərə dənizinə daxil ola bilməzdi. Müəllifin fikrincə, bu güzəşt rusları təmin etmirdi və bundan əlavə olaraq onlar Boğazlarda İngiltərənin Qibraltar bazasına bənzər baza əldə etmək istəyirdilər. Əgər diqqət yetirilərsə, Qibraltar heç bir halda rusların Boğazlar zonasında yaratmaq istədikləri bazaların rolunu oynaya bilməz. S.Pandolun Boğazlar rejiminin hüquqi əsasları və beynəlxalq tənzimlənməsi ilə bağlı geniş yazısı faktların zənginliyi baxımından qiymətli mənbə hesab edilə bilər (7).

Yanvar ayının 8-də Türkiyənin Baş naziri Ş.Saracoğlu BMT-nin birinci sessiyası ərəfəsində yaranmış vəziyyəti müzakirə etmək üçün Ankaradakı Amerika səfiri E.Vilsonla görüşdü. Ş.Saracoğlu qeyd etdi ki, son zamanlar Moskva mətbuatı və radiosu tərəfindən olan xarici təzyiqlər, Ermənistan və Gürcüstanın iddiaları, habelə bəzi dairələrin ölkədə kommunist qəzetləri nəşr etməsi və kommunist təbliğatı aparması hökumətin zəifləməsinə gətirib çıxara bilər. Lakin bununla yanaşı Ş.Saracoğlu Türkiyəni daha yaxşı tanımalı olan Sovetlərin son zamanlar ciddi səhvlərə yol verdiyindən təəccübləndiyini bildirdi. Onun fikrincə, Sovet təzyiqləri qarşısında türklər daha sıx, vəhdət halında birləşdilər. O, dedi ki, Türkiyəyə qarşı taktikası uğursuzluğa düçar olan SSRİ indi nəyə əl atacağı barədə qətiyyətsizdir. Ş.Saracoğlu əmin olduğunu bildirirdi ki,

Sovetlər BMT-nin iclasına qədər Türkiyə əleyhinə tədbir görmək üçün uyğun məqamı axtaracaqlar. Onun fikrincə, Sovetlər Türkiyə ilə bağlı məqsədlərindən əl çəkməyərək öz niyyətlərini yalnız əlverişli imkan düşənə kimi təxirə salacaqlar. Ş.Saracoğlu əminliklə ABŞ səfirinə bildirdi ki, İranda baş verən hadisələr və xüsüsilə Moskvada İran probleminin həllində əlverişli nəticənin əldə olunmaması Türkiyədə dərin narahatlıq və bədbinliyə səbəb olmuşdur (8).

Eyni zamanda BMT-nin London sessiyasının açılışı ərəfəsində Britaniyadakı türk səfiri Cavad Açıkalın Baş nazir K.Etli və xarici işlər naziri E.Bevinlə görüşlər keçirmişdi. K.Etli ilə söhbət zamanı C.Açıkalın Sovetlərin ərazi və digər iddiaları ilə bağlı Türkiyənin mövqeyini geniş şəkildə şərh etmiş, Britaniya Baş naziri isə Türkiyənin məsələyə münasibətini tamamilə dəstəklədiyini ifadə etmişdi. C.Açıkalınla görüşündə Britaniya xarici işlər naziri Moskvada Stalinlə olan söhbətlərin birində türk məsələsini qaldırdığını bildirmişdi. İ.Stalinlə söhbətdə E.Bevin qeyd etmişdi ki, Sovetlərin Türkiyəyə olan münasibəti Türkiyəni böyük ordu saxlamağa vadar edir və bu da öz növbəsində ölkənin iqtisadi inkişafına maneçilik törədir. İ.Stalin cavabında bildirmişdi ki, əgər Türkiyə böyük ordu saxlamaq istəyirsə, bu onun özünün qərar verəcəyi bir işdir. Sonra E.Bevin açıq şəkildə Sovet rəhbərinə bildirmişdi ki, Türkiyənin müdafiəsi Birləşmiş Krallıq üçün həyati maraq kəsb edir.

1945-ci ilin sonunda Vaşinqtondakı türk səfiri H.R.Baydurun D.Açesonla görüşünün, 1946-cı ilin ilk günlərində Londondakı səfir C.Açıkalının K.Etli və E.Bevinlə danışıqlarının raportları ilə tanış olduqdan sonra İ.İnönü və Ş.Saracoğlu türk-sovet münasibətlərinə aid olan məsələlərin Türkiyə sərhədlərini aşaraq dünya sülh və təhlükəsizlik arenasına daxil olmasına xüsusi əhəmiyyət verdilər. Bütün baş verənləri təhlil edərək hökumət Türkiyədəki vəziyyətdən müəyyən qədər razılığını ifadə etmişdi. Buna səbəb olaraq E.Bevinin İ.Stalinə bəyanatı, ABŞ-ın mövqeyi haqqında D.Açesonun türk səfirinə bildirdikləri və xüsusilə Sovetlərin yürütdüyü "əsəb savaşı"nın Türkiyəni zəiflətmək əvəzinə onun daha da gücləndirilməsi qeyd olunurdu. Bütün bunlar barədə E.Vilson Dövlət katibinə yazırdı ki, türklər hal-hazırda özlərini bir qədər rahat hiss edirlər (9).

Sovet təzyiqlərinin güclənməsi fonunda 1946-cı ilin ilk günlərindən başlayaraq türk mətbuatında anti sovet kampaniyası geniş xarakter aldı. Sovetlər əleyhinə dərc edilən yazılarda SSRİ haqqında, onun siyasi, iqtisadi və sosial həyatı ilə bağlı kəskin tənqidi yazılar verilirdi. Bu yazılarda əsaslandırılırdı ki, hazırkı dövrdə SSRİ artıq sülhün və təhlükəsizliyin müdafiəçisi kimi çıxış edən dövlət imicini, özünün xalq mahiyyətini itirərək təcavüzkar kapitalist dövlətinə çevrilmişdir. "Vatan" qəzetində dərc edilən "Rusiya hara gedir" adlı yazıda Türkiyə siyasi dairələrinə yaxın olan tanınmış jurnalist A.E.Yalman qeyd edirdi ki, Sovet İttifaqı artıq çoxdan

sosialist prinsiplərindən imtina edib kapitalizmin ən pis forması olan dövlət kapitalizminə keçmişdir. Onun fikrincə, köhnə rus aristokratiyasına məxsus olan imtiyazlar indi SSRİ-də yeni aristokratiyanın əlinə keçmiş və bütün bunların nəticəsində xalq ən minimum demokratik azadlıqlardan məhrum edilmişdir. Bütün bu kimi fikirlərdən sonra A.E.Yalman belə nəticəyə gəlirdi ki, əgər SSRİ indi yeritdiyi siyasətdən imtina etməsə, bununla o, özünün sonunu yaxınlaşdıracaqdır. C.Yalçın isə yanvar ayının 5-də "Tanin" qəzetində çıxan yazısında Rusiyanı xalqların yaşadığı yer deyil, köhnəlmiş böyük bir kisəyə, xalqlar həbsxanasına və yer üzündə şərin nümunəsinə bənzədirdi. Bir gün sonra o, "Tanin"də "Sovet İttifaqı müharibənin bir nömrəli cinayətkarıdır" başlığı altında geniş yazı dərc etdirmişdi. Yanvar ayının əvvəllərində türk mətbuatında dərc edilmiş iki yazı xüsusilə Sovet tərəfinin bərk qəzəbinə səbəb olmuşdu. SSRİ rəhbərləri əleyhinə yazılmış "Makkiavelizm indi Molotovizm olubmu?" və "Stalin Hitlerin etdiklərini təkrarlayır" adlı yazılar cəmiyyətdə böyük əks-səda doğurmuşdu. Sonuncu yazı olduğu kimi ingilis dilinə tərcümə edilərək Londonda çıxan qəzetlərdə də dərc edilmişdi. Türk mətbuatında anti-sovet kampaniyanın güclənməsinə, xüsusilə Molotov və Stalin əleyhinə yazılmış tənqidi yazılara görə Ankaradakı sovet səfiri Sergey Vinoqradov yanvar ayının 12-də Türkiyə Xarici İşlər Nazirliyinə sərt nota təqdim etdi. Asım Us tərəfindən yazılmış və yanvar ayının 9-da "Vakıt" qəzetində dərc edilmiş "Makkiavelizm indi Molotovizm olubmu?" yazısında Sovet siyasətinin və Sovet liderlərinin keçmişi çox tez unutmaları, şəraitə uyğun olaraq sürətlə dəyişmələri, sözü ilə əməllərinin bir-birinə uyğun gəlməməsi ciddi şəkildə tənqid edilirdi. Nümunə kimi A.Us V.Molotovun 1939-cu ilin oktyabr ayının 31-də SSRİ Ali Sovetində etdiyi nitqini misal gətirirdi. Həmin nitq o zaman qəzetlərdə dərc edilmişdi. A.Us qeyd edirdi ki, indiki hadisələrlə və Rusiyanın yeritdiyi siyasətlə bağlı həmin məruzəni yenidən oxumaq lazımdır. O, yazırdı ki, V.Molotov bu məruzəni edən zaman Almaniya Rusiya ilə razılığa gələrək Polşaya hücum etmiş və bu ölkə iki dövlət arasında bölüşdürülmüşdü. Zahirən neytral siyasət yeridildiyini rəhbər tutsalar da, SSRİ həmin vaxt öz sərhədlərini genişləndirməyə çalışırdı. Polşaya təminat vermiş İngiltərə və Fransa Almaniyaya müharibə elan etmiş, Türkiyə isə İngiltərə və Fransanın Aralıq dənizində müttəfiqi kimi neytral siyasətini saxlamaqda davam edirdi. Məhz belə bir şəraitdə V.Molotov yuxarıda xatırladılan nitqini etmiş və Sovet İttifaqının siyasətini aydınlaşdırmışdı. A.Us göstərirdi ki, bu nitqində V.Molotov indi axıra qədər məhv edilmiş hitlerizmi tərifləyir, Almaniyanın sülhsevər siyasətinin əksinə olaraq İngiltərə və Fransanı müharibəyə can atan ölkələr kimi təqdim edirdi. Sonra V.Molotov sübut etməyə cəhd göstərirdi ki, Rusiyanın müharibədə Almaniyanı müdafiə etməsi ümumi sülh işinə köməkdir. Həmin nitqində V.Molotov İngiltərə ilə ittifaq müqaviləsi bağladığına görə

Türkiyəni günahlandırmış və o zamanlar Rusiyanın Qars, Ərdahan və Artvinin qaytarılmasını tələb etməsi haqqında yayılan şayiələri təkzib etmişdi. Sovet İttifaqının xarici siyasəti haqqında SSRİ Ali Sovetinin 1939-cu il oktyabr ayının 31-də olan iclasında XKS-nin sədri V.Molotov Türkiyənin o zamankı xarici işlər naziri Ş.Saracoğlu ilə Moskvada aparılan danışıqlara toxunaraq deyirdi: "bəziləri iddia edirlər ki, SSRİ guya Ərdahan və Qars rayonlarının ona verilməsini tələb etmişdir. Öz tərəfimizdən deməliyik ki, bu söz başdan ayağa uydurma və yalandır. Başqaları iddia edirlər ki, SSRİ guya Montrödə bağlanmış beynəlxalq konvensiyanın dəyişdirilməsini və Boğazlar məsələsində SSRİ üçün yeni imtiyazlı hüquqlar verilməsini tələb etmişdir. Bu da uydurma və yalandır". Göründüyü kimi, 1939-cu ilin oktyabrında SSRİ rəhbərlərindən biri kimi V.Molotov tərəfindən yalan və şayiə adlandırılan tələblər 1945-1946-cı illərdə real tələblərə çevrilmişdi. Üstündən elə də çox vaxt keçməməsinə baxmayaraq, Sovet rəhbərliyi Türkiyəyə münasibətdə öz bəyanatlarını asanlıqla yaddan çıxarmışdılar. "Vakıt" qəzeti yazırdı: Məgər rusların Qars, Ərdahan və Artvini qaytarması tələbləri ilə bağlı yayılmış şayiələri 1939-cü ildə təkzib edən V.Molotov görmürmü indi dünya mətbuatı rusların Türkiyəyə tələbləri ilə bağlı məqalələrlə doludur? Məgər o, eşitmirmi Moskva radiosu nə yayır? Çox güman ki, Molotov istəyir indi "makkiavelizm" adlanan siyasəti gələcək nəsillər "molotovizm" adlandırsınlar (10).

Hələ Sovet notası təqdim edilməzdən 2-3 gün əvvəl SSRİ əleyhinə kompaniyanın kəskin xarakter aldığını hiss edən Baş nazir Ş.Saracoğlu türk mətbuatını Sovet İttifaqı əleyhinə təhqiredici məqalələrdən qaçmağa çağırmışdı. Sovet səfirliyinə təqdim edilən cavab notasında Türkiyə tərəfi artıq bu nota alınana qədər mətbuata həmin istiqamətdə tövsiyə verildiyini, Türkiyə hökumətinin türk mətbuatında sovet liderlərinin əleyhinə dərc olunmuş və öz məzmununa görə qərəzli hesab edilən yazılara görə təəssüfləndiyini bildirirdi. Notada qeyd edilirdi ki, bu məqalələr Türkiyəyə qarşı ərazi iddiaları ilə çıxış edən gürcü professorlarına Sovet mətbuatı və radiosunda yer verilməsinin Türkiyədə yaratdığı təəssüratlar fonunda qiymətləndirilməlidir. Türkiyə hökuməti mətbuatda Sovet əleyhinə yazıların qarşısının alınmasına təşəbbüs göstərdiyini və Sovet hökumətinin də buna bənzər addımlar atacağına ümid etdiyini bildirirdi (11).Doğrudan da mətbuat materiallarının təhlili göstərir ki, yanvar ayının son iki ongünlüyündə həm Sovetlər əleyhinə Türkiyə mətbuatında, həm Türkiyə əleyhinə Sovet mətbuatında kəskin xarakterli yazılar vermək bir qədər azalmışdı. "Ulus" qəzetində Ankara Universitetinin dosenti Osman Turanın və "Vatan" qəzetində professor Fuat Köprülünün "Gürcü professorlarına məsləhət" yazıları daha çox tarixi mövzuda yazılmış məqalələr idi. Hətta türk mətbuatında Sovetlərlə olan münasibətlərin aydınlaşdırılması, yumşaldılması istiqamətində bəzi ideyalar da verilmişdi.

"Tanin" qəzetində dərc edilmiş yazısında C.Yalçın qeyd edirdi ki, 1876-cı ildə Mithət paşa Londondakı türk səfirinə vurduğu teleqramda rus-türk ziddiyyətlərində İngiltərə yardımının imkanlarını aydınlaşdırmağı xahiş etmişdi. Müəllif vurğulayırdı ki, bu sənəd indi də öz əhəmiyyətini itirməmişdir və belə bir teleqramı indi də Saracoğlunun imzası ilə Londona, Cavad Açıkalına göndərmək olar (12).

1946-cı ilin yanvar ayının 10-da Londonda Birləşmiş Millətlər Təşkilatının Baş Məclisinin birinci sessiyası işə başladı. ABŞ Dövlət katibi C.Birnsin, SSRİ xarici işlər komissarının müavini A.Vışinskinin, Britaniya xarici işlər naziri E.Bevinin sessiyada iştirakı BMT-nin sülh aləti olacağına ümidləri xeyli artırmışdı. İlk sessiyada Türkiyə nümayəndə heyətinə xarici işlər naziri H.Saka başçılıq edirdi. Ölkənin ərazi bütövlüyünün qorunmasında, Sovetlər tərəfindən Türkiyəyə yönəlmiş təzyiqlərin dəf edilməsində ölkə rəsmiləri BMT-yə böyük əhəmiyyət verir və onun nə dərəcədə həyat qabiliyyətli olacağını diqqətlə izləyirdilər. İstər Türkiyənin siyasi dairələri, istər mətbuatı ilk növbədə gözləyirdilər ki, İran Azərbaycanındakı, Balkan ölkələrindəki hadisələrə, Türkiyəyə münasibətdə ədalətsiz tələblərə münasibətdə Baş Məclisin sessiyası hansı mövqeyi nümayiş etdirəcəkdir. Türklər bu fikirdə idilər ki, əgər Britaniya hökuməti bu hadisələrə münasibətdə özünün əvvəlki sərt mövqeyini davam etdirsə, ölkələrin çoxunu öz tərəfinə çəkə biləcəkdir.

BMT Nizamnaməsinə görə böyük dövlətlərə veto hüququnun verilməsi Türkiyə siyasi dairələrinin və onların fikrini ifadə edən mətbuatın narahatlığına səbəb olmuşdu. Türk mətbuatının fikrincə, nə qədər ki, Birləşmiş Millətlərin Nizamnaməsinin bu bəndi mövcud idi, heç bir dövlət özünün müstəqilliyinin və ərazi bütövlüyünün təmin edildiyini hesab edə bilməzdi (13).

Yanvar ayının 17-də BMT Baş Məclisinin London sessiyasında iştirak edən Dövlət katibi C.Birns Türkiyə xarici işlər naziri H.Sakanı qəbul etdi. Danışıqlar zamanı H.Saka son zamanlar Sovet ittifaqının Türkiyə ərazisinə və Boğazlarda baza yaratmaq iddialarına toxunaraq bütün bunlardan Türkiyə hökumətinin narahatlığını ifadə etdi. O, bildirdi ki, Sovet hökuməti tərəfindən bu iddialar barədə rəsmi tələblər olmayıb, lakin Sovet hökuməti altı ay bundan əvvəl birtərəfli qaydada ləğv etdiyi 1925-ci il müqaviləsinin yeniləşməsi ilə əlaqədar yeni şərtlərin nəzərə alınmasını irəli sürmüşdü. Türkiyə hökuməti bu şərtlərin nədən ibarət olduğunu soruşduqda Sovet hökuməti bildirmişdi ki, Şərq vilayətləri olan Qars və Ərdahan geri qaytarılmalı və Dardanelldəki boğazlar məsələsi yenidən müzakirə edilməlidir. C.Birns Şərq vilayətlərində yaşayan əhalinin tərkibi haqqında soruşduqda H.Saka məlumat verdi ki, Qars və Ərdahanda yaşayanlar türklərdir, onlar türkcə danışırlar və türk hökumətinin yeritdiyi demokratik siyasətdən tamamilə razıdırlar. H.Saka xüsusi şəkildə vur-

ğuladı ki, İran Azərbaycanında yaranmış şərait burada mövcud deyildir O, izah etdi ki, Sovet siyasətinin Azərbaycanda uğur qazanması İranın bu hissəsində fərqli millətin yaşaması və onların Tehrandan daha xoş rəftar tələb etməsi ilə bağlı idi.

Sonra C.Birns Sovet təhdidlərinin gücləndiyi bir şəraitdə Türkiyənin hərbi vəziyyəti ilə maraqlandı. H.Saka türk ordusunun şəxsi heyətinin təxminən bir milyon nəfər olduğunu söylədi və əlavə etdi ki, hökumət ordunu tərxis edə bilməyib və hazırkı şəraitdə ordunun tərkibi azaldılmaq əvəzinə artırılacaq. H.Saka sözünə davam edərək bildirdi ki, ümumilikdə türk xalqı xaraktercə səbrlidir, lakin Sovet hökuməti Şərq vilayətlərini və ya Türkiyənin başqa bir ərazisini ələ keçirmək üçün hər hansı bir bəhanə gətirərsə, o zaman türk xalqı bu vəziyyəti qətiyyətlə dəyərləndirəcək və bu da silahlı qarşıdurmaya səbəb olacaq. Türkiyənin xarici işlər naziri türk hökumətinin heç bir təxribata uymayacağına təminat verə biləcəyini, lakin hökumət və türk xalqının öz ərazilərinin zorla alınması cəhdinə qarşı müqavimət göstərməyə qəti şəkildə hazır olduğunu söylədi.

C.Birns vəziyyətlə tanış olduqdan sonra türk hökumətinin narahatçılığını başa düşdüyünü, belə bir şəraitdə BMT-nin yaradılmasından və artıq fəaliyyətə başlamasından məmnun olduğunu ifadə etdi. O, BMT-nin işə başlamasının Türk hökumətinin narahatçılığının aradan qaldırılmasına yardımçı olacağını və Birləşmiş Millətlərin gələcəkdə meydana çıxacaq oxşar situasiyaları həll etməyə hazır olduğunu bildirdi.

ABŞ və Britaniyanın dünyada münaqişələrin tənzimlənməsində BMT-yə böyük əhəmiyyət verməələrinə baxmayaraq Türkiyə rəsmiləri Baş Məclisin London sessiyasında bir qədər ehtiyatlı davranmağı üstün tutdular. Amerika və İngiltərənin birgə rəyi ilə E.Bevin türk-rus problemini Londonda BMT qarşısında qaldırmağı tövsiyə etsə də, H.Saka bu mövzuda söhbət açmağı lazım bilmədi. Türkiyə Xarici İşlər Nazirliyinin fikrincə, türklər BMT Baş Məclisinin müzakirəsinə çıxarılmış Sovet-İran probleminin nə ilə nəticələnəcəyini gözləyirdilər (14).

İran Azərbaycanı məsələsini yanvar ayının 28-də və 30-da müzakirə etdikdən sonra BMT-nin Təhlükəsizlik Şurasında Amerika və İngiltərə nümayəndələri Birləşmiş Millətlərin nüfuzunun düşəcəyindən ehtiyatlanaraq Sovetlərlə qarşıdurmaya getməkdən çəkindilər və məsələnin SSRİ ilə İran arasında danışıqlar yolu ilə həll edilməsinə üstünlük verdilər. Bununla yanaşı, Təhlükəsizlik Şurası danışıqların gedişi barədə məlumat tələb etmək hüququnu özündə saxladı (15). Türkiyədə belə hesab edirdilər ki, İran BMT-yə şikayət etdikdən sonra hələ Təhlükəsizlik Şurasının müzakirələri başa çatmamış Tehranda hökumət böhranının yaranması, İ.Hakiminin Baş nazir vəzifəsindən istefa verməsi və yeni hökumətin qurulmasının Qəvam əs-Səltənəyə tapşırılması "bolşeviklərin təhrikçiliyi" ilə baş vermişdi. Tehranda hökumət dəyişikliyinə türklər İran

məsələsinin Londonda qaldırılmasına cavab olaraq ingilis və amerikanlara endirilən əks zərbə kimi baxırdılar (16).

İran Azərbaycanı məsələsində BMT-nin necə hərəkət edəcəyini izləməkdə Türkiyə siyasi dairələri düzgün ınövqe tutmuşdular. Eyni zamanda Tehranda hakimiyyət dəyişikliyi ilə bağlı onların təxminləri doğru idi. Qəvam əs-Səltənənin hakimiyyətə gətirilməsi Sovetlərin İranda "dost" hokumət yaratmaq və hətta ondan da qabağa gedən planlarının tərkib hissəsi idi.

Yanvar ayının 30-da hökumət kabinetini qurduqdan bir neçə gün sonra Qəvam Sovet səfirliyinin birinci katibi A.Aşurovu gizli şəkildə evinə dəvət edib Moskvaya səfər etmək arzusunda olduğunu bildirmişdi. Fevral ayının 17-də isə İran Məclisində çıxış edən zaman o, generalissimus İ.Stalindən SSRİ-yə səfər üçün dəvət aldığını açıqladı və fevralın 19-da böyük bir heyətlə Moskvaya yola düşdü. Fevral ayının 20-də o, V.Molotovla, 21-də İ.Stalinlə, 23-də və 25-də yenidən V.Molotovla çox gərgin danışıqlar apardı (17). Sovet qoşunlarının İrandan çıxarılması, neft konsessiyası və Azərbaycan məsələsi fevral ayının 21-də V.Molotovun iştirakı ilə Stalin-Qəvam danışıqlarında müzakirə edildi. Azərbaycanlıların muxtariyyətinin nə dərəcədə geniş olması ilə maraqlanan İ.Stalin İranın Baş nazirindən Cənubi Azərbaycanda hərbi nazir və xarici işlər naziri olub-olmamasını soruşduqda Qəvam təsdiqləyici cavab verdi. Bu təsdiqləyici cavabı aldıqdan sonra İ.Stalin dedi: "Azərbaycanlılar ağ eləyirlər. Bunlar onların muxtariyyətinə aid deyil. Onların hərbi nazirləri, xarici ticarət nazirləri və xarici işlər nazirləri olmamalıdır". Sonra Stalin başlıca məsələyə keçib soruşdu: Doğrudurmu ki, Qəvam İranda respublika rejimi qurmaq uğrunda çıxış edir? Qəvam cavab verdi ki, bunun üçün onun iki yolu var: ya üzürlü bəhanə kimi Müəssislər Məclisini çağırmaq və ya şahın yerinə onun oğlu Əhməd şahı taxta əyləşdirmək. Stalin belə yanaşmanı müdafiə etdi və tamamilə aydın şəkildə qeyd etdi ki, Sovet qoşunları çıxacağı təqdirdə Qəvam hakimiyyətdən uzaqlaşdırıla bilər və ona görə Sovet qoşunları o zaman çıxacaq ki, artıq həmin vaxt Qəvamın mövqeyi möhkəmlənsin. Bu, Qəvamın İranda yeni hakimiyyət qurmaq cəhdlərinin mümkün hərbi yollarla müdafiə edilməsi barədə Sovet liderinin birbaşa bəyanatı idi. Lakin Qəvam bundan imtina etdi və bildirdi ki, əksinə Sovet qoşunlarının İranda qalacağı təqdirdə o, dəyişdirilə bilər (18). Bununla belə İ.Stalin bildirdi ki, Sovet qoşunları 1921-cvi il Sovet-İran müqaviləsinin altıncı bəndinə əsasən İranda saxlanılır və nə qədər ki, Bakının neft rayonları üçün təhlükə mövcuddur bu qoşunlar orada qalacaqdır. İ.Stalin söhbət zamanı Qəvam-əs-Səltənəyə demişdi ki, "Sovet İttifaqı Bakısız yaşaya bilməz" (19). Fevral ayının 23-də V.Molotovla Qəvam-əs-Səltənə arasında keçirilən 2 saatlıq görüşdə də Azərbaycan məsələsi geniş müzakirə edildi. V.Molotov qeyd etdi ki,

Azərbaycanlıların muxtariyyət haqqında tələblərini vaxtında təmin etməməklə İran hökuməti səhvə yol verib. Vicdanla danışsaq, Sovet xadimləri hesab edirlər ki, Azərbaycanlıların muxtariyyət əldə etmək hüquqları vardır. Qəvam cavab verdi ki, muxtariyyət Konstitusiya ilə düz gəlmir və hökumət Konstitusiyanı dəyişdirə bilməz. V.Molotov isə xatırlatdı ki, İran hökuməti özü Konstitusiyaya riayət etmir və Konstitusiyada nəzərdə tutulan əncümənlərin fəaliyyətinə icazə vermir. Qəvam bu səhvi əvvəlki hökumətin üzərinə qoydu və o, Azərbaycana əncümən verməyə hazır olduğunu bildirdi. Qəvam dedi: Azərbaycandakı indiki vəziyyət Konstitusiyaya ziddir. Konstitusiyaya görə, İranda bir hökumət olmalıdır, lakin indi iki hökumət var, Tehran və Azərbaycan hökuməti. V.Molotov qeyd etdi ki, bunda İran hökuməti özü günahkardır. O, Azərbaycan məsələsini yubatdı və özü Azərbaycanlıları bu işə sürüklədi. Danışıqların gedişində Qəvam cibindən hansısa kağızları çıxarıb vərəqlədi və dedi: "Burada göstərilir ki, türk dili Azərbaycanlıların doğma dili deyildir. Bu dil doqquz yüz il bundan əvvəl səlcuq işğalçıları tərəfindən gətirilibdir. Buna qədər Azərbaycanlılar İran dilində danışıblar". Qəvam şikayətləndi ki, pantürkistlər Azərbaycanda geniş təbliğat aparıblar və əlavə etdi ki, türk dili Azərbaycanda ancaq danışıq dili kimi mövcuddur, yazı dili yoxdur. V.Molotov cavab verdi ki, yazı dili ona görə yoxdur ki, savadlılıq yoxdur və buna icazə verilməyib. V.Molotov Azərbaycanlıların milli maraqlarının təmin edilməsi, o cümlədən onlara öz dillərindən istifadə etmək hüqıuqunun verilməsinin zəruriliyini göstərdi. V.Molotovun bütün cəhdlərinə baxmayaraq Qəvam əs-Səltənə Azərbaycanlılara muxtariyyət verilməsinin qeyri-mümkünlüyündə təkid etdi və bunun İran Konstitusiyasına zidd olduğunu əsaslandırdı. O, Konstitusiya çərçivəsində Azərbaycan əyalət əncüməninin hüquqlarının genişləndirilməsinə hazır olduğunu bildirərək qeyd etdi ki, o, özü muxtariyyətin əleyhinə deyildir və İ.Stalinlə söhbətdə hətta İranda əsas rejimin dəyişdirilməsi planını da təklif edib (20). Qəvam əs-Səltənə İranda rejimin dəyişdirilməsi və Sovet planına uyğun olaraq özünün simasında "dost" hökumət yaratmaq planlarını Moskvada İran nümayəndə heyətinin üzvlərinin iştirakı olmadan tam məxfi formada aparırdı. Mart ayının 2-də V.Molotovla sonuncu görüş zamanı İran tərəfi tərcüməçinin danışıqlarda iştirakının zəruriliyi meydana çıxdıqda onu içəri dəvət etməzdən əvvəl Qəvam xahiş etdi ki, iranlı tərcüməçinin iştirakı ilə olan söhbətdə V.Molotov İ.Stalinlə olan söhbətə toxunmasın. Yalnız bu razılıqdan sonra İran nümayəndə heyətinin tərkibinə daxil edilmiş rus dili bilən Həmid Səyyah danışıqların aparıldığı otağa dəvət edildi (21). Qəvam çox ehtiyat edirdi ki, onun İranda mövcud rejimi dəyişmək barədə Moskvada apardığı gizli danışıqlardan şah xəbər tutsun. 1946-cı ilin yanvar-fevral aylarında İranın şimalında Azərbaycan hərəkatı ciddi xarakter aldığından və S.C.Pişəvəri başda olmaqla milli

hökumət bir sıra mühüm addımlar atdıqdan sonra Türkiyədə Azərbaycan məsələsinə münasibət artıq birmənalı deyildi. "Tasvir" qəzeti və türk millətçilərinin nəzarətində olan "Millət" jurnalı Azərbaycan hadisələri haqqında fərqli yazılar verməyə başlamış və Azərbaycan məsələsinin həllinin türklərin ürəyindən olduğunu ifadə etmişdi. "Millət" jurnalı yazırdı ki, türklərdən ibarət olan Azərbaycan əhalisi İranda əhalinin yarısını təşkil etsə də, İran hökuməti bütün vasitələrlə İran türklərinin öz milli dillərindən, yazılarından məhrum edir və onlan bütün yollarla istismar edir, bütün iranlılara məxsus olan hüquqları onların əllərindən alır. Bundan çıxış edərək məqalə müəllifləri belə hesab edirdilər ki, İran türkləri özləri üçün müstəqillik tələb etməkdə və yeni dövlətlərini yaratmağa can atmaqda tamamilə haqlıdırlar. "Millət" jurnalı 1946-cı ildə çıxan 4-cü nömrəsində İran Azərbaycanında baş verən hadisələrdən bəhs edən yazısını belə bir başlıq altında vermişdi: "Azərbaycanda yaradılan hökumət türk respublikası adlanmalıdır, çünki İranda beş milyon türk yaşayır". Məqalənin adı öz-özlüyündə çox şey deyirdi və İran Azərbaycanındakı hadisələr təhlil edildikdən sonra bu nəticəyə gəlinirdi ki, əgər Azərbaycandakı indiki hərəkat "Moskvanın işi" olmasaydı İran məsələsinin belə formada həlli yaxşı olardı (22).

İranın Baş naziri Qəvam əs-Səltənənin Moskvaya səfərini Türkiyədə diqqətlə izləyirdilər. Onun Moskvadan boş əllə qayıtmasına türklər Sovet-İran danışıqlarının iflasa uğraması kimi baxırdılar. Onların fikrincə, nəhayət, İran xalqı başa düşməli idi ki, İranın başında hansı hökumətin durmasından asılı olmayaraq, Sovet İttifaqı ona münasibətdə öz siyasətini yeridəcəkdir. Bir sıra mətbuat orqanları hətta Qəvam əs-Səltənənin Moskvadan hər hansı bir sazişə nail olmadan qayıtmasını İranın uğuru kimi qiymətləndirirdi. Bunu onunla əlaqələndirirdilər ki, İranın Baş naziri Moskvada ona elan edilən tələblərə getməmişdir. İranın belə mövqeyini türk mətbuatı onun Qərb ölkələri tərəfindən müdafiə edilməsi ilə izah edirdi (23).

İranda cərəyan edən hadisələr içərisində kürd məsələsinin meydana gəlməsi, 1946-cı ilin yanvar ayının 22-də Kürdüstan Demokrat Partiyasının təşəbbüsü ilə İran daxilində Kürdüstanın muxtariyyətinin elan olunması da Türkiyəni ehtiyatlı davranmağa vadar edirdi. Eyni zamanda Bakıda M.C.Bağırov, Təbrizdə S.C.Pişəvəri Kürdüstan muxtariyyətinin elan edilməsinin əleyhinə olsalar da, Yaxın Şərqdə "Kürdüstan Respublikası"nın yaradılması Sovetlərin strateji planlarına daxil olduğundan bu prosesin qabağını almaq mümkün olmadı. Yanvar ayının 29-da İran Azərbaycanındakı siyasi proseslərdə yaxından iştirak edən M.İbrahimov və H.Həsənov M.C.Bağırova yazırdılar: "Azərbaycanlılarla kürdlər arasında münasibətlər, xüsusilə Urmiya və Sulduz vilayətlərində kəskin xarakter almışdır. Ayrı-ayrı kürd başçıları əhalisinin 70 faizi azər-

baycanlılardan (qara papaqlardan) ibarət olan Sulduz vilayətində və ümumiyyətlə, kürdlərin tək-tük olduğu Ürmiyanın özündə belə öz hakimiyyətlərini qurmağa meyllidirlər" (24).

1946-cı ilin əvvəllərində Makuda SSRİ-nin vitse-konsulu V.Solomin konsulluq dairəsi haqqında SSRİ Xarici İşlər Komissarlığına göndərdiyi hesabatda Makunun 85-86 min əhalisinin 18,5-19 mininin, yəni 22 faizinin kürd olduğunu, onlardan 2 min ailənin cəlali tayfasına, 1800 ailənin milanilərə, 400 ailənin isə zilanilərə məxsus olduğunu bildirirdi. Makuda kürd tayfalarının silahları barədə məlumat verən V.Solomin qeyd edirdi ki, onlarda 1350 tüfəng, 3 pulemyot və 124 min patron vardır. Silahların əsasən "Brno" tüfənglərindən ibarət olduğu konsulun məlumatında vurğulanırdı.(25)

Mehabadda kürd muxtariyyətinin yaradılması Urmiya bölgəsində yaşayan erməniləri də xeyli həvəsləndirmişdi. Sovet xüsusi xidmət orqanlarının məlumatına görə, bütövlükdə İran Azərbaycanında 17 min erməni əhalisi yaşayırdı. Bunun 12 mini Təbəriz konsulluğu dairəsində, o cümlədən 6500 nəfəri Təbəriz şəhərində, 1000 nəfəri Marağada, 1000 nəfəri Miandoabda, 3100 nəfəri Qaradağda və s. məskunlaşmışdı (26). Ermənilərin Urmiyada muxtariyyət almaq ideyası Türkiyənin Şərq vilayətlərinə olan Ermənistan SSR-in iddialarını tamamlayırdı və bütövlükdə bu işin tərkib hissəsi idi. Bu məsələ ilə bağlı Azərbaycan SSR xarici işlər komissarının müavini Ə.S.Əlizadə Moskvada ezamiyyətdə olan zaman maraqlı bir söhbətin şahidi olmuşdu. 1946-cı ilin yanvar ayının 28-də o, M.C.Bağırova yazırdı: "Mən Moskvada ezamiyyətdə olarkən SSRİ Xarici İşlər Komissarlığının yeməkxanasında Ermənistan SSR xarici işlər komissarı yoldaş S.Karapetyanla rastlaşdım. S.Karapetyanla stol arxasındakı söhbət xaricdəki ermənilərin Sovet Ermənistanına köçürülməsindən getdi. Eyni zamanda Karapetyan ermənilərin İrandan köçürülməsi məsələsinə toxundu. O, dedi ki, ancaq İranın cənub vilayətlərində yaşayan ermənilər köçürüləcək və elə oradaca əlavə etdi ki, İranın cənubunda yaşayan ermənilərin hamısı deyil, yalnız bir hissəsi Sovet Ermənistanına köçürüləcək. Erməni əhalisinin qalan hissəsi isə köçürülmə zamanı Şimali İranda yerləşdiriləcək, biz burada erməni muxtariyyəti yaratmağı nəzərdə tuturuq. Sonra Karapetyan Şimali İranda yaşayan ermənilərin sayına toxunaraq bildirdi ki, burada 120 minə Yaxın erməni yaşayır. Mən ona ermənilər bütün İrana səpələniblər və yalnız şəhərlərdə yaşayırlar dedikdə, Karapetyan cavab verdi ki, Urmiya ətrafında bir neçə erməni kəndi var və hətta bu yerlərin adı belə qədim ermənicədir. Biz Karapetyanla söhbət edən vaxt SSRİ Xarici İşlər Komissarlığının Orta Şərq şöbəsinin müdiri vəzifəsini icra edən yoldaş S.İ.Sıçev gəldi və bizimlə qonşu stolda oturdu. Karapetyan eyni zamanda Sıçevə müraciət edərək dedi: İrandan ermənilərin köçürülməsi məsələsi

ancaq Cənubi İranın erməni əhalisinə aiddir, Şimali İran ermənilərinin Sovet Ermənistanına köçürülməsinə biz icazə verməyəcəyik" (27). Lakin Sovet Azərbaycanı rəhbərliyi İran Azərbaycanında Ermənistan SSR rəhbərlərinin erməni muxtariyyəti yaratmaq planlarını həyata keçirməyə imkan vermədi.

Qəvam əs-Səltənəni hakimiyyətə gətirməklə İranda "dost" hökumət yaratmaq planını gerçəkləşdirən Sovetlər Türkiyədə də "dinc yolla" bu çevrilişi həyata keçirməyi arzulayıdılar. Onlar ilk növbədə Sovet tələblərinə ciddi müqavimət göstərən və SSRİ-nin Türkiyəyə yönəlik siyasətinə qarşı sərt mövqedən çıxış edən Baş nazir Ş.Saracoğlunu hakimiyyətdən uzaqlaşdırmaq istəyirdilər. Bu məqsədlə Sovet səfiri S.Vinoqradov Ankaradakı Bolqarıstan səfirliyinin və tez-tez Türkiyəyə səfər edən bolqar siyasi dairələrinin xidmətlərindən istifadə edirdi. H.Saka BMT Baş Məclisinin sessiyasında Türkiyə nümayəndə heyətinə başçılıq etdiyindən xarici işlər naziri vəzifəsini müvəqqəti icra edən maliyyə naziri N.E.Sümerin şərəfinə verilən ziyafətdə Bolqarıstan səfiri onunla maraqlı bir söhbət etmişdi. Ziyafətdən sonra Antonov N.Sümerlə olan gizli söhbətində türk-sovet münasibətlərinin yaxşılaşacağına ümid etdiyini, lakin problemlərin əsas səbəbi kimi Sovet hökumətinin türk hökumətinə inanmadığını və Ş.Saracoğlunun hökumətin başından gedəcəyi, onun dəyişdiriləcəyi təqdirdə elə bir problemin olmayacağı fikrini ifadə etmişdi. Nurullah Sümer cavabında qeyd etmişdi ki, hazırkı şərait Sovetin Türkiyəyə qarşı olan tələblərinin nəticəsidir və tələblər göstərir ki, SSRİ türk hökumətinin dəyişdirilməsindən digər məqsədlər güdür. Bu söhbət barədə ABŞ səfiri E.Vilsona məlumat verən Türkiyə Xarici İşlər Nazirliyinin Baş katibi F.C.Erkin əlavə olaraq xatırlatdı ki, Antonov şübhəsiz Sovet səfirinin oyuncağıdır və görünür, Sovetlər bu yolla Türkiyəni daxildən zəiflətməyə cəhd göstərir. Bu söhbətdən bir neçə gün sonra Antonov yenidən N.Sümerə bildirmişdi ki, son zamanlar Türkiyə və SSRİ mətbuatı və radiosunda qarşılıqlı ittihamların azalması iki ölkə arasındakı problemlərin həlli üçün əlverişli şərait yaranmışdır və türk-sovet münasibətlərini yaxşılaşdırmaq istiqamətində təşəbbüs göstərməyin vaxtının yetişməsidir. N.Sümer qeyd etmişdi ki, Türkiyə Rusiya ilə arasındakı mövcud problemlərin həllindən başqa heç nə istəmir, lakin istənilən həll yolu hər iki ölkənin bərabərliyinə əsaslanmalıdır və SSRİ Şərq əraziləri və Boğazlarda bazalara olan tələblərindən əl çəkməlidir. Antonov əminliklə demişdi ki, Siz Qars və Ərdahan barədə narahat olmayın, lakin SSRİ üçün mühüm olanı Boğazlar barəsində saziş bağlanmalıdır. O, açıq şəkildə ifadə etmişdi ki, Sovet səfiri S.Vinoqradova bu məsələni Türkiyə hökuməti ilə müzakirə etmək üçün səlahiyyət verilib və ümid etdiyini bildirir ki, türklər səfirlə müzakirə aparacaqlar. N.Sümer öz növbəsində S.Vinoqradov arzuladığı halda onu görməyə çox şad olacağını bildirmişdi (28).

Türkiyə tərəfi Sovetlərlə münasibətdə baş verən bu kiçik irəliləyişlərə şübhə ilə yanaşsa da, lakin ona ciddi əhəmiyyət verdiyini də gizlətmirdi. Türkiyə Xarici İşlər Nazirliyində belə hesab edirdilər ki, Sovet kəşfiyyatının verdiyi yanlış məlumatlara əsasən SSRİ-nin yürütdüyü kompaniya məğlubiyyətə uğrayıb və onlar yeni kurs seçməlidirlər. Bu kurs Boğazlar üzərində nəzarəti onlara verə biləcək müqavilə haqqında Türkiyə ilə razılaşmaqdan ibarətdir. Türkiyə hökuməti bu fikirdə idi ki, əgər Sovet İttifaqı Boğazlar məsələsinin qənaətbəxş həllinə ümid verən təkliflərlə çıxış etsə, Montrö Konvensiyasına baxılması ilə bağlı beynəlxalq konfransın çağırılmasına aid təşkilati işlərə başlamaq olardı.

Türkiyə ətrafında yaranmış vəziyyəti müzakirə etmək üçün ABŞ səfiri E.Vilson 1946-cı ilin fevral ayının 1-də Ankaradakı Sovet səfiri S.Vinoqradovla görüşdü. S.Vinoqradov ilk növbədə türk mətbuatının Sovetlərə münasibətindən və xüsusi ilə SSRİ-nin rəhbər şəxsləri əleyhinə qəzetlərdə gedən yazılardan narazılığını bildirdi. Onun fikrincə, bu məzmunda olan yazılar azalsa da, Sovet İttifaqı üçün xoşagəlməz məqamları özündə əks etdirən yazıların çapı hələ də davam etməkdə idi. Türkiyə tərəfi belə halların mövcud olduğunu etiraf edir və bunu Moskva radiosunun barışığı pozması ilə izah etməyə çalışırdı. Xarici İşlər Nazirliyinin fikrincə, Moskva radiosu özünü sakit aparardısa, Türkiyədə də mətbuatı sakit saxlamaq olardı.

Sovet səfiri ilə uzun davam edən danışıqlardan Amerika səfiri belə nəticəyə gəlirdi ki, SSRİ üçün önəmli məsələ Boğazlar məsələsidir. S.Vinoqradov özü də müəyyən formada etiraf etdi ki, Qars və Ərdahan məsələsi Türkiyənin Sovetlərlə ittifaq müqaviləsi imzalamaq istəyi müqabilində V.Molotov tərəfindən irəli sürülüb. Lakin son ayların müzakirələrində Türkiyə tərəfi heç vaxt ittifaq müqaviləsi istəmədiklərini iddia edirdilər. E.Vilson Türkiyə ilə Rusiya arasında ərazi məsələlərinin iki dövlət arasında imzalanmış müqavilələrə söykəndiyini bildirdikdə, S.Vinoqradov bir daha bu müqavilələrin Rusiyanın zəif olduğu vaxtda imzalandığını və dəyişən şəraiti nəzərə alaraq onlara yenidən baxmağın zəruriliyini söylədi. S.Vinoqradov dedi: "SSRİ Polşa ilə iki ölkə arasında əvvəllər razılaşdırılmış sərhədlərdə düzəlişləri nəzərdə tutan saziş imzalayıb və buna bənzər sazişin Türkiyə ilə imzalanmamasına heç bir səbəb yoxdur". Bu ideya hələ 1945-ci ilin iyun ayında S.Sarperlə danışıqlar zamanı V.Molotov tərəfindən irəli sürülmüşdü və göründüyü kimi, S.Vinoqradov da eyni ilə həmin ideyanı təkrar edirdi. Ərazi məsələləri ilə bağlı Sovet iddialarını dəyərləndirərkən E.Vilson xatırlatdı ki, Sovet hökuməti Türkiyənin ərazi bütövlüyünə hörmətlə yanaşacağı barədə hələ 1941-ci ilin 10 avqustunda Türkiyə hökumətinə bəyanatla müraciət etmişdir. S.Vinoqradov həmin bəyanatın Sovet və Britaniya qoşunlarının İrana daxil olduğu zaman verildiyini və bu əməliyyatın Türkiyənin ərazi

bütövlüyünə təsir göstərməyəcəyi məqsədi ilə edildiyini bildirdi. E.Vilson məsələnin belə qoyuluşu ilə, ilk növbədə 10 avqust bəyanatının belə məhdud şərhi ilə razılaşmadığını bildirdikdə, S.Vinoqradov həmin sənədin o zamanın hadisələri fonunda qiymətləndirilməsini təkid etdi və onun hazırda heç bir qüvvəyə malik olmadığını bildirdi. Danışıqların gedişində S.Vinoqradov Türkiyənin ərəb ölkələri ilə genişlənən əlaqələrinin Britaniya tərəfindən müdafiə olunduğunu və bunun bütövlükdə Sovet İttifaqına qarşı yönəldiyini vurğuladı (29).

Fevral ayının 4-də xarici işlər naziri vəzifəsini icra edən N.Sümerin də Sovet səfiri S.Vinoqradovla ətraflı söhbəti oldu. S.Vinoqradov danışıqlara Türkiyə mətbuatının SSRİ-yə münasibətini dəyişmək üçün "dostyana yardım" istəməklə başladı və Sovet-Türk münasibətlərindəki vəziyyətə toxunaraq dedi: "Siz niyə əlaqələrimizi yaxşılaşdırmaq üçün azca da olsa səy göstərmirsiniz?" N.Sümer cavabında əlaqələrin yaxşılaşdırılmasının Türkiyənin müstəqilliyi və suverenliyi əsasında ola biləcəyini söylədi. Sonra o, SSRİ-nin şərq vilayətlərinə və Boğazlardakı bazalara olan tələblərinin hələ də qüvvədə olub-olmadığını soruşdu. S.Vinoqradov ərazi probleminin vacib, Boğazlar məsələsinin isə "həyati" əhəmiyyət kəsb etdiyini bildirdi. N.Sümer SSRİ-nin Boğazlarla bağlı konkret hansı tələblərinin olduğunu bilmək istədikdə, S.Vinoqradov bunun Sovet İttifaqı üçün təhlükəsizlik məsələsi olduğunu və bu təhlükəsizliyin "adekvat təminata" söykənməli olduğunu dedi. N.Sümer bunun cavabında bildirdi ki, Boğazlarda suveren, dost Türkiyədən yaxşı təminat ola bilməz. S.Vinoqradov dərhal V.Molotovun Moskva danışıqlarında irəli sürdüyü Türkiyənin zəif olması və Boğazları müdafiə etmək iqtidarında olmaması fikrini təkrar etdi. Səfir SSRİ-nin təhlükəsizliyini təminatlı etmək üçün Boğazlarda Sovet bazaları yaradılması və lazım olduğu anda bu bazalardan istifadə olunmasının zəruriliyini qeyd etdi. N.Sümer çox aydın formada bildirdi ki, Boğazlarda Sovet bazalarının yerləşdirilməsi Türkiyənin suverenliyinə ziddir və Türkiyə buna gedə bilməz. Sonra o, təklif etdi ki, əgər ərazi problemi Sovetlər üçün çox da əhəmiyyətli deyilsə, onda SSRİ Şərq vilayətlərinə olan iddialarını geri götürə bilər. S.Vinoqradov bu iddiaların Ermənistan Sovet Respublikası tərəfindən irəli sürüldüyünü və Konstitusiyaya görə ittifaq hökumətinin müxtəlif sovet respublikalarının maraqlarını müdafiə etməyə borclu olduğunu bəhanə gətirdi. Söhbətin sonunda S.Vinoqradov obrazlı formada dedi: "Biz Polşa ilə olan razılıq uçün çox gözləmişik və sonda buna nail olmuşuq, biz Türkiyəni də gözləyə bilərik". S.Vinoqradovla danışıqlardan sonra N.Sümer belə nəticəyə gəldi ki, SSRİ Türkiyəyə qarşı ərazi və Boğazlarda bazalar əldə etmək idiasından əl çəkmir və zamanın onun xeyrinə işlədiyinə inanır (30).

N.Sümerin ehtimalları doğru idi. Fevral ayının əvvəllərindən başlayaraq dünya genişlənən Sovet təhlükəsinin artıq real fakta

çevrildiyini açıq-aydın hiss etməyə başladı. Bu zaman artıq Krım konfransının qərarlarına uyğun olaraq Kuril adaları və Saxalinin cənub hissəsinin Sovetlərə verilməsi, Peçenqin Finlandiyadan alınması, Şərqi Prussiyanın bir hissəsinin, Keniqsberqin Sovetlərə qatılması başa çatmışdı. Şərqi Avropada və Balkanlarda hakimiyyətin kommunistlərə keçməsi bütövlükdə Sovetlərin nəzarətində idi. Çində və Koreyada hakimiyyət uğrunda mübarizə aparan qüvvələr, Yunanıstanda mövcud hakimiyyətə qarşı silahlı mübarizəyə başlamış partizanlar Sovetlər tərəfindən bütün vasitələrlə himayə edilirdilər. Aralıq dənizinə nəzarət etmək üçün SSRİ Tripolitan (Liviya) üzərində protektoratlıq hüququ tələb edir, Qara dəniz Boğazlarında baza yaratmaq cəhdlərini israrla davam etdirirdi. Yaxın Şərqə nəzarət etmək üçün İran Azərbaycanında möhkəmlənmək və Qars yaylasına sahib olmaq SSRİ-nin strateji planlarına daxil olmuşdu. İndoneziyada, İraqda, Suriyada, Misirdə və digər yerlərdə Qərbə qarşı yönəlmiş hərəkətlər Moskva tərəfindən dəstəklənirdi. Fevral ayının 9-da SSRİ Ali Sovetinə keçirilən seçkilərlə bağlı İ.Stalinin Moskva seçiciləri qarşısında çıxışı müttəfiqlər arasında əməkdaşlığın artıq arxada qaldığının açıq ifadəsi idi. Həmin çıxışda İ.Stalin imperializm haqqında müharibədən əvvəlki köhnə marksist ideyanı yeni biçimdə gündəliyə gətirdi. O, bildirirdi: "Marksistlər dəfələrlə demişlər ki, Dünya təsərrüfatındakı kapitalist sisteminin özündə ümumi böhran və hərbi toqquşma ünsürləri vardır, buna görə də zəmanəmizdə dünya kapitalizmi planlı və mütəsavi surətdə irəliləmək yolu ilə deyil, böhranlar və hərbi sarsıntılar yolu ilə inkişaf edir. İş bundadır ki, kapitalist ölkələrinin qeyri-mütəsavi inkişafı, adətən, zaman keçdikcə dünya kapitalizmi sistemi daxilində müvazinətin kəskin pozulmasına səbəb olur, həm də özlərini xammal və satış bazaları ilə az təmin edilmiş hesab edən kapitalist ölkələri, adətən, silahlı qüvvə işlətməklə vəziyyəti dəyişdirib "nüfuz dairələrini" öz xeyrinə yenidən bölmək istəyir". Belə bir ideyanın gündəliyə gətirilməsi müharibədən sonrakı kövrək beynəlxalq vəziyyətdə artıq Sovet sərhədləri boyunca "dost" hökumətlər yaratmaq fikrindən daha qabağa gedərək, müharibədən qalib çıxmış SSRİ-nin timsalında keçmiş müttəfiq ölkələrin bilavasitə özləri üçün ciddi təhlükə mənbəyinin yaranmasından xəbər verirdi. Müharibədən qalib çıxmış Sovet lideri Sovet ictimai quruluşunu siyasi proseslərin inkişafının ən yaxşı modeli kimi dünyaya təqdim edirdi. İ.Stalin deyirdi: "indi söhbət onun üstündədir ki, Sovet ictimai quruluşunun qeyri-Sovet ictimai quruluşundan daha artıq həyati və möhkəm olduğu aşkara çıxdı, məlum oldu ki, Sovet ictimai quruluşu nisbətən ən yaxşı quruluşdur". İ.Stalin təkcə Sovet ictimai quruluşunun dünya ölkələri üçün ən yaxşı model olduğunu əsaslandırmaqla kifayətlənməyərək, Sovet ordusunun hərbi qüdrəti və döyüş qabiliyyəti ilə bağlı söylədiyi fikirlərlə dünyanı heyrətləndirdi. O,

bütün dünyaya meydan oxuyaraq bəyan etdi ki, "Qızıl Ordu ayaqları çöpdən olan nəhəng" deyil, zəmanəmizdə tamamilə müasir silahlara, çox təcrübəli komandirlərə və yüksək mənəvi-döyüş xassələrinə malik olan əla bir ordudur. Unutmamalı ki, Qızıl Ordu, hələ dünən Avropa dövlətlərinin ordularını dəhşətə salan alman ordusunu darmadağın etmiş bir ordudur" (31). Əməkdaşlığın başa çatdığını göstərən İ.Stalinin 9 fevral çıxışı ABŞ rəsmilərini ciddi şəkildə həyəcanlandırdı. Onlar bu çıxışı üçüncü dünya müharibəsinə çağırış kimi qiymətləndirirdilər. Həmin günlər Moskvadan həyəcanlı məlumatlar göndərən Corc Kennan Kremlin əsəbi siyasətinin rəqib dövlətlərin tam dağıdılmasına yönəldilmiş ənənəvi və instinktiv rus siyasəti olduğunu bildirirdi (32). 1946-cı ilin fevral ayının 22-də C.Kennan Vaşinqtona göndərdiyi "uzun teleqram"da istər hərbi, istərsə də siyasi yollarla Sovetlərin genişlənməsinin, təsir və ekspansiyasının qarşısının alınmasını təklif edirdi. O, xəbərdarlıq edirdi ki, Sovet İttifaqı "fanatikcəsinə bizim ənənəvi həyat tərzimizi ləğv etməyə cəhd göstərir. Bunu əsas tutaraq Kennan təklif edirdi ki, Birləşmiş Ştatlar Sovet quruluşu ilə "siyasi yaxınlığa" ümid bəsləməməlidir. O, tövsiyə edirdi ki, ABŞ xarici siyasət sahəsində Sovet ittifaqına tərəfdaş kimi deyil, rəqib kimi baxmalıdır. C.Kennan qəti şəkildə qeyd edirdi ki, SSRİ-ni geri çəkilməyə məcbur etmək, onunla "güc mövqeyindən" danışmaq lazımdır (33).

Sovet siyasətinin güc müstəvisinə keçməsi ABŞ siyasi dairələrinin SSRİ ilə əməkdaşlıq illüziyasına son qoydu. İndi artıq prezident H.Trümen də etiraf edirdi ki, Sovetlərlə münasibətlərdə onların yalnız anladığı və qəbul etdikləri güc dilində danışmaq lazımdır. O, 1946-cı ilin əvvəllərində Dövlət katibi C.Birnsə verdiyi tövsiyədə Sovetlərin güc siyasətindən çıxış etdiyini və Türkiyənin də bu siyasətin hədəfinə çevrildiyini belə ifadə edirdi: Məndə Rusiyanın Türkiyəyə müdaxilə edəcəyinə və Aralıq dənizinə açılan Qara dəniz Boğazlarını ələ keçirmək niyyətində olduğuna heç bir şübhə yoxdur. Nə qədər ki, Rusiya sözdə və əməldə dəmir bir yumruq və sərt bir dillə qarşılaşmayıb, daha bir müharibə labüddür. Onlar ancaq bir dil başa düşürlər - "Sizin neçə diviziyanız var?" Mən düşünmürəm ki, biz gələcəkdə də kompromis oyunu oynamalıyıq (34).

1946-cı ilin əvvəllərindən başlayaraq Sovetlərə qarşı sərt siyasətin formalaşmasında və Türkiyənin Sovet təhdidlərindən müdafiə olunmasında Dövlət Departamentinin Yaxın Şərq və Afrika bölməsinin rəhbəri Loy Henderson, ABŞ-ın dəniz qüvvələri naziri Ceyms Forrestal, Moskvadakı müvəqqəti işlər vəkili C.Kennan, Türkiyədəki səfir E.Vilson və digər rəsmi şəxslər mühüm rol oynadılar. Müharibədən sonra ələ keçirilən alman sənədləri amerikanlarda Sovetlərin Yaxın və Orta Şərqdə, Aralıq dənizi rayonunda həyata keçirmək istədikləri genişlənmə siyasəti barədə

aydın fikirlərin formalaşmasında tamamlayıcı rol oynamışdı. 1946-cı ilin fevral ayının 28-də Dövlət katibi C.Birns Nyu-York şəhərində etdiyi bir çıxışda Sovetlərə qarşı sərt siyasət yeridiləcəyinə start verdi. O, qeyd etdi ki, Birləşmiş Millətlərin iddialarına və prinsiplərinə uyğun gəlməyən təzyiq və təhdiddən istifadə olunmasına laqeyd qalmayacağıq və qala bilmərik... Əgər biz böyük bir gücüksə, sadəcə öz təhlükəsizliyimizi təmin etmək üçün deyil, eyni zamanda bütün dünya barışını qorumaq üçün də böyük bir güc kimi davranmalıyıq (35)"

1946-cı ilin fevral ayında Moskvanın göstərişi ilə Ermənistan və Gürcüstan Sovet respublikalarının rəhbərlikləri Türkiyəyə qarşı təzyiq kampaniyasında fəal iştirak etməyə başlamışdılar. Ondan bir ay əvvəl yanvarda isə bütün Gürcüstanın patriarxı katolikos Kallistrat "Zariya Vostoka" qəzetində "Gürcü katolikosu Gürcüstan xalqının Türkiyəyə qanuni tələbləri haqqında" adlı geniş yazı ilə çıxış etmişdi. İstər 1945-ci ilin dekabr ayının 29-da elə həmin qəzetdə Zaqafqaziya müsəlmanları ruhani idarəsmin üzvü, Acanstan kazisi Rasix Beridzenin "Türk işğalçıları bizim torpaqları qaytarmalıdır" adlı yazısında və istərsə də Gürcüstan patriarxının yazısında gürcü akademiklərinin irəli sürdüyü iddialar müdafiə edilir və gürcü xalqının adından ərazi tələbləri BMT-yə ünvanlanırdı. Xüsusi ilə Rasix Beridzenin yazısında "Gürcü qanlı, islam imanlı" müsəlmanlar haqqında tarixin keçmiş qatlarında dolaşdırılmış son dərəcə müəmmalı fikirlər irəli sürülürdü. Gürcü alimlərinin bu seriyadan olan yazıları professor E.Takaşvilinin 1946-cı ilin may ayında "Zariya Vostoka" qəzetində dərc edilmiş "Türkiyənin tutduğu gürcü torpaqları haqqında" məqaləsi ilə başa çatdı. Lakin məsələ heç də "akademik araşdırmalarla" yekunlaşmadı. 1946-cı ilin fevral ayında Gürcüstan K(b)P MK-nın katibi K.Çarkviani Gürcüstanda Sovet hakimiyyətinin qurulmasının 25 illiyi ilə bağlı "Pravda" qəzetində dərc edilmiş yazısında, bir qədər əvvəl elmi araşdırmalar səviyyəsində Türkiyəyə qarşı irəli sürülən ərazi iddialarına respublika rəhbərliyi adından rəsmi xarakter verdi. O, qeyd edirdi ki, Gürcüstanın ərazi bütövlüyünün bərpasından ibarət olan gürcü xalqının bir əsrlik arzusu hələ ki, həyata keçirilməmişdir. Qədim gürcü torpaqları olan Ərdahan, Artvin, Oltı, Tortum, Bayburt, İspir, Gümüşxanə və Lazıstan hələ ki, onun sərhədlərindən kənarda qalmaqdadır. Ona görə gürcü sovet ictimaiyyətinin bizim vətənimizdən zorla qopardılmış gürcü xalqının mədəniyyətinin və dövlətçiliyinin beşiyi sayılan ərazilərin qaytarılması haqqında tələblərdə israrlı olmaları başa düşüləndir. K.Çarkviani yazırdı ki, gürcü xalqı ümumbəşəri mədəniyyəti qədim barbarlardan və XX əsrin barbarlarından müdafiə etmək üçün yetərincə böyük qurbanlar vermişdir. O özünün qanuni tələblərinin ödənilməsinə ümid etməkdə haqlıdır (36).

Əgər K.Çarkvianinin məqaləsinin yalnız bir hissəsi Türkiyəyə qarşı irəli sürülən ərazi iddiaları haqqında idisə, 1946-cı ilin fevral ayının ilk

günlərində SSRİ Ali Sovetinə seçkilərlə bağlı Yerevan şəhər seçiciləri qarşısında çıxış edən Ermənistan K(b)P MK-nın katibi Q.Arutinovun mətbuatda dərc edilən çıxışı kiçik istisnalarla bütövlükdə Türkiyəyə qarşı yönəlmişdi. Q.Arutinov ilk növbədə xaricdə yaşayan ermənilərin Sovet Ermənistanına qayıtmasına icazə verilməsi haqqında ittifaq hökumətinin mətbuatda dərc olunmuş qərarına toxunur və bu qərarın həyata keçirilməsinin erməni xalqının normal inkişafında, onun mədəniyyətinin və dilinin çiçəklənməsində mühüm hadisə olacağını qeyd edirdi. Q.Arutinov bu qərarın xaricdə yaşayan ermənilər tərəfindən ruh yüksəkliyi ilə qarşılandığını və onun bütün erməni xalqı tərəfindən böyük Stalinin ermənilərə atalıq qayğısı kimi qiymətləndirildiyini bildirirdi. O deyirdi: "Xarici ermənilərin çoxsaylı mitinq və yığıncaqlarında dərin həyəcan və sevinclə böyük rəhbər, erməni xalqının xilaskarı İ.Stalinə ürəkdən minnətdarlıq ifadə olunmuşdur". Q.Arutinov bildirirdi ki, SSRİ XKS-nin qərarı dərc olunduqdan sonra xaricdə yaşayan minlərlə erməni vətənə qayıtmaq üçün müraciət etmişdir. Ermənistan rəhbərliyinə daxil olan məlumatlara görə Yunanıstandan Ermənistan SSR-ə gəlmək istəyən birinci qrup 8 min nəfərdən ibarət idi. Tehranda növbəyə yazılanların sayının 17 min, Cənubi Amerikada 32 min, Suriya və Livanda 50 min nəfər olduğu göstərilirdi. Fransadan, Rumıniya və Bolqarıstandan və hətta Türkiyədən gəlmək istəyənlərin sayının çox olduğu göstərilirdi (37). Lakin Q.Arutinovun seçkiqabağı yığıncaqda açıqladığı rəqəmlər elə də real deyildi. Onun İ.Stalinə göndərdiyi gizli məlumata görə, bütövlükdə 1947-ci ilin may ayına qədər artıq Sovet Ermənistanına gəlmiş xarici ermənilərin sayı 50 945 nəfər idi (38). Göründüyü kimi, bu rəqəm yuxarıda vətənə qayıtmaq üçün sadalanan növbəyə duranların heç yarısı da deyildi.

Q.Arutinov öz çıxışında vətənə dönən ermənilərin yerləşdirilməsi məsələsinə iki yöndən yanaşırdı. Onun fikrincə, Sovet Ermənistanı ərazisinə maksimum 350-400 min xarici ermənini qəbul etmək olardı. Müxtəlif xarici dövlətlərdə yaşayan bir milyon ermənidən qalan 500-600 mininin Türkiyədən alınacaq ərazilərdə yerləşdirilməsi nəzərdə tutulurdu. Əslində, Sovet rəhbərliyi tərəfindən ermənilərin Sovet Ermənistanına köçürülməsi haqqında məsələnin gündəliyə gətirilməsi yalnız Türkiyəyə qarşı ərazi iddialarını əsaslandırmaq üçün idi. Bununla bağlı Q.Arutinov bildirirdi ki, Türkiyənin "işğal etdiyi erməni vilayətləri" qaytarılacağı təqdirdə biz bütün arzu edən erməniləri qəbul edə bilərik. Onları rədd etməyə isə bizim heç bir mənəvi hüququmuz yoxdur. Hal-hazırda Türkiyədə olan erməni vilayətlərinin Sovet Ermənistanına qaytarılması ilə bağlı məsələnin qoyuluşunun bütün aktuallığı məhz bundadır.

Q.Arutinov ərazi tələbləri ilə bağlı məsələnin ağırlıq mərkəzini Ermənistan SSR üzərinə keçirərək Sovetləri genişlənən tənqid dalğasından yayındırmağa çalışırdı. O, deyirdi: Türkiyə tərəfindən ələ keçirilmiş

erməni vilayətlərinin qaytarılması məsələsi erməni əhalisinin özü tərəfindən - həm Sovet Ermənistanında, həm də Avropa, Amerika, Yaxın və Orta Şərqdə yaşayan erməni əhalisi tərəfindən qaldırılmışdır. Q.Arutinov bildirirdi ki, erməni xalqının əsl dostu kirni ruslar ermənilərin ədalətli tələblərini təmənnasız olaraq müdafiə edirlər və guya Sovetlər bu məsələdə heç bir ekspansiya məqsədləri güdmür.

Q.Arutinovun çıxışının ikinci yarısı Türkiyənin Baş naziri Ş.Saracoğlunun Şərq vilayətləri ilə bağlı yanvar ayının 6-da jurnalistlərə açıqladığı sənəd və faktları təkzib etməyə yönəlmişdi. O, əsaslandırmağa çalışırdı ki, guya 1918-ci ildə Türkiyə Brest-Litovsk müqaviləsinin 4-cü bəndini pozaraq Qars və Ərdahanda birtərəfli qaydada rəy sorğusu keçirmişdir. O, Birinci Dünya müharibəsi başlanana qədər bu vilayətlərdə 400 min ermənini yaşadığını iddia edirdi. Əlbəttə, bir sıra Qərb və türk müəllifləri Birinci Dünya müharibəsi ərəfəsində Osmanlı imperatorluğunda əhali sayımı haqqında rəsmi statistik məlumata əsasən 1914-cü ildə Türkiyənin 33 vilayət və sancaklarında 1.229.007 nəfər erməni əhalisinin, buna nisbət 15.044.846 nəfər müsəlman əhalisinin yaşadığını bildirirlər (39).

Burada bir haşiyə çıxaraq tanınmış Amerika tədqiqatçısı Castin Makkartinin həmin məsələyə dair tədqiqatlarına müraciət etmək yerinə düşərdi. Castin Makkartiyə görə isə Birinci Dünya savaşı illərində Şərqi Anadoludakı dörd yüz min erməni ilə Qafqazlardakı dörd yüz min türk yer dəyişdirmişdir. Rusların bölgədə yayılma siyasətinin sonu kimi 1820-1920-ci illər arasında altı yüz min erməni Osmanlı dövlətindən Rusiyaya, iki milyon türk Qafqazlardan Türkiyəyə köç etmişdir (40).

Q.Arutinov seçicilər qarşısındakı çıxışında 1918-ci ilin qarışıq hadisələrinə geniş yer versə də, vəziyyət haqqında daha aydın təsəvvürlər yaradan 1920-21-ci illərin hadisələrinə, Gümrü, Moskva və Qars müqavilələrinin şərtlərinə toxunmağı lazım bilməmişdi. O, qeyd edirdi ki, Sovet İttifaqı xalqlarının və ittifaq hökumətinin yardımı ilə biz öz qanuni tələblərimizin təmin olunmasına nail olacağıq və yalnız bundan sonra biz bəyan edə bilərik ki, bir vaxtlar Türkiyədən, öz doğma ata yurdlarından qovulub xaricdə yerləşən bütün ermənilərin qayıtması üçün şərait yaratmışıq (41).

Q.Arutinovun bu çıxışından bir neçə gün sonra xaricdə fəaliyyət göstərən erməni təşkilat və cəmiyyətləri eyni tələblərlə Birləşmiş Millətlərin Londonda keçirilən sessiyasına müraciət etdilər. Həmin müraciətlərdə göstərilirdi ki, türklərin sözlərinə görə, bu ərazilərdə bir nəfər də erməni yaşamır və bu dəlilə görə, Türkiyənin erməni tələblərini rədd etməsi öz-özlüyündə ermənilərin məhv edilməsinə rəvac vermək deməkdir. Onlar yazırdılar ki, çox qədim dövrdən 1945-ci ilə kimi bu vilayətlərdə əsasən ermənilər məskunlaşmışdılar və sonrakı dövrdə onlar demək olar kı, hamılıqla türklər tərəfindən ölümə məhkum edildilər. Q.Arutinovun çıxışı

kimi bu müraciətlərdə də Baş nazir Ş.Saracoğlunun 6 yanvar açıqlamalarında irəli sürülən fikirlər təkzib edilirdi. Bütün müraciətlərdə olduğu kimi, BMT-yə göndərilən sənədlərdə də iki əsas məsələ irəli sürülürdü: Əvvəla, Birinci Dünya müharibəsindən sonra Türkiyə tərəfindən guya zorla tutulmuş tarixi torpaqların erməni xalqına qaytarılması və bu torpaqların Sovet Ermənistanına birləşdirilməsi, ikincisi, türklər tərəfindən zorla qovulmuş və "Türkiyə Ermənistanından" qaçmış milyon yarım erməninin öz vətəni olan Ermənistana qayıtmasına imkan verilməsi (42). Bu müraciətlər və çıxışlar hamısı bir-birinə bənzədiyindən və Moskvadan idarə edildiyindən prof.E.İsmayılov haqlı olaraq qeyd edir ki, İ.Stalin Türkiyənin şərq vilayətlərinin Ermənistana və Gürcüstana verilməsi ilə bağlı Ermənistan və Gürcüstan mətbuatında, xarici erməni diaspor təşkilatları arasında hay-küylü kompaniyanı stimullaşdırırdı (43). 1946-cı ilin fevral ayının 20-də Moskvada SSRİ XKS yanında ali məktəb işləri üzrə komitədə "Ermənistan və Türkiyə" mövzusunda mühazirə təşkil edilməsi bilavasitə bu stimullaşdırmanın təzahürü idi. Moskva dinləyiciləri üçün mühazirə oxumaq və SSRİ-nin Türkiyəyə ərazi tələblərini əsaslandırmaq üçün Ermənistan SSR Elmlər Akademiyasının müxbir üzvü A.K.Civeleqov dəvət edilmişdi.

A.Çiveleqov dinləyiciləri erməni xalqının qədim tarixi ilə tanış edib, Sovet hakimiyyəti illərində keçilən yola nəzər salsa da, bütövlükdə söhbətin guya Ermənistandan zorla alınmış Van, Bitlis, Ərzurum ərazilərinin tarixi taleyi üzərində qurmuşdu. Bu ərazilərdə yaşamış erməni əhalisinin Osmanlı imperatorluğunda təqiblərə və talanlara məruz qaldığından geniş söhbət açan A.Çiveleqov Avropa dövlətlərinin Türkiyə ermənilərinin iztirablarına biganə qaldıqlarını kəskin tənqid etmişdi. O, qeyd edirdi ki, daşnak hökumətinin satqınlığından, gənc Sovet respublikasının çətinliklərindən və Ermənistanın zəifliyindən istifadə edən Türkiyə alman imperializminin birbaşa yardımına arxalanaraq Qars və Ərdahan vilayətlərini, Sürməli dairəsmin keçmiş rus imperiyasının tərkibinə daxil olan hissəsini işğal etmişdir. Sonra mühazirəçi xaricdə yaşayan ermənilərin Sovet Ermənistanına köçürülməsi məsələsinə toxunur və yüksək partiya-sovet orqanlarının yazışmalarında olduğu kimi bu məsələni köhnə Rusiya imperiyasına daxil olan "erməni ərazilərinin" Sovet Ermənistanına qaytarılması ilə əlaqələndirirdi. A.Çiveqelov xaricdə yaşayan ermənilərin Türkiyədən "tarixi torpaqların" alınması və həmin ərazilərin Sovet Ermənistanına birləşdirilməsi üçün BMT Baş Məclisinə, Ermənistan SSR hökumətinə, habelə yeni seçilmiş bütün ermənilərin katolikosu VI Qeorqa çoxsaylı müraciətlər göndərdiklərini qeyd edirdi (44).

Türkiyəyə qarşı təzyiqlərə əməli xarakter vermək üçün 1946-cı ilin fevral ayının 22-də ÜİK(b)P MK-sının Siyasi Bürosu SSRİ XKS-nin və Xalq Xarici İşlər Komissarlığının təqdim etdiyi "Ermənilərin xaricdən

Ermənistan SSR-yə köçürülməsi üzrə praktik tədbirlər haqqında" qərar qəbul etdi. Qərara əsasən Bolqarıstan, Yunanıstan, İran, Livan, Rumıniya və Suriyada yaşayan ermənilərin köçürülməsi SSRİ Xarici İşlər Komissarlığına tapşırılırdı. Xarici İşlər Komissarlığı köçürmə işlərini təşkil etməklə yanaşı, eyni zamanda xarici ölkələrdə yaşayan ermənilərin Sovet Ermənistanına köçmələrini geniş şəkildə təbliğ etməli idi.

ABŞ, Fransa, Misir, Türkiyə və İranda yaşayan erməni əhalisi içərisində iş aparmaq, Ermənistan SSR-ə köçmək istəyən ermənilərin dairəsmi müəyyənləşdirmək və xarici ölkələrdə köçürmə fonduna vəsait toplamaq Xarici İşlər Komissarlığının Yaxın Şərq şöbəsinin müdiri İ.V.Samilovski başda olmaqla Ermənistan SSR XKS-nin nümayəndəsi Q.Ovanesyan və SSR Dövlət Təhlükəsizliyi Komissarlığının nümayəndəsi Q.Ovakimyandan ibarət yaradılan komissiyaya tapşırılırdı (45).

Sovetlər tərəfindən təzyiqlər artdığı və SSRİ kütləvi informasiya vasitələrində Türkiyə əleyhinə təbliğat kampaniyası genişləndiyi üçün, habelə İ.Stalinin 9 fevralda Moskva seçiciləri qarşısında çıxışı beynəlxalq aləmdə hiss ediləcək həyəcan yaratdığından BMT-nin London sessiyasında Türkiyə nümayəndə heyətinə rəhbərlik edən xarici işlər naziri H.Saka fevral ayının 15-də yenidən Britaniya xarici işlər naziri E.Bevinlə görüşdü. Söhbət zamanı H.Saka artan Sovet təzyiqləri qarşısında Britaniya dəstəyini daha artıq dərəcədə görmək istədiyini və İngiltərənin Türkiyənin müstəqilliyinə verdiyi əhəmiyyəti müəyyən formalarda ifadə edə biləcəyini vurğuladı. Bu danışıqlara uyğun olaraq Türkiyənin Londondakı səfiri C.Açıkalın E.Bevinə 1939-cu il ingilis-türk müqaviləsinin dəyişdirilməsi və daha da təkmilləşdirilməsini özündə əks etdirən memorandum təqdim etdi. Eyni zamanda memorandumda qeyd edilirdi ki, Britaniya hökuməti tərəfindən parlamentin İcma palatasında xarici siyasət məsələləri müzakirəyə çıxarılan zaman xarici işlər naziri E.Bevin Türkiyə hökuməti ilə olan ittifaq müqaviləsinə böyük əhəmiyyət verdiyini vurğulaya bilərdi. Lakin BMT-nin fəaliyyətə başlaması ilə dünyada təhlükəsizlik sisteminin möhkəmləndiyini güman edən E.Bevin ingilis-türk ittifaq müqaviləsinin dəyişdirilməsini lazım bilmədi (46). Bununla yanaşı, E.Bevin 1946-cı ilin fevral ayının 21-də İcma palatasındakı çıxışında Türkiyə ilə bağlı məsələlərə geniş yer verdi. Britaniya imperiyasının xarici siyasəti haqqında geniş çıxış edən E.Bevin bildirdi ki, Orta Şərqdə "əsəb müharibəsi " forması alan və Britaniya hökumətini narahat edən çox ağır bir məsələlər meydana gəlir və o, bu məsələlərdə çox yaxından maraqlıdır. Türkiyə-Rusiya münasibətlərinə toxunaraq E.Bevin qeyd etdi ki, bu ölkələr arasında sərhədlər dünya müharibəsində qalib deyil, məğlub olan Türkiyə ilə Rusiya arasında müəyyən edilmişdir. E.Bevin qeyd edirdi ki, bunu zorla qurulmuş sərhədlər adlandırmaq olmaz. Onun fikrincə, son dövrlərdə irəli sürülən Rusiyanın iddialarının bu sərhədlərdə yaşayan xalqlarla, milli

məsələlərlə heç bir əlaqəsi yoxdur. E.Bevin bildirdi ki, Rusiya ilə Türkiyə arasında həmin sərhədlər vaxtilə şəxsən İ.Stalin tərəfindən müəyyən edilib. Boğazlar probleminə gəldikdə E.Bevin bu məsələyə Montrö konvensiyasının dəyişdirilməsi nöqteyi-nəzərindən baxdığını və həmin məsələdə Türkiyənin yanaşmasını müdafiə etdiyini bildirdi. O deyirdi: "Mən belə bir fakta elə də əmin deyiləm ki, müəyyən bir dövlətin müəyyən bir yerdə digər bir müəyyən dövlətə qarşı yönəlmiş bazalar saxlamağı dünyada sülhün təmin edilməsinə köməklik etsin". Ən başlıcası isə E.Bevin bəyan etdi ki, "mən Türkiyənin asılı dövlətə çevrildiyini görmək istəmirəm, mən ancaq onu istəyirəm ki, Türkiyə müstəqil və azad dövlət olsun (47). E.Bevinin bu sözləri Sovet təzyiqlərinə məruz qalmış Türkiyə üçün çox əhəmiyyətli dəstək idi. Onun icma palatasında çıxışı Türkiyə siyasi dairələrində və mətbuatında geniş müzakirə edildi. N.Erimin "Tanın" qəzetində "Türk-ingilis-rus münasibətləri", Asım Usun "Vakıt" qəzetində "Rus-türk münasibətləri və İngiltərə", A.Ş.Esmerin "Ulus" qəzetində "Bevinin çıxışı", F.R.Atayın "Cənab Bevinin Türkiyə haqqında sözü" adlı məqalələri və digər yazılar bu baxımdan səciyyəvi idi. E.Bevinin çıxışını geniş təhlil edən türk jurnalistləri Türkiyənin müstəqilliyini saxlamağın zəruriliyi haqqında onun bəyanatına İngiltərənin Türkiyənin siyasətini başa düşməsi və ona səmimi dostluq hissləri bəsləməsinin nümayişi kimi baxırdılar. Türklər Britaniya xarici işlər nazirinin belə bir fikrinə xüsusi əhəmiyyət verirdilər ki, Türkiyə ilə Rusiya arasında dostluq haqqında müqavilə ingilis-türk ittifaqı ilə ziddiyyət təşkil etməyəcək, əksinə onun tamamlanmasına və möhkəmlənməsinə kömək edəcəkdir.

Türkiyənin Sovet İttifaqı ilə dostluq münasibətləri qurmaqda maraqlı olduğunu şərh edən mətbuat orqanları qeyd edirdilər ki, Sovetlərlə yeni müqavilə eyni ilə köhnə müqavilənin şərtləri çərçivəsində imzalana bilər. Onlar bildirirdilər ki, Sovet İttifaqı tərəfindən hər hansı iddiaya türklər Türkiyənin müstəqilliyinə və suverenliyinə yönəlmiş qəsd kimi baxacaqlar. Həmin dövrdə demək olar ki, bütün türk mətbuatı birmənalı şəkildə yazırdı ki, Türkiyə rəsmi və qeyri-rəsmi formada onun suverenliyinə və ərazi bütövlüyünə qarşı yönələcək hər hansı iddiaya qarşı sonuncu adamına qədər mübarizə aparmağa hazırdır. Lakin E.Bevinin 21 fevral çıxışı bir sıra erməni cəmiyyətlərinin ciddi etirazına səbəb olmuşdu. Misirdəki erməni Milli Şurasının ona və icma palatasının spikerinə göndərdiyi teleqramda E.Bevinin Ermənistan SSR-lə Türkiyə arasında sərhəd məsələlərini düz şərh etməməsini tənqid edir və ümidini bildirirdi ki, bir nazir kimi E.Bevin guya tarixin bu görünməmiş ədalətsizliyini müdafiə etməyəcəkdir (48).

16 mart 1921-ci ildə Moskva sazişinin müzakirə olunduğu dövrdə Rusiyaya xüsusi səfir göndərilən o zamankı rabitə naziri Ali Fuad Cebesoy, fevralın 21-i icma palatasında xarici siyasət haqqında çıxış edən E.Bevinin

Türkiyə ilə Rusiya arasında sərhədin şəxsən İ.Stalin tərəfindən müəyyən edilməsi haqqındakı bəyanatına əsaslanaraq E.Vilsona dedi ki, vaxtilə Moskvada danışıqlar aparılarkən sərhədlərlə bağlı məsələlər iki nöqtədə Batum və Qarsın cənub-şərqindəki ərazilərlə bağlı maneə ilə üzləşdi. Çıxılmaz vəziyyəti nazərə alan Sovet xarici işlər komissarı Çiçerin nümayəndə heyətlərinə o zaman millətlər işi üzrə komissar və Çiçerindən daha çox təsir gücünə malik oian Stalinlə görüşməyi təklif etdi. Bu baş tutdu və sonda Stalinlə ətraflı danışıqlar Türkiyə, Gürcüstan SSR və Yerevan arasında sərhədlərin müəyyənləşməsi ilə nəticələndi. Ali Fuad paşa bildirdi ki, Stalin təkidlə Batumu saxlamaq istədi və Türkiyə Batumu qurban verəcəyi təqdirdə Rusiyanın da Qars yaxınlığındakı ərazidən əl çəkəcəyini dedi. Sərhəd bu əsasda müəyyən edildi (49).

Xarici işlər naziri E.Bevinin çıxışı ilə eyni vaxtda 1946-cı ilin fevral ayında "Neyşnl Revyü" adlı ingilis jurnalında "Rusiya və biz" adlı geniş bir məqalə dərc edildi. Bütövlükdə, Sovetlərin xarici siyasətinin ciddi şəkildə tənqid olunduğu bu məqalədə Sovet-Türkiyə münasibətlərinə də toxunulmuşdu. Orada deyilirdi: Sual etmək olar ki, ərazisi orta ingilis qraflığından böyük olmayan Qars və Ərdahan dairələrini Rusiya nə üçün əldə etməyə maraqlıdır? Bu dairələr strateji əhəmiyyətə malikdirlər, lakin daha mühüm olanı odur ki, bu dairələri Rusiyaya güzəştə getməklə Türkiyə Rusiyanın gücünü etiraf etmiş olur, onun hökmdar qarşısında baş əyməsinə gətirib çıxarır. Bax, Rusiya əsasən buna can atır. Təxminən eyni mülahizələrlə Rusiya Boğazlarda da baza almağa israr edir. Hər iki tələbin ödənildiyi təqdirdə Türkiyə bir tərəfdən Qars və Ərdahan, digər tərəfdən Boğazlar olmaqla hər iki tərəfdən kəlbətinin dişinin altına düşürdü. Lakin Türkiyənin tabeçiliyi faktı daha mühüm əhəmiyyətə malik olacaq və təsdiq olunacaq ki, bu addım onun özünün fəaliyyətinin nəticəsi deyil, ingilis-türk sazişinin ölü doğulmasının nəticəsidir. Beləliklə, gələcəkdə Rusiyanın iradəsi Ankarada, Sofiyada və Buxarestdə qanuni hesab ediləcəkdir.

Xarici mətbuat səhifələrindəki belə məzmunlu yazılan və E.Bevinin çıxışını təhlil edən Ermənistan SSR Xarici İşlər Nazirliyi beynəlxalq aləmdə ermənilərin tələblərinin Sovet İttifaqının tələbləri kimi qəbul edilməsindən və bunun SSRİ-nin Türkiyəyə münasibətdə təcavüzkar siyasəti kimi qiymətləndirilməsindən, ən başlıcası isə beynəlxalq mətbuatda səhifələrində ermənilərin tələblərinin Qars və Ərdahanla məhdudlaşdırılmasından müəyyən dərəcədə narahatlıq hissi keçirirdi (50).

E.Bevinin İcma palatasındakı çıxışından sonra fevral ayının 25-də xarici işlər naziri vəzifəsini icra edən N.Sümerlə görüşən Sovet səfiri S.Vinoqradov bu çıxışın Türkiyəyə aid olan hissəsini H.Sakanın Londondakı fəaliyyətinin nəticəsi kimi qiymətləndirdi. Lakin N.Sümer məsələnin belə qoyuluşu ilə razılaşmadı və qeyd etdi ki, bu, Türkiyədəki vəziyyətin və Türk-Britaniya əlaqələrinin açıq ifadəsidir. S.Vinoqradov

E. Bevinin çıxışının Birləşmiş Krallıq və Türkiyəni SSRİ ilə qarşı-qarşıya qoya biləcəyini vurğuladıqda Sümer dedi ki, əksinə Bevin SSRİ ilə Türkiyə arasında dostluq anlaşmasının bərpa olunacağına ümid etdiyini və bunun üç ölkə arasında etimadın artmasına müsbət təsir göstərəcəyinə inamını bildirdi.

Danışıqların gedişində S.Vinoqradov vaxtilə gündəmdə olan ittifaq sazişi məsələsini qaldıraraq dedi ki, əgər Türkiyə SSRİ ilə ittifaq sazişi bağlamaq istəyirsə, şərtlər keçən ilin iyun ayında Molotov tərəfindən irəli sürülüb. Lakin N.Sümer bildirdi ki, Türkiyə heç vaxt ittifaq sazişi istəməyib və hal-hazırda da istəmir, Türkiyə SSRİ ilə etibarlı dostluq münasibətlərinin olmasını arzu edir və bu məqsədlə 1925-ci il dostluq müqaviləsi səviyyəsində yeni müqavilə bağlamağa çox böyük əhəmiyyət verir. Burada S.Vinoqradov indiyə qədər danışıqlarda və yazışmalarda müşahidə edilməyən yeni bir fikir irəli sürdü. O, Molotovun Şərq vilayətlərinə irəli sürdüyü tələblərə toxunaraq bu ərazilərin Ermənistana veriləcəyi təqdirdə Türkiyənin digər bir yerdən ərazi kompensasiyası ala biləcəyini bildirdi. Lakin N.Sümer bu məsələyə də qəti münasibət bildirərək çox açıq şəkildə cavab verdi ki, Türkiyə nə öz ərazilərindən imtina etmək, nə də özgə əraziləri özünə birləşdirmək fikrində deyildir (51).

Fevral ayı ərzində bir neçə gün sakitlik olsa da, Moskva radiosunun qızışdırıcı verilişləri, Sovet liderlərinin, Ermənistan və Gürcüstan rəhbərlərinin seçkiqabağı çıxışları, "Pravda" və "İzvestiya" qəzetlərində gedən bir sıra məlumatlar türk mətbuatında yeni antisovet dalğanın başlanmasına rəvac verdi. Ankaradakı Sovet səfirliyi SSRİ Xarici İşlər Nazirliyinə göndərdiyi gizli hesabatda yazırdı: "Moskva radiosunun türk dilində verilişiərinin Türkiyə əhalisi üçün demək olar ki, yeganə doğru informasiya mənbəyi olduğunu bildikləri halda türk mətbuatı sistematik olaraq Moskva radiosuna hücumlar edir, onu türklərin gözündə ləkələməyə cəhd göstərir. Türk qəzetləri təsdiq edirlər ki, Moskva radiosu Türkiyəyə qarşı sistematik yalan və böhtan yayan "bolşevik təbliğatının mərkəzinə" çevrilmişdir və SSRİ-nin "əlini qoymaq istədiyi" ölkələrdə qarışıqlıq yaratmaqda bu radionun öz məqsədləri vardır".

Fevral ayının ilk günlərində İstanbulda nəşr olunmuş Faruk Gürtüncünün "Bu Vətənə toxunma" şerlər kitabı ictimai fikrin səfərbər edilməsində və vətənpərvərlik hisslərinin qızışdırılmasında mühüm vasitə oldu. Şerlər toplusunun ön sözündə Türkiyə dövlət xadimlərinin Qars və Ərdahanla bağlı çıxışlarından seçmələr verilmişdi. Məsələn, şerlərin birində deyilirdi: "Düşmən yenidən bayraqlarını qaldırmış va nəzərlərini bizim vətənimizə dikmişdir. Ondan ötrü ki, onun dağlarını qana boyasın, o bizim ölkəmizin torpaqlarını tutmaq və əl-qolunu zəncirləmək istəyir. Ey tarixçi alimlər, eşidin! Əgər yad düşmən əli hətta Anadolunun bir daşına belə toxunsa, onda düşmən öz sümüklərinin külünü belə yığa

bilməyəcək. Qarsdan Maritsaya qədər bütün torpaqlar bizə məxsusdur Bu gün də, sabah da bütün Türkiyə öz torpağının hər qarışı naminə od içinə atılmağa hazırdır". Başqa bir şerdə isə göstərilirdi ki, "Biz yol verə bilmərik ki, xaricilər həlak olmuş qəhrəmanların sümüklərini tapdalasınlar. Biz yol verə bilmərik ki, evlərimizin üstündə yad bayraqlar dalğalansın. Ey Türkiyənin oğulları, süngü və güllə yarası sənin sinənin ən yaxşı bəzəyidir. Ana Vətən qorxma, öz sinəni silah qabağına ver, sənə güllə dəyməz. Ana Vətən, öz sinəndən od püskür. Qoy qırmızılar anlasınlar ki, müqəddəs müstəqillik nə deməkdir (52). Demək olar ki, bütün toplu bu ruhda olan şerlərdən ibarət idi. Ankaradakı Sovet səfirliyi, bütün Türkiyədə vətənpərvərlik hissini coşduran bu kitabdakı şerlərin mətnlərini rus dilinə tərcümə edib kitabdakı illüstrasiyaların antisovet məzmunu haqqındakı məlumatla birlikdə SSRİ Xarici İşlər Komissarlığına göndərmişdi.

Fevral ayının ilk günlərində türk qəzetləri xidmət müddəti başa çatdığından öz ölkəsinə qayıdan Ankaradakı ABŞ səfirliyinin hərbi dəniz attaşesi Corc Erlin bəyanatını geniş şərh etdi. Corc Erl mətbuat üçün verdiyi açıqlamada bolşevik təhlükəsinin gücləndiyini, SSRİ-nin bütün dünyanı zor gücünə bolşevikləşdirmək istədiyini kəskin şəkildə tənqid edirdi.

Sovet İttifaqının Tripoliten üzərində nəzarətin ona verilməsi haqqında tələbləri elan olunan kimi bütün türk mətbuatı bu tələbi Sovetlərin imperialist siyasətinə dönmələrinə dəlalət edən daha bir sübut kimi, müstəmləkələr əldə etmək arzusu kimi dəyərləndirməyə başladı. Bir sıra qəzetlər bu tələbləri tamahkar niyyətlərin sərhədlər tanımadığı və tamahkar imperializmin hər şeyi tələb etməsi kimi şərh edirdilər. Tanınmış jurnalist A.Ş.Esmer Sovet İttifaqı tərəfindən Tripolitenə irəli sürülmüş iddiaları, digər tələbləri həyata keçirmək üçün alver məqsədi ilə ortaya atılan iddialar kimi qiymətləndirirdi. C.Yalçın və Asim Us kimi qəzetçilər isə hesab edirdilər ki, Tripoliten Sovetlər üçün son məqsəd deyil, Yaxın və Orta Şərqin bolşevikləşməsi planının yalnız bir hissəsidir (53).

SSRİ Xarici İşlər Komissarlığının idarə rəisi, eyni zamanda ÜİK(b)P MK-sı yanında İctimai Elmlər Akademiyasında beynəlxalq münasibətlər kafedrasının müdiri V.Xvostovun Türkiyənin Şərq vilayətləri haqqında "İzvestiya" qəzetində dərc olunmuş məqaləsi türk mətbuatının kəskin reaksiyasını doğurmuşdu. V.Xvostovun məqaləsində Şərq vilayətləri ilə bağlı faktlar saxtalaşdırıldığından, Qars və Ərdahanın guya ermənilərə məxsus olduğu və ermənilərin Birinci Dünya müharibəsi illərində Osmanlı imperatorluğu tərəfindən məhv olunduğu iddia edildiyindən türk mətbuatı bu yazını cavabsız qoymadı. Bir sıra qəzetlər V.Xvostovun məqaləsinə toxunaraq yazırdılar: birincisi, ermənilərin dəfələrlə Şərq vilayətlərindəki xəyanətkarlığı və onların bu ərazilərdə türk əhalisinə

qarşı törətdiyi vəhşiliklər müvafiq cavab reaksiyası doğurmalı idi. İkincisi, türk əhalisi Şərq vilayətlərində həmişə üstünlük təşkil edibdir və bunun nəticəsi olaraq əhalinin arzusu və Rusiya ilə Türkiyənin qarşılıqlı razılığı ilə bu vilayətlər Türkiyəyə qaytarılıbdır. Mətbuat əsaslandırmağa çalışırdı ki, bu vilayətlər Türkiyəyə qaytarılanda Türkiyə o qədər zəif idi ki, "kiçik Türkiyənin Qars və Ərdahanı Rusiyanın əlindən alması" barədə söhbət açmaq ciddi məsələ deyildi.

BMT-nin Londonda keçirilən birinci sessiyası da türk mətbuatının diqqət mərkəzində idi. İran məsələsi ilə yanaşı, Təhlükəsizlik Şurasında müzakirə edilən Yunanıstan, İndoneziya, Suriya və Livandakı vəziyyət haqqında məsələlər maraqlı mətbuat yazıları doğurmuşdu. Yunanıstan məsələsi ilə bağlı Sovetlərin Təhlükəsizlik Şurasına müraciət etməsini türk mətbuatı İranın BMT-yə müraciət etməsinə cavab kimi qiymətləndirir və Yunanıstandakı vəziyyətin məsuliyyətini İngiltərənin üzərinə qoymağa çalışırdı. Yunan kommunistlərinin Sovet İttifaqı tərəfindən müdafiə edilməsini bir sıra qəzetlər Yunanıstanın bolşevikləşdirilməsi kimi dəyərləndirirdilər. Britaniya xarici işlər naziri E.Bevinin BMT Təhlükəsizlik Şurasındakı çıxışında dediyi "dünya üçün əsas təhlükə bolşevik təbliğatının güclənməsindən irəli gəlir" fikri Türkiyə siyasi dairələri və mətbuatı tərəfindən tamamilə müdafiə edilirdi (54). 1946-cı ilin mart ayının ilk günlərindən bu təbliğat daha intensiv xarakter aldı və onun doğurduğu təhlükə real xarakter daşımağa başladı.

Beləliklə, İran Azərbaycanında, Türkiyədə və bütün dünyada hadisələrin gərgin mərhələyə daxil olduğu mart ayı yetişdi. İsti müharibə ab-havası tədricən soyumağa başladı. Müharibə dövründəki qarşılıqlı əməkdaşlıq qarşılıqlı ittihamlarla əvəzləndi, tarixi tərəfdaşlıqdan tarixi rəqabətə doğru uzunmüddətli qarşıdurma mərhələsi real gerçəkliyə çevrildi. 45 il dünyanı səksəkədə saxlayacaq soyuq müharibə erası başlandı. Həmin günlərdə Təbrizdə Amerika konsulu işləmiş Robert Rossou on il sonra "Midl İst" jurnalında çap olunmuş "Azərbaycan uğrunda döyüş, 1946" adlı məqaləsini bu sözlərlə başlayırdı: "Əminliklə demək olar ki, soyuq müharibə 1946-cı ilin mart ayının 4-də başlamışdır. Həmin gün 15 zirehli Sovet briqadası Şimal-Qərbi İrandakı Azərbaycan əyalətinə daxil olmuş və İran-Türkiyə sərhədini tutaraq mərkəzə doğru irəliləməyə başlamışdı. Eyni sayda və eyni keyfiyyətdə Sovet ordusu Bolqarıstan istiqamətindən Türkiyənin Avropa sərhədlərinə yaxınlaşmışdı. Bu ağır zirehli hərəkətlər Ankara və Tehran üzərinə diplomatik təzyiqlərlə, Yunanıstan, Azərbaycan, İran Kürdüstanında iğtişaşlarla müşayiət edilməyə başlamışdı.

Sovetlərin hücumları iki fazada baş verdi. Birinci fazada Türkiyənin ram edilməsi və nəticədə Aralıq dənizi sahilinin, Süveyşin, İran körrəzinin neft yataqlarının ələ keçirilməsi və Hindistanın yaxınlaşdırılması nəzərdə tutulurdu. Bu plan baş tutmadıqda, Sovetlər bahar ayında İranın

hədəf kimi götürüldüyü ikinci mərhələyə keçməyə qərar verdi. Hər iki mərhələdə Azərbaycana hücum bu planlara daxil edilmişdi və bu, 9 aylıq kampaniya ilə müşayiət olundu. Bir güllənin də atılmamasına baxmayaraq, Azərbaycan uğrunda döyüş Vanker təpəsi, Ball Ran, Marna sahili döyüşü kimi əlamətdar olmuşdur. Bu hadisələr indiyə kimi soyuq müharibənin ən az başa düşülən və tədqiq olunan hadisələridir. Əsas tarixi faktların va hadisələrin məlum olmasına baxmayaraq, məsələnin strateji və taktiki incəlikləri hələ də araşdırılmamış qalır (55).

1946-cı ilin martın 2-si həmin dövrün beynəlxalq münasibətlərinin mühüm hadisəsi kimi tarixə düşdü. Bir sıra hallarda onun haqqında möcüzəli gün kimi də danışırdılar. Məhz martın 2-də böyük üçlüyün müharibə dövründəki əməkdaşlığına sonuncu nöqtə qoyuldu. Sovet İttifaqı beynəlxalq öhdəliklərə uyğun olaraq həmin gün öz qoşunlarını İrandan çıxarmalı idi. Lakin SİTA-nın yaydığı məlumata əsasən, SSRİ öz qoşunlarını yalnız Məşhəd, Şəhrud və Semnandan çıxarırdı. Elə bu məlumatda vəziyyət aydınlaşana qədər Qızıl Ordunu İranın digər rayonlarında saxlayacağını bildirirdi. Təbrizdəki ABŞ konsulu R.Rossounun təbirincə desək, martın 2-si tamam olan tərketmə günü yaxınlaşdıqca SSRİ tərəfindən heç bir hərəkət yox idi və həmin gün "atları da özləri kimi yuxuya getmiş" Sovetlər öz yerlərində qalmaqda idilər. Lakin martın 3-də Təbərizdə yerləşən Sovet qoşunları gözlənilmədən şəhəri tərk etməyə başladı. İlk anda Təbərizdəki diplomatik korpuslar çaş-baş qalmışdılar. Yalnız bir şey aydın idi ki, hərbi hazırlıq vəziyyətində hərəkətə başlayan ordu hissələri Sovet sərhədlərinə tərəf getmir. Vəziyyəti diqqətlə izləyən R.Rossou Sovet qoşunlarının hərəkəti ilə bağlı ABŞ dövlət katibinə göndərdiyi həyəcanlı və son dərəcə məxfi teleqramında yazırdı: "Sovet ağır texnikası martın 3-də 450 yük maşınından ibarət olmaqla Təbrizdən Tehran istiqamətinə çıxmışdır. Eyni istiqamətdə həmin gün səhər tezdən 20 tank və 100 yük maşını Bostanbada çatmışdır. Tam təchiz edilmiş iki artilleriya batareyası bu gün Təbrizdən Mərənd istiqamətinə çıxmışdır. Onların Xoy Rizaiyyə, yaxud Makuya dönəcəkləri, ya da Culfaya gedəcəkləri məlum deyil. Həmçinin Mehabaddan xəbər verilir ki, kürdlər Yaxın vaxtlarda Türkiyə istiqamətində hərbi əməliyyatlara başlayacaqlar. İki gün əvvəl İraq sərhədində Sovet süvari hissəsinin toplanması və Marağa yol qovşağı istiqamətindəki hərəkət edən 9 Sovet tankı barədə kəşfiyyat məlumatları alındı. Eyni zamanda R.Rossou Dövlət katibi C.Birnsə bildirirdi ki, martın 3-dən başlayaraq SSRİ sərhədlərindən Təbrizə əlavə Sovet hərbi qüvvələri gətirilir (56). Martın 4-də daha 46 ədəd Sovet "T-34" tanklarının dəmir yolu vasitəsi ilə İran Azərbaycanına gətirilməsi barədə Amerika konsulluğuna məlumat daxil olmuşdu.

Mart ayının 4-də Mehabaddakı "Kürd respublikası" Sovetlərin təlimatı üzrə Türkiyənin cənub ərazilərində yaşayan kürdlər üzərində

muxtariyyətə malik olduqlarını elan etdilər. Ermənistan və Gürcüstan Sovet Respublikaları mart ayında Türkiyənin şimal-şərq ərazilərinə, Trabzon limanı da daxil olmaqla Qara dəniz sahili regionlarına olan iddialarının həll olunacağını zənn edirdilər. Martın ilk günlərindən başlayaraq Türkiyənin hər iki cinahında Sovet ordu hissələrinin gücləndirilməsi fonunda Ankaraya qarşı diplomatik təzyiqlər kəskin xarakter aldı. Bosfor və Dardanell boğazlarında müxtəlif imtiyazların alınması, Qars və Ərdahanın SSRİ-yə verilməsi barədə də Sovet iddiaları artıq açıq hədə-qorxu, şantaj və diplomatik təzyiqlər xarakteri almağa başlandı.

Mart ayının 4-də ABŞ prezidenti H.Trümen Sovetlərin İranda və Türkiyədə, o cümlədən Azərbaycanda yeritdiyi siyasəti müzakirə etmək üçün dövlət katibi C.Birnsi qəbul etdi. O, dövlət katibinə təlimat verdi ki, Sovetlərlə məsələni aydınlaşdırmaq üçün Stalinə məktub göndərsin. Prezidentin təlimatına uyğun olaraq martın 5-də C.Birns Moskvaya nota göndərdi. Bir gün sonra Vaşinqtonun notası Moskvaya təqdim edildi. Sovet İttifaqı bu notaya rəsmi olaraq cavab vermədi və əvəzində Trümeni Sovet İttifaqına qarşı başlanan təzyiqlərin əsas təşkilatçısı kimi günahlandırdı. Ola bilsin ki, Sovetlərin məsələni belə qoyması martın 5-də Britaniyanın keçmiş baş naziri U.Çörçillin özünün məşhur Fulton nitqini məhz Amerika prezidentinin hüzurunda etməsi ilə bağlı idi. Çörçillin Missuri ştatındakı Fulton şəhərində, Vestminster kollecindəki məşhur nitqi çox məsələlərə aydınlıq gətirdi. Çörçill təklif etdi ki, atom silahı üzərində Qərbin inhisarı bütün vasitələrlə qorunmalıdır. O, deyirdi: "Atom bombasının yaradılması haqqında məlumatın, üsul və xammalın hazırda əsasən Amerikanın əlində olması nəticəsində dünyanın heç bir ölkəsində heç bir adamın yuxusuna haram qatılmır. Mən belə düşünürəm ki, hazırda vəziyyət dəyişmiş olsaydı və bu dəhşətli məlumat hər hansı bir kommunist dövlətin, yaxud yeni faşist dövlətinin əlində olsaydı, biz rahat yata bilməzdik". Çörçill təklif edirdi ki, kommunist ekspansiyasına qarşı ingilis dilli ölkələrin, ilk növbədə ABŞ və Böyük Britaniyanın ittifaqı yaradılmalıdır. O deyirdi: "Hələ bu yaxınlaradək müttəfiqlərin qələbəsi ilə nurlanan torpaqlara kölgə düşmüşdür. Sovet Rusiyasının və onun beynəlxalq kommunist təşkilatının yaxın gələcəkdə nə etmək niyyətində olduqlarını və ya onları istilaçılıq və qəsbkarlıq meyllərinin hansı sərhədə gəlib çıxacağını, əgər doğrudan da belə bir sərhəd nəzərdə tutulmuşsa, bunu heç kim bilmir". Dünyada yaranmış vəziyyəti təhlil edərək Çörçill belə bir nəticəyə gəlirdi: "Baltik dənizi sahilində Ştettindən başlayaraq Adriatik dənizi sahilində Triyestə qədər Avropa qitəsi üzərində dəmir pərdə bürünmüşdür. Mərkəzi və Şərqi Avropanın qədim dövlətlərinin bütün xəzinələri bu xəttin o tayında saxlanılır. Varşava, Berlin, Praqa, Vyana, Budapeşt, Belqrad, Buxarest, Sofiya - bütün bu məşhur şəhərlər və həmin rayonlarda yaşayan əhali Sovet nüfuz dairəsində olub, bu və ya

digər şəkildə Sovetlərin təsirinə tabe olmaqla bərabər, Moskvanın getdikcə artan nəzarətinə də xeyli dərəcədə tabedirlər... Türkiyə və İran onlardan edilən tələblər və Moskva hökumətinin göstərdiyi təzyiq nəticəsində çox təşvişə və həyəcana düşmüşlər". Fulton nitqinin sonunda Çörçill öz fikrini belə yekunlaşdırırdı: "Mən inanmıram ki, Sovet Rusiyası müharibə istəyir. O, müharibənin bəhrələrini dərmək və öz gücündən qeyri-məhdud dərəcədə istifadə edib, öz nəzəriyyələrini geniş yaymaq istəyir... Ruslar hər şeydən çox gücü sevirlər və hərbi zəifliyə hər şeydən az hörmət edirlər. Buna görə qüvvələr arasındakı müvazinət haqqında köhnə nəzəriyyəmiz yararlı deyildir. Biz, güc sahəsində əhəmiyyətsiz üstünlüyə bel bağlaya bilmərik, çünki bu qüvvələri sınaqdan çıxarmağa təhrik edən bir səbəb olar" (57).

U.Çörçillin çıxışı türk mətbuatında və siyasi dairələrində geniş əks-səda doğurdu. Hələ Fulton çıxışına qədər türk qəzetləri belə bir məlumat verirdilər ki, Çörçill dünyanı xilas etməyin yeganə yolu kimi ingilis-amerikan ittifaqının yaranmasını təklif edir. U.Çörçillin Fultondakı çıxışı radio ilə verilən kimi Türkiyənin kütləvi informasiya vasitələri onu hərtərəfli şərh etməyə başladı. Türk qəzetləri bir-birinin ardınca onu "dahi lider", "qələbənin qəhrəmanı", "ən uzaqgörən dövlət xadimi" və digər epitetlərlə vəsf edirdilər. U.Çörçillin Fulton çıxışında Sovetləri ittiham etməsinə, SSRİ-nin xarici siyasətini kəskin tənqid etməsinə türk mətbuatı özlərinin Sovetlər əleyhinə apardıqları təbliğatda haqlı olduqlarının təsdiqi və bəraəti kimi baxırdılar.

"Pravda" qəzeti Çörçillin Fulton nitqi ilə bağlı "Çörçill qılınc oynadır" adlı baş məqalə dərc etdi. "Pravda" qəzetinin bu yazısını türk jurnalistləri həqiqəti bütün çılpaqlığı ilə açdığı üçün ona qarşı hücumlar kimi qiymətləndirirdi. Bir sıra qəzetlər yazırdılar ki, "Pravda" da çap olunan belə yalan məqalələrlə bütün dünyanı aldatmaq olmaz, belə məqalələrlə ancaq Sovet xalqının bir hissəsini müəyyən dərəcədə aldatmaq olar. Bu tipli çıxışlara qarşı təmkinlilik nümayiş etdirən İ.Stalin U.Çörçillin çıxışı ilə bağlı "Pravda" müxbirinin suallarına cavab verdi. İ.Stalin qeyd edirdi ki, bu nitq təhlükəli bir addımdır və bundan məqsəd müttəfiq dövlətlər arasında ədavət toxumu səpib onların əməkdaşlığını çətinləşdirməkdir. Dünya kommunist hərəkatının yüksəlişini qanunauyğun proses kimi təqdim edən Stalin xəbərdarlıq edirdi ki, Birinci Dünya müharibəsindən sonra Sovet Rusiyasına "14 dövlətin yürüşü"nü təşkil edən Çörçillin siyasəti tam məğlubiyyətlə nəticələndi. "İkinci Dünya müharibəsindən sonra "Şərqi Avropa"ya qarşı cənab Çörçill və onun dostlarının yeni bir hərbi yürüş düzəltməyə müvəffəq olub-olmayacaqlarını bilmirəm. Lakin onlar buna müvəffəq olsalar, - buna isə güman azdır, çünki milyonlarla "sadə adamlar" sülh işinin keşiyində durmuşlar, - onda yəqinliklə demək olar ki, onlar keçmişdə, 26 il bundan əvvəl əzildikləri kimi, indi də

əziləcəklər" (58). Elə bu əhval-ruhiyyə ilə də Sovet İttifaqı martın 6-da Moskvadakı Amerika müvəqqəti işlər vəkili C.Kennanın SSRİ Xarici İşlər Komissarlığına, şəxsən V.Molotova təqdim etdiyi notaya, əslində, əhəmiyyət verməmişdi. Baxmayaraq ki, dövlət katibi C.Birns notada bildirirdi ki, Vaşinqton 1946-cı il Azərbaycan böhranı ilə əlaqədar heç nə olmamış kimi dayana bilməz.

1946-cı ilin mart ayının əvvəllərində beynəlxalq vəziyyət təkcə siyasi və diplomatik baxımdan deyil, hərbi baxımdan da xeyli gərginləşdi. Martın 6-da Pribaltika Hərbi Dairəsi qoşunlarının baş komandanı, ordu generalı İvan Baqramyan bir sıra yüksək rütbəli Sovet hərbçilərinin müşayiəti ilə Təbrizə gəldi. Eynilə həmin vaxtda Sovetlərin Cənub qrupu qoşunlarının baş komandanı, marşal Fyodor Tolbuxin Türkiyənin Avropa sərhədlərinə toplanmış Sovet hərbi hissələrinə rəhbərlik etmək üçün Bolqarıstana göndərildi. Mart ayının 6-da Təbrizdən Birləşmiş Ştatların dövlət katibinə məxfi şəkildə göndərdiyi raportda konsul R.Rossou yazırdı: "Sovet hərbi birləşmələri gecə və gündüz Sovet sərhədlərindən gəlməkdə davam edirlər. Sovet ordu generalı Baqramyan Təbrizə gəldi və Azərbaycandakı Sovet qoşunlarının komandanlığını qəbul etdi. Deyirlər ki, general Baqramyan tank müharibəsi üzrə mütəxəssisdir. Əvvəlki komandan general Qlinskinin geniş təcrübəsi yox idi. Tehran-Təbriz yolu qeyri-hərbi nəqliyyat vasitələri üçün bağlanıb. Sovet qoşunları Tehran istiqamətində hərəkət edir. Azərbaycan ordusunun nisbətən çoxsaylı hissləri də eyni şəkildə hərəkət edir. Təbəriz işğal ordusundan və Rusiyadan Mehabad-Kürdüstan istiqamətində hərbi hissələr göndərilir. Kürd ordusunun iri birləşmələrinin Mehabad-Rizaiyyə istiqamətində, Türkiyə sərhədlərində təhrikedici hərəkətləri müşahidə edilir. Bütün bunlardan Sovet birləşmələrinin böyük hərbi əməliyyatlara hazırlaşdığı aydın olur". Bir gün sonra 6 mart tarixli raportuna əlavə olaraq Rossou tam məxfi şəkildə Vaşinqtona bildirirdi ki, mən Sovet qoşun birləşmələrinin buradakı hərəkətlərindən həyəcanlanmaya bilmirəm. 20 orta tank, 20 zirehli maşın və 40 yük maşını Tehran, 12 tank Mehabad istiqamətinə çıxdı. Bu gün səhər dəmir yolu vasitəsi ilə 12 orta tank gətirildi. Hazırda Təbəriz silahlı düşərgəyə çevrilmişdir. Küçələr Sovetlərin işarəsi olan qırmızı ulduzlu əsgərlərlə doludur və Sovet texnikası, süvarisi, əsgər və zabiti hər an gözə dəyir. Sovetlər ancaq inqilab dövründə qorunması zəruri olan yerlərdə postlar qoyublar. Mənə bu barədə məlumat verməkdən imtina edirlər. Bütün baş verənlərdən ciddi şəkildə həyəcanlanan Təbrizdəki Amerika konsulu Dövlət Departamentinə xəbərdarlıq edirdi ki, Sovetlərə qarşı rəsmi tədbir görülməlidir (59).

R.Rossou sonralar yazırdı ki, bu dövr ərzində Sovet İttifaqından təxminən beş yüz tank və lazımi avadanlıq ilə birgə ehtiyat hissələrindən ibarət on beş ləriqada güney Azərbaycana gətirilmişdir. Bu qüvvələr aşağıdakı qaydada üç hücum və bir ehtiyat hissəsinə bölünmüşdü:

1. Xoyda yerləşən birinci qüvvə Türkiyənin sərhədlərində iki hücum istiqamətinə bölünmüşdü. Onlardan biri Maku, digəri isə Rizaiyyə istiqamətində yerləşərək Anadoluya gedən yolu və Van gölü ətrafını nəzarətə götürmüşdü.

2. İkinci qüvvə Miandoabda yerləşərək, Mosül və Kərkük neft yataqlarından cəmi yüz mil aralıda olub, İraq sərhədlərini nəzarətə götürmüşdü. Bunlar köməkçi Sayınqala və Saqqız qüvvələrinə yaxın idi.

3. Üçüncü qüvvə Tehran yolu üzərində cəmləşmişdi. Bu qüvvənin əsas dayağı olan Zəncan və Kərəcdən Tehrana cəmi 20 mil idi.

4. Ehtiyat qüvvələr Təbriz və Marağa Yaxınlığında yerləşdirilmişdir (60).

Orduların belə yerləşməsi haqqında məlumatlar Vaşinqtona verilən kimi dövlət katibi C.Birns SSRİ-yə münasibətdə əvvəlki tərəddüdlərə son qoydu və Sovetlərə qarşı qəti mövqe seçdi. Martın 7-də o, Azərbaycandan alınmış məlumatları müzakirə etmək üçün müavini D.Açeson və digər rəsmi şəxslərin iştirakı ilə Dövlət Departamentinin yüksək vəzifəli şəxslərinin iclasını çağırdı. İclas zalında Azərbaycanın müxtəlif hərbi xəttlərlə parçalanmış xəritəsi hamının diqqət mərkəzində idi. Xəritə üzərində çəkilmiş şərti xətlər belə təəssürat yaradırdı ki, Sovet qoşunları Türkiyə, İraq, Tehran və Cənubi İranın neft mədənlərinə doğru irəliləyir: Belə həyəcanlı vəziyyəti izah edən C.Birns əlini ovucuna vurub dedi: "İndi biz hər iki neft çəlləyini onlara verməli olacağıq" (61).

Ertəsi gün D.Açesonun rəhbərliyi ilə Dövlət Departamentindəki iclasda İran məsələsi ilə bağlı müzakirələr davam etdirildi. Müzakirələrin gedişində Sovetlər Birliyi üzrə ekspert Çarlz Bohlen bildirdi: "Nəzərə alsaq ki, Amerikanın İrandakı Sovet qoşununa təsir etmək imkanı yoxdur, Birləşmiş Ştatların o regionda heç bir qüvvəsi yoxdur, özümüzü müdafiə üçün rəqibimizi qorxutmaqdan başqa ayrı yolumuz qalmır". Onun əsaslandırmasına görə, ABŞ İranda Sovetlərə qarşı cəbhə açmaq durumunda deyildi. Amerikanın bu regionda yetərli ordu hissələri olmadığından Ç.Bohlen təklif edirdi ki, "boş hədə-qorxudan başqa özünümüdafiə üçün daha heç bir yaxşı vasitə yoxdur".(62) Ç.Bohlenin bu təklifi Ağ Ev idarəçiləri tərəfindən qəbul edildi. Martın 8-də dövlət katibi C.Birnsin SSRİ Xarici işlər komissarı V.Molotova göndərdiyi nota iki gün əvvəlki Amerika notası ilə müqayisədə xeyli dərəcədə sərt idi. Birləşmiş Ştatların 8 mart tarixli notasında deyilirdi: "Vaşinqton hökuməti Sovetlərin İrandakı hərəkətlərinə aid və Təbrizdən cənuba doğru İraq, Tehran və Türkiyə istiqamətində texnika və hərbi sursat daşıması barədə bir sıra məlumatlar əldə etmişdir". Notada göstərilirdi: "ABŞ bilmək istərdi ki, Sovetlər İrandan çıxmaq əvəzinə, nəyə görə ora əlavə qoşun hissələri göndərir?" ABŞ hökuməti 8 mart notasında Sovet rəhbərlərindən son bir həftə ərzində İran Azərbaycanında cərəyan edən hadisələrin səbəblərini açıqlamağı tələb edirdi (63).

İran Azərbaycanı ilə yanaşı, mart ayının əvvəllərində Sovetlərin Balkanlar istiqamətindən də Türkiyə sərhədlərinin yaxınlığına yeni hərbi hissələr topladığı, hərbi texnika və sursat daşıdığı barədə gizli məlumatlar alınmışdı. Məlumatda göstərilirdi ki, son iki həftə ərzində Bessarabiya-Dobruca dəmir yolu ilə Bolqarıstana rus qoşunları gətirilməsi davam edir. Hətta yük və qoşun daşımalarını sürətləndirmək üçün Bessarabiyadan Ploestiyə qədər olan dəmir yolunun ölçüləri Rusiya dəmir yollunun ölçülərinə uyğunlaşdırılmışdı. Kəşfiyyat məlumatlarında Sovetlərin Krayova və Pleoştidə böyük silah anbarları yerləşdirdikləri bildirilirdi. Digər bir məlumata görə, aprel ayının 1-nə kimi Buxarestdə olan bütün boş 60 xəstəxananın dərmanlarla və sarğılarla təmin olunması haqqında göstəriş verilmişdi və həmin tarixə qədər bütün sağalanların evlərinə buraxılması tapşırılmışdı. Bu məsələlərə toxunan ABŞ səfiri E.Vilson Dövlət katibinə yazırdı ki, yuxarıdakı məlumatlar və İrandakı Sovet qoşunlarının Türkiyə sərhədlərinə doğru hərəkəti onu göstərir ki, SSRİ Sovet maraqları baxımından məqsədəuyğun olduğu təqdirdə hər an Türkiyəyə hücum edə bilər. Sovet qoşunlarının hazırkı dislokasiyası SSRİ-nin bu məqsədə nail olmaq üçün güc tətbiq etməyə qərarlı olub-olmadığı sualını doğurur. E.Vilson yazırdı: "Məndə inam var idi ki, SSRİ açıq müharibə aparmağa risk etməyib, əvəzində Türkiyəyə qarşı təcavüzün digər metodlarına, məsələn Şərq vilayətlərindəki erməni və kürd "cəbhələrini" açmağa çalışacaq. E.Vilson belə hesab edirdi ki, Türkiyəyə qarşı müharibə yə başlamaq Sovetlərin Qərb demokratiyaları ilə əməkdaşlıq siyasətini pozmaq barədə əsaslı qərar qəbul etmələri demək olardı. Bu cür qərarın qəbul olunduğuna işarə olaraq son dövrdə həyata keçirilmiş qoşun yerdəyişmələrini və Moskvadakı xarici jurnalistlərin azaldılması tədbirlərini göstərmək olar. E.Vilson belə nəticəyə gəlirdi ki, son hərbi hazırlıqlar bir qədər məntiqsiz görünsə də, Rusiyanın 15 apreldən sonra istənilən vaxtda, yəni geniş əməliyyatlar üçün yolların kifayət qədər qurumasından sonra Türkiyəyə qarşı güc tətbiq etməsini istisna etmir (64).

Vəziyyətin son dərəcə gərgin bir mərhələyə daxil olduğu bu dövrdə Türkiyə tərəfindən Sovetlərə əlavə dəlillər verməmək üçün Baş nazir Ş.Saracoğlu mart ayının əvvəllərində jurnalistlərlə görüşündə onlara tövsiyə etdi ki, Rusiyaya qarşı münasibətdə səbrli və təmkinli olsunlar. Jurnalistlər Moskva radiosunun yenidən Türkiyəyə qarşı çıxış etdiyini qeyd edərək Baş nazirin tövsiyəsinə etiraz etdilər. Lakin Ş.Saracoğlu istənilən halda qəzetləri Rusiya əleyhinə kampaniyadan çəkinməyə çağırdı. Eyni zamanda o, əlavə etdi ki, Çörçill və başqaları vəziyyətə nəzarət edir. Baş nazir sakitliyin Türkiyənin xeyrinə olacağını xüsusi şəkildə vurğuladı.

Məlum olduğu kimi hələ Potsdam konfransında və ondan sonrakı görüşlırdə Sovet rəhbərləri məsələni belə qoyurdular ki, onların Türki-

yəyə qarşı elə bir iddiaları yoxdur. Lakin Türkiyə ittifaq müqaviləsi xahişi ilə SSRİ xarici işlər komissarına və digər səlahiyyətli orqanlara müraciət etdiyi üçün V.Molotov guya ittifaq müqaviləsinin imzalanmasına əvəz olaraq Şərq vilayətləri, Qars və Ərdahanın qaytarılması Boğazlarda hərbi baza yaradılması, Bosfor və Dardanelldə birgə nəzarət edilməsi tələblərini irəli sürmüşdür. 1946-cı ilin mart ayında jurnalistlərlə görüş keçirən ABŞ-ın dövlət katibi C.Birns yenidən bu məsələyə aydınlıq gətirdi. Əvvəllər istər prezident H.Trümen, istərsə də Dövlət katibi C.Birns Potsdam konfransında Qars və Ərdahan məsələsinə toxunulmadığını bildirsələr də, mart ayında jurnalistlərin suallarını cavablandırarkən belə bir məsələnin müzakirə edildiyini etiraf etdilər. O dedi: "Rusiyanın xarici işlər naziri bəyan etdi ki, Sovet hökuməti Türkiyədən heç nə tələb etmir, o, yalnız Türkiyəyə təklif edir ki, Rusiya ilə ittifaq müqaviləsi imzalasın və bu müqavilənin əvəzi kimi Şərq sərhədlərinin dəyişdirilməsi məsələsini irəli sürüb. Onda Molotov əlavə etdi ki, bu məsələ Türkiyənin təşəbbüsü ilə qaldırılıb" (65).

C.Birnsin də bir qədər iki mənalı qiymətləndirdiyi ləğv edilmiş 1925-ci il müqaviləsinin yerinə Türkiyənin ittifaq müqaviləsi bağlamaq təklifindən SSRİ öz maraqlarına uyğun ehtikarlıq məqsədilə istifadə etdiyi üçün Türkiyə rəsmiləri artıq nəinki 1945-ci ilin iyununda Molotov-Sarper danışıqlarında irəli sürülmüş ittifaq müqaviləsi ideyasından geri çəkilir, bütövlükdə bunu inkar edir və hər hansı yeni təşəbbüs göstərməyə ehtiyatla yanaşırdı. Sovet səfirinin istər öz əlaltıları vasitəsi ilə və istərsə də birbaşa danışıqlar yolu ilə Türkiyəni hərəkətə gətirmək cəhdləri elə bir nəticə vermədi. Bu səbəbdən 1946-cı ilin mart ayının 9-da Baş nazir Ş.Saracoğlu ilə Sovet səfiri S.Vinoqradovun görüşü son dərəcə gərgin şəraitdə keçdi. Baş nazir aydın şəkildə ifadə etdi ki, Türkiyənin itaətkarcasına Sovet təhlükəsizlik sisteminə daxil edilməsi ilə razılaşacağını gözləmək əbəsdir. Ş.Saracoğlu bəyan etdi ki, o, jurnalistləri toplayıb onlara demək istəyir ki, Türkiyə ittifaq müqaviləsi bağlamaq haqqında təkliflə Sovet İttifaqına müraciət etməyib. Bu, Molotov tərəfindən quraşdırılmış əfsanədir. Sovet səfiri cavabında bildirdi ki, o, da mətbuat qarşısında çıxış edib faktlarla sübut edəcək ki, Türkiyə hökumətinin başçısı doğru danışmır. Belə gərgin qarşıdurmadan sonra Ş.Saracoğlu dedi ki, o, indi xatırladı ki, Sarper ittifaq müqaviləsi haqqında deyil, yalnız sıx xarakterli saziş haqqında danışıb. Öz növbəsində Baş nazir bir daha təsdiq etdi ki, onun ölkəsi əvvəlki dostluğu bərpa etməyə hazırdır. S.Vinoqradov Moskvaya göndərdiyi məlumatda yazırdı ki, Ş.Saracoğlu dəqiqləşdirmədi ki, dostluğu hansı formada, ittifaq müqaviləsi çərçivəsində, yoxsa sıx xarakterli saziş çərçivəsində bərpa etməyə hazırdır. Baş nazir birmənalı formada Sovet səfirinə bildirdi: "Nə qədər ki, o, sağdır, Molotovun danışıqlar üçün əsas kimi irəli sürdüyü ərazi və boğazlar məsələsindən

söhbət gedə bilməz". Ş.Saracoğlu Sovet İttifaqının xarici siyasətini kəskin şəkildə tənqid edərək S.Vinoqradova dedi: "Siz ədalətdən imtina etmisiniz. İndi Siz gücləndikdən sonra çarın siyasətinə qayıtmısınız və imperialist siyasət yeritməyə başlamısınız" (66).

Sovet İttifaqının təcavüzkarlığa dayanan imperialist siyasət yeritməsi tək Türkiyə və Britaniya siyasi dairələrinin dilindən deyil, dünyada nüfuzlu sayılan bir sıra siyasətçi və diplomatların dilindən də səslənməyə başlamışdı. Tanınmış Fransa diplomatı Andre Fransua-Ponse 1946-cı ilin mart ayında "Fiqaro" qəzetindəki yazısında Sovetlərin Türkiyəyə münasibətdə təcavüzkar xarakterdə olan siyasətini kəskin şəkildə tənqid etmişdi. Fransua-Ponse belə hesab edirdi ki, Sovet İttifaqının Qars və Ərdahanı ələ keçirməyi tələb etməsi, onun Aralıq dənizi hövzəsində ağalıq etmək cəhdlərinin bir hissəsidir. Fransua-Ponse kimi nüfuzlu bir diplomatın fikirlərinin ictimai rəyə təsir imkanlarını nəzərə alaraq Sovet İttifaqının müvafiq dairələrinin diktəsi ilə işləyən Fransa kommunist partiyasının "Humanite" qəzeti 1946-cı ilitı mart ayının 20-də ona cavab olaraq Jak Menyenin yazısını dərc etdi. "Humanite" yazırdı ki, həqiqətən Qars və Ərdahan məsələləri aktualdır. Lakin burada SSRİ-nin heç bir işğalçılıq cəhdləri yoxdur. Axı heç bir fransızın ağlına belə gəlməz ki, Elzas və Lotaringiyaya münasibətdə onların ana vətənə qaytarılması əvəzinə "ələ keçirilməsi" və ya "birləşdirilməsi" ifadəsindən istifadə etsin. Çox görkəmli diplomat kimi cənab Andre Fransua-Ponse bilməmiş deyildir ki, Qars və Ərdahan vilayətləri birincisi Ermənistanın, ikincisi Gürcüstanın ayrılmaz tərkib hissəsidir. Daha sonra "Humanite" Sovetlərdən verilən materiallar əsasında guya türklərin keçmişdə onlara qarşı talançılıq siyasəti yeritməsi barədə qısa məlumatlar dərc edir və "kiçik xalqların müdafiəçilərini" bu tarixi və etnoqrafik faktlara göz yummaqda günahlandırılırdı (67). "Humanite"dən başqa Fransanın müxtəlif şəhərlərində çıxan, digər kommunist mətbuatı da SSRİ-nin Qars və Ərdahana, habelə Boğazlara olan tələblərini müdafiə edirdilər.

Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin xarici kommunist partiyalara göstərdiyi gizli maliyyə yardımları ilə bağlı son dərəcə məxfi qrifi altında saxlanılan sənədlər açıldıqdan sonra aydın oldu ki, İkinci Dünya müharibəsi başa çatdıqdan sonrakı ilk illərdə M.Suslov tərəfindən M.Torezə və Fransa Kommunist Partiyasına çatdırmaq üçün Jak Menyeyə 508 850 Amerika dolları, 6 milyon fransız frankı məbləğində pul verilmişdir. Jak Menyenin "Humanite" qəzetində SSRİ-nin Türkiyəyə qarşı ərazi tələblərini, ermənilərin iddialarını müdafiə edən yazıda və digər kommunist mətbuatında dərc edilən bu tipli yazılarda Sovet İttifaqı Kommunist Partiyasından alınan gizli maliyyə yardımlarının izləri açıqca hiss edilirdi (68).

1946-cı ilin fevral ayında ABŞ Dövlət Departamentinin hazırladığı informasiya bülletenində də Türkiyə ilə bağlı məsələlərə geniş yer

verilmişdi. Hələ fevral ayının 27-də Dövlət katibi C.Birns Ankaradakı səfir E.Vilsona gizli məktubunda informasiya bülleteninin Türkiyə ilə bağlı hissəsinə şərh verməyi xahiş etmişdi. Lakin bu məktub və ona əlavə edilən bülleten çox gec, yalnız mart ayının 18-də gəlib səfirə yetişmişdi.Səfir E.Vilson informasiya bülletenində Sovetlərin Türkiyəyə münasibətdə yeritdiyi siyasətin şərhi ilə razı olmadığını bildirirdi. Bir çoxlarından fərqli olaraq E.Vilson nə Boğazlarda baza yaratmaq, nə də Şərq vilayətlərinə qarşı ərazi tələblərini Sovetlərin əsas məqsədi kimi qəbul etmirdi. Əvvəllər də o, bir neçə dəfə Dövlət Departamentinə bildirmişdi ki, İkinci Dünya müharibəsi illərində hərbi hava qüvvələrinin inkişafı Boğazlarda baza yaratmağın əhəmiyyətini azaltmışdır. E.Vilson Dövlət katibinə yazırdı: "Sovetin Türkiyə ilə bağlı real məqsədi Boğazlardakı rejimin yenidən gözdən keçirilməsi deyil, Türkiyə üzərində faktiki dominantlıqdır. Sovet ittifaqının Baltik dənizindən Qara dənizə kimi vassal ölkələrdən təşkil olunmuş təhlükəsizlik zonasında Türkiyə böyük bir boşluq yaradır. Türkiyə müstəqil xarici siyasət yeridir, məsləhət və kömək üçün əsasən Qərb demokratiyasına bel bağlayır. Sovet İttifaqı isa buna göz yummaq istəmir. Buna görə də Sovetin məqsədi hazırkı müstəqil Türkiyə hökumətini dağıtmaq və onun əvəzində Türkiyədə vassal və ya "dost" rejim yaratmaqdır ki, bunun da nəticəsində Rusiyanın Qərb və cənub sərhədlərində yerləşən asılı ölkələrdən ibarət təhlükəsizlik zənciri tamamlanacaq və Türkiyədə Qərb təsirinə tamamilə son qoyulacaq. Bu məqsədə nail olunması, yeri gəlmişkən, Boğazlardakı faktiki nəzarəti Rusiyaya verəcək, lakin bu, əvvəl də qeyd olunduğu kimi, Sovetin əsas məqsədi deyil. Əgər, SSRİ-nin Türkiyə ilə bağlı əsas məqsədi doğrudan da Boğazlardakı rejimin yenidən gözdən keçirilməsi olsaydı, Sovet İttifaqının bizim Montrö Konvensiyasına yenidən baxılma barədə 2 noyabr 1945-ci il tarixli təklifimizin prinsiplərini qəbul etdiyini bildirməsi kifayət edərdi. Bizim Qara dəniz dövlətlərinə Boğazlarda güzəştli mövqelər təmin edən təklifimizdə Rusiyanın arzuladığı və hələ Böyük Pyotr dövründən bəri mübarizə apardığı məsələlər öz əksini tapıb. Sovet İttifaqının Potsdamda əldə olunmuş prosedura riayət etməkdən imtina etməsi, Montrö Konvensiyasının yenidən gözdən keçirilməsi ilə bağlı təkliflərini Türkiyə Hökumətinə təqdim etməkdən boyun qaçırması, bunun əvəzində isə Boğazlardakı bazalar barəsində "müsbət təminat" tələb etməsi kimi faktlar aydın göstərir ki, Boğazlardakı gediş-gəlişə nəzarət haqqında beynəlxalq konvensiyaya yenidən baxılması SSRİ üçün çox kiçik əhəmiyyət kəsb edir. Türkiyəyə təzyiq göstərilməsi, habelə Boğazlarda Sovetlərə bazaların verilməsi, Türkiyənin müstəqilliyinin itməsinə bərabər olardı və Türkiyəni Sovet İttifaqına münasibətdə Bolqarıstan, Rumıniya, Polşa və s. kimi ölkələrin vəziyyətinə qoyardı".

ABŞ-ın Türkiyəyə dəstəyi necə olmalıdır? Səfir E.Vilson bunu belə təsəvvür edirdi: "Görünür, biz Türkiyəni BMT çərçivəsində və BMT vasitə-

silə bir hal istisna olmaqla bütün hallarda dəstəkləyəcəyik; Sovet ittifaqı tərəfindən silahlı müdaxilə olduğu halda, Sovetin veto hüququndan istifadəsi BMT-nin hər hansı hüquqi müdaxiləsinə mane ola bilər. Bəs onda biz nə etməliyik? Bizim buna hazır cavabımız olsa da, bu tam məxfidir" (69).

Hadisələrin gərginləşdiyi və Sovetlərin hərbi hazırlıq tədbirlərinin əməli xarakter aldığı mart ayında Britaniya xarici işlər nazirinin müşaviri Mak Neyl belə bir bəyanatla çıxış etdi ki, Türkiyəyə münasibətdə İngiltərə ittifaq müqaviləsi üzrə onun üzərinə düşən öhdəlikləri yerinə yetirəcəkdir. Belə bir bəyanatın elan edilməsi Britaniyanın dostluğa sədaqəti və ittifaq müqaviləsinə sayğısı kimi qiymətləndirilirdi. İstər E.Bevinin çıxışı və istərsə də onun müşaviri Mak Neylin bəyanatı ingilis yardımına türk ictimai fikrində azacıq olsun belə şübhə yeri qoymadı.

Mart ayının ortalarında bir sıra mətbuat orqanlarında ABŞ Dövlət Departamentinin Türkiyənin və İranın ərazi bütövlüyünə və müstəqilliyinə təminat verməsi barədə məlumatlar yayılmağa başladı. Düzdür, ABŞ hər şeyi BMT çərçivəsinə keçirir və Birləşmiş Millətlərin nizamnaməsinin prinsiplərinə zidd xarici təcavüz olduğu təqdirdə İran və Türkiyəni dəstəkləyəcəyi barədə bu iki ölkəyə təminat verirdi. Bununla belə, ABŞ-ın bu addımı türk və dünya ictimai rəyində Türkiyəyə və İrana cəsarət verilməsi kimi baxılırdı. İctimai rəydə getdikcə belə bir fikir formalaşırdı ki, Amerika dünyada baş verən hadisələrin sadəcə tamaşaçısı olmayacaq, BMT-nin qərarlarını Təhlükəsizlik Şurasının köməyi və öz qüvvəsi ilə həyata keçirəcəkdir (70).

Mart ayının böhranlı keçən birinci həftəsindən sonra "Nyu-York Tayms" qəzeti Türkiyə ilə bağlı yazırdı: "Vaşinqtonda belə hesab edirlər ki, Türkiyəyə qarşı Sovetlərin ərazi tələbləri daha ciddi məsələdir, nəinki hər hansı bir digər məsələ, belə ki, bu ərazilərin tutulma cəhdi müharibəyə səbəb ola bilər" (71). Mətbuat səhifələrində belə yazıların getməsi, diplomatik kanallarla alman məxfi məlumatlar və kəşfiyyat materialları prezident H.Trümenin Türkiyəyə münasibətdə fikrini tam formalaşdırdı. Nəhayət, ABŞ prezidenti bildirdi ki, SSRİ ilə Türkiyənin sərhədlərini o, ABŞ-la sərhədlər hesab edir. Lakin hələ həmin dövrdə ABŞ regionda hərbi-strateji üstünlüklərə malik deyildi. Mart ayının 13-də Dövlət Departamenti Türkiyəyə qarşı Sovet tələblərinin ödənilməsinin mümkün nəticələri haqqında birmənalı formada belə qənaətə gəldi ki, Britaniya imperiyasının məğlubiyyəti və dezinteqrasiyası Avroasiyada Birləşmiş Ştatların Sovet ekspansiyasına qarşı müqavimətinin sonuncu dayağını aradan qaldırır. Bundan sonra ABŞ-ın və onun ehtimal olunan müttəfiqlərinin hərbi potensialı ümumi ideologiya baxımından Sovet ittifaqının genişlənmək potensialından az görünür (72).

1946-cı ilin mart ayının 24-də təkcə İrana münasibətdə deyil, bütövlükdə axın Şərq ölkələrinə münasibətdə hadisələrin dönüş məqamı oldu. İrandan

Sovet qoşunlarının çıxarılması ilə bağlı hadisələr mart ayının ikinci yarısında Vaşinqtonda və BMT iqamətgahının yeni yerləşdiyi Nyu-Yorkda dramatik xarakter almışdı. Mart ayının 24-də İ.Stalin və Sovet ordusunun baş qərargah rəisi A.Antonov SSRİ qoşunlarının İrandan çıxarılması barədə əmri imzaladılar (73). Bir çoxları bunu prezident H.Trümenin İ.Stalinə martın 21-i, yaxud 23-də göndərdiyi və bu günə qədər tapılmayan ultimatumu ilə əlaqələndirirlər. Bir başqaları isə Sovetlərin bu gözlənilməz qərarında Ağ Evin atom şantajının mühüm rol oynadığını önə çəkirlər. Hər halda ABŞ və Britaniyanın təzyiqləri qarşısında Sovet İttifaqı artıq başlanmış soyuq müharibənin ilk qarşıdurmasında geri çəkildi (74).

Əslində İran və Türkiyəyə qarşı İ.Stalinin kobud-güc taktikasının xeyirli olmadığını SSRİ Xarici İşlər Nazirliyində də başa düşürdülər. Belə ki, M.Litvinov Moskvaya yeni təyin edilmiş ABŞ səfiri U.Smitlə 10 aprel 1946-cı il tarixli söhbəti haqqında SSRİ Xarici İşlər Nazirliyinin rəhbərliyinə yazırdı: "Amerikalılar getdikcə özlərindən daha çox soruşurlar ki, SSRİ-nin məqsədləri nədir və o nə qədər uzağa getməyə cəhd göstərir. Onun hərəkətlərində çoxlu müəmmalar vardır ki, bu da həyəcan yaradır. Səfir hərbçi kimi tamamilə başa düşür ki, qonşu ölkələrdə bizə dost hökumətlər lazımdır, bizə neft lazımdır və biz İran neftinə münasibətdə İngiltərə və ABŞ-dan az hüquqa malik deyilik. Bizim məqsədlər bəyənilə bilər, lakin bizim metodlar mühakimə edilir. Biz İran neftini müqavilənin pozulması, daxili işlərə müdaxilə etmək və s. güclü vasitələrə əl atmadan da əldə edə bilərik". Səfirlə söhbətdən sonra M.Litvinov yazırdı: "İki yol vardır: ya bizim ölkələr bir-birlərini başa düşüb əməkdaşlıq edəcəklər, ya da sürətlə silahlanmaya, daimi münaqişələrə və mümkündür ki, daha ağır nəticələrə rəvac verən Qərb-şərq bölgüsü olacaqdır. Amerikalılar bu ikinci yoldan qaçmaq istəyirlər, lakin onlar bunu bizim yardımımız olmadan edə bilməzlər" (75).

Moskvaya yeni təyin edilmiş ABŞ səfiri U.Smitlə buna bənzər məzmunda olan başqa bir söhbət barədə məlumatı mart ayının 28-də Almaniyadakı Sovet hərbi administrasiyasının baş rəisi V.D.Sokolovski və administrasiyanın siyasi müşaviri vəzifəsini icra edən V.S.Semyonov da Sovet rəhbərliyinə göndərmişdilər. Yeni səfir vaxtilə Almaniyadakı Amerika işğal ordusunun qərargah rəisi olduğundan Sovet hərbçiləri ilə daha açıq söhbət etmişdi. O, Sovet İttifaqına yollanarkən H.Trümenlə olan söhbəti barədə bildirmişdi ki, prezident məndən xahiş edib Moskvaya çatdırım ki, hətta Moskvanın Birləşmiş Ştatların maraqlarını nəzərə ala biləcəyindən daha artıq dərəcədə ABŞ SSRİ-nin maraqlarını nəzərə almağa hazırdır. Lakin Trümen istəyir ki, SSRİ öz təhlükəsizliyini təmin etmək planlarını ABŞ-ı "sancmaqla" həyata keçirməsin.

U.Smit İ.Stalinin və digər Sovet rəhbərlərinin seçkiqabağı çıxışlarında ziddiyyətlərin ideoloji məqamlarına üstünlük verilməsindən Amerika cə-

miyyətinin ciddi narahatçılıq keçirdiyini bildirir, ABŞ-ın daxili borcları azaltmaq üçün ordunu tərxis etdiyi, xarici ölkələrdən öz qoşunlarını çıxartdığı və Sovetlərlə əməkdaşlığa hazır olduğu bir şəraitdə SSRİ-nin nədən ehtiyatlandığını başa düşmədiyini qeyd edirdi. Səfirin fikrincə, Sovetlərin hərbi hazırlığa çağırışının məntiqi Amerika ictimaiyyətinə tamamilə aydın deyildi. Eyni zamanda İranda, Türkiyədə və digər ölkələrdə məlum ağırlaşmalar da buna əlavə olunmuşdur. Bütün bunlar Amerika cəmiyyətində həyəcan hissi və ABŞ-ın böyük ümid bəslədiyi BMT-nin uğurlarına qeyri-əminlik yaratmışdır (76). Berlindən U.Smitlə bu söhbətin gizli mətni alınan kimi həmin sənəd çoxaldılıb İ.Stalin L.Beriya, Q.Malenkov, A.Mikoyan, A.Jdanov, A.Vışinski, V.Dekanozov arasında paylanmışdı.

Sovet qoşunlarının İrandan çıxması barədə məlumat elan edildikdən sonra beynəlxalq aləmdə ən sensasiyalı hadisə ABŞ-ın "Missuri" hərbi gəmisinin aprel ayının 6-da İstanbula səfəri oldu. Bu səfərə hazırlıq tədbirləri bir ay əvvəl 1946-cı ilin mart ayının 6-da başlamışdı və beynəlxalq vəziyyətin böhranlı mərhələyə daxil olduğu, Türkiyənin hər iki tərəfdən sıxıldığı mart ayının 21-də "Missuri" Nyu-Yorkdan İstanbula doğru istiqamət götürmüşdü. Səfərdə rəsmən elan olunan məqsəd müharibə dövründə, 1944-cü ilin noyabr ayının 11-də Vaşinqtonda vəfat etmiş keçmiş türk səfiri Mehmet Münir Ertegünün cənazəsini Türkiyəyə gətirmək olsa da, "Missuri"nin İstanbula gəlişinin əsas qayəsi Sovet təzyiqlərinə məruz qalmış Ankaraya öz dəstəyini nümayiş etdirmək idi. "Missuri" gəmisində prezident Trümenin şəxsi nümayəndəsi Uendell də bir qrup Amerika jurnalisti ilə birlikdə Türkiyəyə gəlmişdi. Türkiyədəki Sovet səfirliyi belə hesab edirdi ki, Türkiyə hökuməti özü amerikanlarda yaxşı təəssürat yaratmaq üçün bu hadisə ilə bağlı geniş hay-küy qaldırmağa cəhd göstərir, bir sıra qəzetlərin yazdığı kimi, İstanbulun Fateh dövründən bəri qalan çirkabını təmizlətdirməyə göstəriş verir, "Missuri"nin şərəfinə markalar buraxır, gəmidə gələn yüksək çinli zabitlərə hədiyyələr paylayırdı. Lakin Sovet səfirliyinin qeyd edilən şərhinə baxmayaraq bütün İstanbul sevinc içərisində idi. "Missuri"nin gəlişi bütün ölkədə böyük coşqu yaratmışdı. Türklərin Amerika zirehli gəmisinin İstanbul sularına lövbər salmasına belə böyük sayğı göstərilməsi Sovet təhdidinə qarşı ABŞ-ın simasında güclü bir müttəfiq tapdıqlarını hiss etmələri ilə bağlı idi. Prezident İ.İnönü "Missuri"nin ziyarətini türk-amerikan dostluğunun yeni və parlaq nümayişi kimi dəyərləndirir, iki ölkə arasında qarşılıqlı dostluq və təhlükəsizliyin güclənməsini yüksək qiymətləndirirdi. Türkiyə əsl həqiqətdə bu hadisəni onların amerikanlar tərəfindən müdafiə olunması və SSRİ-yə qarşı yönəlmiş siyasi nümayiş faktı kimi qəbul edirdi. Türk qəzetləri yazırdılar ki, "Missuri" və "Yavuz" gəmilərindən atılan top atəşləri əgər dost ölkələrdə sevinc yaradırsa,

əksinə bizim düşmənlərimizdə qüssə və qəmginlik doğurur. Lakin onlar gücsüzdürlər, belə ki, türk-amerikan dostluğu Türkiyəyə hücum üçün məqam gözləyənləri daha artıq düşünməyə məcbur etmişdir.

"Missuri" gəmisində gələn jurnalistləri Ankarada Baş nazir Ş.Saracoğlu qəbul etdi. Söhbət zamanı o, bildirdi ki, türklər Birləşmiş Ştatlar tərəfindən dost adlandırılmağa layiqdirlər, bunu onlar İkinci Dünya müharibəsi dövründə müttəfiqlərə sədaqətli siyasətləri ilə qazanıblar. Sovetlərə Boğazlarda hərbi baza verilməsi, Qars, Ərdahan və Artvinin qaytarılması ilə bağlı SSRİ-nin tələblərinə Türkiyənin mövqeyi haqqında Amerika jurnalistlərinin sualına Baş nazir Ş.Saracoğlu cavab verdi ki, ABŞ Türkiyəni istənilən təcavüzə qarşı müdafiə etməyə hazırdır (77). "Missuri" gəmisinin səfəri ilə bağlı Ankaradakı səfir E.Vilson aprel ayının 12-də Dövlət katibinə göndərdiyi hesabatda yazırdı: "Bu hadisə bəlkə də xarici ölkə hökuməti və xalq tərəfindən ABŞ dənizçilərinə və onlarla birlikdə gələn şəxslərə göstərilmiş ən yaddaqalan dostluğun təzahürü idi. Bu dostluq nümayişini ABŞ-ın xarici siyasətində baş verən son yeniliklərin türk hökuməti və xalqında yaratdığı ümidlə izah etmək olar ki, "Missuri"nin səfəri də bunun bariz nümunəsidir. Türklər belə başa düşürlər ki, ABŞ hökuməti regiondakı maraqlarında SSRİ-nin Türkiyənin müstəqilliyini zəiflətmək və ərazi bütövlüyünü təhlükə altına almaqdan ibarət olan istənilən cəhdinə mane olmağı müəyyənləşdirib. Belə ki, əgər SSRİ-yə Türkiyənin müstəqilliyini ləğv etməyə və əvəzində "dost" rejim qurmağa imkan veribsə, Sovetlərin Süveyş kanalına çıxmasına heç nə mane ola bilməz və bu baş verdiyi təqdirdə başqa bir münaqişənin yaranması qaçılmaz olacaqdır". E.Vilson sözünü belə yekunlaşdırırdı: "Missuri"nin səfərini o qədər də gözə çarpmayan, lakin təsiri baş verdiyi yerdən çox uzaqlara gedən bir hadisə kimi xarakterizə etmək olar (78).

Aprel ayının sonlarında Xarici İşlər Nazirləri Şurasının iclasında iştirak etmək üçün Parisə gələn Dövlət katibi C.Birns Fransadakı türk səfiri N.Menemençioğluna bildirmişdi ki, ABŞ türk hökumətinin "Missuri"nin İstanbula ziyarətini quru bir jest kimi düşünməsini istəməzdi. Bu, həqiqətdə qərarlı olan siyasətin bir hissəsi idi. Amerika hökuməti indi Türkiyənin mövqeyinin önəmli olmasının daha çox fərqindədir. C.Birns bildirmişdi ki, ABŞ əvvəllər Türkiyə və onun problemləri haqqında çox şeyləri bilirdi, lakin indi ABŞ Türkiyə haqqında daha çox şey bilir, bu ölkənin problemləri ilə daha çox maraqlanır. Dövlət katibi ABŞ-ın Türkiyə ilə səmimi və real dostluq münasibətlərinə malik olduğunu vurğulamışdı (79).

"Missuri" hərbi gəmisinin Boğazlara səfəri, ABŞ-ın Türkiyəni birmənalı müdafiə etməsi və bunu açıq nümayiş etdirməsi, onun Yaxın Şərqdə möhkəmlənməyə qərar verməsi Sovetlər üçün gözlənilməz deyildi. Bu

hadisəni ABŞ-dakı Sovet səfiri N.V.Novikov çox açıq şəkildə "Sovet İttifaqına qarşı hərbi-siyasi nümayiş" kimi xarakterizə edirdi (80). Lakin məsələnin belə xarakter alması Sovet rəhbərliyini ağır seçim qarşısında qoyurdu. Onlar ya Türkiyə hökumətinin dedikləri ilə razılaşıb ərazi və bazalar haqqında tələbləri gündəlikdən çıxarmalı idilər, ya da öz tələblərini saxlayıb Türkiyəyə maksimum ağır təzyiqlər göstərməklə onların həyata keçirilməsinə nail olmalı idilər. Bunların hər ikisi SSRİ üçün sürətli dəyişən dünyada çətin bir problemə çevrilmişdi. Xüsusilə, Yaxın Şərqdə Britaniya imperiyasının zəifləməsi və əvvəllər onunla nüfuz dairəsi uğrunda olan qarşıdurmanın tədricən ABŞ-la qarşıdurmaya çevrilməsi Boğazlar məsələsinin SSRİ üçün əhəmiyyətini daha da artırmışdı. Rus alimi N.Koçkin haqlı olaraq yazır: "Tamamilə mümkün idi ki, Amerika demarşı Kremli öz simasını itirməmək üçün güzəştə getməməyə məcbur etsin (81). Buna görə də Sovet İttifaqı istər diplomatik kanallarla və istərsə də kütləvi informasiya vasitələri ilə Şərq vilayətlərinə ərazi tələblərini, Boğazlarda baza almaq istəklərini gerçəkləşdirmək üçün Türkiyəyə təzyiqləri daha ağır formada gücləndirmək siyasətinə üstünlük verirdi. 1946-cı ilin mayında Sovet rəhbərləri ilə görüşən Moskvadakı Britaniya səfiri M.Peterson buna yol verməmək istiqamətdə müəyyən addımlar atsa da, onun bu səyləri elə bir nəticə vermədi. M.Peterson qeyd edirdi ki, İngiltərə Sovet-Türk münasibətlərinin yaxşılaşmasını arzulayır, öz növbəsində türklər də Sovet İttifaqı ilə dostluğa can atırlar. SSRİ-nin Boğazlardan sərbəst çıxışına və dönüşünə gəldikdə isə M.Peterson bunun təminatını maraqlı ölkələr tərəfindən imzalanan müqavilədə və BMT-nin fəaliyyətində görürdü. Səfirə görə əgər Sovet İttifaqı daha əhəmiyyətli təminat istəyirdisə, o İngiltərə nümunəsində türklərlə ittifaq müqaviləsi bağlayib onlarla dostluq münasibətləri qura bilərdi (82). Britaniya səfiri ilə görüş zamanı İ.Stalin V.Molotovdan fərqli olaraq Türkiyə haqqında məxsusi danışmasa da, Rusiya gəmilərinin Qara dənizdə sərbəst hərəkətinin onlar üçün vacibliyini qeyd etdi. M.Peterson Potsdam konfransının Montrö konvensiyasına yenidən baxılması haqda razılaşmasını xatırlatdıqda İ.Stalin bildirdi ki, Rusiyanın Aralıq dənizində hər hansı bir bazaya malik olmadığı halda Boğazlardan sərbəst gediş-gəlişin o qədər də əhəmiyyəti yoxdur (83).

Sovet təzyiqlərinin güclənməsi fonunda Türkiyə hökuməti də geri çəkilmək fikrində deyildi. Prezident İ.İnönü, Baş nazir Ş.Saracoğlu, xarici işlər naziri H.Saka və nazirliyin Baş katibi F.C.Erkin, habelə digər rəsmi Şəxslər Sovetlər tərəfindən həyata keçirilən hər hansı tələb və təzyiqə qarşı direniş göstəriləcəyini açıq ifadə edirdilər.

Xarici işlər naziri H.Saka aprel ayının ortalarında Amerika jurnalistləri ilə keçirdiyi mətbuat konfransında Sovetlərin ərazi və bazalar tələbi ilə bağlı bir sıra məsələlərə aydınlıq gətirmişdi. Montrö kon-

vensiyasının dəyişdirilməsinə dair sualı cavablandırarkən H.Saka qeyd etdi ki, bu məsələdə ABŞ, İngiltərə və Türkiyə eyni mövqeyə malikdir və o, maraqlı tərəflərin hamısının Boğazlar məsələsinə aid konfransda təmsil olunmasının zəruriliyini bildirdi. H.Saka belə bir konfransın çağırılması vaxtının müəyyən edilməsinin böyük dövlətlərin qərarından asılı olduğunu vurğuladı. Amerika jurnalistinin sualına cavab olaraq Türkiyə xarici işlər naziri dedi ki, Sovet Rusiyası maraqlı ölkə kimi konfransda iştirak edəcəkdir, lakin bu vaxta qədər SSRİ müzakirə edilən məsələyə münasibətini açıqlamayıb və bu barədə Türkiyə ilə Sovet İttifaqı arasında fikir mübadiləsi olmayıb. Boğazlarda hər hansı bir beynəlxalq statusun qurulması və Türkiyənin Boğazlar üzərində öz hüququnu beynəlxalq komissiyaya verib-verməyəcəyi ilə bağlı məsələyə öz münasibətini bildirən H.Saka birmənalı şəkildə qeyd etdi ki, Türkiyə Boğazlar üzərində öz hüququnun kiçicik bir hissəsindən də heç vaxt imtina etməyəcək və hər hansı xarici nəzarətlə heç vaxt razılaşmayacaqdır.

Qars və Ərdahana qarşı Sovet tələbləri ilə bağlı H.Saka qeyd etdi ki, bu barədə şayiələr dolanır, rəsmi qaydada hər hansı tələb Türkiyəyə təqdim olunmayıb. Moskva radiosunu rəsmi orqan kimi sayıb-saymamaqla bağlı sorğuya cavab olaraq Saka bildirdi ki, Türkiyə Moskva radiosunu rəsmi orqan saymır və onun dediklərini Sovet hökumətinin rəsmi mövqeyi kimi qəbul etmir.

Amerika jurnalistləri daha çox Türkiyənin hər iki cinahında, xüsusilə Qars və Ərdahan sərhədləri boyunca Sovetlərin hərbi hazırlıq tədbirlərinə Türkiyənin münasibəti ilə maraqlanırdılar. H.Saka bu məsələyə təmkinli münasibət ifadə edərək qəzetlərdə zaman-zaman Sovetlərin hərbi hazırlıq tədbirləri ilə bağlı məlumatlar getdiyini, lakin Türkiyə sərhədlərində ordu toplanması barədə rəsmi dairələrində elə bir məlumatın olmadığını, ümumilikdə Türkiyənin Qars və Ərdahan probleminin olmadığını bildirdi. Jurnalistlər Türkiyə məsələsi ilə İran məsələsi arasında hər hansı müqayisə aparmağın mümkünlüyünə toxunduqda H.Saka qeyd etdi ki, Türkiyənin Təhlükəsizlik Şurasına müraciət etməsi üçün elə bir əsas yoxdur, çünki Türkiyəyə qarşı heç bir rəsmi tələb irəli sürülməyib. Əgər yeni bir situasiya yaranarsa, onda biz hansı addımları atmağımız barədə fikirləşə bilərik. Ən nəhayət, Amerika jurnalistləri Rusiyanın Tripolitaniyaya və Dodekanez adalarına mandatlarının ona verilməsi tələbinə Aralıq dənızı dövləti kimi Türkiyənin münasibətini bilmək istədikdə, H.Saka cavab verdi ki, Rusiyanın belə bir iddiaları haqqında rəsmi müraciəti yoxdur, lakin əgər Rusiya belə bir arzusunun olduğunu bildirsə, Aralıq dənizi dövləti kimi Türkiyə onunla eyni tərəfdə olan dövlətlərin mövqeyinə uyğun siyasət yeridəcəkdir (84). Bu o demək idi ki, Rusiyanın Tripolitaniyaya və Dodekanez adalarına rəsmi tələblərinə münasibətdə Britaniya hökuməti hansı mövqe tutacaqdısa, Türkiyə də həmin mövqedən çıxış edəcəkdi.

H.Sakanın Amerika jurnalistləri ilə keçirdiyi mətbuat konfransının tam mətni Ankaradakı Sovet səfirliyi tərəfindən rus dilinə tərcümə edilib SSRİ xarici işlər nazirinin müavini V.Dekanozova göndərilmişdi.

1946-cı ilin baharında Millətlər Cəmiyyətinin rəsmən ləğv edilməsi ilə bağlı Cenevrədə keçirilən toplantıda Sovet İttifaqı iştirak etməsə də, onun nəzarəti altına düşmüş Şərqi Avropa və Balkan dövlətləri iştirak edir və SSRİ-nin direktivlərini orada "məharətlə" həyata keçirirdilər. Cenevrəyə gəlmiş bir çox nümayəndə heyətlərinin başçıları, Sovet siyasətinin orbitinə cəlb olunmuş dövlətlər istisna olmaqla müzakirələr zamanı normal sülh prosesinin bərpa olunması istiqamətində əməkdaşlıq etmək arzusunda olduqlarını, lakin SSRİ-nin siyasət və davranışlarının bu prosesə mane olduğunu ifadə edirdilər. Onların çoxu bu toplantıda Türkiyəni təmsil edən Xarici İşlər Nazirliyinin Baş katibi F.C.Erkindən SSRİ hücum edəcəyi təqdirdə Türkiyənin nə edəcəyi ilə maraqlanırdılar. F.C.Erkin isə cavabında Türkiyənin döyüşəcəyini bildirirdi. Bir sıra nümayəndələr F.C.Erkinin bu sözlərinə şübhə ilə yanaşır, Türkiyənin kiçik ordusu olan balaca bir dövlət olduğunu və Sovetlərə müqavimət göstərə bilməyəcəyini vurğulayırdılar. Erkin bu cür düşünənlərə izah etdi ki, əgər Türkiyə Sovet təcavüzü nəticəsində yox olmağa məhkumdursa, o zaman onun müqavimət göstərib məhv olduqdan sonra yenidən müstəqil bir dövlət kimi yaranması ehtimalı daha çoxdur. Lakin onun fikrincə, Türkiyə Sovetlərin vassalı kimi öz müstəqilliyini itirərdisə, yenidən yaranmaq şansını da onunla birlikdə itirmiş olurdu (85).

Ankaradakı Sovet səfirliyi F.C.Erkinin Millətlər Cəmiyyətinin buraxılması ilə bağlı Cenevrədə keçirilən iclasdakı çıxışının tam mətnini SSRİ Xarici İşlər Nazirliyinə göndərmişdi. F.C.Erkin öz çıxışında Millətlər Cəmiyyətinin keçdiyi tarixi yolu geniş təhlil edir, onun uğurları və səhvləri ilə bağlı məsələlərə toxunur, Türkiyənin Millətlər Cəmiyyətindəki fəaliyyətinin bəzi məqamlarını xatırladırdı. F.Erkin Millətlər Cəmiyyətinin fəaliyyətinə verilən belə bir qiymətə tərəfdar idi ki, müəyyən səhvlərə yol versə də, müəyyən təcavüzkarlıq aktlarının qarşısını effektli şəkildə ala bilməsə də, onun təhlükəsizlik və tərksilah problemləri ilə, bağlı ideyaları, beynəlxalq təşkilat kimi təcrübəsi hörmətə layiqdir. F.Erkinin fikrincə, Millətlər Cəmiyyəti nə edə bilərdisə hamısını etdi, harada uğur qazana bilərdisə, orada buna nail oldu. Türkiyə nümayəndəsi öz çıxışında BMT-ni Millətlər Cəmiyyətinin təcrübəsindən nəticə çıxarmağa çağırırdı. F.Erkin deyirdi: "BMT özünü o şeylərdən qorumalıdır ki, həmin şeylər Millətlər Cəmiyyətini dağıtdı. Əks təqdirdə bəşərıyyətin taleyinə olan ümidləri həmişəlik itirmək lazım gələcək" (86).

Sovet-Türk münasibətləri gərginləşdikdən sonra SSRİ səfirliyi, Xarici İşlər Nazirliyi və bütövlükdə Kreml rəhbərləri prezident İ.İnönünün fəaliyyətini diqqətlə izləyir, çıxış və yazışmalarını dərindən təhlil edirdilər.

Onun ABŞ prezidenti H.Trümenə 9 aprel 1946-cı il məktubu, may ayının 10-da Cümhuriyyətçi Xalq Partiyasının fövqəladə qurultayındakı çıxışı Şərq vilayətlərinə səfər edərkən əhali qarşısındakı çıxışları təcili şəkildə rus dilinə tərcümə edilib SSRİ Xarici İşlər Naziriiyinə göndərilmişdi (87)

Prezident İ.lnönünün Şərq vilayətlərinə səfəri rəsmən yerli seçkilərlə bağlı olsa da, əslində bilavasitə Sovetlərin Türkiyəyə qarşı irəli sürdüyü ərazi tələblərinin və gündən-günə güclənən Sovet təhdidlərinin bu vilayətlərin əhalisi içərisində doğurduğu qorxu və həyəcandan irəli gəlirdi. İ.İnönü bir tərəfdən Sovet təzyiqlərinin əhali arasında doğurduğu əhvali-ruhiyyəni öyrənmək, digər tərəfdən Sovetlərin həyata keçirdiyi "əsəb savaşı"nın ön cəbhəsində yerləşən əhaliyə ürək-dirək vermək məqsədilə bütün Şərq vilayətlərini dolandı. 1946-cı ilin may ayının 26-da Qarsda əhali prezidenti böyük məhəbbətlə qarşıladı. Həmin gün Qarsın hər tərəfindən gəlmiş çoxsaylı nümayəndələrlə Xalq evində keçirilən görüşdə İ.İnönü ölkənin daxili və xarici siyasəti haqqında geniş çıxış etdi. O, Qars, Ərdahan və Artvin bölgələrinin bütün məmləkətin gözündə böyük qiymət daşıdığını bildirdi və dedi: "Bütün millətin canı və malı, sərhəd boylarının hər qarış torpağı üzərinə qonmuşdur. Türk millətinin dəyişməz və sarsılmaz iradəsini, məmləkətin hər guşəsindəki vətəndaşlarla təmas etdikdən sonra sizə bu şəkildə ifadə edirəm. Türkiyənin şərəfli və haqlı durumu, dünyanın haqq və ədalət tanıyan millətləri tərəfindən anlaşılmışdır. Birləşmiş Millətlərin nizamnaməsindəki hürriyyət, torpaq bütünlüyü və istiqlal haqlarının boş sözlərdən ibarət olmadığına inanırıq. Bu gün millətlərin həyatında güc ifadəsi, onların qarşıda göstərə biləcəkləri xeyirli işlərlə ölçülməkdədir. Pozğunçu və fitnəçilərin təsirlərini millətin sərbəst mühakimə və qüdrətilə aradan qaldıra bilənlər yaşamaq haqqını isbat etmiş olurlar. İkinci Dünya müharibəsi və sonrakı dövrdə bütün hüdudlardakı vilayətlərimiz bu baxımdan öyünəcəyimiz bir qiymət göstərmişlər. Qarslılara bu uğurda isbat etdikləri sağlam anlayışdan və iman qüvvətindən dolayı təşəkkür borcluyam. Millətin iradəsini vasitəsiz olaraq göstərmək üçün bu yaxında seçkilərə gedəcəyik. Vətəndaş vəzifəsini anlamaq və anlatmaq baxımından da Qarslıların bütün millətə yaxşı bir nümunə olmalarını istəyirəm və bunu gözləyirəm" (88).

İ.İnönü may ayının sonlarında Trabzon əhalisi ilə görüşdü. Burada da xalq prezidenti eyni hərarətlə qarşıladı. Müharibə başa çatdıqdan sonra səksəkəli həyat keçirən trabzonlular prezidentin səfərindən, onun çıxışından sanki bir rahatlıq tapdılar. İ.İnönü əhali qarşısındakı çıxışında deyirdi: artıq dörd gündür ki, mən Sizlərin arasındayam. Mən ürəyimın bütün hərarətilə Sivas, Ərzincan, Ağrı, Ərzurum, Qars, Artvin, Gümüşxanə əhalisini və sizi, trabzonluları xatırlayacağam. Mənim bu səfərim zamanı mən sizinlə olduğu kimi, hər yerdə xalqın böyük bir hissəsi ilə söhbət etdim. Mən onlara bizim ölkənin daxili və xarici siyasətinin əsas

məsələlərini izah etdim. Mən ölkə üçün çox faydalı hesab edirəm ki, mənim vətəndaşlarım bütün böyük dövlət məsələlərini eyni ilə mən bildiyim kimi bilsinlər. Mən bütün söhbətlərimdə hər şeydən əvvəl göstərdim ki, Vətənin ərazi bütövlüyü məsələsində xalqın bütün iradəsi birdir və tərəddüdsüzdür. Bizim uğurlarımızın əsas təminatı böyük xalqımızın ərazi bütövlüyünə olan hüquqlarımıza həssas və diqqətli yanaşması, bu məsələdə bütövlükdə qəti mövqe tutması ilə bağlıdır (89).

SSRİ xarici işlər nazirinin müavini V.Dekanozov V.Molotovun adına hazırladığı arayışda İ.İnönünün Şərq vilayətlərinə səfərini Türkiyə hakimiyyət dairələrinin ölkənin xarici siyasətini əhaliyə daha yaxından aydınlaşdırmaq zərurəti ilə izah edir. O yazır: "Bu səfərlər eyni zamanda Türkiyənin indiki iqtisadi vəziyyəti və Sovet-Türk münasibətlərinin hazırkı durumu ilə bağlı əhali arasında müəyyən narahatlığın olduğunu göstərir" (90).

1946-cı ilin aprel-may aylarında Gürcüstan SSR və Ermənistan SSR Xarici işlər nazirliklərinin hazırladığı arayışlarda artıq etiraf olunurdu ki,bu Sovet respublikalarının Türkiyəyə qarşı irəli sürdükləri ərazi iddiaları beynəlxalq aləmdə elə də yaxşı qarşılanmayib. Gürcü akademiklərinin və Gürcüstan K(b)P MK-nın birinci katibi K.Çarkvianinin müxtəlif çıxış və yazılarında irəli sürülən ərazi iddialarına münasibətdə beynəlxalq rəy birmənalı mənfi idi. Türkiyəyə qarşı Gürcüstan tərəfindən irəli sürülən ərazi iddiaları Sovet planlarının tərkib hissəsi kimi qiymətləndirilir, bu tələblərin Sovetlərin ekspansionist niyyətlərindən irəli gəldiyi qeyd edilirdi (91). Doğrudur, ermənilərin tələblərinə münasibətdə xarici ölkələrin kütləvi informasiya vasitələrinin səhifələrində müəyyən qədər fərqli mövqelər hiss edilsə də, bu fərqlilik sırf subyektiv amillərlə bağlı idi.1946-cı ilin may ayında Ermənistan SSR xarici işlər naziri S.Karapetyan SSRİ Xarici İşlər Nazirliyinin göstərişi ilə Türkiyəyə qarşı ermənilərin ərazi tələbləri ilə bağlı xarici erməni cəmiyyətlərinin müraciətlərini, məktub və teleqramlarını, habelə ermənilərin torpaq iddialarına aid alınan xarici rəyləri öz geniş arayışında ümumiləşdirib SSRİ Xarici İşlər Nazirliyinə, surətini isə Ermənistan K(b)P MK-nın birinci katibi Q.Arutinova göndərmişdi. 58 səhifədən ibarət olan birinci arayış erməni torpaqlarının Sovet Ermənistanına birləşdirilməsi ilə bağlı xarici erməni cəmiyyətlətrinın böyük dövlətlərin başçılarına və Birləşmiş Millətlərin konfranslarına göndərdikləri müraciətlər haqqında idi. 18 səhifədən ibarət olan ikinci arayış "Türkiyə tərəfindən qəsb edilmiş qədim erməni torpaqlarının" Sovet Ermənistanına birləşdirilməsi ilə bağlı ermənilərin tələblərinə xarici mətbuatın və xaricdəki siyasi xadimlərin rəylərinin icmalından ibarət idi. 15 səhifədən ibarət olan üçüncü arayış isə "Türkiyədə olan erməni torpaqlarının" Sovet Ermənistanına birləşdirilməsi məsələsi ilə əlaqədar xarici erməni cəmiyyətlərinin böyük dövlətlərin başçılarına və

Birləşmiş Millətlərin konfranslarına göndərdikləri müraciət, məktub və teleqramların icmalını əks etdirirdi (92).

Sənədlərin təhlili göstərir ki, xarici ölkələrin siyasi dairələri və dövlət xadimləri, onların fikrini ifadə edən mətbuat orqanları ermənilərin Türkiyəyə qarşı ərazi tələblərinə Sovetlərin Yaxın Şərqdə genişlənmə siyasətinin bir vasitəsi kimi baxır, onu qəti şəkildə rədd edirdilər. Siyasi dairələrə yaxın olan mətbuat orqanları ermənilərin tələblərinin müstəqil olduğunu qəbul etmirdilər. Bu, xüsusilə ABŞ Dövlət katibi C.Birns, Britaniya xarici işlər naziri E.Bevin, tanınmış fransız diplomatı A.Fransua-Ponse kimi siyasi mühitə və ictimai fikrə ciddi təsir göstərə bilən dövlət xadimlərinin çıxış və yazışmalarında özünü göstərirdi (93). Müharibədən sonrakı dünyanın formalaşmasında yaxından iştirak edən belə tanınmış siyasi xadimlərin və dövlət adamlarının ermənilərin tələblərinin əleyhinə olmaları və bu tələblərin arxasında Sovet İttifaqının pərdələnmiş ekspansionist məqsədlərinin dayandığını bildirmələri xaricdə yaşayan ermənilər arasında ümidsizlik yaratmış, Ermənistan SSR-in və eləcə də Sovetlərin rəhbər dairələrində bu işin asan olacağına bəslənilən ümidləri boşa çıxarmışdı.

Erməni məsələsi ilə bağlı Sovet xüsusi xidmət orqanlarının topladığı məlumatlar ümidsizlik sindromunu açıq-aydın əks etdirirdi. Məsələn, Tehranda fəaliyyət göstərən professor Aşot Qasparyan yazırdı: "Ermənilərin vətənə göndərilməsi ilə bağlı təşkilati işlərin başlanması hələ erməni məsələsinin həlli demək deyil. İrəvan quberniyasında otuz min, qırx min adam yerləşə bilər, bu çətin ki, mühacirətdə olan ermənilər üçün yetərli olsun. Siyasi şərait elədir ki, biz hətta Qars və Ərdahanın birləşdirilməsini arzu edə bilmərik. Amerikalılar dəfələrlə artıq bəyan ediblər ki, ərazi bütövlüyünü müdafiə edirlər. Deməli, bu müharibə dən sonra da bizim əlimiz hər şeydən üzüldü" (94).

Ermənistan SSR Xarici İşlər Nazirliyinin hazırladığı arayışlardan görünür ki, Türkiyəyə qarşı ərazi iddiaları ilə beynəlxalq konfranslara və böyük dövlətlərin başçılarına çoxsaylı müraciətlər göndərən, məktublar yazan və teleqramlar vuran xarici erməni cəmiyyətləri, əsasən Sovetlərin nəzarəti altında olub onların diktəsi ilə hərəkət edən cəmiyyətlərdir. Bu cəmiyyətlərin İ.Stalinə göndərdikləri müraciətlər H.Trümen və K.Etliyə göndərdikləri müraciətlərdən xeyli fərqlənirdi və bir sıra hallarda Sovet Ermənistanından İ.Stalinə göndərilən müraciətlərlə xarici ermənilərin göndərdiyi müraciətlər arasında fərq olmurdu. Məktub, müraciət və teleqramların mətnlərinin eyniliyi bunların hamısının bir mərkəzdən idarə olunduğuna dəlalət edirdi. Bu sənədlərdə bir qayda olaraq göstərilirdi ki, SSRİ millətlərin öz müqəddəratını təyin etməsi prinsipinin, kiçik xalqların maraqlarının yeganə müdafiəçisi, o cümlədən erməni xalqının xilaskarıdır. Xaricdə fəaliyyət göstərən erməni cəmiyyətləri Moskvaya göndərdikləri çoxsaylı məktublarda yazırdılar ki, SSRİ hökuməti və

yoldaş Stalin bununla razılaşa bilməz ki, xalqın bir yarısı böyük Sovet İttifaqı ailəsinin bərabərhüquqlu üzvü olsun, digər yarısı öz vətənindən qovulmuş, müdafiəsiz vəziyyətdə biçarə "vətənsiz" adı altında bütün dünyanı dərbədər dolansın. Onlar ümidvar olduqlarını bildirirdilər ki, Sovet hökuməti nəinki erməni xalqının tələblərini müdafiə edəcək, eyni zamanda onun əsrlər boyu davam etmiş arzularını həyata keçirəcək. Ermənilərin xaricdən müxtəlif dövlətlərə və müxtəlif şəxslərə ünvanlanmış müraciətlərində istisnasız olaraq Qars, Ərdahan, Van, Ərzurum, Trabzon və Bitlisin Sovet Ermənistanının tərkibinə daxil edilməsi tələb edilirdi (95).

1946-cı ilin aprel-may aylarında ermənilərin Amerikanın müxtəlif şəhərlərində təşkil etdikləri Türkiyə əleyhinə mitinq və nümayişlərdə iştirak edən azsaylı, sol görüşlü və dini təəssübkeşliyə üstünlük verən müəyyən dairələr də eyni tələbləri təkrar edirdilər. 1946-cı ilin aprel ayının 28-də vaxtilə Amerika-Sovet dostluğu Milli Şurasına rəhbərlik etmiş Edvin Smitin başçılıq etdiyi və Nyu York şəhəri protestant kilsələri federasiyasının baş katibi funksiyasını yerinə yetirən din xadimi Sirlin fəal iştirakı ilə "Ermənilərin haqları uğrunda Amerika mübarizə komitəsi" və "Amerikada Erməni Milli Şurası"nın birgə təşkil etdikləri mitinqdə senator Tobi, Nümayəndələr Palatasının üzvü demokrat Seller kimi bəzi şəxslər çıxış etdilər. Məsələn, Seller öz çıxışında qeyd edirdi ki, Türkiyənin erməni vilayətləri azad, müstəqil Sovet Ermənistanı ilə birləşməli və xaricdə yaşayan ermənilərə öz vətənlərinə qayıtmaq imkam verilməlidir. Halbuki həmin dövrdə Sovet Ermənistanının və digər Sovet respublikalarının nə qədər azad və müstəqil olduqlarını adi amerikalılar yaxşı bilməsə də, konqresmenlər çox yaxşı bilirdilər. Yaxud senator Tobi mitinqçilər qarşısında çıxışında dedi: Ədalət tələb edir ki, Ermənistan türklərin ağalığından azad edilsin, necə ki, vaxtilə Serbiya, Yunanıstan, Bolqarıstan və digər ölkələr azad edilib. Tobi qeyd edirdi ki, ermənilər həm birinci, həm İkinci Dünya müharibəsində müttəfiqlərə loyal olublar, halbuki türklər Birinci Dünya müharibəsində Almaniyanın tərəfində vuruşublar, İkinci Dünya müharibəsində isə almanlar üçün faydalı olan bitərəfliyi saxlayıblar (96). Maraqlıdır ki, senator Tobinin bu fikirləri bir qədər əvvəl SSRİ Xarici İşlər Komissarlığında Türkiyəyə qarşı ərazi tələbləri ilə bağlı hazırlanan sənədlərdəki fikir və mülahizələrə əsasən üst-üstə düşürdü (97). Lakin bütün bu faktlar Amerikanın siyasətinə təsir edəcək qədər güclü və əhəmiyyətli deyildi.

Qeyd olunmuşdur ki, ermənilərin və bütövlükdə Sovetlərin Türkiyəyə ərazi iddiaları bir sıra Avropa ölkələrində fəaliyyət göstərən və SSRİ-yə münasibətdə öz yaxınlığı ilə seçilən bəzi kommunist partiyaları və onların mətbuat orqanları tərəfindən də müdafiə edilirdi (98). Son vaxtlar Rusiya Federasiyasının müxtəlif arxivlərində Sov.İKP-nın 1939-1976-cı illər arasında xarici kommunist partiyalara maliyyə yardımı ilə bağlı sənədlərinin

açılması göstərir ki, Türkiyəyə qarşı yönəlmiş ərazi tələblərində SSRİ-ni müdafiə edən və ermənilərin "haqq işini" əsaslandırmağa çalışan kompartiyalar və onların mətbuat orqanları bilavasitə M.Suslovun imzası ilə Moskvadan maliyyə yardımı aldığından Sovetlərin ekspansionist siyasətinin təbliğində fəallıq göstərirdilər. Maliyyə yardımı ilə yanaşı, həmin dairələrə Kremldən gizli direktivlərin verildiyi artıq təsdiq olunmuş faktlardır (99). Ən nəhayət, ermənilərin tələbləri Avropa və Amerika ölkələrində bir sıra xristian kilsə təşkilatları, müxtəlif dini cəmiyyətlər, habelə tək-tük din xadimləri tərəfindən müdafiə edilirdi ki, burada da Sovetlərə yaxınlıqdan əlavə erməni diaspor təşkilatlarının kilsə xadimləri ilə apardıqları iş xristian həmrəyliyinin yaranmasında müəyyən rol oynayırdı (100).

Sovetlərin Türkiyəyə qarşı iddiaları, Ermənistan və Gürcüstan Sovet respublikalarının ərazi tələbləri beynəlxalq aləmdə yaxşı qarşılanmadığından, Türkiyə Sovet təhdidlərinə qarşı bütün vasitələrlə dirəniş göstərdiyindən SSRİ 1946-cı ilin yazından başlayaraq Türkiyəyə qarşı kürd amilini fəallaşdırmağa başladı. 1946-cı ilin yanvarında İran ərazisində elan edilmiş Kürdüstan muxtariyyətinə Sovetlər tərəfindən yardımlar genişləndirildi. Həmin ilin mart ayında Maku konsulluq dairəsində kürd tayfa başçılarının əlində olan silah və sursat barədə, habelə onların insan ehtiyatları ilə bağlı Sovet diplomatik orqanları SSRİ Xarici İşlər Nazirliyinə geniş məlumatlar hazırladılar (101). 1946-cı ilin aprel ayında İran Azərbaycanı milli hökuməti ilə kürd muxtariyyəti arasında müqavilə imzalanması Türkiyə sərhədlərindəki narahatçılıqları daha da artırdı. Əgər Azərbaycan məsələsinə Türkiyədə yalnız İranın ərazi bütövlüyü və suverenliyinin pozulması kimi baxılırdısa, kürd məsələsi artıq İran, İraq və Türkiyə sərhədlərində təhlükəsizliyin pozulması kimi qəbul edilirdi. Türklərin fikrincə, Sovetlər tərəfindən İran ərazisində yaradılmış kürd muxtariyyəti İranla sərhəddə olan ölkələrə üsyankar dəstələr göndərmək üçün hazırlıq mərkəzi rolunu oynaya bilərdi. Onlar belə hesab edirdilər ki, respublikadan daha çox anarxist maşına bənzəyən quruma rəhbərlik edənlər bir tərəfdən xarici işğalçıların arzularını yerinə yetirmək müqabilində pul alırlar, digər tərəfdən anarxist hərəkatlar oyandırmaq üçün İranla həmsərhəd olan dövlətlərə ümumbəşəri haqları müdafiə adı altında üsyançı dəstələr göndərəcəklər. Bunun nəticəsində də indi tam təhlükəsizlik və tam sakitlik şəraitində yaşayan xalqın bir hissəsinin rahatlığı pozulacaq və həyatı zəhərlənəcək. Türklərin fikrincə, İran ərazisində yarımmüstəqil bir Kürdüstan yaradılması, ilk növbədə gələcəkdə İraq, Türkiyə və Suriya kimi qonşu dövlətlərin daxili təhlükəsizliyini təhdid etmək üçün nəzərdə tutulan pozuculuq cəhdindən başqa bir şey deyildir (102).

Türklərin narahatçılığı əsassız deyildi. 1946-cı ilin may ayının 5-də Ankaradakı Sovet səfirliyi "Kürd məsələsi" adlı 11 səhifədən ibarət olan geniş bir arayış hazırlayib SSRİ Xarici İşlər Nazirliyinə göndərmişdi.

Sovet səfirliyinin "Kürd məsələsi" haqqında arayışı çox qədimdən başlayırdı. Orada "qədim Kürdüstan"ın hüdudları cızılır və onun ərazisinin hələ 1470-ci ildə türklər tərəfindən tutulduğu əsaslandırılırdı. Hazırda kürdlərin əsasən Türkiyədə, İraqda, İranda və Suriyada yaşadığı və onların ümumi sayının 5 milyon olduğu, bundan 2,7 milyonunun Türkiyədə, 1,5 milyonunun İranda, 700 mininin İraqda, qalanlarının isə Suriyada yaşadığı bildirilirdi. Sonra arayışda kürdlərin həyat tərzindən, təsərrüfat, məişət və adət-ənənəsindən söhbət açılırdı. Orada göstərilirdi ki, kürd məsələsi artıq çoxdan böyük dövlətlərin müzakirəsinə daxil olub və hələ Asiya Türkiyəsi haqqında 1916-cı ilin may ayında gizli şəkildə imzalanmış "Sayks-Piko sazişləri"ndə Kürdüstan torpaqlarının bir hissəsinin Fransaya, bir hissəsinin Rusiyaya verilməsi nəzərdə tutulurdu. Ankaradakı Sovet səfirliyi Birinci Dünya müharibəsindən sonra Fərat çayından Şərqə doğru Ermənistan, İraq və Suriya arasındakı ərazilərdə, yəni Türkiyədə kürdlərin muxtariyyət ala bilməməsini İngiltərə və Fransanın xəyanəti ilə izah edirdi. Lakin arayışda qeyd olunurdu ki, bu kürdlərin ingilislər tərəfindən birinci və sonuncu dəfə aldadılması deyildi və əlavə edilirdi ki, Mosul məsələsi müzakirə ediləndə də ingilislər kürdləri Türkiyəyə qarşı qaldırdılar, nəticədə isə onlara bir şey vermədilər. Arayış müəllifinin fikrincə, bütün bunların müqabilində kürdlər ingilislərə olan inamını itirdilər. Süleymaniyədən olan bir kürd icmalçısının sözlərinə istinadən arayışda yazılırdı ki, bütün baş verənlərdən sonra ingilis hakimiyyəti kürdlərin ruslara tərəf dönməsindən, ruslara üz tutmasından niyə təəccüblənməlidir?!

Kürdlər haqqında ümumi məlumat verildikdən sonra arayışda qeyd olunurdu ki, Türkiyədə milli azlıqlar içərisindən ən çox saylısı kürdlərdir. Bütün ölkəyə səpələnmiş və Şərq vilayətlərinə yayılmış kürdlərin sayının 2,7 milyon nəfər olduğu göstərilirdi. Arayışda qeyd olunurdu ki, son iki onillikdə Türkiyədə kürdlər iki dəfə üsyan qaldırıblar. 1925-ci ildə şeyx Saidin başçılığı ilə və 1935-ci ildə Tuncelidə baş vermiş üsyanın Türkiyə hakimiyyət orqanları tərəfindən qəddarlıqla yatırıldığı yazılırdı. Arayışda İranda yaranmış "Kürd milli hökuməti"nin, Molla Mustafa və Məhəmməd Qazi tərəfindən başçılıq edilən hərəkatın Türkiyə tərəfindən narahatlıqla qarşılandığı, onların Ankarada soyğunçular və talançılar adlandırıldığı göstərilirdi. Sovet səfirliyinin fikrincə, "Türkiyə Kürdüstanında" mümkün ola biləcək hər hansı çıxışların qarşısını almaq üçün Türkiyə Böyük Millət Məclisi 1945-ci ilin dekabrında Tunceli vilayətinin idarə olunması haqda 1935-ci ilin dekabrında qəbul olunmuş qanunun fəaliyyət müddətini uzatmışdı. Arayışda izah olunurdu ki, bu qanuna görə Tunceli vilayətinin qubernatoru vəzifəsinə fəaliyyətdə olan korpus generalı təyin olunmalıdır. Bu vilayətin qubernatoru nazir hüquqi və imtiyazında olurdu. O, müdafiə nazirinin razılığı ilə təyin edilirdi. Tunceli qubernatoru eyni zamanda 4-cü xüsusi inspeksiyanın rəisi hesab edilirdi ki,

onun fəaliyyəti də Elaziz, Malatiya, Sivas, Ərzincan, Ərzurum, Gümüşxanə və Bingölü əhatə edirdi. Hikayari, Muş, Bitlis və Van vilayətinin də cənub-Qərb hissəsi 4-cü inspeksiyanın tərkibinə daxil idi. Sovet səfirliyinə görə 1935-ci il qanunu bilavasitə kürdlər yaşayan ərazilərə tətbiq edilirdi Bu qanun öz növbəsində Britaniya imperiyasının müstəmləkələr haqqında qanunu ilə müqayisə edilirdi.

Arayışda həm də qeyd edilirdi ki, Türkiyə hökuməti indiki beynəlxalq şəraitdə radikal vasitələrlə kürd məsələsinin həll olunmasının çətinliyini başa düşərək digər yollar və vasitələr axtarır. Bunlardan birincisi kimi Sovet səfirliyi kürdlərə münasibətdə guya yalan, böhtan və ikiüzlülüyün geniş xarakter aldığını bildirirdi. Müxtəlif nazirlərin Şərq vilayətlərinə səfərləri bunun ifadəsi kimi şərh edilirdi. Guya bütövlükdə kürd əhalisinin yaşadığı vilayətlərdə Cümhuriyyətçi Xalq Partiyasının yerli özəklərindən başqa hər hansı təşkilatın yaradılmasına icazə verilmir. Arayışda deyilirdi ki, bir neçə gün əvvəl prezident İ.İnönü yeni yaranan Demokratik partiyanın lideri Celal Bayarı yanına çağırıb və ona bildirib ki, kürdlərin olduğu Şərq vilayətlərində Demokratik partiya öz şöbələrini açmasın. Arayışda göstərilirdi ki, bu qadağa Ərzurum, Elaziz, Ərzincan, Diarbəkir, Urfa, Mardin, Qazi Antep kimi mərkəzlərə də aid edilirdi. Sovet səfirliyi bunu onunla izah edirdi ki, bu şəhərlərin əhalisi türklər olsa da, guya bu vilayətlərin kəndlərində yaşayan əhali tamamilə kürdlərdən ibarətdir.

Yuxarıda deyilənlərə yekun vuraraq Sovet səfirliyinin "kürd məsələsi" haqqında arayışında belə nəticəyə gəlinirdi ki, Türkiyə indiki anda kürd məsələsinin ciddiliyini başa düşür. Onlar anlayırlar ki, indi ancaq polis metodları ilə kürd əhalisinin böyük kütləsinin öhdəsindən gəlmək olmayacaq. Ona görə də indi kürd əhalisinin bütün vasitələrlə "assimilyasiya" edilməsi dövriyyəyə buraxılıb. Arayışda deyilirdi ki, bu vəzifəni bir tərəfdən bu yaxınlarda Tunceli vilayətinə qubernator təyin edilmiş general Ekrem Baydar, digər tərəfdən türk təbliğatı həyata keçirir. Lakin Sovet səfirliyi SSRİ Xarici İşlər Nazirliyinə göndərdiyi arayışın sonunda bunları əhəmiyyətsiz sayır və bildirirdi ki, kürd əhalisi içərisində milli-azadlıq ideyaları genişlənməkdədir və bu ideyanın daşıyıcısı kürd ziyalılarıdır (103).

Əlbəttə, "kürd məsələsi" ilə bağlı belə geniş arayışın hazırlanması, bir sıra faktların və hadisələrin saxtalaşdırılması, bütövlükdə kürd amilinin qabardılması, bu məsələdən Türkiyəyə qarşı təzyiq kimi istifadə etməyin imkanlarını öyrənməklə bağlı idi. Arayışda göstərilən İ.İnönünün guya şərq vilayətlərində Demokrat partiyasının yerli şöbələrinin yaradılmasını C.Bayara qadağan etməsinə gəldikdə isə qeyd etmək lazımdır ki, bu həqiqətə uyğun deyildi. Belə ki, bu arayışdan düz dörd ay sonra, 5 oktyabrda Ankaradakı Sovet səfirliyi Demokratik partiyanın lideri C.Bayarın partiya quruculuğu ilə bağlı Şərq vilayətlərinə səfər etməsi barədə Mosk-

vaya məlumat verirdi. Onun Ərzurumdakı bəyanatını Sovet səfirliyi təcili şəkildə rus dilinə tərcümə edib SSRİ Xarici İşlər Nazirliyinə göndərmişdi. C.Bayar həmin bəyanatda deyirdi: "Qars, Ərzurum, Artvin və Van bizim əsas vətənimizin ayrılmaz hissəsidir ki, Ərzurum Konqresinin qərarlarına görə bizim milli sərhədlərimizə daxil olmuşdur" (104).

Ankaradakı Sovet səfirliyinin "Kürd məsələsi" haqqında SSRİ Xarici İşlər Nazirliyinə göndərdiyi gizli arayışın səsi çox tez çıxdı. 1946-cı ilin iyun ayının 15-də Sovet həmkarlar təşkilatının orqanı olan "Trud" qəzetində İ.Vasilyevin "Türkiyədə kürd məsələsi mövcuddurmu" adlı geniş yazısı dərc edildi. Məqalə bu sözlərlə başlayırdı: "Məlum olduğu kimi, Türkiyədə xeyli sayda yunan, erməni, yəhudi, çərkəz, kürd və lazlar yaşayır. Buna baxmayaraq türk dövlət xadimləri və türk mətbuatı hər hansı əlverişli şəraitdə qeyd etməyə çalışırlar ki, Türkiyədə milli məsələ mövcud deyildir və ölkədə yaşayan bütün əhali türkdür". İ.Vasilyev yazırdı: "Azaldılmasına şübhə edilməyən rəsmi məlumata görə, Türkiyədə 1.5 milyon kürd yaşayır. Onlar Türkiyə Kürdüstanı adlanan İran, İraq və Suriya ilə sərhəd vilayətlərdə məskunlaşıblar". Yazı müəllifinin fikrincə, ölkə ərazisində yaşayan milli azlıqlar, o cümlədən kürdlər də Türkiyədə yeridilən assimilyasiya siyasəti nəticəsində türkləşdirilmişlər. Bunu əsaslandırmaq üçün "Trud" qəzeti prezident İ.İnönünün hələ 1925-ci ildəki bir çıxışından misal gətirirdi və qəzetin yazdığına görə, həmin çıxışda İsmət paşa demişdi: "Biz açıq millətçilərik. Millətçilik bizim fəaliyyətimizin yeganə amilidir. Biz nəyin bahasına olursa-olsun vətənimizdə yaşayan hər kəsi türkləşdirməliyik".

İ.Vasilyev öz məqaləsində belə bir ehtimal irəli sürürdü ki, Türkiyə ilə İran arasında imzalanmış dostluq haqqında müqavilənin guya gizli əlavəsi vardır və orada "kürd tayfalarına qarşı birgə mübarizə tədbirləri" nəzərdə tutulmuşdur. İ.Vasilyevin məqaləsində Ankaradakı Sovet səfirliyinin hazırladığı "Kürd məsələsi" haqqında arayışdan istifadə olunduğu hiss edilir. Ən nəhayət, "Trud" qəzeti əsas məsələnin üzərinə gələrək yazırdı: Kürdləri nəinki Türkiyənin daxili rayonlarda, eləcə də vaxtilə ermənilərin bir hissəsinin köçürüldüyü, bir hissəsinin məhv edildiyi və bununla da guya erməni məsələsinin həll edildiyi güman edilən Qars və Ərdahan rayonlarında da təqib edirlər". İ.Vasilyev qeyd edirdi ki, Türkiyə indi həmin vasitələrlə kürd məsələsini də "həll etmək" istəyir. Məqalənin sonunda müəllif belə nəticəyə gəlirdi ki, Türkiyə hakim dairələrinin "Türkiyədə kürd yoxdur və deməli, kürd məsələsi də yoxdur deməsi türk hakimiyyətinin bu məsələni ictimai fikirdən gizli şəkildə həll etmək arzusundan irəli gəlir. İ.Vasilyev sözünə davam edərək bildirirdi ki, azadlıqsevər xalqların faşizm üzərində qələbəsindən sonra bütün xalqların özünüdərketmə prosesi güclənmişdir, türk kürdlərinin də milli özünüdərk prosesinin bu və ya digər formada özünü büruzə verməsində təəccüblü heç nə yoxdur.

Türkiyədə kürd məsələsinin olmadığını və onun assimilyasiya yolu ilə həll olunduğunu güman etmək sadəlövhlük olardı (105).

Sovetlərin mərkəzi qəzetlərindən birində kürd məsələsi ilə bağlı yazı getməsi amerikanların diqqətindən yayınmamışdı. ABŞ-ın Moskvadakı səfiri U.Smit bu məqalə ilə bağlı Dövlət katibinə yazırdı: "SSRİ tərəfindən Türkiyə əleyhinə edilən siyasi həmlələr Ermənistan və Gürcüstan məsələsində heç bir irəliləyişə nail olmadıqdan sonra Sovetlər Türkiyədəki kürdlər tərəfindən yeni hücumlar yaratmağa başlayıblar. Bu problem "Trud" qəzetində ortaya atılıb. Əgər SSRİ "Trud" qəzetinin məqaləsinin ardınca Kürdüstan muxtariyyəti haqqında təbliğat kampaniyası başlasa çətin ki, Kreml Kürdüstan muxtariyyətinin yaradılması istiqamətindəki cəhdlərində də Ermənistan və Gürcüstana aid ərazilərin Sovetlərə "qaytarılması" məsələsində olduğundan qabağa gedə bilsin. Lakin Kreml başa düşür ki, həqiqi Kürdüstanı yaratmaq mümkün olmasa da, Türkiyədəki kürdlərin qızışdırılması praktiki olaraq İranda və İraqda kütləvi Kürdüstan hərəkatına gətirib çıxarmalıdır". Səfir U.Smit kürd məsələsində Sovetlərin məqsədini ilk növbədə Türkiyəyə qarşı əsəb müharibəsinin yeni cəbhədə bərpa olunması ilə izah edirdi. Eyni zamanda U.Smit bunun xarici işlər nazirlərinin Paris görüşü ilə bağlı ola biləcəyini ehtimal edirdi. Çünki "Trud" qəzetinin məqaləsi ilə xarici işlər nazirlərinin Parisdəki toplantısının işə başlaması eyni vaxta təsadüf edirdi. Səfir xatırladırdı ki, xarici işlər nazirlərinin əvvəlki görüşləri və BMT-nin toplantılarının işə başlaması ilə bağlı Sovet İttifaqında Ermənistan, Gürcüstan, Yunanıstan, Misir, İndoneziya və digərlərinin "şikayətləri" barədə aqressiv təbliğat başlanıb. Bu təbliğat həmlələri, əvvəllər olduğu kimi qarışıqlıq salmaq, yersiz məsələlərin ortaya atılması kimi taktikalardan istifadə etməklə Sovetlərin mövqeyini müdafiə etməyə yönəldilib (106). Lakin Sovetlərin niyyətləri ilə bağlı sənədlərin araşdırılması göstərir ki, kürd məsələsində SSRİ, Amerika səfirinin ehtimal etdiyindən daha dərinə getmiş və daha uzağa hesablanmış strateji məqsədlər planlaşdırmışdı.

1946-cı ilin sonlarında Azərbaycan milli hərəkatının məğlubiyyətindən sonra Azərbaycan demokratları ilə yanaşı, Kürd Demokrat Partiyasının rəhbərləri, o cümlədən Molla Mustafa Bərzani də təxminən 2 minə yaxın öz adamları ilə Sovet Azərbaycanına mühacirət etmişdi. Həmin dövrdə jurnalist adı ilə bu hadisələrdə yaxından iştirak edən və xüsusi tapşırıqla Azərbaycana ezam olunmuş SSRİ Dövlət Təhlükəsizliyi Nazirliyinin xarici kəşfiyyat idarəsmin rəisi P.Sudoplatov öz xatirələrində yazır ki, İ.Stalinin göstərişi əsasında SSRİ Dövlət Təhlükəsizliyi naziri V.Abakumov mənə zəng edib tapşırdı ki, M.M.Bərzani ilə olan danışıqlardan Azərbaycan kommunist partiyasının katibi M.C.Bağırov xəbər tutmasın və ümumiyyətlə, Bərzani ilə Bağırovun görüşünə imkan vermək lazım deyil. V.Abakumov İ.Stalinin belə bir fikrinə istinad etmişdi ki, M.C.Bağırov M.M.Bər-

zanidən və onun dəstəsindən İranda qeyri-sabitlik yaratmaq üçün istifadə etmək istəyir. Moskva isə M.M.Bərzanidən daha vacib bir məqsədlə -İraqda ingilislərə meylli olan hökumətin devrilməsində istifadə etməyi planlaşdırır (107). Doğrudan da M.M.Bərzaninin dəstələri Azərbaycanda qaldığı müddət ərzində respublika rəhbərliyindən təcrid edilib birbaşa Moskvaya tabe edildi və az sonra onları Özbəkistana göndərdilər. SSRİ Nazirlər Sovetinin 4 dekabr 1947-ci il qərarına əsasən, Özbəkistan Sovet Respublikasında onlar üçün xüsusi hərbi hazırlıq mərkəzi açılmışdı və kürd silahlı dəstələrini hazırlamaq üçün 1948-ci il yanvar ayında 216-cı Azərbaycan diviziyasından Özbəkistana 24 Azərbaycanlı zabit ezam olunmuşdu. Uzun müddət bu zabitlərdən xəbər çıxmadığı üçün M.C.Bağırov 1949-cu ilin fevral ayının 24-də SSRİ Daxili işlər nazirinin birinci müavini S.Kruqlova yazırdı: "SSRİ Nazirlər Sovetinin 4 dekabr 1947-ci il qərarına uyğun olaraq Silahlı Qüvvələrin Zaqafqaziya Hərbi Dairəsmin Baş qərargahı Molla Mustafa Bərzaninin kürd dəstələrini hazırlamaq üçün 1948-ci ilin yanvarında 216-cı diviziyanın 24 Azərbaycanlı zabitini Özbəkistana göndərib. Həmin zabitlərdən heç bir xəbər yoxdur və onlar indiyə qədər Azərbaycana qayıtmayıblar" (108). Sovetlərə mühacirət edən kürdlərin az bir hissəsi Seyf Rəhim Qazi başda olmaqla Sovet Azərbaycanında qalmışdı və o, Azərbaycan Demokrat Partiyası sədrinin müavini seçilmişdi. M.M. Bərzani kürdlərin yeganə təmsilçisi kimi çıxış etdiyindən Azərbaycan rəhbərliyindən tez-tez Sov.İKP MK-ya və Sovet liderlərinə şikayətlər yazırdı. 50-ci illərin ortalarında Moskvada Ali partiya məktəbinin dinləyicisi olan M.M. Bərzaninin Sov.İKP MK-nın mərkəzi aparatının məsul işçisi F.Voloşinlə söhbətini Sov.İKP MK-nın şöbə müdirinin müavini İ.Vinoqradov yoxlamaq üçün Azərbaycan KP MK-nın katibi İ.Mustafayevə göndərmişdi. F.Voloşin M.Bərzani ilə söhbət barədə yazırdı: "Sov.İKP MK-nın şöbəsinin tapşırığı ilə 1954-cü ilin dekabr ayının 13-də mən Sov.İKP MK yanında Ali partiya məktəbinin dinləyicisi Mustafa Bərzani ilə görüşdüm. Söhbət zamanı Bərzani israrla Yaxın vaxtlarda İran Azərbaycanı Demokrat Partiyasının sədr müavini təyin edilmiş Rəhim Qazi haqqında bildiklərini Sovetlərdən olan yoldaşların nəzərinə çatdırmağı xahiş etdi. O, bildirdi ki, R.Qazinin bu vəzifəyə təyin olunması ilə bağlı Bakıdakı kürdlərdən məktub alıb. Onlar bildirirlər ki, hələ 1947-ci ildə İran Azərbaycanı və Kürdüstanda demokratik rejimlərin dağıdılması haqqında məlumat alınanda bu məktubu yazın kürdlərlə birlikdə o vaxt Bakıda hərbi məktəbdə oxuyan R.Qazi öz yoldaşlarını yığaraq onlara elan edib: "Rədd olsun Sovet İttifaqı. Qəvam əs-Səltənəyə eşq olsun". Elə həmin gün o, İranın Bakıdakı konsulluğuna gedib və İrana qayıtmaq üçün viza verilməsini xahiş edib". F.Voloşin yazırdı: "Bərzaniyə məktub yazan kürdlər və Bərzani özü belə hesab edir ki, R.Qazinin ADP sədrinin müavini təyin olunması Azərbaycan rəhbər-

liyinin bu adamın əsl simasını tanımadığını göstərir. Bundan əlavə Bərzani belə güman edir ki, R.Qazi bu vəzifəyə Azərbaycan SSR Ali Sovetinin sədri M.İbərahimov tərəfindən irəli sürülmüşdür və onun məlumatına görə Rəhim Qazinin əmisi Məhəmməd Qazi 1946-1947-ci illərdə guya M.İbrahimova qiymətli hədiyyələr vermişdir" (109). Lakin İ.Mustafayevin tapşırığı əsasında M.Bərzaninin dedikləri ilə bağlı Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsinin sədri A.Quskovun apardığı gizli yoxlamalar M.Bərzaninin M.İbrahimovla əlaqədar dediklərini təsdiq etmədi və məlum oldu ki, həm M.Bərzani, həm də onun Bakıdakı informatorları Rəhim Qaziyə münasibətdə düşmənçilik mövqeyindədirlər (110).

Sovetlər Türkiyə ilə birlikdə Bağdad paktının yaradılmasının əsasını qoyan İraqda 1955-ci ildə SSRİ ilə diplomatik münasibətləri kəsən Nuri Səid hökumətinin devrilməsində həqiqətən vaxtilə Sovetlərdə hazırlanmış kürd dəstələrindən istifadə etdilər. Lakin 1958-ci ildə hakimiyyətə gələn general Əbdül Kərim Qasim uzun müddət Sovetlərin nəzarətində qalmadı və 1959-cu ildən Qərbə meyl etməyə başladı. 1961-ci ilin yayında Berlin böhranı ilə bağlı hadisələr dünyanı şoka saldığı bir vaxtda SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin sədri A.Şelepin Yaxın Şərqdə yeni gərginlik mərkəzi yaratmaq, İraqda Qasim hökumətini devirmək, ABŞ, İngiltərə, Türkiyə və İranın hakimiyyət dairələrinin Yaxın Şərqdəki siyasətində qeyri-müəyyənlik yaratmaq üçün yenidən Molla Mustafa Bərzanidən istifadə etmək barədə 1961-ci ildə Sov.İKP MK-nın Birinci katibi N.Xruşova müraciət etdi. A.Şelepin Dövlət Təhlükəsizliyi Komitəsinin kürd partizanlarının başçısı Molla Mustafa Bərzani ilə əlaqələrindən istifadə edərək İran, İraq və Türkiyə ərazisindəki kürd əhalisinin hərəkatını fəallaşdırmaq və bu ölkələrin ərazilərini özündə birləşdirən müstəqil Kürdüstan dövləti yaratmaq planını irəli sürürdü. Bu plana görə M.M.Bərzaniyə bütün lazımi silahlar və yetərincə pul verilməli idi. DTK-nın planına görə, Kürdüstan dövləti uğrunda hərəkat Qərb ölkələri içərisində ciddi ixtilaflar yaratmalı, ilk növbədə İngiltərənin İraq və İrandakı neft maraqlarına və ABŞ-ın Türkiyədəki hərbi bazalarına ciddi zərbə endirməli idi. Bütün bunlar eyni zamanda son vaxtlar Qərbyönlü siyasət yeridən İraqın Baş naziri Əbdül Kərim Qasim hökuməti üçün çətinliklər törətməli idi (111). Hətta SSRİ DTK-sı gizli yollarla həmin dövrdə üçüncü dünya ölkələrinin liderlərindən sayılan və pan-ərəb ideyalarını həyata keçirməyə çalışan Misir prezidenti Camal Abdul Nasiri də bu işə qoşa bilmişdi. A.Şelepin C.A.Nasirə təklif etmişdi ki, əgər o, qeyri-rəsmi kanallarla kürdlərin hərəkatını müdafiə etsə, Moskva Kürdüstan dövləti yaradıldıqdan sonra İraqın qeyri-kürd ərazilərinin Birləşmiş Ərəb Respublikasına birləşdirilməsinə tərəfdar olacaqdır (112). Göründüyü kimi, kürd kartı Sovetlərin əlində Yaxın Şərqdə qeyri-stabillik yaratmaq, region ölkələrinə, ilk növbədə Türkiyəyə təzyiq etmək üçün mühüm vasitə idi.

1946-cı ilin iyununda Türkiyəyə səfər edən Livanın prezidenti Beşara əl-Xorinin şərəfinə iyunun 22-də verilən ziyafətdə Baş nazir Ş.Saracoğlunun Sovet səfiri S.Vinoqradovla ətraflı söhbəti oldu. Türkiyə-Livan münasibətlərinin inkişafı və xüsusilə Xorinin səfəri ilə bağlı tüfk mətbuatında gedən çoxsaylı yazılar, bu səfərin Ankaranın ərəb ölkələri ilə münasibətlərinə müsbət təsir göstərəcəyi barədə mətbuatdakı rəylər və Livan prezidentinin İ.İnönü, Ş,Saracoğlu, xarici işlər naziri tərəfindən yüksək səviyyədə qəbul edilməsi Sovetlər tərəfindən qısqanclıqla qarşılanırdı (113). S.Vinoqradov Livan prezidentinin səfəri ilə bağlı soruşduqda Ş.Saracoğlu bunun tanışlıq xarakteri daşıdığını bildirmişdi. Ş.Saracoğlu isə öz növbəsində Paris konfransında Türkiyə ilə bağlı nəyin müzakirə olunacağını soruşduqda S.Vinoqradov heç nəyin müzakirə olunmayacağını bildirdi. O, əlavə etdi ki, V.Molotov konfransın gündəliyini göndərib orada Türkiyə ilə bağlı heç nə yoxdur və əgər belə bir məsələ olsaydı, o, bu barədə məlumatlandırılardı. Hələ may ayının 28-də Moskvadakı Türk səfiri S.Sarperlə SSRİ xarici işlər nazirinin müavini V.Dekanozov arasında keçirilən görüşdə də elə bir məsələyə toxunulmamışdı. Öz Ölkəsinə iki aylıq məzuniyyətə gedən S.Sarper V.Dekanozovla görüşdə siyasi xarakterli heç bir sual vermədi. V.Dekanozov bu görüş haqqındakı məlumatında yazır: "Ola bilsin ki, o, mənim hər hansı məsələyə toxunacağımı güman edirdi və ona görə də söhbətin əvvəlində Sarper soruşdu ki, mən Vinoqradova nə isə çatdırmaq istəmirəm ki? Mən zarafat tərzində cavab verdim ki, Vinoqradovun da eyni zamanda məzuniyyətə çıxmağa ümidi vardır (114).

Moskvada adı çəkilən görüşdən fərqli olaraq Livan prezidentinin şərəfinə verilən ziyafətdə Ş.Saracoğlu ilə S.Vinoqradov arasında söhbət elə də sakit keçmədi. Ş.Saracoğlu SSRİ-nin Türkiyənin Şərq vilayətlərinə və Boğazlardakı bazalara 1945-ci ilin iyununda irəli sürdüyü iddialar barəsində söhbət açaraq dedi: "Türkiyə hökuməti iki ölkə arasında mürəkkəb münasibətləri daha da mürəkkəbləşdirmək istəmir və ona görə də SSRİ-nin öz tələblərini geri götürməsini asanlaşdırmaq xatirinə bu tələblərin irəli sürülməsini təsdiqləyən məlumatların kütləvi şəkildə yayılmasına yol verməyib. Türkiyə hökuməti ümid edir ki, SSRİ hökuməti heç vaxt belə bir iddialarının olmadığını elan etməyin daha uyğun yolunu tapacaqdır". Ş.Saracoğlu vurğuladı ki, əks təqdirdə Türkiyə hökuməti türk ictimaiyyəti qarşısında bu cür iddiaların mövcudluğunu elan etməyə məcbur ola bilər. S.Vinoqradov hiddətlə bildirdi ki, bunu etmək olmaz və əlavə etdi ki, prezident İ.İnönünün və Baş nazirin SSRİ ilə anlaşma əldə olunması istiqamətində səy göstərmələri vacibdir. Ş.Saracoğlu cavabında, Türkiyənin şərq vilayətlərinin güzəştə gedilməsi və Boğazlarda bazaların verilməsinə əsaslanan razılığın əlavə edilməsinin qeyri-mümkünlüyünü vurğuladı. S.Vinoqradov əsaslandırmaq istədi ki,

Türkiyə SSRİ-nin Boğazların təhlükəsizliyi ilə daha çox maraqlandığını və müharibə vəziyyətində burada bazaya ehtiyacı olduğunu başa düşməlidir. Əgər Türkiyə bunu anlayaraq SSRİ ilə danışıqlara başlayarsa şərq vilayətləri məsələsi nəzərə alınmaya bilər. Lakin Baş nazir Rusiyanın ərazi və baza iddialarını davam etdirdiyi təqdirdə istənilən müzakirənin qeyri-mümkünlüyünü vurğuladı. O, səfirdən bu tələbləri geri götürmək barədə öz hökumətinə təsir göstərməsini xahiş etdi. S.Vinoqradov əlindən gələni edəcəyini, lakin hökumətinin bununla razılaşacağına heç bir ümidi olmadığını söylədi. Müzakirələr zamanı Sovet səfiri ABŞ-ın Türkiyədə hava bazalarına malik olması faktını əsas gətirərək SSRİ-nin də Boğazlarda bazalara malik olması üçün heç bir maneə görmədiyini dedi. Baş nazir ABŞ-ın Türkiyədə hava bazalarına malik olmadığını, yalnız iki ölkə arasında mülki aviasiya haqqında razılaşmaya əsasən Amerika təyyarələrinə kommersiya xidməti göstərildiyini bildirdi. Bu söhbət barəsində Türkiyədəki ABŞ səfirinə məlumat verən Türkiyə Xarici İşlər Nazirliyinin Baş katibi F.C.Erkin qeyd edirdi ki, SSRİ Türkiyəni Boğazlar məsələsi ilə bağlı ikitərəfli danışıqlara cəlb etməyə çalışır, bununla da Türkiyə, Böyük Britaniya və Birləşmiş Ştatlar arasında anlaşılmazlıq və fikir ayrılığı yaradıb bu vəziyyətdən istifadə etməyə ümid edir (115).

1946-cı ilin iyun ayında keçirilən Paris konfransında ABŞ dövlət katibi C.Birns "Sülhü Sovet İttifaqısız qurmaq olmaz" fikrini söyləsə də, bütövlükdə konfrans C.Birns və onun Britaniyalı həmkarı E.Bevinlə Sovet xarici işlər naziri V.Molotov arasında gərgin qarşıdurma şəraitində keçdi. V.Molotova cavab verməkdən ötrü C.Birns konfransda növbəti dəfə söz alıb yeni bəyanatla çıxış etdi. C.Birns dünyada gündən-günə mürəkkəbləşən vəziyyətdən çıxış yolunu təcili olaraq sülh konfransının çağırılmasında görürdü. Türklər onun təklifini həmin şəraitdə yeganə mümkün və məqbul təklif kimi qiymətləndirirdilər (116).

1946-cı ilin yazında Yaxın və Orta Şərqdə Sovet ekspansiyasının artıq real təhlükəyə çevrildiyini hiss edən ABŞ xüsusi xidmət orqanları öz təhlillərini və təkliflərini hazırlayib Ağ ev rəsmilərinə təqdim etdilər. Birləşmiş Ştatların mərkəzi kəşfiyyat qrupunun 1946-cı ilin iyul ayının 23-də "SSRİ-nin xarici və hərbi siyasəti" haqqında hazırladığı gizli sənəd bu baxımdan daha səciyyəvi idi. Orada göstərilirdi ki, Sovet İttifaqı Yunanıstan, Türkiyə və İranda özünə "dost" hökumətləri qurmaqla bu ölkələri özünün təhlükəsizlik zonasına daxil etmək istəyir. Yerli faktorlar bu planları həyata keçirmək üçün əlverişli olsa da, Böyük Britaniya və ABŞ-ı qıcıqlandırmaq qorxusu SSRİ-yə açıq fəaliyyət göstərməyə mane olur (117). Mərkəzi kəşfiyyat qrupu tərəfindən Sovet İttifaqının Orta Şərqdə siyasəti belə dəyərləndirilirdi: "Orta Şərq regionu Sovet İttifaqın genişlənməsi üçün cəlbedici ərazi hesab edilir. Buna səbəb kimi bu

regionun Sovet İttifaqına yaxınlığı və digər əsas dövlətlərdən uzaqlığını, Türkiyə istisna olmaqla yerli hökumətlərin zəifliyi və qeyri-stabilliyini, bir çox yerli ziddiyyətlərin və milli-etnik azlıqların narazılıqlarını göstərmək olar. Bundan əlavə, bu region Sovet sənayesinin Avropa sərhədlərindən digər yerlərə köçürülməsi və hələ də cənubdan hava hücumuna məruz qala biləcəyi yerlərdə olması, həmçinin Bakı neftinin Sovet iqtisadiyyatı üçün daşıdığı həyati əhəmiyyət baxımından Sovet İttifaqı üçün Şərqi Avropadan da çox strateji maraq zonasıdır. Bununla belə, məhz Orta Şərq regionunda SSRİ-nin maraqları ilə Böyük Britaniyanın çoxdankı maraqları toqquşur və məhz bu ərazidə nəticə etibarı ilə münaqişə baş verməsi üçün ən böyük təhlükə mövcuddur. Buna görə də bu ərazidəki Sovet siyasəti ehtiyatlı və davamlı şəkildə izlənməlidir. Mərkəzi kəşfiyyat qrupu belə hesab edirdi ki, əgər əlverişli şərtlər mövcud olarsa, Sovet İttifaqı aşağıdakı məqsədlərə nail olmağa çalışa bilər:

1. Ən azı Britaniya qoşunlarının Yunanıstandan çıxarılması və son nəticədə bu ölkədə "dost" hökuməti qurmaqla həmin dövlətin Sovet mühiti ilə birləşdirilməsi.
2. Ən azı Türkiyənin siyasi və hərbi cəhətdən təcrid edilməsi və Boğazlarda SSRİ-nin maraqlarına daha yaxşı cavab verən yeni rejimin qurulması, ən çoxu Türkiyədə "dost" hökuməti qurmaqla bu dövlətin Sovet təsir dairəsinə daxil edilməsi.
3. Ən azı Sovet İttifaqına Azərbaycanda birbaşa nəzarəti ələ keçirmək imkanı verən İrandakı son nizamlanmanı həyata keçirmək və İranın şimalındakı neft ehtiyatlarından istifadə imkanını reallaşdırmaq, son nəticədə İranın orada "dost" hökuməti yaratmaqla Sovet təsir dairəsinə birləşməsini təmin etmək (118).

Hadisələrin sonrakı gedişi Mərkəzi kəşfiyyat qrupunun təhlil və proqnozlarının doğruluğunu təsdiq etdi. Eyni zamanda bu sənəd Sovet təhlükəsinə məruz qalmış Türkiyəyə münasibətdə ABŞ-ın daha çevik siyasət yeritməsində mühüm rol oynadı.

## VIII FƏSİL
## Boğazlarla bağlı Sovet planları və onların iflasa uğraması

1946-cı ilin yayı Türkiyədə siyasi baxımdan çox hərarətli keçdi. Sovet təzyiqlərindən əsəbləri gərilən, soyuq savaşın ilk gərginliklərini yaşayan ölkədə ilk dəfə olaraq çoxpartiyalı sistem üzrə seçkilərə hazırlıq cəmiyyəti yerindən oynatmışdı. Müharibədən sonrakı demokratiyanın kövrək anlarını yaşayan Türkiyə ölkədə çoxpartiyalı sistemin formalaşmasına qərar vermişdi. Bu addım ölkənin xarici siyasətində əsas istiqamət kimi müəyyənləşdirilmiş Qərb yönümünün daxili siyasət baxımından tamamlanması, Qərb demokratiyasının Türkiyənin siyasi həyatında bərqərar olması ilə nəticələnməli idi. Ölkənin təməl prinsiplərinə toxunmadan seçim demokratiyası baxımdan 25 illik təkpartiyalı dönəm arxada qalır, Türkiyənin bütün sonrakı həyatında mühüm rol oynayan çoxpartiyalı seçki sistemi ilk dəfə olaraq sınaqdan keçirilirdi. Mətbuat, kütləvi informasiya vasitələri, radio və digər təbliğat orqanları iyul ayına planlaşdırılmış parlament seçkilərinin təbliğatına artıq xeyli qabaqdan başlamışdılar. Hətta 1946-cı ilin aprel-may aylarında Ankaradakı Sovet səfirliyi SSRİ Xarici İşlər Nazirliyinə göndərdiyi hesabatlarda qeyd edirdi ki, aprel ayının ikinci yarısından başlayaraq türk mətbuatı əsas diqqəti daxili siyasət məsələlərinə verir və Cümhuriyyətçi Xalq Partiyası ilə Demokrat Partiyası arasında güclənən mübarizə mətbuatın və Türkiyə siyasi həyatının əsas hadisəsinə çevrilir (1).

Sovet İttifaqı Türkiyədə çoxpartiyalı sistemə keçidi diqqətlə izləyirdi və bir sıra məqamlarda buna ölkədəki "arzuolunmaz" hökuməti dəyişmək və Türkiyədə "dost" hökumət formalaşdırmağın mümkün yolu kimi baxırdı. Əslində, Potsdam konfransından sonra keçən müddət ərzində Boğazlarla bağlı Sovetlərin gözləmə mövqeyi tutması və öz təkliflərini açıqlamaması, Şərq vilayətlərinə qarşı artıq əhəmiyyətini itirmiş tələblərdə israr etməsi xeyli dərəcədə bununla bağlı idi. Ona görə Türkiyədəki Sovet diplomatik idarələri və SSRİ Xarici İşlər Nazirliyinin Yaxın Şərq şöbəsi müharibə başa çatdıqdan sonra ölkədə demokratikləşmənin hansı istiqamətdə gedəcəyi ilə ciddi şəkildə maraqlanır, müxalifət partiyalarının, habelə müxalifət liderlərinin hansı dairələr içərisindən çıxacağını diqqətlə izləyirdi. Hələ 1945-ci ilin mart ayının 9-da Ankaradakı Sovet səfirliyinin birinci katibi S.Mixailov Türkiyə Xarici İşlər Nazirliyinın bütün rəhbər heyətinin siyahısını SSRİ Xarici İşlər Komissarlığına göndərmişdi (2). Almaniya üzərində qələbənin başa çatmasına bir həftə qalmış SSRİ Xarici İşlər Nazirliyi Türkiyə hökumət kabinetinin tərkibini

yenidən dəyərləndirmiş, ayrı-ayrı kabinet üzvlərinin xarakteristikasını hazırlamışdı. Baş nazir Ş.Saracoğlu və onun hökumət kabinetinə daxil olan H.Saka, A.R.Artunkul, H.Uran, F.Sermen, A.R.Türel, C.S.Siren, S.Day, Ş.R.Hatipoğlu, N.E.Sümer, S.Konuk, F.H.Ürqüplü, A.F.Cebesoy və H.A.Yücel haqqındakı SSRİ Xarici İşlər Nazirliyinin hazırladığı dəyərləndirmələrdə bəzi maraqlı məqamlar var idi. 1942-ci ilin iyul ayından Türkiyə hökumətinə başçılıq edən Ş.Saracoğlu haqqında hazırlanan arayış əvvəlkilərlə müqayisədə daha sərt idi, O, Sovet siyasəti üçün arzuolunmaz şəxs hesab edilirdi. Xarici işlər naziri H.Saka haqqında da təxminən buna bənzər rəy verilmişdi. Onun Balkan məsələləri üzrə tanınmış mütəxəssis olduğu, bir sıra Balkan konfranslarında iştirak etdiyi və Balkan Antantasının İqtisadi Şurasına rəhbərlik etdiyi bildirilirdi. Bununla belə, H.Sakanın diplomatik aləmdə o qədər də populyar olmadığı, prezident İ.İnönünün etimadını qazandığı üçün bu vəzifəyə təyin olunduğu və siyasi görüşlərinə görə Baş nazir Ş.Saracoğlundan seçilmədiyi qeyd edilirdi (3).

İkinci Dünya müharibəsinin sonlarında beynəlxalq aləmdə gedən yeniləşməni düzgün müəyyən edən Türkiyə siyasi dairələri çoxpartiyalı sistemə keçidi və bir sıra demokratik islahatların aparılmasının zəruriliyini anlayırdılar. Hələ 1945-ci ilin aprelində San-Fransisko konfransında Türkiyə nümayəndə heyətinə başçılıq edən xarici işlər naziri H.Saka savaşdan sonra ölkədə demokratik islahatlar keçiriləcəyi və hər cür siyasi cərəyanların fəaliyyətinə icazə veriləcəyini bildirmişdi. Bundan bir neçə gün sonra isə prezident İ.İnönü müharibə dövrünün zəruri tədbirlərini müəyyən edən vəziyyət aradan qalxdıqca ölkənin siyasi və fikir həyatında demokratik prinsiplərin daha geniş ölçüdə hökm sürəcəyini bildirmişdi. Türkiyənin San-Fransiskoda Birləşmiş Millətlərin bəyannaməsini imzalaması və prezident İ.İnönünün qeyd edilən açıqlaması Cümhuriyyətçi Xalq Partiyası içərisində müxalif fikirli dairələri daha cəsarətli addımlar atmağa sövq etdi. Savaş sonrası Böyük Millət Məclisində torpaq islahatı haqqında qanunun ciddi fikir ayrılığı şəraitində müzakirə edilməsi CXP daxilində müxalifətçilik meylinin açıq təzahürü idi. Belə bir şəraitdə 1945-ci il iyun ayının 7-də millət vəkilləri Celal Bayar, Adnan Menderes, Fuad Köprülü və Refik Koraltan Konstitusiyanın milli hakimiyyət prinsiplərinin daha işlək hala gətirilməsi, partiya fəaliyyətinin demokratik prinsiplərə uyğun həyata keçirilməsini özündə əks etdirən "Dördlü anlatma"ın CXP-nin Məclis qrupuna təqdim etdilər. Bu sənəddə müharibənin başa çatması ilə əlaqədar olaraq xalqın demokratiyaya hazırlanması, Millət Məclisinin hökumətə nəzarətinin gücləndirilməsi, Konstitusiyada yazılan hüquq və azadlıqların tanınması və çoxpartiyalı sistemin olmasının vacibliyi vurğulanırdı. Lakin iyun ayinın 12-də CXP-nin Məclis qrupunun qapalı iclasında "Dördlü anlat-

ma"da irəli sürülən fikirlər rədd edildi. Prezident İ.İnönü CXP-nin lideri kimi bildirdi ki, bunları partiya daxilində etməsinlər, partiyadan çıxıb qarşımıza keçsinlər, təşkilatlarını qursunlar və ayrı partiya olaraq mücadiləyə girişsinlər (4). Dördlərin lideri C.Bayarın mətbuat qanununa dəyişiklik haqqında layihə hazırlayıb Məclisə təqdim etməsi müxalif dairələrinin öz fikirlərini mətbuatda geniş təbliğ üçün əlverişli şərait yaratdı A.Menderes və F.Köprülünün mətbuatdakı yazıları CXP içərisində ziddiyyətləri daha da kəskinləşdirdi. Sentyabr ayında C.Bayar partiya üzvlüyündən və millət vəkilliyindən istefa verdi. Bir neçə gün sonra isə A.Menderes və F.Köprülü partiyadan xaric edildilər. Partiya yoldaşlarını müdafiə etmək üçün mətbuatda müzakirə açan R.Koraltan da partiya nizamnaməsini pozduğuna görə CXP-dən çıxarıldı. Lakin dördlər yeni partiya yaratmaq haqqında müzakirələr apardığı bir vaxtda məlum oldu ki, tanınmış sənayeçi Nuri Demirağ 7 iyul 1945-ci ildə Milli Kalkınma Partiyası yaratmaq məqsədilə Daxili İşlər Nazirliyinə müraciət etmişdir.

Milli Kalkınma Partiyasının yaradılması Sovetlərin diqqətindən yayınmadı. Hələ 1945-ci ilin iyun ayında bu partiyanın yaradıcıları ilə bağlı məlumatlar, habelə partiyanın 38 maddədən ibarət olan nizamnamə layihəsi rus dilinə tərcümə edilib Moskvaya göndərilmişdi. Milli Kalkınma Partiyasının Nizamnamə layihəsində Türkiyədə dövlət sisteminin dəyişdirilməsi, hökumətin Qərbə yönəlik xarici siyasətinin əksinə olaraq İslam birliyi və Şərq federasiyası yaradılması kimi məsələlərdən söhbət açılırdı. Partiyanın rəhbər heyətində N.Demirağın sədr, Hüsnü Avnı Ulaşın baş katib, L.Barnovalı, A.H.Şakar, M.K.Kacar, B.Bohac, Z.Ok və digərlərinin rəhbər komitənin üzvləri kimi təmsil olunduğu bildirilirdi (5). Lakin 1946-cı ilin əvvəllərində H.A.Ulaş və bir sıra digər təşkilatçı şəxslər partiyadan ayrıldılar. Demokrat partiyasının yaranması ilə Milli Kalkınma tədricən siyasi səhnədən sıxışdırılib çıxarıldı, bələdiyyə və parlament seçkilərində elə bir uğur qazana bilmədi.

1945-ci ilin dekabr ayının əvvəllərində yeni partiya quracağı barədə C.Bayar cəmiyyətə açıqlama verdi. 1946-cı il yanvar ayının 7-də Demokrat partiyası rəsmən quruldu. Elə həmin gün keçirdiyi mətbuat konfransında C.Bayar partiyanın məramı və hədəfləri barədə jurnalistlərə məlumat verdi, R.Koraltan partiyanın proqram və nizamnaməsini hökumətə təqdim etdi. DP qısa bir müddət ərzində ətrafına xeyli üzv toplaya bildi. Proqram məqsədlərinə görə CXP-dən elə də fərqlənməyən DP Türkiyə Konstitusiyasının dərhal və heç bir istisna olmadan tətbiq edilməsini, xalqın geniş dairələrinin idarəçiliyə cəlb edilməsini, ümumi işlərdən daha çox pay almasını əsas hədəf kimi göstərirdi.

DP-nin yaranması istər ölkə daxilində və istərsə də onun hüdudlarından kənarda çox maraqla qarşılandı. Milli Kalkınma partiyasını özünə rəqib görməyən CXP Demokrat partiyasının timsalında artıq güclü bir

rəqibin, tanınmış siyasətçilərdən təşkil olunmuş nüfuzlu bir müxalifət partiyasının siyasi səhnəyə çıxmasının fərqində idi. Ölkə daxilində olduğu kimi, onun xaricində də DP-yə bəslənilən ümidlər böyük idi. Qərb ölkələrinin siyasi dairələrində və mətbuatında onun yaranması xoş bir təəssürat yaratmışdı. Britaniyada "Tayms", "Mançestr Qardian" kimi nüfuzlu qəzetlər DP-nin yaranmasını rəğbətlə qarşılayırdı. "Mançestr Qardian"ın fikrincə, müxalifət partiyasının yaranması ilə bağlı bəzi türk dairələrin türk birliyinin təhlükədə olması haqqında narahatlığı yersiz idi. Qəzetə görə nə Celal Bayarın şəxsində, nə də onun partiyasının siyasətində belə bir narahatçılıq üçün heç bir əsas yox idi (6).

Lakin diplomatik yazışmalar Sovetlər Birliyinin Türkiyədə müxalifətin C.Bayar, F.Köprülü və digərlərinin simasında yaranmasından narahatlığını göstərirdi. C.Bayar Sovetlərin köhnə düşməni sayılırdı və hələ Baş nazir olduğu müddətdə Ankaradakı Sovet səfirliyi İ.İnönü, Ş.Saracoğlu və digərləri ilə müqayisədə təpədəndırnağa qədər Qərbə meylli siyasətçi kimi onun haqqında Moskvaya yetərincə məlumat vermişdi. C.Bayarın yenidən böyük siyasətə qayıtmasını Sovet hakim dairələri Türkiyənin Qərbə inteqrasiyasını sürətləndirəcək amil kimi qiymətləndirirdilər. F.Köprülü isə Sovetlərin təbirincə desək, Türkiyənin birinci "pantürkist"lərindən sayılırdı və istər Sovet mətbuatın və istərsə də elmi ədəbiyyatında o, yetərincə tənqid olunmuşdu. Hələ 1926-cı ildə Ə.Hüseynzadə ilə birlikdə Bakıda keçirilən birinci türkoloji qurultaya gələrkən Sovet xüsusi xidmət orqanları Tiflis-Bakı qatarında F.Köprülü və Ə.Hüseynzadənin Sovet quruluşu haqqında nə düşündüklərini öyrənmək üçün onları izləyirdi. Hətta qurultayın ğedişində onlar xüsusi xidmət orqanlarının adamları ilə əhatə olunmuşdular. Onların latın əlifbasına keçməyin əleyhinə edə biləcəkləri hər hansı fikrə qarşı cavab verməkdən ötrü xüsusi çıxışçılar hazırlamışdılar. Bu baxımdan müharibədən sonra müxalifət liderlərinin biri kimi siyasi səhnəyə çıxan F.Köprülü bir növ Sovetlərin köhnə "dostu" idi.

C.Bayar, F.Köprülü, A.Menderes və digər tanınmış adamların daxil olduğu DP-nin təşkilatlanması elə sürətlə gedirdi ki, CXP iqtidarı TBMM-nə 1947-ci ildə olacaq seçkiləri bir il irəli çəkməli oldu. Onlar belə düşünürdülər ki, Məclis seçkilərinin 1947-ci ildə keçirilməsi DP-nin daha artıq təşkilatlanması və bütövlükdə iqtidarı ələ alması ilə nəticələnə bilər. Ona görə də Xalq Partiyası öz imkanlarından istifadə edib DP-ni hazırlıqsız olaraq seçimlərə sürükləyirdilər.

Yaranmış şəraitdə CXP özü də yeniləşməyə məcbur idi. Təkpartiyalı sistem dövrü üçün nəzərdə tutulmuş bir sıra məsələlər dəyişdirilməli idi.Bu məqsədlə 1946-cı ilin may ayında Xalq Cümhuriyyətçi Partiyanın fövqəladə qurultayı çağırıldı, proqram və nizamnamədə bəzi dəyişikliklər edildi. İ.İnönü dəyişməz Başkan və Milli lider adlarından imtina etdi.

Artıq müxalifət partiyaları qurulduğu üçün CXP-nin tərkibində müstəqil qurum ləğv edildi. Genel Başkanın qurultayda seçilməsi ilə bağlı nizamnamədə düzəliş edildi. Ancaq bütün bunlara baxmayaraq seçkilərə nəzarət mexanizmi hələ ki, CXP-nin və onun iqtidarının əlində idi və onlar sürətlə dəyişən dünyada, habelə ona inteqrasiya olan ölkədə sabah hansı vəziyyətin yaranacağından əmin olmadıqları üçün seçkiləri vaxtından əvvəl keçirmək istəyirdilər. Qurultaydakı açılış nitqində İ.İnönü deyirdi ki, öz daxili idarəsmi xarici məmləkətlər qarşısında pisləmə təşəbbüsünü Türkiyədə vətəndaşların xoş qarşılamayacağına əmindir. İqtidara qarşı siyasi partiyalar təşkil edib sonra xalqı seçki məntəqəsinə getməkdən çəkindirmək, vətəndaşları hazırkı mücadilə yolundan ayırmaq deməkdir (7).

Prezident İ.İnönü 1946-cı ilin may ayının sonlarında Şərq vilayətlərinə səfər edərək bir tərəfdən Sovet təhlükəsinə qarşı bu vilayətlərin əhalisinə mənəvi dəstək verməyi düşünürdüsə, digər tərəfdən parlament seçkilərinin qabağa çəkilməsi imkanlarını və Xalq partiyasının bu seçkilərdə vəziyyətini müəyyənləşdirmək istəyirdi. Bu səfər zamanı müşahidə etdiyi vəziyyət seçkilərin önə çəkilməsi ilə bağlı İ.İnönünün fikrini qətiləşdirdi. Seçkilərin qabağa çəkilməsini əsaslandıraraq prezident İ.İnönü qeyd edirdi ki, seçkiləri təbii olaraq 1947-ci ildə keçirilməsini düşünürdük. Lakin xarici və daxili siyasətdən irəli gələn bir sıra zərurətlər ölkənin idarəsmin daha əvvəl etibarlı edilməsi məcburiyyətini göstərdi. Çünki dünyanın vəziyyəti keçən il təxmin etdiyimizdən daha qarışıq və qaranlıqdır. Nə kimi ehtimallar qarşısında qaldığımızı bilməyirik. Bu ehtimalları qarşıdakı il təmsilçilik müddəti bitmiş bir məclislə qarşılamaq istəmirik. Bir ildən bəri məmləkət içində də böyük məclisin nüfuzu ilə bağlı saygılı olmayan müzakirələr getmişdir. Heç bir siyasət ölkə içində və onun xaricində nüfuzuna şübhə edilən bir məclislə həyata keçirilə bilməz (8). Bu fikirlərə uyğun olaraq CXP-nin yeni seçki qanunu may ayının 31-də Millət Məclisinə təqdim edildi, gərgin müzakirələrdən sonra 5 iyun 1946-cı ildə dəyişdirildi. İyun ayının 10-da isə TBMM 385 səslə seçkilərin qabağa çəkilib 21 iyul 1946-cı ildə keçirilməsinə qərar verdi.

Müharibədən sonrakı dövrdə çoxpartiyalı sistemə keçid tək DP və MKP ilə məhdudlaşmadı. 1946-cı ildə 13 partiyanın qurulması üə bağlı Daxili İşlər Nazirliyindən icazə alınmışdı ki, bunların içərisində də müxtəlif sol yönlü sosialist və islamı qorumaq adı ilə təsis olunan bəzı dini partiyalar var idi. Lakin bunların heç biri DP kimi perspektivli və uzunömürlü olmadı. DP 1946-cı ildə keçirilən məhəlli seçkiləri boykot etsə də və parlament seçkilərinin qabağa çəkilməsi əleyhinə qızğın təbliğat aparsa da, son anda Millət Məclisinə təyin olunmuş seçkilərdə iştirak edəcəyini açıqladı. 1946-cı ilin may ayında Ankaradakı Sovet səfirliyi Moskvaya yazırdı: "Demokrat partiyasının gücü artmaqda davam edir. O indi CXP-nin güclü rəqibinə çevrilmişdir. Bu vəziyyət hökumət

partiyasının müqavimətini artırmışdır, onlar müxtəlif yollarla öz təbliğatlarını gücləndirir, yeni partiyanın kütləviləşməsinin qarşısını almaq vasitəsi ilə öz mövqelərini möhkəmləndirmək istəyirlər. Partiyaların arasında mübarizənin güclənməsi mətbuatı əsasən iki düşərgəyə parçalamışdır. CXP tərəfindən maliyyələşdirilən və hökumət dairələrinə Yaxın olan mətbuat bütövlükdə Xalq partiyasını müdafiə edir, ölkədə dəyişiklik istəyən, demokratik azadlıqların verilməsini tələb edən çox müxtəlif qrup və cərəyanlara yaxın olan mətbuat isə bu mübarizədə Demokrat partiyasını dəstəkləyir. CXP bütün yollarla müxalif fikirli mətbuatın çıxmasına maneçilik törədir. Məsələn, hökumətə yaxın olan "Son Teleqraf qəzetinin mətbəəsində çıxan müxalif yönlü "Hürsəs" qəzetinə mətbəə xidməti göstərilməsindən imtina edilmişdi və bu da sonuncunun öz nəşrini dayandırması ilə nəticələnmişdi. Bu tipli maneçiliklər çox olduğundan DP-nin rəhbərlərindən biri olan A.Menderes mətbuatda çıxış edib partiyalarının inkişafından razılığını ifadə etməklə yanaşı Xalq partiyasının üzvü olan bir sıra məmurların DP-nin güclənməsinə mane olmaq cəhdlərini kəskin şəkildə pisləmişdi. Onun bu bəyanatı DP-ni müdafiə edən mətbuat tərəfindən hiddətlə qarşılanmışdı və qəzetlər tələb edir ki, hökumət belə halların qarşısını almalıdır" (9). Sovet səfirliyi bir qədər sonra göndərdiyi məlumatda qeyd edirdi ki, CXP-nin əvvəlcə bələdiyyə, sonra isə parlament seçkilərini tez keçirib, Demokrat partiyasının yerlərdə təsirini genişləndirməsinə qədər öz hakimiyyətini möhkəmləndirmək cəhdləri iki düşərgə arasında və onları müdafiə edən mətbuat orqanları arasında mübarizəni yetərincə gücləndirmişdir. DP-ni müdafiə edən mətbuat indi əvvəlkindən daha sərt və daha güclü şəkildə CXP-nin, hökumətin və Məclisin fəaliyyətini tənqid edir (10).

Sovet səfirliyinin fikrincə, CXP 1946-cı il may ayının 26-da keçirilən yerli seçkilərdə müxalifət partiyalarının güclənməsinin qarşısını almaq, Xalq partiyası namizədlərinin qələbəsini təmin etmək və seçkidə iştirak edənlərin faizini şişirtmək üçün hər cür saxtakarlıqlara əl atmışdı. Bütün bunlar müxalifət partiyalarının və onları müdafiə edən mətbuatın kəskin etirazına səbəb olmuşdu. İyun ayı ərzində Demokrat partiyasını müdafiə edən müxalifətyönlü qəzetlər iqtidarın seçki hiylələri barədə çoxlu faktlar dərc etmişdi. Müxalifətin hücumları fonunda özünümüdafiə mövqeyi tutan iqtidar isə daha çox ağır və arzuolunmaz beynəlxalq şəraitdə seçkilərin keçirilməsinin zəruriliyini, Türkiyədə xalqın iradəsinə dayanan parlament və hökumətin olmasının vacibliyini əsaslandırmağa çalışırdı. 1946-cı ilin parlament seçkiləri kampaniyası bütövlükdə antisovet təbliğat dalğasının güclənməsi fonunda gedirdi. Sovet səfirliyinin Moskvaya göndərdiyi məlumatda türk ictimaiyyətinin "bolşevik təhlükəsi" ilə qorxudulması, beynəlxalq vəziyyətin ağırlığı üçün bütün məsuliyyətin SSRİ-nin üzərinə qoyulması seçkiqabağı təbliğatın əsas

istiqaməti kimi göstərilir və bunları seçkilərin keçirilməsini zəruri edən başlıca dəlil kimi əsaslandırırdılar (11).

Təşkilatlanması başa çatdırılmadan, erkən yaxalanmış "Açıq səs gizli təsnif qaydasında keçirilən 1946-cı il 21 iyul seçkilərində DP elə də böyük uğur qazanmadı. Hələ namizədlərin verilməsi mərhələsində demokratlar parlamentdəki 465 millət vəkili yerindən yalnız 273-nə namizədlər göstərə bilmişdi. Lakin bir sıra nüfuzlu müstəqil namizədlərin məsələn marşal F.Çakmak kimi tanınmış bir adamın DP siyahısı ilə seçkilərə qatılması onların tərəfdarlarının da demokratlara səs verməsi ilə nəticələnmişdi. 21 iyul seçkilərində daha çox böyük şəhərlədə qələbə qazanan DP iqtidarın nəzarətinin güclü olduğu əyalətlərdə və qapalı müəssisələrdə ciddi uğurlar qazana bilməmişdi. Seçkilərdən sonra bölgələrin çoxundan gələn şikayətlər səsvermənin gedişinə idarə müdirlərinin təzyiqlərini, DP səslərinin sayılmamasını, seçki qutularını qaçırılmasını və s. göstərirdi. Türk demokratiyası tarixinə "Hiyləli seçimlər" kimi daxil olmuş ilk çoxpartiyalı seçkilərdə CXP 395, DP 64, müstəqillər isə 6 millət vəkili yeri qazandılar. 1946-cı il seçkilərinə hiylə qatıldığını, xüsusilə onun nəticələrinin İstanbul üçün doğru olmadığını sonralar prezident İ.İnönü özü də etiraf etmişdi.

Müxalifət yönlü mətbuat seçki saxtakarlığına o qədər sərt formada hücuma keçmişdi ki, bir sıra yerlərdə, xüsusilə İstanbul və ətrafında senzura idarəsi seçkilərlə bağlı dərin araşdırmaların xalqın düşüncəsinə mənfi təsir göstərəcəyini əsas gətirib mətbuata bəzi qadağalar qoymuş və bununla da baş verən saxtakarlıq hallarını unutdurmağa çalışmışdı. Seçki günündən sonra böyük şəhərlərdə DP-nin hökumət əleyhinə təşkil etdiyi etiraz nümayişləri hökuməti doğrudan-doğruya həyəcana salmışdı. Ankara şəhərində partiyanın təşkil etdiyi möhtəşəm mitinqdə Xalq partiyasının fəaliyyəti kəskin tənqid edildi. Lakin seçki saxtakarlığı haqqında daha sərt materiallar verən "Yeni sabah" və "Gerçək" qəzetlərinin bağlanması digər müxalifət mətbuatını ehtiyatlı davranmağa vadar etdi.

Avqust ayının ilk günlərində F.Köprülünün "Vatan" qəzeti müxbirinin suallarına cavabı siyasi ehtirasları yenidən coşdurdu. O, qeyd edilən müsahibəsində bildirmişdi ki, Xalq partiyasının müxalifətə qarşı iyrənc və böhtan xarakterli təbliğatı təzyiq və təhdidlərin köməyi ilə Demokrat partiyasını nüfuzdan salmağa və onu dağıtmağa yönəlmişdir. F.Köprülünün fikrincə, indi ölkədə müşahidə edilən demokratik hərəkatın inkişafı iqtidar dairələrinin iddia etdiyi kimi Cümhuriyyətçi Xalq partiyasının və onun hökumətinin deyil, bilavasitə xalqın öz təşəbbüsünün nəticəsi idi. Bundan əlavə, F.Köprülü İ.İnönü hakimiyyətə gəldikdən sonra hökumətin yeritdiyı xarici siyasəti kəskin şəkildə tənqid etdi. O, bildirdi ki, əgər hakimiyyətə həqiqətən demokratik hökumət gəlsəydi, onda Türkiyə dünyanın bütün

demokratik ölkələrinin səmimi rəğbətini qazanardı (12). F.Köprülünün bu bəyanatına qarşı çıxış edən hakimiyyət dairələri və onlara yaxın olan mətbuat sübut etməyə çalışırdı ki, bilavasitə Xalq partiyası ölkənin siyasi həyatının demokratikləşməsinin başlanğıcını qoyub və elə DP özü də CXP-nin təşəbbüsü ilə yaranıb. Xüsusilə F.Köprülünün xarici siyasətlə bağlı fikirləri daha kəskin tənqidlərə məruz qaldı və o, "Türkiyənin başı üzərini almış təhlükə"ni görməməkdə, bu təhlükəni yetərincə qiymətləndirməməkdə ittiham edilirdi. Sovet təhlükəsinin gücləndiyi şəraitdə hökumətin Britaniya və Amerika ilə dost və ittifaq əlaqələri qurması mətbuat səhifələrində onun böyük uğuru kimi qiymətləndirilirdi.

21 iyul seçkilərindən sonra yeni yaradılacaq hökumətə kimin başçılıq edəcəyi və onun tərkibinin kimlərdən ibarət olacağı barədə çoxlu söz-söhbət dolaşırdı. Baş nazir vəzifəsinə namizəd kimi daha çox Ş.Saracoğlu və Recep Pekerin adları hallandırılırdı. Lakin seçki dövründə genişlənən mitinq və nümayişlərdən hiddətə gələn rəsmi mətbuat məsələni belə qoyurdu ki, hökumətə kimin başçılıq etməsindən asılı olmayaraq, onun qarşısında duran başlıca vəzifə ölkədə qayda-qanunu və sakitliyi bərpa etməkdən ibarət olmalıdır. Eyni zamanda Xalq partiyası yetkililəri xarici təhlükənin güclü olduğu bir şəraitdə dempartiyanı barışığa çağırır və seçki dövründə olan bütün mübahisələri unutmağı tövsiyə edirdi.

Yeni seçilmiş səkkizinci çağırış Millət Məclisinin birinci sessiyasının açılışı ərəfəsində hər iki partiya yeni hökumətin qurulması haqqında fərqli fikirlərə malik idilər. Sessiyanın açılmasından bir neçə gün əvvəl artıq yeni hökumətin R.Peker tərəfindən qurulacağı və hökumət kabinetinin yeniləşdiriləcəyi barədə Ankaradakı Sovet səfirliyində məlumatlar var idi. Sessiyadan qabaq CXP parlament qrupunun iclasında ölkə prezidentliyinə İ.İnönünün, Millət Məclisinin sədrliyinə isə K.Karabəkir paşanın namizədliyi irəli sürüldü. Sovet səfirliyi Moskvaya göndərdiyi məlumatda Kazım paşanı keçmişdə Atatürkün qatı əleyhdarı və irticaçı görüşləri ilə tanınan bir şəxs kimi xarakterizə edirdi (13). K.Karabəkir paşaya Sovet səfirliyinin belə mənfi münasibəti 1945-ci ilin dekabrında Millət Məclisində SSRİ-nin Türkiyəyə qarşı ərazi iddialarını ifşa edən çıxışı ilə bağlı idi. Bu çıxış türk xalqının ictimai şüurunda antisovet fikirlərin formalaşmasına ciddi təsir göstərmişdi.

Öz növbəsində Demokratik partiya Millət Məclisinin sədrliyinə Sinopdan seçilmiş deputat Yusif Kemal Tenqirşenkin, ölkə prezidentliyinə isə marşal Fevzi çakmakın namizədliyini irəli sürmüşdü. Nəhayət, 1946-cı ilin avqust ayının 5-də yeni seçilmiş Məclisin birinci sessiyası işə başladı. Böyük səs çoxluğu ilə K.Karabəkir Məclisin sədri, İ.İnönü isə ölkənin prezidenti seçildi. Yeni seçilən prezidentin Məclisdə and içməsi zamanı Xalq partiyasından olan deputatların hay-küylü təbriklərinə etiraz əlaməti olaraq müxalifətdən olan millət vəkilləri ayağa durmadılar.

İqtidar nümayəndələri və onlara Yaxın olan mətbuat müxalifətçi deputatların bu hərəkətini "milli tarixdə ləkə kimi" xarakterizə edir, hətta seçkilər qurtardıqdan sonra belə onların öz "ehtiraslı çəhdlərindən" əl çəkmədiklərini bildirirdilər.

Avqust ayının 6-da prezident İ.İnönü hökumət kabinetinin təşkil edilməsini R.Pekerə tapşırdı. R.Peker 1889-cu ildə İstanbulda doğulmuş 1907-ci ildə hərbi məktəbi, 1914-cü ildə isə; Baş qərargahın hərbi akademiyasını bitirmişdi. Birinci Dünya müharibəsi illərində o, Qafqaz cəbhəsində xidmət etmiş, 1919-cu ildən milli hərəkata qoşulmuş, 1920-ci ildən Baş qərargahın ikinci bölməsinə rəhbərlik etmiş, 1923-cü ildə isə Məclisə seçilmiş, CXP-nin Baş katibi olmuşdu. R.Peker, 1925-27-ci illərdə Türkiyə Müdafiə Nazirliyinə, 1928-30-cu illərdə isə İctimai İşlər Nazirliyinə rəhbərlik etmişdi. Bir çox çağırışlarda Millət Məclisinin deputatı olan R.Peker 1942-ci ildə daxili işlər naziri təyin edilmişdi. Keçmiş hərbçi kimi R.Peker ölkədə çoxpartiyalı sistemin və müxalifət partiyalarının yaranmasinin qəti əleyhdarı idi. Görünür, müxalifətin gücləndiyi bir şəraitdə bu keyfiyyətlər onun Baş nazir təyin edilməsində az rol oynamamışdı (14).

Avqust ayının 14-də yeni hökumət öz proqramını Məclisə təqdim etdi. Hökumətin proqramı üç hissədən: daxili və xarici siyasət, habelə iqtisadiyyat bölməsindən ibarət idi. Xarici siyasət bölməsində R.Peker bildirirdi ki, hökumət əvvəlki siyasəti davam etdirəcək, Qərb ölkələri ilə münasibətlər, ölkənin suverenliyinin və ərazi bütövlüyünün qorunacağı xarici siyasatdə üstün istiqamətlər kimi inkişaf etdiriləcəkdir. O, açıq şəkildə bəyan etdi ki, Türkiyənin xarici siyasətinin əsasını ingilis-türk ittifaqı təşkil edir (15).

Vaxtilə Şərq cəbhəsində vuruşmuş general Kazım Karabəkirin Məclis sədrliyinə və eyni cəbhədə xidmət etmiş R.Pekerin Baş nazir vəzifəsinə gətirilməsi, habelə hökumətin tərkibinə bir sıra yüksək rütbəli hərbçilərin daxil edilməsi Türkiyənin başı üzərini almış Sovet təhlükəsi ilə izah edilirdi. Bu təhlükənin yeni təzahürünü gözləmək çox da uzun çəkmədi. R.Peker hökuməti qurulduqdan bir gün sonra, avqust ayının 7-də "Qara dəniz Boğazlarına dair Montrö Sazişi haqqında" SSRİ Xarici İşlər Nazirliyinin notası Türkiyə hökumətinə təqdim edildi. Orada deyilirdi: "Keçən müharibə zamanı baş verən hadisələr aydın göstərdi ki, Boğazlar haqqında 1936-cı ildə imzalanmış Montrö Sazişilə müəyyən edilmiş Qara dəniz Boğazlarının idarə edilməsi qaydası Qara dəniz dövlətlərinin təhlükəsizliyi mənafeyinə uyğun gəlmir və Qara dəniz dövlətlərinə düşmənçilik məqsədilə bu Boğazlardan istifadə edilməsinin qarşısını ala bilən şərtləri təmin etmir". Sonra notada müharibə dövründə Boğazlardan ox dövlətlərinin hərbi gəmilərinin Qara dənizə keçməsi barədə bir sıra faktlar sadalanırdı. Bu faktları sadalamaqda məqsəd, guya Montrö konvensiyasının etibarlı müdafiə sistemi üçün yararsız olduğunu

əsaslandırmaq və Türkiyənin belə bir vəziyyət üçün məsuliyyət daşıdığını xatırlatmaq idi. SSRİ Xarici İşlər Nazirliyinin notasında Montrö Sazişinə baxılması ilə bağlı Potsdam konfransının qərarı yada salınır və orada göstərilirdi: "Sovet hökuməti bu məsələ haqqında Türkiyə hökumətinə ABŞ hökumətinin 1945-ci il 2 noyabr tarixli və Britaniya hökumətinin 1945-ci il 21 noyabr tarixli notalarının məzmunu ilə də tanış edilmişdir. Sovet hökuməti aşağıdakı prinsipləri əsas tutaraq Boğazlar üçün yeni idarə qaydası müəyyən etməyi öz tərəfindən təklif edir:

1. Boğazlar bütün ölkələrin ticarət gəmilərinin keçməsi üçün həmişə açıq olmalıdır.
2. Boğazlar Qara dəniz dövlətlərinin hərbi gəmilərinin keçməsi üçün həmişə açıq olmalıdır.
3. Xüsusi surətdə nəzərdə tutulan hallardan başqa qeyri - Qara dəniz dövlətlərinin hərbi gəmilərinin Boğazlardan keçməsinə, yol verilməməlidir.
4. Qara dənizdən çıxmaq və Qara dənizə girmək üçün yeganə dəniz yolu olan Boğazların idarə edilməsi qaydasını müəyyən etməyə Türkiyənin və başqa Qara dəniz dövlətlərinin səlahiyyəti olmalıdır.
5. Ticarət gəmilərinin sərbəst hərəkətində və Boğazların təhlükəsizliyində daha çox mənafeyi olan və bunları təmin edə bilən dövlətlər olmaq etibarilə Türkiyə və Sovet İttifaqı Qara dəniz dövlətlərinə düşmənçilik məqsədilə başqa dövlətlərin Boğazlardan istifadə etməsinin qarşısını almaq üçün Boğazların müdafiəsini əlbir vasitələrlə təşkil edirlər" (16). Eyni zamanda Sovet hökuməti bu notanı SSRİ-nin London və Vaşinqtondakı səfirləri vasitəsi ilə Britaniya və ABŞ hökumətlərinə də çatdırmışdı.

Sovet notası alındıqdan bir gün sonra yeni Türkiyə hökumətində xarici işlər naziri vəzifəsini saxlamış H.Saka onun barəsində Amerika və İngiltərə səfirliklərinə məlumat verdi. O bildirirdi ki, Sovet təklifləri içərisində ən ciddi məsələ Boğazlara görə SSRİ-nin və Türkiyənin birgə məsuliyyət daşıması haqqında tələbidir. Bu Boğazlarda hərbi bazalar yaratmaq tələbinin bir qədər dolaşıq formada təzahürü idi. Ankaradakı Amerika səfiri E.Vilson Dövlət katibinə avqust ayının 8-də göndərdiyi məlumatda yazırdı ki, Türkiyə hökuməti Sovet notasına öz cavabını ABŞ və Britaniya hökumətlərinin mövqelərini açıqladıqdan təxminən on gün sonra bildirmək niyyətindədir (17).

SSRİ-nin Vaşinqtondakı səfirinin müavini F.Orexovdan Türkiyəyə təqdim edilmiş Sovet notasının mətnini aldıqdan və Ankaradakı səfir E.Vilsondan müvafiq məlumatları qəbul etdikdən sonra Dövlət Departamentinin Yaxın Şərq məsələləri üzrə bölməsi Sovet təkliflərini ətraflı müzakirə edib öz tövsiyələrini Yaxın Şərq və Afrika məsələləri üzrə departamentin direktoru L.Hendersona təqdim etdi. Orada göstərilirdi ki,

Sovetlərin təklifləri Amerikanın Boğazlarda nəqliyyat tənzimlənməsi barədə fikirlərini özündə əks etdirsə də, bu təkliflər ABŞ-ın Montrö Konvensiyasını BMT-nin himayəsi altında yenidən gözdən keçirilməsi ideyasından yetərincə uzaqdır. SSRİ-nin təklifləri BMT-nin mövcudluğuna məhəl qoymur və Boğazlardakı rejimdə Qara dəniz dövlətlərindən başqa heç bir ölkənin marağını nəzərə almır. Beləliklə də, Montrö Konvensiyasına imza atan Fransa, Böyük Britaniya, Yunanıstan, Yuqoslaviya və imza atmayan ABŞ Rusiyanın standartlarına əsasən Boğazlardakı maraqlarından məhrum olacaqlar. Ona görə Yaxın Şərq məsələləri üzrə bölmə öz memorandumunda təklif edirdi ki, ABŞ Boğazların silahsızlaşdırılmasını dəstəkləməlidir. Bu mümkün olmadığı təqdirdə ABŞ Türkiyədən başqa hər hansı millətə Boğazlarda baza yaratmaq və ya burada hər hansı hərbi nəzarət hüququnu verə biləcək istənilən təklifə qarşı olmalıdır. Sovet notasında Türkiyənin müharibə dövründə guya Boğazlara effektli nəzarət edə bilməməsi və Montrö Konvensiyasının buna cavab verməməsi ilə bağlı irəli sürülən faktlar Yaxın Şərq bölməsinin memorandumunda bir qədər ayrı səpgidə şərh edilirdi. Orada göstərilirdi ki, Montrö Konvensiyasında hərbi gəmilərə verilən tərifə görə Boğazlardan buraxılan gəmilər hərbi gəmilər deyil sərhəd və ticarət xidmətini yerinə yetirən gəmilər olmuşdur. Digər tərəfdən, Montrö Konvensiyasına görə 100 tondan aşağı su tutumu olan səth gəmisi savaş gəmisi kimi qəbul olunmur. SSRİ-nin notasında adı çəkilən "Ems" tipli gəmilər 40-50 ton su tutumuna malik idilər. Bundan əlavə memorandumda qeyd edilirdi ki, ümumiyyətlə, ox ölkələrinin üstünlüyü dövründə türklər heç bir tərəfə meyllilik göstərməməklə düzgün hərəkət edirdilər. Lakin müttəfiqlərin nüfuzu artdıqca onlar Montrö Konvensiyasını daha çox müttəfiqlərin xeyrinə şərh edirdilər. Alman qoşunları Yunan adalarından təmizləndikdən sonra Türkiyə hökuməti Sovetlərə yük daşıyan ilk müttəfiq gəmilərini həvəslə qarşıladı və Boğazlardan onların istifadəsinə şərait yaratdı. Sovet notasına münasibətdə Ankaranın mövqeyinə gəldikdə isə memorandumda qeyd edilirdi ki, türklər Rusiyanın 7 avqust tarixli notası ilə bağlı elə də narahat deyillər. Onlar bu notaya ABŞ və Britaniyanın mövqelərini öyrəndikdən on gün sonra cavab verəcəklərini müəyyənləşdiriblər. Ən nəhayət, memorandumda tövsiyə edilirdi ki, ABŞ Türkiyənin bu məsələ ilə bağlı mövqeyini bildirmək xahişinə sadəcə olaraq 2 noyabr 1945-ci ildə elan etdiyi mövqeyinin dəyişməz qaldığını söyləməklə cavab verməlidir. Türklərə qeyri-rəsmi olaraq çatdırıla bilər ki, ABŞ BMT-nin prinsiplərinə tam cavab verməyən heç bir rejimi dəstəkləməyəcək. Eyni zamanda amerikanlar türklərin Boğazlardakı gələcək rejimlə bağlı mövqelərini mülayim formada SSRİ-yə bildirmələrini uyğun hesab edirdilər. Onların fikrincə, bu vaxt qazandıra bilər və 1946-cı ilin iyulunda işə başlamış Paris sülh konfransında gərginliyin aradan qaldırılmasına imkan verə bilərdi (18).

Sovet notası alındıqdan bir gün sonra H.Saka Ankaradakı Britaniya səfiri Kelli ilə görüşdü. O, notanı şərh edərkən əsasən 4-cü bəndin üzərində dayanıb problemin mahiyyətinin həmin bənddən ibarət olduğunu və Sovetlərin Boğazlardakı artıq məlum olan bazalar istəyinin əsasən bu bənddə açıqlandığını bildirdi. H.Saka qeyd etdi ki, Konvensiyaya Sovetlərin yenidən baxmaq tələbi rəsmi olaraq onu imzalamış ən azı iki dövlət tərəfindən dəstəklənməlidir. Lakin Türkiyə məsələnin texniki tərəflərində maraqlı deyil və Türkiyənin suverenliyi nəzərə alınacağı təqdirdə Ankara konvensiyasının yenidən gözdən keçirilməsi ilə bağlı konfransın təşkil edilməsinə razı ola bilər. Xarici işlər naziri ABŞ və Birləşmiş Krallıqla məsləhətləşməyincə və onların mövqeyini öyrənməyincə Sovet İttifaqının notasına cavab verməyəcəklərini söylədi (19).

Avqust ayının 9-da H.Saka Amerika səfirliyinin məsləhətçisi Herbert Börslinlə görüşdü və Sovet notası ilə bağlı məsələləri müzakirə etdi. H.Saka bildirdi ki, Türkiyə hökumətinin müharibə dövrü ilə bağlı ittihamlara özünün cavabı var. Onun fikrincə, Berlində üç dövlət başçısı Boğazlar barəsində yeni rejim deyil, Montrö konvensiyasının yenidən gözdən keçirilməsi haqqında razılaşıblar. Buna görə də Sovet notası Berlin razılaşmasının mahiyyətinə ziddir. Türkiyə tərəfi belə hesab edirdi ki, Sovet notasında irəli sürülən ilk üç bəndi müəyyən şərtlər daxilində müzakirə etmək olardı, lakin dörd və beşinci bəndlər Ankara üçün qəbul edilməz idi. Vaşinqtona göndərilən məlumatda Ankaradakı ABŞ səfirliyi bildirirdi ki, H.Saka dörd və beşinci bəndləri müzakirə edərkən daha qətiyyətli təsir bağışlayırdı. O, bundan daha betərini gözləyən adam təəssüratı oyadırdı. H.Saka özünü qayğılı göstərsə də, əslində hədsiz dərəcədə narahat görünmürdü, ancaq güman ki, məsələni daha ciddi qəbul edirdi (20).

Sovet notası ilə bağlı avqust ayının 12-də E.Vilson Dövlət katibinə öz tövsiyələrini göndərdi. O, açıq formada yazırdı ki, bu cür təkliflərin qəbul edilməsi Türkiyənin müstəqilliyinin sonu demək olardı. E.Vilson əlavə edirdi ki, Türkiyənin müstəqilliyi ABŞ üçün həyati əhəmiyyət kəsb edir. Əgər Türkiyə SSRİ-nin nəzarəti altına düşərsə, Sovetlərin İran körfəzinə və Süveyşə çıxış yolunda son maneə aradan qalxmış olacaq. Bu baş verdiyi təqdirdə yenidən təhlükə yaranacaq. Xoşbəxtlikdən türklər sözünün üstündə duran millətdir və öz mövqelərini müdafiə etməkdə israrlıdırlar. Onlar Yaxın Şərqdə sülh və sabitliyin təmin olunması üçün aparılan mübarizədə aktiv iştirak edirlər və biz bu fəallığın yox olmasına yol verməməliyik (21).

Boğazlarla bağlı Sovet notası təqdim edildikdən dərhal sonra, hələ notanın mətni mətbuatda çap edilməzdən əvvəl "Pravda" qəzetində Türkiyəyə qarşı kəskin təbliğat kompaniyası işə düşdü. İlk növbədə SSRİ Xarici İşlər Nazirliyinin hazırlayıb nəşr etdirdiyi "Türkiyədə alman siyasəti (1941-

1943-cü illər)" adlı sənədlər toplusunun geniş müzakirəsi başlandı. Y.Viktorov adlı müəllif bu kitabla bağlı avqust ayının 11-də "Pravda" qəzetində "Sənədlər danışır..." adlı geniş məqalə ilə çıxış etdi. Məqalədən aydın olur ki, SSRİ XİN-nin buraxdığı sənədlər toplusuna 1941-ci ilin 14 mayından - 1943-cü ilin 9 mayına qədərki materiallar daxil edilmişdir. Y.Viktorov öz məqaləsində Frans fon Papenin Ankaraya səfir təyin olunması, onun Türkiyə siyasi dairələri ilə görüşlər keçirməsi, türk-alman dostluq müqaviləsinin imzalanması və s. məsələlərə geniş yer vermişdi. Müəllif Türkiyəyə qarşı ittihamları əsasən Almaniya səfiri fon Papenin Berlinə göndərdiyi hesabatlar, teleqramlar üzərində qurmuşdu. Məsələn, Ş.Saracoğlunun alman səfiri ilə danışıqlarda Türkiyənin öz bitərəfliyini saxlamasının zəruri olduğunu bildirməsini "Pravda" qəzeti belə şərh edirdi: "Bitərəflik" sözü Papeni azdırmamalı idi, o yaxşı bilirdi ki, "bitərəflik" pərdəsi türk hakim dairələrinin geniş ekspansionist planlarını gizlətmək üçün idi". Məqalədə çap olunmuş topludakı sənədlərə istinadən almanların Rusiyadakı uğurları fonunda Türkiyə hakim dairələrinin Sovetlər daxilində yaşayan türk xalqlarının, ilk növbədə Azərbaycan türklərinin taleyi ilə daha yaxından maraqlanacaqlarına aid bir sıra faktlar gətirilmişdi (22). Əslində, Y.Viktorovun "Pravda" qəzetindəki məqaləsi və SSRİ XİN-nin buraxdığı toplu bütövlükdə Ankaradakı alman səfiri fon Papenin Berlinə göndərdiyi məlumatlar əsasında yazılmışdı və bunların hər ikisində əsas məqsəd avqust ayının 7-də Türkiyəyə təqdim edilmiş notanı, ümumiyyətlə bu ölkəyə qarşı Sovet tələblərini təbliğati baxımdan əsaslandırmaq idi. Lakin məsələ təkcə bununla qurtarmadı. Avqust ayının 17-də "Pravda" qəzeti akademik L.İvanovun "Qara dəniz Boğazları məsələsi" adlı arayışını dərc etdi. Arayışda Boğazların iqtisadi və siyasi baxımdan, dövlət sərhədlərinin təhlükəsizliyi nöqteyi-nəzərindən hələ 1774-cü ildə imzalanmış Kiçik-Qaynarca sülhündən başlayaraq Rusiya üçün əhəmiyyətindən söz açılır, Birinci Dünya müharibəsi dövründə Rusiya üçün nə qədər böyük təhlükə təşkil etdiyindən danışılırdı. Akademik L.İvanov Boğazlarla bağlı Lozanna və Montrö sazişlərinin təhlilinə geniş yer vermiş, Sovet rəhbərliyi tərəfindən Bosfor və Dardanellə bağlı irəli sürülən tələbləri asaslandırmağa çalışmışdı. 7 avqust Sovet notasında irəli sürülən beş təklifin hər birini ayrı-ayrılıqda açıqlayan L.İvanov belə bir nəticəyə gəlirdi ki, bütün Qara dəniz dövlətlərinin həyati mənafeyi qeyri-Qara dəniz dövlətlərinin Boğazlar rejiminə müdaxilə etməməsini və onların hərbi dəniz qüvvələrinin gələcəkdə Qara dənizə buraxılmamasını tələb edir (23). Göründüyü kimi, akademik L.İvanovun arayışında söhbət ancaq Türkiyədən getmir, bütövlükdə İngiltərə, Fransa və ABŞ kimi dövlətlərin Boğazlarla bağlı məsələlərə Yaxın buraxılmaması nəzərdə tuturdu.

Ən nəhayət, Sovet notasının elan olunduğu böhranlı avqust günlərində Boğazlarla bağlı "Pravda" qəzetinin dərc etdiyi üçüncü böyük yazı qəzetin

xüsusi müxbiri İ.Zolinin yol qeydləri idi. İçində İ.Zolinin də olduğu Sovet turistlərinin Baltik dənizindən çıxıb Kill kanalından, Şimal dənizindən, Biskay körfəzindən, Qibraltar boğazından, Aralıq və Egey dənizi adalarından keçərək böyük bir su yolunu qət etmələrinə baxmayaraq, "Pravda"nın xüsusi müxbirinin yol qeydləri nədənsə ancaq Boğazlar haqqında idi. İ.Zolin nə yazırdı? Yol qeydləri adı altında o, oxucuların nəzərinə çatdırırdı ki, "Sovet matrosları Boğazlar haqqında çox eşidiblər. Onlar dörd il Qara dənizdə vuruşublar. Onlar Boğazlar haqqında Konvensiyanın pozulması ilə Türkiyə hökumətinin Qara dənizə buraxdığı alman və italyan gəmiləri ilə qarşılaşmalı olublar, əgər dənizdə bizim düşmənlərimizin gəmiləri peyda olubsa, deməli Boğazlar bağlı olmayıb. Matroslar soruşurlar: Əgər Türkiyə öz rəyinə uyğun olaraq onu poza bilirsə, belə saziş nəyə gərəkdir? Zabitlər matroslara izah edirlər ki, Boğazlar artıq dəfələrlə bizim düşmənlərimizin əlinə keçib" (24). Beləliklə təxminən bir həftə ərzində Sovet İttifaqının bir nömrəli qəzeti sayılan "Pravda" da Boğazlar məsələsinə dair üç məqalə dərc edilməsi Sovetlərin öz tələblərində nə qədər qətiyyətli olduğunu açıq nümayiş etdirməklə yanaşı, Boğazlarda Sovetlərin nəzarətinin qurulmasının zəruriliyini əsaslandırmaq məqsədi daşıyırdı.

Boğazlar məsələsində Sovet təzyiqlərinin artması ilə bağlı Türkiyə Xarici İşlər Nazirliyi ABŞ və Britaniya səfirləri ilə məsləhətləşmələri daha da intensivləşdirdi. Avqust ayının 15-də Xarici İşlər Nazirliyinin Baş katibi F.C.Erkin Sovetlərə veriləcək cavabın ilkin mətnini Amerika səfiri E.Vilsona oxudu. Mətndə müharibə dövründə Montrö konvensiyasının pozulması ilə bağlı SSRİ-nin etirazı faktlarla təkzib edilirdi. Orada göstərilirdi ki, Türkiyə bu qəbildən olan etirazların konvensiyadan tamamilə imtina etmək və ya Türkiyə hökumətinin məsuliyyətini şübhə altına almaq üçün bir bəhanə kimi istifadə edilməsinə yol verə bilməz. Məsələnin mahiyyətinə gəldikdə isə SSRİ-nin 7 avqust notasında irəli sürülən təkliflərin ilk üç bəndinin ABŞ-ın da qatılacağı beynəlxalq konfransda müzakirə edilə biləcəyinin mümkünlüyü vurğulanır, dörd və beşinci bəndlərin qəbuledilməzliyi göstərilirdi. Türkiyə vaxtilə Montrö konvensiyasını imzalamış dövlətlərin və ABŞ-ın qatılmadığı hər hansı konfransda Boğazlar məsələsinin müzakirə edilməsinə qəti şəkildə öz etirazını bildirirdi. E.Vilson Türkiyənin Sovetlərə göndərəcəyi cavab notasının ilkin mətni, habelə F.C.Erkinlə olan söhbəti barədə elə həmin gün Dövlət katibinə geniş hesabat göndərdi. C.Birns Paris sülh konfransında olduğu üçün onun müavini D.Açeson tam məxfi qaydada ona göndərdiyi teleqramda bildirirdi ki, Dövlət müharibə və hərbi dənizçilik departamentləri ilə birlikdə keçirilən ardıcıl müzakirələrdən sonra Türkiyə və Sovet İttifaqı ilə bağlı memorandum barəsində razılığa gəliblər. D.Açeson bu memorandumun prezidentə təqdim olunduğunu və H.Trümenin təklif olunan siyasəti dəstəklədiyini və onu sona kimi davam

etdirməyə hazır olduğunu Dövlət katibinə bildirirdi. O yazırdı: "Prezident xüsusilə Sizin edə biləcəyiniz hər hansı təklifin olub-olmadığını soruşur Prezidentlə razılaşdırılıb; Türkiyə hökumətinin Boğazlar haqqında Sovetlərin təkliflərinə bizim münasibətimizi öyrənmək üçün göndərdiyi sorğuya cavab mətni təcili hazırlanmalıdır". D.Açesonun hazırladığı memorandumda deyilirdi: "Bizim fikrimizcə, Sovet İttifaqının əsas məqsədi Türkiyəyə nəzarəti ələ keçirməkdir. Biz bilirik ki, əgər Sovet İttifaqı öz silahlı qüvvələrini "Boğazlara birgə nəzarəti həyata keçirmək" kimi uydurma məqsədlə Türkiyə ərazisində yerləşdirməyə nail olarsa, onda o bu qüvvələrdən Türkiyəyə nəzarəti ələ keçirmək üçün istifadə edəcəkdir. Əgər Sovet İttifaqı Türkiyənin nəzarətini ələ keçirmək məqsədinə nail olsa, SSRİ-nin Yunanıstan, bütün Yaxın və Orta Şərqin nəzarətini ələ keçirməsinə mane olmaq qeyri-mümkün olmasa da çox çətin olacaqdır. Təcrübəmizdən bilirik ki, Sovet İttifaqı ərazidə ağalığı ələ keçirəndə, həmin ərazidəki amerikan və bütün qərb təsiri azaldılır. Fikrimizcə, Sovet İttifaqı tərəfindən Dardanell boğazında bazaların yerləşdirilməsi və yaxud Sovet silahlı qüvvələrinin hər hansı başqa bəhanaylə Türkiyə ərazisinə daxil olması Yunanıstan və Şərqi Aralıq dənizi daxil olmaqla Yaxın və Orta Şərqin nəzarətinə keçməsi və bu ərazilərin Qərb dünyasından təcrid olunması ilə nəticələnəcəkdir. Yaxın və Orta Şərq dedikdə biz Aralıq dənizi ilə Hindistan arasındakı əraziləri nəzərdə tuturuq. Sovet İttifaqı təbii ehtiyatlar, xüsusilə neft baxımından və kommunikasiya nöqteyi-nəzərindən strateji əhəmiyyətə malik bu əraziyə hökmranlığı ələ keçirsə, o zaman Hindistan və Çindəki məqsədlərinə nail olmaq onun üçün daha asan olacaqdır. Buna görə də, biz hesab edirik ki, Sovet İttifaqının güc tətbiq etmək hədəsi ilə Dardanell və Türkiyə ilə bağlı birtərəfli planlarını həyata keçirməsinə mane olmaq ABŞ üçün həyati maraq kəsb edir. Əgər Türkiyə təzyiq altında Sovetin təkliflərini qəbul etsə, bizim BMT və dünya ictimaiyyəti qarşısında onun əleyhinə istifadə edə biləcəyimiz faktlar praktiki cəhətdən zəifləyəcək: lakin Türkiyə hökuməti hələ də BMT sisteminə inandığını bildirir və Sovetin Türkiyə ərazisində baza yerləşdirmək cəhdlərinə, Türkiyə hətta döyüşməli olsa belə, silah gücünə cavab verəcəkdir. Bu, Türkiyənin hazırkı mövqeyini ifadə etsə də, biz onun öz qərarına ABŞ-ın dəstəyi təmin olunmadan sadiq qalıb-qalmayacağına əmin deyilik. Təəssüf ki, Sovet İttifaqı BMT və Montrö konvensiyasını saymayaraq Türkiyəyə Boğazların birgə müdafiəsi haqqında ikitərəfli saziş imzalamağı rəsmi olaraq təklif edib. Təcrübə göstərir ki, Sovet İttifaqı məsələyə rəsmi yanaşdıqdan sonra onu geri addım atmağa inandırmaq çox çətin olur. Hətta buna əsaslı dəlilə müraciət etmək yolu ilə də təsir göstərmək olmur. Ruslan ABŞ-ın lazım olduğu təqdirdə istənilən təcavüzü silahlı müqavimətlə qarşılamağa hazır olduğuna inandırmaqla geri addım atmağa vadar etmək olar. Böyük

ehtimal var ki, əgər Sovet İttifaqının Türkiyənin müstəqilliyi, suverenliyi və ya ərazi maraqlarına təhlükə törədə biləcək tədbir görəcəyi halda ABŞ-ın qətiyyətlə və sərt şəkildə Türkiyəni dəstəkləyəcəyi SSRİ-yə aydın və birmənalı olaraq çatdırılsa, Sovetlər fasilə verəcək və məsələri mürəkkəbləşdirməyəcək. Buna görə biz belə düşünürük ki, əlimizdə olan bütün vasitələrlə istənilən Sovet təcavüzünə qarşı çıxıb-çıxmayacağımıza qərar verməyin vaxtı çatıb, bu xüsusilə Türkiyə əleyhinə olacaq təcavüzə aiddir. Bu siyasəti həyata keçirərkən bizim söyləyəcəyimiz sözlər və atacağımız addımlar Sovet İttifaqını bizim Türkiyənin onun təcavüzünə məruz qalmasına razı ola bilməyəcəyimizə inandırmağa kömək edəcək. İlk növbədə məsələyə aidiyyatı olan dövlətlərlə açıq müzakirələri və lazım olarsa Türkiyənin BMT tərəfindən güclü dəstəyini tələb edən bu siyasətin həyata keçirilməsi zamam hədə-qorxu və təxribatlara yol vermək olmaz. Bizim fikrimizcə, sülhün qorunması üçün ən ümidverici yol, BMT Sovet təcavüzünü dayandırmaqda uğursuz olduğu təqdirdə ABŞ-ın bu silahlı təcavüzə öz hərbi qüvvələrindən istifadə edərək cavab vermək üçün digər millətlərlə birləşməkdə tərəddüd etməyəcəyinə SSRİ, Türkiyə və bütün başqa dövlətləri inandırmaqdır" (25).

Avqust ayının 15-də E.Vilson Boğazlar məsələsi ilə bağlı SSRİ-nin notasına Britaniyanın mövqeyini özündə əks etdirən məlumatı Vaşinqtona göndərdi. Britaniya tərəfi Sovetlərin notasındakı birinci üç bəndin ABŞ-ın təklifləri ilə uzlaşdığını və Birləşmiş Krallığın da bununla razılaşdığını bildirirdi. Lakin Sovet təkliflərinin dörd və beşinci bəndləri bıitaniyalılar tərəfindən də sərt etiraza səbəb olmuşdu. Avqust ayının 16-da Dövlət katibinin müavini prezident Trümenə yazdığı məktubda soruşurdu ki, əgər siz Türkiyə hökumətinin sorğusuna olan cavabı təsdiqləyirsinizsə, biz təcili olaraq onu Ankaraya göndərək. Eyni zamanda D.Açeson gələn həftə ərzində Sovet hökuməti və ya ən azından onun hər hansı qurumuna göndərilən cavabı ictimaiyyətə təqdim etməyi məqsədəuyğun görürdü. Ən nəhayət, prezident Trümenin razılığı alındıqdan sonra Boğazlarla bağlı türklərin sorğusuna Dövlət Departamentində hazırlanmış cavabı D.Açeson Ankaraya göndərdi. Orada deyilirdi: "ABŞ hökuməti Ankaradakı ABŞ səfirliyi tərəfindən 2 noyabr 1945-ci il tarixində Türkiyə Xarici İşlər Nazirliyinə göndərilən bəyanatda tutduğu mövqeyinə sadiq qalır. Həmin mövqeyə əsasən ABŞ Boğazlardakı rejimin yalınız Qara dəniz dövlətləri tərəfindən müəyyən edilməsinə razı ola bilməz. Bundan əlavə, ABŞ hökuməti Boğazların Türkiyə və Sovet İttifaqı tərəfindən birgə qorunması təklifi ilə razılaşa bilməz. ABŞ hökuməti inanır ki, Boğazlardakı rejim BMT-nin məqsəd və prinsiplərinə əsaslanmalı və bu istıqamətdə təşkil olunmalıdır. ABŞ hökuməti bu kursun izlənməsində təkid edir. Səfirliyin adı çəkilən bəyanatında qeyd olunduğu kimi, ABŞ hökuməti Montrö konvensiyasının yenidən gözdən keçirilməsi məqsədilə

təşkil edibcək konfransda iştirak etməyə böyük məmnuniyyətlə razı olardı"(26).

Avqust ayının 17-də ABŞ-ın cavabı E.Vilson tərəfindən Baş nazir R.Pekerə təqdim olundu və Boğazlar məsələsi, habelə Türkiyədəki vəziyyət haqqında geniş fikir mübadiləsi edildi. Görüş zamanı daxili siyasi vəziyyətdən danışan Baş nazir bildirdi ki, müxalifət tərəfindən törədilən çətinliklərə baxmayaraq o, demokratik cəmiyyətin möhkəm və stabil əsaslarda qurulması istiqamətində hiss ediləcək irəliləyişlərə nail olmaq üçün əlindən gələni edəcəkdir. Baş nazir dedi ki, daha Türkiyənin siyasi həyatı Atatürk və İnönü kimi dominant şəxsiyyətlərin ətrafında qurula bilməz, əhali bu işdə tam iştirak etməlidir (27). R.Peker Boğazlar məsələsində ABŞ-ın cavabından məmnun olduğunu səfirin nəzərinə çatdırdı.

ABŞ hökuməti Boğazlarla bağlı Sovet notasında irəli sürülən təklifləri diqqətlə araşdırdıqdan sonra avqust ayının 19-da öz cavabını Vaşinqtondakı Sovet səfirinin müavini F.Orexova təqdim etdi. Dövlət katibinin müavini D.Açeson yazırdı: "Bizim hökumət Sovet hökumətinin Türkiyə hökumətinə ünvanladığı bəyanatda ifadə etdiyi fikirləri diqqətlə öyrənib. ABŞ hökumətinin 2 noyabr 1945-ci il bəyanatı ilə Sovet hökumətinin Türkiyə hökumətinə ünvanladığı 7 avqust 1946-cı il tarixli bəyanatı müqayisə etsək görərik ki, Sovet notasındakı 3 təkliflə bağlı ABŞ və SSRİ hökumətinin mövqeləri tamamilə olmasa da, müəyyən qədər üst-üstə düşür. Sovetin bəyanatındakı dördüncü təklif bizim Türkiyə hökumətinə ünvanladığımız 2 noyabr 1945-ci il tarixli bəyanatımızda deyildiyi kimi, Montrö konvensiyasının yenidən gözdən keçirilməsini deyil, Türkiyə və digər Qara dəniz dövlətlərilə məhdudlaşacaq yeni rejimin yaradılmasını nəzərdə tutur. ABŞ hökumətinin mövqeyinə görə, Boğazlardakı rejim yalnız Qara dəniz dövlətləri üçün deyil, həm da ABŞ və digər dövlətlər üçün xüsusi maraq kəsb edir. Buna görə də ABŞ hökuməti Sovetin Boğazlardakı rejimin yalnız Qara dəniz dövlətlərinin səlahiyyətləri altında müəyyən edilməsi barəsindəki mövqeyi ilə razılaşa bilməz. Sovet hökumətinin bəyanatında irəli sürülən beşinci təklif Türkiyə və Sovet İttifaqının Boğazların müdafiəsini birgə təşkil etməsidir. ABŞ hökumətinin mövqeyinə görə, Türkiyə Boğazların müdafiəsində tək məsuliyyət daşımaqda davam etməlidir. Əgər Boğazlar hücum təhlükəsinə məruz qalarsa, bu öz növbəsində beynəlxalq təhlükəsizliyi təhlükə altında qoyacaq və BMT Təhlükəsizlik Şurası cavab addımları atmalı olacaqdır. Sovet hökumətinin bəyanatında BMT-yə istinad olunmadığı nəzərə çarpır. ABŞ hökumətinin mövqeyinə görə, Boğazlardakı rejim BMT ilə müvafiq şəkildə əlaqələndirilməli və tamamilə BMT-nin prinsip və məqsədlərinə uyğun fəaliyyət göstərməlidir. ABŞ hökuməti Montrö konvensiyasının təkrar gözdən keçirilməsi ilə əlaqədar təşkil ediləcək konfransda iştirak etmək arzusunda olduğunu yenidən ifadə edir (28).

Türkiyə və ABŞ siyasi dairələri ilə məsləhətləşdikdən sonra Britaniya hökuməti də avqust ayının 21-də Sovet notasını cavablandırdı. Böyük Britaniyanın xarici işlər naziri E.Bevinin Londondakı Sovet səfirinə təqdim etdiyi notada göstərilirdi ki, Boğazlarla bağlı Sovet təkliflərini diqqətlə nəzərdən keçirən Britaniya hökuməti SSRİ-nin ilk üç təklifi haqqında şərh vermək niyyətində deyildir. 4-cü təklifə gəldikdə Boğazlardakı rejimin Qara dəniz dövlətlərindən başqa digər dövlətlərin də maraq dairəsinə daxil olmasının beynəlxalq aləmdə uzun müddət tanıdığı Britaniya hökuməti tərəfindən qeyd edilir. Buna görə də Britaniya hökuməti gələcək rejimin yalnız Qara dəniz ölkələri və Türkiyənin problemi olduğunu təklif edən Sovet mövqeyi ilə razılaşa bilməz. Türkiyə və Sovet İttifaqının Boğazların müdafiəsini birgə səylərlə həyata keçirməsini əks etdirən 5-ci təklif gəldikdə isə, Britaniya hökuməti hesab edir ki, Türkiyə hökuməti Boğazların müdafiəsi və nəzarəti üçün məsuliyyət daşımaqda davam etməlidir. Eyni zamanda Britaniya tərəfi Sovet təkliflərində BMT-nin nəzərə alınmadığını xüsusi şəkildə qeyd edirdi. Eyni məzmunda nota avqust ayının 22-də Britaniyanın Moskvadakı səfirinin müavini F.Roberts tərəfindən V.Dekanozova təqdim edildi. F.Roberts yazırdı: 8 avqust 1946-cı ildə Londonda Sovet səfiri tərəfindən verilmiş notaya mənim hökumətimin cavabını Sizə təqdim edirəm (29).

Sovet notasına ABŞ və Britaniyanın sərt münasibəti SSRİ rəhbərliyi üçün gözlənilməz deyildi. Sovet notası təqdim edildikdən sonra səfir S.Vinoqradov necə hərəkət etmək barədə öz təkliflərini avqust ayının 11-də V.Molotova göndərmişdi. Əslində S.Vinoqradovun təklifləri üzərində V.Molotovun qeydləri əsasında Boğazlar rejimi haqqında Türkiyəyə təqdim edilən nota ilə bağlı "fəaliyyət planı" hazırlanmışdı. Bu planda qeyd edilirdi ki, bizim notanın, xüsusilə onun son iki bəndinin həm türklər, həm də ingilis-amerikanlar tərəfindən mənfi reaksiya doğuracağını gözləmək lazımdır. Belə münasibət meydana çıxdıqda S.Vinoqradov məqsədəuyğun hesab edirdi ki, Sovet mətbuatı bir sıra yazılarla çıxış edilb Qara dəniz Boğazları məsələsinin tarixini, Rusiyanın Qara dənizin təhlükəsizliyini, orada qanuni hüquqlarını təmin etmək uğrunda çoxəsrlik mübarizəsini işıqlandırsın. Başlanmış təbliğat kampaniyasında Sovet notasının mətbuatda dərc edilməsi, onun ayrı-ayrı maddələrinin aydınlaşdırılması və Türkiyənin İkinci Dünya müharibəsində yeritdiyi "neytralitet" siyasətini "ifşa edən" məqalələrin çap olunması nəzərdə tutulurdu. Əslində Sovet notası təqdim edildikdən sonra "Pravda" qəzetində Y.Viktorovun, akademik L.İvanovun, İ.Zolinin məqalələri, "İzvestiya" qəzetində avqust ayının 13-də və 18-də Qara dəniz Boğazları ilə bağlı yazıların getməsi, habelə avqustun 24-də həmin qəzetdə E.Adamovun geniş məqaləsi və digərləri SSRİ Xarici İşlər Nazirliyində tərtib olunan "fəaliyyət Planı"nın tərkib hissəsi kimi meydana çıxmışdı. Daha sonra S.Vinoqradov

güman edirdi ki, Türkiyə Montrö konvensiyasına yenidən baxılmasına razı ola bilər, lakin bu halda o konvensiyanın beynəlxalq xarakterini əsas tutaraq konvensiya iştirakçısı olan dövlətlərin konfransının çağırılmasını bəyan edə bilər və türklər ABŞ-ın da konfransa dəvət edilməsində təkid edəcəklər. S.Vinoqradov təklif edirdi ki, belə bir konfransla biz razılaşa bilmərik. Türklərin belə təklifləri tamamilə qəbuledilməz olduğundan biz onu rədd etməliyik və diplomatik yollarla məsələnin həllinə nail olmalıyıq (30).

Sovet notasına ABŞ və İngiltərə hökumətlərinin münasibəti ilə bağlı Ankaradakı səfir S.Vinoqradov SSRİ Xarici İşlər Nazirliyinə geniş arayış göndərdi. Bu arayış hazırlananda hələ Türkiyə Sovet notasına rəsmi cavab verməmişdi. Arayışda Montrö konvensiyasının Türkiyəyə verdiyi üstünlüklər, Türkiyənin Boğazlara təkbaşına nəzarətindən, SSRİ-nin Qara dəniz sahillərinin və sərhədlərinin Türkiyədən asılı olmasından bəhs edilirdi: S.Vinoqradov SSRİ-nin Qara dəniz sahillərinin təhlükəsizliyinin yalnız Türkiyənin arzusundan deyil, real imkanlarından asılı olmasından ciddi narahatçılığını ifadə edirdi. Sovet səfiri Montrö konvensiyasının köhnəldiyini əsaslandırmaq üçün onun tamamilə fərqli bir beynəlxalq şəraitdə imzalandığını önə çəkirdi. O, fikrini guya alman gəmilərinin Boğazlardan keçməsinə dair müharibə dövrünün faktları ilə daha da zənginləşdirirdi. Hətta S.Vinoqradov belə bir nəticəyə gəlirdi ki, Montrö konvensiyası öz mövcudluğu ilə SSRİ-nin maraqlarına qarşı yönəlib. Sovet səfiri məsələnin tarixinə qayıdıb qeyd edirdi ki, Türkiyə tərəfi ittifaq müqaviləsi imzalamaq haqqında Sovetlərə müraciət etdikdə SSRİ rəhbərliyi cavab olaraq bildirdi ki, ittifaq müqaviləsi qarşılıqlı öhdəlikləri və müqavilədə olan tərəflərin sərhədlərinin birgə müdafiəsini nəzərdə tutduğu üçün Sovet hökuməti Türkiyə ilə ərazi məsələləri tənzim etmədən öz üzərinə belə öhdəliklər götürə bilməz. S.Vinoqradov xatırladırdı ki, Sovet hökuməti belə bir müqavilənin yalnız Boğazlar məsələsinin həlli və 1921-ci ildə Sovet İttifaqından zorla alınıb Türkiyəyə birləşdirilmiş ərazilərin qaytarılması şərti ilə mümkünlüyünü bəyan etmişdi. Sonra arayışda Boğazlarla bağlı Sovet notası təhlil edilir və göstərilirdi ki, Türkiyə hələ Sovet notasına cavab verməyib, lakin xarici mətbuatdakı yazılardan, Türkiyənin bir sıra dövlət xadimlərinin çıxışlarından, Türkiyə hakim dairələrinin reaksiyasından aydın olur ki, onların SSRİ-nin notasına münasibəti mənfidir. S.Vinoqradovun fikrincə, Türkiyə hakim dairələri ABŞ və İngiltərənin bəzi qüvvələrinin köməyinə arxalanaraq artıq çoxdan yetişmiş bu məsələni həll etmək istəmir və bununla da dünyanın bu mühüm rayonunda sülh və təhlükəsizliyin təmin edilməməsinin məsuliyyətini öz üzərinə götürür (31).

Boğazlar məsələsi Sovetlər üçün elə ciddi xarakter almışdı və bu məsələdə Sovet rəhbərliyi özünü elə dolaşdırmışdı ki, Kreml ərazi

məsələsində kompromisdən tutmuş, C.Bayar kimi keçmiş düşməni ilə əməkdaşlığa qədər hər cür avantüraya əl atmağa hazır idi. S.Vinoqradov özünün 11 avqust təkliflərində qeyd edirdi ki, əgər yeni türk hökuməti ikitərəfli danışıqların gedişində həm sülh, həm də müharibə dövründə bizə Boğazlarda baza verərsə, biz daha mühüm olan milli maraqlarımızın təmin olunması məqsədilə Türkiyəyə qarşı ərazi tələblərimizdən imtina edər və heç bir formal öhdəlik götürmədən bu məsələni bir də qaldırmayacağımıza təminat verə bilərik. S.Vinoqradov qeyd edirdi ki, Türkiyəni məlum güzəştə hazırlamaq məqsədilə ona digər yollarla da təzyiq göstərmək olar. O yazırdı: "Demokratik partiyanın simasında hazırda Türkiyədə hakim partiyaya və hökumətə münasibətdə çox güclü müxalifət partiyası mövcuddur. S.Vinoqradov hesab edirdi ki, Demokratik partiyanın lideri C.Bayarla rəsmi münasibətlər qurmağa, onun bizim ölkəyə münasibətini, o cümlədən bizim Boğazlarda yeni rejim qurmaq tələblərimizə münasibətini aydınlaşdırmağa cəhd etmək lazımdır. C.Bayarın sonuncu məsələyə müsbət münasibəti olacağı təqdirdə Türkiyə hökumətinə əlavə təzyiq vasitəsi kimi bizim mətbuat və radio vasitəsi ilə ona və onun partiyasına mənəvi dəstək vermək olar" (32).

Nəhayət, Türkiyə hökuməti öz müttəfiqi Britaniya və tərəfdaşı ABŞ ilə məsləhətləşdikdən, Sovetlərə veriləcək cavabın mətnini onlarla müzakirə etdikdən sonra avqust ayının 22-də öz mövqeyini açıqladı. Respublika hökuməti cavab notasında Montrö konvensiyasının gözdən keçirilməsinin Konvensiyanın 29-cu maddəsində nəzərdə tutulan şərtlər daxilində və eyni zamanda Konvensiya üzvü olan dövlətlərlə birlikdə, həmçinin ABŞ-ın iştirakı ilə beynəlxalq konfransın çağırılması vasitəsi ilə mümkün hesab edirdi. Sovet notasında irəli sürülən ilk üç bənd Türkiyə notasında loyal qarşılanır, lakin dörd və beşinci bəndlərə qarşı ciddi dəlillər gətirildi. Orada deyilirdi: Dördüncü bəndə gəldikdə görünür, Sovetlərin notası Boğazlardakı yeni rejimin başqa əsaslarda müəyyənləşdirilməsini, bu işdə yalnız Türkiyə də Qara dəniz sahilindəki dövlətlərin iştirakını nəzərdə tutur. Belə bir yanaşma birinci növbədə 1956-cı ilə kimi qüvvədə qalmalı olan Montrö konvensiyasının sonrakı taleyini və onun təkrar gözdən keçirilmə prosedurunu diqqətdən kənarda qoyur. Belə yanaşmadan daha çox konvensiyaya üzv olan və danışıqlarda bərabər iştirak hüququna malik digər dövlətlərin məsələyə marağını azaltmaq meyli hiss olunur.

Beşinci maddəyə gəldikdə Türkiyə tərəfi bəyan edirdi ki, bu təklif Aralıq dənizindən gələ biləcəyi ehtimal olunan təcavüzə qarşı Boğazların təhlükəsizliyinin təmin olunmasında türk-sovet birgə müdafiəsi adı altında Sovetlərin nəzarətindən başqa bir şey deyildir. Notada deyilirdi: "Milli maraqlar baxımından SSRİ-nin təklifi nə Türkiyənin suverenlik hüquqlarına, nə də ki onun məhdudlaşdırıb bilinməyən təhlükəsizliyinə uyğun deyil. SSRİ-nin təklifinin qəbul edilməsi Türkiyənin Boğazlardakı tənzimləyici rolunun zəifləməsinə

və belə desək, Qara dəniz dövlətlərinin təhlükəsizliyinin Türkiyənin öz təhlükəsizliyini itirməsi üzərində qurulmasına gətirib çıxaracaqdır. Respublika hökuməti hesab edir ki, Türkiyə özünü nə vaxt baş verməsindən asılı olmayaraq istənilən təcavüzə qarşı bütün mümkün vasitələrlə qorumağa hazırdır".

Türkiyə hökuməti belə hesab edirdi ki, Sovet İttifaqının Qara dənizdəki təhlükəsizliyi üçün ən yaxşı təminat Boğazlarda imtiyazlı strateji mövqe seçilməsi və ya müstəqil dövlətin suveren hüquqlarına qarşı zidd mövqe tutması deyil, Türkiyə ilə inam və dostluq çərçivəsində münasibətlərin bərpa olunmasıdır. Notada deyilirdi: "Türkiyə hökuməti hesab edir ki, Sovet İttifaqının Qara dənizdəki mövqeyinə Aralıq dənizindən Boğazlar vasitəsi ilə hər hansı təhlükə mövcud olarsa, onda SSRİ tam şəkildə BMT-nin səmərəliliyinə bel bağlaya bilər" "(33).

ABŞ, İngiltərə və Türkiyə ilə yanaşı Fransanın da Boğazlar məsələsi ilə bağlı öz münasibətini Sovetlərə bəyan etməsi Ankaranın mövqeyini daha da möhkəmləndirdi. Fransanın Moskvadakı səfiri öz ölkəsinin Boğazlarla bağlı bəyanatını V.Dekanozova təqdim edəndə, V.Dekanozov Fransanın mövqeyini başa düşmədiyini bildirdi. Səfir cavabında Fransanın Montrö konvensiyasına üzv ölkə kimi Boğazlardakı rejimə ediləcək dəyişiklikləri yalnız konvensiyaya üzv olan digər ölkələrin razı olacağı halda tanıyacağını söylədi. V.Dekanozov bildirdi ki, əslində müharibə dövründə türklərin etdiyi pozuntulara görə Montrö konvensiyası artıq qüvvədə deyil və indi əsas məsələ mövcud olmayan konvensiyanın dəyişdirilməsi yox, yeni rejimin yaradılmasıdır. V.Dekanozovun fikrincə, SSRİ öz notasını Türkiyəyə göndərərkən Montrö konvensiyasının şərtlərinə deyil, Potsdam razılaşmasına əsaslanmışdır. Fransa səfiri bununla razılaşmadı, o, qeyd etdi ki, Fransa hökuməti Montrö konvensiyasının qüvvədə olduğunu qəbul edir və konvensiya yalnız maraqlı tərəflərin müvafiq addımları ilə dəyişdirilə bilər (34).

Sovet notası ilə bağlı yaranmış vəziyyətlə tanış olduqdan və proseslərin gedişini təhlil etdikdən sonra Dövlət katibinə göndərdiyi gizli teleqramda səfir E.Vilson yazırdı: "Bizim marağımız Montrö konvensiyasının gələcək beş il ərzində dəyişməz qalmasındadır. Əgər bu düzgün əsaslandırmadırsa, onda biz və britaniyalılar belə bir konfrans keçirilməsinə təşəbbüs göstərməməliyik və bunu SSRİ-nin öhdəsinə buraxmalıyıq. Nazirlər Kabinetinin son toplantısı göstərdi ki, Türkiyənin də mövqeyi belədir. Lakin beynəlxalq konfrans keçirildiyi təqdirdə britaniyalılar, türklər və bizim bu konfransın keçirilməsini sürətləndirmək üçün hər hansı bir tədbir görməyimizə ehtiyac yoxdur. Vəziyyəti hazırda olduğu kimi saxlamaq daha ağıllı addımdır" (35).

Sovet notasının yaratdığı gərginlik fonunda ABŞ-ın güc strukturunun rəhbərləri qərargah rəislərinin birgə komitəsinin iclasını çağırıb türk

Boğazları ilə bağlı yaranmış vəziyyəti geniş müzakirə etdilər. ABŞ müharibə departamentinin başçısı Robert Petersonun, hərbi hava qüvvələri departamentinin sədri C.Forrestalın və onun müavini Con Kenninin, ABŞ hərbi dəniz qüvvələrinin donanma admiralı Uilyam Lehinin Dövlət katibinin müavini D.Açesona ünvanladıqları memorandumda göstərirdilər ki, Sovetlərin türk Boğazlarının müdafiəsində iştirakı türklər üçün həyati əhəmiyyət kəsb edən ərazilərə SSRİ-nin hərbi gücünün nüfuz etməsinə şərait yarada bilər. Türkiyə ərazisindəki Sovet imtiyazları və hərbi qüvvələri nominal xarakter daşısa belə, SSRİ-nin günlər və ya saatlar ərzində ölkə ərazisində əməliyyat meydanı yaratmaq üçün böyük imkanları var. Sovetin Türkiyə ərazisində hərbi dominantlığı ələ keçirməsi Türkiyənin SSRİ-yə qarşı mövqeyini o qədər yumşalda bilər ki, Türkiyə Sovetlərin "Peyk" dövlətinə çevrilə bilər. Daha sonra memorandumda göstərilirdi ki, strateji baxımdan Türkiyə Şərqi Anadoluda və Mərkəzi Asiyada ən vacib hərbi amildir. O, SSRİ-nin regionda açıq-aşkar yürütdüyü genişlənmə siyasətinə müqavimət göstərməyə qabil olan bir neçə milli ərazilərdən biri və millətlərdən birincisidir. Türkiyənin effektiv hərbi hava və hərbi dəniz qüvvələri olmasa da, nizamlı və yetərli dərəcədə böyük quru qoşunları vardır. Kifayət qədər təchiz edilərsə və dəstəklənərsə, bu qoşunlar hətta Sovetlərə belə müqavimət göstərmək qabiliyyətinə malikdir. ABŞ qərargah rəisləri belə hesab edirdilər ki, Sovetlərin Türkiyəyə qarşı tələblərinə uğurla müqavimət göstərilməsi Türkiyə hokuməti və xalqının sərt mövqe tutmasına əsaslanır. Onların fikrincə, ABŞ əhalisi Türkiyə ətrafında yaranmış vəziyyət haqqında yaxşı məlumatlandırılmayıb və Birləşmiş Ştatların təhlükəsizlik maraqları baxımından istənilən səmərəli addım son nəticədə onların dəstəyi və anlayışından asılıdır. Eyni zamanda qərargah rəisləri Britaniyanın bu məsələdə təhlükəsizlik maraqlarının ABŞ-ın maraqlarından daha üstün olduğunu vurğulamışdılar. Bütün deyilənləri təhlil edərək onlar təklif edirdilər ki, əgər ABŞ Türkiyəni öz hərbi və siyasi mövqeyini gücləndirməyə imkan verəcək materiallar və təchizatlar almağa ruhlandırsa, ABŞ Türkiyəyə öz silahlı qüvvələrinin müdafiə imkanlarını genişləndirmək üçün Birləşmiş Ştatlardan silah, savaş təyyarələri və digər hərbi avadanlıq almağa icazə versə, ABŞ Türkiyəyə kömək məqsədilə zabitlər də daxil olmaqla seçilən mütəxəssislərin göndərilməsini gözdən keçirsə, Türkiyənin hərbi imkanları daha da genişlənəcək (36).

Sovetlərin Türkiyənin, habelə ABŞ, İngiltərə və Fransanın Boğazlar məsələsi ilə bağlı mövqeyinə ilk reaksiyası avqust ayının 24-də "İzvestiya" qəzetində SSRİ Xarici işlər Nazirliyinin eksperti E.Adamovun "Qara dəniz Boğazları haqqında məsələnin tarixindən" adlı məqaləsinin dərc edilməsində ifadə olundu. Öz növbəsində Boğazlar məsələsi ilə bağlı Sovet notasının beynəlxalq aləmdə doğurduğu rəyləri ümumiləşdirən SSRİ Xarici

İşlər Nazirliyi belə nəticəyə gəlirdi ki, qərb ölkələrinin və Türkiyənin başlıca məqsədi odur ki, Montrö konvensiyasına yenidən baxılmasın. Onların fikrincə, Konvensiyaya yenidən baxılması Moskvanın "erməni vilayətləri" saydığı Qars və Ərdahana qarşı ərazi tələblərini gücləndirmək baxımından Türkiyəyə təzyiq imkanlarını artıra bilərdi (37).

1946-cı ilin avqust ayının ortalarında Sovet notası dünya və türk mətbuatının başlıca mövzularından idi. İngilis qəzetlərinini çoxu Sovet notasında irəli sürülən dördüncü və beşinci bəndlərin əleyhinə idilər. Mətbuatda verilən məlumatlara görə İngiltərə belə hesab edirdi ki, keçmiş düşmən dövlətləri çıxmaq şərtilə Montrö konvensiyasına onu imzalamış bütün dövlətlərin cəlb edilməsi ilə baxmaq olar. "Sandi Tayms" qəzetində Boğazlarla bağlı gedən yazıda Sovetlərin ekspansionist niyyətləri kəskin şəkildə tənqid edilmişdi. Sovet notasında qoyulan alman gəmilərinin müharibə vaxtı Boğazlardan buraxılması məsələsinə toxunan Britaniya mətbuatı Türkiyənin öz öhdəliklərini yerinə yetirdiyinə inam ifadə edirdilər. "Nyu York Tayms", "Nyu York Herald Tribun" kimi qəzetlərdə rus siyasətinin aktivləşməsi, ABŞ-la Sovet İttifaqı arasında münasibətlərin kəskinləşməsi, prezident H.Trümen tərəfindən "rusların düşməncəsinə çıxışlarının sonsuz xarakteri" haqqında hərbi dairələrin tövsiyələrinin Amerika xalqına izah edilməsi, onun yanında keçirilən müşavirədə Sovet İttifaqının Dardanell üzərində nəzarət tələblərinin müzakirə edilməsi və s. məsələlər yer almışdı. İsveçdə çıxan "Qeteborqs-posten" qəzeti Boğazlarda rus bazaları olacağı halda Türkiyənin müdafiəsi məsələsinə toxunaraq yazırdı ki, əgər Türkiyə bununla razılaşsa, onda Rusiyanın əlaltısına çevriləcəkdir. Bu halda Qars və Ərdahan vilayətlərinin, Trabzonun sahilyanı ərazilərinin, eyni zamanda gürcü sərhədyanı rayonlarının Sovet dövlətinə məxsus olub-olmaması Moskva üçün tamamilə əhəmiyyətsiz olacaqdır (38).

Sovet notası Türkiyədə yeni qurulan hökumətin ilk günlərinə təsadüf etdiyindən Baş nazir R.Peker Böyük Millət Məclisində hökumətin proqramı ilə bağlı çıxış edərkən bu məsələlərə də toxundu. O dedi: "Biz SSRİ ilə Türkiyə arasında mövcud olan və mənfi nəticəyə gətirib çıxara bilən qeyri-müəyyən vəziyyətin yaxın gələcəkdə qarşılıqlı müqaviləyə söykənən möhkəm dostluğa çevriləcəyinə ümidimizi itirmirik". Boğazlarla bağlı Sovet notasının beşinci bəndinə toxunan R.Peker bildirdi: "Mən artıq indidən deyə bilərəm ki, bu məsələdə biz beynəlxalq konvensiya ilə bağlıyıq və hər şeydən əvvəl, öz ərazi bütövlüyümüzü və suverenliyimizi saxlamağa borcluyuq". O əlavə etdi ki, hər ehtimala qarşı respublika hökuməti Sovet tələblərini nəzərə almışdır. O, 1936-cı il Montrö konvensiyasına yenidən baxılması ilə bağlı müttəfiqlərlə və digər maraqlı dövlətlərlə danışıqlar aparmağa hazırdır (39).

Baş nazir R.Peker Amerika jurnalistlərinə verdiyi müsahibədə bildirdi ki, Təhlükəsizlik Şurasının və ingilis-amerikan ictimai rəyinin sayıqlığı

Boğazları tutmaq üçün Sovetlərin Türkiyəyə girməsinin qarşısını aldı. O, əlavə etdi ki, bir çox türklər belə hesab edirlər ki, türk ordusunun çevikliyi olmasaydı, bu sayıqlıq elə də ciddi fayda gətirə bilməzdi. Ona görə R.Peker bəyan etdi ki, yaxın gələcəkdə vəziyyətin dəyişiləcəyini güman etmədiyindən güclü türk ordusunun saxlanılması tələb edilir (40). Türkiyə Böyük Millət Məclisinin avqust ayının 15-də keçirilən iclasında bir sıra millət vəkilləri də Sovet notasını kəskin şəkildə tənqid etdilər.

Avqust ayının 12-dən başlayaraq Sovet notası türk mətbuatının başlıca mövzusuna çevrildi. Türkiyənin ərazi bütövlüyü və suverenliyinə qarşı yönəlmiş Sovet tələbləri türk mətbuatında yeni anti sovet kampaniyasının başlanmasına rəvac verdi. Sovet səfirliyinin verdiyi məlumata görə, bu məsələdə həm hökumət və həm də müxalifət qəzetləri ümumi anti sovet mövqedən çıxış edirdilər. Səfirlik bunu hökumətin mətbuata verdiyi təlimatla əlaqələndirirdi. Səfirliyin SSRİ Xarici İşlər Nazirliyinə göndərdiyi məlumatında qeyd edilirdi ki, Sovet notasının mətni çap olunana qədər artıq bütün qəzetlər onun məzmunundan xəbərdar idi və öz şərhlərini əsas Sovet təkliflərinin ətrafında aparırdılar. Bu təsdiq edir ki, hökumət mətbuatın nota ilə tanış olmasının qayğısına qalıb və ona müvafiq təlimatlar verib (41).

Soyet notasının mətni mətbuatda dərc edildikdən sonra türk qəzetləri belə hesab edirdi ki, bu nota Boğazlara münasibətdə Sovet tələblərini özündə əks etdirən "ilk rəsmi sənəddir". Bir sıra qəzetlər, xüsusilə rəsmi mətbuat Sovet notasından hökumətin xarici təhlükənin mövcud olması barədə seçkilərdən sonrakı dövründə irəli sürdüyü fikirləri əsaslandırmaq üçün istifadə etdilər. Hökumət qəzetlərinin səhifələrində "Sovet İttifaqının qonşu dövləti bolşevikləşdirməyə cəhd göstərməsi", "Türkiyədə Sovet beşinci dəstəsinin" fəaliyyət göstərməsi barədə yazılar geniş yer aldı. Türk mətbuatının fikrincə, hökumət dəyişikliyindən sonra Türkiyənin xarici siyasətində heç bir dəyişiklik görməyən və Türkiyəyə qarşı apardığı əsəb müharibəsinin tamamilə faydasızlığını anlayan Sovet İttifaqı ölkəni daxildən dağıtmaq üçün Boğazlar məsələsinə dair öz fikrini rəsmi qaydada ifadə edib. Bu məsələ ilə bağlı türk mətbuatında Türkiyənin müharibə dövründə Montrö konvensiyasından irəli gələn öhdəlikləri vicdanla yerinə yetirməsi, Sovet İttifaqının bu istiqamətdə olan ittihamlarının Boğazlar məsələsində öz məqsədlərinə nail olmaq üçün bəhanə kimi irəli sürüldüyü, Boğazların Türkiyənin müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü üçün mühüm əhəmiyyətə malik olduğu qeyd edilirdi. Sovet tələblərinin dörd və beşinci bəndlərinin məhz bu prinsiplərlə ziddiyyət təşkil etdiyindən mətbuatın fikrincə, Türkiyə nəinki onları qəbul edə bilməzdi, hətta hər hansı formada onları rnüzakirəyə belə çıxara bilməzdi (42).

Boğazlar məsələsinin yalnız Qara dəniz dövlətlərinin iştirakı ilə keçirilən konfransda həll edilməsi barədə Sovet təklifi türk mətbuatında kəskin etirazla qarşılandı. Bunu Türkiyə mətbuatı öz arzularını həyata

keçirmək üçün Sovetlərin növbəti manevri adlandırır, Bolqarıstan və Rumıniya kimi əlaltıları vasitəsilə konfransda üstünlüyü ələ almaq cəhdləri kimi qiymətləndirirdi. Bununla yanaşı, İstanbul və Ankara qəzetləri yazırdılar ki, Boğazlar yalnız Bosfordan ibarət olmayıb, eyni zamanda Dardanelli də özündə birləşdirir və Qara dəniz ölkələri üçün maraqlı olduğu dərəcədə Aralıq dənizi ölkələri üçün də maraqlıdır. Bundan əlavə, türk mətbuatının fikrincə, beynəlxalq ticarətin inkişaf etdiyi bir dövrdə Boğazlar İngiltərə və Amerika üçün həyati əhəmiyyətə malik idi. Onların fikrincə, hətta Türkiyə öz ziyanına olaraq Sovet təklifləri ilə razılaşsa belə, böyük dövlətlər heç bir halda həmin təklifləri qəbul edə bilməzdilər. Boğazların birgə müdafiə edilməsi barədə Sovet təklifləri də Türkiyə qəzetləri tərəfindən düşməncəsinə qarşılandı. Onlar bunun Türkiyənin suverenliyini və təhlükəsizliyini ciddi zərbə altında qoyacağına gətirib çıxaracağını qeyd edərək yazırdılar ki, Sovet İttifaqı Boğazlar rayonunda 400 hektar ərazinin ona verilməsini tələb edir. Bu da "Tanin" qəzetinin fikrincə İstanbulun işğalı və Türkiyənin indiyə qədər Moskvanın zülmü altında inləyən Türküstanın vəziyyətinə düşməsi ilə nəticələnə bilərdi (43). Türkiyə hökuməti tərəfindən Sovet tələblərinin rədd edilməsi belə bir fikir doğurmuşdu ki, bu mövqeyi ilə türklər hətta müharibə ehtimalının mümkünlüyünü, Sovet tələblərini qəbul etməkdənsə müharibə yə hazır olduğunu nümayiş etdirmişdir. Mətbuatın fikrincə, Sovet tələblərini qəbul etmək üçün "dəli olmaq lazım idi". "Tanin" qəzeti yazırdı: "Əgər ruslar təkid etsələr bizim qarşımızda ya müharibə , ya sülh məsələsi dayanır, indiki şəraitdə isə biz müharibə yə üstünlük verməliyik". Türk mətbuatı Boğazlar məsələsinin sonrakı gedişinin mümkün variantlarını belə proqnozlaşdırırdı: Birincisi, Sovet İttifaqı öz tələblərindən imtina edir, Amerikanın təklif etdiyi və Türkiyənin razılaşdığı şartlarla Boğazlar məsələsinə aid konfransda iştirak etməyə tərəfdar olur. Bu ideyanı türk qəzetləri az güman edilən ideya kimi şərh edirdi və onların fikrincə, hadisələrin belə inkişafı "böyük dövlət kimi Sovet İttifaqının nüfuzunu sarsıdardı". Bununla belə, qəzetlər hesab edirdilər ki, məsələnin belə həlli, SSRİ ilə Türkiyə arasında dostluq münasibətlərinin bərpa olunması, "Boğazların təhlükəsizliyinin yeganə təminatı" olardı. İkincisi, SSRİ öz tələblərində təkid etməyi davam etdirir və bunun nəticəsində müharibə başlanır. Jurnalistlər bu fikri az ehtimal olunan variant hesab edirdilər və onlara görə Sovet İttifaqı müharibədən yorulmuş və taqətdən düşmüşdür, buna görə də o çətin ki, yeni müharibə yə qərar versin. Ən nəhayət, üçüncüsü, Sovet İttifaqı bu məsələni qeyri-müəyyən vəziyyətdə saxlayacaq, öz tələblərindən imtina etməyəcək, eyni zamanda öz təkliflərində təkid də etməyəcək. Jurnalistlər hadisələrin belə inkişafını daha çox mümkün hesab edirdilər, onlar hadisələrin belə xarakter almasının Sovetlərin marağına uyğun olduğunu göstərirdilər (44).

Türk mətbuatının təhlilindən alınan bu nəticələr xarici işlər naziri H.Sakanın ABŞ səfiri E.Vilsonla söhbət zamanı irəli sürdüyü ehtimallarla üst-üstə düşürdü. H.Saka qeyd edirdi ki, indiki şəraitdə SSRİ Türkiyəyə münasibətdə üç seçim edə bilər. Birincisi, Sovetlərin Türkiyəyə hücum etməsi. Bu variantı o, daha az ehtimal olunan hesab edirdi. Onun fikrinə görə, SSRİ hal-hazırda müharibəyə hazır deyildi və konflikt yaratmaq riskini çiyninə götürmək istəmirdi. İkincisi, Montrö konvensiyasını təkrar gözdən keçirmək üçün beynəlxalq konfrans təşkil etmək istiqamətində tədbirlər görmək. Sovetlər dörd və beşinci bəndlərin müzakirədən xaric ediləcəyini bilsə də, konfransın keçirilməsini əlverişli hesab edə bilər. Belə ki, bu onlara Boğazlarda əlverişli mövqe tutmaq imkanı verə bilər. Bununla belə, bu cür konvensiyaya razılaşmaqla SSRİ-nin dördüncü və beşinci bəndlərdəki kimi iddialar qaldırılmasına icazə verilməyə bilər. Buna görə də, H.Saka SSRİ-nin konfrans keçirmək üçün təşəbbüs göstərmək ehtimalının az olduğuna inanır. Üçüncüsü, Türkiyəyə qarşı iddiaları irəli sürmək üçün daha əlverişli zaman gələnə qədər məsələni olduğu kimi saxlamaq. Xarici işlər naziri hesab edirdi ki, SSRİ-nin bu siyasəti yeridəcəyi daha çox ehtimal edilir (45).

Türkiyədəki Sovet səfirliyi təbiidir ki, mətbuatdakı bütün bu çıxışları dərindən izləyir və ümumiləşdirərək öz ölkəsinin rəhbərliyinə çatdırılırdı. Moskvaya göndərilən məlumatda Demokrat partiyasının Sovetlərin notasına münasibəti barədə də maraqlı məlumatlar var idi. Boğazlar haqqında Sovet notası barədə məlumat mətbuatda dərc edildikdən sonra Demokrat partiyası xüsusi bəyanatla çıxış edib bildirdi ki, Sovet notası Türkiyənin müstəqilliyi və suverenliyi ilə ziddiyyət təşkil etdiyindən Boğazlar məsələsində hökumətlə tam həmrəydir. Eyni zamanda DP lideri "Vatan" qəzetində verdiyi bəyanatda "xarici siyasət məsələləri üzrə milli birliyin" yaradılmasının zəruri olduğunu bildirdi və bu məsələnin partiyaların mübahisəsindən yüksəkdə dayandığını qeyd etdi. Mətbuat dairələri DP rəhbərinin bu bəyanatını xarici təhlükənin mövcudluğunun etirafı kimi qiymətləndirirdi (46).

SSRİ-nin 7 avqust notasına Türkiyənin cavabı şübhəsiz ki, Sovet rəhbərliyini təmin edə bilməzdi. Notaların mətnlərindən görünür ki, tərəflər məsələyə son dərəcə fərqli mövqelərdən yanaşırdılar. Boğazların birgə qorunması və Montrö konvensiyasının yenidən gözdən keçirilməsi ilə bağlı məsələlərdə SSRİ-nin yanaşması ABŞ, İngiltərə və Türkiyənin yanaşmasından köklü şəkildə fərqlənirdi. Əslində, ABŞ-ın təklif etdiyi model Boğazlar məsələsində Qara dəniz dövlətlərinə əlavə üstünlük verirdi. Lakin rus alimi B.Posxveriyanın qeyd etdiyi kimi Sovet rəhbərliyi bu imkandan istifadə etməyə cəhd göstərmədi və yenidən Boğazlarda bazalar tələb etmək kimi özünün köhnə qeyri-real mövqeyində dayandı (47). Digər rus müəllifləri A.Danilov və A.Pıjikovun da məsələyə münasibəti təxminən

belədir. Onlar yazırlar: "Müharibə başa çatan kimi SSRİ yetərincə sərt tonda Türkiyədə öz bazalarını yerləşdirməyə təkid etdi. Bu tələblər Tehran və Yaltada Boğazlardan Sovet hərbi gəmilərinin azad keçməsi haqqında razılaşmaların çərçivəsindən çox kənara çıxırdı, 7 avqust 1946-cı ildə SSRİ Türkiyəyə Montrö konvensiyasına yenidən baxılması və Sovet bazalarının yaradılması tələblərini göndərdi. İngiltərə və ABŞ bunu nəinki Türkiyəyə eyni zamanda özlərinin Yaxın Şərq və Cənub-Şərqi Avropadakı maraqlarına təhlükə kimi qəbul etdilər. Nəticədə ABŞ və İngiltərə bu plana qarşı kəskin etirazla çıxış etdilər" (48).

7 avqust notasına alınan cavabları təhlil edərək Sovet rəhbərliyi bu fikirdə idi ki, Sovet təkliflərinin daha geniş izahını özündə əks etdirən cavab notası ilə çıxış etsin. İlk olaraq Britaniyanın 21 avqust notasına hazırlanmış cavab layihəsi avqust ayının 31-də təsdiq üçün V.Molotova verildi. Orada göstərilirdi ki, Sovet təkliflərinə diqqətlə baxılsaydı çox asan müəyyən etmək olardı ki, bu təkliflər Qara dəniz rayonunda sülh və təhlükəsizliyin saxlanmasına yönəlib və Birləşmiş Millətlərin məqsəd və prinsiplərinə tam cavab verir (49).

1946-cı ilin avqust ayının sonu, sentyabr ayının birinci yarısında SSRİ Xarici İşlər Nazirliyinin ekspertləri Boğazlarla bağlı bir neçə nota layihəsi hazırladılar. Sentyabr ayının 8-də artıq Türkiyə notasına cavab olan Sovet notasının layihəsi tamamlanmışdı. Həmin gün V.Dekanozov V.Molotova yazırdı: "Boğazlar məsələsi ilə bağlı Türkiyə notasına bizim cavab notamızın mətnini Sizə göndərirəm. Notanın son redaksiyası Vinoqradov, Samılovski və Rodionov tərəfindən tərtib edilib, Y.Malik və mənim tərəfimdən baxılıb" (50).

Qara dəniz dövlətlərinin xüsusi vəziyyətinin tanınmasını və digər əsas dəlilləri özündə əks etdirən sonuncu mətn sentyabr ayının 21-də baxılmaq üçün V.Molotov tərəfindən İ.Stalinə verildi və sentyabr ayının 24-də elan edildi. Orada göstərilirdi ki, Sovet hökumətinin 7 avqust notasına Türkiyənin 22 avqustda verdiyi cavab Sovetlər tərəfindən diqqətlə öyrənilmişdir. Sovet tərəfi 24 sentyabr notasında özünün 7 avqust notasına əlavə olaraq 1942-1943-cü illərdə Almaniya və İtaliya gəmilərinin Boğazlardan keçməsinə dair bir sıra əlavə faktların olduğunu qeyd edir və belə faktların Türkiyə tərəfindən gizlədildiyinə işarə edirdi. Türkiyənin 22 avqust cavab notasında irəli sürülən bir sıra müddəalar təkzib edildikdən sonra Sovet tərəfi yenidən bu nəticəyə gəlirdi ki, Montrö konvensiyası üzrə Boğazlar üçün müəyyən edilən idarə üsulu Qara dəniz dövlətlərinin təhlükəsizliyinin mənafeyinə uyğun deyildir və Qara dəniz dövlətlərinə qarşı düşməncəsinə məqsədlər üçün Boğazlardan istifadə olunmasının qarşısını almağa imkan verən şəraiti təmin etmir. Sovet notasında SSRİ tərəfindən irəli sürülmüş beş təklifdən əvvəlki üçünün müəyyən qeyd-şərtlərlə Türkiyə tərəfindən qəbul edilə biləcəyinə məmnunluq ifadə edilsə

də, sonuncu iki təklifin rədd edilməsi ilə bağlı narahatçılığın ifadəsi olaraq onların üzərində xüsusi şəkildə dayanılırdı. Notada deyilirdi: "Bununla əlaqədar olaraq Sovet hökuməti Türkiyə hökumətinin nəzərini hər şeydən əvvəl, Qara dənizin qapalı dəniz olmaq etibarı ilə xüsusi vəziyyətinə cəlb etmək istəyir. Belə bir vəziyyət o deməkdir ki, Qara dəniz Boğazları yalnız məhdud sayda dövlətin sahillərinə, yəni bir neçə Qara dəniz dövlətinin sahillərinə gedən dəniz yoludur" (51). Əvvəlki Sovet notasında qoyulmayan bu ideya, yəni Qara dənizin qapalı dəniz olmaq etibarı ilə xüsusi vəziyyətə malik olması ideyası məsələyə yeni xarakter vermək cəhdindən irəli gəlirdi. Notada deyilirdi: "Qapalı Qara dənizə çıxan Boğazları idarə etmək üçün birinci növbədə Türkiyə, SSRİ və başqa Qara dəniz dövlətlərinin xüsusi vəziyyətinə və təhlükəsizliyinə uyğun bir üsul müəyyən edilməsi ədalətli olardı. Bu ideyanı əsaslandırmaq üçün notada Sovet Rusiyası ilə Türkiyə arasında imzalanmış 16 mart 1921-ci il müqaviləsinə, Türkiyə ilə Cənubi Qafqaz respublikaları arasında imzalanmış 13 oktyabr 1921-ci il müqaviləsinə və Türkiyə ilə Ukrayna Sovet respublikası arasında imzalanmış 21 yanvar 1922-ci il müqaviləsinə istinad edilirdi.

Boğazların birgə müdafiəsi ilə bağlı Türkiyənin 22 avqust cavab notasındakı dəlillər kəskin şəkildə tənqid edildikdən sonra yeni Sovet notasında qeyd edilirdi ki, "Türkiyə hökuməti SSRİ-nin və başqa Qara dəniz dövlətlərinin təhlükəsizliyini təmin etmək mənafeyi ilə sıx əlaqədar bu mühüm məsələnin Sovet hökuməti ilə birlikdə öyrənilməsi üçün hər cür imkanı kökündən rədd etməklə SSRİ ilə etimada əsaslanan dostluq münasibətlərini bərpa etmək arzusu haqqında öz bəyanatına açıqdan-açığa zidd getmiş olur, eyni zamanda tamamilə əsassız və həm də Sovet İttifaqının ləyaqətinə uyğun olmayan şübhələr irəli sürməyi mümkün hesab edir. Boğazların birgə müdafiəsi ilə bağlı SSRİ əvvəlki mövqeyini təkrar edərək bildirirdi: Türkiyə tərəfindən irəli sürülən nöqteyi-nəzərə baxmayaraq Sovet hökuməti bu fikrində qətidir ki, Türkiyə və Sovet İttifaqı istər Boğazlarda ticarət gəmiçiliyinin azadlığını, istərsə də Boğazların təhlükəsizliyini yalnız birgə vasitələrlə təmin edə bilərlər. Həm də Sovet hökuməti belə güman edir ki, Sovetlərin bu təklifinin həyata keçirilməsi heç də Türkiyənin hakimiyyət hüququna toxunmamalıdır, bununla bərabər onun təhlükəsizliyinin mənafeyinə daha çox uyğun olmalıdır, çünki Türkiyə ilə Sovet İttifaqının birgə tədbirləri Boğazların qorunmasını yalnız Türkiyənin gördüyü tədbirlərdən daha artıq təminatlı edə bilər" (52).

Sovet notası V.Molotov tərəfindən təsdiq edildikdən sonra SSRİ-nin Ankaradakı işlər vəkili tərəfindən təcili olaraq Türkiyə Xarici İşlər Nazirliyinə təqdim edildi (53).

Sovetlər öz tələblərində israr etsə də, Boğazlarla bağlı 24 sentyabr notası 7 avqust notası ilə müqayisədə bir qədər mülayim və xeyli

dərəcədə izahlı idi. Bununla belə, SSRİ-nin Boğazlara nəzarəti ələ keçirmək cəhdləri Aralıq dənizi hövzəsində və Balkanlarda vəziyyətin dəyişməsinə gətirib çıxaracağından ABŞ və Britaniya, ilk növbədə isə Türkiyə Sovet tələblərinə münasibətdə ciddi dirəniş göstərməyə üstünlük verdilər. Bunu Türkiyə Xarici İşlər Nazirliyinin əməkdaşının ABŞ-ın Ankaradakı işlər vəkili Borsli ilə söhbəti də təsdiq edir. Türkiyə Xarici İşlər Nazirliyinin yetkilisi söhbət zamanı bildirmişdi ki, Sovet hökuməti Montrö konvensiyasının yetərsizliyini sübut etmək üçün nisbətən kiçik detallara əl atmalı olub və əvvəlki notanın dörd və beşinci bəndlərində təkid edilsə də, yeni nota gözlənildiyindən mülayimdir. Eyni zamanda qeyd edildi ki, Boğazlar məsələsi ilə bağlı beynəlxalq konfransın çağırılmasına münasibətdə Sovetlərin mövqeyi qeyri-müəyyəndir. Türkiyə tərəfi birmənalı şəkildə bildirdi ki, onlar Boğazlarla bağlı Sovet hökuməti ilə nə birbaşa müzakirələr, nə də hər hansı danışıqlar aparmayacaqlar (54).

Sovet notası alındıqdan sonrakı həftə ərzində Türkiyə hökuməti SSRİ-yə verəcəyi cavabın bəzi məqamlarını dəqiqləşdirdi. İlk növbədə, hökumət Sovet İttifaqına tələsik cavab göndərməmək fikrində idi, ikincisi bu cavabın ABŞ və Britaniya hökumətləri mövqelərini açıqladıqdan sonra verilməsi məqsədəuyğun sayılırdı. Nəhayət, Ankara Sovet notasında irəli sürülən ilk üç bəndin beynəlxalq konfransda müzakirə edilməsinə tərəfdar olsa da, ölkənin ərazi bütövlüyü və suverenliyinə xələl gətirən hər hansı məsələnin müzakirə edilməsinin qəti şəkildə əleyhinə olduğunu müəyyənləşdirdi.

Oktyabr ayının əvvəllərində ABŞ Dövlət Departamenti SSRİ-yə veriləcək cavab notasının mətnini prezident H.Trümen və Dövlət katibi C.Birnslə müzakirə etdi. Müzakirələrdən aydın oldu ki, Birləşmiş Ştatların rəsmiləri bu məsələyə türkləri müdafiə etməkdən daha çox, rusları geri oturtmaq mövqeyindən yanaşırlar. Oktyabr ayının 9-da ABŞ səfiri U.Smit 24 sentyabr Sovet notası ilə bağlı öz ölkəsinin cavabını SSRİ Xarici İşlər Nazirliyinə təqdim etdi. Birləşmiş Ştatların cavabında ilk növbədə ABŞ-ın 19 avqust 1946-cı il notasındakı mövqeyi bir daha təsdiq edilirdi. ABŞ hökuməti qeyd edilən notaya istinadən yenidən vurğulayırdı ki, Boğazlardakı rejim yalnız Qara dəniz dövlətlərini deyil, həmçinin Birləşmiş Ştatlar da daxil olmaqla digər dövlətləri də narahat edir. Notada deyilirdi: Sovet hökuməti heç nəyə baxmayaraq 24 sentyabr notasında da, 7 avqust notasında ifadə etdiyi "Boğazlar rejimi yalnız Türkiyə və digər Qara dəniz dövlətlərinin səlahiyyəti altında həyata keçirilməlidir" şəklindəki mövqeyində qalmaqda davam edir. ABŞ Boğazlarla bağlı konfrans keçirilməsinə və bu konfransda iştirak etməyə hazır olduğunu bəyan edərək bildirirdi: Türkiyə hökuməti Boğazların müdafiəsində əsas cavabdeh olmaqda davam etməlidir və əgər Boğazlarda hər

hansı hücum təhlükəsi yaranarsa, BMT Təhlükəsizlik Şurası məsələylə bağlı tədbir görəcəkdir (55).

ABŞ notası Moskvaya göndərilən kimi D.Açeson Türkiyədəki işlər vəkili Borsliyə teleqram göndərdi ki, onun mahiyyəti barədə Türkiyə hökumətinə məlumat verilsin. D.Açeson bildirirdi ki, o, həm ABŞ notasının, həm də türklərin Sovetlərə verəcəyi cavabın mətbuatda dərc olunmasını məqsədəuyğun sayır. O, bunu Sovet notasında zahirən təmtəraqlı görünən bəzi faktların ictimai rəydə yarada biləcəyi aldadıcı təəssüratı aradan qaldırmaq məqsədi ilə zəruri hesab edirdi.

ABŞ notası təqdim edilən gün Britaniyanın Moskvadakı səfiri M.Peterson öz ölkəsinin mövqeyini V.Dekanozova çatdırdı. Britaniya hökumətinin notasında deyilirdi: "Potsdam razılaşması Boğazlar məsələsi ilə bağlı atılacaq növbəti addım olaraq Türkiyə ilə üç hökumətin hər biri arasında bilavasitə danışıqların başlanmasını şərtləndirir. Lakin Britaniya hökumətinin mövqeyinə görə, bu "növbəti addım" hazırda həmin hökumətlər arasında aparılan fikir mübadiləsi ilə tamamlanıb. Buna görə də Britaniya hökuməti bu məsələ ilə bağlı birbaşa yazışmaların aparılmasına heç bir zərurət görmür. Eyni zamanda Britaniya hökuməti Yaponiya istisna olmaqla ABŞ-ın da qatıldığı Montrö konvensiyasını imzalamış dövlətlərin konfransının çağırılmasına tərəfdar olduğunu bir daha təsdiq edirdi" (56).

Türkiyə hökuməti əvvəlki müzakirələrdə Sovetlərin 24 sentyabr notasına qısa və lakonik cavab verməyi planlaşdırsa da, 18 oktyabr 1946-cı ildə Türkiyə Xarici İşlər Nazirliyinin Ankaradakı Sovet səfirliyinə təqdim etdiyi notanın həcmi yetərincə geniş oldu. Türkiyə notasının birinci hissəsində İkinci Dünya müharibəsi dövründə Almaniya və İtaliya gəmilərinin guya Boğazlardan maneəsiz keçməsi barədə Sovet iddiaları faktlar və dəlillərlə təkzib edilirdi. Montrö konvensiyasından irəli gələn hüquq və vəzifələr, eyni zamanda müharibənin doğurduğu reallıqlar notada geniş təhlil edildikdən sonra bildirilirdi ki, yuxarıda göstərilən faktlar əvvəl verilən izahatlara əlavə olaraq Türkiyə hökumətinin Boğazlardakı tarixi vəzifəsini yerinə yetirərkən düzgün hərəkət etdiyini təsdiqləyir. Məhz bu düzgünlük sayəsində SSRİ bütün müharibə ərzində Aralıq dənizindən gələn hər bir hücumdan qorunaraq Qara dənizdə qala bilib. Sovet notasında Qara dənizin xüsusi vəziyyətdə olan qapalı dəniz olması ilə bağlı irəli sürülən ideyaya geniş aydınlıq gətirildikdən sonra notada bildirilirdi: Türkiyə bir Qara dəniz dövləti olaraq öz vəziyyətini aydın başa düşür, lakin eyni zamanda o, Aralıq dənizi dövləti olduğunu yaddan çıxarmamalıdır. Buna görə də Türkiyə hökuməti Qara dəniz və Boğazlar məsələsini yalnız sahilyanı dövlətləri narahat edən bir problem kimi gözdən keçirə bilməz.

Boğazların birgə müdafiəsi ilə bağlı Sovet təkliflərinə gəldikdə isə Türkiyə hökuməti bu təklifin Türkiyənin suverenlik hüquqlarına və təhlükəsiz-

liyinə zidd olduğunu əsaslandırır və bildirirdi ki, Türkiyənin Boğazların birgə müdafiəsinə razılıq verməsi öz suverenliyini xarici dövlətlə bölüşdürməkdən başqa bir şey deyildir. Qeyd edilənlərə əlavə olaraq notada göstərilirdi: "Türkiyə hökuməti anlaya bilmir ki, Sovet İttifaqının müdafiə hüququ Türkiyənin ərazisində bu ölkənin suverenlik hüquqlarına zidd olaraq necə həyata keçirilə bilər. Bu yerdə Türkiyə hökuməti cənab Çiçerinin Lozanna konfransında verdiyi sərt açıqlamaları xatırlamaya bilməz: o açıqlamalarında Boğazlardan keçidə nəzarəti Türkiyənin əlindən almaq təklifinə etiraz edib və "Türkiyənin suverenliyi və müstəqilliyinin pozulmasına" qarşı çıxıb. Türkiyənin Boğazlara nəzarət haqqında tələbə qarşı çıxmasını Sovet İttifaqı öz ləyaqətinə xələl gətirən bir addım hesab etdiyi kimi, Türkiyə hökuməti də bu tələbin yerinə yetirilməsinin Türkiyənin şərəf və ləyaqətinə, müstəqil bir xalq kimi mövcudluğuna zidd olduğu fikrindədir". 22 avqust notasında olduğu kimi Türkiyə hökuməti bir daha vurğulayırdı ki, SSRİ-nin Qara dənizdəki təhlükəsizliyinin ən etibarlı təminatı Boğazlarda müstəqil dövlətin nüfuzuna və suverenliyinə zidd olan mövqe əldə etmək deyil, güclü Türkiyə dövləti ilə etibarlı əlaqələrin bərpasıdır. Daha sonra notada bildirilirdi ki, SSRİ Türkiyənin verdiyi yüksək zəmanətdən əlavə Boğazlara hücum olduğu təqdirdə özünün və Türkiyənin də üzv olduğu BMT-nin gücünə etibar etməlidir. Türkiyə hökuməti Sovet təkliflərində dörd və beşinci bəndlər istisna olmaqla SSRİ, ABŞ, Böyük Britaniya və Fransanın, həmçinin Yaponiya istisna olmaqla Montrö konvensiyasına üzv digər dövlətlərin iştirakı ilə adı çəkilən konvensiyanın yenidən gözdən keçirilməsi ilə bağlı danışıqların davam etdirilməsi məqsədilə keçiriləcək konfransa qatılmağa hazır olduğunu bəyan edirdi (57).

Türkiyənin 18 oktyabr notası ilə tanışlıqdan sonra Sovet rəhbərliyi üçün aydın oldu ki, ikitərəfli münasibətlər əsasında türklərlə razılığa gəlmək mümkün deyildir. Eyni zamanda Sovet rəhbərliyi Boğazlar məsələsi ilə bağlı beynəlxalq konfransın çağırılmasının vaxtının çatmadığını yaxşı anlayırdı. Ona görə SSRİ Xarici İşlər Nazirliyi oktyabr ayının 26-da Britaniya hökumətinə göndərdiyi cavab notasında Türkiyə ilə müzakirələrin bitmədiyini və Boğazlarda yeni rejimin qurulması üçün beynəlxalq konfransın çağırılmasının vaxtının yetişmədiyini bildirirdi. V.Dekanozov Petersona yazırdı: "Sovet hökuməti Sizin oktyabr ayının 9-da yazdığınız məktubda Berlin konfransının qərarlarında hər üç hökumətin türk hökuməti ilə bilavasitə danışıqları nəzərdə tutan məsələnin artıq başa çatmış hesab edilməsi barədə Britaniya hökumətinin mövqeyini bölüşmür". Lakin Britaniya hökuməti noyabr ayının 28-də Sovetlərə göndərdiyi notada qəti şəkildə qeyd etdi ki, bu məsələnin hər hansı sonrakı müzakirəsi beynəlxalq konfransda baş verə bilər (58).

Boğazlar məsələsi ilə bağlı Türkiyə-Sovet qarşıdurmasının güclənməsi ABŞ-ın öz Yaxın Şərq siyasətini yenidən gözdən keçirməsi ilə nəticələndi.

Dövlət Departamentinin Yaxın Şərq və Afrika şöbəsinin müdiri Loy Henderson tərəfindən oktyabr ayının 21-də tam məxfi şəkildə hazırlanan memorandumda göstərilirdi ki, "Biz türklərin silah əldə etmək xahişi ilə bizə müraciət etməyə hazırlaşdıqları barədə eşitmişik. Çox güman ki, britaniyalılar bu silahları verməyəcək və ya verə bilməyəcək. Biz türklərin nə istədiyini bilmirik, lakin narahatıq ki, bizim onlara istənilən şərtlər daxilində hərbi avadanlığa sahib olmağa icazə verməməyimiz öz siyasətimizi sona kimi yeritməkdə qətiyyətimizin yetməməsi kimi qiymətləndirilə bilər". O yazırdı ki, başa çatmaqda olan ilin hadisələri Türkiyənin beynəlxalq aləmdəki vacib rolunu önə çəkdi. Türkiyə SSRİ-nin effektiv nəzarəti altında olmayan Sovet İttifaqı ətrafındakı bir neçə millətdən biridir, lakin Sovet İttifaqının Türkiyəni də öz peyk ölkələrinə əlavə etmək planlarının aşkar əlamətləri mövcuddur. Loy Henderson ABŞ hökumətinin mövqeyini ifadə edərək yazırdı: "Sovet İttifaqı tərəfindən atılan bu addımlar Türkiyəni SSRİ-nin bilavasitə təsiri altına salmaq, onu həm Aralıq dənizindən mümkün hücum əleyhinə, həm də SSRİ-nin Aralıq dənizi, Yaxın və Orta Şərq bölgəsinə hərbi və siyasi baxımdan genişlənməsində tramplin olaraq istifadə etmək üçün zəiflətməyə yönəldilib. ABŞ hökuməti belə hesab edirdi ki, bu istiqamətdə Sovet siyasətinin uğurla həyata keçirilməsi çox ciddi nəticələrə səbəb ola bilər. Strateji baxımdan Türkiyə Şərqi Aralıq və Orta Şərq regionunda ən vacib amildir". L.Henderson yazırdı: "Yerləşdiyi coğrafi mövqeyə görə Türkiyə "butulkanın boğazında tıxac" rolunu oynayır ki, bu boğaz vasitəsi ilə Sovetin hərbi və siyasi təsiri Şərqi Aralıq və Orta Şərq regionuna ən effektiv yolla ötürülə bilər. Türkiyənin rus təsiri altına düşməsilə SSRİ Suriya, Livan, İraq, Fələstin, Misir və Ərəbistan yarımadasına irəliləməkdə uğur qazanmağa imkan əldə edəcək. Adı çəkilən bu dövlətlər, hələlik SSRİ-nin hakim olduğu ərazilərdən kənarda olduğuna görə rusların əməllərindən və onların birbaşa təzyiqlərindən nisbətən uzaqdırlar". L.Hendersonun fikrincə, Türkiyənin Sovet təsirinə düşməsi Yunanıstan və İranı da təhlükəyə məruz qoya bilərdi. Belə ki, bu iki dövlətin hökumətlərinin artıq Sovet İttifaqı və onun əlaltıları ilə ciddi problemləri mövcuddur. Adı çəkilən dövlətlərin heç biri Türkiyədəki qədər stabil və yekdil hökumətə, sosial düzənə malik deyil və heç birinin Türkiyə məğlub olduqdan sonra Sovet təzyiqinə tab gətirəcəyini gözləmək olmaz. Sırf hərbi məsələlərə gəldikdə isə L.Henderson qeyd edirdi ki, əgər Sovet İttifaqı Türkiyə üzərində hərbi dominantlığı ələ keçirsə, bunun siyasi nəticələri daha ağır ola bilər. Türkiyənin həlledici nöqtə kimi güclü Sovet təzyiqi altında olması o qədər aşkardır ki, SSRİ-nin gücünün yayılmasından qorxan bütün dövlətlər hazırkı diplomatik mübarizəni böyük narahatlıqla izləyirlər. L.Hendersonun fikrincə, SSRİ-nin Türkiyədəki məqsədlərinə qismən belə nail olmasına imkan verəcək hər hansı zəiflik, həmin dövlətlər üçün fəlakətlə nəticələnə bilər.

Türkiyənin mövqeyi ilə bağlı məsələyə gəldikdə isə memorandumda qeyd olunurdu ki, xoşbəxtlikdən Türkiyə Sovetlərin hazırkı və gələcək təzyiqinə müqavimət göstərməkdə qətiyyətlidir. L.Hendersonun fikrincə Türkiyə hökuməti və xalqı xarici siyasət məsələsində birləşiblər. Türkiyədə Yunanıstan, İran, Çin və digərlərində olduğu kimi, öz mövqeyin müdafiə etməsini çətinləşdirə biləcək fikir ayrılığı mövcud deyil. Bundan əlavə, Yaxın və Orta Şərq dövlətləri arasında yeganə olaraq Türkiyə təcavüzkarın, hətta həmin təcavüzkar Sovet İttifaqı olsa belə, qabağını ala biləcək nisbətən effektiv hərbi qüvvəyə malikdir.

Sovet təhlükəsi qarşısında L.Henderson Türkiyənin müdafiə edilməsini zəruri hesab edirdi. O yazırdı: "Bütün əlverişli şərtlərə baxmayaraq əgər Türkiyə tamamilə tək qalsa, onun SSRİ-yə müqavimət göstərə bilməyəcəyi aşkardır. Türkiyənin böyük dövlətə müqavimət göstərmək üçür vacib olan iqtisadi və sənaye ehtiyatları kifayət qədər deyil, onun iqtisadi mənzərəsi müharibədən sonra hələ də zəif olaraq qalır. Türkiyə əleyhinə aparılan amansız əsəb müharibəsi onu böyük hərbi qüvvələr saxlamağa məcbur edir ki, bu da xalqın iqtisadi vəziyyətinə təsir göstərir. Hərbi nöqteyi-nəzərdən Türkiyə hazırkı şərtlər daxilində müdafiə üçün zəruri olan müasir silahlar və avadanlığı özü istehsal edə bilmir". Ona görə L.Henderson ABŞ tərəfindən Türkiyənin diplomatik, mənəvi, iqtisadi və hərbi cəhətdən müdafiə olunmasını zəruri hesab edirdi. Onun fikrincə, türk silahlı qüvvələrinin lazımi səviyyədə saxlanması və inkişafı üçün Böyük Britaniyanın öz üzərinə götürdüyü öhdəliklər tədricən ABŞ-ın üzərinə keçməlidir. Hətta L.Henderson müstəsna hallarda Birləşmiş Ştatların bəzi avadanlıqları birbaşa göndərməsi məsələsini də gözdən keçirməyi mümkün hesab edirdi (59).

Göründüyü kimi, Sovet təzyiqləri qarşısında Türkiyədə xalqın və dövlətin, iqtidarın və müxalifətin eyni mövqedən çıxış etməsi, SSRİ təhlükəsinə qarşı dirəniş göstərilməsinin ictimai rəydə möhkəmlənməsi türk hökumətinin nəinki daxili vəziyyətini, eyni zamanda onun beynəlxalq nüfuzunu da möhkəmləndirdi. Mətbuat ölkədə ictimai rəyin formalaşmasında, Sovet tələblərinin ekspansionist mahiyyətinin açılmasında mühüm rol oynayırdı.

Sovet notası haqqında ilk məlumatlar Moskva radiosundan alınsa da, notanın mətni sentyabr ayının 29-da qəzetlərdə dərc edildi. Sentyabrın 30-da demək olar ki, bütün Türkiyə qəzetləri Sovet notası ilə bağlı geniş şərhlər verdilər. Mətbuat birmənalı formada hökuməti sərt mövqe tutması, 22 avqustda Türkiyənin elan olunmuş nöqteyi-nəzərinin axıra qədər müdafiə olunması, Boğazların türk-sovet qüvvələri tərəfindən birgə müdafiə olunmasının yolverilməzliyi haqqında çoxsaylı yazılar vermişdi. Sentyabr ayının 30-da demək olar ki, bütün qəzetlər Boğazlar haqqında Sovet notası ilə bağlı Birns və Bevin arasında olan söhbəti böyük

başlıqlarla dərc etmişdilər. Onlar yazırdılar ki, İngiltərə və Fransa Boğazlar məsələsi ilə bağlı Türkiyənin mövqeyini qəti şəkildə müdafiə edirlər.

Türk mətbuatı Sovetlərin ikinci notasını Rusiyanın imperialist siyasətinin yeni təsdiqi kimi qiymətləndirir və onu bu siyasətə münasibətdə bir sıra tərəddüdlərin aradan qaldırılması kimi dəyərləndirirdi. Notada irəli sürülmüş Sovet təklifləri bir sıra qəzetlər tərəfindən Türkiyəyə münasibətdə onu suverenlikdən və müstəqillikdən məhrum edən təcavüzkarlıq aktı kimi izah edilirdi. Notanın hər bəndi ayrı-ayrı qəzetlərin səhifələrində geniş təhlil edilirdi və göstərilirdi ki, Boğazlarda baza almaqla Sovet İttifaqı oranı və İstanbulu işğal edir, Aralıq dənizində sonrakı ekspansiyalar üçün açıq qapılar yaratmış olur. Jurnalistlər belə hesab edirdilər ki, müharibə dövründə guya düşmən gəmilərinin Boğazlardan keçməsi barədə notada gətirilən faktlar daha çox rus tələblərinə bəraət qazandırılmasına xidmət edir.

Boğazlar rejiminin Qara dəniz dövlətləri tərəfindən müəyyən edilməsi haqqında Sovet təklifi mətbuatda güclü etiraz dalğası yaratdı. Bir çox jurnalistlər, xüsusilə Esmer, Nihat Erim və Sadak öz yazılarında sübut etməyə çalışırdılar ki, Qara dəniz Sovetlərin iddiasının əksinə olaraq açıq dənizdir. Dünya ölkələri arasında əlaqələrin sürətlə inkişaf etdiyi bir dövrdə qeyri-Qara dəniz dövlətlərinin Boğazlar rejiminin müzakirəsindən kənarlaşdırılmasını türk mətbuatı kəskin şəkildə tənqid edirdi. H.Sadak yazırdı ki, Türkiyə istəsə də Boğazlar rejiminin ancaq Qara dəniz dövlətləri tərəfindən müəyyən edilməsi haqqında təkliflə razılaşa bilməz.

Sovet notasında Boğazlarla bağlı Türkiyənin Sovet Rusiyası və Cənubi Qafqazın Sovet respublikaları ilə 1921-1922-ci illərdə imzaladığı müqavilələrə istinad edilməsi türk mətbuatında çoxlu rəylər doğurmuşdu. Bu müqavilələrdə Boğazlar rejiminin Qara dənizin sahilyanı dövlətləri tərəfindən müəyyən olunması barədə maddələrin olması mətbuat nümayəndələri tərəfindən qəbul edilir, lakin həmin maddələrin Lozanna müqaviləsi və Sovetlərin öz imzasını atdığı Montrö sazişi ilə öz qüvvəsini itirdiyi qeyd edilirdi (60).

Sovetlərin 24 sentyabr notası, ABŞ, Britaniya və Türkiyənin bu notaya verdiyi cavablar oktyabr ayı ərzində də türk mətbuatının diqqət mərkəzində oldu. Ankaradakı Sovet səfirliyi SSRİ Xarici İşlər Nazirliyinə göndərdiyi məlumatda Sovet notası ilə bağlı türk mətbuatının yazılarını üç qrupa bölürdü. Birinci qrupa aid edilən yazılarda Türkiyənin Montrö konvensiyasını vicdanla yerinə yetirməsi, Konvensiyanın bir sıra maddələrinin köhnəlməsi texniki cəhətdən onun yerinə yetirilməsinə maneçilik törətdiyindən Türkiyənin həmin maddələri dəyişməyə hazır olması, lakin ümumilikdə konvensiyanın bu günün tələblərinə tam cavab verdiyi və bütün dəyişikliklərin ancaq konvensiyanın öz çərçivəsində olması

əsaslandırılırdı. İkinci qrupa aid edilən yazılarda Boğazlar rejiminin yalnız Qara dəniz dövlətləri tərəfindən müəyyən edilməsi haqqında Sovet təkliflərinin rədd edilməsi, bununla bağlı ikinci Sovet notasında göstərilən dəlillərin yetərli olmaması qeyd edilirdi. Onların fikrincə, sahilləri yalnız bir dövlətə deyil, bir çox dövlətlərə məxsus olan Qara dənizi heç bir halda qapalı dəniz saymaq olmaz. Bundan əlavə, nə qədər ki, Boğazlarda Sovet İttifaqı və digər Qara dəniz dövlətləri ilə yanaşı, Birləşmiş Millətlərin üzvü olan qalan bütün dövlətlər və xüsusilə, İngiltərə və Amerika da eyni dərəcədə maraqlıdır, Türkiyə hətta istəsə belə bu məsələnin ancaq Qara dəniz ölkələri tərəfindən həll edilməsinə gedə bilməz. Üçüncü qrup yazılar Türkiyənin Boğazları Sovet-Türk qüvvələri tərəfindən birgə müdafiəsini qəbul edə bilməyəcəyi ilə bağlı idi. Bu təklifin Türkiyənin ərazi bütövlüyünü təhlükə altına aldığı, onun suverenliyi və müstəqilliyi ilə ziddiyyət təşkil etdiyi türk mətbuatının səhifələrində aydın şəkildə ifadə edilirdi (61).

Boğazlarla bağlı məsələyə prezident İ.İnönü 1946-cı ilin noyabr ayının 1-də Türkiyə Böyük Millət Məclisinin açılışındakı çıxışında öz münasibətini bildirdi. Sovetlər tərəfindən irəli sürülən iddialar, xüsusilə guya dünya müharibəsi dövründə düşmən gəmilərinin Boğazlardan keçməsi barədə SSRİ-nin gətirdiyi faktlar İ.İnönü tərəfindən rədd edildi. O qeyd etdi ki, Türkiyə Montrö konvensiyasının yeni şərtlərə uyğun yaxşılaşdırılmasının vacibliyini təqdir edir, Konvensiyanın beynəlxalq bir konfransda müzakirəsini yaxşı niyyətlə qəbul edir. Prezident bildirirdi ki, Türkiyənin torpaq bütövlüyünü, suverenlik haqlarını saxlayan əsaslar içərisində bütün maraqlı tərəflərin mənafelərini göz önündə tutan dəyişiklikləri açıq ürəklə qarşılayacağıq. Daha sonra İ.İnönü bildirirdi ki, prinsipləri ilə bağlı olduğumuz Birləşmiş Millətlərin nizamnaməsinin torpaq bütövlüyü və suverenlik haqları müddəalarına riayət edildikcə, Sovetlər Birliyi ilə aramızdakı münasibətlərin düzəldilməsinə və yaxşılaşmasına heç bir maneə olmadığı görünməkdədir. Sovetlər Birliyi ilə iki qonşu olaraq dostcasına etimadlı münasibətlərdə olmaq ciddi və səmimi arzumuzdur (62).

Eyni zamanda 1946-cı ilin sonlarında çap olunmuş "Britaniya ensiklopediyası"ndakı Türkiyə haqqında geniş məqaləsində prezident İ.İnönü Sovet İttifaqı ilə münasibətlərə, o cümlədən Boğazlar məsələsinə toxunmuşdu. On bölmədən ibarət olan məqalənin tam mətni rus dilinə tərcümə edilib SSRİ Xarici İşlər Nazirliyinə göndərilmişdi. İ.İnönü 1945-1946-cı ilin hadisələrinə toxunaraq yazırdı ki, bu illərdə Türkiyə Respublikası üçün ən mühüm məsələ Sovet İttifaqı ilə münasibətlər olub. 1945-ci ilin martında 1925-ci il müqaviləsi yeni şəraitə uyğun gəlmədiyi üçün Sovetlər tərəfindən ləğv edildi. Türklər təklif etdilər ki, yeni müqavilə bağlamağa hazırdırlar. 1945-ci ilin aprelində ilk tələblər gəldi və ardınca Türkiyəyə qarşı ağır təbliğat kampaniyası başlandı. İ.İnönü qeyd edirdi ki, türklər bu

ədalətsiz təbliğat dövrünü səbrlə keçməyə cəhd göstərirdilər. Sovetlərin Boğazlarla bağlı? avqust və sonrakı notalarına toxunan İ.İnönü Türkiyənin bu notaları qəbul etmədiyini bildirirdi (63).

1946-cı ilin oktyabr ayının 28-də Respublika günü münasibətilə radioda çıxış edən Baş nazir R.Peker xarici siyasət, o cümlədən Sovet İttifaqı ilə münasibətlər və Boğazlar məsələsi haqqında SSRİ-nin son notası ilə bağlı hökumətin mövqeyini açıqladı (64).

1946-cı ilin noyabr ayının 13-də Sovetlərin 24 sentyabr notasına Türkiyənin verdiyi 18 oktyabr cavabı ilə bağlı V.Dekanozov V.Molotovun adına geniş arayış hazırladı. O yazırdı: R.Peker hökuməti Sovet notasına münasibətdə Türkiyə hökumətinin mövqeyinin doğru olduğunu əsaslandırmağa çalışır, eyni zamanda mətbuat vasitəsi ilə Boğazlar məsələsinə beynəlxalq xarakter verməyə, bu məsələ ilə bağlı İngiltərə, ABŞ və Fransanın rolunu şişirtməyə çalışır. V.Dekanozovun fikrincə, Türkiyə hökuməti belə hesab edirdi ki, ABŞ, İngiltərə və onun mövqeyi son nəticədə Sovet İttifaqını Montrö konvensiyasını imzalamış "maraqlı" dövlətlərin iştirakı ilə keçiriləcək konfransa qatılmağa məcbur edəcək. SSRİ Xarici işlər nazirinin müavini öz arayışında İ.İnönünün Millət Məclisindəki çıxışında "xarici təhlükənin olması" haqqında xəbərdarlığını xüsusi şəkildə dəyərləndirirdi. Boğazlar məsələsi ilə bağlı sonrakı addımlar barədə V.Dekanozov Ankaradakı Sovet müvəqqəti işlər vəkili P.Yerşovun təklifləri barədə V.Molotova məlumat verirdi. P.Yerşov Sovet notası təqdim edildikdən sonrakı vəziyyəti təhlil edərək təklif edirdi: birincisi, SSRİ Boğazlarda "maraqlı" olan ölkələrin konfransına getməklə razılaşa bilər. İkincisi, SSRİ Türkiyəyə ultimatum verə bilər və o, qəbul olunmayacağı təqdirdə Türkiyə ilə diplomatik əlaqələri kəsə bilər. Üçüncüsü, SSRİ Boğazlarda "maraqlı" olan ölkələrin konfransında iştirak etməkdən imtina edir, maliyyə çətinlikləri yaratmaq və ölkəni taqətdən salmaq istiqamətində Türkiyə əleyhinə "əsəb müharibəsi "ni davam etdirməyə üstünlük verir (65).

"Əsəb müharibəsi"nin davam etdirilməsinin iqtisadi baxımdan Türkiyə üçün ağır nəticələr verəcəyini Türkiyə Xarici İşlər Nazirliyinin Baş katibi F.C.Erkin ABŞ səfiri E.Vilsonla söhbətində təsdiq edirdi. Erkin bildirirdi ki, Sovet hökumətinin Türkiyəyə münasibətinin dəyişmədiyi və təzyiqlərin davam etdirildiyi təqdirdə Türkiyənin gələcəyi qaranlıq olacaqdır. O, qeyd edirdi ki, SSRİ-nin hədə-qorxularına qarşı geniş hərbi təsisatların saxlanmasının iqtisadi yükü Türkiyə üçün çox ciddi problemlər yaratmaqdadır. Erkin etiraf edirdi ki, türk xalqı içərisində iqtisadi vəziyyətlə bağlı geniş narazılıq mövcuddur və bu hökumət üçün ciddi siyasi çətinliklər yaradır. O dedi: "Türkiyəni Sovet təzyiqindən azad edə biləcək hər hansı tədbir görülə bilməyəndə, Türkiyə iqtisadi yardım üçün ABŞ-a müraciət edəcək, çünki ölkə bu yükü sonsuz olaraq daşımaq iqtidarında deyil" (66).

Hadisələrin gərginləşdiyi bir dövrdə, 1946-cı ilin noyabrında Türkiyə hökuməti Faik Zihni Akduru Moskvaya yeni səfir təyin etdi. Noyabr ayının 23-də I.İnönünün, R.Pekerin, H.Sakanın və F.C.Erkinin iştirakı ilə keçirilən iclasda prezident F.Z.Akdura tapşırıq verdi ki, yalnız iki ölkə arasında münasibətlərin inkişaf etdirilməsi məsələsi ilə məşğul olsun. Ona verilən təlimata əsasən Akdur Boğazlarla bağlı heç bir tədbir görməməli və əgər SSRİ məsələni qaldırarsa, sadəcə olaraq heç bir müzakirəyə girməyərək Sovetlərin söylədiklərini öz ölkəsinə məruzə etməli idi (67).

Noyabr ayının axırlarında F.Z.Akdur Moskvada öz vəzifəsinin icrasına başladı və dekabr ayının 9-da etimadnaməsinin surətini V.Dekanozova təqdim etdi. Qısa söhbət zamanı Akdur bildirdi ki, onun əsas vəzifəsi Türkiyə ilə Sovet ittifaqı arasında mehriban qonşuluq siyasətini müdafiə etmək və möhkəmləndirməkdən ibarətdir. Bu görüş barədə yazdığı raportda V.Dekanozov bildirirdi ki, görünür, mənim hər hansı siyasi məsələyə toxunacağının gözlədiyindən danışıqlar zamanı Akdur özünü gərgin aparırdı (68).

Türkiyə tərəfi Boğazlar məsələsinin müzakirəsindən yayınmağa çalışsa da, SSRİ üçün Bosfor və Dardanelldə üstünlüklər əldə etmək hələ ki, öz prinsipiallığını saxlayırdı. SSRİ Xarici İşlər Nazirliyində "Boğazlar böhranı"nı Sovetlərin xeyrinə həll etmək üçün müxtəlif yollar axtarılırdı. Ankaradakı səfir S.Vinoqradov 1946-cı ilin dekabr ayının 10-da Xarici İşlər Nazirliyinə göndərdiyi xatırlatmada ABŞ, İngiltərə və Türkiyənin təklif etdiyi formada konfrans çağırmağın indiki vəziyyətdə SSRİ-nin xeyrinə olmadığını yazırdı. Onun fikrincə, Sovet İttifaqı bu konfransda azlıqda qalacaq, Qara dənizin və Boğazların təhlükəsizliyinə təminat haqqında əsas məsələnin həllinə nail ola bilməyəcəkdir.

S.Vinoqradovun fikrincə, Moskvanın iddialarını saxlamaqdan ötrü konfrans ideyasından yayınmaq lazım idi. O, aydınlaşdırmağa çalışırdı ki, bu konfransda Boğazlar rejiminə dəyişiklik edilməsi 7 avqust 1946-cı ildə Türkiyəyə göndərilmiş notada irəli sürülən təkliflərin dörd və beşinci bəndlərinin həyata keçirilməsini sonradan çətinləşdirə bilərdi. S.Vinoqradov belə hesab edirdi ki, konfrans yeni rejim yaratmayacaq və mövcud rejimdə bir sıra dəyişikliklərə gətirib çıxaracaq. O, Türkiyəyə təzyiq məqsədilə 1921-ci il Sovet-Türk müqaviləsinin ləğv edilməsini təklif edirdi. Bu fikrini səfir Boğazlar rejiminin aydınlaşdırılması ilə bağlı Türkiyə hökumətinin həmin müqaviləyə deyil, Montrö konvensiyası ilə müəyyənləşdirilən reqlamentə istinad etməsi ilə əlaqələndirirdi (69).

Bir müddət sonra, 1947-ci ilin yanvar ayının 25-də S.Vinoqradov öz təkliflərini daha da təkmilləşdirib sistem halına saldı. Qara dəniz Boğazları məsələsində Sovetlərin tutacağı xətt barədə onun V.Molotova göndərdiyi geniş xatırlatmada ABŞ, İngiltərə və Türkiyənin mövqeyi

daha dərindən təhlil edilirdi. O, göstərirdi ki, həm ABŞ, həm də Türkiyə öz cavablarında bəzi əlavələrlə Sovetlərin təkliflərinin birinci üç bəndinin qəbul edilməsinin mümkünlüyünü vurğulayırlarsa və son iki bəndini rədd edirlərsə, Britaniya notasında məsələnin qoyuluşu bir qədər bundan fərqlidir. Britaniya hökuməti də eyniylə SSRİ təkliflərinin dörd və beşinci bəndlərini rədd edir, lakin S.Vinoqradovun fikrincə, o eyni zamanda Sovetlərin təkliflərinin əvvəlki üç bəndinə də münasibət bildirməkdən yayınır və həmçinin Montrö konvensiyasının gözdən keçirilməsini zəruri saysa da, bu məsələyə tələsik baxılmasına tərəfdar deyildir. S.Vinoqradov öz xatırlatmasında Boğazlar məsələsi ilə bağlı konfransın çağırılmasının Sovetlər üçün əlverişli olmamasına aid çoxlu dəlillər gətirmişdi. Onun fikrincə, SSRİ-nin belə konfransda iştirakı faktı Sovetlərin görüşlərində prinsipial dəyişikliklərin, əvvəlki mövqelərindən geri çəkilməyin təzahürü olardı. S.Vinoqradov dekabr xatırlatmasında olduğu kimi yenidən təkrar edirdi ki, Sovet İttifaqı bu konfransda azlıqda qalacaq və Qara dənizin təhlükəsizliyini özündə əks etdirən 7 avqust 1946-cı il notasında irəli sürülən dördüncü və beşinci bəndlərin həyata keçirilməsi şansını birdəfəlik itirəcəkdir.

S.Vinoqradovun yeni təkliflərində diqqəti cəlb edən mühüm məsələ Türkiyəni oyundankənar qoymaqla ona təsir göstərmək cəhdləridir. O qeyd edirdi ki, qeyri-Qara dəniz dövlətlərinin hərbi gəmilərinin Qara dənizə daxil olmasına qadağan qoymaqda bizə lazım olan qərarı almaq üçün yalnız ABŞ və İngiltərə ilə qabaqcadan razılığa gəlmək lazımdır. S.Vinoqradovun fikrincə, Sovet rəhbərliyinin düşünülmüş formada Türkiyədən üz döndərib öz köhnə müttəfiqlərinə tərəf meyllənməsi, Boğazlar məsələsi barədə danışıqların Türkiyənin iştirakı olmadan aparılması, ABŞ və İngiltərənin Sovetlərin xeyrinə güzəştə getmələrinin mümkünlüyü Türkiyənin narahatçılığını doğuracaqdı. Bu narahatçılıqlara Sovet səfiri 1921-ci il Sovet-Türk müqaviləsinin ləğvinin siyasi nəticələrini, Türkiyənin daxili çətinliklərini, iqtisadiyyatın süni şəkildə çökdürülməsini də əlavə edirdi.

Türkiyəyə təzyiqin gücləndirilməsi kimi, S.Vinoqradov rəsmi qaydada Rumıniya və Bolqarıstana müraciət edilməsini, Qara dəniz dövlətlərinin əksəriyyətinin SSRİ-nin irəli sürdüyü prinsiplər əsasında vahid fikrinin formalaşdırılmasını təklif edirdi. Onun fikrincə, bu işlər qeyri-rəsmi yollarla, qeyd edilən ölkələrin hökumətləri ilə fikir mübadiləsi nəticəsində həmin hökumətlərin Sovet təkliflərinə razılıqlarının alınması, yalnız rəsmi qaydada Sovetlərə və Türkiyəyə notalar göndərilməsi ilə deyil, mətbuatlarının yazılan və hökumət üzvlərinin çıxışları vasitəsi ilə həyata keçirilə bilərdi. S.Vinoqradovun fikrincə, SSRİ-nin Rumıniya və Bolqarıstanla eyni mövqedən çıxış etməsi Türkiyəni ictimaiyyətin gözündə nüfuzdan salar, eyni zamanda Sovet tələblərinin ədalətliliyini təsdiq edərdi.

S.Vinoqradov ABŞ və İngiltərənin təklif etdiyi qaydada Qara dəniz Boğazları rejiminin beynəlxalq konfransda həll edilməsini digər məsələlərlə əlaqələndirməyə üstünlük verirdi. O təklif edirdi ki, bu halda Qibraltar boğazının, Süveyş və Panama kanalları kimi su yollarının da müzakirəsini irəli sürmək lazımdır. Lakin o, məsələnin belə qoyuluşunu ABŞ, İngiltərə və Türkiyənin güzəştə getməsinin mümkünlüyünə hesablanmış taktiki mülahizələrlə əlaqələndirirdi. S.Vinoqradov öz təkliflərində kompromis variant kimi keçmiş müttəfiqlərlə əməkdaşlığa üstünlük verirdi. Onun fikrincə, əgər digər yollar baş tutmasa ehtiyat variantı kimi Boğazlar məsələsinin Qara dəniz ölkələri ilə birlikdə dörd böyük dövlətin - SSRİ, İngiltərə, ABŞ və Fransanın birgə iştirak etdiyi konfransda müzakirəsini təklif etmək olardı. S.Vinoqradov belə hesab edirdi ki, Montrö konvensiyasını imzalamış tərkibdən Qara dəniz dövlətləri ilə birlikdə Britaniyanın seçilməsi və həmin tərkibdə olmayan ABŞ-ın yeni tərkibdə yer alması onların Boğazlar üzərində dörd böyük dövlətin iştirakı ilə Qara dəniz dövlətlərinin nəzarətinin qurulmasına razılığını doğura bilər. Lakin bu halda Sovet səfiri Ukrayna və Gürcüstan Sovet respublikalarının konfrans iştirakçıları sırasına qatılmasını zəruri hesab edirdi. Onun fikrincə, belə olardısa, Qərb ölkələri konfransda dörd səsə, Sovet bloku isə beş səsə malik ola bilərdi (70). Lakin bütün bunlar yalnız səfir Sergey Vinoqradovun Sovetlərlə Qərb ölkələri və Türkiyə arasında qarşıdurmanın gücləndiyi həmin dövrdə həyata keçirilməsi mümkün olmayan mülahizələrindən ibarət idi. Bu təkliflərdən az sonra o, Ankaradan səfir vəzifəsindən geri çağırıldı. S.Vinoqradov SSRİ Xarici İşlər Nazirliyinin sərəncamına qayıtdıqdan sonra 1947-ci ilin mart ayında ABŞ prezidenti H.Trümenin çıxışının Türkiyəyə aid hissəsi ilə bağlı onun 25 yanvarda irəli sürdüyü tövsiyələr yenidən yada düşdü. Mart ayının 25-də SSRİ Xarici işlər nazirinin rnüavini Y.Maliklə birlikdə S.Vinoqradovun V.Molotova göndərdikləri təkliflərdə göstərilirdi ki, Qara dəniz Boğazları ilə bağlı onun bu ilin 25 yanvarında Sizin (V.Molotovun - C.H.) adınıza ünvanladığı məlumatda öz əksini tapan təkliflərə baxılmasını sürətləndirmək lazımdır. Onlar qeyd edirdilər ki, bu təkliflərin bir neçəsinə yaranmış yeni şəraitin işığında baxıla bilər (71). S.Vinoqradov Ankaradan geri çağırıldıqdan sonra bir müddət SSRİ-nin işlər vəkili P.Yerşov səfiri əvəz etdi və 1948-ci ilin fevral ayının 16-da Siyasi Büronun qərarı ilə A.Lavrişov Türkiyəyə yeni səfir təyin edildi (72). 1948-ci ilin mart ayının 29-da ÜİK(b)P MK-nın Siyasi Bürosu Xarici İşlər Nazirliyi tərəfindən hazırlanmış "Türkiyədəki səfirə göstərişlər" adlı sənədi təsdiq etdi. Həmin göstərişlərin dördüncü bəndində göstərilirdi: Əgər türklər bizim Boğazlar haqqında məsələdə mövqeyimizi öyrənmək istəsələr, belə bir cavabla kifayətlənmək lazımdır ki, Sovet hökumətinin bu məsələ ilə bağlı mövqeyi 7 avqust və 24 sentyabr 1946-cı il Sovet notalarında ətraflı

şəkildə ifadə olunub" (73). Bu, Boğazlar məsələsində Sovetlərin mövqeyini özündə əks etdirən sonuncu əhəmiyyətli sənəd idi.

Beləliklə, Sovet İttifaqının 1940-cı ildən Boğazlarla bağlı cızdığı bir sıra planlar boşa çıxdı və xüsusilə 1946-cı ilin avqust və sentyabr aylarında elan olunan notalarında irəli sürülən tələblər tədricən öz əhəmiyyətini itirməyə başladı. 1953-cü ilin may ayının 30-da V.Molotov Boğazlar məsələsi ilə bağlı Sovet iddialarından rəsmən imtina edəndə isə həmin məsələ artıq formal xarakter daşıyırdı.

## IX FƏSİL
## Əsəb savaşının Güney Qafqaza keçməsi

İran Azərbaycanında baş verən hadisələr və onun Sovet Azərbaycanına birləşmə ehtimalının güclənməsi, Türkiyəyə qarşı ərazi tələblərinin gündən-günə real xarakter alması Gürcüstan və Ermənistan rəhbərliyinin yaranmış vəziyyətdən daha çox faydalanmaq meylini doğurmuşdu. Moskvadan güclü dəstək alan hər iki respublikanın rəhbərliyi yaranmış əlverişli şəraitdə Türkiyəyə qarşı ərazi iddiaları ilə eyni vaxtda qonşu Azərbaycan Sovet Respublikasına qarşı da ərazi tələbləri ilə Sovet rəhbərliyinə müraciət etmişdilər. Bu artıq əlamətləri hiss edilən əsəb müharibəsinin son dərəcə nadir bir hadisəsi idi. Əgər Türkiyəyə qarşı ərazi iddiaları ilə bağlı tələblər əsasən İ.Stalinə və V.Molotova ünvanlanırdısa, 1945-ci ilin noyabrında əvvəlcə Gürcüstan, bir neçə gün sonra isə Ermənistan kompartiyalarının birinci katibləri K.Çarkviani və Q.Arutinovun məktubları İ.Stalin və G.Malenkova ünvanlanmağa başladı. Bu yazışmalardan aydın olurdu ki, Gürcüstan K(b)P MK-nın birinci katibi K.Çarkviani İ.Stalinə göndərdiyi məktubda Azərbaycan SSR-in Balakən, Zaqatala və Qax rayonlarının guya vaxtilə burada gürcü əhalisinin çoxluq təşkil etdiyinə istinadən Gürcüstan SSR-ə birləşdirilməsi məsələsini qaldırmışdır (1). Bir sıra gürcü alimləri və xüsusilə həmin dövrdə Gürcüstan SSR-in bir sıra rəsmi idarələri tərəfindən qeyd edilən rayonlara göndərilən maarif, mədəniyyət işçiləri, pravoslav din xadimləri belə təbliğat aparırdılar ki, guya XVII əsrdə gürcü-fareydanları zorla köçürüb İrana aparanda bu rayonların boşalmış gürcü əhalisinin yerinə müsəlman əhalisi dolmuşdur. Bu istiqamətdə ilk məlumatlar alındıqda Azərbaycan SSR təhlükəsizlik orqanlarının topladığı gizli məlumatlar əsasında aydın oldu ki, hələ 1944-cü ildə Gürcüstanın Maarif Nazirliyi tərəfindən qeyd edilən rayonlara guya işləmək adı ilə göndərilən gürcü müəllimlər Azərbaycan xalqına qarşı qatı böhtançı təbliğat aparır və Qax rayonunun Azərbaycandan ayrılıb Gürcüstana birləşdirilməsi istiqamətində antiazərbaycan kampaniyası aparırdılar (2). Lakin, görünür bu məsələyə Gürcüstan rəhbərliyi mərkəzdən razılıq aldığından 1945-ci ilin payızında nəinki bu işlərin qabağını almaq mümkün olmadı, əksinə onlar Azərbaycanın Qax, Balakən və Zaqataladakı az saylı gürcü məktəblərinə gürcü dili müəllimləri göndərmək imkanı qazandılar və gürcü əhalisini ana dilində oxutmaq üçün bir sıra yeni məktəblər açdılar.

Noyabr ayının 28-də ÜİK(b)P MK-nın katibi G.Malenkov Ermənistan kompartiyasının katibi Q.Arutinovun Moskvaya ünvanladığı məktubu tanış olmaq üçün M.C.Bağırova göndərdi. Q.Arutinov yazırdı: "Ermə-

nistan ərazisinə bitişik olan Dağlıq Qarabağ Muxtar Vilayəti 1923-cü ildən Azərbaycan SSR-in tərkibinə daxil edilib. Bu vilayətin əhalisi əsasən ermənilərdən ibarətdir. 153 min əhalinin 137 mini ermənidir. Dağlıq Qarabağın kənd təsərrüfatı Ermənistanın dağlıq hissəsi ilə eynilik təşkil edir. Dağlıq Qarabağın Ermənistan tərkibinə daxil olması onun inkişafını və təsərrüfatlara rəhbərliyini yaxşılaşdırardı. Əhaliyə ana dilində mədəni-kütləvi və siyasi xidmət göstərilməsi işinə Ermənistan respublika orqanları tərəfindən rəhbərliyi gücləndirərdi. Dağlıq Qarabağ vilayətinin Ermənistan tərkibinə daxil olması yerli kadrların ana dilində öz təhsillərini Ermənistanın ali məktəblərində davam etdirməsinə imkan verərdi. Digər tərəfdən Ermənistan SSR Dağlıq Qarabağdan əlavə kadrlar ala bilərdi. Bunu və Dağlıq Qarabağ əhalisinin arzusunu nəzərə alaraq Ermənistan Mərkəzi Komitəsi və Xalq Komissarları Soveti Azərbaycan SSR Dağlıq Qarabağ vilayətinin Qarabağ vilayəti kimi Ermənistan SSR-in tərkibinə daxil edilməsi məsələsinə baxılmasını ÜİK(b)P MK-sı və İttifaq hökuməti qarşısında irəli sürür. Bu məsələ müsbət həll olunarsa, Ermənistan Mərkəzi Komitəsi və Xalq Komissarları Soveti Sovet hakimiyyəti qurulması ərəfəsində dağıdılmış Qarabağın keçmiş vilayət mərkəzi Şuşa şəhərinin bərpa olunması təklifi ilə İttifaq hökumətinə çıxacaq". Q.Malenkov M.C.Bağırova yazırdı ki, Ermənistan K(b)P MK-nın təklifinə öz fikrinizi bildirin (3).

Bu məktublara cavab vermək üçün M.C.Bağırov respublikanın müvafiq strukturlarına, elmi idarələrinə tapşırıq verdi ki, Ermənistan və Gürcüstan respublikaları rəhbərlərinin toxunduğu məsələlərlə bağlı materiallar toplasınlar. Verilən tapşırığa uyğun olaraq çox qısa müddətdə Qarabağın dağlıq və aran hissəsinin tarixən Azərbaycana aid olması, əhalinin milli tərkibində baş verən dəyişikliklər və onların səbəbləri, müxtəlif statistik məlumatlar, Qarabağın dağlıq hissəsinə muxtar vilayət statusu verilməsi ilə bağlı yazışmalar və müzakirələr, bu məsələ ilə bağlı ittifaq və respublika orqanlarının iclaslarının protokolları və sairi özündə əks etdirən çoxlu sayda sənədlər toplandı.

Məsələn, keçmiş Qarabağ xanlığının sərhədləri və əhalisi haqqındakı arayışda göstərilirdi ki, Qarabağ xanlığı Kürçay ilə Araz çayı arasında yerləşib Şimali qərbdən Kürək çayı boyunca Gəncə, Göyçay çayı boyunca Şəki, Şərqdən Kür çayı boyunca Şamaxı, Muğan çölü boyunca Qaradağ, cənub-qərbdən Naxçıvan, qərbdən İrəvan xanlıqları ilə həmsərhəd olub. XVIII əsrdə xanlığın əhalisi 130 min nəfərdən ibarət idi (4). Əgər bir vaxtlar xanlığın bu əhalisi bütövlükdə türklərdən ibarət idisə, toplanan sənədlərdə göstərilirdi ki, Rusiya işğallarından sonra Qarabağın dağlıq hissəsində əhalinin milli tərkibində tədricən dəyişikliklər əmələ gəlməyə başladı. Sonrakı dövrdə Qarabağda əhalinin milli-etnik tərkibində baş verən dəyişikliklərin dinamikası müəyyən qədər etibarlı mənbə sayılan

1823-cü ildə tərtib olunmuş "Qarabağ əyalətinin təsviri..." kitabına istinad edilirdi. Çünki bu kitabda Şuşa şəhəri və bütün kəndlər əhatə olunmaqla ailələrin sayı, ailə başçılarının ad-familiyası qeydə alınmışdır. Sənədlərə istinad edən rus müəllifi N.İ.Şavrov 1911-ci ildə nəşr edilmiş kitabında Zaqafqaziyaya 1828-1830-cu illərdə 40 min İran və 84600 Türkiyə ermənisinin köçürülməsindən və onların "erməni əhalisi yox dərəcəsində olan" Yelizavetpol və İrəvan quberniyalarında yerləşdirilməsini qeyd etmişdi. N.Şavrov yazırdı ki, Zaqafqaziyada yaşayan 1 milyon 300 min ermənidən 1 milyondan artığı gəlmə ermənilərdir (5). Rus işğallarından sonrakı yüz il ərzində Qarabağda əhalinin milli-etnik tərkibində daha ciddi dəyişikliklər baş verdiyi toplanan sənədlərdə aydın şəkildə göstərilirdi (6). Toplanan sənədlər içərisində Qızıl ordunun Mərkəzi Dövlət Arxivinə istinadən Azərbaycan-Ermənistan və Azərbaycan-Gürcüstan sərhədlərini özündə əks etdirən sənədlər xüsusi əhəmiyyət kəsb edirdi. Orada göstərilirdi ki, Azərbaycan-Ermənistan sərhədləri köhnə Sürməli qəzası boyunca Araz çayına qədər, oradan İrəvan qəzasının Aqamzalı, Baş Gəmi və İmirzin kəndlərindən, Yeni Bəyazit və Şərur-Dərələyəz qəzasından keçməklə sonra Göyçə gölünə qədər dönür. Bu yerdə Gözəl dərə kəndi Ermənistana keçir, Taş kənd və Basarkeçər Azərbaycanda qalır. Sərhədlər Göyçə gölünü yarı bölməklə Gəncə və İrəvan quberniyaları sərhədləri üzrə davam edir. Bu məntəqədə Çubuxlu kəndi Ermənistanda qalmaqla Göyçə gölünün bütün qalan şərq sahilləri Azərbaycana məxsus idi. Bu sərhədlərə əsasən Gəncə quberniyası və İrəvan quberniyasının Sürməli, Naxçıvan, Şərur-Dərələyəz qəzaları, eyni zamanda Kəmərli kəndi, Böyük Vedi və Dəvəli daxil olmaqla İrəvan qəzasının cənub hissəsi, Yeni Bəyazidin şərq hissəsi Azərbaycan ərazilərinə daxil idi (7).

Toplanan sənədlər içərisində 1945-ci ildə ÜİK(b)P MK-sı Siyasi Bürosunun üzvü və soyuq müharibənin ilk illərində Cənubi Qafqaz respublikaları və SSRİ ilə Türkiyə arasında sərhədlərin Ermənistanın xeyrinə dəyişdirilməsi məsələsində az rol oynamayan A.Mikoyanın 1919-cu ildə "Erməni imperializmi" adlı məqaləsi xüsusi maraq kəsb edirdi. A.Mikoyan yazırdı ki, "Nə qədər təəccüblü və komik, daha çox tragikomik olsa da, hər halda öz spesifikliyi, mürtəce xarakteri və məzmunu ilə erməni imperializmi mövcuddur. İndi Ermənistan faktiki olaraq müsəlman əhalisinin erməni əhalisindən bir qədər az olduğu İrəvan quberniyasının ərazisini tutub. Lakin bu yeganə ərazidir ki, ermənilər nisbətən böyük kütlə halında yaşayır və əhalinin çoxluğunu təşkil edir. Erməni hökumətinin mürtəce-şovinist siyasəti nəticəsində əhalinin beşdə ikisini təşkil edən bütün müsəlman əhalisi nəinki hakimiyyətdə hər hansı formada iştirakdan və ölkənin idarə edilməsindən tamamilə uzaqlaşdırılıb, eyni zamanda faktiki olaraq xarici vətəndaşlar kimi hüquqsuz vəziyyətə düşüblər" (8).

Bütün bu hazırlıq tədbirlərindən sonra M.C.Bağırov 1945-ci ilin dekabr ayının 10-da Ermənistan və Gürcüstanın Azərbaycana qarşı irəli sürdükləri ərazi iddiaları ilə bağlı öz fikir və mülahizələrini ÜİK(b)P MK-nın katibi G.Malenkova ünvanladığı geniş məktubda açıqladı. O yazırdı: "Ermənistan K(b)P MK-nın katibi Arutinovun Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR tərkibinə daxil edilməsi haqqında təklifləri ilə bağlı Sizin teleqramınıza cavab olaraq bildirirəm: Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisi qədim zamanlardan mərkəzi Pənah xan Qarabaği tərəfindən 1747-ci ildə qala kimi tikdirilən Pənahabad olmaqla Qarabağ xanlığının tərkibinə daxil olub. 1826-cı ildə Qarabağ çar Rusiyasına birləşdirilib. Sonradan indiki DQMV-nın ərazisi Yelizavetpol quberniyasının Şuşa, Cavanşir, Karyagin və Qubadlı qəzalarının tərkibinə daxil olub. Müsavatçıların Azərbaycanda, daşnakların Ermənistanda ağalıq etdikləri 1918-1920-ci illərdə bütün Qarabağ ərazisində müsavat hökuməti mərkəzi Şuşa şəhəri olmaqla Qarabağ general-qubernatorluğu yaratmışdı. Müsavatçıların və daşnakların təşkil etdiyi milli qırğınlar nəticəsində Azərbaycan və Ermənistanın digər şəhərləri kimi Şuşa şəhəri də dağıdılmış və xarabalığa çevrilmişdi. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra ilk dövrlərdə bütün Qarabağın təsərrüfat-siyasi həyatına rəhbərliyi vilayətin vahid inqilab komitəsi həyata keçirirdi. 1923-cü ildə erməni əhalisinin üstünlük təşkil etdiyi Qarabağın dağlıq hissəsinin Ermənistan SSR-ə birləşdirilməsi haqqında məsələ meydana çıxdı. Lakin nəzərə alaraq ki, bu ərazi Ermənistanla ümumi sərhədlərə malik deyil və əhalisi istisnasız olaraq azərbaycanlılardan ibarət olan Qubadlı, Laçın, Kəlbəcər və Dəstəfur rayonları ilə ondan ayrılır, partiya orqanlarının göstərişi əsasında Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin dekreti ilə 7 iyul 1923-cü ildə Mərkəzi Xankəndi, indiki Stepanakert olmaqla DQMV yaradıldı. Beləliklə, DQMV-nin ərazisi heç vaxt Ermənistan SSR-ə bitişik olmayıb və bitişik deyil" (9).

Sonra isə M.C.Bağırov Q.Arutinovun məktubunda DQMV-nin təsərrüfat, iqtisadi, mədəni və siyasi vəziyyəti ilə bağlı qaldırdığı məsələləri təkzib edir, respublika ali məktəblərində təhsil alan tələbələrin 20,5 faizinin ermənilər olduğu və bunların da əksəriyyətinin DQMV-dan çıxdığı, habelə çoxlu Qarabağ mənşəli ermənilərin rəhbər partiya, sovet və təsərrüfat işlərində irəli çəkildiyini qeyd edirdi. O, birmənalı formada Qarabağın dağlıq hissəsinin nə vaxtsa Ermənistanın tərkibində olmadığını vurğulayırdı. Lakin M.C.Bağırov bu məsələnin yuxarıdan gəldiyini düşünərək Ermənistan SSR-in əsasən azərbaycanlılar yaşayan Əzizbəyov, Vedi və Qarabağlar rayonlarının Azərbaycan SSR-ə birləşdirilməsi şərti ilə Şuşa istisna olmaqla DQMV-nin Ermənistan SSR-ə birləşdirilməsinə etiraz etmədiyini bildirirdi. Onun fikrincə, bu rayonların mədəni və iq-

tisadi cəhətdən geriliyini nəzərə alaraq onların Azərbaycana verilməsi əhaliyə mədəni-siyasi və maddi-məişət xidmətinin yaxşılaşdırılmasına imkan yaradardı. Şuşanın Azərbaycanın tərkibində qalmasının zəruriliyini əsaslandıraraq M.C.Bağırov yazırdı: "Şuşa əsası qoyulan andan nəinki Qarabağın inzibati-siyasi və mədəni mərkəzi olub, eyni zamanda Azərbaycan xalqının öz müstəqilliyi uğrunda İran işğalçılarına qarşı mübarizədə müstəsna rol oynayıb. Şuşada Zaqafqaziya xalqlarının qəddar düşməni, qanlı istilaçı İran şahı Ağa Məhəmməd Şah Qacar azərbaycanlılar tərəfindən öldürülüb. Bu şəhərdə Azərbaycanın zəngin musiqi mədəniyyəti formalaşıb, İbrahim xan, Vaqif, Natəvan və digərləri kimi nəhəng siyasi və mədəniyyət xadimlərinin adı bu şəhərlə bağlıdır" (10).

Uzun müddət Sov.İKP MK-da məsul vəzifələrdə işləmiş K.Brutens 1998-ci ildə nəşr olunmuş xatirələrində bu məsələni bir qədər fərqli formada təqdim edir. O yazır: "Hələ ki, rəsmi qaydada təsdiqlənməyən belə bir rəvayət var ki, 1946-cı ildə Qarabağ haqqında məsələ Ermənistan KP MK-nın katibi Arutinov tərəfindən qoyulub. Stalinin məsələni "araşdırmağı" tapşırdığı Beriya, Bağırovla birlikdə Qarabağın Ermənistana, Dağıstanın Azərbaycana, eyni zamanda Soçinin Gürcüstana verilməsi təklifini razılaşdırmışdılar" (11). Göründüyü kimi, bu "rəvayət" rəsmi sənədlərlə təsdiqlənən tarixi gerçəklikdən xeyli dərəcədə fərqlidir.

Məktubun ikinci hissəsində M.C.Bağırov Gürcüstan rəhbərliyinin ərazi iddialarına cavab verir və Azərbaycanın Gürcüstan və Rusiya federasiyasına ərazi iddiaları ola biləcəyini xatırladırdı. O yazırdı: Gürcüstandan olan yoldaşlar Azərbaycan SSR-in Balakən, Zaqatala və Qax rayonlarının Gürcüstan SSR-ə daxil edilməsi haqqında məsələ qoyurlar. Baxmayaraq ki, göstərilən rayonların 79 min nəfər ümumi əhalisindən 9 mini gürcü-inqloylardır, biz bu məsələyə baxılmasının əleyhinə deyilik. Lakin bununla eyni vaxtda bilavasitə Azərbaycan SSR-ə bitişik, əhalisi demək olar ki, ancaq azərbaycanlılardan ibarət olan Gürcüstan SSR-in Borçalı rayonunun Azərbaycan SSR-nin tərkibinə daxil edilməsi haqqında məsələyə də baxılmalıdır. Ən nəhayət, M.C.Bağırov G.Malenkova yazırdı ki, "Biz Dağıstan Muxtar SSR-in Azərbaycan SSR-ə bitişik olan, vaxtilə Bakı quberniyasının tərkibinə daxil olmuş və keçmişdə Azərbaycanın bir hissəsi kimi Dərbənd və Qasımkənd rayonları ərazilərinin Azərbaycan SSR-in tərkibinə daxil edilməsi haqqında məsələyə də baxılmasını xahiş edirik. Bu rayonların əhalisi əsasən azərbaycanlılardan ibarətdir, yeri gəlmişkən, onların yarıdan çoxu heyvandarlıqla məşğul olur və ilin 9 ayını Azərbaycan ərazisində keçirirlər".

Məktubun sonunda M.C.Bağırov təklif edirdi ki, bütün qaldırılan məsələlər üzrə təkliflər hazırlamaq üçün ÜİK(b)P MK-nın komissiya yaratmasını və bu məsələdə maraqlı olan hər respublikanın nümayəndəsinin onun tərkibinə daxil edilməsini məqsədəuyğun sayırıq (12).

Bu məsələnin 1945-ci ildə gündəliyə gəlməsi prof.E.İsmayılovun qeyd etdiyi kimi Cənubi Azərbaycanda milli hərəkatın başlanması, bunun son nəticədə Şimali və Cənubi Azərbaycanın birləşməsinə gətirib çıxaracağı, bu halda SSRİ-nin tərkibində Azərbaycan SSR-in ərazilərinin xeyli genişlənəcəyinə Sovet rəhbərliyinin yuxarı eşalonunda yaranmış inamla bağlı idi (13). Sovet İttifaqı İkinci Dünya müharibəsindən o qədər qüvvətli çıxmışdı ki, Kreml otaqlarında cızılan planların lap yaxın vaxtlarda reallaşacağına hələ ki, heç kim şübhə etmirdi. Türkiyədən tələb edilən ərazilərin bölüşdürülməsi uğrunda Gürcüstan və Ermənistan arasında başlanmış gərgin əsəb savaşı, Cənubi Qafqazda Azərbaycan hesabına sərhədlərin dəyişdirilməsi uğrunda fəal mübarizənin başlanması Sovet rəhbərlərinin və eləcə də Cənubi Qafqaz Sovet respublikalarının başçılarının SSRİ-nin İran və Türkiyəyə qarşı irəli sürdüyü, ilk dövrlərdə ardıcıl olaraq həyata keçirdiyi tələblərin Yaxın vaxtlarda həll olunacağına yaranmış dərin inamlarından qaynaqlanırdı. Hamı böyük qələbədən sonra SSRİ-də, o cümlədən Cənubi Qafqazda soyuq müharibənin ilk kiçik qələbəsinin beş addımlığında olduğunu zənn edir və onun doğurduğu eyforik arzuları cilovlaya bilmirdi. Həmin dövrdə Azərbaycan Kompartiyasının Mərkəzi Komitəsinin katibi işləmiş M.Q.Seyidov öz xatirələrində yazırdı: "1945-ci ilin payız günlərinin birində M.C.Bağırov Stalinin qəbulunda ÜİK(b)P MK-sı Siyasi Bürosunun iki üzvü erməni Anastas Mikoyan və gürcü Lavrenti Beriya ilə rastlaşır. Onların hər ikisi bildirirlər ki, Cənubi Azərbaycan haqqında məsələ artıq həll edilib və tezliklə Azərbaycan SSR-in ərazisi əhəmiyyətli dərəcədə artacaq. Ola bilsin zarafat kimi, ola bilsin ki, yox, onlar ümidvar olduqlarını bildiriblər ki, indi M.C.Bağırov səxavətli olacaq və Dağlıq Qarabağın Ermənistana, respublikanın şimalında bir sıra rayonların (Balakən, Zaqatala və digərləri) Gürcüstana qatılmasına razılıq verəcək. M.C.Bağırov cavab verib ki, hələ bu haqda düşünməyin vaxtı deyildir (14).

Beləliklə, 1945-ci ilin dekabrında xarici İşlər nazirlərinin Moskva müşavirəsi ərəfəsində soyuq müharibənin ilk hadisəsi kimi İran və Türkiyəyə qarşı yönəlmiş sovet tələblərinə Cənubi Qafqaz respublikalarının bir-birlərinə qarşılıqlı iddiaları ilə müşayiət edilən əsəb savaşının məhəlli epizodları da əlavə olunmuşdu.

Hələ 1945-ci ilin payızında Ermənistan və Gürcüstan sovet respublikaları tərəfindən Azərbaycana qarşı irəli sürülmüş ərazi iddiaları 1946-cı ilin ortalarından ciddi xarakter almağa başladı. İndi artıq bu tələblər yalnız respublika rəhbərlərinin mərkəzlə yazışmalarında deyil, həmin tələbləri tarixi, etnoqrafik və siyasi" baxımdan "əsaslandırmağa" çalışan bir sıra kütləvi nəşrlərdə və ayrı-ayrı millətçi qrupların Azərbaycan əleyhinə açıq və gizli şəkildə apardığı təbliğat kompaniyasında öz əksini tapmağa başladı. Sərhəd məntəqələrində yerləşən bəzi tarixi abidələrin və yaşayış məntəqələrinin keçmişi ilə bağlı qaldırılan məsələlər Güney Qafqaz

respublikaları arasında sərhədlərin dəyişdirilməsinə hesablandığından qonşu respublikalarla Azərbaycan rəhbərliyi arasında əsəb gərginliyini günü-gündən artırırdı. Azərbaycanın Qax, Balakən, Zaqatala rayonlarına iddiaların irəli sürülməsi ilə eyni vaxtda Gürcüstan SSR Daxili İşlər Nazirliyinin şosse yolları idarəsi Xram çayı üzərində yerləşən Sınıq körpünün Gürcüstanın balansına daxil edilməsi tələbi ilə çıxış etmişdi (15). Gürcüstan tərəfi öz tələbini İ.P.Şebhkinin Bakıda çap olunmuş "Nizami dövrünün Azərbaycan memarlıq abidələri" adlı kitabına istinadən əsaslandırırdı. Orada səhv olaraq göstərilmişdi ki, Sınıq körpü 1647-ci ildə gürcü çarı Rostom tərəfindən tikilmişdir. İ.P.Şebhkin də öz fikrini əsaslandırmaq üçün Dübyanın 1834-cü ildə çap olunmuş "Qafqaza səyahət" kitabına istinad edirdi. Lakin həmin mənbədə söhbət Sınıq körpünün 1647-ci ildə tikilməsindən deyil, bərpa edilməsindən gedirdi. Dübya yazırdı: "Bu körpünün bir neçə adı vardır. Ruslar onu "Qırmızı körpü", gürcülər "Qatxixilixisi", tatarlar "Sınıq körpü" adlandırırlar. Sonuncu iki ad "dağıdılmış körpü" mənasındadır". O uzun zaman ərzində dağılmış vəziyyətdə olmuşdur.

Respublika rəhbərliyinin tapşırığı əsasında bu məsələ A.Bakıxanov adına Tarix İnstitutu tərəfindən öyrənilmiş və institutun direktoru A.Əlizadənin rəhbərliyi ilə 1946-cı ilin iyul ayının 2-də Sınıq körpünün keçmişi haqqında "Tarixi arayış" hazırlanmışdı. Arayışda göstərilirdi ki, Xram çayı (Dərbənd çayı) üzərində Sınıq körpünün inşa edilməsi tarixi hələ dəqiqləşdirilməmiş və tarixi mənbələrdən bu barədə dəqiq məlumat tapılmamışdır. A.Əlizadə yazırdı ki, prof. Perederiyanın "Körpülər kursu" kitabında bu körpü öz arxitekturasına, arkanın formasına və tikintidə istifadə olunan materialların tərkibinə görə "Persiya körpüləri" rubrikasına aid edilir və onun XI əsrdə inşa edildiyi bildirilirdi. Arayışda qeyd edilirdi ki, indiyə qədər həm Şimali, həm də Cənubi Azərbaycan ərazisində belə çoxaxınlı körpülərin qalıqlarına təsadüf edilir. Qədim Gəncə hüdudlarında Nizami Gəncəvi dövründə Gəncə çayı üzərində tikilmiş üç körpü, Şəmkir çayı üzərində tikilmiş iki körpü, Araz çayı üzərində tikilmiş Xudafərin, Təbriz yaxınlığında Acı çay üzərində tikilmiş qədim körpü Sınıq körpü ilə birlikdə eyni memarlıq məktəbinin nümunələri idi. Bununla yanaşı A.Əlizadə son dövrlərə qədər Azərbaycan memarlıq abidələrinin milli Azərbaycan abidələri kimi deyil, fars abidələri kimi baxılmasını doğru saymırdı. Bir sıra mənbələrə istinadən arayışda Sınıq körpünün 1647-cı ildə Gürcü çarı Rostom tərəfindən tikilməsi barədə iddiaların doğru olmadığı göstərilirdi (16). Tarix İnstitutunun hazırladığı arayış əsasında Azərbaycan SSR Daxili İşlər Nazirliyinin şosse yolları idarəsi 1946-cı ilin iyul ayının 17-də öz mövqeyini açıqladı. Orada göstərilirdi ki, Gürcüstari SSR Daxili İşlər Nazirliyinin şosse yolları idarəsinin Sınıq körpünu Gürcüstanın yol qovşaqlarına aid etməsi haqqında iddiaları əsaslandırılmış deyildir və tarixi məlumatlarla ziddiyyət təşkil edir. Sənəddə deyilirdi:

1. İ.Şeblıkinin "Nizami dövrü Azərbaycan memarlıq abidələri" kitabında söhbət Sınıq körpünün 1647-ci ildə Gürcü çan Rostom tərəfindən tikilməsindən deyil, yalnız bərpa olunmasından gedir;

2. Gürcüstan SSR Daxili İşlər Nazirliyinin şosse yolları idarəsinin istinad etdiyi İ.Şeblıkinin "Nizami dövrü Azərbaycan memarlıq abidələri" kitabının adı yetərlidir ki, Sınıq körpü Azərbaycanın qədim abidəsi sayılsın;

3. Azərbaycan, Gürcüstan və Ermənistan SSR Xalq Komissarları Soveti yanında geodeziya və kartoqrafiya idarələrinin dövlət müvəkkillərinin 11-17 may 1945-ci ildə Güney Qafqaz respublikalarının sərhədlərinin dəqiqləşdirilməsi ilə bağlı keçirdiyi birgə müşavirədə Sınıq körpü bütövlükdə Azərbaycanın ərazisində saxlanmışdır;

4. 1945-ci ilin yanvar ayında Dövlət komissiyası yenidən qurulmuş Culfa-Tbilisi-Beslan yolunu qəbul edərkən Gürcüstan şosse yolları idarəsi öz yol sərhəd dirəyini Xram çayının sol sahilində basdırmış və bununla da Sınıq körpünün Azərbaycana məxsus olduğunu tanımışdır.

Sənədin sonunda bildirilirdi ki, gətirilən faktlar inandırıcı şəkildə təsdiq edir ki, Gürcüstan Daxili İşlər Nazirliyinin Sınıq körpünü öz yolları şəbəkəsinə daxil etmək cəhdləri əsaslandırılmış deyildir (17).

1945-ci ilin noyabrında Gürcüstan kompartiyasının katibi K.Çarkvianinin Qax, Balakən və Zaqatalanın Gürcüstana verilməsi ilə bağlı Moskvaya müraciətlərindən sonra Maarif Nazirliyi və pravoslav kilsəsi xətti ilə bölgəyə ezam olunmuş bir sıra şəxslər Azərbaycan əleyhinə böhtançı təbliğat kampaniyasına başlamışdılar. Azərbaycan SSR Dövlət təhlükəsizliyi naziri S.Yemelyanovun 1947-ci ilin noyabr ayında hazırladığı geniş arayışda göstərilir ki, Gürcüstan SSR-in Maarif Komissarlığı xətti ilə 1944-cü ildən başlayaraq gürcü məktəblərində işləmək üçün Qax rayonuna gələn müəllimlər Qax rayonunun Azərbaycandan alınıb Gürcüstana verilməsi barədə qatı millətçi təbliğat aparır və bu təbliğatın gedişində Azərbaycan xalqına qarşı ağır böhtanlar yağdırmaqdan çəkinmirlər. Arayışda qeyd edilirdi ki, yerli inqloylar arasından ayrı-ayrı şəxslər rayona göndərilmiş gürcü müəllimlərin təsiri altına düşür və millətçi təbliğatda iştirak edirlər. Dövlət Təhlükəsizliyi Nazirliyinin arayışında Gürcüstandan gəlmiş Boris Çelidzenin və Yelena Areşidzenin Azərbaycan əleyhinə apardığı təbliğat kampaniyası barədə çoxlu faktlar vardır. 1947-ci ilin may ayında müəllimlərin biri ilə söhbətində B.Çelidze demişdi ki, "Nə isə son vaxtlar bizim Gürcüstan susur. Keçən il deyirdilər Ki, Yaxın vaxtlarda Qax Gürcüstana birləşdiriləcək, indi isə susurlar. Əvvəllər bu yerlər Gürcüstana məxsus olub. Heç olmasa bu inqloylar gürcü dilində təmiz danışmağı öyrəndilər. Uşaqlar sözləri düzgün tələffüz edə bilmirlər. Onların çoxlarında azərbaycanlı tələffüzü var. Onlar burada

azərbaycanlılar arasında dili necə öyrənəcəklər? Onlardan heç nə çıxmayacaq".

1947-ci ilin iyul ayında inqloy müəllimlərlə söhbətdə B.Çelidze bildirmişdi ki, "Qax rayonu Gürcüstana məxsusdur, gec ya tez o yenə də bizə keçəcək". Dövlət Təhlükəsizliyi Nazirliyinin arayışında Y.Areşidzenin apardığı anti azərbaycan təbliğatına da geniş yer vermişdir. O, 1946-cı ilin sonlarındakı söhbətlərində bildirirdi ki, "Mən istəyirəm Qax rayonu Gürcüstana birləşdirilsin, onda biz azərbaycanlılardan canımızı qurtararıq". 1947-ci ilin avqustunda Y.Areşidze müəllimlərin biri ilə söhbətdə demişdi: "Gürcüstan ona görə bizə kömək edir ki, biz burada inqloylar arasında Gürcüstanın xeyrinə, onların Gürcüstana birləşdirilməsi üçün təbliğat aparırıq". Dövlət Təhlükəsizliyi Nazirliyi müəyyən etmişdi ki, Tbilisidən gəlib Qax rayonunda maarif şöbəsinin müdiri işləyən Platon Bluaşvili gəldiyi gündən azərbaycanlılar əleyhinə təbliğata başlayıb. 1945-ci ildə inqloy müəllimlərlə söhbətində o, vəd vermişdi ki, bu il Qax rayonu Gürcüstana birləşdiriləcəkdir. 1946-cı ilin əvvəllərində P.Bluaşvili qeyd edirdi ki, bu üç rayon (Qax, Balakən və Zaqatala) nə vaxtsa Gürcüstan SSR-ə məxsus olub və onların Gürcüstana birləşdirilməsi faydalı olardı. O, yeni inqloyları azərbaycanlılarla yaxşı münasibətlərə görə məzəmmət edib deyirdi: "Siz yerli gürcülər indiyə qədər başa düşmək istəmirsiniz ki, bizə Azərbaycan deyil, Gürcüstan rəhbərlik edəcək. Bu sizdə nə adətdir, bir şey olan kimi qaçırsınız azərbaycanlıların yanına. Həmin dövrlər keçdi, indi biz buraların sahibiyik. Mən nə yerli raykoma, nə də Bakıya tabe olmuram. Qoy onlar bizə rəhbərlik etməsinlər. Bizi bura ondan ötrü göndəriblər ki, azərbaycanlılar yerli inqloyların işlərinə müdaxilə etməyi dayandırsınlar. Biz özümüzü ela aparmalıyıq ki, yerli inqloyların azərbaycanlıları görməyə gözləri olmasın. Siz gürcü müəllimlər daha yaxşı işləməlisiniz, ona görə ki, Qax rayonunun Gürcüstana birləşdirilməsi gözlənilir". Qeyd edilənlərdən başqa Dövlət Təhlükəsizlik Nazirliyinin arayışında Tbilisidən bölgəyə ezam olunmuş B.Bakradzenin və Q.Mşvidobadzenin də azərbaycanlılara qarşı təbliğat apardıqları bildirilirdi. Tbilisidən ezam olunmuş müəllimlərdən iki nəfəri, B.Çelidze və Y.Areşidze Azərbaycan xalqına qarşı apardığı qatı düşmənçilik təbliğatına görə Azərbaycan hüquq mühafizə orqanları tərəfindən həbs edilməsi nəzərdə tutulmuşdu (18).

1946-cı ildə Moskvaya səfəri ərəfəsində M.C.Bağırov müxtəlif nazirliklərə tapşırıq vermişdi ki, Qax, Balakən və Zaqatala ilə bağlı bütün tarixi, etnoqrafik, iqtisadi, mədəni və sosial xarakterli arayışlar hazırlasınlar. Verilən tapşırıqlara əsasən müvafiq respublika nazirlikləri qeyd edilən rayonlarda əhalinin milli-etnik tərkibi, iqtisadi vəziyyəti, torpaq quruluşu, vergilərin həcmi, həbs olunanların milli tərkibi, Sınıq körpünün Azərbaycana məxsusluğu və s. haqqında geniş arayışlar hazırlamışdılar.

Ədliyyə Nazirliyinin hazırladığı Qax, Balakən və Zaqatalada həbs olunanların milli tərkibi haqda arayış həmin dövrün qaydalarına uyğun olaraq əhalinin milli tərkibini öyrənmək üçün səciyyəvi bir sənəd idi. Məsələn, bu arayışda göstərilirdi ki, 1945-ci ildə Qax rayonunda həbs olunanların 273 nəfəri azərbaycanlı, 41 nəfəri inqloy, 1946-cı ilin birinci yarısında isə müvafiq olaraq 99 azərbaycanlının, 17 inqloyun həbs olunduğu bildirilirdi. Balakən rayonunda 1945-ci ildə 124 azərbaycanlının, 4 gürcünün, 31 inqloyun, 1946-cı ilin birinci yarısında 32 azərbaycanlının, 1 gürcünün, 11 inqloyun, Zaqatala rayonunda 1945-ci ildə 191 azərbaycanlının, 5 gürcünün, 1946-cı ilin birinci yarısında isə 66 azərbaycanlının həbs olunduğu arayışda qeyd olunurdu (19). Belə bir arayışın hazırlanması eyni zamanda onunla bağlı idi ki, Gürcüstan tərəfi guya inqloyların Azərbaycanda təqib olunması və onlar arasında həbs olunanların guya daha çox olmasından öz narahatçılığını ifadə etmişdi.

Qax, Balakən və Zaqatala rayonlarının tarixi keçmişi haqqında Daxili İşlər naziri M.Yaqubov tərəfindən 1946-cı ilin iyul ayının 22-də M.Bağırova göndərilən 29 səhifəlik arayışda 1891-ci ildə qeyd edilən rayonların ərazisində 74449 nəfər əhalinin yaşadığı, bunun 63492 nəfərinin müsəlman, 7592 nəfərinin pravoslav olduğu bildirilirdi. 1932-ci ilin məlumatına görə Zaqatalada 235, Balakəndə 443, Qaxda isə 5161 inqloyun olduğu, bunun isə ümumi əhalinin 8,06 faizini təşkil etdiyi arayışda qeyd edilirdi (20). 1944-cü ilin yanvar ayının 1-nə olan məlumatlar əsasında hazırlanan arayışda isə Zaqatalanın 37250 nəfər ümumi əhalisinin 4881 nəfərinin inqloy, Balakənin 27550 nəfər əhalisinin 802 nəfərinin, Qax rayonunun 19449 nəfər əhalisinin 4600 nəfərinin inqloy olduğu bildirilirdi. Ümumilikdə, üç rayonun 84249 nəfər əhalisindən 10283 nəfərinin inqloy olduğu Daxili İşlər Nazirliyinin arayışında göstərilmişdi (21).

Qax, Balakən və Zaqatala rayonlarına Gürcüstan SSR-in maarif, mədəniyyət və dini idarələr tərəfindən göndərilən adamların apardığı təbliğatla bağlı məsələlər 1947-ci ilin noyabr ayının 11-də Azərbaycan K(b)P MK-nın bürosunda müzakirə edildi. Müzakirə nəticəsində büronun qəbul edilmiş qərarını M.C.Bağırov noyabr ayının 13-də L.Beriyaya göndərdi, eyni zamanda Gürcüstandan göndərilən maarif və mədəniyyət işçilərinin, dini təşkilatların nümayəndələrinin Azərbaycan əleyhinə apardığı təbliğatla bağlı müzakirə edilən arayışın və büronun qərarının surətini o, eyni zamanda Gürcüstan KP MK katibi K.Çarkvianiyə də göndərdi. Büroda SSRİ Nazirlər Soveti yanında pravoslav kilsəsi üzrə Şuranın Azərbaycan SSR üzrə müvəkkili Laşmanov, Azərbaycan SSR maarif nazirinin müavini Ələsgərov və Nazirlər Soveti yanında dini işlər üzrə şuranın müvəkkili Bağırovun hazırladığı geniş arayış müzakirə edildi. Arayışda göstərilirdi ki, yuxanda adları çəkilən şəxslər 1947-ci ilin oktyabr ayının sonlarında Qax, Balakən və Zaqatalada ezamiyyətdə

olublar və Tbilisidən göndərilmiş din xadimi Aleksey Natadzenin Qax rayonunda təbliğat apardığının şahidi olublar. Söhbət zamanı aydın olub ki, A.Natadze gürcü katolikosu Kalistratın verdiyi vəsiqə ilə bu rayonlara ezam edilib ki, Qax, Balakən və Zaqatala rayonlarında dini ayinlərin icrasına məsul olsun. Eyni zamanda aydın oldu ki, Gürcüstan SSR Nazirlər Soveti yanında dini şura da A.Natadzeyə arayış vermişdir ki, keçmiş Zaqatala dairəsində inqloylar arasında dini ayinlərin icrasını həyata keçirsin. Araşdırma zamanı aydın olmuşdu ki, Gürcüstan Nazirlər Soveti yanında dini işlər üzrə müvəkkil Kadaqaşvilinin verdiyi arayış qeyri-qanunidir və həmin arayışla yalnız Gürcüstan ərazisindəki fəaliyyətdə olan kilsələrdə dini ayinlərin icrasında iştiraka icazə verilirdi. Dini təbliğatdan əlavə aydın olmuşdu ki, din xadimi A.Natadze kilsələrin açılması ilə bağlı dindarları hökumətə müraciət etməyə təhrik etmiş, azərbaycanlılarla gürcülər arasında ziddiyyətləri qızışdırmışdır. A.Natadze yerli əhali ilə söhbətlərdə onları Azərbaycandan ayrılıb Gürcüstana birləşmək üçün fəaliyyət göstərməyə sövq etmiş, gürcü olduqlarını, gürcü adətlərini unutduqları üçün onları məzəmmət etmiş, keçmiş Zaqatala dairəsinin Azərbaycanın deyil, Gürcüstanın tərkibində olduğu barədə hansısa "tarixi məlumatları" gətirmişdi. Bölgəyə gedən komissiya üzvlərinin təkidi ilə A.Natadze Gürcüstana göndərilmiş, ona və digər din xadimlərinə Qax, Balakən və Zaqatala rayonları ərazisinə gəlmək qadağan edilmişdi. Araşdırmalar zamanı aydın olmuşdu ki, A.Natadzeni Tbilisidən ezam olunmuş Qax rayon Maarif şöbəsinin müdiri Kulaşvili dəvət etmişdir. Onun Gürcüstana gedərkən gürcü patriarxının yanında olduğu bildirilirdi. Qax rayonunda yoxlamalar zamanı aydın olmuşdu ki, o, rayonun rəhbər təşkilatları ilə hesablaşmır, Gürcüstan respublikasının nümayəndəsi olduğundan ancaq M.C.Bağırova və öz respublikası rəhbərlərinə hesabat verməli olduğunu bəyan edərək iclasları tərk edir, Tbilisidən gələn qonaqlarla birlikdə mövcud qanunları pozaraq tez-tez ova gedir və bunu ona xatırlatdıqda ovçuluğun qadağan edilməsi ilə bağlı Azərbaycan hökumətinin qanunlarının ona aid olmadığını bildirirdi. Araşdırmalardan bəlli olmuşdu ki, Kulaşvili yerli inqloylar arasında iş apararaq onlara hər hansı bir məsələ haqqında Azərbaycan hakimiyyət orqanlarına deyil, ona müraciət etmələrini tövsiyə edirdi və o, inqloylara məsələləri Tbilisinin müvafiq orqanları vasitəsi ilə həll edəcəyini vurğulayırdı.

Arayışda qeyd olunurdu ki, Tbilisidən gələn müəllimlər və müxtəlif təşkilatların ayrı-ayrı nümayəndələri Azərbaycana qarşı təxribat işləri aparmağı birinci vəzifələri sayır, Qax, Balakən və Zaqatalada yaşayan inqloylar arasında belə bir fikir yayırlar ki, bu rayonların əraziləri Gürcüstan ərazisinin bir hissəsidir və guya bu rayonlar təsadüfən Azərbaycanın tərkibinə səhv olaraq daxil edilib. Belə bir fakt aydın olmuşdu ki, Tbilisidən gələn emissarlar inqloylardan olan müəllimlərə

hədiyyələr verir, kostyumlar tikdirir və bununla da guya Azərbaycanda müəllimlərə pis baxıldığını sübut etməyə çalışır, onları ələ alaraq bu rayonların Gürcüstana birləşdirilməsini təbliğ etməyə həvəsləndirirdilər. Arayışdakı faktlardan aydın olur ki, Gürcüstandan gələn ayrı-ayrı şəxslər qeyri-qanuni yollarla inqloyların uşaqlarını oxumaq adı ilə Tbilisiyə aparırlar (22).

Bütün qeyd edilən faktlar noyabr ayının 11-də Azərbaycan K(b)P MK-nın bürosunda müzakirə edilib müvafiq qərar qəbul edildi. Qərar layihəsi üzərində qeydlərdən aydın olur ki, M.C.Bağırov onu özü redaktə etmişdir. Qərarda Qax, Balakən və Zaqatala rayonlarında milli qarşıdurma zəminində gedən proseslər Gürcüstan K(b)P MK-nın nəzərinə çatdırılmasından söhbət açılmadı, lakin onlardan xahiş edilirdi ki, belə adamları Azərbaycan ərazisinə göndərməsinlər. Eyni zamanda Gürcüstan kompartiyasından xahiş edilirdi ki, bundan sonra bu və ya digər işlərlə bağlı bu rayonlara göndərilən adamlar Azərbaycan SSR-in müvafiq təşkilatları ilə razılaşdırılsın. Qərarın sonunda onun surətinin və müzakirə edilən arayışın surətinin Gürcüstan K(b)P MK-nın katibi K.Çarkvianiyə göndərilməsi məqsədəuyğun sayılırdı (23). Lakin məsələnin təfsilatını özündə əks etdirən arayış büronun qərarına əlavə edilmişdi.

Gürcüstan tərəfindən olduğu kimi Ermənistan tərəfindən də Azərbaycan ərazilərinin Ermənistana birləşdirilməsi istiqamətində güclü təbliğat kampaniyası aparılırdı. 1945-ci ilin noyabr ayında Ermənistan K(b)P MK-nın katibi Q.Arutinovun İ.Stalinə müraciətindən sonra Yerevanın emissarları Dağlıq Qarabağa ayaq açmış və onların Azərbaycana qarşı təxribatçı hərəkətləri əməli xarakter almışdı (24). 1945-ci ilin aprel ayından başlayaraq Türkiyəyə qarşı ərazi tələbləri və xaricdəki ermənilərin köçürülməsi ilə bağlı tez-tez İ.Stalinə məktublar göndərən Q.Arutinov həmin sənədlərin heç birində Azərbaycanla bağlı ərazi məsələlərinə toxunmamışdı. Hətta Amerikadakı Erməni Milli Şurasının San-Fransisko konfransına ünvanladığı "Erməni xalqının məsələsi" və Erməni Milli Komitəsinin 1945-ci ilin aprelində nəşr etdiyi "Erməni məsələsi üzrə memorandum"unda Azərbaycana ərazi iddiaları ilə bağlı heç nə deyilmirdi. Bu sənədlərdə əsas hədəf kimi Türkiyə götürülmüşdü və bütün qüvvələr Qars və Ərdahanın qaytarılmasına yönəldilmişdi (25).

Ermənistan rəhbərliyinin Moskvaya müraciətindən sonra Dağlıq Qarabağın erməni əhalisi içərisində təbliğat kampaniyası genişlənmiş və yerli ermənilərdən bəziləri bu təbliğatın təsiri altına düşmüşdü. Bu baxımdan 1946-cı ilin avqust ayının 24-də Azərbaycan SSR Dövlət Təhlükəsizliyi naziri S.Yemelyanovun hazırladığı "DQMV-də erməni ziyalılarının bir hissəsi arasında mənfi əhvali-ruhiyyə haqqında" arayış daha səciyyəvidir. Arayışdan aydın olur ki, Azərbaycan əleyhinə aparılan təxribatçılıq işlərində Yazıçılar İttifaqının Qarabağ filialı fəal rol oynayır. Filialın

məsul katibi B.Canyan Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi ilə bağlı demişdi ki, əgər DQMV Ermənistana daxil olarsa, bizim mədəniyyətimiz yenidən çiçəklənər. Biz erməni mədəniyyətindən geri qalmışıq, biz erməni operasını və ümumiyyətlə nailiyyətlərini görmürük. Belə əhvali-ruhiyyə pedaqoji institutun kollektivi arasında da müəyyən edilmişdi. İnstitutun dosenti S.Voskersyan bildirmişdi ki, bu necə qələbədir, İngiltərə imkan vermir ki, erməni məsələsi axıra qədər həll olunsun, görünür onlar istəmir ki, SSRİ Bosfora yaxın olsun. Söhbəti Dağlıq Qarabağın üzərinə gətirərək o qeyd edirdi ki, hər şeydə Qarabağın köhnə rəhbərliyi günahkardır, onların günahından bu gün Qarabağ Ermənistanın tərkibində deyildir, belə olsaydı heç Türkiyə də lazım deyildi (26). Türkiyəyə qarşı ərazi iddialarının perspektivsizliyi aydın olduğundan 1946-cı ilin yayından başlayaraq Azərbaycana qarşı ərazi iddiaları erməni təbliğatının aparıcı istiqamətinə çevrilmişdi. Yerevan Dövlət Universitetinin tələbəsi Q.Xaçaturyan Dağlıq Qarabağdakı qiyabi pedaqoji institutun müəllimləri ilə söhbətində bildirmişdi ki, Ermənistanda Dağlıq Qarabağın Ermənistan SSR-yə birləşdirilməsi məsələsini qoyublar. Biz tələbələr də eyni zamanda belə bir məsələ qoymuşuq və tələb edirik bizə məruzə etsinlər ki, nə üçün Qarabağ Ermənistana birləşdirilmir. Bu suala cavab olaraq bir professor bizə izah etdi ki, bunu həll etmək mümkün deyil, ona görə ki, bunu bütün xalq deyil, yalnız Qarabağın ziyalıları tələb edir. S.Yemelyanovun imzaladığı arayışda xaricdən ermənilərin köçürülməsinə münasibəti özündə əks etdirən bəzi epizodlar vardır. Müvəqqəti olaraq Dağlıq Qarabağa, qiyabi pedaqoji instituta ezam olunmuş Azərbaycan Pedaqoji İnstitutunun müəllimi Q.Antonyan xarici ermənilərin Sovet Ermənistanına köçürülməsi məsələsinə toxunaraq demişdi ki, Suriyadan bütün əmlakını satıb pulunu özü ilə gətirən erməni həmin pulu burada 50 gün ərzində xərcləyəcəkdir. Əgər onlar bilsəydi bizdə həyat necədir, heç bir halda gəlməzdilər, onları sadəcə olaraq aldadıblar. Xaricdə bizim çoxlu təşviqatçılarımız var ki, ermənilər arasında SSRİ-yə gəlməyi təşviq edirlər. Bunun üçün onlar bizim həyatımızı çox gözəl təsvir edirlər və buna da ermənilər aldanırlar və gəlirlər (27).

Dağlıq Qarabağa və bütövlükdə Azərbaycan ərazilərinə qarşı iddiaları təbliğatı baxımdan əsaslandırmaq üçün 1946-cı ilin əvvəllərində tələsik olaraq Yerevanda Marietta Şaqinyanın "Sovet Zaqafqaziyası" kitabı nəşr edildi. Bu kitab yeni deyildi, onun əsasını müəllifin 1927-ci ildə çap olunmuş "Sevan gölü" oçerkləri təşkil edirdi. Hələ kitab çıxmazdan əvvəl Yerevanda Ermənistan K(b)P MK-nın orqanı kimi buraxılan "Kommunist" qəzeti Marietta Şaqinyan haqqında tanıtma xarakterli geniş yazı vermişdi. Bu yazıda onun 1888-ci ildə Moskvada erməni ailəsində doğulduğu, Moskva Universitetinin tarix-fəlsəfə fakültəsini bitirdiyi, Birinci Dünya müharibəsi ərəfəsində yaradıcılığa başladığı qeyd edilirdi. L.Skorino tərəfindən yazılmış

avtobiblioqrafik məqalədə M.Şaqinyanın hələ 1922-ci ildə "Pravda" qəzetinin mandatı ilə uzun müddətə Ermənistana ezam olunduğu və bu səyahətin onun "əsl həqiqətləri daha dərindən anlaması"nda mühüm rol oynadığı qeyd olunurdu. Məqalədən aydın olur ki, Yaxın vaxtlarda M.Şaqinyanın "Zaqafqaziyadan məktublar" adlı oçerkləri dərc olunub (28). Məhz bu oçerklər az sonra Yerevanda çıxan "Sovet Zaqafqaziyası" kitabına daxil edilmişdi. M.Şaqinyanın kitabda toplanmış Qarabağın və Cənubi Qafqazın keçmişindən bəhs edən oçerkləri bütövlükdə türklərə qarşı yönəlmiş, erməni xalqının tarixi keçmişini vəsf edən ideyalar üzərində qurulmuşdu. Oçerklərdə Azərbaycan xalqının tarixi ciddi şəkildə təhrif edilmişdi. M.Şaqinyanın kitabı Azərbaycan rəhbərliyi, respublikanın elmi və yaradıcı ziyalıları tərəfindən böyük narahatlıqlarla qarşılandı. Kitab Azərbaycan K(b)P MK-da müzakirə edildikdən sonra M.C.Bağırov 1947-ci ilin iyul ayının 21-də ÜİK(b)P MK-nın katibi A.Jdanova onun haqqında geniş məktubla müraciət etdi. Orada deyilirdi: "1946-cı ildə Yerevanda Marietta Şaqinyanın "Sovet Zaqafqaziyası" kitabı dərc olunub. Kitabda çoxlu sayda ciddi siyasi təhriflərin əks olunması haqda məlumat verməyi zəruri bilirik. Burada, həmçinin tarixi həqiqətlər saxtalaşdırılıb və mahiyyətcə bu kitab Sovet Zaqafqaziyası xalqlarına qarşı böhtandır". Bunu təsdiq etmək üçün məktubda kitabın bəzi yerlərindən seçmələr verilirdi. M.C.Bağırov yazırdı: "1927-ci ildə yazılan "Sevan gölü" oçerkində müəllif Sovet Zaqafqaziyası xalqlarını tarixən geridə qalan, məhvə məhkum tör-töküntü kimi qələmə verib". Daha sonra məktubda deyilirdi: "M.Şaqinyanın fikrincə, 1926-cı ildə Dağlıq Qarabağ unudulmuş və kasıb bir ölkə təsirini bağışlayıb: "Burada kənd təsərrüfatı rentabelli deyil, kəndlilər isə acından ölməmək üçün baş götürüb şəhərlərə qaçırlar. Ancaq müəllif əksinə, Dağlıq Qarabağın keçmişini, erməni mülkədar-məliklərinin dövrünü xüsusi sevgiylə əks etdirir. Erməni mülkədar-məlikləri ağıllı, alicənab adamlar kimi təriflənir və ideallaşdırılır". M.C.Bağırov yazırdı: "Bundan əlavə, Dağlıq Qarabağı "erməni ölkəsi", "Ermənistan zadəganlığının bir parçası" kimi təqdim edən Şaginyan nəyə görəsə 1946-cı ildə erməni-azərbaycanlı qırğınını da bir daha yada salır. Belə ki, guya onun Şuşanın ermənilər yaşayan hissəsində "hansısa künc-bucaqda" öz gözləri ilə gördüyü dağıntılar, "qara qanın quruyub qaldığı qadın saçlarının qalığı"da illüstrasiyalarla yazıya əlavə olunub". M.C.Bağırov A.Jdanova bildirirdi ki, Dağlıq Qarabağda erməni və azərbaycanlılarını qarşılıqlı münasibətlərini şərh edən Şaginyan onlan bir-birinə qarşı qoyur. O, tarixi gerçəkliyi təhrif edərək iddia edir ki, "ermənilər ölkə iqtisadiyyatının dirçəlməsinə öz qanları hesabına nail olub, azərbaycanlıların mədəni inkişafına təkan veriblər". Müəllif azərbaycanlıları Dağlıq Qarabağ iqtisadiyyatının inkişafına əngəl olmaqda günahlandırır. O, Dağlıq Qarabağda maldarlığın tənəzzülə uğramasının günahını da azərbaycanlılarda görür. Onun fikrincə, köçəri "müsəlmanlar" tamah məqsədilə iranlılarla ticarət

əlaqələrinə girərək həmin ölkədən xəstəliyə yoluxmuş mal-qaranı gətirərək bununla da infeksiya və vəbanın Dağlıq Qarabağ ərazisində yayılmasına şərait yaradıblar. Ancaq hələ bu da müəllifə azlıq edir. O Azərbaycan xalqına böhtan ataraq ona geridə qalmış və qabalıq damğası vurur, onun tarixini və mədəniyyətini təhrif edir. Şaqinyan iddia edir ki, XVI əsrin böyük Azərbaycan şairi Füzuli öz əsərlərini ərəb dilində yazib. Ancaq Füzulinin Azərbaycan dilinin inkişafında yeri məlumdur və o, ancaq bəzi əsərlərini ərəb dilində yazib. O, hətta iddia edir ki, azərbaycanlı aşıqlar və müğənnilər fars şairlərinin yazdığı şerləri oxuyublar. Müəllifin çadrayla bağlı yürütdüyü fikirlər də qərəzli olmaqla yanaşı azərbaycanlı qadın üçün təhqiredicidir. Bir görün o, nə yazır: "Çadra insanı ehtiraslandırmaq üçün zəruri bir vasitədir... Onun qaramtıl formasızlığı, büküşlər altında vücudun görüntüsüz hərəkəti, bütün bunlar əsrlər boyu formalaşan, həddən ziyadə mürəkkəb dünyagörüşündən ibarət bir kompleksdən xəbər verir... Onun fikrincə, müsəlmanlar bacardıqca çox uşaq dünyaya gətirmək istəyirlər və çoxarvadlılıq da məhz bununla izah edilməlidir... M.Şaqinyanın kitabında bu cür təhqiredici məqamlar yetərincədir. Ancaq bir şey başa düşülmür ki, əsasən 20-25 il bundan əvvəl yazılan bu oçerklər "Armenqiz" tərəfindən 1946-cı ildə nəyə görə təkrarən nəşr edilsin". M.C.Bağırov məktubun sonunda təklif edirdi ki, biz bu kitabın yığışdırılmasını zəruri hesab edirik (29).

M.C.Bağırovun M.Şaqinyanın kitabı haqqında məhz A.Jdanova müraciət etməsi təsadüfi deyildi. 1946-cı ilin aprel ayının 13-də Siyasi Büro Mərkəzi Komitənin yeni katibliyinin vəzifələrini müəyyənləşdirib təsdiq etdikdə müttəfiq respublikaların kompartiyalarına rəhbərlik etmək Q.Malenkovun səlahiyyətlərində qalsa da, A.Jdanovun katiblikdə rolu xeyli yüksəlmiş, ideoloji iş bütövlükdə onun nəzarətinə keçmiş, faktiki olaraq o, Sovetlərdə İ.Stalindən sonra ikinci adam səviyyəsinə qalxmışdı (30). "Sovet Zaqafqaziyası" kitabı ilə bağlı M.C.Bağırovun məktubu və onun təklifi tezliklə öz nəticəsini verdi. M.Şaqinyanın kitabı satış yerlərindən yığışdırıldı və onun özü bu barədə izahat verməli oldu. M.C.Bağırovun tövsiyəsi ilə M.İbrahimovun da öz növbəsində M.Şaqinyana tənqidi ruhda yazılmış məktubla müraciət etdiyi yazışmalardan aydın olur. Ona görə də Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini Mirzə İbrahimova məktubunda M.Şaqinyan yazırdı:

"Yoldaş İbrahimov!

Yazdığım kitabı Ermənistanda bir daha diqqətlə oxuduqdan sonra Sizin tamamilə haqlı olduğunuzu başa düşdüm. Kitabda nəinki Azərbaycan, həm də Ermənistan üçün təhqiredici, yanlış məqamlar var. Bu məsələ ilə bağlı mən Ermənistan K(b)P MK-nın I katibinin qəbulunda oldum. Bundan sonra nə edəcəyimiz haqda müzakirələr apardıq. Mən ondan kitabın yığışdırılmasını xahiş etdim, ancaq belə olacağı təqdirdə yeni kitabının sonrakı aqibəti çox acınacaqlı olardı. Belə ki, onun dərcinə

Moskva tərəfindən heç vəchlə icazə verilməzdi. Ona görə də kitabdakı 5 yeri yenidən dərc etməyə qərar verdik. Onların içərisində Dağlıq Qarabağa həsr edilən hissənin birinci səhifəsini orijinalda olduğu kimi bərpa etdik və "Qara kisə" məqaləsindəki iki səhifəni dəyişdik. Bundan əlavə mən erməni qəzetinə də məqalə yazdım. Bu məqaləmdə mən yazdığım kitabın bəzi yolverilməz və düzgün olmayan məqamlarını düzəltməməklə böyük bir səhvə yol verdiyimi etiraf etmişəm. Əgər yoldaş Bağırov istəyərsə, mən ilk əvvəl belə bir səhvin necə baş verdiyini izah edib, sonradan ona görə üzr istəyərəm və elədiyim dəyişiklikləri göstərməklə analoji yazı ilə "Bakinski raboçi" qəzetində də çıxış edə bilərəm.

Ermənistan senzura idarəsi kitabda düzəliş etdiyim yerlər dəyişdirib nə qədər kitabın satışının qadağan olunması barədə göstəriş verib. Bizim tərəfimizdən ancaq ən ikrah oyadan yerlərdə düzəlişlər edilib. Şuşa ilə bağlı məqamlara isə toxunmadıq. Çünki bu zaman bütün kitabı yenidən çildləmək lazım gələrdi. Ancaq kitaba yazdığım ön sözdə mən etiraf etmişəm ki, Azərbaycan və Gürcüstanın adları burada təsadüfən çəkilib.

Bu kitabı oxuduqca heyrətimi gizlədə bilmirəm. Nə istəsələr, hətta ömrümün qalan hissəsini də bu kitabın işıq üzü görməməsi üçün verərdim. Bu məsələdə kitabın redaktoruna da xeyli töhmət gəldi. Çünki mən bildirmişdim ki, sizin Aqabalyana xəbərdarlıq etməyinizə baxmayaraq, o heç bir tədbir görməyib (31).

Məktubun aşağısında qoyulan tarixdən onun 1947-ci ilin may ayının 26-da, M.C.Bağırovun A.Jdanova ünvanlanmış məktubundan təxminən iki ay əvvəl yazıldığı aydın olur. Ermənistan rəhbərliyi müəyyən düzəlişlərlə M.Şaqinyanın kitabını saxlamağa cəhd göstərsələr də, Moskvanın müdaxiləsi ilə onun çap olunmuş nüsxələri müsadirə edilmişdi.

M.Şaqinyanın kitabı ilə bağlı mübahisələr başa çatmamış Q.Xolopovun Moskvada "Sovetski pisatel" nəşriyyatı tərəfindən 1947-ci ildə nəşr olunmuş "Buxtada işıq" kitabı haqqında mübahisələr qızışmağa başladı. Kitabın ilkin variantı hələ 1946-cı ildə "Zvezda" jurnalının 11-12-ci nömrəsində çap olunmuşdu. İlk baxışda bu məsələnin müharibə dən sonra başlanmış erməni-azərbaycanlı qarşıdurmasına aidiyyəti olmasa da, sonrakı araşdırmalar nəticəsində aydın olmuşdu ki, Q.Xolopov əslində 1918-ci ildə ermənilər tərəfindən Bakıda azərbaycanlıların qətl edilməsində aktiv iştirak etmiş Lalaevin qohumu Q.Xolopyandır və "Buxtada işıq" romanında faktların saxtalaşdırılması, Azərbaycan tarixinin təhrif edilməsi də məhz bununla bağlı idi. M.C.Bağırov Q.Xolopovla bağlı məsələni araşdırmaq üçün müvafiq orqanlara göstəriş vermiş və onun romanı haqqında Moskvada və Leninqradda çıxan bütün müdafiə xarakterli məqalələrlə tanış olmuşdu. Q.Xolopovun kitabı haqqında hələ 1947-ci ilin mayında M.Rəfilinin məqaləsi "Literaturnaya qazeta"ya

göndərilmiş, lakin məqalə dərc edilməmişdi. Məqalənin dərc olunmaması ilə bağlı sorğuya cavab olaraq redaksiya bildirmişdi ki, əlyazma itirildiyinə görə material dərc edilməyib. Q.Xolopov öz müdafiəsini yaxşı təşkil edə bilmişdi. 1947-ci ilin 11 aprelində "Leninqradskaya Pravda", aprelin 17-də "Veçerniy Leninqrad", may ayının 22-də "Pravda" qəzetlərində, 1948-ci ilin birinci yarısında "Zvezda" və "Znamya" jurnallarında "Buxtada işıq" romanı haqqında müsbət rəylər dərc edilmişdi. 1948-ci ilin iyun ayının 13-də "Bakinski raboçiy" qəzetində Ə.Məmmədxanlı, A.Amirxanyan, M.Arif və Y.Fidlerin tənqidi yazısı çıxdıqdan sonra Sovet Yazıçılar İttifaqının sədr müavini N.Tixonov "Kultura i jizn" qəzetində "Buxtada işıq" romanı haqqında müsbət resenziya ilə çıxış etmişdi. Q.Xolopovun "Buxtada işıq" romanı haqqında baş verən bütün bu məsələlər haqqında A.Jdanovun vəfatından sonra M.C.Bağırov Mərkəzi Komitədə ideoloji sahəyə rəhbərlik edən Q.Malenkova geniş məktubla müraciət etdi. O yazırdı: "Q.Xolopovun 1947-ci ildə "Sovetski pisatel" nəşriyyatında işıq üzü görən "Buxtada işıq" romanında Bakının neft sənayesinin yenidən qurulması, S.M.Kirovun fəaliyyəti bədii çalarlarda əks olunub. Azərbaycanın paytaxtı Bakı şəhəri bizim vətənimizin nəhəng siyasi, sənaye və mədəni mərkəzidir. Öz bədxah niyyətini həyata keçirən Xolopov isə bütün bunlan görmür, o, ciddi-cəhdlə lümpenlərin, alverçilərin, araqarışdıranların, ziyanvericilərin çirkin niyyətlərinin yuvası kimi gizli pritonlardan bəhs edir. Yazıçı Xolopov yəqin bu şərhləri ilə Sovet hakimiyyətinin qurulduğu ilk illərdəki vəziyyətdən xəbər vermək istəyir". Bəzi üzdə olan hallar və ayrılıqda götürülən epizodlarla müəllif Bakının həqiqi, parlaq həyatını gizlətməyə çalışır. Bunun əvəzində çoxlu sayda fərziyyələr irəli sürülür, baş verən yanğın nəticəsində Bakının alovun əhatəsində, qatı, boğucu, demək olar, hərəkətsiz tüstünün əsarətində qalmasından bəhs edilir. O biri səhifədə daha bir qorxulu hadisədən - 12 ballıq qasırğadan bəhs edilir: Müəllifin təbirincə, bu qasırğa zamanı şəhər bütünlüklə məhv olmuşdu. Romanın əsas qəhrəmanı isə sürücü Tiqrandır. Avara, heç bir işlə məşğul olmayan, onun-bunun ayaqqabılarını təmizləyən, gecəqondularda sifarişləri yerinə yetirən, gününü oğruların pritonlarında keçirən Tiqran günlərin bir günü Kirovla təsadüfən rastlaşdıqdan sonra, onun şəxsi sürücüsü olmaq barədə dəvət alır. Tiqran Kirovun ən yaxın və etibarlı adamına, müəllifin iddiasına görə isə onun sevimlisinə çevrilir. Həqiqətdə isə Kirovun heç vaxt Tiqran adlı sürücüsü olmayıb. S.M.Kirova Azərbaycanda işlədiyi dövrdə Rusiyadan onunla birgə gələn Vasilenko Klavdiy Andreyeviçdən başqa sürücülük edən olmayıb. Tiqran isə sadəcə, müəllif tərəfindən müəyyən siyasi məqsədləri həyata keçirmək üçün uydurulan bir surətdir. Azərbaycanda Sovet hakimiyyətinin qurulduğu 28 aprelin Xolopovun "Buxtada işıq" romanında necə təsvir olunmasına diqqət yetirin: "Hələ günortadan şəhərin dağlıq hissəsində və ermənilər yaşayan məhəllələrdə pravoslav pasxası gecəsi Bakıda yaşayan bütün ermənilərin müsəlmanlar tərəfindən qılıncdan keçiriləcəyi haqda

şayiələr gəzirdi. Düzdür, bu elə də yeni xəbər deyildi, onsuz da hər gün uşaqlı-qocalı neçə erməni qılıncdan keçirilirdi. Şəhərin küçələri meyitlə dolu idi, səkidəki hər bir daşa insanların qanı hopmuşdu. Amma nəyə görəsə yüz min insanın kütləvi surətdə məhv ediləcəyinə çoxları inanmırdı. Düzü, indiyə qədər görünməyən belə qəddarlığın baş verəcəyinə adamın inanmağı gəlmirdi. Ancaq qırğına hazırlıq gedirdi. Xırda dükan sahiblərindən və peşəkar quldurlardan təşkil olunan, dişinəcən silahlanmış başkəsənlər dəstəsi məscidlərdə mollaların erməni gavurlarının öldürüləcəyi barədə moizələrinə, müsavatçı və türk təxribatçılarının müsəlmanlar üçün "dənizdən dənizə" qədər uzanacaq yeni dövlətin yaranacağı ilə bağlı çağırışlara qulaq asırdılar". Bunun ardınca müəllifin növbəti şər-böhtanı gəlir: "Beləcə, 28 aprelə keçən gecə gözdən-könüldən uzaq bir zirzəmidə üç yüzə qədər adam toplaşdı. Erməni qadınlar bələkdə olan körpələrin səsləri çıxmasın deyə, əlləri ilə onları ağuşlarına basıb boğurdular... Tarixi açıq-aşkar saxtalaşdıran müəllif nəyə görəsə romanında milli ədavətin qızışdırılmasında xüsusi rol oynayan daşnakların əməllərindən, 1918-ci ildə onların satqınlığı ucbatından Bakının müdafiəsinin yarılmasından nəsə yazmır".

M.C.Bağırov yazırdı: "Bizim tərəfimizdən müəyyən edilib ki, Xolopyanın yazdığı "Buxtada işıq" romanının əksər hissəsi Ayrapetov Karapet adlı bir nəfərin diqtəsi ilə qələmə alınıb. Həmin adam isə daşnakdır. O, 1918-ci ildə atası ilə birgə daşnakların hərbi hissələrində, Mərkəzi Kaspi Diktaturasında və nəhayət, ağ qvardiyaçı polkovnik Biçexarovun xüsusi batalyonlarında xidmət edib. Bir zamanlar Azərbaycan K(b)P MK-nın qarajında sürücü yox, adi maşınyuyan kimi çalışan Ayrapetov özü isə romanda Tiqran surətində təqdim olunub".

M.C.Bağırov respublika partiya fəallarının hiddətini ifadə edərək görülən işlər və eləcə də Leninqradda və Moskvada Q.Xolopovun müdafiəsi ilə bağlı yazılara toxunduqdan sonra deyirdi: "1948-ci ilin 13 mayında "Bakinski raboçi" qəzetində Ə.Məmmədxanlının, A.Amirxanyanın, Məmməd Arifin və Yuri Fidlerin imzası ilə "Bir ziyanlı kitab haqda" adlı böyük bir məqalə dərc olunub. Bu məqalənin dərcindən sonra S.M.Kirov adına Leninqrad muzeyinin direktoru kitabın müdafiəsinə qalxır. Bundan sonra 1948-ci ilin 31 avqustunda "Kultura i jizn" qəzetində SSRİ Yazıçılar İttifaqı sədrinin müavini N.Tixonovun məqaləsi dərc olunur. Məqalədə o, "Bakinski raboçi" qəzetində dərc olunan yazıya münasibət bildirməyə lüzum görməyərək, "Xolopovun həqiqətə qarşı çıxmadığını yazırdı".

M.C.Bağırov yazırdı ki, "1947-ci ilin iyununda Xolopov Bakıya təşrif buyuraraq respublika rəhbərliyindən onu qəbul etməyi xahiş edir. Əvvəlcədən kitab haqqında dövri mətbuatda dərc olunan resenziyalar və oxucuların rəyi ilə tanış olması şərtilə onu qəbul etməyə razılıq verirlər. Materiallarla tanış olan Xolopov kiməsə məlumat vermədən dərhal Bakını tərkedir".

Məktubun sonunda M.C.Bağırov bu barədə Azərbaycan kompartiyasının Moskvaya məlumat verməsini zəruri saydığını və Q.Xolopovun (Xolopyanın) "Buxtada işıq" kitabı haqqında irəli sürülən mülahizələrə baxılmasını xahiş edirdi (32). Lakin M.C.Bağırovun ciddi cəhdlərinə baxmayaraq Sovet rəhbərliyi Q.Xolopov və onun "Buxtada işıq" kitabı haqqında elə bir tədbir görmədi.

1946-cı ilin fevralında xaricdəki ermənilərin Sovet Ermənistanına köçürülməsi barədə Xalq Komissarları Soveti əməli addımları haqda qərar qəbul etdikdən sonra məlum oldu ki, bu iş Sovetlərin nəzərdə tutduğu plana uyğun getmir. Xarici ermənilərin Sovet Ermənistanına qayıtması ilə bağlı aparılan təbliğat kampaniyası real vəziyyətə elə də uyğun deyildi. 1946-cı ilin sentyabr ayında keçirilən Ermənistan yazıçılarının ikinci qurultayında A.İsaakyan qeyd etdi ki, məhz böyük Stalin dünyaya səpələnmiş erməni xalqının əzablarına son qoydu və onların vətənə dönməsinə imkan yaratdı. İndi vətənə qayıtmaq istəyən ermənilərin sayı milyona çatır. Eyni fikir Ermənistanda Sovet hakimiyyətinin qurulmasının 25 illiyi ilə bağlı 1946-cı ilin noyabr ayının 29-da Yerevandan İ.Stalinə göndərilən təbrik məktubunda da var idi. Orada deyilirdi ki, Sizin daimi və yorulmaz qayğınız nəticəsində bizim didərgin düşmüş qardaşlarımız olan xarici ermənilər doğma torpaqlarına qayıdırlar və Sovet Ermənistanının sonrakı çiçəklənməsində fəal iştirak edirlər. Lakin bütün bunlar deklarativ xarakter daşıyırdı və Sovet Ermənistanına köçən ermənilər repatriasiya planında nəzərdə tutulanların çox az hissəsini təşkil edirdi. 1947-ci il may ayının 22-də Ermənistan kompartiyasının katibi Q.Arutinov İ.Stalinə göndərdiyi məlumatda yazırdı ki, xarici ölkələrdən gələn ermənilərin sayı 50945 nəfərdir, onlardan 20900 nəfəri əmək qabiliyyətlidir və bunlar da Ermənistan SSR-in sənaye və tikinti müəssisələrində, kolxoz və sovxozlarında işlə təmin edilmişlər. Q.Arutinov Ermənistana gələnlərin içərisindən geri qayıtmaq fikrində olanların artdığını bildirirdi. O yazırdı: "Bizdə olan məlumata görə, müxtəlif vaxtlarda repatriantlardan 21 nəfər dövlət sərhədini pozaraq Türkiyəyə qaçıb. Sərhəd zonasında daha 110 nəfər repatriant sərhədləri keçib qaçmağa cəhd göstərdikləri və sərhəd rejimini pozduqlarına görə saxlanılıblar". Q.Arutinov əlavə edirdi ki, Ermənistandan getmək fikrində olan repatriantların sayı 300 nəfərə qədərdir. Saxlanılan adamlarla sorğu-sual zamanı aydın oldu ki, onlar Sovet İttifaqından getmək arzularını iqtisadi vəziyyətin çətinlikləri ilə izah edirlər. Q.Arutinov məlumat verirdi ki, Ermənistan kompartiyası və Nazirlər Soveti sərhədləri pozmaq hallarını aradan qaldırmaq üçün sərhəd rejimini gücləndirmək istiqamətində bir sıra tədbirlər həyata keçirmək niyyətindədir. Bunlardan birincisi, repatriantları sərhədlərə yaxın kəndlərdən ölkənin içərisindəki rayonlara köçürməkdir. Ermənistandan getmək istəyi ilə bağlı öz əhvali-ruhiyyəsini büruzə

vermiş repatriantlar sərhəd rayonlarından və Leninakan şəhərindən respublikanın içərilərinə köçürülürlər. Qərara alınıb ki, bundan sonra gələn ermənilər sərhəd zonasının 5 kilometrliyində olan kəndlərdə yerləşdirilməsinlər. Eyni zamanda Q.Arutinov İ.Stalinə məlumat verirdi ki, SSRİ Daxili İşlər Nazirliyi ilə birlikdə sərhəd zastavaları və məntəqələrinin sayının, habelə sərhəd qoşunlarının şəxsi heyətinin artırılması tədbirləri nəzərdə tutulubdur (33).

Xaricdən aldadılıb gətirilmiş ermənilərin Sovet Ermənistanında inzibati yollarla saxlanması, sərhədlərin möhkəmləndirilməsi və sərhədyanı zonalarda repatriantların yerləşməsinə icazə verilməməsi köçkünlərin əhvali-ruhiyyəsinə mənfi təsir göstərməklə yanaşı, bütün inzibati qadağalara baxmayaraq bu məlumatların gizli yollarla yayılması repatriasiya prosesinə ciddi təsir göstərirdi. Nəticədə 1947-ci il üçün repatriasiya planına görə Ermənistana köçürülməsi nəzərdə tutulmuş 63 min nəfər ermənidən cəmisi 35401 nəfəri Sovet Ermənistanına gəlmişdi (34).

1947-ci ilin aprel-may aylarında Nyu Yorkda keçirilən Ümumdünya erməni konqresində repatriasiyanı gücləndirməyə cəhdlər olsa da, bu elə ciddi bir nəticə vermədi. Bu konqres 40-cı illərin ikinci yarısında "erməni məsələsi" gündəliyə gəldikdən sonra xaricdə yaşayan ermənilərin təşkil etdikləri ən böyük tədbir idi. Onun işində dünyanın 22 ölkəsindən 715 nümayəndə iştirak edirdi ki, onlar da 70 xarici erməni cəmiyyətlərini, o cümlədən 31 kilsə eparxiyasını təmsil edirdi. Konqres nümayəndələrindən təşkil olunmuş heyət may ayının 12-də onların xahişi ilə ABŞ Dövlət katibinin müavini D.Açeson tərəfindən qəbul edildilər. Erməni nümayəndə heyəti D.Açesondan xahiş etdilər ki, ermənilər tərəfindən Türkiyəyə qarşı irəli sürülən ərazi tələbləri ABŞ tərəfindən BMT-nin sessiyasının gündəliyinə təklif edilsin. Eyni zamanda nümayəndə heyəti öz adlarından D.Açesona məktub təqdim etdilər. Məktubda xahiş edilirdi ki, Dövlət Departamenti "erməni torpaqlarının Türkiyədən alınıb onun erməni xalqına verilməsini" müdafiə etsin. Bu görüş barədə SSRİ Xarici işlər naziri V.Molotova geniş məlumat göndərən SSRİ-nin Nyu Yorkdakı Baş konsulu Y.Lomakin yazır: "Ermənilərin verdiyi məktubla tanış olduqdan sonra D.Açeson nümayəndələrdən soruşdu: ermənilər bu torpaqlarla bilavasitə nə etmək istəyirlər, onlar BMT-nin himayəsi altında müstəqil erməni dövləti yaratmağı arzulamırlarmı? Buna cavab olaraq yepiskop Nersoyan bildirdi ki, ermənilər bu torpaqların Sovet Ermənistanına verilməsini arzulayırlar". Y.Lomakin yazır: "Açeson bu cavabdan özünü itirdi və heyrətamiz formada soruşdu ki, bütün ermənilər kommunist deyillərmi ki, belə tələblər irəli sürürlər və özləri də Sovet respublikasına köçməyə hazırlaşırlar". Sonra Açeson bildirdi ki, Dövlət Departamenti belə tələbləri müdafiə edə bilməz, ona görə ki, bu ABŞ xarici siyasəti üçün özünüintihar demək olardı (35).

Erməni partiyaları içərisindən Daşnaksutyun Ümumdünya erməni konqresində iştirak etmədi. Onlar bir sıra məsələlərdə Sovet İttifaqına münasibətdə müxalif mövqedən çıxış edir, bəzi hallarda anti sovet kampaniyalarda da iştirak edirdilər. Məsələn, 1947-ci ilin oktyabrında Sovet Ermənistanına yola salınan Boston ermənilərinin şərəfinə "Komander" mehmanxanasında verilməsi planlaşdırılan ziyafət baş tutmadı. Ziyafət verilən gün Amerika veteranlarının böyük dəstələri mehmanxananın qarşısında piket təşkil etdilər. Piket təşkil edən dəstələrin birinin başında məşhur daşnak Ceyms Tasriyan dayanırdı. Mehmanxananın sahib F.Bolant ziyafəti ləğv etdi və öz qərarını onunla izah etdi ki, Amerika vətəndaşlığından imtina edən şəxslərin hərəkətlərinə Amerika əleyhinə yönəlmiş addımlar kimi baxdığından bu adamlarla heç bir iş görmək istəmir. Kembric şəhərinin meri Con Linç və şəhər Şurasının sədri bu "vətənpərvər hərəkəti"nə görə Bolantı təbrik etdilər (36). Ümumdünya erməni konqresinin nümayəndələri ilə D.Açesonun görüşündən sonra ABŞ Dövlət katibinin müavininin "müstəqil Ermənistan qurmaq" ideyasından yararlanmaq fikrinə düşən daşnaklar təbliğat məqsədilə bu ideyanı sürətlə yaymağa başladılar. İranda fəaliyyət göstərən Azərbaycan SSR-in təhlükəsizlik orqanları İran erməniləri arasında belə bir şayiələrin yayıldığını məlumat verirdilər ki, guya Amerikada yaşayan daşnaklar amerikanların köməyi ilə "Türkiyə Ermənistanın" ərazilərini alıb orada yeni erməni hökuməti qurmaq istəyirlər. Bu hökumətin Sovet Ermənistanı hökuməti ilə heç bir əlaqəsi olmayacaq və xalq orada sakit yaşayacaq. Məlumatda Ermənistanın bu hissəsinin Amerikanın və İngiltərənin mandatı altında olacağı bildirilirdi (37).

Ermənilərin repatriasiyasının azalmasını Sovet partiya və təhlükəsizlik orqanları bəzi Sovet diplomatik işçilərinin məsələni düzgün izah edə bilməməsi və xüsusilə daşnakların təbliğatı ilə izah edirdilər. SSRİ Dövlət Təhlükəsizliyi Nazirliyinin birinci baş idarəsinin rəis müavini Q.Ovakimyan Xarici İşlər Nazirliyinin Yaxın Şərq şöbəsinin müdiri İ.Samılovskiyə 1946-cı ilin avqust ayının 10-da yazırdı: "Bizdə olan məlumata görə, İran Azərbaycanından ermənilərin Sovet Ermənistanına köçürülməsi ilə bağlı SSRİ-nin vitse-konsulu Solomin Şapur ermənilərinin yığıncağında çıxış edərkən bir sıra səhvlərə yol verib". Solomin deyib: "Gedənlər hökmən deyil ki, Ermənistanda yerləşsinlər, onlara icazə verilir ki, Sovet İttifaqının bütün şəhərlərində məskən salsınlar" (38). Görünür, vitse-konsul Solomin erməni repatriasiyasının yalnız Sovet Ermənistanının adından Türkiyədən ərazi tələblərini əsaslandırmaq üçün ortaya atıldığını hələ anlamırdı.

İranda işləyən Sovet təhlükəsizliyi orqanları daşnakların erməni əhalisi içərisində repatriasiya əleyhinə təbliğat apardıqlarını bildirirdilər. Daşnak təbliğatçıları Sovet Ermənistanında vəziyyətin ağır olduğu, böyük çörək növbələrinin yarandığı, köçən ermənilər arasında "təmizləmə"

işlərinin başlanması və sair məlumatları yayırdılar. Daşnaksutyun partiyasının üzvləri öz yığıncaqlarında bildirirdilər ki, biz daşnakların göstərişi olmadan Sovet Ermənistanına köçə bilmərik, məlum deyil ki, Sovet hakimiyyəti bizim azadlıq, və həyatımıza necə təminat verir. Daşnakların Sovet Ermənistanına köçməsi haqqında Sovet hökuməti ilə daşnaklar arasında rəsmi razılıq olmalıdır. Lakin bununla belə bəzi tanınmış daşnaklar belə hesab edirdilər ki, erməni məsələsinin əlverişli həlli ermənilərin bir ölkəyə toplaşmasını və sonra genişlənməsini tələb edir. Verilən məlumatların araşdırılması Sovet təhlükəsizlik orqanları tərəfindən daşnakların fəaliyyətinin şişirdildiyi və repatriasiya prosesinin səngidiyinin bununla əlaqələndirilməsinə cəhd göstərildiyi aydınlaşır. Məsələn, təhlükəsizlik orqanlarının xaricdən göndərdikləri məlumatda qeyd olunurdu ki, bu ünsürlər (daşnaklar - C.H.) Sovet Ermənistanına gedən şəxslərin xaricdəki fəaliyyətinə görə repressiya olduqları barədə müxtəlif təxribatçı şayiələr yayırlar. Onlar deyirlər ki, mənzil məsələsi fəlakətli vəziyyətdədir, bir çox yerlərdə iki ailəyə bir kiçik otaq verirlər, bir sıra rayonlarda yerləşmiş mühacirlər malyariyanın geniş yayılmasından əziyyət çəkirlər (39).

1947-ci ilin oktyabr ayının 24-də BMT-nin Siyasi Komitəsinin iclasında SSRİ Xarici İşlər nazirinin müavini A.Vışinskinin çıxışı xaricdə yaşayan erməniləri, onların çoxsaylı təşkilatlarını hiddətə gətirmişdi. Həmin gün Siyasi Komitənin iclasında çıxış edən Səlim Sarper Sovetlərin Türkiyəyə yönəlik ərazi tələblərini tənqid etdikdə A.Vışinski bəyan etmişdi ki, Qars və Ərdahan Gürcüstana məxsusdur. O demişdi: "Sarper nitqinin bir yerində bildirdi ki, Türkiyə torpaqlarının bir hissəsini, məsələn Qars və Ərdahanı Türkiyədən qoparmaq barəsində aparılan təbliğat Moskvanın siyasətində müəyyən yer tutur. Bunu sübut etmək üçün Sarper iki gürcü akademikinin Moskva mətbuatında dərc edilmiş məktubunu misal gətirdi. Həmin akademiklər sübut etmişlər ki, Türkiyə nümayəndəsinin burda zikr etdiyi məhz bu torpaqlar qədim gürcü torpaqlarıdır. Bu məsələ o qədər inandırıcılıqla sübut edilmişdir ki, mən gürcü akademiklərin həmin məktubunu bir daha oxumağı cənab Sarperə məsləhət görürəm... Bu məktubun müəllifləri... akademiklərə məxsus tərzdə, sakitliklə belə bir fikir irəli sürdülər ki, həmin torpaqlar tarixi, etnoqrafik, siyasi və bütün başqa əsaslara görə Gürcüstan respublikasına, gürcü xalqına qaytarılmalıdır. Bu sözlər haqlı sözlərdir, çünki həmin torpaqlar gürcü torpaqlarıdır" (40). Məsələnin belə qoyuluşunu Sovetlərin nəzarəti altında olan erməni cəmiyyətləri təsadüfi hesab edirdisə, erməni sosial-demokrat partiyası - Ramkavar bundan həyəcanlanmamağa çağırırdısa, daşnak təşkilatları isə əksinə olaraq A.Vışinskinin sözlərindən həyəcan təbili çalıb bunu ermənilərin taleyində faciəli günlərdən biri hesab edirdi. Misirdəki daşnak təşkilatlarının orqanı olan Usaber" qəzeti məsələni bir qədər yumşaltmağa çalışıb yazırdı:

"A.Vışinski türk torpaqlarının Gürcüstana məxsus olduğunu dedikdə, nə Gürcüstanı, nə Ermənistanı deyil, fikrində yəqin ki, Rusiyanı tutub. Rusiya həqiqətən Qarsı öz torpaqlarına birləşdirmək istəyir. Ona görə A.Vışinski qərəzsiz olaraq Ermənistanın yerinə Gürcüstanın adını çəkib. Daşnak təşkilatları bir məsələdə "Usaber" qəzeti ilə razı idilər ki, Vışinski və ya bir başqası respublikaların adından nə tələb edirdilərsə, Rusiya üçün tələb edirdilər, bu və ya digər respublika Sovetlər üçün məqsədlərinə çatmaqdan ötrü maska rolunu oynayırdı. Daha sonra "Usaber" soruşurdu: "Bəs onda Ermənistan niyə susub? Əgər dünən Sovet Ermənistanında yaşayan ermənilər və onların rəhbərləri Qarsın və Türkiyə Ermənistanının digər torpaqlarının Ermənistana qaytarılması üçün Vışinskiyə müraciət ediblərsə, niyə bu gün onlar hamılıqla A.Vışinskinin həyəcanlı hərəkətlərinə etiraz etmirlər?" (41).

A.Vışinskinin çıxışı ilə bağlı Tehranda çıxan "Alik" adlı daşnak qəzeti geniş yazı vermişdi. "Bizim siyasi vəziyyətimiz və qarşıdakı fəaliyyətlər" adlı məqalədə Sovet Ermənistanın kommunist rəhbərliyi ciddi tənqid olunur və onların aldadıldığı qeyd olunurdu. "Alik" öz fikrini əsaslandırmaq üçün belə bir sual qoyurdu ki, qoy bir dəfə də A.Vışinski səhv edib hansısa gürcü torpaqlarını ermənilər üçün istəsin. Necə fikirləşirsiniz o, öz vəzifəsində heç olmasa 24 saat qala bilərmi? Əlbəttə, yox. Daha sonra "Alik" əlavə edirdi ki, bizim taleyimiz üçün həm çar Rusiyasının və həm də Qırmızı Rusiyanın "ürək ağrıları" yetərincə bəllidir. İmperator Rusiyası "ermənilərsiz Ermənistan", Qırmızı Rusiya isə "torpaqsız Ermənistan" görmək istəyir (42).

A.Vışinskinin köhnə Sovet tələblərini yeniləşdirməsi Türkiyədə də böyük səs-küylə qarşılanmışdı. Türk mətbuatı BMT-dəki Türkiyə nümayəndə heyətinin başçısı S.Sarperi Sovet nümayəndəsinin hücumlarını lazımi qaydada dəf etmədiyi üçün kəskin şəkildə tənqid edir, onun daha cəsarətli adamla əvəz edilməsini zəruri sayırdı.

A.Vışinskinin 24 oktyabr çıxışını "Ulus" qəzeti "Vışinski Qars və Ərdahanı tələb edir" başlığı altında verdi. "Ankara" qəzeti bu çıxışı, "Bax, bu ədalətsizliyin son həddidir" başlığı altında şərh edirdi. Türkiyə ictimaiyyəti Sovet xarici işlər nazirinin müavininin bu çıxışını ciddi narahatçılıqla qarşılayırdılar. Mətbuat xəbərdarlıq edirdi ki, Sovet qəzetləri və radiosu türk millətinə qarşı müharibə təbliğatını gücləndirib. Vışinski və onun əlaltıları bu "tarixi çıxışdan" sonra ağılsız addıma gedə bilərlər. A.Vışinskinin çıxışını şərh edən Hikmət Bayur "Kudret" qəzetinin oktyabr ayının 29-dakı sayında BMT-dəki türk nümayəndə heyətini cavab vermək üçün əlverişli məqamı əldən verdiklərinə görə ciddi tənqid edərək yazırdı: "Rusiya türk torpaqlarının bir hissəsinin Gürcüstana, daha dəqiq desək Sovet İttifaqına birləşdirilməsini tələb edir. Bu fikir indiyə qədər xüsusi görüşlərdə və professorların məqaləsində səsləndirilirdisə,

indi Sovet İttifaqının BMT-dəki nümayəndəsi tərəfindən açıq təkrar olunur. Rusiya bizim torpaqlarımızın bir hissəsinə iddialarını elan etməklə ya müharibəyə, ya da plebsitə cəhd edir". H.Bayur öz məqaləsinin sonunda göstərirdi ki, əgər Sovet İttifaqında və Türkiyədə bütövlükdə və ya bu iki ölkənin ayrı-ayrı hissələrində plebsit keçirilərsə, onda Sovet İttifaqı özünün parçalanmasının qarşısını ancaq Qırmızı Ordunun gücü ilə ala bilər, Türkiyə isə öz torpaqlarının bir qarışını da itirməz. A.Vışinskinin Qars və Ərdahanı gürcülər üçün tələb etməsinə türk ictimaiyyəti Qarsın azad edilməsinin 27-ci ildönümünü geniş qeyd etməklə cavab verdilər. Bu münasibətlə Ankara Universiteti Qarsa xüsusi nümayəndə heyəti göndərdi. Onlar özləri ilə götürdükləri bayrağı və kiçik torbada apardıqları Ankara qalasının torpağını Qars qarnizonunun komandanına təqdim etdilər. Bu hadisəni təsvir edən türk qəzetləri Qars uğrunda iki milyon türkün öz canını qurban verdiyini yazırdı (43).

Daşnak partiyasının 1947-ci ilin oktyabr-noyabr aylarında Qahirədə keçirilən ön dördüncü konqresində Türkiyəyə, SSRİ və digər ölkələrə münasibət, partiyanın II İnternasionala, kürd məsələsinə və erməni probleminə yanaşması, habelə Ermənistana repatriasiya haqqında məsələlər müzakirə edildi. Daşnakların mətbuatında və siyasi fəaliyyətində Cənubi Qafqaz respublikaları arasında sərhədlərin dəyişdirilməsi, qonşu respublikalara qarşı ərazi iddiaları məsələsi mühüm yer tutduğundan Azərbaycan təhlükəsizlik orqanları onların fəaliyyətini çox diqqətlə izləyir və əldə edilən məlumatlar haqqında Sovet rəhbərliyinə mütəmadi raportlar göndərirdi. Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Nazirliyinin hazırladığı "Xarici daşnakların antisovet fəaliyyəti haqqında" arayışda Daşnaksutyun partiyasının üzvlərinin sayının 8 min nəfər olduğu, eyni zamanda onların gənclər təşkilatında 7 min adamın birləşdiyi, gənclərlə birlikdə bu partiyanın 15 min üzvünün xaricdə yaşayan 700 min ermənin 2,1 faizini təşkil etdiyi göstərilirdi (44).

Eyni zamanda SSRİ Dövlət Təhlükəsizliyi Nazirliyi də öz növbəsində xarici kəşfiyyat vasitəsi ilə daşnakların Qahirədə keçirilən 14-cü konqresi barədə müfəssəl məlumatlar əldə edə bilmişdi. Onların əldə etdiyi məlumatlara görə, konqresin işində Fransa, Yunanıstan, Suriya, Livan, Misir, İran, İraq və ABŞ-da fəaliyyət göstərən yerli təşkilatlardan nümayəndələr iştirak etmişdi. Qurultay öz qərarlarında göstərmişdi ki, daşnakların əsas vəzifəsi Daşnaksutyun partiyasının rəhbərliyi ilə "müstəqil və birləşmiş Ermənistan" yaratmaqdır. Qurultayın sənədlərindən aydın olur ki, daşnaklar Aleksandretta sancagının (Hatayın - C.H.) ərazisində "müstəqil erməni respublikası" yaradılmasının mümkünlüyünü müzakirə ediblər. Buna baza yaratmaq məqsədilə daşnak liderləri erməni kilsəsinin Misir və Kilikiya eparxiyasının Eçmiadzin katolikosluğundan ayrılması istiqamətində eparxiya başçıları ilə danışıqlara başlamağı zəruri sayırdılar. Qurultayda ingilis

kəşfiyyatının nümayəndəsi, erməni dilini yaxşı bilən kapitan Uilyams iştirak edirdi. Partiyanın ABŞ komitəsinin sədri Vrasyan öz çıxışında bildirmişdi ki, amerikalı dostlar daşnakların indiki siyasi xəttini müdafiə edirlər və ona maddi yardım göstərirlər (45).

Azərbaycan SSR təhlükəsizlik orqanlarının əldə etdiyi "Daşnakların on dördüncü konqresi Daşnaksutyun partiyasının siyasi platforması haqqında" direktivi onların müharibədən sonrakı fəaliyyətini öyrənmək üçün xüsusi əhəmiyyət kəsb edirdi.

Direktivin "Böyük dövlətlərə münasibətdə bizim mövqeyimiz" bölməsində göstərilirdi: "Daşnakların on dördüncü konqresi dərin ağrı hissi ilə bütün vədlərə və öhdəliklərə baxmayaraq birinci böyük müharibədəh sonra erməni xalqının aldadıldığı faktını, eyni ilə Atlantika xartiyası prinsiplərinin, Birləşmiş Millətlərin nizamnaməsinin və digər beynəlxalq öhdəliklərin ziddinə olaraq bu gün də aldadıldığını təsdiq edir". Sovetlərə gəlincə, direktivdə qeyd olunurdu ki, Sovet İttifaqı erməni torpaqlarının birləşdirilməsi üçün heç bir addım atmayib, hətta o Cənubi Qafqaz daxilində belə Ermənistanın sərhədlərini birləşdirmək istəmir (46).

Direktivin "Türkiyəyə münasibətdə bizim mövqeyimiz" bölməsində konqres nə qədər ki, Türkiyə erməni xalqının hüquqlarını tanımır, ona qarşı bütün sahələrdə mübarizəni davam etdirməyi və Türkiyəyə qarşı mübarizədə uğur qazanmaq məqsədi ilə Yaxın Şərqin bu mübarizədə marağı olan xalqları ilə əməkdaşlıq qurmağı qərara alırdı. Direktivin maraqlı hissələrindən biri repatriasiyaya münasibət bölməsi idi. Bu məsələ ilə bağlı məruzəni dinləyən on dördüncü konqres qərara alırdı ki, Daşnaksütyun repatriasiyaya vacib və müsbət iş kimi yanaşır, lakin qeyd edir ki, repatriasiya erməni məsələsinin digər tərəflərinin uğurlu həllinin zəruriliyi ilə bağlıdır. Daşnaklar kütləvi repatriasiyanı erməni torpaqlarının "azad edilməsi" və Ermənistanın sərhədlərinin genişləndirilməsi ilə əlaqələndirirdilər. Son iki ilin repatriasiyasına münasibətdə onlar bunu bir tərəfdən daşnaklara qarşı mübarizə, digər tərəfdən isə erməni koloniyalarının dağıdılması məqsədilə edildiyini bildirirdilər. Ona görə də onlar öz üzvlərinə və tərəfdarlarına repatriasiyanı təşviq etməyi tövsiyə etmirdilər (47).

Direktivin "Kürd məsələsi" bölməsində göstərilirdi ki, on dördüncü konqres kürd məsələsi haqqında məruzəni dinləyib Türkiyəni həm erməni və həm də kürd xalqının ümumi düşməni sayır, kürd və erməni təşkilatları arasında qarşılıqlı münasibətlərin bütün vasitələrlə qurulmasına öz gücünü qoyur və kürd-erməni birliyini həm siyasi, həm də işgüzar baxımdan Türkiyəyə qarşı yönəltməyin başlıca vəzifəsi hesab edir. Erməni-kürd birliyinin əsası kimi konqress Sevr müqaviləsini götürməyə tövsiyə edirdi. Türkiyənin içərisində olan kürd təşkilatları və onların rəhbərləri ilə əlaqə qurulmasını "Daşnaksütyun" zəruri sayır, lakin İrana

və İraqa qarşı kürdlərin mübarizəsinin daşnaklar tərəfindən müdafiə olunmadığı bildirilirdi (48).

Daşnak liderləri repatriasiyaya ciddi maraq göstərməsələr də, bu proses Sovet rəhbərliyi tərəfindən davam etdirilirdi. Ermənilərlə yanaşı ÜİK(b)P MK-nın Siyasi Bürosu 1947-ci ilin may ayının 27-də Fransadakı gürcü mühacirlərinin də Gürcüstana qayıtmasına icazə vermişdi. Bu məsələnin üzərində Sovetlər hələ Avropada müharibə başa çatan kimi işləməyə başlamışdı. 1945-ci ilin iyununda Parisə ezam olunan Gürcüstan K(b)P MK-nın katibi P.Şariya Fransada Noy Jordaniya, Yevqeni Qeqeçkori, İosif Qobeçiya, Spridon Kediya və digər mühacirət başçıları ilə görüşmüşdü. Görüş zamanı onlar gürcü mühacirətinin Sovet İttifaqına qarşı mübarizəsinin əhəmiyyətsiz olduğunu etiraf etmişdilər. Sovet-Almanya müharibəsinə toxunan N.Jordaniya demişdi: "Müharibəni Stalin uddu. Mən onu dahi adam hesab edirəm. Siyasi ixtilaflara görə onun böyüklüyünü inkar etmək axmaqlıq olardı. Tarix hələ onun dahiliyi haqqında çox şey deyəcək, onun fəaliyyətinin müasirləri üçün məlum olmayan tərəflərini açacaq". Sözünün sonunda Jordaniya demişdi ki, əgər ona vətənə qayıtmağa icazə verilsəydi, özünü xoşbəxt sanardı. Y.Qeqeçkori də etiraf etdi ki, öz müstəqilliyini təmin etmək üçün Gürcüstanın qərb ölkələrinin birindən himayədar axtarmasının səhv olduğunu son müharibə təsdiq etdi. O dedi: "Gürcüstanın yolu yalnız Rusiya ilədir, ona görə bizim tərəfimizdən bundan sonra Sovet hakimiyyətinə qarşı mübarizə aparmaq axmaqlıq olardı". P.Şariyanın Parisdə apardığı danışıqlar barədə L.Beriya və B.Merkulov 1945-ci ilin iyul ayının 2-də İ.Stalinə və V.Molotova 4 səhifədən ibarət hesabat göndərmişdilər (49). Lakin bununla yanaşı, Sovetlərin qarşısında duran başlıca vəzifə ermənilərin repatriasiyası məsələsi idi.

1947-ci ilin sonlarında ermənilərin repatriasiyası ilə bağlı yaranmış vəziyyəti müzakirə edən Sovet rəhbərliyi bu prosesin davam etdirilməsini məqsədəuyğun saydı və xarici ermənilərin köçürülməsini stimullaşdırmaq üçün əlavə tədbirlər gördü (50). Lakin belə bir vəziyyətdə Türkiyədən torpaq almağın qeyri-mümkünlüyü göz qabağında idi. Sovet respublikaları arasında sərhəd dəyişikliklərinin yaxşı nəticələr verməyəcəyini anlayan Kreml rəhbərləri 1945-ci ilin noyabr-dekabr aylarından sonra Ermənistan və Gürcüstan rəhbərliyinin Azərbaycana qarşı ərazi tələbləri məsələsinə bir daha qayıtmadı. Yaranmış vəziyyətdə xaricdən köçürülən ermənilərin mənzil-məişət və təsərrüfat məsələlərinin həll edilməsinin ən asan yolu azərbaycanlıların öz doğma yurdlarından deportasiya edilməsində tapıldı.

Dağlıq Qarabağın Ermənistana, Qax, Balakən və Zaqatalanın Gürcüstana verilməsinə güclü şəkildə müqavimət göstərən Azərbaycan rəhbərliyi necə oldu ki, bu məsələyə razılıq verdi. Bu məsələyə bəzi

müəlliflər tərəfindən toxunulsa da, lakin Azərbaycan rəhbərliyinin müqavimət göstərməməsinin səbəbi axıra qədər aydın deyildir (51). Birincisi, nəzərə almaq lazımdır ki, Ermənistandan 130 min azərbaycanlı əhalinin Azərbaycanın pambıqçılıq rayonlarına köçürülməsi barədə M.C.Bağırov və Q.Arutinovun 1947-ci ilin dekabr ayının 3-də İ.Stalinə birgə məktubları vardır. Azərbaycan və Ermənistan arxivlərində olan məktubların mətnləri eynidir, hər ikisində imza yoxdur, lakin Ermənistan arxivindəki məktubun aşağısında 3 dekabr 1947-ci il tarixi qoyulub (52). Həmin dövrdə bir qayda olaraq məktubların ikinci surətlərinə imza atmırdılar. Fikrimizcə, məktub hər iki respublika rəhbərliyi tərəfindən imzalanıb və İ.Stalinə göndərilib. Prof.E.İsmayılov bu dövrlə bağlı çox dəyərli araşdırmasında həmin vaxt Azərbaycan K(b)P MK-nın katibi işləmiş M.Seyidovun xatirələrinə istinadən M.C.Bağırovun 1947-ci ilin noyabr ayının sonlarından məzuniyyətə getdiyini yazır. Lakin Siyasi Büronun yeni açıqlanan sənədləri M.C.Bağırovun noyabrın sonlarında deyil, 1947-ci il dekabr ayının 14-də məzuniyyətə göndərildiyin təsdiq edir (53).

M.C.Bağırov və Q.Arutinovun İ.Stalinə ünvanlanan birgə məktubunda azərbaycanlıların köçürülməsi son illərdə hər iki respublikanın təsərrüfat həyatında baş vermiş dəyişikliklərlə əlaqələndirilirdi. Burada ilk növbədə göstərilirdi ki, Mingəçevir sisteminin qurulması nəticəsində Azərbaycanda yeni əkin torpaqlarının yaranması və pambıqçılıq rayonlarındakı mövcud kolxozlarda işçi qüvvəsinin çatışmaması, eyni zamanda pambıqçılığın məhsuldarlığının artırılması vəzifələri Azərbaycan SSR-in bu rayonlarında əhalinin sayının artırılmasının zəruriliyi məsələsini irəli sürür. Bu məsələnin real həlli Ermənistanda yaşayan azərbaycanlı əhalidən 130 min nəfərinin bu rayonlara köçürülməsi ola bilər. Sonra isə məktubda əsas məsələyə toxunulur və qeyd olunurdu ki, azərbaycanlı əhalinin Ermənistandan Azərbaycana köçürülməsi xarici ölkələrdən vətənə qayıdan ermənilərin qəbul edilməsi və yerləşdirilməsini bir qədər yüngülləşdirirdi. Azərbaycanlı əhalinin köçürülməsi nəticəsində boşalan torpaqlar və tikililər xarici ölkələrdən Ermənistana gələn kəndlilərin yerləşdirilməsi üçün istifadə edilə bilər. Məktubun sonunda köçürmənin qaydaları və şərtlərini işləyib hazırlamaq üçün hər iki respublikanın Nazirlər Sovetinə birgə komissiya yaratmağa icazə verilməsi, bu tədbirlərlə bağlı xərclərin ittifaq büdcəsi hesabına ödənilməsi xahiş edilirdi. Göründüyü kimi, məktub tələsik yazılıb və azərbaycanlı əhalinin köçürülməsi ilə bağlı məsələ əsaslandırılmayıb.

İkincisi, bu dövrdə Azərbaycanda işçi qüvvəsinə və xüsusilə kənd təsərrüfatında işçi qüvvəsinə ehtiyac var idimi? Respublikanın ərazisində hərbi əməliyyatlar getməsə də, müharibə zamanı itkilər böyük idi. Lakin müharibədən sonra Azərbaycan rəhbərliyinin qarşısında duran başlıca məsələ sənayeni və gündən-günə genişlənən tikintini işçi qüvvəsi ilə

təmin etmək idi. Bir il əvvəl, 1946-cı ildə M.C.Bağırov "Azərbaycan SSR-in işçi qüvvəsinə tələbatı haqqında" geniş arayış hazırlayıb Q.Malenkova göndərmişdi. Bu arayışda göstərilirdi ki, neft sənayesini dirçəltmək və qarşıya qoyulan vəzifələri yerinə yetirmək üçün 25-30 min nəfər işçi qüvvəsinə ehtiyac vardır. Eyni zamanda, respublikada genişlənən tikinti işlərində çalışmaq üçün işçi qüvvəsinə böyük ehtiyac olduğu göstərilirdi. Belə ki, Mingəçevir su-elektrik stansiyasının tikintisi üçün 15 min nəfər, Daşkəsən mədən işləri üçün 5 min nəfər, Sumqayıt boru-prokat zavodunun tikintisi üçün 10 min nəfər, Azneftin sənaye va mülki tikinti işləri üçün 15 min nəfər, Bakı 2-ci su kəməri tikintisi üçün 10 min nəfər, bütövlükdə respublikada sənaye və tikinti üçün 80-85 min nəfər işçi qüvvəsinə ehtiyac olduğu əsaslandırılırdı. M.C.Bağırov təklif edirdi ki, Sovet Azərbaycanı sənaye və tikintisi üçün lazım olan bu sayda işçi qüvvəsi işsizliyin geniş yayıldığı İran Azərbaycanından gətirilsin (54). Göründüyü kimi, bu arayışda kənd təsərrüfatında işçi qüvvəsinin çatışmadığından bir kəlmə də söhbət açılmır və qeyd edilən məktubun müəmmalı tərəfi də ilk növbədə bununla bağlıdır.

Ən nəhayət, üçüncüsü, M.C.Bağırovun bu məktuba imza atmasının səbəbini 1947-ci ilin noyabr ayının 21-də ÜİK(b)P MK-nın Siyasi Bürosunda "Azərbaycan K(b)P MK-nın məsələsi"nin müzakirəsində axtarmaq lazımdır. Bu məsələnin müzakirəsi ilə bağlı sənədlər Siyasi Büronun xüsusi qovluğunda bu günə qədər gizli saxlanılır (55). Məhz 1947-ci ilin dekabr ayının 3-də M.C.Bağırovun azərbaycanlıların Ermənistandan köçürülməsi ilə bağlı İ.Stalinə ünvanlanan məktuba imza atması, dekabr ayının 10-da ermənilərin repatriasiyasının davam etdirilməsi haqqında SSRİ Nazirlər Sovetinin qərarı, dekabrın 14-də M.C.Bağırovun 4 ay yarımlıq məzuniyyətə göndərilməsi və ən nəhayət, 1947-ci ilin dekabr ayının 23-də "Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" SSRİ Nazirlər Sovetinin qərarı Siyasi Büronun 21 noyabr tarixli iclasında Azərbaycan kompartiyasının məsələsi müzakirə edildikdən sonra meydana çıxmışdı.

İ.Stalinin imzaladığı 23 dekabr tarixli SSRİ Nazirlər Sovetinin qərarında göstərilirdi ki, 1948-1950-ci illərdə "könüllülük prinsipləri" əsasında Ermənistan SSR-də yaşayan 100 min kolxozçu və digər azərbaycanlı əhali Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülsün. Qərara görə, 1948-ci ildə 10 min nəfərin, 1949-cu ildə 40 min nəfərin və 1950-ci ildə 50 min nəfərin köçürülməsi nəzərdə tutulurdu. Azərbaycan və Ermənistan Sovet respublikalarının Nazirlər Sovetlərinə tapşırılırdı ki, köçürüləcək əhali arasında köçürmənin şərtləri və köçürülənlərə dövlət tərəfindən güzəştlər haqqında geniş izahat işləri aparılsın. Köçürülənlər ilə onların yola salınmasından ən geci on gün qabaq bütün hesablar

bağlanmalı, qazandıqları əmək günlərinin haqqı ödənilməli, köçənlərin şəxsi istifadəsində olan əmlakın hər ailəyə iki tondan çox olmamaq şərti ilə, o cümlədən ev heyvanları və quşların aparılmasına şərait yaradılmalı idi. Qərara görə Ermənistan SSR-də əvəzsiz olaraq evləri əllərindən alınan azərbaycanlılara təzə gəldikləri yerdə ev tikmək üçün on il müddətinə qaytarılmaq şərtilə 20 min manat həcmində kredit verilməsi nəzərdə tutulurdu (56). Qərarın bu bəndi təsdiq edir ki, Azərbaycan Ermənistandan köçürülən əhalini qəbul etməyə hazır deyildi və məsələ qəflətən meydana çıxdığından heç bir hazırlıq işi görülməmişdi. Digər tərəfdən kəndli təsərrüfatlarının köçürülməsi üzrə SSRİ Mərkəzi İcraiyyə Komitəsi və Xalq Komissarları Sovetinin 17 noyabr 1937-ci il tarixli qərarında nəzərdə tutulmuş şərtlər Ermənistandan köçürülən azərbaycanlı əhaliyə də şamil edilirdi. Məlum olduğu kimi, bu qərar həmin vaxt Sibir, Qazaxıstan və Uzaq Şərqə sürgün edilən ailələrlə bağlı qəbul edilmişdi.

Məlum olduğu kimi, 23 dekabr qərarının qəbul edilməsi üçün hər iki respublika rəhbərinin İ.Stalinə ünvanladıqları 3 dekabr məktubu əsas kimi götürülürdü. Lakin həmin məktubda bu köçürmənin məhz xaricdən gələn ermənilərin torpaqla təmin edilməsi və mənzil-məişət şəraitini yaxşılaşdırmaq üçün edildiyinə 23 dekabr tarixli qərarın sonuncu bəndində ötəri şəkildə toxunulurdu və bununla da əsas məqsəd kölgədə saxlanılırdı.

23 dekabr qərarı o qədər tələsik hazırlanmışdı ki, az sonra 1948-ci ilin mart ayının 10-da SSRİ Nazirlər Soveti "Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə bağlı tədbirlər haqqında" ikinci bir qərarı qəbul etməli oldu. Bu qərar köçürmənin şərtlərini bir qədər yüngülləşdirir, Ermənistanda qalan evlər və digər daşınmaz əmlak üçün kompensasiyalar verilməsini nəzərdə tuturdu (57). Lakin 10 mart qərarı kiçik dəyişiklikləri nəzərdə tutur, əsasən köçürmə işinin təşkilati baxımdan detallarını özündə əks etdirir və məsələnin deportasiya xarakterini dəyişmirdi.

Məlum olduğu kimi, 23 dekabr 1947-ci il qərarının lap birinci cümləsində köçürmənin "könüllülük əsasında" həyata keçirilməsi ideyası öz əksini tapmışdı. Deklarativ xarakter daşıyan bu ideya əslində deportasiya xarakteri daşıyan hadisəyə "humanizm donu" geyindirmək zərurətindən meydana gəlmişdi. Bəs əslində məsələ necə idi? Bu qərarın şamil olunduğu Vedinin, Göyçənin, Basarkeçərin min illər boyu sakini olmuş yerli türk əhalisinin həmin qərara münasibəti necə idi? Bunun üçün əlimizdə olan ən mühüm sənəd Ermənistan SSR Daxili İşlər Nazirliyinin 3 may 1948-ci ildə hazırladığı və nazir Qriqoryanın imzaladığı "Ermənistanın azərbaycanlı əhalisi arasında onların qarşıda Azərbaycan SSR-ə köçürülməsi ilə bağlı əhvali-ruhiyyəsi haqqında" arayışdır. Ermənistan SSR daxil işlər orqanları tərəfindən hazırlanan və general-mayor Qriqoryan tərəfindən imzalanan 11 səhifəlik arayış bu deportasiyanın nə dərəcədə

"konüllülük əsasında" həyata keçirildiyinin əyani göstəricisidir. Arayışda göstərilirdi: Ermənistandan azərbaycanlıların Azərbaycan SSR-ə köçürülməsi haqqında hökumətin rəsmi qərarı elan olunduqdan xeyli əvvəl bu məsələ barədə şayiələr yayılmağa başladı və bu tədbirin məqsədləri haqqında müxtəlif cür düzgün olmayan şərhlər meydana çıxdı. Ermənistanın daxili işlər naziri yazırdı: "Bizim tərəfimizdən azərbaycanlıların dedikləri, onların yeni yaşayış yerinə getmək istəmədikləri, onlardan bəzilərinin qəbristanlığa gedib doğmalarının qəbirləri üstündə ağlamaları haqqında bir çox faktlar qeydə alınmışdır. Azərbaycanlılar yaxınlarının məzarı başında dua edirdilər ki, onları köçürməsinlər".

Arayışda deyilirdi: "Belə məlumatlar daxil olub ki, antisovet təbliğat aparan və köçürməni SSRİ ilə Türkiyə arasında müharibə olacağı təqdirdə Sovet hakimiyyətinin azərbaycanlılara etimadsızlığı kimi şərh edən düşmən ünsürlər bu mənfi əhval-ruhiyyədən istifadə edirlər". Xüsusi xidmət orqanlarının topladığı məlumatlara əsasən Ermənistan SSR-in dağ rayonlarında - Basarkeçər, Amasiya, Sisian və digər yerlərdə yaşayan azərbaycanlı əhalinin köçürməyə münasibəti son dərəcə mənfi idi. Arayışda qeyd olunurdu ki, sərhəd xəttinin o biri tərəfində yaşayan türklərlə qohumluq əlaqələri olan bəzi antisovet ünsürlər köçürmədən öz narazılığını ifadə edərək gizli yollarla Türkiyəyə keçmək niyyətləri barədə danışırlar. Azərbaycanlı əhali arasında maraqlı bir müşahidəyə toxunan Qriqoryan yazırdı: "Səciyyəvidir ki, qarşıdakı köçürmə elan olunan və bu tədbirin məqsədləri izah olunan zaman kolxozçuların yığıncaqlarında bütün iştirakçılar bir səslə hökumətin qərarını alqışlayır və getməyə hazır olduqlarını bəyan edirlər, sonra isə çoxları şəxsi söhbətlərdə bu tədbirdən narazılıqlarını söyləyirlər. Əhali arasında belə əhvali-ruhiyyənin olması arayışda bir tərəfdən izahat işlərinin yetərli səviyyədə aparılmaması ilə izah edilirdisə, digər tərəfdən Ermənistanın dağ rayonlarında yaşayan azərbaycanlıların Azərbaycanın aran rayonlarına keçmək istəməmələri ilə, "guya iqlim şəraitinin onlar üçün əlverişli olmaması ilə" izah edilirdi (58).

Maraqlıdır ki, köçürməyə məruz qalan azərbaycanlı əhalinin özü məcburi hesab etdikləri bu aksiyanı sövq-təbii olaraq Türkiyə ilə bağlayır və öz anlamlarına görə izah edirdilər. Amasiya rayonu üzrə məlumatlarda göstərilirdi ki, Təpəköy kəndinin sakini Yusif İsmayılov öz həmkəndliləri İsmayıl Əhmədov, Qafar İsmayılov və Hümbət Əhmədovla söhbətdə deyib: "Ermənistandan azərbaycanlıların köçürülməsi SSRİ ilə Türkiyə arasında qarşıda gözlənilən müharibə ilə bağlıdır". Arayışdan aydın olur ki, Amasiya rayonunun bir sıra digər kəndlərində də azərbaycanlı əhalinin Ermənistandan köçürülməsi SSRİ ilə Türkiyə arasında gözlənilən müharibə ilə əlaqələndirirdilər. Quzukənd kəndinin sakini Xanəhməd İsmayılov kolxozçularla söhbətdə söyləmişdi: "Deyirlər ki, köçürmə könüllülük əsasında olacaq. Bu, doğru deyil. Axalkələkdə azərbaycanlılarla

necə hərəkət ediblərsə, bizimlə də elə hərəkət edəcəklər: dəmir yolu vaqonlarına doldurub Qazaxıstana aparacaqlar. Gözlənilməz vəziyyətə düşməmək üçün hazır olmaq lazımdır".

Ermənistan xüsusi xidmət orqanlarının Amasiya rayonunun Çivinli kəndindən əldə etdiyi məlumatda kənd sakinləri Knyaz Məmmədov, Mirzə Əliyev və Məmməd Aşurov kolxozçularla söhbətdə maraqlı məqamlara toxunmuşdular. Onlar deyirdilər: "Tezliklə bizi köçürəcəklər, lakin nədənsə bu barədə hələ danışmağa qorxurlar. Görünür fikirləşirlər ki, kolxozçular Türkiyəyə gedərlər". Yuxarıda adı çəkilən şəxslərdən biri təəssüf hissi ilə söyləyirdi: mən axmaq olmuşam ki, əvvəllər Türkiyəyə getməmişəm, indi hara istəyirsən yox, hara deyirlərsə ora köçməlisən. Həmin kəndin kolxoz idarə heyətinin sədri Əli Kərimov kolxozçulara bildirmişdi ki, Ermənistandan azərbaycanlıların Azərbaycana köçürülməsi haqqında məsələ nahaqdan qoyulub. Bir çox kolxozçular getmək istəmirlər. Amasiya rayonunun bir sıra kəndlərində kolxozçuların öz evlərini uçurması və tikinti materiallarını satması barədə arayışda məlumatlar var idi (59).

Ermənistan Daxili İşlər Nazirliyinin Zəngibasar rayonundan topladığı materiallar da azərbaycanlı əhalinin köçürmədən ciddi narazılığını ifadə edirdi. Zəngilər kəndinin sakini S.Namazov öz həmkəndlilərinə qonşu Qaraqışlaq kəndində olduğu barədə məlumat verib deyirdi: "Orada Mərkəzi Komitənin nümayəndəsi iclasda bildirdi ki, biz azərbaycanlıları Ermənistandan ona görə köçürürlər ki, bizim yerimizdə erməni repatriantları yerləşdirsinlər". Rayonun Xırda-Dəmirçi kəndinin sakini Məşədi Teymur Mirzəyev bunun əksinə olaraq azərbaycanlıların köçürülməsini SSRİ-Türkiyə münasibətləri ilə izah edirdi. O deyirdi: "Azərbaycanlıları Ermənistandan ona görə köçürmürlər ki, onların yerində erməni repatriantları yerləşdirsinlər, ona görə köçürürlər ki, Türkiyə ilə SSRİ arasında müharibə olacağı təqdirdə Sovet hökuməti bizə inanmır. Bizim köçürülməyimizin başlıca səbəbi budur, belə ki, müharibə zamanı sərhəd rayonlarında yaşayan azərbaycanlıların çoxu Türkiyəyə gedəcəkdir. Rəncbər kəndindən olan İ.Nəsirov isə bu dəlillərin hər ikisini də əsaslı hesab edirdi. Öz həmkəndliləri ilə söhbətdə o, bildirmişdi ki, birincisi, 1950-ci ilə qədər Ermənistandan hökmən bütün azərbaycanlıları köçürəcəklər. Bunu ona görə edirlər ki, Sovet hökuməti türklərin hücumundan qorxur, Türkiyə ilə sərhədlərin yaxınlığında yaşayan azərbaycanlılara etibar etmir. İkincisi isə, Sovet Ermənistanı bütün xarici erməniləri toplayıb Sovet hökumətindən asılı olmayan dövlət yaratmaq istəyir. İnqilab Nəsirov eyni zamanda əlavə etmişdi ki, Ermənistan K(b)P MK-nın keçmiş katibi A.Xancanyanın planına görə, dünyanın hər tərəfindən bütün ermənilər gəlməli, Naxçıvan Ermənistana birləşdirilməli, bütün azərbaycanlılar isə Ermənistandan Azərbaycana köçürülməli idi. Bax indi, Xancanyanın arzularını həyata keçirirlər.

Az əvvəl mən eşitdim ki, Ermənistan hökuməti Naxçıvanın Ermənistana birləşdirilməsini tələb edib, lakin Azərbaycan hökuməti bundan imtina edib. Digər bir məlumatda göstərilir ki, Şurakənd kolxozunun sədri Hümbət Əliyev rayon mərkəzindən qayıdaraq kolxozçulara köçürmə ilə bağlı Azərbaycandan komissiya gəlməsi barədə məlumat verib. O deyib: "Bu günlərdə Ermənistandan bütün azərbaycanlılar köçürülməlidir. Köçürmənin yubanması onunla bağlıdır ki, Ermənistan K(b)P MK-nın katibi kolxoz əmlakının Azərbaycana verilməsi ilə razı deyildir". Arayışdan aydın olur ki, azərbaycanlı əhali Ermənistanda daim qorxu altında saxlanılır. Zəngilər kəndinin sakini S.Süleymanov bildirirdi ki, artıq bizim Ermənistanda yaşamağımıza dəyməz. Əgər müharibə başlasa, ermənilər bizim hamımızı doğrayacaqlar, yaxşı olardı ki, tezliklə bizi Azərbaycana köçürsünlər (60).

Vedi rayonu üzrə toplanmış məlumatlarda 1948-ci ilin yanvar-fevral aylarında Böyük Vedi sakinlərindən bir sıra adamların öz evlərini sökdüyü, həyətyanı sahələrində meyvə ağaclarını məhv etdiyi, mal-qaranı kəsdiyi, ev əşyalarını dəyər-dəyməzinə satdığı, bəzi ailələrin özbaşına Naxçıvana köçdüyü göstərilirdi. Basarkeçər rayonunda Çiçəkli, Daşkənd, Zod, Şişqaya və digər kəndlərin əhalisinin əksəriyyətinin qəti şəkildə Azərbaycana köçmək istəmədikləri, Artaşat, Qarabağlar, Oktemberyan, Qafan, Meğri və Sisian rayonlarının azərbaycanlı əhalisinin bu məsələyə müsbət yanaşmadıqları arayışda qeyd olunurdu. Artaşat rayonunun Darğalı kəndinin sakinləri bildirirdilər ki, qoy nə baş verir-versin, biz heç bir halda Darğalı kəndindən getməyəcəyik. Qafan rayonundan kolxoz sədri Bəşir Tağıyev Azərbaycana köçməyin əleyhinə öz fikrini belə ifadə edirdi: "Öz doğma kəndində ölmək daha yaxşıdır, nəinki yeni yerə getmək". Sisian rayonunun Urud kəndinin sakini Salman İsgəndərov öz həmkəndliləri ilə söhbətdə bildirmişdi ki, Sovet vətəndaşı kimi o, Sovet İttifaqının hər yerində yaşamaq hüququna malikdir və öz evini, öz mülkiyyətini və öz vətənini qoyub heç hara getmək niyyətində deyil, Stalin Konstitusiyasına görə heç kəs onu digər yerə getməyə məcbur etmək hüququna malik deyil. Urud kəndinin digər bir sakini Q.Fərzəliyev isə özünün Azərbaycana getmək arzusunda olmadığı barədə Stalinə məktub yazacağını bildirirdi. Sisian rayonunun Comərdli kəndinin sakini Cəlal Qurbanov keçmişi xatırlayaraq xəbərdarlıq edirdi ki, "Çoxları bilmir ki, Azərbaycanda necə istilər olur. 1918-1919-cu illərdə biz azərbaycanlılar Ermənistandan Naxçıvana qaçdıq. Biz onda 14 nəfər idik, iki ildən sonra üç nəfər qaldıq. Digər 11 nəfər istidən və xəstəlikdən öldü. Bu Naxçıvan idi, Mingəçevir isə daha Pisdir. Bizim çox, daha çox itkilərimiz olacaq" (61).

Ermənistan Daxili İşlər Nazirliyinin hazırladığı arayışın maraqlı məqamların biri ermənilərin azərbaycanlıların köçürülməsinə münasibəti idi. Ermənistan SSR Sosial Müdafiə Nazirliyinin nəzdində olan

müəssisələrdən birinin müəllimi Minas Arakelyan deyirdi: "Azərbaycanlıların Ermənistandan köçürüləcəklərinə heç bir şübhə yoxdur. İlk növbədə Araz və Axuryan çayları sahillərində yaşayan azərbaycanlılar köçürüləcəklər. Sonra azərbaycanlıların Yerevan şəhərindən köçürülməsi başlayacaq. Azərbaycanlıların ilk növbədə sərhədyanı rayonlardan köçürülməsi tamamilə başa düşüləndir, belə ki, onlar tez-tez sərhədi pozurlar, Türkiyə isə oralarda özü üçün casusluq ocağı yaradır". Yerevan şəhər sakini E.Mesropyan daha qabağa gedərək öz qonşusu ilə söhbətdə qeyd edirdi ki, azərbaycanlıları yalnız Ermənistandan deyil, eyni zamanda Naxçıvandan da köçürüb oranı Ermənistan ərazisinə birləşdirmək lazımdır. Belə fikirlər yeni gələn repatriantlar arasında da yayılmaqda idi. Fransadan gələn Sınbat adlı erməni Kirovakanda öz həmsöhbətlərinə bildirirdi ki, bir vaxtlar daşnaklar Naxçıvan MSSR-in Ermənistana birləşdirilməsi məsələsini qoymuşdular, lakin bu mümkün olmadı. İndi isə bu məsələni qoymağın vaxtıdır, belə ki, Ermənistanda torpaq azdır (62). Arayışda Naxçıvanla bağlı xaricdən gələn daşnakın adına yazıları fikirlər əslində Ermənistan rəhbərliyi tərəfindən Moskva ilə gizli danışıqların mövzusu olmuşdu. Q.Arutinov xarici ermənilərin repatriasiyası dalğasında Naxçıvanın Ermənistana verilməsi ilə bağlı mərkəzin ağzını aramış və xüsusilə, Mərkəzi Komitənin ikinci katibi Q.Malenkovu "yoxlamağa" çalışmışdı (63).

SSRİ Nazirlər Sovetinin azərbaycanlıların Ermənistandan deportasiyası haqqında 23 dekabr 1947-ci il qərarı asasında 1948-1950-ci illərdə 34382 nəfərin köçürüldüyü bildirilirdi, 1951-ci ilin sonunda bu rəqəm 37387 nəfərə çatmışdı. Azərbaycan SSR kənd təsərrüfatı nazirinin 1954-cü il oktyabr ayının 14-də Azərbaycan KP MK-ya və Nazirlər Sovetinə göndərdiyi məktubunda göstərilirdi ki, 1948-1953-cü illərdə Ermənistan SSR-dən respublikanın Kür-Araz ovalığına 11914 təsərrüfat (53.000 nəfər) köçürülmüşdür. Bütün məhdudiyyətlərə baxmayaraq deportasiya edilənlərin az bir hissəsinin iqlim şəraitinə dözməyərək geri qayıtması Ermənistan rəhbərliyinin ciddi narahatçılığına səbəb olmuşdu (64).

Azərbaycanlıların Ermənistandan deportasiya edilməsi xarici ermənilərin repatriasiyası ilə əlaqələndirildiyindən ÜİK(b)P MK-nın Siyasi Bürosu 1948-ci ilin avqust ayının 7-də "Xarici ermənilərin Ermənistan SSR-ə repatriasiyası haqqında" məsələni yenidən müzakirə etdi. Müzakirələr zamanı məlum oldu ki, erməni koloniyalarının geniş şəkildə təmsil olunduğu Fransadan gələnlərin sayı 2000-dən, Suriya və Livandan gələnlərin sayı 3500-dən, ABŞ-dan gələnlərin sayı 750 nəfərdən artıq deyildir. Siyasi Büro tövsiyə etdi ki, SSRİ Nazirlər Sovetinin 10 dekabr 1947-ci il qərarına uyğun olaraq repatriasiya prosesini davam etdirmək lazımdır (65). Lakin artıq müzakirənin gedişindən repatriasiyaya marağın azaldığı hiss edilirdi. 1948-ci ilin repatriasiya planının yerinə yetirib bilinməyəcəyi

göz qabağında idi. Türkiyədən nəzərdə tutulan ərazilərin alınmasının mümkünsüzlüyü Ermənistan rəhbərliyinin də repatriasiyaya marağını zəiflətmişdi. Ona görə də çoxsaylı çətinlikləri nəzərə alaraq Ermənistan K(b)P MK-sı avqust ayının 24-də 1948-ci il üçün repatriasiya planının azaldılması, 1949-cu ildə isə ümumiyyətlə repatriasiyanın dayandırılması haqqında qərar qəbul etdi (66).

Türkiyədən ərazi alınması məsələsi mümkün olmadıqda Ermənistanla qonşu olan Azərbaycan və Gürcüstan Sovet respublikalarının rəhbərləri repatriasiya prosesinin onların ərazilərinə qarşı yönələcəyindən ehtiyatlanır, repatriantların özləri ilə xaricdən gətirdiyi millətçilik və habelə daşnakların qonşu respublikalara qarşı tez-tez səsləndirdikləri ərazi tələbləri haqqında Moskvaya sistematik məlumatlar verirdilər.

Doğrudan da daşnakların mətbuatında Azərbaycana və Gürcüstana qarşı çıxışlar artmışdı. 1948-ci ilin fevral ayının 18-19-da və aprel ayının 14-də ermənilərin Tehranda çıxan "Alik" adlı qəzetində çap edilən "Bizim siyasi vəziyyətimiz və qarşıda duran vəzifələr", habelə "İmmiqrasiya və biz" adlı məqalələr bunun açıq təzahürü idi.

Adı çəkilən ikinci məqalədə xarici ermənilərin repatriasiya məsələsinə toxunularaq göstərilirdi ki, "Kütləvi immiqrasiyanı o zaman həyata keçirmək mümkün olacaq ki, erməni xalqı işğalçıların əlində və ya qonşu respublikalarda olan öz tarixi torpaqlarını geri qaytarmış olsun. Müharibədən sonra bizim sərhədlərimizə, xüsusilə SSRİ-nin daxilində Ermənistanın daxili sərhədlərinə bir qarış da torpaq əlavə olunmayıb. Moskva xaricdə olan ermənilərin Ermənistana köçürülməsini kağızda cızır. Qarabağ, Gəncə, Axalkələk və Naxçıvan öz həqiqi sahibinə qaytarılmayana qədər əhalinin bu hissəsini harada yerləşdirmək olar" (67). "Alik" qəzetinin 1948-ci ilin avqust ayının 25-26-dakı nömrəsində "Naxçıvanın Ermənistan üçün əhəmiyyəti" adlı tarixi faktların kobudcasına təhrif edildiyi məqalədə Sovet Ermənistanın ərazisinin Dağlıq Qarabağ, Naxçıvan, Gəncə, Axalkələk, Axalsix, Borçalı və digər yerlər hesabına genişləndirilməsi məsələsi öz əksini tapmışdı (68).

Azərbaycana qarşı yönəlmiş bəzi proseslərə, xüsusilə ölkə daxilində, Sovetlər Birliyində cərəyan edən bəzi məsələlərə M.C.Bağırov 1949-cu ilin yanvar ayında keçirilən Azərbaycan kommunist partiyasının XVII qurultayındakı yekun sözündə öz münasibətini açıqladı. O bildirdi ki, Azərbaycan K(b)P-nin Dağlıq Qarabağ Vilayət Komitəsinin birinci katibi Qriqoryanın qurultay ərəfəsində, qurultay prosesindəki yazılı izahatından aydın olur ki, Stepan Şaumyanın kiçik oğlu Sergey yayda (1947-ci ilin yayında - C.H.) bura gəlib. Burada o, hazırda həbs olunmuş daşnak A.Avakyanla görüşüb və razılığa gəliblər ki, bu daşnak onun atası haqda kitab yazsın. Yaxud S.Şaumyanın digər oğlu Levon 26 Bakı komissarlarının cənazəsinin qalıqlarını biz bura gətirəndən bir neçə gün sonra

Bakıya gəldi və özünün birinci vəzifəsini varlı bir daşnakın qızına evlənməkdə gördü. 26 Bakı komissarlarının güllələnməsinin 30 illiyi ilə bağlı yazdığı təxribatçı məqaləsində o, Əzizbəyovun adını pozdu. L.Şaumyan "Literaturnaya qazeta"da məqalə yazır, orada Əzizbəyovun familiyası yoxdur. Yoldaş Stalin özünün bütün çıxışlarında Əzizbəyovun familiyasını birinci yerdə qoyur, ona görə ki, söhbət Bakı komissarlarından gedir, Azərbaycan haqqında gedir. M.C.Bağırov deyirdi: "İstəsək də, istəməsək də Levon və Sergey Şaumyanın bundan sonra keçmişin hadisələri haqqında yazmağa haqları yoxdur". Daha sonra M.G.Bağırov qurultaydakı yekun sözündə Q.Xolopovun (Xolopyanın) "Buxtada işıq" romanı ilə bağlı məsələyə aydınlıq gətirirdi, onun Şamaxıda, Kürdəmirdə 1918-ci ildə böyük qırğınlar törətmiş Lalayevin əmisi oğlu olduğunu, bütün bu işlərin arxasında Azərbaycan tarixinin saxtalaşdırılmasının dayandığını bildirirdi. O, N.Tixonovun bu kitab haqqında məqaləsini L.Şaumyanın xahişi ilə yazıldığını, onun himayədarlığı ilə çap olunduğunu qeyd edirdi. M.C.Bağırov həmin dövrdə nəşr olunmuş İonesyanın XVIII əsr rus diplomatiyasında erməni məsələsindən bəhs edən kitabı haqqında da ciddi tənqidi fikirlər söylədi. O, İonesyanın rahiblərin, kilsə xidmətçilərinin sözlərinə istinadən qubalı Fətəlixanı xəyanətkar adlandırmasını düzgün saymırdı. M.C.Bağırov deyirdi: "Bütün xanlar kimi Fətəli xan da az adam asmayıb, az adam güllələməyib və o, kəndliləri o qədər də sevmirdi. Lakin iki məsələ var ki, onun tarixi cəhətdən müdafiə olunmasına əsas verir, bu onun İrana qarşı mübarizəsi və Rusiyaya meyllənməsidir. İranlılara qarşı vuruşmaq məqsədilə o, həmin dövrdə Azərbaycanda çox olan xanlıqları birləşdirmək istəyirdi. Birləşmək özü artıq mütərəqqi hadisə idi". M.C.Bağırov qurultaydakı yekun sözündə Heydər Hüseynova, Mirzə İbrahimova, xüsusilə Səməd Vurğuna və Azərbaycan alimlərinə üzünü tutaraq bütün bu hallara qarşı mübarizə aparmağın zəruri olduğunu bildirirdi. Son olaraq o deyirdi: "Dağlar, qızılgüllər və s. haqqında yazmaqla qurtarmağın vaxtıdır. Sonuncu dəfə mən "Oqonyok"da turac haqqında (görünür, Azərbaycan şairlərindən kiminsə şeri olub - C.H.) oxudum. Turac əlbəttə ki yaxşı şeydir, xüsusi ilə plovla, lakin bizdə turacdan başqa qartal da var, aslan da var, bunlar haqqında da yazmaq lazımdır (69).

Azərbaycan kommunist partiyasının qurultayından dərhal sonra M.C.Bağırov fevral ayının 2-də onun yekunları barədə İ.Stalinə məktub yazdı. Bu məktubda o, qurultayın ideoloji məsələlərə böyük diqqət yetirdiyini İ.Stalinin nəzərinə çatdırırdı. Bağırov yazırdı: "Hesabat məruzəsini və qurultaydakı yekun sözümü Sizə göndərirəm. Çox xahiş edirəm vaxt tapıb heç olmasa yekun sözünü oxuyun, fikrimcə mən orada vacib bildiyim məsələlərə toxunmalı olmuşam". Yekun sözündə M.C.Bağırov Sergey Şaumyanla bağlı dedikləri barədə İ.Stalinə məlumat verir, antisovet

ünsürlərlə əlaqədə onun dərinə getdiyini ehtimal edirdi. O, həbs olunmuş A.Avakyanın gündəliyində Sergey Şaumyan haqqında olan şübhəli məqamları və onun əleyhinə verilən ifadələri də İ.Stalinə göndərdiyi məktuba əlavə edirdi. Sonda M.C.Bağırov İ.Stalindən SSRİ Yazıçılar İttifaqına və digər ittifaq təşkilatına göstəriş verməsini xahiş edirdi ki, Azərbaycan xalqının tarixi, Azərbaycan partiya təşkilatının tarixi, Azərbaycan mədəniyyəti, ədəbiyyatı və sənəti ilə bağlı məsələlərdə onlar Azərbaycan rəhbərliyinə etinasızlıq etməsinlər, onunla məsləhətləşsinlər (70).

Azərbaycan rəhbərliyinin bu müraciətinə elə bir ciddi reaksiya olmadı. Respublika ətrafında gedən söz-söhbətlər, xüsusilə Azərbaycana qarşı olan ərazi tələbləri daha intensiv xarakter almağa başladı. M.C.Bağırov hiss edirdi ki, istər ölkə xaricində və istərsə ittifaq daxilində Azərbaycana qarşı güclü bir şəbəkə fəaliyyət göstərir. O, bütün bunların onun üçün və rəhbərlik etdiyi respublika üçün yaxşı qurtarmayacağından ehtiyatlanırdı. Fevral ayının 2-də göndərdiyi məktubdan az sonra M.C.Bağırov 1949-cu ilin mart ayının 7-də İ.Stalinə daha geniş və izahlı məktubla müraciət etdi. Məktubda toxunulan məsələlərlə bağlı ona əlavə edilən 14 sənədin 10-u bilavasitə ermənilərin xarici ölkələrdə və ölkə daxilində Azərbaycana qarşı irəli sürdükləri ərazi tələbləri ilə bağlı idi. Əlavə materialların Kremldə alınması barədə sənədin altında mart ayının 8-də leytenant Sotkinin qeydi var idi. Orada göstərilirdi ki, yoldaş Poskrebışevin adına olan bağlamanı aldıq (71).

Mart ayının 8-dəki məktubunda M.C.Bağırov bütün baş verənlərə geniş planda yanaşırdı. O, yazırdı: "Son illərdə daşnakların xaricdə davam edən mənfur antisovet işlərində Sovet Ermənistanının ərazisini Sovet Azərbaycanının (Dağlıq Qarabağ, Naxçıvan MSSR, Kirovabad və s.) və Sovet Gürcüstanın (Axalsix, Axalkələk, Borçalı və s.) hesabına genişləndirmək "tələbləri" xüsusi yer tutur. Bunun üçün onlar Azərbaycan və gürcü xalqlarına qarşı heç bir murdar təxribatdan və böhtandan çəkinmirlər. M.C.Bağırov İ.Stalinə təsir etmək məqsədilə onların bu hərəkətlərini beynəlxalq imperializmlə əlaqələndirməyə çalışırdı. O deyirdi: "İngilis-Amerika imperialistlərinin antisovet təbliğatında daşnakları dəstəkləməsi danılmazdır. Bundan əlavə amerikalılar, deyəsən, daşnakların "tələbindən" istifadə edib özlərini Zaqafqaziyada möhkəmlətmək kimi köhnə arzularını həyata keçirmək istəyirlər. Bu günlər amerikalıların daşnakların fəaliyyətində, həmçinin Dağlıq Qarabağ məsələsində iştirakı elə bircə ABŞ-a casusluqda ittiham edilərək həbs edilən Suvaryanın cinayət işindəki arayışlardan da məlum olur. Amerikalıları bütün bunlardan savayı Sovet Azərbaycanının Cənubi Azərbaycana məlum təsiri də narahat edir. İranın bütün zəhmətkeşləri Sovet Azərbaycanı qismində öz dayaqlarını görürlər. Bundan əlavə son illər Zaqafqaziyada, o cümlədən Azərbaycanda yer alan vacib hadisələr haqda bizim ölkədə yazılmış və ya təkrarən dərc edilmiş bəzi kitablar, məqalələr diqqət çəkir.

Bu kitabların və məqalələrin müəllifləri öz işlərini bilməmələri, qeyri-obyektiv olmaları ilə yanaşı, yazdıqlarının məzmunu da böhtan, təxribat xarakterlidir. Onların bu yazılan mahiyyətcə daşnakların dedikləri ilə eyniyyət təşkil edir. Biz bu məsələ ilə bağlı ayrıca olaraq ittifaq miqyaslı təşkilatlara, o cümlədən SSRİ Yazıçılar İttifaqına və hətta partiyamızın Mərkəzi Komitəsinə müraciət etmişik. M.Şaginyanın "Sovet Zaqafqaziyası" kitabı haqda biz 1947-ci ilin 21 iyulunda yoldaş Jdanova məktub göndərmişik. 1948-ci ilin 30 sentyabrında isə yoldaş Q.M.Malenkova Q.Xolopovun yazdığı "Buxtada işıq" kitabı haqda məlumat vermişik. Bundan əlavə, bizim mərkəzi mətbuat orqanlarında - "Literaturnaya qazeta"da, "Oqonyok" jurnalında bəzi xoşagəlməz məqalələr dərc olunub. Mövcud vəziyyət məni Azərbaycan K(b)P-nin XVII qurultayında bu məsələ ətrafında çıxışa məcbur etdi. Bu barədə mən Sizə yazmışdım".

Məktubun sonunda Bağırov yazırdı: "Yoldaş Stalin! Yaranmış bu çox incə məqamın həllində Sizdən savayı heç kim bizə kömək edə bilməz, ona görə də yenidən Sizə müraciət edirəm və təkidlə xahiş edirəm ki, bu işin qaydaya salınmasında köməklik edəsiniz" (72).

Görünür, bütün bunlar və mərkəzin təzyiqləri 1949-cu ilin yazında M.C.Bağırovun səhhətində müəyyən problemlər yaratmışdı. 1948-ci ilin iyul ayının 21-də Siyasi Büro Azərbaycan SSR Nazirlər Sovetinin təsərrüfat və maliyyə fəaliyyətini yoxlamaq üçün Malenkov, Ponomarenko, Kuznetsov, Beriya, Mikoyan, Bağırov və Mehdiyevdən ibarət komissiya təsis etmiş, araşdırmalar nəticəsində bir sıra səhvlər aşkara çıxarılmış, Siyasi Büronun iclasında İ.Stalin bır sıra nöqsanları qeyd etmişdi. Şübhəsiz ki, bütün bunlar respublika rəhbərliyinin mövqelərini xeyli zəiflətmişdi (73). 1948-ci il və 1949-cu ilin əvvəllərinin gərgin hadisələrindən sonra Kreml müalicə sanitar idarəsinin rəyi ilə Siyasi Büro 1949-cu ilin mart ayının 14-də M.C.Bağırova Kreml xəstəxanasında müalicə kursu keçməyə icazə verdi (74).

1949-cu ilin mart ayının 25-də M.C.Bağırov İ.Stalinə göndərdiyi məktubun məzmununa uyğun bir məktubu da A.Mikoyana göndərdi. Eyni zamanda məktubda toxunulan məsələlərlə bağlı ona geniş əlavələr edildi. O, yazırdı: "Əziz Anastas! Azərbaycan K(b)P-nin sonuncu XVII qurultayında mənim hesabat məruzəmi oxuduğuna görə çox şadam. Müharibədən sonra bizim tərəfimizdən sovet hakimiyyətinin barışmaz düşmənlərindən olan çoxlu sayda azərbaycanlı millətçilər, türkpərəstlər və daşnaklar üzə çıxarılaraq ifşa olunub. Sovet Azərbaycanının hüdudlarından kənarda olan, bizim haqq-hesab çəkə bilmədiyimiz adamlara gəlincə, bununla bağlı nəinki qurultayda çıxış etmək, hətta bu barədə yoldaş Stalinə müraciət etmək məcburiyyətində qaldım. Daşnakların xaricdə apardıqları antisovet işlərdə Sovet Ermənistanı ərazisinin ilk növbədə Sovet Azərbaycanı və Sovet Gürcüstanı hesabına genişləndirilməsi haqda

"tələblər" xüsusi yer tutur. Onların bu tələblərinin təsdiqi kimi aşağıdakı sənədləri - daşnakların XIV konqresinin "Daşnaksutyun" partiyasının siyasi platforması haqda 1947-ci il iyun tarixli direktivini sənə göndərirəm..." Bunun ardınca o, İ.Stalinə yazdığı məktubda göstərdiyi sənədlərin adlarını sadalayırdı. Azərbaycan SSR Dövlət Təhlükəsizlik Nazirliyi tərəfindən Amerikadan gələn repatriantlardan olan Suvaryanın həbsi haqqında arayışın təqdim edilməsi də onun tərəfindən unudulmamışdı. M.C.Bağırov yazırdı: "...Faktlar çoxdur. Ancaq mən sənə yalnız M.Şaginyanın "Sovet Zaqafqaziyası" və Q.Xalopovun "Buxtada işıq" kitabları haqqında iki arayış göndərirəm. Bütün sadaladıqlarıma rəğmən Stepan Şaumyanın oğullarının hərəkətləri ümumiyyətlə yolverilməz hesab olunmalıdır. Levon Şaumyan "Literaturnaya qazeta" və "Oqonyok" jurnalında bir qədər müəmmalı çıxışlar edib. Hələ onun Məşədi Əzizbəyovun və digərlərinin ünvanına söylədikləri fikirlərdən isə danışmaq belə istəmirəm. Sergey Şaumyan isə Bakıda olan zaman Azərbaycan KP(b) MK-dan xəbərsiz öz atası haqda kitab yazmaq üçün Avakyan soyadlı birisi ilə əlaqələr qurub, onunla bu barədə danışıqlar aparıb. Avakyanın kim olduğu haqqında məlumatın olsun deyə, onun haqqında arayışı sənə göndərirəm. Vaxtının məhdud olduğunu bilsəm də, sənə göndərdiyim bütün sənədlərlə tanış olacağına ümidvaram" (75).

M.C.Bağırovun A.Mikoyana göndərdiyi məktuba əlavə olunan sənədlərin siyahısı üzərində 1949-cu ilin may ayının 9-da A.Mikoyanın həmin sənədləri oxuması barədə qeydləri vardır (76).

Respublikanın muxtar qurumlarını hədəfdən yayındırmaq üçün M.C.Bağırov 1948-ci ilin may ayının 12-də Siyasi Büroda DQMV-nin, 1949-cu ilin mart ayının 19-da Naxçıvan MSSR-in yaranmasının 25 illiyinin bayram edilməsi barədə Siyasi Büroda qərar qəbul edilməsinə nail oldu. 1949-cu ilin aprel ayının əvvəllərində Naxçıvanın 25 illiyinin bayram edilməsi ilə bağlı İ.Stalinə yazdığı məktubda o, Böyük Vətən Müharibəsi günlərində Naxçıvan MSSR-in fəhlə, kolxozçu və ziyalılarının fədakarlıqla çalışdıqlarını, cəbhənin və arxanın sənaye və kənd təsərrüfatı məhsulları ilə təmin edilməsi işinə töhfə verdiklərini qeyd edirdi. Məktubun sonunda Naxçıvanın qabaqcıl adamlarının siyahısı verilir və onların SSRİ orden və medalları ilə təltif edilməsi xahiş edilirdi (77). 1949-cu ilin may ayının 27-də Siyasi Büro Naxçıvan MSSR-in kənd təsərrüfatı, sənaye, elm, mədəniyyət və incəsənət işçilərinin SSRİ orden və medalları ilə təltif olunmaqları barədə Bakıdan göndərilən siyahını təsdiq etdi. Bu yubileyin geniş qeyd edilməsi Naxçıvanın qorunub saxlanmasında və "inkişafında mühüm hadisə oldu.

M.C.Bağırovla yanaşı, Gürcüstan kompartiyasının katibi K.Çarkviani də Cənubi Qafqazda erməni millətçiliyinin artması və qonşu respublikaların əraziləri hesabına "Böyük Ermənistan" yaradılması cəhdlərindən

narahatlıq keçirirdi. Onun "Zaqafqaziyada erməni millətçilərinin fəaliyyəti haqqında" İ.Stalinə yazdığı məktub gürcü ərazilərinə ermənilərin irəli sürdüyü tələblər, erməni burjua millətçiliyinin qarşısının alınması və s. məsələləri əhatə edirdi. İ.Stalin məktubda göstərilən məsələləri araşdırmaq üçün onu L.Beriyaya göndərdi (78). Araşdırmalar 1949-cu ilin əvvəllərində xarici ermənilərin repatriasiya prosesinin dayandırılması ilə nəticələndi. 1949-cu ilin fevralında ABŞ-dan yola düşən 162 nəfər erməni repatriantların sonuncu nümayəndələri oldular. 1948-ci ilin sentyabr ayının 1-də repatriantları gətirən və Batum limanına gələn "Pobeda" teploxodunda baş verən yanğın da öz növbəsində belə bir qərarın qəbul edilməsində müəyyən rol oynadı. Bununla bağlı şübhələnən İ.Stalin Q.Malenkova teleqramda yazırdı: "Erməni repatriantların içərisində "Pobeda" teploxodunda diversiya hazırlamış Amerika agentləri vardır". Q.Malenkov bir gün sonra raport verdi ki, "Siz, əlbəttə haqlısınız. Bütün zəruri ölçüləri götürərik". Araşdırmalar nəticəsində 1948-ci ilin sentyabr ayının 14-də SSRİ Nazirlər Soveti 1949-cu ildən etibarən ermənilərin xaricdən Sovet Ermənistanına repatriasiyasının dayandırılması haqda gizli qərar qəbul etdi (79). Beləliklə, 1946-1949-cu illərin "böyük repatriasiyası" dövründə nəzərdə tutulan 360-400 min əvəzinə dünyanın 12 ölkəsindən 90 min erməni Sovet Ermənistanına qayıtdı və Sovetlərin Türkiyəyə qarşı yönəltdiyi bu plan iflasa uğradı.

Lakin məsələ yalnız bununla bitmədi. 1949-cu ilin aprel ayının 4-də ÜİK(b)P MK-nın Siyasi Bürosu iki mühüm qərar qəbul etdi. Bunlardan birincisi "Ermənistan və Azərbaycan SSR-də yaşayan daşnakların sürgün edilməsi haqqında" idi. Ermənistan və Azərbaycan Sovet respublikalarını siyasi baxımdan şübhəli adamlardan təmizləmək məqsədilə Siyasi Büro qərara alırdı: SSRİ Dövlət Təhlükəsizliyi Nazirliyinə tapşırılsın ki, Ermənistan və Azərbaycan SSR-də yaşayan daşnaklar Daxili İşlər Nazirliyi orqanlarının nəzarəti altında Altay diyarına əbədi sürgün edilsinlər. Qərarın ikinci bəndinə əsasən bilavasitə sürgün edilən şəxslərə məxsus qiymətli şeyləri, ev əşyalarını (paltar, qab-qaşıq, xırda kənd təsərrüfatı, sənətkarlıq alətləri və ev inventarları) və ailə başına ümumi çəkisi 1000 kiloqrama qədər olan ərzaq ehtiyatının özləri ilə götürməyə onlara icazə verilirdi. Siyasi Büronun qərarının üçüncü bəndində SSRİ Daxili İşlər Nazirliyinə tapşırılırdı ki, sürgün edilənlərin müşayiət edilməsini təmin etsin, onların dəmir yolu ilə daşınmasına və Altay diyarında yeni yaşayış yerində yerləşdirilməsinə nəzarət etsin. Qərara görə qaçış halları istisna edilirdi (80).

Siyasi Büronun aprel ayının 4-də qəbul etdiyi ikinci qərar "Zaqafqaziyada və Qara dəniz sahillərində yaşayan türk vətəndaşlarının, vətəndaşlığı olmayan türklərin və Sovet vətəndaşlığını qəbul etmiş keçmiş türk vətəndaşlarının sürgün edilməsi haqqında" idi. Bu qərarın bütün

bəndləri, türklərin Zaqafqaziya və Qara dəniz sahillərindən sürgün edilməsinin səbəbləri, sürgünün forması və həyata keçirilmə qaydaları, demək olar ki, əvvəlki qərar ilə eyni idi. Qərarların mətnində görünən yeganə fərq sürgün yerinin seçilməsində idi. Daşnaklardan fərqli olaraq türklər Tomsk vilayətinə əbədi sürgünə göndərilirdilər. Lakin həmin qərarların məzmununda ilk baxışda hiss edilməyən ən böyük fərq daşnakların siyasi orientasiyasına, türklərin isə milli kimliklərinə görə sürgün edilməsi idi (81).

Gürcüstan SSR rəhbərliyinin müraciətindən sonra Siyasi Büro 1949-cu ilin aprel-may aylarında yenidən iki dəfə bu məsələyə qayıtdı. Aprel ayının 11-də Siyasi Büro "Gürcüstan SSR-də yaşayan daşnakların köçürülməsi haqqında" və may ayının 17-də isə "Yunan tələbələrinin, indiyə qədər vətəndaşlığı olmayan yunan tələbələrinin, Sovet vətəndaşlığını qəbul etmiş keçmiş yunan tələbələrinin sürgün edilməsi haqqında" qərar qəbul etdi. Gürcüstanda yaşayan daşnaklar da birinci qərarda olduğu kimi əbədi sürgün həyatını Altay diyarında keçirməli idilər. Yunanlar isə Qazaxıstan SSR-in Cənubi Qazaxıstan va Cambul vilayətlərinə əbədi sürgünə göndərilirdi. Yunanların sürgün edilmə qaydaları əvvəlki qərarla eyni idi (82). İlkin hesablamalara görə, Gürcüstanda yaşayan on mindən artıq yunan millətindən olan şəxslərə bu qərar şamil edildi. Gürcüstan SSR Statistika İdarəsinin rəisi A.Xaqidzenin 1939-cu il Ümumittifaq siyahıya alınmasına əsasən 50-ci illərin ortalarında hazırladığı Gürcüstanın bir sıra rayonlarında əhalinin milli tərkibi haqqında arayışda Qara dəniz sahillərində və Gürcüstanın bəzi rayonlarında yaşayan yunanların sayı 8334 nəfər olduğu göstərilirdi (83).

Bir müddət sonra 1949-cu ilin may ayının 29-da SSRİ Nazirlər Soveti Gürcüstan, Ermənistan və Azərbaycan SSR ərazilərindən, habelə Qara dəniz sahillərindən sürgün edilənlərin daşınmasını və işə düzəldilməsini təmin etmək haqqında 9 bənddən ibarət qərar qəbul etdi.

Qərara görə, SSRİ dövlət təhlükəsizlik, daxili işlər, yollar, maliyyə, çay donanması, ticarət, səhiyyə, neft sənayesi nazirlikləri, dövlət təchizat komitəsi, Altay diyar komitəsi, Cənubi Qazaxıstan, Cambul və Tomsk vilayət icraiyyə komitələrinin üzərinə sürgün prosesini həyata keçirmək üçün müvafiq tapşırıqlar qoyulurdu.

1949-cu ilin iyun ayından etibarən qəbul olunmuş qərarların icrasına başlandı. Qabaqcadan hazırlanmış siyahılara uyğun olaraq iyun ayının 14-də 12 min erməni Altay diyarına sürgün edildi. Onların içərisində yaxın keçmişdə Sovet Ermənistanına xaricdən gəlmiş repatriantlar da az deyildi (84). Bundan sonra daşnakların xaricdə də təqib edilməsi işi gücləndirildi. SSRİ Dövlət Təhlükəsizliyi nazirinin müavininin imzası ilə Ermənistan, Gürcüstan, Azərbaycan və Türkmənistan SSR Dövlət Təhlükəsizliyi nazirliklərinə göndərilən son dərəcə məxfi məlumatda xaricdəki daşnak təşkilatlarının qəti olaraq Amerika kəşfiyyat orqanlarının xidmətinə keçdiyi,

Misir, Suriya, Livan və İranda daşnakların Amerika kəşfiyyatı tərəfindən verilən maddi yardım əsasında xüsusi "təhlükəsizlik orqanlarının yaradıldığı, eyni zamanda daşnaklara qarşı agentura işinin gücləndirilməsinin zəruriliyi bildirilirdi (85).

Siyasi Büronun 1949-cu ilin aprelində qəbul olunmuş qərarı ilə türklərin Qara dəniz sahillərindən və Zaqafqaziyadan təmizlənməsi istiqamətində SSRİ Dövlət Müdafiə Komitəsinin 30 iyul 1944-cü il qərarı ilə başlanmış proses başa çatdırıldı. Türkiyə və Yunanıstan hökumətləri türklərin və yunanların Qafqazdan sürgün edilməsinin səbəblərini öyrənmək üçün SSRİ-yə sorğu ilə müraciət etsələr də, SSRİ Xarici İşlər Nazirliyinin tövsiyəsi ilə onların sorğularına cavab verilməsinin yubadılması Siyasi Büronun 1950-ci il may ayının 20-də keçirilən iclasında məqsədəuyğun hesab edildi (86).

1951-ci ilin noyabr ayının 29-da ÜİK(b)P MK-nın Siyasi Bürosunda "Düşmən ünsürlərin Gürcüstan SSR-in ərazisindən sürgün edilməsi haqqında" qərar qəbul edilməklə Güney Qafqazda "təmizləmə" işləri başa çatdırıldı. Qərara görə, Gürcüstan kompartiyasına və respublika Dövlət Təhlükəsizliyi Nazirliyinə tapşırılırdı ki, casusluq və pozuculuq hərəkətlərində ifşa olunmuş şəxslər yerindəcə həbs olunsunlar və məhkəməyə verilsinlər. Siyasi Büro tərəfindən təsdiq olunan SSRİ Nazirlər Sovetinin "Düşmən ünsürlərin Gürcüstan SSR-in ərazisindən sürgün edilməsi haqqında" qərar layihəsi bu istiqamətdə qəbul olunmuş qərarlarla eyni məzmuna malik idi (87).

Beləliklə, 1945-ci ilin sonlarında SSRİ-nin Türkiyəyə qarşı güclənən təzyiqləri fonunda Güney Qafqaz respublikaları arasında başlanmış əsəb savaşı soyuq müharibənin müstəsna bir epizodu olaraq Sovet rəhbərliyi tərəfindən repressiv metodların tətbiqi ilə tədricən səngiməyə başladı. Bu proses 53 min azərbaycanlının Ermənistandan Sovet Azərbaycanına deportasiya edilməsi, siyasi orientasiyasına görə şübhəli sayılan ermənilərin (daşnakların - C.H.) Cənubi Qafqaz respublikalarından Altay diyarına sürgün edilməsi, Zaqafqaziyanın və Qara dəniz sahillərinin türklərdən təmizlənməsinin başa çatdırılması və yunan millətindən olan ailələrin Qazaxıstana əbədi sürgünə göndərilməsi ilə nəticələndi. Bütövlükdə Güney Qafqaz Respublikalarında bu dövrdə baş verən ziddiyətli hadisələr Sovet-Türkiyə münasibətləri ilə bilavasitə bağlı idi.

## X FƏSİL
## Trümen doktrinası və Sovet təhdidinin güclənməsi

1946-cı ilin dekabrında Güney Azərbaycanda Sovetlərin yardımı ilə başlanmış milli hərəkat məğlub oldu və milli təsisatlar dağıdıldı. ABŞ və İngiltərə bu qarşıdurmada Sovet İttifaqına qalib gəldilər, onu Yaxın Şərqin çox əhəmiyyətli bir strateji məntəqəsindən çıxardılar. Azərbaycan hadisələrində SSRİ-nin məğlubiyyəti onun Türkiyə üzərində təsir imkanlarını azaldır və türk ictimaiyyəti bu məğlubiyyətin ona rahatlıq gətirəcəyini düşünürdü. Sovetlərin Azərbaycanda məğlubiyyətini türk mətbuatı onun Yaxın Şərqdə nüfuzuna vurulmuş ağır zərbə kimi şərh edirdi. Türk qəzetlərinin fikrincə, Qəvam əs-Səltənənin Azərbaycanı işğal etməyə qərarlı olması ilk növbədə Amerika və İngiltərə hökumətlərinin onu müdafiə etmələri, Sovetlərin İran hökumətinə maneçilik cəhdlərinin tükənməsi ilə bağlı idi. Bununla yanaşı, türk mətbuatı ehtiyat edirdi ki, keçmişdə Sovetlərə sədaqətli olan adam kimi Qəvam əs-Səltənə İranda öz mövqeyini möhkəmləndirmək üçün Azərbaycanın İrana birləşdirilməsini Sovet rəhbərliyi ilə razılaşdıra bilərdi. Buna türk mətbuatı çox qorxulu meyl kimi baxırdı (1).

Eyni zamanda Yunanıstanda baş verən hadisələr və bu ölkədə Sovet planlarının baş tutmaması, partizan müharibəsi nə başlamış yunan kommunistlərinin məğlubiyyəti ilk növbədə ABŞ və İngiltərənin Yunanıstan hökumətinə yardımı ilə bağlı idi. Yunanıstan hadisələrinə toxunan Birləşmiş Ştatların müdafiə naziri prezident H.Trümeni məlumatlandırmışdı ki, bu ölkə üzərində Sovet nəzarətinin qurulması SSRİ-nin Şərqi Aralıq dənizi regionunda dominantlığına, Türkiyənin təcrid edilməsinə, Yaxın və Orta Şərq ölkələrinə təzyiqlərin güclənməsinə gətirib çıxara bilər (2). Bu təhlükəni nəzərə alaraq ABŞ və Britaniya 1946-cı ilin payızında yunan partizanlarına və onların xarici müdafiəçilərinə qarşı öz səylərini birləşdirmiş, Böyük Britaniya Yunanıstan hökumətinə bilavasitə hərbi cəhətdən, Birləşmiş Ştatlar isə iqtisadi cəhətdən köməklik göstərməyə qərar vermişdilər. Bu yardımlar 1946-cı ilin sonlarında öz nəticəsini vermiş, Yunanıstanda Sovet siyasəti ciddi məğlubiyyətə uğramışdı. Yunanıstanın şimalındakı partizanların Moskvanın göstərişi ilə qonşu slavyan ölkələri tərəfindən müdafiə olunması barədə türk mətbuatı çoxsaylı yazılar vermişdi. Yunanıstanda hərbi əməliyyatların getdiyi və vətəndaş müharibəsinin alovlandığı ərazilər türk-yunan sərhədləri boyunca yerləşirdi. Sovetlərin bu ərazilərdə təşəbbüsü ələ keçirməsi Türkiyəni qərbdən sıxmaq üçün ona əlavə imkanlar verirdi. Baş nazir R.Pekerin 1946-cı ilin oktyabrında Frakiyaya səfəri bilavasitə yunan-türk sərhədlərində yaranmış təhlükəli vəziyyətlə bağlı idi. Bundan əlavə,

Sovetlərin diqtəsi ilə yunan partizanlarının Qərbi Frakiyada türk əhalisini təqib etməsi barədə bir sıra məlumatlar hökumətə daxil olmuşdu. Eyni ilə belə məlumatlar Sovet təsir dairəsinə düşmüş Yuqoslaviya və Bolqarıstandan da alınmaqda idi (3). Bütün bunlara görə Türkiyə Sovetlərdən və Sovet əlaltılarından yardım alan yunan partizarılarının məğlubiyyətində, ölkənin qərb sərhədlərində stabil vəziyyətin yaranmasında bilavasitə maraqlı idi. Azərbaycanla yanaşı Yunanıstanda da Sovetlərin məğlubiyyəti türk rəsmilərində SSRİ-nin Türkiyəyə yönəlik siyasətində dəyişiklik edəcəyinə ümidlərini artırmışdı.

1946-cı ilin dekabr ayının 30-da ABŞ səfiri E.Vilsonla söhbətdə Türkiyə Xarici İşlər Nazirliyinin Baş katibi F.C.Erkin belə bir ehtimal irəli sürmüşdü ki, İran və Yunanıstanda güzəştə getdikdən sonra SSRİ tezliklə Türkiyə ilə münasibətləri nizamlama prosesini gözdən keçirə bilər. O qeyd edirdi ki, əgər Sovet hökuməti məntiqli mövqe nümayiş etdirsə, Türkiyə öz müstəqilliyi və suverenliyi çərçivəsində hər hansı qanuni Sovet tələbini həyata keçirmək üçün əlindən gələni etməlidir (4). Lakin amerikanlar türk rəsmilərinin həddindən artıq tez gəldikləri bu qənaəti bölüşmürdülər. ABŞ-ın Moskvadakı səfiri U.Smit 1947-ci ilin yanvar ayının 8-də Dövlət katibinə göndərdiyi teleqramda yazırdı: "Biz Sovet İttifaqının Azərbaycandan sıxışdırılıb çıxarılmasının Kremlin Türkiyədə strateji cəhətdən möhkəmlənmək istəyindən əl çəkə biləcəyi ehtimalına işarə olduğuna şübhə ilə yanaşırıq. Bizim Kremlin İranın suverenliyinə təcavüz cəhdlərini bərpa edəcəyinə və Türkiyənin suverenliyinə təcavüz cəhdlərini davam etdirəcəyinə heç bir şübhəmiz yoxdur. Sovetin Türkiyə ilə bağlı siyasəti yalnız Erkinin dediyi kimi təhlükəsizlik baxımından deyil, həm də Aralıq dənizi və ərəb dünyasına sərbəst gediş-gəliş əldə etmək istəyi, habelə Britaniya imperiyasının Süveyşdki ağalığına son qoymaq niyyəti ilə əsaslandırıla bilər. Kreml üçün Türkiyə həm SSRİ-yə hücum üçün dəhliz, həm də Sovetlərin öz məqsədlərinə nail olmasına maneədir. Bu səbəbdən də SSRİ Türkiyəni təsir altına almayana kimi, nə öz cənub-qərb sərhədlərinin təhlükəsizliyinə, nə də ki, özünün Yaxın Şərqə təcavüz kursunda əsaslı irəliləyişə nail olmadığını hesab edəcək". Sovet siyasətini yaxından izləyən bir diplomat kimi U.Smit xəbərdarlıq edirdi ki, SSRİ-nin mülayim münasibətindən, yaxud qanuni tələblərindən danışmaq aldadıcıdır. Türkiyəni istila etmək siyasətinin əsası car dövründə qoyulub və kommunistlərin hökmü ilə gücləndirilib. Sovet hərəkətlərinin istənilən təzahürləri ani mənfəət əldə etmək üçün taktiki manevrlər olacaq. İstənilən fəaliyyətsizlik və ya aşkar etinasızlıq zaman məsələsi olacaq, hərəkət etmək üçün ən əlverişli vaxt seçiləcək. Əgər Sovetlərin Türkiyəyə təcavüzünün gərgin müzakirələrdən sonra baş verəcəyi güman edilirsə, unudulmamalıdır ki, Sovetin siyasəti müəyyən atributlara malikdir və bu atributların əksəriyyəti daimidir (5).

ABŞ səfiri U.Smitin mülahizələrinin doğru olduğu qısa müddətdə təsdiqləndi. 1947-ci ilin ilk günlərində Sovetlər Türkiyəyə qarşı əlavə təzyiq imkanı əldə etmək üçün Hatay məsələsi ilə bağlı Suriyanı BMT Təhlükəsizlik Şurasına müraciət etməyə təhrik edirdi. Bu məsələ barəsində 1947-ci il yanvarın əvvəllərində Ankaradakı Sovet işlər vəkili ilə Suriya səfiri arasında gizli müzakirələr olmuşdu və P.Yerşov bu barədə Moskvaya məlumat vermişdi. Bu məlumatı müzakirə etdikdən sonra yanvar ayının 26-da V.Dekanozov P.Yerşova tapşırıq vermişdi ki, əgər Sovet İttifaqının mövqeyini öyrənməklə bağlı Suriya səfiri ona ikinci dəfə müraciət etsə, səfirə demək lazımdır ki, Aleksandretta sancağı ilə bağlı Suriya Təhlükəsizlik Şurasına müraciət edəcəyi halda Sovet İttifaqı Suriyanı müdafiə edəcəkdir (6).

Sovetlərin bu niyyəti təkcə Türkiyəyə təzyiq edilməsi ilə bağlı olmayıb, eyni zamanda bir sıra ərəb ölkələrinin Türkiyə ilə Yaxınlaşmasının qarşısını almaq məqsədindən irəli gəlirdi. Hələ 1946-cı ilin noyabrında Türkiyə XİN-nin Baş katibi F.C.Erkinin rəhbərliyi ilə Transiordaniyaya türk nümayəndə heyəti göndərilmiş və Ankaraya rəsmi səfərə gəlmək üçün kral Abdullaya Türkiyə hökumətinin dəvəti verilmişdi. 1947-ci ilin yanvarında baş tutmuş bu səfər zamanı Türkiyə ilə Transiordaniya arasında müqavilə imzalanmışdı. Kral Abdullanın Ankaraya səfəri Suriya istisna olmaqla demək olar ki, bütün ərəb ölkələri tərəfindən müsbət qarşılanmışdı. Suriya mətbuatı isə Ankarada imzalanan Türkiyə-Transiordaniya müqaviləsinin mahiyyətini və məqsədlərini təhrif edən, Yaxın Şərqdə ingilis-türk siyasətini ciddi şəkildə tənqid edən yazılarla çıxış etmiş, Hatay və Kilikiyanın qaytarılmasını tələb edən məqalələr vermişdilər. Türk mətbuatına belə bir məlumat sızmışdı ki, Suriya hökuməti Hatay məsələsinə baxmaqdan ötrü rəsmi şəkildə Təhlükəsizlik Şurasına müraciət etmək fikrindədir (7).

Suriya ilə Türkiyə arasında ixtilafı qızışdırmaqda xüsusi marağı olan SSRİ Xarici İşlər Nazirliyi Suriyanın rəyini gözləmədən "Aleksandretta sancağı" və "Kilikiya" haqqında geniş arayış hazırlamış və bu mübahisənin BMT Təhlükəsizlik Şurasına verilməsinin zəruriliyini "əsaslandırmışdı". SSRİ Xarici İşlər Nazirliyinin Yaxın Şərq şöbəsinin müdiri İ.Samılovski Türkiyədəki işlər vəkili P.Yerşova, Misirdəki Sovet diplomatik nümayəndəsi A.Şiborinə, Suriya və Livandakı səfir D.Soloda və İraqdakı səfir Q.Zaysevə yazırdı: "Aleksandretta sancağı" və "Klikiya" haqqında arayışı Sizə göndərirəm. Sizin nəzərinizə çatdırıram ki, son zamanlar xarici mətbuatda Suriyanın bu məsələni BMT-nin müzakirəsinə verməsi haqqında bir sıra məlumatlar getmişdir. Rəsmi qaydada bu Suriya hökuməti tərəfindən təsdiqlənməsə də, qeyd edilən məsələnin əhəmiyyətini nəzərə alaraq xahiş edirəm arayış barədə öz fikir və mülahizələrinizi göndərəsiniz" (8).

Türkiyənin ərəb ölkələri ilə yaxınlaşma siyasəti və bu istiqamətdə atılan ilk uğurlu addımlar Sovetlər tərəfindən ciddi narahatlıqla qarşılanırdı. P.Yerşov SSRİ Xarici işlər nazirinin müavini A.Vışinskiyə göndərdiyi məktubda yazırdı: "Etiraf etmək lazımdır ki, ərəb şərqi ilə əlaqələrin qurulmasında Türkiyə müəyyən uğurlar əldə etmişdir. Artıq dostluq haqqında Türkiyə-İraq müqaviləsi və qarşılıqlı yardım haqqında iki ölkə arasında imzalanmış protokol, dostluq haqqında Türkiyə ilə Transiordaniya arasında imzalanmış müqavilə, habelə İraqla Transiordaniyanın indiki münasibətlərinin xarakteri nəzərə alınarsa, "Şərq bloku" kimi görünən bir qurum yaranmağa başlayır. Hazırkı vaxtda Türkiyənin "Şərq bloku" yaratmaq üçün sonrakı cəhdləri Suriyanın özünü necə aparmasında, daha doğrusu Suriyanın iddialarının ərəb ölkələrin tərəfindən müdafiə olunmasından asılı olacaqdır" (9). Ankaradakı Sovet səfirliyi "Şərq bloku"nun yaranmasında və Türkiyənin bu blokda liderlik etməsində Britaniyanın maraqlı olduğunu ehtimal edirdi. Səfirliyin SSRİ Xarici İşlər Nazirliyinə göndərdiyi raportda müxtəlif antisovet blokların yaradılması, o cümlədən "Şərq bloku"nun formalaşmasının İngiltərənin xarici siyasətinin antisovet istiqamətindən irəli gəldiyi və Türkiyənin bu planda necə rol oynadığı göstərilirdi (10).

Öz növbəsində 1947-ci ilin yanvarında Britaniya ordusunun Baş qərargahının rəisi general Montqomerinin Moskvaya səfəri və İkinci Dünya müharibəsinin qəhrəmanlarından biri kimi onun Sovet İttifaqında isti qarşılanması Türkiyə siyasi dairələrinin narahatlığına səbəb olmuşdu. Türklər bunu Sovet İttifaqının anqlo-sakson cəbhəsini yarmağa, İngiltərəni özünə yaxınlaşdırmağa yönəlmiş cəhdi kimi şərh edirdilər. Türkiyədə belə bir şayiə yayılmışdı ki, Montqomeri Moskvada sovet-ingilis baş qərargahlarının birləşmiş komissiyasının yaradılması planını müzakirə edəcəkdir. Eyni ilə həmin vaxtda "Pravda" qəzeti İngilis-Sovet müqaviləsi və müqavilə ilə bağlı E.Bevinlə İ.Stalin arasında olan fikir mübadiləsi haqqında geniş məqalə vermişdi. Bu məsələ ilə bağlı E.Bevinə məktubunda I.Stalinin İngilis-Sovet müqaviləsini onu zəifldən məhdudiyyətlərdən təmizləməyin zəruriliyi barədə təklifi beynəlxalq aləmdə böyük müzakirəyə səbəb olmuşdu. Türkiyə siyasi dairələri Sovet rəhbərinin bu təklifini Britaniyanın SSRİ ilə ittifaqda digər ölkələrdən asılılığının aradan qaldırılması və Londonun SSRİ ilə münasibətdə tamamilə müstəqil olması kimi başa düşürdülər (11). Lakin az sonra Britaniya rəsmilərinin öz mövqelərini açıqlaması Türkiyənin bəzi dairələrində yaranmış mənfi əhvali-ruhiyyəni aradan qaldırdı.

Sovet səfirliyinin Moskvaya göndərdiyi məlumatlarda isə əksinə olaraq Britaniya təsirinin 1947-ci ilin əvvəllərində hələ Türkiyədə güclü olduğu qeyd olunurdu. SSRİ-nin Ankaradakı işlər vəkili P.Yerşov A.Vışinskiyə yazdığı "Türkiyənin xarici siyasəti və Sovet-Türk münasibətləri

haqqında" geniş məlumatda ingilislərin bütün vasitələrlə Peker hökumətinə kömək etdiyi, bir nömrəli düşmən sayılan Sovet İttifaqı ilə üz-üzə dayanan türk xalqının çevik hazırlıq atmosferinin və döyüşkənlik əhvali-ruhiyyəsinin Britaniya tərəfindən müdafiə edildiyi bildirilirdi. P.Yerşov yazırdı: "Öz növbəsində Peker hökuməti də ingilis va amerikanların Türkiyə ərazilərində aerodromlar, radar stansiyaları, donanma üçün təmir bazaları tikilməsi və digər tələblərini məmnuniyyətlə təmin edir. Britaniyanın hərbi təlimatçıları türk ordu hisslərinə və hərbi məktəblərə buraxılır. İş o yerə gəlib çatıb ki, ingilis səfiri Kelli türk valilərini qəbul edir və onlara "zəruri olan məsləhətlər" verir (12). Məclisin sessiyası başa çatdıqdan sonra 1947-ci ilin yanvarında ölkəni gəzən nazirlər əhaliyə izah edirdilər ki, Sovet İttifaqı nəinki Türkiyəni, eyni zamanda ingilis və amerikanları da təhdid edir, ona görə də bu ölkələrin Türkiyəyə göstərdiyi maraq tamamilə qanunidir (13).

Lakin Sovetlər Türkiyədə və Yaxın Şərqdə ingilis siyasətinin zəifləmə əlamətlərini təxminən görürdülər. Sovet səfirliyinin hazırladığı məlumata görə, 1944-cü ildən başlayaraq Türkiyənin xarici ticarətində ön mövqelərə çıxan Britaniya, 1945-ci ildən başlayaraq öz yerini ABŞ-a verməkdə idi. 1945-ci ildə Türkiyənin xarici ticarət dövriyyəsində ABŞ-ın payı 34,2 faizə yüksəlmişdisə, İngiltərənin payı 17,9 faizə enmişdi. P.Yerşov "Türkiyədə ingilis-amerikan münasibətləri haqqında" A.Vışinskiyə göndərdiyi məlumatda Türkiyədə Amerika təsirinin güclənməsinin, Birləşmiş Ştatların "qəyyumluğunun" qurulmasının İngiltərənin Türkiyədən sıxışdırılıb çıxarılması ilə nəticələnəcəyini yazırdı (14).

İkinci Dünya müharibəsində qüvvələr nisbətinin dəyişməsi və Britaniyanın zəifləməsi özünün ilkin təzahürünü Yunanıstan və Türkiyəyə münasibətdə göstərdi. 1947-ci il fevral ayının 24-də İngiltərənin Birləşmiş Ştatlardakı səfiri Dövlət Departamentinə çox maraqlı olan iki nota təqdim etdi. Bu notalarla Britaniya hökuməti Türkiyə və Yunanıstana göstərdikləri yardımları bundan sonra davam etdirə bilməyəcəyini açıqladı və ABŞ-dan xahiş etdi ki, bu iki ölkəyə iqtisadi və hərbi yardım göstərmək vəzifəsini öz üzərinə götürsün. Eyni zamanda Britaniya hökuməti bu məsələdə tələsməyi vurğulayır və hər hansı yubanmanın Türkiyənin va Yunanıstanın müstəqilliyi üçün təhlükə yaradacağını bildirirdi. Britaniya rəsmiləri xəbərdarlıq edirdi ki, bu ölkələrin itirilməsi Orta Şərqin Sovet nəzarətinə keçməsinə yol aça bilər. Bu ölkələrin ehtiyaclarını öyrənmək üçün Britaniya və Amerika Baş qərargah rəislərinin dərhal müzakirələrə başlaması zəruri sayılır. Bu notalar və orada qoyulan məsələlər ABŞ üçün gözlənilməz deyildi. Lakin onlar hadisələrin belə sürətlə baş verəcəyini gözləmirdilər (15).

1947-ci il mart ayının 31-dən etibarən Türkiyə və Yunanıstana göstərilən Britaniya yardımları dayandırılacağından ABŞ ciddi addımlar atmaq

məcburiyyətində qaldı. Britaniya notalarını aldıqdan dərhal sonra yeni təyin edilmiş Dövlət katibi Corc Marşalın müavini D.Açesonun başçılığı ilə yaradılmış xüsusi komitə yardım məsələsini müzakirə etməyə başladı. Müzakirələr nəticəsində Britaniya yardımları dayandırıldıqdan sonra Yunanıstan və Türkiyədə bunun doğura biləcəyi nəticələr ətraflı təhlil edildi, ABŞ tərəfindən yardımın davam etdirilməməsinin arzuolunmaz nəticələri göz önünə alındı (16). Fevral ayının 27-də Dövlət katibi bir gün əvvəl hərbi nazirlik və hərbi dənizçilik nazirliyi ilə keçirdiyi müzakirələrdən sonra hazırlanmış memorandumu prezident Trümenə göndərdi. Orada deyilirdi: "Yunanıstan və müəyyən dərəcədə Türkiyədə çox əhəmiyyətli və zəruri böhran meydana çıxib. Bu böhranın ABŞ-ın təhlükəsizliyinə birbaşa təsiri var. Keçən on gün ərzində bizim Yunanıstandakı nümayəndələrimiz, səfir Mak Vea, cənab Etric və cənab Poster bizi xəbərdar edirdilər ki, iqtisadi çöküş qaçılmazdır. Yunan ordusunun onsuz da aşağı olan döyüş ruhu daha da zəifləyəcək, ölkənin ərazi bütövlüyü və müstəqilliyi təhlükə altına düşəcək. Yunan hökumətinə təcili olaraq lazım olan şey hərbi və sivil əhalinin xarici ticarətdə ehtiyaclarını ödəmək üçün vəsaitlər və kommunist idarəçiliyi altında hökuməti və ölkədəki sakitliyi təhlükəyə məruz qoyan bandit dəstələrini ram etmək üçün müəyyən miqdarda yüngül hərbi avadanlıqdır. İndiyə kimi Britaniya hökuməti yunanların xarici valyuta ehtiyaclarını qarşılayırdı və onlara hərbi avadanlıq verirdi. İndi aydın olur ki, britaniyalıların düşdüyü çətinliklər bu köməyin növbəti həftələrdə göstərilməsinə mane olacaq. Hesablamalara əsasən, ilin qalan dövrü üçün Yunanıstan hökumətinin ehtiyacları 250 milyon dollara çata bilər. Ehtimal olunur ki, növbəti ildə ehtiyaclar daha da artacaq. Yunanlara maliyyə dəstəyindən əlavə həmin vəsaitlərin ölkə ərazisindəki dəmir yollarının, sığınacaq yerlərinin, körpülərin, magistral yolların və s. bu kimi vacib sahələrin bərpasına, işğal və inflyasiya nəticəsində dağılmış sivil xidmətin yenidən təşkil olunmasına yardım göstərilməsi vacibdir. Bizim Yunanıstandakı marağımız heç bir vəchlə humanitar, yaxud dostyana yardımlarla kifayətlənmir. Əgər Yunanıstanda vətəndaş müharibəsi başlasa, onun Sovet nəzarəti altındakı kommunist dövlətinə çevriləcəyinə şübhə yoxdur. Türkiyə mühasirəyə alınacaq və Türkiyədəki şərait öz növbəsində daha da kəskinləşəcək. Bununla da Sovet dominantlığı bütün Orta Şərqdən Hindistanın sərhədlərinə kimi genişlənə bilər. ABŞ-dan başqa heç bir qüvvə bu böhranın öhdəsindən gələ bilməz". Dövlət Departamentində müzakirələrə əsasən C.Marşall yazırdı: "Biz ABŞ-ın Yunanıstana dəstəyinin vəziyyəti qəti olaraq xilas edəcəyi haqqında sizə təminat verə bilmərik, lakin vəziyyətin ABŞ-ın dəstəyi olmadan xilas edilməsinin qeyri-mümkünlüyü aşkar məsələdir. İki yoldan biri seçilməlidir: güc ilə mübarizə aparmaq, ya da öhdəlikləri yerinə yetirə bilməyərək uduzmaq". C.Marşall əlavə edirdi ki,

Türkiyədəki problem bir qədər fərqlidir. Rusların əsəb savaşı aparması bütün türk ordusunun mobil şəkildə saxlanmasına səbəb olmuşdur. Bu da həmin ölkənin iqtisadiyyatı üçün ağır yükdür və Türkiyə özünün hazırkı köhnəlmiş iqtisadi strukturu ilə bu yükü uzun müddət daşımağa qadir deyil (IV).

ABŞ-ın güc nazirliklərinin iştirakı ilə hazırlanmış bu memorandum prezident H.Trümen tərəfindən ciddi qarşılandı və elə həmin gün o, Yunanıstan və Türkiyəyə iqtisadi və hərbi kömək göstərməyə qərarlı olduğunu açıqladı. Yunanıstandan fərqli olaraq Türkiyəyə yardım göstərməyin müəyyən çətinlikləri vardı. Amerika xalqına və konqresə bu yardımın zəruriliyi əsaslandırılmalı idi. Amerika ictimaiyyəti Türkiyə üçün yaranmış təhlükənin Birləşmiş Ştatların həyati maraqlarına qarşı yönəldiyini qəbul etməli idi. Bu işdə Dövlət katibi C.Marşall, onun müavini D.Açeson, Senatın Xarici İşlər Komitəsinin sədri A.Vandenberq və ABŞ-ın qərargah rəisləri kimi nüfuzlu şəxslərin iştirakı ilə keçən iclasın mühüm rolu oldu. İclasda Yunanıstana təcili yardım göstərməyin zəruriliyi meydana çıxdı. Türkiyənin ehtiyaclarını öyrənmək üçün artıq zamanın qalmadığı dilə gətirildi. Son anda razılığa gəlindi ki, konqresdən Türkiyə üçün istəniləcək yardımın həcmini Baş qərargah rəisinin 1946-cı ilin 23 avqustunda hazırladığı raportla əsaslandırsınlar. Həmin raportda Türkiyəyə veriləcək yardımlar bu ölkənin Sovet təzyiqlərinə qarşı dirəniş göstərməyə təşviq edilməsi və Türkiyənin müdafiə qabiliyyətinin ehtimal olunan Sovet hücumunun qarşısının alına biləcəyi səviyyədə yaxşılaşdırılması ilə izah olunurdu.

1947-ci il mart ayının 1-də jurnalistlər ilə görüşündə Baş nazir R.Peker Türkiyə hökumətinin ABŞ və İngiltərə ilə münasibətlərə və xüsusilə iqtisadi əlaqələrin inkişafına böyük əhəmiyyət verdiyini bildirdi. Ölkənin iqtisadi həyatından danışan R.Peker Türkiyənin 500 milyon dollar xarici kreditə ehtiyacı olduğunu dilə gətirdi. Eyni zamanda o, xarici işlər nazirlərinin Moskvada keçirilən görüşündə Türkiyə üçün həyati əhəmiyyəti olan məsələlərin müzakirə oluna biləcəyi ehtimalını jurnalistlərə bildirdi (18). R.Peker jurnalistlərə deyirdi: "Türkiyə üçün həyati əhəmiyyəti olan məsələlərin Moskvada müzakirə edilməsi bütövlükdə ehtimal ediləndir və biz şübhəsiz ki, buna diqqət yetiririk. Tamamilə təbiidir ki, biz bu ehtimallara görə ittifaq və dostluq telləri ilə bağlandığımız dövlətlərlə zəruri əlaqələri yaratmışıq". R.Peker xarici İşlər nazirlərinin Moskva görüşündə daha çox Boğazlar məsələsinin müzakirə edilə biləcəyindən ehtiyatlanırdı (19). Xarici işlər nazirlərinin Moskva konfransı işə başladıqdan iki gün sonra prezident H.Trümenin Yunanıstana və Türkiyəyə yardım göstərilməsi barədə konqresə müraciət etməsi konfransın sonrakı gedişində V.Molotov və A.Vışinskinin Türkiyəyə münasibətdə sərt mövqe tutması ilə nəticələndi. Sovet nümayəndələrinin

Türkiyəyə münasibətdə düşmən mövqeyi Almaniya ilə sülh müqaviləsinin hazırlanmasında hansı ölkələrin iştirak etməsi məsələsi müzakirə edilən zaman meydana çıxmışdı. Bu məsələ ilə bağlı çıxış edən A.Vışinski Türkiyənin xarici siyasəti haqqında sərt ittihamla çıxış etmiş, onu Almaniya ilə əməkdaşlıqda günahlandırmışdı. Eyni mövqeyi V.Molotov da konfransdakı öz bəyanatında nümayiş etdirmişdi. V.Molotov Almaniya ilə sülh müqaviləsinin imzalanmasında iştirak edəcək 12 dövlətin adını çəkərək demişdi: "Aydın deyil ki, bu dövlətlərin sırasına necə Paraqvay, Türkiyə və Filippin kimi dövlətləri daxil etmək olar" (20).

1947-ci ilin mart ayının əvvəllərində artıq türk mətbuatında belə məlumatlar getməyə başlamışdı ki, ABŞ Yaxın vaxtlarda Britaniyanın Yunanıstan və Türkiyə qarşısındakı öhdəliklərinin bir hissəsini, o cümlədən bu ölkələrin ordusunun silahlandırılması və təlimin yenidən təşkili ilə bağlı məsələləri öz üzərinə götürməyi qərara almışdı. Bu səpkidə məlumatlar Amerika və Britaniya mətbuatında da yayılmağa başlamışdı. Hətta sensasiya yaratmamaq üçün Türkiyə mətbuat bürosu hökumətin tövsiyəsi ilə həmin yazıların türk qəzetlərində getməsinə icazə verməmişdi. Mart ayının 4-də bu məsələ ilə bağlı gedən bütün yazılar Türkiyə Nazirlər Kabinetinin iclasında müzakirə edilmişdi. Prezident İ.İnönü xarici işlər naziri H.Sakaya göstəriş vermişdi ki, İngiltərənin Türkiyəyə yardımı dayandırmaq haqqında ABŞ-a təqdim etdiyi notalarla bağlı vəziyyəti aydınlaşdırmaq üçün Amerika səfiri ilə görüşsün. Elə həmin gün H.Saka səfir E.Vilsonu yanına dəvət etdi və yaranmış vəziyyətdən Türkiyə hökumətinin ciddi şəkildə narahat olduğunu bildirdi. O dedi ki, keçmişdə Türkiyə hərbi avadanlığın təchizatı üçün Britaniyaya bel bağlayıb. H.Saka 1946-cı ilin fevralında Londonda olarkən Türk Ordusu üçün 80 milyon lirə dəyərində alınması zəruri olan avadanlığın siyahısını Bevinə təqdim etdiyini dedi. Lakin Britaniya satışı yalnız nəğd pula həyata keçirmək, Türkiyə isə siyahıdakıları kreditlə almaq istədiyindən nəğd əsasda alınan bir neçə aeroplandan başqa heç bir alış-veriş baş verməmişdi. Saka dedi ki, bizim hərbi attaşemiz Türkiyənin hərbi ehtiyacları barədə keçən payız məlumatlandırılıb və indi Saka xahiş etdi ki, polkovnik Roberts gecikmədən Baş Qərargaha çağırılsın və hazırkı tədbirlər barədə məlumatlandırılsın. O dedi ki, əgər mətbuatda gedən məqalələr doğrudursa, onda Türkiyə əvvəllər Britaniyadan aldığı hərbi avadanlıqla bağlı yardım üçün ABŞ-a müraciət etməlidir. O, vurğuladı ki, Türk Ordusunun 80 faizə qədəri alman avadanlıqları ilə təchiz olunur və əgər ABŞ müharibə zamanı ələ keçirdiyi alman avadanlıqlarını göndərə bilsə, bu, çox faydalı olar. O əlavə etdi ki, Türkiyə hökuməti ödəməni nəqd pulla həyata keçirə bilməyəcəyi üçün kredit şərtləri müəyyən etməlidir.

Bundan əlavə Saka söylədi ki, əgər gözlənilən beynəlxalq böhran haqqındakı xəbərlər doğrudursa, Türk Ordusunun hər hansı təhlükəyə hazır

olmaq üçün təcili addımlar atılmalıdır və bu sahədə onun ABŞ-ın köməyinə ehtiyacı olacaq. E.Vilson söylədi ki, əgər Britaniya ABŞ-a notalar göndəribsə, ona belə gəlir ki, bu, bir neçə müddətdir ki, formalaşmaqda olan vəziyyətin daha da gərginləşməsi deməkdir. Britaniyalılar iki böyük savaşa tab gətiriblər və indi iqtisadi böhran şəraitində yaşayırlar. Bununla belə, E.Vilson Britaniyanın bu sahədə vacib öhdəliyini yerinə yetirmək iqtidarında olmadığına inanmadığını və bunu britaniyalıların hazırkı iqtisadi böhran nəzərə alınarsa iqtisadi əməkdaşlıq axtarışları ilə izah etməyə çalışdı. Türkiyəyə gəldikdə isə o dedi ki, yeganə təhlükə Sovetlərdən gələ bilər və aşkar görünür ki, kəskin iqtisadi çətinliklər, müharibənin yorğunluğu və əldə olunmamış atom bombası Sovetlərə indiki zamanda müharibəyə başlatmağa imkan verməyəcək. Bu şərtlər çərçivəsində o belə hesab edirdi ki, Türkiyə hökuməti ABŞ-ın bu ölkədə marağını nəzərə alaraq sakit qalmalı və döyüş vəziyyəti almağa tələsməməlidir. Keçən oktyabr ayında tələb olunan hərbi texnikanın Robertsə təqdim olunmuş siyahısına gəldikdə E.Vilson söylədi ki, bu yaxınlarda ABŞ-dan qayıdan Roberts türklərin tələblərinin aktiv şəkildə Vaşinqtonda müzakirə olunduğunu açıqlayıb. O qeyd etdi ki, Yunanıstanda vəziyyət Türkiyədəkindən daha çox ciddidir və əgər ABŞ-dan hər hansı ölkəyə hərbi avadanlıq göndərilməsi tələb olunsa, səfirin fikrincə üstünlük Yunanıstana verilməli idi. E.Vilson deyirdi: "Məncə Türkiyənin bununla razılaşması gərəkdir, belə ki, əgər Yunanıstan kommunist təsiri altına düşərsə, Türkiyənin mövqeyi ciddi şəkildə zəifləyəcək". H.Saka E.Vilsonun söylədikləri ilə razılaşdı, lakin o, Robertsin Baş Qərargaha çağırılması ilə bağlı xahişini yenidən dilə gətirdi və söylədi ki, Vaşinqtonda baş verəcək hər hansı yeniliklə bağlı ona veriləcək istənilən məlumatı yüksək qiymətləndirəcək (21).

Xarici işlər naziri ilə görüşdən sonra E.Vilson Türkiyəyə göstəriləcək yardımla bağlı Dövlət katibi C.Marşala müfəssəl teleqram göndərdi. O? yazırdı: "Hazırkı əsəb savaşının bir neçə il davam etdirilməsi ehtimalı mövcud olsa da, ümumi müharibənin başlanması ilə nəticələnəcək təcavüzün olacağı gözlənilmir. Biz hesab edirik ki, SSRİ-nin Türkiyə ilə bağlı siyasəti onu döyüşə hazır şəkildə böyük ordu saxlamağa vadar etməkdir. Bununla onlar Türkiyə iqtisadiyyatını zəiflətməyə ümid edirlər. Buna görə də, türk hərbi idarəsmin təkmilləşdirilməsinə yönəldilən istənilən proqram çərçivəsində biz təchiz etdiyimiz avadanlığa görə Türkiyənin üzərinə çox ağır maliyyə öhdəliyi yükləməkdə ehtiyatlı olmalıyıq" (22).

Ankaradakı səfirlikdən, qərargah rəislərindən və Dövlət Departamentindən müvafiq tövsiyələri aldıqdan sonra prezident H.Trümen 1947-ci ilin mart ayının 12-də Yunanıstan və Türkiyəyə 400 milyon dollarlıq yardım göstərilməsi ilə bağlı konqresə müraciət etdi. Bu yardımın 150 milyon dolları Türkiyə üçün nəzərdə tutulmuşdu. H.Trümen öz qərarını

belə əsaslandırırdı: "Dünya tarixinin hazırkı dövründə hər millət alternativ yaşayış formaları arasında bir seçim etmək məcburiyyətindədir. Yaşayış formalarından biri çoxluğun iradəsinə söykənməkdir. Yaşayış formalarından ikincisi çoxluğa zorla qəbul etdirilən azlığın iradəsinə dayanmaqdır. ABŞ-ın siyasətinin silahlı azlıqlara və ya xarici təzyiqlərə müqavimət göstərməyə çalışan azad xalqların öz gələcəklərinə qərar verməsinə yardımçı olacağına inanıram. Buna görə konqresdən Yunanıstan və Türkiyəyə yardım üçün yetki verməsini istəyirəm" (23).

Tarixə "Trümen doktrinası" adı ilə düşən bu çıxış Türkiyə rəsmiləri tərəfindən məmnunluqla qarşılandı. İstər prezident İ.İnönü və istərsə də Baş nazir R.Peker H.Trümenin bu qərarını yüksək qiymətləndirdilər. Baş nazir öz açıqlamasında Amerikanın "bir sıra dövlətlərin təcavüzkar niyyətləri qarşısında öz sayıqlığını qoruyub saxlamasını", öz müstəqilliyini, ümumi sülhü və təhlükəsizliyi müdafiə etmək üçün Türkiyənin çiyinlərinə götürdüyü yükü yüngülləşdirməyə qərar verməsini alqışlayırdı. Trümenin konqresə müraciəti Türkiyədə çox mühüm siyasi hadisə kimi qiymətləndirilir və həmin dövrün beynəlxalq münasibətlər tarixinin dönüş nöqtəsi kimi dəyərləndirilirdi. Türkiyə siyasi dairələrinin fikrincə, bu addımı atmaqla Amerika "Rusiyaya münasibətdə sakitləşdirmə" siyasətindən qəti olaraq imtina etdi, "rusların və kimin tərəfindən olmasından asılı olmayaraq təcavüzkarlıq planlarının" əleyhinə əzmlə mübarizə aparacağını təsdiqlədi. Sovet səfirliyi Moskvaya göndərdiyi məlumatda qeyd edirdi ki, Trümen doktrinasının elan edilməsi ilə türklər belə bir fikir formalaşdırmağa çalışırlar ki, Türkiyənin müstəqilliyi və ərazi bütövlüyü həqiqətən təhlükə altındadır və bu səbəbdən də Türkiyə öz müstəqilliyini müdafiə etmək üçün anqlo-saksların köməyinə ehtiyac duyur. Beləliklə, türklərin fikrincə, Türkiyəyə yardım göstərməklə Amerika nəinki Türkiyəni müdafiə etməyə hazır olduğunu bəyan edir, eyni zamanda özü də daxil olmaqla bütün qalan dünyanı "bolşevik və slavyan təcavüzündən" qorumaq cəhdlərini nümayiş etdirirdi. Səfirliyin məlumatına görə türklər təsdiq edirdilər ki, elm və texnikanın inkişaf etdiyi indiki əsrdə "Amerikanın təhlükəsizliyinin əsl sərhədləri Yunanıstan və Türkiyədən keçir" (24).

Trümen doktrinasının elan olunması ilə bağlı Sovet mətbuatının yazılarını dəyərləndirən türk siyasi dairələri SSRİ rəsmilərinin fikirlərini ifadə edən qəzetlərin "Türkiyəni heç kəsin təhdid etmədiyini ilk dəfə bəyan etmələrini" müsbət qiymətləndirirdi. Lakin onlar bu yazıların həqiqətə uyğun olduğuna az inanırdılar və belə hesab edirdilər ki, bunun üçün "Sovetlər Türkiyənin Şərq vilayətlərinə və Boğazlara olan tələblərindən imtina etməlidirlər". Türkiyə mətbuatında gedən çoxsaylı yazılar içərisində Sovet səfirliyi keçmiş xarici işlər naziri R.Arasın 18 martda "Kuvvet" qəzetindəki məqaləsinə xüsusi diqqət yetirirdi. SSRİ

Xarici İşlər Nazirliyinə raportunda Sovet səfirliyi qeyd edirdi ki, R.Aras ilk dəfə olaraq Sovet təkliflərinə qarşı açıq çıxış etdi və tələb etdi ki, SSRİ ilə Türkiyə arasında dostluq münasibətlərini bərpa etmək üçün SSRİ öz tələblərindən imtina etməlidir. Eyni zamanda mart ayının 18-də Baş nazir R.Peker Yunanıstanın Afina agentliyinin müxbiri ilə söhbətində Trümenin konqresə müraciətinin türk-yunan dostluğunun möhkəmlənməsində mühüm hadisə olduğunu vurğuladı. O dedi: "Hər fürsət düşən kimi bizim qarşılıqlı olaraq təkrar etdiyimiz "dostluq" sözü indiki vəziyyətdə bizim ölkələrimiz arasında mövcud olan yaxınlığı ifadə etmək üçün yetərli deyildir", R.Pekerin sözlərini şərh edərkən türk mətbuatı bu iki xalqı Moskva istibdadının, bolşevik təcavüzünün, slavyan ekspansionizminin yolunu bağlayan yeganə sədd adlandırırdı. Trümen doktrinasına münasibətdə Türkiyədə iqtidar və müxalifət əsasən eyni mövqedən çıxış edirdilər (25).

Eyni zamanda Yunanıstana və Türkiyəyə yardım göstərmək haqqında qərar Amerikada həm respublikaçılar, həm də demokratlar tərəfindən müdafiə edilirdi. Türkiyədə də bu məsələyə münasibət eyni idi. Demokratik partiyanın Trümen doktrinasına və ümumilikdə xarici siyasət məsələlərinə münasibətdə hökumətlə həmrəy olması türk cəmiyyətində razılıqla qarşılandı. DP liderlərinin Sovet təzyiqlərilə, Boğazlarla bağlı SSRİ-nin notasına münasibətdə hökumətin yanında olması türk cəmiyyətinin müqavimətinin artırılmasında, milli iradə nümayiş etdirilməsində əhəmiyyətli rol oynadı. DP-nin Trümen doktrinasına münasibəti ilə bağlı 1947-ci ilin mart ayında türk mətbuatında xeyli yazılar getmişdi. N.Sadakın "Akşam" qəzetində gedən yazısında R.Arasın bir gün əvvəl çıxmış məqaləsi təqdir edilildi. O yazırdı: "Sovet İttifaqı ilə dostcasına yaşamağın zəruriliyini hər zaman təsdiq edən doktor Aras belə, bunun mümkün olmadığını anladı və "İzvestiya" qəzetinə verdiyi cavabda o soruşur ki, əgər Türkiyəni heç kim təhdid etmirsə, onda niyə Sovet Rusiyası bu və ya digər formada Şərq vilayətlərinə və Boğazlara olan öz tələblərindən imtina etdiyini açıqlamır". O yazmışdı ki, sərhədlərin təhlükəsizliyi iki qonşunun dostluq şəraitində yaşayışının birinci şərtidir. N.Sadakın fikrincə, əgər R.Aras kimi Sovetlərlə dostluğa böyük əhəmiyyət verən bir adam belə fikrə gəlibsə, bu xarici təhlükəyə münasibətdə ölkədə formalaşan birliyin mühüm göstəricisidir (26).

Trümen doktrinasının elan olunması, Yunanıstan və Türkiyənin rəsmən Amerika təhlükəsizliyi sferasına daxil edilməsi, bu ölkələrə Birləşmiş Ştatların hərbi və iqtisadi yardımlarının göstərilməsi barədə prezidentin konqresə müraciəti sözün əsl mənasında Sovet rəhbərliyində hiddətə səbəb oldu. Təcili olaraq SSRİ Xarici İşlər Nazirliyinə Trümen doktrinasının Türkiyəyə aid hissəsi ilə bağlı təkliflər hazırlamaq tapşırığı verildi. SSRİ xarici işlər nazirinin müavini Y.Malikin və S.Vinoqradovun

mart ayının 25-də V.Molotova göndərdikləri təkliflərdə SSRİ-nin son zamanlar kadrlar baxımından qeyri-qənaətbəxş səviyyədə olan Ankaradakı səfirliyi və İstanbuldakı Baş konsulluğu aparatının xüsusi xətlə (təhlükəsizlik və kəşfiyyat xidməti nəzərdə tutulur - C.H.), Türkiyədə vəziyyəti əsaslı şəkildə öyrənib və vaxtında informasiya təminatını təşkil edə bilən daha hazırlıqlı əməkdaşlar hesabına gücləndirilməsi tövsiyə edilirdi. Y.Malik və S.Vinoqradov təklif edirdilər ki, son iki ildə Türkiyədə fəaliyyət göstərməyən Sovet hərbi və hərbi dəniz attaşelərini seçmək və Türkiyəyə ezam etmək lazımdır. Həmin dövrdə Türkiyədə SİTA xətti ilə bir müxbir və bir tərcüməçi işlədiyini nəzərə alaraq onlar Sovet teleqraf agentliyinin baş direktoru N.Palqunova təcili şəkildə Ankarada və İstanbulda müxbir məntəqələrinin məsul işçilərlə möhkəmləndirilməsini tövsiyə edirdilər. Ən nəhayət, Y.Malik və S.Vinoqradov mərkəzi qəzet və jurnallarda Amerikanın Türkiyədə və Yaxın Şərqdə ekspansionist siyasətini ifşa edən məqalə və materialların sistematik olaraq çap edilməsini təklif edirdilər (27).

1947-ci ilin mart ayının 27-də Ankaradakı Sovet işlər vəkili P.Yerşov xarici işlər nazirinin müavini A.Vışinskiyə Türkiyənin xarici siyasəti haqqında 15 səhifəlik geniş arayış göndərmişdi. Orada R.Peker hakimiyyətə gəldikdən sonra Türkiyə hökumətinin xarici siyasəti təhlil edilirdi. P.Yerşov yazırdı: "1946-cı ilin avqustunda R.Pekerin hakimiyyətə gəlməsi ilə Türkiyə xarici siyasətində heç nə dəyişməyib, belə ki, ingilis və amerikan orientasiyası davam edir, Sovetlərə olan düşmən münasibətdə heç bir dəyişiklik yoxdur. Digər tərəfdən, H.Sakanın xarici işlər naziri vəzifəsində saxlanması hökumətin Sovet İttifaqına münasibətdə əvvəlki anti sovet mövqeyi davam etdirməsi deməkdir". P.Yerşov qeyd edirdi ki, Boğazlar məsələsində notalar mübadiləsi Türkiyə hökumətinin xarici siyasət yeritməkdə müstəqilliyini itirməsinin, ingilis-amerikanlar tərəfindən ondan SSRİ-yə qarşı istifadə edilməsinin aydın təzahürüdür. O yazırdı: R.Peker hökuməti öz pantürkist görüşləri ilə tanınan, bütün demokratik təşkilatlara qarşı öz sərt siyasəti ilə seçilən keçmiş hərbçi və polis işçilərindən qurulub, nəticədə ölkədə xarici siyasətdə tamamilə ingilis və amerikan orientasiyası yeridən yarımfaşist diktatura meydana gəlib. R.Peker 1 mart çıxışında xarici kredit almağın vacibliyini qeyd edib. Ona görə Trümenin Türkiyəyə 150 milyon dollar kömək etmək təklifi türklər tərəfindən yaxşı qarşılanıb. Lakin bu kreditin şərtləri və Sovet hökumətinin Trümenin çıxışına münasibəti açıqlananda Türkiyə hakim dairələrində məlum narahatçılıq və həyəcan hiss edilməyə başlandı". P.Yerşov yazırdı: "İlkin məlumatlara görə, hökumətin bəzi üzvləri Trümenin təkliflərinin elan olunmuş şərtlərlə qəbul edilməsinin əleyhinədirlər. Sovet-Türkiyə münasibətlərinə gəldikdə, o qeyd edirdi ki, BMT Baş Məclisindən sonra İrandakı son hadisələr, Almaniyanın

əlaltıları ilə sülh müqaviləsinin imzalanması Türkiyə hökumətinə əminlik vermişdir ki, Sovet İttifaqı indi Türkiyəyə görə müttəfiqlərlə münasibətlərin hər hansı formada ağırlaşdırılmasına getməyəcək və ölkənin iqtisadi-maliyyə cəhətdən çökdürülməsinə hesablanmış "əsəb müharibəsi"nin davam etdirilməsinə üstünlük verəcəkdir. Daha sonra P.Yerşov maraqlı bir məsələyə toxunurdu və qeyd edirdi ki, Türkiyə hökumətinin indiki xarici siyasəti Türkiyənin işgüzar dairələri, bu və ya digər dərəcədə ziyalıların qabaqcıl hissəsi tərəfindən tez-tez mühakimə edilir. İndi belə bəyanatları ardıcıl olaraq eşitmək olur ki, artıq "razılığa gəlməyin vaxtıdır", "qoy ya Peker, ya da Saka Moskvaya getsin", "mətbuatda qarşılıqlı düşmənçiliyə son qoymaq lazımdır", "Sovet-Türk münasibətlərinin indiki vəziyyəti ticarət-iqtisadi və mədəni əməkdaşlığa mane olur" və s. Sovet işlər vəkili axırda belə nəticəyə gəlirdi ki, Türkiyə hökuməti belə faktlarla hesablaşmır və antisovet siyasətini aparmaqda davam edir, Sovet təkliflərinə və özünün bilavasitə maraqlarına uyğun formada SSRİ ilə münasibətləri tənzim etməyə heç bir istək nümayiş etdirmir (28).

Trümen doktrinası elan olunduqdan dərhal sonra SSRİ Xarici İşlər Nazirliyinin Yaxın Şərq şöbəsinin müdiri İ.Samılovski P.Yerşova yazdığı məktubda 1947-ci ilin yanvar ayında keçirilmiş Demokrat partiyasının birinci qurultayında C.Bayarın nitqinin mətnini istəyirdi və bu nitqin şöbə üçün xüsusi maraq kəsb etdiyini bildirirdi (29). Mart ayının 29-da P.Yerşova yazdığı ikinci məktubda isə o, Demokrat partiyasının birinci qurultayının materialları və xüsusilə qurultayda partiyanın iqtisadi siyasəti ilə maraqlanırdı. O yazırdı: "Demokrat partiyasının birinci qurultayının materiallarından belə güman etmək olar ki, indiki dövrdə Türkiyənin etatizm siyasətindən imtina etməsi aydın şəkildə müşahidə edilir" (30).

SSRİ Xarici İşlər Nazirliyinin Demokrat partiyası ilə ciddi şəkildə maraqlanması təsadüfi deyildi. Xarici siyasət məsələlərinə münasibətdə DP hökumətlə həmrəy idisə də, daxili siyasət məsələlərinə baxışda fikir ayrılıqları dərin idi və partiyanın 1947-ci il yanvar ayının 7-də işə başlayan birinci qurultayında bu istiqamətdə ciddi müzakirələr olmuşdu. Qurultaydakı geniş nitqində C.Bayar seçki qanununun dəyişdirilməsi, prezidentin heç bir partiyanın rəhbəri olmaması, konstitusiyaya zidd olan antidemokratik qadağaların ləğv edilməsi, DP üzərində hökumətin basqılarına son qoyulması və s. məsələləri qaldırmışdı. Əslində sovet səfiri S.Vinoqradovun 1947-ci il yanvar ayının 25-də SSRİ Xarici İşlər Nazirliyinə göndərdiyi təkliflərdə C.Bayarla və Demokrat partiyası ilə əməkdaşlığın mümkünlüyü ideyasını irəli sürməsi DP-nin yanvar ayının əvvəllərində keçirilən birinci qurultayında hökumətin daxili siyasətinin sərt şəkildə tənqid edilməsi ilə bağlı idi. Müxalifət dairələri Türkiyəyə Amerika yardımlarının göstərilməsini bir sıra iqtidar qəzetlərinin yazdığı

kimi ölkənin demokratikləşməsi ilə deyil, "onun xarici qəsdlərdən müdafiə olunması" ilə izah edirdilər. Eyni zamanda müxalifət liderləri qeyd edirdilər ki, türklər ölkədə demokratik rejimi ona görə yaratmamalıdırlar ki, bu, Amerikanın və ya hər hansı digər dövlətin xoşuna gəlsin və onun tərəfindən müdafiə olunsun, məhz ona görə qurmalıdırlar ki, türk vətəndaşlarının hüquq və azadlıqları təmin olunsun (31).

Prezident Trümenin 1947-ci ilin mart ayının 12-də konqresə müraciətindən bir gün sonra təcili olaraq ABŞ silahlı qüvvələrinin qərargah rəisləri toplaşıb "Türkiyəyə hərbi yardım göstərilməsi haqqında" məsələni müzakirə etdilər. Onlar belə qərara gəldilər ki, Britaniyanın Aralıq dənizi rayonunda zəifləməsi, onun Misirdən çıxması və Fələstindəki öhdəliklərdən tam şəkildə əl çəkməsi ehtimalı Türkiyənin təhlükəsizliyinə mənfi təsir göstərir, Əgər Yunanıstan kommunist azlığın nəzarəti altında düşməkdən qorunmazsa, Türkiyənin təhlükəsizliyi hiss olunacaq şəkildə zəifləyə bilər. Türklərin öz müstəqilliklərini zorla saxlamaqlarına və SSRİ-yə nifrət etmələrinə baxmayaraq, qaçılmaz Sovet dominantlığı qorxusu türkləri Sovetlərlə kompromisə getməyə vadar edə bilər. Qərargah rəisləri belə hesab edirdilər ki, sülh şəraitində Türkiyə həm Orta Şərqdə, həm də ümumilikdə ərəb dünyasına münasibətdə həlledici mövqeyə malikdir. Türkiyənin rus təzyiqinə müqavimət göstərməkdə qətiyyəti və qərbin onun bu istəyini dəstəkləmək üçün demokratik imkanlardan istifadə etməsi bütün Yaxın Şərq ölkələri üçün nümunə rolunu oynayacaq. Əgər Rusiya sülh dövründə Türkiyədə dominantlığı ələ keçirsə, biz bütün Orta Şərq ölkələrinin böyük ehtimalla dərhal oxşar Sovet dominantlığı altına düşəcəyini düşünürük. Əgər Rusiya sülh dövründə Türkiyəni ələ keçirə bilsə, bizim müharibə dövründə Orta Şərqi müdafiə etmək imkanımız praktiki olaraq sıfra enəcək. Müharibə dövründə Türkiyə Rusiyanın Şərqi Aralıq dənizi regionuna və Orta Şərq ölkələrinə, xüsusən də Fələstinə doğru irəliləməsinə təbii maneə təşkil edir. Uzun müzakirələrdən sonra qərargah rəisləri Türkiyəyə göstəriləcək yardımın məqsədlərini belə müəyyən edirdilər: a) türklərin Sovet təzyiqinə qarşı sərt milli ruhu davam etdirə bilmələri üçün onların iradəsini və müqavimət göstərmək imkanlarını gücləndirmək; b) türklərin hərbi potensialını elə gücləndirmək lazımdır ki, Türkiyəyə Sovetlər tərəfindən hücum olduğu, yaxud da digər ərazilərdə toqquşmalar baş verdiyi halda onlar istənilən Sovet təcavüzünü zor gücü ilə dəf etsin və öz ölkəsində qabaqlayıcı tədbirlər görmək üçün maksimum hərbi imkana sahib olsunlar. Qərargah rəislərinin memorandumunda qeyd edilirdi ki, son illərin hərb tarixi ən yaxşı hərbi təhlilçilər tərəfindən bu və ya digər xalqların təcavüzə müqavimət göstərmək imkanları barədə yol verilmiş böyük səhvlərlə zəngindir. Bunlara, Finlandiyanın Sovet hücumuna müqavimət göstərməsini, Yunanıstanın İtaliya hücumuna qarşı çıxmasını digər

tərəfdən Polşa və Fransanın çöküşünü misal gətirmək olar. Sovetin Türkiyə üzərinə ayrıca bir əməliyyat və ya qlobal bir müharibənin gedişində hücumu zamanı hadisələrin gedişi SSRİ-nin digər cəbhələrdəki öhdəliklərindən, ilin fəslindən, həmin vaxt türk hərbi qüvvələri və türk xalqının mənəvi vəziyyətindən yə müttəfiqlərin hərbi yardım göstərmək imkanlarından asılı olacaq. Qərargah rəisləri Türkiyənin silahlı qüvvələrinin şəxsi heyətini və hərbi texnikasını təhlil edərək bu ölkəyə yardım göstərilməsi zamanı bir sıra mühüm məsələlərin nəzərə alınmasını zəruri sayırdılar. Onların fikrincə: a) ən böyük diqqət quru qoşunlarına və hava hücumundan müdafiəyə yönəldilməlidir; b) Türkiyə ərazisində effektiv müdafiə tədbiri üçün mexanizm qurulmalı və avadanlıq yerləşdirilməlidir. Avadanlıq türklər tərəfindən asanlıqla istifadə olunan və daha çox Türkiyədə istehsal edilmək imkanı olan növlərdən nəzərdə tutulmalıdır; e) ən ciddi müzakirələr türklərə onların öz arsenalının inkişafı vasitəsi ilə avadanlıq əldə etməsinə yönəldilməlidir; ç) Türkiyəyə iqtisadi yardım hərbi yardım proqramı ilə birgə aparılmalıdır; d) türklərin bəzi önəmli avadanlıq hissələrini özləri tərəfindən təchiz etmələri vaxt apara biləcəyindən bu çatışmamazlığı aradan qaldıra biləcək yeganə əlverişli qaynaq ABŞ və Britaniyadır (32).

Trümen doktrinası elan olunduqdan sonra Amerika yardımının hansı şərtlər altında göstərilməsi türk ictimaiyyətini dərindən maraqlandırırdı. Onlar ehtiyat edirdilər ki, bu yardımlar Türkiyənin bütövlükdə ABŞ-ın nəzarətinə keçməsinə gətirib çıxara bilər və yardım adı altında Amerika müşavirləri, təlimatçıları və hərbi ekspertləri ölkənin daxili işlərinə müdaxilə imkanı qazanarlar. 1947-ci ilin mart ayında mətbuat bu məsələ ətrafında geniş müzakirə açmışdı. Xüsusən konqresdəki müzakirələr zamanı Amerika yardımlarının düzgün istifadə edilməsinə nəzarət məqsədilə Amerika nəzarətçilərinin Türkiyəyə gəlməsinə icazə verilməsi və yardımın istifadəsi ilə bağlı məsələləri işıqlandırmaq üçün ABŞ-ın mətbuat və radio təmsilçilərinin araşdırmalar aparması və məlumatlar hazırlamasına izn istənilməsi Türkiyə siyasi dairələri, mətbuatı və ictimaiyyəti tərəfindən narahatlıqla qarşılandı. Məsələn, "Küvvet" qəzetində Demokrat partiyasına yaxın olan H.Bayur yazırdı: "H.Trümenin çıxışından belə aydın olur ki, Yunanıstan və Türkiyənin istəyib-istəməməsindən asılı olmayaraq Amerika nəzarətçiləri olacaq. Bu o deməkdir ki, Amerika hökuməti alınan pulların və malların lazım olduğu istiqamətdə istifadə olunması məsələsində türk hökumətinə etibar etmir. Ona görə də onlar buna öz məmurları vasitəsi ilə nəzarət etmək istəyirlər". İkinci məsələyə gəldikdə H.Bayur yazırdı ki, ABŞ hökumətinin yardımların istifadə edilməsinin Amerika radiosu və mətbuatı tərəfindən izlənməsinə belə böyük əhəmiyyət verməsi o deməkdir ki, Türkiyədə mətbuat azad deyildir və müstəsna hal kimi Amerika jurnalistlərinə

azadlıq verilir. O deyirdi: "Çox asan görmək olar ki, bu iki şərtlə bizim üzərimizə qoyulan mənəvi yük, dövlət borcları ilə bağlı Osmanlı imperatorluğunun üzərinə qoyulan maddi və mənəvi yükdən elə də yüngül deyildir" (33). H.Bayurun bu fikri Amerikanın göstərdiyi yardımlara nəzarət funksiyasını öz əlində saxlamaqla bağlı irəli sürdüyü şərtlərlə münasibətdə türk mətbuatının, türk ictimaiyyətinin və müəyyən dərəcədə Türkiyənin siyasi dairələrinin mövqeyini əks etdirirdi. Amerika yardımına münasibətdə ölkə daxilində aparılan müzakirələr elə bir məqama gəlib çatmışdı ki, bir sıra qabaqcıl mətbuat orqanları ABŞ-ın göstərdiyi 150 milyon dollarlıq yardımdan imtina edilməsi məsələsini qaldırmışdı. Lakin "Ulus" qəzetində N.Erim bu məsələyə aydınlıq gətirərək mart ayının 21-də qeyd edirdi ki, Amerikanın şərtləri barədə hələ heç bir rəsmi sənəd Türkiyə hökumətinə daxil olmayıb. Bizim hökumət beynəlxalq qaydalara uyğun olaraq Amerikadan kredit almaq imkanlarını axtarırdı. Cənab Trümen öz çıxışında qeyd edib ki, Türkiyə hökuməti yardım üçün xahiş edib, lakin Türkiyə hökuməti məhz yuxarıda haqqında söhbət gedən kredit haqqında xahiş edib. N.Erim yazırdı: "Qəti şəkildə bəyan edə bilərik ki, bizim hökumətlə ABŞ hökuməti arasında Amerika yardımlarının həcmi və forması barədə heç bir danışıq və heç bir saziş olmayıb". Son zamanlar açıqlanan gizli sənədlər N.Erimin bu fikrinin doğru olduğunu təsdiqləyir. Amerika yardımı ilə bağlı türk cəmiyyətində yaranmış narahatlıqlarla bağlı 1947-ci ilin aprel ayının ortalarında Ankaraya səfər edən Amerika senatoru Barkleyn xüsusi bəyanatla çıxış etdi. O dedi: "Biz Türkiyənin daxili işlərinə qarışmırıq. Göstərilən yardımlar siyasi yollarla, bilavasitə Türkiyədəki Amerika səfiri vasitəsi ilə həyata keçiriləcək. Sizin texniki yardımlara ehtiyacınız ola bilər. Bizim fikrimizcə bura gələcək adamlar nəzarətçilər deyil, məsləhətçilər olacaqlar və nəticə etibarı ilə bu nəzarət yox, fikir mübadiləsi demək olacaqdır". Senator Barkleynin bu bəyanatını Ankaradakı Sovet səfirliyi ictimai rəyi sakitləşdirmək üçün türk hökumətinin amerikanlardan xahişinin nəticəsi kimi şərh edirdi. P.Yerşov A.Vışinskiyə yazırdı: "məsləhətçi" və "nəzarətçi" ifadələri türkləri qorxutduğu üçün onlar amerikanlardan xahiş ediblər ki, gələn məsləhətçi və nəzarətçiləri adi məmur və diplomatlar kimi səfirliyin məsləhətçiləri siyahısına daxil etsinlər (34). Eyni zamanda səfirlik Moskvaya verdiyi məlumatlarda Trümenin təklifləri üzrə Yunanıstan və Türkiyəyə göstərilən maddi yardımlara Amerika təlimatçılar vasitəsi ilə nəzarət edilməsinin ABŞ-ın həmin ölkələrin daxili işlərinə qeyri-məhdud müdaxilə imkanları yaratdığını yazırdı.

Trümen doktrinası elan olunduqdan sonra SSRİ-nin mərkəzi mətbuat orqanlarında Türkiyəyə qarşı verilən məqalələrin əksəriyyəti SSRİ Xarici İşlər Nazirliyinin tapşırığı üzrə Ankaradakı Sovet səfirliyinin göndərdiyi materiallar əsasında hazırlanırdı. Mart ayının 14-də "İzvestiya" qəzeti

"Trümenin konqresdə çıxışı" adlı baş məqalə dərc etdi. Orada göstərilirdi ki, Türkiyə də öz növbəsində Amerika "təcili yardımını" tələb edir. Doğrudur, Yunanıstandan fərqli olaraq Türkiyə İkinci Dünya müharibəsindən ziyan çəkməyib, lakin ABŞ və İngiltərənin yardımı ona Trümenin dediyi kimi elə bir modernizasiyanın həyata keçirilməsi üçün lazımdır ki, həmin modenlizasiya onun milli bütövlüyünün müdafiə olunmasını təmin etsin. Bir gün sonra, eyni adlı, lakin fərqli məzmunlu baş məqalə "Pravda" qəzetində də çıxdı. "Pravda" yazırdı: "Türkiyənin milli bütövlüyünü kiminsə təhdid etmədiyini sübut etməyə ehtiyac yoxdur. Buna görə də Trümenin istinad etdiyi "modernizasiyanın" mənası Amerika ağalığını Türkiyədə təsbit etməkdən ibarətdir". Sovet mətbuatında gedən belə yazılar bir qayda olaraq Türkiyə qəzetləri tərəfindən cavabsız qoyulmurdu. N.Erim "Ulus" qəzetində yazırdı: "Türkiyə son iki il ərzində ağır xarici təzyiqlərin sınağından keçir. Birgə müdafiə adı altında Boğazlarda baza verilməsini tələb edirlər. Bundan əlavə, hər hansı bir mövcud müqavilə ilə hesablaşmayaraq, heç bir ciddi hüquqi əsaslandırma olmadan onun Şərq vilayətlərindəki torpaqlarının zorla alınması təhlükəsi irəli sürülüb. Türkiyə bu ağır təzyiqlərə qarşı dayanır. Onun ordusunun böyük bir hissəsi silah altında saxlanılır". Yaxud "Pravda" qəzetində 1947-ci ilin mart ayının 31-də çıxmış D.Zaslavskinin məqaləsinə qarşı Yurdoğlu "Demokrasi" qəzetində yazırdı: "Amerikanın bizimlə yaxınlaşmaq siyasəti, bizim Amerika və İngiltərə ilə yaxınlaşmağımız bilavasitə sizin (Sovetlərin — C.H.) yaradıcılığınızın nəticəsidir". Zaslavskinin Türkiyədə müharibə təbliğatı aparılması ilə bağlı fikrinə cavab olaraq Yurdoğlu bildirirdi ki, üçüncü dünya müharibəsinin açan Rusiyanın əlindədir və müharibə özü onun gələcək siyasətindən asılıdır (35). D.Zaslavski "Türkiyədə dollar həyəcanı" məqaləsində bütün türk jurnalistlərini təhqir edərək yazırdı ki, tamamilə aydındır ki, türk mətbuatının böyük hissəsi Amerika dollarının qoxusundan başını itirib.

Trümen doktrinası elan olunduqdan sonra SSRİ ABŞ-da onun nəzarəti altında olan sol qüvvələri və erməni cəmiyyətlərini Türkiyəyə yardım göstərməsinə qarşı hərəkətə gətirmişdi. Sovetlərin Nyu Yorkdakı Baş konsulu Y.M.Lomakin 1947-ci il aprel ayının 19-da A.Vışinskiyə yazdığı gizli məktubda göstərirdi ki, Amerika-Sovet dostluğu Milli Şurası, Amerikanın Mütərəqqi Vətəndaşları, Amerika-Slavyan konqresi, Amerika Erməni Milli Şurası və bir sıra kilsə təşkilatları Türkiyəyə yardım göstərilməsinin əleyhinə geniş kampaniyaya başlayıblar. Lakin Y.M.Lomakin bu təşəbbüslərin həmkarlar təşkilatlarının simasında fəhlə sinfi cəmiyyətləri tərəfindən müdafiə olunmadığını yazırdı. O qeyd edirdi ki, ABŞ-dakı erməni koloniyaları Trümenin Türkiyəyə yardım göstərmək təklifini erməni xalqı üçün birbaşa təhlükə kimi qəbul edirlər. Baş konsulun məlumatında Amerikada Erməni Milli Şurasının bütün erməni

cəmiyyətlərinə Türkiyəyə yardım göstərilməsi əleyhinə etiraz mitinqləri keçirmək təklifi ilə müraciət etdiyi göstərilirdi. Y.M.Lomakinin məlumatında eyni zamanda Trümenin Türkiyəyə yardım haqqında təklifinin rədd edilməsi çağırışı ilə ermənilərin fərdi qaydada senator və konqresmenlərə minlərlə məktub göndərdikləri erməni mətbuatının Amerikada Trümenin təklifinə qarşı geniş kampaniyaya başladığı qeyd edilirdi (36).

1947-ci ilin may ayının 7-də Ankaradakı SSRİ-nin işlər vəkili P.Yerşov A.Vışinskiyə "Türkiyəyə Amerika yardımı haqqında" geniş hesabat göndərmişdi. Orada əvvəlcə R.Peker hökumətinin Türkiyəni iqtisadi cəhətdən ingilis və amerikanlardan asılı etməsi "əsaslandırılırdı". Daha sonra P.Yerşov yazırdı: "Bir çox türk məmurları qeyd edirlər ki, Amerika öz kreditlərini Türkiyəyə sırımaqla onu qorxudur ki, əgər indi "ehtiyat tədbiri" haqqında ölçü götürülməsə, gələcəkdə Sovet İttifaqı ilə hər hansı ağırlaşma şəraitində türklər ABŞ-ın yardımına bel bağlaya bilməzlər". Yardımın forması ilə bağlı o, SSRİ Xarici İşlər Nazirliyinə məlumat verirdi ki, əvvəlcə türklər amerikanların nəğd pul verəcəyini və türklərin də onu istədikləri kimi xərcləyəcəklərini düşünürdülər. Lakin bu məsələnin Amerika konqresində müzakirəsi türklərin ilkin sevincini yoxa çıxardı. Müzakirələr nəticəsində aydın oldu ki, amerikanlar nəğd pul verməyəcəklər. Onlar İtaliyada və Yaxın Şərqdə qalmış gərəksiz Amerika silahını türklərə təklif edirlər. Bu yardım lend-lizin ümumi şərtləri daxilində deyil, maliyyə nəzarətinə qədər tələb olunan xüsusi şərtlər daxilində göstəriləcək. Hökumət bunu gizlədir. Demokrat partiyası bundan hökuməti tənqid etmək üçün istifadə edir. Buna baxmayaraq onlar əsas etibarilə Amerika yardımının alınmasının əleyhinə danışmırlar. P.Yerşov məlumat verirdi ki, H.Saka 1947-ci il may ayının 3-də İran səfiri Esfendiariyə deyib ki, Türkiyəyə Amerika yardımı hər şeydən əvvəl hərbi və siyasi xarakter daşıyır. Sovet işlər vəkilinin fikrincə Məclis deputatları arasında Amerika yardımının əleyhdarlarının sayı az deyildir, lakin təqib olunacaqlarından onlardan heç kim, o cümlədən müxalifət deputatları Amerikadan kredit alınmasının əleyhinə açıq çıxış etmirlər. Ölkə rəhbərliyi ilə bağlı P.Yerşov yazırdı: "Peker və İnönü Amerika dollarının əlindədir, Amerika hərbi və iqtisadi yardımını əldə etmək naminə onlar ölkə üçün ən ağır, ən alçaldıcı şərtlərə gedirlər. Sovet İttifaqının Boğazlara və Şərq vilayətlərinə olan təkliflərinə qarşı yeganə təminatı bunda görürlər". Məzuniyyətdən qayıdan ABŞ səfiri E.Vilsonun qarşılanması ilə bağlı məsələlərə toxunan Sovet işlər vəkili xarici işlər nazirinin müavininə yazırdı ki, aprel ayının 29-da məzuniyyətdən qayıdan Amerika səfiri çox təntənəli qarşılandı. Qarşılanma mərasimində H.Saka, Xalq Cümhuriyyətçi partiyanın sədr müavini, keçmiş baş nazir Ş.Saracoğlu, Xarici İşlər Nazirliyinin Baş katibi F.C.Erkin və yüksək rütbəli hərbçilər iştirak ediblər. Bir qayda olaraq səfirlər məzuniyyətə

gedəndə və qayıdanda onları heç kim qarşılamır. Diplomatik korpusda deyirlər ki, türklər Vilsonu "öz ağaları kimi qarşıladılar" (37).

Ankaradakı SSRİ işlər vəkili may ayının 8-də xarici işlər nazirinin digər müavini Y.Malikə başqa bir məsələ ilə bağlı müraciət etmişdi. Müraciətdə bir sıra türk dairələrinin SSRİ ilə ticarət-iqtisadi əlaqələrinə başlamaq arzusunda olduqları bildirilirdi. O yazırdı: "Ziya Taner" firmasının sahibi Səlahəddin Taner, İstanbulda böyük firma sahiblərindən Naci Turac və Qalip Deylanı ticarət nümayəndəliyinə gəlib SSRİ ilə ticarət-iqtisadi əlaqələr yaratmaq arzularını ifadə ediblər. Bir sıra firma rəhbərləri ticarət nümayəndəsinə deyiblər ki, Türkiyədə siyasəti tacirlər formalaşdırırlar, ticarətə başlamaq lazımdır, sonra digər məsələlər də qurulacaq. P.Yerşov Xarici İşlər Nazirliyinə tövsiyə edirdi ki, belə addım SSRİ-nin əvvəllər elan etdiyi Boğazlar haqqında tələblərindən imtina kimi qəbul edib bilindiyi üçün türk firmaları ilə ticarətə başlamaq məqsədəuyğun deyildir. Hər ehtimala qarşı P.Yerşov soruşurdu ki, əgər rəhbərlik belə bir addım atmağı lazım bilərsə, Xarici Ticarət Nazirliyinə göstəriş versin və işə başlayaq (38).

Eyni zamanda may ayının 2-də vitse-admiral Bernard Bierinin komandanlığı ilə "Leyt" təyyarə daşıyan gəmisinin İstanbula gəlməsi Sovet səfirliyinin diqqət mərkəzində idi. Bir neçə ay əvvəl İzmirə və Marmarisə gəlmiş hərbi gəmilərin Trümen doktrinası elan olunduqdan sonra İstanbula səfəri türk ictimaiyyəti tərəfindən böyük sevinclə qarşılandı. Gəminin komanda heyətinin şərəfinə yüksək qəbullar və maraqlı tədbirlər düzənləndi. SSRİ səfirliyinin məlumatında deyilirdi: "Amerika pullarına minnətdarlıq əlaməti olaraq türklər amerikanlar üçün qeyri-adi sürpriz etmək qərarına gəlmişdilər. May ayının 5-də prezident İ.İnönü tamamilə aydın bir məqsədlə, amerikanları İstanbulda qarşılamaq üçün ora gəlmişdi. İstanbula gəldikdən bir neçə saat sonra İ.İnönü səfir E.Vilsonun müşayiəti ilə Dolmabaxça sarayında Amerika dənizçilərinin şərəfinə qəbul keçirdi. Qəbul zamanı o, ayrıca otaqda admiral Bier və Vilsonla uzun çəkən müzakirə apardı, bundan sonra İnönü ümumi zala çıxdı və hər bir amerikalı qonaqla ayrı-ayrılıqda söhbətləşdi. Elə qəbul zamanı o, jurnalistlərin iştirakı ilə ingilis dilində Amerika gəmilərinin səfəri münasibətilə öz sevincini və türklərin Amerika xalqına dostluq münasibətini bəyan etdi" (39). May ayının 7-də Amerika donanması İstanbulu tərk etdi. Dönüş ərəfəsində admiral Bier və səfir Vilson Amerika dənizçilərinə göstərilən böyük diqqət və qayğıya görə İstanbulun valisi Lütfi Kırdara öz minnətdarlığını bildirdilər və türk-amerikan dostluğunun daimi xarakter alacağına öz əminliklərini bəyan etdilər. İ.İnöünün İstanbula səfəri haqqında Moskvaya yanlış məlumat verən P.Yerşov yazırdı ki, "Ötən il Amerika gəmiləri gələndə yüksək rütbəli zabitlər özləri Ankaraya getdilər. Bu dəfə Türkiyə hökuməti tamamilə

alçaldıcı bir addım atdı və gəminin göyərtəsində Amerika admiralına təzim etmək üçün İ.İnönü özü may ayının 4-də İstanbula gəldi. İnönünün İstanbula səfəri belə şayiələrin yayılmasına gətirib çıxarıb ki, guya gəminin göyərtəsində Amerikanın yüksək səviyyəli xadimlərindən kimsə olub. Bizcə türklər bunu özləri qəsdən uydururlar ki, prezidentin alçaldıcı səfərinə bəraət qazandırsınlar. Bu səfərdə prezident qonaq, admiral isə ev sahibi vəziyyətində olub" (40).

May ayının 12-də prezident İ.İnönünün Amerika yardımı ilə bağlı "Britiş Yunayted press" agentliyinə verdiyi müsahibə təcili olaraq Sovet səfirliyi tərəfindən Moskvaya göndərildi. Müsahibə zamanı I.İnönü bildirirdi ki, Amerika yardımı bütövlükdə hərbi ehtiyaclara sərf ediləcək və öz iqtisadi ehtiyaclarını təmin etmək üçün Türkiyə yeni istiqraz almaq məqsədilə Beynəlxalq Banka müraciət edəcək. Müsahibənin maraqlı yeri Boğazlar məsələsi ilə bağlı idi. Prezident Boğazlara olan Sovet tələbləri ilə bağlı sualı cavablandırarkən qeyd etdi ki, Sovet hökumətinə 22 avqust və 18 oktyabr 1946-cı ildə təqdim olunmuş notalardan göründüyü kimi Türkiyə hesab edir ki, indiki Boğazlar rejimi ədalətli, tarazlaşdırılmış rejimdir və bütün tərəflərin maraqlarını daha yaxşı formada təmin edir. Əgər hansısa dövlət bu rejimdən narazıdırsa, o Montrö konvensiyasında nəzərdə tutulmuş prosedur çərçivəsində dəyişiklikləri təmin etmək üçün konfrans çağırmağı arzulaya bilər. Müxbirin - indi Türkiyədə erməni məsələsi mövcuddurmu? - sualına cavab olaraq İ.İnönü dedi ki, Türkiyədə erməni məsələsi yoxdur, çünki burada hər bir vətəndaş irqindən və dinindən asılı olmayaraq bərabər hüquqlara malikdirlər (41). İ.İnönü öz müsahibəsində açıq şəkildə bildirirdi ki, Amerikadan alınan yardımlar müstəsna qaydada hərbi məqsədlər üçün nəzərdə tutulub. Prezidentin müsahibəsindən sonra onu şərh edən mətbuat orqanlarının icmalını hazırlayan Sovet səfirliyi qeyd edirdi ki, özlərinin hərbi hazırlıqlarına bəraət qazandırmaq üçün türklər Türkiyəyə qarşı silahlı hücumun mümkünlüyü haqqında daha ucadan qışqırmağa başladılar. Türk mətbuatının fikrincə, nə Amerikanın, nə də Türkiyənin bu köməyin hərbi xarakterini gizlətməməsi, Amerika və onun tərəfdarlarının o qədər güclü olmasının təsdiqi idi ki, onlar bu qabaqlayıcı tədbirlərin yönəldiyi dövlət tərəfindən cavab tədbirləri görülə biləcəyindən çəkinməyərək qəbul olunmuş qərarlar haqqında açıq məlumat verirdilər. May ayının 19-da admiral Konnelli başda olmaqla Amerika dənizçilərinin Ankaraya səfəri və dörd gün ərzində onların Baş nazir, xarici işlər naziri, müdafiə naziri və Baş qərargahın rəisi tərəfindən qəbulu bunun qabarıq təzahürü idi (42). 1947-ci ilin aprel ayının 22-də Senatda, may ayının 9-da isə Nümayəndələr Palatasında müzakirələrdən sonra Amerika Konqresi may ayının 22-də "Yunanıstan və Türkiyəyə yardım qanunu"nu təsdiq etdi. Bir gün sonra prezident H.Trümen onu imzaladı və bununla da

Türkiyəyə hərbi yardım göstərilməsi rəsmi xarakter aldı. Qəbul olunmuş qanun Amerika prezidentinə maliyyə yardımı ilə yanaşı, Türkiyə və Yunanıstana avadanlıq göndərməyə, hərbi və texniki işçilərin səfərlərini təşkil etməyə, hərbi-texniki və məlumat xarakterli xidmətlər göstərməyə icazə verirdi. Bu qanuna görə Yunanıstan və Türkiyəyə göstərilən yardımlar, Amerika prezidentinin məlumatı olmadan yardımın məqsədləri xaricində istifadə edilə bilməzdi.

Türkiyəyə göstərilən yardımın təsdiq edilməsindən dərhal sonra İ.İnönünün Amerika xalqına müraciəti qəzetlərdə dərc edildi. Orada deyilirdi ki, hər bir türk bu sevincli hadisəni böyük Amerika respublikasının bizim ölkəmizə, bizim xalqımıza səmimi dostluq hisslərinin yeni ifadəsi kimi, bəşəriyyətin indiki keçid dövründən daimi sülhə doğru yolunda qabaqcıl addım kimi səmimi qəlbdən salamlayır. Bu kömək göstərir ki, dünya ictimaiyyəti türk xalqının İkinci Dünya müharibəsi və onun faktiki olaraq başa çatmasından sonra xidmətlərini və ideallarını layiqincə qiymətləndirir. Eyni zamanda bu addım Türkiyəni zəruri hərbi materialların bir hissəsi ilə təmin etməklə bizim müharibə nəticəsində yaranmış iqtisadi çətinliklərimizin tədricən aradan qaldırılmasına kömək etmiş olur. Biz artıq böyük inamla deyə bilərik ki, Amerika ümumi sülhün möhkəmləndirilməsi üçün onun üzərinə düşən cəsarətli rolunu öz çiyinlərinə götürməyə tamamilə razıdır (43).

Amerika dənizçiləri İstanbuldan geri döndükdən sonra İ.İnönünün Boğazların möhkəmləndirilmiş rayonlarına, o cümlədən Çanakkala, Qali-pol, Qemlik, Mudaniya, Bonduma təftiş xarakterli gəzintisi oldu.

Prezident İ.İnönünün Amerika xalqına müraciətindən az sonra Baş nazir R.Pekerin "Kolumbiya" radiosunun müxbiri Leo Hocsteterlə bütövlükdə Sovet-Türkiyə münasibətlərinə həsr olunmuş müsahibəsi yayımlandı. Baş nazir bildirdi ki, Türkiyə səmimi şəkildə Sovet İttifaqı ilə dostluq münasibətləri qurmaq istəyir, lakin Sovet tələbləri buna maneçilik törədir. R.Peker dedi: "Uzun müddətli dostluğun qurulması üçün Rusiya Türkiyənin ərazi bütövlüyü və suverenliyi ilə ziddiyyət təşkil edən, heç bir tarixi, etnik və hansısa hüquqi əsasa söykənməyən tələblərindən imtina etməlidir. Lakin müvəqqəti vədlər deyil, bu tələblərin qəti şəkildə birdəfəlik ləğv edilməsi Rusiya ilə Türkiyə arasında 1919-1920-ci illəri xatırladan dostluğun bərpa edilməsi ilə nəticələnə bilər". Baş nazir əlavə etdi ki, "Türkiyə heç bir şərtlər altında əlaltı dövlətə çevrilə bilməz". O qeyd etdi ki, hətta anqlo-sakslar Sovet təkliflərini müdafiə etmiş olsaydılar belə, hərçənd ki, o, bunu mümkün hesab etmir, Türkiyə heç bir güzəştə gedə bilməzdi. R.Peker dedi: "Hətta 1938-ci ildə Çexoslovakiyada edildiyi kimi dörd böyük dövlət Türkiyənin ərazi bütövlüyü və müstəqilliyinin pozulması hesabına bütün məsələlərdə tam razılığa gəlsələr belə biz bu təklifləri rədd edəcəyik". Türkiyənin Sovet İttifaqına və digər

müttəfiq ölkələrə dostluq münasibətinin təsdiqi kimi R.Peker 1941-ci ildə Almaniyanın Balkanlarda hökmranlıq etdiyi bir dövrdə Türkiyənin onların Qafqaza yolunu bağlamasını misal gətirdi. O bildirdi ki, hətta müharibə təhlükəsi ilə üz-üzə dayanmasına baxmayaraq 1941-ci il danışıqlarında türklər almanlara Qafqaz istiqamətinə tranzit imkanları vermədilər. Həmin dövrdə Qara dəniz sahillərində türk qüvvələrinin cəmləşdirilməsinə toxunan Baş nazir dedi ki, bu tədbir alman ordusunun Qafqaz cəbhəsinə arxadan zərbə endirmək üçün ora desant çıxarmasının qarşısını almaqdan ötrü idi. Baş nazir dedi: "Həmin vaxt bu tədbirdən razılığını ifadə edən Rusiya indi onun tamamilə digər məqsədlər üçün hazırlandığını bəyan edir" (44). R.Pekerin "Kolumbiya" radiosu ilə müsahibəsi beynəlxalq aləmdə geniş əks-səda doğurdu.

"Yunanıstan və Türkiyəyə yardım qanunu" təsdiqlənən gün, may ayının 22-də general Lansford Oliver başda olmaqla 20 nəfərdən artıq olan Amerika heyəti Ankaraya gəldi. Onlar Türkiyənin ehtiyaclarını öyrənmək və Türkiyəyə yardım göstərilməsi ilə bağlı ikitərəfli sazişin layihəsini hazırlamaq üçün 2-3 ay Ankarada qalacaqlarını açıqladılar. May ayının 24-də ABŞ səfiri E.Vilson danışıqlara başlamaq haqqında öz hökumətindən təlimat aldığını H.Sakaya bildirdi. H.Sakanın müsbət cavabından sonra may ayının 26-da Oliver missiyası ilə Türkiyə Baş qərargahının nümayəndələri arasında rəsmi danışıqlar başladı. Türkiyə tərəfindən danışıqları Baş qərargah rəisinin müavini general Müzəffər Tuksavul aparırdı. Danışıqların birinci mərhələsi iyun ayının 1-nə qədər davam etdi və onun gedişində Amerikadan gəlmiş aviasiya general-mayoru Uilyam Holl da Birləşmiş Ştatların nümayəndə heyətinin tərkibinə əlavə edildi. Danışıqların birinci mərhələsi başa çatdıqdan sonra general Oliver mətbuat üçün açıqlama verib onun gedişindən razı qaldığını bildirdi və iyun ayının 3-dən başlayaraq Amerika missiyasının üzvləri Türkiyənin hərbi və iqtisadi baxımdan mühüm sayılan rayonlarını daha dərindən öyrənmək üçün ölkənin müxtəlif bölgələrinə səfərə çıxdılar. İyun ayının 7-də "Ulus" qəzeti Oliverin ilk səfər təəssüratını dərc etdi. O deyirdi: "Mən türk əsgərinin keyfiyyətlərini yüksək qiymətləndirirəm, əgər mümkün olsaydı, türk əsgərlərindən təşkil olunmuş hərbi birləşməyə komandanlıq etməyi özüm üçün şərəf bilərdim. Türk əsgəri çox dərrakəlidir. Sən sıraya düzülmüş əsgərlərin qarşısından keçəndə görürsən ki, onlar hamısı heç bir qorxu olmayan gözləri ilə dik sənin gözünün içinə baxır". Eyni zamanda İstanbulda səfər təəssüratını jurnalistlərlə bölüşən general Oliver qeyd etdi ki, əgər türk ordusu müasir silahlarla təchiz edilərsə, bu ordu dünyada ən yaxşı ordu kimi tanınan alman ordusundan da dəfələrlə üstün ola bilər (45).

İyun ayı ərzində Amerika nümayəndələri İstanbul rayonunda və Boğazlarda oldular, İzmir, Mersin, Adana, Hatay, Sivas, Diyarbəkir,

Ərzurum, Qars, Van və bir çox digər şəhərlərə səfər etdilər. İyun ayının 17-də Ankaraya döndükdən sonra general Oliver bölgələrə səfərin yekunları barədə mətbuat konfransı keçirdi. O qeyd etdi ki, türk ordusu öz heyətinə görə əladır. Lakin onun silahlandırılmasına çox böyük ehtiyac var. Bundan əlavə Türkiyənin əsas ehtiyaclarından biri yol məsələsidir. Türkiyə yalnız hərbi nöqteyi-nəzərdən deyil, eyni zamanda iqtisadi nöqteyi-nəzərdən də yollara böyük ehtiyac duyur. Oliver dedi: "Mən belə hesab edirəm ki, Amerikanın yardımı yetərli olmayacaq. Bu məbləğdə olan yardım ilə yalnız Türkiyənin ordusunu modernləşdirmək olar. Mən bilmirəm bu yüz milyon dolların hansı hissəsi yolların çəkilməsinə, hansı hissəsi ordunun təchiz edilməsinə ayrılacaq. Bu məsələ ABŞ-ın Dövlət katibi Marşall və Ankaradakı səfir Vilsonla müzakirə ediləcək. Nəinki mən, hələlik heç kəs bilmir ki, bu yüz milyon dollardan başqa Türkiyəyə hər hansı digər yardım göstəriləcək, ya yox" (46).

İyun ayının 18-də Amerika nümayəndələri yenidən müxtəlif bölgələrə səfərlərə yollandılar və elə həmin vaxt səfir E.Vilson Türkiyəyə kömək göstərilməsi üzrə Amerika nümayəndəliyinin başçısı təyin edildi. Xarici İşlər Nazirliyinin Baş katibi F.C.Erkinlə E.Vilson arasında aparılan danışıqlarda Amerika tərəfindən hərbi və iqtisadi yardım göstərilməsi barədə saziş hazırlanmalı idi.

1947-ci ilin iyul ayının 5-də prezident İ.İnönü Amerika nümayəndə heyətinin şərəfinə ziyafət verdi. Türk mətbuatı bunu artıq Amerika-Türkiyə danışıqlarının başa çatması və saziş layihəsinin hazır olması kimi dəyərləndirirdi. Türk mətbuatı imzalanmaq ərəfəsində olan amerikan-türk sazişinin amerikan-yunan sazişinə bənzəməyəcəyini yazırdı və bunu onunla əlaqələndirirdi ki, Yunanıstan "siyasi toqquşmalar arenasına" çevrildiyi halda, Türkiyədə stabil hökumət mövcuddur. Ona görə də mətbuatın fikrincə, Türkiyəyə göstərilən yardımların üzərinə ciddi nəzarət qoymağa ehtiyac yox idi. Türkiyə qəzetləri sazişin imzalanması ərəfəsində öz oxucularını inandırırdı ki, ABŞ-ın xarici siyasəti heç bir məkrli məqsədlər güdmür.

Ankaraya səfir təyin edilmək ərəfəsində olan A.Lavrışev Amerika-Türkiyə sazişinin imzalanmasından bir gün əvvəl, 1947-ci ilin iyul ayının 11-də "Türkiyəyə Amerika yardımı haqqında" qısa bir sənəd hazırladı. Bu sənəddə yardımın mahiyyətindən və artıq hazırlanmış Amerika-Türkiyə sazişindən daha çox onun prezident tərəfindən imzalanması, həmin qanunun prezidentə verdiyi hüquqlar və s. beynəlxalq münasibətlər üçün köhnəlmiş məsələlər əhatə edilmişdi (47). Görünür, sazişin mətni tam məxfi saxlanıldığından Sovet xüsusi xidmət orqanları onun haqqında məlumat əldə edə bilməmişdilər. İyun ayının 28-də "Kontinental Deyli Meyl" qəzetində dərc edilmiş "Amerika-Türkiyə kredit sazişinə dair" yazı SSRİ Xarici İşlər Nazirliyinin əməkdaşları tərəfindən diqqətlə

öyrənilmişdi. Həmin materialda göstərilirdi ki, ABŞ türk ordusunun modernləşdirilməsi üçün Türkiyəyə veriləcək 100 milyon dollarlıq yardım haqqında saziş imzalanmaq ərəfəsindədir (48).

1947-ci ilin iyul ayının 12-də Türkiyə Xarici İşlər Nazirliyində yardım haqqında türk-amerikan sazişi imzalandı. Türkiyə tərəfindən H.Sakanın, ABŞ tərəfindən E.Vilsonun imzaladığı saziş səkkiz maddədən ibarət idi. Sənədin giriş hissəsində deyilirdi: "Türkiyə hökumətinin öz azadlıq və müstəqilliyini saxlamaq ehtiyacından irəli gələn silahlı qüvvələrini gücləndirmək, eyni zamanda öz iqtisadiyyatında stabil vəziyyətə dayaq olmaq məqsədilə yardım almaq üçün ABŞ hökumətinə müraciətini, habelə ABŞ konqresinin 1947-ci ilin may ayının 22-də qəbul etdiyi hər iki ölkənin suveren müstəqilliyinə və təhlükəsizlik şərtlərinə uyğun olaraq qəbul edilmiş qanunun Birləşmiş Ştatların prezidentinə verdiyi yetkini, bu yardımın Birləşmiş Millətlərin Nizamnaməsinin həyata keçirilməsinin əsas məqsədlərinə uyğunluğuna, iki ölkənin münasibətlərində yeni uğurlu bir dövrü açdığına, türk və amerikan xalqları arasında dostluq münasibətlərini daha da möhkəmləndirəcəyinə ABŞ hökumətinin və Türkiyə hökumətinin inamını nəzərə alaraq tərəflər bu sazişi imzalayırlar". Sazişin birinci bəndində ABŞ prezidentinin Türkiyəyə göstərdiyi yardımın Konqresin 1947-ci il may ayının 22-də qəbul etdiyi qanundan irəli gəldiyi və Türkiyənin imzalanan sazişə uyğun olaraq həmin yardımdan effektiv istifadə etməsi qeyd edilirdi. Onun ikinci bəndində ABŞ prezidentinin bu məqsədlə Türkiyədə missiyanın başçısı təyin etdiyi nümayəndənin hüquq və vəzifələri, fəaliyyət formaları, habelə Türkiyənin bu yardımdan öz təyinatı istiqamətində istifadə etməsi, ABŞ nümayəndəsinin öz fəaliyyətini həyata keçirmək üçün ona şərait yaratması və s. məsələlər nəzərdə tutulurdu. Üçüncü maddəyə görə, Türkiyə hökuməti Amerika mətbuatı və radiosunun nümayəndələrinə yardıma aid bütün məsələləri işıqlandırmağa, bu yardımın istifadə olunması ilə bağlı məsələləri müşahidə etməyə şərait yaratmalı və bu yardımın həyata keçirilməsinin məqsədlərinə, mənbələrinə, xarakterinə, əhəmiyyətinə, həcminə və uğurlarına aid olan bütün məsələləri bütövlükdə dərc etməli idi. Sazişin dördüncü maddəsi təchizat, xidmət və məlumat sahəsində təhlükəsizliyin təmin edilməsi, bu sahədə birgə məsləhətləşmələrin keçirilməsi və s. məsələləri, beşinci maddə bu sazişə uyğun olaraq göstərilən yardımdan digər ölkədən alınmış istiqraz, kredit və s. ödənilməsində istifadə edilməməsi, altıncı maddə bu saziş üzrə göstərilən yardımların dayandırılması qaydalarını nəzərdə tuturdu. Yeddinci maddəyə görə, saziş imzalandığı gündən qüvvəyə minirdi və səkkizinci maddəyə görə, onun ingilis və türk dilində olan mətnləri eyni qüvvəyə malik idi və ən nəhayət, bu saziş BMT-də qeydiyyatdan keçirilirdi (49). Sazişin imzalanma mərasimində H.Saka və E.Vilson çıxış

etdilər. Onlar bu sazişin ABŞ-la Türkiyə arasında münasibətlərin yeni mərhələsini açdığını, Birləşmiş Millətlərin əsas prinsip və ideallarının həyata keçirilməsində mühüm hadisə olduğunu qeyd etdilər. E.Vilson dedi: "Biz danışıqlar zamanı biz hər iki ölkənin müstəqilliyi və suverenliyinə tam hörmət etmək prinsipini rəhbər tutmuşuq. Bu prinsiplər sazişin ayrılmaz hissəsini, əslində onun əsasını təşkil edir. Bu sazişin məqsədi Türkiyəyə öz silahlı qüvvələrini möhkəmləndirmək və eyni zamanda öz iqtisadiyyatını stabilləşdirmək xəttini davam etdirməyə imkan verməkdir". Baş nazir R.Peker sazişin imzalanması münasibətilə E.Vilsona təbrik teleqramı göndərdi (50). Ankara valisinin bununla bağlı Amerika nümayəndə heyətinin şərəfinə verdiyi ziyafətdə general Oliver dedi ki, amerikanlar Türkiyənin bütün guşələrində olublar, quru, dəniz, hava qüvvələri ilə yaxından tanış olublar və fabrik, zavod, liman, məktəb və digər yerlərlə maraqlanıblar. Amerika nümayəndələri imzalanmış sazişin işığında Türkiyənin gələcəyinə, iki ölkənin münasibətlərinin perspektivlərinə böyük ümidlə yanaşırlar. İyul ayının 19-da Oliver missiyası Türkiyəni tərk etdi. Bundan sonra ekspertlər səviyyəsində Türkiyəyə gələn Amerikanın hərbi, maliyyə, iqtisadçı və işgüzar dairələrinin nümayəndələri sazişdən irəli gələn vəzifələrin icrasına başladılar.

Trümen doktrinasının elan olunması ilə bağlı SSRİ xarici işlər nazirinin müavini və Sovet İttifaqının BMT Təhlükəsizlik Şurasındakı daimi nümayəndəsi A.Qromıko kəskin bəyanatla çıxış etdi. O qeyd etdi ki, H.Trümenin Türkiyə və Yunanıstana yardım üçün konqresə müraciəti təcavüzkar və təxribatçı xarakter daşıyır. A.Qromıko Təhlükəsizlik Şurasının iclasındakı bəyanatında deyirdi ki, "Yunanıstan müharibədən və düşmən işğalından böyük ziyan çəkən müttəfiq ölkə kimi xaricdən kömək almaq haqqına malikdir. Türkiyəyə münasibətdə bunu demək olmaz, Türkiyə xaricdən yardım almaq üçün belə bir hüquqa malik deyildir, belə ki, o müharibədən ziyan çəkmiş ölkə adlandırıla bilməz. Onun ərazisi işğala məruz qalmayıb. Türkiyə müttəfiqlərə onların Hitler Almaniyasına qarşı mübarizəsində kömək etməyib. Demokratik ölkələrin güclü və qəddar düşmənlə mübarizəsində Türkiyə demokratik düşərgədə olmayıb" (51). 1947-ci ilin iyun ayının 12-də "Pravda" qəzetində Q.Verşinin "ABŞ-ın planları üzrə Türkiyənin modernləşdirilməsinə dair" adlı yazısı bütövlükdə A.Qromıko tərəfindən Birləşmiş Ştatlara və Türkiyəyə qarşı irəli sürülmüş ittihamların əsaslandırılmasına həsr edilmişdi. Q.Verşinin yazırdı: "Türkiyə ictimaiyyətinin narazılıqları bu ölkənin yeni "himayəçilərini" zərrə qədər də olsa narahat etmir. Onlar bu ölkədə özlərini elə aparırlar ki, guya onun sahibləridirlər. Öz yardımlarını təklif etdikdən sonra amerikanlar xüsusi hərbi nümayəndələrinə nəinki Türkiyə ərazisində aparılmalı olan işlərin proqramının müəyyən edilməsini, həm də "Trümen doktrinası"na əsasən amerikan sahibkarlarının

maraqlarına tam şəkildə cavab verən siyasi məqsədlərinin həyata keçirilməsini həvalə etməklə Türkiyənin suverenliyinə tam sayğısızlıq nümayiş etdirdilər". Amerikalıların Türkiyəyə gəlişini, orada apardığı işləri sadalayaraq "Pravda" qeyd edirdi ki, hərbi nöqteyi-nəzərdən Türkiyə artıq müstəqil dövlət deyil. Amerikan kapitalı ölkə iqtisadiyyatının dərinliklərinə nüfuz etməkdədir. Q.Verşinin fikrincə, Türkiyə iqtisadiyyat sahəsində də müstəqilliyini itirməkdə idi və orada britaniyalılar öz mövqelərini daha güclü və varlı rəqibə verməkdə idilər (52). İyun ayının 15-də və 17-də də "Pravda" Türkiyə ilə bağlı yazılar vermişdi.

Yardım haqqında Türkiyə-Amerika sazişinin mətni dərc edildikdən sonra Moskva radiosu öz şərhlərində onun ilk altı maddəsinin Türkiyənin suverenliyinə toxunduğunu bildirdi. Sazişin mətni elan olunduqdan sonra iyul ayının 17-də SSRİ Xarici İşlər Nazirliyinin Yaxın Şərq şöbəsinin yeni təyin edilmiş müdiri İ.Bakulin Türkiyədəki işlər vəkili P.Yerşova eyni gündə üç məktub göndərmişdi. Bu məktublarda tələb edilən məsələlər "Pravda" qəzetində dərc edilmiş Q.Verşinin yazısı ilə tamamilə üst-üstə düşürdü. Birinci məktubda İ.Bakulin tanınmış türk firmaları haqqında məlumat istəyirdi və yazırdı: "Bizdə olan məlumata görə, bir sıra firmalar formal olaraq qoyulmuş "yalançı şəxslər" vasitəsi ilə Amerika kapitalı əsasında işləyirlər". Həmin gün göndərdiyi ikinci məktubda İ.Bakulin Türkiyə Böyük Millət Məclisinin tərkibi haqqında xarakteristika, onun daxilindəki ziddiyyətlər, Xalq Respublikaçı partiyanın daxilindəki cərəyanlar haqqında məlumat istəyirdi. Ən nəhayət, üçüncü məktubda o, Türkiyədə İngiltərə-Amerika ziddiyyətləri haqqında, hansı sahələrdə İngiltərə-Amerika əməkdaşlığının müşahidə edildiyi, İngiltərənin Türkiyədə hansı mövqeləri tamamilə özündə saxladığı və türk cəmiyyətinin hansı təbəqəsinin ingilisləri və amerikanları müdafiə etdiyi barədə məlumatları SSRİ Xarici İşlər Nazirliyinə göndərməyi tapşırırdı (53). Eyni zamanda SİTA-nın baş direktoru N.Palqunov iyul ayının 19-da "Türkiyədə yeni dünya müharibəsinin başlanması təbliğatı ilə bağlı aparılan sistematik kampaniya barədə" toplanmış materialları V.Molotova göndərdi (54). Məsələn, SİTA-nın topladığı materiallarda göstərilirdi: "Qərbi Anadoluya səfərə gedən Xalq Respublikaçı partiyanın sədr müavini Ş.Saracoğlu demişdi ki, türk xalqı indi o səviyyəyə qalxıb ki, bütün dünyanı təəccübləndirə bilib. Müharibə başlanan dövrlə müqayisədə onun gücü azı on dəfə artıb. Ötən 6-7 il müddətində biz çoxlu sayda oğullarımızı silah altında saxlayırıq, əgər bizi təhdid edən qüvvə səfərbərliyi dayandırsa, o halda biz əsgərlərimizin bir neçə birləşməsini azad edə bilərik" (55).

Yardım haqqında Türkiyə-Amerika sazişi imzalandıqdan sonra SSRİ işlər vəkili A.Vışinskiyə "Amerika yardımı ilə bağlı Türkiyədə siyasi vəziyyət haqqında" geniş hesabat göndərdi. O yazırdı ki, iyun-iyul aylarında xarici siyasət sahəsində az-çox diqqəti cəlb edən mühüm hadisə

"hərbi yardım haqqında" danışıqlar aparmaq və saziş imzalamaq olub. General Oliver başda olmaqla Türkiyəyə ABŞ-ın hərbçilərinin səfəri və eyni zamanda ingilis səfiri Kellinin gəlişi, Britaniya donanmasının İstanbulda bir neçə gün olması haqqında hesabatda bəzi maraqlı məqamlara toxunulurdu. P.Yerşov yazırdı: ABŞ-ın imperialist planlarında Türkiyə mühüm yer tutur və Türkiyə-Amerika sazişinin imzalanması bu planların nəinki Türkiyədə, eləcə də bütün Yaxın Şərqdə həyata keçirilməsinin başlanğıcıdır". O, SSRİ Xarici İşlər Nazirliyinə bildirirdi ki, "Bu sazişlə Türkiyə Amerika hakim dairələrinin əlində oyuncağa çevrildi" (56).

Sovetlərin belə kəskin münasibətinə baxmayaraq, Trümen doktrinası SSRİ-nin təzyiqlərinə məruz qalmış Türkiyənin xarici siyasətində dönüş nöqtəsi oldu. Belə ki, İkinci Dünya müharibəsinin ağır dövrünü bitərəf bir siyasətlə başa vuran Türkiyənin xarici siyasətində Trümen doktrinası tərəfsizliyin başa çatması kimi qiymətləndirilə bilər. 1945-1947-ci illərdə Türkiyəyə qarşı yeritdiyi ekspansionist siyasətlə SSRİ Türkiyəni ABŞ-ın strateji müttəfiqinə çevirdi. Trümen doktrinası Türkiyənin hərbi, iqtisadi və siyasi cəhətdən qərb bloklarına inteqrasiya olunmasının əsasını qoydu. Eyni zamanda bu doktrina Yaxın və Orta Şərqdə qüvvələr nisbətinin ABŞ-ın xeyrinə dəyişməsinin, Britaniyanın bölgədəki rolunun Birləşmiş Ştatlara keçməsinin bilavasitə təsdiqi idi. Lakin hələ 1939-cu ildə imzalanmış ingilis-türk müqaviləsinin sonu deyildi. Türkiyənin təhlükəsizliyi baxımından Trümen doktrinasının siyasi əhəmiyyəti, imzalanmış sazişə əsasən ABŞ-ın göstərdiyi maliyyə yardımının həcmindən çox böyük idi. Ən nəhayət, Sovet təhdidləri qarşısında ABŞ-dan ciddi dəstək alan Türkiyə ingilis-türk ittifaq müqaviləsindən fərqli olaraq imzalanmış sazişə görə öz üzərinə elə bir ciddi öhdəlik götürmürdü.

Trümen doktrinası Türkiyənin 1947-ci ilin iyun ayında elan olunmuş Marşall planına qoşulması üçün əlverişli şərait yaratdı. Əlbəttə, əvvəllər ABŞ ekspertləri Türkiyənin Avropanın müharibədən ziyan çəkmiş ölkələrinin iqtisadiyyatının bərpası üçün nəzərdə tutulan yardım proqramına qatılmasında maraqlı deyildilər. Lakin Türkiyə Trümen doktrinası üzrə yardım proqramının onun iqtisadiyyatındakı dəyişikliklər üçün yetərli olmadığını sübut edə bildi və xarici işlər naziri H.Saka Marşall planını müzakirə etmək üçün 1947-ci ilin iyul ayında Avropa ölkələrinin Parisdə keçirilən toplantısına qatıla bildi. Türkiyənin cidd-cəhdlərindən və uzun müzakirələrdən sonra ABŞ hökuməti Türkiyənin Marşall planı üzrə Avropanın bərpası proqramına daxil edilməsinə razılıq verdi. Türkiyə Marşall planı çərçivəsində 10 milyon dollardan ibarət olan ilk yardımı 1948-ci ilin martında aldı (57).

Moskvadan verilən tapşırıqlara uyğun olaraq Ankaradakı Sovet səfirliyi Amerika yardımı ilə bağlı Türkiyədə gedən hərbi, siyasi, diplomatik prosesləri, xüsusilə Trümen doktrinasından sonra Türkiyədə

Britaniya-Amerika münasibətlərində baş verən dəyişiklikləri diqqətlə izləyirdi. 1947-ci ilin sentyabr ayının 4-də P.Yerşovun SSRİ Xarici İşlər Nazirliyinə göndərdiyi məlumatda 12 iyul 1947-ci il Türkiyə-Amerika sazişinin həyata keçirilməsi ilə bağlı Türkiyədəki vəziyyət təhlil edilirdi. O yazırdı: "Ötən ayların hadisələri göstərir ki, Türkiyə hökuməti öz ölkəsini tamamilə ABŞ-ın hərbi-siyasi məqsədlərinə tabe etmək yoluna keçmişdir və mühüm daxili xarakterli məsələlərin həllində amerikanların direktivləri üzrə hərəkət edirlər" (58). Elə həmin gün, sentyabr ayının 4-də P.Yerşovun A.Vışinskiyə yazdığı ikinci məktub İ.Bakulinin iyulun 17-də verdiyi tapşırıqlar üzrə bilavasitə "Türkiyədə İngiltərə-Amerika münasibətləri haqqında" idi. SSRİ işlər vəkilinin fikrincə, son zamanlara qədər Türkiyədə İngiltərə siyasəti üstünlük təşkil edirdi. İngilislər Türkiyə də daxil olmaqla Yaxın və Orta Şərq ölkələrinə özlərinin "İmperiya təsiri" sahələri kimi baxırdılar. Lakin Sovet səfirliyi hələ Trümen doktrinasından əvvəl Britaniyanın mövqelərinin Türkiyədə zəifləməsini ticarət dövriyyəsinin azalması ilə izah edirdi. Səfirliyin məlumatına görə, 1947-ci ilin altı ayında Britaniyanın Türkiyəyə ixracatının həcmi 5 milyon funt sterlinqi keçsə də və bunun 1946-cı ilin müvafiq dövrü ilə müqayisədə 2 dəfəyə qədər çox olmasına baxmayaraq Türkiyənin xarici ticarətində Britaniyanın xüsusi çəkisinin azalmağa doğru getdiyi bildirilirdi (59).

Səfirliyin göndərdiyi başqa bir məlumatda yardım haqqında Amerika-Türkiyə sazişi imzalandıqdan sonra 8 gəmidən ibarət Britaniya eskadrasının İstanbula səfəri İngiltərənin öz mövqelərini təslim etmək istəməməsi kimi şərh edilirdi. Admiral Uillis başda olmaqla Britaniya dənizçilərinin İstanbula səfərinə, onların Ankarada İ.İnönü tərəfindən qəbul edilməsinə, Uillisin Baş qərargahda, Müdafiə Nazirliyində və Xarici İşlər Nazirliyində keçirdiyi görüşlərə Sovet nümayəndələri 1939-cu il ittifaq müqaviləsinin xatırladılması kimi baxırdılar. Səfirliyin hesabatında deyilirdi: "Bilavasitə türk-amerikan sazişindən sonra ingilis eskadrasının Türkiyə sularına gəlməsini təsadüfi hadisə saymaq olmaz. Bu səfərlə ingilislər digər məqsədlərdən başqa aydın şəkildə göstərmək istəyirdilər ki, əvvəllər olduğu kimi onlar bu rayonda öz mövqelərini qoruyub saxlayacaqlar və ümumiyyətlə, Türkiyədən getmək niyyətində deyildirlər". Daha sonra hesabatda qeyd olunurdu ki, "Türkiyədə amerikanların artan təsiri ilə bağlı həyəcanlarını ingilislər çətinliklə gizlədirlər. İngilis mövqelərini təhdid edən daha güclü "Amerikan yırtıcısı" Türkiyənin iqtisadiyyatına nüfuz edir. Lakin türklərin ingilislərə göstərdiyi mehriban qəbul, eyni zamanda dəfələrlə mətbuatda ənənəvi ingilis-türk dostluğuna istinad edilməsi görünür ingilislərin sakitləşdirilməsinə hesablanıb" (60).

1947-ci ilin sentyabr ayında baş vermiş hökumət böhranı da Sovetlərin diqqət mərkəzində idi. Bu böhran Sovetlərin ciddi şəkildə

maraqlandığı iqtidar-müxalifət münasibətlərində yaranmış gərginliyin bilavasitə nəticəsi idi. 1947-ci ilin mayından başlayaraq Baş nazir R.Pekerlə DP lideri C.Bayar arasında başlanmış qarşıdurma sentyabrın əvvəllərində Peker hökumətinin istefası ilə nəticələndi. Prezident İ.İnönünün hökumət və DP liderləri ilə 1947-ci ilin iyul ayının əvvəllərində keçirdiyi görüşlər elə bir nəticə vermədi. Türkiyə Böyük Millət Məclisinin yay tətili zamanı bölgələrə səfər edən DP millət vəkilləri hökumətin siyasətini ciddi şəkildə tənqid etdilər. Bu baxımdan C.Bayarın Sivasdakı geniş çıxışı daha səciyyəvi idi. C.Bayar öz çıxışında R.Peker hökumətinin iqtisadi siyasətini, siyasi həyatda diktaturaya meylliliyini, dövlət yetkililərinin Demokrat partiyasına qarşı mübarizəsinin Baş nazir tərəfindən himayə olunmasını və bütövlükdə Pekerin çoxpartiyalı sistemə hazır olmamasını geniş formada təhlil edib ona qarşı ağır ittihamlar irəli sürdü. İyul ayının ilk günlərində R.Pekerin mətbuatda C.Bayara verdiyi cavablar DP liderinin tənqidləri fonunda çox zəif görünürdü. R.Peker hökumətin hazırladığı yeddi illik yeni iqtisadi planın ölkəni dirçəldəcəyini, Demokrat partiyasının liderlərinin ardıcıl olaraq hökuməti tənqid etməsinin ölkədə arzuolunmaz şərait yaratdığını, vətəndaşlar arasında hökumətə qarşı nifrət hissini gücləndirdiyini "Ulus" qəzetinə verdiyi açıqlamada bəyan etdi. Baş nazirin açıqlamalarında DP-nin cəmiyyəti inqilaba səsləməsi və hökuməti devirməyə çağırması haqqında ittihamlar var idi (61). R.Pekerin açıqlamalarına C.Bayarın münasibəti çox sərt oldu. O qeyd edirdi: "Baş nazir Recep Pekerin mənim Sivas çıxışımla bağlı müsahibəsi Baş nazirin bizim ölkədə və dünyada yaranmış indiki şəraitdə daxili siyasət sahəsində ölkənin ehtiyaclarını ödəmək iqtidarına malik olmadığını bir daha təsdiq edir". C.Bayar öz bəyanatında R.Peker hökumətinin hakimiyyətə gəldiyi gündən terror kabineti olduğunu, siyasi tənqidləri zərərsizləşdirmək üçün mətbuatı susmağa məcbur etməsini, Məclisin və hökumətin saxta seçkilər əsasında formalaşmasını geniş şəkildə şərh etdi. O dedi: "R.Peker və onun kabineti Demokrat partiyasını inqilaba çağırış niyyətlərində və anarxiyada ittiham edir. Hətta respublika prezidenti ilə söhbət zamanı Baş nazir dedi ki, demokratlar inqilabla bərabər hökumət çevrilişi və qəsd təşkil edirlər. Bununla bağlı hökumətin tam silahlanmış halda belə hərəkətləri dəf edəcəkləri və Məclisin bir sıra deputatlarını toxunulmazlıq hüququndan məhrum edəcəkləri haqqında təhdidlərini xatırlamamaq mümkün deyildir" (62). Qeyd etmək lazımdır ki, bu qarşıdurma ilə bağlı həm R.Pekerin, həm də C.Bayarın bütün çıxış və bəyanatları Sovet səfirliyi tərəfindən SSRİ Xarici İşlər Nazirliyinə göndərilmişdi.

Baş nazir R.Peker bu qarşıdurmada prezident İ.İnönünün onu müdafiə edəcəyinə əmin olsa da, hadisələr digər istiqamətdə cərəyan etdi. Yardım haqqında Amerika-Türkiyə sazişinin imzalanmasından bir gün əvvəl

İ.İnönü iyulun 11 -də axşam radio ilə çıxış edib partiyalar fövqündə dayanan bir prezident olduğunu və R.Pekerin inqilaba çağırışlarda günahlandırdığı Demokrat partiyasını müdafiə etdiyini açıqladı. Türkiyə demokratiyasının inkişafında mühüm addım kimi qiymətləndirilən bu bəyanat iyulun 12-də qəzetlərdə dərc olunduğundan o tarixə "İyul Bəyannaməsi" kimi düşdü. Bu hadisə Türkiyənin beynəlxalq imicinin möhkəmlənməsində, qərb ölkələri tərəfindən ona inamın artmasında mühüm rol oynamaqla yanaşı, R.Peker hökumətinin dayaqlarını sarsıtdı və onun böhranını qaçılmaz etdi.

1947-ci ilin oktyabr ayında Türkiyədə hökumət böhranı haqqında SSRİ işlər vəkili P.Yerşov A.Vışinskiyə 11 səhifəlik məlumat göndərmişdi. Məlumatda əvvəlcə R.Pekerin idarəçiliyi təhlil edilir, onun səhvləri sadalanır və İ.İnönünün kabinetin iclasını çağırıb onun istefasını tələb etdiyi bildirilirdi. P.Yerşov yazırdı: "Sentyabr ayının 8-də keçirilən iclasda İ.İnönü R.Pekerdən tələb etdi ki, istefaya getsin. R.Peker öz növbəsində prezidentə bildirdi ki, o, istefaya getməyəcək və İnönü özü istefa versin". P.Yerşovun məlumatına görə, bu mübahisə o həddə çatdı ki, R.Pekerin ürək tutmasına görə həkim çağırmalı oldular. Sentyabr ayının 9-da hökumətdən müdafiə görməyən R.Peker istefaya getməli oldu. Sentyabr ayının 10-da keçmiş hökumətdə xarici işlər naziri vəzifəsini tutmuş H.Saka başda olmaqla yeni hökumət kabineti quruldu və yeni hökumətdə xarici işlər naziri vəzifəsini tanınmış jurnalist, uzun müddət beynəlxalq mövzularda maraqlı yazılarla çıxış edən Nəcməddin Sadak tutdu. O ilk açıqlamasında bildirdi ki, ölkənin indiyə qədər yeritdiyi xarici siyasət kursunda ən kiçik dəyişiklik belə baş verməyəcək (63).

Sentyabr ayının 10-da Baş nazir H.Saka Məclisdə hökumət proqramı ilə çıxış etdi. O, hökumət proqramının xarici siyasət hissəsini şərh edərkən bildirdi ki, Türkiyənin xarici siyasətində elə bir dəyişiklik baş verməyəcək. Eyni zamanda oktyabr ayının ortalarında Türkiyədə daimi fəaliyyət göstərən Amerika hərbi missiyasının yaradılması ABŞ-Türkiyə münasibətlərinin Ankaranın xarici siyasətində aparıcı istiqamətə çevrilməsində mühüm rol oynadı. İrandakı Amerika səfiri C.Allenin Ankaraya səfəri, onun N.Sadak, H.Saka və İ.İnönü tərəfindən qəbul edilməsi ABŞ-ın Yaxın Şərq siyasətinin formalaşmasında əhəmiyyətli addım oldu. Danışıqlar zamanı Amerika planına əsasən İran-Türkiyə yaxınlaşması müzakirə edildi. C.Allen İ.İnönünü Məhəmməd Rza şahın adından İrana dəvət etdi və bildirdi ki, bu səfər prezident Trümen tərəfindən müdafiə edilir (64).

İran Azərbaycanında milli hərəkatın məğlubiyyətindən sonra Sovetlərin İrandan neft almaq planları gün-gündən çətinləşirdi. ABŞ-ın vasitəçiliyi ilə Yaxın Şərqdə İran-Türkiyə əməkdaşlığının başlanması və bir sıra ərəb ölkələrinin Türkiyə ilə əməkdaşlığa meylli olması bu regionda

SSRİ-nin təsirini hiss ediləcək dərəcədə zəiflətmişdi. 1947-ci ilin sentyabr ayında SSRİ Xarici İşlər nazirliyinin idarə rəisi S.Sıçevlə görüşən Moskvadakı İran səfiri M.Firuz açıq şəkildə deyirdi ki, İran hakimiyyət dairələri vaxt qazanmaq üçün neft sazişinin təsdiqinin yubadılması istiqamətində siyasət yeridəcəklər. Onlar ümid edirlər ki, beynəlxalq şərait onların xeyrinə formalaşır. M.Firuzun fikrincə, SSRİ-nin maraqları İran irticasının maskasını daha tez yırtmağa başlamasını, Sovet İttifaqını baş vermiş fakt - İranın ikinci Türkiyəyə çevrilməsi reallığı qarşısında qoymağa imkan verməməsini tələb edir. Bununla bağlı M.Firuz məsləhət görürdü ki, neft sazişinin şərtləri haqqında məsələdə Sovetlər İran hökumətinə heç bir güzəştə getməsin, əks təqdirdə Sovet İttifaqının beynəlxalq nüfuzu bundan ziyan çəkə bilər (65).

İran və Türkiyənin yaxınlaşmasına Moskvada çox ehtiyatla yanaşırdılar. SSRİ Xarici İşlər Nazirliyinin Yaxın Şərq şöbəsinin müdiri İ.Bakulin P.Yerşova yazırdı ki, 1947-ci ilin oktyabr ayında İranla Türkiyə arasında əsasən Türkiyə ərazisindən keçməklə Təbriz-Hatay dəmir yolunun çəkilməsi haqqında danışıqlar olub. Eyni zamanda İ.Bakulin bildirirdi ki, oktyabr ayının ortalarında İstanbulda ərəb ölkələri nümayəndələri ilə Türkiyə arasında Yaxın Şərqdə yeni dəmir və şosse yollarının tikilməsi ilə bağlı müşavirə keçirilib. Bu məsələlər barədə əldə olunan məlumatların SSRİ Xarici İşlər Nazirliyinə göndərilməsi barədə İ.Bakulin P.Yerşova tapşırıq verirdi (66).

1947-ci ilin oktyabr ayının əvvəllərində Türkiyə ordusu Baş qərargahının rəisi ordu generalı Omurtakın başçılığı ilə bütün ordu qruplaşmalarının təmsilçilərindən ibarət hərbi heyətin Amerikaya səfəri iki ölkənin hərbi sahədə əməkdaşlığına əməli xarakter verdi. Bir sıra müşahidəçilər belə hesab edirdilər ki, general Omurtak Amerikanın Türkiyəyə hərbi yardımını gücləndirmək haqqında danışıqlar aparacaqdır. Eyni zamanda Vaşinqtona səfər zamanı türk hərbçilərinin heyəti iki gün Londonda dayanıb Britaniya Baş qərargahının rəhbərləri ilə məsləhətləşmələr apardılar. Oktyabr ayının 7-də Vaşinqtona gələn türk hərbi heyətini general D.Eyzenhayer və digər hərbçilər qarşıladılar. Oktyabrın 8-də general Omurtakı prezident Trümen qəbul etdi. Elə həmin gün D.Eyzenhayer türk nümayəndə heyətinin şərəfinə qəbul keçirdi. Amerika siyasi dairələri yüksək rütbəli türk hərbçilərinin səfərinə böyük əhəmiyyət verirdilər. Onların fikrincə, Sovet İttifaqının təcavüzkarlıq meylləri, kommunist təhlükəsi artdıqca Türkiyənin Amerika üçün əhəmiyyəti də artırdı. Oktyabr ayının 9-da keçirdiyi mətbuat konfransında general Omurtak 100 milyon dollar Amerika yardımının Türkiyə üçün yetərli olmadığını vurğuladı və əlavə etdi ki, "bu məsələ bizim ehtimal olunan düşmənin hərbi qüdrətinə uyğun olmalıdır". O qeyd etdi ki, Amerika köməyinin olub-olmayacağından asılı olmayaraq Türkiyə İkinci Dünya müharibəsi illərində olduğu

kimi düşmənin hər hansı hücumuna qarşı dayanmağa hazırdır. Sonra Omurtak bildirdi ki, məsələnin mühüm olan tərəfi həcmindən asılı olmayaraq ABŞ-ın Türkiyəyə yardım göstərməsidir. O məlumat verdi ki, artıq 10 gün əvvəl silahların birinci hissəsi Türkiyəyə göndərilib. Amerikada olduqları bir ay müddətində Türkiyə nümayəndələrinin ABŞ-ın quru, dəniz və hava qüvvələrinin 50 hərbi bazasına baş çəkəcəkləri planlaşdırılmışdı (67).

Yüksək rütbəli ABŞ hərbçiləri ilə danışıqlarda general Omurtak bildirdi ki, Rusiya tərəfindən təcavüz təhlükəsi bizi məcbur edir ki, böyük sayda adamları silah altında saxlayaq. Ölkənin iqtisadi çətinlikləri ilə əlaqədar Türkiyə hökuməti hələ 1947-ci ilin avqust ayından türk ordusunun sayının 485 mindən 330 minə endirilməsi ilə bağlı ABŞ və Britaniya hökumətləri ilə məsləhətləşmələr aparırdılar. Onlar belə hesab edirdilər ki, Amerika yardımları əsasında ordunun modernləşdirilməsi onun sayının azaldılması ilə bağlı itkini əvəz edə bilərdi. Digər tərəfdən Sovetlər türk ordusunun sayının azaldılmasını Türkiyənin geri çəkilməsi kimi qiymətləndirib ona qarşı təzyiqlərini daha da artıra bilərdi. Bu məsələ Vaşinqton danışıqları zamanı Baş qərargahların rəhbərləri arasında geniş müzakirə edildi. Eyni zamanda Dövlət katibi C.Marşall bu məsələ ilə bağlı ABŞ-ın mövqeyini Ankaradakı səfir E.Vilson vasitəsi ilə KSaka və N.Sadaka da çatdırdı. 1947-ci ilin oktyabr ayının 10-da C.Marşall yazırdı: "Beynəlxalq vəziyyət pis olsa da, Yaxın gələcəkdə müharibə təhlükəsi yoxdur. Biz inanınırıq ki, SSRİ müharibə istəyir. Aşkar görünür ki, Sovet siyasəti bir sıra xarici ölkələrdəki kommunist partiyalarının dağıdıcı fəaliyyətindən, siyasi, iqtisadi və psixoloji silahlardan lazım gəldikcə istifadə edərək məqsədlərə nail olunmasına yönəldilib. Birinci məqsəd ölkənin strateji ərazilərində xaos yaratmaqdır ki, ruslar bu vəziyyətdən özlərinə itaətkar rejim yaratmaq üçün istifadə edə bilərlər. Biz hesab edirik ki, onlar bu siyasətin əlverişli nəticələr vəd etdiyini gördükcə və ən azından öz daxili bərpa işlərində irəliləyiş əldə etməyənə kimi, silahlı toqquşmaya getməyəcəklər". C.Marşall qeyd edirdi ki, "Biz türklərin hazırda gözdən keçirdikləri tərxis olunmanın rusların münasibətində və ya bu regiondakı fəaliyyət kursunda hər hansı hiss olunacaq təsirə malik olacağına inanırıq. Bununla belə, əgər türklər tərxis olunma barədə planlarını həyata keçirməyi qərara alsalar, bunun ordunun yenidən qurulması prosesinin bir hissəsi olan silahlı şəxslərin sayının azaldılması tədbiri kimi qələmə verilməsi daha məqsədəuyğun olardı. Bunu ona görə elan etmək olar ki, yeni amerikan avadanlıqlarının alınması nəticəsində ordunun gücü sayın azaldılmasına baxmayaraq artacaqdır. Əlavə olaraq vurğulamaq mümkündür ki, istehsal işləri üçün işçi qüvvəsinin artırılması və hərbi xərclərin azaldılması ölkənin iqtisadi gücünü artıracaqdır və bununla da Türkiyəni daxildən zəifləmiş görmək istəyənlərin ümidləri doğrulmayacaqdır. Əlbəttə ki, türklər tərxis olunmanın xarici siyasətdə dəyişikliklərdən və ya öz

ölkələrinin suverenliylni, müstəqilliyini və ərazi bütövlüyünü qorumaqda qətiyyətlərinin azalmasından xəbər verilməsi şəklində təəssüratın meydana çıxmamasında ehtiyatlı olmalıdırlar" (68).

Vaşinqtonda türk nümayəndə heyətinin şərəfinə verilən ziyafətdə general D.Eyzenhauer keçmişi xatırlayaraq bildirmişdi ki, hələ 1940-cı ildə müttəfiqlər Şimali Afrikada alman və italyan orduları ilə vuruşan zaman general Omurtak Afrika cəbhəsinə səfər etmişdi: "Onda biz almanlara qarşı vuruşurduq və qələbə hələ yaxında deyildi. Onda sizin gəlişiniz göstərdi ki, siz bizimlə birlikdə azadlıq uğrunda mübarizə aparanların düşərgəsindəsiniz. İndi də vəziyyət elə də aydın deyil. İndiki zamanda sizin burada bizim aramızda olmağınız göstərir ki, siz yenə də azadlıq uğrunda mübarizə aparanlarla bir yerdəsiniz. Siz eyni ilə bizim kimi xarici təzyiqlərin qarşısında baş əymədiniz" (69).

1947-ci ilin oktyabrında BMT Baş Məclisinin sessiyasında və Birinci komitənin iclasında SSRİ xarici işlər nazirinin müavini A.Vışinskinin çıxışı Sovet təhlükəsinin keçmişdə qalması barədə təsəvvürləri alt-üst etdi. A.Vışinski BMT-nin Birinci komitənin iclasında "Yeni müharibə qızışdırıcıları və təbliğatçıları əleyhinə" adlı beş hissədən ibarət olan geniş məruzəsində keçmiş müttəfiqlərə qarşı ağır ittihamlar irəli sürdü. Trümen və Marşall planları üzrə Türkiyə və Yunanıstana, Qərbi Avropanın 16 ölkəsinə göstərilən Amerika yardımlarını A.Vışinski Amerika dolları hesabına satın alınmış sülh kimi xarakterizə edirdi (70). Oktyabrın 24-də BMT Baş Məclisinin Siyasi Komitəsində A.Vışinskinin çıxışının böyük bir hissəsi Türkiyəyə qarşı yönəlmişdi. Türkiyənin BMT-dəki yeni nümayəndəsi, Sovet İttifaqındakı keçmiş səfir S.Sarper Siyasi Komitənin iclasındakı çıxışında qeyd etdi ki, Sovet nümayəndə heyəti üzvlərinin Türkiyə barəsində hücumları ədalətli və düzgün deyildir. O, bu sözləri söylərkən A.Vışinskini ədalət hissinin səsinə qulaq asmağa çağırdı. S.Sarper bildirdi ki, Türkiyədə heç kim müharibə yə təhrik etməklə məşğul deyildir. Halbuki Moskva radiosu hər gün, hətta türk dilində bəzi məlumatlar verərək Türkiyənin ictimai münasibətlərini, Türkiyənin siyasətini və sairəni tənqid edir. S.Sarper "İzvestiya" qəzetinin Türkiyə haqqında böhtanlar yazmasına toxunaraq demişdi ki, "İzvestiya" qəzetinin yazdığına görə Türkiyə ilə ABŞ arasında saziş imzalandıqdan sonra Türkiyənin iqtisadiyyatı onun mənafeyinə uyğun surətdə inkişaf etməyəcəkdir. Bu inkişaf yalnız ABŞ-ın xarici siyasət planlarına uyğunlaşdırılacaqdır. Bu saziş nəticəsində Türkiyəyə Amerika nəzarəti qoyulacaqdır. S.Sarper öz çıxışında Türkiyəyə qarşı ərazi tələblərinin də Moskvanın təbliğatında müəyyən yer tutduğunu vurğulamışdı. Hələ 1947-ci il oktyabr ayının 8-də P.Yerşov SSRİ Xarici İşlər Nazirliyinə yazırdı ki, Türkiyə hökuməti BMT-dəki yeni nümayəndəsi S.Sarper vasitəsi ilə Baş Məclisdə SSRİ-yə qarşı hücumlarını

həyata keçirir. Belə ki, S.Sarper Baş Məclisdə C.Marşalın Sovet İttifaqı əleyhinə yönələn bütün təkliflərini müdafiə edir, Sovet mətbuatını və radiosunu guya Türkiyənin sülhsevər əhvali-ruhiyyəsinə qarşı "əsəb müharibəsi" aparmaqda təxribatçıcasına günahlandırır (71). S.Sarperə cavab verən A.Vışinski öz çıxışını bütövlükdə SSRİ Xarici İşlər Nazirliyinin arxiv idarəsmin 1946-cı ildə Türkiyə əleyhinə təbliğatı gücləndirmək üçün buraxdığı "Almaniyanın Türkiyədə siyasəti" adlı sənədlər toplusu üzərində qurmuşdu. Məsələn o, 1941-ci ilin dekabr ayının 2-də alman generalı Varlimintonun bir məktubunu nümunə göstərirdi. Bu məktubda deyilirdi ki, türklər "Krımda, Şimali Qafqazda vs Rusiya Azərbaycanında müstəqil, yaxud heç olmazsa zahirən müstəqil türk dövlət birlikləri yaradılması, həm də Şimali Qafqazda və Rusiya Azərbaycanında Qafqaz dövlətinin hissələri kimi dövlətlər yaradılması, habelə Xəzər dənizinin şərqində də bu cür dövlət birlikləri yaradılması fikrini" təbliğ edirlər. A.Vışinski deyirdi: "Bu cür sənədləri nəzərdən keçirərkən aydın olur ki, nə üçün Yalçın, yeni beynəlxalq qayda yaradılmasına Sovet İttifaqı razılıq vermədikdə onun üzərinə yağış kimi atom bombaları tökməyi tələb etmişdir. Əgər həmin Yalçın Moskva ilə yalnız ultimatum dilində danışmaq lazım gəldiyini yazmışsa, deputat Atay Rusiyaya qarşı bütün dünyanın birləşməsini tələb etmişsə, Dayer adlı (Abidin Daver nəzərdə tutulur - C.H.) birisinin məqaləsində bədnam "Gümhuriyyət" qəzeti Amerika və İngiltərənin Sovet İttifaqına qarşı qəti tədbirlər görməsi vaxtının gəlib çatdığını və yalnız bu vasitə ilə Moskvanın düz yola dəvət oluna biləcəyini söyləmişsə - bütün bunlar müharibə yə çağırış deməkdir. Qarşımızda duran bir sıra məsələlərin vəziyyəti bu cürdür. Bu vəziyyət cinayətkar müharibə təbliğatına son qoyulmasında israr etməyi bizdən tələb edir" (72).

Sovet nümayəndəsi BMT-nin sessiyasından qayıtdıqdan sonra P.Yerşov A.Vışinskiyə noyabr ayının 7-də yazırdı ki, Türkiyənin BMT-dəki nümayəndəsi açıq-açığına SSRİ-nin əleyhinə işləyir. Türk mətbuatı A.Vışinskinin S.Sarperə verdiyi cavabların mahiyyətini təhrif edir, Türkiyə idarəçilərinin Sovet İttifaqına münasibətdə təcavüzkarlıq planlarını gizlətməyə cəhd göstərir (73).

A.Vışinskinin BMT-nin Siyasi Komitəsindəki çıxışı türk mətbuatında yeni anti sovet dalğanın güclənməsinə rəvac verdi. "Ulus" qəzeti üç gün, ardıcıl olaraq hər sayında hadisələrin gedişini özündə əks etdirən Sovet İttifaqı əleyhinə karikatura dərc etdi. Birinci karikaturada üstündə "veto" yazılmış xəncərlə qorxmuş ilahənin üstünə gedən qoca kişi cildində Sovet İttifaqı təsvir edilirdi. Bu təsvirdə xəncər ilahədən yan keçib divara sancılır. İkinci karikaturada divarın arxasından çıxan amerikalı baba qoca kişinin sifətinə yumruqları ilə zərbələr endirir və onu tapança ilə qorxudur. Qoca geri çəkilir, özünün bütün xəncərlərini qınına salır və sülh ilahəsi öz

sevincini ifadə edirdi. Üçüncü karikaturada qoca bütün xəncərləri ilə sülh ilahəsinin üstünə atılır və xəncərləri onun düz ürəyinə sancır. Sülh ilahəsinin ürəyindən qan fəvvarəsi vurur. Sülh ilahəsi və divarın arxasında olan, tapançasını yerinə qoymuş amerikalı babanın sifətini fəlakət ifadəsi bürüyür. Qoca qələbəni bayram edir. Karikaturanın altında bu sözlər yazılmışdı: "Gözəl günlərin birində belə qurtaracaq". Ankaradakı Sovet səfirliyi Moskvaya yazırdı: "Belə təxribatçı karikaturalar bütün qəzet və jurnallarda çap edilir. Türk müharibə qızışdırıcıları digərlərini "böhtan" atmaqda günahlandıraraq hər gün Sovet İttifaqı əleyhinə müharibəyə çağırışlar edir". A.Vışinskinin BMT tribunasından təhqir etdiyi A.Daver isə onun çıxışını "dəlinin sayıqlaması" adlandırırdı (74).

1947-ci ilin sentyabr ayının sonlarında ÜİK(b)P və Avropanın 8 ölkəsinin kompartiyalarının Polşada keçirilən müşavirəsində Kominformbüronun (Kommunist və Fəhlə Partiyalarının İnformasiya Bürosu - C.H.) yaradılması Türkiyədə narahatlıqla qarşılandı. Trümen doktrinası və Marşall planından sonra qərb ölkələrinin birlik nümayiş etdirməsi, Sovet rəhbərliyinin təzyiqi ilə Şərqi Avropa ölkələrinin Marşall planından imtina etmələri yeni beynəlxalq şərait yaratmışdı. Sovetlərin planı əsasında xalq demokratiyası ölkəsinin kompartiyalarının Polşada keçirilən görüşü və bu görüşdə V.Molotov və A.Jdanovun iştirakı beynəlxalq kommunist orqanın yaradılması ideyasını özündə ehtiva edirdi. Görüşdə məruzə edən A.Jdanov nəinki "qardaş partiyaların" işinə qiymət verdi, eyni zamanda yaranmış yeni şəraitdə onların qarşısında konkret vəzifələr qoydu. A.Jdanovun məruzəsində ilk dəfə dünyanın iki düşərgəyə bölünməsi ideyası irəli sürüldü: imperialist antidemokratik düşərgə və antiimperialist demokrat düşərgə. A.Jdanov açıq şəkildə bəyan etdi ki, yaranmış yeni, şəraitdə bütün ölkələrin, xüsusilə hökumət koalisiyalarına daxil olduğu ölkələrin kommunistlərinin başlıca vəzifəsi Sovet İttifaqına yardım göstərməkdən ibarətdir. Onun fikrincə, imperializmin yeni ekspansionist cəhdlərinə müqavimət göstərilməsinin başında Sovet İttifaqı dayanır və qardaş partiyalar öz ölkələrində mövqelərini möhkəmləndirməklə yanaşı, onlar eyni zamanda demokratiya və sosializmin dayağı olan Sovet İttifaqının qüdrətinin artmasında da maraqlı olmaq mövqeyindən çıxış etməlidirlər (75). Müşavirədə bəzi kompartiyaların Moskvanın asılılığından azad olması barədə fikirlərinin səsləndirilməsi də A.Jdanov tərəfindən kəskin tənqid edildi. O dedi: Moskva heç vaxt asılılıq şəraitini yaratmayıb və onu yaratmağı da arzulamır. Moskvadan bu "asılılığın" qəsdən qeyd edilməsi, Moskvadan "üz döndərilməsi" əslində mahiyyət etibarilə Moskvanı düşmən hesab edənlərə yaltaqlıq, ikiüzlülük göstərmək və dəm tutmaqdan ibarətdir (76).

ÜİK(b)P, Fransa, İtaliya va Şərqi Avropa kompartiyalarının Polşa müşavirəsinin yekunu kimi Kominform yarandı. Müşavirənin sənədlərində

onun yaranması təcrübə mübadiləsinin təşkil edilməsi, zərurət yarandıqda qarşılıqlı razılıq əsasında kompartiyaların fəaliyyətinin koordinasiya edilməsi ilə əlaqələndirilirdi.

Kompartiyaların Polşa müşavirəsi, Kominformbüronun yaradılması ilə bağlı Türkiyə mətbuatı geniş kampaniya qaldırdı. A.Jdanovun məruzəsi türk mətbuatı tərəfindən Moskvanın Kominterni bərpa etməsi kimi dəyərləndirilir və Sovet İttifaqına qarşı vahid cəbhənin yaradılması zəruri sayılırdı. Oktyabr ayının 6-da "Cümhuriyyət" yazırdı ki, qeyri-kommunist rejimləri məhv etmək üçün Sovetlərin yaratdığı şeytan şəbəkəsi yenidən öz fəaliyyətini genişləndirib. Bir sıra mətbuat orqanları Ankara siyasi dairələrinə istinadən Kominformun yaradılmasını BMT-yə böyük zərbə kimi qiymətləndirir, bu addımın Sovetlərlə ABŞ və Britaniya arasında ziddiyyətləri daha da dərinləşdirəcəyini ehtimal edirdilər. "Tasvir" qəzeti 9 oktyabr sayında qeyd edirdi ki, Kominformun yaradılmasında əsas məqsəd beynəlxalq inqilaba çağırış və ABŞ-ı sındırmaqdır. Yalman "Vatan" qəzetində yazırdı ki, Kominformun yaradılması dünya sivilizasiyası ilə qırmızı barbarlar arasındakı gizli toqquşmalara açıq xarakter verdi. Onun fikrincə, sivilizasiyanın müdafiəçiləri slavyan imperializmi ilə mübarizə üçün öz səylərini birləşdirməli idilər. Sovet səfirliyi Moskvaya göndərdiyi mətbuat icmalında yazırdı ki, bütün türk qəzetləri Kominformbüronun yaradılmasından Sovet İttifaqına və bütün ölkələrin kompartiyalarına qarşı nifrət hissini qızışdırmaq üçün istifadə etdilər. Demək olar ki, bütün mətbuat orqanları bu fikirdə idilər ki, Türkiyənin iqtisadi çətinlikləri üçün Sovet İttifaqı günahkardır. Ona görə ki, Sovetlər əsəb müharibəsi ilə Türkiyəni təhdid edir, daimi təbliğat aparır və bolşeviklər Türkiyəni böyük ordu saxlamağa məcbur edirlər. Bir sıra qəzetlər bu əsəb müharibəsini Türkiyənin maliyyə-iqtisadi strukturlarına, türk xalqının mövcudluğuna və rejiminə qarşı düşünülmüş qəsd hesab edirdilər (77).

Prezident İ.İnönü 1947-ci ilin noyabr ayının 1-də Türkiyə Böyük Millət Məclisinin sessiyasının açılışındakı nitqində xarici siyasət məsələlərinin bəzi önəmli məqamları üzərində geniş dayandı. O bildirdi ki, xarici siyasətdə başlıca məqsədimiz dünyada sülhün gerçəkləşməsinə xidmət etmək, millətlərin həsrətlə gözlədikləri qarşılıqlı təhlükəsizliyin bərqərar olmasına yardımçı olmaqdır. İ.İnönü dedi: "Heç kimsəyə qarşı təcavüz etmək fikrində deyilik, fəqət ərazi bütövlüyümüzə və haklarımıza qarşı hər hansı təcavüz əməli ilə də əsla razılaşmayacağıq. Bu bizim hər cür imtahanlardan keçmiş dürüst və açıq siyasətimizdir". Britaniya ilə dostluğun və müttəfiqliyin davam etdiriləcəyini vurğulayan İ.İnönü qeyd etdi ki, ABŞ ilə sıx dostluq münasibətlərimiz hər gün daha da güclənməkdədir. Türk millətinin dünyanın bu guşəsində səmimi və inanılmış bir sülh amili olduğunu və Türkiyənin indiki müdafiə im-

kanlarının artması ilə dünya sülhünün də saxlanılacağını təqdir edən böyük demokratiyanın bizə yardım göstərməyə qərar verməsi ABŞ-ın sülh yolunda təmənnasız fəaliyyətlərinin yeni bir dəlilidir. Sovet İttifaqı ilə münasibətlərə gəldikdə İ.İnönü dedi ki, aramızda yaxşı münasibətlərin olmasını səmimi olaraq dilədiyimiz halda, Sovetlər Birliyi tərəfindən haksız ittihamlarla qarşılaşmaqdayıq. Keçmiş və bugünkü hadisələrin doğru və ədalətli olmayan formalarda görülməsi və göstərilməsi açıq bir şəkildə haksız olan istəklərin irəli sürülməsində ifadə olunur (78).

Prezident İ.İnönünün çıxışı haqqında Moskvaya məlumat göndərən P.Yerşov "bu təxribatçı bəyanatdan" sonra Türkiyədə Sovet İttifaqına qarşı düşmənçilik kampaniyasının yüksəldiyini və Türkiyə hökumətinin xalq arasında hərbi təbliğatı gücləndirdiyini bildirirdi. O yazırdı: "Son zamanlar bu təbliğatın mühüm cəhəti onun "vətənin müdafiəsinə" çağırışlar adı altında Amerika hərbçiləri tərəfindən müdafiə olunan qabaqlayıcı müharibəyə çağırış fonunda hücum xarakteri almasındadır" (79).

1947-ci il noyabr ayının 7-də Türkiyənin Moskvadakı səfiri F.Z.Akduru qəbul edən SSRİ müdafiə naziri N.Bulqanın danışıqlar zamanı Türkiyəni ABŞ-ın SSRİ-yə qarşı planlarında fəal rol oynadığına görə ciddi şəkildə tənqid etdi. N.Bulqanin əvvəllər Türkiyə ilə fəxr etdiyini, lakin indi Türkiyənin ABŞ-ın hegemonluğuna tabe olduğunu, Amerika ordusuna Türkiyədə bazalar yaratmağa imkan verdiyini və ABŞ-ın SSRİ əleyhinə müharibə planlarında alət olduğunu söylədi. F.Z.Akdur cavabında belə bir bəyanatdan çox təəccübləndiyini, onda olan məlumata görə heç kimin müharibə arzulamadığını və türk hərbi strukturlarının yalnız müdafiə xarakterli olduğunu bildirdi. Söhbətdə hələ rəsmən Ankarada səfir kimi qalan, lakin son bir il yarımı Moskvada keçirən S.Vinoqradov da iştirak edirdi. N.Bulqanin ilə F.Z.Akdurun danışıqları son il yarımda yüksək rütbəli Moskva yetkilisi ilə Türkiyə rəsmisi arasında SSRİ-nin tələblərinə toxunulmayan ilk müzakirə idi (80).

Eyni zamanda Türkiyənin xarici işlər naziri N.Sadak noyabr ayında Amerikanın "Kolumbiya" radiosuna verdiyi müsahibədə Türkiyənin milli ləyaqətinə uyğun formada Rusiya ilə dostluq münasibətlərinin qurulmasının arzu olunduğunu bildirmişdi. N.Sadakın bu bəyanatı bir sıra dairələr tərəfindən Sovetlərlə münasibətlərin yumşaldılması kimi şərh edilirdi. 1947-ci ilin noyabr ayının 27-də P.Yerşovla keçmiş xarici işlər naziri R.Aras və Türkiyənin Almaniyadakı keçmiş səfiri H.Arpaq arasında olan danışıqlarda N.Sadakın Sovet-Türk münasibətlərini normallaşdıra biləcəyinə işarə edilmişdi. Danışıqlar zamanı R.Aras demişdi ki, onun dostu H.Arpaq böyük bir firma ilə əlaqəlidir və SSRİ ilə ticarət etmək üçün cəmiyyət və ya firma təsis etmək istəyir. Əgər müvafiq Sovet orqanları bu firma ilə ticarət etməyə razılıq verərdisə R.Aras da burada iştirak edəcəyini bildirirdi. R.Aras hesab edirdi ki, kiçik həcmdə olsa da, Sovetlərlə ticarətin

başlanması Türkiyədə Amerika mallarının yayılmasının qarşısını alar və ABŞ-ın bu ölkədə təsirini zəiflərə bilərdi. R.Arasın fikrincə, Sovet malları keyfiyyətli və qiymətləri ucuz olduğu üçün Türkiyə əhalisi içərisində özünü yaxşı tanıda bilərdi. Digər tərəfdən o belə hesab edirdi ki, SSRİ ilə ticarətin başlanması amerikanlar üçün "gözlənilməz sürpriz" ola bilər və onlara göstərərdi ki, amerikanların mövqeyi Türkiyədə elə də möhkəm deyil. R.Aras qeyd etdi ki, Sovet mallarının Türkiyə əhalisi arasında yayılması həm də son zamanlar hökumət mətbuatının, radiosunun və partiya təbliğatçılarının SSRİ əleyhinə apardığı antisovet təbliğatın yumşaldılmasında əks təbliğat rolu oynaya bilər. P.Yerşov bildirdi ki, məlum olduğu kimi Türkiyədə antisovet təbliğat son zamanlar SSRİ əleyhinə müharibə təbliğatı səviyyəsinə yüksəlib və bu da normal diplomatik münasibətlərə uyğun deyildir. Bu zaman söhbətə qoşulan H.Arpaq dedi ki, qəzetlər azaddır. SSRİ işlər vəkili cavab verdi ki, bu azadlıq ancaq antisovet təbliğatda hiss edilir. H.Arpaq əlavə etdi ki, qəzetlər Sovet İttifaqının xeyrinə də yazı verməkdə azaddırlar və bu onlara qadağan edilməyib, lakin indiki şəraitdə heç kim belə məqalələr yazmağı və çap etdirməyi fikirləşmir, ona görə ki, onu həmin dəqiqə "Moskvanın agenti", "kommunist" və "vətən xaini" elan edəcəklər. O, təklif etdi ki, əgər biz ticarətə başlasaq, bu gərginliyi bir qədər azaldar və türk mətbuatına da təsir edə bilər. Jurnalistlər düşünərlər ki, bir halda ticarət əlaqələri başlanib, deməli bunun ardınca nə isə gözlənilir. Bu zaman onlar SSRİ-yə münasibətdə gözləmə mövqeyi tutacaqlar, bu da öz növbəsində Sovetlərin əleyhinə yazıların azalmasına gətirib çıxaracaq. P.Yerşov soruşdu ki, ölkənin ABŞ-dan asılı vəziyyətə düşdüyü şəraitdə hakimiyyət SSRİ ilə ticarətə icazə verərmi? R.Aras bunu inkar etdi və bildirdi ki, Türkiyə ABŞ-dan asılı vəziyyətdə deyil. O, israrla sübut etməyə çalışdı ki, amerikanların təsiri ancaq iqtisadi münasibətlərə aiddir və siyasi məsələlərə tamamilə toxunmur. O, əlavə etdi ki, indiki Türkiyə idarəçiləri onun siyasi əleyhdarları olsalar da, onlar öz hakimiyyətlərinin məhdudlaşdırılmasına getməzlər. P.Yerşov buna etiraz etdi və ABŞ-ın Türkiyənin işlərinə qarışması haqqında bir sıra misallar gətirdi. Lakin R.Aras və H.Arpaq öz fikirlərində qaldılar və bir daha təsdiq etdilər ki, Amerika yardımı ölkənin müstəqilliyinə toxunmur. R.Aras əvvəlki mövzuya qayıdaraq əlavə etdi ki, ticarətin canlandırılması siyasi münasibətləri yaxşılaşdırmaq üçün "qapıları aça bilər". P.Yerşov bu söhbət barədə SSRİ Xarici İşlər Nazirliyinə yazırdı: "R.Arasın inamına görə yeni xarici işlər naziri N.Sadak bu istiqamətdə nə isə edə bilər, baxmayaraq ki, təbii olaraq böyük məsələləri o həll etmir. R.Arasın fikrincə, N.Sadak Baş nazir və prezidentə təsir edə bilər, öz fikrini deyə bilər. O, keçmiş jurnalist kimi mətbuatın fəaliyyətinə təsir edə bilər" (81).

P.Yerşov R.Aras və H.Arpaq ilə danışıqlar barədə SSRİ Xarici İşlər Nazirliyinə geniş teleqram göndərdi. Teleqramla tanış olduqdan sonra

A.Vışinski onun üzərinə öz qeydini əlavə etdi ki, N.Sadak və Baş nazirin razılığı olmadan Aras və Arpaqın belə fikir söyləmələri şübhəlidir (82). 1947-ci il dekabr ayının 3-də isə SSRİ xarici işlər nazirinin müavini F.Qusev P.Yerşovun teleqramı ilə bağlı V.Molotovun adına daha ətraflı arayış hazırladı. O yazırdı: "Hesab edirəm ki, P.Yerşovun Aras və Arpaqla söhbəti və Arasın SSRİ ilə Türkiyə arasında ticarətin canlandırılması haqqında təklifi adi kommersantın təklifi kimi şərh etməsi səhvdir. P.Yerşovla Aras və Arpaq arasında söhbətin məzmunu göstərir ki, onların Sovet-Türkiyə münasibətlərini yaxşılaşdırmaq üçün ticarəti canlandırmaq məqsədilə "qapıları açmaq" təklifi SSRİ-nin Türkiyəyə münasibətdə mövqeyini aydınlaşdırmaq üçün siyasi yoxlama xarakteri daşıyır". F.Qusev yazırdı: "R.Arasın belə bif fikri diqqəti cəlb edir ki, N.Sadak bu istiqamətdə nə isə edə bilər, o cümlədən mətbuata və böyük məsələlərin həllində Baş nazir və prezidentə təsir göstərə bilər". Eyni ilə F.Qusev də təkrar edirdi ki, N.Sadakın və Baş nazirin razılığı olmadan R.Arasın belə bir fikir söyləməyə risk etməsi şübhəlidir. Onun fikrincə, Arasa və Arpaqa qeyri-rəsmi vasitəçi rolunun tapşırılması təsadüfi deyildi, belə ki, Türkiyənin siyasi dairələrində inam var ki, bu adamlar Sovet nümayəndələri tərəfindən məlum etimada malikdirlər. Eyni zamanda türklərə məlum idi ki, Aras və Arpaq hətta Sovet-Türkiyə münasibətləri gərginləşdikdən sonra da Sovet səfirliyi ilə sistematik əlaqə saxlayırdılar. F.Qusev belə nəticəyə gəlirdi: "Türklərin bizimlə danışıqlar üçün yoxlama cəhdləri onunla izah edilə bilər ki, SSRİ ilə münasibətlərin tənzim olunmamasından Türkiyənin rəhbər hakimiyyət və partiya dairələrində narahat olmağa başlayıblar" (83). Bunula da 1947-ci ilin sonlarında iki ölkənin münasibətlərinin normallaşacağına müəyyən ümidlər yaransa da, Sovet İttifaqının yanlış mövqeyi nəticəsində bu ümidlər boşa çıxdı.

Bundan bir həftə sonra Xarici İşlər Nazirliyinin Yaxın Şərq şöbəsinin müdiri İ.Bakulin SSRİ-nin Ankaradakı işlər vəkilinə tapşırıq verdi ki, Türkiyə iqtisadiyyatında Amerika kapitalının inkişaf dinamikası barədə müqayisəli məlumatları Moskvaya göndərsin (84).

Beləliklə, Sovet-Türkiyə münasibətlərində yeni başlanmış soyuq müharibənin gərgin olan daha bir ili nəticəsiz başa çatdı. 1947-ci ildə Trümen doktrinası elan olunduqdan və yardım haqqında Amerika-Türkiyə sazişi imzalandıqdan sonra Sovetlərin Türkiyəyə münasibətdə yeritdiyi "əsəb savaşı" mətbuat kampaniyasından irəli gedərək daha kəskin xarakter aldı.

## XI FƏSİL
## Türkiyənin NATO-ya daxil olması

1948-ci ili Türkiyə narahat vəziyyətdə qarşıladı. Ölkədə ağır iqtisadi çətinliklər davam etməkdə idi. 1947-ci ilin payızında yenidən güclənmiş Sovet təzyiqləri hərbi xərclərin azaldılmasına imkan vermirdi. ABŞ-la məsləhətləşdikdən sonra türk ordusunun şəxsi heyətinin bir qədər azaldılması müsbət meyllər yaratsa da, lakin yetərli deyildi. Trümen doktrinası üzrə alınan yardımın həcmi Türkiyənin hərbi ehtiyacları ilə müqayisədə çox az idi. Marşall planı üzrə aparılan müzakirələr Türkiyə siyasi dairələri üçün gözlənilən nəticələri verməmişdi. Lakin bütün bunların fonunda Türkiyə ABŞ-ın siyasi dəstəyini qazanmışdı və bu dəstək onun Sovet təhlükəsinə qarşı dirənişinə ciddi şəkildə təsir göstərirdi. Baltik dənizindən Qara dənizə qədərki böyük bir ərazidə Finlandiya istisna olmaqla, Türkiyə sovet təsir dairəsindən kənarda qalan yeganə qonşu dövlət idi. "Ulus" qəzeti özünün 1 yanvar 1948-ci il tarixli sayında Sovet İttifaqının xarici siyasətini geniş təhlil edərək onun öz iradəsini digər xalqlara qəbul etdirmək cəhdlərini ciddi şəkildə tənqid edir, Sovetlərin ekspansionist siyasətinin qarşısının alınmasında ABŞ-ın rolunu yüksək qiymətləndirirdi. "Ulus" yazırdı: "Rusiya bəyan edir ki, onun tələbləri qəbul edilməyənə qədər dünyada sülh bərqərar olmayacaqdır". Lakin bütün çətinliklərə baxmayaraq Türkiyənin siyasi dairələri və mətbuatı 1948-ci ilin ölkədə demokratiyaya doğru irəliləyişdə mühüm il olacağını vurğulayırdılar.

1947-ci ilin sonlarında Sovetlərin təsiri altında olan Balkan ölkələri arasında qarşılıqlı yardım haqqında müqavilələrin imzalanması Türkiyənin narahatçılığını daha da artırmışdı. Hakimiyyətə Yaxın olan bir sıra mətbuat orqanları qeyd edirdilər ki, əgər Yunanıstan və Türkiyə məğlub olarsa, onda Sovetlər öz ağalığını bütün Avropa və Afrikada bərqərar edib Hindistanı mühasirəyə alacaqdır (1).

Türkiyə Böyük Millət Məclisinin yanvar ayında keçirilən iclaslarında deputat Nihat Erim, Cahid Baban, Fuad Köprülü, Kemalettin Kamu, Etem İzzet Benice, Asım Us, Reşat Aydınlı, Məclis sədrinin müavini Fikri Düşünsel və digərləri SSRİ-yə qarşı sərt ittihamlarla çıxış etmişdilər. Hətta K.Kamu bildirmişdi ki, İkinci Dünya müharibəsi Sovetlərin imperialist siyasətinin nəticəsi kimi meydana çıxmışdır. Deputat R.Aydınlı parlamentdəki çıxışında qeyd etmişdi ki, indi qırmızı imperializm bir zamanlar Hitler və onun əlaltılarının etmək istədiklərini həyata keçirmək istəyir. Kreml bütün dünyanı tələb edir. Kommunizm Moskvanın müstəmləkəçilik siyasətinin silahıdır. Sovetizm slavyanizm

deməkdir. Kommunizm azadlıq əvəzinə zəncirdir, ədalət əvəzinə terrordur. Qırmızı qaydaların rəhbərləri, elə həmin Romanovlardır. N.Erim rus generalları arasında belə bir söz-söhbətin olduğu barədə məlumatın alındığını qeyd edirdi ki, "biz Türkiyəni aldığımız zaman onlarla, onların ermənilərlə etdikləri qaydaya rəftar edəcəyik" (2). Bir sıra deputatlar Sovetlərin Türkiyəni dağıtmaq, türkləri məhv etmək niyyətləri barədə müxtəlif mənbələrdən aldıqları məlumatlar haqqında hiddətlə danışmağa başlamışdılar.

1948-ci ilin yanvar ayının ilk günlərində İspartadan olan millət vəkili Said Köksal Avropanın müxtəlif həbs düşərgələrində saxlanılan və öz vətəninə qayıtmaq istəməyən türklər barəsində xarici işlər nazirinə sorğu ilə müraciət etmişdi. Onların hamısı Sovet İttifaqının türk-müsəlman respublikalarından olan sovet vətəndaşları idilər. Xarici işlər naziri N.Sadak bu barədə yanvar ayının 12-də Məclisə geniş məlumat verdi. O qeyd etdi ki, Türkiyə hökuməti bu məsələ ilə çoxdan məşğuldur və zaman-zaman bu məsələ respublika hökuməti qarşısında siyasi bir məsələ kimi dayanmışdır. N.Sadak bildirdi ki, İkinci Dünya müharibəsindən sonra Qərbi Avropa ölkələrində təxminən bir milyon yarım keçmiş əsir, köçürülmüş, yaxud sürgün edilmiş adamlar toplanmışdır. 1946-cı ildə BMT-nin Baş Məclisində köçkün və qaçqın düşmüş adamların yerləşdirilməsi ilə bağlı xüsusi beynəlxalq təşkilat yaradılmışdır. Bu təşkilatın başlıca vəzifəsi qeyd edilən milyon yarım əsir, qaçqın və köçkün əhalinin öz vətəninə qayıtmaqlarını təmin etmək idi. Lakin N.Sadakın sözlərinə görə, bu adamların müəyyən hissəsi öz vətənlərinə qayıtmaqdan imtina etmişdi. Bu adamların arasında Türkiyəyə gəlmək istəyənlər də olduğundan hökumət məsələni öyrənmək üçün 1946-cı ilin iyul ayının 1-də xüsusi komissiya yaratmış və bu komissiya oktyabr ayına qədər Yunanıstan, İtaliya, Avstriya, Almaniyanın ingilis və amerikan işğal zonasında işləmiş və müvafiq raport hazırlamışdı. Komissiya 7170 müsəlmanın Türkiyəyə köçmək arzusunda olduğunu müəyyənləşdirmişdi ki, bunların da 4700 nəfəri İtaliya, İsveçrə və alman düşərgələrində beynəlxalq təşkilatların nəzarəti altında olan, 2470 nəfəri isə düşərgələrdən kənarda yerləşən şəxslər təşkil edirdi. Komissiyanın məlumatlarını və təkliflərini dinlədikdən sonra hökumət bu adamların Türkiyəyə gəlməsinin mümkünlüyü haqqında qərar qəbul etmiş, bununla yanaşı əlavə olaraq vaxtilə öz ölkəsində olan zaman hərbi cinayət törətməmiş və vətənə xəyanət etməmiş daha 7 min adamın da qəbul olunmasının mümkünlüyünü beynəlxalq təşkilata bildirmişdi. Eyni zamanda hökumət Türkiyəyə gəlmək arzusunda olanların gələcəkdə digər ölkəyə getmək məqsədilə Türkiyənin müvəqqəti yaşayış yeri kimi seçməsi ilə razı deyildi. Hökumət şərt qoymuşdu ki, gəlmək istəyənlər Türkiyə vətəndaşlığını qəbul edib orada daimi yaşamalı idi. N.Sadak bu işin çox diqqətlə

aparıldığını, təhlükəsizlik orqanlarının və müvafiq idarələrin zəruri tədbirlər gördüyünü millət vəkillərinin nəzərinə çatdırdı. O qeyd etdi ki, hökumət Türkiyəyə gəlmək istəyənlərin qarşısında heç bir maneə yaratmaq istəmir. Xüsusilə bir sıra müsəlman və türk millətindən olan şəxslərə münasibətdə hökumət həssaslıqla və mərhəmətlə yanaşır. Lakin N.Sadak sonda dedi ki, "Türk yurdunun hərbi cinayətkarların və vətən xainlərinin sığınacaq yerinə çevrilməsinə yol vermək olmaz" (3).

Müharibə başa çatdıqdan sonra əsir düşmüş və zorla köçürülmüş Sovet vətəndaşlarının SSRİ-yə qayıtması müharibədən sonrakı dünyanın ciddi problemlərindən idi. İlkin hesablamalara görə, müharibə başa çatanda bu adamların sayı 4.109.304 nəfər idi. Az sonra həmin rəqəm daha da artdı və 1946-cı ilin mart ayının 1-nə olan məlumata görə, SSRİ-yə repatriasiya edilən sovet vətəndaşlarının sayı 4.199.488 nəfərə çatdı. Bunlardan 2.660.013 nəfəri mülki vətəndaşlar, 1.539.475 nəfəri isə hərbi əsirlər idi (4). Əsir düşmüş sovet vətəndaşlarının xeyli hissəsi Türkiyə ərazisindən keçməklə Sovet İttifaqına repatriasiya olunurdu.

Avropa həbs düşərgələrindən Türkiyəyə yaşamaq üçün gələn sovet vətəndaşlarının SSRİ-yə verilməsi barəsində Sovet səfirliyi ÜİK(b)P MK-nın Siyasi Bürosunda təsdiq edilən notanı Türkiyə hökumətinə təqdim etmişdi. Orada göstərilirdi ki, Sovet səfirliyinə çatan məlumatlara görə, Qərbi Avropa ölkələrindən gətirilmiş keçmiş hərbi əsirlərdən və köçürülmüş şəxslərdən ibarət olan Sovet vətəndaşları Türkiyənin Kostamon şəhərindəki düşərgədə saxlanılır. Onlardan bəziləri öz vətənlərinə qayıtmaq arzusunda olduqları barədə Sovet səfirliyinə xəbər göndərmişlər, lakin onlardan asılı olmayan səbəblərə görə həmin adamlar bunu rəsmiləşdirə bilmirlər. Notada belə şəxslərdən altı nəfərinin adı çəkilirdi və Sovet səfirliyi ümidvar olduğunu bildirirdi ki, Türkiyə hökuməti bu adamların və ümumilikdə, Kostamon düşərgəsində saxlanılan Sovet vətəndaşlarının Sovet İttifaqına qayıtmasına imkan verəcəkdir. Siyasi Büro SSRİ Xarici İşlər Nazirliyi tərəfindən təqdim edilən notanın mətnini təsdiq etdikdən sonra məsələyə nəzarət etmək üçün onun surətini Malenkov, Molotov, Qromıko, Beriya, Kaqanoviç və Bilqaninə göndərmişdi (5). Lakin məsələ burasında idi ki, nə notada adı çəkilən şəxslər, nə də Türkiyəni yaşayış yeri kimi seçən Sovet vətəndaşlarından SSRİ-yə qayıtmaq barədə Türkiyə hakimiyyət orqanlarına hər hansı müraciət daxil olmamışdı.

Balkan ölkələrində baş verən hadisələr və həmin ölkələrdə yaşayan türk və müsəlman azlıqlarının təqib edilməsi Türkiyə hökuməti üçün əlavə problemlər yaratmışdı.

Bolqarıstanda, Yuqoslaviyada və xüsusilə Yunanıstanın Sovetlər tərəfindən müdafiə olunan qüvvələrin nəzarətində olan ərazilərində türklərin qovulması, təqid və təhqir edilməsi barədə çoxsaylı faktlar aşkar edil-

mişdi. Türkiyə Balkanlarda qayda yaradılması üçün ABŞ və Britaniyanın buradakı hadisələrə müdaxilə etməsinə, SSRİ-ni Balkan ölkələrinin daxili işlərinə qarışmaqdan çəkindirilməsinə böyük zərurət olduğunu müxtəlif formalarda ifadə edirdi. Türk mətbuatı Balkanlarda baş verən hadisələr bilavasitə "Moskvanın kommunist diktaturasının" əməlləri kimi qiymətləndirirdi. Türk qəzetləri Yunanıstanın şimalında general Markos hökumətinin yaradılmasını dünyanı təhdid edən qırmızı məşəl kimi dəyərləndirirdi. Onların fikrincə, bu məşəl Moskvada hazırlanmış və Albaniya sərhədləri vasitəsi ilə Yunanıstana atılmışdır. Demokrat partiyasından olan F.Köprülü monarxiyanın devrilməsindən sonra Rumıniyanın Bolqarıstan, Yuqoslaviya və Albaniya kimi bütövlükdə Moskvanın nəzarətinə düşdüyünü, bolşevik təxribatlarının Suriya, İran, Fələstin və Çində güclədiyini yazırdı. 1947-1948-ci illərdə SSRİ Dövlət Təhlükəsizliyi Nazirliyinin xətti ilə Şərqi Avropa və Balkan ölkələri üçün əməliyyat işçiləri və terrorçu dəstələr hazırlanmasına icazə verilmişdi. Sovet təsir dairəsinə düşən ayrı-ayrı ölkələrin "rəhbərləri"nə verilən tapşırıqlar və tövsiyələr (məsələn "Kim İr-Sen üçün məsləhətlər") bilavasitə Siyasi Büroda təsdiq edilirdi (6).

1948-ci ilin yanvar ayı ərzində Marşall planı Türkiyədə geniş müzakirələrə səbəb olmuşdu. Türk mətbuatı bu plan üzrə göstərilən Amerika yardımını kommunizmin Avropa ölkələrinə soxulması yolunda başlıca qabaqlayıcı müdafiə sistemi kimi şərh edirdi. Yanvar ayının 16-da Avropanın iqtisadi cəhətdən bərpası haqqında Dövlət Departamentinin məruzəsi demək olar ki, bütün aparıcı Türkiyə qəzetlərində dərc edildi. Məruzənin Türkiyəyə aid olan hissəsi mətbuatda geniş rəylər doğurdu. Dövlət Departamentinin məruzəsi mətbuatda dərc edilən gün prezident İ.İnönü axşam saat 10-da ABŞ səfiri E.Vilsonu qəbul edib N.Sadakla birlikdə məruzənin Türkiyəyə aid olan hissəsini geniş müzakirə etdilər. Marşall planı üzrə yardım proqramında Türkiyənin yetərincə yer almaması Türkiyə siyasi dairələrinin ciddi narahatçılığına səbəb olmuşdu. "İstanbul" qəzeti yanvar ayının 19-da yazırdı: "Marşall planı bütün iqtisadi və siyasi məsələlərin birinci sırasında dayanır. Vilson-İnönü görüşü türk hökumətinin yardımın forma və məbləğindən razı qalmadığını ehtimal etməyə əsas verir". Türkiyəni narahat edən məsələlərdən ən başlıcası Marşall planında onun kənd təsərrüfatı ölkəsi kimi dəyərləndirilməsi və ölkənin Avropanın bərpa proqramında ancaq kənd təsərrüfatı məhsullarının artırılması yolu ilə iştirakının nəzərdə tutulması idi. Ölkənin sənayeləşdirilməsi xətti Amerika planında əsas kimi götürülməmişdi.

Demokrat partiyasının liderləri Türkiyənin Marşall planında yetərincə nəzərə alınmamasını hökumətin ölkənin iqtisadi və maliyyə vəziyyəti ilə bağlı əsaslandırılmış məlumatlar hazırlaya bilməməsi və Amerika yardımını almağa qadir olmaması ilə izah edirdilər. Türkiyənin maliyyə naziri

Xalit Nazmi Keşmir və on altıların Paris görüşünün iştirakçısı Ali Riza Türel öz açıqlamalarında bildirirdilər ki, 1948-1951-ci illərdə Türkiyə büdcəsinin illik kəsiri 615 milyon dollar hesablanıb və Dövlət Departamentinin məruzəsindən belə məlum olur ki, Türkiyə qarşıdakı 4 il ərzində bu kəsiri bağlamaq üçün məhz bu məbləği ala biləcəkdir. Türkiyənin siyasi dairələri və aparıcı mətbuat orqanları Türkiyəyə göstərilən yardımının azlığına görə Marşall planını tənqid edir, amerikanları inandırmağa çalışırdılar ki, Türkiyəsiz Avropanın bərpası, Trümen doktrinasının və onunla bağlı olan Marşall planının həyata keçirilməsi mümkün olmayacaqdır. Demokrat partiyasının tanınmış liderlərindən olan F.Köprülü Türkiyəyə yardımın zəruriliyini müdafiə edir və bildirirdi ki. Türkiyəni Marşall planı üzrə yardımdan məhrum etmək böyük siyasi səhv olardı (7).

Yanvar ayının sonlarında Millət Məclisində Marşall planı ilə bağlı verilən sorğuya fevral ayının 2-də xarici işlər naziri N.Sadak geniş cavab verdi. N.Sadakın cavablarından aydın olurdu ki, Marşall planı çərçivəsində Türkiyəyə göstərilən yardımla bağlı ölkərini rəsmi dairələrində narahatçılıq mövcuddur. Əslində yardım proqramı elan olunduqdan sonra Türkiyəyə münasibətdə onun şərtləri elə də qaneedici deyildi. N.Sadakın çıxışını şərh edən mətbuat orqanları bu şərtləri Türkiyənin Avropanın dirçəldilməsindən kənarda qoyulması kimi dəyərləndirirdi. Xarici işlər naziri məlumat verirdi ki, hazırda yardımın həcminin artırılması ilə bağlı Vaşinqtonda və Ankarada danışıqlar aparılır. Fevral ayının ortalarında ABŞ senatının Avropanın bərpası məqsədilə 1948-ci il üçün ayrılan vəsaiti 5 milyard 300 milyon dollara endirməsi Türkiyə siyasi dairələrində narahatçılığı daha da artırmış, Türkiyənin yardım proqramında iştirakı üçün əlavə çətinliklər yaratmışdı. Bu ümidsizliyi aradan qaldırmaq üçün Trümenin, Marşallın, Makbraydın və digərlərinin çıxışlarında Türkiyəyə hərbi yardımın həcminin artırılacağı vurğulanırdı. Fevral ayının ortalarında Dövlət katibi C.Marşallın çıxışından aydın olurdu ki, ABŞ Sovet təzyiqləri qarşısında Türkiyəni hərbi və siyasi baxımdan tək qoymaq fikrində deyildir. Amerika dövlət rəsmiləri təsdiq edirdilər ki, Türkiyə Birləşmiş Ştatların strateji planlarında əsas rolunu davam etdirəcəkdir. Amerikada Türkiyə informasiya bürosunun rəhbəri Şükrü Esmer Marşall planı haqqında yazdığı geniş məqalədə Türkiyənin bu və ya digər formada həmin plan üzrə yardım alacağını əsaslandırırdı (8).

1948-ci ilin yanvarında Britaniya xarici işlər naziri E.Bevinin icma palatasında çıxışı Türkiyədə böyük maraqla qarşılandı. Sovet təhlükəsinə qarşı dayanmaq üçün E.Bevin qərb blokunun yaradılması ideyasını irəli sürürdü. Türk mətbuatı onun çıxışını İkinci Dünya müharibəsindən sonra ən mühüm çıxış kimi qiymətləndirirdi. Sovet nəzarəti altında olan ölkələrin bloklaşması və kommunist ideologiyasının coğrafiyasının

genişlənməsi Britaniyanı təkcə Qərb blokunun deyil, eyni zamanda Yaxın və Orta Şərqi, Aralıq dənizi hövzəsini əhatə edəcək Orta Şərq blokunun yaradılmasının təşəbbüsçüsü etmişdi. Türkiyənin bu təşəbbüsə marağı Sovetlərin Balkanlarda yeritdiyi siyasətin onun üçün ciddi təhlükə törətməsi ilə izah edilirdi. Cinahdan sıxılma cəhdlərinə qarşı Türkiyə Yaxın Şərqdə nəzərdə tutulan "təhlükəsizlik bloku"na daxil olmaqda maraqlı idi. Türkiyə ilə İran, İraq, Suriya, Livan, Fələstin, Transiordaniya və Misir arasında formalaşan dostluq atmosferi onun belə bir blokda aparıcı rol oynayacağına ümid yaradırdı. Beləliklə, ABŞ tərəfindən müdafiə olunan Britaniyanın Sovet İttifaqı əleyhinə istiqamətlənmiş qərb və orta şərq blokları yaratmaq ideyası Türkiyə tərəfindən maraqla qarşılanırdı.

Yanvar ayının ortalarında Brumen Vaytın "Qlazqo Herald" qəzetində dərc olunmuş "Türkiyə və soyuq müharibə " məqaləsi "Le jurnal d Oriyan"da yenidən nəşr olundu. Məqalədə Türkiyənin xarici siyasəti Balkanlarda və xüsusilə Yunanıstanda baş verən son hadisələrin işığında araşdırılırdı.V.Vayt yazırdı: "Baxmayaraq ki, rus radiosu bir vaxtlar Sudet vilayətinin ilhaq edilməsi ərəfəsində Gebbelsin sözlərini xatırladan təhqiramiz fikirlərini təkrar edir, lakin indi bu təhqirlər getdikcə daha az effekt verir. Tamamilə aydındır ki, belə radio verilişlərinin Türkiyənin qətiyyətini, onun sərhədlərinə ola biləcək hər hansı hücuma qarşı müqavimətini qıracağını gözləmək olmaz". V.Vayt yazırdı: "İgidlik, milli iftixar və şərəf türk xalqının dərin köklərindən gələn saciyyəvi xüsusiyyətidir. Sovetlər bunu yaxşı bilir, lakin əgər bu keyfiyyətləri zəiflədə bilmirlərsə, ruslar təhdid təbliğatı aparmaqla Türkiyənin iqtisadi həyatını pozmağın mümkünlüyünü həmişə diqqət mərkəzində saxlayırlar". B.Vayttın fikrincə, Atatürkün Türkiyədə görməyi arzuladığı işlər bu gün Türkiyədə həyata keçirilirdi. Atatürkün siyasəti onun sağ əli olmuş və hazırda varisi prezident İ.İnönü tərəfindən yeridilirdi (9).

1948-cilin yanvar ayının 26-da Türkiyə milli mücadilə dövrünün tanınmış simalarından sayılan Şərq cəbhəsinin qəhrəmanı, Türkiyə Böyük Millət Məclisinin sədri Kazım Karabekir paşanı itirdi. Onun vəfatı ilə bağlı prezident İ.İnönü "Ulus" qəzetinin 29 yanvar tarixli sayında vida sözü ilə çıxış edib Kazım paşanın keçdiyi həyat yolunu, qəhrəmanlıq yürüşlərini, şəxsi keyfiyyətlərini yüksək qiymətləndirirdi. O, yazırdı: "Bizim xalqımız Kazım Karabekirin milli azadlıq mübarizəsi qarşısında xidmətlərini iftixar hissi ilə tarixə qeyd edəcəkdir. Şərq cəbhəsinin komandanı kimi böyük ustalıqla o, bizim milli azadlıq hərəkatımızın təhlükəli yürüşlərinə rəhbərlik etdi və onu tam qələbəyə qədər apardı". İ.İnönünün vida sözü ilə bağlı bu yazını geniş təhlil edən Ankaradakı Sovet səfirliyinin birinci katibi S.Kiktev həmin yazıda Sovet İttifaqı ilə bağlı məsələlərə xüsusi diqqət verərək SSRİ Xarici İşlər Nazirliyinə yazırdı: "Yanvar ayında türk mətbuatının Sovet-Türk münasibətlərini

pisləşdirən daimi antisovet böhtan və təxribatçılıq kampaniyasına prezident İ.İnönü özü qoşulmuşdur. Türkiyə Məclisinin sədri general Karabekirin vəfatı ilə bağlı yazdığı məqalədə o, türk hakim dairələrinin Sovet xarici siyasətinə qarşı inad göstərməyə çağırdı və bununla da mətbuatı SSRİ-yə qarşı düşmən mövqe tutmağa həvəsləndirdi" (10).

ABŞ Dövlət Departamentinin Almaniya məğlub olan zaman qənimət kimi ələ keçirilən "Sovet-nasist əməkdaşlığı haqqında" sənədləri 1948-ci ilin fevral ayının əvvəllərində çap etməsi Türkiyədə böyük səs-küyə səbəb oldu. Vaşinqtonda türk informasiya bürosunun rəisi Şükrü Esmer çap olunan sənədlərin "Ulus" qəzeti üçün icmalını hazırladı. Ələ keçirilmiş sənədlər Sovetlərin Türkiyə ilə bağlı işğalçılıq planlanını tamamilə təsdiq edirdi. Fevral ayının 5-də Ş.Esmerin "Ulus" qəzetində "Nasist-Sovet sövdələşməsi haqqında sənədlər", fevralın 6-da isə "Sənədlər və Türkiyə" məqalələri dərc olundu. İlk növbədə o, göstərirdi ki, Sovet İttifaqı ilə Almaniya arasında imzalanmış gizli sənədlərin, aparılmış gizli danışıqların açıqlanması, rus imperializminin tamahı, aşağısında Stalin və Molotovun imzası olan sazişlərin mahiyyəti haqqında Amerika xalqının təsəvvürlərini tamamladı. Ş.Esmerin fikrincə, sənədlərin çap olunması nasist Almaniyası ilə müqayisədə kommunist Rusiyasının günahının daha böyük olduğunu təsdiq etdi. Onun fikrincə, Dövlət Departamentinin indi bu sənədləri dərc etməsi Marşall planına münasibətdə Konqresdə yaranmış müxalifət ilə bağlı idi. Bu addımla Departamentin rəsmiləri Amerika xalqına rus imperializminin mahiyyətini başa salmaq istəyir və həmin təhlükənin yenidən təkrar oluna biləcəyini vurğulayır, Marşall planı vasitəsilə bu təhlükənin qarşısının alına bilinəcəyini önə çəkirdilər. İkinci yazıda isə Ş.Esmer Almaniya-Sovet əməkdaşlığına dair sənədlərin dərc olunmasından sonra İkinci Dünya müharibəsi illərində Türkiyənin düzgün siyasət yeritdiyinin bir daha təsdiqləndiyini bildirirdi. Ş.Esmerin fikrincə, dərc olunmuş sənədlər göstərirdi ki, dünya müharibəsi ərəfəsində təhlükənin ox ölkələrindən gəldiyini Türkiyə hiss etdiyindən bir tərəfdən ingilis-fransızlarla, digər tərəfdən isə 1925-ci ildən dostluq müqaviləsi ilə bağlandığı Rusiya ilə danışıqlara başlamışdı. Sənədlər göstərirdi ki, SSRİ xarici işlər komissarının müavini Potemkin Ankaraya gələn zaman artıq Sovet hökuməti müqavilə bağlamaq barəsində Almaniya ilə gizli danışıqlara başlamış və nəticədə 1939-cu ilin 23 avqust müqaviləsi imzalanmışdı. Yeni açıqlanan sənədlərdə göstərilirdi ki, Ribbentropun Moskvaya səfəri zamanı müzakirə edilən məsələlərdən biri də Türkiyəyə münasibət məsələsi olub. Danışıqlar zamanı İ.Stalin onun Türkiyəyə münasibətdə nə fikirləşdiyini soruşduqda Ribbentrop cavab vermişdi ki, "Almaniyanın bir neçə ay ərzində Türkiyə ilə dostluq münasibətləri qurmağa cəhd etməsinə baxmayaraq, Türkiyə İngiltərə ilə birləşərək, Almaniyanın "mühasirəyə alınmasına" qoşulan ilk ölkə oldu

və belə yol tutacağı barəsində Almaniyaya məlumat vermədi". İ.Stalin demişdi ki, o, Türkiyənin belə siyasətindən narazıdır. Dərc olunmuş digər bir sənəddə Almaniya ilə SSRİ arasında 1940-cı ilin noyabrında Berlində aparılan danışıqlarda Türkiyə və xüsusilə Boğazlar məsələsinin müzakirə edildiyi, rusların Bosfor və Çanakkalada onlara baza verilməsini Almaniyadan xahiş etməsi təsdiqlənirdi. Almaniya ilə SSRİ arasında aparılan danışıqlarda və diplomatik yazışmalarda Türkiyənin İngiltərədən ayrılması və ox ölkələrinə birləşməsi istiqamətində Sovetlər tərəfindən ona təzyiq göstərilməsi yeni açıqlanan gizli sənədlərdə aydın şəkildə öz əksini tapmışdı. Şükrü Esmer yazırdı ki, Almaniya ilə SSRİ arasında belə sıx əməkdaşlıq olduğu halda Rusiyanın Türkiyəni Birləşmiş Millətlərin son sessiyasında Vışinskiniun dediyi kimi, Almaniya ilə əməkdaşlıqda günahlandırması qəribə deyilmi? Ən nəhayət o, qeyd edirdi ki, bu sənədlər əsasında Nürenberq məhkəməsi Ribbentropu edam cəzasına mahkum etdi. Görünür, indi heç bir məhkəmənin onun günahlarının ortağını cəzalandırması mümkün deyildir. Lakin bu cəzanı, ədalətliliyi Nürenberq məhkəməsindən də yüksəkdə dayandığı hiss edilən dünya ictimai rəyi verir (11). 1948-ci ilin fevral ayında nəhayət ki, iki illik fasilədən sonra Sovet İttifaqı Ankaraya yeni səfirini təyin etdi. Bu iki ildə S.Vinoqradov hələ rəsmən səfir kimi qalsa da, o, Türkiyədə olmamışdı. Bununla belə, S.Vinoqradov SSRİ Xarici İşlər Nazirliyində Türkiyəyə qarşı bütün planların hazırlanmasında çox fəal iştirak edirdi. Ankaraya təyin edilən yeni səfir A.Lavrişev fevral ayının 16-da Siyasi Büroda təsdiq edildi və fevralın 17-də onun təyinatı V.Zorin tərəfindən SSRİ Xarici İşlər Nazirliyinə dəvət edilmiş türk səfiri F.Z.Akdura bildirildi. A.Lavrişev SSRİ Xarici İşlər Nazirliyində məsul vəzifədə çalışırdı. 1946-cı ildən o, Nazirliyin Balkan ölkələri şöbəsinə rəhbərlik edirdi, ondan əvvəlki bir ildə isə IV Avropa şöbəsinə başçılıq etmişdi. Ümumilikdə, A.Lavrişev 1939-cu ildən diplomatik işdə çalışırdı. 1939-40-cı illərdə o, əvvəlcə Bolqarıstandakı Sovet səfirliyinin birinci katibi, 1940-1944-cü ildə isə SSRİ-nin Bolqarıstanda işlər vəkili olmuşdu. 1944-45-ci illərdə isa A.Lavrişev Bolqarıstan və Rumıniyada müttəfiqlərin nəzarət komissiyasının siyasi müşaviri vəzifəsində işləmişdi (12). Fevral ayının 24-də onun Ankaraya səfir təyin olunması barədə Sovet hökumətinin qərarı elan edildi. Həmin gün mətbuat nümayəndələri ilə görüşən N.Sadak bildirdi ki, "Türkiyənin Sovet İttifaqı ilə münasibətlərində heç bir dəyişiklik yoxdur. Demək olar ki, son iki ildə onların səfiri məzuniyyətdə olub. Onlar yeni səfir üçün aqreman istədilər, biz də onlara bunu verdik". SSRİ Xarici İşlər Nazirliyində mühüm vəzifə tutan bir diplomatın Ankaraya yeni səfir təyin edilməsi Türkiyədə birmənalı qarşılanmadı. Türkiyə siyasi dairələrinin bu təyinatla bağlı narahatçılığını Xarici İşlər Nazirliyindən təlimat alan "İstanbul" qəzeti mart ayının 1-dəki sayında daha qabarıq ifadə etmişdi.

Qəzet Ankara siyasi dairələrinə istinad edərək A.Lavrişevin təyinatını SSRİ-nin təsir dairəsinə aid edilən ölkələrdə öz mütləq nəzarətinin qurulmasını gücləndirən fakt kimi dəyərləndirirdi (13).

A.Lavrişevin təyinatı ilə bağlı türk mətbuatı belə bir fikir irəli sürürdü ki, yaxın vaxtlarda Sovet İttifaqı Türkiyəyə ittifaq müqaviləsi bağlamağı təklif edəcəkdir. "Hər gün" qəzeti qeyd edirdi ki, Finlandiyaya "kömək əlini uzatmış" kommunistlər, bundan sonra Sovet İttifaqı sərhədlərində onunla siyasi müqavilə bağlamayan Türkiyəyə təzyiq göstərməyə başlayacaqlar. Sovet Rusiyasının ruh yüksəkliyi onunla bağlıdır ki, Sovetlərlə qonşu olan bütün xalqlar onun qarşısında boyunlarını əymişdir. Türkiyəyə münasibətdə bunun ilk müjdəsi ola bilsin ki, Balkanlarda məktəb keçmiş Lavrişevin Ankaraya səfir təyin edilməsidir. Ölkədə və dünyada belə bir məlumat yayılmışdı ki, Sovet İttifaqı Finlandiya kimi Türkiyəyə də ittifaq müqaviləsinin bağlanmasını təklif etmək fikrindədir. Bu məsələ ilə bağlı Frans Press agentliyinin sualını cavablandıran N.Sadak Londona və onaltıların iclasına Parisə yola düşərkən bildirdi ki, Türkiyə hökuməti belə bir təklif almamışdır, əgər alsa şübhəsiz ki, onu rədd edəcəkdir. Türklər bu fikirdə idilər ki, hər hansı ölkənin Rusiya ilə əməkdaşlığı onun müstəqilliyinin itirilməsi ilə nəticələnir və ona görə də Ankaranın siyasi dairələri Sovetlərlə hər hansı ittifaq müqaviləsini mümkün hesab etmirdilər (14). Mart ayının 11-də Londona gələn N.Sadak Marşall planının 16-lar tərəfindən Parisdə ikinci müzakirəsi ərəfəsində Britaniya xarici işlər naziri E.Bevinlə görüşüb bəzi məsələləri müzakirə etdi. Britaniya və Türkiyə xarici işlər nazirlərinin görüşü haqqında elan olunmuş rəsmi məlumatda göstərilirdi ki, tərəflər Avropanın bərpası proqramını, habelə əsası 1939-cu il ittifaq müqaviləsi ilə qoyulan Türkiyə-İngiltərə münasibətlərinin son illərdəki vəziyyətini müzakirə etdilər və iki ölkə arasında dostluğu və əməkdaşlığı daha da dərinləşdirmək əzmində olduqlarını vurğuladılar (15).

Mart ayının 15-də Marşall planı ilə bağlı məsələləri müzakirə etmək üçün 16 ölkənin xarici işlər nazirlərinin ikinci Paris görüşü işə başladı. Konfransın getdiyi günlərdə Amerika senatı Avropanın bərpası ilə bağlı yardım proqramını təsdiq etdi və prezident Trümen konqresdəki çıxışında dünyada gedən prosesləri təhlil edib ABŞ-ın bu proseslərə münasibətini açıqladı. Çıxış bütövlükdə kommunizmə, onun təcavüzkar metodlarına münasibətdə ittiham və xəbərdarlıqlardan ibarət idi. Mart ayının ortalarında Qərbi Avropanın beş ölkəsinin 50 il müddətinə iqtisadi əməkdaşlıq və istənilən təcavüzə qarşı birgə müdafiə olunmaq haqqında müqavilə bağlamasını H.Trümen yüksək qiymətləndirdi. O, qeyd edirdi ki, qərb blokunun yaranması sivilizasiyanın qorunması üçün müstəsna dərəcədə əhəmiyyətli addımdır. H.Trümen dedi: "Nə qədər ki, Avropanın azadlıqsevər xalqları yenidən möhkəmlənməyib, nə qədər ki, kommunizm mövcud demokra-

tiyanı təhdid edəcək, müstəqilliyi polis dövlətinin təhdidi qarşısında olan dövlətlərə Amerika həmişə yardım göstərəcəkdir" (16).

Mart ayının 19-da Paris görüşündə Türkiyəni təmsil edən N.Sadak "Mond" qəzetində bəyanatla çıxış etdi. O qeyd etdi ki, Parisdə konfransın açılmasının Amerika senatında Marşall planının bəyənilməsi və Avropa siyasi ittifaqının başlanğıcı olan Brüssel paktının imzalanması ilə eyni vaxta düşməsi, ən nahayət Trümenin bütün dünyada yeni dövr açan çıxışı şübhəsiz ki, bu gün müşavirədə baş verənlərin mühüm əhəmiyyətini sübut edir. N.Sadak Amerika yardımının Türkiyəyə aid hissəsinə toxunaraq dedi: "Türkiyə nəğd hesablaşma yolu ilə mallar alan Portuqaliya və İsveçrə kimi ölkələrin sırasına daxil edilə bilməz. Bizim üçün kredit yolu ilə sənaye və kənd təsərrüfatımız üçün zəruri olan maşınlar almaq həyati əhəmiyyətə malikdir. Əgər bu kömək təcili olaraq göstərilsə, onda Türkiyə Marşall planının fəaliyyət müddəti başa çatmamış qısa müddətdə Avropaya yardım göstərə bilər. Qərb ittifaqının yaranması ilə bağlı suala cavab olaraq Türkiyənin mövqeyini açıqlayan N.Sadak qeyd etdi ki, Türkiyə Avropa ölkəsi kimi bu gün təhlükəsizlik sisteminin olmamasından daha artıq ziyan çəkir. Türkiyə dünyanın yeganə ölkəsidir ki, dünya müharibəsinin başlanmasından bəri öz ordusunu hərbi hazırlıq vəziyyətində saxlayır. Türkiyə ötən 8 il ərzində bir milyon kişi əhalidən istehsalatda istifadə edə bilməyib. Türkiyənin büdcəsinin hər il 48-dən 54 faizə qədəri milli müdafiə işlərinə xərclənir. Müharibə qurtardıqdan sonra Balkanlarda Sovet orientasiyalı ölkələr arasında rəsmən müdafiə xarakterli, lakin səbəbini bizim üçün anlamaq çətin olan siyasi müqavilələr silsiləsi imzalanmışdır. Çoxdan vaxtı çatmışdı ki, Avropanın qalan hissəsi də eyni işi etsin" (17).

Lakin Marşall planı Senatda təsdiq edildikdən sonra məlum oldu ki, Türkiyə bərpa proqramı üzrə Amerika yardımı göstərilən ölkələrin sırasında deyildir. Marşall planına görə Avropa ölkələrinin bir hissəsi istiqraz formasında, ikinci hissəsi əvəzsiz istiqraz formasında yardım ala bilərdi. Üçüncü qrup dövlətlər isə öz ehtiyaclarını nəğd hesablaşmalar yolu ilə ödəyə bilərdilər, onların nə istiqraz, nə də əvəzsiz yardım alması planda nəzərdə tutulmamışdı. Türkiyə İsveçrə və Portuqaliya ilə birlikdə üçüncü qrupa daxil idi. Marşall planının bu qrupa aid hissəsi 28 səhifədən ibarət idi. Türkiyənin bu qrupa aid edilməsi yardım proqramını hazırlayan ekspertlər tərəfindən Türkiyədə möhkəm siyasi rejim olması, müharibə dövründə ticarət balansının onun xeyrinə inkişaf etməsi, müharibəyə qədərki istehsalın səviyyəsinin saxlanması, büdcə kəsirinin çox olmaması və sair ilə izah edilirdi. Bununla yanaşı amerikanlar qəbul edirdilər ki, Türkiyə ağır siyasi təzyiq altındadır və bu təzyiqə görə böyük ordunu silah altında saxlamağa məcburdur. Bu isə öz növbəsində Türkiyəyə Trümen doktrinası üzrə yardım göstərilməsinə gətirib çıxarmışdır. Ame-

rikanlar belə hesab edirdilər ki, Trümen doktrinası üzrə göstərilən yardım türk ordusunun bir hissəsinin tərxis olunması ilə nəticələndiyindən Türkiyənin iqtisadi vəziyyəti yaxşılaşacaqdır. Trümen doktrinası çərçivəsində Türkiyəyə göstərilən yardım amerikanların fikrincə eyni zamanda siyasi əhəmiyyətə malik idi (18).

Marşall planında məsələnin belə qoyuluşu Türkiyə siyasi dairələri və mətbuatı tərəfindən ciddi tənqidlərlə qarşılandı. Bu tənqid kampaniyası elə geniş xarakter aldı ki, Marşall planının icraçısı Qofman 1948-ci ilin aprel ayının 20-də Türkiyəyə 10 milyon dollar kreditin ayrılması barəsində qərarı elan etdi. Türkiyə yardım alan ölkələrin sırasında olmadığından buna nail olunması mühüm əhəmiyyətə malik idi. Digər tərəfdən yardımın miqdarı Türkiyənin ehtiyacları baxımından simvolik xarakter daşıyırdı. "Cümhuriyyət" qəzeti haqlı olaraq yazırdı ki, müttəfiqlərə qarşı vuruşan Almaniya 549 milyon dollar yardım alır, Almaniya və Yaponiyaya müharibə elan edən, müttəfiqlərin cəbhəsindən ayrılmayan, öz ordusunu 9 il hərbi hazırlıq vəziyyətində saxlayan Türkiyəyə isə 10 milyon dollarlıq yardım göstərilir (19). 1948-ci ilin aprel ayının sonlarında Ankaradakı Sovet səfiri ilə görüşdə E.Vilson Marşall planı üzrə Türkiyəyə 10 milyon dollar kredit verilməsini təsdiq etdi və dedi ki, bu son hədd deyildir, Türkiyəyə göstərilən yardım bir neçə dəfə artırılacaqdır. Səfir izah etdi ki, əvvəl Türkiyənin Marşall planı üzrə avadanlıqları yalnız nəğd hesablaşma ilə alması barədə qərar var idi. E.Vilson dedi ki, Türkiyə hökuməti ciddi cəhdlə kredit almağa nail oldu və o, səfir kimi bu işdə ABŞ hökuməti qarşısında Türkiyəni fəal müdafiə etmişdir. ABŞ səfiri Sovet səfirinə bildirdi ki, Türkiyəyə ABŞ tərəfindən göstərilən yardım əvəzsizdir. O əlavə etdi ki, Türkiyəyə hərbi materialların göndərilməsi planı artıq həyata keçirilməyə başlayıb və qarşıdakı yaxın bir neçə ay ərzində yerinə yetiriləcəkdir (20).

ÜİK(b)P MK-nın Siyasi Bürosu mart ayının 29-da yeni səfir qismində Ankaraya yola düşmək ərəfəsində olan A.Lavrişevə V.Molotov tərəfindən hazırlanan göstərişləri təsdiq etdi. Doqquz bənddən ibarət olan göstərişlərin birinci bəndində deyilirdi ki, türk hökuməti ölkəni Sovet İttifaqına və Balkanların yeni demokratik ölkələrinə qarşı ingilis-amerikanların hərbi əməliyyat meydanına çevirdiyi üçün Ankaradakı SSRİ səfirliyi Türkiyə ilə münasibətlərin yaxşılaşdırılması istiqamətində təşəbbüs göstərməməlidir. Orada qeyd olunurdu: "Türk hökumətinə bəhanə vermək lazım deyil ki, Ankaraya yeni Sovet səfirinin təyin edilməsini Sovet-Türk münasibətlərinin yaxşılaşdırılması və ya Sovet hökumətinin Türkiyəyə, onun indiki siyasətinə münasibətdə öz əvvəlki mövqeyindən geri çəkilməsi kimi şərh etsin. Siyasi Büronun göstərişlərində deyilirdi ki, Sovet səfirinin və Türkiyədə təmsil olunan Sovet səfirliyi əməkdaşlarının türk hökumətinə münasibəti rəsmi əlaqələr çərçivəsindən kənara

çıxmamalıdır. Sənədin ikinci bəndində göstərilirdi ki, səfirlik yalnız hakim Xalq Cümhuriyyətçi partiyasının yüksək rəhbərliyi ilə rəsmi əlaqələr saxlamaqla məhdudlaşmalıdır. Üçüncü tapşırıqda hakimiyyətə münasibətdə müxalifət nümayəndələrinin səfirə müraciətlərinə ehtiyatla yanaşılması tövsiyə olunurdu və bu məsələdə hökumətin öz gizli agentlərini müxalifət adı altında səfirliyə göndərməsinin mümkünlüyü qeyd olunurdu. Dördüncü bənddə Boğazlarla bağlı Sovet mövqeyinin 7 avqust və 24 sentyabr 1946-cı il Sovet notalarında olduğu kimi qüvvədə qaldığı bildirilirdi. Beşinci bənddə deyilirdi: "Əgər türklər Sovet-Türk sərhədləri məsələsinə toxunsalar, bu məsələnin tənzim olunmamış qaydada davam etməsi cavabı ilə məhdudlaşmaq lazımdır". Altıncı göstəriş ticarət əlaqələri ilə bağlı idi. Orada göstərilirdi: "Türklər tərəfindən SSRİ ilə ticarət əlaqələri məsələsinə toxunulsa, cavab vermək lazımdır ki, belə ticarət SSRİ-nin kommersiya maraqlarından asılıdır". Yeddinci bənddə səfirə tapşırılırdı ki, o, Türkiyədə amerikan-ingilis siyasətini və onlar arasında ziddiyyətləri, ABŞ-ın Marşall-Trümen planları üzrə tədbirlərini diqqətlə izləməli, Marşall-Trümen planının necə həyata keçirilməsi barəsində mütəmadi olaraq Xarici İşlər Nazirliyini məlumatlandırmalıdır. Səkkizinci bənddə səfirə ingilis-amerikanların Türkiyə və İranın iştirakı ilə Şərq bloku yaratmağa yönəlmiş "fitnələrinin" sistematik müşahidə edilməsi tapşırılırdı. Doqquzuncu bənddə isə Türkiyənin ərəb ölkələri, İran və Yunanıstanla münasibətlərinin diqqətlə izlənilməsi, bu sahədə mühüm hesab edilən faktlar barədə XİN-nin məlumatlandırılması tapşırılırdı (21).

Bu mühüm tapşırıqları aldıqdan sonra Aleksandr Lavrişev aprel ayının 3-də Ankaraya gəldi. Qarşılanma mərasimində Sovet səfirliyinin bütün heyəti, SSRİ-nin təsiri altında olan Şərqi Avropa və Balkan ölkələrinin səfirləri iştirak edirdilər. Qarşılanma mərasimində iştirak edən jurnalistlərdən biri yeni səfirin mətbuat nümayəndələrinə sözü olub-olmadığını soruşduqda o, qeyd etdi ki, əvvəlcə Türkiyə ilə tanış olacaq və sonra danışacaqdır (22).

Aprel ayının 16-da A.Lavrişev etimadnaməsini prezident İ.İnönüyə təqdim etdi. Mərasim zamanı İ.İnönü ümidvar olduğunu bildirdi ki, SSRİ ilə Türkiyə arasında münasibətlərin normallaşması üçün səfir əlindən gələni edəcək və bu istiqamətdə A.Lavrişev Türkiyə hökumətinin köməyinə arxayın ola bilər. A.Lavrişev dedi ki, bu məsələ tək ondan asılı deyil, Sovet İttifaqının digər ölkələr ilə, ilk növbədə qonşu ölkələrlə dostluq münasibətləri ancaq qarşılıqlı qaydada ola bilər. İ.İnönü cavab verdi ki, Türkiyə həmişə Sovet İttifaqı ilə dostluq münasibətləri saxlamağa cəhd edib və məlum olduğu kimi, SSRİ ilə Türkiyə arasında keçmiş münasibətlər dostluğa əsaslanıb. Prezident ümidvar olduğunu bildirdi ki, səfir Türkiyənin SSRİ ilə münasibətləri yoluna qoymaq istiqamətində

səmimi cəhdlər göstərdiyinə inanacaqdır. Aprelin 19-da isə A.Lavrişev Baş nazir H.Saka tərəfindən qəbul edildi. H.Saka dedi: "Əgər siz siyasi şəraiti müzakirə etmək istəyirsinizsə, xarici işlər naziri N.Sadak həmişə sizin xidmətinizdədir" (23).

Aprel ayının 21-də A.Lavrişev Ankaradakı Polşa səfiri Druto ilə görüşdü. Druto aprel ayının 20-də N.Sadakla olan geniş söhbəti barədə Sovet səfirinə məlumat verdi. Polşa səfiri N.Sadakdan Sovet-Türk münasibətinin vəziyyətini soruşduqda xarici işlər naziri bu cavabın SSRİ səfirinə çatdırılacağını nəzərə alaraq bildirmişdi ki, Türkiyə bu vəziyyətdən razı deyil, Sovet İttifaqı onun daimi qonşusudur və buna görə də Türkiyə Sovetlərlə dostluq münasibətlərinə can atır. N.Sadak xatırlatmışdı ki, Türkiyə hələ 1945-ci ildə SSRİ ilə dostluq müqaviləsinin vaxtını uzatmaq və ya onunla yeni müqavilə bağlamaq istəyirdi. Onun fikrincə, Türkiyənin bu cəhdləri ona görə uğur qazanmadı ki, həmin vaxt Sovet İttifaqı Qars və Ərdahana iddialar irəli sürdü. N.Sadak əlavə etmişdi ki, "Sovetlərin indiyə qədər öz iddialarını geri götürməsi barədə bəyanat verməməsindən Türkiyə narahatdır. Türkiyə bilmir ki, ona münasibətdə daha hansı tələblər irəli sürüləcək. Odur ki, gözlənilməz vəziyyətdən yayınmaq üçün Türkiyə hökuməti Sovetlərlə sərhədi möhkəmləndirmək və böyük ordu saxlamağa məcburdur". N.Sadak qeyd etdi ki, əgər Sovet İttifaqı tərəfindən xeyirxahlıq göstərilib Türkiyəyə qarşı ərazi iddiaları geri götürülərsə, Türkiyə SSRİ ilə dostluq münasibətləri yaradılmasına hazırdır (24).

Aprel ayının sonlarında yeni Sovet səfiri Ankaradakı Kanada, Britaniya və ABŞ səfirləri ilə tanışlıq görüşləri keçirdi. Görüş zamanı Kanada səfiri Odlum A.Lavrişevə bildirdi ki, Sovet İttifaqı 1944-cü ildə çox böyük şöhrət qazanmışdı, indi o bu şöhrəti itirib. O dedi ki, Sovet İttifaqının siyasəti çoxlarının xoşuna gəlmir, ona görə ki, bu, mahiyyət etibarilə ekspansionist siyasətdir və böyük dövlətlər arasında əməkdaşlığa mane olur. Britaniya səfiri Kelli ilə görüşdə A.Lavrişev ərəb ölkələri və Türkiyənin iştirak etdiyi Yaxın Şərq bloku haqqında maraqlandı. Kelli hesab edirdi ki, belə bir blokun yaradılması ideyası vaxtında irəli sürülmüşdür. O, dedi ki, ümumi sülhü və təhlükəsizliyi qorumağa yönəlmiş regional blokların yaradılmasına yaxşı yanaşır. Kelli bildirdi ki, bloklar məsələsi yeni deyil, belə ki, Qərb ölkələrinin bloku artıq mövcuddur və daha əvvəl faktiki olaraq Sovet İttifaqı başda olmaqla Şərqi Avropa dövlətlərinin bloku yaradılıb. A.Lavrişev cavab verdi ki, Şərqi Avropada heç bir blok mövcud deyil, Sovet İttifaqı Şərqi Avropa dövlətləri ilə ikitərəfli müqavilələrə malikdir və səfirin fikrincə bu müqavilələrin əsas məqsədi, Almaniya təcavüzü təkrar olunacağı təqdirdə həmin ölkələrə köməklik göstərməkdən ibarət olmalı idi (25).

1948-ci ilin may ayının ikinci yarısında Türkiyə Məclisinin və hökumətinin bir sıra üzvləri bölgələrə səfər etdilər. Xarici siyasət baxımından

bunlardan ən mühümü Millət Məclisinin xarici siyasət komissiyasının sədri Nihat Erimin may ayının 16-da Xalq Cümhuriyyətçi partiyanın Kocaeli vilayət qurultayında və N.Sadakın partiyanın Sivas vilayət qurultayında çıxışı idi. N.Erim öz çıxışında qeyd etdi ki, xarici siyasət sahəsində Türkiyənin qarşısında duran ən mühüm məsələ Rusiyanın Türkiyədən bir sıra vilayətləri tələb etməsi və Boğazlarda baza yaratmaq istəkləri ilə bağlıdır. O dedi ki, son beş yüz il ərzində türk millətinin taleyi Rusiyanın yeritdiyi siyasətlə sıx bağlıdır. Bütün qonşularla olduğu kimi, Rusiya ilə də dostluq şəraitində yaşamaq Türkiyənin başlıca prinsipidir. Lakin türk dostluğunun başlıca şərti ölkənin ərazi bütövlüyünə, milli ləyaqətinə ziyan vurmamaqdır. Rusiya bu şərtlərə əməl etdiyi vaxt bu dostluq Türkiyənin xarici siyasətinin başlıca xətti idi. N.Erim dedi ki, indi Türkiyədən ərazi və Boğazlarda bazalar tələb edən dövlət, təəssüflər olsun ki, Rusiyadır. Türkiyəyə gəldikdə isə o qeyd etdi ki, onun heç bir ölkəyə münasibətdə təcavüzkar niyyətləri yoxdur və onun siyasətində heç nə dəyişməyib. May ayının 23-də N.Sadakda Sivasda təxminən buna bənzər bir çıxış etdi və o bildirdi ki, Türkiyə Sovetlərlə dostluq münasibətlərinin bərpa edilməsini ürəkdən arzulayır. N.Sadak vurğuladı ki, Sovet rəhbərləri Türkiyənin öz şimal qonşusu ilə mehriban dostluq şəraitində yaşamaq arzusunu bilirlər. Lakin buna nail olmaq üçün Türkiyə nə öz torpağından bir qarış, nə də öz suverenliyindən bir damla qurban vermək fikrində deyil. O əlavə etdi ki, Türkiyə bu məsələdə alver edə bilməz (26). Bir sıra jurnalistlər N.Sadakın Sivas çıxışını A.Lavrişevin Ankaraya gəldikdan sonra öyrənmək istədiyi məsələlərə cavab kimi qiymətləndirdilər.

Sivasdan qayıtdıqdan sonra N.Sadak may ayının 27-də A.Lavrişevin şərəfinə ziyafət verdi. Türkiyə Xarici İşlər Nazirliyi bir qayda olaraq Ankaraya yeni gələn səfirlərlə bağlı belə mərasimlər keçirirdi. Mərasimdə söhbət zamam A.Lavrişev Türkiyənin etatizm siyasətindən geri çəkilməsi və dövlət müəssisələrinin bir hissəsini satmaq istəməsi barədə məbuatda gedən yazılarla maraqlandı. N.Sadak qəti olaraq bildirdi ki, hakim partiya etatizm prinsiplərindən geri çəkilməyəcək və o, mətbuatda gedən belə yazıları "Amerikadan gələn dəbin" təzahürü kimi dəyərləndirdi. A.Lavrişev dedi ki, Ankarada gəzən şayiələrə görə, etatizmdən imtina etməyi amerikanlar hökumətə tövsiyə edirlər. N.Sadak cavabında bildirirdi ki, dolayı yollarla amerikanlar məsləhət verdilər, lakin onlar bu məsələ ilə bağlı bilavasitə türk hökumətinə heç bir təsir göstərmədilər (27). Söhbət zamanı Siyasi Büronun tapşırıqlarına uyğun olaraq A.Lavrişev Sovet-Türk münasibətlərinə toxunmadı.

Uzun araşdırmalardan sonra Marşall planı üzrə göstərilən iqtisadi yardımla bağlı Amerika-Türkiyə sazişi 1948-ci ilin iyul ayının 4-də imzalandı. Türkiyə hökuməti adından sazişi N.Sadak, ABŞ hökuməti

adından isə səfir E.Vilson imzaladılar. Saziş imzalandıqdan sonra E.Vilson dövlət katibi C.Marşalın Türkiyə hökumətinə müraciətini oxudu. Bir qayda olaraq Amerika yardımı alınması ilə bağlı ABŞ-la ikitərəfli sazişlər imzalayan ölkələrə C.Marşall məktubla müraciət edirdi. Bu müraciətdə ABŞ Dövlət katibi sazişin imzalanmasın bərpa proqramının həyata keçirilməsində mühüm addım kimi qiymətləndirirdi. N.Sadak öz cavab çıxışında Türkiyənin bu sazişi imzalamaqla beynəlxalq əməkdaşlığa hazır olduğunu, Avropanın yalnız ABŞ kimi böyük dövlətin yardımı ilə bərpa oluna biləcəyini qeyd etdi, Türkiyənin yardım proqramında iştirakına görə türk xalqı adından Amerika xalqına minnətdarlığını bildirdi. Marşall planı üzrə yardım sazişi imzalandıqdan üç gün sonra Türkiyə Millət Məclisi onu müzakirəyə çıxartdı. Məclisdəki müzakirələr zamanı.Sadak saziş haqqında deputatlara geniş məlumat verdi. O bildirdi ki, ABŞ tərəfindən təqdim edilmiş ilkin layihədə irəli sürülən bir sıra müddəaları bir neçə həftəlik müzakirədən sonra dəyişdirmək mümkün oldu. N.Sadak dedi ki, Türkiyə başlanğıc olaraq 10 milyon dollar Amerika kreditini alır, lakin hökumətin illik kredit ehtiyaclarının 85 milyon dollar olması barədə ABŞ hökumətinə məlumat verilmişdir. O, deputatların qarşısındakı çıxışını belə yekunlaşdırdı: "Türklərin dünyanın bu hissəsində sülhün qorunmasına münasibətdə baxışları və maraqları ABŞ-la eynidir, biz indiyə qədər göstərilən və saziş imzalandıqdan sonra göstəriləcək yardımlara görə təşəkkür edirik". İyul ayının  7-də Türkiyə Məclisində təsdiq edilən saziş 11 maddədən ibarət idi. Yardımın məqsədi, göstərilmə qaydaları, tərəflərin öhdəlikləri və s. məsələlər bu maddələrdə təsbit olunmuşdu. 11-ci maddəyə görə, Sazişin fəaliyyət müddəti 1953-cü ilin iyun ayının 30-na qədər idi. Yardımın həcmi böyük olmasa da, Türkiyənin Marşall planı üzrə kredit alan ölkələrin sırasına daxil edilməsi və bütövlükdə ABŞ-ın siyasi dəstəyini qazanması "türk diplomatiyasının böyük qələbəsi" kimi qiymətləndirilirdi. Bərpa proqramı üzrə iqtisadi yardım haqqında saziş imzalandıqdan dərhal sonra ABŞ müdafiə nazirinin müavini general Drayper Amerika ordusu Baş qərargahının əməliyyat şöbəsinin müdiri general Bedemeyerin və yüksək rütbəli digər Amerika zabitlərinin, habelə Dövlət Departamentinin nümayəndələrinin müşayiəti ilə Ankaraya, admiral Şermanın komandanlığı ilə Birləşmiş Ştatların eskadrası isə İstanbula gəldi. Ankaraya gələn Amerika heyəti Türkiyə müdafiə naziri, Baş qərargahın rəisi və xarici işlər naziri tərəfindən qəbul edildilər (28). Bundan az sonra isə 1948-ci ilin avqustunda Ankaraya gələn ABŞ-ın aviasiya naziri Siminqton, Amerika hava qüvvələri Baş qərargahının rəisi general Vandenberq türk ordusunun Baş qərargah rəisi general Omurtak, Baş nazir H.Saka və prezident İ.İnönü tərəfindən qəbul edilmişdilər. Görüş zamanı başlıca olaraq hərbi yardım məsələləri müzakirə edilmiş, Siminqton

nəzərdə tutulmuş hərbi yardımın artıq 77 faizinin türk ordusuna çatdırıldığını, "P-47" tipli ən müasir təyyarələrin Türkiyəyə gətirildiyini bildirmişdi. O demişdi: "Bu təyyarələri almaqla Türkiyə istənilən təhlükəyə qarşı dayana biləcək. Türkiyənin hava qüvvələri quru qoşunları ilə qarşılıqlı fəaliyyətdə hər hansı gözlənilməz hücuma tab gətirə bilər".

1948-ci ilin avqust ayında Türkiyə-Amerika münasibətlərinin inkişafında müstəsna rol oynamış ABŞ səfiri E.Vilsonun bu ölkədə diplomatik fəaliyyət müddəti başa çatdı. O, mətbuata verdiyi açıqlamalarda bildirdi ki, 1948-ci ildə Türkiyəyə göstərilən yardım proqramı noyabr ayında yerinə yetiriləcək, ondan sonra isə 1949-cu ilin proqramı yerinə yetirilməyə başlayacaqdır. E.Vilson bildirdi ki, hazırda Türkiyəyə böyük həcmdə materiallar gətirilir və müasir silahlarla təchiz olunma baxımından demək olar ki, türk ordusu hər gün möhkəmlənir. Türkiyə-Sovet münasibətlərinə toxunan E.Vilson qeyd etdi ki, Türkiyə Sovet İttifaqı ilə dostluq münasibətləri qurmağı arzulayır. Türkiyə son bir neçə ildə davam edən güclü və inadlı Sovet təzyiqlərinə qarşı cəsarətlə müqavimət göstərmişdir. E.Vilsonun fikrincə, Balkanlarda, Yaxın və Orta Şərqdə mühüm rol oynayan Türkiyənin xarici siyasəti uzaqgörən xarici siyasət idi. O, Türkiyənin dövlət xadimlərinin siyasi baxımdan ağıllı və təcrübəli olduqlarını yüksək qiymətləndirirdi (29).

ABŞ-ın ardınca 1948-ci ilin avqustunda Türkiyə də Vaşinqtona yeni səfir təyin etdi. Uzun müddət Türkiyə Xarici İşlər Nazirliyinin Baş katibi işləmiş təcrübəli diplomat Firudin Cemal Erkin öz etimadnaməsini prezident Trümenə təqdim etdikdən sonra sentyabr ayının 17-də Amerika jurnalistləri üçün mətbuat, konfransı keçirdi. F.Erkin bir sıra beynəlxalq məsələlərə və Qərb ölkələrinin bloklaşma siyasətinə toxunduqdan sonra qeyd etdi ki, Türkiyə hökuməti rusların Boğazlarda baza yaramaq tələblərinə qarşı sərt mövqeyini davam etdirəcəkdir (30).

Yeni Sovet səfirinin özü ilə yeni təkliflər gətirəcəyinə Türkiyə siyasi dairələrinin bəslədiyi ümidlər özünü doğrultmadı. Türkiyə xarici işlər naziri N.Sadak A.Lavrişevin fəaliyyətsizliyini müşahidə edərək bir sıra xarici mətbuat orqanlarına müsahibələrində bildirirdi ki, Türkiyə Sovet səfirinin Ankaraya yeni missiya ilə gələcəyinə, Sovet-Türk münasibətlərinin normallaşdırılması ilə bağlı təkliflərlə çıxış edəcəyinə ümid bəsləyirdi. Lakin bu baş vermədi və Sovet-Türk münasibətlərində heç bir dəyişiklik yoxdur (31).

1948-ci ilin noyabr ayında A.Lavrişevlə Baş nazir H.Sakanın görüşündə Sovet-Türk münasibətlərinin bəzi məqamları müzakirə edilsə də, tərəflərin mövqelərini uzlaşdırmaq istiqamətində elə bir irəliləyiş baş vermədi. H.Saka qeyd etdi ki, o, Atatürkün köhnə qvardiyasının nümayəndəsi kimi Sovet İttifaqı ilə Türkiyə arasında münasibətlərin əhəmiyyətini yaxşı başa düşür. A.Lavrişev dedi: "Ola bilsin ki, Türkiyədə Sovet-Türk

münasibətlərinin əhəmiyyətini başa düşən "Atatürkün köhnə qvardiyasından" olan adamlar vardır, lakin məndə belə bir təəssürat yaranıb ki, Türkiyədə bir sıra adamlar Sovet-Türk münasibətlərinin Amerikanın köməkliyi ilə tənzim olunmasına meyllidir". Səfir əlavə etdi ki, əslində belə məsələlər yalnız aidiyyəti olan ölkələr, yəni Sovet İttifaqı və Türkiyə arasında həll edilə bilər. A.Lavrişev eyham vurdu ki, Türkiyədə bəzi adamlar Amerikadan gətirilən bir neçə yüz təyyarə və tankın doğurduğu təsir altında hərbi isterikaya yoluxub və həmin adamlar Türkiyənin həqiqi mənafelərini görmürlər, onlar indiki zamanda müharibənin gətirdiyi fəlakətləri və onun miqyasını yetərincə təsəvvür etmirlər. A.Lavrişev müharibənin miqyası ilə bağlı nümunə kimi İkinci Dünya müharibəsi cəbhələrində bir gün ərzində almanların yüzlərlə təyyarə və tankının sıradan çıxarılmasını misal gətirdi (32).

Sovet səfirinin bu açıq hədələri, Türkiyə-Amerika əməkdaşlığına qarşı kəskin çıxışı elə bir nəticə vermədi. SSRİ-nin öz tələblərində israr etməsi və Türkiyəni daim təzyiq altında saxlaması Birləşmiş Ştatlarla əməkdaşlığı Türkiyə xarici siyasətinin aparıcı istiqamətinə çevirmişdi. Prezident İ.İnönü 1948-ci ilin axırlarında Amerika jurnalistləri ilə müsahibəsində bildirdi ki, "Hətta SSRİ öz tələblərindən imtina etsə belə, mən Türkiyə ilə Birləşmiş Ştatlar arasında sıx əməkdaşlığın tərəfdarı olaraq qalardım" (33).

1948-ci ildə ABŞ-la əlaqələr ilkin nəticələrini vermiş, Türkiyənin öz ərazi bütövlüyü və suverenliyini qorumaq, Sovet təhdidlərinin qarşısında dayanmaq baxımından Birləşmiş Ştatların yardımına inamını daha da artırmış və getdikcə aydın olmuşdu ki, Amerika Sovet ekspansionizminin yolunda güclü maneəyə çevrilməkdədir. Türkiyə rəsmiləri ardıcıl olaraq vurğulayırdılar ki, Vaşinqton tərəfindən göstərilən köməyin həcmi və miqyası qüdrətli rus ordusunun qarşısında dayanmaq, Türkiyəni rus ekspansiyası qarşısında ön cəbhəyə çevirmək üçün yetərli deyildir. Lakin bununla belə Şərqi Avropada və Balkanlarda baş verənlər Türkiyə rəsmiləri tərəfindən belə bir nəticə çıxarmağa əsas verirdi ki, SSRİ hətta bir sıra rayonlara qarşı öz iddialarını geri götürmüş olsa da, bunu ancaq bütövlükdə Türkiyəyə sahib olmaq üçün edəcəkdir. Ona görə də Sovet səfiri ilə müxtəlif səviyyələrdə olan söhbətlərdə "böyük qonşu olan Sovet İttifaqı" ilə Atatürk prinsipləri əsasında münasibətlərin yaxşılaşdırılmasının Türkiyə rəhbərliyinin başlıca vəzifəsi olması haqqındakı fikirlər artıq sırf deklarativ xarakter daşıyırdı (34). Bunun əksinə olaraq Türkiyə-Amerika əməkdaşlığı getdikcə daha çox intensiv məzmun kəsb edirdi. 1948-ci ilin sonlarında N.Sadak C.Marşala görüşündə hətta bildirmişdi ki, müharibə olacağı təqdirdə o, Amerika əsgərlərinin türk əsgərlərinin yanında olacağına tamamilə şübhə etmir (35). Nəhayət, Birləşmiş Ştatların Türkiyəyə yardımı haqqında 1948-ci ilin dekabr ayında prezident Trümenin ABŞ konqresinə məruzəsi açıqlandı. O, əminliklə qeyd edirdi ki, bu yardım Türkiyənin iqtisadiy-

yatının möhkəmləndirilməsində və onun dövlət rejiminin demokratikləşdirilməsində mühüm rol oynamışdır. H.Trümen vurğulayırdı ki, türklərə hərbi təlim öyrədilməsi güman edildiyindən daha sürətlə qabağa getmişdir. Prezident öz məruzəsini əsasən yardımın üç istiqaməti - hərbi, iqtisadi və mənəvi tərəfləri üzərində qurmuşdu. Amerikanlar bu fikirdə idi ki, onların göstərdiyi yardım Türkiyənin silahlı qüvvələrini xeyli möhkəmləndirmiş, onun mənəvi ruhunu yüksəltmişdir. Dekabr ayının sonlarında Ankaraya səfər edən ABŞ-ın müdafiə naziri Kennet Royyal yardım proqramı üzrə türk ordusunun modernləşməsi ilə tanış olduqdan, İ.İnönü, H.Saka, N.Sadak, müdafiə naziri Hüsnü Çakır və Baş qərargah rəisi Salih Omurtakla "mühüm hərbi danışıqlar" apardıqdan sonra Trümen doktrinası və Marşall planı üzrə Türkiyəyə göstəriləcək yardımların həcminin artırılacağını bildirmişdi. O, qeyd etdi ki, Türkiyə Yaxın Şərq ölkələri içərisində ən güclüsüdür və SSRİ tərəfindən hər hansı təcavüzkar niyyətlərə qarşı tam qətiyyətlə müqavimət göstərmək imkanına malikdir. Göstərilən yardımlar effektli nəticələr verdiyinə görə Birləşmiş Ştatlar Trümen doktrinasını həyata keçirmək və göstərilən hərbi yardımı davam etdirmək niyyətindədir (36). ABŞ rəsmilərinin belə mövqeyi Milli Təhlükəsizlik Şurasının noyabr ayının sonlarında Şərqi Aralıq dənizi və Orta Şərqin təhlükəsizliyinin ABŞ-ın təhlükəsizliyi üçün həyati əhəmiyyətə malik olması barədə tövsiyəsi ilə bilavasitə bağlı idi. Qərargah rəislərinin Birləşmiş Komitəsi 1948-ci ilin noyabr ayının 24-də bu mövqeyi məxsusi olaraq Yunanıstan və Türkiyəyə istinad edərək belə ifadə edirdi: hərbi nöqteyi-nəzərdən SSRİ öz ekspansionist siyasətini davam etdirdiyi müddətdə Şərqi Aralıq dənizi və Orta Şərqin təhlükəsizliyi ABŞ-ın gələcək təhlükəsizliyi üçün müstəsna əhəmiyyət daşıyır. Yunanıstan və Türkiyə SSRİ-nin genişlənmək istədiyi əraziyə daxildir və buna görə də ABŞ-ın milli təhlükəsizlik maraqları baxımından bu ölkələrdən heç birinin Sovet İttifaqının təsiri altına düşməməsi çox vacibdir. Hər iki ölkədə SSRİ-nin Kipr, Rodos, Krit adalarına və Şərqi Aralıq dənizi regionundakı rabitə xəttlərinə, Orta Şərq regionuna qarşı hərbi əməliyyatlara başlamaq üçün istifadə edə biləcəyi hərbi bazalar mövcuddur. Türkiyə strateji cəhətdən Yunanıstandan daha vacibdir, belə ki, o SSRİ-dən Misir-Süveyş regionuna və Orta Şərqin neft sahələrinə gedən əsas hava, quru və dəniz yollarının üzərində yerləşir (37).

ABŞ Türkiyəyə böyük önəm versə də, onu 1949-cu ilin əvvəllərindən başlayaraq yaradılmasına ciddi hazırlıq görülən Şimali Atlantika bloku içərisində görmürdü. Türkiyə rəsmən coğrafi baxımdan özünü Şimali Atlantikadan uzaq hesab etməsinə baxmayaraq, yeni formalaşan blokda yer almaması hökumətin qapalı müzakirələrində müəyyən narahatçılıq doğurmuşdu. 1949-cu ilin yanvar ayının 16-da qurulan Şemsettin Günaltay hökumətində xarici işlər naziri vəzifəsini saxlayan N.Sadak yanvar ayının 25-də Sovet səfiri A.Lavrişevlə söhbətdə bu məsələyə müəyyən aydınlıq

gətirmişdi. A.Lavrişev son vaxtlar bir sıra mətbuat orqanlarında Türkiyənin Atlantika paktına birləşmək arzusu haqqında məlumatların getdiyi ilə maraqlananda N.Sadak cavab vermişdi ki, bu ayrı-ayrı jurnalistlərin fantaziyasıdır. O dedi ki, Türkiyə ondan bu qədər uzaqda olan ölkələrə münasibətdə öz üzərinə hərbi öhdəlik götürə bilməz və onun belə bir niyyəti yoxdur (38). Eyni mövqeyi N.Sadak fevral ayının əvvəllərində Marşall planının növbəti müzakirəsi ilə bağlı xarici işlər nazirlərinin Paris konfransına yola düşərkən də təsdiqlədi. O, qeyd etdi ki, Atlantika paktı onu yaradanların fikrinə uyğun olaraq müəyyən coğrafi ərazini əhatə edir. Onun adı "Şimali Atlantika paktı" adlanır və ona görə də ona Şimali Atlantikaya yaxın olan dövlətlər qoşula bilərlər. Türkiyə isə Atlantika sahillərindən uzaqdır və onun təhlükəsizlik zonası tamamilə digər coğrafi ərazidə yerləşir. Lakin bununla belə, N.Sadak təhlükəsizlik sisteminə bütöv baxdığını və təhlükəsizliyin yalnız Avropanın bir hissəsini əhatə edəcəyinə inanmadığını vurğuladı. O dedi: "Madam ki, Avropada sülh və təhlükəsizliyin müdafiə olunması nəzərdə tutulur, bu məqsədə yalnız Avropanın bir hissəsində nail oluna bilməz" (39). Parisdə olarkən N.Sadakın Britaniya xarici işlər naziri E.Bevin və Fransa xarici işlər naziri Şümanla apardığı danışıqlar coğrafi uyğunsuzluq anlamında Türkiyənin Atlantika paktından kənarda qaldığını təsdiqləyirdi. Bununla belə Paris görüşündə N.Sadak Britaniya, Fransa və Yunanıstan xarici işlər nazirləri ilə Aralıq dənizi blokunun yaradılması ilə bağlı ilkin fikir mübadiləsi apardı. Lakin NATO-nun yaradılması istiqamətində ciddi hazırlıq işləri getdiyindən Britaniya Xarici İşlər Nazirliyi Aralıq dənizi paktinin təsis edilməsinin vaxtının yetişmədiyini vurğuladı. Danışıqlar zamanı Ankaranın narahatçılığını azaltmaq məqsədilə E.Bevin bildirdi ki, Türkiyənin təhlükəsizliyinə təminat ingilis-fransız-türk ittifaq müqaviləsilə verilir və Trümen doktrinası bu təhlükəsizliyə daha etibarlı təminatdır. N.Sadak Parisdən döndükdən sonra Türkiyə Millət Məclisində mart ayının 16-da çıxış edib Aralıq dənizi paktına münasibətdə heç bir qərarın qəbul olunmadığını bildirdi.

Sovetlər 1949-cu ilin əvvəllərindən genişlənən bloklaşma siyasətindən və Türkiyənin hər hansı formada bu bloklara cəlb edilməsindən ciddi narahatçılıq keçirirdi. Aralıq dənizi paktı ilə bağlı müzakirələr genişləndiyindən Ankaradakı Sovet səfiri A.Lavrişev mart ayında Türkiyənin bu pakta münasibətilə bağlı Xarici İşlər Nazirliyinə şifahi sorğu ilə müraciət etdi. Bu sorğuya cavab olaraq Türkiyə tərəfi bildirdi ki, Aralıq dənizi paktı bilavasitə müdafiə məqsədləri üçün yaradılır və Türkiyə ona qoşulmağa hazırdır. Aralıq dənizi paktına münasibətdə A.Lavrişevin "qeyri-rəsmi demarşı" türk mətbuatında geniş müzakirəyə səbəb oldu. Məsələnin ciddiliyi eyni zamanda onunla izah edilirdi ki, Sovetlər nə Türkiyəyə yönəlmiş öz iddialarından imtina edir, nə də Türkiyənin sovet təhdidləri

qarşısında öz təhlükəsizliyini təmin etmək cəhdləri ilə barışmaq istəyirdi. Bütün bu məsələlər və "Sovet demarşının" doğurduğu digər nəticələr mart ayının 10-da Londondakı türk səfiri C.Açıkalınla E.Bevinin görüşündə müzakirə edildi (40).

1949-cu ilin mart ayında Sovet rəhbərliyində bir sıra dəyişikliklər edilməsi, uzun müddət SSRİ xarici siyasətinə rəhbərlik edən V.Molotovun A.Vışinski və xarici ticarətinə rəhbərlik edən A.Mikoyanın M.Menşikovla əvəz edilməsi Türkiyənin bəzi dairələrində səhv olaraq Sovetlərin xarici siyasətində dəyişiklik olacağı fikrini yaratmışdı. Xüsusilə V.Molotovun xarici işlər naziri vəzifəsindən azad edilməsi türk mətbuatında son illərin ən mühüm hadisəsi kimi dəyərləndirilir, o, Sovetlərin yeritdiyi ekspansionist və imperialist siyasətin başlıca nümayəndəsi kimi qiymətləndirilirdi. Lakin SSRİ-də gedən dəyişiklikləri diqqətlə izləyən Türkiyə siyasi dairələri bunu Sovetlərin xarici siyasətinə heç bir təsir göstərməyəcəyini bildirirdilər. N.Sadak türk mətbuatının çoxsaylı sorğularına cavab olaraq qeyd edirdi ki, Molotovun Vışinski ilə əvəz olunması SSRİ-nin xarici siyasətində heç bir dəyişikliyə gətirib çıxarmayacaq. Onun fikrincə, Türkiyənin səmimi niyyətlərinə baxmayaraq SSRİ Türkiyəyə münasibətdə düşmənçilik meyllərindən hələ ki, imtina etməmişdir. N.Sadak deyirdi: "Molotovun Vışinski ilə əvəz edilməsi Sovetlərin Türkiyəyə münasibətdə dostluq ifadə edəcəyinə, bolşevik siyasətinin dəyişəcəyinə ümid bəsləmək olmaz". Xarici işlər nazirinin açıqlamasını şərh edən bir sıra türk qəzetləri haqlı olaraq belə nəticəyə gəlirdilər ki, bugünkü Rusiyanın siyasəti bütövlükdə İ.Stalinin əlində toplanmışdır, xarici işlər naziri vəzifəsini kimin tutmasından asılı olmayaraq bu siyasət dəyişməz qalacaqdır (41).

1949-cu ilin mart ayının ortalarında Atlantik paktının layihəsi elan olundu. Həmin vaxt Paris görüşü barədə Millət Məclisinə hesabat verən N.Sadak eyni zamanda NATO-nun yaradılması ilə bağlı məsələlərə də toxundu. O, bir daha təsdiq etdi ki, Şimali Atlantika paktı bəlli bir coğrafi ərazini əhatə etdiyindən Türkiyənin bu paktda iştirakından söhbət gedə bilməz. Eyni zamanda xarici işlər naziri Məclisə məlumat verdi ki, Türkiyənin yerləşdiyi rayonda sülhü qoruyub saxlamaq üçün İngiltərə və Amerika ilə danışıqlar davam etdirilir. Mart ayının 18-də isə E.Bevin və D.Açeson açıqladılar ki, NATO-nun yaradılması heç bir halda ABŞ və Britaniyanın Türkiyəyə diqqətini azaltmır.

Mart ayının 22-də Birləşmiş Ştatların Milli Təhlükəsizlik Şurası Sovetlərin ABŞ-ın təhlükəsizliyinə təhdidlərinin qarşısını almaq üçün Amerikanın Yunanıstan və Türkiyə ilə bağlı siyasəti barədə prezidentə geniş məruzə hazırladı. Orada qeyd olunurdu ki, SSRİ Türkiyəyə nəzarəti aşağıdakı vasitələrlə ələ keçirməyə çalışır: 1) Boğazlarda birgə Sovet-Türkiyə nəzarətini təmin etmək cəhdləri; 2) Boğazlara birgə nəzarətlə əlaqədar

Türkiyə ərazisindəki bazaları əldə etmək səyləri; 3) Qars və Ərdahan da daxil olmaqla Şimali-Şərqi Türkiyə ərazilərinə iddialar; 4) Türkiyəni Qərbdən təcrid etmək məqsədilə siyasi təbliğat aparmaq cəhdləri; 5) Türkiyə hökumətini zəiflətmək məqsədilə təbliğat; 6) Türkiyəyə qarşı sərt və bəzən də hədələyici münasibət. Sənəddə göstərilirdi ki, Türkiyə öz mövqeyini müdafiə ittifaqı qurmaq vasitəsilə, yaxud da digər xalqlarla ittifaqa girmək yolu ilə möhkəmləndirməyə çalışır. Bu səylərin müvəffəqiyyəti əsasən ABŞ-ın ya birbaşa, ya da ki, təminatçı olaraq bu prosesdə iştirak etmək istəyindən asılıdır. Milli Təhlükəsizlik Şurasının məruzəsində qeyd olunurdu ki, Türkiyə planlaşdırılan Şimali Atlantika paktına üzv qəbul edilməsini xahiş etsə də, onun bu istəyi rədd edilib (42). Bu məruzə ilə tanış olduqdan sonra Dövlət katibi D.Açeson mart ayının 23-də keçirdiyi mətbuat konfransında Türkiyənin Şimali Atlantika paktına qəbul edilməməsinin ona münasibətdə diqqətin azalması kimi şərh edilməsinin əleyhinə oldu. Eyni mövqeyi prezident H.Trümen aprel ayının 4-də NATO-nun yaradılması ilə bağlı müqavilə imzalandıqdan sonra verdiyi bəyanatda da təsdiq etdi.

1949-cu ilin aprelin 4-də NATO-nun yaradılması haqqında Vaşinqton müqaviləsi imzalandıqdan dərhal sonra N.Sadak ABŞ-a səfərə yola düşdü. Aprelin 12-də onun D.Açesonla geniş söhbəti oldu. Söhbətdən sonra ABŞ Dövlət katibi mətbuat üçün qısa açıqlamasında bildirdi ki, o, Amerika və Türkiyəyə aid olan bütün məsələləri Türkiyənin xarici işlər naziri ilə müzakirə etmişdir. Açeson-Sadak müzakirələrində Türkiyə tərəfi Birləşmiş Ştatlar tərəfindən göstərilən hərbi və iqtisadi yardımın davamlı xarakter almasına nail olmuşdu. D.Açeson Türkiyə xarici işlər nazirinə bildirmişdi ki, bir neçə gün ərzində Türkiyəyə böyük həcmdə yardım ayrılması üçün Konqresə müraciət ediləcəkdir (43). Bununla belə Aralıq dənizi dövləti olaraq İtaliya Şimali Atlantika paktına qəbul edildiyi halda, Türkiyə blokdan kənarda qalmışdı. Türkiyə tərəfinin bunu Aralıq dənizi paktının yaradılması ilə əvəzləmək cəhdləri isə D.Açeson tərəfindən bəyənilmədi. D.Açeson belə hesab edirdi ki, Orta Şərqin təhlükəsizliyi həmin dövrdə Türkiyə, Yunanıstan və İrana göstərilən Amerikanın davamlı hərbi və iqtisadi yardımları çərçivəsində təmin edilmişdir.

Aprel ayının 13-də N.Sadak prezident H.Trümen tərəfindən qəbul edildi. Türkiyə xarici işlər naziri prezident İ.İnönünün məktubunu ona təqdim etdi. Eyni zamanda H.Trümen İ.İnönüyə yazdığı məktubu ona çatdırmağı N.Sadakdan xahiş etdi. Məktubda deyilirdi: "Mən inanıram ki, cənab Sadak imzalanan Atlantik paktının Türkiyənin təhlükəsizliyini gücləndirəcəyinə tam əmindir". Aprel ayının 14-də N.Sadak keçirdiyi mətbuat konfransında bildirdi ki, Atlantika paktı Avropada sülhü müdafiə etmək üçün yetərli deyildir. Onun fikrincə, bu paktın Aralıq dənizi paktı ilə tamamlanmasına ciddi zərurət var idi. Türkiyənin təhlükəsizliyinə

təminat verilməsi ilə bağlı sualı cavablandırarkən N.Sadak dedi ki, Türkiyənin təhlükəsizliyinin birinci təminatçısı türk ordusudur. O əlavə etdi ki, indi Türkiyəyə qarşı törədilən hər hansı təcavüzü türk ordusu uğurla dəf etmək iqtidarına malikdir. Eyni zamanda N.Sadak qeyd etdi ki, Türkiyə mənəvi baxımdan özünü Atlantik paktı ölkələrinin siyasəti ilə sıx bağlı hesab edir və Türkiyənin ABŞ-la mənəvi və maddi bağlılığı Şimali Atlantika birliyi daxilində olduğu qədər yaxındır. N.Sadak bildirdi ki, Birləşmiş Ştatlar hazırda Atlantik paktı ilə ciddi şəkildə məşğul olduğundan, o, Aralıq dənizi paktı ilə bağlı məsələləri D.Açesonla geniş müzakirə edə bilmədi. Lakin D.Açesonla söhbətdə Türkiyə-Amerika münasibətlərinin bütün tərəflərinin müzakirə edildiyini N.Sadak jurnalistlərə açıqladı. Vaşinqtondakı danışıqları başa çatdırdıqdan sonra Türkiyə xarici işlər naziri BMT Baş Məclisinin üçüncü sessiyasının ikinci hissəsində iştirak etmək üçün Nyu-Yorka getdi (44).

N.Sadak Amerikadan qayıtdıqdan sonra may ayının 11-də Vaşinqtonda apardığı danışıqlar barədə Türkiyə Millət Məclisinə geniş hesabat verdi. O bildirdi ki, biz arxayınlıqla və əminliklə gələcəyə baxa bilərik. Biz Atlantik paktında iştirak etməyəcəyik. Lakin biz kollektiv təhlükəsizliyin dünyanın digər ölkələrinə də yayılmasının tərəfdarıyıq. N.Sadak Məclisə məlumat verdi ki, Sovet təcavüzü baş verəcəyi təqdirdə ABŞ-ın Türkiyənin köməyinə gələcəyi barədə Vaşinqtondan şifahi təminat alıb.

Eyni zamanda N.Sadak Vaşinqtondan qayıdarkən Fransa xarici işlər naziri Şümanla görüşdüyünü və Fransanın 1939-cu il ingilis-fransız-türk müqaviləsini daim fəaliyyətdə olan sənəd kimi qəbul etdiyini bildirdi. 1949-cu ilin iyun ayının 13-də Fransa hökuməti bu mövqeyini rəsmi qaydada təsdiq etdi və onu Türkiyəyə bildirdi. Bununla da Türkiyə öz təhlükəsizliyinin möhkəmləndirilməsi baxımından 1939-cu il müqaviləsi daxilində əlavə təminatlar almış oldu (45).

1949-cu ilin yayında Türkiyənin Avropa Şurasına qəbul edilməsi onun Avropaya inteqrasiyası yolunda mühüm hadisə oldu. Həmin ilin iyul ayında Türkiyə hökuməti rəsmən Strasburqda keçirilən Avropa Şurasının sessiyasına dəvət aldı. N.Sadak bunu yüksək qiymətləndirərək qeyd edirdi ki, Atlantika paktına daxil olan ölkələrlə birlikdə Türkiyənin Avropa Şurasına dəvət olunması bizi tamamilə təmin edir. Prezident İ.İnönü də Türkiyənin bu Şuraya dəvət olunmasına toxunaraq qeyd edirdi ki, bura ancaq demokratik qaydalarla idarə olunan millətləri buraxırlar (46).

Türkiyənin NATO-ya qəbul edilməməsi və türk siyasi dairələrinin Aralıq dənizi və ya Yaxın Şərq rayonunda regional pakt yaratmaq cəhdlərinin bir nəticə verməməsi Sovetlərin maraqlarına uyğun idi. SSRİ Xarici İşlər Nazirliyi Türkiyə, Yunanıstan və İtaliyanın Atlantika paktına daxil olmasına, yaxud ABŞ və Britaniyanın yardımı ilə onların regional bloklarda təmsil olunmalarına özünün Balkanlarda və Yaxın Şərqdə

yayılma siyasətinə qarşı ciddi təhlükə görürdü. Bununla bağlı ÜİK(b)P MK-nın Siyasi Bürosu 1949-cu ilin yayında İtaliyanın Şimali Atlantika blokuna qoşulmasına qarşı SSRİ Xarici İşlər Nazirliyi tərəfindən İtaliya hökumətinə təqdim edilmək üçün hazırlanmış notanın mətninin təsdiq etmişdi. Eyni zamanda NATO-nun yaranması ilə bağlı ABŞ, Böyük Britaniya və Fransa hökumətlərinə təqdim edilən notalar da Siyasi Büroda təsdiq olunmuşdu (47).

1949-cu ilin yazında və yayında baş vermiş bir sıra hadisələr Sovet-Türkiyə münasibətlərinə əlavə gərginlik gətirmişdi. Bunlardan birincisi, Sovet səfirliyinin ikinci katibi Qaryağdı Həsənovun həyat yoldaşı Sənubər Həsənovanın Türkiyə hakimiyyət orqanlarından siyasi sığınacaq istəməsi, ikincisi Türkiyə Xarici İşlər Nazirliyinin diplomatik kuryeri Fuad Güzaltanın Soçi yaxınlığında qatarda "özünü intihar etməsi" ilə bağlı qalmaqal, üçüncüsü isə Sovet təyyarəçisi V.Bortun Türkiyəyə qaçması idi.

SSRİ-yə geri çağırılan Sovet səfirliyinin əməkdaşı Q.Həsənov ona qarşı müxtəlif repressiyaların ola biləcəyini nəzərə alaraq Türkiyə hökumətindən siyasi sığınacaq almaq qərarına gəlmişdi. Bunu hiss edən Sovet xüsusi xidmət orqanları gizli əməliyyat nəticəsində onu SSRİ-yə apara bilmişdilər. Lakin onun həyat yoldaşı S.Həsənova imkan tapıb Türkiyə hakimiyyət orqanlarına sığınacaq üçün müraciət edə bilmişdi və onun müraciəti təmin edilmiş, özü isə müvəqqəti Adanada yerləşdirilmişdi. Sovet səfirliyinin üç nəfər əməkdaşı onu Adanadan qaçırmağa cəhd göstərsə də, bu cəhd baş tutmamışdı. Bundan sonra Sovet səfirliyi guya S.Həsənovanın SSRİ-yə getmək üçün səfirliyə müraciət etməsi barədə Türkiyə xarici və daxili işlər nazirliyinə məktub göndərsə də, S.Həsənova Ankaraya gəlib mətbuat orqanlarına açıqlama vermişdi ki, o, belə bir ərizə ilə Sovet səfirliyinə müraciət etməyib, eyni zamanda S.Həsənova Türkiyədən sığınacaq aldığını və türk vətəndaşlığını qəbul etdiyini açıq şəkildə təsdiq etmişdi. O qeyd etmişdi ki, "Mənim həyat yoldaşım Türkiyədən sığınacaq almaq istədiyinə görə zorla Rusiyaya göndərilib. Dəqiq bilirdim ki, məni də həmin tale gözləyir və ona görə də Türkiyə hakimiyyət orqanlarına sığınacaq almaq üçün müraciət etdim. Mənim müraciətim təmin edildi və mənə Adanada yaşamağa icazə verildi. Lakin burada da məni rahat buraxmadılar və həyat yoldaşımı zorla göndərdikləri kimi məni də zorla ələ keçirmək istəyirdilər. Türkiyənin rəsmi hakimiyyət orqanlarının müdaxiləsindən sonra bunu etmək onlara nəsib olmadı. Sonra fikirləşdim ki, Moskva radiosu bu hadisədən yalan və böhtan uydurmalar üçün istifadə edəcək, ona görə də qərara aldım ki, Ankaraya gəlib öz arzumla Türkiyədə qaldığımı sübut edim və məlumat verim ki, məni zorla aparmaq mümkün olmadı". S.Həsənova Ankaraya gələndən sonra Türkiyə xarici və daxili İşlər nazirlikləri Sovet səfirliyinə rəsmən onunla əlaqə yaratmasına icazə versə

də, lakin səfirlikdən bu istiqamətdə elə bir təşəbbüs göstərilmədi və bu məsələ öz əhəmiyyətini itirdi (48).

Bu hadisə ilə eyni vaxtda Türkiyə Xarici İşlər Nazirliyi iyul ayının 3-də SSRİ orqanlarına istinadən Soçi ərazisində nazirliyin diplomatik kuryeri F.Güzaltanın guya tapançadan atəş açmaqla özünə qəsd etməsi və Soyet həkimlərinin onun həyatını xilas etməsi üçün ciddi cəhdlər göstərməsinə baxmayaraq F.Güzaltanın xəstəxanada vəfat etməsi haqqında məlumat yaydı. S.Həsənova ilə bağlı qalmaqalın gərginləşdiyi məqamda bu məlumatın elan olunması Türkiyənin bütün dairələrinin əsəblərini əməlli-başlı tarıma çəkdi. Hamı başa düşürdü ki, SSRİ ərazisində qatarda yol gedən və diplomatik vəzifə yerinə yetirən xarici bir vətəndaşın Sovet İttifaqında özünə qəsd etməsi təsadüfi hadisə deyildir. Türk mətbuatı bu qəsd hadisəsi ilə bağlı yazılarında onun şübhəli məqamlarına eyham vurulurdu. Bir sıra yazılarda qeyd edilirdi ki, Türkiyə ilə Rusiyanın münasibətləri dostluqdan çox uzaqdır, lakin günahsız kuryerin ölümü heç nəyi həll etmir. Mətbuat mötəbər mənbələrə istinad edərək bu hadisə ilə bağlı məsələləri müzakirə etmək üçün N.Sadak və Xarici İşlər Nazirliyinin baş katibinin prezident İ.İnönü ilə görüşdüyü haqqında məlumat yaymışdı. F.Güzaltanın "özünü intiharı" iyun ayının 11-də Millət Məclisində anti sovet müzakirələrlə müşayiət edildi. Onun cənazəsini İstanbula aparan qatar iyunun 11-də Ankarada dayandıqda Məclisin deputatları, xarici işlər naziri N.Sadak, müdafiə naziri H.Çakır, Baş qərargah rəisi dəmir yol vağzalına gəlib cənazənin üstünə əklil qoydular. F.Güzaltan çox təmtəraqlı formada İstanbulda dəfn edildi, hakimiyyət orqanları, yüksək rütbəli hərbçilər və digər rəsmi şəxslər onun dəfnində iştirak etdilər. İyul ayının 10-da İstanbulda mətbuat nümayəndələrinin suallarına cavab verən N.Sadak bildirdi ki, Moskvadakı səfir bu yaxınlarda Ankaraya gələcək va Güzaltının şəxsi əşyalarını, o cümlədən onun "Öz başına vurduğu tapançanı və gülləni" də özü ilə gətirəcək. Onda biz təhqiqat üçün əlavə zəruri məlumatları əldə etmiş olacağıq. Sovet səfirliyi bu hadisə ilə bağlı SSRİ Xarici İşlər Nazirliyinə göndərdiyi geniş məlumatda F.Güzaltanın dəfninin Sovetlər əleyhinə sərt təbliğat kompaniyası fonunda təşkil edildiyi və rəsmi dairələrin bu işdə yaxından iştirak etdiyini göstərirdi (49).

1949-cu ilin iyun ayının 19-da Türkiyənin Moskvadakı səfiri F.Z.Akdur fəaliyyət müddətinin başa çatması ilə bağlı SSRİ xarici işlər nazirinin müavini F.Qusevlə görüşdü. O, Kanadadakı türk səfiri Müzəffər Tekerin Moskvaya yeni səfir təyin olunduğunu F.Qusevin nəzərinə çatdırdı. Eyni zamanda Faik Akdur bildirdi ki, bundan sonra o, fəaliyyətini Türkiyə Xarici İşlər Nazirliyinin Baş katibi kimi davam etdirəcəkdir (50). F.Akdur Türkiyəyə qayıdanda F.Güzaltının şəxsi əşyalarının və müvafiq sənədlərinin Sovet orqanları tərəfindən ona verildiyini təsdiq etdi və

bildirdi ki, yaxın vaxtlarda o, "Güzaltının işi" ilə bağlı geniş açıqlama ilə çıxış edəcəkdir.

Sovetlərlə Türkiyə arasında 1949-cu ilin yayında ciddi mübahisələrdən biri də təyyarəçi V.Bortla bağlı olan məsələ idi. V.Bort Krımdan qaçaraq Sinopda yerə enmiş və Türkiyə hakimiyyət dairələrindən sığınacaq istəmişdi. V.Bort öz hərəkətini Sovet hökumətinin zülmündən qaçması ilə izah edir, Rusiyada aclığın və insanlar üzərində zorakılığın hökm sürdüyünü bildirirdi.

V.Bortla bağlı məsələ ÜİK(b)P MK-nın Siyasi Bürosunda müzakirə edilmiş, Xarici İşlər Nazirliyinin təqdimatına əsasən onun cinayət törətmiş cani kimi Sovet sərhəd orqanlarına təhvil verilməsi haqqında Türkiyəyə təqdim edilən notanın mətni Siyasi Büroda təsdiq edilmişdi (51).

Türkiyənin ABŞ və Qərb ölkələri ilə əlaqələrinin genişlənməsi ilə bağlı Ankaradakı Sovet səfirliyi 1949-cu ilin iyul ayında "Türkiyədə dini irticanın güclənməsi haqqında" 31 səhifəlik gizli arayış hazırlayıb SSRİ Xarici İşlər Nazirliyinə göndərmişdi. Orada göstərilirdi ki, ölkənin Amerika imperializminin təsirinə düşməsindən sonra Türkiyənin daxili həyatında irtica dini zəmində, diqqəti cəlb edəcək formada güclənmişdir. Bir sıra müsəlman ölkələrində olduğu kimi Türkiyədə də dini partiya mövcud deyildir və müsəlman dininin nümayəndələri mitinqlər keçirmirlər. Onlar xüsusi hay-küy salmadan ölkənin daxili və xarici siyasət maraqlarına uyğun olaraq öz siyasətlərini ardıcıl həyata keçirirlər. Məsələni daha ətraflı izah etməkdən ötrü arayışda 1923-cü ilin 29 oktyabrından, yəni respublika elan edildikdən sonra Türkiyədə dinin vəziyyəti təhlil edilirdi. Orada qeyd olunurdu ki, Atatürk islahatları nəticəsində müsəlman ruhaniliyi Sultan Türkiyəsi dövründə ölkənin nəinki dini həyatında, eləcə də daxili və xarici siyasətindəki mühüm rolunu itirmişdir. Sənədin müəllifi N.Knyazkov yazırdı: "Xəlifəliyin ləğvi, şəriət nazirliyinin bağlanması, dini məktələbrin və vəqflərin ləğv edilməsi, hər cür dərviş təriqətlərinin qadağan edilməsi, dünyəvi məhkəmənin, Avropa geyiminin tətbiqi, latın əlifbasının yaradılması, ən nəhayət məktəbklərdə dini dərslərin keçilməsinin qadağan edilməsi ölkədə dinin təsirini əhəmiyyətli dərəcədə azaltmışdır. Arayışda göstərilirdi ki, 1928-ci il aprel ayının 9-da dinin dövlətdən ayrılması haqqında qanunun Böyük Millət Məclisində yekdilliklə qəbul edilməsi, 1931-ci ildə Xalq Cümhuriyyətçi partiyasının qurultayında qəbul edilən əsas 6 prinsipdən beşincisinin dünyəvilik olması, İstanbul Universitetində ilahiyyət fakültəsinin bağlanması və digər tədbirlər Türkiyədə dünyəvi dövlət quruculuğunu tamamlamışdır. Lakin müəllif göstərirdi ki, 1946-cı ildə çoxpartiyalı sistemə keçdikdən sonra müxtəlif müxalifət partiyalarının dindən öz məqsədləri üçün istifadə etmək cəhdləri müşahidə edilsə də, hökumət bunun qabağını almışdır. 1947-ci ilin noyabr-dekabr aylarında Xalq Cümhuriyyətçi

partiyanın yeddinci qurultayında da dinə münasibətlə bağlı məsələlərin müzakirə edildiyi, Həmdullah Sübhü Tanriover, Sinan Tekelioğlu və digərlərinin çıxış edib "millətin dinsiz mövcud ola bilməməsi" haqqında tezisi müdafiə etdikləri arayışda xatırlanırdı və bu müzakirələr nəticəsində 1948-ci ilin fevral ayında məktəblərdə dini dərslərin keçilməsinin məqsədəuyğun olması haqqında Məclisdə qərar qəbul olunduğu bildirilirdi (52). Bir sıra mətbuat orqanları məktəblərdə dini tədrisə icazə verilməsini Baş nazir Ş.Günaltayın özünün Türkiyədə ilahiyyət üzrə tanınmış professorlardan biri olması, islamın tarixi və nəzəriyyəsi ilə bağlı bir sıra mühüm əsərlər yazması ilə əlaqələndirirdilər.

Sovet səfirliyinin arayışında müxalifət partiyalarının, ilk növbədə DP-nin dinə münasibətindən də geniş bəhs edilirdi. Orada göstərilirdi ki, DP 1949-cu ilin martında Samsunda yaydığı vərəqədə əhalini kommunizmə qarşı mübarizəyə səsləyirdi və deyirdi: "Kommunizm allahı, dini, müqəddəsliyi, milləti və mülkiyyəti tanımır. Nə qədər ki, dünya mövcuddur, türk milləti öz allahı, vətəni, azadlığı və müstəqilliyi ilə bir olacaqdır". 1949-cu ilin aprelində DP-nin Bursa konfransında bir sıra nümayəndələr hətta dünyəvilik prinsipinin DP-nin proqramından çıxarılmasını təklif etmişdi. Müdaniyadan olan nümayəndə Hacıoğlu öz çıxışında qeyd etmişdi ki, "hansı ölkədə din yoxdur, orada qanun və ənənə də yoxdur. Həmin ölkə məhvə məhkumdur". Lakin konfransda çıxış edən C.Bayar bildirmişdi: "Biz razı ola bilmərik ki, Türkiyə yenidən şəriət qaydalarına qayıtsın" O, məsələni belə qoyurdu ki, "Biz əvvəlcə türkük, sonra müsəlmanıq".

Türkiyənin bu dövr siyasi mühitində din amilinin gündəmə çıxması səbələlərini sırf ideoloji mövqedən əsaslandıran və bunu birmənalı şəkildə dini irticanın güclənməsi kimi səciyyələndirən Sovet səfirliyi bu prosesi eyni zamanda 1948-1949-cu illərdə dini işlər üzrə idarəyə ayrılan büdcə vəsaitinin artırılması ilə izah edirdi. Belə ki, 1948-ci ildə bu idarəyə 2.800.102 min, 1949-cu ildə isə 2.859.213 min türk lirəsi ayrıldığı, bu vəsaitin 1949-cu ildə büdcəsi 1.750.900 min türk lirəsi olan Əmək Nazirliyinə ayrılan vəsaitdən xeyli çox olduğu qeyd edilirdi.

Maraqlıdır ki, Ş.Günaltay hökuməti bu prosesə tamam əks mövqedən yanaşır, ölkədə dini təməyyüllərin güclənməsini kommunizmin Türkiyəyə basqısı ilə əsaslandırırdı. Baş nazir "Tan" qəzetinin redaktoru ilə müsahibədə Türkiyədə dinin güclənməsini ilk növbədə Sovet Azərbaycanı ilə əlaqələndirirdi. O, deyirdi: "Dinə söykənən pozucu təbliğat ilk növbədə xaricdən gəlir. Ərzurumda qeydə alınan pozucu təbliğat Sovet Azərbaycanından gəlmişdir. Kommunizmin ölkədə zəmin tapa bilmədiyini anlayanlar qarışıqlıq yaratmaq üçün indi də bu yola əl atıblar".

Öz növbəsində Sovet səfirliyinin arayışında Türkiyənin dünyəvilik prinsipindən geri çəkilib dini irticaya güzəştə getməsi aşağıdakı amillərlə

izah edilirdi: "Birincisi, hökumət ehtiyat edirdiki, ruhanilər əhalinin geri qalmış hisslərindən siyasi məqsədlər üçün istifadə edə bilər, ikincisi, hökumət öz ölkəsində dindən kommunizmə qarşı istifadə etməyə cəhd göstərirdi; üçüncü, Türkiyə siyasi dairələri dinin yayılması ilə əhalinin diqqətini, ağır iqtisadi çətinliklərdən yayındırmağa çalışırdı və bu da ölkənin Amerika imperializminin təsirinə düşməsi ilə nəticələndi" (53).

Əsrlər boyu bütün siyasi, ictimai və mənəvi dəyərləri İslam dini ilə tənzimlənən və ənənəvi müsəlman ölkəsi olan Türkiyənin son 25 illik tarixində ölkədə aparılan dini siyasət son dərəcə mürəkkəb və ciddi problemlər yaratmışdı ki, bunların da əsl səbəbləri və kökləri təbii ki, nə Sovet səfirliyi, nə də türk hökuməti tərəfindən tam şəkildə açıqlanmırdı. Lakin türk hökumətinin həmin vaxt antikommunist təbliğatı din amili ilə uyğunlaşdırmaq cəhdlərinin məqsədə nail olmaq baxımından müəyyən nəticələr verdiyini etiraf etmək lazımdır. Bu dövrdə Sovet İttifaqında eyni ehtirasla Türkiyə əleyhinə aparılan təbliğat isə bu prosesi daha da gücləndirirdi. Belə ki, 1949-cu ilin yayında və payızında Türkiyəyə qarşı Sovet təbliğat kampaniyasının davam etməsi ölkənin paytaxt şəhərlərində kommunizm əleyhinə əhvali-ruhiyyəni gücləndirmişdi. Xüsusilə Sovet təsir dairəsinə düşmüş Balkan ölkələrindən Türkiyəyə qaçmış şəxslər tez-tez İstanbuldakı Sovet konsulluğunun və Ankaradakı Sovet səfirliyinin qarşısında etiraz nümayişləri keçirirdilər və Sovetlər əleyhinə qatı anti-kommunist şüarlar səsləndirirdilər. Bu hadisələrlə bağlı N.Sadakla görüşən A.Lavrişev İstanbuldakı SSRİ konsulluğu qarşısında Sovetlər əleyhinə düşməncəsinə çıxışlar edildiyini onun nəzərinə çatdırmışdı. Xarici işlər naziri bildirmişdi ki, SSRİ Baş konsulluğu əleyhinə belə düşmən çıxışlara yol verməmək üçün İstanbul hakimiyyət orqanlarına müvafiq göstərişlər verilmişdir. Lakin bu təminata baxmayaraq aprel ayının 11 -də, sentyabr ayının 15-də və oktyabr ayının 9-da da Baş konsulluq qarşısında anti-kommunist tədbirlər keçirilmişdi. Sovet səfirliyinin son hadisə ilə bağlı şifahi xəbərdarlığına cavab olaraq Xarici İşlər Nazirliyinin Siyasi Departamentinin direktoru Virqin səfirliyin müşaviri V.Belyayevə bildirmişdi ki, qabaqcadan bu hadisələri görmək və praktiki olaraq onun qarşısını almaq mümkün deyildir. Bu məsələ ilə bağlı necə hərəkət etmək barədə SSRİ Xarici İşlər Nazirliyinin təqdimatı ilə Siyasi Büro tam məxfi qrifi ilə Ankaraya, A.Lavrişevə teleqram göndərmişdi (54). Eyni zamanda Siyasi Büro uzun sürən qarşıdurmadan sonra Türkiyə prezidentinə oktyabr ayının 29-da SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri N.Şvernik tərəfindən respublikanın milli bayramı münasibətilə təbrik teleqramı göndərilməsi barədə qərar qəbul etmişdi. Təklifi SSRİ Xarici İşlər Nazirliyi oktyabr ayının 28-də Siyasi Büronun iclasına çıxarmışdı (55).

Prezident İ.İnönü 8-ci çağırış Türkiyə Böyük Millət Məclisinin 4-cü sessiyasının açılışında Türkiyənin xarici siyasətini təhlil edərək Böyük

Britaniya, Fransa və ABŞ-la Türkiyənin münasibətlərinin inkişafından razı qaldığını, lakin Sovet ittifaqı ilə münasibətlərdə elə bir dəyişiklik baş vermədiyini bildirmişdi. O, hətta qeyd etmişdi ki, Türkiyə Bolqarıstanla münasibətləri beynəlxalq hüququn ən elementar prinsiplərinə uyğun qurmaqda çətinliklər sınağı ilə qarşılaşmışdır. İ.İnönü demişdi: "Bizim səylərimiz qarşılıqlı şəkildə qəbul edilmir" (56).

1949-cu ilin dekabrında Moskvada yeni səfir kimi fəaliyyətə başlayan M.Təkər öz etimadnaməsinin surətini SSRİ xarici işlər nazirinin müavini A.Qromıkoya təqdim edərkən bildirdi ki, o, SSRİ ilə Türkiyə arasında münasibətlərin dostluq və qarşılıqlı anlaşma ruhunda inkişaf etdirilməsinə cəhd göstərəcək. Ümumiyyətlə səfir qeyd etdi ki, o, öz missiyasının əsas vəzifəsini Sovet İttifaqı ilə münasibətlərin yaxşılaşdırılmasında görür (57). Lakin M.Teker Moskvada diplomatik fəaliyyətə başladığı günlərdə BMT Baş Məclisində çıxış edən SSRİ xarici işlər naziri A.Vışinski ABŞ-ın Türkiyəyə göstərdiyi yardımla bağlı məsələnin üzərində geniş dayandı və Türkiyənin Birləşmiş Ştatlara yönəlik xarici siyasətini kəskin tənqid etdi. A.Vışinskinin çıxışını şərh edən türk qəzetləri ABŞ-ın Ankaraya göstərdiyi yardımın Sovetlərin öz qonşularına münasibətdə pis niyyətlərindən irəli gəldiyini vurğuladılar. "Yeni Sabah" qəzeti qeyd edirdi ki, Boğazlara, Qars və Ərdahana qarşı olan tələblər hələ unudulmamışdır. A.Vışinskinin beş böyük dövlətin sülh paktı bağlamaq haqqında BMT tribunasından səsləndirdiyi təklifi türk mətbuatı Sovetlərin dünyanı təsir dairəsinə bölməsi kimi qiymətləndirirdi.

Qeyd edilməlidir ki, bu dövr Türkiyədə antisovet və antikommunist təbliğatda din amili ilə yanaşı milli amillərdən də geniş istifadə olunurdu. Bu təmayüllər ən bariz şəkildə Sovet İttifaqının türk millətləri, xüsusilə Azərbaycan Sovet Respublikası və azərbaycanlılar məsələsində üzə çıxırdı. 1949-cu ilin dekabrından başlayaraq "Vatan" qəzeti Türkiyənin Moskvadakı səfirliyinin keçmiş əməkdaşı M.Tezelin xatirələrinin çapına başlamışdı. M.Tezel xatirələrində qeyd edirdi ki, ruslar kommunist olmaqlarına baxmayaraq öz görüşlərində, həyat tərzlərində və nəhayət, xarakterlərində bütövlükdə bizim tanıdığımız kimi qalıblar. SSRİ-də yaşayan türk xalqlarının Türkiyəyə münasibətinə toxunan M.Tezel yazırdı: "Bütün təzyiq və mənfi təbliğata baxmayaraq azərbaycanlılar bizi öz böyük qardaşları hesab edir və bizə hədsiz məhəbbət və hörmət bəsləyirlər" (58).

40-cı illərin ikinci arısında Ankarada və Türkiyənin digər şəhərlərində Azərbaycan mühacirlərinin və digər türk xalqlarının mədəni, siyasi təşkilatlarının fəallığı xeyli artmışdı. Azarbaycan SSR Təhlükəsizlik Nazirliyinin hazırladığı gizli arayışa görə Türkiyədəki azərbaycanlılar M.Ə.Rəsulzadə, M.Y.Mehdiyev, M.Hacızadə, Ə.Şamxorski, Ş.Rüstəmbəyov və digərləri Sovetlər əleyhinə təbliğat kompaniyasında aktiv iştirak

edirdilər. 1948-ci ildə A.Əzizibəyov və M.İ.Saryal başda olmaqla Ankarada "Azərbaycan müdafiə cəmiyyəti", İstanbulda E.Odkan və M.Əmircan başda olmaqla "Azəri dost eli yardımlaşma cəmiyyəti" təsis edilmişdi.(59) 1949-cu ilin dekabr ayında Ankaradakı Sovet səfirliyi SSRİ Xarici İşlər Nazirliyinə göndərdiyi hesabatda Türkiyədə müxtəlif pantürkist dərnəklərin fəaliyyətinin genişlənməsi haqqında məlumat verirdi. Orada göstərilirdi: "Ankarada "Azərbaycan mədəniyyət cəmiyyəti" fəaliyyət göstərir. Bu cəmiyyət sistematik olaraq Ankara xalq evində antisovet mühazirələr təşkil edir. Azərbaycan müsavatçısı M.Ə.Rəsulzadə həmin cəmiyyətin Ankara xalq evində təşkil etdiyi toplantıda "Azərbaycanın mədəniyyət ənənəsi" mövzusunda mühazirə oxuyub. O qeyd edib ki, bütün çətinliklərə və maneələrə baxmayaraq Sovet Azərbaycanında mübarizə və mədəniyyət ənənəsi davam edir və hələ yaşayır. M.Ə.Rəsulzadə öz çıxışında Xalq Daxili İşlər Nazirliyinin təqibləri, rus mədəniyyətini qəbul etməyənlərin kosmopolitizmdə günahlandırılması və s. məsələlər üzərində dayanmışdı". Məlumatda deyilirdi ki, 1949-cu ilin may ayının 28-də M.Ə.Rəsulzadənin oxuduğu mühazirə bu yaxınlarda kitabça halında nəşr olunub Ankaranın kitab mağazalarında satılır. Daha sonra Sovet səfirliyi Moskvaya yazırdı ki, dekabr ayının 4-də həmin cəmiyyət M.Ə.Rəsulzadənin "Müasir Azərbaycan ədəbiyyatı" mövzusunda mühazirəsini təşkil etmişdir. M.Ə.Rəsulzadə öz mühazirəsində deyib ki, Sovet totalitarizminə, milli haqqların və azadlıqların tapdalanmasına baxmayaraq müasir Azərbaycan ədəbiyyatı millətçilik, azadlıq və müstəqillik ruhunda inkişaf edir (60). Türkiyədəki SSRİ səfirliyi hazırladığı digər bir arayışda "Azərbaycan mədəniyyət cəmiyyəti"nin 1949-cu ildə yaradıldığını və qısa vaxtda öz fəaliyyətini genişləndirdiyini Moskvaya çatdırırdı (61).

40-cı illərin sonlarından başlayaraq Sovet rəhbərliyinin göstərişlərinə uyğun olaraq Azərbaycanda türkçülüyə qarşı geniş kampaniya başlandı. Dövlət təhlükəsizlik orqanları partiya, dövlət təsərrüfat idarələrində, maarif və mədəniyyət müəssisələrində, yaradıcılıq birliklərində "pantürkist" ovuna çıxmışdı. Azərbaycan xalqının qədim ədəbi abidəsi olan "Kitabi-Dədə Qorqud"a qarşı əsl müharibə elan olunmuşdu. Moskvadan gələn "tövsiyəyə" əsasən bu qədim dastanın Azərbaycana, azərbaycanlıların isə türklüyə aid olmaması barədə "nəzəri əsaslandırmalar" geniş xarakter almağa başlamışdı. Bir vaxtlar bu dastanı dərindən təhlil edən və türk xalqlarının eyni kökə malik olduqlarını araşdıran alimlər Sovet təhlükəsizlik orqanlarının ağır təqiblərinə məruz qalırdılar (62).

Azərbaycanda "pantürkist" axtarışı 40-cı illərin axırlarında o qədər geniş və sistemli xarakter almağa başlamışdı ki, Dövlət Təhlükəsizliyi Nazirliyi Türkiyədə qohumları olan və Türkiyəyə rəğbət bəsləyən adamların siyahılarını hazırlamışdı. Məsələn, belə siyahıların birində 28 ada-

mın adı var idi. Azərbaycan SSR Elmlər Akademiyasının prezidenti M.Əliyev, şair R.Rza, O.Sarıvəlli, M.Rahim, Z.Xəlil, məşhur pedaqoq C.Cəbrayılbəyli, ADU-nun dosenti M.Təhmasib və müəllimi İ.Əfəndiyev, kinomatoqrafiya sənayesi naziri B.Seyidzadə, Nazirlər Soveti sədrinin müavini M.H.Seyidov, Dövlət Plan Komitəsi sədrinin müavini M.Allahverdiyev, Mərkəzi Komitənin təlimatçısı S.Rəşidov, Filarmoniyanın direktoru Ş.Bədəlbəyli və digərləri "pantürkistlərin siyahısına düşmüşdülər. Gizli şəkildə hazırlanan siyahıda hər kəsin qarşısında ona veriləcək cəza da göstərilmişdi. Lakin həmin adamların Türkiyəyə rəğbət bəslədiklərinə görə deyil, digər "uydurma" ittihamlarla cəzalandırılması tövsiyə edilir, bəzilərinin üzərində isə çekist nəzarətinin gücləndirilməsi təklif edilirdi (63).

Dövlət Təhlükəsizlik Nazirliyinin Azərbaycanda əhalinin Türkiyəyə münasibəti ilə bağlı topladığı gizli materiallar sovet repressiyalarının və təqiblərin adamların içində olan türkçülüyü axıra qədər məhv edə bilmədiyini göstərir. Bu məlumatlarda göstərilirdi ki, Azərbaycan SSR EA-nın kiçik elmi işçisi M.Əfəndizadə Ankaranın türk və islam xalqlarını birləşdirmək ideyasına müsbət yanaşır. Ucar şəhərində olan orta məktəb müəllimi K.Şahmaliyev bildirirdi ki, dünyada türk ordusu kimi qəhrəman ordu yoxdur, biz azərbaycanlılar ruslara satılmışıq, türkləri müdafiə etmək əvəzinə onlara qarşı mübarizə aparırıq. Ağstafa rayonunun Poylu kənd müəllimi söhbətlərin birində demişdi ki, Sovet İttifaqı Türkiyəyə hücum edəcəyi təqdirdə biz azərbaycanlılar türklərə qarşı vuruşmayacağıq. Göyçay şəhərindən din xadimi Ş.Vəliyev öz yaxın adamları ilə söhbətdə qeyd etmişdi ki, Türkiyənin prezidenti İ.İnönü çox böyük qayğı göstərir ki, Zaqafqaziyada yaşayan müsəlmanlar kommunizmdən azad olsunlar. "Daşkəsən kobalt" mədəninin maşinisti Ə.Vəliyevin fikri daha maraqlı idi. O, iş yoldaşları ilə söhbətdə bildirmişdi ki, Ermənistanda yaşayan azərbaycanlıları ona görə köçürtdülər ki, Türkiyədə yaşayanlarla eyni millət olduqlarından onlara inanmırdılar. Türklər həmişə Ermənistanda yaşayan biz azərbaycanlıları daşnaklardan müdafiə ediblər. Türklər olmasaydı, ermənilər bütün azərbaycanlıları məhv edərdilər. Türkiyə olmadan müsəlmanlar yaşaya bilməzlər. Türkiyə hökuməti müsəlmanlardan təşkil olunur və onlar müsəlman xalqlarının rifahı barədə düşünürlər (64). Dövlət təhlükəsizliyi naziri S.Yemelyanovun hazırladığı digər bir arayışda Bakıda yaşayan mühəndis İ.Heydərovun sözləri belə təqdim edilirdi: "Heç şübhə yoxdur ki, bizim müsəlman ziyalılarının rəğbəti indi Türkiyənin tərəfindədir. Bizim ziyalılar SSRİ-nin Türkiyəyə münasibətdə yeritdiyi qeyri-dost siyasəti müdafiə etmirlər. Təhlükəsizlik orqanlarının izlədiyi evdar qadın Ziynət Tahirova öz söhbətlərində demişdi ki, Türkiyə bizim xilaskarımızdır. Azərbaycan xalqı türklərə hörmətlə yanaşır. Bakı şəhərində 5 N-li sənətkarlıq məktəbinin müəllimi

Q.Müzəffərov isə qeyd etmişdi ki, türklər gərək rusların zülmü altında olan öz qardaşlarını azad etsinlər. Biz azərbaycanlıların böyüyü Türkiyədə olan M.Ə.Rəsulzadədir. O, bizi azad edəcək. Türklər məğlub edilməzxalqdır və gələcək onlara məxsusdur (65). Göründüyü kimi, Sovet təhlükəsizlik orqanlarının çoxsaylı arayışları M.Tezelin xatirələrində azərbaycanlıların Türkiyəyə münasibətdə öz rəğbətini saxladığı haqqında qeyd etdiyi fikri təsdiq edirdi.

1949-cu ilin dekabr ayının 24-də Xalq Cümhuriyyətçi partiyanın Sivas vilayət konfransında çıxış edən xarici işlər naziri öz çıxışında bütövlükdə 1949-cu ildə beynəlxalq vəziyyətə və ölkənin xarici siyasətinə yekun vurdu. O, dünyada gedən prosesləri dəyərləndirərək dedi ki, xalqlar müharibə qorxusu altında yaşayırlar. N.Sadak həmin dövrdə beynəlxalq vəziyyətin qeyri-müəyyənliyini ilk növbədə Sovet İttifaqı tərəfindən gələn xarici təhlükə ilə əlaqələndirirdi. O deyirdi: bu qeyri-müəyyənlik bizə böyük ziyan vurur. Məsələ bundadır ki, biz təhlükələrlə əhatə olunmuşuq. Təzyiq və təhdidlər başlıca olaraq bizim əleyhimizə toplanmışdır. N.Sadak sonra Sovet İttifaqını nəzərdə tutaraq Türkiyə əleyhinə aparılan "məlum təbliğat" üzərində geniş dayandı. Moskvaya göndərdiyi geniş məlumatda Ankaradakı Sovet səfirliyi Türkiyə hakim dairələrinin antisovet təbliğatdan türk xalqının diqqətini hazırkı ağır vəziyyətdən yayındırmaq üçün bir vasitə kimi istifadə etdiklərini yazırdı (66).

Türkiyə siyasi dairələrinin fikrincə, Sovetlərin Türkiyəyə qarşı apardığı təbliğat kampaniyası 1950-ci ilin əvvəllərində bir sıra istiqamətləri əhatə edirdi. İlk növbədə Sovetlər amerikanlardan imperialist düzəldərək iddia edirdilər ki, Türkiyənin müstəqilliyi Sem dayı tərəfindən tapdalanır; ikincisi, Türkiyənin görkəmli xadimləri hörmətdən salınır və türklərin müqəddəs saydığı nə varsa hamısının üstünə ləkə atılır; üçüncüsü, bütün türk vətəndaşlarının arasında narazılıq yaradılır və fəhlələr qızışdırılır; dördüncüsü, türk inqilabı mürtəce hərəkat kimi təsvir olunur; beşincisi, böyük Atatürkün adından, onun ayrı-ayrı deyimlərindən Sovetlər öz məqsədləri üçün istifadə edirlər. Ankaradakı Sovet səfirliyinin dəyərləndirməsinə görə Türkiyə 1950-ci illərin əvvəllərində ABŞ tərəfindən göstərilən hərbi, siyasi, iqtisadi və diplomatik yardım nəticəsində Aralıq dənizi rayonunda, Yaxın və Orta Şərqdə Birləşmiş Ştatların ən güclü müttəfiqinə çevrilmişdi. Dövlət naziri Cemal Sait Barlasın məlumatına görə Türkiyə Marşall planı üzrə ABŞ-dan 1948-1949-cu illərdə 49 milyon 700 min dollar, 1949-1950-ci illərdə isə 114 milyon 300 min dollar, ümumilikdə iki il ərzində 164 milyon dollar yardım almışdı. Sovet səfirliyinin fikrincə, bu yardımlar Birləşmiş Ştatlara imkan vermişdi ki, Yaxın və Orta Şərqdə öz siyasətini həyata keçirmək üçün Türkiyədən istifadə etsin. Hətta Sovet diplomatik işçiləri belə hesab edirdilər ki, ABŞ Türkiyə vasitəsi ilə Britaniyanı Yaxın və Orta Şərq regionundan sıxışdırıb çıxarmaq istəyir.

Moskvaya göndərilən geniş icmalda qeyd edilirdi ki, Yaxın və Orta Şərqdə ingilis və amerikanlar arasında olan ziddiyyətlərdən türklər öz maraqları üçün istifadə edəcək, Amerika və ingilis planları arasında əsasən Dövlət Departamentinin mövqeyinə istiqamətlənmiş manevr edən siyasət yeridəcəklər. 1950-ci ilin yanvar ayının 31-də 1948-ci il "Amerika-türk iqtisadi əməkdaşlıq" sazişinə əlavə olaraq Birləşmiş Ştatlarla Türkiyə arasında protokol imzalandı. Protokolda deyilirdi ki, 1950-ci ildə ABŞ Türkiyəyə 199 milyon dollar faizsiz kredit ayıracaqdır (67).

Amerika-Türkiyə iqtisadi əməkdaşlıq sazişinə əlavə olaraq imzalanmış protokolun Millət Məclisində müzakirəsi və ümumilikdə beynəlxalq vəziyyətin dəyərləndirilməsi ilə bağlı məsələlərdə artıq ölkədə güclü siyasi qüvvəyə çevrilmiş Demokrat partiyasının fikirləri iqtidar nümayəndələri ilə üst-üstə düşürdü. 1950-ci ilin fevral ayının 16-da Məclisin iclasında çıxış edən Demokrat partiyasının rəhbərlərindən biri F.Köprülü qeyd edirdi ki, Türkiyə ən sonuncu və ən təhlükəli imperializmlə üz-üzə dayanmışdır. Beşinci dəstənin mənfur təbliğatının təsirinə düşmüş bir sıra bədbəxt adamlar görmək və anlamaq imkanını itirərək fikirləşirlər ki, ölkəni sabahkı müharibə təhlükəsindən Rusiya ilə dostluq siyasəti yeritmək yolu ilə qurtarmaq olar. Bunlar tarixin dərslərini başa düşməyən ya laqeyd, ya da ağılsız adamlardır. Türk milləti belə baxışların təhlükəli olduğunu və rus imperializminin əsl məqsədini yaxşı anlayır. Ona görə o, bu gün yeritdiyimiz xarici siyasətin tərəfdarıdır (68). Eyni mövqeyi 1950-ci ilin mart ayında ölkəni gəzərkən prezident İ.İnönü də bəyan etmişdi. O qeyd edirdi ki, biz ədalətsiz tələblərin və ərazilərimizi qoparmağa cəhd edənlərin qarşısında dayanmışıq. Biz görürük ki, vətənimiz böyük təhlükə qarşısındadır. Bunu bir dəqiqə də olsun bizim vətəndaşlarımız unutmamalıdırlar (69).

1950-ci ilin aprel ayının 20-də İstanbulda keçirilən türk-amerikan hərbi konfransının gündəliyində duran başlıca məsələ də məhz ölkənin üzləşdiyi təhlükəyə müqavimət göstərməyin yolları və formaları haqqında idi. Konfransa Türkiyənin yüksək rütbəli hərbçiləri və Türkiyədəki Amerika hərbi missiyasının üzvləri qatılmışdılar. Konfransın əsas məqsədi Türkiyəyə Sovetlər tərəfindən hücum olacağı təqdirdə ölkənin hava, quru qüvvələri və hərbi donanmasının fəaliyyətini əlaqələndirmək, silahlı qüvvələrin hər üç növünün düşmənə qarşı effektli müqavimətini təşkil etmək idi. Buna görə də Sovet səfirliyinin əməkdaşı E.Revinin hazırladığı arayışda göstərilirdi ki, amerikanlar Türkiyəyə böyük strateji əhəmiyyət verirlər. Bunun təsdiqi kimi E.Revin Amerika quru qoşunları Baş qərargahının rəisi general Kolinsin Qahirədə yaydığı bəyanatı misal gətirirdi. General Kolins demişdi ki, ABŞ müdafiə sahəsində birinci dərəcəli əhəmiyyət kəsb edən bütün mənbələri səfərbər edir. Müdafiənin başlıca sərhədləri Qərbi Avropa, Türkiyə, Yunanıstan və İrakdan keçir (70).

Türkiyənin Şimali Atlantika paktına daxil olması məsələsi 1950-ci ilin may ayının 14-də keçirilən parlament seçkilərinin başlıca təbliğat kampaniyasını təşkil edirdi. Türkiyə may ayında çoxpartiyalı sistem üzrə keçirilən gərgin seçki mübarizəsi dövrünü yaşadı. Sovet təhdidi və kommunist təhlükəsinin qarşısının alınması bir-birinə qarşı mübarizə aparan Xalq respublikaçı və Demokrat partiyasının seçki kampaniyasının aparıcı istiqamətini təşkil edirdi. Hakimiyyət partiyası xalqı inandırmağa çalışırdı ki, Demokrat partiyasının qələbəsi Sovet İttifaqı tərəfindən olan xarici təhlükə qarşısında Türkiyənin zəifləməsinə gətirib çıxara bilər. Ankaradakı Sovet səfirliyi SSRİ Xarici İşlər Nazirliyinə göndərdiyi məlumatda diqqətə çatdırırdı ki, Türkiyənin heç bir siyasi partiyası özünün seçkiqabağı bəyannamələrində Sovet-Türk münasibətlərinin tənzim edilməsi haqqında təklif irəli sürməyib. Demokratik partiya öz seçkiqabağı platformasında qeyd edirdi ki, "Biz indi hər hansı partiyanın inamının ifadəçisi kimi deyil, bütün xalqın ümumi inamının ifadəçisi kimi xarici siyasətin hər hansı yeni məsələsi haqqında danışmağı zəruri bilirik. Biz inanırıq ki, İngiltərə və Fransa ilə ittifaqa, Birləşmiş Ştatlarla sıx dostluğa və əməkdaşlığa söykənən sülhsevər xarici siyasətimiz əvvəlki qaydada bu dostluğa sədaqətli qalacaq, demokratik düşərgə və ümumi sülh üçün başlıca amil olacaqdır. Bütün dostlarımız və düşmənlərimiz əmin ola bilərlər ki, bizim ölkəmizdə hakimiyyət dəyişikliyi ölkəmizin rifahı və hətta ümumi sülh üçün mühüm şərt olan xarici siyasətimizdə heç bir dəyişikliyə gətirib çıxarmayacaq". Səfirliyin məlumatında deyilirdi ki, xarici siyasətlə bağlı buna bənzər mülahizələr Xalq respublikaçı partiyanın seçkiqabağı bəyannaməsində irəli sürülürdü (71).

14 may seçkilərində DP 408 millət vəkili yeri əldə etməklə tarixi qələbə qazandı. Hakim Xalq respublikaçı partiya isə cəmisi 69 deputat yeri ilə kifayətlənməli oldu. May ayının 22-də işə başlayan Türkiyə Böyük Millət Məclisinin doqquzuncu çağırışının birinci sessiyasında DP lideri C.Bayar ölkə prezidenti, Refik Koraltan Məclis başqanı, Adnan Menderes isə Baş nazir seçildilər. C.Bayar prezident seçildikdən sonra DP sədri vəzifəsindən istefa verdi. Partiyaya A.Menderes rəhbərlik etməyə başladı. Bununla da Türkiyə tarixində yeni bir dönəm, Bayar-Menderes dönəmi başladı ki, bu da on il, 1960-cı il may ayının 27-nə qədər davam etdi.

Yeni hökumət təşkil edildikdən sonra A.Menderes parlamentdə geniş hökumət proqramı ilə çıxış etdi. Proqram bütövlükdə geniş olsa da, orada xarici siyasət məsələlərinə çox az yer verilmişdi. Bu da ilk növbədə yeni hökumətin İkinci Dünya müharibəsindən sonra formalaşan xarici siyasət xəttini yeritmək arzusu ilə bağlı idi. A.Menderes dedi: "Ənənəvi ingilis və fransız ittifaqına və Birləşmiş Ştatlarla ən sıx dostluq və əməkdaşlığa dayanan, dostluqlarına daim sadiq qalan, uzaq-yazın və böyük-kiçik

bütün millətlərin istiqlal və torpaq bütövlüyünə hər zaman hörmətlə yanaşan xarici siyasətimizin sülhsevər mahiyyəti bütün dünyada məlumdur". Öz proqram çıxışında Baş nazir Şərqi Aralıq dənizi rayonunun və Yaxın Şərqin təhlükəsizliyi məsələlərinin möhkəmləndirilməsinin hökumətin diqqətində olacağını vurğuladı. Türk silahlı qüvvələrinin ən yeni silahlarla və texniki vasitələrlə təchizatına toxunan A.Menderes bildirdi ki, böyük dostumuz Birləşmiş Ştatların hərbi sahədəki maddi və texniki yardımlarından daha geniş miqyasda və daha sürətlə istifadə etməyə çalışacağıq. Sovet İttifaqına münasibətlə bağlı isə Baş nazirin çıxışında heç nə deyilmirdi (72).

Yeni hökumətdə xarici işlər naziri vəzifəsini Fuat Köprülü tutdu. O, hələ may ayının 17-də elan etdi ki, Türkiyənin xarici siyasətində heç bir dəyişiklik olmayacaq. Seçkilər dövründə A.Lavrişevin və Ankaradakı Sovet bloku ölkələrinin səfirlərinin məzuniyyət adı altında öz ölkələrinə çağırılması Türkiyənin siyasi dairələrində müxtəlif fikirlər doğurmuşdu. Onlar bunu ilk növbədə seçkilərin nəticələri ilə izah edirdilər.

14 may qələbəsindən bir gün sonra Türkiyədə Amerika iqtisadi missiyasının rəhbəri Dorr DP qərargahına gələrək C.Bayarla geniş müzakirələr apardı. O bildirdi ki, Türkiyədə hakimiyyət dəyişikliyi bu ölkəyə göstərilən yardıma heç bir təsir göstərməyəcək və Amerika yardımı davam edəcəkdir. Missiyanın digər bir nümayəndəsi Xoxştetter isə bəyan etdi ki, DP öz proqramında azad təşəbbüslərə xüsusi əhəmiyyət verdiyi üçün Marşall planı üzrə yardım proqramını həyata keçirməklə bağlı işləri daha da asanlaşdırır. 14 may seçkilərinin nəticələrinə toxunaraq o qeyd etdi ki, indi artıq Türkiyədə demokratiya elə səviyyədə möhkəmləndi ki, hətta bizim daimi düşmənimiz olan ruslar da Türkiyənin azad ölkə olduğunu təsdiq edirlər. Keçmiş prezident İ.İnönüyə münasibətlə bağlı Xoxştetter dedi ki, İ.İnönü öz məğlubiyyəti ilə böyük qələbə qazandı. O, Türkiyənin yeni siyasi həyatında böyük rol oynayacaqdır. Bu gün Türkiyə üçün İnönü İngiltərə üçün Çörçill deməkdir. Türkiyədə hakimiyyətə gələn DP hökuməti xarici siyasət sahəsində əvvəlki ümumi kursu davam etdirməklə yanaşı öz qarşısına iki mühüm vəzifə qoymuşdu: birincisi, Türkiyənin Atlantik paktına qəbul olunmasına nail olmaq, ikincisi, türk iqtisadiyyatının vəziyyətini yaxşılaşdırmaq üçün Amerika yardımının həcmini artırmağa çalışmaq (73).

1950-ci ilin may ayının sonlarında Marşall planı üzrə Amerika yardımı alan ölkələrin xarici işlər nazirlərinin Paris konfransında iştirak edən Türkiyənin yeni xarici işlər naziri F.Köprülü Aralıq dənizinin şərq hissəsinin təhlükəsizliyinin möhkəmləndirilməsi ilə bağlı məsləhətləşmələr apardı. Onun fikrincə, nə qədər ki, Şərqi Aralıq dənizi rayonunun təhlükəsizliyi sazişlərə dayanaraq təmin olunmamışdır, tam təhlükəsizlikdən danışmaq olmaz. Türkiyə siyasi dairələri belə hesab edirdilər ki, Türkiyənin dəmir pərdənin xaricində qalması qərbin təhlükəsizliyini

etibarlı etmirdi, belə ki, onlar bütün anti-kommunist ölkələrin təhlükəsizliyinin Türkiyənin təhlükəsizliyindən aşılı olduğunu bildirirdilər. Parisdən qayıdarkən F.Köprülü Frans Press müxbirinin suallarını cavablandıraraq dedi: "Mən həmişə inamımı saxlamışam ki, Aralıq dənizinin şərqi, Avropa həmrəylik sisteminin ayrılmaz hissəsidir" (74). F.Köprülü Parisdən qayıtdıqdan sonra DP-nin parlament qrupu qarşısında yeni hökumətin xarici siyasəti və Paris görüşünün yekunları haqqında geniş məruzə ilə çıxış etdi.

Yeni prezident C.Bayarın ilk addımlarından birincisi kommunist təhlükəsinə qarşı mübarizəni gücləndirmək idi. Vaxtilə yanında işlədiyi Atatürkün "Şimaldan gələcək təhlükəyə qarşı diqqətli olunuz" vəsiyyəti onun yadından çıxmamışdı. Ona görə də hökumət kabinetinin ilk iclaslarının birində o, Sovetlərlə münasibətlərin geniş müzakirəsini təşkil etdi. Xarici işlər naziri F.Köprülü və Baş nazir A.Menderes məsələ haqqında ətraflı məlumat verdilər. Onlar bildirdilər ki, "Amerika ilə dost, İngiltərə və Fransa ilə müttəfiqik. Fəqət bu müttəfiqlərimizin bizi öz aralarına almaq istəmədikləri görünür". Belə olduqda A.Menderes qeyd edirdi ki, Türkiyə durumu yenidən gözdən keçirməli, digər dünya dövlətləri və ölkələri ilə əlaqələri genişləndirməlidir. Baş nazir A.Menderesin bu cəsarətli çıxışından sonra C.Bayar Nazirlər Kabinetinin müzakirələrinə yekun vuraraq dedi ki, "hazır olun arkadaşlar, Atlantik paktına girəcəyik" (75).

1950-ci ilin iyun ayının 25-də Koreyada müharibənin başlanması Türkiyənin NATO-ya daxil olması üçün əlverişli şərait yaratdı. Yaponiya məğlub olduqdan sonra 1945-ci ildə Koreyanı 38-ci paralel üzrə iki zonaya bölmək haqqında müttəfiqlər arasında xüsusi saziş imzalanmışdı. Sazişdə 38-ci paraleldən şimalda Sovet qoşunları, ondan cənubda isə Amerika qoşunlarının yerləşdirilməsi razılaşdırılmışdı. 1948-ci ildə Şimali Koreyada SSRİ-dən, Cənubi Koreyada isə ABŞ-dan asılı olan hökumətlər formalaşdırıldı. 1948-ci ilin sonunda Sovet qoşunları, 1949-cu ilin yazında isə Amerika qoşunları Koreyadan çıxarıldı. Lakin son dövrlərdə açıqlanan arxiv sənədləri Sovetlərin Şimali Koreyadan rəsmən çıxmasına baxmayaraq Kim İr Sen rejimini silah və sursatla, hərbi müşavirlərlə təmin etdiyini təsdiq edir. Kim İr Senin 1949-cu ilin martında və 1950-ci ilin aprelində Moskvaya səfərləri, İ.Stalinlə aparılan danışıqlar, habelə SSRİ-də atom silahının sınaqlarının uğurlu nəticələri, Çində inqilabın uğurları və sair hadisələr Şimali Koreyanın ölkənin şimalını silah gücünə Cənuba birləşdirmək niyyətindən xəbər verirdi. Lakin Kim İr Senin istəklərinin əleyhinə olaraq hələ 1949-cu ilin martında İ.Stalin göstərmişdi ki, Şimali Koreya xalq ordusu Koreya respublikası ordusu üzərində üstünlüyə malik olmadığı halda, cənuba hücum etmək lazım deyildir. İ.Stalinin göstərişi əsasında 1949-cu ilin aprel ayında SSRİ-nin Pxenyandakı səfiri T.Ştıkov

Koreya xalq ordusunun baş hərbi məsləhətçisi təyin olunmuşdu 1949-cu ilin iyununda T.Ştıkovla görüşdə Kim İr Sen Vahid Demokratik Vətən cəbhəsi yaradıb ölkənin həm şimalında, həm də cənubunda seçkilər keçirib vahid hökumət yaratmaq barədə planını açıqladı. Onun fikrincə, Şimalda sol qüvvələr səslərin 80 faizini, cənubda isə 65-70 faizini almalı idi. O belə hesab edirdi ki, Cənubda Lı Sın Man və amerikanlar bu planın əleyhinə çıxacaqlar və Koreyanın birləşdirilməməsi ilə bağlı günah onların üzərində qalacaqdır. 1949-cu ilin avqust ayının 12-də Şimali Koreya rəhbərləri Sovet nümayəndələrinə bildirdilər ki, Vahid Demokratik Vətən cəbhəsinin birləşmə haqqında təklifi Lı Sın Man tərəfindən rədd edildiyindən Şimalın ancaq Cənub üzərinə hücum etmək yolu qalır. Bunun üçün Kim İr Sen Sovetlərdən yeni hərbi sursat və texnikanın gətirilməsinin sürətləndirilməsini təklif edirdi. Lakin Sovet nümayəndəsi 1949-cu ilin avqust ayının 27-də Cənuba hücum etməyin vaxtının yetişmədiyini əsaslandırırdı. 1949-cu ilin fevralından başlayaraq general S.Biryuzov Sovetlərin Sakit okean gəmilərinin Şimali Koreyaya gizli şəkildə silah və hərbi sursat daşıması haqqında SSRİ Xarici İşlər Nazirliyinə məlumat versə də, Sovet kəşfiyyat orqanlarının məlumatları Cənubi Koreya ordusunun güclü olduğunu təsdiq edirdi.

1950-ci ilin aprelində Kim İr Senin Moskvaya səfəri zamanı İ.Stalin "dəyişmiş beynəlxalq şəraitin təsiri altında" Koreyanın birləşməsi üçün vaxtın yetişdiyini bildirdi. Eyni zamanda o, əlavə etdi ki, məsələnin müsbət həlli Çinin mövqeyindən asılıdır. Moskvadan qayıtdıqdan sonra T.Ştıkovla görüşən Kim İr Sen bildirdi ki, Pekindəki Koreya səfiri Mao Tszedun ilə görüşüb və Mao deyib ki, Koreyanın birləşməsi ancaq hərbi yolla mümkündür və o, əlavə edib ki, bu məsələdə amerikanların müdaxiləsindən çəkinmək lazım deyil, Koreya kimi kiçik bir əraziyə görə onlar üçüncü dünya müharibəsini başlamayacaqlar. Bu məlumatdan sonra Kim İr Sen 1950-ci ilin may ayının 13-də Pekinə gedib Mao ilə görüşdü. Çindəki Sovet səfiri İ.Stalinə yazırdı ki, Mao Koreya məsələsinin həll edilməsi üçün şəraitin yetişməsi barədə Sovet rəhbərliyinin fikri ilə razıdır. Pekindən qayıtdıqdan sonra 1950-ci ilin may ayının 29-da T.Ştıkovla görüşən Kim İr Sen bildirdi ki, aprel ayında Moskvada razılaşdırılan silah və hərbi texnika artıq Şimali Koreyaya gətirilmişdir. Sovet hərbi müşavirlərinin iştirakı ilə Cənuba hücum planı iyun ayının sonlarına təsdiq edildi. Müharibənin başlamasından üç gün əvvəl, iyunun 22-də Moskvadan əmr gəldi ki, Pxenyandakı səfirliklə "etibarlı olmayan" şifrəli yazışmaları təcili olaraq dayandırmaq lazımdır. Bütün zəruri hazırlıq tədbirləri görüldükdən sonra iyunun 25-də Şimali Koreya ordusunun Cənub üzərinə hücumu başladı (76). Müharibə başlandıqdan beş gün sonra T.Ştıkovun İ.Stalinə göndərdiyi məlumatda Kim İr Senin 1950-ci il iyul ayının 10-na qədər Şimali Koreya ordusu üçün 70 milyon 214 min müxtəlif kalibrli patron, 803.700 top və

tank mərmisi, 400 min əl qumbarası, minə Yaxın radiostansiya, üç min telefon aparatı, 4 min km. kabel, Yak-9, İl-10, Yak-11 təyyarələri üçün ehtiyat hissələri, 60 ton sürtkü yağı və s. istədiyini bildirirdi. T.Ştıkov axırda yazırdı ki, Kim İr Senin xahişini müdafiə edirəm (77). Sovetlərin bilavasitə iştirakı ilə başlanan hücum əməliyyatı üç gündən sonra Seulun tutulması ilə nəticələndi, Cənubi Koreya hökumət idarələri Suvon şəhərinə köçməli oldu.

Koreyada başlanmış müharibə ilə bağlı iyunun 25-də BMT Təhlükəsizlik Şurasının təcili iclası çağırıldı. Təcavüzə məruz qalmış Koreya respublikasına yardım göstərmək barədə iyunun 27-də Təhlükəsizlik Şurasının qəran Truqve Li tərəfindən BMT-nin üzvü olan dövlətlərə göndərildi. Bu müraciətə cavab olaraq xarici işlər naziri F.Köprülü hökumət adından Truqve Liyə cavab verdi ki, Türkiyə BMT Nizamnaməsinə görə öz üzərinə götürdüyü öhdəliyi yerinə yetirməyə və TŞ-nın Koreya məsələsi ilə bağlı qərarlarının icrasında iştirak etməyə hazırdır. İyun ayının 30-da F.Köprülü BMT TŞ-nın katibindən gələn məktublar haqqında Millət Məclisinə məlumat verdi. Türkiyə hökuməti BMT çağırışına cavab olaraq 4500 nəfərlik hərbi kontingenti Koreyaya göndərmək haqqında iyul ayının sonlarında qərar qəbul etdi. Həmin qərar qəbul ediləndə Türkiyədə olan Amerika senatoru Keyn qeyd etdi ki, Türkiyə hökumətinin bu qərarı onun Atlantika paktına daxil olmasını asanlaşdırdı (78). Belə bir qərar qəbul etməklə Türkiyə ABŞ-dan sonra BMT-nin təcavüzə qarşı yardım çağırışına cavab verən ikinci ölkə oldu. Cümhuriyyət tarixində ilk dəfə idi ki, Türkiyə öz əsgərini ölkə xaricinə göndərirdi. Hökumət bunu onunla izah edirdi ki, Türkiyə hər hansı silahlı təcavüzə məruz qalarsa, Cənubi Koreyaya göstərilən yardımın eynisini BMT-dən tələb edəcəkdir. Bu baxımdan BMT Nizamnaməsi üzv ölkələrin üzərinə bir sıra öhdəliklər qoysa da, əslində Bayar-Menderes hökumətinin Cənubi Koreyaya əsgər göndərmək qərarının başlıca səbəbi NATO üzvlüyündə israr etmək üçün zəmin hazırlamaq idi (79). Ankaradakı Sovet səfirliyinin əməkdaşı S.Yevseyevin hazırladığı arayışda göstərilirdi ki, Türkiyə hökumətinin tərəfindən qəbul edilən bu qərar amerikanların təzyiqi altında qəbul edilmişdir. Bu qərarla bağlı hökumətin mövqeyini şərh edən xarici işlər naziri F.Köprülü demişdi: "Türkiyə həmişə bəyan edib ki, o BMT-nin prinsiplərinə sədaqətlidir. Hökumətin inamına görə sülhün qorunması üçün ən təcili təminat bu prinsiplərə sədaqətdədir, bundan çıxış edərək biz BMT-nin hər bir üzvünün öz öhdəliyini tərəddüdsüz yerinə yetirməsini zəruri hesab edirik" (80).

1950-ci ilin yayında diplomatik yazışmalardan aydın olur ki, Sovet blokuna daxil olan ölkələrin Ankaradakı diplomatik idarələrinin əməkdaşları Koreyaya göndəriləcək türk hərbi kontingentinin sayı, yola salınması vaxtı və marşrutu ilə ciddi şəkildə maraqlanırlar. Sovet səfirliyi

Moskvaya yazırdı: "Tamamilə aydındır ki, Koreyaya ordu göndərmək haqqında qərarı yerinə yetirməyə türklər tələsmirlər. Görünür, onlar Koreyadakı hərbi əməliyyatların tam müəyyənləşməsini gözləyirlər və buna uyğun özlərinin Koreya münaqişəsində iştiraklarını götür-qoy edirlər. Digər tərəfdən belə güman etmək olar ki, Türkiyə hökuməti Şimali Atlantika paktı Şurasının işə başlamasını gözləyir və əmin olmaq istəyirlər ki, Türkiyənin Atlantik paktına daxil olmaq cəhdləri bir nəticə verir, ya yox. Xüsusən ona görə ki, Türkiyə hakim dairələri Koreyaya ordu göndərmək qərarını bütövlükdə Türkiyənin Atlantik paktının iştirakçısı olması ilə əlaqələndirirlər" (81).

1950-ci ilin iyul ayının sonlarında F.Köprülü Ankaradakı İngiltərə və Fransa səfirləri ilə görüşüb Türkiyənin NATO-ya daxil olması ilə bağlı məsələləri yenidən müzakirəyə çıxartdı. İyulun sonlarında Türkiyənin BMT-dəki nümayəndəsi S.Sarper Ankaranın Atlantik paktına daxil olmaq cəhdləri barədə açıqlama verdi. Ayın 30-da isə Baş nazir A.Menderes Türkiyədəki Amerika səfirini qəbul edib onunla üç saatlıq müzakirə apardı. Avqust ayının əvvəllərində isə Avropa Şurası xarici işlər nazirlərinin Strasburq görüşündə iştirak edən F.Köprülü Atlantik paktı iştirakçısı olan ölkələrin xarici işlər nazirləri ilə görüşlər keçirib Türkiyənin bu pakta girməsinə kömək etmələrini xahiş etdi. Bevin və Şumanla görüşlərdən sonra Frans Press agentliyinə verdiyi müsahibədə o, müttəfiq dövlətlərin xarici işlər nazirləri ilə Şərqi Aralıq dənizi rayonunun təhlükəsizliyi məsələsinin, habelə Türkiyənin NATO-ya daxil olmaq istəyinin müzakirə olunduğunu dilə gətirdi. F.Köprülü dedi ki, Atlantik paktı indi tam deyildir. Aralıq dənizində birgə təhlükəsizlik sistemi ancaq Adriatik dənizinə qədər yayılır. Bu dünya sülhü üçün böyük təhlükədir. Onun fikrincə, mühüm strateji məntəqə kimi Şərqi Aralıq dənizi birgə müdafiə sistemindən kənarda qala bilməz. Ona görə mən düşünmürəm ki, Türkiyənin Atlantik paktına daxil olması məsələsi etirazla qarşılanacaq. Türkiyəyə qayıtdıqdan sonra F.Köprülü bəyan etdi ki, hökumət Atlantik paktına qoşulmaq üçün zəruri olan bütün addımları atıb. Avqust ayının sonlarında hökumətin tapşırığı ilə Vaşinqtondakı türk səfiri D.Açesondan xahiş etdi ki, Türkiyənin Atlantik paktına daxil olmaq haqqında müraciətini müdafiə etsin. Avqust ayının sonunda Sovet səfirliyinin əməkdaşı V.Starsev "Türkiyənin Atlantik blokuna can atması haqqında" hazırladığı icmalda yazırdı: "DP hökuməti hesab edir ki, indiki vaxtda Türkiyənin Atlantik paktına qoşulması üçün əlverişli şərait yaranmışdır. Ona görə də hakim partiya Xalq respublikaçı hökumət dövründə xarici siyasət məsələlərində olan ehtiyatlılığı bir tərəfə ataraq bütün vasitələrlə öz məqsədinə nail olmağa çalışır" (82). Beləliklə, 1950-ci ilin may ayından sonra ikinci dəfə avqust ayında Türkiyə hökuməti Atlantik paktına qoşulmaq barədə rəsmi müraciət etdi.

Sovet hökumətinin Koreya hadisələrində aktiv iştirakı bütün dünya ictimai fikrini ona qarşı döndərmiş oldu. Koreya müharibəsi Təhlükəsizlik Şurasında müzakirə edilən zaman qərarın qəbul edilməsinə maneçilik törətmək məqsədilə iclası tərk edən SSRİ nümayəndəsi avqust ayında Moskvanın tapşırığı ilə yenidən iclaslara qayıtdı. Burada əsas məqsəd Koreya müharibəsi ilə bağlı Sovetlərə qarşı başlanmış geniş təbliğat kompaniyasını zəiflətmək üçün BMT tribunasından istifadə etmək idi. Koreya müharibəsi ilə bağlı təbliğat kompaniyasını ələ almaq üçün ÜİK(b)P MK-nın Siyasi Bürosu 1950-ci ilin avqust ayının 15-də məsələni müzakirə edib SSRİ Xarici İşlər Nazirliyinə müvafiq tapşırıqlar verdi. İlk növbədə BMT-dəki Sovet daimi nümayəndəsi Y.Malikə göndərilən teleqramın mətni təsdiq edildi. A.Vışinskiyə tapşırıldı ki, Sovet hökuməti adından Polşa, Çexoslovakiya, Çin Xalq Respublikası, Rumıniya, Bolqarıstan, Macarıstan, Albaniya, Monqolustan hökumətlərinə SSRİ nümayəndəsinin Koreya məsələsinin dinc yolla tənzim edilməsi haqqında Təhlükəsizlik Şurasına təqdim etdiyi təklifin müdafiə edilməsi haqqında TŞ-nın sədrinin və BMT Baş katibinin adına teleqramlar göndərmələri tövsiyə olunsun. Eyni zamanda həmin hökumətlərə tövsiyə edilsin ki, Koreya şəhər və yaşayış məntəqələrinin amerikanlar tərəfindən bombalanmasının dayandırılması haqqında KXDR-nin tələblərini müdafiə etsinlər. Siyasi Büro SSRİ Xarici İşlər Nazirliyinə tapşırırdı ki, qeyd edilən teleqramlar müxtəlif vaxtlarda göndərilsin. Hətta teleqramların göndərilmə ardıcıllıqları belə Siyasi Büronun qərarında göstərilirdi. Orada deyilirdi: "İlk növbədə Polşa, Çexoslovakiya və Çindən, sonra Albaniya və Monqolustandan, daha sonra isə Bolqarıstan, Macarıstan və Rumıniyadan teleqramlar göndərilməli idi". Siyasi Büronun Xarici İşlər Nazirliyinə verdiyi göstərişə uyğun olaraq T.Ştıkov vasitəsi ilə KXDR hökumətinə tövsiyə edilirdi: 1) köhnə Lı Sın Man hökumətinin və parlamentinin üzvlərinin Koreyada Amerika təcavüzünü və Lı Sın Manın xalqa zidd siyasətini ifşa edən, Koreyada müharibənin qurtarmasını tələb edən məktublarını Təhlükəsizlik Şurasına göndərsinlər; 2) Amerika hərbi əsirləri qrupunun ABŞ prezidentinə, Təhlükəsizlik Şurasının sədrinə və BMT Baş katibinə Amerika və digər xarici qoşunlar tərəfindən Koreyada müharibəni dayandırmaq, xarici qoşunların Koreyadan çıxarılması tələbləri ilə müraciətini göndərmək; 3) Amerika təcavüzkarlarının vəhşiliklərini təhqiq edən xüsusi komissiyanın sənədlərinin dərcini sürətləndirmək, bu sənədləri TŞ-nın sədrinə və BMT Baş katibinə göndərmək; 4) Amerika silahlı qüvvələrinin Koreyanın şəhər və kəndlərində törətdiyi dağıntıları və dinc əhaliyə münasibətdə digər qəddarlıqları sənədləşdirmək (83). Siyasi Büronun bu tapşırıqlarından sonra Sovetlərin TŞ-da fəallaşmasını haqlı olaraq Türkiyənin siyasi dairələri "bolşeviklərin yeni oyunu" adlandırırdı. Eyni zamanda türk mətbuatı SSRİ-nin Koreya məsələsində

fəallaşmasını Şimali Koreya qoşunlarının Seuldan geri çəkilməsi, bütövlükdə "rus siyasətinin məğlubiyyəti" ilə əlaqələndirirdi.

1950-ci ilin sentyabr ayının 15-18-də Nyu Yorkda keçirilən Atlantik paktı ölkələrinin xarici işlər nazirlərinin görüşündə Türkiyənin üzvlüyü məsələsi müzakirə edildi. Lakin görüş ərəfəsindəki müzakirələrdən aydın oldu ki, NATO ölkələri, ilk növbədə isə ABŞ, İngiltərə və Fransa hələ də, Türkiyənin bu bloka tam üzvlüyü məsələsinə müsbət yanaşmırlar.

Nyu York konfransı ərəfəsində üç dövlətin, ABŞ, İngiltərə və Fransa xarici işlər nazirlərinin görüşündə Atlantik paktının coğrafiyasının genişləndirilməsi məqsədəuyğun sayılmamışdı. Sentyabr ayının 11-də ABŞ səfiri Corc Uadsvortla görüşən prezident C.Bayar bildirdi ki, "Atlantik paktı xarici işlər nazirlərinin müşavirəsində istəyimizi geri qaytararlarsa, əhvali-ruhiyyəmizin ciddi şəkildə yara alacağından açıqca qorxuram. Biz təbliğatdan asanca təsirlənən bir millət deyilik. Ancaq bu məsələdə geniş bir təşviş və şübhələr yaşanmaqdadır. Gələcəyimizin təhlükədə olduğunu hiss edirik". C.Bayar səfirə izah etdi ki, Türkiyə Koreya müharibəsində ABŞ-la səmimiyyətlə birləşərək saf niyyətini nümayiş etdirdi. İndi hər hansı təhdid qarşısında Türkiyənin tək qalmaq qorxusu ABŞ-ı qayğılandırmalıdır (84).

Türkiyənin NATO-nun tam hüquqlu üzvü olması haqqında müraciətinə müsbət cavab alınmadıqda C.Bayar Baş qərargah rəisi N.Yamut və xarici işlər naziri F.Köprülü ilə müzakirələr keçirdikdən sonra təcili olaraq Nazirlər Kabinetinin iclasını çağırdı. Sovet səfirliyi öz məlumatında göstərirdi ki, Türkiyənin Atlantik paktına qəbul edilməməsi türk siyasi dairələrinin çox ağrılı reaksiyasını doğurmuşdur. Ölkədə mətbuat aparıcı NATO dövlətlərinin Türkiyəyə ədalətsiz münasibəti haqqında xeyli yazılar vermişdi. Bəzi mətbuat orqanları belə uğursuzluğa görə hətta A.Menderes hökumətinin istefaya göndərilməsi məsələsini gündəliyə gətirmişdir.

Nyu York müzakirələri zamanı Türkiyənin NATO-ya daxil olmasına müsbət yanaşmayan blok ölkələri Birləşmiş Ştatların təzyiqilə onun Aralıq dənizi hərbi planlarına qoşulmasını mümkün hesab etdilər. Sentyabr ayının 20-də ABŞ Dövlət katibi D.Açeson Türkiyənin Aralıq dənizi təhlükəsizliyi məsələlərində iştirakının mümkünlüyü, Türkiyə Baş qərargahının Atlantik paktı Aralıq dənizi hərbi komitəsi ilə "xüsusi hərbi əlaqələr" qurması barədə NATO ölkələrinin xarici işlər nazirlərinin təklifini Vaşinqtondakı türk səfiri F.C.Erkinə təqdim etdi. Orada göstərilirdi ki, Türkiyə Atlantika paktının bu komitəsində ABŞ, Fransa, İtaliya və Britaniya ilə birlikdə Aralıq dənizi rayonunun təhlükəsizliyi məsələsində iştirak edə bilərdi.

D.Açesonun türk səfirinə təqdim etdiyi notada deyilirdi ki, Şimali Atlantika paktı şurası özünün beşinci iclasında təhlükəsizlik məsələlərinin

müzakirəsi ilə bağlı belə bir istək ifadə etmişdir ki, əgər Türkiyə hökuməti arzulayırsa, Ankara Atlantik paktının Aralıq dənizi zonasının müdafiəsinin hərbi planlaşdırma üzrə işlərində iştirak edə bilər. Eyni ilə belə təklif Yunanıstan hökumətinə də təqdim edilmişdi (85).

A.Menderesin başçılığı ilə yüksək hərbi şura və Nazirlər Kabineti uzun müzakirələrdən sonra oktyabr ayının 21-də bu təklifi qəbul etdiyini bildirdi. Bu iclasların başa çatmasından sonra Türkiyə hökuməti rəsmi olaraq Vaşinqtona məlumat verdi ki, o Atlantik paktı ölkələrinin Aralıq dənizi qrupu ilə "xüsusi əlaqə" qurmaq haqqında təklifini qəbul edir. Bu məsələ ilə bağlı sazişi hazırlamaq və müzakirə etmək üçün baş qərargahın zabitlərindən ibarət türk hərbi missiyası bu yaxınlarda ABŞ-a yola düşəcəkdir.(86) Hökumət doğru olaraq bu qərarı NATO-ya daxil olmaq yolunda atılmış bir addım kimi izah edirdi. Hökumətin müsbət cavabından sonra oktyabr ayının əvvəllərində baş qərargahın əməliyyat şöbəsinin rəisi general Yusif Egeli başda olmaqla danışıqlar aparmaq üçün türk hərbi heyəti Vaşinqtona yola düşdü. Eyni zamanda Yunanıstanla Türkiyə arasında danışıqlarda müdafiə haqqında regional pakt imzalanması ilə bağlı məsələlərin müzakirəsi başlandı. Bu danışıqlar daha çox Aralıq dənizinin müdafiəsi ilə bağlı Türkiyə və Yunanıstanın NATO-nun hərbi planlaşdırmasında iştirakını əhatə edirdi. Xarici işlər naziri F.Köprülünün oktyabr ayının 20-21-də Romada apardığı danışıqlar da bilavasitə Aralıq dənizinin müdafiəsi ilə bağlı təşkilatın yaradılması haqqında idi. İtaliya və Yunanıstanla aparılan danışıqlarda Aralıq dənizinin təhlükəsizliyini təmin etmək üçün yaradılacaq blok və ya təşkilatda hansı dövlətlərin olmasından asılı olmayaraq türklər bunu antikommunist xarakterində olacaq bir təşkilat kimi təsəvvür edirdilər. Qeyd etmək lazımdır ki, Ankaradakı Sovet səfirliyi NATO-nun Aralıq dənizi hərbi planlaşdırmasında iştirak edəcək Yunanıstanla Türkiyə arasındakı münasibətləri elə də möhkəm hesab etmir və yazırdı ki, türk-yunan dostluğunun binası laxlayan özül üzərində qurulub. Daha sonra səfirlik Türkiyə ilə Yaxın Şərq ölkələrinin münasibətlərinə toxunaraq yazırdı: "Türkiyənin bloka daxil olmaq siyasətinin uğursuzluğa düçar olmasından sonra türk diplomatiyası BMT-nin Təhlükəsizlik Şurasının üzvlüyünə nail olmaq üçün xüsusi cəhdlər göstərirdi. Məlum olduğu kimi, Yaxın Şərq dövlətləri qrupu adından Livan və Türkiyə öz namizədliyini irəli sürmüşdülər, lakin səsvermənin nəticələri iddiaçıların heç birinə uğur gətirməmişdi. Bundan sonra Livan öz namizədliyini geri götürmüş və Türkiyə 53 səslə Təhlükəsizlik Şurasının üzvü seçilmişdi. Sovetlər bu məsələdən Türkiyə ilə ərəb ölkələri arasında münasibətləri gərginləşdirmək üçün istifadə edir və Türkiyənin TŞ-nın dəyişən üzv seçilməsinə bütün vasitələrlə mane olurdu. Türkiyə TŞ-nın üzvü olduqdan sonra BMT-dəki daimi nümayəndə S.Sarper bildirdi ki, Türkiyənin TŞ-nın dəyişən üzvünün seçilməsi onunla

ərəb ölkələri, başlıca olaraq Türkiyə ilə Livan arasında münasibətlərə heç bir ziyan gətirməyəcəkdir. Eyni mövqeyi Ankaradakı ərəb ölkələri səfirləri adından Suriya səfiri Əmir Adil Arslan da təsdiq etdi" (87).

1950-ci ilin noyabr ayının 1-də TBMM-nin sessiyasının açılışında çıxış edən prezident C.Bayar xarici siyasət məsələləri üzərində geniş dayandı. İlk növbədə o, bəzi məqamlarına görə ölkədə birmənalı qarşılanmayan Koreya müharibəsi və BMT-nin çağırışına cavab olaraq ora türk ordusunun göndərilməsi məsələsinə aydınlıq gətirdi. C.Bayar qeyd etdi ki, Koreya hadisələri Birləşmiş Millətlərin nə dərəcədə həyat qabiliyyətli olduğunu imtahandan çıxardı və bu təşkilatın bir sıra zəif cəhətlərini də ortaya qoydu. Onun fikrincə, Təhlükəsizlik Şurasının çağırışına cavab olaraq Türkiyə Koreyaya hərbi kontingent göndərməklə öz üzərinə düşən öhdəliyi vaxtında yerinə yetirmiş oldu. Daha sonra prezident Atlantik paktı ilə bağlı məsələlərin üzərində dayandı. O bildirdi ki, Türkiyə təhlükəsizlik və kollektiv müdafiə sisteminin Şərqi Aralıq dənizi rayonuna yayılmasını arzulayır. Amerika Dövlət katibi Atlantika paktı şurası adından Türkiyə hökumətini Aralıq dənizinin müdafiəsi ilə bağlı Şimali Atlantik paktı hərbi planlaşdırma işlərində iştiraka dəvət etdi.

Türkiyə hökuməti qeyd edilən planlaşdırmada onun iştirakının Şərqi Aralıq dənizi rayonunun müdafiəsinin əhəmiyyətli dərəcədə artıracağını nəzərə alaraq bu dəvəti qəbul etdi. C.Bayar dedi: "Biz ümid edirik ki, bu danışıqlar Aralıq dənizi rayonunun həm hərbi nöqteyi-nəzərdən, həm də hüquqi nöqteyi-nəzərdən təhlükəsizliyi üçün əhəmiyyətli nəticələr verəcəkdir".

C.Bayar Millət Məclisinin açılışındakı çıxışında İngiltərə, Fransa, ABŞ, İtaliya ilə Türkiyə arasında inkişaf edən münasibətlər üzərində geniş dayandı. Sovet İttifaqı ilə münasibətlərə gəldikdə, qeyd etdi ki, SSRİ ilə münasibətlərin yaxşılaşdırılması bizim tərəfimizdən arzu olunsa da, ötən illə müqayisədə bu istiqamətdə elə bir dəyişiklik baş verməyib. Qeyd etmək lazımdır ki, prezident öz çıxışında Sovet İttifaqı ilə müqayisədə İrlandiya ilə əlaqələrə daha çox yer vermişdi. Ən nəhayət, çıxışının sonunda C.Bayar beynəlxalq münasibətlərdə Türkiyənin nüfuzunun artmasını onun "yurdda sülh, cahanda sülh" Atatürkçü prinsipinə söykənməsi, xalqların hüquq bərabərliyini, beynəlxalq münasibətlərin hamı tərəfindən qəbul edilən əsas prinsiplərinə hörmətlə yanaşması, birgə təhlükəsizlik və mehriban qonşuluq siyasətinə sayğılı münasibəti ilə izah edirdi. Prezident dedi: "Bizim Təhlükəsizlik Şurasına seçilməyimiz bütün bunların başa düşülməsinin birbaşa təsdiqidir və bizim beynəlxalq aləmdə nüfuzumuzun artmasına verilmiş qiymətdir" (88).

Türkiyənin NATO-nun Aralıq dənizi hərbi planlaşdırma komitəsinin işlərinə qatılması ilə bağlı müzakirələr getdiyi bir vaxtda türk ordusunun Koreyada göstərdiyi qəhramanlıq Qərbdə böyük rəğbətlə qarşılandı. Bu bir

tərəfdən Türkiyənin Atlantik paktına girməsi üçün DP hökumətinin mövqeyini dayanaqlı etmişdi, digər tərəfdən Koreya müharibəsi ilə bağlı ölkə içində hökumətə qarşı mübarizənin əhəmiyyətini heçə endirmişdi. Hökumətin Koreyaya ordu göndərməsi ilə bağlı məsələnin Məclisdə müzakirəsini tələb edən Milli partiyadan deputat Osman Bölükbaşı və müstəqil deputat Kemal Türkoğlunun sorğusuna cavab olaraq bu məsələ dekabr ayının 11-də Məclisin müzakirəsinə çıxarıldı. Sorğu müəllifləri çıxış edərək bildirdilər ki, onlar prinsip etibarı ilə Koreyaya türk əsgərinin göndərilməsinin əleyhinə deyillər. Lakin onlar bu addımın Məclisin razılığı olmadan atıldığını Konstitusiyaya və BMT-nin Nizamnaməsinin 43-cü maddəsinə zidd hesab edirlər. Onlar xüsusi ilə belə bir məsələni qabardırdılar ki, hökumət Türkiyənin təhlükəsizliyinə ABŞ tərəfindən ciddi təminatlar almadan türk əsgərini Koreyaya göndərib. Məclisdəki Xalq respublikaçı partiyanın nümayəndələri də Koreyaya ordu göndərilməsinin antikonstitusion xarakter daşıması fikrini dəstəklədilər. Baş nazir A.Menderes və xarici işlər naziri F.Köprülü məsələ ilə bağlı izahat verərək bildirdilər ki, Koreyaya ordu göndərmək üçün Məclisin qərarının olması tələb olunmur, belə ki, burada söhbət müharibə elan etməkdən deyil, sülhün qorunması üçün tədbirlər görülməsindən gedir. Onlar bildirdilər ki, Koreyaya ordu göndərilməsi BMT-ni möhkəmləndirir və bununla da Türkiyənin təhlükəsizliyini gücləndirir. Menderes və Köprülü bildirdilər ki, sorğu müəlliflərinin nöqteyi-nəzəri və onların BMT Nizamnaməsini şərh etmələri, BMT üzvlərinin böyük əksəriyyətinin deyil, Sovet İttifaqının nöqteyi-nəzərinə uyğun gəlir. Müzakirələrin gedişində A.Menderesdən soruşuldu ki, hökumət Koreyadakı türk ordusunun sayını artıracaq, yoxsa əvvəlki kontingent yetərli olacaq? O dedi: "Ölkənin maraqları tələb edir ki, mən indiki anda bu məsələ ilə bağlı hər hansı açıqlama verməyim". Məclisdə məsələnin müzakirəsi hökumətə etimad göstərilməsinin səsverməyə qoyulmasına gətirib çıxardı. Lakin, səsvermə zamanı 311 deputat hökumətə etimad göstərilməsinin lehinə, 39 nəfər isə əleyhinə olmaqla A.Menderes hökumətinin ilk sınaqdan uğurla çıxması ilə nəticələndi (89).

1951-ci ilin ilk günlərindən Türkiyənin ABŞ və Böyük Britaniya ilə hərbi və siyasi əlaqələri intensiv xarakter aldı, C.Bayar Türkiyənin Amerika, İngiltərə və Fransadakı səfirlərinə göstəriş verdi ki, NATO-ya girmək məsələsində israrlı mövqe tutsunlar. Eyni zamanda Xarici İşlər Nazirliyi həmin ölkələrin Ankaradakı səfirlikləri ilə bu mövzuda aktiv müzakirələrə başladı. Yanvar ayının 10-da Ankaraya gələn ABŞ-ın Atlantika və Aralıq dənizində hərbi dəniz qüvvələrinin komandanı admiral Kerniy bir gün sonra C.Bayar tərəfindən qəbul edildi. C.Bayar Türkiyə ilə ABŞ arasında yaranmış hərbi və siyasi əməkdaşlıqdan razı qaldığını ifadə etməklə Türkiyənin 20 milyonluq əhalisinin demokratik dünyaya böyük yardım edə biləcəyi halda, daha zəif dövlətlərin Atlantik paktında yer

aldığını və Türkiyənin bu pakta qəbul edilmədiyini təəssüf hissi ilə dilə gətirdi. Bununla yanaşı C.Bayar dedi: "Bu təşkilata qəbul olunmamağımız bizim siyasətimizdə heç bir dəyişiklik etmir. Biz bundan sonra da qayə və prinsiplərimiz uğrunda eyni şəkildə çalışmaqdayıq və çalışacağıq" (90). Admiral Kernin səfəri zamanı Ankarada türk ordusunun Baş qərargahının rəisi, hərbi dəniz qüvvələrinin və hərbi hava qüvvələrinin komandanı ilə danışıqlar aparılmışdı. Yanvar ayının 12-də mətbuata verdiyi açıqlamada Kerniy bildirdi ki, Türkiyə Baş qərargahında bilavasitə Türkiyəni maraqlandıran məsələlər və Aralıq dənizinin müdafiəsi ilə bağlı səmərəli danışıqlar aparılıb və bu məsələdə bizim aramızda fikir ayrılığı yoxdur (91).

1951-ci il yanvar ayının 22-24-də İngiltərənin Yaxın Şərq ordusunun baş komandanı general Brayrı Robertson ilə admiral Kerniy arasında Maltada keçirilən görüşdə Türkiyənin Yaxın Şərq regionunun təhlükəsizliyində oynaya biləcəyi rol müzakirə edildi. General Robertson coğrafi baxımdan Türkiyənin daha çox Orta Şərq ölkəsi olduğuna istinad edərək onun gücündən bu regionda təhlükəsizliyin təmin edilməsində istifadə edilməsini irəli sürdükdə admiral Kerniy Türkiyəni silahla təmin edən ölkənin ABŞ olduğunu xatırlatdı və onun Aralıq dənizinin təhlükəsizliyi prosesində iştirakını daha vacib saydı. Az sonra fevral ayının 22-də Ankaraya səfər zamanı general Robertson öz fikrini Türkiyə hərbi və siyasi dairələri ilə də bölüşdü. Səfər zamanı Robertson Türkiyənin müdafiə naziri Şövket İnce, Baş qərargah rəisi Nuri Yamut, xarici işlər naziri F.Köprülü və prezident C.Bayar tərəfindən qəbul edildi. Apardığı danışıqlarda Robertson Türkiyənin silahlı qüvvələrinin Aralıq dənizində NATO komandanlığının əmrinə verilməkdənsə Orta Şərq təhlükəsizlik sistemində İngiltərə ilə ittifaq qurmasını daha əhəmiyyətli hesab etdi. Səfər zamanı general Robertson Ankara və İstanbulun hərbi məktəb və müəssisələrinə baş çəkdi. General Robertsonun səfəri ilə bağlı Sovet səfirliyi Moskvaya yazırdı ki, onun Türkiyəyə və Yaxın Şərq ölkələrinə səfəri ingilis və amerikanların bu regionu öz təcavüzkar planlarına cəlb etmək xarakteri daşıyır (92).

Türkiyənin təhlükəsizliyini daha da etibarlı etmək üçün yanvar ayının 23-də Vaşinqtondakı türk səfiri F.C.Erkin ABŞ hökumətinə 1939-cu ildə imzalanmış ingilis-fransız-türk müqaviləsinə qoşulmaq təklifi ilə müraciət etdi. Türkiyə siyasi dairələri belə hesab edirdilər ki, ABŞ-ın bu müqavilədə iştirakı ölkənin hər hansı hücum qarşısında müdafiəsini daha təminatlı edə bilərdi. Lakin məsələ ilə tanış olduqdan sonra ABŞ bu müqaviləyə qoşulmağa hazır olmadığını və tələsik yeni formula hazırlamağa isə imkanının olmadığını bildirdi. ABŞ öz üzərinə hər hansı əlavə öhdəlik götürmək istəmir, digər tərəfdən ingilis-fransız-türk müqaviləsinə qoşulmaqla Yunanıstan və İranı Türkiyədən ayırmaq istəmirdi (93).

1951-ci ilin fevral ayı ərzində ABŞ Britaniya ilə fikir ayrılığına görə Türkiyə ilə bağlı öz siyasətini daha da fəallaşdırdı. Fevralın ortalarında ABŞ Dövlət katibinin müavini Corc Makqinin başçılığı ilə İstanbulda Birləşmiş Ştatların Yaxın və Orta Şərq ölkələrindəkı diplomatik nümayəndəliklərinin konfransı keçirildi. Eyni zamanda həmin vaxt ABŞ-ın aviasiya qüvvələrinin rəhbəri Finletterin də Türkiyəyə səfəri həyata keçirildi və o da öz növbəsində fevral ayının 14-dən 21-nə qədər keçirilən İstanbul konfransının iclaslarına qatıldı. İstanbul konfransında Dövlət Departamentinin Türkiyə, Yunanıstan və İran şöbəsinin direktoru Rountri, Yaxın Şərq şöbəsinin müdiri Cons, admiral Kerniy, Aknaradakı səfir Uodsvort, Tehrandakı səfir Qredi, Afinadakı səfir Pürifey, Bağdaddakı səfir Kroker, Səudi Ərəbistanındakı səfir Xayer, İsraildəki səfir Devis, Pakistandakı səfir Uorren, Yaxın Şərqdə Fələstin qaçqınları üzər nümayəndə Blandfort, İsraildəki barışıq komissiyası üzrə nümayəndə Palmer, Livandakı nümayəndə Pinkerton, Suriyadakı nümayəndə Kennon, Qahirədəki səfir Mattison, Transiordaniyadakı işlər vəkili Frisman, Londondakı Amerika səfirliyinin birinci katibi Palmer və digərləri iştirak edirdi. Hələ konfransa qədər Ankaraya səfər edən Makqi fevralın 11 -də F.Köprülü ilə iki saat davam edən danışıqlar apardı. Fevralın 12-də onun C.Bayar və A.Mendereslə söhbətləri də bir o qədər davam etdi (94). Görüş zamanı Makqi ABŞ-ın Türkiyənin təhlükəsizliyinə böyük əhəmiyyət verdiyini və ona görə də Türkiyənin Amerikadan hərbi yardım alan birinci ölkələrdən olduğunu C.Bayara bildirdi. O əlavə etdi ki, Türkiyə Sovet təcavüzünə məruz qalarsa bu böyük müharibəyə səbəb olacaqdır. Belə bir vəziyyətdə ABŞ-ın təhəddüdləri nədən ibarət olacaqdır? Makqinin sözlərinə görə, bu sual çoxdan Amerika rəsmilərini düşündürürdü. O dedi: "Bu məsələ Şimali Atlantika paktı qurulan zaman ortaya çıxdı və keçən il Türkiyə bu pakta qoşulmaq arzusunu ifadə etdiyi zaman təkrarlandı. Bizim Şimali Atlantik paktı ilə əlaqəmiz Birləşmiş Ştatların girdiyi ilk təhəddüddür. Bu qərar Konqresin çox gərgin müzakirələrindən sonra verilmişdir". Makqi Türkiyənin Koreya savaşına qatılmasını və türk ordusunun oradakı qəhrəmanlığını yüksək qiymətləndirdi. O dedi: "Koreyadakı türk əsgərinin savaş qabiliyyəti azad dünyanın rəğbətini qazanmışdır". Dövlət katibinin müavini Koreya müharibəsinin başlanması ilə ABŞ-ın xərclərinin artdığını, hərbi xərclərin 13 milyarddan 50 milyard dollara yüksəldiyini və ilk imkan yaranan kimi ABŞ-ın Türkiyə ilə təhlükəsizlik paktı bağlamaq arzusunu dilə gətirdi. Makqi təsdiq etdi ki, Birləşmiş Ştatların Şimali Atlantik paktına qoşulması onun Türkiyənin təhlükəsizliyinə diqqətinin azalması kimi şərh edilə bilməz. C.Bayar açıq danışdığına görə ABŞ rəsmisinə təşəkkürünü bildirdi və dedi: biz ikiyə bölünmüş dünyanın bölünməz sərhədlərində yaşayırıq... Dünya ikiyə bölünmüş, bloklar yerini almışdır. Biz bu

bloklardan birinin silah yardımını qəbul etmişik. Bu nə deməkdir? Bu o deməkdir ki, o biri bloka qarşı bizi hazırlayırsınız. Bir müdaxiləyə məruz qalsaq, müdafiə gücümüzü yaxşılaşdırarsınız. Fəqət, əleyhinə silahlandığımız blok bizə qarşı bir müdaxiləyə başlasa verilmiş bir təminatımız yoxdur. Məmləkətimi həm qarşı blokun düşmənliyinə məruz qoymaq, həm də birlikdə hərəkət etmək istədiyimiz blokun təminatından məhrum etmək Türkiyəni razı salacaq bir durum deyildir (95). Eyni söhbəti C.Bayar fevral ayının 23-də Ankaradakı Britaniya səfiri Noel Çarlz və Brayrı Robertson ilə də apardı. Bu görüşlər göstərdi ki, Türkiyənin NATO-ya daxil olması getdikcə daha çox tələb xarakteri almağa başlamışdır. Fevral ayında istər Ankaradakı görüşlər, istərsə də İstanbulda ABŞ-ın Yaxın və Orta Şərqdəki diplomatlarının iştirakı ilə keçirilən konfrans Türkiyənin Atlantika paktına daxil olması istiqamətində müsbət fikir formalaşdırdı. 1951-ci ilin may ayının 11-də ABŞ-ın Türkiyə ilə bağlı mövqeyi haqqında Milli Təhlükəsizlik Şurasında hazırlanmış məruzədə göstərilirdi ki, Türkiyə SSRİ-nin ətrafında ən güclü anti-kommunist, Şərqi Aralıq və Orta Şərq regionunda Sovet təcavüzünə əsaslı şəkildə müqavimət göstərmək qətiyyətinə və imkanına malik yeganə dövlətdir. Türkiyənin coğrafi mövqeyi onun davamlı şəkildə azad dünya tərəfindən dəstəklənməsini ABŞ üçün strateji cəhətdən vacib edir. ABŞ qərargah rəislərinin birləşmiş komitəsi Birləşmiş Ştatların Türkiyədəki dərin maraqlarını və mənəvi öhdəliyini nəzərə alaraq Amerika ilə Türkiyə arasında qarşılıqlı təhlükəsizlik sazişinin bağlanmasını zəruri sayırdı. Milli Təhlükəsizlik Şurasında hazırlanmış məruzədə qeyd olunurdu: Türkiyə və ABŞ-ın da daxil olacağı qarşılıqlı təhlükəsizlik sazişinin imzalanmasından öncə Türkiyəyə hücum olacağı təqdirdə ABŞ Türkiyənin Sovet nəzarəti altına düşməsinin qarşısını almaq üçün bu ölkəyə lazımi dəstəyi verməlidir. Əks halda bunun ABŞ-ın təhlükəsizlik maraqlarına ciddi şəkildə təsir edə biləcək siyasi və hərbi nəticələri ola bilər (96). Bu dəyərləndirmədən dörd gün sonra ABŞ NATO üzvlərinə məktub yazıb Türkiyə və Yunanıstanın bloka tam hüquqlu üzv kimi qəbul olunmalarını təklif etdi. Bundan təxminən bir ay sonra, iyunun 15-də Mərkəzi Kəşfiyyat İdarəsinin hazırladığı xüsusi dəyərləndirmədə isə artıq söhbət Türkiyənin NATO-ya qəbul edilməsinə Sovetlərin mümkün reaksiyasından gedirdi. Dəyərləndirmədə ilk növbədə Türkiyə və Yunanıstanın NATO-ya daxil olmasına, bu iki ölkənin daxil olacağı, ABŞ-ın isə üzv kimi iştirak edəcəyi Aralıq dənizi müdafiə sazişinin imzalanmasına, habelə Atlantika paktı ölkələrinin Türkiyə və Yunanıstanla təhlükəsizlik sazişi imzalanmasına SSRİ-nin mümkün reaksiyası araşdırılırdı. Sənəddə deyilirdi: "Biz hesab edirik ki, Kremlin Yunanıstan və Türkiyənin yuxarıda adı çəkilən təhlükəsizlik sazişlərindən hər hansı birinə qoşulduqları üçün geniş müharibə yə başlayacağı real görünmür. SSRİ Yunanıstan və Türkiyənin qərbin hər hansı bir təhlükəsizlik sazişinə

qoşulmasına intensiv psixoloji müharibə, müxtəlif siyasi və iqtisadi təzyiqlər, BMT daxilində diplomatik fəaliyyət, güclü anti-qərb təbliğatı və hədə-qorxu jestləri ilə cavab verə bilər. Sənəddə ehtimal edilirdi ki, Yunanıstan və Türkiyənin NATO-ya, yaxud da Aralıq dənizi paktına qoşulması Kreml tərəfindən SSRİ-yə böyük potensial təhlükə kimi qiymətləndiriləcək. Biz həmçinin hesab edirik ki, ABŞ artıq Yunanıstan və Türkiyənin NATO-ya qəbul edilməsini açıq şəkildə təklif etdiyi üçün Britaniya, yaxud Fransanın bu ölkələrə təhlükəsizlik sahəsində əsaslı yardım göstərməkdən imtina etməsi Kreml tərəfindən Qərb İttifaqının üzvləri arasında meydana çıxmaqda olan zəiflik və fikir ayrılığı kimi dəyərləndiriləcək" (97).

1951-ci ilin iyul ayının ortalarında Türkiyənin NATO-ya daxil olmasına qarşı olan Britaniya öz mövqeyindən imtina etdi və İngiltərə xarici işlər naziri Morrison iyulun 18-də İcma palatasında etdiyi çıxışda Türkiyə və Yunanıstanın NATO-ya daxil olmasının Britaniya tərəfindən dəstəklənəcəyini bildirdi. Nəhayət, NATO Nazirlər Şurasının 16-20 sentyabr 1951-ci ildə Ottavada keçirilən toplantısında Türkiyə yekdil səslə bloka tam hüquqlu üzv kimi rəsmən dəvət edildi.

Türkiyənin NATO-ya dəvət edilməsi haqqında ABŞ-ın təklifi elan olunduqdan sonra ÜİK(b)P MK-nın Siyasi Bürosu münasibətləri çətinləşdirmək məqsədilə bir neçə dəfə Türkiyə ilə bağlı məsələləri müzakirə etdi. 1951-ci il avqust ayının 20-də Türkiyə ərazisindən xarici təyyarənin Sovet sərhədlərini pozması məsələsi müzakirə edilərkən Müdafiə Nazirliyi bu məsələnin doğru olmadığını bildirdi. Siyasi Büro Müdafiə Nazirliyinə tapşırdı ki, bu məsələni diqqətlə araşdırıb məlumat versin (98). Elə həmin iclasda Türkiyə ilə SSRİ arasında 1937-ci ilin oktyabr ayının 8-də imzalanmış ticarət və tədiyyə sazişi birtərəfli qaydada ləğv edildi və bu barədə məlumat yayılmaması məqsədəuyğun hesab edildi (99).

1951-ci il oktyabr ayının 15-də Londonda NATO ölkələrinin Türkiyə və Yunanıstanın bu pakta girməsi ilə bağlı sazişi imzaladıqdan iki həftə sonra Siyasi Büro oktyabr ayının 31-də SSRİ Xarici İşlər Nazirliyi tərəfindən tərtib olunaraq Ankaradakı Sovet səfirinin Türkiyə hökumətinə təqdim edəcəyi notanın mətnini təsdiq etdi. Orada göstərilirdi ki, Atlantikaya heç bir dəxli olmayan Türkiyənin bu bloka dəvət edilməsi imperialist dövlətlərin Türkiyə ərazisindən Sovet İttifaqına qarşı istifadə etmək üçün onun sərhədləri yaxınlığında təcavüzkarlıq məqsədilə hərbi baza yaratmaqdan başqa bir şey deyildir. Sovet hökuməti bu məsələ ilə bağlı Türkiyədən izahat tələb edir və qonşu dövlət kimi bu məsələyə biganə qalmadığını bəyan edirdi (100). Noyabr ayının 24-də isə Siyasi Büro Bolqarıstanın Türkiyə ilə sərhədləri bağlamaq təklifinə müsbət cavab verdi və Sofiyadakı səfirə tapşırırdı ki, bolqar-türk sərhədlərinin bağlanması haqqında Bolqarıstan hökuməti öz qərarını elan etsin (101).

Sovetlərin bütün ciddi-cəhdlərinə, hədələyici notalarına, SSRİ rəhbərlərinin kəskin reaksiyasına baxmayaraq Türkiyə Böyük Millət Məclisi 1952-ci ilin fevral ayının 18-də Türkiyənin NATO-ya daxil olmasını yekdilliklə təsdiq etdi. Bununla da 1948-ci ildən bu istiqamətdə başlanan mübarizə 1952-ci ildə Türkiyənin Atlantik paktına daxil olması ilə nəticələndi. NATO-ya daxil olduqdan sonra Sovetlərin Türkiyəyə qarşı aktiv mübarizəsi İ.Stalinin ölümünə qədər davam etdi.

1953-cü il mart ayının 5-də İ.Stalin vəfat etdi. Onun qızı S.Alliluyeva öz xatirələrində yazır: Atam dəhşətli əzabla öldü. Asan ölümü Allah ancaq mömin adamlara bəxş edir. Bir çox ölkələrlə yanaşı Türkiyənin nümayəndə heyəti də dəfn mərasimində iştirak etdi. Mart ayının 11-də V.Molotov İ.Stalinin dəfn mərasimində iştirak edən Türkiyə Xarici İşlər Nazirliyinin Baş katibi C.Açılkalın başda olmaqla nümayəndə heyətini qəbul etdi və bildirdi ki, onlar Açılkalınla köhnə tanışlardır. V.Molotov dedi: "Bir halda ki, Türkiyə hökuməti Moskvaya nümayəndə heyəti göndərmək haqqında qərar qəbul edib, Sovet hökuməti buna müsbət yanaşır" (102). Bundan sonra Sovet hökumətinin Türkiyəyə münasibətdə mövqeyinin dəyişməsini gözləmək çox çəkmədi. 1953-cü ilin may ayının 30-da, gündüz saat 4-də V.Molotov Türkiyənin Moskvadakı səfiri Faik Xozarı SSRİ Xarici İşlər Nazirliyinə dəvət etdi və Sovet-Türkiyə münasibətləri haqqında Sovet hökumətinin adından bəyanatla çıxış etmək istədiyini bildirirdi". F.Xozar dedi ki, o, Molotovu dinləməyə hazırdır. V.Molotov Sovet hökumətinin bəyanatını belə açıqladı: "Məlum olduğu kimi 1925-ci il Sovet-Türk müqaviləsinin müddətinin başa çatması ilə bağlı Sovet-Türk münasibətlərinin tənzim edilməsi haqqında məsələyə bir neçə il əvvəl hər iki dövlətin nümayəndələrinin rəsmi söhbətlərində toxunulmuşdur. Bu söhbətlərdə Ermənistan SSR və Gürcüstan SSR-in Türkiyəyə bir sıra ərazi iddiaları, habelə Sovet hökumətinin Qara dəniz Boğazlarına münasibətdə mülahizələri qoyulmuşdu. Mehriban qonşuluq münasibətlərini saxlamaq, sülhü və təhlükəsizliyi möhkəmləndirmək naminə Ermənistan və Gürcüstan özlərinin Türkiyəyə olan ərazi iddialarından imtina etməyi mümkün hesab etmişdir. O ki, qaldı Boğazlar məsələsinə, Sovet hökuməti bu məsələdə özünün əvvəlki mövqeyini yenidən gözdən keçirmiş və SSRİ-nin Boğazlar tərəfindən təhlükəsizliyinin təmin edilməsini həm SSRİ üçün, həm də Türkiyə üçün eyniliyinin qəbul edilməsini mümkün saymışdır. Beləliklə, Sovet hökuməti bəyan edir ki, Sovet İttifaqının Türkiyəyə heç bir ərazi iddiası yoxdur". V.Molotov bəyanatı oxuduqdan sonra onun mətnini səfirə təqdim etdi. F.Xozar təşəkkür edib bildirdi ki, bu bəyanatı təcili olaraq Türkiyə hökumətinə çatdıracaq və eyni zamanda əlavə etdi ki, öz hökumətindən təlimat almadan bəyanata cavab verə bilməz. Lakin onun şəxsi fikrinə görə bəyanat Sovet hökumətinin Türkiyəyə münasibətdə dostluq niyyətini

nümayiş etdirir. V.Molotov ümidvar olduğunu bildirdi ki, F.Xozar və Türkiyə hökuməti bəyanatı düzgün dəyərləndirəcəkdir (103).

Qeyd etmək lazımdır ki, 1953-cü ilin may ayının 30-da Sovetlər rəsmi qaydada Türkiyəyə qarşı ərazi tələblərindən imtina etdiyi zaman bu məsələ artıq öz əhəmiyyətini itirmiş, bu tələblərin elan olunduğu 1945-ci illə müqayisədə beynəlxalq vəziyyət xeyli dəyişmiş, Türkiyə ABŞ-ın və Qərbin müttəfiqinə çevrilmiş, artıq NATO-nun üzvü olmuşdu. Beləliklə, İ.Stalinin səhv və təkəbbürlü siyasəti Türkiyəni soyuq müharibənin ilk sınaq meydanına çevirsə də, Türkiyə bu sınaqdan tamamilə yeni keyfiyyətdə - istər ölkənin siyasi maraqlarını, təhlükəsizliyini, istərsə də türk xalqının ləyaqətini, hər hansı xarici təhlükə qarşısında birləşmək əzmini tam mənası ilə nümayış etdirən, ən mürəkkəb və ciddi şəraitdə yalnız dövlət maraqlarını üstün tutaraq doğru və müstəqil siyasət yürütməyə qadir olan bir ölkə kimi çıxdı.

# NƏTİCƏ

Sovetlər Birliyi dağıldıqdan sonra açıqlanan arxiv sənədləri soyuq müharibə tarixinin bir sıra qaranlıq sahələrini dəqiqləşdirməyə imkan verdi. Yeni dövriyyəyə gətirilən sənəd və materialların araşdırılması göstərdi ki, Sovetlərin Türkiyəyə qarşı ərazi iddiaları və Boğazlara birgə nəzarət tələbləri soyuq müharibənin ilk hadisələrindən sayıla bilər. Həmin vaxt "soyuq müharibə " ifadəsi hələ işlənmədiyindən "əsəb savaşı" anlayışı Türkiyə ilə bağlı diplomatik yazışmaların, hərbi, siyasi xarakterli məlumatların əsas mahiyyətini təşkil edirdi.

İkinci Dünya müharibəsi başa çatan kimi Sovet lideri İ.Stalini SSRİ-nin məhz İran və Türkiyə ilə sərhədləri təmin etmirdi. Müharibədəki qələbə eyforiyasının təsiri altında bu ölkələrlə sərhədləri xəritə üzərində dəyişdirən Sovet rəhbərləri real həyatda buna nail ola bilmədilər. Aparılan araşdırmalar göstərdi ki, soyuq müharibənin Türkiyə epizodu Stalin intriqalarının, Kremlin siyasi istəklərində həddini aşaraq öz imkanlarını son dərəcə yüksək qiymətləndirməsinin, Türkiyənin dövlətçilik potensialını isə layiqincə dəyərləndirməməsinin bilavasitə nəticəsi idi. Lakin Sovetlərin haqsız tələbləri, hərbi və siyasi hədələri Türkiyədə gözlənilən nəticəni vermədi. Türk xalqı, türk dövləti, Türkiyənin çeşidli siyasi partiyaları soyuq müharibənin bu ilk sınağından uğurla çıxdılar. Şərqi Avropa və Balkanlarda Sovet təzyiqləri həmin ölkələrin daxilində siyasi parçalanmaları gücləndirdisə, Türkiyədə isə bunun əksinə olaraq SSRİ-nin tələbləri siyasi mühiti bütövləşdirdi. Bu ilk növbəti türk millətinin, türk dövlətinin və onun başında duran siyasətçilərin böyük tarixi nailiyyəti idi.

Türkiyənin bu tarixi nailiyyətinin bünövrəsi İkinci Dünya müharibəsi ərəfəsində və müharibə dövründə yeridilən düzgün siyasətlə qoyulmuşdu. Bir çox ölkələrdən fərqli olaraq Ankara həmin dövrdə dünyanın aparıcı dövlətləri ilə münasibətlərinin mərkəzinə məhz Türkiyənin təhlükəsizliyi məsələsini qoymuşdu. Bu bir tərəfdən İngiltərə və Fransa ilə ittifaq müqaviləsinin imzalanmasında, digər tərəfdən Sovetlərlə ittifaq yaratmaq arzusunda, üçüncü tərəfdən isə Almaniya ilə bitərəflik haqqında sazişdə öz əksini tapmışdı. Türkiyə dövlət xadimləri coğrafi baxımdan hərbi əməliyyatların əhatəsində olan ölkəni müharibə alovundan qoruya bildilər. ABŞ və İngiltərə hakim dairələrinin fikrinin əksinə olaraq, Ankara siyasətçiləri İkinci Dünya müharibəsinin gedişində Sovet qoşunlarını öz ərazisinə buraxmamaqla Türkiyənin müharibədən sonrakı taleyini həll etdilər. Tarixi təcrübə təsdiq etdi ki, Şərqi Avropa və Balkanlarda Sovet dominantlığı bilavasitə xilaskar kimi həmin ölkələrə daxil olan Qızıl Ordunun az sonra işğalçı orduya çevrilməsi ilə bağlı idi.

İkinci Dünya müharibəsindən sonra Sovet İttifaqında Türkiyəyə qarşı genişlənən təbliğat kampaniyasında onun Almaniya ilə əməkdaşlığına aid çoxlu ittihamlar irəli sürülsə də, yeni açıqlanan arxiv sənədləri Türkiyənin böyük müharibədə yerini müəyyənləşdirməyə əsas verir. Müharibənin gedişində müttəfiq dövlətlərin rəhbər dairələri dəfələrlə etiraf etmişdilər ki, Türkiyənin bitərəfliyi müttəfiqlərin xeyrinədir. Belə etiraflar SSRİ Xarici İşlər Nazirliyinin Türkiyə hökumətinə təqdim etdiyi notada da öz əksini tapmışdı. Lakin müharibənin sonrakı mərhələsində Sovet qoşunlarının qələbəsindən və hərbi əməliyyatlar meydanında müttəfiqlər təşəbbüsü ələ aldıqdan sonra Türkiyəni müharibəyə cəlb etmək adı altında ona qarşı təzyiqlər gücləndirilmiş, Sovet-Türk münasibətlərində süni gərginlik yaradılmışdı. Nəzərə almaq lazımdır ki, əvvəllər müxtəlif danışıqların mövzusu olan Türkiyəyə qarşı ərazi iddiaları, Boğazlarda hərbi baza əldə etmək niyyətləri və Türkiyənin ərazisinin bir hissəsi olan Bosfor və Dardanellə birgə nəzarət ideyası məhz 1944-cü ildən etibarən Sovetlərin strateji planlarına daxil edilmişdi.

SSRİ-nin güclü dövlət kimi formalaşdığı 1945-1953-cü illərdə Türkiyə Baltik dənizindən Qara dənizə qədər olan sərhədlərdə Sovetlərin təsir dairəsinə düşməyən yeganə ölkə oldu. Lakin bu Ankaraya elə də asan başa gəlmədi. Türkiyə demək olar ki, Sovet İttifaqının müharibədəki qələbəsinin eyforik siyasət dalğasına düşən ilk ölkələrdən biri idi. 1945-ci ilin iyun ayında Molotov-Sarper danışıqlarında Türkiyənin Qars, Ərdahan, Artvin vilayətlərinə və Boğazlara qarşı irəli sürülən Sovet tələbləri 1953-cü ilin may ayına qədər qüvvədə qaldı və bu müddət ərzində ölkə soyuq müharibənin bütün ağırlığını öz çiyinlərində daşıdı. Uzun müddət Sovet təhlükəsi altında yaşayan Türkiyə əsəb savaşında dirəniş göstərmək üçün böyük bir ordunu daim silah altında saxlamağa məcbur oldu ki, bu da ölkənin iqtisadiyyatını zəiflətmək, bütövlükdə Türkiyəni diz çökdürmək üçün həyata keçirilən siyasətin tərkib hissəsi idi.

Türkiyəyə qarşı planlaşdırılan Sovet siyasətində Cənubi Qafqaz respublikalarından Ermənistan və Gürcüstan fəal rol oynadılar. Moskvanın diktəsi ilə Cənubi Qafqazda başlanmış millətçilik dalğası bəzi məqamlarda güclü görünən Stalin intriqalarının ən zəif həlqələri idi. Sovet Ermənistanı və Gürcüstanından Türkiyəyə qarşı SSRİ-nin tələblərində bir alət kimi istifadə olunması beynəlxalq aləmdə müsbət rəy doğurmadı. Xaricdə yaşayan ermənilərin Ermənistan SSR-ə repatriasiyasının arxasında dayanan məqsədlər dünyaya bəlli oldu. Türkiyəyə qarşı ərazi tələblərini əsaslandırmaq üçün erməni kartının Stalinin əlində bir oyun olduğunu dünya tez başa düşdü və bu siyasi avantüra baş tutmadı. 1946-1949-cu illərin "böyük repatriasiya" proqramının iştirakçısı olan ermənilərin taleyində də bu siyasət dərin izlər qoydu. Yeni açıqlanan arxiv sənədlərində yüzlərlə repatriantın Sovet sərhədlərini pozaraq Türkiyəyə

qaçmaq cəhdləri bunun aydın ifadəsi idi. Sonralar SSRİ DTK-nın Zaqafqaziya hərbi dairəsi xüsusi şöbəsinin rəisi general Jeleznikov Gürcüstan kommunist partiyasının katibi P.Kovanova Türkiyə ilə sərhədlərdə casusluq hallarının çoxalması ilə bağlı yazdığı məktubda qeyd edirdi ki, 1956-cı ildə xarici ölkələrdən SSRİ-yə turist axını çoxalmışdır və onlar sistematik olaraq Zaqafqaziya rayonuna səfər edirlər. Orada göstərilirdi ki, vaxtilə Yaxın Şərqdən, Fransadan və digər ölkələrdən daimi yaşamaq üçün Zaqafqaziya respublikalarına gələn və əsasən Ermənistan ərazisində məskunlaşan repatriantlarla xaricilərin görüşləri qeydə alınmışdır (1). Lakin "böyük repatriasiya" proqramı Qars, Ərdahan və Artvinin alınmasında nəzərdə tutulan ümidləri doğrultmasa da, Ermənistanda yaşayan azərbaycanlıların taleyində faciəli rol oynadı. Məhz Sovet Ermənistanına gəlmiş repatriantları torpaqla təmin etmək, onların mənzil-məişət vəziyyətini yaxşılaşdırmaq üçün İ.Stalin 100 min azərbaycanlının tarixən yaşadığı doğma yurdlarından köçürülməsinə qərar verdi. Azərbaycanlıların Ermənistandan deportasiya edilməsi Cənubi Qafqaz respublikalarının soyuq müharibə prosesində iştirakının ən ağır nəticəsi idi. Müharibə başa çatan kimi Ermənistan və Gürcüstanın Azərbaycana qarşı ərazi iddiaları ilə Moskvaya müraciət etməsi, xaricdəki erməni siyasi partiyalarının və millətçi cəmiyyətlərinin Azərbaycana və Gürcüstana qarşı ərazi tələbləri irəli sürməsi regionda gərginləşən əsəb savaşının, bir sıra əlamətlərinə görə hətta soyuq müharibənin diqqətdən kənarda qalan epizodu sayıla bilər. Belə ki, H.Kissincerin işlətdiyi "Stalin bazarı" ifadəsi bu siyasəti xarakterizə etmək üçün yerinə düşən ifadədir.

Türkiyənin Şərq vilayətləri və Boğazlarla bağlı "bazarlıq siyasətinə" İ.Stalin hələ 1940-cı ilin noyabrında Berlinə yola düşən V.Molotova verdiyi tapşırıqlarda və G.Dimitrov ilə söhbətlərində başlamışdı. H.Kissincer haqlı olaraq yazır: "Türkiyəyə ərazi iddialarının elan edilməsi ilə eyni vaxtda Boğazlarda da Sovet İttifaqına baza verilməsi tələbi təxminən 1940-cı ilin noyabr ayının 25-də Stalinin Hitlerə elan etdiyi tələblərin eynisi idi" (2).

İ.Stalinin türkləri Avropadan qovmaq planı sonrakı mərhələdə faciəli hadisələrlə müşayiət edildi. Dövlət Müdafiə Komitəsinin 21 may 1944-cü il qərarına uyğun olaraq Krım öz tarixi vətənləri olan türklərdən təmizləndi. 183135 nəfər Krım türkü Özbəkistana və Rusiya Federasiyasının uzaq vilayətlərinə sürgün olundu. DMK-nın 30 iyul 1944-cü il qərarına görə həmin ilin sentyabr ayının 20-də Gürcüstanın Türkiyə ilə sərhəd rayonlarından 69869 nəfər yerli türklər Orta Asiyaya sürgün edildi, 1947-ci il dekabrın 23-də İ.Stalinin imzaladığı qərarla 100 min azərbaycanlının Ermənistandan deportasiyasına start verildi. Siyasi Büronun 4 aprel 1949-cu il qərarı ilə Qara dəniz sahillərində və Zaqafqaziyada türklərin sonuncu nümayəndələrinin Tomsk vilayətinə əbədi sürgün edilməsi ilə

Stalinin "türk" təmizləmələri başa çatdırıldı. 50-ci illərin ikinci yarısında SSRİ-də stalinizmin mahiyyəti açıqlananda və XX əsrin bu böyük diktatorunun faciəli əməllərinə qiymət veriləndə Stalin repressiyalarının qurbanı olmuş bu xalqların heç birisinin köhnə yurdlarına qayıtmasına icazə verilmədi. SSRİ Ali Sovetinin Rəyasət Heyətinin 1956-cı il aprel ayının 8-də qəbul etdiyi qərarda Gürcüstanın Cənub rayonlarından köçürülmüş türklərin öz doğma yurdlarına qayıtmaq barədə müraciətləri rədd edildi. Krım türkləri də eyni taleyi yaşamalı oldu. Məsələn, Gürcüstan KP MK-nın katibi P.Kovanov 1957-ci ilin sentyabrında Sov.İKP MK-ya yazırdı: "Gürcüstan kommunist partiyası respublikanın sərhəd rayonlarından köçürülmüş şəxslərin öz əvvəlki yaşayış yerlərinə qayıtmasına etiraz edir, belə ki, bu rayonların torpaqları artıq yeni sakinlər tərəfindən tutulub və məskunlaşdırılıb. Bundan əlavə əvvəlki sakinlərin qayıtması sərhədlərdə qeyri-sabit vəziyyət yaradar, xüsusən ona görə ki, 1944-cü ildə sürgün edilənlərin çoxunun Türkiyə sakinləri ilə qohumluq əlaqələri vardır. Bütün bunları nəzərə alaraq SSRİ Ali Soveti Rəyasət Heyətinin 8 aprel 1956-cı il qərarının qüvvədə saxlanmasını zəruri hesab edirik" (3).

Sovetlərdə olduğu kimi SSRİ-nin təsiri altına düşmüş Balkan dövlətlərində də türk azlıqları eyni faciəli taleyi yaşamalı oldu. İ.Stalin Boğazların Avropa sahillərini sosialistləşdirə bilməsə də türklərin Bolqarıstandan və digər Balkan ölkələrindən qovulmasına nail ola bildi. Bütün bunlar SSRİ-nin Türkiyəyə qarşı həyata keçirdiyi təzyiq siyasətinin bilavasitə nəticəsi idi.

Məhz bu tələblərin təsiri altında, Sovet təzyiqinin doğurduğu psixoloji xofun əsəb gərginliyində Türkiyə Qərbə doğru sürətlə meyl etməyə başladı. 1925-ci il Sovet-türk müqaviləsi SSRİ tərəfindən ləğv edildikdən sonra Türkiyəni Sovet hücumundan qoruyacaq hər hansı hüquqi baza mövcud deyildi. Türklərin əsəbləri möhkəm olsa da, Sovet məngənəsində sıxılan ölkənin müdafiəsinə etimadlı təminat olmadan əsəb savaşının ağır yükünü çəkməyin böyük çətinlikləri var idi. Müharibə başa çatdıqdan sonra Sovetlərin Zaqafqaziya hərbi dairəsini gücləndirməsi, İran Azərbaycanında və Bolqarıstanda hərbi hazırlıq tədbirləri, Aralıq dənizində və Yaxın Şərqdə baza axtarmaq arzuları Türkiyəni cinahlardan sıxmaq siyasətinin hədəfinə çevirmişdi. Trümen doktrinası və Türkiyənin Şimali Atlantik blokuna daxil olması məhz bu siyasətin hərbi-siyasi nəticəsi idi. ABŞ-ın Türkiyə ilə bağlı siyasəti haqqında Milli Təhlükəsizlik Şurasının 1955-ci ilin fevralında hazırladığı dəyərləndirmədə göstərilirdi ki, 1947-ci ildən 1954-cü ilə kimi Birləşmiş Ştatlar Türkiyəyə 704 milyon dollar həcmində hərbi, 262 milyon dollar həcmində isə iqtisadi və texniki yardım göstərmişdir. Türkiyə bu yardımların vasitəsi ilə öz hərbi obyektlərini müasirləşdirmək və iqtisadiyyatını inkişaf etdirmək üçün geniş

proqramlar həyata keçirmişdi (4). Sovetlər özünün zorakılıq və güc nümayişi üzərində qurulmuş siyasəti, hədə və şantaj üzərində qurulmuş təbliğatı ilə Türkiyəni ABŞ-ın strateji müttəfiqinə çevirdi. Nəticədə 40-cı illərin sonu - 50-ci illərin əvvəllərində iki ölkə arasında formalaşmış ştrateji tərəfdaşlıq bu gün də davam etməkdir.

Bütün bunlar soyuq müharibənin ilk sınaq meydanına çevrilən Türkiyə böhranının başlanğıcı idi. Bir sıra müəlliflər bu böhranın 1946-cı ilin sonunda, digərləri isə 1947-ci ilin əvvəllərində sona çatdığını yazır. Lakin yeni arxiv sənədləri bu böhranın İ.Stalinin ölümünə qədər davam etdiyini söyləməyə əsas verir. 40-cı illərin sonlarından başlayaraq Sovet tələbləri həm siyasi, həm də hərbi baxımdan öz əhəmiyyətini itirsə də, rəsmi olaraq həmin iddialardan imtina edilmədiyindən şimal təhlükəsi Türkiyənin başlıca "əsəb mənbəyi" olaraq qalmaqda idi.

Türkiyəyə qarşı Sovet tələbləri o qədər ədalətsiz xarakter daşıyırdı ki, uzun müddət Sovet xarici siyasətinə rəhbərlik etmiş V.Molotov F.Çuyevlə söhbətdə bu yanaşmanın doğru olmadığını etiraf etmişdi. O, Boğazlara birgə nəzarət məsələsinə toxunaraq demişdi: "Əslində bu bizim tərəfimizdən doğru deyildi: heç olmasa Türkiyə sosialist dövləti olsaydı, onda bu barədə danışmaq olardı" (5). Başqa bir söhbətində isə V.Molotov qeyd edirdi ki, "Son illərdə Stalin bir qədər təkəbbürlü olmuşdu, xarici siyasətdə isə mən Milyukovun tələb etdiyi Dardanelli tələb etməli idim. Stalin mənə tapşırdı ki, birgə idarə etmək üçün (Boğazları - C.H.) təzyiq elə. Mən dedim "verməzlər". O, isə "sən tələb elə" dedi. Mən məsələ qoydum ki, Boğazlara biz və Türkiyə birgə nəzarət etməliyik. Hesab edirəm məsələnin belə qoyuluşu o qədər də doğru deyildi. Lakin mənə nə tapşırılırdı mən onu yerinə yetirirdim. Mən bu məsələni 1945-ci ildə müharibə qurtarandan sonra qoymuşdum... Bu vaxtsız və həyata keçirilməsi mümkünsüz olan bir iş idi" (6).

Müharibədən sonra SSRİ-nin sərhədlərinin genişləndirilməsi və genişləndirilmiş sərhədlər boyunca "dost hökumətlər" yaradılması Stalin-Molotov doktrinasının çıxış nöqtəsini təşkil edirdi. Sovetlərin güclü ideoloji ekspansiyasına, elmi idarələrin və siyasi dairələrin Qara dəniz sahillərində və Şərq vilayətlərində etnik tərəfdaş axtarışlarına, böyük sosial bazaya malik olmayan kommunist və sol qüvvələrin "bolşevik eksperimentləri"nə baxmayaraq Türkiyədə "dost hökumət" funksiyasını yerinə yetirəcək siyasi qüvvə formalaşmadı. ABŞ-ın Ankaradakı səfirliyinin Vaşinqtonla yazışmalarında deyildiyi kimi, Sovet təzyiqləri gözlənildiyinin əksinə olaraq siyasi cəhətdən Türkiyəni gücləndirdi, xarici siyasət məsələlərində, xüsusilə Sovet təhlükəsinə münasibətdə iqtidarla müxalifət arasında fikir ayrılığının olmadığı təsdiqləndi. Nəticə etibarilə prezident İ.İnönü tərəfindən formalaşdırılan xarici siyasət kursu Bayar-Menderes hökuməti tərəfindən davam etdirildi.

Arxiv sənədlərinin araşdırılması təsdiq edir ki, Boğazlara və Şərq vilayətlərinə iddialar irəli sürməklə Sovetlər Birliyi tək Türkiyə üçün deyil, özü üçün də əlavə problemlər yaratdı. 1950-ci illərin ikinci yarısında Stalin kursunu təftiş edən, Sovet rəhbərliyi daxilində Malenkov, Molotov və Kaqanoviş qruplaşmasına qarşı mübarizə aparan Sov.İKP MK-nın Baş katibi Nikita Xruşov Türkiyəyə münasibətdə buraxılan səhvlərdən öz əleyhdarlarına qarşı məharətlə istifadə etdi. 1957-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin iyun plenumunda N.Xruşov Molotovun üzərinə hücuma keçərək dedi: "Axı burjua inqilabından sonra türklərlə bizim Yaxın dostluq münasibətlərimiz vardı. Voroşilov İzmir şəhərinin fəxri vətəndaşıdır. Onlar hələ bundan imtina etməyiblər, halbuki imtina etməyə əsasları vardır. Almanları əzdik... Başımız fırlanmağa başladı. Türklər yoldaşlar idi, dostlar idi. Yox, dedilər, gəlin nota yazaq və o dəqiqə Dardanelli verecəklər. Belə axmaqlar yoxdur. Dardanell Türkiyə deyil, ora dövlətlər şəbəkəsinin düyün nöqtəsidir. Yox, götürüb xüsusi nota yazdılar ki, biz dostluq haqqında müqaviləni ləğv edirik, etdilər və türklərin sifətinə çırpdılar. İndi bir söz deyəndə onlar deyir ki, niyə belə etdiniz, deməli nə isə fikriniz var idi. Nəyin əsasında? Beriya və digər gürcülər aranı qatdılar. Sübut etməyə çalışırdılar ki, nə vaxtsa oralar gürcülərin olub. Kanada da 300 min ukraynalı var. Əgər həmin qayda ilə iddia irəli sürsək, onda gərək tələb edək ki, Kanada da bizə məxsusdur. Bu ağılsızlıqdır. Nəticədə biz dost Türkiyəni itirdik. Bizim cənub ərazilərimizi təhlükə altında saxlamaq üçün indi Türkiyədə Amerika bazaları yerləşdirilib. Bu siyasətdə ağıllı nə var? Yoldaş Molotov nazir idi. Maraqlıdır, bu notaları hazırlayanda hansı dəlillərə istinad edib?" (7). Daha sonra N.Xruşov bu siyasətin necə ağır nəticələr verdiyini xatırladaraq bu məsələnin sonluğunun belə ümumiləşdirirdi. Türkiyəyə münasibətdə öz səhv siyasətimizlə biz Amerika imperializminə köməklik etmiş olduq (8).

1953-cü ilin mayında V.Molotovun bəyanatından və 50-ci illərin ortalarında N.Xruşovun çıxışlarından sonra hələ uzun müddət Ankara ilə münasibətləri normallaşdırmaq mümkün olmadı. Bu, 40-cı illərin ikinci yarısı və 50-ci illərin əvvəllərində Sovet təhdidi qarşısında türklərin keçirdiyi qorxunun böyüklüyü ilə bağlı idi. Bununla belə, ədalət naminə qeyd edilməlidir ki, yeni açıqlanan sənədlərdən göründüyü kimi Türkiyə siyasi dairələri və mətbuatı da öz növbəsində Sovet təhlükəsini mövcud olduğundan daha artıq dərəcədə qiymətləndirmişdir. Bu bir tərəfdən SSRİ-nin atacağı addımlar barədə məlumatsızlıqla bağlı idisə, digər tərəfdən ictimai fikri ABŞ və Qərbə inteqrasiya istiqamətinə yönəltmək zərurəti ilə bağlı olmuşdur. Bunlardan əlavə, 50-ci illərin ikinci yarısında Yaxın Şərqdə yaranmış bir sıra böhranlı hadisələr çox qısa zaman ərzində Sovet-Türk münasibətlərini gərginlik həddinə çatdırmışdı. 1957-ci ilin sentyabrında

SSRİ DTK-nın planları əsasında kürd problemi və ərazi məsələləri ilə bağlı Suriya-Türkiyə münasibətləri gərginləşdikdə Moskva Ankaraya nota ilə müraciət etmiş və ordu hissələrini Qafqaz regionuna toplamağa başlamış, marşal K.Rokossovski isə bu dairəyə komandan təyin edilmişdi. Lakin, 1957-ci ilin oktyabrında Sovet rəhbərliyi bəyan etdi ki, Türkiyə ilə müharibə olmayacaqdır. Buna bənzər hadisələr 1958-ci ildə İraqda dövlət çevrilişi baş verərkən də təkrarlandı (9).

Sovet dövlət başçılarının 50-60-cı illərdə Türkiyə ilə münasibətləri normallaşdırmaq çağırışlarına baxmayaraq SSRİ-nin xüsusi xidmət orqanlarının Yaxın Şərqdə kürd və erməni amillərindən Türkiyəyə qarşı istifadə etmək cəhdləri gündəlikdən çıxmamışdı. SSRİ DTK-nın sədri A.Şelepinin Türkiyə ərazisində kürdləri fəallaşdırmaq planı və xarici erməni təşkilatları ilə əlaqələri genişləndirmək ideyası Türkiyədə pozuculuq işlərinin gücləndirilməsinə və Ankaranın zəiflədilməsinə xidmət edirdi. 1957-ci ilin avqustunda Sovet rəhbərliyi tərəfindən Ramkavar Azatakan partiyasının lideri Parunak Tovmasyanın gizli şəkildə SSRİ-yə gəlməsinə icazə verildi. Yerevanda P.Tovmasyan demək olar ki, Ermənistan SSR-in bütün rəhbər şəxsləri, o cümlədən respublika kommunist partiyasının birinci katibi Suren Tovmasyanla, Moskvada isə SSRİ Xarici İşlər Nazirliyinin Yaxın Şərq şöbəsinin müdirini əvəz edən D.Solod ilə görüşdü. Xaricdəki ermənilərlə əlaqələri genişləndirmək və onlardan SSRİ-nin müxtəlif məqsədlərinin həyata keçirilməsində istifadə etmək üçün Ermənistan kommunist partiyasının rəhbərliyi Moskvaya yazdığı məktublarda SSRİ-nin səfirliklərinə erməni millətindən olan əməkdaşların daha çox göndərilməsinin təklif edirdi. P.Tovmasyan isə Moskvada apardığı danışıqlarda SSRİ ilə gizli əməkdaşlığın əvəzi kimi Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana verilməsi məsələsini qoymuşdu (10).

1961-ci ilin yayında N.Xruşovun Ermənistan SSR-ə səfəri ərəfəsində Türkiyə, Azərbaycan və Gürcüstanda olan "qədim erməni torpaqlarının" qaytarılması haqqında imzasız tələblərin irəli sürülməsi yenidən geniş xarakter almışdı. Moskvaya və müxtəlif SSRİ orqanlarına göndərilən çoxsaylı anonim məktublarda Sovet rəhbərliyinin bu tələbləri yerinə yetirməyəcəyi halda BMT-yə müraciət ediləcəyi göstərilirdi. SSRİ DTK-nın 60-cı illərin əvvəllərində hazırladığı sənədlərdə DQMV-də vəziyyətin Yerevan tərəfindən qızışdırıldığı, lakin Azərbaycandan ayrılmaq təklifinin yerli ermənilər tərəfindən müdafiə olunmadığı qeyd edilirdi (11).

Uzun sürən gərginlikdən sonra, 60-cı illərdə Sovet-Türkiyə münasibətlərində müəyyən yaxınlaşma meylləri hiss edilməyə başladı. 1960-cı il iyun ayının 28-də N. Xruşovun Türkiyənin bitərəf ölkə statusuna qayıtması təklifi ilə Baş nazir C.Gürselə müraciəti Ankarada müsbət qarşılanmasa da, 1963-cü ilin mart ayında iki ölkə arasında mal dövriyyəsini artırmaq barədə protokolun

imzalanması münasibətlərin normal məcraya istiqamətlənməsindən xəbər verirdi. 1964-cü ildə Türkiyə xarici işlər naziri F.C.Erkinin Moskvaya, 1965-ci ildə A.Qromıkonun Ankaraya, 1966-cı ildə SSRİ Nazirlər Sovetinin sədri A.Kosıginin Türkiyəyə, 1967-ci ildə isə Baş nazir S.Dəmirəlin SSRİ-yə səfərləri münasibətlərin normallaşdırılmasında əhəmiyyətli addımlar oldu. SSRİ-yə səfər zamanı Azərbaycanı və Orta Asiyanı ziyarət edən S.Dəmirəl "Milliyyət" qəzetinə verdiyi açıqlamada qeyd edirdi ki, biz ruslarla olan münasibətlərimizdə yeni eraya daxil oluruq. Məlumdur ki, çox illər ərzində bizim ölkələrimiz arasında böyük gərginlik olmuşdur, İkinci Dünya müharibəsindən sonrakı dövrdə isə bizim praktiki olaraq heç bir əlaqəmiz olmamışdır. İndi bu uyğunsuzluq aradan qaldırıldı. Mən demək istəmirəm ki, bütün çətinliklər dəf edildi, lakin fikirləşirəm ki, düşmənçilik aradan qaldırıldı (12). 1969-cu ilin noyabrında prezident C.Sunayın SSRİ-yə səfəri, L.Brejnev və digər Sovet rəhbərləri ilə görüşləri 60-cı illərdə iki ölkə arasında münasibətləri normallaşdırmaq siyasətinin yekunu oldu.

1984-cü ilin dekabrında SSRİ Nazirlər Sovetinin sədri N.Tixonovun Ankaraya səfəri və iki ölkə arasında on il üçün nəzərdə tutulan SSRİ ilə Türkiyə arasında iqtisadi, ticarət və elmi-texniki əməkdaşlığın uzunmüddətli proqramının imzalanması münasibətlərin inkişafında mühüm mərhələ kimi qiymətləndirib bilər. 1986-cı ilin yayında Baş nazir T.Ozalın Moskvaya cavab səfəri ticarət-iqtisadi əlaqələrin daha da inkişafı ilə müşayiət olundu.

Bununla yanaşı, 80-ci illərin ortalarında SSRİ-də M.Qorbaçovun haki-miyyətə gəlməsi, Moskvada erməni lobbisinin və xaricdəki erməni təş-kilatları ilə Sov.İKP-nın və Sovet xüsusi xidmət orqanlarının gizli əlaqə-lərinin güclənməsi, Siyasi Büronun və Sovet rəhbərliyinin türk və müsəl-man respublikalarının nümayəndələrindən "təmizlənməsi" və s. Türkiyəyə qarşı yönəlmiş siyasətin müəyyən gizli məqamlarından xəbər verirdi. Qeyd etmək lazımdır ki, M.Qorbaçovun anti-türk meylləri hələ onun hakimiyyətə gəlməsindən əvvəl üzə çıxmağa başlanmışdı. Sov.İKP MK-nın Baş katibi K.Çernenko xəstə olduğundan partiyada ikinci şəxs kimi Siyasi Büronun iclaslarını aparan M.Qorbaçovun 1985-ci ilin fevral ayının 21-də "Erməni genosidinin 70 illiyi ilə bağlı tədbirlər haqqında" məsələni Siyasi Büronun gündəliyinə çıxarması bunun açıq təzahürü idi. Burada söhbət Ermənistan kommunist partiyasının təklifi ilə 24 aprelin "Genosid qurbanlarının xatirə günü" kimi əbədiləşdirilməsi haqqında Ermənistan SSR Ali Sovetinin fərman verməsinə Siyasi Büronun razılığınm alınmasından gedirdi. Lakin müzakirələr zamanı M.Qorbaçovun, K.Dəmirçiyanın, Sov.İKP MK katibliyində təmsil olunan bir sıra şəxslərin ciddi-cəhdlərinə baxmayaraq Siyasi Büro üzvləri qəti şəkildə bunun əleyhinə çıxdılar. Uzun müddət SSRİ xarici siyasət idarəsinə rəhbərlik etmiş A.Qromıko bildirdi ki, bu məsələni hissə qapılmadan müzakirə etmək lazımdır. O, erməni soyqırımı

məsələsində Sultan Türkiyəsi ilə yanaşı çar Rusiyasının da günahının olduğunu bildirirdi. SSRİ Nazirlər Sovetinin sədri N.Tixonov isə qeyd etdi ki, mən Ermənistan kommunist partiyasının təkliflərini oxuyanda həyəcanlandım. Bizim Türkiyə ilə münasibətlərimiz yenicə qaydaya düşür. Mənim bu ölkəyə səfərim zamanı Türkiyənin rəhbərləri Sovet İttifaqını dost ölkə adlandırdılar. N.Tixonov əlavə etdi ki, onun Türkiyədə olduğu vaxt bu ölkənin prezidenti və baş naziri rəsmi şəxslərin çıxışlarına istinad edərək Ermənistanda anti-türk əhvali-ruhiyyə haqqında ona şikayət ediblər. O dedi: "Yaxşı yadda saxlamaq lazımdır ki, Dardanell və Bosfor türklərin əlindədir və Montrödə imzalanmış müqaviləyə görə onların imkanı var ki, Boğazların qapısından böyük qıfıl assınlar". Siyasi Büro üzvlərinin etirazından sonra Ermənistan kommunist partiyasının təklifləri qəbul edilməsə də, iclasa sədrlik edən M.Qorbaçov 1985-ci ilin aprel ayının 24-də "Pravda" qəzetində bu mövzuda geniş yazı verilməsi ilə bağlı Siyasi Büronun razılığını aldı və həmin məqalə aprel ayının 24-də "Pravda" da çap olundu (13).
SSRİ dağıldıqdan sonra Rusiya Federasiyası və Sovetlər Birliyinin yerində yaranmış digər respublikalarla Türkiyənin münasibətlərinin məzmunca tamamilə yeni dövrü başlandı. XX əsrin 40-50-ci illərində soyuq müharibənin acı təcrübəsini yaşamış Türkiyə 90-cı illərdən başlayaraq Qara dəniz İqtisadi Əməkdaşlıq Şurasının aparıcı dövləti, Rusiyanın ən böyük iqtisadi-ticarət tərəfdaşı, Ukraynanın və Gürcüstanın mehriban qonşusu, Azərbaycanın isə strateji müttəfiqidir.

# QAYNAQLAR

## I Fəsil


# QAYNAQLAR

## I Fəsil



1. Rusiya Federasiyası Xarici Siyasət Arxivi (RF XCA), f.06, s.9, q.69 i.1071, v.31-88
2. Azərbaycan Respublikası Mərkəzi Dövlət Arxivi (AR MDA), f.28, s.4, i.3, v.4; Moskva və Qars müqavilələri barəsində daha ətraflı məlumat üçün bax: M. Qasımov. Xarici dövlətlər və Azərbaycan. Bakı, 1998 s. 139-180
3. AR MDA, f. 28, s. 4, i. 3, v.6
4. Yenə orada, v.20-37
5. AR MDA, f.28, s.l,i.68, v.12
6. Yenə orada, v. 52; Kominternin və Sovetlərin Kamalçı hərəkata münasibəti haqqında daha geniş məlumat üçün bax: S.Rüstəmova-Tohidi. Kominternin Şərq siyasəti və İran. 1919-1943. Bakı, 2001, s. 122-130
7. AR MDA, f.894, s.10, i.145, v.15
8. RF XCA, f.0132, s.366, q.325, i.l, v.12-13
9. Atatürkün Soylev və Demecleri. Cilt 3, Ankara, 1989, s.133-136
10. AR MDA, f.28, s.4, i.4, v. 1
11. Россия и Черноморские проливы (XVIII-XX столетия). М., 1999 с.375
12. AR MDA, f.28, s.4, i.4, v.l
13. Известия, 1936, 18 апреля
14. AR MDA, f.28, s.4, i.3, v. 110-111
15. Türkiye Cumhuriyeti tarihi, Cilt II, Ankara, 2002, s.448
16. AR MDA, f.28, s.4, i.3, v.2
17. Yenə orada
18. Yenə orada, v.3
19. Yenə orada, v.4
20. Yenə orada, v.4-5
21. Yenə orada, v.5
22. Yenə orada, v.5-6
23. Yenə orada, v.8-9
24. Yenə orada, v.9
25. Yenə orada
26. Россия и Черноморские проливы , с.421-422
27. AR MDA, f.28, s.4,i.3, v.10-113
28. Б.М.Поцкверия. Черноморское проливы в Российско-турецких отнощениях. –В кн.Российско-турецких отнощения. История, современное состояние и перспективы.М., 2003,с.80.

29. А.Ф.Миллер. Турция и проблема безопасности проливов. М., 1947, с.3-4
30. Ю.Н.Розалиев. Мустафа Кемаль Ататюрк. Вопросы истории, 1995, № 08, с.75-76; В.Н.Коптевский. Россия-Турция: этапы торгово-экономического сотрудничества. М, 2003, с.95-96
31. İsmet İnönünün TBMM-deki konuşmaları. 1920-1973. Birinci cilt (1920-1938), Ankara, 1992, s.397-398
32. Россия и Черноморские проливы, с.440
33. Rusiya Dövlət Sosial Siyasi Tarix Arxivi (RDSSTA), f.558, s.ll,İ.388, v.9-12
34. Материалы февральско-мартовского пленума УК ВКП (б) 1937 года. Вопросы истории, 1994, № 01, с.26
35. Документы внешней политики СССР (далее-ДВП СССР), том 20. М., 1976, с.197
36. Там же, с.69
37. İsmet İnönünün TBMM-deki konuşmaları. 1920-1973. Birinci cilt s.423
38. AR MDA, f.28, s.4, i.4, v.96
39. AR MDA, f.28, s.4, i.3, v. 162-168
40. Yenə orada, v.121
41. А.Ф.Миллер. Очерки новейшей истории Турции. М-Л., 1948, с.183
42. AR MDA, f.28, s.4, i.3, v. 104-105
43. Лев Соцков. Неизвестный сепаратизм: на службе СД и Абвера. М., 2003, с.82
44. Там же, с.104-105
45. AR MDA, f.28, s.4, i.3, v.160
46. Yenə orada
47. Süleyman Hatiboğlu. Hatayın Türkiyeye katılması. - Türkler, cilt 16,Ankara, 2002, s.688-689
48. Abdurrahman Melek. Hatay nasıl kurtuldu. Ankara, 1966, s.84; А.Ф.Миллер. Очерки новейшей истории Турции, с.189-191
49. Mehmet Saray. Türk-İran ilişkileri. Ankara, 1999, s.119; Mustafa Yılmaz. Atatürk dönemi Türk Dış Politikası (1919-1938). - Türkler, cilt 16, s.589
50. См. А.Ф.Миллер. Очерки новейшей истории Турции, с.184
51. AR MDA, f.28, s.4, i.3, v.97
52. Yenəorada, v. 141-142
53. Yenə orada, v. 142-143
54. Yenə orada, v.143
55. Yenə orada, v.144
56. Россия и Черноморские проливы, с.442
57. Там же, с.443

58. В.Н.Коптевский. Россия-Турция: этапы торгово-экономического сотрудничества, с.96
59. А.Ф.Миллер, Турция и проблема проливов. М, 1947, с.20
60. AR MDA, f.28, s.4, i.3, v. 144-145
61. Yenə orada, v.130
62. RF XSA, f.059, s.l, q.294, İ.2029, v.87
63. RF XSA, f.059, s.l, q.305, i.2106, v.81-83
64. RF XSA, f.059, s.l, q.293, i.2027, v.170-173; Türkiyənin Balkan Antantası ilə əməkdaşlığı haqqında geniş məlumat üçün bax: M.Fətəliyev. Türkiyə diplomatiyası və Balkanlar. Bakı, 1995
65. RF XSA.f. 059, s.l,q. 293, i. 2027, v.179-183
66. RF XSA, f.059, s.l, q.293, İ.2029, v.10-11
67. Yenə orada, v. 16-21
68. Olaylarla Türk Dış Poilitikası. 9 Baskı, Ankara, 1996, s.143

**II Fəsil**

1. AR MDA, f.28, s.4, İ.3, v. 176-177
2. Yenə orada, v.56
3. Yenə orada, v.45-53
4. İsmet İnönünün TBMM-deki konuşmaları. 1920-1973. İkinci cilt (1939-1960). Ankara, 1993, s.2
5. А.А.Данилов, А.В.Пыжиков. Рождение сверхдержавы: СССР в первые послевоенные годы. М., 2001, с.12
6. Б.М.Поцхверия. Советско-турецкие отношения и проблема Проливов накануне, в годы второй мировой войны и послевоенные десятилетия. - В кн. Россия и Черноморские проливы (ХУШ-ХХ столетия), с.444; Б.М.Поцхверия. Внешняя политика Турции после второй мировой войны. М., 1976, с.12
7. Р.С.Корхмазян. Внешняя политика Турции в годы второй мировой войны. - В кн. Проблемы истории Турции (сборник статей). М., 1978, с. 138
8. RF XSA, f.059, s.l, q.298, İ.2059, v. 164-165
9. AR MDA, f.28, s.4, İ.3, v.131
10. Yenə orada, v.86-89
11. RDSSTA, f.558, s.ll, i.388, v.14
12. AR MDA, f.28, s.4, i.3, v.108-109
13. RDSSTA, f.558, s.ll, i.388, v.14-15
14. Россия и Черноморские проливы, с.445
15. RDSSTA, f.558, s.ll, i.388, v.16-17
16. Yenəorada, v. 19-20
17. Yenə orada, v.20

18. А.А.Данилов, А.В.Пыжиков. Рождение сверхдержавы: СССР в первые послевоенные годы, с.12-13
19. RDSSTA, f.558, s.ll, i.388, v.21
20. Yenə orada, v.22-24
21. Yenə orada, v.25-27
22. Yenə orada, v.27-28
23. Adım-adım İkinci Dünya müharibəsinə gidiş. Görünmeyen yanlariyle Ribbentrop-Molotov anlaşması.-Belgelerle türk tarih dergisi. Dün/ Bügün/Yarın. Mayıs 2001, sayı 52, s.104-105
24. RDSSTA, f.558, s.ll, i.388, v.29
25. Yenə orada, v.29-30
26. Yenə orada, v.30
27. 23 Agustos 1939 tarihli Alman-Sovet Saldırmazlık Paktına Ek Gizli Protokol.-Belgelerle türk tarih dergisi. Dün/Bügün/Yarın. Mayıs 2001,sayı 52, s.105
28. RDSSTA, f.558, s.ll, İ.388, v.31-32
29. Burçak Rıfkı Salim. Moskova Görüşmeleri (26 Eylül-16 Ekim 1939) və Dış Politikamız üzərindeki tesisleri.Ankara, 1983, s.84-87
30. Документы внешней политики. СССР. т. ХХП, 1939. Кн.2. М., 1992, с.619; Война и политика, 1939-1941. М., 1999, с.16
31. ДВП СССР, т.ХХП, кн.2, с.148, 170; В.А.Невежин. Метаморфозы Советской пропоганды в 1939-1941 годах. Вопросы истории, 1994, №8, с. 165
32. İsmet İnönünün TBMM-deki konuşmaları. 1920-1973. İkinci cilt (1939-1960). Ankara, 1993, s.2-3
33. А.Н.Сахаров. Война и Советская дипломатия. 1939-1945 гг. Вопросы истории, 1995, № 7, с.36
34. İ.Soysal. Tarihçileri və açıklamaları ilə birlikte Türkiyenin siyasal antlaşmaları, I cilt (1920-1945), Ankara, 1983, s.592-593, 602;
Ç.Üçok. Siyasi tarih dersleri, İstanbul 1995, s.358
35. İsmet İnönünün TBMM-deki konuşmalan. s.2
36. AR MDA, f.28, s.4, i.4, v.64-66; i.3, v.55-56
37. AR MDA, f.28, s.4, i.3, v.89; i.4, v.73-74
38. Новая и новейшая история, 1995, № 4, с.94
39. AR MDA, f.28, s.4, i.3, v.98
40. Kommunist, 1939, 1 noyabr
41. Kommunist, 1939, 10 noyabr
42. AR MDA, f.28, s.4, İ.3, v.88-89
43. Yenə orada, v.94
44. Yenə orada, v. 151-152
45. Olaylarla Türk Dış Politikası. s. 145
46. ДВП СССР. Т.XXII, кн.2. 1939. М., 1992, с.387

47. Н.Д.Смирнова. Неизвестные страницы Советско-итальянских отношений. По новым документам.-Новая и новейшая история, 1996, № 2, с.39; Война и политика, 1939-1941, с.423
48. Там же с.41
49. RDSSTA, f.558, s.ll, i.388, v.30
50. AR MDA, f.28, s.4, i.4, v.75
51. AR MDA, f.28, s.4, i.3, v.161
52. Yenə orada, v. 169-170
53. RDSSTA, f.558, s.ll, i.388, v.25
54. AR MDA, f.28, s.4, i.3, v. 169
55. Н.Д.Смирнова. Неизвестные страницы Советско-итальянских отношений, с.43
56. RDSSTA, f.558, s.ll, i.388, v.29-30
57. İsmet İnönünün TBMM-deki konuşmaları. s. 11-12
58. Р.С.Корхмазян. Внешняя политика Турции в годы второй мировой войны. - Сб.ст. Проблемы истории Турции. М, 1978, с.141-142
59. В.Бережков. Рядом со Сталиной. М., 1999, с.184
60. А.А.Данилов, А.В.Пыжиков. Рождение сверхдержавы, с. 13
61. См. Директива И.В.Сталина В.М.Молотову перед поездкой в Берлин в ноябре 1940 г.- Новая и новейшая история, 1995, № 4, с.78; Л.А.Безыменский. Визит В.М.Молотова в Берлин в ноябре 1940 г. в свете новых документов. Новая и новейшая история, 1995, № 6, с.134
62. Feridun Cemal Erkin. Türk-Sovyet İlişkileri ve Boğazlar meselesi.Ankara, 1968, s. 167
63. AR MDA, f.28, s.4, İ.4, v. 12
64. Л.А.Безыменский. Визит В.М.Молотова в Берлин в ноябре 1940 г. в свете новых документов, с.134-142; Война и политика, 1939-1941, с.403
65. Н.Д.Смирнова. Неизвестные страницы Советско-итальянских отношений, с.48-49
66. Olaylarla Türk Dış Politikası, s. 153-154; Война 1939-1945: два подхода. Сб.статей. М., 1995, част I, с.76
67. ARMDA, f.28, s.4, i.3, v.185
68. İsmayıl Soysal. Türkiyenin siyasal antlaşmaları, s.631.
69. И.Риббентроп. Между Лондоном и Москвой: Воспоминания и последние записи. М., 1996, с.274
70. Н.Д.Смирнова. Балканская политика фашистской Италии. М., 1969. с.241
71. ARMDA, f.28, s.4, İ.3, v.161
72. İsmayıl Soysal. Türkiyenin siyasal antlaşmaları, s.634-636

73. Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Mərkəzi Dövlət Arxivi (AR SPİHMDA), f.l, s.153, i.168, v.1-4
74. Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin arxivi, iş 248, v.3
75. Türkiye Cumhuriyeti tarihi, cilt II, s.455
76. İsmet İnönünün TBMM-deki konuşmaları. s.20
77. İsmayıl Soysal. Türkiyenin siyasal antlaşmaları, s.639
78. AR MDA, f.28, s.4, i.3, v.89

**III Fəsil**

1. Проблемы истории Турции, с. 145
2. AR MDA, f.28, s.4, i.3, v. 108
3. Yenə orada, v.173
4. Yenə orada, v.161
5. Yenə orada, v.184
6. Yenə orada, v.152
7. AR MDA, f.28, s.4, i.4, v.75
8. AR MDA, f.28, s.4, i.3, v.92
9. Yenə orada, v.80
10. Yenə orada, v.181-182, 185-186
11. Ю.Горьков. Государственный Комитет Обороны постановляет (1941-1945). М., 2002, с.230; Кавказ выстоял, Кавказ победил. Ветераны вспоминают. Тбилиси, 1973, с. 130-131
12. См: Л.Соцков. Неизвестный сепаратизм, с.13
13. А.Ф.Миллер. Очерки новейшей истории Турции, с. 204-205; его же. Турция и проблемы проливов, с.20
14. А.Ю.Безугольный. Ни войны, ни мира. Военно-исторический архив, 2003, № 5, с. 53; А.Б.Широкорад. Русско-турецкие войны 1676-1918гг. Под общ.ред. А.Е.Тараса. Минск-Москва, 2000, с.729-732
15. Правда, 1941, 25 декабря
16. AR SPİHMDA, f.l,s.l53, i.168, v.2
17. RF XSA, f.06, s.9, p.69, p.1071, v.29
18. О.А.Ржешевский. Сталин и Черчилль. Встречи. Беседы. Дискуссии: Документы, комментарии. 1941-1945. М., 2004, с.15
19. С.Г.Чуев. Кавказская карта Германии. Военно-исторический архив, 2004, № 1, с. 39.
20. AR SPİHMDA, f.l, s.89, i.10, v.9-11
21. Пространный реестр Гюрджистанского вилайета. Тбилиси, 1941
22. AR MDA, f.28, s.4, i.2, v.52
23. Yenə orada, i. l9, v.70
24. Gürcüstan Prezidentinin Arxivi, f.14, s.16, i.168, v.108

25. О.А.Ржешевский. Сталин и Черчилль, с.22
26. İsmet İnönünün TBMM-dəki konuşmaları, s.20
27. О.А.Ржешевский. Сталин и Черчилль, с.37-48; Л.Соцков. Неизвестный сепаратизм, с.9-10
28. А.А.Данилов, А.В.Пыжиков. Рождение сверхдержавы: с. 15
29. О.А.Ржешевский. Сталин и Черчилль, с.64
30. AR MDA, f.28, s.4, i.3, v.89-90
31. Переписка Председателя Совета Министров СССР с президентами США и премьер-министрами Великобритании во время Великой Отечественной Войны 1941-1945 гг. т.1, М., 1957, с.25
32. О.А.Ржешевский. Сталин и Черчилль, с. 129, 133
33. Н.И.Тюленева. Тени прошлого. - Военно-исторический архив, 2003, № 5, с.23-28
34. Военно-исторический архив, 2003, № 5, с.67-73
35. Там же, с.59-60; Ю.Горьков. Государственный Комитет Обороны постановляет, с.287
36. О.А.Ржешевский. Сталин и Черчилль, с. 188-189
37. Там же, с.209
38. Военно-исторический архив, 2003, № 5, с.62
39. AR MDA, f.28, s.4, i.3, v.14
40. Yenəorada, v.14-18
41. Yenə orada, v. 7-10
42. Yenə orada, v.13
43. Yenə orada,v. 10-11
44. Yenə orada, v.90
45. AR MDA, f.28, s.4, i.4, v.75-76
46. У.Черчилль. Вторая мировая война, том 3, Минск, 2003, с. 193
47. Yenə orada.
48. В.Н.Контевский. Россия-Турция: этапы торгово-экономического сотрудничества, с.99
49. Военно-исторический архив, 2003, № 5, с.64
50. AR MDA, f.28, s.4, i.3, v. 107-140
51. Yenə orada, v.94
52. Yenə orada, v.76-79
53. Yenə orada, v.63-75
54. AR SPİHMDA, f.l, s.89, i.82, v.28-32
55. У.Черчилль. Вторая мировая война, с.244
56. Gothard Jaechke. I və n. Dünya savaşlarında Türkiyenin Dış Politikası. Türkler, cilt 16, s.800
57. РОССИЯ И Черноморские проливы, с.455
58. Ramazan Çalık. Türk-Alman İlişkileri (1925-1945): Türkler, cilt 16,s.820

59. У.Черчилль. Вторая мировая война, с.246
60. R.Denniston. Shurchillin Gizli Savaşı. Diplomatik Yazışmalar, İngiliz Dış İşleri Bakanlığı ve Türkiye (1942-1944). İstanbul, 1998, s.143
61. E.Weisband. İkinci Dünya Savaşında İnönünün Dış Politikası. İstanbul, 1974, s. 160
62. Переписка Председателя Совета Министров... т.1, с.89-96
63. AR MDA, f.28, s.4, i.3, v.40
64. Yenə orada, v. 82-85
65. Россия и Черноморские проливы, с.457
66. AR MDA, f.28, s.4, i.4, v.131-132
67. Yenə orada, v.132, 139
68. Yenə orada, v.140
69. Yenə orada, v.141
70. Olaylarla Türk Dış Politikası, s.154
71. РОССИЯ И Черноморские проливы, с.458
72. Yenə orada, v.458-459
73. G.Jaechke. I və II. Dünya savaşlarında Türkiyenin Dış Politikası.Türkler, cilt 16, s.800
74. F.Armaoğlu. 2O.Yüzyıl Siyasi Tarihi. Genişletmiş 14. Baskı. s.412
75. G.Kamiran. Türk-Sovyet İlişkileri (1920-1953), TTK yayını, İstanbul,1991, s.257-258; F.Armaoğlu. 20.Yüzyıl Siyasi Tarihi, s.413
76. Московская конференция министров иностранных дел СССР, США и Великобритании (19-30 октября 1943 г.) М., 1978, с. 365-367
77. Ahmet Şükrü Esmer. Savaş içinde Türk Diplomasisi.- Çağdaş Türk Diplomasisi, 200 yıllık Sürec, s.349
78. Тегеран. Ялта. Потсдам. Сб.документов. М., 1967. с. 10
79. Тегеранская конференция руководителей трех союзных держав СССР, США и Векликобритании (28 ноября-1 декабря 1943 г.) М., 1984, с. 141
80. Тегеран. Ялта. Потсдам, с. 13
81. Yenə orada, v.16
82. Тегеран. Ялта. Потсдам, с. 15
83. Тегеранская конференция руководителей трех союзных держав..., с. 126
84. О.А.Ржешевский. Сталин и Черчилль, с.393-396
85. Yenə orada, v.141
86. H.F.Gürsel. Tarih boyunca Türk-Rus ilişkileri. İstanbul, 1968, s.218
87. AR MDA, f.28, s.4, i.3, v.94-95
88. Yenə orada, v.96
89. AR MDA, f.28, s.4, i.4, v.77-78
90. AR MDA, f.28, s.4, i.3, v.96
91. F.Armaoğlu. 2O.Yüzyıl Siyasi Tarihi, s.413

## IV Fəsil


1. Политбюро ЦК РКП(б) - ВКП(б) повестки дня заседаний. Том Ш. 1940-1952. М, 2001, с.241
2. RF XSA, f.06, s.6, q.l49[a], i.1071, v.4-6
3. Yenə orada, v.9-16
4. А.А.Данилов, А.В.Пыжиков. Рождение сверхдержавы: с.16-17
5. AR MDA, f.28, s.4, i.3, v.3-6
6. AR MDA, f.28, s.4, İ.3, v.28-37
7. Yenə orada, v.7-27
8. The National Security Archive (The NSA), Doc.3069
9. А.ТОПТЫГИН. Неизвестный Берия. М., 2002, с. 165; The National Securitu Archive, Doc.9077. Статистико-Экономический Атлас Крыма. Выпуск I. Симферeполь, 1922, с.9
10. RDSSTA, f.17, s.3, i.1053, v.9
11. Gürcüstan Prezidentinin Arxivi, f. 14, s.39, i.219, v. 1
12. А.Топтыгин. Неизвестный Берия, с. 167
13. AR SPİHMDA, f.l, s.89, i.154, № 1-8
14. Yenə orada, № 9
15. Россия и Черноморские проливы, с.464
16. Türkler, cilt 16, s.718
17. Россия И Черноморские проливы, с.465
18. ARMDA, f.28, s.4, i.3, v.81
19. Yenə orada, v.38
20. Переписка Председателя Совета Министров... т.1, с.24121. Yavuz Ozgüldür. Türk-Alman ilişkileri, 1923-1945. Ankara, 1993, s.163
22. İsmet İnönünün TBMM-dəki konuşmaları, ikinci cilt, s.51
23. The National Security Archive, Doc.R 9478, p.1-2
24. AR SPİHMBA, f.l, s.89, i.84, v.3-5
25. AR SPİHMDA,f.l, s.l29, i.80, v.2
26. RDSSTA, f.l7, s.9, i.l049, v.21
27. AR SPİHMDA, f.l, s.89, i.79, v.7
28. Н.И.Егорова. Истоки советско-американского соперничества в Иране и Турции, 1944-1945 гг. - Американский ежегодник, 1997. М., 1997, сЛЗЗ-134.
29. RF XSA, f.06, s.6, q.37, i.461, v.13-18
30. Дж.Гасанлы. Южный Азербайджан: начало холодной войны. Баку, 2003, с.54-71.
31. RF XSA, f.06, s.9, q.69, i.1071, v.27-29.
32. Н.И.Егорова. Формирование концепции Национальных интересов США на Ближнем и Среднем Востоке, 1944-1946.- США и внешний мир. Материалы IV научной конференции ассосиации изучения США, М., 1997, с.23

33. RF XSA, f.06, s.6, q.51, i.700, v.4
34. Биржа РШЗ, 2005, 14 января
35. Yenə orada, v.5-7
36. AR MDA, f.28, s.4, i.3, v.182
37. RF XSA, f.06, s.6, q.51, i.700, v.9-10
38. AR MDA, f.28, s.4, i.3, v.131
39. AR MDA, f.28, s.4, i.4, v. 1-12
40. О.А.Ржешевский. Сталин и Черчилль, с.417
41. Yenə orada, s.423-424; RF XSA. f.06, s. 9, q. 73, i. 1129, v. 1-2
42. Н.В.Кочкин. СССР, Англия, США и «Турецкий кризис» 1945-1947гг.- Новая и новейшая история, 2003, № 3, с.60
43. О.А.Ржешевский. Сталин и Черчилль, с.424; АВП РФ. Г.06, оп.9, п.73,д.П29, л.2-3
44. RF XSA, f.06, s.9, q.69, i.1071, v.31-88; f.06, s.6, q.14, i.149, v.1-59. Bu sənədin Rusiya Federasiyası Xarici Siyasət Arxivində bir neçə nüsxəsi vardır. Kiçik istisnalarla bütün nüsxələr eynidir.
45. Yenə orada, v.84-85
46. RF XSA, f.06, s.9, q.69, i.1071, v.87
47. RFXSA, f.06, s.6,q.l4, i.143, v.83
48. RF XSA, f.06, s.6, q.14, i.149, v.61
49. RF XSA, f.06, s.6, q. 14, i. 143, v.76
50. Yenə orada, v.82
51. Yenə orada, v.62
52. Yenə orada, v.62-63
53. Yenə orada, v.63
54. Yenə orada, v.63
55. Yenə orada, v.64
56. Yenə orada, v.65-66
57. Известия, 1944, 21 декабря
58. The National Security Archive, Doc.3785, 1/15/45, p.l
59. Н.В.Кочкин. СССР, Англия, США и «Турецкий кризис» 1945-1947гг, с.63
60. А.Ф.Миллер. Турция в 1924-1944 гг. М., 1945; Турция и проблемы Проливов. М., 1947; Краткая история Турции. М., 1948; Очерки новейшей истории Турции. М.Л., 1948.
61. The National Security Archive, Doc.3785, 1/15/45, p.2
62. İbid, p.2-5
63. RF XSA, f.015, s.5, q.8, i.9, v.39-40
64. RF XSA, f.012, s.6, q.91, i.376, v.141-149
65. F.Armaoğlu. Belgelerle Türk-Amerikan münasibetleri, s. 125

66. S.Deringil. Denge oyunu. İkinci Dünya savaşında Türkiyenin Dış Politikası. İstanbul, 1994, s.249-250.
67. AR MDA, f.28, s.4, i.22, v.2
68. Н.В.Кочкин. СССР, Англия, США и «Турецкий кризис» 1945-1947гг, с.63
69. Ю.Горькое. Государственный Комитет Обороны постановляет (1941-1945), с.457
70. AR MDA, f.28, s.4, i.22, v.
71. Советский Союз на международных конференциях периода Великой Отечественной войны, 1941-1945: Сб.документов. т.4. Крымская Конференция руководителей трех союзных держав-СССР, США и Великобритании (4-11 февраля 1945 г.) М., 1984, с.196-201. 72.
72. Yenə orada, v.263
73. AR MDA, f.28, s.4, i.22, v. 11-13
74. Yenə orada, v.17
75. ARMDA, f.28, s.4, i.3, v.131
76. AR MDA, f.28, s.4, i.22, v.60-76
77. AR MDA, f.28, s.4, i.22, v.3-9
78. RF XSA, f.06, s.7, q.464, i.33, v. 1-2
79. Foteign Relations of the United States (FRUS), 1945, vol.VIII, the Near East and Africa. Washington, 1969, p-1219
80. RF XSA, f.132, s.30, q.109, i.7, v.l
81. Н.В.Кочкин. СССР, Англия, США и «Турецкий кризис» 1945-1947гг, с.63-64
82. RF XSA, f.132, s.30, q.109, i.7, v.2-3
83. FRUS, 1945, vol.VIII, p.1221-1223
84. FRUS, 1945, vol.VIII, p. 1224-1225
85. S.Deringil. Denge oyunu, s.252
86. FRUS, 1945, vol.VIII, p.1232
87. FRUS, 1945, vol.VIII, p.1233-1234
88. AR MDA, f.28, s.4,i.22, v.103
89. Yenə orada, v.105
90. Yenə orada, v. 180-181
91. RF XSA, f.132, s.30, q.109, i.9, v.2-6

**V Fəsil**

1. Olaylarla Türk Dış Poilitikası. Ankara, s.192
2. Холодная война. 1945-1963 гг. Историческая ретроспектива: Сб. | ст. Отв.ред.Н.И.Егорова, А.О.Чубарьян. М., 2003, с.36
3. AR SPİHMDA, f.l, s.89, i.106, v.8-10
4. AR SPİHMDA, f.l, s.89, i.104, v.1-3
5. AR SPİHMDA, f.l, s.89, в.90, v.4-6

6. AR MDA, f.28, s.4, i.22, v.213
7. Türkler, cilt 16, s.723
8. AR MDA, f.28, s.4, i.23, v.316
9. Ermənistan Respublikası Mərkəzi Dövlət İctimai Siyasi Təşkilatların Sənədləri Arxivi (Ermənistan Respublikası MDİSTSA), f.l, s.034,i.27, v.18-20
10. Yenə orada, v.21-22 .
11. AR MTN Arxivi, i.862, c.l,v.55
12. Yenə orada, v.54
13. Yenə orada, III hissə, v.59
14. RF XSA, f.094, s.31, q.353[a], i.64, v. 103-116
15. Rusiya Federasiyası Dövlət Arxivi (RFDA), f.9401, s.2, i.94, v.61
16. Ermənistan Respublikası MDİSTSA, f. 1, s.34, i.28, v.45-53
17. Yenə orada, v.54-64
18. Ermənistan Respublikası MDİSTSA, f.l, s.26, i.47, v.190-191
19. AR MDA, f.28, s.4, i.22. v. 117-120
20. Erkin Feridun Cemal. Dış işlerinde..., 147-149; Zubak V., Pleshakov C. İnside the Kremlins Cold War. From Stalin to Khrushchev.
Harvard University Press, 1996, p.91
21. RF XSA, f.06, s.7, q.2, i.31, v.l
22. RF XSA, f.015, s.5, q.8, i.8, v.4
23. RF XSA, f.06, s.7, q.47, i.756, v.55
24. Н.И.Егорова. Истоки Советско-Американского Соперничества в Иране и Турции, 1944-1945, с. 138
25. RF XSA, f.015, s.5, q.8, i.8, v.8-9
26. RFXSA, f.06, s.7, q.2, i.31, v.1-2
27. Yenə orada, v.2-4
28. Yenə orada, v.5-6
29. Н.И.Егорова. Истоки Советско-Американского Соперничества в Иране и Турции, 1944-1945, с.138
30. RF XSA, f.06, s.7, q.2, i.31,v.728
31. Yenəorada, v.9-11
32. Yenə orada, v. 19-20
33. FRUS, 1945, vol.VIII, p.1234
34. FRUS, 1945, vol.VIII, p.1235
35. FRUS, 1945, vol.VIII, p.1236
36. AR MDA, f.28, s.4, i.3, v.38
37. Yenə orada, v.81
38. AR MDA, f.28, s.4, i.22, v. 144-145
39. AR MDA, f.28, s.4, i.23, v.82
40. Yenə orada, v.99
41. RF XSA, f.094, s.36[b], q.3, İ.357, v.27

42. Yenə orada, v.52
43. RF XSA, f.06, s.7, q.2, i.31, v.30-31
44. Yenə orada, v.31-32
45. Yenə orada, v.32
46. RF XSA, f.0132, s.36v, q.325, i.l, v.8-9
47. RF XSA, f.06, s.7, q.2, i.31, v.32-33
48. Yenə orada, v.34-35
49. Yenə orada, v.36
50. Yenə orada, v.37-38
51. Холодная война. 1945-1963гг. Историческая ретроспектива, с.54
52. Н.И.Егорова. Истоки Советско-Американского соперничества в Иране и Турции, 1944-1945, с. 139, Н.В.Кочкин. СССР, Англия, США и «Турецкий кризис» 1945-1947, с.65
53. Холодная война. 1945-1963гг. Историческая ретроспектива, с.39
54. AR MDA, f.28, s.4, i.23, v. 105-106
55. Yenə orada, v.107-110
56. Вертикали истории, 2003, № 5, с. 109-110
57. RF XSA, f.06, s.7, q.2, i.31, v.76
58. AR MDA, f.28, s.4, i.23, v.lll -
59. Yenə orada, v.98
60. Совестко-турецкие отношения: история, современное состояние и перспективы. М., 2003, с.59
61. RFXSA, f.06, s.7, q.25, i.307, v.l
62. Н.В.Кочкин. СССР, Англия, США и «Турецкий кризис» 1945-1947 гг., с.64
63. RF XSA, f.0431, s.l, q.8, i.50,v.2-3
64. Yenə orada, v.4-5
65. Yenə orada, v.6
66. Yenə orada, v. 12-13
67. Olaylarla Türk Dış Poilitikası, s. 194-195
68. F.Armaoğlu. Belgelerle Türk-Amerikan münasibetleri, s. 128-139.
69. RF XSA, f.06, s.7, q.2, i.31,v.75-76
70. Берлинская (Потсдамская) конференция руководителей трех союзных держав - СССР, США и Великобритании (17 июля-2 августа 1945 г.). Сборник документов. М., 1984, с.37-38.
71. Россия и Черноморские проливы, с.471
72. Берлинская (Потсдамская) конференция руководителей трех союзных держав - СССР, США и Великобритании, с.134-135.
73. Yenə orada, v. 135-136
74. Yenə orada, v.136
75. Yenə orada, v.326-327
76. Yenə orada, v. 136-137

77. Э.Л.Мелконан. Между двумя мирами. Пути политической адаптации армянской диаспоры - Вертикал истории, 2003, № 5, с.78
78. Ermənistan Respublikası MDİSTSA, f.l, s.034, i.27, v.33-36
79. Yenə orada, v.37-39
80. Yena orada, v.25-27
81. Ermənistan Respublikası MDİSTSA, f.l, s.26, i.47, v.40-43
82. Берлинская (Потсдамская) конференция руководителей трех союзных держав - СССР, США и Великобритании, с. 148-149.
83. Yenə orada, v.150-151
84. Российско-турецкие отношение: история, современное состояние и перспективы, с.60
85. FRUS, 1945, vol.VIII, p.1236
86. Берлинская (Потсдамская) конференция руководителей трех союзных держав - СССР, США и Великобритании, с.444
87. Olaylarla Türk Dış Poilitikası, s. 196
88. V.Zubok, C.Pleshakov. Inside the Kremlinvs Cold War.From Stalin to Khrushcher, p.92
89. Россия и Черноморские проливы, с.472
90. AR MDA, f.28, s.4, i.28, v.6-7
91. Yenə orada, v.9-10
92. AR MDA, f.28, s.4, i.23, v.4-5
93. Yenə orada, v.5-6
94. Yenə orada, v.7-11
95. Yenəorada, v.13
96. Yenə orada, v.9
97. RF XSA, f.06, s.7, q.47, i.762, v.1-8
98. Yenə orada, v. 19-20
99. FRUS, 1945, vol.VIII, p. 1239-1241 ,
100. Ibid, p. 1241-1242
101. Ibid, p. 1242-1243
102. Ibid,p. 1243-1245
103. Ibid, p. 1245-1246
104. RF XSA, f.0431, s.l, q.8, i.50,v.l6
105. Yenə orada, v.24-25
106. Н.В.Кочкин. СССР, Англия, США и «Турецкий кризис» 1945-1947 гг., с.67-68
107. S.Deringil. Denge oyunu, s.255
108. FRUS, 1945, vol.VIII, p. 1248-1249
109. Ibid, p.1251
110. Ibid, p.1252
111. Ibid, p.1251-1252
112. AR MDA, f.28, s.4, i.24, v. 143-146

113. Yenə orada, v.147
114. Yenə orada, v.166
115. FRUS, 1945, vol.VIII, p.1260
116. Ibid, p.1255
117. Ibid, p.1265-1266; ЦГА АР, ф.28, оп.4, д.46, л.5-6
118. RF XSA, f.06, s.7, q.46, i.734, v.13
119. Н.И.Егорова. Истоки Советско-Американского соперничества в Иране и Турции, 1944-1945, с.139
120. FRUS, 1945, vol.VIII, p. 1278-1279
121. Российско-турецкие отношение: история, современное состояние и перспективы, с.61
122. FRUS, 1945, vol.VIII, p. 1275-1276
123. AR MDA, f.28, s.4, i.47, v.45-50
124. AR MDA, f.28, s.4, i.46, v.6
125. RF XSA, f.06, s.7, q.184, i.18, v.64

**VI Fəsil**

1. Н.В.Кочкин. СССР, Англия, США и «Турецкий кризис» 1945-1947 гг., с.66
2. V.Zubok, C.Pleshakov. Inside the Kremlins Cold War.From Stalin to Khrushcher, p.92-93
3. RF XSA, f.0132, s.36, q.324, i.5, v.11-12
4. RDSSTA, f.17, s.162, i.39, v.41
5. RF XSA, f.094, s.31, q. 351[a], i.6, v.27-28
6. AR MTN-nin Arxivi, i.862, c.3, IV hissə, v. 1-7
7. RF XSA, f.06, s.7, q.47, i.762, v. 13-18
8. Gürcüstan Prezidentinin Arxivi, f. 14, s.19, i.209, v.49-50
9. RF XSA, f.032, s.366, q.325, i.l, v.9-10
10. Gürcüstan Prezidentinin Arxivi, f.14, s.19, i.209, v.51
11. Yenə orada, v.54-57
12. Г.Мамулиа. Грузия в первые годы холодной войны (неизвестные страницы Иранского и Турецкого кризиса 1945-1947гг.) - Вертикали истории, 2003, № 5, с.70
13. Gürcüstan Prezidentinin Arxivi, f.14, s.19, i.209, v.24-25
14. Yenə orada, v.27-29
15. Yenə orada, v.52-54
16. С.Берия. Мой отец Берия. В коридорах Сталинской власти. М, 2002, с.256-257
17. Rusiya Federasiyası Müasir Sənədlərin Saxlanması Mərkəzi, f.2, s.l,İ.161.V.224
18. ARMDA, f.28, s.1,i.42, v.34

19. Gürcüstan Prezidentinin Arxivi, f. 14, s. 19, i.209, v.30-37
20. AR MDA, f.28, s.4, i.24, v. 118-119
21. Gürcüstan Prezidentinin Arxivi, f.14, s.19, i.209, v.52
22. Yenə orada, v.44-45
23. Gürcüstan Prezidentinin Arxivi, f.14, s.20, i.253, v. 119-120
24. Г.Мамулиа. Грузия в первые годы холодной войны, с.63
25. С.Берия. Мой отец Берия, с.257
26. Yenə orada, v.258
27. А.Мгеладзе. Сталин каким я его знал. Страницы недавнего прошлого. Тбилиси, 2001, с.61-62
28. А.Б.Широкорад. Русско-турецкие войны, с.731
29. Ermənistan Respublikası MDİSTSA, f. 1, s.034, i.27, v.54-56
30. Yenə orada, v.73-75
31. RDSSTA, f.l7,s.l62, i.37, v.158
32. RDSSTA, f. 17, s.3, i. 1054, v.32
33. RDSSTA, f. 17, s.3, i. 1056, v.44-46
34. AR MDA, f.28, s.l,i.58,v. 143-145
35. AR MDA, f.28, s.l,i.5, v.136-141
36. Gürcüstan Prezidentinin Arxivi, f.14, s.19, i.209, v.23-24
37. AR MDA, f.28, s.l, i.81, v.3; Əlavə məlumat üçün bax: M.Qasımov.Xarici dövlətlər və Azərbaycan, s. 171-174
38. Ermənistan Respublikası MDİSTSA, f.l, s.26, i.47, v. 161-162
39. FRUS, 1945, vol.VIII, p. 1248
40. FRUS, 1945, vol.VIII,p. 1254
41. FRUS, 1945, vol.VIII, p.1256
42. FRUS, 1945, vol.VIII, p.1257
43. FRUS, 1945, vol.VIII, p.1258, 1282
44. AR SPİHMDA, f.l, s.89, i.95, v.174-175, 181
45. Yenə orada, v. 198, 208-209
46. RDSSTA, f.17, s.162, i.39, v.31
47. FRUS, 1945, vol.VIII, p.1260-1262
48. FRUS, 1945, vol.VIII, p.1263
49. FRUS, 1945, vol.VIII, p. 1268
50. AR MDA, f.28, s.4, i.47, v.4-6
51. Yenə orada, v.6-8
52. Yenə orada, v.8-10
53. Yenə orada, v. 10-12
54. FRUS, 1945, vol.VIII, p.1272
55. AR MDA, f.28, s.4, i.46, v.23
56. Yenə orada, v.25
57. AR MDA, f.28, s.4, i.47, v.21-22
58. Yenə orada, v.23-24

59. AR MDA, f.28, s.4, i-46, v. 10-13
60. Yenəorada, v.18-19
61. FRUS, 1945, vol.VIII, p.1276-1277
62. AR SPİHMDA, f.l, s.89,i.121, v.4
63. ARSPİHMDA, f.l,s.89, i.97, v.165
64. ARSPİHMDA, f.l, s.89, i.101, v.141
65. RDSSTA, f.17, s.162, i.37, v.158
66. RF XSA, f.094, s.31, q.35[a], i.6, v.51-52
67. AR MDA, f.28, s.4, i.46, v. 134-137
68. Yenə orada, v. 102-105
69. ARSPİHMDA, f.l, s.89, i.90, v.137
70. AR MTN-nin Arxivi, i.298, v.73
71. AR MDA, f.28, s.4, i.47, v.78-79
72. «Танин», 1945, 3 декабря
73. AR MDA, f.28, s.4, i.3, v.131-132
74. AR MDA, f.28, s.4, i.47, v.31
75. RDSSTA, f.17, s.162, i.43, v.144
76. «Танин», 1945, 3 декабря
77. «Тасвир», 1945, 4 декабря
78. AR MDA, f.28, s.4, i.47, v.36
79. Yenə orada, v.50
80. RF XSA, f.132, s.30, q.109, i.7, v.9-10
81. К.Н.Брутенц. Тридцать лет на старой площади. М., 1998, с.509
82. См: Преступления армянский террористических и бандитских формирований против человечества (Х1Х-ХХ вв.) Баку, 2002,
83. FRUS, 1945, vol.VIII, p. 1284-1285
84. AR MDA, f.28, s.4, i.47, v.52-55
85. AR MTN-nin Arxivi, i.862,I hissə, v.289-290
86. Yenə orada, v.313
87. FRUS, 1945, vol.VIII, p.1283-1284
88. AR MDA, f.28, s.4, i.47, v.62-64
89. Gürcüstan Prezidentinin Arxivi, f.14, s.20, i.253, v.63-64
90. «Известия», 1945, 20 декабря
91. С.Берия. Мой отец Берия, с.256-257
92. «Известия», 194593. Gürcüstan Prezidentinin Arxivi, f.14, s.20, i.253, v.33
94. Yenə orada, v.37
95. FRUS, 1945, vol.VIII, p.496-497
96. See: James F.Byrnes. Speaking Frankly, New-York and London, 1947, p.118-121

97. Bruce R.Kuniholm. The Origins of the Cold War in the Hear East-Great Power Conflict and Diplomacy in Iran, Turkey, And Greece.
Princeton. 1980. p.285-287
98. CoBeTCKO-aMepHKaHCKHe OTHOUICHHH. 1945-1948. Uop, pep,. T.H.Ce-
Советско-американские отношения. 1945-1948. Под ред. Г.Н.Се-
востьянова. (Россия. XX век. Документы), М., 2004, с.134-135
99. См: А.А.Данилов, А.В.Пыжиков. Рождение сверхдержавы, с.26
100. Ayşegül Sever. Soğuk savaş kuşatmasında Türkiye, Batı və Orta Doğu 1945-1958. İstanbul, 1997, s.31
101. Н.И.Егорова. ИСТОКИ Советско-Американского соперничества в Иране и Турции, 1944-1945 гг., с. 143
102. Türkiye Böyük Millet Meclisi Tutanak Dergisi. Ardahan meselesi TBMM'de/Aralık 1945, s.367-370
103. AR MDA, f.28, s.l, i.81, v.1-2
104. Türkiye Böyük Millet Meclisi Tutanak Dergisi. Ardahan meselesi TBMM'de/Aralık 1945, s.370-371
105. Türkiye Böyük Millet Meclisi Tutanak Dergisi, Aralık 1945, s.372-373
106. FRUS, 1945, vol.VIII, p.1285-1286
107. Ibid,p.l286
108. Ibid,p.l287
109. Ibid,p. 1288-1289
110. FRUS, 1946, vol.VII. Wash.(D.C), 1969, p.804
111. Ayşegül Sever. Soğuk savaş kuşatmasında, s.31-32
112. Gürcüstan Prezidentinin Arxivi, f.14, s.20, i.253, v.64
113. Yenə orada, v.62
114. Yenə orada, v.66
115. "Tanin", 1945, 21 dekabr
116. AR MDA, f.28, s.4, i.47, v.55-56
117. Gürcüstan Prezidentinin Arxivi, f.14, s.20, i.253, v.66-68
118. AR MDA, f.28, s.4, i.47, v.56-58
119. Gürcüstan Prezidentinin Arxivi, f.14, s.20, i.253, v.69-72
120. "Vakıt", 1945, 28 dekabr
121. Gürcüstan Prezidentinin Arxivi, f.14, s.20, i.253, v.72, 68
122. Yenə orada, v.76-78
123. Türkiye Böyük Millet Meclisinin Tutanak Dergisi, Aralık 1945, s.385-387
124. Gürcüstan Prezidentinin Arxivi, f. 14, s.20, i.253, v.80
125. Türkiye Böyük Millet Meclisinin Tutanak Dergisi, Aralık 1945, s.387-388
126. Gürcüstan Prezidentinin Arxivi, f. 14, s.20, i.253, v.81-82
127. Yenə orada, v.84-85

**VII Fəsil**


1. AR MDA, f.28, s.4, i.47, v.208
2. Yenə orada, v.217
3. Yenə orada, v.137
4. Yenə orada, v.138
5. Gürcüstan Prezidentinin Arxivi, f.14, s.20, i.283, v.74-75; AR MDA,f.28, s.4, i.47, v. 138-139
6. Gürcüstan Prezidentinin Arxivi, f.14, s.20, i.253, v.75; AR MDA, f.28,s.4, i.47, v.140
7. AR MDA, f.28, s.4, i.47, v. 154-174
8. FRUS, 1946, vol.VII, p.806-807
9. FRUS, 1946, vol.VII, p.807-808
10. AR MDA, f.28, s.4, i.47, v.186-188; Kommunist, 1939, 1 noyabr
11. FRUS, 1946, vol.VII, p.809
12. AR MDA, f.28, s.4, i.47, v.216
13. Yenə orada, v.200-202
14. FRUS, 1946, vol.VII, p.809-811
15. Yearbook of the United Nations. 1946-1947. New-York, 1947, p.329
16. AR MDA, f.28, s.4, i.47, v.204
17. RF XSA, f.094, s.37e, q.l, i.362, v.1-7
18. A.A.fl,aHHnoB, A.B.IlbDKHKOB. PccscaeHHe CBepxflepacaBbi, c.27-28
19. RF XSA, f.094, s.37e, q.l, i.362, v.31
20. RF XSA, f.094, s.37e, q.l, i.362, v.25-27
21. Yenə orada, v.52
22. AR MDA, f.28, s.4, i.49, v.59-60
23. Yenə orada, v. 164-165
24. AR SPİHMDA,f.l, s.89, i.l26, v.60
25. RF XSA, f.094, i.37e, q.359[a] , i.65, v.69-71
26. AR MTN-nin Arxivi, i.862, cild 1, v.59
27. AR SPİHMDA, f.l,s.89, i.113, v.52
28. FRUS, 1946, vol.VII, p.810-813
29. FRUS, 1946, vol.VII, p.813-814
30. İbid, p.
31. "Pravda" 1946, 10 fevral.
32. Robert Donovan. Conflict and Crisis. New-York, 1977, p.187; Kross A.Samii. Truman Against Stalin in Iran: A Tale of Three Messages. Middle East Studies, Vol.23, Yanuary 1987, № 1, p.97
33. George F.Kennan. Memories, 1925-1950. Boston-Toronto, 1967,p.547-559; Mishael Polley. A Biography of George F.Kennan. Lewiston, 1990, p.29; Mr.The Sources of Soviet Condust, Foreign Affairs, 1947, Yuly, p.566-582
34. Truman S.Harry. Memories: 2 vols. New-York, 1955-1956, Vol.1, p.552

35. A.Sever. Soyuk Savaş kuşatmasında Türkiye, Batı ve Orta Doğu,1945-1958, c
36. "Pravda" 1946, 28 fevral.
37. Kommunist (Ermənistan Kompartiyası MK-nın orqanı), 1946,3 fevral.
38. Ermənistan Respublikası MDİSTSA, f. 1, s.27, i.47, v.55
39. Stanford J.Shaw. The Otto man Consus and Population, 1831-1914. Int. J.Middle East Study, September 1973, nu.3, 5, c.13 vdL.; S.Sonyel. The Great War and the tragedy of Anatolia. Ankara, 2000, p. 176
40. Jastin McCarthy. Ermeni Terrörizmi - Zehir ve Panzehir olaraq Tarih, Ottoman Archives Yıldız Collection The Armenian Question İ. İstanbul, 1989, s.74
41. Kommunist (Ermənistan Kompartiyası MK-nın orqanı), 1946,fevral.
42. Ermənistan Respublikası MDİSTSA, f. 1, s.26, i.47, v. 180-181
43. E.Исмаилов. Власть и народ, с.274
44. İzvestiya, 1946, 22 fevral.
45. RDSSTA, f.17, s.3, i.1056, v.45
46. A.Sever. Soğuk Savaş kuşatmasında Türkiye, Batı ve Orta Doğu,1945-1958, c.35
47. AR MDA, f.28, s.4, i.49, v.235-236
48. Ermənistan Respublikası MDİSTSA, f.l, s.26, i.47, v.188
49. FRUS, 1946, vol.VII, p.816-817
50. Ermənistan Respublikası MDİSTSA, f.l, s.26, i.47, v.182-183
51. FRUS, 1946, vol.VII, p.817-818
52. AR MDA, f.28, s.4, i.49, v.41-42
53. AR MDA, f.28, s.4, i.49, v.46-49
54. Yenə orada, v.49-50
55. R.Rossow. The Battle of Azerbaijan,1946.-Middle East Journal,Winter, 1956, p.17
56. FRUS, 1946, vol.VII, p.40
57. Kommunist, 1946, 12 mart.
58. Kommunist, 1946, 15 mart.
59. FRUS, 1946, vol.VII, p.342-345
60. R.Rossow. The Battle of Azerbaijan,1946, p.20-21
61. J.Shace. Acheson. The Secretery of State Who Created the American World. Simon Schuster, 1998, p.144
62. David Mc Cullough. Traman. New-York, 1992, p.144
63. FRUS, 1946, vol.VII, p.348
64. FRUS, 1946, vol.VII, p.818-819
65. AR MDA, f.28, s.4, i.49, v.108
66. RF XSA, f.06, s.8, q.60, i.1005, v.1-6

67. Ermənistan Respublikası MDİSTSA, f.l, s.28, i.47, v.184-185
68. List of Reccipts From Foreign Communists, 11.27.1939.-01.20.1976. R.9182
69. FRUS, 1946, vol.VII, p.821-822
70. AR MDA, f.28, s.4, i.49, v. 147-148
71. Ermənistan Respublikası MDİSTSA, f.l, s.28, i.47, v.163
72. Холодная война 1945-1963 гг. Историческая ретроспектива, с.54
73. AR SPİHMDA, f.l, s.89, i.112, v.39
74. См. Дж.Гасанлы. Южный Азербайджан: Начало холодной войны. Баку, 2003, с.268-274; А.Орлов. Тайная битва сверхдержав. М., 2000, с. 115
75. RF XSA, f.06, s.8, q.3, i.31, v.12-15
76. RF XSA, f.06, s.8, q.45,1.761, v.1-4
77. Ermənistan Respublikası MDİSTSA, f.l, s.286, i.47, v.91-95; AR MDA, f.28, s.4, i.50, v.12
78. FRUS, 1946, vol.VII, p.822-823
79. F.Harbutt. The Iron Curtain: Churchill, America, and the Origins of the Cold War.Oxford, 1983, p.273; FRUS, 1946, vol.VII, p.823
80. Первое письмо с «холодной войны».- Международная жизнь, 1990, № 11, с.152
81. Н.В.Кочкин. СССР, Англия, США и «Турецкий кризис» 1945-1947 гг., с.69-70
82. RF XSA, f.06, s.8, q.23, i.333, v.21-22
83. FRUS, 1946, vol.VII, p.824
84. AR MDA, f.28, s.4, i.50, v.95-97
85. FRUS, 1946, vol.VII, p.823-824
86. AR MDA, f.28, s.4, i.50, v.72-75
87. RF XSA, f.06, s.29, q.286, i.2, v.22-30
88. Türkiye Böyük Millet Meclisi Tutanak Dergisi, 1-31 Mayıs 1946, s.40
89. RF XSA, f.06, s.29, q.286, i.2, v.27-28
90. RF XSA, f.06, s.8, q.49, i.822, v.29
91. Gürcüstan Prezidentinin Arxivi, f.14, s.20, i.253, v.61-86
92. Ermənistan Respublikası MDİSTSA, f.l, s.26, i.47, v.l 19
93. Yenə orada, v. 178-194
94. AR MTN-nin Arxivi, i.862, cild 1, v.289
95. Ermənistan Respublikası MDİSTSA, f.l, s.26, i.47, v.188-189
96. Yenə orada, v.175-176
97. RFXSA, f.06, s.7, q.47, i.762, v. 13-14
98. Ermənistan Respublikası MDİSTSA, f.l, s.26, i.47, v.167-168
99. List of Reccipts From Foreign Communists, 11.27.1939.-01.20.1976. The National Security Archive, R 9182, R 9607

100. Ermənistan Respublikası MDİSTSA, f.l, s.26, i.47, v. 166-167,173-174
101. RF XSA, f.094, s.37, q.359[a], İ.65, v.71
102. AR MDA, f.28, s.4, i.49, v.120-121
103. AR MDA, f.28, s.4, i.50, v.273-284
104. RF XSA, f.06, s.29, q.286, i.2, v. 102
105. Труд, 1946, 15 iyun
106. FRUS, 1946, vol.VII, p.825
107. П.Судоплатов. Разведка и Кремль. М., 1997, с.3О9
108. AR SPİHMDA, f.l, s.35, i.209, v.13
109. AR SPİHMDA, f.l, s.41, i.133, v.30-31
110. Yenə orada, v.33-35
111. V.Zubok. SPY vs. SPY: the KGB vs. the SIA, 1960-1962. CWIHP Bulletin, 1994, Issue, 4, p.29
112. İbid, p.33
113. RFXSA, f.06, s.29, q.282, i.23, v.l 18-122
114. RF XSA, f.06, s.29, q.280, i.3, v. 1
115. FRUS, 1946, vol.VII, p.826-827
116. RFXSA, f.06, s.29, q.282, İ.23, v. 111-113
117. CIG, Office of Rescarch and Evaluation, ORE 1, "Soviet Foreign and Military Polisy", 23 Yuly 1946, p.66
118. İbid, p.71-72

**VIII Fəsil**

1. RF XSA, f.06, s.29, q.282, ı.23, v.3; AR MDA, f.28, s.4, i.50, v,15
2. RF XSA, f.132, s.30, q.109, i.9, v.l
3. RF XSA, f.132, s.30, q.111, i.37, v.1-10
4. Metin Toker. Tek Partiden çok Partiye. İstanbul, 1980, s.91
5. RF XSA, f.132, s.30, q.111, ı.37, v.1-7
6. Manchester Guardian, 1946, 15 Yanuary
7. Cumhuriyet, 1946, 11 Mayıs
8. F.Çolak. Türkiyede çok partili hayata geçiş de Demokrat parti (1945-1950).- Türkler, 16-cı cilt, s.777
9. AR MDA, f.28, s.4, i.50, v. 15-16
10. RF XSA, f.06, s.29, q.282, i.23, v.13
1.1. Yenə orada, v.111, 122
12. Yenə orada, v. 244-245
13. Yenə orada, v.249
14. AR MDA, f.28, s.4, i.3, v. 128
15. RF XSA, f.06, s.29, q.286, i.2, v.52-82
16. RF XSA, f.06, s.8, q.49, i.820, v.31-33

17. FRUS, 1946, vol.VII, p.830
18. İbid, p.830-833
19. İbid, p.833-834
20. İbid, p.835
21. İbid, p.837
22. Pravda, 1946, 11 avqust
23. Pravda, 1946, 17 avqust
24. Pravda, 1946, 19 avqust
25. FRUS, 1946, vol.VII, p.840-842
26. İbid, p.842
27. İbid, p.843-844
28. İbid, p.847-848
29. RFXSA, f.069, s.3O, q.100, i.27, v.16-17
30. RF XSA, f.06, s.8, q.6O, i.1005, v.7-10
31. RFXSA, f.06, s.8, q.49, i.820, v.13-20
32. RFXSA, f.06, s.8, q.60, i.1005, v.9-10
33. RFXSA, f.132, s.32, q.118,i.26, v.23-24
34. FRUS, 1946, vol.VII, p.856
35. İbid, p.855
36. İbid, p.857-858
37. RF XSA, f.06, s.8, q.49, i.822, v.9
38. Gürcüstan Prezidentinin Arxivi, f.14, s.19, i.209, v.90-98
39. Yenə orada, v.90
40. Yenə orada, v.91
41. RF XSA,f.06,s.29,q.282, İ.23, v.228
42. Yenə orada, v.229-230
43. Yenə orada, v.231-233
44. Yenə orada, v.234-238
45. FRUS, 1946, vol.VII, p.859
46. RF XSA, f.06, s.29, q.282, i.23, v.239-240
47. РОССИЯ И Черноморские проливы, с.479
48. А.Данилов и А.Пыжиков. Рождение сверхдержавы, с.29
49. RF XSA, f.06, s.8, q.60, i.1005, v. 11-12
50. RF XSA, f.06, s.8, q.49, i.817, v.45
51. RF XSA, f.06, s.8, q.49, i.817, v.132-136
52. Yenə orada, v. 136-141
53. Yenə orada, v. 118-119
54. FRUS, 1946, vol.VII, p.867-868
55. RFXSA, f.06, s.8, q.49, i.812, v.4-5
56. RF XSA, f.06, s.8, q.48, i.810, v.4
57. RF XSA, f.132, s.31, q.114, i.26, v.190-204
58. RF XSA, f.06, s.8, q.48, i.810, v.5-7

59. FRUS, 1946, vol.VII, p.894-896
60. RF XSA, f.06, s.29, q.282, i.23, v.277-281
61. Yenəorada, v.310-311
62. İsmet İnönünün TBMM-dəki konuşmaları, ikinci cilt, s.65-66
63. RF XSA, f.06, s.29, q.286, i.2, v.46
64. Yenə orada, v. 83-99
65. RF XSA, f.06, s.8, q.49, i.822, v.28-30
66. FRUS, 1946, vol.VII, p.898-899
67. İbid, p.898
68. RF XSA, f.06, s.29, q.280, i.3, v.2
69. RF XSA, f.0132, s.29[a], q.286, i.l, v.30-32
70. RF XSA, f.06, s.9, q.73, i.1129, v.31-37
71. RF XSA, f.06, s.9, q.69, i.1071, v.l
72. RDSSTA, f.17, s.3, i.1069, v.16
73. RDSSTA, f.l7,s.l62, i.39, v.41

## IX Fəsil

1. AR SPİHMDA, f.l, s.169, i.249,I hissə, v.11
2. AR SPİHMDA, f.l, s.226, i.54, v.28
3. ARSPİHMDA, f.l, s.169, i.249, I hissə, v.7
4. Bax: Dağlıq Qarabağ üzrə tarixi materiallar. AR SPİHMDA, f.l,s. 169, i.249, II hissə, v. 1-60
5. Н.И.Шавров. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам. С-Петербург, 1911, с.59-60
6. AR SPİHMDA, f.l, s.169, i.249, II hissə, v.50, 58
7. Yenə orada, v. 15-17
8. AR MTN-nin Arxivi, i.164, v.284-285
9. AR SPİHMDA, f.l, s.169, i.249,I hissə, v.8-9
10. Yenəorada, v.9-11
11. К.Н.Брутенц. Тридцать лет на старой площади. М., 1998, с.510
12. AR SPİHMDA, f.l, s.169, i.249,I hissə, v.11-12
13. Э.Исмаилов. Власть и народ. Послевоенный сталинизм в Азербайджане. 1945-1953 гг. Баку, 2003, с.293
14. М.Г.Сеидов. Общественно-политическая обстановка в Азербайджане в 1940-е начале 1950-4 годов. Рукопись книги, с. 27
15. AR SPİHMDA, f.l, s.169, i.248/1, v.3
16. Yenə orada, v.8-9
17. Yenə orada, v.1-2
18. AR SPİHMDA, f.l, s.226, i.54, v.27-37
19. AR SPİHMDA, f.l, s.169, i.245, Arayış N°8
20. Yenəorada, v.17-18

21. AR SPİHMDA, f.1, s.169, i.248/1, v.9
22. AR SPİHMDA, f.1, s.168, i.2, v.38-43
23. ARSPİHMDA, f.1,s.220, i.50, v.22-23
24. Ermənistan Respublikası MDİSTSA, f.1, s.27, i.47, v.304
25. Ermənistan Respublikası MDİSTSA, f.1, s.34, i.28, v.45-64
26. AR SPİHMDA, f.1, s.169, i.249/1, v.13-14
27. Yenə orada, v. 14-15
28. Коммунист (орган ЦК Компартии Армении), 1945, 20 октября
29. AR SPİHMDA, f.l, s.221, i.78, v.131-136
30. А.Данилов и А.Пыжиков. Рождение сверхдержавы, с.210-211
31. AR SPİHMDA, f.l, s.221, i.78, v.137
32. AR SPİHMDA, f.l, s.221, i.l, v.33-42
33. Ermənistan Respublikası MDİSTSA, f.l, s.27, i.47, v.53-55
34. Ermənistan Respublikası MDİSTSA, f.l, s.29, i.100, v.78
35. Ermənistan Mərkəzi Dövlət ən yeni tarix arxivi, f.326, s.l, i.156,v.73-74
36. Yenə orada, v.l
37. AR MTN Arxivi, i.862, cild 2, v.589
38. RF XSA, f.094, s.37, q. 359a, i.65, v. 177
39. AR MTN Arxivi, i.862, cild 2, v.585
40. İzvestiya, 1947, 28 oktyabr
41. AR SPİHMDA, f.l, s.35,1.161, v.39-40
42. Yenə orada, v.44-45
43. AR MDA, f.28, s.4, i.87, v. 169-171
44. AR MTN Arxivi, İ.862, cild 3, hissə III, v.173
45. AR MTN Arxivi, i.164, v.4-5
46. Yenə orada, v. 17-18
47. Yenə orada, v.20-22
48. Yenə orada, v.25-26
49. Rusiya Federasiyası Dövlət Arxivi (RFDA), f.9401, s.2, ı.97, v.139-142
50. RDSSTA, f.17, s.3, 1072, v.11
51. Е.Исмаилов. Власть и народ, с.295-297; A.Paşayey. Aşılmış səhifələrin izi ilə. Bakı, 2001, c. 167-169
52. AR SPİHMDA, f.l, s.222, i.48, v.1-2; Ermənistan Respublikası MDİSTSA, f.l, s.27, i.47, v.79-80
53. Политбюро ЦК РК П(б)-ВК П(б). Повестки дня заседаний. 1919-1952: Каталог, т.Ш, 1940-1952. М, 2001, с.498
54. AR SPİHMDA, f.l, s.89, i.120, v.77-78
55. Политбюро ЦК РК П(б)-ВК П(б), т.Ш, с.497
56. AR SPİHMDA, f.l, s.222, i.48, v. 14-15
57. Yenə orada, v.21

58. AR SPİHMDA, f.l, s.221, i.5, v.20-21
59. Yenə orada, v.22-23
60. Yenə orada, v.24-26
61. Yenə orada, v.27-29
62. Yenə orada, v.29-30
63. К.Н.Брутенц. Тридцать лет на Старой площади, с.510
64. AR SPİHMDA, f.l, s.245, i.2, v.10; s.241, i.3, v.239-242
65. RDSSTA, f.17, s.3, i.1072, v.11
66. Ermənistan Respublikası MDİSTSA, f.l, s.28, i.49, v.147
67. AR SPİHMDA, f.l, s.35, i.161, v.47-49
68. Yenə orada, v.50-54
69. AR SPİHMDA, f.l, s.35, i.9, v.563-571
70. AR SPİHMDA, f.l, s.35, i.127, v.11-13
71. AR SPİHMDA, f.l, s.221, i.78, v.2
72. Yenə orada, v.3-5
73. RDSSTA,f.l7, s.3, İ.1071,V.35
74. RDSSTA, f.17, s.3,i.lO74, v.69
75. AR SPİHMDA, f.l, s.35, i.127, v.95-98
76. AR SPİHMDA, f.l, s.221, i.78, v.64
77. AR SPİHMDA, f.l, s.35, i.127, v.100-101
78. Вертикали истории, 2003, № 5, с. 112
79. RDSSTA, f.17, s.12, İ.83, v.1-2, 87-89
80. RDSSTA, f.17, s.162, i.40, v. 140-141
81. Yenə orada, v.140
82. Политбюро ЦК РК П(б)-ВК П(б), т.Ш, с.566, 575
83. Gürcüstan Prezidentinin Arxivi, f.14, s.39, i.219, v.5
84. Вертикали истории, 2003, № 5, с. 113
85. AR MTN Arxivi, i. 164, v.84-88
86. RDSSTA, f.17, s.162, i.43, v.144
87. RDSSTA, f.17, s.162, i.47, v.28-29

## X Fəsil

1. AR MDA, f.28, s.4, i.82, v. 131-133
2. L.Wittner. American Intervention to Grecce, 1943-1949. New York,1982, p.85-86
3. AR MDA, f.28, s.4, i.82, v. 127-129
4. FRUS, 1946, vol.VII, p.898
5. Foreign Relations of the United States, 1947, Volume V, the Near East and Africa, Washinqton, 1971, p.2-3
6. RF XSA, f.06, s.30, q.287, i.2, v. 1
7. AR MDA, f.28, s.4, i.89, v.123, 169
8. RF XSA, f.06, s.30, q.287, i.2, v.20

9. Yenə orada, v.9-10
10. AR MDA, f.28, s.4, i.89, v.166
11. Yenə orada, v.4-6
12. RFXSA, f.06, s.30, q.287, i.2, v.16
13. Yenə orada, v.6
14. Yenə orada, v.73-76
15. A.Sever. Soğuk savaş kutlaşmasında, s.45
16. B.Kuniholm. The origins of the Cold war in the Near East, p.407
17. FRUS, 1947, vol.V, p.60-61
18. RF XSA, f.06, s.30, q.287, i.2, v.16, 21
19. AR MDA, f.28, s.4, i.84, v.4-7
20. Yenə orada, v.9, 64
21. FRUS, 1947, vol.V, p.88-89
22. İbid, p.90-91
23. A.Sever. Soğuk savaş kutlaşmasında, s.47
24. AR MDA, f.28, s.4, i.84, v. 10-11
25. Yenə orada, v.12-16
26. Yenə orada, v.61-63
27. RFXSA, f.06, s.9, q.69, i.1071, v.l
28. RF XSA, f.06, s.30, q.287, i.2, v.3-18
29. Yenə orada, v.2
30. Yenə orada, v.19
31. AR MDA, f.28, s.4, i.84, v.16
32. FRUS, 1947, vol.V, p. 111-113
33. AR MDA, f.28, s.4, i.84, v.56-57
34. RF XSA, f.06, s.30, q.287, i.2, v.33
35. RF XSA, f.06, s.9, q.73, i.1130, v.27, 38
36. Советско-Американские отношения. 1945-1948, с.415-41637. RF XSA, f.06, s.30, q.287, İ.2, v.21-34
38. Yenə orada, v.38-39
39. ARMDA, f.28, s.4, i.84, v.139-140
40. RF XSA, f.06, s.30, q.287, i.2, v.34
41. AR MDA, f.28, s.4, i.84, v.173-174
42. Yenə orada, v. 145-146
43. Yenə orada, v.201-202
44. RFXSA, f.06, s.9, q.73, i.1130, v.42
45. AR MDA, f.28, s.4, i.85, v.4-6
46. Yenə orada, v.56-57
47. RFXSA, f.06, s.9, q.69, i.1071, v.10
48. Yenə orada, v.9
49. Yenə orada, v.21-23; Olaylarla Türk diş politikası, s.216-219
50. AR MDA, f.28, s.4, i.85, v. 100-102, 107

51. RFXSA, f.06, s.30, q.287, i.2, v.85; Известия, 1947, 9 апреля
52. Правда, 1947, 12 июня
53. RF XSA, f.06, s.29, q.280, i.3, v.40-42
54. RF XSA, f.06, s.9, q.273, i.1130, v.3-51
55. Yenə orada, v.9
56. RF XSA, f.06, s.30, q.287, i.2, v.44-50
57. Olaylarla Türk diş politikası, s.219-222; A.Sever. Soğuk savaş kutlaşmasında, s.53-55
58. RF XSA, f.06, s.30, q.287, i.2, v.61
59. Yena orada, v.71-73
60. AR MDA, f.28, s.4, i.85, v.83-84
61. Yenə orada, v.109-116
62. Yenə orada, v.116-121
63. RF XSA, f.06, s.30, q.287, i.2, v. 108-120
64. Yenə orada, v.134
65. RF XSA, f.094, s.38, q.363, i.4, v.61
66. RF XSA, f.06, s.30, q.287, i.2, v.136
67. ARMDA, f.28, s.4, i.87, v.179-181
68. FRUS, 1947, vol.V, p.364-365
69. ARMDA, f.28, s.4, i.87, v.181
70. Известия, 1947, 24 октября
71. RFXSA, f.06, s.30, q.287, i.2, v.119
72. Известия, 1947, 24 октября
73. RF XSA, f.06, s.30, q.287, i.2, v.135
74. AR MDA, f.28, s.4, i.87, v. 169-171
75. Г.Адибеков. Коминформ и послевоенная Европа. М., 1994, с.53
76. Цит. по: А.Данилов и А.Пыжиков. Рождение сверхдержавы, с.52
77. AR MDA, f.28, s.4, i.87, v. 173-176
78. İsmet İnönünün TBMM-dəki konuşmaları, ikinci cilt, s.71-72
79. RF XSA, f.06, s.30, q.287, i.2, v.135
80. FRUS, 1947, vol.V, p.417-418
81. RFXSA, f.06, s.31, q.293, i.6, v.1-4
82. RF XSA, f.06, s.30, q.287, i.2, v. 140
83. RF XSA, f.06, s.9, q.73, i.1128, v.l
84. RF XSA, f.06, s.30, q.287, i.2, v.138

**XI Fəsil**

1. AR MDA, f.28, s.4, i.114, v.8, 11
2. Yenə orada, v.9
3. Yenə orada, v.92-96
4. The NSA; Doc.3085; А.Топтыгин. Неизвестный Берия. М., 2002, л. 170

5. RDSSTA, f.17, s.162, i.41, v.42; i.42, v.130
6. RDSSTA, f.17, s.162, i.39, v.31
7. AR MDA, f.28, s.4, i.114, v.13-19
8. AR MDA, f.28,s.4,i. 115, v. 12-14 ,
9. AR MDA, f.28, s.4, i.l14, v.86-88
10. Yenə orada, v.7
11. AR MDA, f.28, s.4, i.l15, v.37-39
12. RF XSA, f.06, s.31, q.293, i.4, v.1-2
13. AR MDA, f.28, s.4, i.115, v.6
14. Yenə orada, v.99-100
15. Yenə orada, v.164
16. Yenə orada, v.193
17. Yenə orada, v.194-195
18. AR MDA, f.28, s.4, i.116, v.90- 92
19. Yenə orada, v. 10-12
20. RF XSA, f.06, s.31, q.293, i.6, v.22
21. RDSSTA, f.17, s.162, i.39, v.41-42
22. AR MDA, f.28, s.4, i. 116, v.40
23. RF XSA, f.06, s.31, q.293, i.6, v.27-29
24. Yenə orada, v.25-26
25. Yenə orada, v. 15-16
26. AR MDA, f.28, s.4, i.116, v.102, 164
27. RF XSA, f.06, s.31, q.293,16, v.30;
28. AR MDA, f.28, s.4, i.118, v.4-11
29. AR MDA, f.28, s.4, i.119, v.78-80
30. Yenə orada, v.98-99
31. RF XSA, f.06, s.31, q.293, i.6, v.70
32. Yenə orada, v.123
33. AR MDA, f.28, s.4, i.142, v.40
34. RF XSA, f.06, s.31, q.293, i.6, v.120
35. AR MDA, f.28, s.4, i.142, v.42
36. AR MDA, f.28, s.4, i.146, v.4-8
37. A Report to the President by the National Security Council on US objectives with respect to Greece and Turkey to counter Soviet threats to US Security, march 22, 1949, Washington, p.8
38. RF XSA, f.06, s.32, q.300, i.7, v.33
39. AR MDA, f.28, s.4, i.142, v.134
40. AR MDA,f.28,s.4,143,v.6-7
41. Yenə orada, v.4-6
42. A Report to the President by the National Security councie on US objectives with respect to Greece and Turkey to counter Soviet threats to US Security, march 22, 1949, Washington, p.2-4

43. FRUS, 1950, the Near East, South Acia, and Africa. Vol. V, Washington, 1978, p.1238
44. AR MDA, f.28, s.4, i.143, v. 120-123
45. AR MDA, f.28, s.4, i. 170, v.46
46. AR MDA, f.28, s.4, i.145, v.111-112
47. RDSSTA, f.17, s.162, i.41, v.8
48. AR MDA, f.28, s.4, i.144, v.164-169
49. Yena orda, v. 133-137
50. RF XSA, f.06, s.32, q.300, i.5. v.2
51. RDSSTA, f.17, s.162, i.41, v.35
52. AR MDA, f.28, s.4, i.144, v.97-101
53. Yenə orada, v.l 14-130
54. RDSSTA, f.17, s.162, i.42, v.157
55. RDSSTA, f.17, s.3, i.1078, v.92
56. AR MDA, f.28, s.4, i.146, v.139-140
57. RF XSA, f.06, s.32, q.300, i.2. v.6
58. AR MDA, f.28, s.4, i.170, v.122-124
59. AR SPİHMDA, f.l, s.39, i.181, v.74-76
60. AR MDA, f.28, s.4, i.170, v.6-7
61. RF XSA, f.0132, s.36$^{v}$, q.325, ı.l, v.17
62. См. Е.Исмаилов. Власть и народ, с.278-279
63. AR SPİHMDA, f.l, s.225, i.15, v.395
64. AR SPİHMDA, f.l, s.39,i.181, v.80-81
65. ARSPİHMDA, f.l, s.37, i.165, v.15-17
66. AR MDA, f.28, s.4,i.l70, v.120, 123-124
67. Yenə orada, v.4-12
68. Yenəorada, v.80-81
69. AR MDA, f.28, s.4, i.172, v.6
70. Yenə orada, v.119
71. AR MDA, f.28, s.4, i.173, v.8
72. Türk parlamenti tarixi. TBMM-IX-dönəm. 1950-1954, I cild, s.176-177
73. AR MDA, f.28, s.4, i.173, v.11-12, 24
74. Yenə orada, v. 124-125
75. Mehmet Saray. Sovyet tehdidi karşısında Türkiyenin NATO-ya girişi. III.Cumhurbaşkanı Celal Bayann Hatıraları ve Belgeler. Ankara, 2000.s.95-97
76. Хронология основных событий кануна и начального периода Корейской войны (январь 1949-октябрь 1950 гг). По материалам Архива внешней политики России, л. 1-34
77. The NSA,Doc.9316
78. AR MDA, f.28, s.4, i.175, v.9

79. A.Sever. Soğuk Savaş kuşatmasında, s.65
80. AR MDA, f.28, s.4, i.174, v.29
81. Yenə orada, v.30-31
82. Yenə orada, v.20-26
83. RDSSTA, f.17, s.162, i.44, v.30
84. FRUS, 1950, vol.V, p.1312-1313
85. AR MDA, f.28, s.9, i.7, v.11
86. AR MDA, f.28, s.4, i.174, v.140-141
87. AR MDA, f.28, s.9, i.7, v. 14-20
88. Yenə orada, v. 107-116
89. AR MDA, f.28, s.9, i.8, v. 10-12
90. Mehmet Saray. Sovyet tehdidi karşısında Türkiyenin NATO-ya girişi,s.100
91. AR MDA, f.28, s.9, i.8, v.98
92. AR MDA, f.28, s.9, i.9, v.21-22
93. Yenə orada, v. 103-104
94. Yenə orada, v.9-14
95. Mehmet Saray. Sovyet tehdidi karşısında Türkiyenin NATO-ya girişi,s.105-106
96. A Report to the National Security Council by the Executive Secretaryon the position of the United States with respect to Turkey. May 11,1951, Washington, p.6, 15
97. Special Estimate/ Probable Soviet reaction to the inclusion of Greece and Turkey in Western Defense agreements. Central Intelligence Agency. 15 Yune, 1951, Washington, p.1-2
98. RDSSTA, f.17, s.3, i.1090, v.38
99. Yenə orada, v.67
100. RDSSTA, f.17, s.3, i.1091, v.266-267
101. RDSSTA, f.17, s.162, i.47, v.28
102. RF XSA, f.0132, s.36, q.324, i.5, v.l
103. Yenə orada, v.11-13

**Nəticə**

1. Gürcüstan Prezidentinin Arxivi, f.14, s.31, i.297, v.7
2. Генри Киссинджер. Дипломатия. М., 1997, с.406
3. Gürcüstan Prezidentinin Arxivi, f. 14, s.39, i.219, v.2
4. National Security Council. US Policy on Turkey, February 28, 1955,Top Secret, Washington, p.4
5. Ф.И.Чуев. СТО сорок бесед с Молотовым. М., 1991, с.102
6. Ф.И.Чуев. Молотов: полудержавный властелин. М., 2000, с. 147-148
7. Rusiya Federasiyası Müasir Sənədlərin Saxlanması Mərkəzi, f.2, s.l,i.161, v.223-224

8. МОЛОТОВ, Маленков, Каганович 1957. Стенограмма июньского пленума ЦК КПСС и другие документы. Под ред. акад. А.Н.Яковлева. М., 1998, с.473
9. В.Н.Коптевский. Россия-Турция: этапы торгово-экономического сотрудничества, с. 120
10. Э.Мелконян. Между двумя мирами Пути политической адаптации Армянской диаспоры.- Вертикал История, 2003, № 5, с.82-83
11. Е.Ю.Зубкова. Власть и развитие этноконфликтной ситуации в СССР 1953-1985 годы. - Отечественная история, 2004, №4, с.21-22
12. Milliyet, 1967, 14 Ekim
13. Заседание Политбюро ЦК КПСС, 21 февраля 1985 года. Сов. секретно.экз.единствен. (рабочая запись). The NSA, Doc.К 10045, p. 13-20

## MÜNDƏRİCAT

**GİRİŞ**...........................................................................................3

**I FƏSİL**. İkinci Dünya müharibəsi ərəfəsində Sovet-Türkiyə münasibətlər.........................................................................12

**II FƏSİL**. Dünya müharibəsinin birinci rnərhələsində Sovet-Türkiyə münasibətlərinin əsas istiqamətləri...........................39

**III FƏSİL.** SSRİ-Türkiyə: arzu olunan bitərəflikdən gözlənilməyən tələblərə doğru..................................................72

**IV FƏSİL**. Dünya müharibəsinin sonunda müttəfiqlərin Türkiyəyə təzyiqi və Sovet təhlükəsinin artması............................107

**V FƏSİL**. Türkiyəyə qarşı Sovet iddiaları və əsəb savaşının başlanması.....................................................147

**VI FƏSİL**. Güney Qafqaz respublikaları və Türkiyə: soyuq müharibənin cazibəsində................................................209

**VII FƏSİL**. Sovet təzyiqlərinin güclənməsi və Türkiyənin ABŞ-a meyllənməsi...................................................274

**VIII FƏSİL**. Boğazlarla bağlı Sovet planları və onların iflasa uğraması.................332

**IX FƏSİL**. Əsəb savaşının Güney Qafqaza keçməsi...................................372

**X FƏSİL**. Trümen doktrinası və Sovet təhdidinin güclənməsi.........................413

**XI FƏSİL**. Türkiyənin NATO-ya daxil olması...........................................452

**NƏTİCƏ** .........................................................................................501

**QAYNAQLAR** ..................................................................................510

Cəmil Həsənli
(*Həsənli Cəmil Poladxan oğlu*)

**SSRİ-Türkiyə:**
**Soyuq müharibə nin sınaq meydanı**

*Dizayner:*
*Zaur Qafarzadə*

*Tərtibatçı:*
*Ceyhun Zakiroğlu*

Yığılmağa verilmişdir: 23.03.2005
Çapa imzalanmışdır: 20.04.2005
Kağız formatı: 60x90 $^{1}/_{16}$
H/n həcmi: 34 ç.v.
Sifariş: 64
Sayı: 500

Kitab **"Adiloğlu" MMC**-nin mətbəəsində
hazır diapozitivlərdən istifadə olunmaqla
ofset üsulu ilə çap edilmişdir.

Ünvan: Bakı şəh.,
Ü.Hacibəyov küç., 38/3
Tel: 498-68-25; faks: 498-08-14